AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

FƏLSƏFƏ VƏ SİYASİ-HÜQUQİ TƏDQİQATLAR İNSTİTUTU

POLİTOLOGİYA :

ENSİKLOPEDİK LÜĞƏT

Azərbaycan Respublikası Prezidentinin
İşər şöbəsi
PREZİDENT KİTABXANASI

BAKI - 2008

ELMİ REDAKSİYA ŞURASI

Sədr: Fəlsəfə elmləri doktoru, professor Y. Rüstəmov
Sədr müavini: fəlsəfə elmləri doktoru, professor Ə.Tağıyev

Şura üzvləri: İ.Ü.Vəliyev (filologiya elmləri doktoru, professor); İ.R.Məmmədzadə (fəlsəfə elmləri doktoru), V.M.Arzumanlı (filologiya elmləri doktoru, professor); K.Y.Muxtarov (tarix elmləri namizədi, qrup rəhbəri), H. Dayızadə (qrup rəhbəri), B.Zahidov (hüquq elmləri doktoru).

Əsas müəlliflər: Z.Abıyeva, Ə.Vəliyev, H.Dayızadə, N.Ələkbərli, E.Əfəndiyev, V.Musayev, K.Muxtarov, N.Məhərrəmov, A.Naxçıvanlı, Ş.Novruzov, N.Rizvanov, Ə.Tağıyev, V.Arzumanlı, İ.Vəliyev.

Baş redaktor: İsmayıl Vəliyev
İxtisas redaktoru: Əlikram Tağıyev
Redaktor: Telman Quliyev
Məsul katib: Kamilə Qasımova

Rəyçilər: f.e.d. S. Hüseynov, f.e.d. R.Mirzəzadə, s.e.n. İ.Ağayev.

Politologiya. Ensiklopedik lüğət. AMEA-nın Fəlsəfə və siyasi hüquqi tədqiqatlar institutunun Elmi şurasının 17 oktyabr 2007-ci il tarixli iclasının (protokol № 10) qərarı ilə çap olunmuşdur.

Politologiya. Ensiklopedik lüğət. -Bakı: "Günəş" nəşriyyatı, 2008

Bu gün cəmiyyətimizdə siyasi proseslərin dinamik inkişafı, siyasi fəaliyyətdə hər kəsin iştirak edə bilməsi, insanların əsl mə`nada tarixin uğurlu yaradıcılarına çevrilməsi imkanlarının genişləndiyi bir şəraitdə siyasət elminə - politologiyaya da maraq xeyli artmışdır. Bu sahədə Azərbaycan dilində ədəbiyyat azlığından yaranmış boşluğu doldurmaq üçün ilk addım kimi siyasətin və hakimiyyətin bütün problemlərini əhatə edən "Politologiya. Ensiklopedik lüğət"i oxuculara təqdim olunur. Kitabda politologiya elminin tədqiqat obyektləri ilə bağlı ümumi mə`lumatlarla yanaşı, gündəlik həyatda baş verən siyasi proseslər barədə ən müxtəlif suallara da cavab tapmaq mümkündür.

Lüğət müəllimlər, aspirantlar, tələbələr, eləcə də siyasətlə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

P 0802000000 / M 657 – 97 38 - 97

ISBN 5 - 89600 - 204 – 1

ÖN SÖZ

Azərbaycanın müstəqilliyə nail olması, dünya ölkələri sistemində öz yerini tutması və beynəlxalq fəaliyyət sahələrinin yeniləşməsi XXI əsrin əvvəlindən beynəlxalq arenada öz yerini tutması, bütün sahələrdə nüfuzunun artması, müstəqil siyasətin yeridilməsi yeni müstəqil milli ideologiyanın yaradılması zəruriliyini irəli sürdü. Tarixi təcrübələr göstərir ki, ümumdünya siyasi dəyərlərini bilmədən, siyasi münasibətləri, dövlətin idarəçilik sistemini, hakimiyyətin idarə olunması yollarını və prinsiplərini, ayrı-ayrı siyasi qurumlarla əlaqələri, dövlətin iqtisadi və siyasi inkişaf qanunauyğunluqları ilə tanış olmadan, müxtəlif cəmiyyətlərin fəaliyyəti və inkişafının siyasi qanunauyğunluqlarını öyrənmədən, ayrı-ayrı xalq, millət, sinif, partiya, sosial qrup və şəxsiyyətlərin hakimiyyətə və dövlətə münasibətlər prinsipinə bələd olmadan və s milli ideologiyanın yüksək səviyyədə hazırlana biləcəyinə ümid etmək çətindir.

Azərbaycanın dünya ölkələri ilə əlaqələrinin genişlənməsi və möhkəmlənməsi, beynəlxalq münasibətlər sistemində öz nüfuzlu yerini tutması və müstəqil siyasət yeritməsi siyasi biliklərin əhali arasında daha geniş yayılmasını tələb edir, həmçinin daxili və xarici siyasət məsələlərinin incəliklərinə, onların yaradıcılıqla tətbiqinə diqqəti daha da artırır. Beynəlxalq əlaqələrin, yeni iqtisadi və siyasi müqavilələrin başlanması, dövlətlərarası münasibətlərin, diplomatik əməkdaşlığın genişlənməsi də bu sahədə yeni və zəngin təcrübələrin öyrənilməsini tələb edir. Bundan başqa, müasir dövrdə cəmiyyət həyatının hərtərəfli siyasiləşməsi, siyasətin və siyasi fəaliyyətin az qala gündəlik fəaliyyət normasına çevrilməsi, əhalinin siyasi savad səviyyəsinin yüksəlməsi də siyasəti hamının başa düşə biləcəyi ictimai münasibətlərə çevirmək üçün daha geniş per-

spektivlər açır.

Politologiyanın tarixi və nəzəri məsələlərini öyrənən mütəxəssis alimlər haqlı olaraq qeyd edirlər ki, keçmiş sosialist birliyi ölkələrində, o cümlədən də Azərbaycanda uzun müddət kommunist ideologiyanın hökmranlığı əslində siyasət haqqında bilikləri məhdudlaşdıraraq müəyyən qəlibə salmış, siyasi məsələlərə və dünyəvi proseslərə birtərəfli münasibət formalaşdırmış, bununla da bir çox xalqların siyasi və mənəvi cəhətdən hərtərəfli zənginləşməsinə mane olmuşdu. Müasir dövrdəki həyat sübut edir ki, siyasi biliklərin öyrənilməsi zəruri, əhalinin ümumi savad səviyyəsinin yüksəldilməsi çox vacibdir. Bu da siyasi sahədə çoxlu yeni ədəbiyyatın, xüsusilə ensiklopedik məlumat kitablarının nəşrinə böyük ehtiyac vardır.

Azərbaycanda politologiya elmi XX əsrin 90-cı illərində təşəkkül tapsa da, siyasi dövlətçilik ideyaları qədim tarixə malikdir. Hələ orta əsrlər müsəlman şərqində siyasətşünaslıq sahəsində mühüm mülahizələr söylənilmişdi. İnsanlar despotik siyasi rejimlərdə, cəmiyyətdə ədalətsizliklərə məruz qaldıqlarından adil hökmdar, ədalətli dövlət və cəmiyyət ideyaları uğrunda mübarizəyə qalxırdılar.

Orta əsrlərdə Müsəlman Şərqində siyasət elminin inkişafında Xacə Nizamülmülk Həsən İbn Əlinin (1063-1072) "Siyasətnamə" əsəri xüsusi yer tutur. Onun 50 fəsildən ibarət həmin əsəri Azərbaycanın Səlcuqilər imperiyaları tərkibində olduğu illərdə yazıldığından bizim siyasi fikir tariximiz üçün də qiymətlidir. Əsər orta əsrlərin hüquq qanunlarını, idarəetmə sistemini, siyasi rejimini və hərbi hakimiyyətini, daxili və xarici siyasət məsələlərini əks etdirir. Nizamülmülkün siyasi görüşlərində hakimiyyət və əxlaq problemləri müstəsna yer tutur. "Siyasətnamə"nin müəllifi dövlətin ədalətli olmasını idarəçilikdə mühüm əxlaqi meyar sayır.

Azərbaycanda siyasi biliklərin formalaşmasında Nizami Gəncəvinin mühüm rolu olmuşdur. Mütəfəkkir "İskəndərnamə" əsərində təklif etdiyi adil şah və ədalətli cəmiyyət modelləri Avropa ictimai-siyasi fikrinə, ilk utopik sosialistlərdən Tomas Mora və

Tommazo Kompanellaya, müxtəlif "ictimai müqavilə" nəzəriyyələrinin yaranıb meydana gəlməsində ideyaca güclü təsir göstərmişdir. Höte özünün "Şərq-Qərb divanı"nda Nizaminin siyasi ideya irsində ədalət və dövlət məsələlərinin mühüm əhəmiyyətini qeyd etmişdir.

Azərbaycanın siyasi fikrində M.F.Axundovun sosial-siyasi irsi mühüm mərhələdir. Siyasi fikir tədqiqatçıları, məs., M.V.Məmmədzadə, H.Baykara, Y.V.Çəmənzəminli və b. qeyd edirlər ki, "milliyyət ideyası və fikri" ən əvvəl M.F.Axundovun, sonralar isə H.B.Zərdabi və Əlibəy Hüseynzadənin əsərlərində azərbaycanlıların milli-siyasi şüurunun formalaşmasının mənbəyi kimi təqdir edilmişdir. Z.B.Göyalp, Y. Akçuraoğlu, F.Köçərli yeni dövr yeniləşmə hərəkatını "Axundov mərhələsi" adlandırırlar.

O dövrdə Qərb ideyaları Şərqə, o cümlədən Qafqaza bir tərəfdən Rusiya, digər tərəfdən isə İran və Türkiyə vasitəsilə yayılırdı. Burada yayılan yeni qabaqcıl fikirlər regionun xalqlarının məfkurəsinə mütərəqqi təsir göstərirdi. Həmin dövrdə Qərb ölkələrindəki ideya-siyasi proseslər öz əksini Azərbaycan ictimai fikrində də taparaq ölkədə formalaşmaqda olan yeni ziyalılar zümrəsinin şüuruna sirayət edirdi. A.A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi, Ə.B.Hüseynzadə, Ə.B.Ağayev və onlarca digər ictimai-siyasi fikir nümayəndələri Qərbdə cərəyan edən siyasi prosesləri diqqətlə izləyir, millətin sosial inkişaf yolunu Qərb ictimai-siyasi dəyərlərinə qovuşmaqda görür, xalqın siyasi mədəniyyətə yiyələnməsinin yollarını axtarırdılar. Avropada və Rusiyada parlament, Konstitusiya, vətəndaş azadlıqları insan hüquqları və s. haqqında ideyalar Azərbaycan ziyalılarını da düşündürürdü. "Hindistan şahzadəsi Kəmaləddövlənin öz dostu İran şahzadəsi Cəlaləddövləyə yazdığı "Üç məktub" və "Cəlaləddövlənin ona göndərdiyi cavab" əsərləri M.F.Axundovun siyasi-hüquqi ideyalarının əks olunduğu ilk böyük əsəridir. 1869-cu ildə İranın Londondakı səfiri Hacı Möhsün xana "şəxsi-naməlum" imzası ilə göndərilmiş bu əsərdə mütəfəkkir siyasət və cəmiyyət problemlərinə öz münasibətini bildirir. M.F.Axundov "Aldanmış kəvakib" əsərində siyasi fikir tariximizdə müasir ədalətli hökmdar problemini ön sıraya çəkmişdir. Haki-

miyyətin sadə xalqın içindən çıxmış Yusif Sərrac kimi sənətkara tapşırılması, Yusif Sərracın qısa bir müddət ərzində həyata keçirdiyi siyasi-inzibati islahatlar və onların hakim sinfin mənafeləri ilə ziddiyyət təşkil etməsi nəticəsində hakimiyyətdən devrilib yenidən Şah Abbasla əvəz olunması ilə M.F.Axundov yaşadığı cəmiyyətin liberal islahatlar üçün hələ yetişmədiyini göstərmək istəmişdir. Xalq Konstitusiya və demokratiyanın, despotizmin, monarxiyanın mahiyyətini dərk etməli, siyasi hakimiyyətin xalqa zidd mahiyyətini aydın görməli və ölkəsinin siyasi rejimini özü seçməlidir. O, "Con Stüart Milli azadlıq haqqında" məqaləsində ingilis alimin siyasi azadlıq haqqında fikirlərinin konkret siyasi mahiyyətini açıqlayır.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın ictimai həyatında canlanma və yeniləşmə prosesləri aydın hiss olunmağa başladı. Qafqazda, eləcə də Azərbaycanda mütərəqqi ziyalılar dünyada, xüsusilə Rusiyada baş verən sosial-siyasi hadisələrə açıq reaksiya verirdilər. Azərbaycanın ümumrusiya iqtisadi bazarına cəlb olunması, iqtisadiyyatın və xüsusilə neft sənayesinin inkişafı formalaşmaqda olan milli burjuaziyanın siyasi ideyalarla mübarizə meydanına çıxmasına sosial şərait yaradırdı. Bakı tədricən Rusiyadakı siyasi hadisələrin ağırlıq mərkəzlərindən birinə çevrildikcə siyasi cəhətdən təşkilatlanmağa meylli sosial qruplar çarizmin milli və dini zülmünə qarşı milli istiqlal çağırışları ilə çıxış edir. Rusiya dövlətindən islam-türk xalqları üçün əvvəlcə muxtariyyət, sonralar isə milli müqəddarat tələb etməyə başladılar. M.F.Axundov, H.Zərdabi, N.B.Vəzirov, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, S.M.Əfəndiyev, Y.B.Çəmənzəminli, M.Ə.Sabir, Ə.B.Haqverdiyev, N.Nərimanov kimi demokratik məfkurəli ziyalıların əsərlərində inkişaf etdirilən ictimai – siyasi ideyalar Ə.B.Hüseynzadənin, Fətəli xan Xoyskinin, Ə.B.Topçubaşov. M.Ə.Rəsulzadə və b.-nın elmi-nəzəri və praktik fəaliyyətinə böyük təkan vermişdir. Belə siyasi fəaliyyətlər nəticəsində Azərbaycan Rusiyanın türk xalqları içərisində yeniləşmə və tərəqqi sahəsində ön sıraya çıxır. Milli dildə mətbuatın, teatrın, operanın və yeni tipli məktəblərin meydana gəlməsi siyasi şüurun inkişafını şərtləndirirdi. Bu hərəkat Rusiyanın digər türk xalqlarının da siyasi cəhətdən təşkilatlanmaq meylini artırırdı. İsmayıl bəy Qaspıralı Krımda "Tərcüman" (1881) qəzetini nəşr etmiş, kazanlı Yusuf Akçuraoğlu "Türk" (1904) qəzetində "Dildə birlik, fikirdə birlik, əməldə birlik" şüarı ilə ideyalarını yaymağa başlamışdı. Sonralar Ə.B.Hüseynzadə Bakıda nəşr etdiyi "Fyuzat" - məcmuəsində (1906) bu şüarı "türkləşmək, islamlaşmaq və avropalaşmaq"la tamamladı. "Türk yurdu" (1912) jurnalı turançılığı və türkçülüyü siyasi ideologiya kimi təqdim etməyə, türk dünyasını vahid "Turan" məmləkətində birləşdirməyə səy göstərdi.

Ə.Ağaoğlunun əsərlərində XX əsrin birinci rübündə türkdilli xalqların yaxınlaşmasını zəruri sayan nəzəri mülahizələr mühüm yer tuturdu. Onun "Üç mədəniyyət" əsərində Qərb və Şərq dövlətçiliyinin müqayisəli təhlili fonunda dövlət və millət anlayışlarının qarşılıqlı asılılığı əsaslandırılırdı. O burada "dövlət millətindir" mülahizəsini söyləyir, "millət dövləti quran ünsürdür, bütün hakimiyyət ona aid olduğu kimi, bütün hüquq da onundur" - fikrini təbliğ edirdi. Ağaoğlu fayda verməyən romantizə dalmaqdansa Jan Jak Russoya etiqad bəsləməyi daha üstün sayırdı. O, azərbaycanlıların, ümumiyyətlə türk xalqlarının siyasi millət kimi formalaşmasını arzu edirdi. Buna düşmən olan siyasətçilər. O cümlədən V.İ.Lenin və i.v. Stalin əslində milli azadlıq ideologiyası kimi meydana gələn türkçülüyü gözdən salmaq üçün onu "mürtəce burjuamüdkədar ideologiyası" kimi qiymətləndirmişdilər. Halbuki, həqiqətdə milli-azadlıq hərəkatı ideyalarının məcmusu olmaqla, türkçülük dövrünə görə mütərəqqi siyasi-ideoloji xarakter daşıyırdı.

XX əsrin əvvəllərindən "Musavat" (1911), "Hümmət, "Difahi" partlayışlarının və digər siyasi cəmiyyətlərin yaranması Azərbaycanda siyasi proseslərin inkişafına, eləcə də, xalqın milli mənlik şüurunda siyasi oyanışlara yeni təkan verdi. Millət kimi ilk siyasi addımlarını atan azərbaycanlılar İslam şərqində və Türk dünyasında ilk dəfə olaraq parlament tipli demokratik respublika yaratdılar. Azərbaycan Demokratik Cümhuriyyəti mövcudluğu ərzində

(23 ay) mühüm siyasi-hüquqi qərarlar qəbul etsə də, onların hamısı yerin yetirilmədi. Həmin qərarlar öz gerçək həllini 1991-ci il 18 oktyabr Müstəqillik Haqqında Aktı qəbul ediləndən sonra tapdı. ADC tarixi təcrübəsi sübut etdi ki, Azərbaycan xalqı müstəqil siyasi həyatını qurmağa hazırdır və dövlət yaratmaq üçün siyasi mədəniyyətə malikdir. Beləliklə, xalq öz missiyasını dərk etdi, milli inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycan dili dövlət dili oldu və dövlət özünün milli ordusunu, məhkəmə və ədliyyəsini yaratdı, sərhədlərini müəyyən etdi, gömrük sistemini, pulunu, bayraq və himnini bərpa etdi. Müstəqil ölkə özünün xarici siyasətini yeridilməyə başlandı. Yeni siyasi idarəetməni təmin etmək üçün kadrlarının hazırlanması istiqamətində xeyli işlər görüldü. Göstərilən dövrdə Azərbaycan sosial-siyasi fikrinin nümayəndələrindən biri kimi Nəriman Nərimanovun siyasi görüşlərində əsas ziddiyyətli məsələ onun dünya inqilabı prosesinə münasibətlə bağlıdır. O, hesab edirdi ki, Şərq ölkələrində sosialist inqilabını alovlandırmaqla bolşeviklər Qərbi zəngin maddi ehtiyyatlardan, Avropa kapitalizmini isə yağlı tikədən məhrum edər, bununla da, guya Qərb xalqları arasında işsizlik artar və onlar da inqilabi hərəkata qoşularlar. N.Nərimanov bu ideyasını "Ucqarlarda inqilabımızın tarixinə dair", habelə, Leninə və Stalinə yazdığı məktublarında əsaslandırmağa çalışırdı. Qərbdə sosialist inqilabının qalib gələcəyinə inanan N.Nərimanov özünün "Şərqin yeganə qurtuluş yolu idarə sistemini dəyişməkdir" yazısında hətta "Avropa ictimai sovet respublikaları" ifadəsini işlətmişdir. Lakin bu siyasi fikirlər utopik xarakterli olduğundan həyata keçməsi mümkün olmayan xəyaldan başqa bir şey deyildi. N.Nərimanov mərkəzin rus-erməni agenti L.Mirzəyan kimi qatı millətçilərin əhatəsində milli məsələdə hakim rus şovinizminin siyasi mahiyyətini cəsarətlə tənqid edirdi. V.İ.Leninə yazdığı məktubunda o, Azərbaycanda milli siyasətin düzgün yeridilməməsini də göstərirdi.

Xalqımızın dövlətçilik və parlamentarizm tarixində ikinci respublika Azərbaycan Sovet Sosialist Respublikası (ASSR) sosial-siyasi qüsurlarına və avtoritar xüsusiyyətlərinə baxmayaraq,

özünün mövcudluq illəri ilə (70 il) siyasi tariximizin ayrılmaz hissəsidir. Siyasət sahəsində hakim marksist ideologiyanın və Kommunist Partiyasının antidemokratik fəaliyyətinə baxmayaraq, bu sistemdə mütərəqqi ideyalar da özünə yer ala bilmişdi.

Azərbaycanda kommunist rejimi ölkədə siaysi fikrin azad inkişafına imkan verməmişdir. Prezident Heydər Əliyev hələ respublikaya başçılıq etdiyi illərdə mümkün qədər azad olmaq, xalqı da müstəqilliyə alışdırmaq kursunu nümayiş etdirmişdir. Milli mənafe naminə mərkəz və siyasi elita ilə yaxşı münasibətlər quraraq inzibati-amirlik rejimində Azərbaycanın inkişafına çalışmışdır. İri sənaye obyektlərinin Azərbaycanda yerləşdirilməsi, elmi və hərbi kadrların hazırlanması işində mərkəzin ermənipərəst qüvvələrinin təsirinə düşməməsi, hələ o dövrdə ermənilərin ərazi iddialarının qarşısının alması və s. kimi onlarla faktlar onun siyasət aləmində mühüm nüfuza malik olmasından xəbər verir. H.Əliyevin pozitiv siyasi fəaliyyəti müstəqil Azərbaycanda digər ictimai elmlərlə yanaşı politologiya elminin yayılmasına da imkan yaratmışdır. Hazırda Azərbaycanda politoloji tədqiqatlarda bu elm sahəsinin aktual istiqamətləri öyrənilir. Onlardan aşağıdakıları qeyd etmək olar: siyasət sosiologiyası, elita nəzəriyyələri, siyasi partiyalar və siyasi hərəkatlar nəzəriyyəsi, sistem-funksional krnsepsiyalar, siyasi pluralizm, tolerantlıq və demokratiya təlimləri, totaliatarizm nəzəriyyəsi, "Açıq cəmiyyət" nəzəriyyəsi, beynəlxalq münasibətlər nəzəriyyələri, konfliktologiya problemləri və s. Azərbaycan politoloqları elmi metodologiya problemlərini də ardıcıl tədqiq edirlər. Siyasi elm sahələrinin müxtəlif səviyyələrdə ümumiləşdirilməsi və politoloji problemlərin konkret sahələrinin öyrənilməsində nəzəri və tətbiqi istiqamətlər əsas götürülür. Müqayisəli tarixi metod, empirik metod, sistemli yanaşma metodu ilə yanaşı politoloqlar fənlərarası tədqiqat metodlarından da istifadə edirlər. Siyasət sosiologiyası üzrə mütəxəssislər son zamanlar politoloji tədqiqatların metodları, siyasi hakimiyyət nəzəriyyələrini tədqiq edirlər. Azərbaycan politoloji fikrində politologiyanın metodlarının siyasi hakimiyyətə keçid dövrünün tələbləri baxımından tətbiqi məsələlərin öyrənilməsi

mühüm əhəmiyyət kəsb edir. Bu mənada siyasi sabitlik, müasir elita və hakimiyyət məsələsi; vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu, azərbaycanın beynəlxalq siyasi və iqtisadi proseslərə inteqrasiyası, Heydər Əliyev və Azərbaycanın müstəlliyi problemləri tədqiqatlarda önəmli yer tutur.

Politoloji tədqiqatların intensiv aparılması bu sahədə kadr məsələsinin də həlli üçün yeni imkanlar açmışdır.

Hazırda bu problemlər araşdırılır: respublikada demokratik siyasi proseslərin obyektiv xüsusiyyətləri, cəmiyyətin ictimai həyatının transformasiyası şəraitində siyasi hakimiyyət, iqtidar və müxalifət, siyasi innovasiyalar və islahatlar, siyasi hakimiyyətin demokratikləşdirilməsi istiqamətləri, azadlıq və məsuliyyət, siyasi münasibətlərin humanistləşdirilməsi məsələləri, vətəndaş cəmiyyəti və qeyri-hökumət sektorunun və vahidlərin çoxalması, yerli özünüidarə problemləri və s.; keçid dövrü şəraitində milli deya və milli ideologiya problemləri, türkçülük, islamçılıq və azərbaycançılıq məsələləri, türklərin tarixi dövlətçilik ideyaları, milli-etnik proseslər və azsaylı xalqlar, millətçilik və beynəlmiləlçilik, milli diaspor və lobbi, milli siyasi şüur və onun səviyyələri və s. milli təhlükəsizlik və siyasi strategiya məsələləri, müasir genderologiya, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət kursunun prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, "Əsrin müqaviləsi", neft strategiyası, Xəzər siyasəti, Ermənistan – Azərbaycan konflikti və onun ətrafında baş verən hadisələrin politoloji təhlili və s. hazırda Azərbaycanda siyasi tədqiqatlarda mühüm istiqamətdir. Politologiya sahəsində araşdırmalar əsasən AMEA-nın Fəlsəfə və Siyasi –Hüquqi Tədqiqatlar İnstitutunda və ali məktəblərin fəlsəfə və politologiya kafedralarında aparılır.

Oxucularımızın mühakiməsinə təqdim olunan "Politologiya ensiklopedik lüğəti"nin nəşri də məhz bu zəngin və əhəmiyyətli məsələlərin daha da dərindən öyrənilməsi tələbindən yaranmışdır. Ensiklopedik lüğəti çapa hazırlayarkən müxtəlif ədəbiyyatlardan, o cümlədən Moskvada nəşr edilmiş "Politologiya" ensiklopedik lüğətindən (1993), digər siyasi, diplomatik və hüquqi lüğətlərdən

istifadə olunmuşdur. Onu da qeyd edək ki, son illər Azərbaycanda politologiya və siyasi tarix sahəsində bir sıra monoqrafiyalar, kütləvi kitablar, xususilə də dərsliklər buraxılmışdır ki, məqalələrin hazırlanması prosesində yeri gəldikcə onlardan da istifadə edilmişdir.

1993-2007 illərdə Azərbaycanın beynəlxalq aləmlə əlaqələrinin genişlənməsi, diplomatik münasibətlərin gücləndirməsi müstəqil respublikanın dünya birliyinə daha çox qovuşması yolunda atdığı uğurlu addımlar, ölkə daxilində siyasi sabitliyin yaranması, rəsmi görüşlərin və beynəlxalq tədbirlərin materialları lüğətin hazırlanmasında faydalı olmuşdur.

Bu kitabı hazırlamaqla müəlliflər əslində çox ağır və məsuliyyətli bir yükü öz üzərilərinə götürmüşlər. Çünki, hər hansı bir elm sahəsində mövcud olan problemləri ümumiləşdirərək hər hansı bir nəticəyə gəlmək, həmin elm sahəsinin müəyyən bir problemi üzərində tədqiqat aparmaqdan qat-qat zətin və məsuliyyətlidir. Xüsusən də, siyasət elmində mövcud olan problemlərin şərhi xeyli çətindir. Buna baxmayaraq, müəlliflər bu ağır və məsuliyyətli vəzifənin öhdəsindən yüksək peşəkarlıqla gəlməyi bacarmışlar.

Bu kitab tərcümə lüğəti və yaxud siyasi terminlər lüğəti deyil, ensiklopedik məlumat kitabıdır və kütləvi luğət xüsusiyyəti daşıyır, oxucunu maraqlandıran məsələləri dolğunluqla, sadə dillə şərh edir. Burada oxucular siyasi terminlərin yalnız mənası ilə deyil, həm də onların geniş izahı ilə tanış olacaqlar.

"Politologiya ensiklopedik lüğəti"ni çapa hazırlayan yaradıcı qrup əmindir ki, hörmətli oxucularımız universal politoloji ədəbiyyat yaratmaq sahəsində ilk təcrübə olan bu kitabda yol verilə biləcək xırda xətalara və nöqsanlara münasibətdə işgüzar mövqe tutacaq və gələcəkdə bu nəşrin daha sistemli və əhatəli çıxması üçün öz dəyərli məsləhət və tövsiyələrini elmi redaksiya şurasına bildirəcəklər.

A

ABOLİSİONİZM - (lat. abolitio - ləğvetmə) - 1) Hər hansı qanunun ləğv edilməsinə nail olmağa çalışan ictimai hərəkat. 2) XVIII əsrin axırları XIX əsrin əvvəllərində xüsusilə ABŞ-da qul ticarətinin və zəncilərin kölə vəziyyətinin ləğvi uğrunda genişlənən mübarizə ilə bağlı kütləviləşmişdi. A. ABŞ-da şimal (azad) və cənub (quldarlıq) ştatları arasında vətəndaş müharibəsini (1861-65) ideoloji cəhətdən hazırlamışdı. Şimalın qələbəsi ABŞ-da quldarlığın ləğvi ilə nəticələndi ki, bu da Amerika konstitusiyasında öz əksini tapmışdır.

ABORİGENLƏR (lat. aborigines, ab origine - başlanğıcdan) - sonradan gəlib məskən salanlardan fərqli olaraq, ölkənin qədim, yerli sakinləri. Məsələn, Amerika və Avstraliyanın müstəmləkəyə çevrilməsi dövründə A.-in xeyli hissəsi qırılmış, qalanları xüsusi ayrılmış rayonlara- rezervasiyalara salınmışlar.

ABSENTEİZM (lat. absens [absentis) - iştirak etməyən] - əhalinin siyasi həyata etinasız münasibətinin, bunda iştirak etməkdən yayınmağın təzahürü. Daha çox müxtəlif səviyyəli seçkilərdə seçicilərin səsvermədən yayınmasında öz ifadəsini tapır.

AĞLABATAN ZƏRURİLİK PRİNSİPİ - müdafiə üçün ağlabatan zərurilik prinsipi - nüvə əsrində tərksilah, yeni dünya nizamının zorakı olmayan, demokratik dünyanın formalaşması şəraitində dövlətlərin və onların silahlı qüvvələrinin davranış və fəaliyyətinin başlıca qaydası. **A.z.p.** siyasət vasitəsi kimi nüvə müharibəsinin yolverilməzliyinin, onun qarşısının alınmasının tarixi zəruriliyinin nəticəsi, ilk növbədə milli və beynəlxalq təhlükəsizliyin siyasi yollarla təmin edilməsi tələbinin ifadəsidir. Müasir şəraitdə dövlətin hərbi qüdrəti, onun silahlı qüvvələri getdikcə daha çox qüvvələrin tarazlığı əsasında deyil, mənafelərin tarazlığı əsasında inkişaf etməlidir. Lakin nə qədər ki, siyasi və strateji sabitliyi təmin edən strateji tarazlıq qanunu qüvvədədir, hərbi potensialı, onun kəmiyyət və

keyfiyyət parametrlərini müdafiə zəruriliyi çərçivəsində dəyişmək lazımdır.

Sosial-siyasi mənada **A.z.p.** ictimai rəyin elə bir psixoloji əhval-ruhiyyəsini və dövlətin elə bir siyasi xəttini bildirir ki, bunlar müharibənin qarşısının alınmasına və nüvə silahı olmayan dünya yaradılmasına, etibarlı beynəlxalq və milli təhlükəsizliyin təmin edilməsinə, tərksilaha nail olmağa yönəldilmişdir. Hərbi-texniki və strateji baxımdan **A.z.p.** müdafiə potensialının elə bir səviyyəsini və silahlı qüvvələrin fəaliyyətinin elə bir xarakterini göstərir ki, bunlar müharibənin qarşısının alınması və müdafiə üçün zəruriliyi təmin edir, lakin hücum (basqın) üçün kifayət deyildir. Bu, hərbi doktrinanın müdafiə xarakteri daşıması, paritet və bərabər təhlükəsizlik, hərbi strukturların müdafiə məqsədlərinə yönəldilməsi, silahlı qüvvələrin və silahların azaldılmasına ciddi nəzarət deməkdir. Zərurilik həddi hərbi-strateji paritetlə bağlıdır ki, hazırda bunun səviyyəsi son dərəcə yüksəkdir. Sülhün mənafeyi, dövlətlərin və xalqların təhlükəsizliyi hərbi paritetin müdafiə məsələlərinin həlli üçün zəruri olan həddə qədər azaldılmasını tələb edir.

A.z.p.-nin reallaşdırılması müəyyən amillər və parametrlərlə bağlıdır. Bunlar beynəlxalq münasibətlərin, hərbi-siyasi şəraitin durumunu; dövlətlər və xalqlar arasında münasibətlərdəki gərginliyin səviyyəsini; müxtəlif miqyaslı və xarakterli müharibələrin, hərbi münaqişələrin meydana çıxması ehtimalının dərəcəsini, həmin müharibə və münaqişələrin intensivliyini və gərginliyini; tərəflərin müdafiə ehtiyaclarını ödəyən iqtisadi, elmi, sosial-siyasi və mənəvi imkanlarını əks etdirir. Müdafiə üçün ağlabatan zərurilik ehtimal edilən düşmənin hərbi potensialı ilə uyğun gəlməli və ölkənin iqtisadiyyatı üçün ağır olmamalıdır. Bundan əlavə, qoşunların sayı və silahların miqdarı, silahlı qüvvələrin strukturu müdafiə xarakteri daşımalı, ehtimal edilən düşmənin silahlı qruplaşmalarına təxminən uyğun olmalıdır.

Hərbi potensialın ağlabatan zəruriliyə qədər azaldılması müəyyən parametrlərin, yəni onun ən mühüm xüsusiyyətlərini əks etdirən kəmiyyətlərin hesaba alınmasını nəzərdə tutur.

Birincisi, ölkənin müdafiə qüdrəti, onun hərbi potensialı kəmiyyət və keyfiyyət baxımından elə olmalıdır ki, başqa xalqlar və dövlətlərdə onların təhlükəsizliyindən ötrü narahatlıq doğurmasın. Başqa sözlə, tərəflərin müdafiə qüdrəti və hərbi potensialı elə olmalıdır ki, onların hər biri özünü həm müdafiə etmək qabiliyyətinə, həm də birbirinə hücum etmək üçün kifayət qədər gücü olmadığına əmin olsun. İkincisi, bir ölkənin müdafiə potensialının kəmiyyəti digər tərəfin müdafiə potensialına uyğun olmalıdır ki, sonuncu özü də təhlükə törətməsin. Nəhayət, müdafiə potensialının ağlabatan zəruriliyi ölkənin və milli mənafelərin etibarlı qorunmasını təmin etməlidir. **A.z.p.** potensial düşmənlərin bütün qüvvələrinə qarşı durmaqdan ötrü "ehtiyat üçün" silahlı qüvvələr yaradılmasını tələb etmir. Hamılıqla silahların azaldılmasına, əməli tərksilaha yönəldilmiş səmərəli tədbirlərin həyata keçirilməsi **A.z.p.**-ni reallaşdırmağın aparıcı yönüdür. Etimad tədbirlərinin möhkəmləndirilməsi, xüsusən qəfil hücum təhlükəsinin azaldılması; silahlı qüvvələrin keyfiyyətcə dəyişdirilməsi; silah istehsalı sahəsində köklü dəyişikliklər aparılması, silah istehsalının azaldılması, dövlətin müdafiə büdcəsinin strukturunun dəyişdirilməsi **A.z.p.**-ni reallaşdırmağın mühüm cəhətidir.

ALYANS (fr. alliance - ittifaq) - ümumi məqsədə nail olmaq üçün birlik. Təşviqat və təbliğatda alçaldıcı - mənfi çalarda da işlənir.

ALTERNATİV HƏRƏKATLAR - qlobal və bəzi digər aktual problemlərin ənənəvi sosial təşkilatlar (partiyalar və həmkarlar ittifaqları) tərəfindən təklif edilən qaydalardan fərqli, orijinal həllini tapmağa yönələn yeni ictimai hərəkatlar. Alternativçilərin fəallığı, hər şeydən əvvəl, ekologiya, müharibə və sülh, həyat keyfiyyəti və i.a. problemlərin həllinə yönəldilmişdir. Buna görə də ekoloji, müharibəyə zidd, yeni həyat tərzi uğrunda **A.h.** nəzəri və praktik cəhətdən daha çox inkişaf etmişdir.

A.h. ən əvvəl XX əsrin 70-ci illərində Qərbi Avropa ölkələrində, ilk növbədə Fransada və AFR-də yaranmışdır. Sonradan

isə Qərbi Avropanın, demək olar, bütün ölkələrində, ABŞ-da, Kanadada, Yaponiyada, Avstraliyada, Yeni Zelandiyada və digər dövlətlərdə meydana çıxmışdır. Son illərdə Şərqi Avropa və keçmiş SSRİ ölkələrində (xüsusilə ekoloji və pasifist istiqamətli) **A.h.** yaranmışdır.

A.h.-ın müxtəlif ölkələrdə meydana çıxması və sürətlə yayılmasının səbəbləri bunlardır: bir çox aktual problemlərin (ekologiya, ölkələrin böyük bir qrupunun sürətlə silahlanması və hərbiləşdirilməsi, regional münaqişələr, həyat səviyyəsinin aşağı düşməsi və i.a.) həll olunması və artması, dövlət strukturlarına, ənənəvi siyasi partiyalara, həmkarlar ittifaqlarına inamın azalması, idarəetmə vəzifələrinin, onlarla bağlı informasiya kommunikasiyalarının və digər kommunikasiyaların həcminin artması nəzərə alınmaqla yerlərdə sosial fəallığın təzahür sahələrinin genişlənməsi.

A.h. yalnız problematikasına görə deyil, sosial tərkibinə görə də müxtəlifdir. Hərəkatlarda müasir cəmiyyətin bütün təbəqələrinin nümayəndələri iştirak edirlər.

Sayca birinci yeri orta təbəqələrin nümayəndələri tuturlar. Bu isə onunla izah edilir ki, sivilizasiyanın yeni tipinə keçid zamanı iqtisadiyyatda struktur dəyişikliklərinin təsiri altında orta təbəqələrin nümayəndələrinin əmək və həyat şəraiti dəyişir, onlar keçmiş üstünlüklərindən xeyli dərəcədə məhrum olurlar. Beləliklə, onların sosial dəyişikliklərə olan obyektiv marağı güclənir. Bu isə xüsusilə ictimai quruluşun əsaslı dəyişdirilməsinin son məqsədlərini aydın ifadə etməyən qeyri-formal səciyyəli ictimai hərəkatlarda daha fəal iştirak etməyə gətirib çıxarır. **A.h.** onlara bu cür imkanları verir.

Demoqrafik tərkibinə görə **A.h.** öz sıralarında yaşlı nəsillərin nümayəndələrini birləşdirsə də, bu, daha çox gənclər hərəkatlarıdır. Faizlə götürdükdə, bu hərəkatlarda gənclərin sayı ənənəvi ictimai təşkilatlarındakından daha çoxdur. **A.h.**-da qadınlar böyük rol oynayırlar. Onlar alternativçiləri digər ictimai təşkilatlardan üstün tuturlar.

Alternativçilərin fəallığı qeyri-formal hərəkatlardan tut-

muş partiya və parlament fəaliyyətinədək müxtəlif təşkilat formaları kəsb etmişdir. Ekoloji cərəyanlar nəzəri və praktik cəhətdən daha mütəşəkkildir və daha çox inkişaf etmişdir. Onlar bir çox ölkələrdə öz "yaşıllar" partiyalarını yaratmış, milli çərçivədən çıxaraq həm də beynəlxalq təşkilatlar (məsələn, "Qrinpis" və s.), Avropa parlamentində vahid fraksiya yaradaraq, oxşar təşkilatların və digər siyasi hərəkatların nümayəndələri ilə beynəlxalq əlaqələri fəal inkişaf etdirmişlər. Beləliklə, **A.h.**-ın ekoloji hissəsi öz alternativ siyasi mədəniyyət, siyasi əxlaq variantlarını işləyib hazırlayaraq siyasətə fəal surətdə qoşulur.

A.h.-ın ikinci, daha mühüm forması sülh uğrunda, sürətlə silahlanmaya qarşı və s. kütləvi hərəkatlardır. Bir sıra ölkələrdə "peşə qadağanlarına" (ideoloji mülahizələrə görə işə götürməkdən imtina etmək) qarşı etiraz forması almış vətəndaş hüquqlarının müdafiəsi hərəkatları, habelə inkişaf etməkdə olan ölkələri və milli azadlıq hərəkatlarını müdafiə edən cərəyanlar onlara qoşulur.

A.h.-ın daha çox yayılmış, lakin nisbətən az mütəşəkkil və yetkin forması "mülki təşəbbüslər"dir. Bunlar hər hansı konkret tələblərə əməl edilməsi uğrunda mübarizə aparır və müəyyən lahiyələri həyata keçirirlər. Alternativ həyat tərzi tərəfdarlarının təşkilatları - icmalar və kommunalar, alternativ müəssisələrdə və s.- də "mülki təşəbbüslər"ə yaxındır. Öz mədəni və sosial-siyasi orjinallığını qoruyub saxlamağa çalışan regional cərəyanlar deyilən hərəkatlar, bir sıra qadın hərəkatı təşkilatları da **A.h.**-ın hissələridir.

Sosial tərkibinin müxtəlifliyinə, konsepsiyaların rəngarəngliyinə və iştirakçıların sosial fəallığının bir-birindən fərqlənməsinə baxmayaraq, **A.h.** hakim sosial quruluşa qarşı e`tirazadək müasir cəmiyyətin bir çox təzahürlərinə tənqidi münasibəti birləşdirir. Alternativçilərin bir çoxu inkişafın həm kapitalizmə, həm də sosializmə qarşı qoyulan "üçüncü yol"un tərəfdarıdır.

A.h.-ın Qərbdə məşhur nəzəriyyəçiləri İ.İlliç, A.Qorts, T.Eberman, R.Trampert, E. Damman, Y.Ştrasser, K.Ameri, K.Traube, Y.Huber, Y.Hirş,

K.Offe, P.Kelli, T.Ebert və başqalarıdır. A.h.-ın tədqiqi sahəsində də müəyyən işlər görülür.

ANARXİZM (yun. anarchia - hakimiyyətsizlik) - Anarxizm nəzəriyyəsinin əsasını hakimiyyətsizlik, cəmiyyətin dövlətsiz qurulması ideyası təşkil edir.

A. dövləti məhv etməyi və məcburedici hakimiyyətin hər hansı formasını vətəndaşların azad və könüllü assosiasiyası ilə əvəz etməyi qarşısına məqsəd qoyan siyasi cərəyandır. Bir sıra antik və orta əsr mütəfəkkirlərinin əsərlərində rüşeym halında olan A. ideyalarını yeni dövrdə ingilis yazıçısı U.Hodvin inkişaf etdirmişdir. O, "Siyasi ədalət haqqında tədqiqat" kitabında "dövlətsiz cəmiyyət" konsepsiyasını işləyib hazırlamışdır.

Siyasi cərəyan kimi XIX əsrin 40-70-ci illərində Qərbi Avropada yaranmış A. heç vaxt vahid ideoloji doktrina şəklini almamışdır. Çünki onun nəzəriyyəçilərinin məqsədə çatmaq yolları haqqında məsələyə münasibətləri eyni olmamışdır. A.-də ənənəvi olaraq dörd əsas istiqamət (fərdiyyətçi, mütüelizm, kollektivçi və kommunist) fərqləndirilir. Fərdiyyətçi A. nəzəriyyəsinin əsasını insanın mütləq azadlığı ideyası təşkil edir. Bu ideyaya görə, insan öz istək və hərəkətlərində mövcud dini ehkamlarla, hüquq və əxlaq normaları ilə bağlı olmamalıdır. Həmin istiqamətin banisi sayılan M.Ştirner özünün "Fərd və onun mülkiyyəti" (1845) kitabında fərdiyyətçi A. nəzəriyyəsinin əsas müddəalarını şərh etmişdir. Dövləti inkar edən Ştirner cəmiyyətin sosial təşkilini "eqaistlər ittifaqı"nda görürdü. Onun fikrincə, bu ittifaqın məqsədi hər bir şəxsiyyətin "nadirliyinə" qarşılıqlı hörmət əsnasında müstəqil istehsalçılar arasında əmtəə mübadiləsinin təşkilindən ibarət olmalıdır.

Fərdiyyətçi A.-in nümayəndələri D.Uorren və B.Takerin (XIX əsrin axırları) əsərlərində inkişaf etdirilən "azad müqavilə" bazasında mübadilə ideyası P.J.Prudonun yaratdığı mütüelizm nəzəriyyəsinin başlıca prinsipinə çevrilmişdir. Qeyri-ekvivalent mübadilənin sosial ədalətsizlik mənbəyi olduğunu nəzərə alan Prudon, istismarın məhvinin mümkünlüyünü əmtəə dövriyyəsi sistemində islahatlar

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

aparmaqda görür, eyni zamanda cəmiyyətin yenidən qurulmasının vasitəsi kimi inqilabi zorakılığı rədd edirdi. Cəmiyyətin müstəqil şəxsi istehsalçılardan ibarət olan bütün üzvləri arasında pulsuz, ekvivalent əmtəə mübadiləsinin təşkili və onların fəaliyyətinin xalq bankı deyilən bank tərəfindən minimum faizlə maliyyələşdirilməsi, Prudonun fikrincə, şəxsin dövlətdən tam müstəqilliyi demək olar, beləliklə də dövləti lazımsız edər və o, nəhayət məhvə məhkum olardı. XIX yüzilliyin 60-cı illərində geniş yayılmış bu ideyalar, fəhlələr arasında inqilabi əhval-ruhiyyə artdıqca, əsas nəzəriyyəçisi M.A.Bakunin olan kollektivçi A. tərəfindən tədricən sıxışdırılıb aradan çıxmağa başladı. M.A.Bakunin dövlətin hər bir formasını kütlələri istismar etmək vasitəsi sayır və onun inqilabi yolla dərhal məhv olunması uğrunda mübarizə aparırdı. Ümumiyyətlə, dövlətçiliyi rədd edən Bakunin fəhlələrin parlament seçkilərində və nümayəndəli hakimiyyət orqanlarında iştirakının əleyhinə çıxırdı. Onun sosial idealı torpaq, əmək alətləri üzərində kollektiv mülkiyyətə sahib olan kəndli və fəhlə assosiasiyalarının "azad federasiyası"na əsaslanan cəmiyyət idi; cəmiyyətdə istehsal prosesi ilə yanaşı, iştirakçıların hər birinin xidməti nəzərə alınmaqla məhsul bölüsü də kollektiv səciyyə daşımalı idi.

Kollektivist istiqamətli ideya ənənəsini kommunist A.-inin ən görkəmli nəzəriyyəçisi P.A.Kropotkin davam etdirmişdir. Onun yaratdığı təlimin əsasını guya adamların bir-birinə qarşı mübarizəyə deyil, əməkdaşlığa olan təbii səylərini müəyyənləşdirən "biososioloji qarşılıqlı yardım qanunu" təşkil edir. Kropotkinin fikrincə, məhsul istehsalı və bölgüsünün kommunist prinsiplərinə əsaslanan azad kommunalar federasiyasına keçid yalnız bir yolla, insanları ayıran hər şeyi - dövlət hakimiyyətini və xüsusi mülkiyyəti inqilabi yolla dağıtmaqla mümkündür.

A. ideyaları XIX əsrdə Fransa, İsveçrə, İspaniya, İtaliya və ABŞ-da müəyyən qədər yayılmışdı. Bununla belə, təşviqat yolu ilə kütlələri üsyana qaldırmaq cəhdlərinin uğursuzluqla nəticələnməsi A.-də dönüş yaratdı; hakim sinfin nümayəndələrinə qarşı terrorun köməyi ilə kütləvi inqilabi çıxışlara təhrik etmək təbliğatına başlandı. A.-ın bu istiqamətdə də məğlubiyyəti burjua dövlətinin məhvi uğrunda mübarizədə proletar həmkarlar ittifaqlarından dayaq kimi istifadə etməyi nəzərdə tutan və beynəlxalq fəhlə hərəkatında yeni taktiki xəttin formalaşmasına yardım göstərdi.

XIX əsrin axırlarında xalqçı ziyalılar arasında müəyyən təsirə malik olan A. ideyaları Rusiyada 1905-1907-ci illər inqilabının gedişində nəzərə çarpan *yüksəliş mərhələsi* keçmiş və 1917-ci il inqilabı dövründə xüsusilə geniş yayılmışdı.

ANARXİZM-SİNDİKALİZM, yaxud inqilabi sindikalizm - fəhlə hərəkatında kapitalizm quruluşunu sindikatların (həmkarlar ittifaqlarının fransızca adı) inqilabi mübarizəsi vasitəsilə məhv etməyi qarşısına məqsəd qoymuş cərəyan. Burjua dövlətinin əsas funksiyasının cəmiyyətin imtiyazlı təbəqələrinin mənafelərini qorumaqdan ibarət olduğunu göstərən A.s., onunla mübarizəyə kapitalizm quruluşunun dağıdılması *prosesinin* başlıca tərkib hissəsi kimi baxır. Bu mübarizənin hərəkətverici qüvvəsi isə fəhlə sinfinin siyasi deyil, iqtisadi təşkilatları olmalıdır. Əvvələn, ona görə ki, fəhlələrin əsl birliyi onların yalnız istehsal mənafeləri əsasında mümkündür; ikincisi, yalnız fikir yekdilliyi ilə bağlı sosial mənşəyinə görə müxtəlif ünsürlərin ittifaqı kimi, siyasi birlik ümumən fəhlə sinfinin mənafelərini ifadə edə bilməz və onu qeyri-proletar mühitindən çıxanların ideya təsirinə tabe olmağa doğru aparır. A.s. siyasi partiyaların parlament fəaliyyətini cəmiyyəti inqilabi yolla dəyişdirmək vasitəsi kimi rədd edir, çünki bu cür fəaliyyət labüd olaraq güzəştlərlə nəticələnir. A.s. silahlı üsyanı da perspektivsiz hesab edir, dövlətin əlində ordu olduğu bir zamanda məhəlli səciyyə daşıyan və iştirakçılarının sayı az olan üsyan açıq-aşkar məğlubiyyətə məhkumdur. Burjua dövləti ilə mübarizənin siyasi vasitələrini inkar edən A.s. fəhlələri "birbaşa təsir" adlanan fəaliyyətə yönəldir. Bu, sahibkarlara və dövlət hakimiyyəti orqanlarına həmkarlar ittifaqları tərəfindən göstərilən

təzyiqdən ibarətdir. "Birbaşa təsir" müxtəlif formalar ala bilər (tətillər, nümayişlər, sabotaj, boykot). "Birbaşa təsir" taktikasının məqsədi həm mövcud quruluş çərçivəsində fəhlə sinfinin vəziyyətini yaxşılaşdırmaq, həm də inqilabi çevriliş vasitəsi kimi qiymətləndirilən ümumi iqtisadi tətilləri hazırlamaqdır. **A.s.** nəzəriyyəsinə görə, ümumi tətilin qələbəsi kapitalist mülkiyyətinin həmkarlar ittifaqlarının sərəncamına keçməsi demək olacaqdır; həmkarlar ittifaqları isə yeni federativ cəmiyyətin əsas özəyinə çevrilib, məhsul istehsalı və bölgüsünün sosialist prinsipləri ilə aparılması funksiyasını öz üzərinə götürəcəklər.

A.s. ideyaları XIX əsrin axırları XX əsrin əvvəllərində əsas etibarilə romandilli ölkələrdə yayılmışdı. Bu ölkələrdə sosial-iqtisadi inkişaf özünəməxsus səciyyə daşıdığından, fəhlələr arasında xırda burjua dünyagörüşü hələ xeyli üstün idi. Fəhlələrin siyasi fəaliyyətlərində həmkarlar ittifaqlarından yardımçı qüvvə kimi istifadə etməyə meyil göstərirdilər (bu isə əslində zəhmətkeşlərin bilavasitə mənafeləri uğrunda mübarizədən imtina etmək idi). İkincisi, bu partiyaların tədricən islahatçılıq taktikasına üz tutması fəhlələr arasında inqilabi əhval-ruhiyyənin yüksəlişi şəraitində həmin partiyaların inqilabi şüarların labüd surətdə gözdən salırdı. **A.s.** ideyaları Fransada daha geniş yayılmışdı. Burada həmin ideyalar 1892-ci ildə formalaşmış Əmək Birjaları Federasiyasının və 1895-ci ildə yaradılmış ilk milli həmkarlar ittifaqları mərkəzinin - Ümuməmək Konfederasiyasının (ÜƏK) proqram sənədlərinin əsasını təşkil edirdi. Bu ideyalar XIX əsrin axırları XX əsrin əvvəllərində Fransa fəhlə hərəkatının ən görkəmli xadimləri F.Pellutyenin,E.Pujenin,Q.Laqardelli, J.Sorelin əsərlərində nəzəri cəhətdən əsaslandırılmışdır. Amyen xartiyasında təsbit olunub.1906-cı ildə ÜƏK-in konqresində qəbul edilmiş **A.s.** prinsipləri Fransa fəhlə hərəkatının bütün sonrakı tarixinə nəzərə çarpan təsir göstərmişdir.

ANTAQONİZM - (yunanca antagonisma - münaqişə, mübarizə) düşmən qüvvələr, təmayüllər və siniflər arasında mövcud olan barışmaz ziddiyyətlərindən biri. **"A."** termini əks qüvvələrin (xeyirlə şərin) mübarizəsi mənasında dini sistemlərdə, Kant, Şopenhauer, və b. filosofların əsərlərində işlədilmişdir. Bu mənada riyaziyyatda, biologiyada (oyunlar nəzəriyyəsi) tətbiq olunur. Bir sıra ideoloqlar dövləti "ümumi rifah dövləti", sinifləri isə "ictimai qruplar" kimi qələmə verməklə cəmiyyətə xas olan **A.**-i pərdələməyə çalışırlar. Marksizmə görə, **A.** sinfi mübarizə yolu ilə həll olunur. Əslində, **A.** bütün sinifli cəmiyyətlər üçün xasdır.

ANTİKOMMUNİZM - bəşəriyyətin kommunist perspektivi istiqamətində inkişafının nəzəri cəhətdən əsaslandırılması və bu yöndəki əməli tədbirləri rədd edən müxtəlif ictimai cərəyanların və qüvvələrin məcmusu.

ANTİMİLİTARİZM - (yun. anti və lat. militaris - hərbi) milli, məhəlli və qlobal miqyaslarda daxili və dövlətlərarası ziddiyyətlərin həlli zamanı silahlı zorakılıqdan istifadə edilməsinə qarşı mübarizə ideyası ətrafında birləşmiş sosial baxımdan müxtəlif qüvvələrin siyasi hərəkatı.

Pasifizmdən fərqli olaraq, **A.** ümumiyyətlə, müharibə əleyhinə deyil, hərbi zorakılıqdan ədalətsiz, ekspansionist, irticaçılıq məqsədləri üçün istifadə edilməsinəqarşı yönəldilmişdi. **A.** pasifizm və müharibəni, sürətlə silahlanmanı, siyasətdə zorakılığı və bu və ya başqa şəkildə rədd edən digər hərəkatlar bütövlükdə müharibə əleyhinə hərəkatı təşkil edir.

İnsanlığın mövcudluğu üçün qlobal təhlükələrlə dolu olan nüvə əsri ədalətli və ədalətsiz müharibələr arasındakı keçmiş fərqləri silir. Bu isə **A.**-in ideya və siyasi mövqelərini müharibə əleyhinə digər hərəkatlarla yaxınlaşdırır. Lakin **A.** problemləri sahəsində ənənəvi görüşləri və məqsədləri qoruyub saxlayan sosial qüvvələr hələ də az deyildir. Belə qüvvələr "üçüncü dünya" da xüsusilə çoxdur. Onlar militarizmin təcavüzkar təbiətinə qarşı mübarizə aparmaqla yanaşı zor işlətmək, sosial və milli azadlıq müharibələrində silahlı mübarizə vasitələrindən istifadə hüquqlarını müdafiə edirlər.

Sosial ziddiyyətlərin içəridən yeyib dağıtdığı cəmiyyətdə

A.-in tarixi qədimdir. Rotterdamlı Erazm təxminən dörd yüz il bundan əvvəl "Dünyanın şikayətləri" risaləsində millitarizmə qarşı çıxmışdır. İki yüz il sonra İ.Kant "Əbədi sülh haqqında" əsərində müharibənin və militarizmin tarixən şərtlənmiş proseslə məhvə məhkumluğunu dərindən əsaslandırmışdır.

A. I Dünya müharibəsindən əvvəlki illərdə daha yetkin və mütəşəkkil şəkildə formalaşmışdı. Bu, mütərəqqi sosial qüvvələrin dünya miqyasında tarixdə birinci qırğının baisləri və təşkilatçılarının təcavüzkar niyyətlərinə qarşı təbii münasibət idi.

II Dünya müharibəsi illərində öz miqyasına və təsirinə görə xeyli güclənmiş A. alman və yapon militarizminin darmadağın edilməsində çox mühüm rol oynamışdır. Bu müharibədən sonra A.-in inkişafı üçün yeni, daha əlverişli şərait yaranmışdır. Kütləvi qırğın silahlarının meydana çıxması isə bəşəriyyəti nüvə təhlükəsindən xilas etmək vəzifəsini qarşıya qoymuşdur. Müstəmləkə asılılığından azad olmuş xalqların və bloklara qoşulmamaq hərəkatında birləşmiş dövlətlərin böyük bir hissəsi A. sıralarına daxil olmuşdur. Ən əvvəl, "soyuq müharibə"nin başa çatması ilə əlaqədar beynəlxalq münasibətlərdə dərin müsbət irəliləyişlərə kömək edən hadisələr A. tarixində dərin müsbət irəliləyişlərə kömək edən hadisələr A. tarixində prinsip etibarilə yeni səhifə açmışdır. İmperializm və militarizmin qarşılıqlı əlaqəsi problemi sahəsində ideoloji işdirilmiş, bir çox cəhətdən köhnəlmiş ənənəvi təsəvvürlər yeni münasibətlər baxımından aradan qaldırılır. Militarizmin qarşısının alınmasının yeni, əvvəllər istifadə olunmamış imkanları açılmışdır.

Militarizmə qarşı mübarizə hazırda ümumi xarakter daşıyır - bütün əsas istiqamətlərdə genişlənir, yeni, daha səmərəli təşkilatçılıq formaları və metodları ilə zənginləşir. Bu mübarizə iqtisadiyyat sahəsində hərbi istehsalın konversiyasına; siyasət sahəsində dünyanın aparıcı dövlətlərinin hakimiyyət sistemində hərbi-siyasi elitanın, HSK (hərbi-sənaye kompleksi) başçılarının rəhbər mövqelərdən sıxışdırılıb çıxarılmasına yönəldilmişdir; ideoloji sahədə A. kütləvi

şüuru müharibənin mədhi, hərbi gücə pərəstiş ideyalarından, davakar "nüvə vahiməsi" doktrinalarının modifikasiyalarından təmizləməyə çalışır. Hərbi sahədə A. ordunun məntiqə uyğun kafilik səviyyəsinədək ixtisar edilməsi, hərbi quruculuğa sırf müdafiə istiqaməti - tərəflərdən hər hansının qəfil hücuma keçmək və geniş hücum əməliyyatları aparmaq imkanını istisna edən istiqamət verilməsi uğrunda mübarizə ideyalarını dəstəkləyir.

ANTİSEMİTİZM - millətçilik, irqçilik ideologiyasının bir növü. "Öz" xalqını şöhrətləndirib tərifləyən və bütün "özgələrə" nifrət bəsləyən millətçiliyin digər formalarından A.-in fərqi yalnız ondan ibarətdir ki, təkcə bir "özgəyə", sami (semit) xalqına - yəhudilərə nifrət bəsləyir və onları təqib edir.

A.-in tarixi kökləri çox qədimdir. Bibliya zamanlarında Yaxın Şərqdə tayfalar və dövlətlər arasında qarşılıqlı düşmənçiliyin mövcud olduğu dövrdə, Roma imperiyasının əsarəti altında olan "İsrail nəsli" diasporuna, gəlmə, yad simalı, yad dilli, yad adət-ənənəli, qeyri-xristian dinli yəhudilərin Avropa ölkələrində yüzilliklərlə didərginlik dövrünə gedib çıxır. Feodal və yarımfeodal Almaniyada, Avstriya-Macarıstanda, Rusiya imperiyasında yəhudilər tam hüquqlu deyildilər, gettolarda (Rusiyada - "oturaqlıq hüdudları" daxilində) yaşayır, dini və milli təqiblərə məruz qalırdılar.

Lakin bütün bu kədərli ənənələr XX yüzildə A.-in qızışdırılmasını izah etmir. Həm də məsələ heç də A.-in özündə və onun qədim ənənələrində (əlbəttə, mürəkkəb, lakin həyat taleyi nadir sayılmayan yəhudilərdə) deyildir. XX yüzildə A.-in şiddətlə alovlanmasının mahiyyəti ən mürtəce qüvvələrin ondan millətçiliyi, şovinizmi, irqçiliyi qızışdırmaq yolu ilə inqilabi cərəyanlara qarşı mübarizədə ildırımötürən və bütün ölkələrin zəhmətkeşlərinin birliyini parçalamaq vasitəsi kimi istifadə olunmasında idi. Yəhudilərin irqi "özgəliyi" A.-i cəhalətpərəst "XX əsrin mifinə" çevirmək üçün yalnız əlverişli bəhanə olmuşdur.

Bu mifqar jandarmları tərəfindən hazırlanmış və guya "yə-

hudilərin ümumdünya sui-qəsdi" kimi "protokollaşdırılan" "Sionist müdriklərin protokolları" deyilən saxta sənəddə konkret olaraq rəsmiləşdirilmişdi. "Protokollar" saxta sənədlər kimi çoxdan və qəti surətdə ifşa edilsə də, 1905-07-ci illər inqilabı dövründə qaragüruhçulara həmin mənfi mifdən öz mənafeləri, ağqvardiyaçılara və petlyuraçılara isə 1918-20-ci illərin vətəndaş müharibəsində yəhudi talanları, "cühudların və komissarların" güllələnməsinin təşkili üçün istifadə etməyə mane olmamışdır.

A. Hitlerçi faşistlərin irqçilik təbliğatında və cinayətkar əməllərində müdhiş formalar kəsb etmişdi. Onlar "yəhudilərin ümumdünya sui-qəsdi" mifindən özlərinin dünyada hökmranlığa nail olmaq siyasətini ört-basdır üçün pərdə kimi istifadə edirdilər. Hitler faşizmi Babi Yar və Osvensim və s. düşərgələrdə 6 milyon yəhudini, o cümlədən 3 milyon sovet vətəndaşını məhv etmişdir.

Hitler faşizminin və ona xidmət edən qüvvələrin darmadağın edilməsi ilə A.-ə son qoyulmuşdur. A.-in ABŞ-da (o cümlədən, "zənci" A.-i), Fransa (Le Pen), ərəb ekstremistləri arasında təzahürləri ində də var. Keçmiş SSRİ ərazisində də öz əsərlərində qaragüruhçuları və vlasovçuları, həmçinin Beriya kimi fitnəkarları ("həkim-qatillərin işi") A. estafetini davam etdirən alim və yazıçılar tapılmışdı. A. ideyaları xəstəliyinə tutulmuş "Pamyat"ın sağ radikal qrupu "cuhudmason sui-qəsdi" komissarlarını ifşa etmək bayrağı altında elə bu cür fitnəkarlıqlarla məşğul olmağa başlamışdır.

Eyni zamanda A.-in şüarlarında və taktikasında bəzi dəyişikliklər baş verir. Məsələn, "Cuhudları və sosialistləri vur!" şüarı masonların və kommunistlərin sui-qəsdlərinin ifşasına çağırışla əvəz edilmişdir. Yəhudilərə və yəhudilərlə eyniləşdirilən sionizmə qlobal qarşıdurma müasir A.-də "bütün yəhudilərin" Rusiyanı, keçmiş SSRİ-nin digər ərazilərini tərk etmələrinə çalışan A. tərəfdarları ilə sionizm tərəfdarları arasında heyrətləndirici yekdilliyə çevrilir. Bundan başqa, A.-in kobud tərəfdarlarının, yəhudilərin (masonların) və "yəhudilərlə qohumlaşanların" ünvanlarına daim hədə-qorxu gəlmələri talan təhlükəsi yaradır. Sionistlər isə yəhudilərin keçmiş SSRİ-dən kütləvi surətdə İsrailə köçməsi üçün əsas amil kimi bundan istifadə edirlər. Bu, əlbəttə, İsrailin hakim dairələrinin mənafeyinə uyğundur. Beləliklə, millətçilik və irqçiliyin A. və sionizm kimi bir-birinə tamamilə zidd olan formaları işdə birləşir və bir-birini qidalandırır.

Qabaqcıl mütəffəkirlər - E.Zolya, L.Tolstoy, V.Korolenko, M.Qorki, F.Engels və başqaları A.-i "yəhudilərin talançı təqibi" kimi pisləmişlər. Sionizm, millətçilik və irqçiliyin hər hansı təzahürü kimi, A. də mahiyyətcə Azərbaycan Respublikasının Konstitusiyasına ziddir və xalqlar birliyinin mənafelərinə zərər vurur.

ANTİSOVETİZM - iştirakçılarının tərkibinə, məqsəd və vasitələrinə görə müxtəlif olan, 1917-91-ci illərdə Sovet dövlətinə, onun siyasətinə və ideologiyasına qarşı yönəldilmiş siyasi-ideoloji hərəkat.

APARAT - hakimiyyət təsisatı, bütün səviyyələrdə onu əhatə edən icraedici pillələr, idarələr və idarəetmə kadrları. Dövlət A.-ı mərkəzi idarəetmə sisteminə daxildir, bütün tiplərdən olan mərkəzi hakimiyyət orqanlarının - qanunvericilik, icra, məhkəmə orqanlarının dövlət qulluqçularının, işçilərinin əsas kadrlarını əhatə edir. İctimai təşkilatların, siyasi partiyaların, orta, aşağı pillədən olan idarələrin və s. də A.-ı var. A. rəhbərliyin qərarlarını həyata keçirir, onun yuxarı pillələrini cəmiyyətlə və ya ayrı-ayrı ictimai qruplarla, yaxud həmkarlar qrupları ilə əlaqələndirir. Hakimiyyətin fəaliyyətinə cəmiyyətin cavab reaksiyası ondan keçir, hakimiyyətə, onun orqanlarına gələn iddia və tələblərin (şikayətlər, vəsatətlər, etirazlar və i.a.) əsas hissəsini də A. qəbul edir. A.-ın nisbətən tabe vəziyyəti onun işçilərinin peşə səriştəliliyini, onların dəyişən hakimiyyət, rəhbərlərdən nisbi qeyri-asılılığını və buna görə də onun təşkilati cəhətdən sabitliyini, hakimiyyətə, cəmiyyətə daim təsir göstərə bilməsini inkar etmir. A.-ın vəzifələrinin, tərkibinin və təsirinin genişləndirilməsi həm A.-ın öz daxilində, həm də müxtəlif A.-lar, onların

bütün sistemi və cəmiyyət daxilində bürokratik meyllərin, iş formaları və münasibətlərinin meydana çıxması ilə bağlı ola bilər.

APARTEİD (afrikaans dilində arartheid - ayrı yaşamaq) - CAR-da 1980-ci ilin axırınadək qara dərili əhaliyə qarşı qəddar irqi ayrıseçkilik və seqreqasiya siyasəti **(bax; həmçinin İRQÇİLİK).**

APATRİDLƏR (yun.- aratris (aratridos) - vətəni olmayan) - heç bir dövlətin vətəndaşı və ya təbəəsi statusu olmayan şəxslər **(bax; VƏTƏNDAŞSIZLIQ).**

APOLİTİZM (yun. - inkar şəkilçisi və rolitika) - siyasi həyata mənfi və ya laqeyd münasibət **(bax; həmçinin ABSENTEİZM).**

ARBİTRAJ (fr. arbitrage) - müəssisə, idarə və təşkilatlar arasında mübahisələri həll etmək üçün orqan. Beynəlxalq A. beynəlxalq mübahisəni dinc yolla həll etməyin üsullarından biridir. Onun iştirakçıları könüllü və qarşılıqlı razılaşma əsasında arbitr və arbitraj komissiyası seçir və onların qərarları ilə razılaşırlar.

ARXİYA (yun. archi - hakimiyyət, idarəetmə sözündən) - dövlət yaradan, siyasi cəhətdən mütəşəkkil hakimiyyət tərəfindən idarə olunan cəmiyyət. A.-nın anarxiyadan, cəmiyyətin hakimiyyətsiz, dövlətə qədərki və ya dövlətdən sonrakı (anarxizmin nəzəri fərziyyəsində) vəziyyətindən fərqi də bundadır. Yeni dövr siyasəti konsepsiyasında (T.Hobbs, C.Lokk və XVII-XVIII əsrlərin digər siyasi mütəfəkkirləri) A.-ya keçid cəmiyyətin təbii, dövlətə qədərki vəziyyətindən sivilizasiyalı vəziyyətə, siyasəti və dövləti formalaşdırmağa keçilməsi ilə bağlıdır. Dövlət idarə üsulu formalarının adları, məsələn, monarxiya (bir nəfərin hakimiyyəti) da bu termindən yaranmışdır.

A.-nın qeyri-dövlət, lakin siyasi hakimiyyətlə əlaqəsi olan formaları da mövcuddur. Monarxiya, oliqarxiya (bir qrupun, tayfanın idarə etməsi), poliarxiya (müxtəlif şəxslərin və qrupların hakimiyyəti) və s. kimi bir sıra ənənəvi və yeni idarə üsulu və hökmranlıq növlərinin olması bunu göstərir.

Hakimiyyətin yunanca digər adı - "kratiya" (hakimiyyət)

"A". anlayışının sinonimidir. Müasir dillərdə bu söz müstəqil işlənmir, yunan dilinin özündə də ondan bir sıra mürəkkəb sözlər törəmişdir. Bunlar indi daha yeni sözlərlə yanaşı aristokratiya (ən yaxşıların hakimiyyəti), timokratiya (ən pislərin hakimiyyəti), demokratiya (xalqın hakimiyyəti), texnokratiya (texniki mütəxəssislərin hakimiyyəti), plutokratiya (dövlətlilərin hakimiyyəti), oxlokratiya (kütlənin hakimiyyəti), partokratiya (partiya fəallarının hakimiyyəti) geniş işlənir.

ARİSTOKRATİYA (yun. aristokratia, aristos - ən yaxşı və kratos - hakimiyyət sözlərindən) - imtiyazlı əyanlar. A. termini müasir cəmiyyətin siyasi elitaları barəsində **(bax; ELİTA)** mənfi mənada işlənir. Antik siyasi nəzəriyyədə A.-nın hakimiyyəti daha yaxşı, təmənnasız (timokratiyadan, tamahkar adamların idarə etməsindən fərqli olaraq) hakimiyyət hesab edilirdi. Bu konsepsiya klassik və müasir mühafizəkarlıqda qorunub saxlanır.

AŞKARLIQ - dövlət təşkilatlarının və ictimai qurumların fəaliyyətində maksimum açıqlıq və doğruçuluq, ölkənin ən mühüm problemlərinin həllində ictimai fikrin iştirakının təsirli və fəal forması. **"A."** anlayışı bəzən söz azadlığı mənasında da işlədilir, lakin, onunla eyniyyət təşkil etmir. Yenidənqurma illərində bu termindən geniş istifadə olunmuşdur.

Hələ 1905-ci ildə Rusiyada inqilabi yüksəliş dalğasında A.-a güclü meyl yaranmışdı. Təsadüfi deyildi ki, 44 deputatın imzası ilə mətbuat haqqında Qanun layihəsi Dövlət Dumasının 1-ci sessiyasının müzakirəsinə verilmişdi. Layihənin bir yerində deyilirdi: "Mətbuat azaddır. Senzura heç bir şərt qoyulmadan və həmişəlik ləğv edilir". Lakin layihə qəbul olunmamışdı.

Sovet hakimiyyətinin ilk illəri də geniş **A.** siyasəti ilə səciyyələnirdi. Sovet hakimiyyətinin ikinci günündə Leninin imzaladığı "Mətbuat haqqında" dekretdə deyilirdi ki, yeni quruluş möhkəmləndikcə mətbuata hər cür inzibati təsir dayandırılacaqdır. Sovet hakimiyyətinin bir çox mühüm məsələlərinin həllində geniş müzakirələrə imkan verilməsi də sosial mexanizmin aşkar və açıq demokratik

meylini əks etdirirdi. Lakin tezliklə öz təbiətinə görə sirrlərin qorunmasına üstünlük verən inzibati-amirlik sisteminin formalaşması A.-ın bütün ünsürlərini yox etdi. Milyonlarla adamın həyatına son qoymuş repressiyalar, kollektivləşmənin uğursuzluqları, aclıq o vaxtkı rəhbərliyi bütün bunları nəinki gizlətmək, həm də real mənzərəni təhrif etmək məcburiyyəti qarşısında qoydu.

Sov.İKP-nin 20-22-ci qurultayları arasında A.-ın dirçəldilməsitam və uzun müddətli olmadı. Yalnız Sov.İKP MK-nın 1987-ci il Yanvar Plenumunda "A.-a təminat verən hüquqi aktlar" hazırlamaq vəzifəsi qarşıya qoyuldu. Ölkənin aparıcı hüquq institutları və b. müəssisələr belə aktların konsepsiyasını hazırladılar. Müsabiqə yolu ilə SSRİ EA dövlət və hüquq institutunun konsepsiyası qalib hesab edildi; burada göstərilirdi ki, A.-a təminat verəcək aktlar sisteminin başında A. haqqında xüsusi, baş qanun durmalıdır.

A.haqqında qanun layihəsi hazırlandı və 1987-ci ildə SSRİ Ali Soveti Rəyasət heyətinin təsdiqinə verildi, lakin qəbul edilmədi.

A.-ın ən qüdrətli dayaqlarından biri mətbuat azadlığıdır. Mətbuat azadlığı senzuranın qadağan edilməsi ilə bitmir, o, həm də şəxsiyyət azadlığı növlərindən biridir. İnsan həyatı dövlət və ictimai həyat səciyyəli olduğu gündən, - xüsusən vətəndaş cəmiyyəti qurulduğu dövrdə, - əvvəlcə şifahi, sonra isə çap olunmuş söz insan fəaliyyətinin mühüm ünsürlərindən biri olmuşdur. Özünün normaları ilə hüquq şəxsiyyətin müstəqilliyinin dövlətin müstəqilliyi ilə əbədi toqquşduğu sahədir. Kütləvi informasiya sahəsində də vəziyyət eyni ilə bu cürdür.

Vətəndaşlar üçün təmin olunmuş söz və mətbuat azadlıqları fikir və əqidəsini söyləmək, informasiya və ideyaların istənilən formalarda, o cümlədən mətbuat və kütləvi informasiya vasitələri daxil edilməklə axtarılması, seçilməsi, alınması və yayılması hüquqları deməkdir. Vətəndaşların kütləvi informasiya vasitələrinin köməyi ilə dövlət orqanlarının, ictimai təşkilatların, vəzifəli şəxslərin fəaliyyəti haqqında operativ zəruri məlumatlar almaq hüququ var-

dır. A. naminə vətəndaşların şəxsi həyatına qarışmaq, onların şərəf və ləyaqətinə qəsd etmək üçün kütləvi informasiya vasitələrindən istifadə olunması qadağandır və təqib olunur. Vətəndaşın təkzib etmək və cavab vermək, informasiya verərkən öz adının gizli qalmasına nail olmaq hüquqları vardır. Eyni zamanda jurnalist və vətəndaşların hüquqlarına, qanuni mənafelərinə, milli ləyaqətinə hörmət etməyə borcludur. Kütləvi informasiya vasitəsi tərəfindən vətəndaşa dəymiş mənəvi zərərin də ödənilməsi nəzərdə tutulur.

1948-ci il dekabrın 10-da BMT BM-nin qəbul etdiyi İnsan hüquqlarının ümumi bəyannaməsində elan edilir: "Hər bir insan əqidə azadlığına malikdir. Öz əqidəsi üstündə maneəsiz durmaq azadlığı, məlumat və ideyaları dövlət sərhədlərindən asılı olmayaraq axtarmaq, əldə etmək və yaymaq azadlığı da bu hüquqa daxildir". (maddə 19).

Azərbaycan Respublikasının Konstitusiyasında məlumat azadlığı haqqında (maddə 50) deyilir: "Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbutda dövlət senzurası qadağandır".

ATƏT-in MİNSK QRUPU - Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar yaranmış Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrini (təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunmuş, bir milyondan artıq vətəndaş doğma torpaqlarından qovularaq qaçqına çevrilmişdir) aradan qaldırmaq və Ermənistanla Azərbaycan arasında Böyük Sülh Sazişi imzalanmasına nail olmaq məqsədilə 1992-ci ilin mayında **ATƏT** (keçmiş **ATƏM**) çərçivəsində yaradılmışdır. Tərkibində 9 dövlətin (o cümlədən, ABŞ, Rusiya, Türkiyə, Fransa və s.) nümayəndələrini birləşdirir. 1992-94-cü illərdə bir sədri, 1996-cı ilin yanvarınadək iki həmsədri (Rusiya, İsveç) olmuşdur. 1996-cı il dekabrın 2-3-də keçirilmiş Lissabon Zirvə toplantısından sonra üç həmsədri (ABŞ, Rusiya, Fransa) vardır. ATƏT-in M.q-nun təşəbbüsü ilə 1994-cü il mayın 12-də Erməni-

stanla Azərbaycan arasında hərbi əməliyyatlar dayandırılmış və atəşkəs əldə edilmişdir. ATƏT-in Budapeşət Zirvə toplantısında (1994 dekabr) Minsk qrupunun təqdimatı ilə münaqişə zonasında beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi haqqında qətnamə, Lissabon Zirvə toplantısında isə Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması prinsipləri (Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, Dağlıq Qarabağ ermənilərinin təhlükəsizliyinə təminat verilməsi və Azərbaycanın tərkibində Dağlıq Qarabağın statusunun müəyyən edilməsi) haqqında sədr bəyannaməsi qəbul edilmişdir.

AVROPA PARLAMENTİ - Avropa Birliyinin 12 dövlətinin - Belçika, Böyük Britaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Almaniya və Fransanın təmsil olunduğu dövlətlərarası və millətlərarası siyasi orqan. **A.p.**-nin 518 nəfər deputatı Birliyin üzvü olan ölkələrin əhalisi tərəfindən 5 ildə bir dəfə birbaşa səsvermə yolu ilə seçilir. **A.p.**-nin yaradılması Qərbi Avropanın siyasi inteqrasiyası yolunda mühüm addım olmuşdur. **A.p.**-nə ilk birbaşa seçkilər 1970-ci ildə, sonuncu (dördüncü) seçkilər isə 1994-cü ilin iyununda keçirilmişdir. **A.p.** daxilində deputatlar milli mənsubiyyətinə görə deyil, partiya fraksiyalarına görə birləşirlər. **A.p.** qitənin, əsasən Avropa İttifaqının inkişafının müxtəlif məsələlərini - iqtisadi, valyuta inteqrasiyasının və siyasi inteqrasiyanın (vahid daxili bazar yaradılması çərçivəsində) yeni mərhələsinə doğru irəliləməsindən ətraf mühitin mühafizəsi və insan hüquqlarına riayət olunmasınadək məsələləri müzakirə edir.

A.p.-nə hər ölkədən seçilən deputatların sayı daimidir. Daha iri ölkələrin - Böyük Britaniya, İtaliya, Almaniya və Fransanın hər birinin 81, İspaniyanın 60, Niderlandın 25, Belçika, Yunanıstan və Portuqaliyanın hər birinin 24, Danimarkanın 16, İrlandiyanın 15, Lüksemburqun 6 yeri var. 1994-cü il seçkilərində Almaniya 99, Fransa, İtaliya, Böyük Britaniya 87, İspaniya 64 və i.a. yer almışlar.

1989-cu il seçkilərindən sonra **A.p.**-ndə doqquz fraksiya yaradılmışdır. Sosialistlərin 182 (1984 ildə 166), xristian demokratların 107 (113), mühafizəkarların 48 (66), liberalların 44 (43), kommunistlərin 42 (48), müstəqillərin 37, ekoloqların 23 (5), solçuların 19 (30), sağların 16 mandatı var idi.

A.p.-nin işinin gedişində Qərbi Avropanın inteqrasiyasına münasibətdə iki əsas meyl özünü göstərmişdir. Bunlardan biri gələcək inteqrasiya məsələləri sahəsində mühafizəkar (neoliberal) mövqe ilə bağlıdır. Həmin meylin mahiyyəti millətlərarası və fövqəlmilli təsisatların minimum müdaxiləsi yolu ilə mövcud milli bazarların birləşdirilməsinə gətirib çıxarmaqdan ibarətdir; yəni ən güclü korporasiyaların tab gətirə biləcəyi azad rəqabət mübarizəsi əsas götürülür. İkinci meyəl fəhlələrin, kəndlilərin, qulluqçuların, sərbəst peşə sahiblərinin sosial nailiyyətlərinin qorunmasına yönəldilmiş xüsusi tədbirlərin işlənib hazırlanması ilə bağlıdır. Onun tərəfdarları yaradılmaqda olan vahid iqtisadi məkan çərçivəsində məqsədyönlü ekologiya siyasəti aparılmasını da zəruri sayırlar.

AVTARKİYA (yun. autarkeia - autos - özüm və narkeo - bolluq içindəyəm) - Ölkə iqtisadiyyatının başqa ölkələrin iqtisadiyyatından ayrılmasına yönəldilən və bir dövlət çərçivəsində qapalı təsərrüfat həyatı yaratmaq məqsədi daşıyan siyasət.

AVTORİTARİZM (lat. auctoritas - hakimiyyət, nüfuz) - Hakimiyyəti bir şəxsin əlində, yaxud hakimiyyətin bir orqanında cəmləşdirən, başqa hakimiyyət orqanlarının, xüsusən, onun təmsilçi institutlarının rolunu kiçildən hakimiyyət formasının müəyyənləşdirdiyi, yaxud zorla qəbul etdirdiyi siyasi rejim. Bunun nəticəsində siyasi yarımsistemlərin (assosiasiyaların, ictimai qrupların, ittifaqların və s.) müxalifliyi və muxtariyyətliyi minimuma endirilir, dövlətlə cəmiyyəti əlaqələndirən siyasi preseduraların və institutların əsl təşkilat, tənzimləmə mə`nası formallaşdırılır və saxtalaşdırılır.

A. ümumiyyətlə hakimiyyətə və siyasətə xasdır, lakin onun əsasları və səviyyəsi müxtəlifdir: siyasi liderin ("avtoritar",

hökmlü şəxsiyyətin) təbii, anadangəlmə keyfiyətləri; ağıllı, səmərəli, şəraitlə bağlı haqq qazandırılan (xüsusi zərurət olduqda, məsələn, müharibə vəziyyəti, ictimai böhran və s.); sosial (sosial və ya milli münaqişələrin yaranması) və s. A.-in irrasional, ifrat forması totalitarizm, despotizm, daha qəddar cəza rejimi doğurur. Könüllü qəbul və dərk olunmuş itaətdən fərqli olaraq, hakimiyyətin öz iradəsini cəmiyyətə zorla qəbul etdirmək üçün verdiyi hər cür sərəncam avtoritardır.

A.hakimiyyət strukturunda, iqtisadiyyatda, elmdə, mədəniyyətdə iyerarxiya münasibətlərini ideoloji cəhətdən inkar etsə də, işdə bunları həyata keçirir.

A.-in üç əlaməti və ya xüsusiyyəti onu idarə üsulunun və hakimiyyətin başqa tiplərindən fərqləndirir: 1) hakimiyyətin mərkəzləşdirilməsi; 2) rəhbərlikdə qəti amirlik metodu; 3) sözsüz itaət. Bunlar adətən, birbirilə əlaqələnir. Bütün bu xüsusiyyətlər hakim şəxsin iradəsini yerinə yetirməyə məcbur etmək, tabelikdə olanların, ümumən cəmiyyətin iradə və azadlığını boğmaq, demokratik rejimləri xalqı birləşdirə, qayda yarada və ictimai problemləri həll edə bilməməkdə günahlandırmaq meylindən ibarətdir. 30-cu illərdə Almaniyada avtoritar dövlətin ideoloji və siyasi doktrinası bu mövqelərdən yaradılmışdı. Bu doktrinaya uyğun olaraq, avtoritar dövlət hakim sosial təbəqələrin də müəyyən dərəcədə məhdudlaşdırılmasını istisna etmədən cəmiyyətin, bütün təbəqələrini, sinifləri əzir. Bu cür dövlətin tam hökmranlığı rəhbərin və ya ümumiyyətlə, mövcuddursa, hakim partiyanın hökmranlığı formasına çevrilə bilər. Bu konsepsiyada A., əslində demokratik rejimlərin daha səmərəli həyata keçirə biləcəyi ictimai (yaxud "yeni") nizamın yeganə təminatçısı elan edilir. Qayda-qanun ideyasının zorla qəbul etdirilməsi A.-dan totalitarizmə yol açır.

Tarixən A. müxtəlif dövrlərdə və ayrı-ayrı ölkələrdə cürbəcür formalarda mövcud olmuşdur (antik yunan və Şərq-İran, Sparta istibdadını və tiraniyasını bir çox başqa feodal mütləqiyyət rejimlərini və s. müqayisə edin). A. nəzəriyyəsini Fransa inqilabına və sosialist

hərəkatına cavab kimi XIX əsrin əvvəllərində ilk dəfə ifrat mühafizəkar və mürtəce nəzəriyyəçilər J.de Mentr və L.de Bonald işləyib hazırlamışlar. Sənaye cəmiyyəti inkişaf etdikcə A. ideyası konstruktiv siyasi ideologiya çalarları kəsb etməyə başladı, əksinqilabi qayda-qanun ideyası (J de Mentrin ideyası) monarxist yönümünü itirdi, mütləq A. konsepsiyası aradan qalxdı: kralın mütləq və insanlardan asılı olmayan hakimiyyəti - bu, siyasətin səbəbidir; onun nazirləri (hakimiyyət aparatı) - vasitələrdir; itaət edən təbəələr cəmiyyəti - nəticədir (L.de Bonald) A. XIX əsrdə alman siyasi fikrinin daimi və mühüm cərəyanı oldu, reallaşdırılması nəzərdə tutuldu. milli və dövlət birliyi ideyaları ilə zənginləşdi. Əsrin axırlarında A.-ə qüdrətli milli və sosial səfərbər lik, dövlət quruculuğu prosesini yuxarıdan idarəetmə vasitəsi kimi baxılırdı (Q.Trayçke). XX əsrin birinci yarısı üçün ifrat sağ fransız ideoloqu və siyasətçisi Ş.Morrasın avtoritar doktrinası səciyyəvidir. Onun fikrincə, sənayeləşdirmə, dövlətin cəmiyyətə nüfuz etməsi, siyasəti həyata keçirmək vasitəsi kimi xalqın yüksək dərəcədə səfərbər olunması A.-in obyektiv və labüd şərtləridir. A. XX əsrdə bu cür şərhlərlə getdikcə artan millətçi, antidemokratik səciyyə kəsb etməyə başladı, daxili və xarici düşmənlərə qarşı mübarizəyə qoşuldu. Faşizm A. nəzəriyyə və təcrübəsini ifrat totalitar formalara gətirib çatdırdı.

Müharibədən sonrakı dövrdə elitar və texnokratik A. haqqında yeni təsəvvürlər meydana çıxdı. Burada avtoritar idarəçilik rolu yüksək peşəkarlıq sərişləsi ilə siyasi sistemin başqa səviyyələrindən üstün olan ali dövlət idarəsinə verilir. A. nəticə etibarilə siyasi problemlərin (islahatların, dəyişikliklərin, yenidənqurmaların) yuxarıdan, hakimiyyətin gücü ilə həlli formasına çevrildi və bu anlamda son dərəcə zəiflədi. Avtoritar hakimiyyətin fəaliyyəti cəmiyyətin münasibətindən asılı oldu, çıxış yolu tapmaq (ya siyasi rejimi demokratikləşdirib xalqın dəstəyinə nail olmaq, ya da siyasi rejimi sərtləşdirib məcburiyyətə və amirliyə keçmək) qarşısında qaldı. A.-in daha geniş yayılmış variantı ləng inkişaf, kök salmış

iyerarxiya münasibətləri, repressiya nəzarəti, iqtisadi durğunluq rejimidir.

AVTORİTARÇILIQ (lat. au(c)toritas - hakimiyyət, təsir) - dövlətdə, yaxud kollektivdə bir şəxsin hakimiyyətinin üstünlüyü həmin məqsədlə bir qayda olaraq əvvəllər təşəkkül tapmış qanunlar və normaların formasının dəyişdirilməsi ilə müşayiət olunur **(bax; AVTORİTARİZM).**

AVTORİTET (alm. Autoritat; lat. auctoritas - mühakimə, nüfuz, hakimiyyət, örnək sözündən) – **bax; NÜFUZ.**

AYRI SEÇKİLİK, d i s k r i m i n a s i y a (lat. discriminatio - fərqləndirmə) - müəyyən bir qrup vətəndaşın irqinə, yaxud milli-ictimai mənsubiyyətinə, siyasi baxışlarına, cinsinə və s. əlamətlərinə görə hüquqlardan məhrum edilməsi və yaxud hüquqlarının məhdudlaşdırılması.

İrqi **A.s.**-in ən ifrat, son formalarından biri olan seqreqasiya (ayırma) insanların bir hissəsini məcburi şəkildə başqalarından ayırmaq, irqi əlamətlərinə və milli mənsubiyyətinə görə hüquqlarını məhdudlaşdırmaq, xüsusi ayrılmış əraziyə (rezervasiya, getto) zorla köçürmək siyasətini həyata keçirir. Hər hansı bir qrupa və cəmiyyətə qarşı tətbiq olunan **A.s.** siyasəti son həddə, hətta genosid (hər hansı millətin, etnik, irqi, yaxud dini qrupun tam və ya qismən məhvinə yönəldilmiş hərəkat) həddinə gəlib çata bilər. Müharibə zamanı, yaxud sülh şəraitində baş verməsindən asılı olmayaraq genosid, beynəlxalq hüquq normalarını (BMT-nin genosid cinayətinin qarşısını almaq və ona qarşı cəza tədbirləri haqqında 1948-ci il konvensiyası) pozan cinayət aktı hesab edilir. Müstəmləkəçiliklə eyni vaxtda başlamış əhalini zorla öz yurdundan uzaqlaşdırmaq siyasəti, başqa formada bu gün də davam etməkdədir. Müstəmləkə ərazilərində avropalıların vaxtilə həyata keçirdikləri **A.s.** planlarına, yerli əhalinin dini motivlərə görə sıxışdırılmasına, başqa cür düşünənlərin təqib edilməsinə bu gün də rast gəlmək mümkündür. Qadınlara, gənclərə, "rənglilərə", yerli əhaliyə və yaxud əksinə, gəlmə əhaliyə - mühacirlərə eyni işə görə aşağı əmək haqqı vermək, siyasi və dini əqidəsinə görə hüquqları

məhdudlaşdırmaq, xarici təbəəli vətəndaşların yer dəyişdirməsinə və s. kimi **A.s.** növləri hələ də qalmaqdadır.

Sovet totalitar sistemi **A.s.**-in ən müxtəlif növlərinə aid çoxlu nümunələr vermişdir: inqilabın ilk illərində qeyri-proletar mənşəli şəxslərin ali məktəblərə qəbulu zamanı incidilməsi, ziyalıların siyasi və ideoloji cəhətdən etibarsız sayılaraq təqib olunması və i.a. bunlara misal göstərilə bilər. Kütləvi cəza tədbirləri, təqiblər, işdən və azadlıqdan məhrum edilmələr, saysız-hesabsız "xalq düşmənlərinin", "ziyankarların" sürgün olunması, II dünya müharibəsi zamanı müxtəlif xalqların xəyanətdə günahlandırılaraq yeryurdlarından qovulması **A.s.** siyasətinin nəticələridir.

A.s. həm totalitar, həm də liberal-demokratik idarə üsulu zamanı mövcud olmuşdur. Ona görə də irqindən, milliyyətindən, sinfi, dini və s. mənsubiyyətindən asılı olmayaraq, hər bir şəxsin hüququnun və azadlığının müdafiə olunması müasir həyatın ən vacib qlobal problemlərindən biridir. Lakin totalitarizm və demokratiya şəraitindəki **A.s.**-i eyniləşdirmək olmaz: birinci halda o, gizli formada fəaliyyət göstərir və getdikcə qüvvətlənirsə, ikinci halda müxtəlif siyasi mexanizmlərin köməyi ilə aradan qaldırılır.

İndi, telekommunikasiya əlaqələrinin bütün dünyanı əhatə etdiyi, hüquq mühafizə orqanlarının və informasiya agentliklərinin çox fəal işlədikləri müasir zamanda dünyanın hər hansı bir ölkəsində insan hüquqlarının müxtəlif formalarda pozulması haqqındakı xəbər və məlumatları dünya ictimaiyyətindən gizli saxlamaq mümkün deyildir. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Moskvada keçirilmiş müşavirəsində qeyd olunmuşdur ki, dünyanın hər hansı bir ölkəsində insan hüquqlarının pozulması və bu prosesin davam etdirilməsi ilə əlaqədar narahatlıq keçirmək və həmin məsələyə müdaxilə etmək heç cür bu ölkənin daxili işlərinə qarışmaq kimi qiymətləndirilə bilməz. İndi beynəlxalq aləmdə humanitar sahədə nəzarətin daha təsirli mexanizmi və formaları hazırlanır, insan hüquqlarını pozan ölkələrə isə münasibət dəyişir, onlar mənəvi cəhətdən daha tez-tez beynəlxalq mühitdən təcrid olunurlar.

BMT-nin İnsan hüquqları üzrə komissiyasının 48-ci sessiyasında (1992) keçmiş SSRİ zamanında insan hüquqlarının müntəzəm pozulması faktları Rusiya və digər müstəqil respublikalar tərəfindən ilk dəfə olaraq pislənmişdir. Göstərilmişdir ki, Rusiyada və digər respublikalarda insan hüquqlarının pozulması problemlərinin aradan qaldırılması və bu məsələ ilə əlaqədar vəziyyətin yaxşılaşdırılması yalnız beynəlxalq birliyin bu problemə müdaxilə etməsi sayəsində mümkündür; qeyd edilmişdir ki, hər hansı bir dövlətdə insan hüquqlarının əleyhinə yönəldilmiş tədbir, təşəbbüs bu dövlətin daxili işlərinə qarışmaq kimi mənalandırılmamalıdır.

SSRİ dağılandan sonra **A.s.**-in yeni formaları meydana çıxmışdır. Belə ki, bir çox yerli olmayan xalqların tarixi torpaqlarına axını bşladı, bu da mühacirəti və marginallaşmanı gücləndirdi; şəxsiyyət hüquqlarından məhrum olunma, vətəndaşlıq ala bilməmək kimi xoşagəlməz hallar meydana gəldi.

Millətçilik - **A.s.**-in əsas mənbələrindən biridir. Əgər bir dövlətdə millətçiliyin qol-qanad açmasına yol verilirsə, siyasi qərəzkarlığa güzəşt edilirsə, o zaman həmin ölkədə demokratiya çox ciddi, xoşagəlməz sınaqlara məruz qalır.

"A.s." anlayışından, həmçinin beynəlxalq münasibətlərdə də istifadə olunur: bir dövlətin nümayəndəsinə, təşkilatına və vətəndaşına, o biri dövlətin nümayəndəsindən, təşkilatından və vətəndaşından az hüquq verilməsi mənasını bildirir.

AZADLIQ - politoloji tədqiqatlarda ümumi şəkildə başa düşülən bu termin onun fəlsəfi və dini fikirlərdə, siyasi ideologiyalarda əsaslandırılmasından törəmədir. Bununla belə, bir halda ki, **A.**-ın məzmununun siyasi kontekstindən, onun təmin olunmasının formaları, yolları və üsullarından söhbət gedir, politologiya sadəcə olaraq nəinki onun anlaşılmasını "dəqiqləşdirir", hətn də onu məzmunca dolğunlaşdırmağın üsullarından biri olur.

"A" - anlayışı politologiyada mərkəzi yer tutur. Çünki təkcə nəzəri baxımdan deyil, həm də sırf praktiki mənada müasir dövrün əsas problemi insan problemi ilə bağlıdır. Həmin problemin həlli insan həyatının qorunub saxlanmasına və

yüksələn xətlə inkişafına mane olan istənilən qapalılığın (sosial-iqtisadi, mədəni, milli və s.) aradan qaldırılmasına yönəldilmiş şüurlu, məqsədyönlü səylər tələb edir. Politologiya baxımından **A.** problemləri (həm də onun məcrasında formalaşan sosial və milli azadlıq, azadlıq hərəkatı və ideologiyalar kimi anlayışlar) ümumən müasir cəmiyyət haqqında, onun inkişafının əsas meylləri, bu inkişafın yaxın, orta və uzun müddətli prespektivləri haqqındakı təsəvvürlər vasitəsilə, siyasi baxımdan əhəmiyyətli dəyişikliklərin (tədqiqatçılar bunları insan həyatına kömək edən və ya əksinə, ona mane olan dəyişikliklər kimi araşdırdıqda) təhlili vasitəsilə açılır.

İctimai quruluşun və idarəetmə formasının seçilməsi, insan huquqlarının qorunmasının təmin edilməsi və insan həyatının əsas tələbatlarının ödənilməsi, xalqın öz iradəsini sərbəst bildirməsi yolu ilə dövlət hakimiyyəti orqanlarının formalaşdırılması, cəmiyyətdə humanist əxlaq normalarının qərarlaşması üçün şərait yaradılması konsepsiyaları məhz **A.**-ın politoloji problemlərinə aiddir. Məsələn, hazırda həm marksizmin, həm də liberalizmin nümayəndələri bazar iqtisadiyyatının elə bir inkişafına tərəfdar olduqlarını bildirirlər ki, bu, bütün insanlar üçün layiqincə yaşamaqdan ötrü şərait yaratsın; hər iki təlimə görə, yalnız bu halda dövlət öz vətəndaşlarının loyallığına ümid bəsləyə bilər. İstər radikallar, istərsə də mühafizəkarlar totalitar sənayeli cəmiyyətin mövcudluğunu **A.** yolunda başlıca maneə sayırlar. Bunlara baxmayaraq, bütövlükdə **A.** mövzusunun başa düşülməsi politoloji nəzəriyyəyə və ya siyasi ideologiyaya uyğun gələn ümumi mühakimələrlə müəyyən edilir. Mühafizəkar səpkili nəzəriyyələr **A.**-ın təminatları kimi keçmişin nailiyyətlərinin qorunmasının zəruriliyinə, funksionalizm və onunla həmahəng liberal cərəyanlar təkamülçülük yolunda qarşılıqlı, faydalı tarazlığın saxlanmasına, digər radikal nəzəriyyələr cəmiyyətin milli, irqi, sinfi və başqa əlamətlərə görə fərqlənən bir hissəsinin bütünlükdə cəmiyyət üzərində "qeyri-normal" hökmranlığının qətiyyətlə, sıçrayışlar şəklində aradan qaldırılmasına diqqəti cəlb edirlər.

A.-ın siyasi məzmununun

başa düşülməsinə mədəni-tarixi ənənələr indi də xeyli təsir göstərir. Məs, İngiltərə və ABŞ kimi ölkələrdə A. ilk növbədə idarəçiliyin konstitusiya formaları, nümayəndəli demokratiya və yalnız qanun çərçivəsində fəaliyyət göstərən hökumətlə əlaqələndiriləcəkdir. Halbuki, əksəriyyət üçün cəmiyyətin işlərində fəal, əməli iştirakdansa "kənara çəkilmək azadlığını" nəzərdə tutan elitar konsepsiyalar yəqin ki, Avropa mədəniyyətlərindən fərqlənən mədəniyyətlərə daha çox meyl edəcəkdir. Bununla belə, A.-ın başa düşülməsini formalaşdıran əsas ideoloji və fəlsəfi konstruksiyalar ("ictimai müqavilə" və "vətəndaş cəmiyyəti" nəzəriyyələrində, İnsan və vətəndaş hüquqları bəyannaməsində, beynəlxalq hüquq sənədlərində - BMT- nin nizamnaməsində və s. ifadə edilmiş konstruksiyalar kimi) kəskinləşməkdə olan ekoloji problemlər kontekstində ümumbəşəri xarakter alır. Bir vaxtlar A.-a nail olmaq problemi - insan həyatının konkret tarixi, maddi və mənəvi şəraiti ilə ona qəbul etdirilən dözülməz vəziyyətin aradan qaldırılması üçün yalnız ayrı-ayrı görkəmli şəxsiyyətlər tərəfindən bütün kəskinliyi ilə qaldırılır, sonralar xüsusi qaydada formalaşdırılaraq, müxtəlif ideoloji meyllər üzrə "sürüklənmiş" və arzu olunan, çox vaxt isə ilkin mə`nasına uğursuz istehza kimi görünən adi obrazlara çevrilmişdir. Bəşəriyyətin şüurunda dönüş yarandıqca - əslində bütün adamlar başa düşə biləndə ki, məhz birgə fəaliyyətləri onlara ya layiqincə təmin olunmuş həyat, ya da tənəzzül və məhvolma gətirə bilər, A. problemi insanların öz həyatlarını ağıllı, ahəngdar şəkildə qurmağa səy göstərmələrində getdikcə daha aydın şəkildə əksini tapır. Politoloji tədqiqatlarda siyasətin ənənəvi, o cümlədən hüquqi problemlərində siyasi fəaliyyətin nəzəri cəhətdən işlənib hazırlanmasına dönüş də məhz bununla əlaqədardır. Bu isə insana xas olan ilkin ümumi mənafelərin və dəyərlərin ifadəsi kimi bütün mədəniyyətin "ortadan götürülməsini" nəzərdə tutur. Beləliklə, burada bütün subyektlərin mövqelərinin yaxınlaşdırılmasının maksimum mümkünlüyü məsələsi, başqa sözlə, özlərinin problemlərini optimal həll etmək yollarının birlikdə axtarılmasına münasibətdə hə-

min mövqelərin yenidən formalaşdırılması məsələsi həll olunur. Politoloji fikrin bu və ya digər məktəbləri, istiqamətləri A. problemlərinin əsas rolunu aşkar edə bilmədikdə siyasi praktikanın ideoloji cəhətlərini nəzərdən keçirən xüsusi hallar səviyyəsində qalır. A. problemlərinin məhz həyatverici məzmunu müxtəlif tədqiqat üsullarının ideoloji məhdudluğunu aradan qaldırmağa təkan olur, bu üsullara ümumi humanist normativ-dəyər yönümü verir, onları hərtərəfli inkişaf etmiş, struktur baxımdan formalaşmış subyektə ehtiyacı olan dialoq aparmağa istiqamətləndirir. Bu subyektlərin yetkinliyi siyasi fəaliyyət lahiyələri - siyasi fəaliyyəti tənzimlənən və idarəolunan qarşılıqlı əməkdaşlığa getdikcə daha çox çevirən layihələr işləyib hazırlamaq bacarığı ilə ölçülür. Qlobal xarakter daşıyan təhlükələrin (Şimal-Cənub münasibətlərindəki, keçmiş Covet İttifaqı respublikalarının inkişafında bütün bəşəriyyət üçün təhlükəyə səbəb ola biləcək vətəndaş müharibələrinin başlanması və i.a. aradan qaldırılmasının siyasi mexanizminin formalaşdırılması belə layihələrdəndir. Yeni informasiya texnologiyalarının tətbiqi imkanları həmin texnologiyalar vasitəsilə, bəşəriyyətə onun həyatını şüurlu surətdə tənzimləmək mövqeyindən yanaşmaqla inkişaf edənlərin güclənməsinə kömək edir. Bu, qlobal inkişafın elə bir alternativini formalaşdırmağı nəzərdə tutur ki, həmin texnologiyaların sərbəst seçilməsi elm aləminin ümumi səyləri nəzərə alınmaqla olur. Eyni zamanda bu texnologiyaların mənimsənilməsindəki qeyri-bərabərlik bəşəriyyətin məhz öz inkişaf yolunu seçmək A - ını şübhəaltına alır. Elə bir vəziyyət yaradır ki, Yer kürəsi əhalisinin xeyli hissəsi informasiya əsasında inkişafdan kənarda qalır, onlara "balaca uşaq" kimi münasibət bəslənməsi bir növ təbii şəkil alır. Bunun əsasında da cəmiyyətin "tərbiyəçilərə" və "tərbiyə olunanlara" bölünməsi haqqında məlum nəzəri postulat yaranır.Hələ aradan qalxmamış köhnə münaqişələrlə yanaşı, inkişaf edən qlobal informasiya cəmiyyətinin kəskinləşən yeni münaqişələrini öz üzərinə götürən A. problemləri hökmən daha gərgin, dinamik və intensiv xarakter daşıyacaqdır.

B

"BEŞİNCİ DƏSTƏ" - İspaniyada vətəndaş müharibəsi dövründə (1936-39) bu ölkədə fəaliyyət göstərən Franko agenturasının adı. **"B.d."** termini 1936-cı ildə - frankoçular Madridə hücum edərkən yaranmışdı: qiyamçılar paytaxta dörd dəstə ilə hücum edirdilər, **"B.d."** isə həlledici anda arxadan zərbə endirməli idi. **"B.d."** çaxnaşma salır, sabotaj, təxribat və casusluqla məşğul olurdu. İkinci dünya müharibəsi zamanı müxtəlif ölkələrin faşistlər tərəfindən işğalına kömək gedən nasist agenturasına da **"B.d."** deyilirdi.

Hazırda obrazlı ifadə kimi **"B.d."** rəqibin arxasında fəaliyyət göstərən geniş düşmən agenturası barəsində işlədilir.

"BEYİN AXINI" - Elm, texnika, mədəniyyət sahələrində çalışan yüksək ixtisaslı mütəxəssislərin həyat səviyyəsi aşağı olan ölkələrdən inkişaf etmiş ölkələrə axını.

"BEYİN MƏRKƏZİ" - ölkənin ali rəhbərliyi və ya dövlət başçısı (prezident) yanında formal surətdə təşkil olunmuş ekspertlər və siyasət, iqtisadiyyat və digər bilik sahələri mütəxəssisləri şurası, habelə ölkə rəhbərinin, yaxud ayrılıqda bir idarənin biliklərindən istifadə etdiyi müşavirlərdən, intellektuallardan ibarət qeyri-rəsmi əhatəsi. **"B.m."** anlayışı ikinci dünya müharibəsindən sonrakı illərdə meydana çıxmışdır ("Kennedi beyin mərkəzi"). Həmin dövrdə siyasətdə elmin rolu olduqca artmış, ictimai, siyasi, hərbi və digər elmlər isə o dərəcədə inkişaf etmişdi ki, müvafiq qərarların qəbul olunmasında hakimiyyətin rəhbər idarələrinə xeyli kömək göstərməyə qadir idilər. **"B.m."** xeyli sayda - yüzlərlə, bə'zən hətta minlərlə mütəxəssisi birləşdirə bilər. Onların sayı adətən sabit olmur, dövrün tələblərindən, rəhbərin şəxsi keyfiyyətlərindən, elmi biliyə müraciət etmək və onu qiymətləndirmək meylindən (**bax; EL-Mİ SİYASƏT**) asılı olaraq formalaşa bilər. Siyasi, hərbi-siyasi, hərbi-strateji və s. şəraitlərin ekspertlər tərəfindən qiymətləndirilməsi siyasətin peşəkarlığının xeyli artmasına kömək edir.

BEYNƏLMİLƏLÇİLİK - əsas mənafeləri bir-birinə uyğun gələn, yaxud qüvvələri birləşdirməyə səy göstərən müxtəlif dövlətlərin, millət və xalqların, yaxud onların ayrı-ayrı hissələrinin - siniflərin, sosial-təbəqələrin və qrupların nöqteyi-nəzərləri və siyasəti. B.-in obyektiv əsası istehsalın beynəlmiləlləşdirilməsi, informasiya mübadiləsi əsasında elmi-texniki və mədəni inkişaf prosesindən ibarətdir. Əvvəllər daha çox milli xarakter daşıyan düşmənçiliyin tədricən qlobal şəkildə millətlərarası əməkdaşlıq və həmrəylik səciyyəsi kəsb etməsinə məhz bu prosesin güclənməsi səbəb olmuşdur. XIX və XX əsrlərdə B.-in formalaşmasına öz töhfəsini vermiş müxtəlif siniflərin beynəlmiləl və həmrəylik münasibətlərinin çox mühüm əhəmiyyəti olmuşdur. Burjuaziyanın B.-i rəqabətlə, xüsusilə müxtəlif ölkələrin burjuaziyaları arasında rəqabətlə məhdudlaşır. Bununla belə, o, kapitalizm cəmiyyətinə qədərki quruluşlara qarşı mübarizədə mühüm rol oynayıb, ictimai tərəqqiyə təkan vermiş və hazırda da bir sıra dövlətlərdə fəaliyyət göstərən müxtəlif ittifaq, partiya və hərəkatların əməkdaşlığının ideya-siyasi dayağı olmaqdadır.

Kəndli B.-i müxtəlif ölkələrin kəndlilərinin maraqlarının məhdudluğu və müxtəlifliyi ilə fərqlənir. Lakin o da kəndlilərin əməkdaşlığının, eyni zamanda müvafiq təşkilatların ideya siyasi əsası kimi bir sıra regionlarda kəndli həmrəyliyinin və kəndli hərəkatının inkişafında əhəmiyyətli rol oynayır.

Fəhlə sinfinin (proletariat) B.-in nəzəri əsasları Marks və onun ardıcılları tərəfindən işlənilib hazırlanmışdır. Fəhlə sinfinin tərkibində olan müxtəlif təbəqələrin xüsusi maraqlarının bir-birinə uyğun gəlməməsinə baxmayaraq, proletar B.-i bir sıra beynəlxalq fəhlə təşkilatlarının - partiyaların, həmkarlar ittifaqlarının, I, II və III İnternasionalların, Sosialist Fəhlə İnternasionalının, Sosialist İnternasionalının və digər təşkilatların ideya-siyasi dayağına çevrilmişdir.

III İnternasional (Komintern) proletar B.-inə həmrəylik xarakterini, inqilabçı fəhlə təşkilatlarının, əsasən islahatları inkar edən, ilk əvvəl, kommunist partiyalarının qarşılıqlı əla-

qələri əsasında əldə edilmiş təcrübəni vermişdir. Proletar **B.**-nin belə məhdud, qapalı sistemində aparıcı və tanınmış təşkilatların iyerarxiyası quruldu ki, bunun da başında RK(b)P - ÜİK(b)P - Sov.İKP dururdu. Belə **B.** real sosializm adlanan dövlətlərin qarşılıqlı münasibətləri sistemində inkişaf tapmışdı ki, onun da ideya-siyasi əsasını sosialist **B.**-i təşkil edirdi. Əgər proletar **B.**-i beynəlxalq inqilab hərəkatında Sov.İKP-nin hegemonluğunun möhkəmlənməsi üçün istifadə olunurdusa, sosialist **B.**-i SSRİ-nin "dünya sosialist sistemində", "sosialist birliyində" hegemonluğuna əsaslanırdı.

BEYNƏLXALQ ƏMƏKDAŞLIQ - beynəlxalq münasibətlərin müəyyən istiqaməti və inkişaf səviyyəsi. Müxtəlif sahələrdə beynəlxalq əlaqələrin inkişafının iştirakçılar tərəfindən müntəzəm surətdə əlaqələndirilməsi ilə səciyyələndirilir. Müasir dünya siyasətində **B.ə.** qarşıdurmanın, beynəlxalq münasibətlərdə gərginliyin zəifləməsi prosesi, dövlətlər arasında qarşılıqlı anlaşmanın və qarşılıqlı etimadın möhkəmlənməsi zəminində meydana çıxan alternativ kimi başa düşülür.

Qarşıdurmadan **B.ə.**-a keçilməsinin obyektiv zəruriliyi XX əsrin ikinci yarısında bəşəriyyətin rastlaşdığı qlobal problemlərdən irəli gəlir və ümumi həyəcanı, narahatlığı (dünya nüvə münaqişəsi baş verəcəyi təqdirdə bəşəriyyətin məhv olması təhlükəsi; təhlükəli qeyri-sabitlik və hətta partlayış qorxusu olan iqtisadi geriliyin aradan qaldırılması; təbiətin və insanın salamat qalmasının şərti kimi ekoloji təhlükəsizliyin təmin olunması) əks etdirir.

B.ə.-ın real mümkünlüyü müasir dövrdə dövlətlərarası münasibətləri ideologiyasızlaşdırmaq meyli, bu münasibətlərin iştirakçılarının ümumbəşəri dəyərləri, beynəlxalq hüququn və qarşılıqlı mənafelərin üstünlüyünü ön plana çəkmələri ilə bağlıdır. Yeni əsrin və üçüncü minilliyin astanasında dünyanın mütərəqqi inkişafa və keyfiyyətcə dəyişməyə ehtiyacı var.

"Qorxu tarazlığından" zəka tarazlığına və mehriban qonşuluğa, şəkkaklıqdan və düşmənçilikdən etimada, məhdud milli eqoizmdən sabit beynəlxalq əməkdaşlığa doğru - bunlar müasir **B.ə.**-ın aparıcı prinsiplərindəndir. Belə şəraitdə dövlətlərin inkişaf etməsi yolu ilə seçmək imkanının çox olması geniş və əməli qarşılıqlı əlaqə üçün əsas olur. Buna nail olmağın yolu silahsızlaşdırılmış, zorakılığın olmadığı dünya yaratmaqdan keçir.

Hazırda **B.ə.** bu məsələləri əhatə edir: təhlükəsizlik və silahların azaldılması; iqtisadiyyat, elm, texnika və ətraf mühit sahəsində əməkdaşlıq; mədəniyyət sahəsində və humanitar sahədə, həmçinin insanlar arasında ünsiyyət sahəsində qarşılıqlı əlaqə və dövlətlərin insanın əsas hüquq və azadlıqlarına əməl etməsi.

B.ə. həm ikitərəfli, həm də çoxtərəfli münasibətlər çərçivəsində inkişaf edir. Özü də **B.ə.**-ın subyektləri kimi dövlətlər və hökumətlərlə yanaşı (bunlar **B.ə.**-ın müqavilə-hüquqi infrastrukturunu təşkil edirlər), ayrı-ayrı hüquqi şəxslər (ictimai təşkilatlar, idarələr, müəssisələr, firmalar və s.) və fiziki şəxslər də çıxış edirlər. Onlar **B.ə.** çərçivəsində əlaqələr yaradır; onu maddiləşdirərək konkret məzmunla doldurlar.

Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin - ATƏM-in (1994 ilin dekabrından Avropada təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı - ATƏT) Helsinski Yekun aktında (1975) kontinentdə və dünyada dövlətlərarası münasibətlərin ATƏM-in iştirakçıları tərəfindən razılaşdırılmış aşağıdakı əsas istiqamətləri və prinsipləri ifadə olunmuşdur: suveren bərabərlik, suverenliyə xas olan hüquqlara hörmət edilməsi, zor işlətməmək və ya zor işlətməklə hədələməmək; sərhədlərin pozulmazlığı; dövlətlərin ərazi bütövlüyü; mübahisələrin dinc yolla həlli; bir-birinin daxili işlərinə qarışmamaq; insan hüquqlarına və əsas azadlıqlara hörmət etmək; dövlətlər arasında əməkdaşlıq; beynəlxalq hüquqa dair öhdəlikləri vicdanla yerinə yetirmək.

ATƏT-in üzvü olan dövlətlərin qəbul etdikləri Paris xartiyası (1990) İkinci Dünya müharibəsindən sonrakı dövrdə inkişafa siyasi yekun vurmuş, bəşəriyyət tarixində keyfiyyətcə yeni mərhələyə, sülh mərhələsinə keçidin başlandığını bildirmişdir.

Dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsində dünyanın ən böyük beynəlxalq təşkilatı olan BMT-nin fəaliyyətinin prinsipial əhəmiyyəti var. BMT-nin əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub möhkəmləndirmək, dövlətlər arasında dinc əməkdaşlığı inkişaf etdirmək, iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində **B.ə.**-ı həyata keçirməkdir. Bu məqsədlə BMT-nin ixtisaslaşdırılmış idarələri (YUNKTAD, YUNİDO, YUNESKO, BVF və s.) fəaliyyət göstərir.

Müxtəlif ölkələrin hökumətlərinin çoxtərəfli əməkdaşlığına QATT (Taariflər və Ticarət Haqqında Baş Saziş) misal ola bilər. Onun fəaliyyəti dünya ticarətinə mühüm təsir göstərir, belə ki, dünya ticarətinin həcminin 85 %-i bu sazişin iştirakçısı olan ölkələrin payına düşür. Bunun da nəticəsində beynəlxalq ticarətin ticarət-siyasi tənzimlənməsi xeyli genişlənmişdir.

BEYNƏLXALQ HÜQUQ - xüsusi çoxsahəli, daim inkişaf edən hüquq sistemi. **B.h.** bir tərəfdən, milli hüquq sistemlərinə xas olan bir sıra xüsusiyyətlərlə (mənşəyinin dövlətin iradəsindən asılı olması; hüquq normaları sistemi; bir sıra hallarda bu *normalara əməl olunması və ya bunların pozulması dövlət tərəfindən məcburiyyətə səbəb olur*) səciyyələnir. Digər tərəfdən, **B.h.**-un sırf özünəməxsus, yalnız ona xas olan xüsusiyyətləri var: dövlət suverenliyə və müxtəlif sosial-siyasi sistemlərə malikdir; **B.h.**-un subyektləri üçün məcburi olan hüquq normalarını qəbul etmək səlahiyyətinə malik hər hansı bir qanunvericilik orqanı yoxdur; icra və məhkəmə orqanları yoxdur; beynəlxalq hüququn subyektlərinin xarakteri müxtəlifdir.

Yəni, **B.h.** dövlətin daxili hüququndan subyektlərinə, tənzimləmə mövzusuna, normaların yaranması üsuluna və dövlət məcburiyyətinin həyata keçirilməsi qaydasına görə fərqlənir.

B.h.-un tarixən bütün əvvəlki tipləri ilə müqayisədə, müasir **B.h.** güclünün hüququ deyildir, onun normaları dövlətlərin iradələrinin razılaşdırılması prosesindəyaradılır. Dövlətin müharibə etmək hüququ, qalib tərəfin hüququ, ilhaq, təzminat, dövlətlərin və xalqların "mədəni" və

"qeyri-mədəni"lərə bölünməsi və s. kimi prinsiplər və təsisatlar **B.h.**-dan çıxarılmışdır. Müasir **B.h.**-un *keyfiyyətcə yeni* prinsipləri və təsisatları sırasında sosial quruluşu müxtəlif olan dövlətlərin dinc yanaşı yaşaması, beynəlxalq münasibətlərdə zor *işlətməmək və zor işlətməklə* hədələməmək, xalqların və millətlərin hüquq bərabərliyi və öz müqəddaratını təyin etmək, tərksilah, insan hüquqları və azadlıqlarına hörmət, təcavüzə və digər beynəlxalq cinayətlərə görə (soyqırımı, irqi ayrı-seçkilik, aparteid və s.) dövlətlərin məsuliyyət daşıması, bəşəriyyətə qarşı cinayətlərə görə beynəlxalq cinayət məsuliyyəti prinsiplərini qeyd etmək lazımdır. Müasir **B.h.** beynəlxalq münasibətlərin keçmiş prinsiplərini (dövlətlərin suveren bərabərliyi, dövlət sərhədlərinin, dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı, daxili işlərə qarışmamaq, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi, diplomatik agentlərə imtiyazlar və immunitetlər verilməsi və s.) inkişaf etdirmiş və onları demokratik məzmunla dolğunlaşdırmışdır.

Müasir beynəlxalq münasibətlər sistemində **B.h.** hüquq normalarının ümumdemokratik *sistemi xarakteri daşıyır və bir* növ ümummədəni hüquq sistemidir. Beləliklə, müasir **B.h.**, beynəlxalq hüquq subyektləri *arasında bəşər sivilizasiyasının inkişaf problemlərinə* dair münasibətləri tənzimləyən hüquq normaları sistemidir.

Ayrıca qeyd etmək lazımdır ki, **B.h.** normaları beynəlxalq münasibətlərin iştirakçılarının iradələrini razılaşdırmaq yolu ilə yaradılır və bir sıra hallarda dövlətlər tərəfindən fərdi qaydada və ya kollektiv şəkildə, həmçinin nizamnamələrinə uyğun beynəlxalq təşkilatlar tərəfindən məcburiyyət yolu təmin edilir.

Beynəlxalq hüquq normaları hüquqi məcburiliyi ilə səciyyələnir, onlarda bir sıra hallarda razılaşdırılmış müxtəlif növ məcburiyyət tədbirləri nəzərdə tutan qadağanlar olur. **B.h.** normaları dispozitiv və imperativ normalara ayrılır. Dispozitiv normaların şəkli dəyişə, yaxud bu normalar dövlətlərin iradəsinin razılaşdırılması əsasında konkret məsələ barədə tətbiq edilməyə bilər. İmperativ

normalar dövlətlərin razılığı ilə dəyişdirilə bilməz, bu normaların pozulması isə müqaviləni, sazişi və ya hər hansı beynəlxalq hüquq sənədini qüvvədən salır.

B.h.-un mənbələri beynəlxalq münasibətlərin bütün cəhətləri üzrə beynəlxalq hüquq subyektlərinin iradələrinin razılaşdırılmasının son nəticəsidir. Beynəlxalq məhkəmənin statusunun 38-ci maddəsində deyilir: "Ona təqdim edilmiş mübahisələri beynəlxalq hüquq əsasında həll etməyə borclu olan məhkəmə aşağıdakıları tətbiq edir: a) mübahisə edən dövlətlərin şəksiz qəbul etdiyi qaydaları müəyyənləşdirən həm ümumi, həm də ixtisaslaşdırılmış beynəlxalq konvensiyaları; b) hüquq norması olaraq qəbul edilmiş ümumi praktikanın sübutu kimi beynəlxalq adəti; ə) sivilizasiyalı millətlərin qəbul etdikləri ümumi hüquq prinsiplərini; ə) hüquq normalarını müəyyənləşdirmək üçün köməkçi vasitə kimi 59-cu maddədə göstərilən qeyd nəzərə alınmaqla ("məhkəmənin qərarı yanlış işdə iştirak edən tərəflər üçün və ancaq həmin iş üçün məcburidir"), adi hüquqa dair məhkəmə qərarlarını və ən mötəbər mütəxəssislərinin doktrinalarını".

Yuxarıda sadalanan mənbələrə beynəlxalq təşkilatların elə normativ qətnamələrini də əlavə etmək lazımdır ki, həmin təşkilatların nizamnamələrinə uyğun olaraq bu qətnamələr üzv dövlətlər üçün məcbur olsun.

B.h.-un subyektləri beynəlxalq hüquqi münasibətlərin birbirindən asılı olmayan, hər hansı siyasi hakimiyyətə tabe olmayan, beynəlxalq münasibətlərdə hüquq və vəzifələrini müstəqil həyata keçirməyə hüquqi qabiliyyəti olan tərəflərdir.

B.h.-un subyektləri bunlardır: 1) dövlətlər; öz müqəddaratını təyin etmək hüququnu reallaşdıran millətlər və xalqlar; bunlar suveren (ilkin) subyektlərdir, çünki onların mühüm siyasi-hüquqi xüsusiyyəti - suverenliyi var; 3) beynəlxalq hökumət təşkilatları: 4) dövlətəbənzər özünəməxsus qurumlar (keçmişdə - azad şəhərlər və ya sərbəst ərazilər, hazırda Vatikan). Subyektlərin sonuncu növləri qeyri-suveren (törəmə) subyektləridir, çünki onların beynəlxalq hüquqi statusu suveren dövlətlərin müvafiq nizamnamə və ya müqavilə şəklində razılaşmalarına əsaslanır.

B.h.-un siyasətlə sıx əlaqəsinin olması bir sistem kimi onun xüsusiyyətidir. Dövlətlərin milli və qrup mənafeləri beynəlxalq münasibətlər problemlərinə dair mövqeyinin formalaşmasında və bunların həllinin metod və vasitələrinin müəyyən edilməsində mühüm yer tutmaqda davam edir. Müasir beynəlxalq münasibətlərdə birqütblü sistemdən çoxqütblü sistemə keçildiyi, ideoloji amilin dünya siyasətinə təsirinin azaldığı , qlobal problemlərin xarakterinin mürəkkəbləşdiyi və sayının artdığı indiki şəraitdə dövlətlərin və **B.h.**-un digər subyektlərinin qarşılıqlı əlaqələrinin ənənəvi sahələrində beynəlxalq əməkdaşlığ: , həmçinin kosmos, ekologiya, dünya okeanı sərvətlərinin mənimsənilməsi və s.kimi yeni istiqamətlərdə əməkdaşlığı hüquqi baxımdan tənzimləmə sistemi kimi **B.h**-un obyektiv rolunun artması meyli nəzərə çarpır.

BEYNƏLXALQ MÜNASİBƏTLƏR - Xalqlar, dövlətlər və dövlət birləşmələri arasında siyasi, iqtisadi, diplomatik, hərbi, mədəni, elmi-texniki əlaqələrin və qarşılıqlı münasibətlərin məcmusu.

B.m. bir neçə minilliklər bundan əvvəl dövlətin meydana gəlməsi ilə bir vaxtda yaranmış və bütün qitələrdə inkişaf etmişdir. Lakin Avropa ölkələrinin iqtisadi və hərbi qüdrətinin nisbətən sürətlə artması, xüsusilə də XV əsr - XVI əsrin əvvəllərində böyük coğrafi kəşflərdən sonra Afrikada, Latın Amerikasında, Asiyada, həmçinin Avstraliyada ölkə və regionların Avropa işbazları və hökumətləri tərəfindən müstəmləkələşdirilməsi onları **B.m.**-də müstəqil rol oynamaqdan məhrum etdi, onlar **B.m.**-in ən mühüm ünsürü kapitalist ölkələri arasında ziddiyyətlər, XIX əsrin sonu - XX əsrin əvvəllərində isə imperialist ölkələri arasındakı ziddiyyətlər mənbəyi olmuşdur. **B.m.**-i xeyli dərəcədə müəyyən etmiş bu ziddiyyətlər indi də öz əhəmiyyətini itirməmişdir.

1917-ci ildə Rusiyada sosialist inqilabı nəticəsində dünyada bir-birilə əks cəbhədə duran iki sosial-iqtisadi sistem yarandı, **B.m.**-in xarakteri çox dərəcədə

onların arasındakı mübarizə ilə müəyyənləşdi.

Bununla belə, XVIII əsrin sonunda Amerika inqilabı dövründən başlayaraq bizim günlərədək müstəmləkə ölkələri xalqlarının öz azadlıqları uğrunda mübarizəsi baş vermişdir. Nəticədə XX əsrin sonuna yaxın dünyada öz aralarında **B.m.**-ə girmiş böyüklü-kiçikli müstəqil dövlətlərin sistemi yaranmışdır. Əgər əsrlər boyu **B.m.**-in xarakter və məzmunu müxtəlif dövlətlərin hakim siniflərinin mənafeləri ilə müəyyən edilirdisə, sonuncu onilliklərdə ölkələrin qarşılıqlı asılılığının və birbirinə qarşılıqlı təsirinin artması, dünya bazarının və beynəlxalq əmək bölgüsünün inkişafı şəraitində **B.m.**-i getdikcə daha çox ümumbəşəri mənafelər müəyyən etməyə başlamışdır. Beynəlxalq münasibətlərdə belə dönüş elmi-texniki və elmi-texnoloji inqilabların inkişafı ilə bağlı idi ki, bunların nəticəsində geniş regionları əhatə edən informasiya mübadiləsi intensivləşmiş, infrastrukturlar yaranmışdı.

Eyni zamanda hərb işində elmi-texnoloji inqilab və hər şeydən əvvəl, nüvə silahının və böyük radiuslu hərəkət raketlərinin yaradılması sosial-iqtisadi quruluşdan asılı olmayaraq bütün ölkələri real surətdə tam məhv olmaq təhlükəsi qarşısında qoydu.

B.m. təbii mühitlə, bu mühitdə baş verən coğrafi, iqlim, xammal və enerji ehtiyatlarının vəziyyəti prosesləri ilə qarşılıqlı əlaqədardır. Həm də nəzərə almaq lazımdır ki, təbii mühitin sərhədləri daim genişlənir. İnsanın kosmik fəzaya yol açması bunu bir daha təsdiqlədi. İnsan təkcə ayrıca şəxsiyyət, ailə, yaxud nəsil, dövlətlər, bunların ittifaqları nöqteyi-nəzərindən deyil, həm də planet baxımından düşünməyi və hərəkət etməyi bacarar və bacarmalıdır (V.İ.Vernadski). İnsanın təbiətlə intensiv qarşılıqlı əlaqəyə girməsi, onun təsərrüfat fəaliyyəti prosesində təbii mühitə müdaxiləsi qlobal, ümumbəşəri problemlərin **B.m.**-də ilk yerlərdən birinə irəli sürülməsinə səbəb olmuşdur. XX əsrin sonunda nüvə müharibəsinin qarşısının alınması vəzifəsi ilə yanaşı, yeni, insan yaşayan mühitin mühafizə edilməsi vəzifəsini irəli

sürmüşdür ki, buna da yalnız bütün ölkələrin və xalqların birgə səyləri ilə nail olmaq mümkündür. Bu problem **B.m.**-in başlıca istiqamətlərindən birinə çevrilmişdir.

B.m.-in ən mühüm tərkib hissəsi dövlətlərarası münasibətlərdir. Bu münasibətlər, hər şeydən əvvəl, dünya təsərrüfatının vəziyyətini əks etdirən dünya iqtisadi situasiyasının təsirini öz üzərində hiss etməkdədir. Dünya iqtisadiyyatının yüksəlişi, yaxud tənəzzülü, xammal, istilik-enerji, ərzaq sahələrində vəziyyət, bu və ya digər dövlətin beynəlxalq iqtisadi münasibətlərə cəlb edilməsi dərəcəsi, idxal və ixracdan, xarici kredit və istiqrazlardan onun asılılığı - bütün bu amillər **B.m.**-ə əhəmiyyətli təsir göstərir. Dövlətlərarası münsibətlərə, həmçinin sənayecə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında münasibətlərin ümumi xarakteri (Şimal-Cənub), elmi-texniki tərəqqinin, o cümlədən hərbi işdə elmi-texnoloji inqilabın inkişafı da təsir göstərir. Digər tərəfdən, dövlətlərarası münasibətlərin vəziyyəti (məsələn, dünya "soyuq müharibə"dən yaxa qurtara biləcəkmi, yaxud, **B.m.**-in yumşalması və normallaşması) də dünya iqtisadi situasiyasına təsir göstərir.

B.m.-in dövlətlərarası aspekti məsələsi ilə əlaqədar hərbi-strateji amili də qeyd etmək vacibdir. Bu sahədə təqribi qüvvələr tarazlığı **B.m.**-i sabitləşdirir, həmin tarazlığı pozmaq cəhdləri isə dövlətlərarası münasibətlərə və bütövlükdə **B.m.**-ə hiss ediləcək dərəcədə mənfi təsir göstərir.

Ayrı-ayrı dövlətlərin **B.m.**-ə təsiri müxtəlifdir: bu, əhəmiyyətli ölçüdə həmin dövlətin malik olduğu maddi və insan ehtiyatları, habelə onun daxili sabitliyi ilə əlaqədardır. **B.m.**-in iştirakçıları arasında elə ölkələr vardır ki, onları böyük dövlətlər adlandırırlar. Adətən, belə təyinat, ilk əvvəl, nüvə silahına yiyələnmiş və BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ABŞ, Rusiya, İngiltərə, Fransa və Çinə aid edilir. Hazırda böyük dövlətlər sırasında Almaniya Federativ Respublikası, Yaponiya və Hindistanın da adlarını getdikcə daha tez-tez çəkirlər. Bu və ya digər dövlətin böyük dövlətlər klubuna mənsubiyyəti

onların sülhün qorunmasında məsuliyyətlərini ciddi surətdə artırır.

B.m.-in digər mühüm ünsürü məhəlli dövlətlərarası birliklər - hərbi-siyasi və iqtisadi koalisiyalar və ittifaqlar, inteqrasiyaya daxil olmuş təşkilatlar arasındakı münasibətlərdir. Bir qayda olaraq, belə təşkilatların yaradılmasının əsasında iştirakçı dövlətlərin mənafe və məqsədlərinin uyğun gəlməsi, təşkilatın birləşmiş, ümumi qüvvəsindən öz məqsədlərinə nail olmaq üçün istifadə etmək səyi durur. Belə birliklərdə adətən aparıcı dövlət, lider fərqlənir. Birliyin üzvləri arasında tədricən xüsusi, spesifik münasibətlər təşəkkül tapır. Belə birliklərin üzvləri arasında ziddiyyətlər yox olmur, lakin tədricən yaranan mexanizm və təsisatlar bu ziddiyyətləri nizama salmağa kömək edir.

Onilliklər ərzində daha nüfuzlu dövlətlərarası birliklər Şimali Atlantika bloku (NATO) və Varşava Müqaviləsi Təşkilatı (BMT) olmuşlar. Bu iki birliyin qarşıdurması 1990-cı ilə qədər xeyli dərəcədə **B.m.**-i müəyyən edirdi: həmin vaxtdan Sovet İttifaqında və digər Şərqi Avropa ölkələrində dərin dəyişikliklər nəticəsində BMT-nin öz-özünü ləğv etməsi prosesi başlandı.

Dünya siyasətində müəyyən rol oynamış dövlətlərarası məhəlli birləşmələri arasında, həmçinin Ərəb Dövlətləri Cəmiyyətini (ƏDC), Cənubi-Şərqi Asiya Ölkələri Assosiasiyasını (ASEAN), Asiya-Sakit okean Şurasını (AzPAK), Afrika Birliyi Təşkilatını (ABT) və s. göstərmək olar.

B.m.-in subyekti və ona təsir göstərən amillər arasında, habelə 1957-ci ildə yaranmış Avropa İqtisadi Birliyi (AİB) və 1949-cu ildə yaranaraq 90-cı illərin əvvəllərinə qədər fəaliyyət göstərmiş Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) kimi beynəlxalq iqtisadi birliklərin də adı çəkilə bilər. Belə birliklər digər qitələrdə də yaradılmışdır.

Nəhayət, **B.m.**-in üçüncü ünsürü ümumdünya siyasi hökumət və qeyri-hökumət təşkilatlarıdır. Beynəlxalq Ümumdünya hökumət təşkilatı üzv dövlətlər adından beynəlxalq hüququn əlahiddə və müstəqil subyekti kimi çıxış edir. Belə

rövlü daha çox universal və mühüm təşkilat Birləşmiş Millətlər Təşkilatıdır (BMT); mövcud olduğu müddətdə (1945 ildən) özünü **B.m.**-i sabitləşdirməyə kömək etməyi, münaqişələri nizama salmağı, dövlətlər arasında qarşıdurmanı zəiflətməyi bacaran amil kimi göstərmişdir. **B.m.** sisteminə qeyri-hökumət təşkilatları da, məsələn, Cenevrədə və Nyu-Yorkda tərksilah məsələləri üzrə komitələr, Cenevrədə insan hüquqları komitəsi və s. daxildir.

B.m.-in formalaşmasında iştirak edən təşkilatlar arasında qarışıq tipli təşkilatlar da vardır. Tərkibində hökumət, sahibkar birlikləri və həmkarlar ittifaqları nümayəndələrinin təmsil olunduğu Beynəlxalq Əmək Təşkilatı buna nümunə ola bilər.

BEYNƏLXALQ TERRORİZM - dünya siyasətində yayılmış hal; beynəlxalq münasibətlərin *normal* gedişini təhlükə altına alan terrorçuluq aktları formasında zorakılığın yayılması ilə bağlıdır.

Universal tərifini verməyin, bəzi hallarda terrorçuluq əməlləri törədilməsinə görə məsuliyyətin siyasi-hüquqi çərçivələrini müəyyənləşdirməyin mümkünlüyü baxımından **"B.t."** anlayışı hüquqi xarakterdən daha çox publisistik səciyyə daşıyır.

B.t.-ə qarşı mübarizə zərurəti aşağıdakı hallarda yaranır: terrorçuluq əməli törətmək cəhdi, onu təşkil etmək və onda iştirak etmək, həmçinin onu həyata keçirməyin forma və metodları beynəlxalq hüquqa əsasən qadağan olunduqda və ya beynəlxalq münasibətlərdə "yus obtio" mənası kəsbedən adətə görə təqib edildikdə; zorakılıq əməlinə məruz qalan obyektə beynəlxalq hüquqa əsasən müdafiə imkanı verildikdə; zor işlətmək və ya zor işlətməklə hədələmək hərəkətini beynəlxalq hüquq obyekti etdikdə və bəzi hallarda, buna həmin sistem çərçivəsində baxılmalı olduqda, yaxud həmin hərəkət fiziki və ya hüquqi şəxs tərəfindən edildikdə, lakin beynəlxalq sülh və təhlükəsizlik üçün qorxu törətdiyinə və ya bu hərəkətin tərkibində beynəlxalq ünsür olduğuna görə beynəlxalq nəticələr törətdikdə.

II Dünya müharibəsindən əvvəl, 1937-ci ildə Millətlər Cəmiyyəti 1934-cü il oktyabrın 4-

də Marseldə Yuqoslaviya kralı I Aleksandrın və Fransanın baş naziri Lui Bartunun öldürülməsi ilə əlaqədar terrorizm hərəkətlərinin qarşısının alınması və cəzalandırılmasına dair konvensiya işləyib hazırlamağa cəhd göstərmişdi (lakin qüvvəyə minməmişdir).

II Dünya müharibəsindən sonra, 1972-ci ilin sentyabrında Münhendə Olimpiya oyunlarında faciənin baş verməsi bu sahədə dünya birliyinin öz səylərini gücləndirməsinə səbəb oldu. Həmin oyunlarda İsrailin idman komandası terrorçuların basqınına məruz qalmışdı. BMT Baş Məclisinin 27-ci sessiyasından etibarən hər il "Beynəlxalq terrorizmin qarşısını almaq tədbirləri" müzakirə edilir. 1972-ci ilin dekabrında 3034-cü qətnamə əsasında Beynəlxalq terrorizm məsələləri üzrə xüsusi komissiya yaradılmışdır. Tam tərkibli üç yardımçı komitəsi olan komissiyaya 34 dövlət daxildir. Lakin beynəlxalq terrorizm hərəkətlərinin qarşısını almağa və belə hərəkətləri cəzalandırmağa dair universal konvensiya hələ də qəbul edilməmişdir. Bunun əsas səbəbi isə həmin məsələyə siyasi-hüquqi baxımdan həddən artıq geniş, yanlış yanaşılmasıdır. Bu da ondan irəli gəlir ki, "beynəlxalq terrorizmin" cinayət tərkibinin bitkin tərifini vermək prinsip etibarilə mümkün deyildir.

Ümumən götürdükdə, Millətlər Cəmiyyəti və BMT bu məsələdə fiziki şəxslərin və mütəşəkkil qrupların terrorçuluq fəaliyyətini dövlətlərin həyata keçirdikləri terror siyasətindən ayıran və bərəsində terrorçuluq əməli törədilmiş şəxsin müəyyən funksiyaları və ya əmlakın xüsusi vəziyyəti nəzərə alınmaqla beynəlxalq xarakterli terrorçuluq hərəkətlərinə qarşı müdafiə imkanı verən konvensiyalar (II ixtisaslaşdırılmış konvensiya və protokol) hazırlamaq yolu ilə getmişlər.

Konvensiyaların daha mükəmməllərində aşağıdakı müddəalar təsbit olunmuşdur:

- müvafiq konvensiyaların şamil olunduğu cinayət tərkibinin müəyyən edilməsi (əgər bu cinayət tərkibi milli qanunvericilikdə yoxdursa və ya onun məzmunu, təfsiri baxımından fərqlər vardırsa);

- müvafiq konvensiyaların

şamil olunduğu terror əməllərinin cinayət kimi qiymətləndirilməsi; bu, törədilmiş cinayətlər üçün cəzanın labüdlük dərəcəsini artırır;

- cəzanın labüdlüyünü təmin edən "aut dedere - aut yusicare" - "təhvil ver, yaxud mühakimə et" formulunun mexanizmə daxil edilməsi;

- müvafiq konvensiyalara qoşulmuş dövlətlərin öz öhdəliklərinin yerinə yetirilməsini təmin etmək üçün milli qanunvericiliklərdə zəruri tədbirlər görmək barədə öhdəlikləri;

- müvafiq konvensiyalara qoşulmuş dövlətlərin həmin konvensiyaların qüvvədə olması ilə bağlı prosessual məsələlərdə əməkdaşlıq etmək barədə öhdəliyi.

Qeyd etmək lazımdır ki, beynəlxalq xarakterli terror əməlləri ilə mübarizə sahəsində qüvvədə olan konvensiyaların heç birində terrorçu təşkilatların fəaliyyətinə dair xüsusi müddəalar yoxdur. Halbuki, beynəlxalq münasibətlərə təsir edən terror əməlləri yalnız xüsusi təşkilatın ciddi hazırlıq işi nəticəsində törədilə bilər.

Hazırda beynəlxalq səviyyədə terrorizmlə mübarizədə dövlətlərin siyasi-hüquqi əməkdaşlıq metodları sırasında optimal olan konvensiya mexanizmidir. Bununla belə, dünya qaydalarının təşəkkülü çərçivəsində Beynəlxalq cinayət məhkəməsi ideyasının yenidən qaldırılması da mümkündür.

BƏRABƏRLİK - bəşəriyyətin bütün tarixi ərzində təzahür edən və dəyişən tarixi mərhələlərdə müxtəlif cür dərk olunan sosial ideal; insanlara zəruri sosial şərait yaradılmasını, onların hüquq və azadlıqlarına əməl olunması imkanları yaradılmasını nəzərdə tutan prinsip; demokratik cəmiyyətin əsas dəyəri, ən yüksək siyasi dəyərlərdən biri, ədalət prinsipinin təcəssümü. Ən qədim dövrlərdə **B.** prinsipi təbii ehtiyatların və istehsal edilən məhsulların azlığı ilə müəyyən olunurdu. Bu isə qəbilə və tayfa birliklərində sərt təsnifata, zəiflərin "çıxdaşına" gətirib çıxardı. Quldarlıq cəmiyyətində **B.** prinsipi qullara deyil, azad vətəndaşlara şamil olunurdu. Bununla yanaşı son antik dövrdə stoiklər, Qədim Çində və Qədim Hindistanda daosizm və buddizm insanların

ali qüvvə qarşısında bərabərliyi haqqında müddəalar irəli sürür və sosial **B.**-in zəruriliyini əsaslandırırdılar.

İnsanların qanun qarşısında bərabərliyi ideyası əmtəə istehsalının inkişafı ilə meydana gəlmişdir. Lakin bu ideyanın utopik şərhi (T.Mor, T.Kampanella) xüsusi mülkiyyətin aradan qaldırılmasının zəruriliyi ilə əlaqələndirilirdi. Burjua inqilabları dövründə azadlıq, bərabərlik və qardaşlıq prinsiplərinin tədqiq edilməsi **B.** idealının işlənib hazırlanmasına yeni təkan verdi. **B.** prinsipi sonralar hüquqi dövlət ideyasında, burjua demokratiyasının dəyərlərində əksini tapmışdır. XIX əsrdə sosial **B.** sosial-sinfi fərqlərin olmaması (minimallaşması) kimi şərh edilirdi. Utopik sosialistlər və onların bərabərsizliyin əvəzinə çox vaxt **B.**-in tənzimlənməsini, hər bir fərdin inkişafı üçün əvvəlcədən kəşf olunmuş miqyasın üstünlüyünü irəli sürürdülər. Marksizm mexaniki bərabərçiliyi inkar edir, hər cür sosial ayrı-seçkiliyin aradan qaldırılmasını ön plana çəkirdi. Hamı üçün tam bərabərliyə nail olunması hər kəsin qabiliyyətinin üzə çıxarılması ilə əlaqələndirilirdi. Bununla belə,XX əsrdə əsasən ABŞ-da imkanlar bərabərliyi konsepsiyası işlənib hazırlanır.

Müasir fəlsəfədə və elmdə **B.** onun müxtəlif ardıcıl növlərindən ibarət olan proses kimi nəzərdən keçirilir: təhsildə "start" (imkanların bərabərliyi) şəraiti və sosial müdafiə mərasimində "finişqabağı" şərait yaratmaqdan ibarət olan sosial **B.** siyasətinin təmin edilməsi; iqtisadi mənada biznesə cəlb edilmənin həvəsləndirilməsi; siyasi mənada irqi və etnik azlıqlar, qadınlar üçün həqiqi bərabərliyin təmin olunması. "Nəticələrin bərabərliyi" (prosesin məqsədi), yəni bərabərliyin nə dərəcədə və kimdən ötrü real olmasının aşkar edilməsi yekun mərhələsidir.

Siyasi-psixoloji mənada **B.** arzu və ideal, ən yüksək ümumhumanist dəyər və hüquqi, siyasi və sosial qaydanın konkret təminatları sistemidir. Bu, idealın və reallığın, şüarların və bunların həyata keçirilməsinin uyğunluğunu qiymətləndirmək üçün əsas anlayışdır. Çünki əmlak vəziyyətindəki bərabərsizlik (kapitalizmdə), hüquq və təminatların mövcudluğundakı və miqyasındakı (real sosializmdə) bərabərsizlik, ehtiyatlara nəzarət edilməsindəki bərabərsizlik (dövlətlər və regionlar arasındakı münasibətlərdə) tez başa düşülən və birmənalı qiymətləndirilən faktdır. İnsan hüquqları nəzəriyyəsi **B.** probleminin işlənib hazırlanmasına mühüm təkan olmuşdur. Həmin nəzəriyyə 1948-ci il dekabrın 10-da BMT-nin qəbul etdiyi İnsan hüquqları haqqında ümumi bəyannamədə ifadəsini tapmışdır.

Fransa hüquqşünası K.Vasak bu hüquqları üç pilləyə bölür: azadlıqla əlaqələndirilən (əgər "azadlıq, bərabərlik, qardaşlıq"düsturu əsas götürülərsə) vətəndaş hüquqları və siyasi hüquqlar; iqtisadi, sosial və mədəni hüquqlar ("bərabərlik"); həmrəylik hüquqları ("qardaşlıq"). Lakin hüquqların hər üç pilləsi bir-birini qarşılıqlı surətdə dəstəkləyərək elə vəziyyət yaradır ki, burada **B.** mərkəzi əsas yer tutur. Məsələn, azadlığı möhkəmləndirmədən sosial **B.** uğrunda hərəkət baş tuta bilməz və o, qardaşlıq dəyərlərinə söykənir. Xüsusilə sülh uğrunda hərəkatda hüquqların hamısı daha aydın təzahür edir. İngiltərə-Amerika politoloqları azadlıq və bərabərliyi qarşı-qarşıya qoyur, bərabərliyi sosial həyatda cilalayıcı başlanüıc kimi şərh edirlər. Keçmiş SSRİ-də ictimaiyyatşünaslar bərabərçilik motivlərini vahid şəklə salır, lakin bərabərliyin sosial təminatlarla, təhsil, sağlamlıq, pensiya təminatı haqqında real sistemlə dolğunlaşdırılmasını əsas götürürdülər. Sosializm şəraitində bərabərliyin həyata keçirilməsi göstərdi ki, hüquq və imkanların **B.**-i sosial strukturun vahid şəklə salınması demək deyildir; müasir cəmiyyətdə bərabərliyə təhsil, gəlir, sosial status səviyyəsinə görə təbəqələrin bərabərsizliyi vasitəsilə nail olmaq mümkündür; sosial strukturun həddən artıq bəsitləşdirilməsinin ("iki dost sinif və bu siniflər arasındakı təbəqə") bəyan edilməsi millətçilik, bölüşdürücülük, imtiyazlar və s kimi bəlaları doğura bilər.

XX əsrin təcrübəsi göstərmişdir ki, eyni bir dövlətin hər hansı millətdən və ya etnik qrupdan olan əməkçi siniflərinin, vətəndaşlarının mənafelərinin yalnız "eyniliyi" baxımın-

dan tətbiq olunan bərabərçilik, "yeganə düzgün təlimlərlə" müqəddəsləşdirilən bərabərçilik dünyanın ən müxtəlif regionlarında repressiya rejimlərinin ört-basdır olunmasına da xidmət edə bilər.

Bəşəriyyət tarixində **B.** ideallının ardınca insanların qeyri-bərabərliyinin aradan qaldırılmasının mümkün olmaması və buna haqq qazandırılması ideyası gəlir. Qulun "danışan alət" sayılması, cəmiyyətin insan orqanizminə bənzədilməsi (rəhbərlik edən baş, icra edən əl və ayaqlar), silki maneələrin və əsilzadəliyin müqəddəs tutulması, kapitalizmdə əmlak bərabərsizliyini təsbit etmək məddahlığı, azadlığın qeyri-bərabərlik hüququ kimi izah olunması, nəhayət, "daha çox bərabər" və "daha az bərabər" olanlar haqqında məlum metafora - bütün bunlar tarixin müxtəlif dövrlərində sosial **B.** ideyasının izahındakı dolaşıqlığı göstərir. Məsələn, Hayek haqlı olaraq yazırdı ki, əvvəla, "formal surətdə qanun qarşısında **B.** dövlətin müxtəlif adamların maddi **B.**-ni təmin etməyə yönəldilmiş hər hansı fəaliyyəti ilə düz gəlmir və ədalətli bölgü ideyasına əsaslanan hər bir siyasi xətt hökmən qanunçuluğun pozulmasına gətirib çıxarır", "sosializm bərabər yox, yalnız çox bərabər, daha ədalətli bölgü" vəd edirdi, planlaşdırma prinsipinə əsaslanmaqla "böyük bərabərliyə" nail olmaq mümkün deyildir. Bununla belə, bütün sivilizasiyalı cəmiyyətlərdə "böyük bərabərliyin" təmin olunması onların sosial (təhsil, pensiya və s.) proqramlarının məzmununu təşkil edir. **B.** nəzəriyyələrinin işlənib hazırlanması isə məhz "böyük bərabərliyə" istiqamətlənmişdir. Nəticələr uyğun gəlməyəndə imkanların bərabərliyi ideyası, siyasi proseslərə demokratik nəzarət hüququ, idarəetməyə dair qərarların qəbul olunmasında əməkçilərin getdikcə daha çox hissəsinin iştirakı buna sübutdur.

Bərabərsizlik ideyasının ən yeni şərhləri bəzən "yüksək təbəqənin biologiyası" kimi izah edilən sosial biologiyanın müddəalarına əsaslanır. Hətta iqtisadi baxımdan əsaslandırılır ki, bərabərsizliyi aradan qaldırmaq mümkün deyildir. Bu baxışların tərəfdarları imkanların bərabərliyini inkar edir və deyirlər ki, 60-cı illərin təcrübəsi bərabərliyin həyata keçirilməsinin mümkün olmadığını göstərdi.

XX əsrdə **B.** idealı getdikcə daha çox fəlsəfəyə, sosiologiyaya, politologiyaya söykənməklə şərh edilir.

BİLL (ing. bill, son lat. bulla - möhürlü sənəd) - anqlsaks hüquq sisteminin mövcud olduğu dövlətlərin qanunvericilik orqanlarının müzakirəsinə verilən qanun layihəsi.

BİOSİYASƏT, Biopolitika (ing. biorolitics sözündən) - siyasi fenomenlərin öyrənilməsində bioloji anlayışlardan və tədqiqat metodlarından istifadə etməyə yol verən konsepsiya. E. Vilsona görə, sosiobiologiyadan fərqli olaraq, **B.** heyvanların, həşərat qruplarının müxtəlif növlərinin öyrənilməsinə əsaslanan izah prinsiplərini Nomo sapiens-ə tətbiq etməyə, davranışın ictimai formalarının öyrənilməsinə təkamül mövqeyindən yanaşılmasını əsaslandırmağa çalışır. Lakin o, sosial həyatın tənzimlənməsinin sabitləşmiş formaları ilə məşğul olan dəyər mülahizələrindən yan keçir. Vaxtilə Platon və Aristotel siyasi həyatda bioloji amillərin əhəmiyyətini qeyd etmişdilər. Onlar deyirdilər ki, bəzi adamlar təbiətən köləlik, elə bu səbəbdən də qadınlar kişilərə itaət etməlidirlər və i.a. Söhbət siyasi fəlsəfənin böyük kəşfindən - siyasətin duyulan, insani təbiətindən, onun bütün sosial, iqtisadi, idcoloji və digər determinasiyalarının dərindən öyrənilməsindən gedirdi. Bu problemi N.Makiavelli, T.Hobbs, C.Lokk və digər tədqiqatçılar dəfələrlə nəzərdən keçirmişlər. Həmin problemə XIX əsrdə sosial-darvinizm, XX əsrdə freydizm, etologiya və qismən sosial biologiya tərəfdarları müraciət etmişlər. Bu konsepsiyaların hamısı **B.** konsepsiyasının yaradılmasına kömək göstərmişdir. Siyasətə biotəsir məsələlərinin daha incə şərh edildiyi psixobioloji ənənəni də buraya daxil etmək olar. Təcavüzkarlıq, zorakılıq, müdafiə reaksiyası, hərəkətin əlaqələndirilməsi - bütün bunlar **B.**-nın diqqət mərkəzində olmuşdur. Məsələn, üstün olmaq qrup üzvlərinin diqqətini cəlb etmək bacarığı kimi şərh edilirdi (bu fenomen etologiya çərçivəsində yaxşı öyrənilmiş-

dir). Bu cür cəlbetmənin aqonik (qorxu və gücü nəzərə çarpdırmaqla) və gedonik (mərhəmət, təskinlik, həvəsləndirmə) kimi iki tipi var. Primatların hərəkətləri göstərir ki, təsirli lider axtarmaq hissi oyadan "yoxsulluq ehtiyacı"nın, stressin təkanı liderlik rolunu yüksəltməyin mühüm vasitəsidir. Ümumən lider davranışına daha yaxın olan şəxsiyyət başqalarına nisbətən stressə daha çox meyllidir. Sağlamlıq vəziyyəti və fiziki yararlıq, fəallıq, xarici görkəm, boy və çəki, stress hərəkətinin fizioloji indikatorları, habelə psixofizioloji oyanma və beyin proseslərinin strukturları kimi amillər lider üçün (adi adam üçün olduğu kimi) də əhəmiyyətlidir. Hansı dərmanlardan istifadə edildiyini, hansı bioloji ritmin mövcud olduğunu ("səhər", yoxsa "gecə" şəxsiyyəti), qidalanma üsulu, müşahidə, qeyri-verbal kommunikasiya, fizioloji ölçmələr kimi nəzarət metodlarını bilmək vacibdir. Biosiyasi tədqiqatlar "bədənin dili", bədən hərəkətlərinin və üz ifadələrinin "dialoqu", əl-qol hərəkətinin, nitqin, sosial rolun və təəssürat yaratmaq tələbatının nisbəti kimi fenomen ətrafında da cəmləşdirilə bilər. Bu cəhətdən yeriş, ünsiyyətdə "öz" və "özgə" ərazisinə münasibət, geyim formasına uyğun surətdə hərəkətlərin səciyyəsi əhəmiyyətli ola bilər.

Siyasi davranışın cinsi-yaş xüsusiyyətləri də **B.**-in diqqət mərkəzindədir. **B.**-in məqamlarından biri doğum üzərində nəzarət vasitələrinin təhlilidir. Həvəsləndirici (Fransa və s.), qadağanedici (Çin) və ya digər səciyyəli müxtəlif qanunların məqsədi insan ehtiyatlarını tənzimlətmək olsa da, onlara vətənpərvərlik, seçilmiş sosial idellara sədaqət və s. ideoloji donu geydirilir. Hətta "qeyri-müasir" qadağanların (məs., katoliklər arasında abortun qadağan edilməsi) da real məqsədləri (o cümlədən kilsələrin "kəmiyyət" qüdrətini artırmaq cəhdi) var. ABŞ-da 80-ci illərdə abort hüququ məsələlərinə dair müzakirələrin gedişində ən müxtəlif təbiətli və səviyyəli fikirlər xüsusilə aydın meydana çıxmışdır.

Bir sıra uğurlu nəticələrə baxmayaraq, bütünlükdə götürdükdə **B.** ümumbioloji qanunauyğunluqlara arxalanmaqla sosial-siyasi həyatın tənzimlənməsi mexanizmləri kimi fenomenin tədqiqində hələlik yalnız formalaşmaqda olan istiqamətdir.

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI (BMT) - beynəlxalq təşkilat: əsas vəzifəsi beynəlxalq sülh və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. Təşkilatın fəaliyyətinin əsasları və onun strukturu İkinci Dünya müharibəsi illərində antihitler koalisiyasının başlıca iştirakçıları tərəfindən işlənib hazırlanmışdır. BMT-nin yaranmasında SSRİ, ABŞ və B.Britaniya xarici işlər nazirlərinin Moskva müşavirəsi (1943), Dumbarton-Oks konfransı (1944), Krım konfransı (1945), San-Fransisko konfransı (1945) mühüm mərhələ olmuşdur. BMT-nin Nizamnaməsi 1945 il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən (həmin ölkələr, habelə Polşa BMT-nin ilk üzvləri hesab edilir) imzalandı və 1945 il oktyabrın 24-də qüvvəyə mindi (24 oktyabr hər il Birləşmiş Millətlər Təşkilatı günü kimi qeyd olunur). BMT Nizamnaməsində SSRİ-nin və bütün mütərəqqi qüvvələrin səyləri nəticəsində beynəlxalq əməkdaşlığın aşağıdakı demokratik prinsipləri təsbit edilmişdir: BMT-nin bütün üzvlərinin suveren bərabərliyi; mübahisəli məsələləri dinc yolla həll etmək; beynəlxalq münasibətlərdə hədə-qorxu gəlməkdən, yaxud zor işlətməkdən imtina etmək; BMT-nin hər hansı dövlətin daxili səlahiyyətinə aid işlərə qarışmaması və s.

BMT Nizamnaməsində göstərilən vəzifələri qəbul edib yerinə yetirə bilən və yerinə yetirmək arzusunda olan bütün sülhsevər dövlətlər BMT üzvü ola bilər. Hər hansı dövlət BMT üzvlüyünə Təhlükəsizlik Şurasının zəmanəti ilə Baş Məclis tərəfindən qəbul edilir. BMT-yə 185 dövlət daxildir (1 yanvar 1997).

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir. Baş Məclis Nizamnamə daxilində BMT-nin bütün orqanlarının səlahiyyətinə və funksiyasına aid məsələləri həll etmək və bu məsələlər barədə tövsiyələr ver-

mək hüququna malikdir (bax; **BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ MƏCLİSİ**). Beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət Təhlükəsizlik Şurasının üzərinə düşür. İqtisadi və İctimai Şura BMT-nin beynəlxalq iqtisadi və ictimai əməkdaşlıq sahəsindəki funksiyalarını həyata keçirir. Qəyyumluq Şurası beynəlxalq qəyyumluq sisteminin həyata keçirilməsinə nəzarət edir. Beynəlxalq Məhkəmə BMT-nin əsas məhkəmə orqanıdır. BMT-nin Katibliyi BMT Baş katibi və beynəlxalq heyətdən ibarətdir. Hazırda BMT-nin Baş katibi Pan gimundur. Bunlardan başqa, BMT-nin bir sıra orqanı - Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Hüquq Komissiyası, KosmikFəzadan Dinc Məqsədlərlə İstifadə Komitəsi və s., 13 ixtisaləşdirilmiş idarəsi - YUNESKO, Beynəlxalq Əmək Təşkilatı, Ümumdünya Poçt İttifaqı, Beynəlxalq Elektrik Rabitəsi İttifaqı, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, Ümumdünya Meteoroloji Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq İnkişaf Assosiyası, Beynəlxalq Maliyyə Korporasiyası, habelə BMT nəzdində Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) və s. fəaliyyət göstərir. İqamətgahı Nyu-Yorkdadır; ərəb, ingilis, ispan, rus, fransız və Çin dilləri BMT-nin rəsmi dilləridir.

BMT-nin qərarları və fəaliyyəti dövlətlər arasında yaranan yeni qüvvələr nisbətini, beynəlxalq həyatdakı əsas meylləri əks etdirir. Beynəlxalq aləmdə sülh və demokratiya qüvvələri ilə təcavüzkar və imperialist qüvvələri arasında gedən mübarizə müəyyən formada BMT-də də öz əksini tapır.

BMT orqanlarında xalqların milli azadlıq mübarizəsinə və müstəqil dövlətlərin milli suverenliyinin müdafiəsinə aid məsələlərin müzakirəsi mürtəce qüvvələri və beynəlxalq zorakılığı dəf etməyə kömək göstərmişdir. Baş Məclisin Yaxın Şərqdə siyasi vəziyyətin nizama salınması haqqında 1967-ci il 22 noyabr tarixli 242 N-li qətnaməsinin və Yaxın Şərqdə hərbi əməliyyatların dayandırılması, ədalətli və möhkəm sülh yaradılması

haqqında 1973-cü il 22 oktyabr tarixli 338 N-li qətnaməsinin, həmçinin irqçi Cənubi Rodeziyaya aid iqtisadi sanksiya tətbiq edilməsi haqqında qətnamələrinin mühüm əhəmiyyəti var idi; lakin bunların yerinə yetirilməsinə təcavüzkarlığı və irqçi rejimi müdafiə edən qüvvələr mane olurdular. İqtisadi, ictimai və humanitar sahələrdə də faydalı qərarlar işlənib hazırlanmış və qəbul olunmuşdur.

İmperialist dairələri beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmlənməsinə yönəldilən qərarların qəbul edilməsinə müqavimət göstərirdilər. 50-ci illərin ortalarınadək Qərb dövlətləri onlardan asılı dövlətlərin səsinə arxalanaraq bir çox halda sülhsevər təklifləri rədd edir, imperialist siyasəti mənafeyinə uyğun qərarlar qəbul edirdilər. Dünyada qüvvələr nisbətinin sülh və demokratiya tərəfdaşlarının xeyrinə dəyişməsi, 50-ci illərin axırları - 60-cı illərin əvvəllərində Afrika və Asiyada yeni yaranan bir qrup dövlətin BMT-yə qəbul edilməsi BMT-də vəziyyətin yaxşılaşmasına səbəb oldu. BMT-nin (bəzi qüsurlarına və zəifliyinə baxmayaraq) öz Nizamnaməsində elan edilən məqsəd və prinsiplərin həyata keçirilməsində böyük xidməti var. BMT-nin qəbul etdiyi əsas qərarlar ümumi sülhün və təhlükəsizliyin möhkəmlənməsinə kömək edir. BMT bir sıra kəskin beynəlxalq böhranların aradan qaldırılmasına kömək etmişdir. BMT-nin beynəlxalq vəziyyətin mülayimləşməsinə müsbət təsir göstərə biləcək imkanları çoxdur. Keçmiş SSRİ-yə daxil olan respublikalar və keçmiş Şərqi Avropa sosializm ölkələri hazırda BMT-nin üzvüdürlər və BMT-ni aktual beynəlxalq problemlərin həllinə kömək edən mühüm vasitə kimi müdafiə edir və BMT-nin Nizamnaməsinə ciddi riayət edilməsi əsasında onun səmərəliliyinin və nüfuzunun artması uğrunda çıxış edirlər.

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ MƏCLİSİ - BMT-nin əsas orqanlarından biri. BMT Nizamnaməsinə görə (maddə 9, paraqraf 1) BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT Nizamnaməsi dairəsində, yaxud Nizamnamənin nəzərdə tutduğu hər hansı orqanın səla-

hiyyəti və vəzifəsinə daxil olan hər cür məsələləri və işləri müzakirə etmək, BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına belə məsələlərə və işlərə dair, hər cür (bəzi istisnalarla) tövsiyələr vermək səlahiyyəti var; beynəlxalq sülhün və təhlükəsizliyin qorunması işində əməkdaşlığın ümumi prinsiplərini nəzərdən keçirmək, beynəlxalq sülhün və təhlükəsizliyin mühafizə olunmasına aid hər cür məsələləri müzakirə etmək səlahiyyəti var.

Baş Məclisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil, lakin BMT-nin daxili həyatına dair bir sıra məsələlərdə bu qərarlar məcburi xarakter daşıyır: BMT üzvlüyünə qəbul və üzvlüyündən çıxarma, Təhlükəsizlik Şurasının, Beynəlxalq Məhkəmənin qeyri-daimi üzvlərinin seçilməsi, BMT Baş katibinin təyin edilməsi və s. Baş Məclisin qərarlarının səsvermədə iştirak edən üzvlərin səs çoxluğu, mühüm məsələlər üzrə qərarlar isə səsvermədə iştirak edən üzvlərin 2/3-nin ixtisaslı səs çoxluğu ilə qəbul edilir. Baş Məclisin hər il növbəti sessiyası olur; BMT üzvlərinin əksəriyyətinin tələbi və yaxud Təhlükəsizlik Şurasının qərarı ilə xüsusi və fövqəladə sessiya çağırıla bilər. Sessiyada BMT üzvü olan hər dövlət bir səsə malik 5 nümayəndə (və onların 5 müavini), habelə zəruri miqdarda müşavir və ekspertlərlə təmsil oluna bilər. Növbəti sessiyalar, bir qayda olaraq, sentyabrın üçüncü çərşənbə axşamı açılır.

Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var: 1-ci komitə (tərksilah da daxil olmaqla siyasi və təhlükəsizlik məsələləri) Xüsusi Siyasi Komitə, 2-ci komitə (iqtisadi və maliyyə məsələləri). 3-cü komitə (ictimai humanitar məsələlər və mədəniyyət məsələləri), 4-cü komitə (qəyyumluq və özünüidarə etməyən ərazilər məsələləri), 5-ci komitə (hüquq məsələləri). Hər sessiyada komitələrin işini əlaqələndirmək üçün Baş komitə (Məclisin sədri, onun 17 müavini və 7 əsas komitələrin sədrləri) və nümayəndələrin səlahiyyətini yoxlamaq üçün 9 üzvdən ibarət Komitə yaradılır. Bundan başqa 2 daimi komitə - inzibati və büdcə məsələləri üzrə

məşvərətçi komitə və üzvlük haqları üzrə komitə də var: bu komitələrin üzvləri BMT B.M. tərəfindən 3 il müddətinə seçilir. Bunlarla yanaşı BMT-nin xüsusi komitə və komissiyaları da yaradılır: məs., müstəmləkə ölkələrinə və xalqlarına istiqlaliyyət vermək barədə Bəyannamənin yerinə yetirilməsi gedişi haqqında məsələlərə dair xüsusi Komitə, Kosmik Fəzadan Dinc Məqsədlərlə İstifadə Komitəsi, Beynəlxalq Hüquq Komissiyası, beynəlxalq ticarət hüququ üzrə Komissiya, apartheyd üzrə xüsusi Komitə, tərksilah üzrə ümumdünya konfransı üçün xüsusi Komitə və s. fəaliyyət göstərir.

BMT SİLAHLI QÜVVƏLƏRİ ("mavi dəbilqəlilər") - BMT Təhlükəsizlik Şurasının (TŞ) sanksiyası ilə yaradılan və beynəlxalq sülh və təhlükəsizliyi qorumaq, yaxud bərpa etmək üçün istifadə olunan hərbi birləşmələr. BMT S.q.-nin hava, dəniz və quru qoşunlarının həyata keçirdiyi əməliyyatlar güc nümayiş etdirmək, blokadaya almaq və s. xarakterli ola bilər; bu məqsədlə BMT üzvləri olan dövlətlər TŞ-nın sərəncamına silahlı qüvvələr, yardım, xidmət vasitələri verməyə, onları öz ərazilərindən keçirməyə borcludurlar. Müvafiq rayona göndərilmiş BMT S.q.-dən yalnız ən zəruri hallarda, dinc vasitələrlə mübahisə, yaxud münaqişəni nizama salmaq mümkün olmadıqda istifadə edilir.

BMT S.q.-dən istifadə olunmasının vacib şərti BMT Nizamnaməsinin müddəalarına dəqiq əməl olunmasıdır; Nizamnaməyə görə, TŞ beynəlxalq sülhün və təhlükəsizliyin qorunması və bərpa edilməsi üçün fəaliyyət göstərməyə səlahiyyəti olan yeganə orqandır. BMT S.q.-nin yaradılmasına aid bütün məsələlər üzrə qərarlar qəbul etmək, bu qüvvələrin vəzifələrini, tərkibini, sayını, onların əməliyyatlarına rəhbərliyi, komandanlığın strukturunu, əməliyyatlar rayonunda qalması müddətini, həmçinin müvafiq xərclərin maliyyələşdirilməsini müəyyənləşdirmək TŞ-nin səlahiyyətinə aiddir. BMT-nin Nizamnaməsinə uyğun olaraq onun S.q. fərdi toplanma əsasında deyil, BMT üzvləri olan ölkələrin silahlı qüvvələrinin milli kontingentləri hesabı-

na komplektləşdirilir.

Hazırda TŞ-nin 4 mart 1964-cü il tarixli 186 saylı qətnaməsinə əsasən BMT üzvü olan 9 ölkənin hərbi kontigentləri yaradılmış BMT S.q. Kiprdə öz fəaliyyətini həyata keçirir; TŞ-nin 31 may 1974-cü il tarixli, 350 saylı qətnaməsi əsasında 6 ölkənin hərbi kontingentlərindən yaradılmış BMT qüvvələri Colan təpələrində Suriya və İsrail qoşunları arasında müşahidəçilik fəaliyyətini davam etdirir; TŞ-nin 19 mart 1978-ci il tarixli, 425 saylı qətnaməsi əsasında 9 ölkənin hərbi kontigentlərini öz tərkibinə daxil edən BMT-nin müvəqqəti qüvvələri Livanda da yerləşdirilmişdir. BMT S.q. bir sıra Afrika ölkələrində, Yuqoslaviya ərazisində, Yuqoslaviya Sosialist Federativ Respublikası dağıdıldıqdan sonra isə Bosniya və Herseqovinada beynəlxalq sülh və təhlükəsizliyin qorunub möhkəmləndirilməsində də səmərəli fəaliyyət göstərmişdir.

BMT S.q. 1988-ci ildə Nobel sülh mükafatına layiq görülmüşdür.

BİRLİK - (dövlətlərarası, milli, ictimai, sinfi, qruplararası və s.) ictimai münasibətlərin subyektləri arasında onların həll edəcəkləri konkret əməkdaşlıq və qarşılıqlı fəaliyyət problemləri barədə razılaşdırılmış mövqelərin əhatəli həcmini və yüksək səviyyəsini səciyyələndirən anlayış. **B.** çərçivəsində subyektlər arasında meydana çıxan problemlər və ziddiyətlər dialoqlar və danışıqlar, mövqelərin müqayisəsi, nöqteyi-nəzərlərin razılaşdırılması yolu ilə həll edilir. Bir qayda olaraq, müvafiq siyasi və hüquqi razılaşmalar, sənədlər, bəyannamələr və müqavilələr vasitəsilə əsaslandırılır.

Bəşəriyyətin varlığının təhlükə altında olduğu indiki zamanda, müasir həyatın qlobal problemləri artır, müxtəlif siyasi qüvvələrin birliyi məsələsi hazırda inkişaf etmiş dünyanın tərəqqisi və yaşaması baxımından daha böyük əhəmiyyət kəsb edir.

"B." anlayışı mürəkkəb kateqoriyadır. Onu təhlil edərkən aşağıdakı komponentlərinə fikir vermək lazımdır: 1) **B.**-in maddi əsasları - məhsuldar qüvvələrin inkişaf səviyyəsi, əməyin texnoloji, ictimai və beynəlxalq bö-

lgüsü; **B.**-in sosial-siyasi əsasları - bir sıra problemlərin həllində tələbat və maraqları obyektiv şəkildə bir-birinə uyğun gələn özlərinin siyasi təşkilatları ilə birlikdə ictimai və milli qüvvələr; ideoloji əsasları - millətlərarası və beynəlxalq münasibətlərdə müəyyən məsələlər üzrə subyektlərin dünyagörüşlərinin, mövqelərin uyğun gəlməsi, hüquqi və əxlaqi əsasları - müvafiq dövlət və beynəlxalq hüquq aktlarında - konstitusiyalarda, BMT Nizamnaməsində və s. təsbit olunmuş ümumbəşəri dəyərlər və mənəviyyat normalarının hamı tərəfindən qəbul edilmiş beynəlxalq hüquq və insan hüquqları və azadlıqlarının prinsipləri və normaları; ümumdemokratik prinsiplər, dəyərlər, əxlaq və hüquq normaları çərçivəsində, təbii ki, sinfi və milli dəyərlər, normalar da mövcuddur. Lakin bəşəriyyətin taleyinin ümumi determinal vəziyyətdə olduğu müasir şəraitdə onlar bəşəri dəyərlərin, ünsiyyət normaları və prinsiplərinin dağıdılmasında və ziddiyyətlərində iştirak etməməlidir.

2) **B.**-in mahiyyəti - müasir ETİ şəraitində müxtəlif ictimai subyektlərin (qrup, sinif, millət, dövlət və s.) inteqrasiyasının obyektiv meylinin, təsərrüfat, siyasi və mədəni həyatının beynəlmiləşməsinin obyektiv əksi olub, münasibətlərdə olan müxtəlif ictimai subyektlərin qarşılıqlı etimadından, real əməkdaşlığından, dostluğundan və qarşılıqlı yardımından ibarətdir.

3) **B.**-in məzmunu - münasibətdə olan subyektlərin arasındakı qarşılıqlı əlaqə və asılılığın bütövlükdə həcmi, ümumi məqsədə çatmaqda onların əməkdaşlığında, dostluqda, qarşılıqlı yardım və birgə hərəkətdə obyektiv və subyektiv münasibətlərin yekunudur.

4) **B.**-in forması - birliyin subyektləri arasında qruplar, siniflər və millətlərarası, eyni zamanda beynəlxalq əlaqələrin və qarşılıqlı təsir proseslərinin təşkilinin konkret üsuludur.

5) **B.**-in subyektləri - **B.**-yə daxil olan partiyaların, siniflərin, sosial təbəqə, qrup, millət, dövlət və ictimai təşkilatların - həmkarlar ittifaqları, qadın və gənclər təşkilatları və **B.**-in formalaşması və möhkəmlənməsində şüurlu iştirak edən və ira-

dəsi olan tərəflərdir.

6) **B.**-in obyektləri - subyektlərin idraki və təcrübi fəaliyyətinin, onların daxili və xarici problemlərinin çətinlik və ziddiyyətlərinin (iqtisadi, siyasi, mədəni, dil və s. üzrə problemlər) həllinə yönəldilmiş obyektlərdir.

7) **B.**-in prinsipləri Konstitusiyalarda, BMT Nizamnaməsində, Ümumdünya İnsan hüquqları Bəyannaməsində və s. hüquqi sənədlərdə təcəssüm olunan ən əsas hüquqi və əxlaqi normaların məcmuudur.

8) **B.**-in amilləri cəmiyyətin xarici, eyni zamanda daxili problemlərinin, dünya sivilizasiyasının mütərəqqi inkişaf problemlərinin həllində əməkdaşlığı zəruri edən obyektiv və subyektiv səbəblər sistemi, subyektlərin (qrup, təbəqə, sinif, partiya, millət, dövlət) imkanlarının birləşməsini tələb edən qüvvələrdir.

9) **B.**-in mexanizmi - sözün geniş mənasında - obyektiv şəraitin qanunauyğunluğu, tələbatın və subyektiv amilin B. imkanlarının həqiqətəçevrilməsinə təsir edən sistem; sözün dar mənasında isə B.-in mexanizmi siyasi-təşkilati, siyasi-hüquqi B.-in və əməkdaşlığın təşkilinin forma və metodları sistemidir. Burada subyektlərin maraqları razılaşdırılır, mübahisəli məsələlərin həlli formalarının, işlənməsi və qəbulu, ikitərəfli və çoxtərəfli razılaşma yolları müəyyənləşdirilir.

10) **B.**-in tələbatı - B.-yə daxil olan subyektlərin obyektiv şəkildə mövcud tabeliyi, normal və ahəngdar fəaliyyəti və inkişafı gələcəkdə subyektlər tərəfindən başa düşüləcək mövcud ehtiyaclar dərk olunan marağa çevrilir və siyasətçilərinin məqsəd və vəzifələrini təşkil edir.

B.-in əhəmiyyəti ondadır ki, o, əməkdaşlıq edən subyektlərin qarşılarına çıxan problemləri həll edərkən onların qüvvələrini artırır və bu yolla da yeni qanunauyğunluqlar əmələ gətirir.

Siyasətin ən mürəkkəb problemlərindən və məqsədlərindən biri bir sıra tərkib hissələrindən yaranan dövlətin B.-i olmuş və olmaqdadır; cəmiyyətin B.-yi (ictimai B.), milli (yaxud millətlərarası, beynəlmiləl) B., hakimiyyətin və xalqın B.-yi və s. İri miqyaslı siyasi B. müxtəlif

yollarla, cəmiyyətin tipindən və ona bəslənilən ictimai-siyasi münasibətdən asılı olaraq formalaşır. Çox vaxt zor gücünə, terror və hakimiyyət vasitəsilə yaradılan totalitar və avtoritar dövlətlər birliyinin təcrübəsi sübut edir ki, bu cür B., cəmiyyətin hansı ümumi ideologiyaya (dini, irqi, milli, siyasi) qulluq etməsindən asılı olmayaraq davamsız, müvəqqəti və qeyri-sabit xarakter daşıyır. Yalnız bərabər hüquqlu tərəflər - inkişaf etmiş cəmiyyətin tam hüquqlu dövlətlərini birləşdirən B. sarsılmazdır. Müasir aləmdə belə birliyin təcrübəsini ümumi demokratik, mədəni və sivilizasiyalı proseslər əsasında birləşmiş hüquqi dövlətdən və vətəndaş cəmiyyətindən gözləmək olar. Bu cür B.-lərdə hakimiyyətdə, iqtisadiyyatda, ictimai münasibətlərdə baş verən böhranları tez və asanlıqla aradan qaldırmaq mümkün olur. B.-in hər hansı bir üzvü böhran vəziyyətinə düşürsə, həmin dövlət, o biri tərəflərin sabitliyi hesabına tezliklə bərpa olunur. Totalitar tipli dövlətin güclü hakimiyyəti belə bir imkana malik deyil, ciddi sarsıntı tezliklə o hakimiyyəti dağıdır. Həmin cəmiyyətin B.-yi haqqında yaranmış illüziyalı təsəvvürlər tezliklə alt-üst olur.

BİTƏRƏFLİK - bax; **NEYTRALLIQ.**

BİZNES (ing. business - iş, sövdə, birja əməliyyatı, ticarət, kommersant) - kapitalist ölkələrində, xüsusilə ABŞ-da yayılmış termin: mənfəət gətirən fəaliyyət, (iş) deməkdir. Təkcə təsərrüfat sahələri deyil, siyasi fəaliyyət, tibbi xidmət, elm, incəsənət sahələrində də **B.** ola bilər.

BLOKADA - (ing. blokade, blok sözündən - qarşısına sədd çəkmək, ləngitmək) **B.** təşkilatçılarının tələblərini yerinə yetirməyə məcbur etmək məqsədilə dövlətin ərazisinin (yaxud onun hər hansı hissəsinin), onun quru, dəniz, hava məkanının siyasi, iqtisadi (o cümlədən nəqliyyat və energetika), hərbi cəhətdən təcrid edilməsi.

BONAPARTİZM - geniş mənada tarixən siniflər arasında manevr siyasəti yeridən hərbi-siyasi diktatura forması, məhdud mənada Bonapartlar sülaləsinə istiqamətlənən B.-in üç əsas əlaməti - dövlət maşını üzərində nəzarət (yaxud belə bir nəzarət qoymaq cəhdi), orduya

arxalanmaq (yaxud ondan siyasi qüvvə kimi istifadə etmək), sosial-sinfi problemlərin tez və əngəlsiz həlli haqqında demaqoq bəyanatlar vermək (yaxud "daha çox incidilmişlər" haqqında qayğıya inam yaratmaq) I Napoleon tərəfindən yaradılmış və III Napoleon tərəfindən tam aşkara çıxarılmış siyasət, inqilabi şəraitin avtoritar həlli siyasəti kimi səciyyələndirməyə imkan verir. **B.**-in kökləri bəşəriyyət tarixində kifayət qədər aydın təzahür etsə də, bu məqsədlə mövcud olduğu dövrdə kütlənin qılığına girmək və siyasətdə açıq-aşkar qüvvədən istifadə etmək təcrübəsi özünü kifayət qədər dəqiq göstərən Roma imperiyasını xatırlatmaq kifayətdir. **"B."** termini siyasi strukturların səciyyələndirilməsi üçün yalnız XIX-XX əsrin birinci yarısından etibarən işlənir. Onun əlamətləri O.Bismarkın, P.A.Stolıpinin siyasi xətti üçün səciyyəvi idi. Bunlar Stalin siyasətinə də xasdır, özü də onun sevimli manevri siyasi rəqiblərini - L.D.Trotskini, M.N.Tuxaçevskini, İ.K.Jukovu **B.**-də günahlandırmaq olmuşdur. **B.** ilə bir çox oxşar məqamlar XX əsrin ikinci yarısında artıq Avropada deyil, Yer kürəsinin digər regionlarında, ilk növbədə Latın Amerikasında (burada bəzən neobonapartizmdən söhbət gedir) təzahür edir. Eyni zamanda heç də hökmən imperator hakimiyyəti ilə əlaqələndirilmir, lakin hərbi qüvvənin hakim mövqe tutması və sinfi ziddiyyətlərlə oynamaq prinsipləri qalır. Siyasi-psixoloji cəhətdən liderlik üslubu kimi **B.** bir tərəfdən, açıq-aşkar qüvvəyə arxalanmağa, hiyləyə, hətta fitnəkarlığa yol verməyə ümid bəsləməklə, digər tərəfdən, təsir vasitələrinin seçilməsində, problemlərin həllində qeyri-sabitliyin istənilən şəklə salına bilməsi ilə səciyyələnir; siyasi oyunun əsas qaydaları bunlardır - "asayiş yaratmağın" zəruriliyi haqqında basmaqəlib üsullardan istifadə etmək, hakimiyyəti əldə saxlatmaq məqsədilə siyasi şüarları tez-tez və utanmadan dəyişdirmək; "sinifsizlik" və "bitərəflik" stereotipləri ilə kələk işlətməkdir. **B.**-in klassik politoloji təhlilini K.Marks "Lui Bonapartın on səkkizinci brümeri" əsərində konkret tarixi misalla vermişdir.

Sosial inkişaf meyllərini

qiymətləndirməyin prinsipial məsələlərində Marksdan fərqli mövqedə dayanmasına baxmayaraq, M.A.Bakunin də belə hesab edirdi ki, **B.** "mahiyyətcə nə prinsip, nə siyasi cərəyandır, nə də ölkənin iqtisadi və siyasi inkişafında hər hansı mənafedən irəli gəlmişdir. Sadəcə olaraq... Fransa cəmiyyətinin sinifləri arasındakı dərin ixtilaflardan istifadə edən quldurlar dəstəsi gecə vaxtı qəflətən və kobudcasına Fransaya sahib olmuş, hakimiyyəti zəbt etmiş və onu iyirmi il əldə saxlamışdır... Onun əlində yalnız bircə, lakin çox güclü vasitə vardır: korrupsiya. Lakin belə korrupsiyanı **B.** yaratmamış, tarixi miras kimi almışdır. Bu, yeganə tarixi miras idi ki, **B.** ondan istifadə edə bilmiş və özü də onun məhsuluna çevrilmişdi". Bakunin korrupsiyanı ictimai faydaya fərdin tam etinasızlığı və yalnız şəxsi mənfəətlə həmrəylik kimi başa düşür. Məhz bu cəhət müxtəlif sosial mühitə malik olan istənilən milli ərazidə **B.** üçün münbit zəmindir. XX əsr **B.**-in modernləşdirilmiş çoxlu variantlarının təzahürü üçün imkan yaratmışdır.

BOYKOT (ing. boycott) - ilk dəfə 1880 ildə İrlandiya icarədarları ilə sərt rəftar edən malikanə müdiri Ç.K.Boykota qarşı tətbiq edildiyinə görə **"B."** termini də onun adından götürülmüşdür. **B.** - 1) şəxslərin, təşkilatları və ya dövlətləri bu və ya digər iqtisadi, yaxud siyasi tələbləri yerinə yetirməyə məcbur etmək məqsədilə onlarla əlaqə saxlamaqdan tam və ya qismən imtina etməsidir; 2) elə həmin məqsədlə vəzifələri yerinə yetirməkdən və ya hər hansı hüquqdan, yaxud kiminsə xidmətlərindən istifadə olunmasından imtina etməkdir; 3) məcazi mənada - etiraz əlaməti olaraq müəyyən şəxslərlə münasibətləri kəsməkdir.

BÖHRAN - hər hansı bir sistemin fəaliyyətində müsbət, yaxud mənfi nəticələrlə yekunlaşan tənəffüs, fasilə. İctimai sistemlər müxtəlif növlərdən olan çoxlu B.-larla rastlaşmışdır. Bunlardan: siyasi B.-lar; bunlar da özlüyündə müxtəlif növlüdür (hər hansı bir konkret siyasət, hakimiyyət, dövlət B.-ları); parlament B.-ları - qanunvericilik və icra hakimiyyəti B.-ları; etimad B.-ları (hər hansı bir haki-

miyyətə və cəmiyyətə münasibət bildirən B.) və s.

B.-lar üç səciyyəvi cəhətləri ilə fərqlənir: 1) başlanmasının sürətliliyi və gözlənilməzliyi; 2) qısamüddətliliyi və əksinə, uzunmüddətliliyi (uzun sürən B.); 3) mövcud sistemə dərindən təsir etməsi. B.-lar bütün hallarda belə bir məna kəsb edir ki, bu və ya digər formada mövcud olan tədrici inkişaf edən, sürətlə inkişaf edən və yaxud durğunluq vəziyyətində olan) sistem (siyasət, siyasi təsisatlar)-elə bir həddə çatır ki, bundan sonra o mövcud ola və hərəkət edə bilmir, Mövcudluğunun mənası və ehtiyatları tükənir (sistemin daxili hüdudu), yaxud xaricdən ardı-arası kəsilməyən müqavimətə, ya da maneəyə rast gəlir.

B.-ın inkişafı üç mərhələyə bölünür: 1) B.-dan əvvəlki (böhranqabağı) dövr. B.-ın yaranmasının ilk simptomları və səbəbləri aşkar edilərkən o, "doymuş zona" sisteminə daxil olur, onun potensialı tükənir; 2) B.-ın qızın çayı, kulminasiyası, inkişafının son həddi; 3) Sistemlərin dağılması, yaxud onun yeni vəziyyətə keçməsi, ya da yeni sistemin yaranması (xəttin hakimiyyətin dəyişilməsi, islahat, inqilab və s.)

Siyasi B.-ı təhlil edərkən, onun mənbələrini və yaranma səbəblərini tapmaq vacibdir, mövcud sistemlə bağlı xarici və daxili təsir qüvvələri araşdırılmalı, onların köhnə və yeni olmaları öyrənilməlidir. Həmçinin B.-ın faydalı mənfi faktları izah olunur, eyni zamanda onun təzahür formaları dəqiqləşdirilir; B.-ın labüd olması, yaxud təsadüf nəticəsində meydana gəldiyi aydınlaşır. B.-a, bütün hallarda, bir sistemin yeni keyfiyyətlərə malik olan başqa bir sistemə keçməsi, başqa sözlə inkişaf anı kimi baxmaq lazımdır. Bu mə'nada B. sistemlərin qəti şəkildə dağılmasına və yaxud pis keyfiyyətli yeni sistemlərin yaranmasına, yaxud inkişafın ümumiyyətlə, dayanmasına səbəb olan fəlakətdən prinsipial şəkildə fərqlənir. Fəlakətin miqyasları, B.-da olduğu kimi, çox müxtəlif siyasi sistemlərin kiçik bir fraqmentinin dağılmasından (məsələn, partiyalardan birinin yox edilməsi) tutmuş, əhəmiyyətli tarixi hadisəyə qədər ola bilər. 1920-30-cu illərdə Almaniyada Veymar respublikasının B.-ı fəlakət kimi böyüyüb demokratik respublika rejimini tamamilə dağıtdı. Sonralar yaranmış yeni siyasi sistem (nasional sosialist imperiya rejimi) inkişaf etdi, lakin B. törənə biləcək bir məqamda hərbi B. forması başlandı (II dünya müharibəsində məğlubiyyət) və fəlakət ilə - "Üçüncü Reyx" kimi siyasi sistemin yox edilməsi, onun hakimiyyətinin, rəhbərlərinin, kadrlarının, ideologiyasının və s. bütünlüklə dağıdılıb aradan götürülməsi ilə nəticələndi.

B.-ın mövcud siyasi sistemə təsirini və nəticəsini təyin etmək üçün onun müvazinət vəziyyətini bilmək lazımdır. Sistem ola bilsin ki, möhkəm və sabitdir, onda B.-dan sonra o, əvvəlki vəziyyətinə qayıdacaq, ya da inkişaf edib möhkəmlənəcək, yaxud möhkəm və sabit deyilsə, onda mövcud sistem sabitliyin yeni tipli formasına qədəm qoymalıdır.

Bütün bu müxtəlif formalarla yanaşı, B.-ın genetik və funksional növü də mövcuddur. Funksional B. özünün bir sıra əlamətləri ilə fərqlənir. "Fizioloji" adlanan B. zamanı sistem daxili və xarici dəyişikliklərə uyğunlaşır; "Patoloji" B.-da dəyişikliklər mövcud sistemin strukturuna toxunur və onu yenidən qurur. Funksional B. sistemin həddindən artıq yüksəlməsi və cavab verməyə qadir olduğundan daha çox suallarla rastlaşması nəticəsində meydana gələ bilər. Bu vəziyyət, 70-ci illərdə ABŞ-da geniş yayılmağa başlayan "Hökumətin həddindən çox yüklənməsi" nəzəriyyəsində öz əksini tapmışdır. Funksional B. mövcud sistem özünə məxsus olan şəxsi mənbələrdən, yaxud əhatəsindən kifayət qədər ehtiyat vəsait ala bilmədikdə baş verir və "kasadlıq böhranı" kimi adlandırılır. Həddindən çox yüklənmə təkcə tələbatların sayından deyil, eyni zamanda onların intensivliyi və əhəmiyyətindən də asılı olaraq meydana gələ bilir. Kasadlıq siyasi sistemin, onu əhatə edənlər (hökumət, parlament, cəmiyyət, dövlət, xalq və s., eyni zamanda buraya siyasi, ideoloji və maddi ehtiyatları da əlavə etmək olar) tərəfindən natamam müdafiə edilməsi ilə sıx surətdə əlaqədardır. Belə ki, mövcud sistem bütün bunları səfərbər edib, öz xeyrinə istiqa-

mətləndirə bilərdi.

B.-dan çıxmaq - yeni müvazinət mərhələsi deməkdir. B. eyni zamanda yeni partlayışa qədər sakit bir vəziyyətdə də özünü mühafizə edib saxlamaq qabiliyyətinə malikdir.

B.-ın strukturu müxtəlif formalarda ola bilər: hər şeydən əvvəl, bir zirvəli (kulminasiyalı) B., yaxud iki və daha çox zirvəli B. (qeyri-sabit sistemdə uzun sürən, sönən və yenidən baş verən B.). Bundan başqa, daha ümumi xarakterli B.-ların da mövcud olması mümkündür. Bəzən müəyyən qədər intensiv və çox davam edən, bəzən yüksək intensivli və qısamüddətli olur (məsələn, nazirlərin ümumi hakimiyyəti dövründə baş verən B., yaxud dövləti idarə edən şəxsin seçkisi zamanı fəaliyyətdə olan B.)

Daha səciyyəvi B. siyasi sistemin və hökumətin B.-ı hesab edilir.

Siyasi sistemlərin **B.**-ı iki yolla meydana çıxa bilər: 1) mexanizmlərə, hüquqi və konstitusiya üsullarına və orqanlarına toxunmaq yolu ilə; onlar mövcud quruluşun (mütləq monarxiyadan konstitusiyalı sistemə keçərkən, avtoritar, yaxud totalitar rejimdən demokratik quruluşa, parlamentli respublikadan prezident hakimiyyətinə, mütləqiyyətdən respublikaya keçərkən) B.-ları ilə müşayiət olunur bilər; 2) sosial-iqtisadi münasibətləri, mülkiyyət münasibətlərini əhatə edən - sistemin inkişafı adlanan böhranlardır ki, bunların da inqilabi yenidənqurmalarla müşayiət olunması mümkündür.

Hökumət **B.**-ı daha tez-tez baş verir və liderlərin, idarəetmə formalarının, ictimaiyyətə və hakimiyyətin başqa orqanlarına və s. münasibətin dəyişməsi ilə nəticələnir.

B.-lardan çıxmağın ümumi şərtləri - cəmiyyət tərəfindən sistemlərin sərbəst tənqidinə imkan verilməsi, informasiya mənbələrindən sərbəst istifadə edilməsi, onların zirəkliyi və çevikliyi, mövcud quruluşda tez-tez dəyişən şəraitə uyğunlaşması, sistemlərin dinamikası və s.-dən ibarətdir.

BÖYÜK DÖVLƏTLƏR - beynəlxalq aləmdə mühüm rol oynayan güclü dövlətləri bildirmək üçün işlədilən termin. BMT Təhlükəsizlik Şurasının üzvləri - ABŞ, B.Britaniya, Fransa, Rusiya, Çin **B.d.** hesab edilir.

BREYN-DREYN (ing. brain - beyin və drein - drenaj, axma) - **bax; "BEYİN AXINI".**

BRİFİNQ (ing. brefing - hərfən tə'limatlanma, istiqamət) - mətbuat, televiziya, radio nümayəndələrinin informasiya müşavirəsi; burada xüsusi müvəkkil edilmiş şəxslər hökumətin, yaxud müvafiq təşkilatların müəyyən məsələyə dair mövqeyini şərh edir, yaxud beynəlxalq danışıqlar, iclaslar, konfransların gedişi, ayrı-ayrı tərəflərin gündəlikdə duran məsələlərə baxışları və i.a. haqqında məlumat verir; iştirakçıların əldə etdikləri razılaşmalar mətbuat nümayəndələrinə çatdırılır.

BÜROKRATİYA (fr. bureau sözündən) - dövlət dəftərxanalarında vəzifəli şəxslərin stollarının üstünə salınan yaşıl mahud parça; "bürokrat" termini də buradan yaranmışdır: yəni dövlət aparatının orta pilləsinin qulluqçusu, məmur. **B.**-nın mövcudluğu siyasət və hakimiyyətin fəaliyyət göstərməsi üçün labüd və zəruridir. Hakimiyyət orqanlarının bir çox cəhətdən obyektiv olan özünəməxsus xüsusiyyətləri - funksiyaların artması və mürəkkəbləşməsi ("idarəetmə və nəzarət kadrlarının çoxalması" da buradan irəli gəlir), "inzibati işin" texnikasına yiyələnmək, informasiya və sənədlərə malik olmaq, dövlət qərarlarını və i.a. aktları hazırlamaq, tərtib və şərh etmək imkanı, əhali ilə məktublaşmaq, onun sorğularına cavab vermək - cəmiyyətin böyük hissəsini və hakimiyyətin yuxarı pillələrini aparatdan asılı vəziyyətə salır, aparat özü isə son dərəcə geniş hədlərdə müstəqildir və hərəkətlərində sərbəstdir. "Məmurların hakimiyyətini" bildirən B. termini də buradan meydana çıxmışdır. "Məmur", "bürokrat", "aparatçı" və "B." anlayışlarının mənfi mənası da bununla bağlıdır. "B." termini üç mənada işlənir:

1) sosial orqanizm, sosial antaqonizmlərin, ziddiyyətlərin, münaqişələrin nəticəsi və həm təşkilati -idarəetmənin, həm də siyasi özgələşmənin maddiləşdirilməsi;

2) cəmiyyətdən uzaqlaşmış, onun fövqündə duran, özünəməxsus funksiyalara və imtiyazlara malik hakimiyyət aparatı-

nın köməyi ilə həyata keçirilən idarəetmə sistemi;

3) bu sistemlə bağlı olan adamlar təbəqəsi.

B. ictimai inkişafın hər hansı mərhələsində iqtisadi münasibətlər, siyasi strukturlar və ideoloji şüur formaları ilə üzvi surətdə bağlıdır. Bürokratik münasibət - dövlət (siyasi) formalizmi - siyasi dərrakə anlayışları sistemi bürokratiyanın sosial təbiətini bütünlükdə və ayrı-ayrılıqda səciyyələndirməyə imkan verir. B.-nın təhlili cəmiyyətin idaretmə, siyasi və ideoloji sahələrinin empirik təsviri, dövlət hüququnun nəzəriyyə və təcrübəsinin bir bölməsi deyildir. B. nəzəriyyəsinin kateqoriya aparatı təcrübədə və nəzəriyyədə siyasi illüziya təzahürlərinin adi və incə formaları ilə mübarizə vasitəsidir. Konkret və şifahi formalarda mövcud olan bu illüziyaların dərkində sosial mənafelərin tədqiqinin çox mühüm əhəmiyyəti var.

Bürokratik münasibət sosial-iqtisadi cəhətdən şərtlənmişdir, fərdlərin mənafelərindən, şüurundan və iradəsindən asılı deyildir, dövlətlə cəmiyyət, hakimiyyətlə vətəndaşlar arasında antaqonizmin, ziddiyyət və münaqişələrin təzahür formasıdır. Bu ziddiyyət və münaqişələr hakimiyyətin özündə təcrübə və idrak münasibətlərinin müəyyən sisteminə daxil olduğundan, dövlət qulluqçuları (məmurlar) tərəfindən eynilə əks etdirilə bilməz.

Cəmiyyəti dövlət və idarəetmə qaydası ilə eyniləşdirmək məmur üçün səciyyəvidir. Hər bir dövlət öz məmurunu bu və ya digər dərəcədə ideallaşdırır, onun haqqında ideal vətəndaş, sosial və siyasi problemlərin həllinin zəruri ünsürü kimi təsəvvür yayır və müdafiə edir. Qalan vətəndaşlar bu siyasi illüziyanı qəbul edib-etməmələrindən asılı olaraq, xoşniyyətlilərə və bədxahlara bölünürlər.

Dövləti idarəetmə məmurun siyasi zəkası və siyasi əxlaq üzərində inhisarının formasıdır. Lakin bu zəka sosial gerçəkliyi obyektiv şəkildə əks etdirmək iqtidarında deyildir, çünki bu əksetdirmə məmurun statusundan asılıdır. Məmur gerçəklik haqqında adətən mövcud dövlətin özünəməxsus, mahiyyətcə xüsusi mənafeləri əks etdirilmiş rəsmi məlumatlardan istifadə

edir. Məmurun siyasi əxlaqı dövlətin və onun idarəçilik obrazının tərifinə çevrilir. Bürokratik idrakın ümumi qaydası bununla izah edilir: əgər məmur gerçəkliyi bilirsə, bu barədə qərəzli mühakimə yürüdür və əgər qərəzli mühakimə yürütmürsə, deməli gerçəkliyi bilmir.

Dövlətin idarə edilməsi iyerarxiya prinsipi əsasında qurulur. Vətəndaşların fəallığı və şüurluluğu onların idarəetmə aparatına mənsubiyyəti ilə eyniləşdirilir. gerçəkliyin bütövlükdə dərk olunması iyerarxiya prinsipinə görə ümumən yüksək səviyyəli hüquqdur. Onun şüurunda və fəaliyyətində bürokratik qavrayış stereotipləri qat-qat güclənir. Buna görə də hər hansı dövlət idarəetmə sistemi daim özünü sosial uğursuzluğun səbəbləri sırasından kənarlaşdırmağa çalışır. Məmurlar və siyasətçilər bu uğursuzluqların səbəblərini təbiət hadisələrində, şəxsi həyatda, təsadüflərdə və ya dağıdıcı qüvvələrdə görürlər. Hakimiyyət sosial ziddiyyətlərə görə günahını adətən öz üzərindən götürməyə və onu cəmiyyətin və vətəndaşların üzərinə qoymağa çalışır. Özünün hərəkətlərinə qarşı tənqidi bitərəfləşdirmək üçün hakimiyyət adətən bürokratlaşdırmanın müxtəlif üsullarından istifadə edir.

Bürokratik münasibət siyasi xürafatın meydana çıxmasına, mövcud dövlətin, hökumətin, hakimiyyət və idaretmə aparatının ilahiləşdirilməsinə səbəb olur. Rəsmi şəxslər və orqanlar sosial problemləri ədalət meyarlarına müvafiq həll edə bilmədikdə siyasi xürafat şübhə və kinayəyə çevrilir. Bu isə vətəndaşların siyasətdən uzaqlaşmalarına imkan verir, ictimai işlərə etinasızlığa yol açır və dövlət formalizminin inkişafına kömək edir. Dövlət formalizmi dövlətin siyasi məqsədlərini dəftərxana vəzifələrinə çevirməkdir və ya əksinə.

Hakimiyyət və idaretmə aparatında bir çox vəzifələr mahiyyətcə hökumətin xüsusi mülkiyyətidir, o, bununla sahibkarlıq hüququ, istifadə və sərəncam vermək hüququ əsasında davranır. Fərdlər öz vəzifələrini icra etmək hesabına maddi mənafelərini təmin edirlər. Məmur daha yüksək vəzifələrə irəli çəkildikcə onun siyasi mülkiyyəti - insan kütlələrini öz iradəsi

ilə idarə etmək azadlığı artır.

Mənfəətpərəstlik məmurun fəaliyyət və əxlaqının tipik motivinə çevrilir, dövlət aparatı və hər hansı digər idaretmə aparatı cəmiyyətin dövlətəqədərki vəziyyətinin hamının hamıya qarşı müharibəsi vəziyyətinin siyasi formasının cəhətlərini kəsb edir.

Mənafe münaqişələri idarəetmə proseslərinin və siyasi proseslərin formallaşdırılmasının ilkin şərtidir. Nəticədə adamların formal və irrasional səciyyələri (sosial mənşəyi, milliyyəti, peşəsi, xasiyyəti və i.a.) idarəetmə və siyasətdə mühüm amilə çevrilir. Ümumilik və məntiqlik iddiası ilə çıxış edən idarəetmə və siyasət şüurlu nəzarət üçün əlçatmaz olur.

Siyasi özgələşmə dövlətin meydana çıxdığı vaxtdan bəri mövcuddur və fərdlərin, qrupların, siniflərin və təbəqələrin maddi vəziyyəti ilə müəyyənləşdirilir. Nəticədə dövlət və digər siyasi strukturlar cəmiyyətin səyləri və niyyətlərinin daha işgüzar və fəal ifadəsi kimi qiymətləndirilir. Siyasətin fetişləşdirilməsi prosesi baş verir və onun iradi başlanğıcı daha çox vurğulanır.

Çoxmillətli dövlətdə siyasi özgəninkiləşdirmə güclənir. Bu cür dövlətin siyasi quruluşu süni sabitlik sistemi ilə səciyyələnir. B. isə onun başlıca ünsürüdür. Belə sistemdə hakimiyyət rəqabətdə olan siniflərə və ya təbəqələrə arxalanır və hökumətin tam sərbəst əl-qol açа bilməsi üçün onların qüvvələrini tarazlaşdırır. Ordu və B. bu cür sərbəstliyə nail olmağın ən mühüm vasitələrinə çevrilir.

Rəsmi vəzifəsi olmayan və xüsusi milli səciyyə nümayiş etdirən bütün vətəndaşlara qarşı hərbi-büroktarik zümrə və təbəqədə nifrət təlqin edilir. Yerli əhali ilə əlaqələri minimuma endirmək üçün zabitlər və məmurlar daim bir xidmət yerindən digərinə dəyişdirilirlər. Dövlət vəzifəsi və xidməti fövqəlmilli məna alır. Hərbi bürokratik zümrə və ya qrup xüsusi təbəqəyə və dövlətin siyasi əsasına çevrilir. Hakim millətin siyasi mədəniyyətinin əlamətinə çevrilən bürokratik kosmopolitizm və ya beynəlmiləlçilik yaranır.

Dövlət aparatının bu cür təşkili hökumətə əhalinin vəsaitlərini müntəzəm olaraq əlindən çıxarmaq və eyni zamanda onu

tam tabelikdə saxlamaq siyasətini həyata keçirməyə imkan verir. Sənaye və ticarət hakimiyyətin himayəçiliyindən insanın ümdə tələbatlarının ödənilməsində əhəmiyyətli olduğuna görə deyil, dövlət vergilərini müntəzəm olaraq artırmaq, əməyin qiymətləndirilməsini azaltmaq, müvafiq siyasəti müəyyənləşdirmək və xarici rəqabəti aradan qaldırmaq üçün istifadə edilir. Qanunvericilik, icra və məhkəmə hakimiyyəti ənənəvi hökmranlıq və tabeçilik münasibətləri ilə siyasi münasibətlərin qovuşması olur. Bu da öz ifadəsini mərkəzi hakimiyyətin hökmranlığında tapır. Hökumət bütün ənənəvi hakimiyyət növlərini müdafiə edir və siyasi ənənənçiliyi həyata keçirir.

Hakimiyyətin bu cür təşkili nəticəsində sosial narazılıq, hər şeydən əvvəl, aşağı vəzifəli məmurlara qarşı istiqamətləndirilir, siyasi islahatlar adətən sosial və siyasi dəyişikliklərə deyil, inzibati dəyişikliklərə yönəldilir. Buna görə də hökumət bürokratizmə qarşı mübarizə şüarından adətən öz məqsədləri üçün istifadə edir.

Bürokratiyanın aradan qaldırılması perspektivləri xeyli dərəcədə belə bir ümumi sualın cavabından asılıdır: dövlət və bürokratik idarəetmə arasında fərq mövcuddurmuə Əgər idarəetmə istehsal prosesindən ayrılmamışsa, onun üzvi tərkib hissəsidirsə və özünün bütün ünsürlərində yuxarıda sadalanan xüsusiyyətlərindən azaddırsa, onda belə bir fərq nəzəri cəhətdən mümkündür. Lakin digər fəaliyyət sahələri ilə yanaşı, idarəetmə də xüsusi fəaliyyət sahəsinə çevriləndə, B.-nın bütün xüsusiyyətləri idarəetmə proseslərinin və siyasi proseslərin üzvi tərkib hissəsinə çevrilir. Bu mənada dövlət və bürokratik idarəetmə arasında fərqi təsəvvürə gətirmək həqiqətən aşkar etməkdən daha asandır. Bu isə hər hansı cəmiyyətin bütün ictimai həyatın bürokratikləşməsinə qarşı gücsüzlüyünün etiraf olunmasıdır.

CƏLBETMƏ - şəxsiyyətin mövcud siyasi, iqtisadi, ilk növbədə isə bədii yaradıcılıq prosesinin səciyyələrindən biri olan ictimai-siyasi quruluşdan və onları əhatə edən əxlaqi-psixoloji iqlimdən asılılığı deməkdir. **"C."** məfhumunu geniş mənada J.P.Sartr işlətmişdir. İnsanın cəmiyyətdən asılılığının fakt olması fikri ictimai təfəkkür sahiblərinin çoxunun rəyini ifadə edir. Sartr **C.** fəlsəfi fenomeninin ekzistensializm və psixoanalitik ruhda ictimai şərhini zənginləşdirmişdir. Sartrla paralel olaraq E. Munye **C.**-ni xristianlaşdırılmış ictimai şəxsiyyətlə əlaqəli şəkildə əsaslandırmışdır.

Sartra görə **C.** bəzən iradəsi ziddinə, lakin ictimai şəxsiyyətdən (bununla bərabər, insan öz mahiyyəti etibarilə yalnız azadlıq ambarı, cəmiyyət isə ancaq özgələşmədir) uzaqlaşmayaraq, dəryaya atılmış insandan törəyir. **C.** məvhumu ideoloqların daimi dar mənada ictimai tədqiqatçıların, siyasətçilərin və əlbəttə, sənətkarların səciyyəsidir. Onlardan ən ardıcılı olan Q.Floberin timsalında Sartr prinsipial olaraq "fil sümüyündən qüllə" düzəldilə bilməyəcəyini göstərmiş və etiraf etmişdir ki, ədəbiyyat "dünyanı seyr etməməli, onu dəyişdirməlidir", insan tarixin köməyi ilə tarix içərisində və tarix üçün "özünü yenidən qurmalıdır" prosesinin gedişini qiymətləndirməlidir. Yalnız Sartrdan sonra **"C."**termini politoloji və siyasi-psixoloji tədqiqatlarda fəal işlənməyə başlandı. Sol radikal təfəkkür sahibləri **C.**-ni nəzarət olunmayan hadisələr axınına düşmüş qorxu hissi kimi şərh edir, bundan da yalnız hər şeyi tamam inkarla, ətalətli fəaliyyəti tamamilə yenidən qurmaqla çıxmağa çağırırdılar. **C.** anlayışından istifadə edən Barns hesab edirdi ki, bu fenomen liderlər - "qəhrəman"la "iblis"və siyasi proseslərdəki adamlar arasında ziddiyyəti ört-basdır edir. O, qeyd edirdi: "Yalnız ətalət tənhalığı uzaqlaşdırır, cəlbetmənin olmaması isə - hakimiyyətsizlikdir".Həmin **"C."**anlayışı ictimai proseslərin mexaniki, müvəqqəti izahını aradan qaldırmağa imkan verir,

eləcə də bu proseslərin dinamikasını izah edir. Keçmiş sovet məkanı ölkələrində politologiya çərçivəsində **"C."**anlayışı demək olar öyrənilməmişdir.

CƏMİYYƏTİN SİYASİ SİSTEMİ - cəmiyyətin siyasi cəhətdən təşkili prinsiplərinə, siyasi, sosial, hüquqi kodekslərə, ideoloji, mədəni normalara, tarixi ənənələrə tabe olan konkret bir cəmiyyətin qaydaya salınmış prinsiplərinin vəhdət halındakı məcmusu (birliyi). **C.s.s.**-nə hakimiyyətin təşkili, cəmiyyətlə dövlət arasındakı münasibətlər, siyasi proseslər axınının gedişi, hakimiyyətin institutlaşdırılması, siyasi fəaliyyətin vəziyyəti, cəmiyyətdə siyasi yaradıcılığın səviyyəsi, institutlaşmamış siyasi münasibətləri kimi məsələlər daxildir.

C.s.s. ictimai sistemin bütün komponentlərini, ya da yarımsistemləri təmsil edir. O, özünün yarımsistemi sosial, iqtisadi, ideoloji, etnik, hüquqi, mədəni və s. yarımbölmələrilə birlikdə cəmiyyətin ehtiyat qüvvələri, təbii sərvətləri, eyni zamanda xarici siyasət mühitlə qarşılıqlı əlaqədədir. Belə strukturlu cəmiyyətdə siyasi sistemin əsası onun daxili və xarici siyasətindəki fəaliyyətinin əsas təşkilati və tənzimləyici-nəzarətçi rolu ilə təyin edilir. (**bax; SİYASƏT**). Hər hansı konkret bir cəmiyyətin siyasi sistemi onun sinfi təbiəti, ictimai quruluşu, idarəetmə forması (parlamentli, prezidentli və s.) dövlətin tipi (monarxiya, respublika), siyasi rejimin xarakteri (demokratik, totalitar, despot və s.), ictimai-siyasi münasibəti (daimi, sabit, yaxud tez-tez dəyişən, çevik, mülayim, yaxud ciddi, sərt konfliktli, ümumi razılığa gələn və s.), dövlətin siyasi-hüquqi statusu ilə (konstitusiyalı, inkişaf etmiş, yaxud inkişaf etməmiş hüquqi strukturlarla), cəmiyyətdəki siyasi ideoloji və mədəni münasibətləri (nisbətən açıq, yaxud bağlı, paralel, kölgəli, marginal strukturla və ya onlarsız, dövlətçiliyin tarixi tipilə (mərkəzləşmiş, iyerarxiyalı bürokrat strukturlu və s.), tarixi və milli həyatın ənənələrilə (əhalinin siyasi fəallığı, yaxud passivliyi, qan qohumluğu əlaqəsi ilə, ya da onlarsız inkişaf etmiş yaxud inkişaf etməmiş vətəndaşlıq münasibətlərilə və s.) müəyyən olunur. Cəmiyyəti ida-

rə edən siyasi sistem (siyasi sistemindespotik və totalitar tipi, ilə) digər sistemlərin tətbiqi və sıxışdırılması hesabına üstünlüyə daxil olmamalı, uzun sürən böhran vəziyyətinə daxil olmamaq üçün səy göstərilməlidir.

Siyasi sistem, ərazisi (başqa dövlətlərlə sərhədi) və fəaliyyət dairəsi olan cəmiyyətin siyasi məkanında mövcud olur (**bax; SİYASİ MƏKAN**). Bu mənada, bu və ya digər assosisasiyaların (partiya və ictimai təşkilatlar) təsiri siyasi təsisatların (siyasi mərkəzin və yerli özünüidarənin) fəaliyyəti, siyasi və iqtisadi idarəetmənin iradları, cəmiyyətin siyasi həyatının sferası və ayrı-ayrı şəxslərin həyatı birbirindən fərqlənəcəkdir. Siyasi sistemin müxtəlif növlü funksional məkanının sərhədlərinin müəyyən edilməsi məsul və mürəkkəb siyasi-hüquqi və mədəni prosesdir. O formalaşır və hüququ təsbit olunur (konstitusiya üzrə, qanun çərçivəsində), bu təsbit olunma hakimiyyət idarələrinin, idarəetmə orqanlarının və **C.s.s.**-nin başqa elementlərinin müstəsna səlahiyyətini, eyni zamanda onların arasındakı qarşılıqlı münasibətləri təyin edir və demokratik prosesin bir vəzifəsini yaradır.

C.s.s.-nin mövcud olması vaxtilə siyasi münasibətlərin və institutların dəyişilməsi, inkişafı və tənəzzül prosesi kimi xarakterizə olunurdu. O, hakimiyyət formasının dəyişilmə miqyasını, hər hansı bir dövlətin yeni tipinin yaranması, məs., feodal cəmiyyətinin siyasi sistemindən yeni bir sistemə keçid prosesini daxil edir. Təkamülün tarixi inkişaf prosesi siyasi sistemin bir sıra qanunauyğunluqlarını özündə birləşdirir: hakimiyyətin təmərküzləşməsi və parçalanması, onun mərkəzləşməsi və bölünmə ənənəsi; bu ənənələrin mübarizəsi, ictimai quruluşların dəyişilməsi zamanı iki tərəfin (antik imperiya quruluşundan ilkin feodal cəmiyyətinə, feodal monarxiyasından burjua dövlətinə, XIX əsrin sonu XX əsrin birinci yarısında imperializmdən demokratik quruluşa keçilməsi; ictimai sistemlərin və ona tabe olan digər sistemlərin mürəkkəbləşməsinin ümumi prosesi; partiyaların meydana gəlməsi və çoxalması, assosiasiyaların inkişafı və s.), sistemlərin formalaşdırılması, onun

hüquqi cəhətdən qanuniləşdirilməsi, siyasi cəhətdən iştiraketmə prosesinin genişlənməsi, yəni cəmiyyət üzvlərinin siyasi həyata daha fəal qoşulmaları, o cümlədən demokratik institutların, ümumxalq seçkilərinin, özünüidarənin formalaşması və s.; vətəndaşlıq və siyasi münasibətlərin daha çox bir-birinə uyğunluğu; hakimiyyətlə xalq arasında olan münasibətlərin yenidən təşkili (yuxarıdan aşağıya əmr verən müstəbid komanda və konfliktli münasibətlərdən konstitusiyalı prosesin inkişafı və suverenlik sistemi (hakimiyyət, xalq, hüquq, dövlət-ərazi birliyi və s.); siyasi sistem strukturlarında kütləvi proseslərin formalaşması (seçki zamanı iri siyasi səfərbərliyin həyata keçirilməsi, idarəetmə aparatlarının, güc orqanlarının, ordunun, təbliğat, tərbiyə və təhsil idarələrinin genişlənməsi, yekdil, həmrəy qrupların, ittifaqların, xalq hərəkatı və xalq cəbhəsinin inkişafı və s. kimi qanunauyğun halları özündə birləşdirir.

C.s.s.-nin təkamülünün konkret yolları müxtəlif dövrlərdə və müxtəlif cəmiyyətlərdə bir-birindən fərqlənmişdir. Lakin onun məkan-zaman prinsiplərinin ölçüləri daimidir. Eyni zamanda, onun təşkilolunma, yaxud cəmiyyətin siyasi cəhətdən təşkili prinsipləri də müxtəlif variantlıdır. C.s.s. hər hansı bir məqamda və ya onun tarixi dövründə konkret nisbi sürəkli və sabit siyasi situasiya kimi təzahür edir. Həmin situasiyanın statistik (donuq), yaxud mütəhərrik və deməli, **C.s.s.**-in özünün dinamik klub olmaması ictimai münasibətlərin vəziyyətindən, cəmiyyətin inkişaf səviyyəsindən asılıdır. **C.s.s.**-nin dinamizmi onun sabit vəziyyətindəki formasından tamamilə fərqlənir, o, sistemin inkişaf qabiliyyətini, cəmiyyətdəki dəyişikliklərə uyğunlaşma meylini, həmin dəyişmələrə necə reaksiya verdiyini təyin edir. Sərt sabit sistemlər cəmiyyətin inkişafının əksinə getməyə, onunla konfliktə girməyə, zor tətbiq etməyə və nəhayət cəmiyyəti sıxışdırmaq hesabına yaşamağa məcburdur. Qədim zamanlarda ayrı-ayrı regionlarda belə sabit sistemlər (müstəbid Asiya tipli) qeyri-məhdud bir dövrdə - uzun illər mövcud olur və əsasən, xaricdən işğalçı hücumlar və döv-

lətin məhvi nəticəsində dağılırdı. Yeni dövrdə belə sistemlərin yaşaması və fəaliyyət göstərmə müddəti, bir qayda olaraq, çox məhduddur və onlar siyasi və ictimai böhranlar, inqilablar və əsaslı islahatlar nəticəsində aradan çıxır. Tarixi proseslərin sürətlənməsi və müasir bəşəriyyətin maddi və mənəvi həyatında dərin dəyişikliklər sayəsində cəmiyyətin siyasi təşkil formasının yeni dinamik tipini meydana gətirdi ki, bununla da **C.s.s.**-nin ayrı-ayrı hissələri və elementləri arasında daha sərbəst münasibətlər yarandı, dövlət və cəmiyyət arasında, siyasi quruluşun inkişaf etmiş sosial həyatı və daim qüvvədə olan qaydaları arasında, siyasi və mədəni mexanizmlər arasında daha sərbəst münasibətlər formalaşır. Belə sistemlərin dinamik sabitləşməsi onlara uzunömürlük və həyat qabiliyyəti verir.

C.s.s., eyni zamanda siyasi proseslərin münasibətlərini, siyasi fəaliyyətlərini və onların institutlaşmasını da təmsil edir, belə ki, siyasi həyatın institutlaşmamış formaları (maraq qrupları, təşəbbüs hərəkatları, müxtəlif növlü özünüidarə və s.) özünü təsdiq dövründə özləri üçün idarəetmə mərkəzlərini, liderlərini, onların əhatəsində olan qrupları mütləq yaratmalıdırlar.

İnstitutlaşma prosesinə hakimiyyət mərkəzlərinin formalaşması və onların müdafiə olunması daxildir. Siyasi sistem əyalətlərdə fəaliyyət göstərən siyasi qruplarla əlaqələri təmin edir.

Cəmiyyətin siyasi təşkilinə siyasi sistemin elementlərinin bölüşdürülməsi, onların vəzifələrinin və cəmiyyətlə onlar arasındakı münasibətlərin müəyyən edilərək aydınlaşdırılması daxildir. **C.s.s.** siyasi cəmiyyət, yəni insanların birliyinin, ictimai qrupların, siyasi vəzifələrin, siyasi idarələrin, hakimiyyət orqanlarının, partiyaların və s. məcmusunu yaradır. Qədim zamanlarda (XVII-XVIII əsrlərdə və sonralar cəmiyyətin hakimiyyət konsepsiyalarında), bəzən indi də, siyasi cəmiyyətlə dövlət eyniləşdirilir, bu da düzgün deyil. Belə ki, dövlət siyasətdən daha geniş və əhatəlidir. O, cəmiyyətin bütün təşkilatını - həm iqtisadi, həm hüquqi, həm də mədəni, eyni zamanda bütün

hakimiyyət formalarını və s. əhatə edir. Əksər hallarda onu vətəndaş cəmiyyətinə (**bax; VƏTƏNDAŞ CƏMİYYƏTİ**) qarşı qoyurlar. Lakin cəmiyyətdə ayrı-ayrı adamları da daxil etsək, siyasətdən təcrid olunmuş strukturlar yoxdur (**bax; SİYASƏT**). Bütün insanlar siyasətlə, passiv də olsa əlaqədədirlər. Bununla belə, vətəndaş cəmiyyətinin mənası onun üzvlərinin xüsusi vətəndaşlıq keyfiyyətlərinə malik olmalarındadır. Cəmiyyətin siniflərini və qruplarını təşkil edən adamlar, eyni zamanda cəmiyyətin siyasi mühitini də yaradır və **C.s.s.**-ni formalaşdırır.

Siyasi sistem strukturludur, belə ki, onun tərkibini müxtəlif mürəkkəb strukturlar, onların hissələri və yarım bölmələri, ayrı-ayrı elementləri və onlar arasındakı münasibətlər təşkil edir. **C.s.s.** hakimiyyətin və siyasi münasibətlərin üç səviyyəsindən əmələ gəlir: bunların ikisi institutlaşdırılmış - biri ali, yaxud yuxarı (meqosəviyyəli), o biri orta və ya aralıq (mezosəviyyəli), 3-cüsü isə institutlaşdırılmış - aşağı, kütləvi (mikrosəviyyəli) səviyyəlidir. Onlar, öz növbəsində paralellər, adicə rəqabət apa-

ran strukturlara: leqallara və kölgəlilərə ayrılırlar. **C.s.s.** belə strukturların daxilində siyasi münasibətlər subyektlərinə (rəhbərlər və idarə edənlər) və hakimiyyətin daşıyıcılarına, icraçılara, kütləvi assosiasiyaların sıravi üzvlərinə, onların sosial bazaları kimi strukturlara bölünməsi mövcuddur.

Beləliklə, **C.s.s.**-nin institutlaşdırılmış makrosistemli səviyyəsinə dövlət hakimiyyətinin mərkəzi aparatı (demokratik cəmiyyətə və hüquqi, icraçı və məhkəmə sisteminə malik qanuni dövlətə bölünmüş) daxildir.

C.s.s.-nin növü cəmiyyətin tipindən və idarəçilik üsulundan asılıdır: əgər hakimiyyətdə birincilik, aparıcı rol hökumət başçısında (yəni icraçı hakimiyyətin birinciliyi), prezidentdədirsə (prezident idarəçilik forması da daxil olmaqla), monarxa məxsusdursa, parlament (əgər o, prezidentə və icra hakimiyyətinə nəzarət etmək səlahiyyətinə malikdirsə), partiyalara, ali məhkəməyə, yaxud konstitusiya məhkəməsinə verilibsə, o vaxt idarəçilik üsulu da müxtəlif olacaqdır. Dövlət hakimiyyətinin ictimai nəzarəti

xüsusi arbitraj rolunu yerinə yetirir. O, bu nəzarəti müxtəlif səviyyədə (makro və mezo) və müxtəlif üsullarla: kütləvi informasiya (bu, indi dördüncü informasiya hakimiyyəti hesab edilir), assosiasiyalar (partiyalar, həmkarlar ittifaqları), kütləvi təşkilatlar (ekoloji, müharibə əleyhinə, yaxud hərbi, sənaye, mədəni və s.), kütləvi hərəkatlar (tətil və s.), xalq cəmiyyətləri (veteranlar, gənclər, qadınlar, yaradıcı təşkilatlar və s.) vasitəsilə təşkil edir. Makrosistemin bilavasitə siyasi müxalifətin müxtəlif formaları (parlament, partiya) tərkibinə daxil olur.

Makrosəviyyəli hakimiyyətdə də eyni səviyyəli kölgə gizli siyasi strukturlar və vəzifələr mövcuddur: ali rütbəli leqal idarələrin (dövlət, partiya və s.) gizli fəaliyyətləri, gizli sənədlər, göstərişlər, əmrlər və bu qəbildən olan aktlar (gizlin və məxfi dövlət sənədləri), siyasi mətnlər (məruzələr, çıxışlar, söhbətlər və s.), müxtəlif rəsmi liderlərin və hakimiyyətin mərkəzi orqanlarının, idarə rəhbərlərinin, partiya, ordu, sənaye təşkilatlarının məxfi vəzifələri və qeyri-aşkar rolları, gizli vəzifə rəsmi və leqal fəaliyyət göstərən müəssisə və idarələrin (təhlükəsizlik orqanları) və tam məxfi fəaliyyət göstərən idarələr (kəşfiyyat yaxud əks-kəşfiyyat və s.) və s. bu qəbildən olan strukturlardandır. Bundan əlavə, bir sıra leqal fəaliyyət göstərən qeyri konspirativ cəmiyyətlər də C.s.s.-nin makrostrukturuna qoşulur, ya da qeyri rəsmi bir formada onun tərkibinə daxil olur və müxtəlif elita və elitar qurumlar (klublar, parlament fraksiyaları, yoldaşlıq qrupları və s.), təzyiq qrupları (parlament lobbisi, dövlət idarələrindəki inzibatçılar, partiya və dövlət rəhbərlərinin beyin mərkəzləri və s.) əmələ gətirir.

C.s.s.-nin orta səviyyəsi (mezo) öz quruluşuna görə ali (makro) səviyyəli struktura bənzəyir. O, idarəetmə aparatları, seçki orqanları və hakimiyyət strukturları tərəfindən təyin olunma yolu ilə yaradılmışdır. Onlar siyasi məkanda dövlət hakimiyyətinin ali eşelonu ilə cəmiyyət arasında yerləşirlər.

Bunlar regional (sahə) və bələdiyyə idarələri, müxtəlif dərəcəli şuralar, partiya, həmkarlar və b. assosiativ strukturların iyerarxiyası, böyük müəssisələr,

iqtisadiyyat liderləri, məhkəmə və hüquq orqanları, başqa idarələr, siyasi sosiallaşma prosesini həyata keçirən müəssisələrdən (məktəb, teatr, ordu və s.) aparat və orqanlardan ibarətdir.

Orta səviyyəli strukturlar C.s.s.-nin makrostrukturlarını və cəmiyyəti bir-birilə əlaqələndirir, onların arasında münasibətləri təkşil edir, cəmiyyətin dövlət hakimiyyəti mərkəzlərinə impuls (təkan) verir. C.s.s.-nin mezosəviyyəli strukturunda siyasi prosesin təşkili və həyata keçirilməsi əsas məsələlərdən biridir. Bu səviyyədə daha təsirli bürokratik idarəetmə aparatı və ən kütləvi strukturlar formalaşır. Mezosəviyyədə leqal dövlət, partiya və inzibati idarələrin gizli funksiyalarına müəyyən şəraitdə (iqtisadi çətinliklər, vətəndaşlar arasında mövcud münasibətlər, ideoloji və siyasi münaqişələr və s.) aparatlar və onların rəhbərlərinin qrupbazlığı, yerlibazlığı, qohumbazlığı kimi geniş yayılmış ziddiyyətlər də əlavə edilir. Həmin səviyyədə siyasi xarakterli (paralel iqtisadiyyat, qara bazar, cinayətkar təşkilatlar, müxtəlif növlü mafiozlar və mafioz xarakterli korporasiyalar) qeyri-leqal (kölgəli) strukturlar formalaşır ki, bunlar da leqal strukturlarla birləşmək ənənəsinə malikdirlər və onların ciddi təsiri altına, hətta regionlarda siyasi həyatda gizlin iştirak etmək dərəcəsinədək düşə bilirlər.

C.s.s.-nin mikrosəviyyəsi ictimai qrupların, siniflərin və cəmiyyətin təbəqələri və vətəndaşlarının siyasi həyatda kütləvi iştirakı ilə yaranır: kütləvi siyasi, yaxud qeyri-siyasi təşkilatlara üzv olmaqla, hakimiyyəti müdafiə etmək, yaxud ona qarşı çıxmaq üçün təşkil olunmuş kütləvi siyasi aksiyalarda və onun demokratik təşkilatlarının məsul proseslərində (seçkilərdə, referendumlarda və s.) iştirak etməsilə əmələ gəlir. Mikrosəviyyəli strukturlarda siyasi xalq hərəkatları, siyasi qruplaşmalar və partiyalar yaranır, ictimai rəy formalaşır, cəmiyyətin siyasi mədəniyyəti təşəkkül tapır ki, bu da C.s.s.-nin ən vacib tərkib hissəsi və səciyyəvi xüsusiyyətidir (**bax; SİYASƏT VƏ MƏDƏNİYYƏT, SİYASİ MƏDƏNİYYƏT**). Mikrostrukturun üfüqləri heç də yalnız aşağı, kütləvi səviyyə ilə məhdudlaşmır. Prinsip etibarilə

onun tərkibinə hər şey, cəmiyyət və siyasi dünyagörüşünə malik olan bütün vətəndaşlar (üzvlər) daxildir.

C.s.s. piramidalı iyerarxiya prinsipinə əsasən formalaşmışdır: kütləvi sosial bazadan tutmuş, dövlət hakimiyyətinin ən yüksək mərhələsinə qədər hamı - aşağı yuxarıya tabedir. Onun yarımsistemlərində də bu qayda hakimdir, şaquli strukturlar mövcuddur (kütləvi bazadan ta rəhbər təşkilatlara qədər): partiyalar, bütün ictimai təşkilatlar, ittifaqlar və s. **C.s.s.**-nin müxtəlif mərhələlərə bölünmüş hər bir səviyyəsi xüsusi strukturlar və bu strukturlar arasında münasibətlər yaradır.

Mürəkkəb formada təşkil edilmiş müxtəlif səviyyəli bu sistemin tədqiqi siyasi elmlərin əsas vəzifələrindən birini təşkil edir və bir sıra rəhbər prinsiplərə əsaslanır:

1. **C.s.s.**-nin tam və müasir nəzəriyyəsini yaratmaq üçün təkcə onun institutlaşdırılmış elementləri və münasibətləri deyil, eyni zamanda institutlaşdırılmamış təkcə rəsmi (leqal) elementləri deyil, həm də gizli elementləri və vəzifələri də tədqiq edilir, cəmiyyətlə siyasi sistem arasında mövcud olan münasibətlərin formalaşmasına təsir edən bütün sosiyyəvi cəhətlər nəzərə alınır.

2. **C.s.s.**-nin institutlarının şaquli strukturlarında, hakimiyyətin üfüqi səviyyəsində əsas üzvlərinin ayrılması müəyyən edilir, daha sonra leqal və qeyri-leqal strukturların və funksiyaların, eyni zamanda hakimiyyət subyektləri və siyasi münasibətlər arasındakı daxili bölünmələr (parçalanmalar) müəyyən olunur.

3. Sistemin sərhədləri təyin olunur, o, öz əhatəsindən ayrılır. Bununla da sistemin haqqında dəqiq təsəvvür yaranır, onun məkanı və onu ayıran sərhədlər haqqında yeni sosial, ideoloji, mədəni, iqtisadi, hüquqi proseslər dəqiqləşir. Deməli, siyasi məkanın və zamanın müəyyənləşdirilməsi tələb olunur.

4. Tədqiqatın mərkəzi aspekti - hissələrin (yarımsistemlərin) iyerarxiyasını, sistemlərin elementlərini müəyyən etmək və onların arasındakı münasibətləri, eyni zamanda bu münasibətlərin subyektlərini və obyektlərini (daşıyıcılar və icraçılar) təyin etməkdən ibarətdir. Bu, o demək dir ki, hakimiyyəti və siyasi impulsları bir subyektdən (fəaldan) başqa birisinə (passivə), onlar da öz növbəsində digərinə ötürürlər və s. Məs., baş nazirin kabinetindən nazirə, daha sonra idarə rəhbərlərinə, oradan da aşağı vəzifəlilərə, ta bilavaistə icraçılara qədər ötürülür.

5. Sistemin hissələri və elementləri müəyyən olunanda onların arasında vəzifə əlaqələri aydınlaşır, belə ki, bu proses daxilində başqa bir prosesin vəzifələri olduğu kimi dəqiqləşir. Sistemin hissələri arasında vəzifə asılılığının aşkarlığı, sistemi təşkil edən hissələr daxilində qaydaları, modeli qurmağa, onları sistemə salmağa imkan verir. Məs., ardıcıllıq: assosiasiyalar haqqında qanun siyasi məqsədlər üzrə deyil, marağa görə qrupların - veteranlar, əlillər, təyyarəçilər və s. qrupların yaradılmasına imkan verir.

6. C.s.s. nəzəriyyəsi təkcə struktur sxemi olmayıb, eyni zamanda oradakı siyasi, sosial-psixoloji, əxlaqi və mədəni münasibətlərin məzmunlu təhlilidir. Orada cəmiyyətin siyasi quruluşunun təşkili prinsipləri təhlil edilir, çoxluğun və azlığın münasibətləri və onların qarşılıqlı zülmdən müdafiə qabiliyyətləri nəzərdən keçirilir.

7. Sistemlərin sabit vəziyyətlərinin təsviri onların əsl təbiəti haqqında tam təsəvvür vermir. Onun dinamikasının tədqiqi üsulu həmin sistemin özünəməxsus əlamətlərinin istiqaməti və dəyişilmə intensivliyinin ənənəsini təyin edir. Məs. sistemin genişlənməsi, yaxud daralması (hakimiyyətin yeni orqanlarının meydana gəlməsi, onların funksiyalarının dəyişilməsi, yeni siyasi qüvvələrin yaranması və s.) onu əhatə edənlərlə münasibətlərində qaydaların dəyişilməsi (məs., milli), sistem və onun sosial mühiti arasındakı sərhədlər (partiyanın mövcud maddi imkanları), məs., bu qaydalarda təzahür olunan formalar (sistemlərin institutlaşdırılmasının modallığı: onun bürokratikləşməsi, yaxud demokratikləşməsi), mədəniyyət (xüsusən siyasi mədəniyyət) və s. məsələləri öyrənilir. Sistemin dinamikasının tədqiqi də, **C.s.s.**-in müxtəlifliyi, onun çevikliyi və dəyişilmə qabiliyyəti, cəmiyyətin möhkəm birliyinə nail olmaq bacarığı, dövlətlə xalq arasında maraq və

məqsəd birliyi yaratmaq, ya da onların arasında konflikt salmaq bacarığı haqqında və s. bu kimi məsələlər də tədqiqat üçün obyekt ola bilər.

C.s.s. müxtəlif növlərdən olan eyni dərəcəli vəziyyətlərin və böhranların daim dəyişməsi məcrasında inkişaf edir, ayrı-ayrı yarımsistem və strukturları (hökumət, partiya, parlament və s.), daha geniş, bütün siyasi, iqtisadi və s. sahələri əhatə edən, milli, hüquqi və s. böhranlar baş verir ki, burada sosial və sinfi, siyasi və ideya mübarizəsi, vətəndaş hüquqlarının müdafiəsi *uğrunda və s. konfliktlərin* güclənməsi ilə müşayiət olunur. Sistemin fəaliyyət böhranı, yaxud həddən artıq yüklənməsi böhranı qarşıda duran vəzifələri yerinə yetirə bilməmək, o, mövcud sistemin tamamilə dəyişdirilməsi, hakimiyyət strukturlarının, rəhbərlik edən qüvvələrin, liderərin, cəmiyyətin siyasi xəttinin yeniləşdirilmə ilə əlaqədardır və o, mövcud ictimai quruluşda yeni formalar yaradır və siyasi sistemi saxlamağa çalışır. "İnkişaf böhranları" adlanan daha təsirli böhranlar **C.s.s.**-ni və cəmiyyətin tipinin dəyişdirilməsi (mülkiyyət formasını, iqtisadi münasibətləri və s.) kimi problemlərin həllinə qadirdir və o, çox ciddi inqilabi dəyişikliklərlə müşayiət oluna bilər. **C.s.s.**-nin tədqiqi belə böhranların tiplərini və onların nəticələrini müəyyənləşdirməyə qadir olmalıdır.

CİNQOİZM (ing. yungoism)-bəzən ingilis dilli ölkələrdə ifrat şovinist baxışları (**bax; ŞOVİNİZM**) və əhval-ruhiyyəni bildirmək üçün işlədilən termin. XIX əsrin 70-ci illərində şovinist ingilis mahnısının nəqarətində oxunan tərcümə olunmayan *"cinqo" sözündən götürül*müşdür. Sonralar, amerikalıların açıq ilhaqçı siyasəti dövründə ABŞ-da geniş yayılmışdır. C."Monro doktrinası" çərçivəsində "böyük dəyənək siyasəti" ilə ABŞ-ın öz iradəsini zorla digər ölkələrə qəbul etdirməsinin labüd tərəfdarları üçün çox səciyyəvi idi. C.həmçinin ABŞ-da ağ amerikalıların "rənli"amerikalılardan irqi üstünlüyünü təbliü edirdi. Hazırda C. terminina nadir təsadüf olunsa da, hələlik tamamilə istifadədən çıxmamışdır.

Ç

ÇOXSİVİLİZASİYALI DÜNYA – Yuxarıda qeyd etdiyimiz 4 nəzəriyyə qlobal siyasəti dəqiq anlamaq üçün müəyyən çətinliklər törədir, onun dəqiq obrazını yaratmağa imkan vermir.

Dünyaya çoxsivilizasiyalı baxış isə bu maneələrdən yan keçir. Qlobal siyasətə sivilizasiyalı yanaşma aşağıdakılara əsaslanır:

- dünya *müəyyən* mənada ikilidir, lakin əsas bölgü dünyanın inkişaf etmiş Qərb sivilizasiyasına və digərlərinə əsaslanır.
- dövlətlər dünya siyəsətində *ən mühüm ifaçı rolunu* oynayır və oynayacaqdır. Lakin onların maraqları, davranışları, münaqişələr mədəni və sivilizasion faktorlara əsaslanır.
- dünya milli münaqişələrdən ibarət anarxiyadır. Lakin qlobal təhlükəsizliyə ən böyük təhlukə törədən münaqişələr müxtəlif sivilizasiyalara mənsub dövlətlər və qruplar arasında olanlardır.

Dünyada baş verən prosesləri, müharibələri, etnik münaqişələri, beynəlxalq münasibətləri, mədəniyyət və sivilizasion cəhətdən təhlil etsək, bu proseslərin mahiyyətini sivilizasiyaların müxtəlifliyində və onların arasında ziddiyyətlərin mövcudluğunda axtarsaq qlobal siyasəti daha asan dərk edərik.

D

DANIŞIQLAR - konfliktlərin həllində, yaxud nizama salınmasında və şəxsiyyətlərarası münasibətlərdən beynəlxalq münasibətlərədək bütün problemlərin həllində əsas üsullardan biri.Digər üsullardan onun başlıca fərqi bundadır ki, bu halda qərar **D.** iştirakçılarının əvəzinə yuxarı, yaxud, məhkəmə (arbitraj) instansiyaları tərəfindən qəbul edilmir, onların özlərinin birgə iradəsi ilə işlənib hazırlanır. **"D."**hər şeydən əvvəl, birgə qərarlar qəbulu prosesidir. **D.** gedişində baş problem fikir ixtilaflarının tədricən aradan qaldırılması, variantın seçilməsinə, bu və ya digər problemin həllinin konkret şərtlərinə münasibətdə iştirakçıların mövqelərinin yaxşılaşdırılması yolu ilə həll edilir.

İştirakçıların sayı və tərkibindən, müzakirə edilən problemlərin xarakterindən və digər şərtlərdən asılı olaraq **D.**-ın müxtəlif tipləri vardır. Onlar ikitərəfli və çoxtərəfli; əmək mübahisələrinin nizama salınması; ticarət; daxili siyasi və beynəlxalq məsələlər ola bilər. **D.** siyasi, yəni dövlət başçıları və hökumətlər, xarici işlər nazirləri səviyyəsində aparılan, yaxud diplomatik olur. **D.** tiplərinin müxtəlifliyinə baxmayaraq, onlardan hər birinə **D.**nəzəriyyəsinin mövzusunu təşkil edən ümumi qanunauyğunluqlar xasdır.

Qərarların birgə qəbul edilməsi **D.**-ın başlıca funksiyası olsa da, yeganə funksiyası deyildir. **D.**-a, həmçinin mühüm kommunikativ və informasiya funksiyaları xasdır. Bunlar iştirakçılar tərəfindən həm vaxt qazanmaq, həm ictimai rəyə təsir göstərmək, həm də digər məqsədlər üçün istifadə edilə bilər. İştirakçı **D.**qarşısında hansı konkret məqsədləri qoyursa, bundan asılı olaraq o, nəticələri də qiymətləndirir. Bununla belə, hətta razılaşmaya gətirib çıxarmayan **D.** belə, əgər onların aparılması gedişində digər mühüm məsələlər üzrə müəyyən işlər yerinə yetirilmişsə, müsbət qiymətləndirilə bilər.

Hər cür **D.**-ın həm məzmun (predmet, mövzu) həm də prosessual (onların aparılması prosesi) tərəfləri vardır. Məzmun

tərəfinə danışıq konsepsiyasının işlənib hazırlanması ilə bağlı məsələlər kompleksi aiddir: **D.**-n mövzusunu təşkil edən problemin təhlili, onun həllinin və həyata keçirilmə şərtləri variantlarının müəyyənləşdirilməsi və qiymətləndirilməsi, **D.**-a dair konkret mövqelərin hazırlanması.

Prosessual tərəf bu və ya digər məzmunlu nəticənin əldə edilməsinin əsas vasitələrini nəzərdə tutur. Bu halda birgə qərarlar qəbulunun müxtəlif metodları mümkündür: Sövdələşmə (vaqqaining) metodu daha geniş yayılmışdır. Onun xarakterik cəhəti **D.** iştirakçılarının öz ilk tələblərini qəsdən şişirtməsi və beləliklə sövdələşmə üçün əlverişli zəmin yaratmağa səy göstərilməsidir. Yalnız güzəştlərlə qarşılıqlı mübadilədən sonra özlərini qane edən sazişə gələ bilirlər.

Sövdələşmənin alternativi kimi bir sıra mütəxəssislər problemlərin birgə təhlili metodunu, problemin həlli metodunu irəli sürürlər.Bu halda problemin həllinin mümkün variantlarını birgə geniş müzakirə etmək və onların içərisindən **D.**-ın bütün iştirakçılarının mənafeyini daha çox nəzərə alan, yaxud variantlardan daha obyektivini seçmək məqsədilə danışıqları açıq aparmaq təklif olunur.

Bir qayda olaraq, **D.** üç əsas mərhələdən keçir. Əlbəttə, bu razılıq əldə edildikdə baş verir. Birinci mərhələdə-tərəflər mövqelərini şərh edirlər. Onun zəruri şərti **D.** iştirakçılarının konkret təklifləri irəli sürməsidir. Bu mərhələdə həll edilən başlıca məsələ **D.**-ın məzmun çərçivələrinin formalaşdırılmasıdır: iştirakçılar müzakirəyə problemin hansı konkret məsələlərini, problemin hansı aspektlərini çıxarmışlar.

İkinci mərhələ-əsaslandırmadır. Onun baş tutmasının əsas zəruri şərti tərəflərdə gələcək sazişin ümumi müddəaları haqqında aydınlıq və mümkün qədər, razılaşdırılmış anlaşma yaranmasıdır. Həmişə olmasa da, çox vaxt bu mərhələnin başa çatmasının xarici əlaməti sonrakı iş üçün iştirakçılar tərəfindən qəbul edilən layihənin, yaxud layihələrin hazırlanmasıdır.

Üçüncü mərhələ-redaktədir. Bu mərhələdə sazişin konkret müddəaları, təfsilatı razılaşdırılır, müqavilənin son mətni hazırlanır.

D.-ın prosessual tərəfinə onların aparılmasının strateji və taktiki məsələləri də aiddir. Strategiyanın nəzəri seçilməsi imkanı, bir qayda olaraq, böyük deyildir. Adətən, söhbət davranışın sərt və mülayim xətləri arasında uyğununu seçməkdən gedir. Lakin həm bu, həm də digər imkanlar daha mürəkkəb çıxış yollarını nəzərdə tutur: variantların irəli sürülmə növbəliliyinin, formal və qeyri-formal koalisiyaların əldə edilməsinin məqsədəuyğunluğu və s.

Taktik cəhətdən **D.** aparılması prosesində bu, yaxud digər konkret məqsədi reallaşdırmağa kömək edən konkret gedişlərin çoxlu müxtəlif düzümləri mövcuddur. Taktikanın bir çox növləri konkret danışıqlar məclislərin haqqında ədəbiyyatda geniş təsvir edilmişdir: qarşı tərəfi xahişçi vəziyyətinə salmaq (demandeur), gilyotin (D.-ın başa çatması üçün sərt müddətlər qoyulması), salyami taktikası (xırda güzəştlər), məsələlərin paketləşdirilməsi və s.

D. aparılmasının strategiya və taktikasından əlavə, həmçinin onların aparılması texnikası - **D.**iştirakçısı üçün konkret, asan gedişlər, onların əhəmiyyəti və i.a.haqqında məsələ də fərqləndirilir.

Müxtəlif ölkələrin nümayəndələrinin və hətta əlahiddə **D.**iştirakçısının hər birinin danışıqları aparmaqda öz üslubları vardır. Bu üslublar bir-birindən kəskin fərqlənə bilər. Müxtəlif milli, həmçinin fərdi və amirlik üslubları ilə əvvəlcədən tanışlıq **D.**-da qarşılıqlı anlaşmanı xeyli asanlaşdırır.

D.haqqında elmin xüsusi bölməsi-vasitəçilik məharəti adlanır.

DAXİLİ DİPLOMATİYA SƏNƏTİ - hakimiyyətin (dövlətin, partiyaların və i.a.), orijinal siyasi təfəkküründən və hökumətin siyasi empirizm, oppoxtunizm, praqmatizm, volyuntarizm və epiqonçuluğun xəlitəsi əsasında nəzəri cəhətdən işləyib hazırladığı siyasi konsepsiyalardan asılı olan münasibətlərinin məcmusu. **D.d.s.** istənilən hökumətin fəaliyyəti üçün xasdır, lakin islahatlar, inqilabdan konkret yaradıcı praktikaya keçid dövrlərində, sosial-iqtisadi dəyşik liklərdə ümumi iştirakın təşkilinə ehtiyac gücləndikcə, sülh və razılıq əldə edildikcə xüsusilə

aşkar şəkildə özünü göstərir.

D.d.s. cəmiyyətin mənafeyinə uyğun gələ, yaxud gəlməyə bilər. Sonuncu halda, əvvəlcə, islahatlara qədər mövcud olmuş siyasi rejimin əsaslarının sarsılmazlığı haqqında sənəd (manifest, bəyannamə, fərman, xalqa müraciət) dərc edilir. Sənəd dərc olunduqdan, yaxud dərc edildiyi vaxtda hakimiyyətin yüksək pillələrində dəyişikliklər edilir. Daxili siyasətin işlənib hazırlanması və əhalinin ideoloji hazırlığı ilə bağlı vəzifəyə cəmiyyətin və ziyalıların bəzi dairələrində tanınan, demaqoq qabiliyyətinə malik bir şəxs təyin edilir (bax; **DEMAQOQLUQ**).

İctimai fikri hazırlayan bütün mümkün vasitələrin köməyi ilə demaqoq şəxsi, yaxud bürokratik avtoritar hakimiyyətin demokratik azadlıqlarla birləşdirilməsinin mümkünlüyü haqqında siyasi xülyaları müdafiə edir. Bu məqsədlə fərqləndirici cəhətini eklektizm təşkil edən siyasi konsepsiya yaradılır və istifadə olunur.

Lakin bu eklektizm özündə dövlət aparatının müxtəlif hələqələrinin və onlarla bağlı əhali qruplarının mənafeləri ilə çulğalaşan irticaçı, yaxud mühafizəkar siyasi konsepsiyalara üstünlük verdiyinə görə xüsusi növlü eklektizmdir. Ölkənin ideya-siyasi ənənələri (Rusiyada slavyanofil və qərbçilik tipli) demaqoqlar üçün çoxlu sayda belə konsepsiyaların yaradılması üçün geniş zəmindir. Buna görə də hökumətin öz ölkəsinin mənəvi tarixinə münasibət həmişə utilitar olur. Konsepsiya tapıldıqdan sonra intensiv qaydada onun təbliği dövrü başlanır. Əvvəllər qəbul olunmaz, müxalifətvə hətta inqilabi sayılan hər şey, qəzet səhifələrinə, kütləvi informasiyanın digər kanallarına çıxır, müvəqqəti olaraq rəsmi ideologiyaya çevrilir. Konsepsiyadakı xülyalara yardım üçün paralel surətdə birinci dərəcəli olmayan siyasi dəyişikliklər (məs., şəhər və küçə adlarının dəyişilməsi, bu və ya digər bayraq məsələsinin həlli və i.a.) həyata keçirilə bilər.

Eyni zamanda ordu və cəza orqanları döyüş hazırlığı vəziyyətinə gətirilir. Onların siyasi sistemdə (bax; **CƏMİYYƏTİN SİYASİ SİSTEMİ**) rolu güclənir, onlar ideoloji kəşfiyyat hüquqları əldə edirlər. Sonra

onların qalmaqalçı ifşalarla məşhurlaşmış xüsusi vəkilləri müvəqqəti rəsmi ideologiya ilə mübarizə kampaniyasına başlayırlar. Dəyişikliklərin radikal variantlarını ardıcıl müdafiə edən müddəalar və insanlara qarşı daha qətiyyətlə mübarizə aparılır. Bu məqsədlə kütləvi informasiya kanallarının bütün gücündən tam istifadə olunur.

Hökumət hər hansı ideologiyanın, o cümlədən müvəqqəti rəsmi ideologiyanın şərhi üçün inhisarı daim əlində saxlamağa səy göstərir. Konsepsiyanın əsl müəlliflərinə münasibətdə siyasi şəraitdən asılı olaraq diffamasiya (ləkələmə), mənəvi və siyasi terror tətbiq edilə bilər. Hökumət həmişə vətəndaşların siyasi yaddaşının qısaömürlülüyünə arxalanır və bunu yalançı siyasi hadisələr kaleydoskopu ilə möhkəmləndirməyə səy göstərir. Eyni münasibət müvəqqəti demokratik azadlıqlara da aiddir. Hökumət üçün bu azadlıqlar o vaxta qədər məqbul sayılır ki, onlar polis-bürokratik çərçivəsindən kənara çıxmırlar.

Bütün bu tədbirlər həyata keçirildikdən sonra irtica və əksinqilab dövrü başlanır. Siyasi bürokratiya demokratiya ilə mübarizəni axıradək aparmağa və siyasi mütləqiyyəti diriltməyə daim səy göstərir.

DAXİLİ SİYASƏT - dövlətin, onun struktur və institutlarının mövcud sosial-siyasi quruluşu saxlamağa, yaxud islah etməyə yönəldilmiş iqtisadi, demoqrafik, sosial-inteqrasiya, sosial-mədəni, repressiv və i.a. istiqamət və xətlərinin məcmusu.

D.s-i həyata keçirmək üçün dövlət geniş vasitələr spektrindən istifadə edir.

DAXİLİ SULAR (beynəlxalq hüquqda) - daxili su yolları (müəyyən dövlətin ərazisindəki çaylar, göllər, kanallar, su anbarları) və hər tərəfdən yalnız bir dövlətin quru ərazisi ilə əhatə olunan dənizlər D.s.-a həmçinin dəniz portları, sahilləri eyni bir dövlətə məxsus daxili və xarici reyd və körfəzlər aiddir. giriş hissəsində eni 24 mildən artıq olmayan və sahilləri bir dövlətə məxsus körfəzlər də D.s.hesabolunur. D.s-ın rejimi tarixi körfəzlər adlanan körfəzlərə (məs.,Biskay körfəzinə) də şamil edilir. D.s. sahil boyu dövlətin yurisdiksiyasına aiddir.

DAUNİNQ-STRİT (ing.-

Dyusninq street) - Londonun mərkəzində Baş nazirin iqamətgahı, habelə Böyük Britaniya Xarici İşlər Nazirliyinin yerləşdiyi küçə."D.-S." termini mətbuatda çox vaxt bu ölkə hökumətinin rəmzi kimi işlədilir.

DEMİLİTARİZASİYA (də...+lat.militaris-hərbi) - bax Ərazinin demilitarizasiyası.

DEMOQRAFİYA SİYASƏTİ - sosial-iqtisadi siyasətin bir hissəsi; **D.s.** dövlət və ya regional səviyyəsində ola bilər. **D.s.**-nin əsas məzmunu ölkə əhalisinin yerləşdirilməsinə tənzimləmə təsirini təmin etməkdən ibarətdir.

Əhalinin yerləşdirilməsinə təsir, həm müvafiq sosial-iqtisadi şəraitin yaradılması, həm də qanunlar və qanunlardan irəli gələn aktlar qəbul etməklə həyata keçirilir.

D.s-nin nəticələri, o cümlədən əhalinin siyahıya alınması zamanı əldə edilən nəticələr dövlət statistikasında qeydə alınır. Məlumatların müəyyən hissəsi keçmiş SSRİ-nin bütün respublikaları üçün eyni olan əhalinin siyahıyaalma proqramı ilə müəyyənləşdirilir. Əhalinin siyahıya alınmasında birləşdirilmiş ayrı-ayrı iqtisadi(yaşamaq mənbəyi kimi məşğuliyyət növü), etnik (danışıq dili) və digər məlumatlar D.s.-nin amilləri kimi çıxış edir.

Dövlət hakimiyyəti və idarəetmə orqanları, onların vəzifəli şəxsləri ölkə miqyasında, region dövlət hakimiyyəti və idarəetmə orqanları, bələdiyyə orqanları, onların vəzifəli şəxsləri regionlar miqyasında **D.s.**-nin subyektləridir.

İctimai təşkilatlar və vətəndaşlar öz fəaliyyətləri ilə **D.s.**-nin həyata keçirilməsinə kömək edə bilərlər, lakin onun subyektləri hesab olunmurlar.

D.s.-nin başlıca istiqamətləri bunlardır: əhalinin təbii artımı və miqrasiyası; onun təhsil potensialının formalaşması; əmək ehtiyatlarının tərkibi və strukturu; peşə yönümü; işə düzəltmə; əhalinin məşğulluğu. Əhalinin təbii artımı doğum və ölümün qarşılıqlı təsiri nəticəsində adamların nəsillərinin fasiləsiz təzələnməsi prosesidir. Sosial-iqtisadi cəhətdən bu qarşılıqlı təsir əhalinin təbii artımına **D.s.**-nin nə dərcədə tə'sir göstərməsindən asılıdır. Miqrasiya, yəni əhalinin daimi yaşayış

yerindən köçməsi ilə başa çatan yer dəyişməsi və əhalinin təbii artımı regionların əhalisinin səmərəli cinsi yaş strukturunun formalaşmasına kömək edir (yaxud əngəl törədir).

Əhalinin təhsil potensialı əhali tərəfindən toplanmış təhsilin adam-yaşının miqdarı ilə ölçülür. Ümumtəhsil və peşə təhsili sistemi təhsil potensialı dinamikasının maddi əsasını təşkil edir. Təhsil potensialı işçi qüvvəsinin keyfiyyətini və hazırlığını müəyyənləşdirir. Beləliklə, D.s.-nin predmetiölkənin təhsil sisteminə təsir göstərməkdir.

Əmək ehtiyatları cəmiyyətin ən mühüm istehsal gücü kimi tərkib və strukturu ilə səciyyələnir. Bu, əhalinin sağlamlığa, təhsilə, mədəniyyətə, ixtisasa və iş üçün zəruri digər keyfiyyətlərə malik hissəsidir. əmək ehtiyatları işçi yaşında və bu yaşdan sonra da işləyən əmək qabiliyyətli əhalini birləşdirir. Əmək ehtiyatlarının strukturu adamların işlədikləri sahələr üzrə, onların tərkibi, cinsi-yaş fərqləri, bu və ya digər peşəyə, ixtisasa və i.a. mənsubiyyəti kimi əlamətlərlə müəyyənləşdirilir.

Peşə yönümünü, adamlara peşə seçməkdə kömək məqsədilə tədbirlər kompleksi həyata keçirilərkən **D.s.** subyektləri əmək ehtiyatları strukturuna təsir göstərirlər.

İşədüzəltmə ayrı-ayrı vətəndaşların muzdla işə düzəldilməsinə kömək göstərmək sahəsində fəaliyyətdir. İşədüzəltmə dövlət əmək və əhalinin məşğuliyyəti orqanları və ixtisaslaşdırılmış şəxsi firmalar tərəfindən həyata keçirilir.

Əhalinin məşğulluğu, yəni adamların ictimai faydalı əməkdə məşğulluğu fəaliyyət deyil, adamları iş yerləri ilə təmin etmək sahəsində ictimai münasibətlərdir. İşsizliyin yaratdığı sosial gərginliklə bağlı müasir D.s.-də əhalinin məşğulluğu problemi çox mühüm yer tutur.

DEMOKRATİYA - (yun. demos, xalq və cratos, hakimiyyət-xalq hakimiyyəti) - cəmiyyətin, dövlətin və hakimiyyətin idarə edilməsinin siyasi və sosial təşkilinin əsas formalarından biri, tarixdə adətən dövlətin respublika forması ilə bağlı olub inkişaf və tərəqqi edən siyasi rejim. **D.**, demokratikləşdirmə və demokratiklik eyni şey deyildir; demokratizm idarəetmə rejiminin, üsullarının, tətbiq olunan metodların səciyyəsi, siyasi münasibətlərin və hakimiyyətin davranışının obrazıdır. Buna görə də prinsipcə, yalnız respublika deyil, həm də monarxiya dövləti ("yumşaq" liberal rejim), xüsusilə monarxiyanın nominal rol oynadığı müasir monarxist dövləti demokratik dövlət ola bilər. İdarəetmənin siyasi formalarının müxtəlif olduğu oxşar rejimli dövlətlər üçün ümumi **D.**adı da buradan irəli gəlmişdir.

D.tarixdə cəmiyyətin siyasi təşkilinin digər (monarxiya) formalarından az qala daha əvvəl məlumdur: bəşəriyyətin siyasi inkişafının dövlətəqədərki mərhələlərinin birbaşa ibtidai demokratiya, icma demokratiyası, hərbi tayfa demokratiyası (məs., qədim türklərdə, germanlarda, slavyanlarda). **D.**dövlət formaları antik dünyaya yaxşı məlum idi. Yunanıstanda bu formalar uzun müddətmonokratiyanın müxtəlif formaları (tiraniya, istibdad hakimiyyəti) ilə bir-birini əvəz etmişdir, Qədim Romada respublika **D.**-sı imperiya tipli monarxiya idarəetməsindən yüz illərlə əvvəl mövcud olmuşdur. Orta əsrlər Avropasında dəfələrlə və uzun müddət yaşamış xalq məclisi formalı (feodal və feodal-teokratiya tipli) demokratik şəhərdövlətlər yaranırdı. Məs., Hollandiyada, Venesiyada, Lukkada, Cenevrədə, gentsdə və Novqorodda bu cür dövlətlər meydana çıxmışdı.

Feodal orta əsrlərində, xüsusilə Qərbdə monarxiya idarəetmə çərçivəsində Roma hakimiyyətinin bələdiyyə orqanlarından şərti demokratik yerli özünüidarə qurumları - silk bölgülü və heç də tam olmayan (şəhər) hökumətli, qismən seçkili olan, qismən də imtiyazlara ("haqqı çatdığına görə") əsaslanan əyalət parlamentləri saxlanmış və yenidən formalaşdırılmışdı. Novqorodda veçe yığıncaqları dini başçını (respublika teokratik respublika idi) arxiyepiskopu (1156 ildən), posadnik və minbaşını-dünyəvi hakimiyyəti və knyaz-sərkərdəni seçirdi. Veçe digər vəzifəli şəslər kimi knyaz-sərkərdəni də işdən azad edə bilərdi. **D.**-nın atributları olan sosial və siyasi azadlıq, hakimiyyətin nüfuzu və xalqın suverenliyi Novqorod Qroznı tə-

rəfindən darmadağın edilənədək qorunub saxlanmışdı. İsveçrədə birbaşa, plebissitçi (idarəetmənin heç də ümumi demokratik formaları olmasa da) kanton xalq (kişilər) yığıncaqları (kantonlardan birində indi də qalır); Rusiyada zadəganların yığıncaqları, zemstvo və mülkədar məclisləri; nəhayət, daha çox qapalı, lakin kilsə strukturlarında xalqın mənafelərinin ifadəçisi iddiasında olan kilsə yığıncaqları, kollektiv hakimiyyət orqanları fəaliyyət göstərirdi.

Beləliklə, digər universal dəyərlərin-azadlığın, ədalətin və s. həyata keçirilməsi prosesi kimi, **D.** da tarixən sonsuz prosesdir, lakin realdır, nəzəriyyənin qeydə aldığı bir sıra tam aydın mərhələlərdən keçir.

D. tarixinin tədqiqi idarəetmənin bu tipinin tədrici inkişafını izləməyə və onun əsas, universal xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verir.

D. ideyasının əsasını insanların azadlığı və bərabərliyi, sosial-siyasi dəyərlərin dərk olunması və zəruriliyinin qiymətləndirilməsi təşkil edir. **D.** ideyasını ilk irəli sürənlərdən biri Herodot onu belə ifadə etmişdi: "demokratiya bərabərliyə əsaslanan dövlətdir" (qədim yunanlarda izonomiya adlanırdı). Hələ qədimdən **D.**-nı səciyyələndirən ən mühüm keyfiyyətlərdən biri onun çoxluğun hakimiyyətinə əsaslanan quruluş kimi qavranılması idi. **D.**-nın xalq hakimiyyəti, çoxluğun hakimiyyəti kimi səciyyələndirilməsi özünün təzahürünü konkret dövlət formasında tapır. Buna görə də, politologiya elmində **D.** hər şeydən əvvəl, dövlət quruluşu forması keyfiyyətində öyrənilir. Əsası antik siyasi fikirdə qoyulmuş bu ənənə bu günə qədər özünün ilkin mənasını qoruyub saxlamışdır. T.Hobbsun fikrincə, **D.** elə bir dövlət formasıdır ki, burada ali hakimiyyət istisnasız olaraq bütün vətəndaşlara məxsusdur. Ş.Monteskyeyə görə isə, əgər respublikada hakimiyyət xalqa məxsusdursa, onda bu **D.**-dır.

Dövlət idarəçiliyi forması olmaq etibarilə **D.** bir sıra səciyyəvi əlamətlərlə fərqlənir. Politologiyada bu baxımdan **D.**-nın aşağıdakı əlamətləri sadalanır.

1. Xalqın suverenliyinin, hakimiyyətinin hüquqi cəhətdən

tanınması və institutlaşmış şəkildə ifadə olunması, xalqın suverenliyi ondan ibarətdir ki, məhz xalq hakimiyyəti formalaşdırır, yəni dövlət hakimiyyətini təsis etmək onun səlahiyyətidir.

2. Əsas dövlət orqanlarının seçkili olması. Bu prinsip o zaman səmərəli olur ki, əvvəla, seçkilər mütəmadi olaraq keçirilsin, ikincisi, formal xarakter daşımasın, üçüncüsü, seçilən orqanların və səlahiyyətli şəxslərin səlahiyyət müddətləri məhdudlaşdırılsın.

3. Dövlətin idarə olunmasında vətəndaşların hüquq bərabərliyi. Bu prinsipin ən elementar tələbləri öz ifadəsini seçki hüququnun ədalətliliyində; bütün vətəndaşlara həm seçməkdə, həm də seçilməkdə bərabər hüquqlar və imkanlar təmin edilməsində: siyasi partiyalar, müxtəlif ictimai təşkilatlar yaradaraq hakimiyyət uğrunda mübarizədə iştirak etməsində, öz fikrini sərbəst bildirməsində, hakimiyyətə bu və ya digər formada təsir göstərməsində tapır.

4. Qərarların çoxluq tərəfindən qəbul edilməsi. **D.** hansı formada təzahür etməsindən

asılı olmayaraq, çoxluğun hakimiyyətidir. Xalq hakimiyyəti olmaq etibarı ilə **D.**-nın mahiyyəti dövlətin xüsusi formasının qərarlaşması ilə yanaşı vətəndaşların hakimiyyətə yaxınlaşmasına imkan yaradan bir sıra demokratik təsisatların yaradılması vasitəsilə reallaşır. Dövlətlə bərabər cəmiyyətdə bir sıra strukrurlar, birliklər və institutlar qərarlaşır və cəmiyyətin idarə olunmasında iştirak edir. Əslində bu təsisatlar vətəndaşların dövlət idarəçiliyinə cəlb olunmadan cəmiyyətin idarə edilməsi prosesində iştirakını mümkünləşdirir və buna görə də demokratik təsisatlar statusu qazanmış olur.

Vətəndaşların müxtəlif siyasi partiyalarda birləşməsi, təzyiq qrupları yaratması yolu ilə hakimiyyətə təsir göstərmək, bu və yadigər qrup mənafelərindən irəli gələn problemlərin həllinə nail olmaq imkanı **D.**-nın mühüm prinsipi kimi əhəmiyyətli rol oynayır. Çünki həmin prinsip bir tərəfdən hakimiyyətin bütün vətəndaşların, bütün əhalinin mənafeyinə xidmət göstərməsinə zəmin yaradır, digər tərəfdən isə siyasi hakimiyyətin

tədricən vətəndaşların ayrı-ayrı birlikləri və ya ittifaqları arasında paylanmasını şərtləndirir. Vətəndaşların birlikləri, siyasi və digər birliklər və ittifaqlar onların hüquqları və azadlıqlarının müdafiəsini təmin edir, əhalinin mənafeyini ifadə edərək vətəndaşla mərkəzi hakimiyyət arasında bir növ vasitəçi funksiyasını yerinə yetirir.

D.bəşəriyyətin yaratdığı dövlət forması, siyasi rejim növü olaraq qalmır. O, həm də cəmiyyətin siyasi təşkilində insanların daim can atdığı bəşəri idealdır. **D.** ideyalarının bütün tarix boyu xalq arasında populyarlığı, cazibədarlığı azadlıq, bərabərlik, şəxsiyyətin ləyaqətinə hörmət kimi əbədi dəyərlərə söykənən ideal olmasındadır. İnsanların, xalqların **D.** uğrunda mübarizəsi ibtidai bərabərlik prinsiplərindən başlayaraq bu ideala addımbaaddım yaxınlaşmaq uğrunda mübarizəni xatırladır. Lakin heç vaxt hər hansı ölkədə **D.** təxəyyüldə canlandırılan ideala tam uyğun olmayıb. Buna görə də sadə insanlar arasında da, politoloqlar arasında da nə vaxtsa həqiqi **D.**-nın qərarlaşacağı şübhə altına alınır. Müxtəlif tarixi mühitdə, ayrı-ayrı ölkələrdə dövlət quruluşu formalarının, siyasi rejimlərin qurulması da **D.** haqqında ideal təsəvvürlərin, real gerçəklikdə rast gəlinən xalq hakimiyyəti prinsiplərindən xeyli fərqləndiyindən xəbər verir.

D. prinsipləri həyatda geniş tətbiq edildikcə xalq hakimiyyəti haqqında idealların real gerçəkliyin tətbiqləri ilə ziddiyyəti aydın şəkildə özünü büruzə verir. Bütün dövlətlərin **D.** tarixi göstərir ki, xalqın idarə etməsi qeyri-mümkün olduğu kimi, hakimiyyətin bütün mərhələlərdə xalqın əlində olması ideyası da reallıqdan uzaqdır. Müasir **D.** nəzəriyyələri təcrübəyə əsaslanaraq **D.**-nı konkret fərdlərin, liderlərin xalqın səsvermədə etimadını qazanmaq uğrunda rəqabətinə əsaslanan idarəetmə forması kimi qiymətləndirirlər. (İ.Şumpeter).

Müasir etnoqrafik tədqiqatlar **D.**-nın insanların bərabər şəkildə təmasda olmasının, onların özünüdərketməsinin və təfəkkürünün, şəxsi ləyaqətinin inkişafına stimul yaratdığını, ümumiyyətlə, insan nəslinin formalaşmasında böyük rol oynadığını təsdiqləyən tutarlı materiallar verir. Bununla yanaşı, **D.**-nın sosial hadisə kimi tarixi inkişafın müəyyən pilləsində meydana gəldiyini irəli sürən və inandırıcı dəlillərə əsaslanan nöqteyi-nəzərlər də az deyildir. Hər halda, bu məsələ ətrafında müxtəlif fikir çalarlarının cərəyan etməsi tarixi inkişafın **D.**-nın ayrı-ayrı pillələrdən keçərək təkamülü ilə müşayiət edildiyi haqqında iddianın irəli sürülməsinə mane olmur.

Müasir siyasi nəzəriyyələr və təsəvvürlərdə **D.** anlayışının dövlət formasından daha geniş mənada işlədilməsinə üstünlük verildiyini nəzərə almaqla **D.**-nın tarixi inkişafının aşağıdakı sxemini təqdim etmək mümkündür:

1) İbtidai D.,
2) Hərbi D.,
3) Antik D.,
4) Yeni dövrün klassik D.-sı
5) Müasir D.

İcmanın idarə olunmasının demokratik mahiyyəti aşağıdakı prinsiplərdə ifadə olunurdu:

qəbilə və ya tayfa toplantılarında icmanın yaşlı üzvlərinin iştirak etmək hüququ və sərbəst surətdə fikir söyləmək azadlığı; qəbilə başçılarının seçilməsi və dəyişdirilməsi, onların hakimiyyətinin mənəvi nüfuza əsaslanması və heç bir maddi imtiyazlarla müşayiət olunmaması; başçıların və adi qəbilə üzvlərinin iyerarxik münasibətlərinin qəbilə daxili əxlaq normaları və ictimai rəy əsasında tənzimlənməsi.

İbtidai **D.** birbaşa (bilavasitə) **D.**-nın ilk tarixi forması idi. **D.**-nın məhz bu tarixi forması sonralar bu və ya digər kombinasiyalarda demokratik idarəetmə institutlarının yaranması üçün ilkin başlanğıc rolunu oynamışdır.

İcma münasibətlərinin təkamülü nəticəsində ibtidai **D.**-dan hərbi **D.**-ya keçid baş verir. Bu mərhələdə cəmiyyətdə idarəçilik funksiyalarının həyata keçirilməsi vasitəsi kimi əsas etibarı ilə hərbi hissələr, drujinalar çıxış edir. Hərbi **D.**-nın qərarlaşması patriarxal icmaların dinc halının başa çatması, hərbi əməliyyatların icmanın maddi təminatında mühüm rol oynayan amilə çevrilməsi ilə əlaqədar əhəmiyyətinin artması və bunun nəticəsində qoşuna rəhbərliyin ən mühüm idarəçilik forması səviyyəsilə yüksəlməsi sayəsində

mümkün olmuşdur. Qoşunun rolu artdıqca hərbi başçı tədricən ümumqəbilə məsələlərinin həll edilməsində aparıcı simaya çevrilirdi. Hərbi **D.** dövründə icma toplantıları saxlansa da, getdikcə daha çox hərbçilərdən təşkil edilir və daimi fəaliyyət göstərən orqan xarakteri kəsb edirdi. Qəbilə başçılarının və nüfuz sahiblərinin hakimiyyəti artan var-dövlətə, qəbilə işlərinin idarə olunmasında mühüm vasitəyə çevrilmiş tayfa üzvlərinin nüfuzuna əsaslanırdı. Qəbilə idarəçiliyinin bu formasını möhkəmləndirmək və xüsusilə də icmanı idarə edənlərin mövqeyini gücləndirmək və əbədiləşdirmək məqsədilə başçının, hərbi drujina rəislərinin zənginlik və hakimiyyətinin nəsildən-nəsilə ötürülməsi ənənələrinin əsası qoyulurdu. Qəbilədə iyerarxik əlaqələrin üstünlük təşkil etməsi öz növbəsində tədricən dövlətçiliyin əsaslarının yaradılmasına, hərbi **D.**-dan antik **D.**-ya keçidin baş verməsinə gətirib çıxardı.

Antik **D.**-nın parlaq nümunələri Afina Respublikasında və Qədim Roma dövlətində öz ifadəsini tapmışdır (e.ə. 5 əsr). Antik **D.**-nı bir sıra vacib əlamətlər səciyyələndirir. Hər şeydən əvvəl, bu, birbaşa (bilavasitə) **D.** şəklində üzə çıxırdı. Xalq (azad əhali) cəmiyyətin vacib problemlərinin həll edilməsində, ümumiyyətlə, demokratik proseduraların həyata keçirilməsində bilavasitə iştirak edirdi. İkincisi, antik **D.** təbiətinə görə kollektivçi **D.** idi. Fərd dövlətdən, dövlət isə cəmiyyətdən ayrılmadığından, hər kəs öz mənafeyinin reallaşmasını ümumi mənafenin reallaşması ilə əlaqələndirirdi.

Antik **D.**-nın üçüncü xüsusiyyəti ondan ibarətdir idi ki, qeyd şərtsiz ümumi rəyin formalaşması ilə müşayiət olunan bu **D.** tədricən çoxluğun demokratiyasına meydan verirdi. Antik dövrün böyük mütəfəkkirləri Platon və Aristotelin **D.**-nı, xüsusilə də çoxluğun **D.**-sını alqışlamaması, onu **OXLOKRATİYA** adlandırması, görünür, bununla əlaqədardır.

Orta əsrlərdə avtoritar monarxiya rejimlərinin qərar tutması ilə xalq hakimiyyəti ideyası və prinsipləri siyasi həyatdan sıxışdırılıb çıxarıldı, **"D"** ifadəsi siyasi leksikondan silindi. Lakin

monarx hakimiyyətinin məhdudlaşdırılması ideyası və cəhdləri orta əsrlərin siyasi tarixini səciyyələndirən mühüm amillərdən sayılır. Elə bu cəhdlər də yeni dövrdə **D.** uğrunda hərəkatların təməlini qoydu.

Yeni dövrün **D.** haqqında təsəvvürləri və dövlət idarəçiliyi praktikası əsas etibarilə liberalizmin təsiri altında formalaşırdı. Liberalizm prinsipləri ilk dəfə İngiltərədə 1215 ildə qəbul edilmiş monarx hakimiyyətinin məhdudlaşdırılmasına yönəldilən Azadlığın Böyük Xartiyasında öz əksini tapdı. Bu sənəddə şəxsiyyətin azadlığının ümdə prinsipləri də ifadə olunmuşdu.

Liberal demokratiyanı səciyyələndirən əsas cəhətlər bunlardır: hakimiyyətin subyekti kimi xalqın mülkiyyət sahibləri ilə eyniləşdirilməsi (buradan da seçicilərə əmlak senzi qoyulması praktikası ortaya çıxmışdı), şəxsiyyətin muxtariyyatına üstünlük verilməsi, dövlətin səlahiyyətlərinin ictimai asayişin qorunması, vətəndaşların təhlükəsizliyinin, təminin edilməsi ilə məhdudlaşdırılması, hakimiyyətin bölünməsi və tarazlaşdırılması mexanizminin yaradılması, çoxluğun azlıq üzərində hakimiyyətinə məhdudiyyət qoyulması.

C.Lokk, Ş.L.Monteskye və b. tərəfindən işlənib hazırlanan liberalizm prinsipləri xalq hakimiyyəti ən ənələrindən xeyli fərqlənirdi. J.J.Russonun **D.** nəzəriyyəsi isə total şəkildə ümumi rəyin formalaşmasını, bu rəyə tabe olmayanların isə çoxluq tərəfindən təqib və təsirlərə məruz qalmasını nəzərdə tuturdu. Təsadüfi deyildi ki, yeni dövrün J.J.Russo tərəfindən formulə edilmiş klassik **D.** nəzəriyyəsi İ.Şumpeter tərəfindən tənqid edilmişdi. Onun fikrincə, formalaşdırılmış ümumi iradə əslində xalqın ümumi iradəsini ifadə etməyə də bilər. Çünki bu ümumi iradənin formalaşmasında əsas rolu xalq deyil, liderlər, qabaqcıl qrup oynayır. Deməli, **D.** fərdlərin xalqın səsi uğrunda rəqabət mübarizəsi nəticəsində hakimiyyətə can atmasına imkan yaradan təsisatlanmış sistemdir. Bu sistemdə siyasi prosesdə aparıcı rol fərdlərə, daha dəqiqi liderlərə məxsusdur. İ.Şumpeterə görə, **D.**-nın normal fəaliyyət göstərməsi üçün dörd şərtə əməl edilməlidir: 1) xalqın mühüm dövlət vəzifələri-

nə seçilməyə layiq ixtisaslı nümayəndələri olmalıdır; 2) siyasi orqanlar elə qərarlar qəbul etməlidir ki, xalq onu başa düşə və münasibətini bildirə bilin; 3) idarəçilik işi yaxşı təşkil olunmuş və məs'uliyyət hissi yüksək olan bürokratiyaya həvalə edilməlidir; 4) yüksək siyasi mədəniyyətdən xəbər verən səmərəli özünənəzarət mexanizmi formalaşmalıdır.

Müasir **D.** nəzəriyyələrindən biri **PLÜRALİST D.** konsepsiyasıdır. Plüralist D-nın ayrı-ayrı növ müxtəlifliyində özünü büruzə verən başlıca prinsiplər və ideyalar aşağıdakı şəkildə qruplaşdırılır:

1) Mənafe qrupu demokratik prosesin və siyasi sistemin başlıca ünsürü rolunda çıxış edir. Şəxsiyyətin mənafeyinin, hüquq və azadlıqlarının həyata keçirilməsi mənafe qruplarının yaradılması və səmərəli fəaliyyəti ilə bağlıdır;

2) müxtəlif mənafe qruplarının rəqabət və münaqişə xarakterli qarşılıqlı fəaliyyəti nəticəsində ümumi iradə formalaşır. Antik **D.** konsepsiyalarından fərqli olaraq, bu ümumi iradə əzəldən mövcud deyildir, yalnız münaqişə və kompromislər nəticəsində meydana gəlir;

3) demokratik hakimiyyətin sosial əsasını və gücünü mənafe qrupları arasında rəqabət və qüvvələr balansı təşkil edir;

4) siyasi sistemdə və bütövlükdə cəmiyyətdə tarazlaşdırma mexanizmi yaradılması;

5) bütövlükdə ictimai sistemin normal fəaliyyətinin təmin edilməsi, cəmiyyətdə sosial ahəngdarlığın yaradılması prosesində dövlətin rolunun artırılması;

6) siyasi, iqtisadi və digər hakimiyyətin dövlət, partiyalar, mənafe qrupları kimi siyasi nüfuz mərkəzləri arasında paylanması;

7) mənafe qruplarının daxili təşkilinin demokratik prinsiplərə əsaslanması, qrupun, onu təşkil edən üzvlərin mənafelərini adekvat şəkildə təmsil edə bilmək imkanlarına malik olması.

REPREZENTİV D. nəzəriyyəsi və onun növ müxtəlifliyi kimi təzahür edən **ELİTAR D.** konsepsiyası.

Reprezentiv **D.** nəzəriyyəsinə görə, real **D.** xalq təmsilçiliyi hökumətinin yaradılması ilə təmin edilə bilər, çünki xalqın iradəsini həyata keçirmək üçün onun özünün bilavasitə, iştirakı, əvvəla mümkün deyil, sonra isə qeyri-səmərəlidir. Xalqın bilavasitə iştirakı ilə həyata keçirilən ümumi iradə seçkilərdə bu və ya digər namizədə və proqrama üstünlük verilməsi şəklində iştirakçılarının dairəsi məhdudlaşsa da, bu, xalqın öz nəzarəti altında baş verir. Reprezentiv **D.** əsasən parlament **D.**-sı şəklində təzahür edir.

Elitar **D.** nəzəriyəsinə görə, cəmiyyətdə siyasi qərarların məhdud peşəkar qrup tərəfindən qəbul edilməsi obyektiv zərurətdir. Buna görə də **D.** ilə bağlı başlıca məsələ həmin qərarları qəbul edəcək peşəkar qrupun necə formalaşması hesab edilməlidir. **D.** cəmiyyəti xalqın razılığı ilə elitanın idarə etməsidir.

Elitar **D.**-da iki cərəyan qabarıq şəkildə nəzərə çarpır. Bunlardan birincisi belə bir müddəadan çıxış edir ki, **D.**-nı xalqdan qorumaq lazımdır, çünki xalq irrasionaldır, düzgün qərarlar qəbul etməyə qadir deyil (məs., Almaniyada 30-cu illərdə faşistlərin qanuni yolla hakimiyyətə gəlmələri kimi). Buna görə də, xalq siyasi qərarların qəbul edilməsini peşəkar siyasətçilərə etibar etməlidir.

İkinci cərəyana görə, hər bir cəmiyyətdə iyerarxik strukturlar yaranması obyektiv zərurətdir. İctimai sistem müxtəlif elita qrupları, iqtisadi, siyasi, hərbi, maliyyə elitaları yaradır. Onlar cəmiyyətin ayrı-ayrı sferalarının idarə olunması funksiyasını yerinə yetirir. Buna görə də, həm bütövlükdə ictimai sistem, həm də onun ayrı-ayrı elementləri, ictimai qruplar iyerarxik struktur şəklində fəaliyyət göstərir.

XX əsrin ortalarından yeni bir **D.** nəzəriyyəsi **PARTSİPAR D.** nəzəriyyəsi meydana keçdi. Bu nəzəriyyənin tərəfdarları belə hesab edirlər ki, həm fərd, həm də fərdlərin toplusu olan xalq rasionallıqdan kənar deyil, səmərəli özünüidarə sistemi yaratmağa qadirdir. Buna görə də onlar **D.**-nın xalq hakimiyyəti ideyasına maksimum uyğunlaşdırılmasına əsaslanan dövlət yaradılması təklifini irəli sürürlər. Mühüm tələblərdən biri də **D.**-nın ictimai həyatın təşkilinin ümumi prinsipi kimi cəmiyyətin bütün sferalarında təzahür edə

bilməsi, xalqın nəzarət funksiyasının artması, onun siyasi iştirakçılığının vacib ünsürü kimi qəti şəkildə qərarlaşmasıdır.

D.-nın mahiyyətini təşkil edən xalq hakimiyyəti ideyası əhalinin, hakimiyyətin həyata keçirilməsində iştirakının konkret formaları vasitəsi ilə reallaşır. Bu mə'nada bilavasitə (birbaşa), plebissitçi və nümayəndəli (təmsilçi) **D.** formaları fərqləndirilir.

BİLAVASİTƏ (BİRBAŞA) D. əhalinin qərarların qəbul edilməsində birbaşa iştirak etməsi ilə səciyyələnir. Müasir şəraitdə birbaşa D.özünü əsas e'tibarilə yığcam kollektivlərin idarə edilməsində və ya özünüidarəçilikdə göstərir (İsveçrə icmaları, Fransa kommunaları və s.)

PLEBİSSİTÇİ D. (latınca plebissit sözü "xalqın qəbul etdiyi qərar" mənasını verir) forma etibarilə birbaşa **D.**-ya çox yaxındır, lakin fərqi də var. Belə ki, birbaşa **D.**-da xalq siyasi qərarların qəbul edilməsinin bütün mərhələlərində (hazırlanması, müzakirə və qəbul edilməsi) iştirak edirsə, plebissitçi **D.**-da əhali bu və ya digər qanun layihəsinə öz münasibətini bildirməklə kifayətlənir. **D.**-nın bu formasının əsas üsulları kimi referendum, xalqın veto hüququ və təkliflər vermək hüququ qərarlaşmışdır.

NÜMAYƏNDƏLİ (təmsilçi) **D.** müasir dövrdə **D.**-nın ən geniş yayılmış və səmərəli formasıdır. Onun mahiyyəti vətəndaşların siyasi qərarların qəbul edilməsində birbaşa deyil, hakimiyyət orqanlarına seçilmiş nümayəndələri vasitəsilə iştirak etməsində ifadə olunur; Monteskye və Russo irəli sürmüşlər. Müasir şəraitdə təmsilçilik ideyası əhəmiyyətli dərəcədə təkmilləşib. Əgər ilk dövrlərdə təmsilçilik şəxsi vəkalət prinsiplərinə əsaslanırdısa, indi seçicilər ayrı-ayrı partiyalara və proqramlara səs verirlər. Beləliklə də, təmsilçilik ideyası şəxsi vəkalət formasından çıxaraq ümumi vəkalət forması kəsb etmişdir.

Nümayəndəli D. vətəndaşların seçdiyi nümayəndəli hakimiyyət orqanlarından ibarət idarəçilik formasını nəzərdə tutur. Adətən prezident idarəçiliyi və parlament idarəçiliyi kimi iki **D.** forması fərqləndirilir.

Prezident idarəçiliyi sistemində prezident və parlament xalq tərəfindən müxtəlif vaxtlarda ayrı-ayrı seçkilərdə seçilir.

Prezident geniş mahiyyətlərə malik olur, həm dövlət, həm də hökumət başçısı funksiyalarını özündə birləşdirir. Hökumət prezident tərəfindən təyin edilir və ona tabe olur. Eyni zamanda hakimiyyət bölgüsü prinsipinə mütləq şəkildə riayət olunur. Konstitusiyanı pozmaq və cinayət törətməkdən başqa heç bir halda prezidentin vəzifəsindən kənarlaşdırılma sına yol verilmir, eynilə də prezidentin parlamenti buraxmaq səlahiyyətləri olmur. Lakin prezident qanunvericilik orqanının qərarı üzərinə veto qoymaq hüququna malikdir.

Parlament idarəçiliyi formasında parlament və prezident eyni seçkilərin nəticəsindən asılı olaraq müəyyənləşir. Prezident parlamentdə seçilir. İcra hakimiyyəti iki pillədə prezident və hökumət strukturları formasında təzahür edir. Hökuməti parlament formalaşdırır, habelə onu geri çağırmaq hüququna malikdir. Hökumət parlament qarşısında hesabat verir.

Müasir dünyada parlament idarəçiliyinin üç əsas növü mövcuddur. Birincisi, parlamentdə təkpartiyalı çoxluq əsasında formalaşan rejimlər (Böyük Britaniya modeli). Bu sistemdə parlamentdə 50 faizdən çox səsə malik olan partiya hökuməti təşkil etmək hüququ qazanır.

İkincisi, parlament koalisiyası sistemi. Bu rejimdə hökumət parlamentdə mütləq çoxluğu qazana bilməyən bir neçə partiyanın koalisiyaya girməsi sayəsində formalaşır (AFR, Türkiyə və s.).

Üçüncüsü, parlament konsessusu adlanan rejimdir. Parlament **D.**-nın bu forması regional və ya etnik çoxluğun hökmranlığına əsaslanan siyasi sistemi ifadə etmək məqsədi daşıyır. Parlament konsensusu idarəçiliyi sistemində ölkənin ali dövlət hakimiyyəti orqanı olan parlament əvvəlcədən müəyyənləşdirilmiş regional və etnik təmsilçilik konsensusu əsasında seçilir (məsələn, Belçika). Bunlardan əlavə, müasir dünya praktikasında qarışıq idarəçilik forması adlandırılan sistemlərə də təsadüf olunur. Bu sistemlərdə həm prezident, həm də parlament idarəçiliyi ünsürləri

özünün əksini tapır. Məsələn, Fransanın siyasi sistemi prezident və parlament idarəçiliyi formalarının ayrı-ayrı cəhətlərini özündə birləşdirir.

1995 il noyabrın 12-də ümumxalq referendumu əsasında qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə respublikamızda idarəçilik forması aydın şəkildə təzahür edən prezident idarəçiliyi əlamətləri kəsb etmişdir. Lakin ali qanunvericilik orqanı kimi parlamentin - Milli Məclisin də respublikada idarəçilik sisteminin müəyyənləşdirilməsində geniş səlahiyyətləri saxlamaqdadır.

DEPORTASİYA (lat. derortatio - qovulmaq, sürgün olunmaq) - şəxsin, yaxud əhalinin müəyyən qrupunun məcburi olaraq (məhkəmə qərarı ilə, yaxud inzibati qaydada) daimi yaşayış yerindən sürgün edilməsi və yerdəyişmə azadlığı məhdudlaşdırılmaqla yeni yerdə yekunlaşdırılması.

DEVELVASİYA - artıq kağız pulların tədavüldən çıxarılması yolu ilə pul kütləsinin azaldılması. **D.** çox zaman pul islahatlarından əvvəl olur.

DƏMİR PƏRDƏ - (ing.Iron Curtain) - söz birləşməsi, XVIII əsrin sonundan işlədilməyə başlanmışdır. Teatrda yanğından mühafizə üçün tamaşa salonu ilə səhnə arasında qoyulan arakəsməni bildirirdi. Lakin bu termin XIX əsrdən etibarən dünyanın siyasi leksikonuna da daxil olmuşdur. XX əsrin siyasi həyatının real səciyyəsini verən bir anlayış kimi ilk dəfə İ.Uels tərəfindən "Zamanın maşını" kitabında istifadə olunmuşdur. Rusiyada 1905-ci il inqilabından sonra ilk dəfə filosof V.V.Rozanov tarixin və mədəniyyətin axını, sonu mənasında işlətmişdir. Publisist P.Sneiden bu termindən ilk dəfə Sovet Rusiyasına etdiyi səyahətdən sonra yazdığı "Bolşevik Rusiyası"(1920) kitabında, kapitalizm və sosializm sistemləri arasında keçilməz bir sərhədin varlığı mənasında istifadə etmişdi. U.Çörçillin 1946-cı il martın 5-də Fulton şəhərindəki (ABŞ-ın Missuri ştatı) çıxışında istifadə olunmuş D.p. ifadəsi "azad" və "kommunist" dövlətlərinin arasındakı sərhədləri bildirən metafora kimi işlədilmişdir.

DİVERSİFİKASİYA (lat. diwersificare - müxtəliflik yaratmaq, diwersis - müxtəlif və facere - etmək) — politologiyada: problemə müxtəlif cür yanaşmaların uyğunlaşdırılması; siyasi fəaliyyət üsullarının rəngarəngliyi..

DİVİDEND (lat. dividendus — bölünməli olan şey) — hər il səhmdarlar arasında səhmdarlar cəmiyyəti mənfəətinin bölüşdürülən hissəsi. Adi səhmə görə D. səhmdarlar cəmiyyəti mənfəətinin həmin ildəki miqdarından asılı olaraq verilir. İmtiyazlı səhmə görə D.-in həcmi sabit faiz şəklində əvvəlcədən qəti müəyyən olunur. Səhmi kapitalının artması ilə D.-in ümumi məbləği də artır; bunun da çox hissəsi səhmdarlar tərəfindən mənimsənilir. D.-in artması tüfeyli rantye təbəqəsinin gəlirinin artması göstəricilərindən biridir.r.

DİL - xalqın ruhu və mövcudluq formasıdır. Qədim dövrün fatehləri bir milləti məhv etməyi qarşılarına məqsəd qoyanda birinci növbədə onların dillərini, sonra da dövlətlərini məhv etməyə çalışırdılar. Dövlət **d.**-in həyata keçirilməsi və reallaşdırılması vasitəsidir. O millətin ki, dövləti yoxdur, onun dili gec-tez ya məhv edilir, ya da öz-özünə aradan çıxıb gedir. Tarixdə buna dair minlərlə misallaar var. Təkcə Midiyanı və Albaniyanı göstərmək kifayətdir. Onların dövlətlərinə son qoyulandan **sonra d. də yaşamadı**, tarixə çevrildi. Buna görə də xalqlar bütün vasitələrlə öz dövlətlərini yaradıb onu təkmilləşdirmək istəyirlər. Türklər dünya tarixinə dövlət yaradan bir xalq kimi daxil olmuşlar. Qədim türkərin yaratdıqları dövlətlər Orxon-Yenisey və gültəkin abidələrində, Qobustan qaynağındakı yazılarda, Firdovsinin "Şahnamə"sində, Nizaminin "İsgəndərnamə"sində və digər yüzlərlə yazılı və şifahi abidələrdə öz əksini tapmışdır. Tarixən 16 imperatorluq yaradan türklər Monteskyenin sözlərilə desək, sanki bu dünyaya ancaq hökmranlıq etmək məqsədilə gəlmişlər. Bu tarixi prosesdə onlar öz dillərini də qoruyub saxlamışlar.

Tarix sübut etmişdirki, dövlət dilin həyatında mühüm rol oynadığı kimi, **d.** də dövlət üçün ilkin şərtlərdən biridir. Möhtəşəm dili olmayan xalq möhtəşəm bir dövlət də yarada bilməz. Bu, qabaqcıl dünya xalqlarının

tarixi inkişafı ilə sübut olunur. Türklər ona görə möhtəşəm dövlətlər yaralda bilmişlər ki, onların möhtəşəm dilləri olmuşdur. Bu, tarixi bir həqiqətdir və bu gün də yaşayır. Bu sözləri dünyanın sivil və qabaqcıl xalqları olan ingilislər, almanlar, fransızlar, ruslar, ərəblər, farslar, çinlilər, yaponlar, ispanlar və b. haqqında da demək olar. Azərbaycan xalqı isə dünyanın elə millətləri sırasına daxildir ki, onlar bütün tarixlərini və həyatlarını sanki ardıcıl keçid mərhələləri, dəyişikliklər, yeniləşmələr, islahatlar üzərində qurmuşlar. Tarixən üç böyük dinin – zərdüştlüyün, xristianlığın və islamın daşıyıcısı olmuş, gah böyük imperiyalar daxilində, gah da özünün yaratdığı imperiyalarda yaşamış, dünya miqyasında baş verən sosial-siyasi hadisələrin lap mərkəzində olmağa çalışmışlar...

Dövlət subyektiv amil olmaqla dilin inkişafına ikili təsir göstərə bilər: 1) dövlət özünün yetirdiyi mütərəqqi və məqsədyönlü dil siyasətilə dili daha da inkişaf etdirə və zənginləşdirə bilər; 2) dövlət onun ərazisində mövcud olan dillərdən birinə və yaxud bir neçəsinə qarşı meyilli mövqedə dura bilər və bu yolla da özünün yeritdiyi mürtəce dil siyasətilə bu dillərin işlənmə dairəsini kiçildə və məhdudlaşdıra bilər.

DİL SİYASƏTİ - dövlətin yetirdiyi milli və dini-konfessional siyasətin tərkib hissəsidir və çoxmillətli dövlətlərdə mühüm əhəmiyyət kəsb edir. Çoxmillətli dövlətlərdə adətən hakim millətin dili "dövlət dili" statusu qazanmış olur, digər dillər isə bu imkandan məhrum edilirlər. Amma bütün çoxmillətli dövlətlərdə dil bərabərliyi hüququ mövcuddur və ondan istifadə edən azsaylı xalqlar öz dillərinin verdiyi imkanlar çərçivəsində onlardan bəhrələnməyə səy göstərirlər. Çoxmillətli dövlətlərdə onsuz da iqtisadi dövriyyə ələbatı sayca çox olan xalqın dilini öyrənmək zərurəti yaradır. (V.İ.Lenin). Bu mülahizələrdən də keçmiş SSRİ-də rus dili "dövlət dili" statusuna malik deyildi. Yalnız üç respublikanın - Azərbaycanın, Gürcüstanın və Ermənistanın konstitusiyalarında göstərilirdi ki, bu xalqların dilləri dövlət dilləridir. Bu xalqlar öz dillərini itirmək qorxusu qarşısında bu tədbirə əl atmışdılar. Məsələn, Pribaltikadan başqa SSRİ-nin bütün regionlarında rus dili digər dilləri sıxışdırıb aradan çıxarmaq ərəfəsində idi. Hətta Orta Asiya Respublikaları təhsildə, xüsusilə ali təhsil sahəsində kütləvi şəkildə rus dilinə keçmişdilər. Burada dil və ədəbiyyat fakültələrindən başqa qalan sahələrdə tədris ancaq rus dilində aparılırdı. Elə az saylı xalqlar da var ki, onlara öz dillərində oxumaq sadəcə olaraq əl vermir. Çünki onların işlənmə dairəsi çox kiçik olduğundan onlar öz dillərində təhsil aldan sonra ya təhsillərini başqa dildə davam etdirə bilmirlər, ya da işlə təmin oluna bilmirlər. Digər birtərəfdən çoxmillətli dövlətlərin özlərinə də iqtisadi cəhətcə sərfəli və rentabelli deyil ki, xırda xalqların dillərində kadrlar yetişdirsin və s. Bu mülahizələr ucundan da çoxmillətli dövlətlərdə elan olunan milli dillərin bərabərhüquqlu prinsipi deklarativ xarakter daşıyır və mövcud reallığa əsaslanır. Bu səbəbdən də iri və daşıyıcılarının sayı üstünlük təşkil edən dillərə keçid obyektiv xarakter alır.

Hegel yazırdı ki, dövləti olmayan etnos millət deyil, xalqdır. Buradan da dövlətin etnos üçün mənası və əhəmiyyəti məlum olur. "Dövlət millət üçündür, millət dövlət üçün deyildir" məlum tezisinin bəzi dairələr tərəfindən ucuz təbliğat vasitəsinə çevrilməsi də məlumdur. Amma "millət-dövlət", yaxud "dövlət-millət" faktının onların hər biri üçün nə dərəcədə əhəmiyyət daşıdığı tarixən və bugünkü reallıqlarla təsdiq olunması göz qabağındadır. Millətlərin və dövlətlərin son tarixi inkişafı millət üzvlərinin Vətənə və dövlətə getdikcə daha çox bağlanmasını sübut edir. N.Berdyayev yazırdı ki, vəzifə rus olmaqdan ibarətdir. Beranje yazırdı: "Mənim xoşum gəlir ki, rus rus olsun, ingilis də ingilis". H.Əliyev deyirdi: "Mən azərbaycanlı olmağımla fəxr edirəm". Bizim qarşımızda duran birinci vəzifə millət və dövlətə bağlılığı və sədaqəti tərbiyə etməkdir. Biz hər şeydən əvvəl azərbaycanlılaşmalıyıq. Azərbaycan vətəni onun vətəndaşları üçün müqəddəs bir varlığa çevirməlidir. Azərbaycan dili - Azərbaycanı sevmək vasitəsidir. Bu gün başlıca vəzifəmiz dilimi-

zin təmizliyini qoruyub saxlamaq və onu sevməkdir. Dil sevmək - dövləti sevmək deməkdir.

Hər bir milli dilin qüdrəti onun qrammatik quruluşu ilə lüüət fondununun və lüüət tərkibinin zənginliyindən asılıdır. Əgər bunlar varsa, o dillər çarpazlaşmaya gec məruz qalır, özlərinin xarakter xüsusiyyətlərini qoruyub saxlaya bilirlər. Burada milli dilin daşıyıcısı olan millətin dövlət yaratma qabiliyyəti, dövləti və dili saxlaya bilmək bacarığı mühüm rol oynayır. Dövlətin yeritdiyi sağlam, yaxud konstruktiv dil siyasəti, dilin qorunub saxlanılmasına və daim zənginləşməsinə doüru yönəldiləndə, dil daim təkmilləşir və inkişaf edir. "Dövlət dili" statusu milli dilin inkişafı üçün mühüm qarantdır. Belə olan tərzdə ona tələbat artır və dil özünün bütün şaxələri ilə tərəqqi edir. Əksinə olan hallarda isə ən qüdrətli dil belə öz funksiyasını tədricən itirir, kasıblaşır və digər daha möhtəşəm dillərdən asılı olur, onlardan aldığı yabançı təsirlər nəticəsində korşalır. Məsələn, avropalıların Şərqdəki işğalları burada mövcud olmuş qədim və möhtəşəm dilləri ikinci dərəcəli səviyyəyə salmış, əvəzində isə avropalıların özlərinin əvvəllərdə primitiv və yoxsul olmuş dillərini hakim mövqelərə çıxarmışdı. İslam Şərqinin ingilislər, fransızlar və ruslar tərəfindən işğalı ilə əlaqədar bu yeni gəlmə hakim millətlər öz milli dillərini də istər inzibati sahəyə, istərsə də elm və tədris sahəsinə yeridərək ərəb, hind, fars və türk dillərini sıxışdırmışlar. Yalnız Qərbin biabırçı müstəmləkə sisteminin iflasından sonra Şərq xalqları yenidən öz milli dillərindən istifadə etmək imkanı əldə etmişlər. Hazırda bu dillərin mövqeləri xeyli möhkəmlənmiş və onlar bir sıra ölkələrdə "dövlət dili" statusunu özlərinə qaytarmışlar. Ərəb dili hətta rəsmən BMT-də tanınmış, onun bugünkü mədəni dünyadakı rolu etiraf olunmuşdur. Fars dilinin işlənmə dairəsi də xeyli genişlənmiş və o öz keçmiş qüdrətini müəyyən məqamlarda bərpa etmişdir. Türk dili ordu və xalq danışıq dili olma səviyyəsindən çıxaraq elm və mədəniyyətin ən incə məqamlarını ifadə edən işlək bir yazı dilinə çevrilmişdir. Orta əsrlərdə saraylarda fars dili hakim idi. Türk dilində yazmaq ənənəsinin olmaması və yaxud bu imkanın ona verilməməsi nəticəsi idi ki, vaxtilə Axsitan Nizamidən farsca yazmağıtələb etmişdi:

Türk dili yaraşmaz şah nəslimizə, türk dili əskiklik gətirər bizə, - deyə yazmışdı. Nizami bu tələbdən çox əsəbiləşmiş, Axsitanın sifariş etdiyi "Leyli və Məcnun"u yazmaq istəməmişdi. Yalnız oğlu Məhəmmədin xahişindən sonra çox könülsüz şəkildə bu işi yerinə yetirmişdi. Əgər o zamanlar türk dilində şeir yazmaq ənənəsi olmasaydı, heç Axsitan da öz tələbini bu şəkildə irəli sürməzdi. görünür o, Nizaminin türk dilində yaza biləcəyindən ehtiyatlanmışdı. "Biz ki, millətlərin ən qədimi və ən alisiyik"- deyən Əmir Teymurun türkçülük yolundakı mücadiləsi aydındır. M.Füzuli türk dilində şeir yazmağın neçə də çətin, amma şərəfli bir iş olduğunu nəzərdə tutaraq yazırdı:

"Məndə *təfik olsa, bu işləri asan eylərəm,*

Növbahar olcaq, tikəndən bərki-gül izhar olur".

Şah İsmayıl, Qazi Bürhanəddin və Nəvai kimi dövlət adamları özləri türkcə yazırdılar ki, bu, başqalarına da bir dərs və nümunə olsun.

Deməli, türk dilinin zəngin ədəbi ənənələri var. Bu dildə Füzuli, Həsənoğlu, Şah İsmayıl, Qazi Bürhanəddin, Nəvai, Yunis İmrə, Nəsimi, Vaqif və b. kimi mütəfəkkirlər yazıb yaratmışlar. Orta əsrlərdə Anadolunun ilkin səlcuq sultanlarından olan Süleyman şah onu ilk dəfə olaraq dövlət dili səviyyəsinə qaldırmışdır. Sonralar Əmir Teymurun və Şah İsmayılın səyləri nəticəsində türk dili "dövlət dili" statusunda olmuşdur. Tənzimat dövründə, Osmanlı imperiyasında həyata keçirilən reformalardan narazı qalan yerli türk əhalisini sakitləşdirmək üçün Sultan Əbdül Həmid türk dilinin "dövlət dili" kimi tanınmasına fərman vermişdi. 1918-20-ci illərdə Azərbaycan Demokratik Cümhuriyyəti dövründə, sonralar isə Azərbaycan Sovet Respublikası dövründə türk dili dövlət dili elan olunmuşdu. Bu münasibətlə hələ o zamanlar N.Nərimanov yazırdı ki, biz türk dilini dövlət dili elan etmişik və tələb edirik ki, ona hör-

mətlə yanaşsınlar. XX əsrin əvvəllərindən etibarən türk dilləri bir sıra sovet respublikalarında və eləcə də Türkiyə Respublikasında dövlət dili statusundadır. Hazırda türk dillərində danışan əhalinin ümumi sayı 100 milyon nəfəri keçmişdir. Türk dilləri çiçəklənmə və inkişaf yolundadır. Müvafiq sosial-siyasi şərait yaradılarsa, bu dillərdə inteqrasiya baş verə bilər. Türk dilinin təkmilləşməsində türk dövlətinin, xüsusən Kamal Atatürkün "Dildevrimi" siyasətinin böyük əhəmiyyəti olmuşdur. "Türk Dil Qurumu" türk dilinin yabancı elementlərdən təmizlənməsinə, dilin öz imkanları hesabına, alınma sözlər vasitəsilə və kalka üsulu ilə yaradılan neologizmlərlə dilin daha da zənginləşməsinə və sadələşməsinə səbəb olmuşdur. Purizmə aludəçiliyin yüksək olması nəticəsində yüz illərlə dildə kök salıb qalmış sözlərin bir çoxu da dəyişdirilmiş və bu da türk dilləri arasında olan fərqləri bir az da dərinləşdirmişdir. Əsrin əvvəllərində "Molla Nəsrəddin"i, "Əkinçi"ni oxuyub başa düşən insanlar (türkiyəlilər) indi çətin ki, bizim qəzet və jurnallarımızı əlavə izahat və və şərhlər olmadan sərbəst oxusunlar və başa düşsünlər. Dillərimiz arasında yaranan fərqlər buna mane olur.

Milli dillərin inkişafında aparıcı istiqamət onların funksional tərəfinə aiddir. Daha aydın desək, dilə olan tələbat onun inkişafı üçün əsas şərtdir. Tarixən bütün böyük dillər məhz bu tələbata əsaslanaraq geniş yayılmışlar. Məsələn, orta əsrlərdə xilafətin əsas elm və saray dili ərəb dili idi. Xəlifə Məmun dövründə ərəb dili elm və mədəniyyətin ən yüksək zirvəsində idi. Dünyanın bütün guşələrindən dəvət olunan alimlər bu dili daha da inkişaf etdirdilər. Müxtəlif dillərdə mövcud olan kitablar tapıldı və ərəb dilinə tərcümə edildi. Hər yanda bu dildə məktəb və mədrəsələr açıldı. Bu prosesdə ərəb dilinin özü də zənginləşib təkmilləşdi, elmin bütün sahələrini ifadə edəcək bir səviyyəyə qalxdı. Ərəb dili elə bir səviyyəyə qalxdı ki, hətta bəzi məqamlarda yunan və latın dillərini də ötüb keçdi. Ona görə də intibah dövründə avropalılar antik dövrdə latın və yunan dillərində mövcud olmuş zəngin, elmi irsə məhz onları ərəb dilindən öz dillərinə tərcümə etmək vasitəsilə nail oldular. Ərəb dilli elm və fəlsəfə orta əsrlərdə islam Şərqi xalqlarının mədəni inkişafına təkan verdi. Nəticədə İslam Şərqi bütün elm sahələri üzrə Avropanı nə az, nə də çox, düz min il qabaqladı. Lakin gec-tez ərəb dili bəzi sahələrdə öz mövqelərini fars və türk dilləri ilə bölüşməyə məcbur oldu. Fars dili - Şərqin bu qədim və möhtəşəm dili əvvəlcə saraya, sonra da elmə və mədəniyyətə yol açdı. Xəlifə Əbdülməlik deyərdi ki, farslar özlərinin min illik hökmranlıqlarında bizə ehtiyac duymurdular, halbuki biz cəmi yüz illik ağalığımız müddətində onlarsız keçinə bilmirik. Bu, İran mədəniyyətinin möhtəşəmliyinə, fars dilinin, şeir və musiqisinin əbədiliyinə bir sübutdur. Səid Nəfisi yazırdı ki, İranı türkləşməkdən onun şeiri və musiqisi xilas etmişdir. İran mədəniyyətinin bu yenilməzliyində onun tərkib hissəsini təşkil edən azərbaycanlıların da payı vardır.

Hələ vaxtilə C.Cabbarlı yazırdı ki, İran mədəniyyəti təkcə farslarınkı deyildir, bu mədəniyyətin yaradılmasında Nizami kimi dahi Azərbaycan mütəfəkkiri iştirak etmişdir. Dyakonov İran mədəniyyətinin inkişafında Təbriz alimlərnin xüsusi yeri olduğunu qeyd etmişdir. İranda türklər (yəni azərbaycanlılar) min illərlə onu xarici basqınlardan qoruyub saxlamışdır. Buna baxmayaraq uzun illər Azərbaycan dilinin işlənməsinə imkan verilməmişdir. Səttarxan və Bağırxanın adı ilə bağlı olan 1905-11 –ci illər inqilabı, Şeyx Məhəmməd Xiyabaninin adı ilə bağlı olan 1920-ci il inqilabı, gilandakı hərəkat, Seyid Cəfər Pişəvərinin başladığı 1946-cı il 21 Azər hərəkatı və digər milli müstəqillik uğrunda aparılan mübarizələr əslində dil uğrunda gedən mübarizələr idi. Buradakı 30 milyonluq bir xalq öz dilini və mədəniyyətini sərbəst şəkildə işlədə bilmir.

Yeni tarixi dövrdə əvvəlcə fransız dili, sonra isə ingilis dili parladı. Daha sonra alman və rus dilləri məşhurlaşdı. Fransa Avropanın ən böyük və varlı ölkəsi olmaqla Şərq xalqları üçün Avropa mədəniyyətinin daşıyıcısına çevrildi. Şərqdə firəni dili kimi tanınan bu dil tezliklə Rusiyanın və Türkiyənin

ali saraylarına yol tapdı. Böyük Fransa inqilabı və Napoleonun işğalları fransız dilinin mövqelərini daha da möhkəmlətdi və "İnqua franka"nı Avropa xalqları üçün, hətta Aralıq dənizi sivilizasiyası üçün hakim bir dilə çevirdi. Feodalizmin dağılması və kapitalist istehsal münasibətlərinin yaranması ilə xalq dilləri milli dillərə çevrilməyə başladı. Bu dövrdə Avropada K.Marksın obrazlı ifadəsi ilə desək, "biri birinin yanında yaşamağa qadir olan üç böyük millət – fransızlar, ingilislər və almanlar meydana gəldi. Fransız dili əslində normanların 1066-cı ildə Kral Vilhelmin başçılığı ilə İngiltərəni işğal etmələri nəticəsində anqlosaks dili üzərində də qələbə çaldı və uzun illər Böyük Britaniyanın yeganə hakim dili odu. Bu proses XV əsrədək davam etdi. Nəhayət, anqlosakslar normanları assimilyasiyaya uğratdılar və dillərini də ictimai həyat səhnəsindən uzaqlaşdırdılar. Nəticədə London dialekti əsasında formalaşan yeni ingilis dili meydana gəldi. Cefri Coser özünün "Konüenbreri hekayələri" əsərilə əslində ingilis ədəbi dilinin əsasını qoydu və "ingilis dilinin atası" ləqəbini qazandı. Böyük Britaniyanın bütün dörd hissəsi – İngiltərə, Uels İrlandiya və Şotlandiya bu dillə anlaşmağa başadılar. Adamın əlverişli şəraiti Avropadan buraya ediləcək hücumların qarşısını aldığından İngiltərə müstəqil siyasət yeritməyə başladı. Əvvəlcə, VIII Henrix zamanında katolik kilsəsindən ayrılıb Anqlikan kilsəsisini yaratdı və onu krala tabe etdi. Sonra isə ispanların "Məğlubedilməz Armadası"nı darmadağın edib, tədricən dənizlərdə hökmranlığı əlinə keçirdi. Dünyanın naməlum torpaqlarının kəşfində və fəthində xüsusi fəallıq göstərdi və dünyanın ən qüdrətli bir dövlətinə çevrildi.

İngilislərin dənizlərdə hökmranlığı onların dünya okeanının xeyli hissəsinə nəzarətilə müşayət olundu. Yeni torpaqların kəşfi, yeni-yeni ölkələrdə ingilis koloniyalarının yaranması, ABŞ-da, Kanadada, Hindistanda, Avstraliya və Yeni Zellandiyada ingilis dilinin dhövlət dili kimi tanınması, ingilisləri Hindi-Çində və İslam şərqi ölkələrində də hakim mövqelərə çıxardı. Dünya mədə-

niyyəti nümunələrinin İngiltərəyə daşınması və ingilis dilinə tərcümə edilməsi bu dilin funksional inkişafına güclü təsir göstərdi və onu zənginləşdirdi. İngilis dilinin bu xüsusiyyətlərini nəzərdə tutan Danimarka alimi, məşhur dilçi Otto Cesperson yazırdı ki, mədəni dünyada ingilis dilindən yüksəkdə dayanan ikinci bir dil yoxdur. Vaxtilə V.İ.Lenin də bu dilin əhəmiyyətini vurğulamış və gələcəkdə onun dünya dilinə çevriləcəyi proqnozu vermişdir.

İngilis dili hazırki dünyanın ən geniş yayılmış dillərindəndir. Danışıldığı ölkələrdən və regionlardan asılı olaraq ingilis dilinin müxtəlif dialektləri və şivələri yaranmışdır. Onlar bir-birindən fərqlənirlər və bu fərqlər getdikcə dərinləşir. Məsələn, amerikalılar "Amerikan inqlisicəsi"ndə danışmağı üstün tutur. Onlar bu dilin istər yazısında, istərsə də fonetikasında bəzi dəyişikliklər həyata keçirmişlər. Sürətli danışıq bu dil üçün xasdır. Hind-Çində "biznes inqliş", Avstraliya və Yeni Zellandiyada "literari (ədəbi) inqliş", Kanadada "inqliş slend" (dialekt, şivə) və s. dəbdədir. İngilis dili dünya xalqları arasında ən işlək ünsiyyət vasitəsidir. Elmin, mədəniyyətin, incəsənətin, biznesin və sosial həyatın elə bir sahəsi yoxdur ki, orada ingilis dilini bilmədən keçinmək mümkün olsun. Bu gün nəinki ziyalılır, hətta orta səviyyəli adamlar belə ingilis dilini öyrənirlər. Böyük ölkələrin kütləvi informasiya vasitələri ingilis dilinin ən birinci təbliğatçılarıdır. Buraya şou-biznesi, televiziya verlişlərini, kino-filmləri də əlavə etsək, onun gənc nəslə təsiri məlum olar.

Almanlar Avropanın ən qədim sakinlərindən biri olaraq burada bir sıra iri dövlət birləşmələrini meydana gətirmişlər. Qədim almanlar, yaxud german tayfaları Avropada həmişə öz döyüşkənlikləri ilə məşhur olmuşlar. Onlar vuruşdan qazanılmış qənimətləri şərəf işi hesab edərlərmiş. Ona görə də Antik dünyanın mədəni hissəsi sayılan Roma onlarla həmişə barbar tayfalar kimi rəftar etmişdi. Onu da deyək ki, Romanın axırına da elə onların və hunların birgə hücumları çıxmışdı. Hunlarla və eləcə də Şərqdən gələn digər müxtəlif türk tayfaları ilə

birləşmiş və qaynayıb qarışmışlar. Bismark tərəfindən dağınıq alman torpaqlarının birləşdirilməsi (1871) avropanın mərkəzində güclü alman faktorunu ortaya qoymuşdu. Skandinaviya dilləri ilə yaxınlıq bu dilin işlənmə arealını şimalda xeyli artırmışdı. Cənubda isə Avsriya imperatorluğu bu dili macarlar və slavyanlar arasında yaymışdı. Nəticədə alman dili yeni tarixi dövrdə Avropanın ən nüfuzu dillərindən birinə çevrilmişdir. Avropanın şərqində yaranan alman koloniyaları bu dili hətta Rusiyaya da yaymışdı. Heç də təsadüfi deyildi ki, birinci Pyotrdan başlayaraq rus çarlarının, demək olar ki, hamısı alman mənşəli olmuş və ona görə də Rusiya saraylarında elitanın danışdığı dilə çevrilmişdir. Oktyabr inqilabı Rusiyanı almanların və alman dilinin hökmranlığından xilas etdi. O da qəribədir ki, Rusiya saraylarında hakim elita almanca danışırdı, amma Rusiyanın yeni zəbt etdiyi ərazilərdə alman dili deyil, rus dili yayılardı. Volqaboyunun, Sibirin, Krımın, Qafqazın və Orta Asiyanın fəthi rus dilini bu ərazilərdə də yaydı və buradakı ənənəvi türk (tatar), ərəb və fars dillərini xeyli sıxışdırdı. Dünya sosializm sisteminin yaranması rus dilinin dünya dillərindən birinə çevrilməsinə və BMT-nin rəsmi dillərindən biri kimi seçilməsinə səbəb oldu. Rus dili müasir dünyanın ən böyük elm və mədəniyyət dillərindən biridir. Dünyadakı informasiyanın yarıdan çoxu bu dildədir. Tarixən bu dil bizim xalqın həyatında da çox mühüm rol oynamışdır və ziyalılarımız bu dilin öyrənilməsini həmişə zəruri saymışlar. "Ruslar" adlı etnos öz mənşəyini Skandinaviyadan götürür. Bu, norman, yaxud varyaq tayfalarından birini adıdır. Normanlar Kiyev rusunun əsasını qoymuş. Batı xanın Kiyevi tutmasınadək(1240) orada hakimiyyət sürmüşlər. Onların dili sarayda işlənirdi, yerli slavyan və poloveslər (qıpçaqlar) onu başa düşmürdülər. Eyni proses normanların İngiltərəni işğal etməsində də özünü göstərirdi. Burada da yerli xalq anqlosaks dilində normanlar isə özlərinin fransız dilinə yaxın olan dillərində danışırdılar. Kiyevdəki varyaq rusların dilində işlədilən Holmqardı sonradan slavyan ruslar Novqorod, Helqani Oleq, İnqavri Olqa, Rosselanı russkiy və s. şəkildə dəyişdirmişlər. Normanlar sayca az olduqlarından həm İngiltərədə, həm də Rusiyada yerlilərlə qaynayıb-qarışmış, öz adlarını rus xalqına yadigar qoyub getmişlər. Ross, Rosse, Rosseman və b. adlar Skandinaviyada bu gün də yaşayır. Monqol-tatarlar da sonradan rus çoxluğu tərəfindən assimilyasiyaya uğradılmışlar. Rus dili və mədəniyyətinin inkişafında tatar-monqolların rolu əvəzsizdir. L.Qumilyov yazır ki, tatarlar tam bir tarixi dövrdə Rusiyanı yadelli işğalçılardan qoruyub saxlayan bir qüvvə kimi çıxış edirdilər. Tatar xanları əslində rusların işinə qarışmadılar, moskva knyazını özlərinin nümayəndəsi kimi digər rus knyazlarının üstünə nəzarətçi və vergi yığan (baskak) təyin etdilər. Bundan istifadə edən Moskva knyazları iqtisadi cəhətcə güclənməyə və tədricən müstəqilləşməyə nail oldular. Qızıl Orda xanlığı zəifləyib parçalandıqdan sonra isə özlərini müstəqil elan etdilər və hətta tatar xanlıqlarını bir-birinin ardınca işğal edib Rusiyanı imperiyaya çevirdilər. göründüyü kimi, 300 illik tatar-monqol işğalı əslində Rusiya üçün çox əlverişli bir şərait yaratmışdı. Rusiyaya hücum etmək istəyən isveç, alman və b. cəngavərlərin yürüşləri tatar süvariləri tərəfindən darmadağın edilirdi. Rus tarixçilərinin belə bir yozumu vardır ki, guya Rusiya Avropanı monqol hücumlarından xilas etmişdir. Əslində monqollar Rusiyanı Avropanın gözlənilən hücumlarından qorumuşdu. Məsələn, Çud gölü üzərində Aleksandr Nevskinin qələbəsini Batı xanın oğlu Sartak təmin etmişdi. Batı xan həm də aleksandrın atalığı idi və rusların köməyinə ordunu da məhz o göndərmişdi.

Avropada bir sıra məqamlarda dövlətlər və onların sərhədləri millət yaradan amil rolunda çıxış etmişdir. Dövlət sərhədləri daxilində müxtəlif xalqlar və etnoslar müəyyən bir millət kimi formalaşmışlar. Məsələn fravnsız milləti vahid Fransa dövləti ərazisində yaşayan müxtəlif etnoslardan formalaşmışdı. İngilis milləti anqlo-saksların, normanların, yutların, britlərin, keltlərin, irland və şot-

landların müəyyən hissələrinin bir ölkə daxilində birləşməsi nəticəsində meydana gəlmişdir. Yuxarıda deyildiyi kimi, Rusiya imperiyası əvvəlcə müxtəlif rus knyazlıqlarının Moskva knyazlığı ətrayında birləşməsi, sonra isə onunla qonşu olan digər xırda xalqların imperiyaya birləşdirilməsi nəticəsində yaranmışdır. Cənubi Rusiyada bunun canlı bir nümunəsi hələ də yaşamaqdadır. "Atam türk, anam yunan, mən isə rusam". Daha sonralar ruslarla qaynayıb-qarışmış bir sıra türk xalqları da onun millət kimi formalaşmasında yaxından iştirak etmişdir. Rus dilində mövcud olan çoxlu türk-tatar sözləri də bunu sübut edir. Turgenev yazırdı ki, hər bir rusun damarında həm də tatar qanı axır.N.Baskakov rus elitası içərisində 300-dən çox türk-tatar familyasının olduğunu aşkarlamışdır. Rus millətinin nə tam avropalı, nə də tam asiyalı olmaması ideyası da elə buradan yaranmışdır. Yəni Rusiya yeni, əlahiddə, həm Avropanın həm də Asiyanı özündə birləşdirən Avrasiya adlı xüsusi bir sivilizasiya vahididir (A. Danilevski). Müasir Amerika milləti də ABŞ dövlətinin sərhədləri daxilində həm yerlilərin, həm də buraya mühacirət etmiş avropalıların, zəncilərin və asiyalıların birləşməsindən yaranmışdır. Yəni Amerika millətinin yaranmasında bu xalqların birlikdə yaratdıqları ABŞ dövləti həlledici amil olmuşdur.

Şərq ölkələrində, xüsusən türk dövlətlərinin tarixi inkişafında isə bəzən bunun tam əksini görürük. göy Türk xaqanlığı, Hun imperiyası, Səlcuq xanədanı, Monqol ulusları, Qaraqoyunlu, ağqoyunlu kimi dövlətlərin sərhədlərini məhz bu etnoslar müəyyən etmişlər. Onlardan birinin hakimiyyəti zəifləyən dövrdə daha güclü etnik birlik onu yenmiş, eyni ərazidə öz dövlətini qurmuşdur və öz etnosunun da adını yaratdığı dövlətə vermişdir. Məsələn, Hindistanda Babur yerli və gəlmə müsəlmanların birliyinə nail olaraq əvvəlki dövləti devirib orada Moğollar imperiyasının əsasını qoymuşdur, yəni moğol etnosunun adını yaratdığı dövlətə vermişdir. Ümumiyyətlə, orta əsrlərdə İslam Şərqində, eləcə də türklərin müxtəlif qövmlərinin yaratdıqları dövlətlərdə bu, adi

hal sayılırdı.

DİKTATURA (lat. dictatura - qeyri-məhdud hakimiyyəti həyata keçirmə sistemini xarakterizə edən anlayış, ciddi qaydada liderin başçılıq etdiyi məhdud qrup tərəfindən həyata keçirilən qeyri-məhdud siyasi, iqtisadi və ideolojmi hakimiyyət: liderin adı, yaxud onun istifadə etdiyi sosial-siyasi ideya diktatorluq idarəçiliyinin bu və ya başqa növünü müəyyənləşdirir (sezarizm, bonapartizm, sinfin, partiyanın diktaturası, totalitarizm və i.a.)

DİPLOMATİK İMMUNİTET — xarici dövlətlərin diplomatik nümayəndələrinə və onların ailəkdaşlarına verilən hüquq və güzəştlərin məcmusu. D.i. məsələlərini nizamlayan beynəlxalq hüquq normaları diplomatik əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyasında məcəllələşdirilmişdir. D.i.-ə daxildir: diplomatik nümayəndəliyə verilən güzəştlər və immunitetlər, həmçinin diplomatik nümayəndəliyin başçısına və heyətinə verilən şəxsi güzəştlər və immunitetlər. Nümayəndəliyə verilən D.i.-ə binaların və arxivlərin toxunulmazlığı, öz hökuməti ilə əlaqə saxlamaq azadlığı, təmsil olunan dövlətin bayrağını və gerbini diplomatik nümayəndəliyin binasından asmaq hüququ, vergi və rüsumlardan azad edilmək, gömrük güzəştləri daxildir. Məskən salınan dövlət nümayəndəliyin binasını hər cür hücumdan, ona ziyan vurulmasından qorumaq, həmçinin nümayəndəliyin rahatlığının hər hansı bir qaydada pozulmasının qarşısını almaq üçün lazımi tədbirlər görməyə borcludur.

Şəxsi güzəştlərə və immunitetlərə diplomatların şəxsi və yaşayış yerlərinin toxunulmazlığı, yurisdiksiyadan immunitet, gömrük güzəştləri, vergi və mükəlləfiyyətlərdən azad edilmək daxildir. Diplomatik işçi həbs edilə və saxlanıla bilməz. Məskən salınan dövlətin hakimiyyət orqanları diplomatın şəxsiyyətinə, azadlığına və ləyaqətinə qarşı olan hər cür qəsdin qarşısını almaq üçün lazımi tədbirlər görməlidir.

DİSSİDENT (lat. dissidens, dissidentis - razı olmayan) — müasir siyasi lüğətə din tarixindən daxil olmuş termin. Orta əsrlərdə Qərbi Avropada din

əleyhinə çıxışların hamısını, kafirləri **D.** adlandırırdılar. Reformasiyadan sonra isə mövcud ölkədə hakim dini qəbul etməyən adam belə adlanırdı. Hakimiyyətin dəyişməsi və onun dini yönümündən asılı olaraq ya katolik, ya da protestant **D.** olurdu. Artıq o dövrdə sərbəst dini etiqad məsələsi ilə **D.**-in vətəndaş hüquqları anlayışı sıx surətdə bir-biri ilə əlaqədar idi.

XX əsrin 70-ci illərinin ortalarından etibarən bu termin SSRİ-də və onunla müttəfiq dövlətlərdə öz əqidəsini bu dövlətin hakim doktrinasına qarşı qoyan vətəndaşlara şamil edilməyə başlandı. **D.**-in özünə verdiyi və daha çox yayılmış "hüquq müdafiəçisi" adı "başqa cür düşünən" mənasında daha geniş işlənirdi. Rəsmi ideologiyanın terminologiyasında isə **D.** "dönük", "cəmiyyətə qarşı çıxan" kimi mənalandırılırdı.

D. totalitar rejimlərin böhranı və dağılması dövrü üçün daha səciyyəvidir. Yalnız bir partiyanın inhisarını təsdiq və mühafizə edən siyasi hakimiyyət rejimi, başqa cür düşünənləri cismən aradan götürmək yolu ilə monolit birlik xülyasını artıq müdafiə etməyə qadir olmur. Vətəndaşların məhkəmə cəzası metodları ilə əsassız həbs edilərək psixiatriya xəstəxanalarına doldurulması, mühacirətə getməyə məcbur edilməsi bu cəmiyyətin yaşamağa qadir olmadığını bir daha sübut edirdi. SSRİ-də **D.**-in fəaliyyətinin xronologiyası 50-ci illərin ikinci yarısından (stalinizmin tənqidi və onun xoşagəlməz, iyrənc cəhətlərindən imtina etmək) başlayıb, 80-ci illərin ortalarına qədər davam etmişdir. Yenidənqurmanın başlanması ilə plüralizmin qəbul olunması və **D.**-lərin bir çox ideyalarının aşkarlanması onların hərəkatının ümumi əsasını aradan qaldırırdı.

D.-lər vahid bir təşkilatda birləşmiş siyasi müxalifətdə olmağa can atmamışlar. Müxalifət siyasi baxışlara malik olan **D.**-lər öz çıxışlarının əsasını insan ləyaqətinin təsdiqinə, onun hüquqlarının müdafiəsində hakim konformizmə (ümumi vəziyyətlə barışmaq, ona uyğunlaşmaq) qarşı durmaqdaqörürdülər. **D.**-lər hərəkatının əsasını insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət təşkil edirdi. Məhz bu başlıca

cəhət müxtəlif siyasi, milli, dini və s. əqidəyə qülluq edən cərəyanları birləşdirirdi. Bu fəaliyyət dairəsində 60-cı illərin sonu - 70-ci illərdə keçmiş SSRİ məkanında daha çox məşhur olan **D.** təşkilatları - "SSRİ-də insan hüquqlarını müdafiə edən təşəbbüs qrupu" (1969), SSRİ-də insan hüquqları komitəsi (1970), Beynəlxalq aministiyanın sovet şöbəsi (1974), Moskvanın və respublikaların Helsinki qrupları (1976) yaradılmışdı.

D.-lərin ənənəvi şüarları arasında - ictimai həyatın demokratikləşdirilməsi, hüquqi dövlət, aşkarlıq, azad cəmiyyət, radikal iqtisadi islahat şüarları mühüm yer tuturdu.

D.-lərin fəaliyyətinin əsas formaları aşağıdakılardan ibarətdir: 1) dövlət tərəfindən qadağan edilmiş informasiyaların əldə olunması və yayılması özünəşretmə yolu ilə); bu iş qadağan olunmuş ayrı-ayrı bədii əsərlərin (İ.Bunin, M.Svetayeva, A.Axmatova, M.Bulqakov və b.) yenidən çap edilməsi və yayılması ilə başlanmışdır. Sonra məhkəmə proseslərinin stenoqramları meydana gəldi. Daha sonralar isə A.Soljenitsın, A.Saxarov, R. və J.Medvedyevlər, V.Havel və b. əsərlərindən ibarət ədəbi-bədii, ictimai-siyasi, dini və s. jurnallar çıxmağa başladı. 1968-ci ilin aprel aylarından nəşrə başlayan "Cari hadisələrin xronikası" (rus dilində) məlumat bülleteni daha geniş şöhrət qazandı. 2) Təqsirsiz məhkum edilmişlərin müdafiəsinə və ya cəmiyyətin ictimai-siyasi həyatında baş verən ən vacib problemlərə həsr olunmuş "Açıq məktubların" hazırlanması və yayılması. Həmin məktubların müəllifləri və "imza edənləri" arasında L.Çukovskaya, L.Kopelyev, V.Voynoviç və b. vardı. Məhkum olunmuş 43 nəfər kommunistin övladlarının Sov. İKP MK-ya məktubu və tanınmış ictimai-siyasi və mədəniyyət xadimlərinin böyük qrupunun (o cümlədən D.Şostakoviçin) stalinizmlə əlaqədar müraciəti böyük əks-səda doğurmuşdu. 3) Nümayişlər; bunlardan ikisi bütün dünyaya səs salmışdı: a) 1965-ci ilin dekabr ayının 5-də Moskvanın Puşkin meydanında, Sovet Konstitusiyası günü-əvvəllər həbs olunmuş yazıçılardan A.Sinyavski və Y.Danielin məhkəməsinin

başlanması münasibətilə və b.), 1968-ci ilin avqustun 25-də Qızıl meydanda Sovet Ordusunun Çexoslovakiyaya daxil olması əleyhinə keçirilmiş nümayişlər belələlərindən idi. 4) Qanunsuz olaraq həbs olunmuş ayrı-ayrı adamlara və onların ailələrinə konkret maddi və mənəvi kömək etmək. Bu məsələ ilə əlaqədar 1974-cü ildən xüsusi yardım fondu fəaliyyət göstərirdi.

SSRİ-də **D.**-lərin ümumi sayı iki mindən yuxarı deyildi. Lakin ölkənin ictimai həyatında onların rolu, vətəndaşlıq qüruru, mənəvi təmizliyi və intellektual səviyyələri ilə gördükləri xeyirxah işlər **D.**-lərin sayı ilə müqayisədə qat-qat artıq idi.

D.-lər hərəkatı, eyni zamanda onların bəşəri dəyərlərin və demokratik prinsiplərin qorunması uğrunda mübarizəsi, ölkədə ictimai idealların formalaşmasına və onların qorunub saxlanılmasına, SSRİ-də və onunla müttəfiq olan başqa dövlətlərdə totalitar üsul-idarəsinin dağılıb demokratik dövlət quruluşuna yaxınlaşmasına və sonra isə ona keçməsinə böyük təkan vermişdir.

DÖVLƏT - cəmiyyətin siyasi sisteminin əsas təsisatı: insanların, ictimai qrupların, sinif və assosiasiyaların birgə fəaliyyətini təşkil edir, istiqamətləndirir və nəzarətdə saxlayır. **D.** cəmiyyətdə hakimiyyətin mərkəzi təsisatını və bu hakimiyyətin siyasətdə tam həyata keçirilməsini əks etdirir. Buna görə də, istər nəzəri, istərsə də adi şüurda və gerçəklikdə hər üç təzahür forması - **D.**, hakimiyyət və siyasət tamamilə təbii olaraq eyniləşdirilir. Siyasi fəlsəfədə və siyasi elmdə də elə bu səbəbdən XIX əsrin sonunadək **D.** və siyasət anlayışları fərqləndirilmirdi. **D.** anlayışı haqlı olaraq siyasi fikrin daha mürəkkəb məsələlərindən biri sayılır. **D.** nəzəriyyəsi **D.**-in mənşəyi, formalaşması və mövcudluğunun üç ünsürdən ibarət əsası ilə bağlı genetik və funksional problemlərini, dövlət fəaliyyətinin (1) ictimai, (2) sinfi və (3) hüquqi-siyasi və təşkilati-struktur əsaslı üç qrupunu (Hegelin təbirincə, "dövlət formalizmini", yəni siyasi forma kimi **D.**-i) əhatə edir.

Bu əsaslardan birinin daha çox vurğulanmasından asılı olaraq **D.**-in tədqiqində üç müxtəlif yanaşma yaranmışdır. 1) antik

ənənələrdən gələn və bu gün də saxlanılan və inkişaf etdirilən siyasi-fəlsəfi və siyasi-elmi baxışa görə, **D.**-ə "ümumi işlərin" (respublika) həllində, hakimlərin (hakimyyət) və xalqın (cəmiyyət) münasibətlərinin nizama salınmasında, həmçinin, xalqın və insanın özünün siyasi həyatının təmin edilməsində vasitə, üsul kimi baxılır; 2) sinfi baxışa görə, **D.** cəmiyyətin siniflərə bölünməsinin törəməsi və sinfi mübarizə alətidir. Marksist ənənəyə görə **D.** "...bir sinfin başqa sinif üzərində ağalığını saxlamaq maşınıdır" (V.İ.Lenin); 3) hüquqi və təşkilati-struktur baxış isə **D.**-i "hüquqi **D.**", siyasi və ictimai münasibətlər sistemində cəmiyyətin həyatını **D.**-in özünün və onun strukturlarının fəaliyyətini təşkil edən hüquq və qanun mənbəyi kimi nəzərdən keçirir. Beləliklə, **D.**-i və onun üç əsas funksiyasını əhatə edən - təşkilati, idarəetmə - həyat fəaliyyətinin saxlanılması, "ümumi rifah", birlik əldə olunması, qayda-qanun yaradılması, **D.**-in xalq, millət və etnosun qarşılıqlı münasibətlərinin nizama salınması (bu səbəbdən T.Hobbs **D.**-i "təbii vücud", yaxud, "təbiət bədəni" adlandırmışdı) kimi ümumi məqsədlər güdən üç sıra siyasi münasibətləri fərqləndirilir. **D.** özünün ağalıq və əzmək kimi spesifik funksiyasında da təkcə mübarizə və susdurmaq vasitəsi kimi deyil, həm də siniflər. **D.**-lə siniflər arasındakı münasibətlərdə konflikt mənbəyi kimi çıxış edir. "Huquqi **D.**"-in digər spesifik funksiyası - hüquqi sistem yaratmaq və onunla idarə etmək, dövlət aparatının işini, **D.**-in cəmiyyətlə-ona xas bütün ictimai münasibətlərlə (sosial, iqtisadi, hüquqi və s.) əlaqələrini nizama salması az əhəmiyyət kəsb etmir.

D.-in mahiyyətini müəyyən edərkən tədqiqatın məqsədinə müvafiq qaydada aşağıdakı meyllər labüd olur: ya universal qanunauyğunluqlara meyl, ya da məsələ sinfi problemlər və bazis-üstqurum kateqoriyalarına müncər etmək (bax; **"SİYASƏT VƏ İQTİSADİYYAT"**), yaxud "siyasi hüquqçuluğa", hakimiyyətin təşkilinin hüquqi texnikasına tərəf meyl edilsin. Bir halda ki, bu baxışlar bir-birini istisna etmir və **D.** kimi mürəkkəb qurumun müxtəlif as-

pektlərini başa düşməyə kömək edir, onların əlaqələndirilməsi daha çox məhsuldar ola bilər.

D. haqqında müxtəlif təsəvvürlərin sintezi bir çox problemlər həllinə imkan verir: bura **D.**-in, siyasi sistemin və cəmiyyətin münasibəti və deməli həm də **D.**-in və cəmiyyətin, hakim qüvvələrin, **D.**-in mənşəyinin, onun inkişafının şərait və istiqamətlərinin və i.a. birliyi problemləri, o cümlədən, ölkənin ictimai məkanında **D.**-in yayılma sərhədlərini, yəni **D.** və cəmiyyət bir-birinə uyğundurmu və bir tam təşkil edirlərmi, burada D.-in və cəmiyyətin birliyi mümkündürmü, onların yaratmış olduqları ideoloji, siyasi, hüquqi münasibətlər sistemi, nəzarət aparatı, mühafizə orqanları, inzibati strukturlar və i.a. xidmət etməli olduqları ictimai münasibətlər məcmusunu əhatə edə bilirlərmiə - və s. kimi ən mühüm məsələlərin də həlli daxildir. **D.** cəmiyyəti birləşdirib vahid şəklə saldığı zaman unitar, yaxud həmahəngi olur. "Rusiya (yaxud Britaniya, Fransa və i.a.) dövləti" anlayışı, yəni hakimiyyət, ölkə və xalq, onların mülkləri, ərazisi və sərhədləri anlayışı da məhz bu mənada işlədilir. Yalnız istisna hallarda **D.**-in və cəmiyyətin mülkiyyətinin sonuncunun xeyrinə eyniləşdirilməsi üçün əsaslar yaranır. Bu, məs., orta əsr və son feodal (mütləqiyyət, yaxud istibdad) **D.**-ndə, yəni hakimiyyətin ölkənin siyasi məkanında və onun təsərrüfatı üzərində (imperium və dominium) ikili sahibliyi problemi kimi baş verə bilər. Bu həm də mahiyyətcə vahid odan ictimai (ümumxalq) və dövlət mülkiyyətini real ayırmağa nail olmamış sosializm cəmiyyətinin də problemi olmuşdur.

Həmin məsələnin digər həlli **D.**-in cəmiyyətə şamil olunan siyasi sisteminin mərkəzi, hakimiyyət təsisatı kimi tanınmasına xüsusi keyfiyyətdə əlavə edilən, lakin cəmiyyətə hopmamış siyasi sinfin (yaxud icmanın) sosial institutu sayılmasıdır. Bu halda **D.** struktur və forması almış hakimiyyətin və zəruri şəraitdə ümumən birləşməyə qadir olan cəmiyyətin, müəyyən birliyin, xalqın münasibətlərinin təhlili mümkündür. "D. - cəmiyyət" unitar strukturu deyil, **D.** və cəmiyyət tərəflərinin hər

biri suveren olur. Belə ikitərəfli (bipolyar) strukturun birliyi onların arasındakı bərabər hüquqlu, müqaviləyə söykənən münasibətlərə əsaslanır, yəni daha mürəkkəb, lakin daha səmərəli yolla əldə edilir. Cəmiyyət özünün inkişafında **D.**-dən nisbi azaddır. **D.** daha mütəhərrik, təəyülə daha qabil olur, siyasi rejimlərin, idarəetmə tiplərinin konkret hakimiyyət strukturlarının yenidən qurulmasını daha yüngül keçirir.

D.-in istər bu, istərsə də digər şərhində, onun izahının cürbəcür anlamları kimi insanların birgə həyatının dövlət quruculuğunun real tarixi tipləri əks olunmuşdur. **D.**-in tarixi onların bir-birini əvəz etməsini və dəyişməsini izləməyə imkan verir.

D. tayfa, yaxud tayfalar ittifaqı rəhbərinin (bax; **RƏHBƏRÇİLİK**), şamanın, kahinin cəmiyyətin, yəni qeyri-təbii əlaqələr və münasibətlər, ümumi mənafelər və məqsədlərlə birləşmiş insanların arasındakı qayda-qanunlar məcmusunun yaranması ilə birlikdə dövlətdən qabaqkı hakimiyyət formalarından meydana gəlir; sonralar ictimai əmək bölgüsü, xüsusi mülkiyyətin meydana gəlməsi, cəmiyyət üzvlərinin sosial qütbləşməsi, siniflərin yaranması və deməli, əmlak, sosial və funksional bərabərsizlik münasibətləri ilə, ictimai münasibətləri yeni təsisatlar - idarəetmə və nəzarət orqanları formasında təşkil edən və tənzimləyən siyasətin yaranması ilə birlikdə **D.** də bərqərar olur.

Beləliklə, **D.**-ictimai inkişafın, cəmiyyətin eyni zamanda formalaşan siyasi və sosial təşkilinin nəticəsi və amilidir.

D.-in tarixi mürəkkəb və çoxşaxəli proses olub hər dövrün bir çox tarixi, məhəlli xüsusiyyətlərini, lokal sivilizasiyaların (Qədim Şərq, yunan-Roma, Şərqdə və Qərbdə orta əsrlərdəki D.-lər) ictimai-iqtisadi formasiyaların özünəməxsusluğunu və digər amilləri ifadə etmişdir. Bununla belə, D.-in təkamülünün bir neçə əsas mərhələdən ibarət ümumiləşdirilmiş genetik və tarixi sxemini yaratmaq mümkündür.

I mərhələ. **D.**-in yaranmasının ilkin mərhələsində ibtidai icma (hərbi) demokratiyanın qalıqları saxlanılır, respublika və

monraxiyalar, istibdad rejimləri və idarəetmə formaları (antik Avropada) bir-birini əvəz edir. Tam təşəkkül tapmış cəmiyyətdə qeyri-sinfi strukturlar kəskin şəkildə qütbləşir, azad və azad olmayanlar bölgüsü mövcud olur; əhali cəmiyyət üzvləri sayılan aşkar hakim təbəqələrə və tabe aşağılara bölünən azad vətəndaşlara (onlar da öz növbəsində siniflərə - qəbilə əyanları, azad sənətkarlar, kəndlilər, tacirlər, döyüşçülər, incəsənət nümayəndələrinə bölünürdülər; Romada bu, patrisilərə və plebeylərə bölgüdən ibarətdi və s.) və qullara, həmçinin də yarımazad şəxslərin (bağışlanılanların və b.) müxtəlif kateqoriyalarına ayrılırdı. İqtisadi fəaliyyətin əsas istehsal, ticarətin və sənətkarlığın bir hissəsi cəmiyyətə daxil olmayan, vətəndaşlıq və siyasi hüquqlardan məhrum edilmiş azad olmayan əhaliyə aid olduğu üçün bu cəmiyyəti hələ yetkin saymaq olmazdı. **D.**-in iki funksiyası dəqiq fərqlənirdi - azad vətəndaşlar birliyində "ümumi işlərin" qaydaya salınması (burada sosial və sinfi münasibətlərin tənzimlənməsi də istisna olunmurdu) və ağalıq - sözün əsl mənasında əsarət altında olanların boğulması. Hakimiyyətin ibtidai formalarından miras qalmış rəhbərlik (başçılıq) **D.**-in inkişafının sonrakı mərhələlərinə də keçən monarxiya və imperiya formalarında da təsbit olunurdu.

II mərhələ. Orta əsrlər və Yeni dövrün (XVI əsr) başlanğıcı. Hökmranlıq və sahiblik münasibətlərinin üstünlük təşkil etdiyi güclü istibdad və monarxiya hakimiyyəti saxlanılır: ölkə və təbəələr (xalq) - monarxın ("dövlət adamları") mülkiyyətidir. Avropada pozulmuş, lakin münasibətlər tipi kimi hələ saxlanılmış qan qohumluğu əlaqələri senyoru (ağanı, cənabı) və onun vassallarını əlaqələndirən senyorluq növlü hakimiyyəti meydana gətirir.

Güclü istibdad hakimiyyəti və **D.** eyniləşdirilir, idarəetmənin mütləqiyyət, monarxiya forması üstünlük təşkil edir. Şərqdə və qərbdə qeyri-iqtisadi məcburetmə formaları saxlanılır (bu mərhələnin nəzəriyyəçisi N.Makiavelli sayılır). D. cəmiyyətdə qorxu, vahimə intizamı kimi üstün mövqe tutur (T.Hobbs). XIII yüzillikdən başlayaraq Avropada D.-in son üç yüz illik tarixi əsasında tədricən Yeni dövrün D.-inin ilkin şərtləri və əsasları formalaşır. Artıq bu dövrdə D.-in inkişafının aparıcı prosesi hakimiyyətin, siyasi münasibətlərin bütün məkanının dondurulmasından genişlənən sosial və iqtisadi bazada təmərkəzləşməsi oldu. Bu proses öz növbəsində D.-in ona məxsus ərazidə hakimiyyətinin mərkəzləşdirilməsi və təmərkəzləşdirilməsinə (hakimiyyətin çoxlu mərkəzdən idarə olunmasının, əyalətlərin feodal pərakəndəliyinin aradan qaldırılması, torpaqların birləşdirilməsi), onu yerlərdə şəxsiyyətin nüfuzu ilə bağlamamaq, yəni monarxa şəxsi vassal sadiqliyi münasibətləri və bütövlükdə vassallıq, şəxsi asılılıq münasibətləri əvəzində xidmət: münasibət və vəzifələrin, yəni hakimiyyətin siyasi təşkilinin aparıcı rol oynadığı mütəşəkkil dövlət idarəetmə aparatı ilə əvəz edilməsinə əsaslanan bir hakimiyyətin mənimsənilməsinə gətirib çıxarırdı. Kilsənin daha erkən təşəbbüsü - Qərbin və ayrı-ayrı ölkələrin siyasi birliyini dini əsasda yaratmaq təşəbbüsü dünyəvi və kilsə hakimiyyətinin uzun sürən mübarizəsindən sonra iqtisadi və sosial-siyasi əsasda dövlət quruculuğu sayəsində aradan qaldırıldı. Buradan da cəmiyyətin şəxsi deyil, dövlət-ərazi məkanında institutlaşmış intizamla təşkili zəruriliyi meydana gəldi. XVI əsrə yaxın cəmiyyətin yeni siyasi təşkili prosesi artıq kifayət qədər irəli getmişdi. O vaxta kimi **D.** rolunu yerinə yetirmiş "mülklər", "torpaqlar", "knyazlıqlar", "krallıqlar", "imperiyalar" anlayışları əvəzində məhz bu dövrdən **D.** anlayışı yarandı: elmi ədəbiyyatda isə "respublika", yəni "ümumi (yaxud ictimai) iş" (lat. res - əşya, iş və rublika - ictimai) anlayışı meydana gəldi. Avropa fəlsəfi siyasi fikri də meydana çıxmış (əsrin ortalarında ən böyük nümayəndəsi vətəndaş cəmiyyəti konsepsiyasının müəllifi, T.Hobbs idi) cəmiyyətin dövlətəqədərki vəziyyəti ilə sivil durumunun qarşı-qarşıya qoyulması cəmiyyətin siyasi dövlət vəziyyətini, yaxud sadəcə durumunu bildirmək üçün yeni siyasi istilah oldu. Latın sözü status (vəziyyət, durum) Qərbi Avropa dillərindəki state (ingilis), staat (alman) etat (fransız), statout

(italyan), estado (ispan) və i.a. sözləri üçün eyni zamanda "vəziyyət" mənasını saxlamaqla çıxış nöqtəsi kimi götürüldü. Hələ XVI yüzilin ikinci yarısında **D.**-i həmçinin monarxiya rejimini bildirmək üçün işlədilmiş əvvəlki "respublika" anlayışı (məs., J.Bodenin "Respublika haqqında altı kitab", 1576 il) müasir respublika quruluşu mənası kəsb etdi, lakin anlayışların qarışdırılması antik "respublika" istilahı müasir tərcümələrdə (Platonun "Respublika", Siseronun "Respublika haqqında" və Bodenin kitabının adı da) düzgün tərcümə edilmədiyindən "dövlət" kimi işlədilmişdi. XVII əsrdə quruluşundan və rejimindən (respublika, istibdad, krallıq,knyazlıq və i. a.) asılı olmayaraq "D." anlayışı qəti olaraq müəyyənləşdirildi.

III mərhələ. Şərqdə **D.**-in monarxiya və imperiya formalarının möhkəmləndiyi, xeyli şəxsi asılılıq (quldarlıq, yaxud təhkimçilik), qeyri-iqtisadi məcburetmə münasibətlərinin, hakimiyyətin hərbi-feodal siyasi strukturlarının əhəmiyyətli rol oynadığı arxaik ictimai strukturların sabitləşdiyi böyük ərazilərdə və bir çox xalqlarda isə dövlətçiliyin inkişaf etmiş formalardan heç birinin hələ mövcud olmadığı bir zamanda, Avropada millətlərin yaranması, ümummilli bazarın yaranması, ölkələrin əksəriyyətinin dil və mədəniyyətcə birləşməsi prosesi başa çatdı. XVII əsr qeyri-iqtisadi məcburetmənin qalıqlarına son qoymaqda olan əmtəə-pul münasibətləri əsasında meydana gələn sosial və sinfi strukturlu vətəndaş cəmiyyətinin yaranmasına hazırlıq dövrü oldu. Bu prosesin çoxlu tarixi dəyişiklikləri arasında - yeni tipli şəxsiyyətin formalaşmasını, feodal arası müharibələri və dövlətlərarası müharibələr qarışıqlığından çıxış yolu əldə edilməsini və i.a göstərmək olar. Bunlardan da ən əsaslarından biri **D.**-in zülmündən yaxa qurtarmağa və onunla bərabər hüquqlu tərəfdaşlığa, siyasi prosesin iştirakçısı kimi mərkəzi hakimiyyətlə müqavilə (konstitusiya) münasibətləri yaratmağa can atan suveren xalq cəmiyyətinin yaranması idi. Bir neçə yüz il əvvəl başlamış insan hüquqları və azadlığı, cəmiyyətin bərabərliyi və bərabər hüquq uğrunda həm

cəmiyyətin, həm də **D.**-in formalaşmasını sürətləndirən mübarizəyə yeni təkan verildi.

Cəmiyyətin vətəndaş inkişafı ideyası (T.Hobbs, C.Lokk, XVIII əsrin - J.J.Russo, İ.Kant və i.a.) və **D.** hakimiyyətinin yenidən qurulmasının - onun formalarından biri kimi mütləqiyyətin hüquqla (C.Lokk, İ.Kant, V.Humbolt və b.), ağıl və mənəviyyatla (XVIII yüzilin maarifçiləri, İ.Kant və b.) idarə olunması, **D.**-in özünü hüquqca məhdudlaşdırmaqla onu hüquqi **D.**-ə çevirmək (C.Lokk, İ.Kant, Q.V.Hegel, XIX-XX əsrlərin konstitusiyaçıları, K.Yaspers və bir çox b.) ideyası fəallaşdı. Lakin vətəndaş münasibətləri və hüquqi dövlətçilik çox-çox sonralar tam inkişafa nail oldu. Bununla belə, yeni dövrün **D.**-nin təşəkkülü, cəmiyyətin indiki mədəni, iqtisadi birliyi və vahid şəklə salınması həmçinin unitar (bir formalı) **D.**-in yaradılması zamanı olduğu kimi, yeganə hakim meyl olmadı.

Heç də az qədim olmayan ənənə mərkəzi dövlətdən - metropoliyadan və bir neçə çoxlu birləşdirilmiş ölkələrdən, yaxud dövlətçiliyini qurmağa macal tapmamış, ya da itirmiş xalqlardan ibarət çoxmillətli imperiyaların yaradılması olmuşdur. İmperiya qurumları bəzən kifayət qədər uzun müddət yaşasalar (Roma, Bizans, Osmanlı, Rusiya imperiyaları, qədim Şərq imperiyaları və s.) da möhkəm olmurlar. Onların süqutunun səbəbləri müxtəlifdir (xarici istilalar, daxili sosial tənəzzül, formasiya ilə bağlı sosial-iqtisadi yenidənqurmalar və s.), lakin bu proseslərdə milli **D.** yaradılmasına, yəni imperiya tamından (ittifaqdan, **D.** konqlomeratından, yaxud müstəmləkə strukturundan) ayrılmaq meyli dönmədən müşahidə edilir. Müstəqil **D.** millət kimi birləşən etnik birliyin inkişafı üçün daha çox faydalıdır. Bu qanunauyğunluq XX əsrdə - sonuncu imperiyaları dağıtmış ictimai, iqtisadi və həm də milli inkişafın ümumdünya intensivləşməsi dövründə xüsusilə aydın özünü göstərdi. Lakin imperiyalar dövrü həmişəlik keçib getsə də (sonuncu dəfə imperiya yaratmaq üçün göstərilən millətçi-sosialist cəhdi ən fəlakətlisi və uğursuzu oldu), dövlət, milli və so-

sial-iqtisadi inkişafın eyniliyi problemi çoxmillətli və milli azlıqların yığcam yaşadıqları birmillətli **D.**-lər üçün aktual olaraq qalır. Buradan da müasir dünyada getdikcə kəskinləşən separatçılıq problemləri ortaya çıxır ki, bunlar da daha çox bu və ya digər şəkildə bərabərsizliyin (iqtisadi, milli, mədəni) özünə yer tapdığı nöqtələrdə özünü xüsusilə göstərir və ölkənin birliyini təhlükə altına alır.

Əgər tarixin rədd etdiyi imperiya **D.**-ləri unitar dövlətə alternativdirsə, federativ (bax; **FEDERASİYA**), yaxud konfederativ (bax; **KONFEDERASİYA**) **D.** quruculuğu öz həyat qabiliyyəti və ictimai, siyasi, iqtisadi və mədəni inkişafın tələblərinə cavab verməsi ilə fərqlənir. Federativ **D.** strukturunun unitar **D.**-dən üstünlüyü fikrini hələ XVIII yüzillikdə Ş.Monteskye əsaslandırmışdır. Bu ideya elə həmin əsrin sonunda ABŞ-da, II Dünya müharibəsindən sonra isə Almaniyada (AFR) gerçəkləşdi. Federativ **D.**, bir tərəfdən, mərkəzin unitarlığı, hökmranlığı və ucqarların tabeliyinin, inkişaf proseslərinin qeyri-bərabərliyi ilə, digər tərəfdən artıq təşəkkül tapmış **D.**-in ayrı-ayrı hissələrinin milli dövlətə ayrılmaq cəhdləri arasında münaqişədən ən yaxşı çıxış yoludur. Bu mənada federasiya azadlıq və qarşılıqlı fəaliyyətin eyni zamanda gerçəkləşməsidir. Belə qurum ictimai və siyasi inkişafın sonrakı mərhələsi - inteqrasiyası üçün bir növ nümunə rolunu oynaya bilər: iqtisadi, siyasi, mədəni inteqrasiya **D.**-i, sosial tərkibcə yekcins bərabərhüquqluların **D.**-i, Avropa inteqrasiyası kimi yeni, qeyri-imperiya tipli qurum **D.**-i. Federasiya azad, demokratik yolla güclü, əhəmiyyətli, inteqrasiya edilmiş və beynəlmiləşdirilmiş dövlətçiliyin tarixi problemini həll edir və halbuki bunu imperiya **D.**-ləri zorakı üsullarla həll etməyə cəhd göstərməklə xalqların və **D.**-lərin dünyada mövcud olan bərabərsizliyini daha da dərinləşdirir və bununla da onların bir hissəsini digərlərinin, hakim **D.**-lərin istismar etməsinə şərait yaradırdılar. İnteqrasiyalaşmış ittifaqlar da müəyyən mənada məs., iqtisadi cəhətdən (Almaniya və Portuqaliyanı müqayisə et), ərazicə (Fransa və Danimarkanı müqayisə et) heç də bərabər olmayan **D.**-ləri bərabərhüquqlu edə bilər və bununla bərabərsizliyin özünün aradan götürülməsinə kömək göstərmiş olarlar. Federativ və konfederativ **D.** strukturları bu məqsəd üçün sınanmış addımdır. Federativ, yaxud inteqrativ birlikdən ayrılmaq və çıxmaq, ya onun səmərəsizliyi, daxili, yaxud xarici səbəblər üzündən pozulması (sosial və iqtisadi səmərəsizlik, siyasi, mədəni tənəzzül, müharibədə məğlubiyyət və i.a.) sayəsində, və da milli-dövlət, iqtisadi və mədəni inkişafın təbii tarixi yolunu müstəqil keçməmiş xalqın inteqrasiya çərçivəsində belə inkişaf üçün maneə ilə üzləşdikdə asılı vəziyyət, tarixi proses səviyyəsinin son dərəcə qeyri-bərabərliyi və i.a.) baş verə bilər. Lakin, bütün hallarda həmin adlımın özünü doğruldub-doğrulamamasından asılı olmayaraq ayrılma ölkəni **D.**-in inkişafının erkən mərhələlərinə-geriyə atır.

IV (müasir) mərhələ, **D.**-in əkamülünün bu mərhələsi federativ və konfederativ proseslərin genişlənməsi (İsveçrə və ABŞ-dan sonra Almaniyanın federativ birləşməyə daxil olması), belə birləşmələrin lehinə və əleyhinə mübarizə (keçmiş Yuqoslaviya və SSRİ ərazilərində bəzi ölkələr) və yeni, müasir dövlətçilik və ilk inteqrasiyalar üçün şərtlərin meydana gəlməsi ilə əlamətdar olmuşdur. Bu şərtlər aşağıdakılardır: demokratik prosesin dərinləşməsi, sosial və iqtisadi inkişafın yeni, sürətlə inqilabiləşən maddi əsas üzərində yeni, mütəhərrik tipinin, vətəndaş cəmiyyətinin və hüquqi **D.**-in əsaslarının yaradılması; **D.**-in sabitliyi mexanizmlərinin şərait və mühitin dəyişilməsinə sürətli və adekvat cavab reaksiyaları verməyə, cəmiyyətdə qüvvələrin və asayişin tarazlığını bərpa etməyə (siyasi sabitliyin mütəhərrik tipi) qadir olan mütəhərrik **D.**-in sabitliyi mexanizmlərinin formalaşdırılması; hakimiyyətin və cəmiyyətin tarazlığı sayəsində **D.**-in sabitliyi, onun siyasi birliyinin mümkünlüyü.

Bütün dövrlərin **D.** tipləri bir sıra sabit, ümumtarixi əlamət və funksiyaları ilə səciyyələnir. Bunlara aiddir: bu və ya digər sosial və sinfi əsasda idarə edən qüvvələrin məcburi formalaşdırılması, bu proses müasir

D.-də həmin əsası (siyasi partiyaların, ictimai hərəkatların, hakimiyyətin seçkili daşıyıcılarının və i.a. hesabına) genişləndirmək yolu ilə demokratikləşdirməyə meyli əks etdirir, xarakterik siyasi təşkilatın - siyasi sistemin, mərkəzi və əyalət hakimiyyət strukturlarının və onların arasındakı münasibətlərin mövcudluğu; D.-in xarici siyasət funksiyalarını həyata keçirməklə bağlı D. ərazisi hüdudlarından kənarda siyasi məkanın məcburən genişləndirilməsi; ölkə və xalq qarşısında bir sıra təəhhüdlər, daxili əmin-amanlığı və qaydaları mühafizə etmək, hakimiyyəti altında olan ərazini qorumaq, sinfi, sosial, milli, iqtisadi münasibətləri tənzimləmək, ümumi rifah məqsədi güdmək; bir sıra inhisar hüquqları: qeyri-iqtisadi məcburetmə inhisarı, xüsusi şəxslər, ayrı-ayrı qruplar və i.a. tərəfindən məcburetməyə və zorakılığa yol verməyən inhisar, hamı üçün icbari qanunlar nəşr etmək, pul nişanları emissiyası üçün müstəsna hüquq, vergi və rüsumları müəyyən etmək və toplamaq hüququ, istiqrazlar buraxmaq, büdcə siyasətini həyata keçirmək, müxtəlif təyinatlı silahlı qüvvələr və asayişi qoruyan orqanlar yaratmaq, saxlamaq və onlardan istifadə etmək hüququ, xarici siyasəti həyata keçirmək, D.-i xaricdə təmsil etmək hüququ və s.

D.-in varlığı, bu və ya digər əlamətlərin təzahürü hər hansı tipli D. üçün labüd olan zəruri funksiyalar məcmusunun həyata keçirilməsini bildirir. Belə funksiyalar D. quruluşunun müdafiəçisindən; sosial təhlükəli münaqişələrin qarşısının alınmasından və aradan qaldırılmasından; iqtisadi və b. ictimai münasibətlərin nizama salınmasından; ölkə üçün sistem kimi ümumi daxili siyasətin və onun konkret təzahürlərinin - sosial, iqtisadi, maliyyə, elmi, mədəni, təhsil və s. siyasətin həyata keçirilməsindən; ölkə mənafelərinin müdafiəsi üçün xarici siyasət funksiyalarından; ölkənin müdafiəsi və silahlı mübarizə aparılması funksiyalarından və bir çox başqalarından ibarətdir.

D. funksiyalarının həyata keçirdiyi metodlar, bu zaman tətbiq edilən vasitələr, D.-də qanuna salınmış sosial və s. münasibətlərin xarakteri D.-in müxtəlif növlərini təsnif etməyə, onların tipologiyasını müəyyənləşdirməyə imkan verir. Belə təhlil tarixən daha erkən baş vermiş, hələ antik dövrlərdən D.-in müxtəlif tiplərini müqayisə etmək və idarəetmənin ən yaxşı nümunələrini seçmək işinə xidmət etmişdir (Platon, Aristotel). Demokratik və qeyri-demokratik rejimlərin ilk təsnifatları da buradan əmələ gəlmişdir.

Onların əsasını müxtəlif əlamətlər təşkil edir: hakimiyyətdə olan qüvvələrin sinfi təbiəti ("D. hansı sinifə xidmət edir"), yəni quldarlıq, feodal, burjua, proletar D.-lərinə bölgü; idarəetmə formaları, yəni hakimiyyəti idarəetmənin təşkili - monarxiya, respublika D.-i, prezident, parlament respublikaları və i.a.; dövlətin siyasi təşkilinin quruluşu - unitar, federativ, konfederativ D.; siyasi rejim-demokratik, avtoritar, totalitar D., diktator, istibdad, liberal və s.

D.-in təkamülü onun perspektivləri haqqında məsələdir. İnqilabi sarsıntılar, böyük dövrlərin əvəz olunması D.-in tiplərini dəyişir, D.-in funksiyaları da dəyişilir və inkişaf edir, konkret D. formaları - hakimiyyətlər, rejimlər və i.a. əvəz olunurlar. Lakin D. siyasi institut kimi qalır. K.Marks və marksizm XIX-XX yüzilliklərdə sinfi ağalıq aləti kimi bu institutun gələcəyi haqqında məsələ qaldırmışdılar, belə deyilirdi ki, sinifsiz cəmiyyətdə D. (elə siyasətin özü də) lazımsız olacaq və belə cəmiyyət yarandıqda ölüb gedəcəkdir. Oktyabr çevrilişindən sonra proletar diktaturasının, sonra isə totalitar rejimin qurulması D.-in ölməyə deyil, onun funksiyalarının həddən artıq çoxalmasına, möhkəmlənməsinə səbəb oldu. D.-in ölüb getməsi ideyası vaxtından qabaq irəli sürüldüyündən ehkama çevrildi. Onu xilas etmək üçün məlum "D."-in gücləndirildikdən sonra ölüb getməsi" nəzəriyyəsi irəli sürüldü. Ölüb getmə ideyası Marksda olduğu kimi mücərrəd hipotezaya çevrildi. gerçəklik isə bundan ibarətdir ki, istənilən idarəetmə rejimli və tipli ölkələrdə cəmiyyətin maddi və mənəvi həyatının mürəkkəbləşməsi və siyasətin fiziki parametrlərinin - miqyasının, texniki vasitələrinin, onun dəyişikliklərinin sürət və dərinliklərinin, hakimiyyət aparatlarının və i.a. art-

ması ilə birlikdə D.-in də rolu durmadan artır. Dünyanın vahidliyi və rəngarənliyi problemlərini tədqiq etmiş siyasi fikir artıq çoxdandır ki, D.-in digər konsepsiyasını hazırlamışdır. XX yüzilliyin əvvəlində mondəalizm və "dünya federalistləri" hərəkatında meydana gəlmiş D.-in beynəlmiləlləşməsi ideyası vəzifələri ayrıca götürülmüş ölkənin deyil, bəşəriyyətin "ümumi məsələlərinin" həllindən ibarət olacaq dünya hökumətinin yaradılmasını nəzərdə tuturdu. Sonrakı hadisələr (müharibənin beynəlmiləlləşməsi, qanun çərçivəsindən kənarlaşma, beynəlxalq əmək bölgüsünün və onun konsepsiyalarının fəallaşdırılması, qlobal problemlərin meydana gəlməsi və i.a.) göstərdi ki, bəşəriyyət obyektiv olaraq təşkilə və idarə olunmağa getdikcə daha çox ehtiyac duyur, lakin bu ehtiyacı dünya səviyyəsində təşkil edə bilən hakimiyyət yoxdur. Onun funksiyasını qismən siyasəti əlaqələndirməyin ənənəvi forması olan D.-lərin məhəlli ittifaqları həyata keçir. Bu əsas üzərində dünyanın məhəlliləşdirilməsi, onun daxili inteqrasiya perspektivli yeddi, yaxud daha az saylı regionlara (M.Qrenyc və b.), Şimal və Cənuba (V.Brandt), Qərb və Şərq və i.a. bölünməsi ideyaları işlənib hazırlanmışdır. Bu gün üçün D.-in beynəlmiləl inkişafının gerçək yolu onun beynəlxalq təşkilatların genişlənən sistemində, demokratik prosesin beynəlmiləlləşməsində iştirakından, həmçinin təcridolunmanın, geriliyin, hər hansı ölkənin xüsusi tarixi müstəsnalığı ideyalarının siyasi və ideoloji cəhətdən müdafiə olunmasının aradan qaldırılmasından ibarətdir.

DÖVLƏT DEPARTAMENTİ — ABŞ-da 1789-cu ildən Xarici İşlər Nazirliyi funksiyasını həyata keçirən əsas xarici siyasət idarəsi; dövlət katibi başçılıq edir. Hüquqi cəhətdən məşvərətçi orqan hesab olunur. Əslində prezidentin və konqresin hazırladığı xarici siyasət xəttini həyata keçirir. Daxili işlərə dair bir sıra funksiyanı da (məs., qanunları dərc etmək) yerinə yetirir..

DÖVLƏT KATİBİ - Bəzi dövlətlərdə ali dövlət məmurlarının daşıdıqları vəzifənin adı. Məs., ABŞ-da **D.k.** dövlət departamentinin başçısıdır; prezident tərəfindən təyin edilir və onun yaxın əməkdaşlarından biridir. B.Britaniyada bəzi idarələrin (daxili işlər, müdafiə və s.) başçıları **D.k.** adlanır. Belçikada **D.k.** əslində nazir müavinidir. Portuqaliyada **D.k.** baş nazirin köməkçisi və ayrı-ayrı idarələrin başçısıdır.

DÖVLƏT GERBİ - dövlətin emblemi, möhürlərdə, sikkələrdə, pul vahidlərində, banklarda, hökumət idarələrinin fasadında və s.-də təsvir edilir.

DÖVLƏTLƏRİN BİR-BİRİNDƏN ASILIĞI, DÜNYANIN BÜTÖVLÜYÜ VƏ BİRLİYİ - müasir dünya sisteminin yaxud dünya birliyinin XX əsrin sonunda beynəlxalq siyasətin nəzəri və dünya baxışı əsaslarına həlledici təsir göstərən əsas səviyyələrindən biri.

Dünya inkişafının yenidən dərk edilməsi zərurıliyi əsasən insan cəmiyyətinin iki yeni cəhəti ilə bağlıdır. Birincisi, daha da kəsinləşmiş qlobal problemlər çox vacib və təxirəsalınmaz əhəmiyyət kəsb edir. Bunlardan başlıcası, dünyanın mövcudluğu problemidir. Dünya öz inkişafında elə bir xəttə yaxınlaşmışdı ki, hər hansı bir hadisə onun mövcudluğu üçün faciəvi ola bilər. Bura nüvə və digər kütləvi qırğın silahlarının artması ilə yanaşı, ekoloji-demoqrafik, energetika, ərzaq və digər böhranlar təhlükəsinin artması aiddir.

İkincisi, elmi-texniki inqilabın genişlənməsi nəticəsində məhsuldar qüvvələrin inkişafı ictimai həyatın beynəlmiləlləşdirilməsi proseslərinin sürətlənməsinə, bütöv qarşılıqlı əlaqəli və asılı dünyanın qurulmasına gətirib çıxarır.

İnsanların qarşılaşdığı bu vəziyyət hər bir ölkənin, xalqın nümayəndələrindən, siyasi xadimlərindən daha ölçülüb-biçilmiş elmi siyasətin hazırlanmasını və həyata keçirilməsini tələb edir. Belə bir xətt yeni siyasi təfəkkür və yaxud yeni təfəkkür kimi ifadə edilir.

Yeni təfəkkür fəlsəfi kateqoriyadır. O, siyasi şüur sahəsində formalaşır, ümumbəşəri mənafelərin üstünlüklərinə əsaslanır və başlıca olaraq, dövlətlərarası münasibətləri ifadə edir.

Müsair beynəlxalq münasibətlər militarist şüurun zorakılıq qüvvəsinə arxalanan məngənələrindən çıxarılmalıdır. Yeni təfəkkür qarşıya böyük huma-

nist məqsəd qoyur. Siyasətin ümumbəşəri mənəviyyat normalarından qoparılıb ayrılmasına son qoymaq, beynəlxalq münasibətləri humanistləşdirmək, nüvə silahı olmayan və zorakılıqsız dünyanın quruculuğuna başlamaq.

DÖVLƏTİLƏŞDİRMƏ - dövlətin, onun idarələrinin cəmiyyət həyatının bütün sahələrinə, xüsusən iqtisadi sahəyə fəal nüfuz etməsi prosesi. **D.** siyasi hakimiyyətin mərkəzləşdirilməsi, bürokratikləşməsi ilə bağlıdır. Dövlət və cəmiyyətin münasibətləri, tarixdə dövlətin iqtisadiyyata müdaxiləsi və iqtisadi fəaliyyətdə iştirakı problemi həmişə aktual və ciddi problem olmuşdur. Siyasətin və hakimiyyətin, ilk növbədə dövlət hakimiyyətinin vəzifələrinin genişləndirilməsi ümumi tarixi meyldir. Dövlətin təşkilati, nəzarət vəzifələri çox tez-tez dövlət və cəmiyyətin optimal siyasi münasibətlərinin həddini keçir. Bu halda dövlət idarəçiliyi əngələ çevrilir. Sosial və hüquq sahələrində bu, hüquqi, siyasi, bürokratik nəzarətin və inzibati əsarətin sərtləşməsində, qanunqaydanın pozulması kimi qiymətləndirilən hər hansı fəaliyyətin qarşısının alınması üçün sərt tədbirlər görülməsində, insanın hüquq və azadlıqlarının məhdudlaşdırılmasında, başqa cür düşünənlərin təqib olunmasında özünü göstərir. **D.**-nin avtoritar və totalitar tipləri dövlətin cəmiyyətin iqtisadi həyatına xüsusilə fəal müdaxiləsi ilə fərqlənir. Yəni, dövlət iqtisadiyyatda dövlət bölməsini genişləndirir, iqtisadi tənzimləmənin vergi, maliyyə, investisiya, kredit vasitələrini, təsərrüfat fəaliyyətinin nizamlanmasını öz əlinə alır, sərt planlaşdırma, bölgü üzərində nəzarət metodlarından istifadə edir və s. İfrat hallarda iqtisadi **D.** iqtisadiyyatda inzibatçılığa, onun hərbiləşdirilməsinə, iqtisadi (eləcə də siyasi və ideoloji) səfərbərliyə - sürətlə silahlanmaya, hər hansı islahatçı layihələrin həllinə əl ata bilər.

Demokratik cəmiyyətdə **D.** əsasən iqtisadiyyatı əhatə edir, ona ictimai qüvvələr, sənayenin rəhbərləri və "dövlət çox (və ya az) iştirak etsin" devizi altında müvafiq yönümlü siyasi partiyalar və hərəkatlar tərəfindən nəzarət olunur. XIX əsrdə bu zəmində liberalizmin iqtisadi ideologiyası və mühafizəkar ideologiya formalaşmışdı. Bunlardan birincisi, əmtəə-pul münasibətlərinin, bazar iqtisadiyyatının qanunlarının (A.Smitin dediyi kimi, "görünməyən əlin") özünütənzimləyən mexanizmlərinin avtomatik təsirinə bel bağlamaqla sahibkarlığa tam iqtisadi sərbəstlik verilməsini tələb edirdi. İkincisi isə, XVII əsr İngiltərə burjua inqilabının qarşılıqlı güzəşti olub, hakim zadəgan dairələri ilə sənayeyə rəhbərlik edən burjuaziyanın siyasi ittifaqını, başqa sözlə, iqtisadi proseslərdə dövlətin iştirakı siyasətini əks etmişdi. XX əsrin ikinci yarısında liberalizmdə əsaslı dəyişiklik baş verdi və neoliberalizm iri ölkələrin güclü sənaye və elmi-texniki inkişafının ideologiyasına çevrildi. Bu inkişaf bütünlüklə dövlətin iqtisadiyyata fəal müdaxiləsinə, iqtisadiyyatı **D.**-yə, müharibədən sonrakı illərdə sənaye müəssisələri və sahələrinin milliləşdirilməsi hesabına dövlət bölməsinin genişlənməsinə, dövlətə məxsus infrastrukturun (nəqliyyat, rabitə) artmasına və iqtisadi fəaliyyətin, xüsusən bölgü sahəsində fəaliyyətin əhəmiyyətli dərəcədə tənzimlənməsinə əsaslanırdı. Qeyri-mühafizəkar siyasi-ideoloji istiqamətli müxalifətçi **D.** bu labüd meyli qəbul etsə də, 80-ci illərin əvvəlində neoliberalizmi sıxışdıraraq həmin meyli məhdudlaşdırmağa çalışdı.

D.-yə qarşı mübarizənin tarixi mənası da dövlətin müdaxiləsini zəruri həddə daxilində tənzimləməkdən ibarətdir, belə ki, prinsip etibarilə iqtisadiyyat heç vaxt dövlətin müdaxiləsindən azad olmayıb və ola da bilməz. **D.**-nin ifrat formaları - yəni ictimai prosesə qarışmamaq (bu, əslində hakimiyyətin iflic olması deməkdir), yaxud ictimai prosesi bütünlüklə müəyyən etmək, xüsusən də dövlət hakimiyyətinin siyasi vasitələri ilə iqtisadiyyata rəhbərlik etmək cəhdləri cəmiyyətin tez və ya gec başa düşdüyü səhvlərə gətirib çıxarır.

DÖVLƏTSİZLƏŞDİRMƏ - dövlətin iqtisadi fəaliyyətinin məhdudlaşdırılması prosesi; dövlətiləşdirməyin, etatizmin (cəmiyyətin iqtisadi, habelə hüquqi, ideoloji, mədəni həyatına dövlətin təsirinin gücləndirilməsi prosesinin) əksi. XX əsrin sonunda dünyanın sosial və siyasi qaydalar baxımından ən

müxtəlif ölkələrində iqtisadiyyatın dövlətsizləşdirilməsi mühüm bir sosial tələbə çevrilmişdir. Ümumən götürdükdə, **D. II** Dünya müharibəsindən sonra Avropada sənayenin (müəssisələrin və ayrı-ayrı sahələrin) milliləşdirilməsinə və hər yerdə iqtisadiyyatın idarə olunmasına dövlətin dərindən nüfuz etməsinə, maliyyə, kredit və vergi sisteminin, ticarət-sənaye fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinin güclənməsinə cavab idi. Dövlətləşdirmə prosesi özlüyündə antiböhran siyasətinin, iqtisadiyyatı sabitləşdirməyin, iqtisadi yüksəlişi və ictimai inkişaf prosesini sürətləndirməyin təsirli vasitələrindən biri idi. Dövlətin fəal tənzimləmə siyasətinin həddi və mənfi nəticələri 70-ci illərdə özünü göstərdi. Avropada müdafiə, rabitə vasitələrindən, nəqliyyat və kütləvi kommunikasiya vasitələrinin bir hissəsindən əlavə, bir çox ən iri sənaye müəssisələri və korporasiyaları (məs., İtaliyada 50 faizə qədər), istehsalat sənayesi sahələri və s. dövlətin əlində idi. Dövlətin əlindəki sənaye sahələrinin rentabelliyi daha yüksək mənfəətlə işləyən və istehsalı sürətlə modernləşdirən xüsusi müəssisələrin rentabelliyindən aşağı idi. Nəticədə 70-ci illərin sonu 80-ci illərin əvvəlində dövlət siyasətinin ideoloji səmtinin dəyişməsi, neoliberalizmin və demokratik, sosial-demokrat meylli partiyaların hakimiyyətdən çəkilməsi, yeni mühafizəkar "dalğanın" hücumu ilə dövlətin iqtisadiyyata müdaxiləsinə qarşı kampaniya başladı, hökumətin və onun idarələrinin nəzarətində olan sənayenin dövlətsizləşdirilməsi, eyni zamanda, dövlətiləşdirmə siyasəti əleyhdarlarının fikrincə, mövcud israfçı sosial siyasətə qarşı mübarizə artdı. D. dövlətin tənzimləmə vəzifələrində böyük dəyişikliklər etməsi də, özəlləşdirmə ümumən iqtisadiyyata müsbət təsir göstərdi.

DÜNYA İNQİLAB PROSESİ - Dünyanın inkişaf konsepsiyası; kommunistlərin XX əsrin 20-ci illərindən 80-ci illərədək ümumi ideya-siyasi istiqamətini təşkil etmişdir. Sosial-iqtisadi formasiyaların inqilablar yolu ilə tarixi-zərurət kimi birbirini əvəz edəcəyi haqqında ümumi təsəvvürlərə əsaslanaraq **D.i.p.** konsepsiyasını işləyib hazırlayanlar (Lenin, Buxarin və b.) və onun təbliğatçıları ümumdünya tarixinə dünya inqilab prosesi kimi baxırdılar. 1917-ci il Oktyabr çevrilişini müasir dövrün başlanğıcı sayan kommunistlər **D.i.p.**-nin mahiyyətini kapitalizmin kommunizmlə əvəz edilməsində görür və onun birinci mərhələsini "real sosializm" biçimində təsəvvür edirdilər. Onların fikrincə, XX əsrin müxtəlif növ inqilabları və digər kütləvi hərəkatları guya obyektiv olaraq sosializmin qələbəsinə aparan mücərrəd vahid axında birləşmişdilər. Əslində isə XX əsrdə dünyanın simasını radikal qaydada dəyişmiş sosializmə aparan güdrətli meyllər, demokratik, milli azadlıq hərəkatları müəyyən antikapitalist təmayüllü olsalar da, ümumən sosialist istiqamətli də deyildilər: onların əksəriyyəti kapitalizmin inkişafına kömək etmişdi.

D.i.p. formasiyalar haqqında bəsitləşdirilmiş təsəvvürlə bağlı idi, kapitalizm formasiyası məhsuldar qüvvələrin və sosial tərəqqinin inkişafı üçün imkanları tükənməmişdən çox-çox əvvəl ölümə məhkum edildiyi halda, ona qarşı qoyulan sosializmin məqsədi əsasən hakimiyyətin, mülkiyyətin, bölgünün dəyişdirilməsindən ibarət sayılırdı. **D.i.p.**-nin birtərəfli qaydada yalnız inqilaba meyl etməsi sosial tərəqqinin və cəmiyyətin keyfiyyətcə dəyişdirilməsinin müvafiq forması kimi təkamüldən səmərəli istifadə olunmasını istisna edirdi. Kommunistlər təkamülün geniş imkanlarını əldən buraxdıqları halda, digər hərəkatlar ondan istifadə etdilər. **D.i.p.** konsepsiyasının dünyanın həqiqi inkişafı ilə uyğunsuzluğu müasir dövrün qlobal problemlərinin kəskinləşməsi və bəşəriyyətin yaşamasını təmin etməyin ön plana çəkilməsi prosesində qəti olaraq aşkara çıxdı.

DÜNYA OKEANI - bax; **OKEAN.**

DÜNYA SOSİALİST İNQİLABI - Marks və Engelsin, sonralar Lenin və onun ardıcılları tərəfindən inkişaf etdirilən ideyası. Kapitalizmin kommunizm ilə əvəzlənməsi üçün inqilabın tələb olunduğunu və bu inqilabın yeni cəmiyyətin yalnız birinci mərhələsinə - sosializmə keçidin başlanğıcını qoyacağını hesab edərək, onla həmin inqi-

labı sosialist inqilabı adlandırmışdılar. Bu inqilabın ən başlıca vəzifələri burjuaziyanın hakimiyyətini devirmək və proletariat diktaturası qurmaq, əsas istehsal vasitələrini ümumiləşdirmək və digər sosialist dəyişikliklərini həyata keçirmək idi. Marks və Engels ümid edirdilər ki, XIX srin əvvəlində sosialist inqilabı az və ya çox dərəcədə eyni vaxtda Avropanın daha çox inkişaf etmiş ölkələrinin burjuaziyasının müqavimətinə baxmayaraq, Avropanın həmin ölkələrinin hakim vəziyyəti bütün dünyada sosializm ideyalarının təntənəsini təmin edəcəkdir, həm də bu ideyaların bərqərar olması üçün geridə qalmış regionların kapitalizməqdərki bəzi strukturlarından da istifadə oluna bilər.

1917-ci il oktyabr çevrilişini hazırlayarkən və həyata keçirərkən Leninin təşəbbüsü ilə bolşeviklər bunu əsas götürürdülər ki, sosialist inqilabı əvvəlcə o qədər də inkişaf etməmiş bir və ya bir neçə ölkədə qalib gələcək, onların uğurları burjuaziyanın xüsusilə güclü olduğu ən işkişaf etmiş ölkələrdə sosialist inqilablarının detonatoru rolunu oynayacaqdır. Lenin, onun siladaşları və dünyanın bir çox ölkəsinin onlarla həmrəyləşmiş inqilabçı sosialistləri ümid edirdilər ki, oktyabr inqilabından az sonra Avropanın ən inkişaf etmiş ölkələrində sosialist inqilabları qalib gələcək və hələ lazımi ilkin şərtlərin olmadığı Rusiyada və bütün başqa ölkələrdə sosializmə keçməyə kömək edəcəklər, beləliklə də 20-30 il ərzində sosializm hər yerdə bərqərar olacaqdır. Qərbi Avropada inqilabi qüvvələrin zəifliyi və uğursuzluqları kommunistləri Asiyanın antiimperialist hərəkatları ilə ittifaqa, Qərbi Avropa burjuaziyasına zərbələr vurmaq üçün Qızıl Ordudan istifadə etmək cəhdlərinə təhrik edirdi.

Qərbi Avropada sosialist inqilablarının tezliklə qələbəsinə olan ümidlərin itirilməsi bolşevikləri və digər kommunistləri 1920, xüsusən 1923-cü ildən sonra D.s.i. ideyasını dünya inqilab prosesi konsepsiyasına çevirməyə gətirib çıxardı. Bu konsepsiyanın özəyini ölkələrin birbirinin ardınca kapitalizmdən ayrılıb sosializmə keçməsi haqqında təsəvvür təşkil edirdi. Belə keçid daxili inqilabi qüvvələrin və ən başlıcası başda Sovet İttifaqı olan xarici qüvvələrin qarşılıqlı əlaqəsi kimi təsəvvür olunurdu. 40-cı illərin təcrübəsi (xüsusən, Şərqi Avropa ölkələrinin təcrübəsi) əsasında belə hipotez nəzəriyyə kimi işlənib hazırlanmağa başladı. Bununla belə, hesab edilirdi ki, SSRİ sosializmə doğru aparan "əsas yolu" açmışdır. Lakin "real sosializmin" iflası göstərdi ki, sosializm ideyalarının həyata keçirilməsinə doğru yolda bu ölkələrin hamısı daha çox inkişaf etmiş dövlətlərdən geri qalmışdır. Bu, kapitalizmə düzgün qiymət verilməsinə və sosializm ideyalarını reallaşdırmağın yolları haqqında bəsit təsəvvürlərə söykənən D.s.i. nəzəriyyəsinin əsassızlığını göstərir.

DÜNYANIN TƏDQİQİ, İ r e n o l o g i y a 60-70-ci illərdə Qərb politologiyasında, ilk növbədə Qərbi Avropa ölkələrində (Skandinaviya ölkələrində, İngiltərə, AFR), sonra isə ABŞ=da inkişafa başlamış cərəyan.

D.t.-lə məşğul olan alimlər (Y.Qaltunq, Bokuldinq, A.Rapoport, D.Zenqxaas, O. Xolsti, S.Mendlovits, Ç.Yost, A.Etsioni, A.Nyukomb və b.) bu elmi cərəyanın predmeti və vəzifələri haqqında, onun başqa ənənəvi elmi fənnlərə münasibəti və hətta öz tədqiqatlarının məqsədi ilə əlaqədar vahid fikir birliyinə gələ bilmirdilər. Bir sıra müəlliflər (A.Rapoport, P.Smouker, L.Riçardson) bu problemin tədqiqinə beynəlxalq aləmdə baş verən münaqişələri, onların həlli vasitələrini və yollarını, müharibələrin qarşısını almaq və dünyada əmin-amanlığın bərpası, müdafiə sistemlərinin "təhlükəsizlik" problemlərinin öyrənilməsi, silahlanma və silahların ləğv edilməsi üzərində nəzarət tədbirlərinin hazırlanması və bu kimi digər məsələləri də daxil edirdilər. Başqaları (İ.Qaltunq) isə belə hesab edirlər ki, D.t. yalnız beynəlxalq münaqişələri və müharibələri deyil, eyni zamanda başqa ictimai münaqişələri də əhatə etməlidir. Ümumi rəy belədir ki, bu ictimai fənn, onunla məşğul olan alimlər müharibənin başlanmasına mane olmalı, xarici siyasət böhranlarının tənzimlənməsi və aradan qaldırılmasına kömək etməli, həmçinin "pozitiv dünyanın" yaranması yolla-

rını araşdırmalıdırlar. Belə olduqda yəqin ki, təhlükəsizliyin bərpası və qarşıdurma qüvvələri barışdırmaq siyasəti ilə məşğul olmağa da heç bir ehtiyac qalmayacaqdır.

D.t.-nin metodologiyasının əsas xüsusiyyətləri onun müxtəlif fənnlərlə bilavasitə əlaqədar olması ilə səciyyələnir. O, əsasən marksizm də daxil olmaqla, müxtəlif yönümlərlə nəzəri sosiologiyaya və sosial fəlsəfəyə, konkret sosioloji, sosial-psixoloji fənnlərə və modernist metodologiyaya, formallaşdırılmış aparatdan istifadə edən modelli tədqiqata və s. əsaslanır.

D.t.-də aktual məsələlərdən biri də dünyanın əsas səciyyəsini təmsil edən "zor işlətmənin strukturunun" öyrənilməsidir. Alimlərin fikrincə, bu problem hələlik lazımınca araşdırılmamışdır. Bununla belə, "zor işlətmənin strukturu" yalnız təcavüz, repressiya və s. kimi deyil, həm də ictimai-iqtisadi inkişaf baxımından insanın əsas tələbatının ödənilməsinə mane olan əngəl kimi dərk olunur. Bu mövqedən çıxış edən tədqiqatçı alimlər "zor işlətməni yaradan" strukturu dəyişdirmək, daha məhdud dairədə güc tətbiq etməklə, ya da institutlaşma yolu ilə onları aradan qaldırmaq üçün tədbirlər işləyib hazırlayırlar.

D.t.-nin siyasi istiqaməti liberal-pasifist xarakter daşıyır. Orada çox vaxt ənənəvi, müharibə həddinə çatmış "zor işlətmə" nəzəriyyəsi və siyasəti, "idarə olunan" "eskalasiya" və "çevik münasibət" konsepsiyaları tənqidə məruz qalır. Dünyanı tədqiq edən alimlər etiraf olunmuş belə bir faktla razılaşırlar ki, artıq nüvə silahı müharibənin başlanması üçün alət rolunu oynaya bilməz, o, yalnız kütləvi qırğın vasitəsidir. Dünyanın tədqiqinə həsr olunmuş əsərlərdə söhbət, bir qayda olaraq beynəlxalq münasibətlərin strukturunun hərbi sabitləşməsindən deyil, siyasi sabitləşməsindən gedir. Belə tədqiqatların əksəriyyətinin leytomotivində belə bir tezis səslənir ki, müasir dövlətlər arasında sülhü təmin edə biləcək "vahid" dünya dövlətinin olması, yeganə orqanın yaradılması vacibdir.

Dünyanı tədqiq edən alimlərin əksəriyyəti öz elmi mülahizələrində çoxlu müsbət ünsürlər

aşkar etmişlər. **D.t.** yeni elmi nəzəriyyə kimi sülh və dinc yanaşı yaşamaq sahəsində mütərəqqi potensiallar yaratmış, Qərb alimlərinin nəzəri fikirlərini müasir dünyada mövcud ənənəvi beynəlxalq münasibətlərə yönəltmişdir.

D.t., xüsusilə 70-ci illərdə Qərb ictimaiyyətinin və müxtəlif elmləri təmsil edən gənc alimlərin əksəriyyətinin diqqətini cəlb etmişdir. Bu illərdə Qərbdə beynəlxalq münasibətlər sahəsində politologiyaya həsr olunmuş daha çox diqqəti cəlb edən işlər məhz bu problemin həllinə yönəldilmişdir. Dünyanın bir çox ölkələrində bu sahədə 300-dən çox müstəqil və olduqca əhəmiyyətli tədqiqat mərkəzləri fəaliyyət göstərir. Bunlardan birincisi və bu günə qədər aparıcı əhəmiyyətə malik olanı, əsası 1959-cu ildə J.Qaltunq tərəfindən qoyulmuş, indi Norveçin Oslo şəhərində yerləşən Beynəlxalq Dünyanın Tədqiqi İnstitutudur. Stokholmdakı Dünyanın Tədqiqi İnstitutu, həmçinin Vyanadakı Beynəlxalq Dünya İnstitutu, dünya miqyasında şöhrət qazanmış müəssisələrdəndir. ABŞ-da S.Mendlovits tərəfindən yaradılmış Dünya Nizamı İnstitutu dünyanı öyrənən tədqiqat mərkəzləri arasında aparıcı yeri tutur. İngiltərədə Lankaster Universiteti nəzdindəki Riçardson İnstitutu, Bredford və Sassek universitetlərindəki mərkəzi, AFR-də Hessen Dünya Problemləri və Münaqişələrinin Tədqiqat Fondu və Hamburq Universiteti nəzdindəki Dünya Problemləri və Təhlükəsizlik Siyasətinin Tədqiqatları İnstitutuları mühüm tədqiqatlar aparırlar. Son illərdə Latın Amerikası, Asiya və Afrika ölkələrində də dünyanın tədqiqi ilə məşğul olan institutlar yaradılmışdır. 1988-ci ildə SSRİ EA-nın Dünya Problemləri və Tərksilah Məsələlərinin Tədqiqi üzrə Elmi Şurasının, SSRİ Dövlət Elm və Texnika Komitəsinin və Sovet Sülhü Müdafiə Komitəsinin yenidən qurulması nəticəsində Dünya İnstitutu yaradılmışdır. Həmin institutun elmi və təşkilatçılıq fəaliyyəti hazırda Rusiya EA-nın Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutu tərəfindən assosiasiya yaradılmışdır. Həmin assosiasiyaözünün vaxtaşırı konfranslarını keçirir.

DÜNYƏVİLƏŞDİRMƏ, sekulyarizasiya. - Bu termin ilk vaxtlar (orta əsrlərdə) Qərbi Avropada kilsə, monastır əmlakının, torpaqlarının dövlətin xeyrinə özgəninkiləşdirilməsi kimi məhdud mənada işlədilirdi. Sonralar **"D."** anlayışı cəmiyyət həyatının müxtəlif sahələrini, fərdi, ictimai şüuru, dövləti, siyasəti, hüququ, milli və ailə-məişət münasibətlərini, şəxsiyyəti dini təsirdən azad etmək kimi daha geniş, fəlsəfi-sosioloji məna kəsb etmişdir. Yeni dövrdə - burjua-kapitalist münasibətlərinin təşəkkülü zamanı **D.** xüsusilə geniş yayılmışdı. **D.** prosesi obyektiv və subyektiv amillərin bütöv məcmusu ilə şərtlənir. Bu amillərə misal olaraq sosial-iqtisadi dəyişiklikləri, elmi-texniki tərəqqini, mədəniyyətin, təhsilin səviyyəsinin yüksəlməsini, urbanizasiyanı və s. göstərmək olar.

Müxtəlif mədəniyyət tiplərinin təşəkkül tapdığı ölkələrdə **D.** prosesi fərqli şəkildə baş verir. Bu prosesin sürəti təkcə sosial-iqtisadi münasibətlərin yetkinliyindən deyil, həm də dinin xarakterindən asılıdır.

D. prosesi sovet cəmiyyətinə də xas idi: ateizm siyasəti və dinlə "mübarizə" (əslində isə dini təşkilatlara və dindarlara qarşı zorakı, inzibati təzyiq) nəticəsində zorla "ateistləşdirmə", "dinin aradan qaldırılması" xarakteri almışdı.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra məscidlər və digər ibadət yerləri yenidən dindarların ixtiyarına verilmiş, yüzlərlə yeni məscid tikilmişdir. Bununla yanaşı, Azərbaycan Respublikası dünyəvi dövlət olaraq qalır və bu, ölkənin konstitusiyasında təsbit olunmuşdur.

DÜŞMƏN OBRAZI — siyasi opponent və bütövlükdə mühit haqqında etibarlı informasiyanın qıtlığı şəraitində siyasi davranışı yaratmağa imkan verən ideoloji və psixoloji stereotip. Bir qayda olaraq, siyasi vəziyyətdən çıxış yolunun imkanları gözə çarpacaq dərəcədə məhdud olduğu bir şəraitdə **D. o.**-nın yaranması ciddi böhran nəticəsində törənən kəskin antaqonizmin inkişafı ilə əlaqədardır.

D.o. bilavasitə, siyasi neqativizmlə əlaqədar olub, hər bir şəraitdə daha tez uyğunlaşan, yaşamaq uğrunda mübarizədə daha güclülərin və qüvvətlilərin "kim sağ qaldı" prinsipinə uyğun formalaşan heyvani əxlaqın stereotiplərinə əsaslanır. (Bax; **SİYASİ NEQATİVİZM**). Belə stereotiplərdən biri, nəticə etibarilə, kütlə prinsipinə (kim bizimlə deyil - bizim əleyhimizədir) əsaslanır və siyasi məsələlərin həllində heç bir qarşılıqlı güzəştə getməmək prinsipilə (kim kimi) səciyyələnən birmənalı xarakter daşıyır. Həm yaşamaq uğrunda mübarizədə birmənalı istiqamət, həm kütlə prinsipi, eyni zamanda heç bir güzəştə getməmək prinsipləri siyasi subyektə müəyyən bir çıxış yolu seçmək üçün heç bir imkan verir. Siyasi subyektin (fərd, sekt, partiya, tayfa, dövlət) alternativsizlik vəziyyətinə düşməsi onu, şəxsi və ya kollektiv şüurunda öz opponentini düşmən obrazı şəklində görməyə, onu bütöv qiyafəsində təsəvvür etməyə məcbur edir, belə ki, düşdüyü bu vəziyyət onu yaşamaq uğrunda ölüm-dirim mübarizəsində bütün iradə və ehtiyat qüvvəsini toplamağa imkan verir.

D.o. bir qayda olaraq, şəxsi özünəməxsus qorxu, həyəcan və mənfi xüsusiyyətlərinin (xoşagəlməz və biabırçı), eyni zamanda özünün pozitiv keyfiyyətlərinin (hər şeydən əvvəl şəxsi müqavimət göstərmək və mübarizə aparmaq qabiliyyəti) inversiya edilməsi yolu ilə formalaşır. Siyasi neqativizmin məntiqinə əsasən fərdin xəyali-neqativ obrazı yaradılır. Fərdin özünü qavraması ilə inversiyalanmış əlaqəsinin mövcudluğu nəticəsində **D.o.**-nın daha inandırıcı və qüvvətli surəti yaradılır. Bununla bərabər, həmin daxili əlaqə inkar edilir, nəzərə çarpmır və tabulaşdırılır, yəni ona qadağan qoyulur. Nəticə etibarı ilə **D.o.** qeyri-humanistləşdirilir və iblisləşdirilir.

D.o. xəyalidir, aldadıcıdır, lakin o, xəyalən təhlükə hissi yaradır. Bu saxta təhlükə qorxu hissini qüvvətləndirir və bu cür həyə-qorxuların artması nəticəsində təhlükəsizlik böhranı əmələ gəlir. Qeyri-sabitliyin və təhlükənin daşqınabənzər axını yaşamaq böhranının inkişafında katalizator rolunu oynayır.

D.o.-nın xəyaldan silinməsi üçün xeyli psixoloji qüvvə və böyük siyasi iradə tələb olunur. Burada həlledici rolu öz vəziyy-

ətinə tənqidi yanaşa bilmək bacarığı və siyasi opponent haqqında daha geniş və ətraflı informasiya əldə etmək oynayır. Lakin bunlara nail olmaq yalnız təhlükəsizlik böhranlarının psixoloji aradan qaldırılması, alternativ inkişaf yollarının mümkünlüyünün başa düşülməsi şəraitində mümkündür.

Belə bir yanlış təsəvvür də mövcuddur ki, **D.o.** dost obrazı ilə əvəz edilə bilər və edilməlidir. Lakin belə bir obrazın siyasi neqativizm məntiqinə əsasən yaradıldığını və inversiyalı formada olmasını nəzərə alaraq, dost obrazının qeyri-həyati olduğunu, onun **D.o.**-dan asılı olduğunu etiraf etməmək mümkün deyil. Belə ki, istər dost obrazı və istərsə də onun başlanüıc forması olan **D.o.** öz təbiəti etibarilə illüziyalı, xəyalidir, eyni zamanda siyasi şüuru alternativsizlik tələsinə yuvarlamağa cəhddir. **D.o.**-nın dost obrazı halında haçalanmasının qarşısını almaq və bu aldadıcı obrazları müasir siyasi şüurlardan sıxışdırılıb çıxardılması istiqamətində tərəfdaş obrazının formalaşması və onun hallandırılmasının mümkünlüyü haqqında məsələnin qoyuluşu diqqətəlayiqdir. Tərəfdaş obrazı ideoloji sxemlərdən uzaqdır, reallığa cavab verir, ən əsası isə, alternativ nöqteyi-nəzər və qiymətləndirilmə üçün geniş imkanlara malikdir.

E

EQALİTARİZM (fr. egalite - bərabərlik) - fərdi və ya kollektiv təsərrüfat əsasında əmlak bərabərliyinin zəruriliyini təbliü edən, sosial həyatın təşkilində ümumi bərabərlik prinsipinə əsaslanan utopik ictimai nəzəriyyə. (**Bax; BƏRABƏRLİK**).

EHKAMÇILIQ - (yun. dogma münasibət, elm, qərar) - hər cür şəraitdə, müxtəlif vəziyyətlərdə qeydsiz-şərtsiz həqiqət kimi qəbul olunmuş mövqe, vəziyyət, təfəkkür metodu. **"E."** terminini elmə ilk dəfə qədim yunan filosof-skeptikləri Pirron və Zenon gətirmişlər. Belə ki, onlar həqiqi biliyin imkanlarını inkar edir və şeylərin substansiyası haqqında hər hansı bir təsdiqedici nəticəyə gələn filosofları **E.**-da ittiham edirdilər. "E." terminin mənası sonralar müəyyən dəyişikliklərə məruz qalmışdı. Belə ki, Kantın fəlsəfəsində **E.** hər cür dərkolunma imkanları və ilkin şərtləri əvvəlcədən əsaslandırılmamış, tədqiq edilməmiş idrakın həyata keçirilməsi kimi qiymətləndirilir. Hegelin fəlsəfəsində isə **E.** dialektik zəkadan insan intellektinin yaratdığı potensialdan istifadə etməyən metafizik dərrakəli təfəkkür kimi mənalandırılır.

E.-ın meydana gəlməsində dini təfəkkürün, dindarlar üçün məcburi olan dini ehkamların az rolu olmamışdır. Müxtəlif dinlərdə - xristianlıqda, islamda, buddizmdə, iudaizmdə və b. dinlərdə **E.** bir ehkam formasında qəbul edilmişdir. Belə ki, dini məzhəbə görə, ali kilsə hakimiyyəti tərəfindən mütləq həqiqət kimi təsdiq olunmuş və elan edilmiş dini ehkam şübhə altına alına və tənqidə məruz qala bilməz. Bir qayda olaraq, **E.** nüfuz sahiblərinə (dini, elmi və siyasi) kor-koranə inamla əlaqədardır. Bu da köhnə ideyaların, nəzəri müddəaların və müvafiq siyasətin müdafiə olunmasına gətirib çıxarır. Öz növbəsində, **E.** özünün son həddinə - hər hansı bir mənsəb, əqidəyə yüksək dərəcədə inam səviyyəsi olan fanatizm mərhələsinə gəlib çatır və o vaxt **E.** hər hansı digər bir dünyagörüşünü və təcrübəyə (məs., XI-XIII əsrl..də katolik

kilsəsi və Qərbi Avropa feodalları tərəfindən Yaxın Şərq, Suriyaya, Fələstinə, Şimali Afrika xalqlarına qarşı təşkil edilmiş xalq yürüşləri və dini şüarlar pərdəsi altında "kafirlər"ə (müsəlmanlara) qarşı, "allah tabutunun" və "Müqəddəs torpağın" (Fələstinin) azad edilməsi uğrunda Səlib yürüşləri E.-ın ifrat fanatizmi Almaniyada Hitlerin faşist ideologiyasında da özünü göstərmişdi: almanların arilər silkinə mənsub olması, onların dünyanın bütün başqa xalqlarından üstünlüyü haqqında uydurma cəfəngiyyat ölkə daxilində və beynəlxalq aləmdə, xarici siyasətdə də tətbiq olunmağa başlanmış, daxildə terrorla birləşmişdi.

E.-ın psixoloji mənbəyini-nüfuz sahiblərinə (dini, elmi və siyasi) inamda və onların ehkamlarına, konsepsiyalarına, siyasi şüarlarına, prinsiplərinə etiqad etmələrində axtarmaq lazımdır. Məs., katolik kilsəsinin başçısının-Roma papasının səhvsiz, nöqsansız və günahsız olmasına inam, Ç.Darvinin, İ.P.Pavlovun, İ.V.Miçurinin nəzəriyyələrinin mütləqləşdirilməsi (genetika elminin inkar edilməsinə gətirir), kommunizmin yaxın gələcəkdə bolluğu,xoşbəxtliyi, ədaləti Yer üzərində bərqərar edəcəyinə inam buna misal ola bilər.

E.-ın ictimai mənbəyi sinfi səciyyə daşıyır. Belə ki, bir dəfə hazırlanmış konsepsiya, proqram, fəaliyyət vasitə və üsulları özlərinin sinfi və qrup maraqlarını saxlamaq üçün tətbiq olunur. Bu iş üsulu da köhnəlmiş əsasnamələrin, siyasi taktika və strategiyaların mühafizəsinə gətirib çıxarır.

E.-ın siyasi əsasları cəmiyyətdə yaradıcı təfəkkürün və praktiki fəaliyyətin (demokratiyanın, aşkarlığın, söz azadlığının) azad inkişafı üçün lazımi şəraitin olmaması ilə əlaqədardır. Bunlar isə nəzəriyyənin təcrübədən uzaqlaşması, irəli sürülmüş siyasi məqsədlərin nə ilə nəticələnəciyinin əvvəlcədən təhlil olunmaması və yoxlanılmamasına, təcrübi fəaliyyətin az-çox sərfəli olan vasitə və formalarla məhdudlaşdırılmasına gətirib çıxarır.Qarşıya qoyulan məqsədin, irəli sürülən şüarın, tətbiq ediləcək nəzəriyyənin, təcrübənin düzgünlüyü və həqiqiliyi əvvəlcədən yoxlanılmayan

və bunların üzərində daimi nəzarət olunayan yerdə E. özünün həm elm üçün, həm də təcrübə üçün mənfi nəticələrini mütləq təzahür etdirəcəkdir.

Doktrinanın, platformanın, konsepsiyanın, nəzəriyyənin, proqramın doğruluğunu yoxlamaq sübut edir ki, öz məzmununa görə obyektiv olan həqiqət həmişə konkretdir, yəni şəraitdən, məkandan və zamandan asılıdır və şəraitin dəyişməsi ilə onun obyektiv məzmunu da dəyişir. Yəni həqiqət bir proses kimi çıxış edir

Stalinizm dövründə cəmiyyətdə elə mənəvi və siyasi şərait yaradılmışdı ki, "Sovet mentalitetinin" problemsizliyi marksizm-leninizm nəzəriyyəsinin stalinsayağı cəhkamlaşdırılmasından, mütləq həqiqət olması təsəvvürlərindən irəli gəlirdi. İnzibati amirlik sisteminin rəhbərliyi həqiqətən də ictimai elmlərin həqiqi inkişafı üçün konkret tapşırıq və vəzifələr qoymur, rəhbərliyin qəbul etdiyi "mədhiyyəli", tərifli qərarlarla kifayətlənirdi. Bundan əlavə, marksizm nəzəriyyəsindəki E. ölkəmizdə genetika , kibernetika və s. elmlərin inkişafı yolunda bir səddə çevrilmişdi.

"Sovet mentalitetinin" prinsipial problemsizliyinin ideoloji əsasları 1917-ci ildən qoyulmağa başlanmışdır. O vaxt elə başa düşülürdü ki, partiyanın əsas fəaliyyət proqramı axıra qədər "aydındır", fəaliyyət proqramı, məqsəd və vəzifələr müəyyənləşdirilmişdir. Lakin "planlaşdırılmış" işlərin heç biri kifayət qədər tənqidi, elmi təhlillə cəlb edilmədi, Bu isə ona gətirib çıxardı ki, hətta planlaşdırmaya adi bir şey, qarşıya məqsəd qoymaq kimi baxılırdı. Problemlər isə yalnız "aydın" və "şübhəsiz" məqsədlər (Hərbi kommunizm, zorla kollektivləşdirmə, bərabərləşdirmə, fiziki və zehni əmək arasındakı fərqlərin aradan qaldırılması və s.) yolunda vasitə, forma və metodlar kimi qiymətləndirilirdi.

E.- ın əksinə olaraq yaradıcı münasibət yalnız o vaxt mümkündür ki, cəmiyyətdə insanın, partiyanın, sinfin, dövlətin obyektiv sosial reallığa şüurlu, məqsədyönlü münasibətində rəhbər tutduğu dəyərlərə rasional yönümlənmiş şübhələrə imkan və yer verilsin. İnsanın sosial məişətində, həyatına bilavasi-

tə qayğı göstərilsin; elə məsələlər irəli sürülsün ki, orada təkcə vasitə, məqsəd və forma deyil, hər şeydən əvvəl, böyük məqsədli problemlərin həllinin ön plana çəkilməsinə təşəbbüs göstərilsin, orada insanların, partiyanın və ictimai münasibətlərin başqa subyektlərinin əsas məqsəd və fəaliyyət proqramları sərbəst tənqidi təhlilin mövzusuna çevrilə bilsin.

EKOLOGİYA - insan cəmiyyətinin ətraf təbii mühitlə qarşılıqlı əlaqəsi, bu prosesdə tarazlığı saxlamağın şərtləri haqqında elmlərin toplusu.

EKOLOGİYA SİYASƏTİ - ətraf təbii mühitin qorunmasına və sağlamlaşdırılmasına, təbii ehtiyatlardan səmərəli istifadə olunmasına və onların bərpasına, insanın normal həyat fəaliyyətini və ekoloji təhlükəsizliyini təmin edən sosial sahənin qorunub saxlanmasına və inkişafına yönəldilmiş siyasət.

Ekologiyanın öyrənilməsi ilə uzun müddət təbiət elmləri - ilk vaxtlar biologiya, sonra coğrafiya elmləri məşğul olmuşdur. Hazırda ekologiya getdikcə daha çox siyasətin maraq göstərdiyi sahəyə çevrilir. İnsan fəaliyyətinin müxtəlif formalarının təbiətə təsirindən doğan antropogen (yun. antreros - insan və genes - doğuran) amillərin əhəmiyyəti artır. İnsan ekologiyasının əsas vəzifəsi dəyişməkdə olan ətraf mühitdə insanın yerini müəyyənləşdirməkdir. İnsanın fəaliyyət dairəsi müntəzəm genişlənərək son vaxtlar, okeanın dərinliklərini və kosmik fəzanı da əhatə etməyə başlayır.

Təbiət və cəmiyyətin dialektik vəhdəti və mübarizəsində bunların qarşılıqlı əlaqəsi sosial ekologiyanın tədqiqat mövzusudur. Elmi-texniki inqilabın gedişində istehsal fəaliyyətinin iqtisadiyyata təsiri misilsiz dərəcədə güclənir (dünya okeanının, qurudakı sututarların atmosferinin tərkibi, planetin istilik rejimi, radioaktivlik fonu və s.). Bu isə çox vaxt ekoloji tarazlığın pozulmasına səbəb olur. Antropogen təsirlərin qlobal miqyasda iqtisadiyyata mənfi təsiri o qədər güclüdür ki, qlobal iqtisadi böhrana gətirib çıxarır. Təbii zəmində insan həyatına təhlükə yaradan və cəmiyyətin inkişafına mənfi təsir göstərən dəyişikliklər (genetik fondun dəyişməsi qorxusu, inkişafın energetika, mineral xammal və ərzaqla kifayət qədər təmin edilməsi, demoqrafik qeyri-tarazlıq, getdikcə artan zəhərli tullantıların ətraf mühiti çirkləndirməsi və s.) bu böhranın təzahürləridir.

Bütün bunlar isə ekoloji böhranı müasir sivilizasiyanı məhvə doğru sürükləyən ekoloji fəlakətə çevirmək qorxusu yaradır. Bəşəriyyət qarşısında ümumi vəzifə - güclənməkdə olan ekoloji böhrandan çıxmağın, ekoloji təhlükəsizliyin təmin edilməsi yollarını axtarmaq vəzifəsi durur.

Ekologiya siyasətinin mahiyyəti insanı qorumaqdır, onun sağ qalmasının ekoloji təlabindən (bu, bir çox, o cümlədən sosial-iqtisadi, siyasi qayğı və problemləri əhatə edir) ibarətdir.

E.s., istər regional, istərsə də beynəlxalq miqyasda ekoloji təhlükəsizliyin təminatı dünya siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Ekologiya sahəsində razılaşdırılmış beynəlxalq siyasətin işlənib hazırlanması zamanın tələbi olub, müasir dünyanın qarşılıqlı əlaqəsinə və qarşılıqlı asılılığına cavab verir. Ekoloji təhlükəsizliyi, bəşəriyyətin xilasını və tərəqqisini yalnız birgə ümumdünya E.s.-nin həyata keçirilməsi təmin edə bilər. Bu, ümumbəşəri maraqların və dəyərlərin ən mühüm təzahürlərindən biridir.

Beynəlxalq təhlükəsizliyin başqa sahələrində olduğu kimi, ekoloji təhlükəsizlik də ilk növbədə siyasi vasitələrlə təmin edilir. Dövlətlərarası ekoloji münasibətlərdə "mənafelərin tarazlığı" prinsipi xüsusi məna və əhəmiyyət kəsb edir. **E.s.** sahəsində dövlətlərin qarşılıqlı fəaliyyətini tənzimləyən beynəlxalq əməkdaşlıq, beynəlxalq hüquq normaları məsələlərində ekoloji münasibətlərin əhəmiyyəti artır.

Dünya okeanından və kosmik fəzadan istifadənin Antarktida, Qara dəniz, Aralıq dənizi və s. kimi nadir təbii zonaların qorunmasının beynəlxalq hüquqi rejiminin işlənib hazırlanması buna misal ola bilər.

Müasir şəraitdə təbiətin qorunmasına dair texnoloji əməkdaşlığın beynəlxalq mexanizmi, ekoloji baxımdan təmiz texnologiyaların beynəlxalq mübadiləsi olmadan sosial tərəqqi mümkün deyildir. Belə texnolo-

ji əməkdaşlığın inkişaf etməkdə olan ölkələr üçün xüsusi əhəmiyyəti var. Həmin ölkələr haqlı olaraq təbiəti mühafizə tədbirləri ilə və bunlardan ötrü əlavə vəsait ayrılmasının qarşılıqlı əlaqəsi məsələsini qaldırırlar. Planet xarakterli iqlim dəyişiklikləri, ozon qatının qorunması, ehtiyatlara və enerjiyə qənaəti təmin edən texnologiyaların hazırlanması, tullantısız istehsalat, torpaqdan istifadənin səmərəliliyi və s. kimi qlobal problemlərin həllində beynəlxalq əməkdaşlıq zəruridir.

Ətraf mühitin və ekoloji təhlükəsizliyin mühafizəsi, tərksilahın və hərbi təhlükənin məhdudlaşdırılmasının zəruriliyi ilə sıx bağlıdır. Müasir silahların tətbiqi, hazırkı şəraitdə müharibələrin aparılması çox ağır ekoloji nəticələrə səbəb olur.

Tərksilah və onunla bağlı hərbi istehsalın konversiyası ekoloji problemlərini həlli, E.s.-nin reallaşdırılması üçün əlavə maddi və intellektual ehtiyatların potensial mənbəyidir. "Ekoloji konversiya" ümummilli konversiya proqramının tərkib hissəsidir. Eyni zamanda tərksilaha dair əldə edilmiş sazişlərin həyata keçirilməsi müvafiq təbiəti mühafizə texnologiyalarının silahları ləüv etməyin ekoloji baxımdan təhlükəsiz üsullarının birgə işlənib hazırlanmasını tələb edir.

Ekoloji nəzarət, ekologiya sahəsində etimad tədbirlərinin genişləndirilməsi beynəlxalq ekoloji əməkdaşlığın inkişafında mühüm rol oynayır. Burada ətraf mühit üzərində müşahidənin qlobal sisteminin yaradılmasından söhbət gedir. Açıqlıq, tərəfdaşların üzərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirmələri təbiətin qorunmasında beynəlxalq əməkdaşlığın zəruri şərtidir.

Sağlam ətraf mühitə malik olmaq hüququ insanın yeni hüquqlarından biri, ekoloji etikanın və ekoloji mədəniyyətin əsasıdır. İnkişaf etmiş ölkələrdə mənfəətpərəst praqmatizm çox vaxt mənəvi inkişafı üstələyir ki, bu da insanın humanitar mahiyyətinin özünün itirilməsinə gətirib çıxara bilər. Çünki kortəbii inkişaf edən sivilizasiya özündən sonra "boş səhra qoyur".

Ona görə də təhsil və tərbiyənin ekologiyalaşdırılması, ekoloji təfəkkür və savadın formalaşdırılması, fəaliyyətin bütün sahələrində, ailədə, orta və ali məktəblərdə peşəkar ekoloji hazırlıq zəruridir. Cəmiyyətdə təbliğ olunan bütün ideal və dəyərlər ekoloji əxlaqın formalaşdırılmasında iştirak etməlidir.

Beynəlxalq **E.s.** sahəsində çoxtərəfli əməkdaşlıq əsasən **EMT** çərçivəsində aparılır. Dünya miqyasında təbiətin qorunması sahəsində əməkdaşlıq strategiyasının, insan və cəmiyyətin təbiətə münasibətinin uzunmüddətli və universal prinsiplərinin işlənib hazırlanması **BMT**-nin və onun təşkilatlarının fəaliyyətində üstün yer tutur. **BMT**-nin ətraf mühitə dair proqramı (YUNEP) ekoloji təhsil və ekologiya problemləri ilə məşğul olan beynəlxalq orqanlar sisteminin təkmilləşdirilməsi barədə tövsiyələr işləyib hazırlayır. Belə orqanlara misal olaraq Ümumdünya meteorologiya təşkilatını, Ümumdünya səhiyyə təşkilatını, Beynəlxalq əmək təşkilatını və s. göstərmək olar.

İctimai rəyin nəzərə alınması, bir sıra qeyri-hökumət təşkilatlarının (Roma klubu və s., ictimai ekologiya hərəkatları və partiyalarının ("yaşıllar", "mavilər hərəkatı" və s.) fəaliyyəti E.s.-nin hazırlanması və həyata keçirilməsində xüsusi əhəmiyyət kəsb edir.

İqtisadiyyatın ekologiyalaşdırılması Bazar iqtisadiyyatına keçid təbiətdən istifadənin idarə olunmasında, **E.s**-nin həyata keçirilməsində yeni iqtisadi vasitələrin formalaşmasında əsaslı dəyişikliklər aparılmasını tələb edir. Burada hasilat və emal sənayesinin nisbətində ikincinin xeyrinə dəyişiklik edilməsindən, maşınqayırmanın və informasiya texnologiyasının sürətlə inkişafından, bu zəmində müasir ekologiya texnikasının istehsalından, xammal və enerji ehtiyatlarının qiymətləri ilə dünya qiymətləri arasındakı fərqlərin azaldılmasından, təbiəti mühafizə qanunvericiliyinin pozulmasına görə cərimə tədbirlərinin görülməsindən və s. söhbət gedir. Eyni zamanda vergi sistemində də dəyişiklik aparılmalı, gəlirin ətraf mühitin qorunmasına xərclənən hissəsi vergidən azad edilməlidir. Ekologiya proqramlarının maliyyə və hüquqi təminatının, məqsədli maliyyələşdirmənin, səlahiyyətli nəzarətinin və ictimai nəzarətin

olmasının, bu proqramların həyata keçirilməsində aşkarlığın təmin edilməsinin böyük əhəmiyyəti var. Dövlətin gömrük siyasətində də təbiətdən istifadənin mənafeyi gözlənilməlidir.

EKSPANSİYA -hər hansı sahəyə fəal müdaxilə.

EKSPROPORSİYA (lat. ex-dən və rronris - xüsusi, şəxsi) - mülkiyyətin dövlət tərəfindən məcburi qaydada özgəninkiləşdirilməsi.

EKSTREMİZM (fr. exstremisme, lat. extremus - ifrat) - siyasətdə və ideyalarda ifrat baxışlara və hərəkətlərə tərafdar olmaq. **E.i** ən müxtəlif amillər sosial-iqtisadi böhranlar, əhalinin əsas hissəsinin yaşayış səviyyəsinin kəskin surətdə aşağı düşməsi, siyasi institutların və strukturların deformasiyası, ictimai inkişafın vaxtı çatmış məsələlərinin onların həll etməyə qadir olmaması, hakimiyyətin müxalifəti boğmasına imkan yaradan rejimlərin totalitar xarakteri, fərqli düşünənlərin təqib edilməsi, milli zülm, sosial və ya siyasi qrupların irəli sürdükləri vəzifərin həyata keçirilməsini sürətlədirmək cəhdləri, həmin qrupların liderlərinin siyasi ambisiyaları və.s doğurur.

Siyasi baxımdan E. təşəkül tapmış ictimai strukturlara və institutlara qarşı çıxır, onların sabitliyini pozmağa, öz məqsədlərinə çatmaq üçün onları zorakılıq metodları ilə laxlatmağa və devirməyə çalışır. Bu məqsədlə ekstremist təşkilatlar qızışdırıcı şüarlardan və çağırışlardan ,açıq demaqogiyadan istifadə edir, iğtişaşlara, tətillərə, vətəndaş itaətsizliyinə, terrorçuluq əməllərinə,partizan müharibəsi metodlarına təhrik edirlər. E.-in liderləri və onların tərafdarları qarşılıqlı güzəştlərə əsaslanan hər hansı danışıqları,sazişləri prinsip etibarilə rədd edir, "Hər şey və ya heç nə" şüarını rəhbər tuturlar.

İdeoloji baxımdan E. hər cür fikir müxtəlifliyini rədd edir, özünün siyasi, ideoloji, yaxud dini baxışlarını sərt şəkildə bərqərar etməyə,bunları öz rəqiblərinə nəyin bahasına olursa-olsun qəbul etdirməyə çalışır. tərafdarlarından isə bütün, hətta ən cəfəng əmr və təlimatlara da tabe olmağı və bunları sözsüz yerinə yetirməyi tələb edir. Ekstremistlər öz baxışlarını əsaslandırarkən insanların zəkasına deyil.

hisslərinə və xürafatçılığına üz tutur, bilikləri deyil, kütlənin bəsit şüuruna və instinktlərinə yönəldilən şüarları və çağırışları təbliğ edirlər. Ekstremist hərəkətlərin ifrat şəkildə ideologiyalaşdırılması E. tərafdarlarının xüsusi tipini yaradır. Öz-özünü qızışdırmağa,davranışı üzərində nəzarəti itirməyə meylli olan belə adamlar hər cür əməl törətməyə, cəmiyyətdə yaranmış normaları pozmağa hazır olurlar. Oxlokratiyaya (kütlənin hakimiyyəti) cəhd göstərmək ekstremistlər üçün səciyyəvi haldır. Yaranmış münaqişələrin demokratik metodlarla həllini rədd edən E. totalitarizmdən, rəhbərin şəxsiyyətinə pərəstişdən ayrılmazdır. E.-i,bir qayda olaraq, "sol" və "sağ"ekstremizmə ayırırlar. Sol ekstremistlər adətən marksizm-leninizm ideyalarına və digər sol baxışlara (anarxizm, sol radikalizm) müraciət edir, özlərini "proletariatın" işi, "əməkçi kütlələrin" işi uğrunda ən ardıcıl mübariz adlandırırlar. Onlar kapitalizmi sosial bərabərsizliyə,şəxsiyyəti əzdiyinə, istismara görə, sosializmi isə bürokratikləşdiyinə,"sinfi mübarizənin" prisiplərini unutduğuna görə tənqid edirlər (Almaniyada "Qırmızı ordu fraksiyası", İtaliyada "Qırmızı briqadalar", Peruda "Santendero luminoso", Kambocada polpotçular və b). Sağ ekstremistlər mənəviyyatın tənəzzülünə, narkomaniyaya, xudbinliyə, istehlakçılığa, "kütləvi mədəniyyətə", "qayda-qanunun" olmamasına, plutokratiyanın hökmranlığına görə burjua cəmiyyətinin eybəcərliklərini ən mühafizəkar mövqelərdən ifşa edirlər. Antikommunizm ekstremizmin hər iki cinahı üçün səciyyəvidir (Latın Amerikası ölkələrində "ölüm eskadronları", İtaliyada"İtaliya sosial hərəkatı", Almaniyada Respublika partiyası və Milli demokratik partiya, ABŞ-da müxtəlif sağ radikal və açıq faşist qrupları və partiyaları və s.)."Sol" ekstremist təşkilatların bir qismi gizli vəziyyətdədir, partizan müharibəsi aparır, terrorçuluq əməlləri törədir. Lakin ekstremist təşkilatların əksəriyyəti açıq fəaliyyət göstərir və hətta parlamentlərdə və yerli hakimiyyət orqanlarında nümayəndələri var. E.-in kütləvi bazasını xırda burjuaziya və ona yaxın təbəqələr,habelə mövcud qaydalardan nara-

zı qalan ziyalıların bir hissəsi, hərbçilərin, tələbələrin ayrı-ayrı qrupları, millətçi və dini hərəkatlar təşkil edir.

E.-in təzahürünün çoxlu formaları siyasi, millətçi, dini, ekoloji strukturlarının məhvinə və "sol", yaxud "sağ" məsləkli totalitar xarakterli diktatura qurulmasına yönəldilmişdir. "Öz millətinin" mənafeyinin, onun hüquq və maraqlarının, mədəniyyətinin və dilinin müdafiəsi mövqeyindən çıxış edən millətçi E. başqa milli və etnik qrupların eyni hüquqlarını rədd edir. Belə ekstremizm separatçılıqla üzvi şəkildə bağlı olub çoxmillətli dövlətlərin dağıdılmasına, yerli millətin hökmranlığının bərqərar edilməsinə yönəldilmişdir. O, millətlərarası münasibətləri kəskinləşdirir. **E.** xalqlar arasında düşmənçiliyin və münaqişələrin mənbəyidir.

Bir sıra regionlarda və ölkələrdə yayılmış dini **E.** müxtəlif dinlərin nümayəndələrinə qarşı dözümsüzlük,yaxud eyni din daxilində sərt qarşıdurma formasında təzahür edir. Dini təşkilatların dünyəvi dövlətə qarşı mübarizəsində və ya bir dinin nümayəndələrinin hakimiyyəti-

ni bərqərar etmək uğrunda mübarizədə də çox vaxt millətçi E.-dən istifadə olunur.

E.-in yeni növlərindən biri ekoloji ekstremizmdir. O, həm ayrı-ayrı regionlarda, həm də qlobal miqyasda ekoloji problemlərin olduqca kəskinləşməsi, ətraf mühitin çirklənməsi ilə əlaqədar yaranmışdır. Təbiətin qorunması üçün səmərəli siyasət yeridilməsi uğrunda mübarizə aparan hərəkatlarla ("yaşıllar"və s.) yanaşı, elə qruplar və hərəkatlar da meydana gəlmişdir ki, onlar, ümumiyyətlə, elmi-texniki tərəqqinin əleyhinə çıxır, ekoloji baxımdan zərərli istehsalın dayandırılmasına və ləğvinə yönəldilmiş tədbirlər təşkil edir, öz hərəkətləri ilə tez-tez ictimai qayda -qanuna təhlükə törədirlər.

Sovet İttifaqı dağıldıqdan sonra onun ərazisində də E. geniş yayılmışdır. Ermənistanın millətçi ekstremist dairələrinin Azərbaycanın Yuxarı Qarabağ bölgəsini Ermənistana birləşdirmək məqsədilə başladıqları müharibə də bunun təzahürlərindən biridir.

E.-in hər cür forması xalqlara yalnız bəla, müsibət gətirir, onları prinsipsiz siyasətbazların girovuna çevirir.

EKOMONİZM- (yun.oikumene - kainat, insanın yaşayış aləmi), e k u m e n h ə r ə k a t ı -dini konfessiyaların birləşdirilməsi uğrunda hərəkat. Üç istiqaməti əhatə edir: 1) xristian kilsələrin birləşdirilməsi uğrunda hərəkat; 2) qeyri-xristian dinlərinin inteqrasiya prosesləri; 3) xristian ekumen təşkilatları ilə razılaşdırılmış fəaliyyəti. Sonuncu istiqamətdə Buddistləri ümumdünya qardaşlığı, Ümumdünya islam konqresi, Qahirədəki Əl-Əzhər təhsil müəssisələri kompleksi nəzdindəki İslamşünaslıq akademiyası və s. fərqlənir. Xristianlıqda ekumenizm proseslərinin əlaqələndiricisi Ümumdünya kilsələr Şurasıdır (ÜKŞ). Protestant və pravoslav kilsələrinin əksəriyyəti, yunan kilsəsi və s. ona daxildir.

Müasir ekumenistlər konkret sosial-siyasi proqramları qiymətləndirərkən,bir qayda olaraq, mərkəzçi və ya sağ mərkəzçi mövqeyə üstünlük verirlər. Bu isə onların yerlərdəki xristian icmalarında təmsil olunmuş sosial qüvvələrin geniş dairəsinə maksimum arxalanmaq səyləri ilə bağlıdır.

E.-in sülhyaratma və sosial-siyasi fəaliyyətinin istiqamətləri həm dünya inkişafının qlobal xüsusiyyətləri, həm də ayrı-ayrı ölkələrdə baş verən sosial-siyasi və sosial-mədəni proseslərlə bağlı beynəlxalq, dini və məhəlli proseslərin inkişafından kilsənin narahatlıq keçirməsini əks etdirir. Bu baxımdan da ekumenistlərin dünyəvi siyasətçilər və ictimai xadimlərlə,qeyri-xristian dinlərinin nümayəndələri ilə diskussiyaları, məsləhətləşmələri və s. getdikcə müntəzəm xarakter alır.

EGİDA (yunanca aidis (aigidos)-qalxan -politologiyada: himayədarlıq,-müdafiə.

ELİTA (lat. eligere, fr.elite - ən yaxşı, seçmə, seçilmiş). XVII əsrdən etibarən "E". termini ən yüksək keyfiyyətli malları bildirmək üçün işlədilir, XIX əsrdən isə sosial iyerarxiya sistemində yüksək sosial qruplara da aid edilirdi. Sonrakı yüzillikdə sosiologiya və politologiyada yayılmışdır. Termin genetikada, toxumçuluqda və heyvandarlıqda da işlənir. **E.** idarəetmə, yaradıcılıq vəzifələrini yerinə yetirən ali, imtiyazlı təbəqə-

nin,yaxud təbəqələrin və əhalinin qalan kütləsinin (qeyri-yaradıcı, reproduktiv vəzifələr yerinə yetirən) istənilən sosial strukturun zəruri tərkib hissələri olduğunu iddia edən **E.** nəzəriyyələrinin əsas anlayışıdır. Müasir **E** .nəzəriyyələrinin sələfləri Platon, Karleyl, Nitsşe olmuşlar. XX əsrin əvvəllərində Pareto, Moska, Mixels bu nəzəriyyələri bitkin baxışlar sistemi kimi formalaşdırmışlar. Qərb sosiologiyası və politologiyasında **"E".** anlayışı birmənalı deyildir. Ondan geniş mənada istifadə edilir: fəaliyyətləri sahəsində ən yüksək indeks almış adamları bildirmək üçün; siyasi baxımdan ən fəal, hakimiyyətə meyl edən adamları, cəmiyyətin azlıq təşkil edən mütəşəkkil hissəsini, hakim sinfi bildirmək üçün; cəmiyyətdə daha böyük nüfuza, statusa, sərvətə malik olan adamları bildirmək üçün; xarizmaya malik olan,"Tanrıdan ilham alan" adamları ; cəmiyyətin qeyri-yaradıcı əksəriyyətinin əksinə olaraq, yaradıcı azlığını bildirmək üçün; cəmiyyətdə daha mühüm vəzifələri yerinə yetirən, daha çox təsiri olan adamları bildirmək üçün; cəmiyyətin siyasi, iqtisadi, mədəni həyatında aparıcı mövqe tutan adamlardan ibarət nisbətən kiçik qrupları bildirmək üçün (siyasi E., iqtisadi E., mədəni E.); bürokratik idarəetmə sistemindəki ən səriştəli mütəxəsisləri, menecerləri və yüksək qulluqçuları bildirmək üçün; istənilən sosial qrupun - peşəkar, etnik, məhəlli qrupların aparıcı nümayəndələrini (idmançılar, təyyarəçilər,hətta oğrular E.-sı və s.),bildirmək üçün. İstənilən halda elita-kütlə haçalanması sosial sturukturun təhlilində başlıca metodoloji prinsipdir.

Politoloqların bəziləri **"E".** terminini elmi saymırlar. Və fikirlərini belə əsaslandırırlar ki, əgər termin hakim sinfi bildirirsə, heç bir yeni məzmun kəsb etmir;əgər onun köməyi ilə cəmiyyətin sinfi təbəqələşməsi səthi elita-kütlə haçalanması ilə əvəzlənirsə,doğru deyil, çünki hakim yuxarı təbəqənin cəmiyyətin sinfi strukturu ilə, sosial-siyasi sistemin mahiyyəti ilə əlaqəsini inkar edir. Siyasi plüralizm nəzəriyyəsinin bəzi tərəfdarları bu terminin əleyhinə çıxırlar. Onlar E.anlayışının az mütəşəkkil cəmiyyətlər barəsində işlədilməsini mümkün sayır, "sənaye", xüsusən də "postsənaye", cəmiyyətinin siyasi sisteminin təhlili üçün məqbul hesab etmirlər. Amerikanın sol radikal sosioloqu R. Millsin xüsusi mövqeyini xatırladaq: Qərb sosioloqları onu **E.**-ya institusional münasibətin tərəfdarı sayırlar və bunun müəyyən qədər əsası var. Lakin Millsin Amerika cəmiyyətini **E.**-ya və kütləyə ayırması əslində dövlət-inhisarçı kapitalizm sistemini ehtirasla ifşa etmək şəklini alır. Ona görə də elita - kütlə sxemini qəbul edən tədqiqatçıların "elitarçı" terminini işlətmələrinin düzgünlüyü sual doğurur. Bu haçalanmaya təhlili və normativ münasibətləri bir-birindən fərqləndirmək və "elitarçı" terminini yalnız o tədqiqatçılara aid etmək lazımdır ki, onlar öz idealını və normasını elitar ictimai strukturda görürlər. Mills isə Amerika cəmiyyətinin elitarlığını qəbul etməklə yanaşı, Qərb demokratiyasının məhdudluğunu ifşa edir. Onun idealı antielitardır.

II dünya müharibəsinədək **E.** nəzəriyyələri İtaliya, Almaniya və Fransada, müharibədən sonra isə ABŞ-da çox yayılmışdır. Bu nəzəriyyələrin əsas variantları bunlardır; "dəyərlər" (Orteqa), "Makiavelliçi" (Bernhem), struktur-funksional nəzəriyyə (Keller). **E.** nəzəriyyələrinin ümumi cəhətləri aşağıdakılardır: tarixi tərəqqinin inkarı (tarix E.-nın müəyyən tiplərinin hökmranlığı ilə səciyələnən sosial tsikillərin məcmusu kimi götürülür); xalqın suverenliyi ideyasının romantiklərin utopik əfsanəsi kimi tənqid edilməsi, bərabərsizliyin ictimai həyatın təbii əsası sayılması; E.-nın devrilməsinə yönədilən sosial inqilablar həmin inqilabda iştirak edən kütlələrin gözlədiklərinə əks olan nəticələrə - bir E.-nın başqa, daha amansız **E.** ilə əvəzlənməsinə doğru aparır, müstəbid və totalitar rejimlərə yol açır. Elitaçılığın başlanğıc müddəası siyasi münasibətləri mütləqləşdirməkdir. Siyasi hakimiyyətə elə sosial münasibətlərin əsası kimi baxılır ki, burada hökmranlıq və tabeçilik münasibətləri daha mühümdür.

Elitaçılığın sosial kökləri antaqonist cəmiyyətin istismarçı azlığa və istismar olunan çoxluğa parçalanmasındadır. Elitarçılar tarixi inkişafın cəmiyy-

ətdə məhsuldar qüvvələrin kifayət qədər inkişaf etməməsi ilə bağlı müyyən mərhələsinə ümumi qanun,"insan təbiətinin" və mürəkkəb istehsalın texnoloji tələbləri kimi baxırlar.

ELMİ SİYASƏT - XX əsrdə meydana gəlmiş siyasət konsepsiyası. Lakin bu konsepsiya uzun inkişaf yolu keçmiş, siyasət elminin və siyasi biliklərin bütün inkişaf mərhələlərində formalaşmış və hazırlanmışdır. Eyni zamanda, son yüz ildə cəmiyyətin inkişafı və onun dəyişdirilməsi haqqındakı saysız-hesabsız layihələrə və mülahizələrə; o cümlədən vətəndaş cəmiyyəti, hüquqi dövlət, hakimiyyətin bölüşdürülməsi, insan hüquqları, demokratiya və s. haqqında irəli sürülmüş layihə və ideyalara əsaslanır. Bəşəriyyətin bu sahədə əldə etdiyi nailiyyətlər gələcəkdə siyasətin "elmiləşdiriləcəyinə" inamı artırır. Lakin bu prosesin prinsipial problemləri göz qabağındadır: bu sahədə görüləcək işlər çoxdur. Siyasi biliklərin funksiyalarının həyata keçirilməsi və deməli onun tədqiqat və ictimai vəzifələrinin həlli, elmlə siyasətin münasibətlərini o qədər bir-birinə yaxınlaşdırmalı idi ki, nəhayət, hakimiyyətin filosoflar tərəfindən idarə olunmasını arzu edən Platondan başlayaraq, yaxın vaxtlara kimi unudulmamış siyasi zəkaların can atdıqları bədnam "elmi siyasət" mümkün olsun. Elm və siyasət, həm keçmişdə, həm də bizim yaşadığımız müasir zamanədə həmişə bir-birinə qarşılıqlı təsirdə və əlaqədə olmuşlar: siyasət özü bir elmdir, hakimiyyətdir. Tarixən, həmişə dövlət başçısının, sərkərdənin yanında elm adamı, alimlər və filosoflar olmuşdur, onların məsləhətçiləri və həmsöhbətləri həlledici rol oynamışdır. Siyasət və elm inkişaf etdikcə siyasi mərkəzlər beyin mərkəzlərini və partiyaları, hökmdarların, dövlət idarələrinin xüsusi şuralarını öz ətrafında birləşdirmişdir.

Müasir zamanda dövlətin və dövlətlərarası münasibətlərin get-gedə mürəkkəbləşməsi siyasətin və elmin ittifaqının daima möhkəmlənməsini tələb edir və bu, ittifaqın məsuliyyətini artırır.

Təcrübə ilə nəzəriyyəni heç vaxt eyniləşdirmək mümkün olmadığı kimi , elmlə siyasət də heç vaxt bir-birinə bənzəməmişdir və onların arasında bərabərlik işarəsi qoymaq qeyri mümkündür. Onların arasında qarşılıqlı anlaşma, bir-birini başa düşmə, dərk etmə, yaxınlaşma olmalıdır. Bunların arasındakı münasibətlər assimetrikdir: elm siyasəti başa düşür, ona kömək edir və onunla qaynayıb-qarışır, lakin siyasətlə məşğul olmur. Lakin alimin siyasətə təsiretmə həddi təkcə funksional məhdudluq kimi deyil, onun elmdəki hörməti və nüfuzu, elmdə siyasəti dərk etməsi, başa düşməsi, siyasətçinin elmin tövsiyələrinə qulaq asmasından az əhəmiyyət kəsb etmir. Siyasətçi alim nəzəriyyəçi kimi çıxış edirsə siyasətçiliyini itirir, siyasətçi kimi hərəkət etdikdə isə elmlə əlaqəsi qırılır. Tarixdən kifayət qədər misallar və nümunələr göstərmək olar ki, bu iki funksiyanı bir şəxsdə birləşdirmək təşəbbüsü də tarixə məlumdur. Heç şübhəsiz ki, Lenin böyük siyasətçi alim və bacarıqlı, praktik siyasətçi olub. Siyasətin təcrübi məsələlərini həll edərkən o bir qayda olaraq, təcrübəni mükəmməl bilən bir siyasətçi kimi fəaliyyət göstərmişdir. Eyni zamanda o, strateji hesablamalarda öz opponentlərinin etirazlarını təkzib etməkdə heç bir çətinlik çəkmirdi: doğrudan da onlar, siyasətin təcrübi bir elm sahəsi olduğunu heç ağıllarına belə gətirmirdilər. Lakin Lenin, heç olmasa, təcrübə ilə nəzəriyyənin ziddiyyətli olduğunu, birbirilə eyni olmadığını başa düşürdü. Bir çox obyektiv səbəblər göstərmək olar ki, onlar elmi biliklərin tam şəkildə siyasətə qovuşmasına imkan vermir.

Siyasət ilə elm arasındakı münasibətləri təyin edən və fərqləndirən cəhətlər onların spesifik xüsusiyyətlərindən irəli gəlir. Belə fərqlər təcrübə ilə nəzəriyyə arasında da mövcuddur. Siyasətdə və elmdə mövcud rasional və irrasional keyfiyyətlər onları bir-birilə eyniləşdirməyə imkan vermir, nə qədər qarşılıqlı əlaqədə olsalar da, onların metodları, vasitələri və funksiyaları tamamilə bir-birindən fərqlənir.

Həm elm, həm də siyasət həqiqəti üzə çıxarır, lakin eyni həqiqəti deyil, siyasi gerçəkliyin müxtəlif xarakterli həqiqətlərini üzə çıxarırlar. Həm siyasət, həm elmi siyasi hərəkətin, mübarizənin, xarakterlərin, ehtirasların, bir anın və ümumiləşmiş prinsiplərin, sistemlərin və struktur-

ların həqiqətlərini aşkar edir. Siyasətin və elmin qarşılıqlı təsiri, həmin həqiqətlərin birləşməsində, razılaşdırılmasında özlərini büruzə verir. Bu zaman siyasət və elmi nəzəriyyə bir-birinə qarşı durmurlar. Rasional və irrasional keyfiyyətlər onların hər ikisi üçün xarakterikdir. Lakin siyasət üçün irrasional cəhət daha çox xasdır. Siyasətçi, xüsusən də elmi biliklərdən uzaq olan, intellektsiz şəxs, həmişə özünü belə bir səhv fikirlə aldadır ki, guya o, elmdən daha güclü, bir silah əldə etmişdir ki, bu da onun həmfikirlərinin, partiyasının və özünün şəxsi siyasi ustalığı, bacarığı və "qabiliyyətidir".

Lakin elmlə siyasətin arasında mövcud olan münasibətlərdəki uçurumların nə ilə nəticələndiyi məlumdur: XX əsrdə siyasət sahəsində bir peşəkar siyasətçi kimi fəaliyyət göstərmək üçün yüksək və daim artan bilik və səriştə tələb olunur (eyni zamanda siyasi sənət problemlərini, intuitiv qərar çıxarmaq bacarığı və siyasi ənənələrin digər atributlarını da yaddan çıxarmaq olmaz). Siyasi aksiyalar-inqilablar, islahatlar, hər cür yenidənqurmalar hər şeydən əvvəl, müvafiq miqyasda qabaqcadan hazırlıq tədbirləri görmək, köklü-əsaslı siyasi konsepsiyalar hazırlamağı, əvvəlcədən dərindən və ətraflı götürqoy etməyi tələb edir. Belə olmadıqda çox acınacaqlı siyasi nəticələrlə rastlaşırsan. İmprovizasiyalar məcburi edilir, bu, siyasətin əsas xüsusiyyətidir. Lakin bununla belə onlar tamamilə sərbəst, irrasional və bir-birindən əlaqəsiz formada olmamalıdır. Bunların ən bariz nümunəsi kimi - SSRİ-də 80-ci illərdə başlanmış yenidənqurma "çevrilişini" göstərmək olar.

Heç bir yeniləşdirmə konsepsiyası olmadan, kortəbii, düşünülmüş siyasi proqramı hazırlanmadan başlanmış və uğursuzluqlarla qarşılaşan tarixi "inqilab"-iqtisadi, milli, geosiyasi, mədəni, mənəvi, bir sözlə, ictimai həyatın bütün sahələrində parçalanma və dağılma ilə nəticələndi.

Buna görə də təcrübəli siyasətçi -praktiklər, hər hansı bir siyasi vəzifəni həyata keçirməyə başlamazdan əvvəl, tarixin inkişaf problemlərinə və əldə olunmuş ənənələrə dönə-dönə

müraciət edir, onları ətraflı şəkildə öyrənir, tarixi hadisələrin həllində, xüsusən də böhranlı vəziyyətdə siyasətin və siyasi biliklərin rolunu ön plana çəkir.

EMANSİPASİYA (lat. *emancipatio*) - hər bir şəxsiyyətin, yaxud sosial qrupun müstəqillik və hüquq bərabərliyi əldə etməsi.

EMBARQO /isp.embargo-qadağanetmə/-beynəlxalq hüquq termini. Əvvəllər dövlət hakimiyyətinin öz ölkəsinin portundan istər özünün, istərsə də *ligər ölkənin gəmisinin* çıxmasını qadağan etməsi mənasında işlədilirdi; indi ölkəyə mal və ya valyuta gətirilməsinin, yaxud ölkədən aparılmasının qadağan edilməsi mənasında işlədilir. E. istər dinc və istərsə də müharibə dövründə tətbiq oluna bilər. Müharibə dövründə E.əslində iqtisadi blokada formasında olur. Dinc dövrdə E. başqa ölkəyə təsir tədbiri,iqtisadi və maliyyə təzyiqi vasitəsidir. BMT nizamnaməsi öz hərəkətləri ilə beynəlxalq təhlükəsizliyə qorxu yaradan dövlətə qarşı cəza tədbiri kimi E.-dən istifadə edir.

ENSİKLİKA -(lat.encuclia,yun.enkuklios-dairəvi, hamı üçün ümumi)-ictimai həyatın prinsipial məsələləri barədə Roma papasının bütün katoliklərə ünvanlanmış müraciəti. Mətni, bir qayda olaraq, latın dilində tərtib edilən ilk iki sözünə görə E. adlanır.

ESKEYPİZM (ing. escare-qaçmaq, xilas olmaq) - şəxsiyyətin, yaxud sosial qrupun bir hissəsinin gerçəkliyin kəskin problemlərindən uzaqlaşaraq yalançı fəaliyyət, yaxud sosial xülyalar aləminə çəkilməsi.

ETATİZASİYA (fr. etat-dövlət) - Bax; **DÖVLƏTLƏŞDİRMƏ**.

ETATİZM (fr. etat-dövlət sözündən) - dövlətçilik cəmiyyətin iqtisadi, sosial, mədəni həyatında, elmi və digər fəaliyyət sahələrində dövlətin təzyiqi E. cəmiyyətin siyasiləşməsinin təzahürlərindən biridir. Bu halda siyasət iqtisadiyyatla və cəmiyyətin həyat fəaliyyətini təşkil edən digər ictimai sistemlərlə (hüquqi, elmi, mədəni, və s.) səmərəli qarşılıqlı əlaqələrlə mövcud hədləri aşır (bax; **SİYASİ MÜNASİBƏTLƏR**), bütün sahələrdə onların fəaliyyətini müəyyənləşdirməyə çalışır, beləliklə də həmin fəaliyyəti bu-

xovlayır və ləngidir (ətraflı məlumat üçün bax; **DÖVLƏTLƏŞDİRMƏ**).

ETİKA (yun.ethika, ethos-adət, xasiyyət) - Bax; **SİYASİ ETİKA.**

ETNOGENEZİN PARTLAYIŞI – passionar təkanların nəticəsidir.Bu da öz növbəsində Yer səthinin müəyyən ərazisinin nizamlanması nəticəsində baş verir, yəni passinarlıq xarici amillərin təsiri və onun geniş verilməsi ilə əlaqədardır.

Superetnoslar ya simbioz (mehriban qonşuluq). Ya kseniya (könüllü birləşmə), ya da ximmera (hərbi yolla birləşdirmə) yolu ilə subetnosların birləşməsidir.

XIX əsr ərazilərin ekspansiyası, iri müstəmləkə dövlətlərinin yaranması, XX əsr düşmən ideologiyalarının biri-birilə mübarizəsi dövrü olmuşdur. XXI əsr tarixə milli etnik və demoqrafik ziddiyyətlərin kəskinləşməsi ilə daxil olmuşdur. Dünyanın müxtəlif guşələrində "milli partlayışlar" baş vermiş, daha mütəşəkkil xalqlar onlara nisbətən zəiflik göstərən millət və xalqlara qarşı ərazi iddiaları qaldıraraq onlarla "haqq-hesab çəkməyi" qarşılarına məqsəd qoymuşlar.

Etnodemoqrafik ekspansiya hərəkatı daha məhsuldar millətlərin öz zəif qonşularını sıxışdırmaq yolu ilə onların torpaqlarını tutmaq hesabına öz ərazilərini genişləndirməyə və daha geniş ərazilərə sahib olmağa gətirib çıxarmışlar. Bəzi Avropa alimləri, məs., Renan bu xalqların ekspansiyasına haqq qazandıraraq onu xalqların instinktiv, təbii xüsusiyyəti elan etmişlər. Ərazi və təbii ehtiyatlar uğrunda aparılan bu mübarizə qanlı toqquşmalarla nəticələnir, xalqlara olmazın müsibətlər gətirir. Kökündə iqtisadi və siyasi maraqlar dayanan bu hərəkat təbii ki, uzunmüddətli sağalmaz münaqişələrlə müşayət olunur. geopolitikada ənənəvi ekspansiyalar yeni ərazilərin ələ keçirilməsi və orada hərbi-siyasi nəzarətin həyata keçirilməsi kimi başa düşülürdü. İndi də bu anlama metodu öz qüvəsini saxlayır İngiltərənin Folklend (Malvina) adaları üstündə Argentinaya qarşı müharibəsini yada salmaq problemin köhnə ənənəvi anlayışı ilə yenisinin arasında çox

incə bir varisliyin olduğunu aşkar etməyə imkan verir. Yəni bu mübarizənin kökündə ənənəvi "yaşayış uğrunda mübarizə" durmaqdadır Antarktidanın sərvətlərinin bölünməsi uğrunda iri dünya dövlətləri arasında olan narazılıqları buna misal göstərmək olar.

Lakin bugünükü ekspansiyaların məzmunu bir qədər dəyişmişdir. İnformasiya, dini, tarixi-mədəni, iqtisadivə siyasi amillərin hamısı səfərbərliyə alınmışdır. Bu yolda hətta beynəlxalq miqyasda müəyən sanksiyaların və iri dövlətlərin qarantlarının alınması da bu vasitələrə qoşulmuşdur. Bir sözlə, indiki ekspansiyaları əvvəlkilərdən fərqləndirən bir sıra yeni keyfiyyətlər yaranmışdır:

1) əvvəllər ekspansiyalar mərhələli şəkildə həyata keçirilirdi, indi onlar birnəfəsə, hərtərəfli və çoxşaxəli şəkildə yerinə yetirilir;

2) indiki ekspansiyalar çox vaxt müharibə vasitəsilə deyil, dinc yolla – birinin digərinə nüfuz etməsi ilə baş verir;

3) əvvəllər ekspansiyaları güclü bir dövlət, yaxud dövlətlər qrupu həyata keçirirdisə, indi onu iqtisadi və iqtisadi-siyasi qruplaşmalar həyata keçirirlər (məsələn, Dağlıq Qarabağın işğalında Rusiyanın hərbi-sənaye kompleksinin rolu həlledici olmuşdur);

4) ekspansiyanı həyata keçirən güclü ölkələr öz maraqları xeyrinə qarşıdakı tərəfdaşına incə yollarla "qarşlıqlı güzəştlərə" getməyə vadar edir;

5) getdikcə artan "qarşılıqlı əməkdaşlıq", "bərabərhüquqlu tərəfdaşlıq" hərəkatına BMT, Avropa Şurası, MDB kimi beynəlxalq təşkilatlar da qoşulur;

6) Beynəlxalq miqyasda hər hansı bir ölkəni ram etmək üçün onun milli azadlığının və azsaylı xalqlarının elitar qüvvələrindən, ölkə iqtidarına təsir etmək üçün istifadə olunur və ya onlar bu ölkələrdə iş başına gətirilir. Bu baş tutmadıqda isə həmin ölkəni bu xalqların separatizm hərəkatı ilə hədələyir və yaxud onu həyata keçirir.

Bütün yuxarıda deyilənlərdən belə nəticəə gəlmək olar ki, müasir geopolitik maraqlar daha tez – tez milli mənafelərlə uyğunlaşdırılır ki, bu da milli-etnik proseslərdə münaqişəli və-

ziyətlərin yaranması və inkişafı ilə nəticələnir.

ETNOS – ümumi bir dilə əsaslanan və eyni bir mədəniyyətə sahib olan insan birliyidir; **E.** - bir-birinə oxşayan insanların sabit birliyidir; **e.** - eyni cür düşünən insanların birliyidir; etnos - sosial kateqoriyadır; **e.** - təbiətin övladıdır; **e.**– mənşə ümumiliyinə əsaslanan kollektivdir; **e.** – biosfera ilə sosiosferanın sərhəddində olan bir birlikdir; **e.** - yer üzərində biosferi tənzimləmək üçün təyinatlanmış xüsusi bir birlikdir; **e.** -- hər şeydən əvvəl müəyyən bir kökə və nəslə malik insan birliyidir və s.

Etnologiyanın başlıca anlayışı **e**-dur. E. dedikdə onu digər və oxşar etnik qurumlardan fərqləndirən, müəyyən ərazidə formalaşan adamların sabit birliyi başa düşülür. Bu birlik, adətən vahid dilə, mədəniyyət və psixikanın bəzi ümumi xüsusiyyətlərinə, ümumi idraka, daha dəqiq desək, özünün birlik şüuruna malik olan birlikdir. Bəzi alimlərə görə **e.**-un yuxarıda sadalanan əlamətlərinin heç biri həlledici hesab oluna bilməz. Bir halda həledici rolu ərazi oynayırsa, digərində dil, üçüncüsündə mədəniyyət həlledici rola malik olur. Əslində məsələn almanlar və avstriyalılar, ingilislər və avstraliyalılar portuqaliyalılar və braziliyalılar eyni dildə danışırlar. Lakin müxtəlif **e.**-a mənsubdurlar. İsveçrəlilər isə 4 dildə danışsalar da bir **e.**-su təşkil edirlər. Digər qrup tədqiqatçılara görə həlledici əlamət özünüdərkdir. Burada həlledici etnosun adı, məsələn "türk", "rus", "alman", "çin" və s.- dir.

E.-ların əmələ gəlməsi və və inkişafı etnogenez nəzəriyyəsi adlanır. Keçmiş sovet elmində xalqları (**e.**-ları) aşağıdakı mərhələli bölgü ilə ayırırdılar. Bunlar, qəbilə, tayfa, xalq və millət idi. Bu zaman izahat verirdilər ki, insan ictimai biliklərin əsas formalarından biri kimi qəbilə və tayfa ittifaqları ibtidai-icma cəmiyyətinə aid olmuşdur. Xalqı adətən quldarlıq və feodal formasiyaları ilə əlaqələndirirdilər. Etnik birliyin ali forması kimi millət kapitalist cəmiyyətinin inkişafı ilə və sonralar isə sosialist ictimai münasibətləri ilə bağlanmışlar. Elə buradan burjua millətləri və sosialist millətləri anlayışları yaranıb formalaşmışdır. Son dövrlərdə tədqiqatçılar formasiya yanaşmasını təzədən dəyərləndirməyə cəhd etməkdədir. Həmin yanaşma isə ictimai-iqtisadi formasiyaların tarixi varisliyi nəzəriyyəsinə əsaslanırdı. Alimlərin əksəriyyəti **e.** –su tarixi-sosial, tarixi-iqtisadi hadisə kimi başa düşürlər. Digər qrupun fikrincə isə **e.**-su bir növ bio-geo-tarixi fenomen hesab etmək olar.

Ə

ƏXLAQ VƏ SİYASƏT - Siyasətin cəmiyyətdə qüvvədə olan əxlaq normalarına münasibətlərinin başlıcasından və daha mürəkkəblərindən biri (bax: **SİYASİ ETİKA**)

Həm əxlaq, həm də siyasət cəmiyyətin təşkilati, tənzimləyici, nəzarət sahələridir, lakin bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir.

Digər formalardan fərqli olaraq əxlaqın gözə görünən formaları yoxdur, o, hakimiyyətin idaretmə aparatlarında, institutlarında maddiləşmir, idarəetmə mərkəzlərindən və rabitə vasitələrindən məhrumdur. Əxlaq yalnız dildə və nitqdə, lakin ilk növbədə digər ictimai hadisələrdə inikasda, onların əlamətləri və xüsusiyyətlərində obyektivləşir. Bununla belə, o, hər yerdə mövcuddur, cəmiyyəti idarə edən mahiyyətləri siyasətin bütün fenomenlərini əhatə edir.

Əxlaqın bu xüsusiyyəti onu siyasi etikadan xeyli fərqləndirir. Əgər əxlaq siyasi fəaliyyəti bu və ya başqa şəkildə səciyyələndirirsə, amma özü ondan kənarda qalaraq onunla bu və ya digər münasibətə girirsə, etika siyasətin özündə olur və onu istiqamətləndirən başlanğıclardan biri kimi ondan ayrılmazdır. Ona görə də istənilən siyasi fəlsəfə və siyasi sahəyə aid olan normativ nəzəriyyə siyasi etikanın və əxlaq haqqında təlimlərin qarşıya qoyduğu suallara cavab tapmaqla bu və ya başqa şəkildə bağlıdır. Siyasi və etik təlimlərin tarixi əxlaq və siyasət arasında qarşılıqlı əlaqənin üç əsas variantını fərqləndirmək imkanı verir: 1) siyasətin əxlaqa tamamilə tabe olması; 2) siyasət və əxlaq arasında əlaqənin tam kəsilməsi; 3) siyasət və əxlaqın gərgin qarşılıqlı əlaqəsini davam etdirməklə onların tam uyğunluğunu saxlamaq cəhdi. Bu variantlardan hər birinin öz dəlili var. Əvvəla, bu, əxlaqsızlığa və irrasionalizmə ikili şübhə edilməsidir. Məsələ siyasət və əxlaqın münasibətlərinin bütün cəhətlərini aydınlaşdırmaqdan ibarətdir ki, onların inteqrasiyası qarşılıqlı uyğunsuzluqları kənar etsin. İkincisi, siyasətin ifrat şəkildə əxlaqiləşdirilməsi mümkündür. Bu dəlilə görə fərdi şüurun əxlaqi prinsiplərindən doğan şübhə və düşüncələrin həllində siyasətə daha çox hüquq verilir. Üçüncüsü, əxlaqın siyasiləşdirilməsi və bununla əlaqədar çox vaxt siyasi cinayətlərə bəraət qazandırma cəhdləridir.

Ənənəvi olaraq əxlaqiliyin mərkəzi meyarlarından biri mühakimələrin və hərəkətlərin ədalətliliyi sayılır.

Yeni dövrün başlanğıcında əxlaq ilə siyasət arasındakı münasibətlərdə müəyyən uzaqlaşma baş verir. Bunu dövlət mənfəəti anlayışı və Makiavellinin adı ilə bağlayırlar, hərçənd o, bu anlayışı işlətməmişdir. Dövlət mənfəəti ümumini əhatə edir. Xüsusi isə bütünlüklə yalnız qeyri-rəsmi mənafeyə münəsir olunur. Ümumi müxtəlif cür şərh edilir.

Dövlət mənfəəti fikrini qəbul edən alman idealizmi mənəviyyat obrazında dövləti obyektivləşdirir. Kantın əksinə olaraq Hegel yazırdı: "Əxlaq və siyasətin ziddiyyəti bu yaxınlaradək geniş müzakirə olunur və belə bir tələb formalaşırdı ki, siyasət əxlaqa uyğun gəlməlidir... Siyasətin zahirən həmişə əxlaqa zidd vəziyyətdə olmasını nəzərdə tutan zahiri ədalətsizlik haqqındakı fikir əxlaqilik barədə, dövlətin mahiyyəti və əxlaqi baxışlara onun münasibəti haqqında səthi təsəvvürə əsaslanır".

Kant yazırdı ki, kim məqsədi arzusundadırsa, o, buna çatmaq üçün ixtiyarında olan lazımi vasitədən istifadə etməyi də arzulayır. Yeni dövrdə siyasət əxlaqdan ayrıldıqca belə bir fikir formalaşır ki, məqsədə çatmaq üçün istənilən vasitələrdən istifadə olunmalıdır. Həm də bildirilir ki, istifadə edilən vasitələr məqsədin özünə bəraət qazandırılması prosesində əhəmiyyətini itirir. Belə halda, vasitələrə münasibətdə məqsədlərə üstünlük verilir.

ƏL ÇALANLAR - politologiyada: siyasi kütləvi tədbirlərdə çıxış edənləri ruhlandırmaq (ya da bəyənməmək) üçün səs-küy, gurultu yaratmağa dəvət olunmuş (ya da muzdla tutulmuş) bir qrup iştirakçı.

F

FAŞİZM (lat.fasio sözündən, ital. fascismo - dəstə, birlik, bağlı) - I dünya müharibəsindən sonra Qərbi Avropa ölkələrini bürümüş inqilabi proseslər şəraitində yaranmış ekstremist siyasi hərəkat. F.-in vətəni İtaliya və Almaniyadır, ilk faşist təşkilatları və partiyaları bu ölkələrdə yaranmışdır. Sonralar belə hərəkatlar dünyanın bir çox ölkəsində də meydana gəlmişdi. Milli xüsusiyyətlərindəki fərqlərə baxmayaraq, F.-in sinfi mahiyyəti hər yerdə eyni idi. O, kapitalizm cəmiyyətində faşist hərəkatlarına maliyyə yardımı edən, siyasi dəstək verən, onlardan inqilabi çıxışları boğmaq, mövcud quruluşu qoruyub saxlamaq və beynəlxalq miqyasda özlərinin imperiya iddialarını həyata keçirmək üçün istifadə etməyə çalışan ən mürtəce dairələrin mənafeyini ifadə edirdi.

XX əsrin 20-30-cu illərində F.İtaliyada, Alamaniyada və bir sıra başqa ölkələrdə hakimiyyətə gəlmişdi. F."antikapitalist" və yalançı sosialist şüarlarla bəzədilmiş demaqoqluqdan geniş istifadə edirdi. Almaniyada isə F.-i kütlələrin, xüsusən şəhər və kəndin xırda burjua təbəqələrinin, lümpenlərin və hətta Versal sülh müqaviləsinin şərtlərindən məyus olmuş fəhlə sinfinin bir hissəsinin milli inciklik hissi ortaya atmışdı (Almaniya əhalisi ölkəni ağır vəziyyətə salmış bu müqavilədən narazı idi). F. bu yolla onları öz tərəfinə çəkərək sosial baza yaratdı və hakimiyyətə gəldi.

F.-in ideologiyası davakar antidemokratizm, irqçilik və qatı şovinizm, insanların taleyi üçün həm fiziki, həm də mənəvi mənada məsuliyyət daşıyan, millətin birliyinə mane olan hər hansı qəsdin qarşısını amansızlıqla alan totalitar dövləti tərənnüm etməkdir.

F. "liberal demokratiyanın" qüsurlarından azad olan, şəxsiyyət və bütün cəmiyyət üzərində ümumi nəzarəti təmin edən avtoritar partiyanın siyasi hökmranlığına, mistik, heç bir etiraza yol verməyən rəhbərin şəxsiyyətinə əsaslanan güclü, hətta amansız hakimiyyətin zəruriliyini təbliü edirdi. Ali və əbədi reallıq kimi millət konsepsiyası F.-in ideologiyasında xüsusi yer tuturdu. Bu konsepsiya qan birliyinə əsaslanır və buradan da qanın və irqin saflığının qorunub saxlanması vəzifəsi doğurdu. F.millətləri ali və aşağı irqlərə bölürdü. Faşist cəmiyyətində ali millətlər aşağı irqlər üzərində hökmranlıq etməli, onların hər cür müqaviməti amansızlıqla boğmalı idi. İrqi üstünlük nəzəriyyəsi xarici siyasət sahəsində imperialist işğalları və başqa xalqların əsarət altına alınması siyasəti üçün əsas olmuşdu.

İmperiya planlarının həyata keçirilməsi düşmənin ucdantutma məhvini və işğal olunmuş torpaqların müstəmləkəyə çevrilməsini (Mussolinin Aralıq dənizi imperiyası, Hitlerin minillik "böyük reyxi") təmin etməyə qadir olan güclü orduya həvalə edilirdi.

F. cəmiyyətinin iqtisadi və sosial sisteminin əsasında dövlətin nəzarət etdiyi inhisarçı kapitalın hökmranlığı dururdu. F. əhalinin irqi və ya korporativ birliyi, inteqrasiyasına tərəfdar çıxır, əməkçiləri isə "məhsuldar kapitalın" iradəsinin sözsüz icraçıları sayırdı. Tətillər və əməkçilərin öz mənafelərini müdafiə etməsinin digər formaları qadağan edilmişdi. Onun yaratdığı "həmkarlar ittifaqları" isə əmək dünyası üzərində nəzarət vasitəsinə çevrilmişdi.

Ucdantutma terrora əsaslanan terrorçu rejimlər yaratmaqla F. bütün demokratik azadlıqları və təsisatları məhv etmişdi. İctimai həyatın bütün sahələri hərbiləşdirilmişdi, cəmiyyətə isə təkcə dövlət strukturları vasitəsilə deyil, həm də partiyanın hərbiləşdirilmiş və hərbi təşkilatların köməyi ilə nəzarət olunurdu (İtaliyada "sküadre" dəstələri, Almaniyada hücumçu və eses hissələri və s.). Ümumi zorakılıq cəmiyyətin həyat normasına çevrilmişdi. İkinci dünya müharibəsi illərində zorakılıq hitlerçilərin ölüm düşərgələrində genosid və insanlığa qarşı kütləvi cinayətlərdə öz təcəssümünü tapmışdı.

F. həmin müharibənin başlanmasında əsas rol oynamış, lakin hərbi və mənəvi-siyasi cəhətdən sarsıdıcı məğlubiyyətə uğramışdı. F.-in cinayətləri Nürnberq məhkəməsində

mühakimə olunmuşdur.

Lakin müharibə qurtardıqdan az sonra F.neofaşizm şəklində dirçəlməyə başladı. Neofaşizm genetik baxımdan F. ilə bağlıdır, çünki eyni ideologiyanı, siyasi baxışları əsas götürür, zorakılığı təbliü edir. Neofaşizm əvvəlki sosial bazaya arxalanır. Elmi-texniki inqilabın kapitalizm cəmiyyətində doğurduğu böyük dəyişikliklər xüsusi sosial təbəqənin - neofaşistlərin ekstremist çağırışlarını asanlıqla qəbul edən və beləliklə onların təşkilatlarının sıralarını artıran marginalların meydana gəlməsinə səbəb olmuşdur. Keçmiş faşist partiyaları vaxtilə işğal etdikləri ölkələrdən taladıqlarının bir qismini qoruyub saxlaya bilmişdir və indi bununla neofaşist təşkilatlara əl tuturlar. İlk vaxtlar bu təşkilatlarda intiqamdan yaxa qurtarmış keçmiş əlaqələri qoruyub saxlayan göhnə kadrlar böyük rol oynayırdılar. İndi isə neofaşist təşkilatlarında ikinci və hətta üçüncü nəsildən olan "rəhbərlər" aparıcı rol oynayırlar.

Neofaşistlərin fəaliyyəti dəfələrlə müxtəlif ölkələrdə demokratik təsisatlara ciddi təhlükə yaratmışdır. Neofaşizm siyasi böhranların və siyasi gərginliyin mənbəyi olmuş və olmaqdadır.

FEDERALİZM - bax; **Federasiya**

FEDERASİYA (lat. federatio - ittifaq, birlik)-1) yeni vahid dövlət yaratmaq məqsədi ilə bir neçə dövlətin ittifaqı. F.-ya daxil olan dövlətlər federasiyanın subyekti kimi hüquqlarının bir hissəsini özlərində saxlayırlar; 2) ayrı-ayrı cəmiyyətlərin, təşkilatların ittifaqı.

FƏHLƏ HƏRƏKATI - fəaliyyətinin əsas məzmunu fəhlə sinfinin mənafelərini təmin etməkdən ibarət olan ictimai qüvvələrin toplusu. Həmin hərəkatda özünün sinfi ehtiyaclarını bu və ya başqa dərəcədə dərk edən və öz fəaliyyəti nəticəsində bunların təminatına nail olmağı mümkün sayan fəhlələr iştirak edirlər. Bundan əlavə, **F.H.**-nda əməkçilərin digər təbəqələrinin nümayəndələri də iştirak edirlər; onları öz mənafelərinin fəhlə sinfinin mənafeyi ilə yaxın olduğunu və bu yolda qüvvələri birləşdirməyin zəruriliyini qəbul edirlər.

Siyasi və iqtisadi mənafelərin müxtəlifliyi, **F.h.**-nın iştirakçılarının şüur səviyyəsinin və fəallığının müxtəlif olması həm keçmişdə, həm də indiki dövrdə hərəkatın formalarının rəngarəngliyini müəyyən edir.

F.h.-na xas olan plüralizm bir də ondan irəli gəlir ki, hərəkatın iştirakçılarını birləşdirən ümumi mənafelərlə yanaşı, müxtəlif təbəqələrin və qrupların özlərinə xas olan mənafeləri də var. **F.h.**-nda ən ciddi fərqlər müxtəlif ideya-siyasi istiqamətlərə (liberal, demokratik, milli, dini və s.) qoşulmuş cərəyanlarla müstəqil çıxış edən və sosializm ideyalarına meylli cərəyanlar arasındadır. Sonuncuların içərisində ən mühüm fərqlər inqilabi və təkamül (reformist) istiqamətləri arasında tarixən yaranmış fərqlərdir, halbuki son illərin təcrübəsi və dünyada baş verən dəyişikliklər **F.h.**-nın məqsədlərinə nail olmaqda həm inqilabi, həm də təkamülü mütləqləşdirməyin əsassızlığını göstərmişdir.

F.h.-nın ən kütləvi təşkilatları ilk növbədə fəhlə sinfinin iqtisadi mənafelərini ifadə edən həmkarlar ittifaqlarıdır. Bazar münasibətləri və postindustrial istehsala keçid şəraitində həmkarlar ittifaqları **F.h.**-nın uğur qazanmasına, sosial tərəqqiyə xeyli kömək etmişlər. Əgər sənayeləşmənin genişlənməsi həmkarlar ittifaqlarının güclənməsinə kömək edirdisə, postindustrial istehsala keçidin sosial nəticələri (əvvəlki bazanın məhdudlaşması, fəhlələrin parçalanması) onların bir qədər zəifləməsinə səbəb olmuş və **F.h.**-nda dəyişikliklər aparılmasını tələb edir. "Real sosializm" ölkələrində həmkarlar ittifaqları partiya-dövlət rejimlərinin "ötürmə qayışına" çevrilmişdi və onlarla birlikdə süqüta uğradılar. Əvvəlki həmkarlar ittifaqlarının yenidən təşkili və bazar iqtisadiyyatına keçidə uyğun olan yenilərinin yaradılması həmin ölkələrdə F.h.-nın dirçəldilməsinə doğru aparır.

FƏLSƏFƏ GÜNÜ - GÜNÜN FƏLSƏFƏSİ - Noyabrın 21-i YUNESKO tərəfindən "Fəlsəfə günü" kimi qeyd olunmuşdur. Bu, BMT-nin fəlsəfəni bu tezlikdə dəfn etmək istəyənlərə ən yaxşı cavabıdır. Yəni fəlsəfənin mövqeləri dünya miqyasında hələ möhkəmdir və ona qarşı edilən hücumlar əbəsdir. Fəlsəfə insan idrakının

qüdrətli ağacında bitmiş ətirli bir meyvə kimi hələ çoxlarını məst edəcəkdir. İki əsrin qovşağında baş verən sosial-siyasi proseslər və onların xalqımızın həyatındakı əksi bütün ictimai həyat sferalarını əhatə edir. Dünyanı əhatə edən demokratiyanın "yeni üçüncü dalğası" (S.Hantinqton) bizim respublikadan da yan keçmədi: demokratiya və müstəqillik hərəkatı xalqın siyasi-mənəvi həyatına təsir edib, onda yeni stereotiplər yaratdı. İnsanlar bütün sahələrdə köhnəlmiş və öz ömrünü başa vurmuş yığın-yığın problemlərə qarşı sanki müharibəyə başladı. Yeniləşmə meyilləri və ab-havası hər yanı bürüdü. Bütün bu deyilənlər tədris və onun problemlərini də əhatə etdi. Tədrisi milli zəmin üzrə keçirmək onun qarşısında duran başlıca məsələyə çevrildi.

Fransız alimi və dramaturqu Ooston qeyd edirdi ki, qalib gəlmək üçün qarşı-qarşıya durmuş orduların silahlarından daha çox onların fəlsəfəsi kara gəlir. Deməli, qarşıdakı düşmənin "fəlsəfəsini" bilməklə onu tərksilah etmək mümkündür. Bu mənada işğala məruz qalmış bir xalq kimi qarşımızda dayanmış hiyləgər və qan düşməninin fikir və ideyasını ("fəlsəfəsi"ni) qavramaq üçün bu gün bizə fəlsəfə daha çox lazımdır.

Qədim və antik dövrlərdən üzü bəri dağların, çayların və daşların arasından süzülə-süzülə və çağlaya – çağlaya axıb gələn bir hikmət bulağı, müdriklik var. Ona fəlsəfə deyirlər. Bu həmin fəlsəfədir ki, vaxtilə elmlər elmi rolunu oynamış, əsas elmləri özündə cəmləşdirmişdir. Lakin zaman keçdikcə həyat mürəkkəbləşmiş, problemlər artmış,onun da nəticəsində fəlsəfənin ana qoynunda yeni yaranan bir çox elm sahələri müstəqillik statusu almışdır. Ailədə qızlar böyüyüb öz doğma ocaqlarını tərk etdiyi kimi, bu elmlər də yeni evlərə köçmüş, və məşğul olduğu sahələri bir növ özləri ilə bərabər cehiz aparmışlar. Lakin bu proses intəhasız davam edə bilməzdi. Xoşbəxtlikdən fəlsəfə yenidən bu əzablı yolları keçməli olmadı. Daha doğrusu, bütün bunlara heç onun ehtiyacı da yox idi. Çünki fəlsəfənin predmeti sahəsinə daxil olan ədəbi problemlərin hələ heç də hamısı tükənib qurtarmamışdır. Ona görə də son illərdə bir sıra ziyalıların və eləcə də bir sıra filosofların özlərinin "fəlsəfə elmdirmiə" sualı ilə geniş oxucu auditoriyasına müraciət etmələri təbii ki, heç bir uğur qazanmadı və əksəriyyətin çox ciddi iddiaları ilə üzləşdi. Elə isə bəs müasir fəlsəfə və yaxud son illərin fəlsəfəsi nə ilə məşğul olmalıdır. Onun obyektini və predmetini nə təşkil edir. Müasir fəlsəfənin qarşısında nə kimi problemlər və vəzifələr durur. Onları, ümumiyyətlə həll etmək olar.

Bütün dövrlərin, eləcə də yeni, ən yeni və müasir dövrün mərkəzində duran bir problem var – insan problemi. Bu problem bütün elmlərin, o cümlədən fəlsəfənin nəinki predmetinə, hətta onun əsas məsələsinə daxildir İnsan problemi fəlsəfənin öyrəndiyi ədəbi problemlərdən sayılır. Ona görə də akademik V.İ.Vernadski yazırdı ki, fəlsəfə həmişə insan fikrinin elə ədəbi probleminə toxunur ki, onlar barədə heç vaxt son söz deyilə bilməz. İndi dünyaya yeni baxış, baş verən hadisələrin yeni fəlsəfi dərki məlum stereotiplərin cihkamçı təsəvvürlərini dağıtmaqdadır. Bəşəriyyət bütün gərgin, böhranlı anlarda yeni ideyalara böyük ehtiyac duymuş, zamanın nəbzi ilə bir vurmayan ideyalardan imtina etmişdir. Belə hallarda fəlsəfə daim insanlara kömək etmiş, cəmiyyətin və tarixin inkişafına müəyyən yol göstərmişdir. Unudulmuş və yaxud arxa plana çəkilmiş insan probleminin yenidən fəallahdırılması metafəlsəfənin ən böyük xidmətlərindən biridir.

Akademik İ.T.Froloyun yazdığı kimi bizim tarixdə itirib tapmağa səy göstərmədiyimiz problemlərdən ən başlıcası elə insan probleminin özüdür. İnsan probleminin vacibliyi fəlsəfənin rol və əhəmiyyətini daha da artırır. İnsan fəlsəfəni öyrənməklə nikbin və mübariz olur. Məna və mahiyyətini daha düzgün dərk etmiş olur, nəhayət mənəvi azadlıq əldə edir. N.A.Berdyayev yazır ki, o, fəlsəfəyə ona görə minnətdar olmuşdur ki, fəlsəfə onu dərixmaq əzabından, həyat kədərindən və digər yaramazlıqlardan xilas etmişdir.

Tarixdə ilk dəfə olaraq fəlsəfəyə tərif verən İ.Kant yazırdı

ki, fəlsəfə nəzəri cəhətdən formulə edilmiş dünyagörüşüdür. İ.Kantdan əvvəl də fəlsəfəyə çoxlu təriflər verilmişdir. Bunların əksəriyyəti fəlsəfəni müdriklik elmi kimi qtymətləndirmişlər. Akademik V.İ.Vernadski yazır: "Elm fəlsəfənin qoynunda yaranmışdır. Mövcud olduğu min illər ərzində fəlsəfə qüdrətli insan zəkasını formalaşdırmış, insan ağlını dərin təhlildən keçirmişdir, insanların gələcəyi haqqında nəzəriyyəni formalaşdırmaq üçün mən də fəlsəfi təfəkkür aparatına müraciət etməli olmuşam".

Fəlsəfə hər şeydən əvvəl insanla, onun mənəviyyatı ilə, praktik fəaliyyti ilə bağlıdır. İ.Kantın yazdığı kimi müdriklik özünü ağıldan daha çox hərəkət obrazında büruzə verir. Ona görə də fəlsəfə insanın mənəvi arientasiyasını müəyyən edir, dünyanın dərk olunmasını və qiymətləndirilməsini ön plana çəkir.

Fəlsəfə insanın mahiyyətini, onun haqqında olan həqiqəti, ondakı ən ümumini, ətrafına və özünə olan münasibətini öyrənir, İohan Qotlib Fixtenin yazdığı kimi "insan necədirsə, fəlsəfə də elədir".

Fəlsəfə xüsusi bir elm olduğundan, onun predmeti haqqında tarixən böyük mübahisələr getmiş, hətta bir sıra hallarda onun haqqında ciddi ədalətsizliklərə də yol verilmişdir. Vaxtilə "Elmlər elmi" (Aristotel, Dekart) rolunda çıxış edən fəlsəfəni sonralar az qala bir yana tullayanlar da tapıldı. Ondan qopub ayrılan elmlər artiq fəlsəfəni bir növ "bəyənmədilər", ona yuxarıdan aşağı baxmağa başladılar, necə deyərlər, "bağa öz qınından çıxdı, onu bəyənmədi" prinsipi ilə hərəkət etməyə başladılar. Bunun səbəbi onda idi ki, fəlsəfə artıq "öz-özünü yedizdirəndən öz-özünü yeyənə" (İ.Brukke) çevrilmişdi. Predmet sahələrini paylamış, özü isə təxminən predmetsiz qalmışdır. Bundan istifadə edən bir sıra mütəfəkkirlər fəlsəfəni "köhnəlmiş və öz ömrünü başa vurmuş elm" (O.Kont, M.Slik, R.Karnar və b.) kimi qələmə verməyə başladılar. A.Şopenhayer və F.Nitsşe isə onu elmlər cərgəsindən silib, incəsənətə şamil etdilər. Bu meyil o qədər gücləndi ki, srvetlərin son illərində elmi ictimaiyyəti belə bir

sual narahat etməyə başladı: " Fəlsəfə elmdirmiə" (A.İ.Nikifirov). Bu suallar fəlsəfənin ideologiyalaşmasının öz apogeyinə çatdığı bir vaxtda daha da kəskinləşdi və bu fəlsəfəyə qarşı aparılan mübarizənin qida mənbəyinə çevrildi. Lakin fəlsəfəni Kral Lirə çevirmək cəhdləri də insanları dünya görüşündən məhrum etməyə səy göstərmək cəhdləri kimi ifllasa uğradı. Fəlsəfə öz predmetini və tədqiqat obyektini qoruyub saxladı. Ancaq təəssüf doğuran bir cəhət də var ki, bəziləri hələ də bu iddiadan əl çəkmək istəmir, fəlsəfəni bir fənn kimi aradan qaldırmağa çalışır, onun tədris saatlarını azaldır: bu fənndən olan imtahan və zaçotları ləüv edirlər. Ən dözülməz hal isə aspirantura və dissertanturada fəlsəfə fənnlərinin və bu fənndən olan minimumların aradan qaldırılmasıdır. Halbuki, bu kimi tədbirləri insanları dünyagörüşündən tərkisilah etmək səyləri kimi qiymətləndirmək olar və onlara dözmək olmaz.

Fəlsəfə bir elmdir və o tələb edir ki,onunla elm kimi rəftar olunsun. Fəlsəfənin bu xüsusiyyəti də onun metodoloji əsas rol oynamasıdır.Əgər fəlsəfə olmasa ictimai-humanitar elmlər üçün bu rolu nə oynamalıdırə

Yuxarıda deyilənlər belə bir hökm verməyə əsas verir ki, fəlsəfə bir elm kimi daim insanı, təbiəti və cəmiyyəti öyrənmiş və bu sahədə qarşıya çıxan suallara cavab verməyə çalışmışdır. Fəlsəfə indi də özünün köhnə mövqelərini qoruyub saxlamaq iqtidarındadır və özünün tədqiqat obyektində yeniləşmə hərəkatı ilə bağlı daim müəyyən dəyişikliklər edir.

FORMAL - (qeyri-formal) **QRUPLAR**-xüsusi nəzərdə tutulan, yaxud nəzərdə tutulmayan, sosial sanksiyası olan, məqsədləri, normaları və qaydaları ilə fərqlənən qruplar kateqoriyası.

Birinci kateqoriyaya formal qaydada nəzərdə tutulmuş qruplar daxildir. Onlar əsasnaməyə, nizamnaməyə, təlimata və b. normativ sənədlərə əsasən fəaliyyət göstərirlər. Bu qayda ciddi əmək bölgüsünə, statuslara və real vəziyyətlərə, müəyyən seçilmiş əməliyyatlara, yaxud liderlərin təyinatına əsasən qurulur, ikinci kateqoriya isə, bir qayda olaraq, kiçik, qeyri institutlaşdırılmış qruplar, əsasən

formal tərkibə daxil olan, eyni zamanda bir-biri ilə əlaqəsi olmayan bir neçə qruplar daxildir. Formal qruplardan fərqli olaraq, onlar öz üzvlərinin şəxsi marağı və yararlığı, arzu və tələblərinə üyğun gələn, eyni zamanda şəxslər arasındakı bilavasitə əlaqələrə və münasibətlərə əsaslanaraq təşkil edilir.

Müəyyən strukturu olan və ya mürəkkəb quruluşlu **F.q.** özləri birgə fəaliyyət göstərən, daha geniş yayılmış təşkilat tiplərini təmsil edirlər. Onlarda təkcə əmək bölgüsü deyil, eyni zamanda qol-budaq açaraq şaxələnmiş iyerarxiya vəzifələri və cavabdehliyi də mövcuddur. Burada sərhədləri dəqiq və dürüst müəyyənləşdirilmiş, rasional şəkildə istiqamətlənməyə və əlaqələndirməyə imkan verən kollektivin və ya digər bir təşkilatın üzvlərinin ümumi səyi ilə yaradılan idarəedici və icraçı strukturlar da fəaliyyət göstərir. Birbirinə bənzəyən, məqsədləri eyni olan kiçik həmcins birləşmələrdən, o qədər də böyük olmayan cəmiyyətlər, dərnəklər və sifarişli birləşmələrdən fərqli olaraq, bu qruplarda mürəkkəb tərkibə malik olan təşkilatlar, həm də buraya elementar F.q.-lara bənzəyən şöbə və bölmələr də mövcuddur. Bir halda ki, həmin forma istehsalatda, mədəniyyətdə və ictimai mühitdə ən universal və yüksək effektli struktur vahidi hesab olunur, sosialoji və psixoloji təşkilatlarda xüsusi tədqiqat obyektinə çevrilə bilir, siyasi elmlərə tətbiq edildikdə isə partiya və hərəkatların sosiologiyasını təmsil edir.

F.q.-ın fəaliyyətində kifayət qədər dolğun və adekvat nəzəri model mövcud deyil. Bununla belə, bəzi tədqiqatlarda bu haqda ümumi şəkildə də olsa, qiymətli ideyalara rast gəlmək mümkündür. XX əsrin əvvəllərində M.Veber formal qurumların bürokratik-iyerarxiyalı konsepsiyası ideyasını irəli sürmüşdür. Onun irəli sürdüyü təkliflərə görə bütün qaydalar və əməliyyatların üsullar mütləq maksimum formada ixtisaslaşdırılmalı, rəhbəredici vəzifələr və cavabdeh strukturlar ciddi sürətdə iyerarxiya qaydalarına əsasən təşkil olunmalı, bütün tədbirlər və əməliyyatlar ən yüksək səviyyədə səmərələşdirilməli və rəsmiləşdirilməlidir. Demək olar ki, eyni vaxtda məşhur amerikalı mühəndis F.Teylor istehsalatla məşğul olan təşkilatların inzibati-texniki modeli ideyasına yaxın olan mülahizələrini irəli sürmüşdür. Bununla o, əməyin xüsusi təşkili sistemi barədə təlim olan teylorizmin banisi kimi ad qazandı. Hər iki konsepsiyada vəzifələrin ixtisaslaşdırılması ideyasının mövcudluğu ilə bərabər, müəyyən səhvlər də var: insanların birgə fəaliyyətlərinin nəticələri ayrı-ayrı adamların deyil, yalnız əməliyyatların və üsulların məcmusu kimi izah olunurdu. Bu qəbildən olan çatışmazlıq və uyğunsuzluqlar bir sıra alimlərin (A.Etstoni, R.Kan və b.) qurumlar haqqında uydurduqları çoxsaylı nəzəri sistemlərində də özlərinə yer tapmışdır.

Bu fikirlərin alternativi kimi E.Meyyo, K.Arqiris və başqaları tərəfindən irəli sürülmüş qurumların motivasiya (sübutlar, dəlillər) nəzəriyyəsi, "insan münasibətləri" doktrinasının başlanğıcı kimi daha çox məşhurdur. Həmin alimlər hesab edirlər ki, qurumlar yalnız insan təbiətinin razılığı ilə, qurum öz üzvlərinin real və mənafelərini nəzərə aldıqda müvəffəqiyyətli fəaliyyət göstərə bilər. Bu konsepsiyanı müdafiə edən D.Makqreqor isə özünün qurum haqqındakı mülahizələrinin mərkəzinə, hər bir adamın özünü reallaşdırmaya can atması fikrini qoymuşdur. 60-cı illərin axırlarından motivasiya nəzəriyyəsi istiqamətində irəli sürülən qrup halında fəaliyyətə psixososial tələbat müvəffəqiyyətlə inkişaf edir, bu sahədəki tədqiqatlarda müxtəlif elmlərə və metodologiyaya mənsub olan mütəxəssislər iştirak edirdilər. (Y.Qaltunq, C.Devis, R.Fitscerald və b.)

F.q.-ın konkret tədqiqatçıları, onlar əsasən xarici ölkələrdə fəaliyyət göstərirlər, müxtəlif problematik məsələlərin üzərində çalışırlar. İlk növbədə, F.q.-ın effektli qurum strukturlarının problemləri üzərində tədqiq edirlər. Bunlara öz məqsəd və vəzifələrinə görə tam uyğun olanlar: əməyin bölüşdürülməsi məsələləri və onun əlaqəndirilməsi, liderlik və qurumlarda qəbul olunmuş qərarlar, planların optimallaşdırılması və s. İkincisi, xırda qruplarda baş verən proseslər, **F.q.**-ın strukturuna aid olan elementlər qruplardakı vəziyyətlərə və qrupların dina-

mikasına uyğun olaraq öyrənilir. 3-cüsü, siyasi mühitə tətbiq olunan, F.q. üçün əsas və spesifik partiyalar (bax; SİYASİ PARTİYA), maraq qrupları, təzyiq qrupları və həmin birləşmələrin arasında olan qarşılıqlı əlaqələr öyrənilir. Bu istiqamətdə aparılan tədqiqatlarda məlum çatışmazlıq müəyyən mənada metodologiya ilə şərtlənir. Siyasi F.q.-ın tədqiqatlarında onların daha geniş miqyaslı sosial bazalarla əlaqəli və biri-birindən fərqlənən siniflərlə, təbəqələrlə və b. daha böyük sosial qruplarla şərtlənən spesifikliyi kifayət qədər nəzərdən keçirilmir.

Strukturlaşmış **F. q.**-ın çoxsaylı təsnifatı arasında daha çox işlənəni Etsionin tədqiqatıdır. Sosial gücündən və ya nüfuzundan asılı olaraq qruplar, alim tərəfindən üç tip üzrə təsnifləşir: zor gücünə təşkil olunmuşlar; mənfəət dalınca gedənlər, qazanca can atanlar; dəyərləri və normaları həyata keçirmək üçün mövcud olanlar. Bir halda ki, F.q.-ın hamısı bu tipologiyaya sığışmır, ona görə də onların qarşılıqlı tipləri nəzərdən keçirilir.

F.q.-ın bütünlüklə tədqiq olunması sayəsində çoxlu faydalı nəticələr əldə edilmişdir. Əməyin bölgüsünün səmərəliliyi və insan fəaliyyətinin ixtisaslaşması sahəsində prinsipial hüdudlarla özünüreallaşdırma və yaradıcılıq təzahürləri arasında bilavasitə bir-birinə zidd olan meyllər meydana çıxmamalıdır. Əks təqdirdə onların effektliyi ciddi formada aşağı düşür. Funksional bölmələrin və onların əməkdaşlarının fəaliyyətinin nizama salınmasına cəhd göstərilməsi, çoxsaylı rəsmi qərarların mövcudluğu effektsizliyə, qeyri-elastik struktura, dəyişən şəraitə gətirib-çıxarır. Bununla bərabər, təşkilatın optimal miqyası haqqındakı təsəvvürlər də, buna müvafiq olaraq onların qarşısında duran vəzifələr də dəyişilir, təşkilati strukturların qüvvətləndirilməsi ilə yanaşı onların bürokratikləşməsi də artır, idarəçilik və məhsuldarlıq isə azalır. Siyasi sosiologiyada partiya anlayışına yaxın ideyalar R.Mixelsonun "oliqarxiyanın dəmir qanunu" konsepsiyası çərçivəsində işlənmiş, siyasi bürokratiya institutlarının çoxsaylı tədqiqatçıları tərəfindən (M.Cilasdan A.Qoldnerə qədər) isə inkişaf etdirilmişdir.

Formal şəkildə təşkil olunmuş qrupların tədqiqi, nəhayət, kifayət qədər onların həyat qabiliyyətləri haqqında son dərəcə əhəmiyyətli paradoksal nəticələrin əldə olunmasına gətirib çıxardı.

İstər xaricdə, istərsə də keçmiş SSRİ-də qeyri F.q.-ın fəaliyyəti formal qruplara nisbətən qat-qat az öyrənilibdir. Yalnız 1985-ci ildən sonra Sovet tədqiqatçıları bu problemə fəal məşğul olmaqla başlamışlar. Qeyri-formal yoldaşlıq, patronaj-sifarişçilər, yerliçilik, tayfaçılıq və b. qruplar fərqləndirilir. Burada bir-birinə oxşar cəhətlər və asudə vaxt zamanı maraqların uyğunluğuna, şəxsi hüsn-rəğbətə, qarşılıqlı hörmətə və başqa keyfiyyətlərə daha çox üstünlük verilir. Belə qrupların meydana gəlməsi onunla əlaqədardır ki, tələbatın müxtəlifliyi və insanların şəxsi universallığı onların çox dar peşə fəaliyyətlərinə üstün gəlir, bir çox hallarda müəyyən mədəni, mənəvi və digər tələbatların təmin olunmasına imkan olmur. Lakin, ola bilsin ki, bu tələblər qeyri-rəsmi və qeyri məcburi birləşmələr şəraitində, başqasının halına acıyaraq, özünü göstərmə yolu ilə və s. üsulla tezliklə həyata keçiriləcəkdir.

Əsas fəallıq iş vaxtından kənarda keçirilməsinə baxmayaraq, bunlar əmək kollektivləri üçün də əhəmiyyətlidir, belə ki, kollektivdə daha əlverişli psixoloji vəziyyət yaranır, insanlarda özünə inam artır. İnsanlar arasında qeyri-formal əlaqələr mövcud olduqda, onlar kollektivin əmək tapşırıqlarını operativ şəkildə həll edirlər və iş əsnasında kollektivdə fəaliyyət göstərən müxtəlif dəstələr arasında razılaşmalar daha asanlıqla həyata keçirilir. Qeyri **F.q.**-ın üzvləri arasında mövcud olan belə mənəvi və peşə əlaqələri, nüfuz və hörmət münasibətlərinin əhəmiyyəti daha böyükdür, onlar nəinki formal bir şəkildə, məsul bir şəxsin tələbi əsasında da toplaşıb və birləşə bilərlər.

Bunula belə, yoldaşvari, dostluq əsasında, yaxud patronaj-müştərilər qrupunun cəmiyyətə zidd istiqamətli, ya da tam mənfəət güdən, tamahkarlıq niyyəti ilə yaradılan, ictimai dəyərlərin əleyhinə və peşəkar-

ların maraqlarına uyğun gəlməyən qrupların da təşkili müəyyən xeyir verə bilər. Belə halda qrupbazlıq yaranır, ümumi məqsəd və dəyərlər xırdalanır. Əgər qeyri **F.q.** birincilik əldə edərsə, onda müvafiq formal struktur, qeyri **F.q.**-ın üzvlərinin şəxsi ambisiyalarını yerinə yetirən bir alətə çevrilir. Onlar qrup eqoizmini rəhbər tutaraq, bilərəkdən quruluşun məqsəd və vəzifələrinin həyata keçirilməsinə maneçilik törədir, ya da onların məqsədlərini xeyirli sosial nəticələrinin istiqamətini dəyişdirib təqlid etməklə məşğul olurlar.

Qeyri **F.q.** arasında yerliçilik əsasında yaradılmış, əksər hallarda patronaj-müştərilərin iştirak etdiyi qruplar, birləşmələr mühüm rol oynayır. Bunların fəaliyyəti təkcə ucqar əyalətlərdə, vətəndaşların yaşadıqları mərkəzdən uzaq regionlarda deyil, eyni zamanda şəhərin siyasi həyatında, daha çox feodal ənənələrinin mühafizə olunub saxlandığı yerlərdə hiss olunur. Feodal mütləqiyyətinin tam hökm sürdüyü şəraitdə onlar saray tayfasının (ispandilli ölkələrdə buna kamarili adı verilmişdir) formalaşması üçün zəmin yaradır, bu isə ali hakimiyyət orqanını inhisarlaşdırır, qanunları tapdalayır, korrupsiya və imtiyazlar sistemi üçün şərait yaradır. Yaxın keçmişdə feodal münasibətlərin mövcud olduğu, keçid tipli cəmiyyətdə demokratik institutlar fəaliyyət göstərdikdə belə hakimiyyətdə tez-tez şəxsi yaxınlığa, yerliçiliyə görə qruplaşmalar baş verirdi. Belə siyasi-dövlət sisteminin əsasını isə dostbazlıq, qohumbazlıq və himayəçilik prinsipləri təşkil edirdi.

Yerliçilik prinsiplərinə əsaslanaraq yaradılmış qüdrətli qrupların fəaliyyəti ayrı-ayrı təşkilatlara təsir etmək və inzibati orqanları lokallaşdırmaqla məhdudlaşmır. Onlar birləşərək, əksər hallarda ərazi, sahəvi, yaxud digər sosial-iqtisadi assosiasiyalar (indiki müasir dövrdə kölgəli, qapalı qruplar) yaradır, sonra isə onlar təzyiq qruplarına çevrilərək siyasi məsələlərin həllinə təsir göstərməyə cəhd edirlər.

Böhran şəraitində formal strukturlara olan inamın itməsi, yaxud azalması qeyri F.q.-ın müxtəlif tiplərinin qeyri adi şəkildə çoxalmasına gətirib çıxarır. Onların əksəriyyəti ictimaiyyət tərəfindən bəyənilir, siyasi xarakter kəsb edir, ilk növbədə gələcək siyasi qurumun və ya partiya fraksiyasının rüşeymi olan protopartiya (ə) vəzifələrini həyata keçirir.

Müasir şəraitdə bəzi diskussiya klublarının, dil və mədəniyyət üzrə dərnək və cəmiyyətlərin, dini əlamətlərə görə yaradılmamış qeyri-konfessional birləşmələrin vəziyyəti belədir. Qeyri-formal tayfa, yerlibazlıq, patronaj-müştərilərin və b. hökumət institutlarına daxil olan buna bənzər qruplar böyük əhəmiyyət kəsb edir. Bir sıra ölkələrdə partiyalara nisbətən böyük siyasi nüfuz və hörmət qazanır, belə vəziyyətdə çoxpartiyalılıq özü tezliklə onların arasında təsirin bölgüsünü əks etdirir. Bundan əlavə, bizdə və xaricdə qeyri institutlaşdırılmış bu və ya digər mətbuat orqanları ətrafında toplaşmış siyasi cərəyanların rolu artır.

FÖVQƏLADƏ VƏZİYYƏT (hərbi vəziyyət)-dövlətin tətbiq etdiyi xüsusi hüquqi rejim. Sivilizasiyalı dövlətlərin konstitusiyalarına əsasən yalnız hərbi hücum edildikdə, dövlət çevrilişi cəhdləri, siyasi böhranlar, təbii fəlakət, epidemiyalar, texnogen fəlakətlər və s. kimi müstəsna hallarda bütün ölkədə, yaxud onun ayrı-ayrı yerlərində **F.v.** tətbiq oluna bilər. Azərbaycan Respublikasının Konstitusiyasında (maddə 111 və 112) ölkədə hərbi vəziyyət və **F.v.** elan etmək hüququ nəzərdə tutulur.

FÖVQƏLADƏ QANUNLAR (dekretlər) - fövqəladə vəziyyət dövründə icra orqanlarının qəbul etdikləri xüsusi hüquqi qüvvəsi olan normativ aktlar sistemi. Adətən bu aktlar qəbul edilərkən qanunvericilik qaydasına əməl olunmur.

FRAKSİYA (lat.fractio-sındırma, parçalama)-I) parlamentdə, digər dövlət orqanlarında və ictimai qurumlarda öz partiyasının siyasi göstərişlərini mütəşəkkil surətdə yeridən qrupun üzvləri; 2) partiya daxilində özünün ayrıca-partiyanın əsas siyasi xəttindən və cari göstərişlərindən fərqlənən ideya və təşkilat platforması olan xüsusi qruplaşma.

FRAKSİYAÇILIQ - siyasi partiyaların daxilində həmfikirlərin mütəşəkkil birliklərinin,

fraksiyaların yaranması və fəaliyyət göstərməsi. Normal partiyadaxili həyatda fikir ayrılığının, müxtəlif rəylərin, hökmən fraksiyaçılığa gətirib çıxarmayan siyasi qruplaşmaların mövcud olması labüddür. F.-ın başlıca əlamətləri xüsusi ideya-siyasi platformanın və qrup intizamının olmasıdır. Fraksiyanın üzvləri qrup intizamını bəzən ümumpartiya intizamından yüksək tuturlar.

FRUSTRASİYA (lat.frustratio)- 1) aldatma; 2) uğursuzluq, iflas; 3) nahaq ümid)-siyasət psixologiyasında-siyasi gerçəkliyin daxili və xarici mənzərəsinin bir-birinə uyğun gəlməməsi ucbatından yaranan diskomfort vəziyyəti.

FUTUROLOGİYA (lat. futurum - gələcək və yun. logos-təlim)-siyasi proseslərin perspektivinin proqnozlaşdırılması. geniş mənada - Yerin və bəşəriyyətin gələcəyi haqqında təsəvvürlərin məcmusu.

"F." terminini 1943-cü ildə alman sosioloqu O.Flehtheym siniflər fövqündə duran "gələcəyin fəlsəfəsi" mənasında işlətmişdir. O, bunu ideologiya və utopiyaya qarşı qoymuşdur.

Elmi-texniki inqilabla əlaqədar F.konsepsiyaları XX əsrin 60-cı illərindən geniş yayılmışdır.

G

GENOSİD (yun. genos-qəbilə, tayfa, lat. caeder-öldürmək) - ayrı-ayrı əhali qruplarının milli, irqi, yaxud dini motivə görə məhv edilməsi; bəşəriyyətə qarşı ən ağır cinayətlərdən biri. G. cinayətləri faşizmi, irqi və milli ədavəti, "ali irqlərin" aşağı irqlər üzərində hökmranlığını və s. təbliü edən nəzəriyyələrə əsaslanır. İkinci dünya müharibəsi illərində Hitler çilər işğal etdikləri ölkələrdə əhaliyə qarşı kütləvi şəkildə G. törətmişlər. CAR-da və apartheyd dövlət siyasətinə çevrilmişdi. Kamboçada Pol Pot-İyenq Sari gürühu öz xalqına qarşı ı. siyasəti yeritmişdir (1975-78) G.-in cəzaya layiqliyi beynəlxalq tribunalların (Nürnberq və Tokio tribunallarının) nizamnaməsində, həmçinin "genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Beynəlxalq Konvensiyada (BMT BAŞ Məclisi 1948-ci il) müəyyənləşdirilmişdir. 1965-ci ildə BMT irq ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında konvensiya qəbul etmişdir.

XIX-XX əsrlərdə əvvəlcə çar Rusiyası, sonra isə SSRİ dövlət orqanlarının himayədarlığı sayəsində erməni millətçiləri azərbaycanlılara qarşı əsl ı. təbliq edilmişdir. 1905-06, 1918-20 illərdə, Sovet İttifaqının 70 illik hakimiyyəti dövründə qanlı toqquşmalar və qırğınlarla müşayiət olunan G. nəticəsində Ermənistanda yaşayan azərbaycanlıların çox hissəsi qırılmış, yaxud ağır vəziyyətdə öz doğma yurd-yuvalarını tərk etmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən Xocalı (1992-ci il fevralın 26-da) şəhəri yerlə-yeksan edilmiş, əhalisi isə qırılmışdır. 1998-ci il martın 26-da Azərbaycan prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" fərmanının verilməsi və 31 mart gününün "Azərbaycanlıların soyqırımı günü" elan edilməsi məhz bu tarixi həqiqətlər dünya ictimaiyyətinə çatdırmaq və bunların bir daha təkrar olunmasına yol verməmək məqsədi güdür.

GEOPOLİTİKA – bax; **geosiyasət.**

GEOSİYASƏT geopolitika (yunanca ge - Yer, orpaq və

siyasət) - beynəlxalq münasibətlər nəzəriyyəsinin əsas anlayışlarından biri; lokal, məhəlli, kontinental və qlobal beynəlxalq proseslərə münasibətdə dövlətlərin və dövlətlər blokunun vəziyyətinə məkan və konkret tarixi formaların təsirini səciyyələndirir. G.-in tarixən yaranması coğrafiya amilinin cəmiyyətin həyatındakı rolunun öyrənilməsi ilə bağlı olmuşdur. İnsan cəmiyyətinin həyatında fiziki-coğrafi şəraitin həlledici rolunun və irqlərin qeyri-bərabərliyinin (bax; **İRQÇİLİK**) təsdiqi ı.-nın əsas ideyasıdır. "ı." anlayışını ilk dəfə İsveç alimi R.Çellen Birinci dünya müharibəsi başlandığı dövrdə işlətmişdir. O, dövləti həyat sahəsi və fəaliyyəti genişləndirməyə cəhd göstərən xüsusi orqanizm kimi təsvir edərkən "G." terminindən istifadə etmişdi. Alman coğrafiyaşünası F.Ratselin bu sahədə tədqiqatları yeni elmi fənnin - siyasi coğrafiyanın meydana gəlməsinə səbəb oldu. G.-in digər nümayəndələri - X.Makkinder (İngiltərə), admiral Mexen və başqalarının da g. haqqında fikirləri maraqlıdır. 1923-27 illərdə Almaniyada çıxan "geopolitika" jurnalı ətrafında toplanmış dərnək g.-i siyasi coğrafiyadan fərqli xüsusi elm adlandırmışdı. Dərnəyin rəhbərləri ı.Haushofer və E.Obst G. vasitəsilə açıq-aşkar nasist ideologiyasını əsaslandırırdılar. İkinci dünya müharibəsindən sonra g. problemləri ABŞ-da (N.Spikmen və b.), AFR-də (K.Şmitt, Q.Qrimm, A.Hettner, A.Qrabovski və b.) nəzəri tədqiqatlarda mühüm yer tutmuşdur.

GERONTOKRATİYA (yunanca geron - qoca, kratos - hakimiyyət) - hakimiyyətin yaşlılara mənsub olduğu cəmiyyətdə idarəetmə prinsipi. Etnoqrafiyada XX əsrin əvvəlindən işlədilməyə başlanmış **"G."** termini sonralar ibtidai icma quruluşunda, sonra isə sinifli cəmiyyətlərdə hakimiyyət strukturunun təhlili üçün istifadə edilmişdir. Stalin, Tito, Mao Tszedun, Begin, Brandt, Reyqan, Franko kimi şəxsiyyətlərin müasir politoloji baxımdan öyrənilməsi göstərir ki, yaşa dolmaq, ekspertlərin, məsləhətçilərin və icraçıların dəyişkən ordusunun mövcud olduğu şəraitdə siyasi sistemlərdə liderlik uğrunda mübarizədə həm kömək, həm də maneədir. Siyasi liderlər öz vəzifələri başına gec gəlmiş olurlar, lakin elə də olur ki, onlar vəzifə başında yaxşı vaxtları keçdikdən sonra da qalırlar. Rəhbərliyin qərarlaşmış prinsiplərinə arxalanaraq, daha dəqiqi isə, bunlara bağlılığını nümayiş etdirərək, onlar böhran anlarında düzgün qərarlar qəbul edə və şəraitə düzgün qiymət verə bilərlər. Lakin bütövlükdə yaşa dolmuş liderlərin siyasəti yüksək fəallığı ilə fərqlənmir, onun gücü hər hansı xoşagəlməz sonluğun qarşısını almaqda, xeyirxahlıqda, inaxronik mühafizəkarlıqdadır. Hətta ən ənənəvi idarəetmə strukturları, məs., Roma katolik kilsəsi kardinalları kollegiyası belə öz üzvləri üçün yaş həddi müəyyən edirlər. "G." terminin rəmzi də olsa, atalət, gerilik, mühafizəkarlıq, təfəkkür durğunluğu və fəaliyyətsizlik nəsnəsi kəsb etməsi heç də təsadüfi deyildir.

GESTAPO - (alm. Gestapo. Gehiime Staatsroizei sözünün qısaldılmış forması) - faşist Almaniyasında məxfi dövlət polisi. 1933-cü ilin aprelində faşizmin düşmənlərini cismən məhv etmək məqsədi ilə yaradılmışdır. G.-un ölüm düşərgələrində və zindanlarında yüz minlərlə antifaşist istintaqsız və məhkəməsiz vəhşicəsinə öldürülmüşdür. 1936-cı ildən G.nın imperiya üzrə başçısı H.Himler idi. İkinci Dünya müharibəsi zamanı G. orqanları işğal edilmiş ərazinin dinc əhalisinə, xarici fəhlələrə və hərbi əsirlərə divan tutdurdu. G. 1945-ci ildə faşist Almaniyası darmadağın edil dikdən sonra ləğv edilmişdir. 1946-cı ildə Nürnberqdəki Beynəlxalq Hərbi tribunal G.-nu cinayətkar təşkilat hesab etmişdir.

GƏRGİNLİYİN ZƏİFLƏDİLMƏSİ - 1970-ci illərin birinci yarısında Qərb və Şərq arasındakı beynəlxalq münasibətlərdə başlanmış proses; ABŞ və onun müttəfiqləri ilə SSRİ, Şərqi Avropa ölkələri arasında gərginliyin zəifləməsi, onların münasibətlərindəki dəyişikliklərlə səciyyələnirdi. g.z. dünyada qüvvələr nisbətinin dəyişməsi nəticəsində mümkün olmuşdu.

Qarşıdurmadan dialoqa və siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlığa keçmək, qüvvələr tarazlığının mənafelərin tarazlığı ilə əvəz etmək, regional münaqişələrin

aradan qaldırılmasına yeni səpkidə yanaşmaq, beynəlxalq münasibətləri ideyasızlaşdırmaq, ümumbəşəri dəyərlərə üstünlük vermək əsasında yeni dünya qaydalarını yaradılması daha geniş mənada **g.z.**-nin zəruri ilkin şərtidir.1975-ci ildə Helsinkidə Avropanın 33 ölkəsinin, habelə ABŞ və Kanadanın Avropada Təhlükəsizilik və Əməkdaşlığa dair Müşavirənin (ATƏM) Yekun aktını imzalaması **i.z.** prosesində çox mühüm hadisə oldu.

70-ci illər ərzində **i.z.** prosesi çərçivəsində beynəlxalq təhlükəsizlik maddi təminatlarının yaradılmasına dair tədbirlər həyata keçirildi. Müharibə təhlükəsinin zəiflədilməsinə, sürətlə silahmanın dayandırılmasına dair bir neçə saziş imzalandı.

Lakin 70-ci illərin axırında **g.z.** prosesi dayanmağa başladı. Bunun bilavasitə səbəbləri sovet qoşunlarının Əfqanıstana yeridilməsi (1979 il, dekabr), Mərkəzi Amerikada (Nikaraqua, Salvador, Qvatemala) vəziyyətin kəskinləşməsi, Polşada fövqəladə vəziyyətin tətbiqi (1980 il), digər regionlarda Sovet-Amerika qarşıdurmasının gücləmə və s. idi.

80-ci illərin yarısından etibarən **g.z.** prosesində müsbət dəyişikliklər baş verdi. 1986-cı ildə Stokholmda Avropada etimadı, təhlükəsizliyi və tərksilahı möhkəmləndirmək tədbirlərinə dair konfrans keçirildi. İl ərzində davam edən bu konfrans Avropada Hərbi qarşıdurma təhlükəsinin azadılmasına yönəldilmiş siyasi və hərbi tədbirlər kompleksi işləyib hazırladı və qəbul etdi. Həmin il Vyanada ATƏM-in iştirakçısı olan dövlətlərin nümayəndələrinin görüşü keçirildi. 1989-cu ilin fevralında sovet qoşunları Əfqanıstandan çıxarıldı.

Mərkəzi və Şərqi Avropa (ADR, Çexoslovakiya, Rumıniya, Bolqarıstan) baş verən əsaslı dəyişikliklər Avropada ümumən tamamilə yeni şəraitin yaranmasının, qüvvələr nisbətinin köklü surətdə dəyişməsinin başlanğıcını qoydu. Almaniyanın birləşdirilməsi (1990-cı il, oktyabr), Varşava Müqaviləsi Təşkilatının və Qarşılıqlı İqtisadi Şuranın ləğvi (1991), ATƏM-in üzvü olan 22 dövlətin liderlərinin Avropada adi silahların məhdudlaşdırılmasına dair

müqaviləni imzalamaları (Paris, 1990-cı il 19 noyabr), SSRİ-nin dağılması **g.z.** prosesinə öz töhvəsini verdi.

GÜC - Siyasətin əsas ehtiyatlarından biri və hər hansı məqsədə çatmaq naminə hakimiyyətin tətbiq etdiyi çox mühüm vasitə. Daha ümumi şəkildə, götürüldükdə İ. bir fəal subyektin digər (passiv və ya ikinci) subyektin davranışına, siyasi hadisələrin arzu olunan istiqamətdə gedişinə təsir göstərmək vasitəsidir. Tərəflər razılığa gəlmədikdə və digər vasitələr (qanunların, sərəncamların könüllü icra olunması, normalara əməl edilməsi və s.) bu və ya başqa problemin həllinə gətirib çıxarmadıqda. İ. siyasi məsələlərin həlli üçün tətbiq olunan qanuni məcburiyyət vasitələrindən biri olur g.-ün zorakılıqdan. yəni əsassız olaraq və ya həddini aşaraq xüsusəi ifrat formalarda (cismani məcburiyyət, ölümlə cəzalandırmaq, yaxud məhv etmək təhlükəsi) G. tətbiq etməkdən prinsipial fərqi də bundadır.

Beləliklə, G. siyasətin məcburedici amilidir, lakin cismani məcburiyyət demək deyildir. Əslində bir subyektin digərinə təsirini bütün vasitələri biliyin bu və ya başqa G.-ün bu və ya digər nüfuzun, yaxud təsirin, təlqinin müxtəlif emosional hallarının-həmrəylik, həvəs, rəy (siyasətdə xarizmatik i.), qorxu, asılılıq hisslərinin G.-ünün təzahürü kimi nəzərdən keçirilə bilər. İnsanların zəkasına siyasi davranışına, hakimiyyətin və digər siyasi qüvvələrin fəaliyyətinə iqtisadi, ideoloji, hüquqi, mədəni və s. təsirlər kimi qeyri-siyasi i.-lər siyasətdə heç də az rol oynamır. İqtisadi, elmi, texnoloji, beynəlxalq hüquqi G. amilləri beynəlxalq münasibətlərdə xüsusi rol oynayır və bu rol getdikcə artaraq beynəlxalq münasibətlərdə ənənəvi güc metodlarını (silah gücü, diplomatik təzyiq və s.) qismən əvəz edir, yaxud tamamlayır (bax; **SİYASİ REALİZM**).

"G." haqqında anlayış politologiyanın "qüvvələrin tarazlığı", "qarşılıqlı asılılıq", "güc işlətmək siyasəti" və s. kimi mühüm kateqoriyalar sisteminə daxildir.

H

HAKİM QÜVVƏLƏR - nüfuzlu sosial, iqtisadi dairələrin, yuxarı təbəqələrin və hakim partiyaların, siniflərin, tayfaların ideoloqlarının, sənaye və maliyyə liderlərinin qapalı klublarının ("esteblişmentin" - siyasi hakimiyyətin, sənayeçilərin formalaşmış və ya qeyri-formal birliklərinin ətrafında qruplaşan "yüksək cəmiyyətin" nümayəndələrinin) adı. H.q.-in mövcudluğu kimi, onların siyasi rolu da adətən nəzərə çatdırılmır. Həqiqətdə isə çox vaxt hökumətin, partiyaların siyasi xəttini, parlamentdə səsverməni, bir çox konkret ictimai problemin həllini onlar müəyyən edirlər.

HAKİM MİLLƏT – – fəlsəfəsi mövcud olan cəmiyyətdə istiqlal mümkün deyil. Avropa təfəkküründən, xristian əxlaqının məhsuludur. "Hakim millət" fəlsəfəsinin ideoloji prinsipini istilaçılıq, işğalçılıq təşkil edir. Burada insana nifrət əsas yer tutur.

Türk qövmü heç zaman "hakim millət" təfəkkürü ilə yaşaymayıb. Hətta hakim sinif ideologiyası təliminin banisi F.Engels 1853-cü ildə açıq-açığına etiraf edirdi: "Türkiyədə türkləri hakim sinif adlandırmaq çətindir". Bu sözlər eynən Azərbaycan türklərinə də aiddir, bizdə hakim millət təfəkkürü ümumi səciyyə kəsb etməyib. Biz milli xislət etibarilə bəşəriliyə meyil etmişik.

Azərbaycançılıq iqqtisadi cəhətdən ona yaxın olan üç imperiya ilə münasibətlərin düzgün qurulmasına əsaslanır. Dünyanın təbii cəhətdən və zəngin diyarı olan Odlar yurdu - İran, Rusiya, Türkiyə sacayağının qapantısıdır. İllər boyu müqəddəs odun tüstüsü bizim, istisi onların olub İqtisadi baxımdan azərbaycançılıq respublikanın xammal ixrac edən ölkəyə çevirməyi nəzərdə tutur. Respublikanı dünya texnologiyası ilə təmin etmək, hərbi sənaye kompleksi, özəl qurumlar, fermer-kəndli təsərrüfatları yaratmaq respublika qanunları ilə tənzim olunan investisiya qoyuluşunu təmin etmək – milli ideologiyanın iqtisadi tələb və təminatlarındandır.

Cəmiyyəti istiqlaliyyətə,

azadlığa çatdırmaqdan ötrü insan özü azad olmalıdır. Bunun üçün təfəkkürün gəncliyi, düşüncənin təravəti lazımdır. İnsan azadlığı ilk növbədə zəkanın, ehkamların büllur sarayından xilası, nəfsdən, tamahdan çirklənmiş "mən"indən sıyrılması sayəsində mümkündür. Əks halda dövlət əxlaqının formalaşdığı "pozğun" dövlət quruluşunda, satqın, acgöz və xudpəsənd adamlar yetişirlər.

HAKİMİYYƏT - siyasətin mərkəzi, təşkilati və tənzimləyici-nəzarət mənbəyi; siyasi biliyin, ədəbi və təsviri yaradıcılığın ən mühüm və daha qədim problemlərindən biri;

Cəmiyyətin mədəniyyətinin və insanın konkret həyatının problemi. İctimai hadisə və xüsusən siyasi **h.** kimi **h.**-in tədqiqatları onun bir çox probelmlərini başa düşməyə imkan vermişdir. **H.**-in bir sıra problemləri mübahisəli qalmış, onun bəzi aspektləri isə öz izahını gözləyir. Bununla belə, artıq nisbətən bütöv təlim kimi **h.**-dən bəhs etmək və onun ən mühüm tərəflərini işıqlandırmaq üçün əsas vardır.

H.Morgentau yazır ki, "hakimiyyət dedikdə, insanın başqa insanların şüuru üzərində nəzarət etməsi başa düşülür". P.Blaun isə **h.**-i bir fərdin, yaxud qrupun başqaları üzərində öz iradəsini həyata keçirməsi kimi şərh edir.

C.Tompsonun fikrincə, **h.**-dən o zaman danışmaq olar ki, orada ağalıq və tabelik ünsürləri dəqiq təzahür etsin, cəmiyyətin qəbul etdiyi normalar və qanunlarla hər iki tərəfin davranışı şərtləndirilmiş olsun. Həmin normalar və qanunlar müəyyən edirlər ki, əmri verən şəxsin əmrin aid olduğu şəxsdən tabe olmağı tələb etməyə hüququ vardır.

Deməli, sosial qruplar arasında müəyyən münasibətlər sisteminin olması **h.**-in başlıca fərqləndirici əlamətidir. Buradan da **h.**-in insanlar arasında iradi münasibət olması üzə çıxır. M.Veber bu barədə yazırdı: "Hakimiyyət başqa əqidələrlə mübarizədə, belə bir imkanın nəyə əsaslandırılmasından asılı olmayaraq, şəxsi iradəsini yeritmək üçün hər hansı bir imkan deməkdir".

H.-in spesifikliyi ondadadır ki, o yalnız siyasi sahədə deyil,

iqtisadi, hüquqi, əxlaqi, psixoloji formalarda da təzahür edir. Qərb politoloqları bir qayda olaraq, iqtisadi, siyasi, ideoloji, habelə dini, etnik, texniki, bürokratik və hərbi **h.**-dən söhbət açırlar.

Bəziləri dövlət, iqtisadi, kütləvi təşkilatların və informasiya vasitələrinin h.-ini bir-birindən fərqləndirməyi təklif edirlər. Bütün bunları ümumiləşdirmək əsasında Veber h.-in üç növü haqqında danışırdı: iqtisadi h., ideoloji (siyasi) h., hüquqi h. (dövlət h.-i).

"H." anlayışının mahiyyəti xeyli dərəcədə məcburetmə H.-i ilə **NÜFUZ h.**-i arasındakı fərqi müəyyən etməklə üzə çıxır. H.-ə yalnız o şəxs (yaxud qrup) nail ola bilər ki, o birincidir,. yaxşı natiq olsun, ikincisi biliyinə, yaxud qayğıkeşliyinə görə ona etibar olunsun; üçüncüsü, müəyyən vəzifə sahibi olsun; dördüncüsü itaətsizlik halları baş verdikdə sanksiya vermək imkanına malik olsun. Əgər kimsə öz şəxsi keyfiyyətlərinə görə, yaxud vəzifəsinə görə böyük nüfuza malikdirsə və buna görə də istədiyini başqalarına qəbul etdirə bilirsə, bu halda nüfuz hakimiyəti üzə çıxır. Siyasi sistemdə nüfuz dövlət **h.**-i təsisatlarının qəbul etdikləri qanunlara insanların əməl etməyə razı olması deməkdir.

Nüfuz **h.**-indən danışarkən legitimləşdirilmə anlayışına xüsusi diqqət yetirilməlidir. Legitimləşdirmə nüfuz **h.**-nin reallaşdırılmasının geniş əhali kütlələri tərəfindən sanksiyalaşdırılması deməkdir. Cəmiyyətin normal inkişaf etdiyi şəraitdə legitimləşdirmə nüfuz **h.**-nin sabitliyinin təmin edilməsinə kömək edir. Lakin bəzən təcrübədə elə hallar ola bilər ki, formal cəhətdən **h.** başında olan şəxs, faktik olaraq h. legitimlikdən məhrum olur. Bu hal çox vaxt onunla nəticələnir ki, legitimliyi itirən şəxslər ya **h.**-dən kənar edilir, ya da özləri h.-dən "getməli" olurlar.

Mahiyyətcə subyektiv hadisə olan legitimlik fərdlərin mənafelərini ifadə edir. Başqa sözlə, mənafelərinə hansı səviyyədə cavab verməsindən asılı olaraq, fərdlər və sosial qruplar bu və ya başqa sistemə tərəfdar çıxır, yaxud onun əleyhinə hərəkət edirlər. Bu səbəbdən də bəzən **h.** başına gələrkən legitimliyi olmayan dövlət başçısı müəyyən tədbirlərin köməyi ilə sonradan onu qazanır və ya əksinə, legitim yolla seçilmiş dövlət başçısı düzgün siyasət yeritmədiyindən, sonradan onu itirmiş olur (daha çox keçid dövrlərində belə hallara təsadüf olunur).

Beləliklə, **h.** o zaman legitim olur ki, o, birincisi, xalqdan gəlir və çoxluğun iradəsinə uyğun həyata keçirilir, yəni dövlət **h.**-i birbaşa, yaxud dolayısı ilə müəyyən müddətə xalq tərəfindən seçilir və onun tərəfindən nəzarət altında olur; ikincisi, dövlət h.-i konstitusiya prinsiplərinə uyğun surətdə həyata keçirilir.

Lakin **h.**-in legitim olması hələ onun səmərəli olması demək deyildir. Belə ki, h. legitim olduğu halda, səmərəli olmaya bilər. (məs., Stalin h.-i kimi). Əksinə,. məsələn Çilidə P.-in **h.**-i legitim **h.** deyildi, lakin səmərəli idi. O, tarixən qısa müddətdə Çilidə müasir mədəni cəmiyyətin qurulmasını təmin etmişdi.

Deyilənləri yekunlaşdırmaqla, belə bir qənaətə gəlmək olar ki, **h.** xüsusilə onun fəal bir növü olan siyasi h. mürəkkəb və çoxplanlı bir hadisədir. O, universal bir hadisədir və universallığı onun aliliyində ifadə olunur. Siyasətdə **h.**-in reallaşdırılması hər şeydən əvvəl cəmiyyətin bütövlüyünü və vəhdətini saxlamağa xidmət edir.

Siyasi **h.**, müəyyən mənada, bütün digər **h.** növlərinin davamıdır. O, bütün **h.** növlərinə aiddir və onları başqa vasitələrlə davam etdirir. Siyasi **h.**-in xüsusiyyəti ondadır ki, o, yalnız qüvvəyə və zora deyil, həm də ictimai münasibətlərin qanunvericilik yolu ilə tənzimləməyə də əsaslanır və yalnız bu qanunların icrası üçün zor tətbiq edir.

Beləliklə, siyasi **h.** fərdin yaxud **QRUPUN** müvafiq cəmiyyətin hüquq normalarında qanuniləşdirilmiş iradəsini həyata keçirməkdən ibarət real qabiliyyətidir. Siyasi **h.** ağalıq, rəhbərlik, idarəetmə və nəzarət formalarında olur (bax; həmçinin **QRUP, NÜFUZ, SİYASİ MƏRASİM, SİYASİ MÜNASİBƏTLƏR, SİYASİ RƏMZ, CƏMİYYƏTİN SİYASİ SİSTEMİ**).

HAKİMİYYƏTİN BÖLÜŞDÜRÜLMƏSİ - Siyasi və qeyri-siyasi hakimiyyətin

bütün növlərinin fəaliyyət göstərməsinin prinsipial şərtlərindən biri və əsas mexanizmi; digər çox mühüm proseslə - hakimiyyətin verilməsi ilə bağlıdır. H.b. hakimiyyətin birinci (fəal) subyekti (qərar qəbul edən) ilə ikinci (passiv) subyekt (icraçı) arasında münasibətlərin olması xüsusiyyətindən irəli gəlir.

H.b. və verilməsinin bu sadə strukturu adətən xüsusilə intellektusional siyasi (həmçinin qeyri-siyasi iqtisadi, hüquqi, ideoloji və b.d.) prosesdə mürəkkəbləşir. Belə ki, hakimiyyətin daşıyıcısı, icraçısı olan ikinci subyekt bunu sonrakı subyektə verir.

H.b. və verilməsi prosesi təsisat səviyyəsində də baş verir. Bu halda dövlətin və ya başqa siyasi (və qeyri-siyasi təsisatların idarələri hakimiyyət subyekti kimi çıxış edir. Başqa sözlə, qərarları qəbul və icra edən orqanlar arasında - hökumət, onun aparatları, nazirlikləri və idarələrindən tutmuş icraçılara qədər (silahlı qüvvələr, nəzarət orqanları, təhsil sistemi və s.) **H.b.** baş verir. Ona görə də hakimiyyətin bu cür bölüşdürülməsi prosesinin cəmiyyətin siyasi sistemində əməyin bölgüsü və bölüşdürülməsi kimi funksional mənası da var. Bu cür bölgü hələ dövlətin yaranmasının erkən mərhələlərində meydana çıxmış, müxtəlif şəxslərin və təsisatların hakimiyyətinin ixtisaslaşması baş vermişdir. Eyni zamanda tezliklə iki sabit meyl özünü göstərmişdir:

Hakimiyyətin bir şəxsin, yaxud bir təsisatın əlində cəmləşməsi və hakimiyyəti, əməyi və məsuliyyəti bölüşdürmək ehtiyacı. Hakimiyyətə olan bu ikili münasibətdən də iki nəticə doğmuşdur: bir tərəfdən artıq bölüşdürülmüş təsisatların hakimiyyət uğrunda və bu hakimiyyətin bölüşdürülməsinin əleyhinə mübarizəsi, digər tərəfdən, bölüşdürülmüş hakimiyyətlərin münasibətlərini qaydaya salmaq və cəmiyyəti bu hakimiyyətlər arasındakı toqquşmalardan xilas etmək cəhdləri.

Hakimiyyətin ilk böyük bölüşdürülməsi siyasi və dini hakimiyyəti, dövlətin və kilsənin hakimiyyətini ayırdı. Bu bölgü həm də onların arasında uzun sürən mübarizə ilə müşayiət edilirdi. Rəqabət orta əsrlərdən tutmuş yeni dövrün əvvəlinədək

davam etdi. Bu, bəzi dövlət və cəmiyyətlərdə indi də gedir və dünyanın müxtəlif regionlarında nəticəsi heç də birmənalı deyildir. Qərbdə, əsasən xristian ölkələrində hakimiyyət üstündə mübahisələr dünyəvi dövlət hakimiyyətinin xeyrinə həll olunmuşdur. Şərqdə isə bir çox hallarda (bəzi müsəlman ölkələrində) dini təməl cəmiyyətin həyatına, onun siyasi-hüquq sisteminə və mədəni ukladına xeyli siyasi təsir göstərir.

Bununla belə, dünyəvi dövlətin özündə də hakimiyyətin peşə vəzifələrinin bölüşdürülməsi erkən başlamışdır. Hələ Aristotel dünyəvi dövlətdə qanunverici orqanın - magistraturanın icra idarəsinin) və məhkəmə orqanının olduğunu qeyd etmişdi. Mərkəzi və yerli idarəçilik arasında **H.b.** prosesi gedir, cəmiyyətin, hakimiyyətin müxtəlif səviyyəli və müxtəlif vəzifələri həyata keçirən daha mürəkkəb siyasi sistemi yaranırdı. Ən nəhayət, **H.b.** təşkilati baxımdan Yeni dövr dövlətinin əsaslarından biri oldu və vəzifələrinə görüst həld qoyulmuş, eyni zamanda bir-biri ilə bağlı olan hakimiyyət idarələri, aparatları və orqanları sistemi kimi fəaliyyət göstərməkdədir.

XVI-XVII əsrlərdə Qərbi Avropa ölkələrinin əksəriyyətində dağınıq feodal dövlətlərini mərkəzləşdirilmiş mütləqiyyət monarxiyaları əvəz etdi. Bu zaman mərkəzi hakimiyyət inkişaf etmiş və səmərəli idaretmə, müdafiə aparatına ehtiyac duyurdu. Belə aparat isə hökmən ixtisaslaşmalı və bölünməli idi. İnkişaf etməkdə olan ticarət və sənaye burjuaziyası ilk vaxtlar mütləqiyyət monarxiyasını dəstəkləyir və onun möhkəmlənməsinə kömək edirdi, eyni zamanda həm silklər, həm siniflər arasında müəyyən dərəcədə bölüşdürülən hakimiyyəti əldə etmək üçün imkan qazanırdı. Bu imkan isə ilk növbədə yaranmaqda olan parlament (qanunverici və icra) strukturlarına daxil olmaq demək idi.

Bölüşdürülmüş hakimiyyətin sonrakı inkişafı bir neçə paralel yolla getmişdir: parlament strukturlarının mərkəzləşdirilməsi baş verir; hökumətin mərkəzi icra hakimiyyəti, xüsusən onun aparatlarının, dövlət qulluqçuları kadrlarının hakimiyyəti möhkəmlənir və təkmilləşir;

orta əsrlərdə yaranmış nəzarət və məhkəmə sisteminin formalaşması, məhkəmə vəzifələrinin hakim feodal təbəqəsindən ixtisaslaşdırılmış məhkəmə orqanlarına verilməsini başa çatdırdı.

Bu obyektiv proses **H.b.**-nin siyasi-fəlsəfi nəzəriyyəsində nəzəri cəhətdən əsaslandırılır, vətəndaş cəmiyyəti və hüquqi dövlət, konstitusiyalı quruluş layihələri ilə müşayiət olunurdu. Bunların reallaşdırılması hakimiyyətin səmərəli şəkildə bölüşdürülməsinin zəruri şərti idi, bu isə hakimiyyətin nisbətən müstəqil, qarşılıqlı əlaqədə olan və bir-birinə nəzarət edən üç hakimiyyətə bölüşdürülməsindən asılı idi.

Avropada **H.b.** hər yerdə bərabər səviyyədə getmirdi. **H.b.**-nin erkən klassik forması XVII əsrin sonunda İngiltərədə parlamentin yaranması oldu. **H.b.**-nin Amerika strukturu və Fransa inqilabının inqilabi parlament strukturları bu sahədə xüsusi rol oynamışdır. XIX əsrdə Belçikada, Hollandiyada, İtaliyada, sonra isə digər Avropa ölkələrinin əksəriyyətində parlament hakimiyyətinin yaradılması başa çatdı. XX əsrdə formal olaraq **H.b.** strukturları əslində hər yerdə yaradılmışdır.

Bölüşdürülmüş hakimiyyətin qarşılıqlı əlaqəsi hələ də mürəkkəb sosial və siyasi problem olaraq qalır. O, qanunlar və konstitusiya ilə nə qədər uğurla tənzimlənsə də, icra və qanunvericilik hakimiyyətlərinin və məhkəmə hakimiyyətinin nəzarət-tənzimləmə fəaliyyətinin xüsusi çəkisinin real nisbəti ələlxüsus **H.b.** sistemini yenicə mənimsəməyə başlayan ölkələrdə hakimiyyətlərdən birinin xeyrinə dəyişə bilər. Tarixi təcrübə göstərir ki, hakimiyyətin qollarından birinin üstünlük qazanmaq və ya **H.b.**-ni sırf formal qaydaya çevirmək cəhdləri demokratiyanı olduqca zəiflədir və çox təhlükəlidir. **H.b.** formal şəkil aldıqda hansısa digər bir qüvvə - rəsmi hakimiyyət strukturundan kənarda hakimiyyət quran və ya onu əvəz edən qüvvə real hakimiyyəti ələ keçirir. (birpartiyalı sistemə, avtoritar, diktator, totalitar idarə üsuluna malik ölkələrdə).

Bölüşdürülmüş hakimiyyət qolları daxilində də **H.b.**-nin (hökumət daxilində səlahiyyətlərin və vəzifələrin bölgüsü, parlamentlərin müxtəlif mənafeləri (milli və ümumxalq), partiya meyllərini və sosial meylləri təmsil edən, yaxud səlahiyyət, vəzifə, nümayəndəlik və s. üzrə bölünən palatalara ayrılması) əhəmiyyəti az deyil. Məhkəmə hakimiyyəti sistemində konstitusiya məhkəməsinin - hakimiyyətlər arasındakı münasibətlərdə arbitr rolu oynayan nəzarət orqanının yaradılmasının həlledici əhəmiyyəti var.

H.b. prosesi onun təkcə leqal bölüşdürülməsi ilə məhdudlaşmır. Hakimiyyət leqal strukturlar ilə qapalı (leqal olsa da) strukturlar arasında da bölüşdürülür. Bu bölüşdürmə ikili şəkildə olur; 1) leqal təşkilatların qapalı fəaliyyəti (gizli sərəncamlar, əmrlər, qərarlar, konkret tədbirlər və s.); 2) uzun müddət mövcud olan rəsmi, lakin əslində gizli təşkilatlar (təhlükəsizlik, kəşfiyyat, əks-kəşfiyyat orqanları və s.).

Leqallaşdırılmış siyasi və qeyri-siyasi strukturlar, nəinki rəsmi hakimiyyətlə rəqabət aparan, həm də çox vaxt real olaraq geniş miqyasda hakimiyyətə malik rəsmiləşdirilməmiş və ya rəsmiləşdirilmiş, lakin tanınmamış qruplaşmalar, ictimai hərəkatlar, "cəbhələr" də mövcuddur və ola bilər.

Ən nəhayət, hakimiyyət qeyri-leqal və qanuna zidd strukturlar (gizli iqtisadiyyat, mafioz qruplar, rəsmi hakimiyyətin korrupsiyaya qurşanmış nümayəndələri və ya orqanları) ilə də bölüşdürülə bilər.

İctimai və siyasi böhranlar dövründə hakimiyyətin gizli bölüşdürülməsinin bütün formaları nəinki geniş yayıla, həm də son dərəcə təhlükəli ola bilər. Hakimiyyətin gizli strukturlarla bölüşdürülməsi siyasətin kriminallaşması, repressiya tədbirləri, cəmiyyətdə sabitliyin pozulması, siyasi sui-qəsdlər və çevrilişlər üçün şərait yaradır. Siyasi terminologiyada bu hallar kriptoidarə (crirta - yeraltı, gizli sığıncaq) adlanır. Yalnız cəmiyyətin siyasi həyatının demokratikləşdirilməsi H.b.-ni leqal çərçivəyə sala və verəcəyi bütün siyasi səmərəni ondan götürə bilər.

HAKİMİYYƏT DƏHLİZLƏRİ - Bu yaxınlarda meydana gəlmiş ifadə (hərçənd Dizraeli hələ XIX əsrdə təsdiq etmişdir ki, böyük nailiyyətlərə və şöhrət zirvəsinə gedən yollar yalnız ha-

kimiyyət dəhlizlərindən keçir).

Dəhlizlər ifadəsi dövlətə, eyni zamanda qanunvericilik və məhkəmə orqanlarına təsir edən siyasətçilər, lobbistlər, təzyiq göstərən qruplar tərəfindən səhnə arxasında həyata keçirilən, qanunların qəbul olunmasında fəal iştirak edən fenomen mənasında başa düşülür. 60-cı illərə qədər bu ifadə mətbuat səhifələrində "siyasi həyatın kuluarları" ifadəsinin analoqu mənasında işlədilirdi. Lakin Ç.Snounun məşhur "Hakimiyyət dəhlizləri" (1964-cü il) əsərindən sonra bu ifadə hamı tərəfindən qəbul edilmişdir.

İttiham, məzəmmət mənasında da işlədilir. Belə ki, kütləvi siyasi şüurda **H.d.** şübhəli, qaranlıq işlərin, intriqaçılığın, böhranın, yalan strategiyasının hazırlandığı və baş verdiyi yer mənasında başa düşülür. Hər hansı bir təşəbbüs, proqram və ya qanunvericilik aktı siyasi qüvvələr, təsir qrupları, əksər hallarda isə, öz səlahiyyətlərindən kənara çıxan məmurların riyakarlığı ilə, məkrli metodlarla, dövlət strukturlarını aldatmaq və rüşvət vermək yolu ilə səhnə arxasında saxlanıldıqda, müasir politoloqlar bunu "hakimiyyət dəhlizlərinin sindromu" adlandırır və haqqında yazmağa başlayırlar.

Siyasi dildə rast gəldiyimiz H.d. ifadəsinin sinonimi kimi işlədilən siyasi həyatın kuluarları (fr. coloir - dəhliz, səhnə arxası) - siyasi həyatın səhnə arxasındakı fəaliyyəti mənasında dərk olunur (bundan əvvəl isə, XIX əsrin 60-cı illərindən işlənməyə başlanan "teatr kuluarları" ifadəsi mövcud idi); siyasi xadimlərin, eyni əqidəli qrupların üzvlərinin dərdləşdikləri, məlumatlandıqları yer, qanunvericilik məclisinin üzvlərinə təsir göstərilən sahə.

"H.d." ifadəsi eyni zamanda hakimiyyətin coğrafiyası anlamında ölkədə siyasi idarələrin yerləşdiyi ərazi mənasında da işlədilir.

HAKİMİYYƏT DƏYİŞMƏLƏRİ - XX əsrdə Azərbaycan dövlətçiliyi və müstəqilliyi konkret siyasi liderlərin və milli hərəkat rəhbərlərinin ciyərlərində dayanır. Onlardan "Azərbaycan" ideyasını coğrafi-mənəvi anlamdan siyasi müstəviyə keçirən və tarixdə bu adla ilk cümhuriyyəti vücuda

gətirən M.Ə.Rəsulzadəni göstərmək olar. Birinci Respublikanın banisivə müəllifi kimi onun siyasi-nəzəri irsi və fəaliyyəti sonrakı nəsillər üçün də böyük məna və məzmun kəsb etdi. Bu respublikanın yaranmasında ona yaxından köməklik göstərən Fətəli Xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Nəsibbəy Usubbəyov, həsən bəy Ağayev, Mirzəbala Məmmədzadə, Əlağa Şıxlinski, Səməd bəy Mehmandarov və onlarca başqaları öz qanları və canları hesabına bu respublikanı qurub, yaratmış və sonrakı dövlətçiliyin inkişafına səbəb olmuşlar. Bu respublika olmasaydı II respublikada olmayacaqdı. Elmi-nəzəri ədəbiyyatda Sovet respublikası adı ilə tarixə düşən bu dövlət qurumu I və II respublikalar arsında bir vasitə və körpü rolunu oynadı. Onun yaranmasında və inkişafında bolşevik olmaqdan daha çox "müsəlman milli kommunisti" olmuş N.Nərimanov böyük rol oynadı. Azərbaycanın müstəqilliyi tərəfdarı olan bu siyasi xadim həm də onu nümunəvi bir Sovet Respublikasına çevirmək istəyirdi.

Lakin onu bolşevik donuna bürünmüş Mirzəyan kimi erməni millətçiləri elə əhatə etmişdilər ki, o, istədiyini həyata keçirə bilmirdi. Əlindən o gəldi ki, öz etirazını mərkəzə bildirsin. Milli inkişaf üçün ciddi tədbirlər işləyib həyata keçirdi: milli kadrları xaricdən ölkəyə dəvət etdi, siyasi, sosial və mədəni həyatda millətimizi hər vasitə ilə sıxışdırmağa çalışan rus-erməni elementlərinə qarşı çıxdı. Leninə, Stalinə və oğluna yazdığı məktublarında bolşevizmin nəzəriyyə və siyasətini şübhə altına aldı və onun perspektivsizliyini göstərdi, milləti və xalqı qarşısında əlindən gələni etməyə çalışdı. Mərkəz onun bu hərəkətlərinə dərhal reaksiya verdi, onu Azərbaycandan uzaqlaşdırdı və sonra da aradan qaldırdı. N.Nərimanovun həyata keçirə bilmədiklərinin bir qismini 20 il Azərbaycana rəhbərlik etmişq M.C. Bağırov yerinə yetirməyə çalışdı. M.C.Bağırov ən əvvəl onun əl-ayağına dolaşan bolşevik rəsmilərini aradan qaldırdı və bununula da bir növ onlardan heç özü də bilmədən xalq cümhuriyyəti quranların qisasını almış oldu. Sonra respublika-

da qayda-qanun və dəmir intizam yaratdı. Hərçənd ki, bu tədbirlərin həyata keçirilməsi üsulu çox sərt idi və dövrünün bütün ziddiyyətlərini özündə əks etdirirdi. Ona görə də o, repressiyalarla müşayət olunurdu və indi də bu xalqın müəyyən qismində ikrah hissi doğurmaqdadır. M.C. Bağırov bilirdi ki, mərkəzin bu tapşırıqlarını yerinə yetirməsə özü repressiya qurbanına çevriləcəkdir. Lakin bəzilərinin iddia etdikləri kimi M.C.Bağırov heç də öz xalqının düşməni deyildi. O, bunu öz hərəkəti ilə sübuta yetirdi, respublikanı sürülməkdən xilas etdi. Təkcə bu faktın mövcudluğu onun tarixdə müəyyən yer tutmasına haqq qazandırır. M.C.Bağırov Dağlıq Qarabağın üstündə ermənilərlə savaşa girmiş və qalib gəlmişdi. Respublikanın sosial-iqtisadi inkişaf yolunda onun həyata keçirdiyi tədbirlərin çox böyük əhəmiyyəti olmuşdur. Şimali Azərbaycanda öz fitnəkarlıqlarını həyata keçirə bilməyən ermənilər öz acıqlarını Cənubi Azərbaycandan çıxdılar: Sovet qoşunlarını geri çağırmaqla Təbrizi labüd fəlakət qarşısında qoydular, qan su yerinə axdı. Şimala qaça bilənlər də burada repressiya qurbanına çevrildilər. Seyid Cəfər Pişəvəri isə avtomobil qəzasına salınıb həlak edildi. Sonrakı illərdə Azərbaycana rəhbərlik etmiş İman Mustafayev və Vəli Axundov kommunist despot rəhbərlərdən daha çox yumşaq avtoritarlar idilər. Onlar həddən ziyada "milli" olduqlarından mərkəzin etimadını doğrultmamışlar. Stalin –Beriya rejiminin aradan qalxması nəticəsində xalq bir qədər azad nəfəs almağa, sosial-iqtisadi cəhətdən dirçəlməyə, nisbi söz azadlığına, milli-mənəvi təsisatlarını inkişaf etdirməyə imkan əldə etdilər.

1969-cu ildə Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə irəli çəkilməsi onun mövqeyini xeyli möhkəmlətdi və xalqın inamını özünə qaytardı. Sonradan H.Əliyevin Moskvaya rəhbər işə aparılması, orada ali rəhbərlikdən uzaqlaşdırılması, Daşlıq Qarabağ probleminin ortaya atılması ilə Azərbaycanın zəiflədilməsi prosesinə başlandı.

AXC-nin yaranması, Əbülfəz Elçibəy fenomeninin tarix səhnəsinə çıxması, SSRİ-nin dağılma prosesinə qədəm qoyması, milli ucqarlardakı və Azərbaycandakı milli-partikularist hərəkatların silah gücünə yatırılması və xalqın antisovet və antikommunist hərəkatını gücləndirdi. Nəticədə Ə. Vəzirov ölkədən qaçdı və yerinə A.Mütəllibov oturdu. Proses getdikcə dərinləşdi, SSRİ dağıldı, kommunist partiyası qadağan edildi, bir sıra respublikalar kimi Azərbaycan da müstəqilləşdi. Ölkənin birinci prezidenti olmaq A.Mütəllibovun, II prezident olmaq isə Ə.Elçibəyin qismətinə düşdü. Onların hərəsi cəmi bir il *davam gətirə bildilər*. Lakin yeridilən siyasətin dövr və şəraitə adekvat olmaması ucbatından onlar da iflasa uğradılar. Bu iki prezidentin hakimiyyəti illərində milli müstəqilliyin bir sıra simvolları qəbul edildi, Azərbaycan müstəqil bir respublika kimi dünya birliyində özünə yer aldı.

HAKİMİYYƏTİN MƏRKƏZLƏŞDİRİLMƏSİ VƏ MƏRKƏZSİZLƏŞDİRİLMƏSİ - Siyasətdə prosesin birbirini qarşılıqlı surətdə tamamlayan iki tərkib hissəsi, hakimiyyətin cəmləşdirilməsi və bölgünün (vəzifələrin bir hissəsinin əyalətə verilməsi, - bax; **MƏRKƏZ**), idarəetmə və özünüidarənin əlaqələndirilməsi. Onların arasındakı sərhəd dəyişkəndir və adətən hakimiyyətin mərkəzləşdirilməsinin xeyrinə dəyişə bilər. Siyasətdə tarixən məhz bu mərkəzləşdirici proses üstün yer tutur. Bu, hakimiyyətin özünün təbiəti, onun başlıca əsasları - hakim qüvvələrin, təkhakimiyyətliyin, hökmranlığın və tabeçiliyin, toqquşan mənafelərin qaydaya salınması ilə müəyyənləşdirilir. Mərkəzləşdirmə prosesi dövləti meydana gətirmiş, imperiyalar yaradılmasına, feodal dağınıqlığı dövründə torpaqları cəmləşdirmək, millətləri, milli dövlət, monarxiya idarə üsulu formalaşdırmaq, onun istibdad formalarını yaratmaq səylərində ifadəsini tapmışdır. Mərkəzləşdirmə proseslərinin tarixi təkamülü onun səmərəliliyinin səviyyəsini aşkar etmişdir. Bu səviyyə məkrəzləşdirilmiş sistemlərin çeviksizliyi, hökmranlıq, zorakılıq, münasibətlərinin üstün yer tutması, ictimai, siyasi, iqtisadi və mədəni inkişafın sürətinin zəif olması, siyasi sabitliyin durğun formaları,

fövqəlmilli, mühafizkar ideoloji göstərişlər və nəhayət mərkəzçiliyin istibdad, diktatura, avtoritar və totalitar idarə üsulu formalarına çevrilməsi meylləri ilə müəyyən edilir.

Mərkəzləşdirmə ilə yanaşı, mərkəzsizləşdirmə prosesi də təkamül etmişdir. Bu, cəmiyyətin siyasi təşkilinin labüd və səmərəli forması, siyasi prosesin mərkəzləşdirmə kimi zəruri başlanğıcıdır. Mərkəzsizləşdirmə prosesi ona əks proses olan mərkəzləşdirmə prosesini tarazlayır. İdarəetmə və özünüidarə, cəmiyyətin təşkili və özünütəşkili prosesləri kimi prinsiplər də qarşılıqlı əlaqədə olmalı, bir-birini tamamlamalıdır. Tarixdə bütün bu proseslər xeyli sıxışdırılmış və mərkəzləşdirilmənin siyasi, iqtisadi, hüquqi mexanizmləri ilə kəskin mübarizə şəraitində həyata keçirilmişdir. Dövlət və cəmiyyətin, hakimiyyət və xalqın labüd qarşıdurması, insanın öz müqəddəratını təyin etməsi uğrunda, özünümüdafiə, iqtisadi və siyasi, ictimai fikir və fəaliyyət azadlığı uğrunda gedən daimi mübarizə də bununla bağlıdır. Mərkəzsizləşdirmə cəmiyyət həyatının bütün sahələrində siyasətə dinamiklik verir, yaşayış şəraitinin dəyişməsinə daha sürətli münasibət bəsləməyi, qüvvələrlə daha çevik manevr etməyi təmin edir. Çünki onun əsasını idarəetməni siyasi prosesin bilavasitə kütləvi iştirakçılarına yaxınlaşdırmaq vəzifəsi təşkil edir. Mərkəzsizləşdirmə siyasəti demokratikləşdirmənin əsaslarından biri, idarəetmənin, ümumən siyasi sistemin səmərəsini yüksəltməyin və mərkəzləşdirmə prosesi ilə ziddiyyətsiz əlaqələndirildikdə də ictimai inkişafın mühüm vasitəsidir. Ona görə də mərkəzləşdirmə və mərkəzsizləşdirmənin nisbəti sosial inqilabların, iri ictimai islahatların, siyasi hərəkatların əsas məsələlərindən biridir. Bu baxımdan siyasətin təraqqisi onların arasındakı tarazlaşdırmadan, dövlətin hədsiz müdaxiləsinin, tənzimlənməsinin və idarəetmə sahəsində islahatlara nəzarətin bir-birini əvəz etməsinə və sonra mərkəzləşdirmənin yeni dövrlərinə - siyasətdə hər iki əsasın vahid demokratik prosesdə tənzimlənmiş əlaqələndirilməsinə keçməkdən ibarətdir.

HEGEMONİZM - (yunanca hegemonia - ağalıq) - bir subyektin öz baxışlarını, siyasi məqsədlərini, siyasəti digər subyektə (yaxud subyektlərə) zorla qəbul etdirməsi. H. insanlar, siyasi təşkilatlar və ictimai hərəkatlar, xalqlar və dövlətlər arasındakı münasibətlərdə mövcud ola bilər. H.-in əsasını insanların, xalqların, millətlərin qeyri-bərabər mənəvi və intellektual səviyyəsi haqqında irqçi ideyalar, elitanın öz iradəsini "aşağılara" diktə etdirmək hüququ təşkil edir. H., özünün iri dövlətçilik iradəsini başqa ölkələrə və xalqlara zorla qəbul etdirən faşist və diktator rejimlərinin siyasətində daha aşkar ifadəsini tapır.

HEGEMONLUQ - hər hansı siyasi qüvvənin, sinfin (burjuaziyanın hegemonluğu, proletariatın hegemonluğu), dövlətin (öz təbəqələrinə, digər dövlətlərə münasibətlərdə) başçı mövqeyi, yaxud onun təzahürü. H. hakimiyyət demək deyildir, iki başlanğıcın - təsir və üstünlüyün hegemonluğun ən son həddinə-hökmranlığa gətirib çıxaran cəmidir. H.-un müxtəlif - mədəni, ideoloji, siyasi növlərindən sonuncusu adətən daha çox təzahür edir. H.-un miqyası böyük və qüdrətli dövlətlərdən birinin qitədə H.-undan hər hansı dövlətin dünyada h.-una qədər ola bilər. Belə miqyaslarda h. uğrunda mübarizə həmişə xüsusilə gərgin olmuşdur. O, dövlətlər arasındakı rəqabətləri, onların münasibətlərini (məs., Avropada Almaniya və Böyük Britaniyanın, Antanta ölkələri blokunun və "ox" ölkələrinin, Uzaq Şərqdə Rusiya və Yaponiyanın toqquşmaları), dövlətlər koalisiyalarının yaranması və onların arasındakı münaqişələri (məs., faşist-militarist dövlətlər blokuna qarşı çıxış etmiş Antihitler koalisiyasının mübarizəsi) müəyyən etmişdir.

HELSİNKİ PROSESİ - Avropada təhlükəsizlik və əməkdaşlığa dair müşavirədən (ATƏM, 1972-75-ci illər; 1994-cü ilin dekabrından ATƏT adlanır) başlayaraq Avropa problemlərinin geniş dairəsi üzrə çoxtərəfli danışıqların aparıldığı toplantılar silsiləsi. İlk əvvəl ATƏM-də 35 dövlət iştirak edirdi: 33 Avropa dövləti (Albaniyadan başqa hamısı), ABŞ və Kanada. 1990-cı ilin iyunundan

Albaniya müşahidəçi kimi ATƏM-ə qoşuldu. 1990-cı il oktyabrın 3-də Almaniya yenidən birləşdikdən sonra ATƏM-də 34 dövlət qaldı.

H.p. çərçivəsində çoxtərəfli danışıqlar problemlərin geniş dairəsini əhatə edir: Avropada təhlükəsizlik məsələləri (dövlətlərarası münasibətlərin prinsipləri, onlardan bəzilərinin həyata keçirilməsi, təhlükəsizliyin hərbi nöqteyi-nəzərləri); iqtisadiyyat, elm və texnika, ətraf mühit sahələrində əməkdaşlıq; Aralıq dənizi rayonunda təhlükəsizlik məsələləri; humanitar və digər sahələrdə əməkdaşlıq.

Helsinki Yekun aktının (1975) müddəalarına əsasən Müşavirədən sonra 1977-ci ildən etibarən ATƏM-in toplantıları ardıcıl olaraq keçirilir. H.p. infrastrukturunun əsasını iştirakçı dövlətlərin nümayəndələrinin müntəzəm görüşləri təşkil edir (Belqrad, 1977-78 illər; Madrid, 1980-83 illər; Vyana, 1986-89 illər və s.). görüşlər arasındakı dövrdə ixtisaslaşmış toplantılar, ekspertlərin müşavirələri, ATƏM-in gündəliyində duran məsələlərin müxtəlif sahələrinə həsr olunan konfranslar, toplantılar, seminarlar, simpoziumlar keçirilir; mübahisələrin sülh yolu ilə tənzimlənməsi metodunun (Montr, 1978 il; Afina, 1984 il; Valletta, 1991 il və s.), etimad və təhlükəsizliyin möhkəmləndirilməsi tədbirlərinin (Stokholm, 1984-86 illər; Vyana, 1989 il və s.) işlənib hazırlanmasına, iqtisadi (Bonn, 1990 il) və ekoloji əməkdaşlığa, Aralıq dənizinə dair (Valletta, 1979 il; Venesiya, 1984 il; Palma-de-Mayorka, 1990 il və s.), insan hüquqlarına və adamlar arasında əlaqələrə (Ottava, 1985 il; Bern, 1986 il), informasiya (London, 1989 il), elmi (Hamburq, 1978 il) və mədəni əməkdaşlığa (Budapeşt, 1985 il; Krakov, 1991 il) əməkdaşlığa, milli azadlıqlara (Cenevrə, 1991 il), demokratik təşkilatlara (Oslo, 1991 il, ATƏM-in insan meyarlarına (Paris, 1989 il; Kopenhagen, 1990 il; Moskva, 1991 il və s.) dair və i.a.

1989-cu ildən ATƏM prosesi çərçivəsində Varşava Müqaviləsi Təşkilatı (VMT) və NATO üzvləri olan 23 (1990 ilin oktyabrından 22) dövlətin iştirakı ilə Avropada adi silahlı qüvvələrə dair danışıqlar aparılmışdır.

1990-cı il noyabrın 19-21-də Parisdə keçirilmiş yüksək səviyyəli görüş **H.p.**-nin təsisatlaşmasının başlanğıcını qoydu. Yeni Avropa üçün Paris xartiyası "ATƏM prosesinin yeni strukturları və təsisatları haqqında əsasnaməni özündə əks etdirirdi. İki ildə bir dəfə ATƏM çərçivəsində dövlət və hökumət başçılarının görüşlərini keçirmək qərara alındı.

İldə bir dəfədən az olmayaraq xarici işlər nazirlərinin iştirakı ilə Şura toplanmalı idi (Şuranın ilk sessiyası 1991-ci ilin iyununda Berlində keçirilmişdir). Böyük vəzifəli şəxslərin Komitəsi Şuranın iclasını hazırlamaq və onun qərarlarını yerinə yetirmək üçün toplaşır. ATƏM-in katibliyi (Praqada), münaqişələrin qarşısını almaq Mərkəzi (Vyanada), Azad Seçkilər üzrə Bürosu (Varşavada) yaradılmışdır. ATƏM-in parlament strukturu yaradıldı.

ATƏM-in rəsmi qaydaları nəzərdə tutur ki, bütün dövlətlər onun toplantılarında "suveren və müstəqil dövlətlər kimi və tam bərabərlik şəraitində iştirak edirlər. ATƏM-də danışıqlar "hərbi ittifaqlardan kənarda" keçirilir. Bütün qərarlar konsensus əsasında qəbul edilir. ATƏM-in qəti gündəliyi yoxdur: hər hansı nümayəndə heyəti onu maraqlandıran istənilən məsələni müzakirəyə çıxara bilər.

1990-cı ilə qədər **H.p.**-nin bütün iştirakçıları formal olaraq müstəqil dövlətlər kimi çıxış etsələr də, əməli işdə ölkələrin müxtəlif qrupları öz mövqelərini sıx əlaqələndirirdilər. ATƏM-dəki ənənəvi qruplar BMT-nin 7 ölkəsinin (1990 ilin yazında bu qrupun varlığına son qoyuldu), NATO-nun 16 ölkəsinin, AB-nin 9, sonra isə 12 ölkəsinin (son illərdə bu qrup NATO-nun ATƏM-dəki ələrinə, digər dövlətlərə münasibətlərdə) başçılıq mövqeyi, yaxud onun təzahürü. **H.** hakimiyyət demək deyildir, iki başlanğıcın - təsir və üstünlüyün hegemonluğun ən son həddinə-hökmranlığa gətirib çıxaran cəmidir. **H.**-un müxtəlif - mədəni, ideoloji, siyasi növlərindən sonuncusu adətən daha çox təzahür edir. **H.**-un miqyası böyük və qüdrətli dövlətlərdən birinin qitədə **H.**-undan hər hansı dövlətin dünyada h.-una qədər ola bilər. Belə miqyaslarda h. uğrunda

mübarizə həmişə xüsusilə gərgin olmuşdur. O, dövlətlər arasındakı rəqabətləri, onların münasibətlərini (məs., Avropada Almaniya və Böyük Britaniyanın, Antanta ölkələri blokunun və "ox" ölkələrinin, Uzaq Şərqdə Rusiya və Yaponiyanın toqquşmaları), dövlətlər koalisiyalarının yaranması və onların arasındakı münaqişələri (məs., faşist-militarist dövlətlər blokuna qarşı çıxış etmiş Antihitler koalisiyasının mübarizəsi) müəyyən etmişdir.

HELSİNKİ PROSESİ - Avropada təhlükəsizlik və əməkdaşlığa dair müşavirədən (ATƏM, 1972-75-ci illər; 1994-cü ilin dekabrından ATƏT adlanır) başlayaraq Avropa problemlərinin geniş dairəsi üzrə çoxtərəfli danışıqların aparıldığı toplantılar silsiləsi. İlk əvvəl ATƏM-də 35 dövlət iştirak edirdi: 33 Avropa dövləti (Albaniyadan başqa hamısı), ABŞ və Kanada. 1990-cı ilin iyunundan Albaniya müşahidəçi kimi ATƏM-ə qoşuldu. 1990-cı il oktyabrın 3-də Almaniya yenidən birləşdikdən sonra ATƏM-də 34 dövlət qaldı.

H.p. çərçivəsində çoxtərəfli danışıqlar problemlərin geniş dairəsini əhatə edir: Avropada təhlükəsizlik məsələləri (dövlətlərarası münasibətlərin prinsipləri, onlardan bəzilərinin həyata keçirilməsi, təhlükəsizliyin hərbi nöqteyi-nəzərləri); iqtisadiyyat, elm və texnika, ətraf mühit sahələrində əməkdaşlıq; Aralıq dənizi rayonunda təhlükəsizlik məsələləri; humanitar və digər sahələrdə əməkdaşlıq.

Helsinki Yekun aktının (1975) müddəalarına əsasən Müşavirədən sonra 1977-ci ildən etibarən ATƏM-in toplantıları ardıcıl olaraq keçirilir. **H.p.** infrastrukturunun əsasını iştirakçı dövlətlərin nümayəndələrinin müntəzəm görüşləri təşkil edir (Belqrad, 1977-78 illər; Madrid, 1980-83 illər; Vyana, 1986-89 illər və s.). görüşlər arasındakı dövrdə ixtisaslaşmış toplantılar, ekspertlərin müşavirələri, ATƏM-in gündəliyində duran məsələlərin müxtəlif sahələrinə həsr olunan konfranslar, toplantılar, seminarlar, simpoziumlar keçirilir; mübahisələrin sülh yolu ilə tənzimlənməsi metodunun (Montr, 1978 il; Afina, 1984 il; Valletta, 1991 il və s.), etimad və təhlükəsizliyin möhkəmləndirilməsi tədbirlərinin (Stokholm, 1984-86 illər; Vyana, 1989 il və s.) işlənib hazırlanmasına, iqtisadi (Bonn, 1990 il) və ekoloji əməkdaşlığa, Aralıq dənizinə dair (Valletta, 1979 il; Venesiya, 1984 il; Palma-de-Mayorka, 1990 il və s.), insan hüquqlarına və adamlar arasında əlaqələrə (Ottava, 1985 il; Bern, 1986 il), informasiya (London, 1989 il), elmi (Hamburq, 1978 il) və mədəni əməkdaşlığa (Budapeşt, 1985 il; Krakov, 1991 il) əməkdaşlığa, milli azadlıqlara (Cenevrə, 1991 il), demokratik təşkilatlara (Oslo, 1991 il, ATƏM-in insan meyarlarına (Paris, 1989 il; Kopenhagen, 1990 il; Moskva, 1991 il və s.) dair və i.a.

1989-cu ildən ATƏM prosesi çərçivəsində Varşava Müqaviləsi Təşkilatı (VMT) və NATO üzvləri olan 23 (1990 ilin oktyabrından 22) dövlətin iştirakı ilə Avropada adi silahlı qüvvələrə dair danışıqlar aparılmışdır.

1990-cı il noyabrın 19-21-də Parisdə keçirilmiş yüksək səviyyəli görüş **H.p.**-nin təsisatlaşmasının başlanğıcını qoydu. Yeni Avropa üçün Paris xartiyası "ATƏM prosesinin yeni strukturları və təsisatları haqqında əsasnaməni özündə əks etdirirdi. İki ildə bir dəfə ATƏM çərçivəsində dövlət və hökumət başçılarının görüşlərini keçirmək qərara alındı.

İldə bir dəfədən az olmayaraq xarici işlər nazirlərinin iştirakı ilə Şura toplanmalı idi (Şuranın ilk sessiyası 1991-ci ilin iyununda Berlində keçirilmişdir). Böyük vəzifəli şəxslərin Komitəsi Şuranın iclasını hazırlamaq və onun qərarlarını yerinə yetirmək üçün toplaşır. ATƏM-in katibliyi (Praqada), münaqişələrin qarşısını almaq Mərkəzi (Vyanada), Azad Seçkilər üzrə Bürosu (Varşavada) yaradılmışdır. ATƏM-in parlament strukturu yaradıldı.

ATƏM-in rəsmi qaydaları nəzərdə tutur ki, bütün dövlətlər onun toplantılarında "suveren və müstəqil dövlətlər kimi və tam bərabərlik şəraitində iştirak edirlər. ATƏM-də danışıqlar "hərbi ittifaqlardan kənarda" keçirilir. Bütün qərarlar konsensus əsasında qəbul edilir. ATƏM-in qəti gündəliyi yoxdur: hər hansı nümayəndə heyəti onu maraqlandıran istənilən məsələni müzakirəyə çıxara bilər.

1990-cı ilə qədər **H.p.**-nin bütün iştirakçıları formal olaraq müstəqil dövlətlər kimi çıxış etsələr də, əməli işdə ölkələrin müxtəlif qrupları öz mövqelərini sıx əlaqələndirirdilər. ATƏM-dəki ənənəvi qruplar BMT-nin 7 ölkəsinin (1990 ilin yazında bu qrupun varlığına son qoyuldu), NATO-nun 16 ölkəsinin, ATƏM-nin 9, sonra isə 12 ölkəsinin (son illərdə bu qrup NATO-nun ATƏM-dəkiələrinə, digər dövlətlərə münasibətlərdə) başcıl mövqeyi, yaxud onun təzahürü. H. hakimiyyət demək deyildir, iki başlanğıcın - təsir və üstünlüyün hegemonluğun ən son həddinə-hökmranlığa gətirib çıxaran cəmidir. H.-un müxtəlif - mədəni, ideoloji, siyasi növlərindən sonuncusu adətən daha çox təzahür edir. H.-un miqyası böyük və qüdrətli dövlətlərdən birinin qitədə H.-undan hər hansı dövlətin dünyada h.-una qədər ola bilər. Belə miqyaslarda h. uğrunda mübarizə həmişə xüsusilə gərgin olmuşdur. O, dövlətlər arasındakı rəqabətləri, onların münasibətlərini (məs., Avropada Almaniya və Böyük Britaniyanın, Antanta ölkələri blokunun və "ox" ölkələrinin, Uzaq Şərqdə Rusiya və Yaponiyanın toqquşmaları), dövlətlər koalisiyalarının yaranması və onların arasındakı münaqişələri (məs., faşist-militarist dövlətlər blokuna qarşı çıxış etmiş Antihitler koalisiyasının mübarizəsi) müəyyən etmişdir.

HELSİNKİ PROSESİ - Avropada təhlükəsizlik və əməkdaşlığa dair müşavirədən (ATƏM, 1972-75-ci illər; 1994-cü ilin dekabrından ATƏT adlanır) başlayaraq Avropa problemlərinin geniş dairəsi üzrə çoxtərəfli danışıqların aparıldığı toplantılar silsiləsi. İlk əvvəl ATƏM-də 35 dövlət iştirak edirdi: 33 Avropa dövləti (Albaniyadan başqa hamısı), ABŞ və Kanada. 1990-cı ilin iyunundan Albaniya müşahidəçi kimi ATƏM-ə qoşuldu. 1990-cı il oktyabrın 3-də Almaniya yenidən birləşdikdən sonra ATƏM-də 34 dövlət qaldı.

H.p. çərçivəsində çoxtərəfli danışıqlar problemlərin geniş dairəsini əhatə edir: Avropada təhlükəsizlik məsələləri (dövlətlərarası münasibətlərin prinsipləri, onlardan bəzilərinin həyata keçirilməsi, təhlükəsizliyin hərbi

nöqteyi-nəzərləri); iqtisadiyyat, elm və texnika, ətraf mühit sahələrində əməkdaşlıq; Aralıq dənizi rayonunda təhlükəsizlik məsələləri; humanitar və digər sahələrdə əməkdaşlıq.

Helsinki Yekun aktının (1975) müddəalarına əsasən Müşavirədən sonra 1977-ci ildən etibarən ATƏM-in toplantıları ardıcıl olaraq keçirilir. H.p. infrastrukturunun əsasını iştirakçı dövlətlərin nümayəndələrinin müntəzəm görüşləri təşkil edir (Belqrad, 1977-78 illər; Madrid, 1980-83 illər; Vyana, 1986-89 illər və s.). görüşlər arasındakı dövrdə ixtisaslaşmış toplantılar, ekspertlərin müşavirələri, ATƏM-in gündəliyində duran məsələlərin müxtəlif sahələrinə həsr olunan konfranslar, toplantılar, seminarlar, simpoziumlar keçirilir; mübahisələrin sülh yolu ilə tənzimlənməsi metodunun (Montr, 1978 il; Afina, 1984 il; Valletta, 1991 il və s.), etimad və təhlükəsizliyin möhkəmləndirilməsi tədbirlərinin (Stokholm, 1984-86 illər; Vyana, 1989 il və s.) işlənib hazırlanmasına, iqtisadi (Bonn, 1990 il) və ekoloji əməkdaşlığa, Aralıq dənizinə dair (Valletta, 1979 il; Venesiya, 1984 il; Palma-de-Mayorka, 1990 il və s.), insan hüquqlarına və adamlar arasında əlaqələrə (Ottava, 1985 il; Bern, 1986 il), informasiya (London, 1989 il), elmi (Hamburq, 1978 il) və mədəni əməkdaşlığa (Budapeşt, 1985 il; Krakov, 1991 il) əməkdaşlığa, milli azadlıqlara (Cenevrə, 1991 il), demokratik təşkilatlara (Oslo, 1991 il, ATƏM-in insan meyarlarına (Paris, 1989 il; Kopenhagen, 1990 il; Moskva, 1991 il və s.) dair və i.a.

1989-cu ildən ATƏM prosesi çərçivəsində Varşava Müqaviləsi Təşkilatı (VMT) və NATO üzvləri olan 23 (1990 ilin oktyabrından 22) dövlətin iştirakı ilə Avropada adi silahlı qüvvələrə dair danışıqlar aparılmışdır.

1990-cı il noyabrın 19-21-də Parisdə keçirilmiş yüksək səviyyəli görüş H.p.-nin təsisatlaşmasının başlanğıcını qoydu. Yeni Avropa üçün Paris xartiyası "ATƏM prosesinin yeni strukturları və təsisatları haqqında əsasnaməni özündə əks etdirirdi. İki ildə bir dəfə ATƏM çərçivəsində dövlət və hökumət başçılarının görüşləri-

ni keçirmək qərara alındı.

İldə bir dəfədən az olmayaraq xarici işlər nazirlərinin iştirakı ilə Şura toplanmalı idi (Şuranın ilk sessiyası 1991-ci ilin iyununda Berlində keçirilmişdir). Böyük vəzifəli şəxslərin Komitəsi Şuranın iclasını hazırlamaq və onun qərarlarını yerinə yetirmək üçün toplaşır. ATƏM-in katibliyi (Praqada), münaqişələrin qarşısını almaq Mərkəzi (Vyanada), Azad Seçkilər üzrə Bürosu (Varşavada) yaradılmışdır. ATƏM-in parlament-strukturu yaradıldı.

ATƏM-in rəsmi qaydaları nəzərdə tutur ki, bütün dövlətlər onun toplantılarında "suveren və müstəqil dövlətlər kimi və tam bərabərlik şəraitində iştirak edirlər. ATƏM-də danışıqlar "hərbi ittifaqlardan kənarda" keçirilir. Bütün qərarlar konsensus əsasında qəbul edilir. ATƏM-in qəti gündəliyi yoxdur: hər hansı nümayəndə heyəti onu maraqlandıran istənilən məsələni müzakirəyə çıxara bilər.

1990-cı ilə qədər **H.p.**-nin bütün iştirakçıları formal olaraq müstəqil dövlətlər kimi çıxış etsələr də, əməli işdə ölkələrin müxtəlif qrupları öz mövqelərini sıx əlaqələndirirdilər. ATƏM-dəki ənənəvi qruplar BMT-nin 7 ölkəsinin (1990 ilin yazında bu qrupun varlığına son qoyuldu), NATO-nun 16 ölkəsinin, AB-nin 9, sonra isə 12 ölkəsinin (son illərdə bu qrup NATO-nun ATƏM-dəki rolunu hiss ediləcək səviyyədə sıxışdırmışdır) mənafelərini təmsil edən qrupları idi. **H.p.** çərçivəsində bitərəf və bloklara qoşulmayan ölkələr xüsusi rol oynayırlar. Onların mühüm vasitəçilik rolu bunda öz əksini tapırdı ki, bu qrupun nümayəndələri, bir qayda olaraq, redaksiya qruplarının daimi əlaqələndiriciləri təyin edilirdilər. **H.p.** çərçivəsində aparılan danışıqların mühüm cəhəti (daha çox 1990 ilə qədər) həmişə dövlətlərin əsas qruplarının mənafe və mövqelərinin uyğunsuzluğu olmuşdur. Məhz bu cəhət tamam proses kimi **H.p.**-nin həyatiliyini təmin etmişdir: müxtəlif məsələlərdə tərəflərin qarşılıqlı güzəştləri iştirakçıların çoxunun prosesin davam etdirilməsinə marağını saxlamışdır.

H.p. ənənəvi olaraq Avropada Şərqlə Qərb arasındakı münasibətlərin tənzimləyicisi kimi mühüm rol oynamışdır.

ATƏM sənədləri üzrə təəhhüdlər siyasi xarakterli olub hüquqi qüvvə daşımasalar da, bunlar proses inkişaf etdikcə dövlətlərin istər öz aralarındakı, istərsə də öz vətəndaşlarına münasibətindəki davranışlarını getdikcə daha mükəmməl reqlamentləşdirməyə xidmət edirdi. Vəzifələrinə ATƏM sənədləri üzrə təəhhüdlərin yerinə yetirilməsi haqqında dərin fikir mübadiləsi aparmağın da daxil olduğu iştirakçı dövlətlərin nümayəndələrinin müntəzəm görüşləri, 1989-cu ildən isə Vyanada insan hüququ haqqında razılaşdırılmış xüsusi mexanizmi getdikcə daha yüksək səviyyədə əldə edilmiş razılaşmalara riayət olunması üzərində səmərəli beynəlxalq nəzarəti həyata keçirməyə təminat verir.

ATƏM-in reqlamentləşdiricilik funksiyası onun bir sıra sənədlərində daha aydın surətdə öz əksini tapmışdır: humanitar istiqamətdə irəliləyişi təmin etmiş Vyana görüşü; Avropada iqtisadi əməkdaşlığa dair Bonn konfransı (burada bazar iqtisadiyyatının, xüsusi mülkiyyətin müsbət rolu bəyənilmişdir) və ATƏM-in insan meyarları üzrə Kopenhagen konfransı (burada hüquqi dövlət, azad seçkilər, siyasi plüralizm konsepsiyalarının ətraflı təsviri verilmişdir). Universal dəyərlərin (insan hüququ və demokratiya, iqtisadi azadlıq və məsuliyyət, təhlükəsizlik) dərk olunması prosesinin tədricən formalaşması 1990-cı il Paris xartiyasında əksini tapmışdır.

1990-cı ildən başlayaraq Avropanın Şərq və Qərbə parçalanmasının faktik olaraq aradan qaldırıldığı şəraitdə, ATƏM-in onların arasındakı münasibətləri tənzimləmək vəzifələri ikinci plana keçdi. Avropa Birliyinin tədricən əldə edilməsində ATƏM-in rolu, onun yeni strukturlarının Avropanın gələcək arxitekturasında yeri məsələləri getdikcə daha çox diqqəti cəlb etməyə başladı.

Azərbaycanın informasiya blokadası şəraitində erməni təbliğatının dünya ictimai fikrinə fəal təsiri sayəsində şişirdilmiş "Dağlıq Qarabağ problemi"nin əsl mahiyyəti Azərbaycanın Xocalı şəhərinin erməni işğalçıları tərəfindən işğalından və yandırılmasından, əhalisinin isə vəhşicəsinə qırılmasından

(1992, 25-26 fevral) sonra aşkar oldu. Məhz Xocalı faciəsindən sonra 1992-ci ilin martından ATƏM-in Dağlıq Qarabağ hadisələrinə münasibəti nisbətən fəallaşdı. Ermənİ təcavüzkarlarının Azərbaycanın qədim şəhəri Şuşanı işğal etməsi (1992, 8 may) bu məsələyə münasibəti dəyişməyin zəruriliyini bir daha təsdiq etdi. 1992-ci ilin mayında 9 dövlətin, o cümlədən Ermənistan və Azərbaycan nümayəndələrinin daxil olduğu ATƏM-in Minsk qrupu yaradıldı (bax; **ATƏT-in MİNSK QRUPU**).

HƏMKARLAR İTTİFAQLARI - muzdlu işçilərin kütləvi ictimai təşkilatları; əmək prosesində işçilərin mənafeyinin ümumiliyinə əsaslanır və öz üzvlərinin yaşayış, əmək şəraitini yaxşılaşdırmaq məqsədi daşıyır.

H.i. XVIII əsrin ikinci yarısında özlərinin peşə mənafelərini müdafiə etmək və sosial statusunu qorumaq üçün birləşən yüksək ixtisaslı fəhlələrin assosiasiyası kimi meydana gəlmişdi. XIX əsrdə Avropa və Amerikanın inkişaf etmiş ölkələrinin hamısında **H.i.** yaranmışdı. Həmin əsrin axırlarında istehsal sahə **H.i.** yaranır, milli həmkarlar ittifaqı mərkəzləri (bunlardan ən qədimi Britaniya tred-yunionları konqresi idi - 1868-ci il) meydana çıxır. H.i.-nın sosial bazası genişlənir - yarımixtisaslı və ixtisassız işçiləri birləşdirən təşkilatlar da meydana gəlir. **H.i.** əsasən maddi istehsal sahələrində yaranır və fiziki əməklə məşğul olan işçiləri özünə cəlb edirdi. XX əsrin əvvəlində beynəlxalq federasiyalar və təsərrüfatın bir sahəsində çalışan fəhlələrin **H.i.** yaranır. Azərbaycanda ilk həmkarlar ittifaqı 1905-ci ilin oktyabrında Bakıda meydana gəlmişdir. Asiya və Afrika ölkələrində həmkarlar ittifaqı hərəkatının geniş inkişafı İkinci dünya müharibəsindən sonrakı dövrə təsadüf edir.

Hələ XIX əsrin 70-ci illərində həmkarlar ittifaqı hərəkatında müxtəlif ideoloji cərəyanlar (tred-yunionçuluq, anarxizm-sindikalizm, xristian sindikalizmi, inqilabçı sosial-demokratiya ilə bağlı cərəyan) formalaşmağa başlamışdı.

Rusiyada 1917-ci il oktyabr hadisələrindən sonra dünya fəhlə və sosialist hərəkatında olduğu kimi, həmkarlar ittifaqı

hərəkatında da ideoloji parçalanma gücləndi. Bu, sinfi mübarizə, islahatların rolu, **H. i.**-nın fəaliyyətində iqtisadi və siyasi mübarizənin nisbəti, siyasi partiyalarla qarşılıqlı münasibətlər məsələlərində üzə çıxırdı. İstər İkinci dünya müharibəsindən əvvəlki, istərsə də müharibədən sonrakı dövrdə bu parçalanma beynəlxalq həmkarlar ittifaqları mərkəzlərinin fəaliyyyətində təşkilatı cəhətdən əksini tapdı.

Müxtəlif məlumatlara görə, 90-cı illərin əvvəlində dünya həmkarlar ittifaqı hərəkatı 500-600 milyon nəfəri və ya muzdlu əmək ordusunun 40-45 faizini birləşdirirdi. Avropa və Amerikanın sənayeçə inkişaf etmiş ölkələrinin bir çoxunda **H.i.**, maddi istehsalın ənənəvi sahələrində çalışanlar da daxil olmaqla, muzdlu işçilər kütləsinin heç də hamısını əhatə etməmişdir. H.i.-nın böhran keçirməsi iqtisadiyyatın strukturca yenidən qurulması və elmi-texniki inqilabla əlaqədar əməyin xarakterində və məşğulluğun sahə strukturunda baş verən dəyişikliklər ilə **H.i.**-nın fəaliyyətinin uyğunsuzluğundan irəli gəlir. Ona görə də **H.i.**-nın fəaliyyət dairəsini genişləndirmək - muzdlu işçinin mənafeyini bilavasitə onun iş yerində müdafiə etməkdən (əmək haqqı, əmək şəraiti problemləri) işçinin mənafeyinin daha geniş mənada (istehsalın idarə olunması, istirahət, təhsil) müdafiəsinə keçmək cəhdləri müşahidə edilir. Bəşəriyyətin qlobal problemlərinin əhəmiyyətinin artması ilə əlaqədar bir çox ölkələrin **H.i.** və ilk növbədə beynəlxalq həmkarlar ittifaqları mərkəzləri digər kütləvi demokratik hərəkatlarla birlikdə həmin problemlərin həllinə fəal surətdə qoşulmuşdur.

H.i.-nın siyasi vəzifələri prinsip etibarilə müxtəlif tipli cəmiyyətlərdə bir-birindən fərqlənir. Totalitar cəmiyyətdə **H.i.** mövcud olsa belə, o, hərəkəti partiyadan "kütləyə" ötürən "ötürücü qayış" (Stalin) rolu oynayır, çox vaxt daxili, əsasən təsərrüfat məsələlərini, kollektivlərin istehsalat işlərini həll edir. Belə cəmiyyətdə **H.i.** digər idarəetmə sistemlərini təkrarlayaraq istehsalın təşkilində də iştirak edə bilər. Digər siyasi rejimlərin demokratikləşdirilməsi istehsalın ən müxtəlif sahələrində

çalışan adamların böyük bir kütləsinin siyasi həyatının tam hüquqlu iştirakçıları və təşkilatçıları kimi **H.i.**-nın siyasi rolunun genişlənməsi ilə bilavasitə bağlıdır. Kütləvi hərəkatlarla, əmək və istehsalın, işçilərin və işverənlərin münasibətləri ilə bağlı olan **H.i.**-nın siyasi fəallığı cəmiyyətin siyasi həyatının inkişafının meyarıdır.

HƏMRƏYLİK - mənafe və məqsədlərin yaxınlığı, yaxud ümumiliyi əsasında fəaliyyət və baxışlarda yekdillik.

HƏRBİ QÜDRƏT, dövlətin (dövlətlər koalisiyasının) hərbi qüdrəti - istər beynəlxalq aləmdə, istərsə də ayrı-ayrı ölkələrin daxilində müəyyən hərbi-siyasi məqsədlər əldə etmək üçün istifadə olunan maddi və mənəvi imkanların məcmusu: bura təcavüz, yaxud onu dəf etmək məqsədilə müharibəyə hazırlaşmaq və onu aparmaq, müharibənin qarşısını almaq, qlobal, məhəlli, milli təhlükəsizliyin təmin olunması və i.a. daxildir. **H.q.** - ölkənin (koalisiyanın) funksional təyinatı irəlicədən aşkar ifadə olunan ümumi qüdrətidir. Dövlətin (koalisiyanın) hərbi-siyasi məqsədlərindən, siyasətinin məzmun və istiqamətindən asılı olaraq **H.q.** müdafiə, yaxud hücum xarakterli ola bilər. Adətən bu, dövlətlərin (koalisiyaların) hərbi siyasətində və hərbi doktrinasında əks olunur. Sülhsevər dövlətlərin **H.q.** müdafiə, təcavüzkar dövlətlərinki isə hücum xarakterli olur. **H.q.** həmişə siyasətin aləti, müəyyən hərbi-siyasi şəraitdə onun vasitəsi kimi çıxış edir.

Öz vəziyyətinə görə **H.q.** ya potensial, ya da fəaliyyət göstərən kimi səciyyələndirilir. Potensial H.q. ölkənin, cəmiyyətin, onların hərbi təşkilatının bütün qüvvələrinin gərginləşdirilməsi şəraitində dövlətin müharibə zamanı fəaliyyət göstərən amillərinə çevrilən maksimum imkanlardan ibarətdir. Məsələn, faşist Almaniyasının Sovet İttifaqına basqını zamanı SSRİ-nin bütün maddi və mənəvi imkanları düşmənə qarşı səfərbər edilmiş, təcavüzün dəf olunmasını, faşizm üzərində qələbəni təmin edən müharibə amillərinə çevrilmişdir.

H.q.-in strukturu dövlətin maddi və mənəvi qüdrətinin məcmusunu əks etdirir, onun

müvafiq - siyasi, iqtisadi, sosial, mənəvi potensiallarından təşkil olunur. Bundan başqa **H.q.** gerçəkliyin digər sahələri ilə əlaqədar olan bir sıra faktlardan asılıdır ki, bunlarsız müharibə aparmaq, yaxud onun qarşısını almaq barədə düşünmək belə olmaz. Bunlar ölkənin **H.q.**-nin ümumi potensialına təsir edən demoqrafik, coğrafi, təşkilati, idarətmə və i.a. amilləridir. **H.q.**-in strukturunda hərbi potensialın özü xüsusi yer tutur, çünki, bunsuz müharibəyə nə hazırlaşmaq və onu aparmaq, nə də onun qarşısını almaq mümkün olmaz (sonuncu müasir nüvə əsrində daha aktualdır).

Potensiallardan hər birində daha tez rast gəlinən tərkib hissələrini fərqləndirmək mümkündür. Məs., mənəvi potensialda - psixoloji, ideoloji və i.a. yaxud, daha ümumiləri, məsələn, sosial-texniki və i.a. Belə fərqləndirmənin zəruriliyi hər şeydən əvvəl dövlətin, hakim partiyaların, silahlı qüvvələrin və s. əməli fəaliyyətinin bütün tələbatından irəli gəlir. Potensialların (eləcə də amillərin) fərqləndirilməsi müxtəlif dövlətlərin H.q.-ini kəmiyyət və keyfiyyət, bunlardan zəruri nəzəri və əməli nəticələr baxımından müqayisə etməyə, bunlardan zəruri nəzəri və əməli nəticələr çıxarmağa imkan verir. Sülh şəraitində bu, ölkənin təhlükəsizliyini təmin etmək, müharibənin qarşısını almaq, müharibə zamanı isə hərb qanunlarına müvafiq olaraq siyasi və hərbi məqsədlərə nail olmaq, qələbə qazanmaq üçün **H.q.**-dən səmərəli istifadə olunması mənafeyi naminə vacibdir.

H.q.-in (onun potensiallarının və amillərinin) vəziyyəti və fəaliyyəti son nəticədə dövlətin iqtisadi və sosial-siyasi quruluşu, məhsuldar qüvvələrin inkişaf səviyyəsi, istehsal münasibətlərinin xarakteri, elmi-texniki tərəqqi, dövlətin siyasətinin istiqaməti, cəmiyyətdə hakim ideologiya, baş verə biləcək müharibə, onun qarşısının alınması yolları və vasitələri haqqında doktrina müddəaları ilə şərtlənir. Vahid tam kimi bütün ünsürlərinin dialektik qarşılıqlı əlaqədə mövcud olduğu **H.q.**-in fəaliyyətinə dövrün ümumi qanunauyğunluqları və meylləri də böyük təsir göstərir.

HƏRBİ GÜC - dövlətin (koalisiyanın) siyasət vasitəsi;

hərbi qüdrətin müəyyən hissəsi kimi çıxış edir, həmin qüdrətin bu və ya digər məqsədlərlə digər dövlətlərə, yaxud beynəlxalq münasibətlərə real təsiri dərəcəsini və intensivliyini bildirir. Dövlətin **H.g.**-ünün əsas struktur ünsürü onun silahlı qüvvələridir. Bu qüvvələr beynəlxalq aləmdə hərbi-siyasi məqsədlər əldə edilməsi və ölkə daxilində öz mənafelərinin təmin olunması üçün yaradılır və saxlanılır. Nüvə əsrində H.i. kəmiyyət və keyfiyyət münasibətlərində raket-nüvə silahı ilə şərtləndirilir. **H.g.** müəyyən iqtisadi şərtlər zəminində formalaşır, inkişaf edir və onlardan asılıdır. Müasir mərhələdə dövlətin **H.g.**-ünün əzəməti, onun xarakter və istiqaməti həlledici dərəcədə hərbi-sənaye kompleksi, onun imkanları ilə müəyyən edilir. **H.g.**-ün digər struktur ünsürləri elmi-texniki təfəkkür, onun hərbi vəzifələrin həllinə cəlb olunması dərəcəsi, həmçinin hərbi nəzəriyyənin özü, onun inkişaf səviyyəsidir. **H.g.** xalqın və silahlı qüvvələrin şəxsi heyətinin mənəvi ruhundan, ölkənin ictimai rəyindən də asılıdır.

Dövlətin **H.g.**-ündən istifadə olunmasının səmərəliliyi onun kəmiyyət və keyfiyyət parametrləri, eləcə də onun tətbiq üsulları ilə müəyyənləşir. Axırıncılar son nəticədə dövlətin siyasi məqsədləri, beynəlxalq aləmdə qarşıdurmanın kəskinliyi və tarixi dövrün xarakteri ilə bağlıdır.

H.g.-ün əsas fəaliyyət formaları bunlardır: hərbi zor (ifrat forma kimi); bu, bilavasitə - maddi, fiziki təsir şəklində və dolayısı, yəni gizli şəkildə - məs., hədələmək yolu ilə tətbiq edilə bilər.

H.g.-ün bir neçə əsas funksiyasını qeyd etmək olar. **H.g.**-ün ənənəvi vəzifəsi - müharibədə qələbə qazanmaq vasitəsi olması əsrlər boyu fəaliyyət göstərmişdir. Lakin silahların dağıdıcı qüvvəsinin güclənməsi ilə bu vəzifə beynəlxalq münasibətlər dairəsindən digər, məhz qeyri-zorakı vasitələrlə sıxışdırılmağa başlanmışdır. Bir sıra dövlətlərdə çoxlu miqdarda kütləvi qırğın silahlarının mövcudluğu müharibəni bəşəriyyət və Yer üzündə həyatın özü üçün təhlükəli etmişdir. Bununla əlaqədar müharibənin siyasi problemlərin real həlli vasitəsi, **H.g.**-ün isə qələbə qazanmaq vəzifəsini yerinə yetirmək iqtidarında olması haqqında məsələ ortaya çıxır.

H.g.-ün digər vəzifələri onun köməyi ilə dövlət üçün müxtəlif səviyyəli (ikitərəfli, məhəlli, qlobal) beynəlxalq münasibətlərdə əlverişli mövqelər yaratmaqdan ibarətdir. Dövlətin özü üçün əlverişli qüvvələr nisbəti yaratması təkcə öz hərbi qüdrətini artırmaqla deyil, həm də onu digər dövlətlərin hərbi qüdrəti ilə birləşdirməklə (hərbi-siyasi ittifaqların, blokların yaranması) əldə edilir.

H.g.-ün daha bir vəzifəsi - digər ölkələr (bir, yaxud bir neçə), yaxud beynəlxalq münasibətlər sisteminə təzyiq göstərməsindən ibarətdir. Bu halda **H.g.**-ün və siyasətin əlaqəsi daha aşkar izlənir, çünki bu, hər şeydən əvvəl siyasi təzyiq şəklində ifadə olunur. Təzyiq formalarının böyüyərək hərbi toqquşmalara, müharibələrə çevrilməsi halları da az olmur.

H.g.-ün hərəkatın müxtəlif növlərinə - milli azadlıq, inqilabi, milli və i.a. hərəkatlara siyasi təzyiq göstərmək, ayrı-ayrı ölkə və regionlarda siyasi və iqtisadi sabitsizlik şəraiti yaratmaq vasitəsi vəzifəsini də göstərmək olar. **H.g.**-ün bu məqsədlə tətbiqi son onilliklərdə olduqca genişlənmişdir. "Soyuq müharibə"nin qurtarması, dövlətlər arasında qarşıdurma deyil, tərəfdaşlıq əsasında yeni münasibətlərin formalaşması şəraitində **H.g.**-ün müharibəni dayandırmaq yolu ilə onun qarşısını almaq vəzifəsi də fəaliyyət göstərməkdə davam edir. Zor işlətmək siyasətinin beynəlxalq münasibətlərdən kənar edilməsi də ümumdünya və milli təhlükəsizlik işinə xidmət edə bilər. Qüvvələr müvazinəti öz yerini ümumbəşəri mənafelər müvazinətinə verməlidir.

HƏRBİ POTENSİAL - dövlətin (koalisiyanın) sülh və müharibə dövrlərində silahlı qüvvələri saxlamaq və təkmilləşdirmək, onların hərbi qüdrətini və döyüş qabiliyyətini yüksəltmək, təlim görmüş kadrlarla tamamlamaq, müasir silahla, hərbi texnika, təminat növləri ilə təchiz etmək imkanları. Hərbi qüdrətin digər tərkib hissələri, siyasi, iqtisadi, sosial, mənəvi, demoqrafik, coğrafi amilləri ilə qarşılıqlı əlaqədə

olan **H.p.** özünün bilavasitə ifadəsini silahlı qüvvələrin hərbi qüdrətində, onların döyüş potensialında tapır. O, hərbi qüdrətin bütün ünsürlərinin başlıca məzmununun sintezi, nəticəsi kimi çıxış edir, bu məzmunu xüsusi hərbi təşkilatda təcəssüm etdirir.

Silahlı qüvvələrin nüvə silahı ilə təchiz olunması dövlətlərin (koalisiyaların) **H.p.**-na keyfiyyətcə yeni məna vermişdir. Bu, onların döyüş potensialının dəyişilməsində əksini tapmış və qeyd etmək xüsusilə vacibdir ki, müharibəni siyasətin qəbul edilməz vasitəsinə çevirmişdir (bax; həmçinin **HƏRBİ QÜDRƏT, HƏRBİ GÜC**).

HƏRBİ SİYASƏT - müəyyən sosial qüvvələrin və onların xüsusi olaraq yaratdığı hakimiyyət təsisatlarının bu və ya digər sinfi, milli, yaxud ümumbəşəri məqsədlərin əldə edilməsi üçün hərbi zorakılıq vasitələrinin hazırlanmasına və istifadəsinə, müharibə aparmağa, yaxud onun qarşısını almağa istiqamətlənmiş ümumi siyasətinin bir hissəsi.

H.s. XVIII-XIX əsrlərin ayrıcından etibarən nisbi müstəqil sahəyə ayrılmışdır.

Hazırda beynəlxalq praktikada **H.s.** dövlətin ümumi siyasəti sistemində özünəməxsus hissələrdən (yaxud istiqamətlərdən) biri kimi qəbul edilir.

H.s.-i təkcə xarici, yaxud daxili siyasətə aid etmək olmaz. O, ikili xarakterə malikdir. Bu, siyasətin daxili tərəfi baxımından silahlı zorakılıq vasitələrinin yaradılması və onlardan dövlətdaxili münaqişələrin həllində mümkün istifadəsi ilə bağlıdır. Xarici tərəfi dövlətlərarası münasibətlərdə siyasətin güc vasitələrindən istifadə üzrə (hərbi, yaxud hərbsiz) bütün fəaliyyətini əhatə edir.

H.s. daha çox siyasətin digər müxtəlif növləri (daha dəqiq deyilsə, hamısı) ilə sıx qarşılıqlı əlaqədədir. Müharibə şəraitində bu qarşılıqlı əlaqə dərin və hərtərəfli inteqrasiya xarakterli olur. **H.s.**-in iqtisadi, sosial, elmi-texniki sahələri, həmçinin cəmiyyətin mənəvi həyatı sahəsində siyasətlə qarşılıqlı əlaqəsi daha sıx nəzərə çarpır. Buna görə də **H.s.**-i siyasətin müxtəlif növlərinin kompleks, ümumiləşdirilmiş dərəcəsinə aid etmək daha düzgün olar.

HİYLƏ - siyasətdə ictimai rəyi və siyasi davranışı lazımi istiqamətə yönəltmək üçün müəyyən hakimiyyət strukturlarının, yaxud ictimai strukturların rəy və siyasi davranışına təsir göstərilməsi prosesi. Bundan məqsəd göstərişləri, stereotipləri tətbiq etməklə, kütlələri qeyri-populyar tədbirləri görməyə təhrik etməkdir. Şəxsiyyət səviyyəsində **H.** şəxsiyyətin özünə aludəçilik keyfiyyətlərini gücləndirir, uydurmaların xüsusi çəkisini artırır, bunları ətrafdakılar üçün hiss olunmaz edir. **H.** dini, siyasi və iqtisadi məzmunlu xürafata geniş yol açır, "münasib" siyasi obrazlar və qiymətlər yaradır, kütləvi siyasi mədəniyyəti zorla qəbul etdirir. Kütləvi kommunikasiyalar üzrə mütəxəssislərin fikrincə, bu, "fərdi və kollektiv azad iradənin" aradan qaldırılması hesabına görülən siyasətdir. Siyasətçilər və televiziya ilə çıxış edən jurnalistləri, marketinq və kütləvi informasiya vasitələri üzrə mütəxəssislər **H.** üsuluna əl atırlar.

H.-nin müasir texnikasının ilk növbədə televiziya vasitəsilə həyata keçirilən xüsusiyyətlərindən biri budur ki, əgər obyektiv informasiya geniş yayılmış stereotiplərə ziddirsə, getdikcə zəifləməyə, həqiqətən pis xəbərlər isə tamamilə yox olmağa başlayır. Bununla yanaşı **H.** texnikası kütləvi hisslərə, təsəvvürlərə, ümidlərə, kollektiv təxəyyülə və kütləvi psixozlara hazır olmağa arxalanır.

Siyasi doktrinalaşdırma, sosial-psixoloji təsir, dilin və davranış formalarının müəyyən "səfərbərədici" strukturlardan istifadə etmək, kütləvi informasiya vasitələrini fəal və kompleks surətdə işə cəlb etmək **H.**-nin əsas vasitələridir.

H.-nin öz "qeyri-məntiqiliy" də var. Buna arxalanan fərdlər və qruplar yəni özlərini hansısa" bir ideal siyasət adamına (nomo roliticus) bənzədir, "qərəzsiz hakim" rolu oynayırlar; güzəştlər, "həqiqi vəziyyətə deyil, sağlam düşüncəni inkar edən, rəmzi reallığa istiqamətlənən təfəkkürə söykənirlər. Onlar "ikifikirliliyə", söz hiyləsinə əsaslanır, ən bənzərsiz prosesləri və hadisələri bununla ifadə edirlər (bax; **SOSİAL UYĞUNLAŞMA**).

H.-nin bir forması da öz-

özünə həyata keçirilən "peyüəmbərlikdir". Cəmiyyətlər müharibəyə yol verməmək üçün silahlanır, lakin bununla onun lübüdlüyünü yaxınlaşdırırlar. Başqalarından şübhələnmə millətçiliyin və ideoloji şovinizmin güclənməsinə səbəb olur. Başqa sözlə, daim xəstəlik barədə düşünəni xəstəlik tuta bilər... Bu qanunauyğunluğu bilən və **H.**-yə marağı olan qüvvələr (hərbi sənaye kompleksi, məfkurəli siyasətçi, varlı xəstənin həkimi) müvafiq mexanizmləri işə sala bilərlər. **H.**-də qarşıdurma həmişə olub və olacaqdır. Prinsip etibarilə buna siyasi fəallığın səviyyəsinin artması, iqtisadi rifahın yüksəlməsi, mədəni inkişaf, eləcə də ailə, qrup əlaqələrinin dərinləşməsi, mülahizələrin açıqlığı və s. şərait yaradır. Cəmiyyətin açıqlığı, sosial həyatın təşkilinin strukturlarının rəngarənliyinə nail olmaq bacarığı və istəyi **H.**-dən xilas olmağa kömək edir.

Müasir **H.** sürətlə, "Hamı bir nəfər kimi" prinsipinə, eyni vaxtda audio, video və mətbuat vasitələrinin təsirinə, kompüterlərdən qeyri-fərdiləşdirmə vasitəsi kimi istifadə olunmasına, təxəyyülün artan işinə istiqamətlənir.

Kütləvi kommunikasiya vasitələrinin inkişafı şəraitində kütləvi auditoriya siyasi **H.**-yə daha az uyur (bu, ilk növbədə xəbərlərin yayılması sisteminə aiddir). Lakin kütləvi kommunikasiya vasitələrinin özləri öz üzərlərinə sosial nəzarət və siyasi təsir vəzifələri götürürlər və bu cəhd getdikcə artır. Bunun nəticəsində də **H.**-nin təsiri güclənə bilər. Bu isə həm müstəqil, həm də dövlətə məxsus olan kütləvi kommunikasiya vasitələrinin işi üzərində geniş demokratik nəzarət qoyulması vəzifəsini aktuallaşdırır.

H. tez-tez yalnız müvafiq aparatın özünü təmin etməsi üçün mövcud olan məxfiliklə və casusluq azarı ilə bağlı olub, informasiyanın çoxluğu ilə, saxta təfsirlərlə, "qan tökülmədən" qələbə və ya labüd süqut ssenarilərinin uydurmaları ilə də birləşir.

Sağlam düşüncə və möhkəm meyllərə söykənən siyasət **H.** ilə bir araya sığmır. **H.**-nin dağıdıcılığı və əxlaqsızlığı gec-tez hər bir cəmiyyətdə aşkar olur. **H.**-in formalarından biri

də "fikrin dəyişməsidir", yəni əgər insan "doğru-düzgün, həqiqi" ideologiyanı qavrayarsa, onun siyasi və sosial baxışları əsaslı şəkildə dəyişə bilər. Bundan vaxtilə inkivizatorlar istifadə etmişlər. 20-30-cu illərdə SSRİ-də "əmək tərbiyəsində", sonralar Çində mədəni inqilabın gedişində də bundan istifadə olunmuşdur. O, Haksli və C.Oruellin antiutopiyaları **H.** üsullarına parlaq misaldır.

HİMAYƏ (EGİDA) - tam təminat, yaxud dolanmaq üçüq daimi əsas vəsait mənbəyi hesab olunan yardım. Ailə başçısını itirməyə görə təqağd təyin olunduqda, qocalığa, əlilliyə görə təqağdə əlavələr edildikdə, ziyanın ödənilməsi, vərəsəlik zamanı, vergi, mənzil kirayəsi üzrə güzəştlər verildikdə və s. hallarda **H.**-də olmaq faktı hüquqi əhəmiyyət kəsb edir. Zəruri sənədlər olmadıqda **H.**-də olma faktını məhkəmə müəyyən edə bilər.

HİPPİ, xippi - gənclərin etiraz hərəkatı. 1960-cı illərin ayrıcında ABŞ-da və sonra başqa ölkələrdə meydana çıxmışdır. **H.** təşkilatlanmamış və zorakılığa əl atmayıb məhəbbəti əsas götürən hərəkatdır. Belə gənclər sevmək və sevilməyin mümkün olduğu cəmiyyət axtarırdılar. Hippilər İsa peyüəmbəri, Buddanı, Mahatma Qandini və Fransisk Assizskini özlərinin pərəstişgahı elan etmişdilər. Güllər, hippilərin istifadə etdikləri rənilər, emblemlər gözəllik və parlaqlığı, ibtidailiyi və bəsitliyi, açıqlığı və təbiiliyi, mülayimliyə, qeyri-zorakılığa, məhəbbətə, təbii olan hər şeyə meyli simvolizə edirdi. Emblemləri saçlarına, qulaqlarının ardına taxır, bədənlərinə gül şəkilləri çəkirdilər. Bu, azad insan fərdiliyinin və totalitarizmin özünəməxsus cəhətlərinə, fərdin həyatının bütün sahələrini bürokratik nəzarət altına almaq səylərinə, demokratik ideologiya ilə totalitar praktika arasındakı ziddiyyətə, bürokratik strukturun getdikcə simasızlaşmasına münasibət kimi meydana çıxmışdı. **H.** ənənə və həyat tərzini qəbul etmirdi. "Şəxsi tələbatlar" hissinin güclü olduğu hippilər "etikanı unutmağa" doğru üz tuturdular. Yuxarı və orta təbəqəyə mənsub olan, yaxşı təminatlı 16-26 yaşlı gənclər **H.** hərəkatına "xoşbəxt həyat" axtarışı

arzusu ilə gəlirdilər. Onlardan hər birinin yaratmaq istədiyi "yeni aləm" barədə öz təsəvvürü var idi. Hibbilərin tələblərinin sonu görünmürdü (xüsusi mülkiyyətin və dövlətin ləğvindən tutmuş, Nepalı ABŞ-ın 51-ci ştatına çevirməyə, Vyetnamda müharibəni dayandırmaqdan, qadınların və uşaqların ümumi olmasına qədər hər cür tələb var idi). Lakin sosial reallığı müxtəlif cür qiymətləndirmələrinə baxmayaraq, onlar Amerika həyat tərzində təəssüm edən rasionalist, laqeyd sistemdən uzaqlaşmaq cəhdlərində yekdil idilər. Özü də reallıqdan uzaq olmaq cəhdləri müxtəlif xarakter daşıyırdı. H.-nin şüarı belə idi: "qoşul, hazırlaş, uzaqlaş". "Qoşul" - yəni qayda-qanunların olduğu cəmiyyəti tərk et, öz dünyanı əldə et. "Hazırlaş" - yəni özünə qapıl, inam, məna və məqsəd tap. "Uzaqlaş" (dror out) - bu terminin çox mürəkkəb assosiativ mənası var, yəni bürokratik təsisatçılıq dünyasından uzaqlaş, məktəb partalarını tərk et, ətraf həyatın basmaqəliblərindən uzaqlaş, özünü rok musiqisinə, narkotiklərə və məhəbbətə həsr etmiş səfillər nəsli yarat.

H. hərəkatı Amerikanın keçmiş dövrünə, hindilərin mədəniyyətinə, məskunlaşmamış torpaqlara, sadəcə olaraq həyata həsrətlə aşılanmışdı. Kənd yerlərində, bəzi şəhərlərin ətrafında və hindi rezervasiyalarının ərazisində birgə yaşayış məskənləri salınırdı. Hər cür rahatlıqdan bilərəkdən imtina edən, yalnız minimum yaşayışı təmin edə biləcək səviyyədə işləməyə razı olan hippilər maddi uğurlar qazanmağa yönəldilən səylərə qarşı çıxırdılar. Onlar icmalara "mütəşəkkil cəmiyyət" tərəfindən heç kimin əsarətə məruz qalmadığı kainat kollektivinin nümunəsi kimi baxırdılar. Bir söz lə, onlar firavanlıq cəmiyyəti içərisində yoxsulluq bayrağı qaldırırdılar. Sosioloq Stüart Holl yazır ki, "amerikalıların bir çoxunun əsl yoxsulluğu hippilərin rəmzi yoxsulluğu ilə yanaşı durur, imkanlı ailələrin uşaqlarının uydurma yoxsulluğu isə varlı Amerika üçün daha bir təhqirdir".

Gənc qiyamçıların qəbul etdikləri bütün rəmzlər onları yaşlı nəsildən uzaqlaşdırırdı. Yeni geyim üslubu, zahiri görünüş.

rok musiqisi, rəqslər, seksual normaların kəskin şəkildə sərbəstləşdirilməsi gəncləri cəlb etsə də, yaşlıların qəzəb və etirazına səbəb olurdu.

Hissi təcrübəyə üstünlük verməyə çalışmaq, təbiətə yaxın olmaq, Ana torpağa pərəstişi bərpa etmək, keçmişdən və gələcəkdən üz döndərmək, sənayetexniki tərəqqiyə biganəlik, təbiətin mistik, sirli ünsürlərinə inanı, ənənəvi mənada ədəbiyyat və incəsənəti qeyri-təbii hadisələr kimi ləğv etmək və nida ifadələrinə, susmağa bədəni titrətməyə və ünsiyyətin, özünüifadənin digər sözsüz formalarına üz tutmaq - hippilərin dəyər ölçüləri bunlardır.

H. ideologiyasının dəqiq nəzəri sistemi yoxdur, onun mənəvi maksimumu yığcamdır: "öz işinlə məşğul ol", "vurnuxma" və i.a. Narkotiklərdən istifadə hippilərin özlərinə qapılmalarına kömək göstərirdi, onlar marixuananı "sosial narkotik" ayinə çevirirdilər. Onların fikrincə, narkotiklər ənənəvi həyat tərzi ilə əlaqələri yaddaşdan silməyə kömək edir və insanın imkanlarının sərbəst oyununun tormozlanmış aləminə keçməyi asanlaşdırır. Lakin daxili aləmə edilən bu "səfərlərdən" qayıdış göstərirdi ki, hippilərin "yeni aləmdə" olmaları vaxt etibarilə çox az çəkir və dünyaya, yenə də reallığa qayıdanların davranışı nəzarət tələb edir. Nəticədə bu, süstlüyə və mübarizədən imtina etməyə gətirib çıxarır, Şərq incəsənətinə və mistik fəlsəfəsinə marağın yerini isə sosial ətalət tuturdu.

Asiya mədəniyyətlərinin mənəvi kitabları, erotik kodeksləri, gitarada ifa olunan Şərq musiqisi, Şərq rəqsləri, Allen Ginzberqin buddist mahnıları H. icmalarının arzu etdikləri həyatın reallığını yaradırdı. Şərqlə eyniləşmə sadəcə olaraq Qərbə qarşı çıxmaq kimi yozulurdu. 1969-cu ildə Vudstokda hippilərin festivalı keçirilmişdi.

Zaman göstərdi ki, hippilərin baxışları mənasız söhbətdən başqa bir şey deyildir. Zorakılıq olmayan həyata bəslənilən ümid puça çıxdı. Hərəkat təbəqələşməyə, simasızlaşmağa başladı.

Bununla belə, hippilərin şüarları və üslubları 70-80-ci illərdə xeyli geniş yayılaraq Qərbin mənəvi dəyərlər dünyasına çox güclü təsir göstərmiş, onla-

rın əks-mədəniyyət ideallarının bir çoxu kütləvi şüurun tərkib hissəsinə çevrilmişdir. Hazırda ənənəvi mədəniyyətin mühüm ünsürü sayılan rok musiqisi də hippilərin adı ilə bağlıdır.

HÖKUMƏT - dövlətin və ya onun muxtar qurumlarının icra hakimiyyəti orqanı; bütün dövlətin, yaxud muxtar qurumların ərazisində hakimiyyəti həyata keçirir. Sivilizasiyalı ölkələrdə **H.**-in səlahiyyəti mövcud qanunvericiliklə (konstitusiya və ya onu əvəz edən aktlarla, hökumət haqqında qanunlarla) müəyyən edilir. **H.**-in fəaliyyəti iyerarxiya prinsipi ilə qurulur: sədr (baş nazir), nazir, nazirliyin departamentinin (idarəsinin, şöbəsinin) rəisi və s. Bir qayda olaraq, hökumət üzvlərinin vəzifələri müəyyən sahələr üzrə ixtisaslaşır: iqtisadiyyat, hərbi işlər, xarici əlaqələr, daxili işlər, səhiyyə, təhsil, mədəniyyət və s. Regionların, muxtar qurumların **H.**-lərinin səlahiyyəti federasiya **H.**-inin səlahiyyətindən daha məhdud olur. Konfederativ quruluşlu **H.**-də konfederasiyanın üzvləri öz ərazilərində icra hakimiyyətini bütünlüklə əldə saxlayır, dəqiq müəyyən edilmiş səlahiyyətləri - konfederasiyanın bütün üzvlərinin ümumi məqsədlərinin həyata keçirilməsi, onların fəaliyyətinin əlaqələndirilməsi, nümayəndəlik funksiyaları və s. ilə bağlı səlahiyyətləri konfederasiya **H.**-nə verirlər.

HUMANİTAR ƏMƏKDAŞLIQ - beynəlxalq münasibətlərin müasir sistemində mərkəzi istiqamətlərdən biri; məqsədi Yer üzərində həyatı qoruyub saxlamaq, ləyaqətli insanın həyat tərzi üçün əlverişli şərait yaratmaq, bütün ölkələrin, inkişafına kömək etməkdir. Həyatın qorunması, ana və uşağın sağlamlıq və ləyaqətinin müdafiəsi, xəstəliklər və aclıqla mübarizədə əməkdaşlıq, savadsızlığı aradan qaldırmaq, uşaq və yeniyetmələrin tərbiyə və təhsilində təsdiq edilmiş beynəlxalq standartların yayılması üzrə qlobal tədbirləri nəzərdə tutur.

H.ə. ikitərəfli və çoxtərəfli əsasda, həmçinin də qlobal miqyasda inkişaf etdirilir (xüsusən, müharibələr, epidemiyalar, təbii fəlakətlər zamanı və b. çox təhlükəli hallarda - millətlərarası və dini əzmində baş vermiş toqquşmalarda, iri istehsalat fəlakətlərində və i.a.). Qaçqınlara kömək, xarici fəhlələrin problemlərinə qayğı, muzdlu hərbçilərdən istifadə edilməsinə, terrorizmə, cinayətkarlıqla (o cümlədən, narkotik maddələr ticarəti ilə) mübarizə, informasiya, mədəniyyət, təhsil və i.a. sahələrində insanlara yardım göstərilməsi **H.ə.**-ın əlaqələndirilməsini BMT və onun ixtisaslaşdırılmış təşkilatları: **YUNESKO, YUNİSEF, BMT**, həmçinin də Qızıl Xaç və Qızıl Aypara Təşkilatı və b. həyata keçirir.

H.ə.-ın Avropa qitəsi üçün əsas istiqamətləri və tədbirlər kompleksi ATƏM-in (1994 ilin dekabrından ATƏT) Helsinki Yekun Aktının 7-ci prinsipində (insan hüquqlarına hörmət, əsas azadlıqlar və 3-cü bölmədə) (humanitar sahələrdə əməkdaşlıq və s.) nəzərdə tutulmuşdur. 1989-cu ildə Vyanada Ümumavropa görüşündə qəbul olunmuş yekun sənədinin nəticə bölməsi "ATƏM-in insan meyarı" öz dövlətinin hüdudları daxilində sərbəst hərəkət etmək və yaşayış yeri seçmək hüququ, həmçinin istənilən ölkəni (o cümlədən, öz ölkəsini) tərk etmək və ora qayıtmaq hüququ təsbit edilmişdir; işgəncələrə qadağan təsdiq olunmuşdur; istintaqa cəlb edilən dustaq və həbsxanada cəza çəkən məhkumların hüquqları ifadə edilmişdir; ATƏT-in iştirakçıları olan dövlətlərin bəyəndikləri status öz dövlətlərinin konstitusiyaları çərçivəsində dindarların, öz dininə etiqad edənlərin, yaxud bunu etməyə hazır olanların birləşməsini və onlara belə bir statusun verilməsini nəzərdə tutur; seçdiyi dində fərdi halda, yaxud birgə və s. dini təhsil vermək, yaxud almaq hüququ təsbit edilir; dini təşkilatlara əlçatan yerlərdə ibadət yerləri tikmək, dini ayinləri, yığıncaqları sərbəst icra etmək hüququ verilir.

Dövlətlərin insan hüquqları sahəsində əməkdaşlıq üsulları işlənib hazırlanmışdır: insanın bütün hüquqlarına və adamlar arasında sərbəst əlaqələrə dair informasiya mübadiləsi və sorğulara cavabların mexanizmləri; bu məsələləri öyrənmək üçün ikitərəfli görüşlərin keçirilməsi və həmin sahələrə dair konkret halların həll edilməsi; humanitar problemlər üzrə ATƏT-in beynəlxalq toplantılarının keçirilməsi ATƏT-in iştirakçıları

olan ölkələrin vətəndaşlarına müşavirənin razılaşmalarının həyata keçirilməsi gedişini müşahidə etmək və onun sənədlərinin müddəalarının yerinə yetirilməsinə yardım göstərmək hüququ təmin edilir. H.ə.-ın beynəlxalq inteqrasiya prosesləri ilə bağlı olub mədəni həyat sahəsini əhatə edən bir sıra problemlər məhəlli və milli mədəniyyətlərə "həyati məkan" təmin edilməsi amilini nəzərdə tutur. Bir sıra ölkələrin parlamentlərində xarici proqramların, xüsusən bədii filmlərin və teleserialların nümayiş etdirilməsinə həddqoyulması məsələləri müzakirə edilir.

Bir sıra regionlar üçün ATƏT-in razılaşmaları və onların gerçəkləşdirilməsi siyasi-hüquqi ideal olaraq qalır, çünki sosial-iqtisadi və siyasi inkişafın xüsusiyyətləri, dövlətlər arasında qarşıdurma münasibətləri, etnik-dini və millətlərarası ədavət, ayrı-ayrı dövlətlərin rəhbərlərinin müstəsnalıq iddiaları, beynəlxalq H.ə. mexanizmləri üzərində iş təcrübəsinin olmaması üzündən hələ ki, həyata keçirilmir.

HÜQUQ - cəmiyyətdə münasibətləri, insanların davranışını, birliklərin və dövlət orqanlarının fəaliyyətini tənzimləyən normativ sistemlərdən (bax; **NORMA**) biri. H., onun qaydalarının hamı üçün məcburi olması, bu qaydaların qətiliyi, eyni cür hüquqi əlamətləri olan vəziyyətlərə və münasibətlərə vahid meyar və tədbirlərin tətbiqi, dövlətin nüfuzu və gücü ilə dəstəklənməsi, qorunması ilə səciyyələnir. H. dövlətin rəsmi sənədlərində təsbit olunur. Münasibətlərin ümumi formasını təyin edən H. insanların, onların birliklərinin, dövlət orqanlarının aralarındakı qarşılıqlı münasibətlərdə onların azadlığının həddini və bu azadlığın təminatını müəyyən edir. H. ictimai orqanizmin fəaliyyət göstərməsi üçün sabitliyin, mütəşəkkilliyin, optimal şəraitin təmin edilməsinə yönəldilmişdir.

H.-un özünəməxsus xüsusiyyəti, cəmiyyətin və onun subyektlərinin həyatında rolu dövlətlə sıx əlaqə ilə və bu əlaqənin xarakteri ilə şərtlənir. İctimai həyatı tənzimləyən digər normativ sistemlərdən (əxlaq normaları, dini normalar, ənənəvi ığndəlik stereotiplər və s.)

H.-un fərqi də məhz bundadır. Yalnız dövlət hakimiyyəti, idaretmə, ədalət məhkəməsi mexanizmləri vasitəsilə cəmiyyətdə qarşılıqlı münasibətlər və davranış üçün vahid, hamı üçün məcburi olan, dəqiq müəyyən edilmiş birtipli meyarlar işləyib hazırlamağa və bunları reallaşdırmağa qadirdir. Bunların pozulması "sərfəli deyildir", çünki bu dövlətin belə hallar üçün müəyyən etdiyi təsir göstərmək tədbirlərinin tətbiqinə səbəb olacaqdır. Eyni zamanda **H.** təkcə dövlət tərəfindən müdafiə və təmin olunmur, **H.** da öz növbəsində dövləti müdafiə və təmin edir. **H.** dövlət siyasəti üçün dəyərli olan istiqamətləri və bu siyasəti gücləndirən ictimai rəyi ifadə edir; dövlət orqanlarının fəaliyyətini bilavasitə tənzimləyir və siyasi birliklərin fəaliyyət şəraitini müəyyən edir: özbaşınalıq və qanunsuzluq cəhdlərinə qarşı dayanır. Hüquqi dövlət konsepsiyası üçün səciyyəvi cəhət dövlətin istənilən orqanlarının, eləcə də bütünlükdə dövlətin **H.**-un göstərişləri ilə (nə qədər ki, bunlar müəyyən olunmuş qaydada dəyişməmişdir) bağlılığının qəbul edilməsidir.

H. - tarixən şərtlənmiş sosial hadisədir. İctimai həyatı tənzimləyən digər normativ sistemlərdən onun əlahiddəliyi siniflərin təşəkkülü dövründə istehsalın, cəmiyyətin siyasi və mənəvi həyatının keyfiyyətcə mürəkkəbləşməsi, ictimai münasibətlərin iştirakçısı kimi şəxsiyyətin xüsusiləşməsi, bu meylləri yekunlaşdıran dövlətin formalaşması ilə bağlıdır. Həmin dövlətə hamı üçün məcburi olan sosial tənzimləmə mexanizmi də lazımdır. **H.** konkret tarixi şəraitdə inkişaf ed3ib və edir. Bu inkişaf ünsiyyət və fəaliyyətin adətlərində, istehsal, mübadilə, məişət və s. sahələrdə sabit şəkildə təkrar olunan vəziyyətlərdə əksini tapan qanunauyğunluqların dövlət tərəfindən təsdiq olunmasından başlamışdır. **H.**-un təşəkkülündə həm də ümumi normalar olan dini normalar xüsusi yer tutmuşdur. Sonra isə tədricən hüquqyaratma fəaliyyətinə (qanunverici, icra və məhkəmə hakimiyyəti tərəfindən qanunların, qanun qüvvəli aktların və presedentlərin - nümunələrinin formalaşdırılması) keçilmişdir.

Lakin hüquqyaratma fəa-

liyyəti məzmunu sərbəst müəyyən olunan hansısa "oyun qaydalarının ixtirasından" ibarət deyildir. **H.** normalarının ictimai münasibətlərin qanunauyğunluqları, bu münasibətlərin inkişaf meylləri formasında obyektiv bazası var. Qanunyaratmanın gedişində bu meyllər və qanunauyğunluqlar sezilir, kəşf edilir və məhz bunların əsasında hamı üçün məcburi olan davranış qaydaları formalaşdırılır. **H.** normalarını işləyib hazırlamağa müvəkkil olunmuş adamlar isə cəmiyyətin obyektiv tələblərini qiymətləndirəndə səhv edə, hətta bu tələblərə qarşı mübarizə aparmağa cəhd göstərə bilərlər. Lakin tarixi təcrübə göstərir ki, cəmiyyətdə mövcud şəraitin və imkanların "üstündən atılıb keçən", ya da sosial inkişafın mütərəqqi meyllərini ləngidən **H.** normalarının ömrü az olur. Bununla bərabər, bu cür **H.** normaları cəmiyyətə və onun üzvlərinə xeyli zərər vura bilər.

H.-un obyektiv köklərini nəzərdən keçirməyi davam etdirərkən hüququn, bir tərəfdən, cəmiyyətin iqtisadi quruluşu, sosial strukturu, siyasi sistemi və ideologiyasından, digər tərəfdən isə cəmiyyətin mədəni səviyyəsi, xarakteri, ənənələri və meyllərindən asılı olduğunu da göstərmək lazımdır. Bütün ziddiyyətlərinə, çox vaxt isə münaqişədə olmalarına baxmayaraq, **H.** bütün bunların qarşılıqlı təsirini ifadə edir. Nəzərə almaq lazımdır ki, onlardan bəziləri qanunyaratmanın məqsəd və məzmununa intensiv təsir göstərir. Məs, II dünya müharibəsindən sonra keçmiş "üçüncü reyxin" ərazisində yaranmış hüquqi dövlətlərin inkişafının əsas ideyalarından biri nasizmin, hitlerçi rejimin nəticələrini aradan qaldırmaq idi. Müstəqil Azərbaycan dövlətində müasir hüquqyaratmanın başlıca ideyalarından biri ictimai həyatın bütün sahələrini demokratikləşdirməkdir.

H. təkcə tarixən şərtlənmiş deyil, həm də dinamik sistemdir. Sosial-iqtisadi formasiyaların bir-birini əvəz etməsi, cəmiyyətin sosial strukturunun dəyişməsi, onu təşkil edən siniflərin, sosial təbəqələrin və qrupların ideologiya və psixologiyası, siyasi mübarizə - bütün bunlar **H.**-un məzmununun keyfiyyət dəyişikliklərini, onun təsisatlarını və normalarını şərtləndirmişdir və şərtləndirir. Bununla yanaşı, **H.** nəzəriyyəsində, onun prinsipləri, təsisatları və normalarında ədalət, azadlıq və məsuliyyətin tarazlaşdırılmış münasibəti barədə antik dövrdən gələn ideyaların getdikcə ardıcıl surətdə əks edilməsi meylini göstərmək olar. Engels yazırdı ki, ümumiyyətlə, azadlıq və zərurətin nisbəti məsələsinə toxunmadan **H.** haqqında danışmaq olmaz. Bu fikir **H.**-un əsas mənası barədə Hobbsun klassik mülahizələrinə "Özünə rəva bilmədiyini başqalarına da qıyma" (Leviafan... M., 1936, s.118), "sənin hərəkətinin azad təzahürü hər bir kəsin azadlığı ilə bir arada, ümumi qanuna müvafiq olmalıdır" (Kant İ.Soç. t.4.2, s. 140) deyən Kantın qeyd-şərtsiz imperativlərinə, Hegelin "özün şəxsiyyət ol və başqalarına da şəxsiyyət kimi hörmət et" (Qeqelm. Filosofip prava, M., 1934, s. 65) fikrinə tamamilə uyğun gəlir.

İctimai inkişafın mütərəqqi proseslərini stimullaşdırmalı və dəstəkləməli olan dövlət siyasətini reallaşdırmağın forması olsa da, **H.** heç də siyasətin müti qulluqçusu deyildir. **H.** cəmiyyətin aparıcı sosial dəyərlərinin daşıyıcısıdır. O, əsas mənəvi dəyərləri hüquqi dəstəkləməklə təsbit edir. Qanunçuluq prinsipi müstəqil dəyərdir, onun mövcudluğu ilə şərtlənmişdir. Buna görə də **H.**-da siyasət üçün, onun məqsədlər silsiləsinin qurulması və reallaşdırılması, üsullar seçilməsi üçün istiqamətlər var. **H.** cəmiyyətin bəyəndiyi və ya yol verdiyi siyasi fəaliyyətin sərhədlərini də müəyyənləşdirir (məs, bu fəaliyyətdə zorakılığın hər hansı formasından istifadə olunmasını cəzalandırmaq hədəsi altında qadağan edir).

Bu səbədən də **H.** ilə siyasət arasında təkcə qarşılıqlı əlaqə münasibətləri deyil, həm də münaqişəli münasibətlər yarana bilər. Məs., belə bir vəziyyət geniş yayılmışdır ki, siyasi qüvvələr **H.** normalarından yan keçərək və ya bunları pozaraq qanunçuluğu məqsədəuyğunluğa qarşı qoyur, yaxud da, nəhayət, özlərinin ötəri siyasi mənafeləri naminə mövcud **H.**-da dəyişiklik etməyə çalışırlar. Lakin bütün bu hallarda taktiki uğur strateji siyasi məğlubiyyətlə nəticələnir, çünki qanunçuluğun

pozulması əvvəl-axır həmin qüvvələri cəmiyyətin dəstəyindən məhrum edir. **H.**-un tənzimləyici səmərəsi ona xas olan "siniflərin mövcudluğu şəraitində cəmiyyətin vahid orqanizm kimi fəaliyyət göstərməsini təmin etməyin" (Alekseev S.S. Obyap teorip prava, t.I, M., 1981, s. 71) zəruriliyini bildirən dialektik ziddiyyətin həllindən asılıdır. Bu ziddiyyət meydana çıxır və həll edilir, cəmiyyətin sosial-siyasi qüvvələrinin mübarizəsinin və bir-birinə qarşılıqlı güzəştinin gedişində yenidən meydana çıxır və bir daha həll olunur. Çünki həmin qüvvələr eyni zamanda hər bir cəmiyyətin təbiətindən doğan ümumi işlərin həyata keçirilməsi üçün müəyyən əvəzləyicinin işlənib hazırlanmasını tələb edirlər. Beləliklə, müxtəlif və hətta bir-birinə zidd sinfi mənafelərin olduğu cəmiyyətdə **H.** təkcə müəyyən bir sinfin hökmranlıq aləti kimi deyil (**H.**-un mahiyyətinin bu cəhəti kapitalizmdən əvvəlki sosial-iqtisadi formasiyalarda və kapitalist formasiyasının ilk mərhələlərində özünü xüsusilə aydın göstərmişdir), həm də cəmiyyətdə insanların yaşamasının ümumi şərtlərini qoruyub saxlamağın, inkişafı ləngidən pozucu təsirlərə münasibətdə cəmiyyətin sabitliyini və nizama salınmasını qoruyub saxlamağın sistemi kimi çıxış edir.

Yuxarıda deyilənlər **H.**-da bəşəriyyətin, onu təşkil edən xalqların ümumi mədəniyyətinə və hüquq mədəniyyətinə qovuşmuş ümumbəşəri dəyərlərin mahiyyətini, **H.**-un milli sistemlərini (indiki halda bu termin ayrı-ayrı dövlətlərin tarixən şərtlənmiş, özünəməxsus və nisbətən muxtar təzahürü olan **H.**-nu ifadə edir), qohum milli **H.** sistemləri "ailəsini" fərqləndirməyə imkan verir.

H.-un tənzimləyici rolu cəmiyyət həyatının əsas cəhətlərinə nəzərən fərqləndirilir və konkretləşdirilir. **H.** mülkiyyət, əmək münasibətlərini, əməyin məhsulları ilə mübadiləni tənzimləyir; dövlət mexanizminin strukturunu, vəzifələrini və fəaliyyət qaydasını, dövlət orqanları ilə şəxsiyyət arasındakı münasibətləri tənzimləyir. **H.** cəmiyyət üzvlərinin hüquq və vəzifələrini və bunların həyata keçirilmə təminatlarını təyinləşdirir; mövcud ictimai münasibətlərə qarşı qəsdlərlə mübarizə tədbirlərini, münaqişələrin profilaktikasını və bunların həlli qaydasını müəyyən edir; mahiyyətcə bütövlük olan cəmiyyətin mənafeləri ilə bağlı olan şəxsiyyətlərarası münasibətlərin bəzi növlərinə (məsələn, ailə və uşaqların tərbiyəsi sahəsindəki münasibətlər) təsir göstərir.

Beləliklə, **H.** sistemi tənzimləmə mövzusu, ictimai münasibətlər qrupları üzrə qurulur. Eyni zamanda kompleks yanaşmadan da istifadə edilir. Bu halda ictimai münasibətlərin müəyyən bir qrupunun tənzimlənməsinə əlaqələndirilməklə və suberdinasiya çərçivəsində **H.**-un bir neçə sahəsinin norma və təsisatları cəlb olunur.

H. sisteminə hüququn tətbiqi praktikası, cəmiyyətin hüquqi şüuru, yəni fəaliyyətdə olan **H.** daxildir. **H.**-un sistem yaradan hərtərəfli ideyaları - rəhbər prinsipləri **H.**-un nəzəriyyəsində, onun doktrinasında, qanunverici, icra və məhkəmə hakimiyyətinin fəaliyyət proqramlarında formalaşdırılır.

Hüququn daxili sistemi beynəlxalq hüquqla - dövlətlər arasında münasibətləri, şəxslərin və onların birliklərinin beynəlxalq ünsiyyətdə statusunu tənzimləyən norma və təsisatlar sistemi ilə qarşılıqlı əlaqədədir. Bu norma və təsisatlar beynəlxalq təşkilatların iştirakı ilə dövlətlər arasında sazişlər yolu ilə işlənib hazırlanır. Beynəlxalq **H.** normaları daxili **H.** normalarına münasibətdə üstün sayılır və sonuncular birinciyə uyğun olmalıdır.

Dövlət siyasətinin, sivilizasiyalı cəmiyyətdə isə bu siyasətin əsas forması kimi **H.** eyni zamanda cəmiyyətdə şəxsiyyətin mövqeyinin, onun hüquqlarının təminatının göstəricisi, bu hüquqları qorumaq və reallaşdırmaq vasitəsidir. **H.** özünün həqiqi mənasında insanı, onun rifahını cəmiyyətin fəaliyyət vasitəsi deyil, məqsədi hesab edir.

HÜQUQİ DÖVLƏT - dövlət tipi. **H.d.**-də konstitusiyalı idarəetmə rejimi fəaliyyət göstərir, inkişaf etmiş və ziddiyyətsiz hüquq sistemi və səmərəli məhkəmə hakimiyyəti, hakimiyyətin real bölüşdürülməsi, hakimiyyətin bölüşdürüldüyü dövlət orqanlarının səmərəli qarşılıqlı əlaqəsi və bir-birinə qarşılıqlı

nəzarəti mövcud olur. **H.d.**-in əlamətlərindən biri də siyasət və hakimiyyətə münasibətdə inkişaf etmiş sosial nəzarətin olmasıdır. **H.d.**-in hakimiyyət sisteminin və siyasətinin ümumi demokratik quruluşu onun hüquqi göstərişləri ilə üzvi bağlıdır. **H.d.**-in əsasını hakimiyyətin, vətəndaşın, cəmiyyətin və hüququn bərabərliyi, bunların qanun qarşısında hüquq bərabərliyi təşkil edir. **H.d.**-in yaranmasının tarixi prosesi suverenliyin hüquqa şamil edilməsi prinsipindən ibarət olmuşdur və hazırda da belədir. Bu proses üç mərhələdə getmişdir. Birinci, zaman etibarilə ən erkən mərhələ hakimiyyətin suverenliyinin tanınması mərhələsidir. Uzun sürən mübarizəsindən, istibdada qarşı qiyamlardan, üsyanlardan, çevrilişlərdən, sosial inqilablardan sonra xalqın suverenliyi qazanılmışdır. Sonrakı mərhələ hüququn suverenliyi uğrunda mübarizə, daha doğrusu, hakimiyyət, vətəndaş, cəmiyyət, yaxud onun bir hissəsi, əksəriyyəti və ya azlığı qarşısında hüququn üstünlüyü naminə mübarizə olmuşdur. Bərabərlik və üstünlük bütün tərəflər arasında qanunla təsbit olunmuş münasibətlərin yaradılması deməkdir. Bu münasibətlər təkcə hakimiyyətin (dövlətin) suverenliyinə və qanunun kobud şəkildə pozulması ənənəsinə görə deyil, həm də hüquq, qanunyaratmada üstün hüquqa malik hakimiyyət tərəfindən yaradıldığına görə xüsusilə mürəkkəbdir. Beləliklə, hakimiyyət hüquq və azadlıqları özünün yaratdığı qanunlarla məhdudlaşdırmalıdır. Özünü belə məhdudlaşdırma qeyri-təbii sayılırdı (indi də sayılır) və bu, "mütləq hakimiyyət", "özbaşınalıq", "qanunsuzluq", "hərc-mərclik" və s. məlum anlayışlarla ifadə olunan ənənələrdə əksini tapırdı. Hakimiyyətin hüquqa mənfi münasibəti, imtiyazlara can atması, qanundan yüksəkdə dayanmaq istəyi ona gətirib çıxarırdı ki, hakimiyyətin hüquqa zidd praktikasının qarşısını almaq qanundan xaric hərəkət etməyə cəhd göstərən vətəndaşların eyni praktikasının qarşısını almaqdan daha çətin olurdu. Dövlətdə hüquqa olan münasibəti kökündən dəyişmək üçün cəmiyyətdə və onun hüquqi şüurunda dərin dəyişikliklər etmək,

habelə siyasi-hüquqi baxımdan dövlətin siyasi sistemini dəyişməkdən ötrü böyük əməli iş görmək lazım gəlirdi. Konstitusiya islahatçılığının tətbiqi uğrunda mübarizə bu prosesin əsas cəhəti oldu. Siyasət filosoflarının (C.Lokkun, V.Humboldtun) ilk əsərlərindən, Avropada və Amerikada qəbul edilən (XVIII əsrin sonu) birinci konstitusiya sənədlərindən başlayaraq, XIX əsrdə demokratik inkişaf yoluna çıxmış ölkələrin müasir konstitusiya mətnlərinin hazırlanmasına qədər üç yüz ildən artıq müddət keçmişdir. Bu o demək deyil ki, siyasi hüquq münasibətləri tarixində əvvəllər hüquq modifikasiya olunmamış və tətbiq edilmiş qanunların, xüsusən dini mətnlərdə yazılmış qanunların yüksək statusu müəyyənləşdirilmişdir. Təkamülə az məruz qalmış cəmiyyətlərdə adət hüququnun (yəni ölkənin ənənələri, adətləri ilə müəyyən edilən hüquq) nüfuzu həmişə yüksək olmuşdur və bu hüquq, yuxarıda haqqında söhbət gedən hüquq bərabərliyini təsbit etmirdi.

İngilis maarifçi-filosofu Con Lokkun işləyib hazırladığı hüquqi dövlət konsepsiyası, onun 1690-cı ildə formalaşdırdığı antimütləqiyyətçi **H.d.** konsepsiyası ("İdarəetmə haqqında iki traktat") siyasi hüquq münasibətlərinin dəyişdirilməsi tarixində həlledici hadisə oldu. İngiltərənin Amerikadakı müstəmləkəsi Karolinanın konstitusiyasında H.d. layihəsini praktik olaraq reallaşdırmaq cəhdi də (1669) ona məxsusdur. Sonralar İ.Kant, V.Humboldt və başqa görkəmli mütəfəkkirlər konstitusiya və siyasi hüquq yaradıcılığında iştirak etmişlər. XVIII əsrdə Fransa inqilabının konstitusiyası (praktikada reallaşmasa da) və ABŞ konstitusiyası **H.d.** yaradılması yolunda əlamətdar hadisələr oldu. Qeyd edək ki, ABŞ konstitusiyası tarixdə ən erkən və ən sabit konstitusiyalardandır. XIX-XX əsrlərdə konstitusiya problemi K.Şmitt, Q.Ellinek və b. görkəmli alimlərin siyasi və hüquq araşdırmalarının ən mühüm mövzularından birinə çevrildi. Bununla belə, **H.d.** yaradılmasının və ya ona doğru irəliləyişin həlledici amilləri vətəndaş cəmiyyətinin yaradılması sahəsindəki ilk mühüm uğurlar idi. Və-

təndaş cəmiyyəti olmadan **H.d.** və cəmiyyətin ümumi sosial, iqtisadi, mədəni inkişafı, onun yeni sivilizasiyalı, texniki və elmi əsasları mümkün deyildir.

H.d. qurmağa imkan verən məhz bu amillər məcmusunun olması müxtəlif səbəblərlə izah edilir. Əgər hüquq cəmiyyət tərəfindən qanuniləşdirilmirsə, hakimiyyət də, hüququn özü də qanunların icrasının real təminatı ola bilməz. Yalnız qanunların legitimliyi (qanuniliyi), onların cəmiyyət tərəfindən tanınması və buna görə də icrasının məcburi olması cəmiyyətin və dövlətin qanunlara həqiqətən əməl etmələrini, eləcə də qanunlar sisteminin yaradılmasını təmin edir və hər iki tərəfdən hüquqa zidd praktikaya yol verilməsini istisna edir. Lakin cəmiyyət buna o zaman nail ola bilər ki, onun vətəndaş inkişafının, deməli, həm də mədəni, sivilizasiyalı, maddi və intellektual inkişafının səviyyəsi kifayət qədər yüksək olsun, başqa sözlə, vətəndaş cəmiyyətinə çevrilsin. Qorxu və hökmranlıq intizamı belə vətəndaşların əl-qolunu bağlamır. Onların mülkiyyəti, azadlıqları və hüquqları var. Bu isə vətəndaşları bunların qorunub saxlanması və artırılması üçün məsul edir. Vətəndaşlar eyni zamanda insan və cəmiyyətin, onların sərvətinin təhlükəsizliyinin bütün növləri üçün məsuliyyət daşıyan dövləti də qoruyurlar.

H.d.-də real əhəmiyyət kəsb edən hüquqi münasibətlərin əsasını, nə dərəcədə ideal ifadə edilməsindən asılı olmayaraq, özlüyündə hüquq normaları, göstərişlər təşkil etmir. Bunların bünövrəsində mənəvi saflıq və əxlaqın adi xüsusiyyətləri, vəzifə borcu, məsuliyyətin dərk olunması, insanın və cəmiyyətin tənqidi, özünüdərk, özünə hesabat vermək qabiliyyəti, intizam vərdişi və özünü intizama öyrətmək bacarığı, əsl vətəndaşlıq dayanır. Korrupsiya, pulla ələ alma, rüşvət, dostbazlıq, yerlibazlıq, ictimai əlaqələrin qohumluq, tayfa əlaqələri ilə əvəz olunması, gizli iqtisadi, sosial, yaxud siyasi fəaliyyət və s. sözün həqiqi mənasında vətəndaşlıq ilə bir araya sığmır.

Şübhəsiz, belə zəmin üzərində yaranan hüquq hələ cəmiyyətin vətəndaş və hüquqi vəziyyətini qanundan kənara çıxmayan qeyri-hüquqi tipli cəmiyyətdən fərqləndirmir. Həqiqi hüquqi münasibətləri təkcə hüquq suverenliyi və hamının bu hüquqa ucdantutma bərabər tabeçiliyi deyil, eyni zamanda hüququn özünün demokratik, vətəndaşlıq məzmunu fərqləndirir. **H.d.**-in və vətəndaş cəmiyyətinin üzvü azadlıqdan, ictimai etimaddan və hörmətdən, inkişaf etmiş hüquqi şüurdan istifadə edir. Bu isə onun müstəsnalığı haqqında, cəmiyyətdəki mövqeyi, qanundan yüksəkdə dayanmaq imtiyazı ilə bağlı xüsusi, qanuna tabe olmayan statusu haqqında fikri istisna edir.

H.d. və vətəndaş cəmiyyəti birgə yaranır və bu uzun çəkən tarixi prosesdir. O, cəmiyyətin inkişafı ilə birlikdə yaranır və bu yolda məqsədyönlü səylər göstərilməsini tələb edir. Həm **H.d.**, həm də vətəndaş cəmiyyəti bir dəfəlik aktla tətbiq edilmir və sırf qanunvericiliyin nəticəsi ola bilməz. Cəmiyyət bütün bu prosesdən (əgər o, bundan ötrü yetişmişdirsə) üzvi surətdə keçməlidir.

HÜQUQLAR HAQQINDA BİLL - Amerika ensiklopediyasına uyğun olaraq, bu, formal konstitusiya bəyannaməsi və ya qanunvericilik müddəasıdır. Hökumət onun vasitəsilə 1) öz vətəndaşlarının başlıca hüquq və azadlıqlarını müəyyənləşdirir və 2) onların öz səlahiyyətlərini hökumət orqanlarının özbaşınalığından və səbatsız müdaxiləsindən qorunmalarını təmin edir. Bu mənada **H.H.b.** ilk dəfə 1689-cu ildə İngiltərədə 1688-ci il "şanlı inqilabı" nəticəsində qəbul edilmiş və əvvələn, parlamentin "tacdan" üstün olduğunu müəyyənləşdirmiş, ikincisi, əsas hüquq və azadlıqları, o cümlədən fərdi hüquq və azadlıqları elan etmişdir. "Arxasında" 1215-ci ilin Böyük azadlıqlar xartiyası və 1628-ci ilin hüquqlar petisiyası dayanan **H.h.b.** Virciniya ştatının 1776-cı il **H.h.b.**, 1791-ci ildə ABŞ konstitusiyasına ilk on düzəlişi və hətta Kanadanın 1960-cı il **H.h.b.** üçün nümunə olmuş, yüz il əvvəl Fransada qəbul edilmiş İnsan və vətəndaş hüquqları bəyannaməsinə güclü təsir göstərmişdir. Hazırda **H.h.b.**-in oxşarı əslində bütün dövlətlərin konstitusiyalarında mövcuddur. **H.h.b.** anqlosaks hüquq si-

steminin məhsulu kimi keyfiyyətcə yeni və bütün bəşəriyyət üçün əhəmiyyətli sənədin - 1948-ci ildə BMT tərəfindən təsdiq edilmiş İnsan hüquqları haqqında ümumi bəyannamənin mənbələrindən biri rolunu oynamışdır. 1789-cu ildə təklif olunmuş və 1791-ci il dekabrın 15-dək ştatların hökumətlərində təsdiq edilmiş Amerika Konstitusiyasına ilk on düzəliş kimi **H.h.b.**-də ABŞ vətəndaşlarının şəxsi və prosesual hüquqlarını təmin edən bir sıra müddəalar var. Bu, həm demokratik ruhda hazırlanmış qanunvericilik, həm də "Konstitusiya islahatı" (V.Vilson) kimi şərh edilir. **H.h.b.** indiyədək hüquq və azadlıqların, siyasi və sosial proseslərin səciyyəsinin dəyişməsi ilə əlaqədar onların təminatının (məs., informasiya iqtisadiyyatının meydana çıxması və güclənməsi intellektual mülkiyyət hüququnun daha da inkişaf etdirilməsini tələb etmişdir: kompüter proqramları və i.a.), ümumən konstitusionalizm ideyalarının zənginləşdirilməsinin (məs., müasir şərhlərdə şəxsiyyətin dövlətin, cəmiyyətin, kütləvi informasiya vasitələrinin və i.a. müdaxiləsindən qorunmasının təminatına getdikcə daha böyük diqqət yetirilir) təcrübədə həlli mənbəyi olaraq qalır.

X

XAOS - Dövlətlərin zəifləməsi və dağılması, dünyanın anarxiya içində olması bu dördüncü paradiqmanın əsasını təşkil edir. Bu nəzəriyyə cəmiyyətdə baş verən aşağıdakı prosesləri xüsusi olaraq vurğulayır: Hakimiyyətin nüfuzunun (legitimliyinin) düşməsi; dövlətlərin dağılması; tayfa, etnik, dini münaqişələrin artması; beynəlxalq kriminal mafiyaların meydana gəlməsi, qaçqınların sayının 10 milyonlarla olması; nüvə və digər kütləvi qırğın silahlarının yayılması; terrorizmin genişlənməsi və s. Dünyanı x. içində olması Zbiqnev Bzejinskinin 1993-cü ildə çapdan çıxan "Nəzarətdən kənarda" (Out Control) və Daniel Patrik Moynihanın "Pandaemonim" (Pandaemonium) əsərlərində tədqiq olunur. Bu nəzəriyyədə müəyyən həqiqətlər olsa da o, reallığı adekvat şəkildə tam əks etdirə bilmir. Buna baxmayaraq bu paradiqma "Soyuq müharibə"dən sonra dünya siyasətindəki dəyişikliklərin aydın mənzərəsini təsvir edir. Bu dövrdə dünyada 48 etnik müharibə baş vermişdi. Keçmiş Sovet İttifaqında 164 ərazi-etnik iddia və münaqişələr baş vermişdisə də onlardan 30-u silahlı münaqişə ilə nəticələnmişdi.

XARİZMA (yun.charisma-nemət, Allah vergisi)-dini şüurda ilahidən gələn və buna sahib olanları dindarlar kütləsindən fərqləndirən xüsusiyyət (məsələn, peyüəmbərlik vergisi)

X. termininin sosialogiya və siyasət elmində geniş yayılması M.Veberin adı ilə bağlıdır. O, bu termini özünün nüfuz sahibi tipologiyasında (qanuni hökmranlıq, alm. legitime Nerrchaft, ing. aunthority) istifadə etmişdir. O, belə hesab edirdi ki, hakimiyyətə itaət vərdişə, ardıcılların liderlə emosional əlaqəsinə, maddi marağa və ya ideoloji mülahizələrə əsaslana bilər. Lakin bunlar özlüyündə həm ayrılıqda, həm də hamısı birlikdə hakimiyyətin sabitliyini təmin etmir. Bundan ötrü qovuşdurucu prinsip lazımdır. M.Veberin fikrincə, belə bir prinsip həmin hakimiyyətin "qanunilliyinə inamdır", bunun sayəsində adi hökmranlıq nüfu-

za çevrilir.

Xarizmatik nüfuz normalar, yaxud qaydalarla bağlı deyildir. Bu, xarizmatik hakimiyyətin başlıca keyfiyyətlərinə inamın xüsusi xarakteri ilə izah olunur. Qeyri-adi hərbi şücaət, peyüəmbərlik vergisi, sehrkarlıq qabiliyyəti və sairə X.-ya misal ola bilər. Xarizmatik münasibətlərin yaranması üçün X.-ya malik olmaqdan daha çox, X.-nın ardıcıllarının bunu qəbul etmələri həlledici əhəmiyyətə malikdir. Bundan ötrü X.-nın hansınınsa rəmz, möcüzə tərəfindən təsdiqlənməsi zəruridir. Son nəticədə, X.-nın həqiqiliyinin ən mühum sübutu xarizmatik hərəkatın müvəffəqiyyətidir.

Xarizmatik münasibətlərin şərti xarakterini, bir qayda olaraq, iştirakçılar qəbul etmirlər: lider öz istedadına inanır, ardıcılları isə liderə inanırlar; liderin dəstəklənməsi ardıcılların müqəddəs borcu, liderin X.-sına hər hansı şəkildə şübhə etmək isə küfr, kafirlikdir.

M.Veberin fikrincə, belə lider cəmiyyəti narahat edən məsələlərə yeni cavablar təklif etməyə və yeni təşəbbüslər irəli sürməyə qadirdir. Xarizmatik lider öz iddialarında keçmişi rədd edir və ona görə də "özünəməxsus inqilabi qüvvədir". R.Bendiks Veberin xarizmatik liderlik nəzəriyyəsini "novatorluq sosialogiyası" adlandırmışdır.

Xarizmatik liderin ardıcılları (xüsusən onun ən yaxın silahdaşları) yaranmış münasibətlərin qorunub saxlanmasında maraqlı olduqlarına görə, xarizmatik liderlik özünün "sırf keçid hadisəsi olmaq" xarakterini itirir ki, cəmiyyətin radikal şəkildə yenidən qurulması prosesi başa çatdıqdan sonra gündəlik həyatın ehtiyaclarına uyğunlaşa bilsin. Son nəticədə o, siyasi liderliyin mühafizəkar tiplərindən birinə çevrilir. M.Veber xarizmatik liderliyin bu rasionallaşması, yaxud ənənələşməsi prosesini "X.-nın mühafizəkarlaşması" adlandırır.

Beləliklə, M.Veberin təfsirində xarizmatik liderlik: 1) şəxsi xarakter daşıyır; 2) emosional əsas üzərində qurulur; 3) novatorçu və ya inqilabi rol oynayır; 4) əbədi deyil və zaman ötdükcə mühafizəkarlaşır. Hazırda bu, klassik konsepsiyaya çevrilmiş-

dir. Lakin bu, onun heç də hər yerdə yayılması demək deyildir. Üstəlik, 60-70-ci illərdə Qərbin sosialogiya jurnallarında xarizmatik liderlik problemlərinə dair gedən diskussiyalar zamanı M.Veberin nəzəriyyəsi kəskin tənqid obyektinə çevrilmişdi. Sosioloqların bir çoxu (Volpe, Ratman, Fridlen və b.) Veberin nəzəriyyəsinin ümumiyyətlə, faydasız və hətta zərərli olduğunu bildirirdilər, bu zaman onların gətirdikləri dəlillər əsasən obyektivist xarakter daşıyırdı: sosial baxımdan şərtlənməmiş, səbəbsiz hadisələrin sosiologiya və politologiya nəzəriyyəsi çərçivəsində olmasının özünün fərz edilməsinin düzgünlüyü şübhə altına alınırdı. M.Veberin tənqidçilərinin əsas tezisi bundan ibarət idi ki, xarizmatik lider yalnız o zaman tanınmasına və dəstəklənməsinə ümid bəsləyə bilər ki, müəyyən sosial və siyasi kontekstdə onun missiyası məna və əhəmiyyət kəsb edir. Və buna görə də, Q.Volpenin dediyi kimi, belə düşünmək səhv olardı ki, guya xarizmatik liderlərin şəxsi keyfiyyətləri, yaxud qabiliyyətləri, özlüyündə, digər struktur amillərindən asılı olmayaraq cəmiyyətdə nüfuz sahibini, yaxud hakimiyyətin, ya da hakimiyyətin mənbəyini və mənşəyini izah edə bilər.

M.Veberin digər tənqidçiləri onun konsepsiyasında ziddiyyətlərin və səhvlərin olduğunu göstərərək, öz "təshihlərini" təklif edirlər. Bunların ümumi mənası X. konsepsiyasını nüfuzun tipologiyasından ayırmaqdan ibarət idi. Burada üç prinsipial imkan var idi. Bəzi nəzəriyyəçilər "Xarizmatik liderlik" anlayışının məzmununda heç nəyi dəyişmədən onun həcmini kəskin şəkildə azaltmağı, yəni Veberin konsepsiyasının tətbiq sahəsini məhdudlaşdırmağı lazım bilirdilər. Bu baxımdan K.Fridrixin mövqeyi daha səciyyəvidir. O, Veberin konsepsiyasını yalnız din sosiologiyası və din tarixi hüdudlarında düzgün sayır və X. anlayışının dünyəvi siyasi liderliyə şamil etməyi yolverilməz sayırdı. M.Veberin konsepsiyasının digər tənqidçiləri də olmuşdur. X.anlayışına münasibətdə vahid nəzəri baxışın və politoloji təhlildə onun prinsiplərinin tətbiqinə dair razılığın olmamasına görə, X. və xarizmatik liderlik konsepsiyası

politologiyanın bir sıra bölməsində və istiqamətində kifayət qədər geniş tətbiq edilmişdir. Bunlar inkişaf etməkdə olan ölkələrdə siyasi proseslərin dərk olunmasında, ilk növbədə bu sahədə tədqiqatların başlanğıc mərhələsində xüsusi rol oynamışdır.

Tədqiqatçıların fikrincə, həmin ölkələrin siyasi liderlərinə tətbiqən **"X."** anlayışını ilk dəfə D.Epter işlətmişdir. Araşdırıcılar özləri isə Veberin nəzəri irsinə müraciət olunmasını aşağıdakı əsas dəlillərlə izah edirdilər: birincisi, ənənəvi hakimiyyət dağılmış, səmərəli leqal hakimiyyət isə müstəmləkəçilik illəri ərzində gözdən düşmüşdü; beləliklə, xarizmatik liderlik nüfuzun yeganə məqbul tipi olmuşdu; ikincisi, siyasi problemlərin fərdiləşdirilməsi müstəmləkə əsarətindən azad olmuş ölkələrin siyasi mədəniyyəti ilə şərtlənmişdi: siyasi mübarizə hökmən şəxsiyyətlər arasında gedən mübarizə şəkli almalı idi, çünki savadsız və siyasi təcrübədən məhrum olan kütləyə insan (lider) siyasi proqramdan daha yaxın idi; onu başa düşürdülər; üçüncüsü, yaranmış ərazi qurumlarının təsadüfi və bir çox hallarda süni xarakter daşıması milli eyniləşmə və milli quruculuq problemini siyasi həyatın başlıca problemina çevirirdi. Belə quruculuq üçün obyektiv daxili şərtlərin olmaması isə milli inteqrasiyanın az qala yeganə rəmzi və adəti kimi liderin şəxsiyyətinin ön plana çıxmasına kömək edirdi. Xarizmatik yanaşmaya bu cür meyl, görünür, həm də onunla bağlıdır ki, ilk vaxtlar tədqiqatçılar həmin ölkələrdəki şərait və problemlərlə olduqca səthi tanış idilər, yə'ni o zaman liderlər istənilən halda göz qabağında olurdular. Həmin ölkələr barədə məlumat artdıqca, şərait aydınlaşıb sabitləşdikcə bu məhdudluq da aradan qalxırdı.

Ümumən götürdükdə hazırda xarizmatik liderlik konsepsiyasının politologiyada çoxsaylı, bəzən bir-biri ilə çətin uyuşan, bəzən isə güclə seçilən cəhətlərlə fərqlənən variantları var. Belə halda, görünür, vahid nəzəriyyədən yox, sosial proseslərə liderlərin şəxsi (xarizmatik) keyfiyyətləri baxımından yanaşan meyldən danışmaq düzgün olardı. Ümumən bu meyl siyasi liderliyin təhlilində subyektiv cəhətlərin gücləndiyini göstərir, halbuki konsepsiyanın yaradıcısı Veberi subyektiv yanaşma tərəfdarı saymaq çətindir. Bununla belə, xarizmatik nüfuz konsepsiyası həm Veberdə, həm də onun ardıcıllarında sosial hadisələrə mexaniki-determenist münasibətin özünəməxsus qarşılığıdır və müasir ictimaiyyətşünaslıqda tarixin ənənəvi "qəhrəmanlıq" təfsirinin yerinə yetirdiyi vəzifəni həyata keçirir.

XARİZMATİK - ardıcılların gözündə nüfuza malik olan şəxsiyyət; bu nüfuzun mənbəyi şəxsiyyətin müstəsna (o cümlədən fövqəltəbii) keyfiyyətləridir.

XARİCİ SİYASƏT - dövlətin beynəlxalq sahədə iqtisadi, demoqrafik, sosial-inteqrativ, sosial-mədəni, repressiv və s. onun mövcud sosial quruluşun saxlanılmasına və dəyişdirilməsinə yönəlmiş strukturların və institutların fəaliyyətindəki istiqamətlərin məcmusu. Digər dövlətlərin X.s. fəaliyyətləri subyektləri: dövlətlər, partiyalar, digər ictimai, ümumdünya və məhəlli beynəlxalq təşkilatlarla münasibətləri tənzimləyir. X.s. dövlətin iqtisadi, demoqrafik, hərbi, elmi-texniki və mədəni potensialına arxalanır. Sonuncuların uzlaşması dövlətin bu və ya digər istiqamətlərdə X.s fəaliyyətini təyin edir, X.s. məqsədlərinin qoyuluşu və realizə edilməsində birincilik iyerarxiyasının mümkünlüyünü müəyyənləşdirir. Dövlətin geosiyasi vəziyyəti onun özünə tərəfdaş seçməsi və rəqiblərlə münasibətlərin inkişafında tarixən üstünlük təşkil etmişdi. Halhazırda X.s.-in geosiyasi ölçüsü bir sıra amillərin təsiri altında mürəkkəbləşmişdir (bax; **GEOSİYASƏT**). X.s.-in həyata keçirilmə forması dövlətlər arasında diplomatik münasibətlərin yaradılması (və ya bu münasibətlərin səviyyəsinin aşağı düşməsi, dayandırılması, kəsilməsi və hətta keçmiş tərəfdaşlarla münasibətin kəskinləşməsi ilə əlaqədar müharibə elan edilməsi): ümumdünya və regional beynəlxalq təşkilatların nəzdində dövlətin nümayəndəliyinin açılması və ya dövlətin bu təşkilatlarda üzvlüyü; dövlətə dost olan xarici siyasi partiyalar və digər təşkilatlarla əməkdaşlığı; dövlətin diplomatik əlaqədə olmadığı, lakin bir sıra səbəblərə

görə dialoqda maraqlı olan dövlətlərin, xarici partiyaların, hərəkatların nümayəndələri ilə müxtəlif səviyyədə epizodik və müntəzəm əlaqələrinin həyata keçirilməsi və s. şəkildə təzahür edir.

Xarici partnyorlarla sabit əlaqə vasitələrinin mövcudluğu dövlətə **X.s.** fəaliyyətinin üsul və metodlarının uzlaşdırılmasının müxtəlifliyinə imkan verir: məlumat mübadiləsinin müntəzəm həyata keçirilməsi; müxtəlif səviyyəli səfərlər (görüşlər) mübadiləsi; gizli və sirrli xarakterli müqavilələri daxil etməklə, geniş sahəli məsələlər üzrə ikitərəfli və çoxtərəfli müqavilə və sazişlərin hazırlanması və bağlanması; bu və ya digər istiqamətlər üzrə müəyyən dövlətlərin daxili və xarici siyasət fəaliyyətinin inkişaf imkanlarına köməklik etmək və əksinə, digər dövlətlərin eyni cür inkişaf imkanlarının qarşısını almaq (**BLOKADA**); qismən və ya tam blokadanın hazırlanması və həyata keçirilməsi; müharibəyə hazırlıq və hərbi əməliyyatların aparılması üçün əlverişli X.s. şəraitinin yaradılması və s.

Son zamanlar qlobal inkişafın ziddiyyətləri beynəlxalq həyatın iştirakçılarını müvəffəqiyyət müharibəsinin qarşısının alınmasına, yerli xarakter daşıyan (lokal) münaqişələrin qarşısının alınması üzrə qoruyucu tədbirlərin təşkil və lokallaşdırılması, texnogen qəzaların aradan qaldırılması üzrə və onların ağır nəticələrinin tez bir zamanda yox edilməsi məqsədi ilə əməkdaşlığa; xəstəliyə və aclığa qarşı mübarizəyə, ətraf mühitin qorunması, onun çirklənməsinin mənbəyini ləğv etmək və nəticələrini aradan qaldırmaq üzrə birgə tədbirlərin keçirilməsinə daha çox diqqət verməyə məcbur etmişdir.

Müasir dövlətlərin əksəriyyətinin dövlət strukturlarında X.s.-in həyata keçirilməsi və onun fəaliyyətinə nəzarət edən ixtisaslaşdırılmış orqanlar mövcuddur. Buraya Xarici İşlər (Xarici Əlaqələr) nazirlikləri, **X.s.** üzrə müvafiq parlament komitələri; tərkibində hərbi məsələlər üzrə mütəxəssis, agentlər və etibarlı adamlar işləyən təşkilatçılar (kəşfiyyatçılar və əkskəşfiyyatçılar), iqtisadi (ticarət nümayəndəlikləri); mədəni əməkdaşlıq üzrə mütəxəssislər

çalışan səfirliklər və nümayəndəliklər; səfirlik və nümayəndəliklərin nəzarəti altında nisbətən sərbəst proqramlarla işləyən elmi və mədəni mərkəzlər, rəsmi və yarı rəsmi missiyalar (məsələn, ABŞ-da Sülh Korpusu) və başqaları daxildir.

X.s. öz məqsədlərinin qoyuluşunda, üsul və metodların seçilməsində dövlətinin daxili-siyasi vəziyyətini əks etdirir və onun istiqamətini dəyişdirir, dövlətdə olan resurslara, kadr potensialına arxalanır. X.s.-ə dövlətin daxili siyasətindən ayrı baxmaq olmaz.

XARTİYA (yun. chartes - kağız, fərman)-I) sosial təbəqələrin və siniflərin siyasi tələblərini əks etdirən sənədlərin, konstitusiyaların və digər aktların adı. məs., orta əsr şəhərlərinin X.-sı, Böyük Azadlıqlar Xartiyası, Xalq xartiyası, -çarizmin siyasi proqramı və s. 2) Qədim əlyazması.

XRİSTİAN SOSİALİZMİ - müasir xristianlıqda sosializm ideologiyasını və praktikasını **İNCİL** təlimi ilə əsasandıran çoxsaylı cərəyan.

XUNTA (isp. yunta - yığıncaq, birlik) - yığıncaq, şura, kollegiya, konsilium. İspaniyada, İtaliyada və Latın Amerikasının bir çox ölkəsində ictimai təşkilatın rəhbərliyi, şəhər idarəsi, bələdiyyə şurası, özünü idarə edən inzibati vahidin vilayət hökuməti. Bəzən yerli özünüidarə orqanının ayrıca sessiyası da **X.** adlanır.

Müstəmləkə dövründə və istiqlaliyyət uğrunda mübarizə zamanı Latın Amerikasının bir sıra ölkəsində qanunvericilik və icra səlahiyyətlərinə malik olub müvəqqəti parlamentin və hökumətin vəzifələrini birləşdirən notabllar yığıncağına da **X.** deyilirdi. Respublika dövründəki siyasi qeyri-sabitlik şəraitində tez-tez qanunvericilik və sərəncamvericilik hüquqlarına, yaxud yalnız icra hüquqlarına malik hökumət **X.**-sı yaradılırdı.

İspandilli ölkələrdə baş verən çoxsaylı hərbi çevrilişlər zamanı hakimiyyəti ələ alan silahlı qüvvələrin komandanlığı hərbi **X.** təşkil edir. Qoşun növlərinin komandanlarından ibarət olan belə **X.** müvəqqəti hökumətin rolunu yerinə yetirərək qanunvericilik, icra və hətta məhkəmə hakimiyyətini, nəzarət vəzifələrini də həyata keçirir.

Cənubi və Mərkəzi Amerika ölkələrinin təcrübəsi göstərir ki, totalitar militarist sistem kütləvi siyasi terrora arxalanır, özbaşınalıq və hakimiyyətdən sui-istifadə doğurur, hərbçilər başqalarının əmlakını ələ keçirmək və xəzinəni qarət etmək hesabına sürətlə varlanırlar. Bu cür özbaşınalıq dövlət aparatında korrupsiyanı genişləndirir, silahlı qüvvələrin özünü mənəviyatca pozub və onları vəzifələrini yerinə yetirməkdən uzaqlaşdırır. Ölkəni idarə etməyin terrorçu metodları orduda da yayılır, hərbi X.-nın özünün və onun aparatının, xüsusən gizli xidmət idarələrinin tərkibini dəyişdirməyin əsas üsuluna çevrilir. Son nəticədə bu sistem dövlətin milli təhlükəsizliyini sarsıdır, çünki hərbçiləri təkcə daxili siyasətdə deyil, həm də xarici siyasətdə avantüralara təhrik edir [Salvadorun Hondurasla və digər qonşuları ilə müharibələri və sərhəd münaqişələri, Malvina (Folklend) adaları üstündə Argentina ilə İngiltərə arasında hərbi münaqişə və s.]. Hərbi X. siyasi sifarişçilik sistemini artırır, sosial-iqtisadi və siyasi rejimin fasiləsiz qeyri-sabitliyini göstərir. Çox da böyük olmayan ölkələrdə xaricdən kömək göstərilməklə hərbi X. ölkənin kapitalistcəsinə modernləşdirilməsi üçün şərait hazırlaya bilər (məsələn, Çilidə olduğu kimi). Latın Amerikasının bütün ölkələrində hərbi X.-lar 80-ci illərdə demokratik hərəkatın təzyiqi altında devrilmişdir.

İ

İCTİMAİ RƏY - insanların sosial gerçəkliyin hadisə və faktlarına, müxtəlif qrupların və ayrı-ayrı şəxsiyyətlərin fəaliyyətinə münasibətini (gizli və açıq şəkildə) təsdiq edən qeyri-rəsmi kütləvi şüurun mövcudluq üsulu. i.r.-də insanların həyat hadisələrinə, partiyaların, institutların fəaliyyətinə münasibəti əksini tapır. **i.r.** tövsiyə və tələblər formasında ifadə olunur, bu və ya digər sosial institutun fəaliyyətini, ayrıca adamın və qrupun davranışını bəyənmək və yaxud ifşa etmək şəklində təzahür edir. **i.r.** həm sinfi təşkilatların və təsisatların kütlələrə məqsədyönlü təsiri nəticəsində, həm də kortəbii (yaranmış ənənələr, praktik həyat təcrübəsi əsasında) yaranır. Ona görə də i.r.-də müxtəlif mənafelər, həmçinin bu mənafelərin müxtəlif cür başa düşülməsi də öz əksini tapır.

İDARƏETMƏ - təbiətin, cəmiyyətin istehsal-texnika sahəsinin şəxsi mütəşəkkil sistemlərinin özünəməxsus funksiyası; həmin sistemlərin həyat fəaliyyətini, inkişafın məqsədyönlü dinamikasını, konkret proqramlarının və praktik məsələlərinin reallaşdırılmasını təmin edir. Sosial sahədə **i.** ictimai təsisatların və ayrı-ayrı fərdlərin kortəbii və dərk olunmuş, obyektiv və subyektiv əsasların tənzimlənməsinə, ictimai münasibətlərin məqsədyönlü qaydada nizamlanmasına istiqamətləndirilmiş şüurlu fəaliyyətini nəzərdə tutur.

İctimai həyatı tənzimləyən amillərə aşağıdakılar aid edilməlidir: 1) insanın təbiətinə və onun şüuruna xas olan, insanı əhatə edən mühitlə şərtlənən reallıqlar sistemi, başqa sözlə, ictimai inkişaf qanunları; 2) ictimai prosesə daxil edilmiş və ya həmin proseslə bağlı olan təsadüfi hadisələrin məcmusu. Bunlar obyektiv qanunları gücləndirir, yaxud zəiflədir, bəzən isə onların fəaliyyətini blokadaya alır, yəni cəmiyyətin və insanın təbii inkişafına mane olur; 3) insan cəmiyyətinin inkişafının cari, perspektiv və qlobal məsələlərinə az və ya çox dərəcədə tam cavab verən idarəetmə hərəkətləri sistemi; 4)

idarə olunan ictimai prosesin subyekti kimi çıxış edən cəmiyyətin kollektiv və fərdi üzvlərinin özünüidarə hərəkətləri sistemi.

Cəmiyyətdə kortəbii və şüurlu i. formaları var. Birinci özünü cəmiyyətdə müxtəlif dağınıq qüvvələrin, külli miqdarda təsadüfi və birdəfəlik aktların təsirinin nəticəsi kimi göstərir (məs., bazar). Şüurlu i.-ni isə ictimai təsisatlar və təşkilatlar (məs., dövlət) həyata keçirir.

Sosial i. hər bir cəmiyyətin mühüm daxili xassəsidir. Onun sərhədləri, məqsədləri və prinsipləri cəmiyyətin sosial-siyasi quruluşundan asılıdır.

Sosial i.-nin problemləri bəşəriyyətin inkişafının bütün mərhələlərində diqqəti cəlb etmiş, görkəmli mütəfəkkirlərin baxışlar sistemində bunlara həmişə başlıca yer verilmişdir. i.-nin müasir Qərb nəzəriyyəçilərinin (C.Bernhem, D.Bell, C.Helbreyt və b.) fikrincə, i. cəmiyyəti sosial xəstəliklərdən xilas etməyə, onun həyat qabiliyyətini yüksəltməyə qadirdir. Onlar dövlət planlaşdırmasının, nəzarətinin, proqnozlaşdırmasının tətbiq sahəsini genişləndirməyə çağırırlar. Həm də bu zaman onlar i.-yə laqeyd, müstəqil, istehsal münasibətlərinin tipindən asılı olmayan fenomen kimi yanaşırlar.

Qərbdə yayılmış sosial i. konsepsiyalarına müasir elmi-texniki inqilabın böyük təsiri olmuşdur. Elm və texnikanın sürətlə tərəqqi etməsi və bunlardan istifadənin azdığı (və hüdudsuz görünən) perspektivlər Qərb ölkələrində bir növ *elmi-texniki fetişizm* doğurmuşdu ki, bu da elm və texnikanın mütləqləşdirilməsinə əsaslanırdı. Bununla yanaşı, 70-ci illərdə Qərb ölkələrinin ictimai fikrində i. ilə bağlı başqa, daha az nikbinlik doğuran baxışlar sistemi də yayılmışdır. Texnokratik konsepsiyaların kifayət etmədiyini kəskin şəkildə hiss edən ekzistensialist M. Haydegger texnikanın incəsənətlə sintezinin, təfəkküru utilitar praqmatik göstərişlərdən özütənzimlənən nəzəri dünyabaxışını istiqamətləndirməyin zəruriliyini bildirir. Sosioloq J.Furastye müasir i.-nin mürəkkəbliyini qeyd edir və insanın davranışındakı sosial və bioloji əsaslar

arasında tarazlığın olmadığını göstərir. Menecment nəzəriyyəçisi P.Draker i.-də peşəkar menecerlərə üstünlük verir. Son vaxtlar Qərbin sosial tənzimləmə və kütlələrin davranışına nəzarət nəzəriyyəsi və praktikasında psixologiya məsələlərinə diqqət xeyli artmışdır.

Sosial i. sistemində dövlət siyasəti və ya dövlət i.-si xüsusi yer tutur. Dövlət siyasəti hər hansı cəmiyyətdə hakim sinfin, sosial təbəqənin, sosial qrupun, bəzən isə ayrıca bir adamın (məs., şəxsiyyətə pərəstiş dövründə) siyasi xətti kimi səciyyələndirilə bilər. Dövlət i.-si dövlət siyasətinin bir sahəsidir; Dövlət siyasətinin məzmununa və istiqamətinə təsir göstərən nəzəri informasiya, kibernetika, iqtisadi, hüquqi, sosiologi və digər müxtəlif amillər nəzərə alınmaqla cəmiyyətdə işlənib hazırlanmış və qanunvericiliklə təsbit olunmuş imperativ göstərişlərə (konstitusiya, qanunlar, fərmanlar və s.) əsaslanır. Bununla belə, dövlət i. münasibətlərinin strukturları ilk növbədə hüquqi münasibətlərin ümumiləşdirilmiş strukturlarıdır.

İDARƏ ÜSULU - ölkədə ali hakim qüvvələrin siyasətini müəyyənləşdirən və ölkənin tarixinin müəyyən dövrünü, bəzən isə ölkədə qurulmuş siyasi rejimi ("despotik idarə üsulu", "liberal idarə üsulu") səciyyələndirən proses.**i.ü.** konkret əməli siyasi fəaliyyət, hakimiyyətin əsas funksiyalarından biri olan idarəetmədən fərqlənir.

İDEALİZM – i. cərəyanının nümayəndələri geopolitik problemləri zor işlətmədən, sülh və danışıqlar yolu ilə *həll* etməyə tərəfdar çıxırlar. Hələ 1751-ci ildə Volter yazırdı ki, Avropanın ayrı-ayrı xristian dövlətləri birləşmiş bir respublikanı andırır. Onların ictimai-siyasi quruluşları bir-birinə çox yaxındır. Eyni fikirləri Ş.Monteskyo da irəli sürmüşdü. ABŞ-ın 28-ci prezidenti Tomas Vilson (1856-1924) prezident olduğu illərdə (1913-1921) idealist geopolitika tərəfdarı olmuşdur. Birinci dünya müharibəsinə "demokratiyanı xilas etmək məqsədilə" daxil olan T.Vilson "On dörd bənd" adı ilə məşhur olan dünyanın liberal nizamnaməsi sənədini hazırlayıb sülh konfransına təqdim etmiş, özü

də bu konfransda iştirak edərək onun "ulduzuna" çevrilmişdir. T.Vilsonun irəli sürdüyü planın realistlərinkindən fərqi onda idi ki, o, kollektiv təhlükəsizlik tərəfdarı olmuşdur və realistlərdən fərqli olaraq dünya nizamlarının güclü bir ölkə tərəfindən deyil, kollektiv ölkələr tərəfindən qurulması fikrinə şərik çıxırdı. Tarixdə bir sıra diktatorların və eləcə də Hitlerin də idealistlər cərgəsinə daxil olduğu məlumdur. Avropa siyasi xadimlərindən bir çoxu, o cümlədən Fransanın xarici işlər naziri Aristil Qernan 1929-cu ildə Millətlər Liqasındakı çıxışında Avropanın iqtisadi, siyasi və sosial federializminin yaradılması fikrini irəli sürürdü. Bu fikirləri əslində Napoleon hələ 100 il bundan əvvəl, Böyük Karl isə 1000 il əvvəl bir reallığa çevirmişdilər. Hitler bu ideyanı həyata keçirməyə çox yaxın olmuşdur. Nəhayət, indiki Avropa Birliyi elə əslində idealist cərəyanın çoxdan arzuladığı bir reallıqdır.

Dünya siyasətində bu və ya digər dövlətin yerinin və rolunun müəyyən edilməsi ənənəvi olaraq üç parametr əsasında həyata keçirilir:

a) İqtisadi suverenlik;

b) Ərazinin həcmi;

c) Hər km2.-ə düşən əhalinin sayı.

Yer kürəsi ərazisinin məskunlaşdırılması və təsərrüfat həyatına cəlb olunması uzun tarixi bir prosesin nəticəsi olub təbii mənbələrlə zəmin olan regionların güclü inkişafına, yararsız ərazilərin isə özbaşına buraxılmasına, məskunlaşdırılmamasına səbəb olmuşdur. Sənayenin meydana gəlməsilə Avropada və ABŞ-da çoxlu əhali kütləsinin toplaşdığı iri regionlar yaranmışdır. Məskunlaşmış ərazilərdə əhalinin orta sıxlığı hər kv.km.-ə 40 nəfərin düşməsi normal hal sayılır. Bu baxımdan, Yer kürəsi əhalisinin 70%-i cəmi məskunlaşmış, 7 % ərazidə yaşayır. Yer kürəsi ərazisinin quru hissəsinin təxminən yarısında isə əhalinin orta sıxlığı hər kv. km.-ə 5 adam düşür. Yer kürəsinin quru hissəsinin 15%-i hələ məskunlaşmamışdır. Bu hissəyə səhralar, dağlar, buzlaqlar və s. daxildir. Dünya əhalisinin 86%-i ekvatordan yuxarıda, yəni Şimal yarımkürəsində yaşayır. Xarici Avropa və Asiya əhalisi orta sıxlığına görə ən

yüksək göstəriciyə malikdir. Burada hər kv.km.-ə 100-dən çox, yəni orta həddən 3 dəfə artıq adam düşür. Halbuki orta göstəricilər Amerika qitəsi üzrə iki dəfə, Avstraliya və Okeaniya üzrə isə üç dəfə azdır.

Əhalinin sıxlığı ilə yanaşı coğrafi şərait də mühüm rol oynayır. Ona görə də geopolitika deyəndə, əlverişli coğrafi mövqelərin ələ keçirilməsi, yaxud onlar üzərində nəzarətin həyata keçirilməsi başa düşülür. XIX – XX əsrlərdə geopolitikanın istiqamətləri Avropa alimləri tərəfindən işlənib hazırlanmışdır. Geopolitika – bir tərəfdən siyasət, coğrafiya və əhali lə, digər tərəfdən bu və ya digər millətin və dövlətin öz coğrafi şəraitinin və əhalisinin sayına görə apardığı siyasətin birləşdirilməsidir. Avropa alimlərindən Fridrix Ratsel (1844-1904) coğrafi determinizmə əsaslanaraq insanın xarakterini ətraf mühitə, flora, faunа, landşaftla əlaqələndirmişdir. O, öz müddəalarında coğrafi determinizmin ilkin nümayəndələrindən Karl Ritterin və Herbert Spenserin müddəalarına əsaslanmışdır. Ratsel heyvanat və bitki aləminin inkişaf qanunauyğunluqlarını, M.Vaqnerin miqrasiya nəzəriyyəsini sosial sahəyə gətirmişdir. F.Ratselin bir sıra ideyaları İ.Kantin, Aleksandr fon Humboltun və b.-nın fiziki amillərin sosial həyata təsirinin aydınlaşdırılmasına həsr olunmuş fikirləri üst-üstə düşür. F.Ratselə görə insan təbiətin bir hissəsidir və onda baş verən fiziki proseslər,yaşadığı təbii mühitdə baş verən dəyişikliklər insanın xarakterində özünü büruzə verir. Monteskye və Herderdən sonra F.Ratsel belə bir qənaətə gəlmişdir ki, ölkənin ərazisi, əhalisi, yerləşdiyi coğrafi mühit geopolitik və demoqrafik əhəmiyyətə malikdir. Bu amillər həm də dövlətin siyasi gücünü əks etdirir. O, bu amillər içərisində ölkənin ərazisini, yerləşdiyi regionu önə çəkirdi. Ərazi xalqın fiziki təkamülünü şərtləndirmiş, habelə onun ətraf mühitə olan mental münasibətinin əsasını təşkil edir. İnsanın təbiətə münasibətini onun yaşadığı mühit, ərazi müəyyən edir. Onun bu ideyaları 1882-ci ildə institutda çapdan çıxmış "Antropogeoqraphe" kitabında verilmişdir. F.Ratsel siyasi həya-

tın coğrafi amillərlə şərtləndiyini iddia edirdi. Ona görə də o, dövlətin xarici siyasətini də bu amillərin təsiri altında formalaşdığını göstərirdi. Dövlətə bioloji orqanizm kimi baxan F.Ratsel onun adamlarını, təbii ehtiyatlarını və s. də bu orqanizmin tərkib hissəsi sayırdı.

Bəzi xalqların cəngavər, bəzilərinin isə tənbəl kimi formalaşmasında da bu amillər əsas olmuşdur. Əhalinin sıxlığı mədəniyyətin yüksəlməsi üçün mühüm şərtlərdən biri olmuşdur. Əgər əhali özünü yaşadığı ərazidə sərbəst hiss edirsə, o, daim bu ərazinin inkişafını çalışacaq, öz dövləti üçün əlindən gələni edəcəkdir. Beləliklə, F.Ratsel əhalini və ərazini dövlətin siyasi mövcudluğu üçün mühüm şərt sayırdı. Coğrafi determenizm L.N.Qumilyov (1912-1992) tərəfindən inkişaf etdirilmişdir.L.N.Qumilyovun "etnogenez" və "etnik spirallar" nəzəriyyəsinə görə hər bir tarixi dövrün mərkəzində müəyyən etnos dayanır. Çünki, etnos müəyyən insan birliyidir və etnosdan kənar insan yoxdur. Etnos – etnogenezin diskret formasıdır. Etnosları bir-birlərindən fərqləndirən cəhətlər sonrakı nəsillərə ötürülən davranış siqnalları (dil, adət, ənənə və s.) və "özü" ilə özgənin fərqləndirilməsidir. Etnosun vəhdətini yaradan amil biosferin verdiyi geobiokimyəvi enerjidir. Bu enerji özünü passionarlər yaratmaqda göstərir. Passionarlıq – özünü və yaxud bütün nəslini müəyyən bir məqsədə çatmaq yolunda qurban verməkdir. Passionarlar – yəni müəyyən məqsədə can atan adamlar bu məqsədə ya çatmalı, ya da bu yolda özünü həlak etməlidir. Hətta bu ideya illüziya olsa da belə.

Etnosun həyat dövrü (tsikli) – etnogenez prosesi bir neçə mərhələdən keçir: passionarlığın qalxması (gizli və ya inkubasiya fazası); passionarlığın ən yüksək (akmatik) nöqtəyə çatması; passionarlığın qiymətdən düşməsi; inersiya fazası (tədricən düşməsi); passionarlığın itməsi (obuskuratsiya fazası); memorial faza (passionarlığın qayıtması – relikt, regenerasiyası).

İDEOLOGİYA- (yun. ideya və loqos-söz. anlayış, elm) - siyasi, hüquqi, əxlaqi, estetik, dini, fəlsəfi və s. baxışlar sistemi; burada insanların dünyagörüşü, marağı, məqsədi, niyyəti və əhval-ruhiyyəsi əks olunur, müxtəlif dövrlərdə mövcud olan siniflərin, partiyaların, siyasi subyektlərin və hakimiyyətlərin fəaliyyəti üzə çıxır; müxtəlif ideyaları təmsil edən nəsillərin, ictimai hərəkatların, incəsənətin və ədəbiyyatın həyat həqiqətlərinə baxışları, münasibətləri öz əksini tapır. **i.** terminini ilk dəfə elmə fransız alimi və filosofu A.Lestyut de Qrasi ("İdeologiyanın ünsürləri", 1-4 cildlər, 1801-1815) gətirmişdir. O, dünyanın dərk olunmasında və şüurun təzahüründə etika, əxlaq və siyasətin məntiqi və psixoloji izahını verməyə cəhd göstərmişdir. **"i."** və "ideoloq" anlayışları tezliklə bütün dünyada yayıldı və **i.**-nın nəzəriyyəçisi və daşıyıcısı kimi mənalandırılmağa b3aşlanıldı. O dövrdə Rusiyada da buna ehtiyac olduğundan **i.** yeni bir kəşf kimi etiraf və təsdiq olundu. **i.**-nın bu cür qavranılması, xüsusən ictimai və siyasi gerçəkliyin dərk olunması prosesin özü ilə əlaqədardır. **i.**-nın idraki vəzifələri və funksiyaları vaxtilə əsaslandırılmış şəkildə tənqid edilmişdir. Rasional və irrasional məqamlar, həqiqət və yalan siyasətdə və hər bir ictimai və fərdi şüurda necə əlaqədədirsə həqiqət və yalan da **i.**-da birbaşa əlaqədədir. Bu sahədə K.Marks və F.Engels də öz fikirlərini söyləmişlər ("Alman ideologiyası", 1845-1846). Buna baxmayaraq, i bir hadisə kimi tanınmış və məlum olmuşdur ki, dünyada siyasət, mədəniyyət, ictimai münasibətlər necədirsə, ideoloji məkanda insan və cəmiyyət arasındakı əlaqələr də elədir. **i.**-nın müasir anlamı belədir ki, o, təkcə insan və cəmiyyətin həyatını istiqamətləndirən, təşkiledici, tənzimləyici və nəzarətedici sistemlərdən biri olmayıb, eyni zamanda cəmiyyəti hərəkətə gətirən siyasi sistemlə, dövlətin siyasi rejimi, siyasi etika ilə də bilavasitə bağlıdır. **i.**-nın əsas cəhətlərindən biri onun varlıra, həqiqətə münasibəti, **i.**-da təcəssüm olunan real ictimai, siyasi və b. proseslər, maraqlar və s. məzmun və məqsədləri müxtəlif olan siyasi **i.**-nın növləri: mütərəqqi, liberal, inqilabi, mühafizəkar radikal, mürtəce, millətçi, şovinist və s. haqqında təsəvvür yaradır, eyni zamanda, buna müvafiq, siyasi və sosial, o cüm-

lədən sinfi mübarizələri əks etdirən ideologiyaların mübarizələri, qarşıdurması haqqında müxtəlif fikirlərin meydana gəlməsinə səbəb olur.

İ.-nın sabit, zaman xaricində olan və universal formaları (mütərəqqi, mürtəce və s.), cəmiyyətin həyatında qeyri-ideoloji sahələrdə-siyasətdə, iqtisadiyyatda, mədəniyyətdə real həyatın real və xəyali gerçəklikdə olduğu kimi, yaxud uydurma vəziyyətdə olduğunu ifadə etmək xüsusiyyətləri, i.-nın inkişafının əsasını təşkil edir və onun qeyri- ideoloji görüşlər, sistemlər, ilk növbədə siyasətlə münasibətini müəyyənləşdirir.

İdeoloji cərəyanlar, onların arasında mövcud olan və bitib tükənməyən mübarizə hələ ən qədim zamanlardan siyasi qruplar, partiyalar və dünyagörüşlər arasındakı çəkişmələrə çox bənzəyirdi. XVII əsrdən başlamış və zəmanəmizə qədər gəlib çatmış böyük siyasi-ideoloji cərəyanlar iri siyasi partiyaların və nəzəriyyələrin ideya daşıyıcıları kimi fəal şəkildə bir-birinə qarşı çıxış etmişlər. Belə i.-lardan ən qədimlərindən biri ənənəçilik nəzəriyyəsi olmuşdur. əsası J.Bossyue (1627-1704), R.Filmer (1610-1688) və b. tərəfindən qoyulmuş bu cərəyan monarxistlərin müdafiəçisi kimi meydana gəlmişdi. ənənəçilik i.-nın bir qolu kimi indi də mövcuddur və "əvvəlki qayda-qanunların", onların mənəvi dəyərlərinin müdafiəçisi kimi mühafizə edilir. O, XVII əsrdə ingiltərədə inkişafa başlayan və Maarifçiliyin, liberalizmin və Fransa inqilabının əleyhinə çıxış edən klassik mühafizəkarlığın inkişafına da təkan vermişdir. Onun ən böyük və görkəmli nümayəndəsi - köhnə əxlaq, ənənə və sarsılmaz qaydaların müdafiəçisi olan E.Berk (1729-1797) "mütləq əxlaqın korlayıcısı" olan inqilabın əleyhinə idi ("Fransız inqilabı haqqında düşüncələr"). Mühafizəkarlıq sonralar, formal olaraq respublikaçı, xristian-demokrat və bir sıra başqa partiyaların siyasi-ideoloji nəzəriyyələrinə parçalandı və çox da məhşur olmayan, lakin XIX və XX əsrlərin tanınmış mürtəce ideologları L.de Bonald, J.de Mestr, K.L.Kronqaller və b.monarxist nəzəriyyəçilərin fikirlərindən qidalandı.

XVIII əsrdə daha təsirli mütərəqqi nəzəriyyə olan liberalizmin ilkin formaları meydana gəlməyə başladı, T.Hobbsun, C.Lokkun və Qərbi Avropa, rus və Amerika maarifçilərinin baxışlarından təsirləndi. Klassik liberalizmin əsasları XVIII əsrin II yarısı və XIX əsrin I yarısında ictimai-siyasi fikrin ən görkəmli nümayəndələri, demokratik idarəetmənin, siyasi və vətəndaş hüquqlarının və azadlıqlarının tərəfdarları olan V.Humbolt ("Dövlətlərin yaranması haqqında fikirlər","Dövlətin fəaliyyət hüdudları haqqında"), B.Konstan, Amerikada demokratiyanın tədqiqatçısı, demokratik cəmiyyət və nümayəndəli idarəçiliyin nəzəriyyəçisi A.de Tokvil, C.S.Mill və b. tərəfindən qoyulmuşdur.

XIX əsrdə i.-nın siyasi çalarları utopik və elmi sosializm, marksizm, anarxizm, Rusiyada inqilabi demokratiya, xalqçılıq, sosial-demokratiya, eyni zamanda şəxsi, gizli ideologiyalar və nəzəri-mülahizələr hesabına zənginləşmişdir. Hər hansı bir ideologiyanın yaranması heç nə ilə məhdudlaşmır. Meydana çıxan hər cür yeni siyasi hərəkat, nəzəriyyə, cəmiyyətin iqtisadi həyatının şərhi, yeni mədəni yönümün yaranmasına, yeni müvəqqəti, yaxud sabit ideologiyanın meydana gəlməsinə səbəb ola bilər.

İ. mövcud siyasi (və qeyri-siyasi) qrup, ittifaq, partiya və hərəkatlar daxilində təsisat üsulu ilə formalaşa bilər.

Siyasət və i.-nı bir-birinə yaxınlaşdıran oxşar cəhətlər mövcuddur. Hər ikisi şüurun xüsusi təzahür forması kimi meydana çıxır; Hər ikisi cəmiyyətin maddi, iqtisadi əsaslarına, eyni zamanda onun mədəni və əxlaqi əsaslarına söykənir, bilavasitə tarixi və ictimai prosesə daxil olurlar. i.da siyasət kimi universaldır, belə ki, o da təfəkkürün, fəaliyyətin və əxlaqın ən müxtəlif və geniş sahələrini əhatə etməyə, onların istiqamətini ("fikirlər obrazı","xüsusi maraqlar"), məqsəd və vəzifələrini təyin etməyə qadirdir. i. siyasətdə mərkəzi yer tutan ideyaları və konkret vəzifələri, məqsəd və imkanları müqayisə etmək prosesi ilə sıx bağlıdır. Məhz i. siyasətə hansı ideyalar və dəyərlər sisteminə səy göstər-

məyin lazım olduğunu təyin edir. Ona görə də mühafizəkar liberal, ya da mütərəqqi və mürtəce və s. siyasi cərəyanlar meydana gəlir. Siyasət və i.-ictimai şüurun və cəmiyyətin təşkilinin daha ekspansiv zorla qəbul etdirmə sistemləridir. Onlar nəinki başqa mühitə nüfuz etmək, eyni zamanda bir-birinə uyğunlaşma qabiliyyətinə malikdir. Bu zaman siyasətin bütün çatışmayan cəhətləri, onun bütün zəif tərəfləri, siyasi vakuum, siyasi ideyaların və qərarların qüsurları dərhal və labüd olaraq i.-ya qarışır. i.siyasəti sıxışdırmaq, onu meydandan uzaqlaşdırmaq, özünə tabe etməyə qadirdir; xüsusilə də, hər hansı xarici hadisələr (xaricdən təhlükə, yaxud düşmənə, ya da zəif tərəfə qarşı qızışdırmaq məqsədi ilə hər hansı hərəkətə başlamaq və s.) və ya daxildə yaranmış vəziyyətin - iqtisadiyyatın səviyyəsinin aşağı düşməsi, əmək konflikti və s. baş verərkən siyasətçilərin şirniklərdirilməsi artır.

Siyasət və i. eyni dərəcədə fəaldırlar, onlar fikirlərin, dünyagörüşlərin, qərarların, proqramların mübarizəsində özlərinin çoxcəhətliliyi ilə fərqlənirlər. Onlar"hə-yox" prinsiplərinə görə mənfi və müsbət istiqamətlərdə tez-tez müxtəlif əks qütblərə çəkilə bilərlər. Ona görə də siyasət və i. sağlara və sollara, mürtəce və mütərəqqi cəbhələrə ayrılırlar. Həm siyasət, həm də i. eyni məsələnin həllində güzəştə getməyə, hər ikisi üzün faydalı qərarlar çıxarmağa qadirdilər.

Bütün bu səbəblərə görə siyasətlə i. arasındakı təbii münasibətlər onları bilavasitə siyasi-ideoloji kompleksdə birləşdirir. əgər mənəviyyat (əxlaq), mədəniyyət, elmi bilik, din siyasətə az və ya çox hallarda təsir edirsə və bu təsir ölçüsü olduqca şərtidirsə, onda i. siyasət və bilavasitə bağlı olurlar. Siyasət müəyyən ideya, məqsəd və mənafe naminə idarə etməyə istiqamətləndirməyə və nəzarətə daha çox meyl edən fenomen kimi təbiətən ideologiyalıdır. Buna baxmayaraq, i.-nın siyasətə təsirinin müəyyən hüdudları da vardır, belə ki, hiperideologiyalaşma siyasəti alt-üst edib onu fəaliyyətsizləşdirir, vacib ictimai vəzifələri təyin edə və qərar çıxara bilmək qabiliyyətini azaldır, eybəcər totalitar və istibdad idarə üsulları, repressiya, böhran və müharibələr yaradır və onda ideoloji yox, siyasi problemlər meydana gəlir. i.-ların çoxluğu siyasəti məfkurəsizliyə gətirib çıxarır, onun ideoloji nüfuzunu azaldır. Məfkurəsizliyin tələblərini siyasətdə icraçılıq fəaliyyətinə tətbiq etmək olar. Siyasətlə i. arasında qeyri-uyğunluluq haqqında başqa bir oxşar problem də mövcuddur. Xüsusi dəstələrin, qrupların və siniflərin i.-sı ilə ölkənin və xalqın ümumi mənafeyinə cavab verməyən "böyük siyasət" üst-üstə düşmür. Buradan da rəhbərçilik, avtoritar idarəetmə üsulu, şəxsi və qrup halında diktaturalar, partiyaların diktaturaları, tayfaçılıq və s. meydana gəlir.

Müasir siyasi i.-da bir sıra yeni hadisələrlə əlamətdardır. Bunların arasında xüsusi inkaredici i.-ları: antikommunizmi, antimarksizmi, antifaşizmi, və s. göstərmək olar. ideoloji və siyasi mübarizənin güclənməsinin nəticəsi kimi ikinci dünya müharibəsini, müharibədən sonrakı "soyuq müharibə" illərini, müstəmləkəçiliyin dağılması, dünyanın iki düşmən cəbhəyə parçalanması kimi hadisələri göstərmək olar.

Müasir dövrdəki hadisələrin səciyyəvi cəhətləri ondan ibarətdir ki, ənənəvi ideologiyalar yenidən qeyri-klassik formalarda meydana gəlir: neomarksizm, neoliberalizm, neokonservatizm formalarında bərpa olunurlar. Onlar əsasən, əvvəlki nəzəriyyələri, qayda-qanunları saxlayır, lakin bəzi hallarda radikalcasına yenidən qurmaq cəhdlərinə də əl atır, məs., dövlətin iqtisadi fəaliyyətinə qiymət verilərkən belə hərəkət edilmişdir. (bax; **DÖVLƏT**) **İDEOLOGİYALAŞDIRMA** - bu və ya digər ideologiyanı tam təmsil edən, mənafeləri bir-birinə tamamilə zidd olan siniflərin mənafelərini əks etdirən, onların qanuniləşdirilməsinə və müdafiəsinə çalışan siyasi və digər ictimai institut haqqında anlayış. Bu vəzifələri yerinə yetirən siyasi institutların və siyasi hərəkatların başlıca məqsədi: əsasən həmin mənafeləri həyata keçirmək üçün kütləni ideoloji cəhətdən səfərbər etməyə yönəldilir.

Siyasi institutların və siyasi

hərəkatların ideoloji nüqteyi-nəzərdən şərhi belə bir faktı qətiyyən nəzərə almır ki, dövlətçilik, hüquq qaydaları və s. də ümumbəşəri tələbləri, ictimai və siyasi təşkilatların konkret sosial-siyasi şəraitə uyğun sosial və siyasi həyati fəaliyyətin təşkili normalarını müvafiq həyat normalarını əks etdirməlidir. ideoloji, siyasi və ictimai-iqtisadi formaların boğulması dövlətçilikdə tənəzzülə, durğunluğa, ümumi inkişafın geriliyinə səbəb ola bilər.

Beynəlxalq münasibətlərin i.-sı onların hamılıqla sinfi mübarizə tələblərinə tabe olması deməkdir və bu mülahizələrdən hasil olan dövlətlərarası münasibətlər sinfi (proletar və burjuaziya) mənafelərin ifadəsi kimi, digər ideoloji cəbhəyə mənsub dövlətlərin siyasətində bir nüqtədə birləşir.

Beynəlxalq münasibətlərin daha çox i.-sı "soyuq müharibə" dövründə, 1940-cı illərin 2-ci yarısından başlayıb 1985-ci ilə qədər davam etmişdir. Bu illərdə siyasi təblirat, təsisat və kütləvi informasiya vasitələri ictimai, hərbi və siyasi qarşıdurma ideologiyasını böyük həvəslə təblir edirdilər.

Bu 40 il ərzində Sovet İttifaqının siyasətində zidd real qarşıdurma mövcud idi. Bir tərəfdən, kapitalist və sosialist sistemi ölkələri sülhü möhkəmləndirmək üçün əməkdaşlıra dəvət olunur, digər tərəfdən isə kapitalist təsərrüfat sisteminin tezliklə məhvə məhkum olacağı elan edilirdi. i. şəraitində dinc yanaşı yaşamaq siyasəti dünya meydanında sinfi mübarizənin xüsusi forması kimi meydana gəlmiş və ona görə də dinc əməkdaşlıra çağırışın səmimiliyinə şübhə yaradırdı.

Yaranmış vəziyyətdən çıxış yolu yalnız beynəlxalq münasibətlərdə humanist meyllər gücləndikdən və tətbiq olunmağa başlandıqdan, bütün siyasi institutlar qarşıdurmadan imtina etdikdən sonra tapıldı.

İDEOLOGİYASIZLAŞDIRMA - XX əsrin 50-ci illərində Qərb ictimaiyyətşünaslığında geniş yayılmış cəmiyyətdə ideologiyanın "sonunun çatdığını", ideoloji təbəqələşmələrdən azad, saf elm yaradılmasının mümkünlüyünü elan etmiş sosial-fəlsəfi konsepsiyaları birləşdirən anlayış. Ən

böyük Qərb sosioloqları T.Parsons, E.Şilz, D.Bell, S.Lipset, R.Aron və b. bu konsepsiyaları dəstəkləyir və inkişaf etdirirdilər. İ. konsepsiyasının nəzəri sələfləri sırasına O. Kontu, Q.Rikkerti, E.Dürgheymi və b.-nı aid etmək olar.

Konsepsiyanın məzmunu olduqca eklektik səciyyəlidir. 4 əsas nəzəri müddəalarını neopozitivizmdən və sosiologiyadan götürmüşdür. M.Veberin, K.Mannheymin, Parsonsun ideyaları konsepsiyanın nəzəri əsaslarının təşəkkül tapmasına xüsusi təsir göstərmişdir. İ. konsepsiyasının iqtisadi əsası sənaye cəmiyyəti və konvergensiya nəzəriyyələrinin müddəaları üzərində qurulmuşdur.

Neopozitivizm və sosiologiya müddəalarını əsas götürərək i. konsepsiyasının tərəfdarları elmi və ideologiyanı qarşı-qarşıya qoymuş və obyektiv həqiqətlə ideologiyanın bir araya sırmadığını sübuta yetirməyə cəhd göstərmişlər. Onların nüqteyi-nəzərincə ideologiya ayrı-ayrı sosial siniflərin mövqeyini ifadə etdiyinə görə sosial gerçəklik haqqında həqiqi, adekvat biliklər verə bilməz; sinfi mənsubiyyətinə görə bu bilik sahəsi təhrif olunmuşdur. Normal inkişaf və fəaliyyət üçün cəmiyyətə obyektiv, sinfi əsasdan uzaqlaşmış sosial bilik lazımdır. Bu istiqamətdən olan elm nümayəndələrinin fikrincə, müasir sənayeli Qərb cəmiyyəti ideoloji ehkamlarsız öz problemlərini həll etməyə qadirdir. 50-ci illərin ortalarında Qərb cəmiyyəti iqtisadi inkişafın elə yüksək səviyyəsinə çatmışdır ki, bütün cəmiyyət üzvlərinə kafi həyat şəraiti təmin edə bilər (buna bənzər ideyalar ümumi rifah dövləti konsepsiyasında daha əsaslı inkişaf etdirilmişdi); zünki aralarında antaqonist ziddiyyətlərin olmadığı mövcud sinif və sosial qrupların mənafeyinə eyni dərəcədə cavab verən sənaye cəmiyyətinin sosial strukturu yaranmışdır.

Demokratiya şəraitində siyasi sahədə ayrı-ayrı sosial qruplar öz hüquqlarını müxtəlif, o cümlədən ən yüksək səviyyəli hakimiyyət orqanlarında nümayəndələri vasitəsilə qanuni üsulla müdafiə edir və ideologiyaların qarşıdurmasına zərurət aradan qalxır. Həm də konsepsiya tərəfdarlarının təsdiq etdiyi

kimi, Qərb cəmiyyətində sol ideyalar özlərini tamamilə gözdən salaraq iflasa uğramışdılar.

İ.konsepsiyasının formalaşmasına konvergensiya ideyaları da mühüm təsir göstərmişdir. Onların nüqteyi-nəzərincə, cəmiyyətin sosial-siyasi tipindən asılı olmayaraq ictimai inkişaf üç mərhələyə bölünür: sənayeyəqədərki, sənaye və postindustrial. Bütün cəmiyyətlər həmin inkişaf yolunu keçirlər; sosializm və kapitalizm yalnız bəşəriyyətin bir tipinin - sənaye cəmiyyətinin variantlarıdır. Sənaye inkişafı yolu ilə irəlilədikcə onların arasındakı mövcud ziddiyyətlər azalır və beləliklə də ideoloji qarşıdurma aradan qalxır. 60-cı illərdə Qərb cəmiyyətini sarsıdan geniş yayılmış "yeni sollar" hərəkatı, sosial-siyasi konfliktlər i. konsepsiyasının bir sıra tərəfdarlarını öz baxışlarını yenidən nəzərdən keçirmək, xüsusilə iqtisadi və siyasi sahələrdə səhv mövqe tutduqlarını dərk etmək məcburiyyəti qarşısında qoydu. Lakin qneseloji planda sosial biliklərin obyektivliyi probleminin həllini tapmaq cəhdləri davam edir.

70-ci illərdə elmin və ideologiyanın münasibətləri problemini yenidən ideologiyasızlaşdırma konsepsiyası əsasında qurmaq üçün cəhdlər edildi. Bu konsepsiyanın tərəfdarları hesab edirlər ki, həqiqət və obyektivlik meyarları ideologiya üçün məqbul sayıla bilməz; onun cəmiyyət üçün əhəmiyyəti üzvlərinə ideyaların təsiri dərəcəsindən çıxış etməklə qiymətləndirilməlidir.

İDEOLOJİ BÜROKRATİYA - bürokratiyanın ideya-nəzəri təfəkkürün bürokratik təfəkkürdən asılılığını həyata keçirən funksioner ideoloqlar-funksionerlər təbəqəsi.

İ.b. üçün inamı cavabdehliyindən yüksəkdə duran siyasi təfəkkürün xüsusi tipi səciyyəvidir. Burada təfəkkürün əsas kateqoriyası və fəaliyyətin təcrübi meyarı vaciblikdir. Bunun əsasında da sosial inkişafın idealları qurulur. Bu ideallar həyat həqiqətlərindəki "yaxşıların" qəbul olunması və "naqis" tərəflərin rədd edilməsi yolu ilə yaranır. Lakin gerçəkliyin bu şəkildə tərəflərə bölünmə elmi tədqiqatın müvafiq normalarına görə deyil, bu və ya digər ideoloqun siyasi konyunkturlu

mülahizələri ilə müəyyənləşir. Nə qədər ki, gerçəkliyin dərk olunması (onun bütün çətinlikləri və müxtəliflikləri ilə bərabər) arxa plana çəkilir, bir o qədər də, son həddə ona verilən qiymətin əsas meyarı özbaşınalıqla ölçülür. Dövlət adamları, bir qayda olaraq, çalışırlar ki, ictimai elmləri mövcud hakimiyyətin ehtiyaclarına tabe etsinlər. İdeoloqlar öz qüvvələri daxilində, bu sifarişləri yerinə yetirir və beləliklə də, mövcud ideologiya ilə elm arasındakı fərqləri yox etməyə cəhd göstərir.

Bundan sonra, siyasi strategiyalar və proqramlar, onların nailiyyətlərinin taktikası bir ideal kimi formalaşır.

Bütün bu proseduralar konkret tarixi şəraitdə və ideoloqun əxlaqi-siyasi nəzarəti altında həyata keçirilir. Nəticədə isə, nə ictimai inkişafın əsl meylləri, nə də konkret-tarixi şəraitin xüsusiyyətləri adekvativ əks oluna bilmir. İnsanların real mövcud olan maraqları və tarixi meylləri özbaşına dəyişdirilir, ona görə də real gerçəklik şübhə və laqeydliklə dərk edilir. İdeoloqun bu keyfiyyəti onu klassik bürokrata yaxınlaşdırır. İnsanlar, qruplar, siniflər, cəmiyyət bütövlükdə ideoloq və dövlət məmurlarının fəaliyyətinin passiv obyektləri kimi nəzərdən keçirilir.

Cox vaxt həmin elm və siyasət funksionerlərini "avam adamlar"ın əsl qayda, xeyirxahlıq və ədalət yoluna çıxmasına kömək göstərmələri ruhlandırır. İdeoloq və bürokrat həqiqətin ən son anda həqiqətə münasibətdə inhisarı öz əlində möhkəmləndirilməyə cəhd göstərir. İnsanlardan isə yalnız, sosial dəyişikliklər haqqında təqdim olunmuş proqramlarla razılaşmaq tələb olunur.

Hər cür narazılıq təqdim olunmuş təklifin dəqiqliyinə şübhə ilə baxmaq kimi mənalandırılmırdı. Əksinə, belə təkliflərin əleyhinə çıxan adamlar tarixin hələ "yetişməmiş" tikinti materialı kimi qiymətləndirilirdilər. Məmurlar kimi, belə ideoloqlar da, həmişə insanlarda təfəkkür və fəaliyyət müstəqilliyi formalaşdırmaqdan daha çox öz bayraqları altına ardıcılları toplamağın qayğısına qalırlar. İdeoloq o adamlardan uzaq qaçır ki, onlar müstəqil fikir-

ləşmək və müstəqil hərəkət etmək qabiliyyətinə malikdirlər. Beləliklə də, siyasi partiyaların proqram və nizamnamələrindəki bu qeyri-müstəqillik siyasi əxlaq norması kimi qəbul edilib formalaşır.

Doğrudan da, gerçəkliyə yalnız siyasətin və ideologiyanın passiv obyekti kimi baxsaq, onda o hər hansı bir nəzəriyyənin əsl meyarı rolunu itirəcək. Amma ona quraşdırılmış ideallarla və strategiyalarla razılaşmaq hüququ verilir.

İnsanlar lap əvvəldən və həmişəlik olaraq keşişlərə və dindarlara, yaradanlara və təqlid edənlərə, rəhbər və tabe olanlara, ziyalılara və xalqa bölünmüşdür. i.-nın fəaliyyəti də məmurların fəaliyyətinə bənzəyir, bir çox hallarda tarixi təşəbbüs və insanların siyasi yaradıcılığı iflic edilir.

İDEOLOJİ FƏRQLƏR - Müasir dünyada ideologiya məsələlərində fərqli baxışlar və xüsusilə də ideoloji mübarizə ciddi aktuallıq kəsb edir. Dünyada nə qədər dövlətlər, siyasi quruluşlar, sosial –iqtisadi fərqlər mövcuddursa,

İ. f. və mübarizələr olub, var və daim mövcud olacaqdır.

Yeni nəsillərin ümumbəşəri sivilizasiya səviyyəsində təlim-tərbiyəsi, millətlərin sərbəst, müstəqil və azad tərəqqisi, iqtisadi sahədə dünya bazarının və azad ticarətin təşkili siyasi sistemləri, ideologiya müxtəliflikləri-nin mövcud olmasına baxmayaraq, ümumbəşəri maraqlar baxımından tənzimləməyə təhrik edir. Ona görə də müasir siyasi strukturlar öz işlərini yeni səviyyələrdə qurur, ideoloji mübarizə isə yeni forma və məna kəsb edir. İdeyalar, sonradan isə ideologiyalar öz-özünə, özbaşına yaranmır. Onlar hər bir millətin ayrı-ayrı adamları, ziyalıları tərəfindən yaradılır və xalqa aşılanır, milli mahiyyət kəsb edir və onu yaradan adamlara məxsusluqdan çıxıb, ümumxalq malına, sərvətinə çevrilir. Əvvəllər milli ideologiyaldarda daha çox hərbi amillər çoxluq təşkil edirdi, indi əvvəlkilərdən fərqli olaraq hərbi üstünlüklər sərbəst və düşünülmüş iqtisadi amillər əvəz edilir. Texnoloji yarış hərbi sahədə deyil, iqtisadi sahədə ön plana keçirilir.

Bundan başqa mədəni və

elmi əlaqələr yeni formada inkişaf etdirilir. Dünyəvi proseslər üfüqi və şaquli vəziyyətdə inkişaf etməkdədəir. Ona görə də müasir ideoloji mübarizə öz çoxsahəliyi və çoxtərəfliyi ilə seçilir. Müasir ideologiyalarda iqtisadi faktor üstün rol oynasa da, hərbi, mədəni, siyasi və b. sahələr və tərəflər öz özünə yer tapır. Konfrantasiya və qarşıdurmalar, barışmazlıqlar güclənsə də, ideologiya sahəsində güc tətbiq etmək artıq keçilmiş mərhələ hesab olunur. Ümumbəşəri prinsiplərə dayanan siyasətin genişlənməsi dünya siyasətinin özünün də bu məcraya yönəlməsini tələb edir. Lakin bu, o deməkdir ki, bütün siyasi sistemlər arasında artıq fərqlər itib gedir, siyasi partiyalara və onların iddialarına son qoyulur. Xeyirli ideologiya yeni mərhələyə qədəm qoyur, ideologiya sahəsində daha sivilizasiyalı, daha təkmil, daha güclü metodlara keçid başlanır. Bu iqtisadi, siyasi, mədəni elmi və ekoloji sahədə dünya dövlətlərinin qarşılıqlı əməkdaşlığını gerçəkləşdirir.

İ.f.-lər dedikdə , ilk növbədə yada burjua və sosialist ideologiyaları və onların qarşılıqlı mübarizəsi düşür. İdeologiya uzun müddət iki sistem arasında gedən mübarizəyə uyğun aparıldığına görə, çoxları indiki halda, yəni sosializ sisteminin iflasından sonra onu gərəksiz hesab edir. Məsələyə belə sadəlövh münasibət kökündən yanlışdır. İdeologiyaya yalnız kapitalizmlə sosializm arasındakı qarşıdurmanın, yarışmanın vasitələri kimi baxmaq düzgün deyil. hər bir dövlətin, hər bir siyasi qurumun, iqtisadi sistemin, elmin mədəniyyətin siyasəti mövcuddur və bu siyasətə uyğun olan ideoloji fəaliyyət formalaşır və eyni zamanda ideologiya həmin sahələri tənzimləyir.

Milli ideologiya sahəsindəki tədqiqatlarda belə bir qənaət əsas göstərilir ki, "ideologiya vahid vətən hissi ilə birləşmiş toplumların tarixi bmrgəyaşayışından və ictimai fəaliyyətindən törənən idealların vəhdəti zəminində formalaşır. Ona görə də müasir ideologia sivil ictimai sistemlərə qoşulmaq, onlarla birgəyaşayışa nail olmaq üçün özgünlüklə bərabər talebirgəlik əlamətlərini də ehtiva etməlidir. Çünki o, bütün elm və nəzəriyy-

ələrdən fərqli olaraq bu günün izahı ilə kifayətlənmir, gələcəyin yaradılması haqqında doğru fikir sistemi kimi çıxış edir. Belə bir doğru fikir sistemi kökü Azərbaycan ərazisinin ilk sakininin təbiət qarşısında təəccübdən qidalanan, özündə Şərq və Qərb dəyərlərini sintez edən azərbaycançılıq ideologiyasıdır". (N.Şəmsizadə).

Göründüyü kimi, milli ideologiyanın mahiyyətində Şərq və Qərb düşüncələrinin də durduğu irəli sürülür.

Yeni dövrdə artıq milli ideologiyanı sırf milli çərçivədə götürmək düzgün deyil. Azərbaycanda o, bu dövlətdə əyaşayan bütün xalqların və millətlərin milli maraqlarını özündə əks etdirən, eyni zamanda Şərq və Qərb dəyərləri ilə çuğlaşmış bir ideologiyadır ki, onun da cəmiyyətdə formalaşmış variantı azərbaycançılıq ideologiyasıdır.

Azərbaycançılıq milli ideologiyanın konkret spesifik formasıdır. Bu Azərbaycan dövlətinin möhkəmlənməsi üçün vacib şərtdir. (R.Mehdiyev).

İQAMƏTGAH - hökumətin, dövlət başçısının, yaxud ali inzibati vəzifəli şəxslərin olduğu yer.

İQTİSADİ MÜNASİBƏTLƏR SİYASƏTİ - siyasi amillərin, beynəlxalq iqtisadi münasibətlərin: xarici ticarətin, kredit-maliyyə, investisiya, sənaye və elmi-texniki sahələrində əməkdaşlığın inkişafına təsirinin artması.

İ.m.s. - də siyasətin və iqtisadiyyatın qarşılıqlı əlaqəsinin güclənməsi öz əksini tapır ki, bu da təsərrüfat əlaqələrinin beynəlmiləlləşdirilməsi prosesinin inkişafı, oraya getdikcə daha çox dövlətlərin cəlb edilmə dərəcəsi ilə müşayiət olunur. Hazırda xarici iqtisadi əlaqələr (Xgə) ticarət mübadilələri hüdudlarını çox-çox aşmış, təkcə istehsal amillərini (kapital və işçi qüvvəsi) deyil, həm də istehsal prosesini (sənayenin kooperativləşməsi - şərikli istehsal) fəaliyyətə cəlb etmişdir.

XİƏ və Beynəlxalq iqtisadi Qaydanın (BİQ) xarakterindən, milli və dünya iqtisadiyyatının dinamikliyi və strukturu, real suverenliyin təmin edilməsi, məşğulluq vəziyyəti, ölkədə pul-maliyyə sisteminin durumu, beynəlxalq münasibətlərin inkişafında ümumi iqlimin formalaşmasından çox asılıdır. Buna görə də xarici iqtisadi siyasət təkcə dövlətin iqtisadi deyil, həm də sosial-siyasi, beynəlxalq mənafelərin təsiri altında formalaşır.

Müasir dünya hələ də qeyri-bərabər inkişaf edir, az inkişaf etmiş regionlar qalır, müstəmləkəçilik dövrünün mirasları - ədalətsiz beynəlxalq əmək bölgüsü gənc inkişaf edən ölkələrin (İE) keçmiş metropoliyaların iqtisadiyyatından birtərəfli asılılığı özünü göstərir.

İstehsalın, əməyin və kapitalın sürətlə beynəlmiləlləşməsi, dünyanın bir sıra regionlarının (Avropa, Şimali Amerika, Cənub-Şərqi Asiya) iqtisadi inteqrasiyası, beynəlxalq əmək bölgüsünün və onun kooperasiyasının inkişafı iqtisadi münasibətləri dünya siyasətinin ən mühüm amili etmişdir. Yeni dünya qaydasına hərəkətin mühüm tərkib hissəsi kimi BİQ-nın demokratikləşməsi aktual vəzifə olmuşdur. BİQ-nin daha ədalətli, bərabər hüquqlu əsasda yenidən qurulması 1974-cü ilin aprelində Baş Məclisin (BM) xüsusi sessiyasında yeni beynəlxalq iqtisadi qayda (YBİQ) qurulması haqqında bəyannamə qəbul etmiş BMT-nin fəaliyyətinin nüfuzlu istiqamətlərindən biridir.

BİQ-nın demokratikləşməsinə keçid, əlbəttə, mürəkkəb, daxilən ziddiyyətli prosesdir. Onun əhatə etdiyi dövlətlər öz miqyasına görə qlobaldır, inkişafın müxtəlif yollarını seçmiş və iqtisadi potensiallarına görə çox fərqlənirlər. Tamamilə qanuni olaraq İEÜ YBİQ problemlərinin mərkəzinə özlərinin tarixən təşəkkül tapmış iqtisadi geriliyini aradan qaldırmaq vəzifəsini qoymuşlar ki, şübhəsiz, bu işin sənayecə inkişaf etmiş ölkələrin (CİEÜ) yardımı olmadan həyata keçirilməsi mümkün deyildir. Lakin YBİQ proqramı siyasi-ideoloji qarşıdurmanın kəskinləşməsi ilə səciyyəvi olan soyuq müharibə dövrünün izlərini də əks etdirirdi. Proqramın İEÜ-ə SİEÜ-nin geniş güzəştləri və yardımını nəzərdə tutan müddəaları, çox vaxt sonuncular tərəfindən müqavilə əsasında əldə edilmiş saziş kimi deyil, zorla qəbul etdirilən imperativ kimi başa düşülürdü. Demokratikləşmə təkcə BıQ-nı deyil, həmçinin

İEÜ-in əksəriyyətinin sosial-iqtisadi strukturlarını yenidən qurmağı nəzərdə tutur.

YBİQ ideyaları nəticəsində, onlardan bəziləri öz dövrü üçün mütərəqqi deyil, daha çox utopik-radikal xarakterdə olub (məs., TİK mülkiyyətinin milli-ləşdirilməsi əhəmiyyətinin şişirdilməsi, İEÜ-nin xarici borcları problemini - sadəcə inkar etmək baxımından ləğv etmək məsələlərinə münasibətdə) həyata keçirilməkdən çox-çox uzaq idi. Buna görə də İEÜ-in əksəriyyətinin vəziyyəti arzu edilməyən şəkildə qalırdı. 80-ci illərin bloklara qoşulmamaq hərəkatı inkişaf üçün itirilmiş onillik adlandırıldı.

Qarşılıqlı asılılığın getdikcə artmasına baxmayaraq, İEÜ və SİEÜ arasında fərqlər 80-90-cı illərdə daha da dərinləşdi. Bu xoşagəlməz meyl qlobal sülh və sabitlik üçün təhlükə yarada bilərdi. üçüncü dünyada inkişaf probleminin mürəkkəbləşməsi beynəlxalq siyasi münasibətlər sahəsində müsbət irəliləyişlərlə kəskin ziddiyyət təşkil edirdi.

Dövlətlərin mənafeyində təkcə müxtəlifliyin deyil, bəzən ziddiyyətlərin də mövcud olmasına baxmayaraq, dünya siyasətində qarşıdurmadan əməkdaşlıra dönüş çoxtərəfli, iqtisadi fəaliyyəti dərinləşdirmək üçün əlverişli imkanlar açır. BMT BM-nin 45-ci sessiyasının geniş iclasında (1990 il) beynəlxalq iqtisadi təhlükəsizlik (BİT) haqqında qətnamə cəs çoxluğu ilə qəbul edilmişdir.

BİT konsepsiyası, hər şeydən əvvəl, bütün dövlət qrüplarının iqtisadi və siyasi mənafelərinin, həmçinin, onların xarici iqtisadi əlaqələrin normallaşmasında, sabitliyin təmin edilməsində iştirakını nəzərdə tutur. YBİQ-nın qurulmasında tərəqqi beynəlxalq sahədə BİT-n əsas prinsiplərinin təsdiqi nəticəsində mümkündür: sabitlik, etimad, qabaqcadan xəbərdarlıq, bərabər hüquqluluq və qarşılıqlı faydalılıq, ayrı-seçkiliyə yol verməmək, qlobal iqtisadi və digər problemlərin həllində həqiqi əməkdaşlıra hazırlıq.

Beləliklə, BİT-də birbaşa diqqət obyektiv dünya birliyinin bütün iştirakçılarının mənafeləridir. BİT konsepsiyası güzəşt əsasında ümumbəşəri üstünlüklərin, sosial-iqtisadi inkişaf

səviyyəsindən asılı olmayaraq, bütün qitələrdən olan müxtəlif dövlətlərin arzu və niyyətlərinin nəzərə alınmasından çıxış edir.

Müasir qarşılıqlı asılılıq şəraitində milli, o cümlədən iqtisadi təhlükəsizliyi mütləqləşdirmək, yaxud da digər dövlətlərin hesabına təmin etmək olmaz. BİT sahəsində hər hansı ayrı-seçkilik qarşılıqlı etimadın möhkəmlənməsinə, yeni siyasi təfəkkürün formalaşmasına mane olur. KOKOM-un (ixrac üzərində nəzarəti həyata keçirən əlaqələndirmə komitəsi; tərkibinə Islandiya istisna olmaqla NATO üzvləri, həmçinin Avstraliya və Yaponiya daxildir) keçmiş SSRı-yə və bir sıra digər ölkələrə hərbi məqsədlərlə istifadə edilə bilən Qərb texnologiyasının göndərilməsini qadağan siyahıları hələ də mövcud olmaqda davam edən anaxronizmdən başqa bir şey deyildi. Həmçinin də əgər BMT tərəfindən beynəlxalq sülh və əməkdaşlıq üçün yaranmış təhlükəni ləğv etmək məqsədilə xüsusi olaraq bəyənilmiş fəaliyyət tədbirləri deyilsə, hər hansı embarqo, boykot, ticarət, kredit və texnologiya blokadaları da yolverilməzdir. İ.m.s.-ə meyl Xgə-dən ayrı-seçkilik, siyasi təzyiq, yaxud daxili işlərə qarışmaq vasitələri kimi istifadə olunmasında təzahür etməməlidir.

Hərbi istehsalın həyata keçirilən konversiyası keçmişdə formalaşmış silahlanma prinsipi əvəzinə inkişaf naminə tərksilah prinsipinə dönüş etməyə yardım göstərə bilər.

Dünya silah ticarətini məhdud laşdırmaq məqsədilə onun üzərində beynəlxalq nəzarət qoyulmalıdır. Dünya bazarında silahın 70 %-dən çoxunu GÜ alır. Bütün bunlar, GÜ-ni sosial-iqtisadi ehtiyacları və qlobal problemlərin geniş aclıq və dilənçilik zonalarının ləğvi, epidemiyalarla, savadsızlıqla mübarizə aparmaq və i.a. həlli üçün xeyli vəsaiti azad etməyə imkan verərdi.

Beynəlxalq iqtisadi əlaqələrin geniş, süni maneələrdən azad inkişafı mehriban qonşuluq və sülh münasibətləri üçün etibarlı təməldir. Keçmiş SSRı ərazisində sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsində yaranmış çətinlikləri Qərbin başa düşməsi təzahürləri dünya

siyasətində səmərəli xətt kimi çıxış edir, çünki gələcəkdə beynəlxalq əməkdaşlığın etibarlılığı və məhsuldarlılığı həmin çətinliklərin aradan qaldırılmasından birbaşa asılı olacaqdır.

İQTİSADİ TƏHLÜKƏSİZLİK - xalqın (hakim sinfin, dövlət vasitəsilə) xaricdən müdaxilə və təzyiq olmadan suveren yaşadığı, özünün iqtisadi inkişafının yollarını və formalarını müəyyənləşdirdiyi vəziyyət. **İ.t.** siyasi iqtisadın və politologiyanın sintetik kateqoriyası olub iqtisadi müstəqillik və asılılıq, sabitlik və qeyri-müəyyənlik, iqtisadi təzyiq, şantaj, məcburiyyət və təcavüz, iqtisadi suverenlik və s. kateqoriyalarla sıx bağlıdır. Milli **i.t.**-in daxili maddi-cismani əsasını milli məhsulun geniş təkrar istehsalının natural və dəyər ünsürlərinin çox mühüm payını təmin etməyə qadir olan məhsuldar qüvvələrin kifayət qədər yüksək inkişaf səviyyəsi təşkil edir. **i.t.**-in daxili sosial-siyasi əsası - xalqın əksəriyyətinin möhkəm dəstəklədiyi dövlət siyasəti vasitəsilə həyata keçirilən sosial və iqtisadi inkişaf strategiyasının işlənib hazırlanmasını və qəbul olunmasını mümkün edən uzunmüddətli milli məqsədlərə münasibətdə ictimai həmrəyliyin kifayət qədər yüksək səviyyədə olmasıdır.

İdeal kateqoriya olan **i.t.** hətta iqtisadi baxımdan daha çox inkişaf etmiş və sosial cəhətdən sabit olan möhkəm siyasi rejimli ölkələrdə belə nisbi olaraq qalır. Bu və digər mənfi xarici təsirlər, habelə belə təsirlərin mümkünlüyü və təhlükəsi hətta həmin ölkələr üçün də qalmaqdadır.

İstehsal beynəlmiləlləşdikcə milli **i.t.** beynəlxalq **i.t.**-lə getdikcə daha sıx bağlanır. Beynəlxalq **i.t.** dinc yanaşı yaşamağın, sazişlərin və institutsional strukturlarının beynəlxalq şəraitinin elə kompleksi deməkdir ki, bu, dünya birliyinin üzvü olan hər bir dövlətə xarici iqtisadi və siyasi təzyiqə məruz qalmadan, digər dövlətlərin onun daxili işinə qarışmayacağına, onlarla qarşılıqlı məqbul və faydalı əməkdaşlığa əmin olmaqla özünün sosial və iqtisadi inkişaf strategiyasını sərbəst seçib həyata keçirmək imkanını təmin etsin.

Beynəlxalq **i.t.**-i reallaşdırmağın yolu inkişaf modellərini zorla qəbul etdirməkdən, iqtisadi və siyasi məcburiyyətdən imtina olunmasından, hər hansı xalqın öz yolunu seçmək hüququnu tanımaqdan, mülkiyyətin və mənafelərin müxtəlif formalarının mövcudluğunun qanuniliyinə hörmət bəsləməkdən, təkcə hərbi-strateji münasibətlərdən deyil, həm də iqtisadi münasibətlərdən "dünya dividendi" götürməyin mümkünlüyünü dərk etməkdən keçir. Uzunmüddətli planda hətta xüsusi kapital da onların köhnə metodlarla qarət və istismar edilməsinə nisbətən xarici ölkələrin tərəqqisindən daha çox qazanır.

Beynəlxalq **i.t.**-in həyata keçirilməsinin hüquqi təminatları aşağıdakı prinsiplərin qəbul edilməsindən ibarətdir: sosial və siyasi quruluşundan asılı olmayaraq, dövlətlərin hüquq bərabərliyi; iqtisadi həyatın inkişaf yollarının və təşkili formalarının sərbəst seçilməsi; dövlətlərin öz ölkələrində təbii ehtiyatlar və iqtisadi potensial üzərində suverenliyi; iqtisadi əməkdaşlıq və məcburiyyətdən azad olmaq; dövlətlər arasında qarşılıqlı faydalı əməkdaşlıq və iqtisadi, maliyyə, elmi-texniki və digər dinc münasibətlərin sərbəst inkişaf etdirilməsi; iqtisadi inkişaf və sosial tərəqqi məqsədilə beynəlxalq əməkdaşlıq; dünya birliyinin üzvü olan zəif inkişaf etmiş dövlətlər barəsində xüsusi güzəştlər; iqtisadi mübahisələrin dinc yolla, zor işlətmədən və ya zor işlətməklə hədələmədən sülh yolu ilə nizama salınması.

Beynəlxalq hüquq normalarının bu prinsiplər əsasında sistemləşdirilməsi ikitərəfli və çoxtərəfli müqavilələrin bağlanması, əməkdaşlıq və ölkələrin inkişafına yardım məqsədilə beynəlxalq və ən əvvəl dövlətlərarası təşkilatlar yaradılması, onların fəaliyyətinin təmin olunması ilə beynəlxalq **i.t.**-ə daha da kömək edəcəkdir.

Beynəlxalq **i.t.**-in, iqtisadi inkişafın sabitliyinin və bu inkişafın nəticələrinin əvvəlcədən xəbər verilməsinin, habelə iqtisadi inkişafın gedişindəki pozuntular barəsində erkən informasiya verilməsinin zəruriliyi zəif inkişaf etmiş ölkələrdə daha aydın görünür. Lakin iqtisadi cəhətdən daha cox inkişaf

etmiş ölkələr də daxil olmaqla bütün ölkələr bunda maraqlıdır.

Beynəlxalq **i.t.** konsepsiyası mahiyyətcə hələ də təcrübədə tətbiq edilməmiş yeni beynəlxalq iqtisadi qayda (YBiQ) ideologiyasından xeyli irəli gedir. Bu konsepsiyada YBiQ-ya xas olan bəzi birtərəflilik, yalnız bir qrup ölkəyə - inkişaf etməkdə olan ölkələrə xidmət göstərmək, müəyyənqarşıdurma halları, heç də həmişə əsasladırılmayan tələblər, yenidən bölüşdürmək meylləri yoxdur. Eyni zamanda beynəlxalq **i.t.** konsepsiyası YBiQ ideologiyasına zidd deyildir, çünki onun bütün konstruktiv ünsürlərini özündə birləşdirir.

Beynəlxalq **i.t.** konsepsiyası həyata keçirildikcə dövlətlərin yalnız öz milli problemlərinin deyil, həm də bəşəriyyətin qlobal problemlərinin həllində əməkdaşlığını təmin edəcək, nüvə silahı olmayan və zorakılıq tətbiq olunmadan dünyada dinc yanaşı yaşamağın maddi əsası, iqtisadi geriliyin və zəif inkişafın ləğv edilməsi işində tərəqqinin təminatı olacaqdır.

İMPERATİV - (lat.imperativus-amiranə, əmr) - i.Kantdan gələn qanun, yüksək tələb bildirən, nə etməli və vacib olanı necə həyata keçirməyi bildirən termin. Siyasətdə **i.** şəxslər, sosial qruplar və dövlətlər arasında qarşılıqlı münasibətlərin danışıqsız həyata keçirilməsi tələb olunan qaydalar kimi şərh olunur. Müasir həyatda **i.**-in əsas mənası nüvə, kimyəvi, bakterioloji və digər müharibələrin qarşısını almaq, bəşəriyyəti ölümdən xilas etmək, ətraf mühiti qoruyub saxlamaqdan ibarətdir. Bəşəriyyətin inkişafı ilə əlaqədar olaraq **i.**-dən tələb edilən əsas və zifələr gündəngünə genişlənib artır. Bu gün **i.**-in qarşısında duran etnik prinsiplər A.Şveytser tərəfindən irəli sürülmüş "həyata ehtiram" formuluna çevrilmişdir. **"İ".** anlayışı siyasi xadimlərin bütün səlahiyyətlərini və hüquqlarını əhatə edə bilmək mənasında da başa düşülə bilər. Bu əvvəla, onun yalnız bir qrupun deyil, daha geniş, ümumi mənafelərlə əlaqədar olması ilə bağlıdır, hüquqşünaslıqla **i.**ictimai həyatın (siyasi hüquqlar da daxil olmaqla) sərhədlərini dəqiq təyin edən hüquq norması kimi müəyyənləşir.

İMPERİYA - (lat.imperium - hakimiyyəti olan, qüdrətli - 1) Qədim Romada xalqın ali dövlət hakimiyyəti: seçkilər zamanı, qanunlar qəbul edilərkən, müharibə elan olunarkən və sülh bağlanarkən, eyni zamanda ali məhkəmədə özünü göstərirdi. 2) Qədim Romada magistr-çarların səlahiyyəti, ali Roma Respublikası dövründə isə - konsullar, pretorların diktatorların, protopretorların, şəhər və pretorian prefektləri və senzorlarının. Onlar ali dövlət hakimiyyəti ya Roma xalqı tərəfindən seçkilər vasitəsilə, ya da xüsusi qanun vasitəsilə verilirdi. Bu səlahiyyətlər öz növbəsində hərbi sahədə (konsul tərəfindən verilirdi) və mülki sahədə (pretor tərəfindən verilirdi) bölüşdürülürdü. Roma Respublikasında diktatorlar **i.**-nın ən ali dərəcəsini alırdı. **i.** səlahiyyətlərinin respublika xarakteri itirildikdən sonra, onun ali dərəcələri Roma imperatorları hakimiyyət başına keçən kimi ömürlük onlara verilirdi və Romanın nəzarəti altında olan bütün ərazilərdə yayılırdı. 3). İmperatorun hakimiyyəti altında olan ərazi; 4). Sülalə xətti ilə imperator titulu almış və ya qəbul etmiş şəxsin rəhbərlik etdiyi dövlət; 5). Geterogen etno-milli və inzibati-ərazi qurumlarını metropoliya-müstəmləkə, mərkəz-əyalət, mərkəz-milli respublika və ucqar prinsipi əsasında ciddi mərkəzləşmiş hakimiyyətdə birləşdirmiş siyasi sistem. **i.** anlayışı bütün mənalarda hakimiyyətin bir mərkəzdən istiqamətləndirilməsi və yerlərdə dünmədən tətbiqi ilə əlaqədardır.

İNDEKSASİYA (lat. index - göstərici-siyahı) - iqtisadiyyatda, siyasətddə: kəmiyyətlərin (rəqəmlərin) müqayisəsi əsasında nəyinsə əldə edilmiş səviyyəsinin xarakteristikası.

İNFOKRATİYA - informasiya hakimiyyəti. Cəmiyyətin informasiyalaşması avtoritar meylləri gücləndirmirmi və bu proses cəmiyyəti diktaturaya sürükləmirmiə - sualı siyasət aləmində yeni problemə çevrilmişdir. Coxsaylı və rəngarəng məlumatlara mərkəzləşdirilmiş qaydada nəzarət etmək olar. Belə ki, bütün böyük və kiçik məlumat bankları və məlumat bazaları bir-biri ilə kompüter telekommunikasiya şəbəkəsi va-

sitəsilə bağlıdır. Kompüter şəbəkəsindən istifadə bir tərəfdən hər vətəndaş haqqında dəqiq məlumat ala bilmək, digər tərəfdən, xalq kütlələrini manipulyasiya etmək qabiliyyətini son dərəcə artırmışdır. Belə bir vəziyyəti təsəvvürə gətirmək olar ki, hakimiyyətdə olan və hökmranlıq edən təbəqələr özlərinə lazım olan hər şeyi bilirlər, bütün məlumatlardan xəbərdardırlar, qalan təbəqələr isə hər şeydən xəbərsizdirlər.

İnformasiya sahəsində mövcud inkişaf meyli belə ehtimala əsas verir ki, bütün informasiyaların bir mərkəzdə birləşməsi sayəsində hər şeyi əldə edən siyasi hakimiyyət bilavasitə həyata keçirilməyəcək, lakin icra hakimiyyətini gücləndirmək yolu ilə "tribuna siyasətçilərinin" və seçilmiş nümayəndələrin real hakimiyyətini məhdudlaşdırmaqla məqsədinə nail olacaq. Beləliklə, hakimiyyətdə olan bir növ "infokrat" qiyafəsində meydana çıxa bilər və onun hakimiyyətə keçməsinin səbəbi xalqa göstərdiyi xidmətin nəticəsi deyil, yalnız informasiyadan geniş şəkildə istifadə edə bilməsi əsas olmuşdur.

İNFORMASİYA (lat. informatio-izahetmə, şərhetmə) - daxili və beynəlxalq həyatın aktual yenilikləri haqqında məlumatlar məcmusu. Kütləvi kommunikasiya vasitələri ilə yayılır.

Publisistikanın janrları olan xəbərlər, məlumatlar, reportajlar, hesabatlar, müsahibələr, icmallar i.-nın əsas operativ formalarıdır.

İNFORMASİYA CƏMİYYƏTİ - Sürətlə çoxalan, hər yerə nüfuz edilən informasiya baxımından müasir cəmiyyətə bir nəzər; informasiyanın təsəvvür edilə bilən bütün fəaliyyət sahələri haqqında anlayış. "i.c." anlayışı təsadüfdən-təsadüfə işlədilməsinə baxmayaraq, təsir coğrafiyası çox genişdir. Onun qeyri-aşkar təsiri "uzun zaman davam edən informasiya partlayışı" prosesində "insanın başına nələr gəlirə və bu sualla əlaqədar meydana çıxa biləcək daha mədh suallara cavabların axtarışında belə i.c.-nin təsiri çox böyükdür. İnformasiya texnologiyasını və infrastrukturunun, eyni zamanda kütləvi kommunikasiya vasitələrinin inkişafı nəticəsində, məs., kabel

və peyk televiziyası işə başlayan zaman gündəlik ünsiyyətin qloballaşmasında, bütün yer kürəsində mənəvi həyatın formalaşmasında o əsas rol oynamağa, hakim mövqe tutmağa başlayarkən iqtisadi, siyasi və mədəni sahələrdə nə kimi izlər qoyduə

"İ.c" anlayışında əsas məsələ müasir cəmiyyətin inkişafının bütünlüklə idarə olunması prosesidir. Təsadüfi deyil ki, o, kibernetikanın (mürəkkəb idarəetmə, yüksək səviyyədə təşkil olunmuş sistemlər haqqında elm) və informatikanın nailiyyətlərinin təsiri ilə meydana gəlmişdir. İnformatika elmində isə informasiya hər hansı bir şey haqqında sadəcə məlumat və ya bilik deyil, bu və ya digər sistemlə idarə olunan kəmiyyətcə dəqiq, keyfiyyətcə dolğun məlumatlar verir. İnformasiyanın istehsalatda tətbiqi ilk növbədə A.Toynbinin "efirləşdirmə" adlandırdığı ənənəvi mülahizələri əsasında həyata keçirilir. Bunun da əsas mahiyyəti ən az xərclə, daha çox istehsal etməyə nail olmaqdan ibarətdir. Müasir texnologiya özünün təsir dairəsinin əlamətlərinə görə, bütünlüklə ümumdünya xarakteri daşıyır. Bu, ilk növbədə informasiya texnologiyasına aiddir; o, sanki insanların mərkəzi sinir sistemini vahid "qlobal ağuşda" qucaqlayaraq birləşdirir. Həyatlarının bütün sahələri hər gün bir-biri ilə sıx əlaqədar olan insanlar ümumən informasiya istehsalının nikbinləşdirilməsini tələb edirlər, çünki informasiyanı yayan vasitələr işıq sürəti ilə (bir saniyədə 300 min km/san.), yəni bir anda hərəkət edir, yer kürəsini "sıxıb" kiçildir və onu kiçik bir kəndin ölçüləri çərçivəsinə sala bilir. Bu mənada informasiya texnologiyasının inkişafında birincilik, bütün səmərəli vasitələrlə təchiz edilmiş bugünkü hakim vəziyyət əsrin i.c.-nə verilir.

Kapitalizm cəmiyyətinin başlıca siyasətini həyata keçirən xarici dövlətlərin bir sıra tədqiqatçıları elmi əsərlərində dünyada yeni keyfiyyətlərə malik olan, yeni həyat şəraiti və yeni qlobal dünyəvi nizam qaydalarının yaradılmasında cavabdeh olan Qərb dövlətlərinin, ilk növbədə ABŞ-ın siyasətini müdafiə və təblir edirlər. Həmin

müəlliflər irəli sürürlər ki, müxtəlif mənbələrdən alınmış informasiyaları birləşdirə bilən, kompleks şəkildə kompüterli sitemlər təşkil edilsin və bunun əsasında da dünyanın bu və ya digər regionunda baş verən hadisələrin ümumi mənzərəsi yaradılsın.

Kütləvi kommunikasiya vasitələri arasında yüksək inkişafı ilə fərqlənən **i.c.** əvvəlcədən xəbər verir ki, 3-cü dünya müharibəsi (bütün bəşəriyyətin taleyini həll edən müharibə) artıq gəlir, bu, "hərbi və mülki adamlar arasında heç bir fərq qoymayan, informasiya tərəfindən həyata keçirilən partizan müharibəsidir" (M.Maklyuen). Kütləvi informasiya vasitələrinin, xüsusilə özünəməxsus ssenarizmi olan, insanların və cəmiyyətin həyata keçirdiyi diplomatiyaya getdikcə bütünlüklə alışırıq. Audiovizual texnikanın daha da inkişafı həm "kütləvi mədəniyyətin" istehsalını mərkəzləşdirmək və bir yerə toplamaq üçün, həm də mənəvi dəyərlərin istehsalını rəngarəng etmək üçün yeni ictimai qüvvələrin özünütəsdiqinə imkan yaradır.

İ.c. daha bir keyfiyyəti - özünün sosial və siyasi siması və inkişafı səviyyəsinin xarakteristikası ilə fərqlənir: əhalinin tam məlumatlılığı, kütləvi informasiya xidmətinin bütün sahələrinin maneəsiz işi və onların obyektiv məlumatlar toplamaq, ötürə və qiymətləndirə bilmək qabiliyyəti, həmçinin xalqın bütün təbəqələrinin kütləvi informasiyanın hamı üçün əlverişli olması və nəhayət, məlumatları almağa imkan verən texniki vasitələrin olması da mühüm əhəmiyyət kəsb edir.

İNFROSTRUKTUR (lat.- aşağı, altında struktur, vəziyyət, mövqe, yer) - sənaye və k.t. istehsalına xidmət edən təsərrüfat sahələri kompleksi (şose yolları, kanal, port, anbar və s. tikilməsi, enerji təsərrüfatı, d.y. nəql., rabitə, su təchizatı və kanalizasiya, ümumi və peşə təhsili, elmə və səhiyyəyə çəkilən xərclər və s.). **"İ".** termini hərbi leksikondan götürülmüşdür. İqtisadi ədəbiyyatda XX əsrin 40-cı illərinin axırında işlədilir.

İNQİLAB - cəmiyyətin inkişafında, istehsal üsulunda, müxtəlif bilik sahələrində dərin keyfiyyət dəyişikliyi. **İ.** təkamül yolu ilə inkişaf prosesində yaranan ziddiyyətlərin tədricən artması nəticəsində meydana çıxır. Bu ziddiyyətlər çevriliş, sıçrayış, kəskin dönüşlərlə həll olunur. **İ.** qısa müddət davam edə və ya bütöv bir tarixi dövrü əhatə edə bilər. **İ.** ictimai inkişafın, ətraf aləmi dərk etməyin nəticəsi olub insanın və ya hər hansı ictimai qrupun arzusundan, yaxud iradəsindən asılı deyil; dönüş mərhələsində, yəni yaranmış ziddiyyətləri və ya münasibətləri başqa bir yolla həll etmək mümkün olmadıqda meydana çıxır. İctimai inkişafın obyektiv tələbləri İ.-ın qələbəsinə təminat verməsə də, onun tarixən labüdlüyünü müəyyən edir.

İ.-lar bir-birindən ilk növbədə hərəkətverici qüvvələrinə, məqsəd və vəzifələrinə görə fərqlənir.

Şüurda, mədəniyyətdə, incəsənətdə, dünyabaxışında, insanların ictimai həyatındai **i.** daha mühümdür.

Cəmiyyətin inkişafının müəyyən mərhələsində ziddiyyətlərin artmasının nəticəsi kimi meydana çıxan sosial və siyasi **i.**-lar ictimai münasibətlərin yaranmaqda olan yeni formaları ilə ömrünü başa vuran formaları arasında gedən mübarizənin ən kəskin şəklidir. Sosial **i.**-ın obyektiv əsasları istehsal üsulundadır. Bununla yanaşı o, cəmiyyətdə baş verən ictimai-siyasi proseslərdən, xarici səbəblərdən (müharibə, silahlı müdaxilə, beynəlxalq aləmdə hakim dairələrin siyasəti), bu və ya başqa sosial problemlərin həllinin müşkülə düşməsindən də meydana gələ bilər.

Sosial inqilablar sırasında siyasi **i.** -lar xüsusi yer tutur. Belə **i.**-lar zamanı cəmiyyətin sosial-iqtisadi əsasları dəyişmədən hakimiyyətin forması dəyişir, hakim sinfin bir hökmran fraksiyası digəri ilə əvəz olunur.

Siyasi və sosial **i.**-lar miqyasına, xarakterinə, hərəkətverici qüvvələrinə, məqsəd və vəzifələrinə görə bir-birindən fərqlənirlər. Bu **i.**-ın aşağıdakı tiplərini göstərmək olar: antiimperialist (müstəmləkəçilik əleyhinə, milli azadlıq), burjua, burjua-demokratik, xalq, xalq-demokratik, sosialist inqilabları.

Antiimperialist **i.** müstəmləkələrdə, imperialist dövlətlərdən asılı olan ölkələrdə baş

verən milli istiqlaliyyətin əldə edilməsinə yönəldilən inqilabdır. Bu inqilabın rəhbər qüvvəsi yerli milli burjuaziya və onun ideya-siyasi təsiri altında olan geniş xalq kütləsi - kəndlilər, şəhər əhalisi, tələbələr, hərbi dairələr idi. Antiimperialist i.-lar xarici kapitalın hökmranlığına və onu dəstəkləyən komprador və ya bürokratik burjuaziyaya, feodallara, tayfa əyanlarına qarşı yönəlmişdi.

Burjua i.-nın əsas vəzifəsi feodal quruluşunu ləğv etmək, kapitalist istehsal münasibətlərini, xüsusi mülkiyyəti və burjuaziyanın siyasi hökmranlığını bərqərar etməkdir. Onun hərəkətverici qüvvəsi feodal, sənaye, maliyyə, ticarət burjuaziyası, kütləvi bazası isə kəndlilər, şəhər əhalisi, yaranmaqda olan proletariat idi. Belə inqilablar Avropada və Şimali Amerikada bütöv tarixi dövrü əhatə etmiş, dəfələrlə siyasi çevrilişlərlə, vətəndaş müharibələri, inqilaba qədərki qaydaların bərpası, burjuaziya ilə onun devirdiyi feodal cəmiyyətinin sinifləri arasında güzəştlər əldə edilməsi, fəhlələrin çıxışlarının amansızlıqla yatırılması ilə müşayiət olunmuşdur. Çox vaxt burjua inqilabları eyni zamanda milli azadlıq, milli qovuşma və ya milli ayrılma məsələlərini həll etmişdir. XVIII əsrin sonundakı Böyük Fransa inqilabı cəmiyyətin inkişafına xüsusilə güclü təsir göstərmişdir. XIX əsr ərzində və XX əsrin əksər hissəsində baş vermiş inqilabların çoxu burjua i.-nın vəzifələrini həll etmişdir.

Burjua inqilabının bir növü də burjua-demokratik i.-dır. Öz mənafeləri və hüquqları uğrunda mübarizəyə qalxan geniş xalq kütləsinin iştirakı bu inqilabın gedişinə həlledici təsir göstərir. Belə inqilabların dərinliyi və miqyası burjuaziyadan daha çox xalq kütləsindən asılıdır. ən böyük burjua-demokratik inqilabları 1848-1849-cu illərdə Avropanın əksər ölkələrində, habelə 1905-1907-ci və 1917-ci illərdə Rusiyada baş vermişdir.

Marksizmə görə, dünya sosialist i.-ı sosialist, demokratik və milli azadlıq inqilablarının məcmusudur və bunların gedişində dünya miqyasında kapitalizmdən sosializmə keçid baş verməli, cəmiyyətin sosial-iqtisadi bünövrəsində əsaslı çevriliş olmalı, cəmiyyətin kommunizmə keçməsi üçün ilkin şərtlər yaranmalı idi. Belə inqilabın bütöv bir tarixi dövrü əhatə edəcəyi güman olunurdu. Müxtəlif ölkələrdə obyektiv və subyektiv amillər yetişdikcə yeni-yeni ölkələrin və xalqların kapitalizm sistemindən ayrılacağı bildirilirdi.

Fasiləsiz (permanent) i.-bu ideyanı Marks və Engels irəli sürmüşdülər. Onlar belə hesab edirdilər ki, burjua və ya burjua-demokratik inqilabının qələbəsindən sonra kifayət qədər qüvvəyə və təşkilata malik olan proletariat burjuaziyanın fraksiyalarını bir-birinin ardınca hakimiyyətdən kənarlaşdıracaq, siyasi və iqtisadi hakimiyyəti bütünlüklə ələ alaraq kommunist partiyasının rəhbərliyi ilə sosializmə keçəcəkdir.

Marksizmə görə, sosialist i.-ı sosial inqilabın ən yüksək tipidir. Onun gedişində kapitalizmdən sosializmə və kommunizmə keçilir. Belə inqilab istehsal vasitələri üzərində xüsusi mülkiyyəti ictimai mülkiyyətlə əvəz etməli, istehsalda hərcmərcliyə son qoyaraq onu planlı əsaslar üzərinə keçirməli, fəhlə sinfinin hakimiyyətini - bu və ya başqa formada proletariat diktaturasını bərqərar etməli, milli məsələni həll etməli, iqtisadi münasibətləri, cəmiyyətin sosial strukturunu, əxlaqını, mədəniyyətini və s. yenidən qurmalıdır.

Marksizm nəzəriyyəçiləri uzun müddət belə hesab edirdilər ki, bu cür inqilab yalnız silahlı üsyan və ya vətəndaş müharibəsi nəticəsində qalib gələ bilər. Yalnız 50-ci illərin axırlarında zəhmətkeşlərin hakimiyyəti dinc yolla, yəni parlament yolu ilə ələ almasının mümkünlüyü kommunistlər tərəfindən qəbul edildi.

"Yuxarıdan olan", hərbi və ya siyasi çevrilişlərdən, "saray" çevrilişlərindən fərqli olaraq xalq i.-ı geniş və kütləvi hərəkatdır. Xalq inqilabları sosial-iqtisadi və siyasi məzmununa görə müxtəlif formalarda baş verə bilər.

Xalq-demokratik i.-ı faşizmlə mübarizənin gedişində Şərqi Avropa ölkələrinin bir çoxunda genişlənən antifaşist, demokratik inqilab, milli azadlıq inqilabıdır. Faşizmə qarşı bu mübarizənin gedişində

milli cəbhə (vətən cəbhəsi, xalq cəbhəsi) çərçivəsində fəhlə sinfini, kəndliləri, milli burjuaziyanın və orta təbəqələrin antifaşist əhval-ruhiyyəli hissəsini birləşdirən milli və vətənpərvər qüvvələrin geniş ittifaqı yaranmışdı.

Həmin ölkələrdə siyasi və ideoloji plüralizmə əsaslanan xalq demokratiyası rejimi yaranmışdı. Lakin sonralar Sovet ittifaqının təzyiqi altında bu ölkələrə"kazarma sosializmi" modeli qəbul etdirildi. Həmin ölkələrin xalqları bu modeli yalnız 80-ci illərin sonunda rədd etdilər.

1989-cu ilin axırında Cexoslovakiyada baş vermiş demokratik inqilab "zərif" burjua **i.**-ı adı almışdır. Onun gedişindəki güclü xalq çıxışları nəticəsində "real sosializmin" mövcud dövlət və siyasi strukturları ləğv olundu, kommunist partiyası hakimiyyətdən kənarlaşdırıldı. Rumıniya istisna olmaqla Şərqi Avropanın digər ölkələrində bir qədər əvvəl və ya eyni vaxtda baş vermiş inqilabı proseslər də "zərif" i.-a yaxın proseslər idi.

Bütövlükdə götürdükdə cəmiyyətin məhsuldar qüvvələrinin inqilabı adlandırılan, elmdə, texnikada, istehsalatda baş verən **i.**-lar XX əsrin ikinci yarısında durmadan genişlənərək maddi və mənəvi istehsalı və insanın həyat şəraitini əsaslı surətdə dəyişir. Eyni zamanda müasir dövrün sosial və siyasi proseslərindən də yan keçmir, bunlara xüsusi hərəkət verir, demokratik prosesi stimullaşdırır.

XVIII əsrin sonu - XIX əsrin birinci yarısında Qərbi Avropa ölkələrində və Şimali Amerikada Sənaye **i.**-ı baş vermişdir. Bu inqilab əsasən əl əməyinə əsaslanan manufaktura istehsalını və sənətkarlığı maşın və mexanizmlərin geniş tətbiq olunduğu maşınlı istehsalla əvəz etmişdir. Sənaye **i.**-nın gedişində iri sənaye istehsalı, nəqliyyatın yeni növləri, getdikcə artan sənaye proletariatı ordusunun cəmləşdiyi iri şəhərlər meydana gəldi. Eyni zamanda aqrar çevriliş baş verdi: torpaqsızlaşmış kəndlilərin çox hissəsi şəhərlərə axışaraq proletariatın sıralarını artırır, kapitalist tipli iri kənd təsərrüfatı istehsalı ilə yanaşı, muzdlu əməkdən istifadə edən fermer təsərrüfatları da yaranırdı.

Sənaye **i.**-ı burjua, burjua-demokratik inqilablarının qələbəsi üçün zəruri maddi zəmin yaratdı. Kapitalist cəmiyyətinin iki ən böyük sinfi burjuaziya və proletariat meydana gəldi. Elmi-texniki inqilab Qərb tədqiqatçılarını ikinci sənaye **i.**-ı konsepsiyasını irəli sürməyə sövq etdi Lakin elmi-texniki inqilab nə qədər dərinləşsə də, hələlik mövcud istehsal üsulunu əhəmiyyətli dərəcədə dəyişmir. Buna görə də həmin ideya mübahisəli olaraq qalır.

Mədəni **i.**- cəmiyyətin mənəvi inkişafında əsaslı dönüşün xüsusi formalarından biridir. Bir qayda olaraq,yeni ictimai quruluş bərqərar olduqda həm də yeni mədəni dəyərlərin, mədəniyyətin inkişafında yeni ideyaların, təhsil və maarifin yeni sisteminin bərqərar olmasının az və ya çox çəkən prosesi başlayır.

İNQİLABİ (əksinqilab) İXRACI - inqilabi (əksinqilabi) prosesin xaricdə yerləşən təşəbbüsçülərinin bu prosesin təmin edilməsinə yönəldilmiş fəaliyyət sistemi.

İNQİLABİ ŞƏRAİT-obyektiv və subyektiv amillərin məcmusu; bunlarsız heç bir inqilab qalib gələ bilməz. **i.ş.**-in əsas əlamətləri bunlardır: 1) hakim sinfin öz hökmranlığını dəyişməz halda saxlamasının mümkün olmaması, "yuxarıların böhranı", bu zaman "aşağılar" kühnə qayda ilə yaşamaq istəmir, "yuxarılar" da bu cür yaşamağa qadir olmurlar; 2) məzlum siniflərin ehtiyac və məşəqqətlərinin həmişəkindən artıq kəskinləşməsi; kütlələrin fəallığının xeyli artması və onların müstəqil tarixi yaradıcılığa hazır olması.

Lakin hər bir **i.ş.** avtomatik olaraq inqilabla nəticələnmir. Bundan ötrü kütlələr inqilabi çevrilişin labüdlüyünü dərk etməli və ən fəal tədbirlərə hazır olmalıdırlar.

Daha geniş mənada **i.ş.** elmdə, mədəniyyətdə və başqa sahələrdə yarana bilər. Belə halda bu və ya digər prosesin keyfiyyətcə yeni səviyyəyə keçməsi zəruri və labüd olur.

İNNOVASİYA (lat.innovatio - yenidən başlama, təzələmə, dəyişmə)-ictimai elmlərdə: yenilik, təzələmə.

İNSAN HÜQUQLARI - şəxsiyyətin ayrılmaz azadlıqları və hüquqları, təbii hüququn və ümumiyyətlə, bütövlükdə hər cür hüququn əsas anlayışı. **i.h.** vətəndaş hüquqlarını və siyasi azadlıqları, iqtisadi, sosial və mədəni hüquqları, habelə bütöv birliklərin (qadınlar, uşaqlar, milli azlıqlar, xalqlar və s.) hüquqlarını əhatə edir. Bəşəriyyətin məcmu hüquqları ideyası müzakirə olunur. **i.h.**cəmiyyətə şamil olunduqda şəxsiyyətdən özgələşdirilmir, birliyi təşkil edən bütün fərdlərin ekzistensial dəyərinin tanınması başlanğıc prinsip olaraq qalır.

İ.H.-nın tarixdən əvvəlki dövrü insanın mənsub olduğu nəsil vasitəsilə özünü təyin etməsi ilə bağlıdır. Adət və ənənələr, təbii hüquqi rüşeym forması kimi bunların əsasında yaranan adi hüquq (hərbi demokratiya, icma özünüidarəsi) **i.h.**-nın mənbəyi olur. Antik polisin vətəndaşının ayrılmaz hüquqları **i.h.**-nın Roma hüququ tərəfindən inkişaf etdirilmiş ilk hüquqi formasıdır. Orta əsrlərdə, bir tərəfdən, ayrı-ayrı qrupların və silklərin nümayəndələrinin müxtəlif şəxsi hüquqları inkişaf edir, digər tərəfdən, müxtəlif hüquq iyerarxiyaları yaranırdı. Bu iyerarxiyalardan ən məhşuru tomist iyerarxiyadır: əbədi qanun (eexaeterna) - sakral (mərasimi) hüquq (yus divinum) - təbii hüquq (yus naturale) - insan qanunu (eex humana və ya yus huminum). Sonuncu isə öz növbəsində mülki qanun (eex civilis) və (yaxud) pozitiv hüquq (yus rositivum) kimi təzahür edir.

İntibah dövrü humanistlərinin insan şəxsiyyətinin fəlsəfi baxımdan əsaslandırmaları nəticəsində **i.h.** ideyası cilalanır. Bu mənada əsas azadlıqların silklərə məxsus olmadığının etiraf edilməsi, ümumi dünya məhkəmələrinin meydana gəlməsi, İsveçrə kantonlarının istiqlaliyyət uğrunda mübarizə təcrübəsi, Niderland və ingiltərə inqilablarının təcrübəsi də mühüm rol oynamışdır. T.Hobbs "Levia fan" (1651 il) əsərində 19 təbii qanunun aydın tərifini verməyə cəhd göstərmişdir. Niderland, ingiltərə və Fransa hüquqşünasları və mütəfəkkirlərinin işi T.Ceffersona və onun silahdaşlarına istiqlaliyyət bəyannaməsində (1776) **i.h.**-nın

klassik tərifini ifadə etməyə imkan vermişdir: "... Tanrı bütün adamları yaratmış və onlara müəyyən ayrılmaz hüquqlar vermişdir. Yaşamaq, azadlıq hüququ və xoşbəxtliyə can atmaq bu hüquqlar sırasındadır". Bu ideyalar Böyük Fransa inqilabının və sonrakı burjua inqilablarının gedişində, hüquq fəlsəfəsinin təşəkkülü prosesində daha da inkişaf etmişdir.

İ.h. haqqındakı müasir təsəvvürlər faşizmin və totalitarizmin, zorakalıq və istismarın aradan qaldırılması ilə bağlı bəşəriyyətin əldə etdiyi intellektual və siyasi təcrübəni əxz edir. Bunlar 1948-ci il dekabrın 10-da BMT Baş Məclisinin qəbul etdiyi "İnsan hüquqları haqqında ümumi bəyannamə"də ifadə olunmuşdur. Bəyannamədə deyilir ki, "bütün insanlar öz ləyaqət və hüquqlarına görə azad və bərabər doğulur" (maddə 1), "Hər bir insan irqi, dərisinin rəngi, cinsi və s. əlamətlərə görə heç bir fərq qoyulmadan Bəyannamədə elan edilmiş bütün hüquqlara malik olmalıdır" (maddə 2). Giriş maddələrindən sonra gələn 19 maddə (3-21) vətəndaşlıq hüquqlarını və siyasi hüquqları, o cümlədən insanın yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüquqlarının qanun qarşısında bərabərliyini, öz ölkəsinin idarə olunmasında iştirak etmək hüququnu, vətəndaşlıq hüququnu, əmlak hüququnu, neqativ azadlıqları (heç kəs özbaşına həbs edilə, tutula və ya sürgün oluna bilməz, heç kəs kölə vəziyyətində və asılı vəziyyətdə saxlanılmamalıdır, heç kəs işgəncəyə və qəddar rəftara məruz qalmamalıdır, heç kəsin şəxsi həyatına və ailə həyatına özbaşına müdaxilə etmək olmaz və s.), habelə pozitiv azadlıqları (sərbəst yerdəyişmə, vicdan, dinc yığıncaqlar və assosiasiyalar azadlığı və s.) şərh edilir. Sonrakı 6 maddə (22-27) iqtisadi, sosial və mədəni hüquqları, o cümlədən sosial təminat, əmək hüququnu, sərbəst iş seçmək, sağlamlığı və firavanlığı lazımi səviyyədə saxlamaq üçün zəruri yaşayış səviyyəsi hüququnu, təhsil hüququnu, mədəni həyatda iştirak etmək hüququnu və s. ifadə edir. 29-cu maddədə deyilir ki, hər bir insan yalnız onun şəxsiyyətinin

azad və dolğun inkişafını mümkün edən cəmiyyət qarşısında vəzifə daşıyır. Həm də bu zaman hər bir insanın sosial və beynəlxalq qayda-qanun hüququ var ki, bunun sayəsində Bəyannamədə ifadə olunan hüquq və azadlıqlar tamamilə həyata keçirilə bilər (maddə 28). Hər bir insan özünün hüquq və azadlıqlarını həyata keçirəndə ancaq elə məhdudlaşdırmalara məruz qalmalıdır ki, o məhdudiyyətlər başqalarının hüquq və azadlıqlarını yalnız qanunla lazımi şəkildə tanımaq və onlara hörmət etmək, demokratik cəmiyyətdə əxlaqın, ictimai qayda-qanun və ümumi rifahın ədalətli tələblərini təmin etmək məqsədilə müəyyən olunmuşdur (maddə 29). Sonuncu, 30-cu maddədə deyilir ki, bu Bəyannamədə heç nəyi hər hansı dövlətə, bir qrupu şəxsə və ya ayrı-ayrı adamlara Bəyannamədə ifadə olunmuş hüquq və azadlıqların məhvinə yönəldilmiş nəsə bir fəaliyyət göstərmək, yaxud iş görmək hüququ verilməsi kimi mənalandırmaq olmaz.

Bəyannamə insan Hüquqları haqqında beynəlxalq billin birinci bölməsidir. Həmin sənədə 1966-cı ildə qəbul edilmiş Vətəndaşlıq hüquqları və siyasi hüquqlar haqqında pakt və buna dair fakultativ protokol da daxildir. Bu sənədləri imzalamış dövlətlər onlara əməl olunarkən əldə etdikləri tərəqqi və qarşılaşdıqları çətinliklər barədə vaxtaşırı BMT-yə məruzə təqdim etməlidirlər. Məruzələr hər biri 18 nəfər müstəqil ekspertdən ibarət iqtisadi, sosial və mədəni hüquqlar komitəsində və insan hüquqları komitəsində nəzərdən keçirilir. Fakultativ protokola əsasən ayrıca bir şəxs hüquqlarının pozulması ilə əlaqədar BMT-yə şikayət edə bilər (bu şərtlə ki, barəsində şikayət edilən hökumət həm paktı, həm də fakultativ protokolu imzalamış olsun).

İ.h. haqqında beynəlxalq billdən əlavə, BMT digər sənədlər, o cümlədən Uşaq hüquqları bəyannaməsi (1959) Vəzifəli şəxslərin qayda-qanunu qoruyub saxlamağa dair davranış kodeksi (1979), dözümsüzlüyün və ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında bəyannamə (1981), gögəncələr, davranış və cəzaların digər qəddar, insanlıqdan kənar və insan ləyaqətini alçaldan növləri əleyhinə konvensiya (1984), inkişaf hüququ haqqında bəyannamə (1986) qəbul etmişdir. Avropada Təhlükəsizlik və əməkdaşlığa dair Müşavirənin (ATƏM; 1994-cü ilin dekabrından Avropada Təhlükəsizlik və əməkdaşlıq Təşkilatı - ATƏT) 1975-ci ildə Helsinkidə qəbul olunmuş Yekun aktının və sonrakı sənədlərinin, regional sazişlərin, məs.. Avropa məhkəməsinin də **i.h.** sahəsində böyük əhəmiyyəti var.

İ.h. konsepsiyasının inkişafı davam edir. Hazırda mühüm problemlərdən biri milli qanunvericiliklərin və siyasi praktikanın **i.h.**-nın beynəlxalq standartlarına uyğunlaşdırılmasıdır.

Siyasi baxımdan **i.h.**-nın normativ cəhətlərindən daha çox funksional cəhətlərinin dərki və əsaslandırılması tələb olunur. Başqa sözlə, müasir siyasi birliklərin inkişafı və səmərəli fəaliyyət göstərməsi üçün **i.h.**-nın mənası və əhəmiyyəti ön sıraya çıxır. Bu məsələdə fikir və mövqelər o qədər çoxdur. Səbəbi isə qarşıya çıxan problemlərin xeyli dərəcədə siyasi kəskinliyi, qeyri-nəzəriliyi ilə izah olunur. Lakin bu müxtəlifliyə baxmayaraq, istər nəzəri, istərsə də praktik baxımdan ümumi əhəmiyyəti olan bir yığım var. Bunlara misal olaraq, siyasi birliyin üzvlərinin hüquq və vəzifələri arasındakı uyğunsuzluğun aradan qaldırılması problemini göstərmək olar. Həmin hüquq və vəzifələr meydana gəldiyi zaman, polis demokratiyası dövründə ayrılmaz sayılırdı. Bu hüquqlar vətəndaşlıq vəzifələrini icra etmək hüquqları idi, həmin vəzifələrin icrası isə polis vətəndaşının müstəsna imtiyazı (hüququ) idi. Müasir şəraitdə hüquq və vəzifələri formal, mexaniki olaraq tarazlaşdırmaq üçün göstərilən cəhdlər həmin hüquq və vəzifələrin kəskin şəkildə funksional bölgüsünü və ziddiyyətini, habelə siyasətin subyektləri arasında hüquq və vəzifələrin bölüşdürülməsini aradan qaldırmağa qadir deyildir.

İNTERPELLYASİYA - (lat.interrellatio, hərfi mə`nası nitq kəsilməsi) - bax; **DEPUTAT SORĞUSU İNTERPOL,**

Beynəlxalq Cinayət Polisidarəsi (ISRO-International Criminal Police Organization, Interrol) - 1923-cü ildə Vyanada beynəlxalq cinayət-polisi komissiyası kimi təşkil olunmuş idarə. Qüvvədə olan Nizamnaməsi 1956-cı ildə qəbul edilmişdir. i. üzvü olan ölkələrdə Milli Mərkəzi bürolar yaradılır. 160 ölkəni birləşdirir (1995) i.-un fəaliyyəti, əsasən, həddi-buluğa çatmamışların cinayətkarlığı, narkotik maddələrlə kontrabanda və onların qeyri-tibbi istifadəsi ilə, qəlp pulkəsmə və qiymətli kağızları saxtalaşdırma, daxili və xarici mülki xətlərində banditizm ilə mübarizəyə yönəldilmişdir. Daimi iqamətgahı Parisdədir.

İNVESTİTSİYA - (alm. İnvestiton, lat. invectio -geydirirəm) - mənfəət almaq məqsədi ilə həm ölkə daxilində, həm də xarici sənaye, k.t., nəql və təsərrüfatın digər sahələrinə uzun müddətli kapital qoyuluşu. Maliyyə i.-sı korporasiyaların, yaxud dövlətin buraxdığı səhm, istiqraz vərəqəsi, və digər qiymətli kağızların alınmasına, real ı. isə həm ölkə daxilində, həm də xaricdə istehsal təyinatlı əsas kapitala (bina, qurğu, avadanlıq) mənzil tikintisinə əmtəə-material ehtiyatlarına kapital qoyuluşudur. i.-ları xüsusi korporasiyalar və dövlət həyata keçirir. Xüsusi ı.-lar daha mənfəətli (sənayeyə) dövlət i-ları azgəlirli sahələrə yönəldilir. Dövlət ı.-ların mənbələri vergilər, daxili və xarici istiqrazlar, dövlət müəssisələrinin gəlirləri, təzə pul buraxılmasıdır.

İPOTEKA (yun. hyroteke - girov) - uzunmüddətli borc almaq məqsədilə daşınmaz əmlakın (torpağın, tikililərin) girov qoyulması. ı. müasir ölkələrin (ABŞ, Kanada, B.Britaniya, Fransa, İsveç) iqtisadiyyatında, xüsusilə k.t.-nda geniş yayılmışdır.

İRENOLOGİYA - (yun. Eirhnh - dünya) - Dünya haqqında elm (bax; **DÜNYANIN TƏDQİQİ**).

İRQÇİLİK - xalqların "aşağı" və "ali" irqlərə bölünməsini əsaslandıran baxışlar sistemi və bu sistemə əsaslanan siyasi fəaliyyət. Bax; həmçinin **APARTEİD. İRTİCA** - inqilaba və tərəqqiyə müqavimət göstərilməsi; ilk əvvəl sadəcə olaraq "qarşıdurma" mənasında işlənmişdir. ən ümumi şəkildə, i. baxışları və fəaliyyət növlərini

məhv etmək və tamamilə aradan qaldırmaq məqsədilə ictimai-siyasi sistemlərin həyata keçirdikləri tədbirlərin (ideoloji, siyasi, sosial, hərbi) toplusudur; ilk növbədə baxışların və fəaliyyətin elə növlərini yox etməyi nəzərdə tutur ki, bunların yayılması və inkişafı həmin sistemlərin özlərinin labüd surətdə yox olmasına doğru aparır. Mühafizəkarlıqdan fərqli olaraq, i. yeniliyə bütünlüklə düşmən kəsilir və onun tamamilə məhvini də istisna etmir.

K.Marks və F.Engelsin i. barədə verdikləri klassik təhlil bu gün də əhəmiyyətini itirməmişdir. Onlar ı.-nın iki əsas tipini fərqləndirmişlər. Birincisi, dövlət hakimiyyəti forması kimi bonapartizmdir. Belə dövlət hakimiyyəti forması o zaman yaranır ki, kifayət qədər inkişaf etmədiklərinə görə nə burjuaziya, nə də fəhlə sinfi ictimai həyatda müəyyənedici rol oynaya bilmirdi. ıkincisi isə, kapitalist inkişaf yoluna qarşı Prussiya irticası idi.

XX əsrin i.-sını tarixin operativ şəkildə irəli sürdüyü inkişaf amillərinin (maddi və mənəvi) rəddedilməsi kimi başa düşmək olar. Bu, alman nasional-sosializmində, onun ifrat şovinizm, millitarizm, antidemokratikliyində, dünya aralığı barədə əsassız iddialarında özünü daha ardıcıl göstərirdi. 20-30-cu illərdə SSRı-də formalaşmış **AVTARKİYA,** müstəsnalıq ideologiyası da - bütün qüvvələri səfərbər etməsinə baxmayaraq, əslində cəmiyyəti geri qalmağa düçar etmiş və nəticədə inkişafın ləngiməsinə, durğunluğa, korrupsiyaya, totalitar müstəbidliyə, repressiyalara səbəb olmuş siyasətdə də i. ünsürləri olmuşdur. Sosializm başqa ölkələrdə də hədsiz perspektivlərlə tərəqqi simalı ı. şəklini almışdır.

Sar ekstremist cərəyanların (o cümlədən Rusiyada neonasist qrupların), siyasi təcrübədə və kütləvi şüurda millətçiliyin, avtoritarizmin, millitarizmin ifrat formalarının fəallaşması ilə əlaqədar son illərdə bu proseslərin öyrənilməsi sahəsində də tədqiqatlar genişlənir.

İ.-nın digər bir tipi avtoritar, istibdad, avtarkiya rejimlərinin mütərəqqi inkişafa ümumiyyətlə, yol verməmək səyləridir. Belə ı.-nın əsas dəlili adətən

"özünəməxsus", "üçüncü", "digər" inkişaf yolu seçmək, milli xüsusiyyəti mühafizə etməkdir. Dünyada baş verən modernləşdirmə və inkişaf proseslərinə qarşı İ.-nın variantı kimi dini-millətçi təməlçiliyi misal çəkmək olar. Belə İ.-nın məqsədi bəşəriyyətin aradan qaldırmağa çalışdığı qeyri-bərabər inkişafı qoruyub saxlamaqdır.

İSLAM KONFRANSI TƏŞKİLATI (İKT) - dini birlik əsasında Asiya və Afrikanın 1,2 milyard nəfərdən artıq əhalisi olan 55 dövlətini, həmçinin Fələstin Azadlıq Təşkilatını (FAT) birləşdirən dövlətlərarası təşkilat.

Müsəlman ölkələri dövlət və hökumət başçılarının ilk konfransı 1969-cu ilin sentyabrında Mərakeşin Rabat şəhərində keçirilmişdir. Səudiyyə ərəbistanının Ciddə şəhərində xarici işlər nazirlərinin 3-cü konfransında rəsmi olaraq təsis edilmişdir. Nizamnaməsinə uyğun olaraq **İKT**-nın qarşısına aşağıdakı məqsədlər qoyulmuşdur: təşkilatın üzvləri arasında həmrəyliyi təşviq etmək; iqtisadi, sosial, mədəni, elmi və digər çox mühüm fəaliyyət sahələrində əməkdaşlığı möhkəmləndirmək; beynəlxalq təşkilatlarda **İKT** üzvü olan dövlətlər arasında məsləhətləşmələr keçirmək; irqi ayrı-seçkiliyi, seqraqasiyanı ləğv etməyə, müstəmləkəçiliyin bütün formalarda kökünü kəsməyə səy göstərmək; ədalətə əsaslanan beynəlxalq sülh və təhlükəsizliyin qorunması üçün zəruri tədbirlər həyata keçirmək; islamın müqəddəs yerlərinin mühafizə edilməsi üçün səyləri əlaqələndirmək, Fələstin xalqının hüquqlarının bərpa olunması, həmçinin müsəlman xalqlarının istiqlaliyyət və milli hüquqlar uğrunda mübarizəsini müdafiə etmək.

İKT-nın orqanları bunlardır: məliklərin, dövlət və hökumət başçılarının konfransı (ali orqan); xarici işlər nazirlərinin konfransı: baş katiblik. **İKT**-nın Nizamnaməsində göstərilir: "Qüds azad edilənə qədər baş katibliyin qərargahı Ciddədə yerləşir". Hər bir islam dövləti **İKT** üzvü ola bilər. Təşkilat üzvlərinin üçdə ikisi lehinə səs verdiyi andan üzvlük statusu qüvvəyə minir.

İKT-nın tərkibində müxtəlif sosial-siyasi və iqtisadi inkişaf

səviyyələrində olan dövlətlərin birləşməsi özündən bəzən qəbul edilən qərarlar islam dünyasındakı ayrı-ayrı istiqamətlərin mübarizəsini əks etdirirsə də, bütövlükdə beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir. ərəb-israil münaqişəsi və onunla bağlı problemlərə dair **İKT**-nın qətnamələri antiimperialist xarakter daşıması ilə diqqəti cəlb edir.

Azərbaycan Respublikası 1991-ci ildən İKT-nın üzvüdür.

İKT-nın dövlət və hökumət başçılarının 7-ci Zirvə toplantısı 1994-cü il dekabrın 13-15-də Mərakeşin Kasablanka şəhərində keçirilmişdir. Toplantıda Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar yaranmış böhranlı vəziyyətə xüsusi diqqət yetirilmiş, bu məsələ ilə əlaqədar iki qətnamə qəbul edilmişdir. Birinci qətnamədə Ermənistanın Azərbaycana təcavüzü pislənmiş, ikinci qətnamədə isə təcavüzə məruz qalmış Azərbaycanın düşdüyü ağır vəziyyətlə əlaqədar **İKT**-nın və onun üzvü olan dövlətlərin respublikamıza iqtisadi və humanitar yardım göstərilməsinin zəruriliyi qeyd olunmuşdur. Zirvə toplantısının Yekun sənədinə də Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar geniş bölmə daxil edilmişdir. Həmin bölmədə bu təcavüzün Azərbaycana vurduğu maddi və mənəvi zərər, insan tələfatı və s. geniş əksini tapmışdır. Burada eyni zamanda tələb olunmuşdur ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını, o cümlədən Şuşa və Laçın şəhərlərini qeyd-şərtsiz tərk etməlidirlər.

Toplantıda Azərbaycan prezidenti H.ə.əliyev çıxış etmiş, həmçinin Asiya dövlətləri adından təbrik nitqi söyləmişdir.

İSLAM TƏMƏLÇİLİYİ – Müasir fəlsəfi, sosioloji və politoloji ədəbiyyatda çox danışılır. İslam mədəniyyəti qaydalarında təməlçiliyə ümumi siyasi proseslər təsir göstərir. Bu həm də müasir dünya dinlərindən biri olan İslamın rolunu yeni mövqelərdən qiymətləndirməyə imkan verir. Məlumdur ki, keçən əsrdən başlayaraq İslam ölkələrinə yeni texnologiyanın daxil olması onların mənəvi həyat tərzini dəyişmişdir. Bu isə adət edilmiş həyatın əsaslarını sarsıdır, yeni əlamətlərin yaranması

qatı dindarları qorxudur. Təməlçilik də elə buradan yaranmışdır. Bunun da nəticəsində mühafizəkar qaydaların qorunması uğrunda yeniləşməyə qarşı çıxışlar başlayır. Qərb ədəbiyyatında bir qayda olaraq "İ.t." adı altında bütün islam Şərqi nəzərdə tutulur. Halbuki, İslam Şərqində fərqli quruluşlara malik ölkələr var, bu ərazilərdə müxtəlif xalqlar yaşayır və mədəniyyətlər mövcuddur.

Klassik təməlçilər islamı hər cür "yeni fitnələr"dən qorumağa, onu korroziyaya uğramaqdan sapındırmağa çalışırlar. Onlar (məsələn, Taliban hərəkatının nümayəndələri) İslamın saflığına, təmizliyinə, təmiz islam cəmiyyətinin yaradılmasına, həqiqi islamın təntənəsinə nail olmağa səy göstərirlər. Bu mənada təməlçilik modernizmə qarşıdır. Modernistlər də özlərini haqlı hesab edərək islamda edilən dəyişiklikləri təbii sayırlar.

Modernistlərdən Rifaət-Təhtavi (1801-1873) islamda ediləcək dəyişikliklərin onun həqiqi mahiyyətindən irəli gəldiyini qeyd etmişdir. Təməlçilər isə əksinə, rəsmi din xadimlərini təməlçilikdə, islami korlamaqda və s. təqsirləndirirlər. Çünki özünün çoxəsrlik tarixi müddətində islam yadların təsirinə məruz qalmış, ona yad ünsürlər qoşulmuş və o başqa dünyagörüşü formaları və həyat tərzləri ilə qarışmışdır. Belə ki, islam özünün həyatverici qüvvəsini itirmişdir. İndi isə onun öz ilkin xüsusiyyətlərinə qayıtmaq vaxtı çatmışdır. "Həqiq islamın" əsas xüsusiyyəti onun elmi rasionalizmindədir. Bu islamın mənəvi sütunudur və o, modernistlərin "ümumi mənafeyə xidmət etmək" tezisinə ziddir. İslam təməlçiləri insanların təmizlənməyə, öz günahlarını yumağa, ilkin islami dəyərlərə qayıtmağa təşviq edirlər. Bu baxımdan təməlçiliyi modernizm də qıcıqlandırır. Modernizmin mahiyyəti ondadır ki, onlar ilkin islami dəyərləri inkar etmədən universal şüur formasının axtarılmasına, mənəvi idealın əldə olunmasına cəhd göstərirlər. Dini yeniləşmə adı altında bu və ya digər dinin çərçivəsi daxilində ənənəçiliyə və təməlçiliyə qarşı duran, inkişafı və dəyişiklikləri əks etdirən fəlsəfi dünyagörüşü cərəyanı modernizm adlanır. Din və dini təşkilatların

(kilsə, məscid, sinaqoq) yeni sosial şəraitə, dəyişən mənəvi vəziyyətə uyğunlaşması dini həyatın yeniləşməsində öz ifadəsini tapır.

Avropa mədəniyyəti tarixində dini yenilikçilik və islahatçılıq hərəkatından klassik nümunələr var. Martin Lüter, Tomas Münser, Jan Kalvin kimi reformatorların təlimlərindən başlamış, Bibliya mənbəli inamın bərqərar olmasınadək onlar *nəinki xristianlığın* əsas ehkamlarını bərpa etdilər, hətta Avropa mədəniyyətinin xeyli zəminləşməsinə və irəliləməsinə səbəb oldular. Müxtəlif dəyişmələr prosesi protestantizmi xristianlığın tez uyuşan növlərindən birinə çevrildi. Katolistizmə və provaslavlığa isə bu işi görmək üçün xeyli vaxt lazım oldu.

XIX əsrdə islamın həyatında da belə hərəkat başladı. Bu hərəkata "İslahatçılıq" adı verildi. Bu hərəkatın mahiyyətini islamın dövr və şəraitə uyğunlaşdırılması təşkil edirdi. Lakin islam islahatçıları xristian reformatorlarından fərqli olaraq heç də dinin əsasına toxunmamışlar, onlar "dünya işlərini" yalnız dini nöqteyi- nəzərdən əsaslandırmağa çalışmışlar.

Müasir islamşünaslıqda bu islahatçılıq hərəkatı Rifa-ət-Təhtavinin (1801 - 1873), Əbd ər-Rəhman Əl Kövkabinin (1847-1902), Camal –əd-din- əl Əfqaninin (1839-1897), Şeyx Məhəmməd İqbalın (1849-1905), Rəşid Rzanın (1805-1935) və başqalarının adları ilə bağlıdır. Bu hərəkat onunla əlaqədar idi ki, artıq XIX əsrin ortalarından başlayaraq İslam cəmiyyətinə Avropadan yeni ideyalar daxil olur, onlar islami ideyaları sıxışdırır və yaxud onlara qarışaraq yeni mahiyyət kəsb edirdilər. Bu sosial dəyişiklikləri dərk edən Rifa-ər Təhtavi bu yeniləşmənin Avropa mədəniyyətinin əldə etdiyi uğurlarla əlaqələndirilməsi zərurətini belə əsaslandırırdı: "Məqsəd diyarımızın əhalisini onlara qüvvət və güc gətirərəcək, onları qaydalara diqqət etməyə hazırlayacaq şeyləri əxz etməyə həvəsləndirməkdir". Qərb dəyərlərini qəbul etməyi Rifa-ər-Təhtavi Allahın öz bəndələri üçün xəlq etdiyi nemətlərdən "ümumi mənafe naminə faydalanmaq" kimi qiymətləndirirdi. Dini yenilikçilik ortodoksal ina-

mın bir çox əsas kateqoriyalarını yenidən qiymətləndirir. O, müasir insanın dünya duyumunu, onun əxlaqi axtarışlarını, həyat qaydalarını yaradır, yalnız dinin daxilindəki ziddiyyətləri axtarmır, habelə, avropa mədəniyyətinin ən yaxşı nümunələrini əxz etməyə çağırır.

İllər keçdikcə islam dinin ehkamlarında da bəzi dəyişikliklər baş vermiş, zaman və məkana uyğun gəlməyən müddəalar köhnəlmiş, yeni həyat qaydalarına uyğun bir sıra normalar yaranmışdır. Bu zərurəti başa düşən islamşünas alimlər və din xadimləri elə indinin özündə də onu modernləşdirməyə çalışır, islamda reformaların vacibliyini qeyd edirlər. Məsələn, onlardan bəziləri "İslam protestantizminin" yaradılması zərurətini xüsusi vurğulayırlar. Çünki bugünkü Qərb mətbuatı islamın bir sıra konservativ ehkamlarını əldə bayraq tutaraq hər yerdə "İslam fundamentalizmi" axtarmaqla məşğuldurlar. Bununla onlar əslində islamın "düşmən obrazını" yaradır, onu sivil xalqların gözündən salmağa cəhd göstərir, islamın elm və mədəniyyətə zidd bir din oluğunu əsaslandırmağa çalışırlar.

Tarixən də, elə indinin özündə də bir sıra Qərb alimləri belə bir fikir yayamağa səy göstərdilər ki, guya islam Şərqində adamların geriliyinin və cəhalətinin əsas günahkarları islamdır. Məsələn, fransız sosioloqu O.Renan belə hesab edirdi ki, guya islam və eləcə də orta əsrlər ərəb təfəkkürü həmişə elmin və mədəniyyətin əleyhinə çıxış etmişdir. Bu ideyalar vaxtında öz cavabını almışdır. Türkçülüyün (yeni osmançılığın) banilərindən olan Namiq Kamal və Əhməd Rza bu qeyri-elmi iddiaları təzkib etmişdir. Onu da deyək ki, Renan Cəmaləddin Əfqani ilə şəxsən söhbətlərindən sonra bu böyük alimin pərəstişkarla təkzib etmiş və orta əsrlərdə islam dünyasının Avropanı 500 il qabaqladığını sübut etmişdir. Onu da deyək ki, Renan Cəmaləddin Əfqani ilə şəxsən söhbətlərindən sonra böyük alimin pərəstişkarına çevrilmiş və öz iddialarının düzgün olmadığını etiraf etmişdir.

Bu kimi ideyalar sonralar bir sıra alimlərin əsərlərində – V.Montqomerinin, H.Bammatın kitablarında öz geniş elmi əksini tapmış və islamın bir sıra sahələrdə Avropadan 1000 il öndə olduğunu göstərmişdir.

Sonrakı illərdə islam xalqlarının geri qalmasının bir sıra obyektiv və subyektiv səbəbləri olmuşdur və bütün bunlar Azərbaycan mütəfəkkirləri tərəfindən açılıb göstərilmişdir. Buna səbəb heç də islam dini olmamışdır, əksinə, islam heç vaxt tərəqqiyə və inkişafa qarşı çıxmamışdır. Şərqdə feodal-patriarxal şəraitin, absolyutizmin, mütləq monarxiyanın hökm sürməsi, islam daxilində sünnilik, şiəlik və digər təriqətlərin yaranması, işsizlik (Ə. Hüseynzadə) və s. kimi hallar İslam Şərqi xalqlarının elmi və texniki tərəqqidən üzaq düşməsinə səbəb olmuşdur. Bu səbəbdən də Azərbaycan mütəfəkkirləri Qərbləşmək (Vesternizasiya) yolu ilə getməyi təlqin etmiş, bu zaman Qərbdə yaxşı nə varsa, hamısını götürüb ondan istifadə etməyi, amma "Qərbin mədəsində əriməməyi" (Ə.Hüseynzadə) məsləhət görmüşlər. Bununla belə yeniləşmə hərəkatının nümayəndələri Qərbi kor-koranə təqlid etməməyi, özünün mənəvi müstəqilliyini saxlamağı, dili və dini hər vasitə ilə inkişaf etdirməyi (H.B.Zərdabi) lazımlı bilirdilər. "Türkləşmək, islamlaşmaq və müasirləşmək" şüarını belə anlamaq lazımdır: "İslam və türk mövcudluğu çərçivəsində müasirləşmək" (Ə.B. Hüseynzadə).

K

KİLSƏ (türkcə kilise, kenise, aramicə kenista - toplanış yeri, məktəb, sinaqoq)- I) xüsusi dini təşkilat tipi. Dini etiqad və sitayişin ümumiliyi əsasında bu və ya başqa din ardıcıllarının birliyi. **K**.-nin əsas fərqləndirici əlamətləri: az və ya çox dərəcədə işlənib hazırlanmış ehkamlar və dini ibadət sistemi; iyerarxiya sistemi və idarəçiliyin mərkəzləşdirilməsi; **K**.-yə məxsus olanların peşəkar din xadimlərinə (ruhanilərə) və sıravi dindarlara bölünməsi. Bütün antaqonist sistemlərdə **K**. hakim siniflərlə bağlı olub mühüm siyasi, hüquqi və ideoloji funksiyaları yerinə yetirir. ən iri xristian kilsələri: pravoslav **K**. (15 avtokefal **K**.-dan ibarətdir), katolik **K**.-si,protestant K.-ləri, kalvinist **K**.-si (2) xristian dinində ibadət binası. Xristianlığın (ümumi mütləq hissəsi kimi) tarixi boyu ayrı-ayrı xalqlarda səmti Şərqə yönəldilmiş mehrabdan və ona bitişik köməkçi binalardan ibarət müxtəlif **K**. tipləri yaradılmışdır. Şəhərin, yaxud monastırın böyük **K**.-sinə sobor (daş kilsə) deyilir. Lüteran K.-sı adətən kirka, yaxud kirxa, polyak katolik K.-si kostyol adlanır.

KLAKA (fransızca clague - ovucun içi ilə vurulan zərbə, şapalaq) - politologiyada baş verən hadisəni gurultulu qaydada bəyəndirmək üçün muzdla tutulmuş kütləvi siyasi tədbir iştirakçıları qrupu.

KOALİSİYA - (ing.coalition, lat.coalescere - birləşmək)- 1.ümumi düşmənə qarşı bir və bir neçə dövlətin siyasi və hərbi ittifaqı. 2. Birgə hərəkət etmək üçün partiyalar, yaxud ictimai xadimlərin işləyib hazırladıqları saziş, müqavilə; **K**. əsasında hökumətlərin də təşkili mümkündür.

KOLLEKTİV FİKİR - mütəşəkkil qrup kimi kollektivin mənafelərini ifadə edən oxşar qiymət mühakimələrinin, baxışlarının, təsəvvürlərinin məcmusu. K.f. qrup fikrinin növ müxtəlifliyidir.

KOMMUNİST PARTİYALARI - cəmiyyətin kommunist əqidəsinə uyğun yenidən qurulmasına can atan partiyalar. 1898 -ci ildə RSDFP,

1905-ci ildə RSDF(b)P olan ilk bu cür təşkilat 1918 ildə Leninin təşəbbüsü ilə RK(b)P adlandırıldı. Bunun əsas səbəbi ondan ibarət idi ki, kommunistlər sosial-demokratlardan ayrılsınlar və öz məqsədlərini - o vaxt yaxında yaranacağı zənn edilən kommunizmi elan etsinlər. KP-nin əksəriyyəti ötən əsrin 20-30-cu illərdə yaradılmışdır. RK(b)P-yə rəhbərlik edən Stalinin tələblərinə uyğun olaraq, onun liderləri və Komintern (1919-43-cü illərdə fəaliyyət göstərmişdir) "marksizm - leninizm" adı ilə geniş yayılmış ideyalar kompleksinə əsasən formalaşmışdır. Fəhlə sinfində xilaskar rolunu görən KP-lər bütün səylərini dünya kommunist inqilabını həyata keçirməyə, sonralar isə dünya inqilabi prosesinə yol azmaq istiqamətinə yönəltmişdilər, kommunizmin birinci mərhələsi olan sosializmə keçməyin əsas prinsiplərini proletar diktaturasının qurulmasında (sonralar isə fəhlə sinfinin başqa zəhmətkeşlərlə ittifaqında), eyni zamanda əsas istehsal vasitələrinin dövlətin ixtiyarına keçməsində və dövlətin planlı təsərrüfatı hesabına bazar münasibətlərinin sıxışdırılıb aradan çıxarılmasında görürdülər. Cəmiyyətdə yeni keyfiyyətlərə nail olmaq üçün inqilabdan bir vasitə kimi istifadə etmək, onu mütləqləşdirmək, təkamülü qiymətləndirməmək, cəmiyyəti nəzərə almamaq, onu totalitarizmə çevirmək kommunistlər üçün səciyyəvi xüsusiyyət idi. KP-nin mühüm xüsusiyyətlərindən biri Stalinin xətt-hərəkətini, ondan sonra isə RK (b)P-İK (b)P- Sov.İKP-nin ideyalarını, SSRİ-nin inkişaf təcrübəsini, "real sosializmi" hamı üçün, sosializmə gedən bütün xalqlar üçün yeganə, "əsas yol" kimi idealizə etmək olmuşdur. KP "yeni tipli partiya", "Lenin tipli partiya" adlandırılmış və bütün başqa partiyalara qarşı qoyulmuşdur. Eyni zamanda onların üzərində inhisar iddiasında olmaq, onlara sahib olmaq, rəhbər rol oynamaq kommunistlərin əsas iddiasına çevrilmişdir. Demokratik mərkəziyyəti özləri üçün təşkilati prinsip kimi qəbul edən KP, ona "günahsız", "səhvsiz" rəhbərin başçılıq etdiyi dövrdə mütləq hakimiyyət prinsipini partiya

aparatında, sosializmə gedən "əsas yolda" sərt qayda-qanuna, nizam-intizama çevirdilər.

Zəhmətkeşlərin uğursuz taleli təbəqələrinin müdafiəsində, faşizmə və müstəmləkəçiliyə qarşı mübarizədə KP-lərin tarixi xidmətləri olmuşdur, eyni zamanda özlərinin hakim mövqe tutduqları totalitar iş rejimini qurarkən xeyli uğurlar əldə etmişdilər. SSRı-nin köməyi nəticəsində onlar 40-60-cı illərdə Şərqi Avropa ölkələrində, Asiyanın bəzi ölkələrində və Kubada hakimiyyətdə möhkəmlənmişdilər. Qərbi Avropa ölkələrində, Kiprdə xeyli nüfuz qazanmışdılar. Lakin əksər dövlətlərdə KP üzvlərinin sayına görə kiçik təşkilat kimi qalmış, ölkənin siyasi həyatında mühüm rol oynaya bilməmişlər.

Con illərdə KP arasında münasibətlərdə , real ictimai inkişafla ideya-siyasi yönümdəki fikir ayrılığı getdikcə çoxaldığından, onların dünyagörüşlərindəki, siyasətlərindəki və təşkilat məsələlərinin həllindəki fərqləri aradan qaldırmaq mümkün olmamışdır. Böhran öz ölkələrində inkişafın məsuliyyətini tamamilə üzərinə götürmüş KP-lərə daha çox təsir göstərmişdir. Şərqi Avropada "real sosializmin" fəlakəti bu bölgədə, eyni zamanda dünyanın başqa bölgələrində KP-nin mərlubiyyətinə və dağılmasına gətirib çıxarmışdı.

Sov. ıKP-də böhranın dərinləşməsi və onun səlnəcən uzaqlaşması KP-nın ənənəvi baxışlarına, siyasətlərinə və təşkilat məsələlərinin həllinə yenidən baxılmasının zəruriliyini və təxirəsalınmazlığını meydana çıxardı; dünyada baş verən böyük və əsaslı dəyişiklikləri nəzərə alaraq, yeni ideya-siyasi yönümlərin işlənib hazırlanması tarixi tələb kimi ortaya çıxdı. KP-nin transformasiyasının, bir formadan başqa bir şəklə salınması çox mürəkkəb prosesdir; Hər bir partiya daxilində müxtəlif ölkələrdə bəşəri yaşın səmərəli yaşamasını və ictimai tərəqqini yeni inkişaf səviyyəsinə qaldıra biləcək ağıllı fikirlərlə silahlanmış qüvvələr mövcuddur. Lakin yeni ideyaların həyata keçirilməsi üçün real imkan yaradılmır, əsas proses sosial-demokratikləşmə xətti istiqamətində inkişaf edir, ənənəçilər və bərpaçılar tərəfindən

güclü müqavimətə rast gəlir.

KOMMUNİTAR HƏRƏKAT - Bilavasitə öz mühitində formalaşan fərdin hüquqlarını və həyat tərzini müdafiə edən hərəkat; yeni ictimai hərəkatlar qrupuna daxildir.

K.h., bir qayda olaraq, modernləşmənin sürətlə artdığı dövrdə daha çox fəallaşır və mövcud sosial-məişət qaydalarını dağıdır. Buna nümunə olaraq Avropada romantizmin, Amerikada kommunitarizmin meydana gəldiyi dövrü göstərmək olar. Birinci halda - sənaye inqilabına coğun reaksiya verilmiş, ikinci halda isə, XX əsrin əvvəlində partlayışlı urbanizasiyaya cavab reaksiyası olmuşdur. Müasir kommunitarizm əks-mədəniyyət (konturkultura) nəzəriyyəsi ətrafında əmələ gəlmiş və azad vətəndaşların mərkəzsizləşməyə məruz qalmış kommunitar birliyə əsaslanan yeni keyfiyyətlərə malik ictimai qaydalar yaratmasını nəzərdə tutmuşdur. **K.h.** çox güclü utopik keyfiyyətlərə malikdir. Belə ki, özünün "Böyük cəmiyyətə" əks olan, bununla belə, yeni ictimai hərəkatın praqmatik istiqamətləri, yeni vətəndaş təşəbbüskarlığı, özünəkömək sistemi yaratmaq uğrunda mübarizəsi kimi son dərəcə sıx əlaqədə olan ictimai idealın utopiyasını həyata keçirməyə daha çox meyl edir. ıctimai ideal öz ifadəsini "eyni fikirlilərin o qədər də böyük olmayan birliyində fərdi xilasetmə və özünütənzimləmə" ideyasında -tapmışdır. Kommunitarizm əksər hallarda dini hərəkatın alternativ forması kimi təzahür edir. Bütünlükdə kommunitar planlı hərəkatlar yenicə yaranmış "zamanın xaricində olan" dəyərlər anlayışına əsaslanaraq növbəti ictimai konsensusun bərpasına çalışır.

KONDOMİNİUM (lat. con -birlikdə və dominium - Azərbaycan Milli Konqres partiyası mülk)-ikiqat suverenlik, bir ərazinin iki və ya daha çox dövlət tərəfindən ümumi şəkildə idarə olunması. Bir qayda olaraq, ərazi münaqişəsi axıra qədər həll olunmadıqda, gələcəkdə vahid suverenlik tətbiq ediləcəyi təqdirdə rəsmiləşdirilir. K.-a misal olaraq Oreqonun (1818-1846) Böyük Britaniya və ABŞ tərəfindən idarə edilməsini, Samoa üzərində üçqat (ABŞ, Böyük Britaniya və

Almaniya), Yeni Hebrid üzərində (1906-1980) Fransa və Böyük Britaniya suverenliyini və s. göstərmək olar. K..,praktik olaraq, idarəetmə forması kimi saxlanılmamışdır, lakin onun idarəolunma xüsusiyyətlərinin dərindən öyrənilməsinə ehtiyac vardır. "K." termini Roma hüququnda mülkiyyət üzərində iki və daha çox adamın ümumi sahibkarlığı mənasında da işlədilir. Müasir dövrdə Böyük Britaniya və ABŞ-da (başqa dövlətlərdəki kooperativ mülkiyyətçiliyinin eyni kimi) yaşayış sahəsinin, torpaq ərazisinin və s. üzərində ümumi mülkiyyətçilik formasına da K. deyilir.

KONFEDERASIYA (son. lat. confolderatio-ittifaq, birlik) -1)suveren dövlətlərin ümumi məqsədlərə (başlıca olaraq siyasi, yaxud hərbi) nail olmaq üçün yaratdıqları daimi ittifaq. K.-nın mərkəzi orqanları olur. Bu orqanlar bir qayda olaraq, K-ya daxil olan dövlətlər üzərində bilavasitə hakimiyyətə malik deyildilər.Onların yekdilliklə qəbul etdikləri qərarlar yalnız müvafiq dövlət hakimiyyəti orqanının razılığı ilə həyata keçirilir. K.-nın maliyyə vəsaiti, adətən K-ya daxil olan dövlətlərin haqlarından toplanır. K.nın vahid vergi və hüquq sistemi yoxdur. 2)"K." terminindən (ittifaq mənasında) müxtəlif təşkilatların adlarında da istifadə edilir. (Fransa ümumi əmək K.-sı, Yaponiya əmək K.-sı və s.)

KONFORMİZM (lat. con.-birlikdə və forma - görünüş, forma) - ümumi əhvalruhiyyəyə, hakim dünyagörüşə və çoxluğun fikirlərinə uyğunlaşmaq, onunla razılaşmaq, barışmaq mövqeyi; zülmə müqavimət göstərməmək məsləki ilə razılaşmayan, özlüyündə bu əqidənin ənənələrindən üstün olan, lakin müstəqil fikrini bildirməyən, şəxsi rəyini söyləməyən prinsipsizlik münasibəti.

KONQRES (lat.congressus - görüş,yığıncaq) - 1)dövlət, ərazi, təşkilat rəhbərlərinin, yaxud nümayəndələrinin görüşü, yığıncağı, həmçinin beynəlxalq konfrans növü (sülh tərəfdarlarının dünya K.-ləri, elmi K.-lər və s.) 2) Bir sıra ölkədə (ABŞ, Boliviya, Braziliya, Venesuela, Kolumbiya, Meksika

və s.) ali qanunverici orqanın, yaxud onun palatalarından birinin adı. Fransada K.parlamentin hər iki palatasının birgə iclasıdır

3) Bir sıra ölkədə bəzi milli təşkilatların adı (məs., Hindistan Milli Konqresi Partiyası, Britaniya Tred-yunionları Konqres və s.)

KONSENSUS (lat. consensus-razılıq, yekdillik, həmrəylik)- Daha məhdud, spesifik sosioloji mənada "K."Hər hansı bir cəmiyyətin, qrupun daha mühüm sosial tələblərinə, onun qayda-qanunlarına aid məsələlərin həllində, həmin cəmiyyətin mövcudluğundan və fəaliyyətindən irəli gələn, cəmiyyətin əksər üzvlərinin arzularını ifadə edən, məsləhətləşmə yolu ilə çoxluğun əldə etdiyi razılıq deməkdir. Belə ki, hər hansı *məsələnin*, fikrin və təklifin həllində, birgə hərəkətlərin uzlaşdırılmasında bu və ya digər səviyyədə razılıra gəlmək, bütün sosial münasibətlərdə və ünsiyyət formalarında, hər hansı ictimai təşkilatlarda mütləq vacibdir. K.-un bu problemi müasir şəraitdə Qərbin (indi isə həm də bizim) bütün sosioloqlarının diqqət mərkəzində durmuş və indi də durmaqdadır. Lakin K.hansı sosioloq tərəfindən tədqiq edilməsindən, tədqiqat zamanı onun qarşıya qoyduğu məqsəddən asılı olaraq müxtəlif səviyyələrdə dərk edilir və həll olunur.

İnsanın kollektiv həyat problematikası və K.məsələləri arasında olan qarşılıqlı əlaqələri hələ O. Kont dərk etmişdir. O,"K." anlayışını "razılıq" məfhumunun ən geniş mənasında işlətmişdir. Lakin bu məsələdə O.Kont birinci deyildi. Demək olar ki, Lokkdan başlayaraq ictimai müqavilə ideyasını qəbul etmiş sosial mütəfəkirlərin hamısı - belə əlaqəni qeyd etmişlər. Lakin K.-un sosioloji mexanizmi XIX əsrin ortalarına qədər xüsusi *təhlil predmeti olmamışdır*. Belə ki, sosial mütəfəkkirlərin diqqət mərkəzində daha çox maarifçiliyin "dünyanı mülahizələr idarə edir" prinsipindən bəhrələnmiş K.-unun yaranmasının psixoloji amilləri olmuşdur.

İlk dəfə belə təhlil Hegel tərəfindən aparılmışdır. O, cəmiyyətdə ümumi əlaqə və həmrəylik imkanlarının mühüm

şərtləri olan insanların bir-birinə qarşılıqlı şəkildə "razılaşma" mexanizmi məsələsini qaldırmışdır. Hegelə görə, bu, cəmiyyətin mümkünlüyünün ümumi şərtidir. O, fransız maarifçilərinin və sonradan fransız sosioloqlarının (E.Dürkheym və onun ardıcılları da daxil olmaqla) metodlarına qarşı çıxırdı; fransız mütəfəkkirlərinə görə, K. rasional şəkildə dərk edilmiş həmrəylikdir.

"Realist" Hegel ənənələri ruhunda antiHegelçi M.Veber K.-un "nə isə bir münaqişəli modelini" yaratdı. O, K.-u cəmiyyətin "normal", yaxud ideal vəziyyətinin atributu deyil, onun hər bir insan cəmiyyətinin ayrılmaz səciyyəsi olması fikrini sübut etməyə cəhd göstərmişdir. əgər cəmiyyət mövcuddursa və hələ dağılmayıbsa, deməli həyat adi "qaydalara" malikdir. Kontun sözü ilə desək, razılıq-harmoniya onun əsas ünsürüdür. O, qəti olaraq K.-un həmrəylik əlaməti mənasının əksini düşünürdü. Buna müvafiq olaraq M.Veber K.-u yaxın olan anlayışlardan uzaqlaşdırıb ona daha dəqiq sosioloji məna verməyə çalışmışdır. M.Veberə görə, K. obyektiv mövcud olan ehtimallıqdır. Bu elə bir ehtimallıqdır ki, müxtəlif münasibətlərdə əvvəlcədən razılıq olmasa ("ictimai müqavilə" yaxud qarşılıqlı münasibətlərin aydınlaşdırılmasının digər intellektual vasitələrinin olması məsləhətləşmə və saziş də ola bilməz).

"Razılıra" əsaslanan davranış "müqaviləyə" söykənən davranışdan ciddi şəkildə fərqlənir. Çünki M.Veberə görə K.-da "müqaviləyə qədər" yer olmalıdır ki, nəticədə ümumi razılıq əldə edilsin: belə ki, əvvəlcə K., sonra isə "müqavilə". Bu əməliyyat heç bir halda əksinə ola bilməz. Beləliklə, K.anlayışı, "ümumi müqavilə" anlayışından daha dərin və əhatəli məna kəsb etməklə geniş sosial təbəqələrin inteqrasiya marağını ifadə edir. M.Veberə görə, "xalis" yaxud "ideal" K.-un tərkibində əvvəlcədən sövdələşmə və razılıra gəlmək üçün qarşılıqlı gözləmələrdə və hərəkətlərdə çox cüzi və minimum imkanlar qeydə alınır.

K.-un izahında psixoloji mənanı rədd edən M.Veber təsdiq edir ki, K. özünün "empirik

mənasında" konkret qarşılıqlı münasibətlər prosesində iştirak edən bərabər hüquqlu tərəflərin müxtəlif motivlərindən, məqsədlərindən və daxili vəziyyətlərindən doğa bilər. Beləliklə, əsas məsələ qarşılıqlı münasibətlərdə olan tərəflərin öz gözləmələrindən necə həyacan keçirməsi deyil, əksinə asılı olan tərəflərin, subyektiv asılılıqda olub-olmamasıdır. əgər belə münasibət varsa onda şans da vardır. Deməli qarşılıqlı münasibətlərdə iştirak edən tərəflər ümumi razılıra gələcəklər. Başqa cür desək, K.müəyyən psixoloji həyacanın məntiqi nəticəsi kimi meydana çıxır.

K.-un bu mənada izahı Tardın mülahizələrinin tamamilə əksidir. Tardın fikrincə K. şüurdan əvvəl və diqqətli məqsədəuyğun fəaliyyətdən (M. Veberə görə, "məna kəsb edən") əvvəl gələn psixoloji "təqlidçilik qanunlarından" törəmədir. K. Haqqında M.Veberin mülahizələri Lebonun bütün insan kollektivlərində qüvvədə olub, "mənəvi birlik qanununa" əsaslanan konsepsiyasının da əksinədir. Bu nüqteyi - nəzərdən Dürkheymin "kollektiv anlayışı", psixologizmi də tənqiddən kənarda qalmır. Amerika sosiologiyasında K.problematikası ilə Kuli ("xırda qruplarla əlaqədar) və Mid ("rəmzi qarşılıqlı təsirlə" əlaqədar) kimi sosioloqlar məşğul olmuşlar. ıkinci dünya müharibəsindən sonrakı ilk illərdə Amerikanın bəzi sosioloqları (L.Virt və b.) K.-un tədqiqinə sosiologiyanın "ən başlıca vəzifəsi" kimi baxırdılar. Ümumiyyətlə,sosiologiya, belə bir sualla qarşılaşırdı ki, qrup halında həyat insanların davranışına nə dərəcədə təsir edirə K. problematikasına belə qiymətin nəticəsi olaraq ABŞ-da sonrakı illərdə empirik yönümlü sosial psixologiya sahəsində (F.Xayder, T.Nyukom və b.) tədqiqatlara təkan verildi.

50-60-cı illərdə K. anlayışının məna çalarları daha da konkretləşdirilib, bütün təfərrüatı ilə yeni akspektləri öyrənilir. E.Şilz K.probleminə makrososial, ictimai sistemlərdə mərkəzlə ucqar əyalətlər arasındakı qarşılıqlı əlaqələr kontekstindən yanaşır. O, hesab edir ki, K. ümumi qaydalara (hörmətin, gəlirin, nüfuzun bölüşdürül-

məsi) münasibətdə bir-biri ilə qismi məsələlərdə "dissensus" (razılığın olmaması) vəziyyətdə olan "affektiv həmrəylik vəziyyətidir" və "ictimai sistemlərin bölmələrini" də əhatə edə biləcəkdir. Belə halda ümumi **K.** mövcud olan bütün əsas məsələlər üçün məcburi deyildir. **K.**-un əhəmiyyətini "makrososial qaydaların" çox mühüm komponenti kimi qiymətləndirən E.Şilz eyni zamanda nəzərə alır ki, "qaydaları" təmin etmək üçün bu yeganə amil deyil və onun əhəmiyyəti qətiyyən "tam" **K.**-u nəzərdə tutmur: burada, idarə edən qruplarla sistemləri təcəssüm etdirən mərkəz və idarəolunanlar arasında "mülayim" razılıra gəlmək də kifayətdir. Bütün cəmiyyətə şamil edilən yeganə **K.** vəziyyəti vətəndaşların tam assimilyasiyası, siniflərin, etnik qrupların, dini cəmiyyətlərin və s."nisbi həmrəyliklərin" əleyhinədir. O, eyni zamanda, mərkəzləşmiş institutlu və mədəni sistemlərə, həmçinin "ucqar ölkələrə" mənsub insanlar arasında qarşıdurma münasibətlərini də inkar edir. ən nəhayət, məlum olmuşdur ki, "tam" **K.**-u əməli olaraq, mərkəzlə ucqarları birləşdirən kommunikativ proseslərin məhdud" kifayətsizliyinə" görə bütün "böyük cəmiyyətlər" üçün məqbul hesab edilə bilməz. Buna baxmayaraq, ümumiyyətlə, bütün cəmiyyətlər hörmətin, gəlirin və nüfuzun təyin edilməsinə münasibətdə "kifayət qədər" uzunmüddətli **K.**-a malik olur. Bunu da qeyd edək ki, həmin proses vətəndaş müharibəsi və inqilabın olmadığı bir dövrə aiddir. Bununla belə, cəmiyyətin normal inkişafı dövründə də həyata keçirilən və cəmiyyətin makrosəviyyəsinə uyğun gələn *çoxlu* hərəkətlər və proseslər **K.**-dan kənarda baş verir.

60-80-ci illərdə **K.**-un problematikası, bir tərəfdən, neomarksist sosial fəlsəfəsi çərçivəsində, digər tərəfdən, fenomenologiya yönümlü "həyat aləmi" sosiologiyası istiqamətində inkişaf edirdi. Bu problemlər "təhrif olunmamış diskurs" adı ilə Y.Xabermasın nəzəri mülahizələrinin əsasını təşkil edir. Fenomenoloji sosiologiyaya gəldikdə isə, demək olar ki, bu istiqamət öz başlanğıcını alman filosofu Şultsun

ideyalarından götürmüşdür, özü də M.Veberin ideal tip nəzəriyyəsi ilə "Həyat aləmi" konsepsiyasının sintezini yaratmışdır. Neomarksist istiqamətli sosiologiya ilə fenomenoloji sosiologiya bir-birinə çox bənzəyir. Lakin fərq ondadır ki, Xabermasın nəzəriyyəsi "azad, sərbəst diskurs" kimi deyil, "intersubyektivlik" adı ilə yayılmışdır. Heç təsadüfi deyil ki, **K.**-un neomarksist və fenomenoloji sosiologiya baxımından şərhləri çox zaman qarışdırılır.

KONSORSİUM (lat. consortium- iştiraketmə, cəmiyyət, birlik)- inhisar mənfəəti götürmək məqsədi ilə istiqrazları birgə yerləşdirmək və ya böyük miqyasda vahid sənaye layihəsini həyata keçirmək üçün bir neçə kapitalist bankı, yaxud sənaye şirkəti arasında bağlanan müvəqqəti saziş. Bank kapitalı ilə sənaye kapitalının qovuşması formalarından biridir. **K.** ikinci dünya müharibəsindən sonra daha geniş yayılmışdır. 60-cı illərdə yeni tipli-iştirakçı dövlətlərdən ibarət K. meydana gəlmişdir. K.un xarakterik xüsusiyyəti iştirakçılar arasındakı münasibətlərin qeyri-bərabərliyidir.

KONSTİTUSİYA (lat. Constitutio - quruluş, təsisat) - dövlətin ali hüquqi qüvvəyə malik əsas qanunu; ölkənin siyasi, hüquqi və iqtisadi sisteminin əsaslarını müəyyənləşdirir. **K.** qəbul edildiyi vaxtda sinfi qüvvələrin nisbətini əks etdirir, hakim sinfin diktaturasını, idarəçilik formasını, dövlət quruluşu formasını, mərkəzi yerli hakimiyyət və idarəçilik orqanlarının təşkili və əsas prinsiplərini təsbit edir. Formasına görə yazılmış və yazılmamış **K.** fərqləndirilir. Yazılmış **K.** vahid aktdır (ölkələrin çoxunda mövcuddur), ya da bir neçə konstitusiya, yaxud üzvi (təbii) qanundan ibarətdir. **K.**-nı qəbul etmək hüququ müəssislər məclisinə, referendium yolu ilə seçki korpusuna, yaxud dövlət başçısına verilir. Adətən dəyişiklik və əlavələr etmək qaydası **K.**-nın özündə müəyyən edilir.

KONSTRUKTİVLİK - (lat. constructio - tikilmə, konstruksiya)- siyasi prosesə, nəzəriyyəyə, proqramların dəyişdirilməsi və qərarın qəbuluna tələb, siyasətin bu tələbinə cavab verən spesifik keyfiyyət.

K. siyasət və hakimiyyətin, siyasi konsepsiya və ideologiyanın səmərəliyini səciyyələndirir. Özünün dəyişməzliyi ilə K.Ritorikaya, verbalizmə (hərəkətin söhbətçiliyə müncər edilməsi) ziddir. K. əsasən siyasi böhranlar, islahat və inqilablar dövründə daha çox vacibdir. Mövcud hakimiyyətin siyasi xəttinin konstruktivliyinin müxalifətdə olan partiyalar, parlament qruplaşmaları, ictimai hərəkat və ayrı-ayrı nüfuzlu şəxslər tərəfindən tənqid edilməsi onların nüfuz və təsir gücünü qat-qat artırır.

KONSUL (lat. consulesi) qədim Romada ali magistraturadan biri. iki nəfər olub bir illiyə seçilirdi. iki K. kollegiyası Mərrur Tarkvini qovulduqdan sonra (e.ə. 510-509) təsis edilmişdir. əvvəllər ancaq patrisilərdən, e.ə.367-366-cı illərdən isə həm də plebeylərdən seçilirdi. K.-lar ali mülki və hərbi hakimiyyətə malik idilər; fövqəladə vəziyyətdə senat K.-a qeyri-məhdud hüquqlar verirdi. imperiya dövründə K. fəxri titula çevrildi. 2) Müəyyən funksiyaları (dövlətin, onun fiziki və hüquqi şəxslərinin iqtisadi, hüquqi-inzibati mənafelərini qorumaq) icra etmək üçün digər dövlətdə daimi nümayəndə kimi təyin edilən vəmətlər tərəfindən müəyyən edilən hədd norması.

KONVENSİONALİZM (lat. conventio - müqavilə, saziş) - Oksford lüğətinə əsasən: "1) Şərti hesab edilən (qarşılıqlı surətdə məqbul sayılan) hər hansı bir məsələyə tərəfdar və ya meylli olmaq, şərti ənənələrə və davranış qaydalarına riayət etmək ənənəsi; 2) Sadəcə olaraq konvensiyaya sadiq olan, ona meyl edən hər şey; şərti prinsiplər, ideyalar, adətlər və üsullar; 3) məntiqi mülahizələrə görə "müqavilə yalnız predmetdir" fəlsəfi prinsipi. ictimai elmlərdə bu terminin 3-cü mənası "dözə bilmək", "dözmək" prinsipi kimi izah edilir. əgər yada salsaq ki, ingilis və fransız dillərində "konvent" sözü "qanunverici məclis" (əvvəllər katolik monaxlarının məclisi), beynəlxalq müqavilələr dilində isə "konvensiya" sözü dövlətlər arasında saziş, müqavilə mənasında işlədilir; siyasi mənada isə K. konsensusun ideya platforması, fərdlərin, qrupların, dövlətlərin və onların liderlərinin -

bütün siyasi qövvələrin razılaşması mənasında işlədilə bilər. Konstruktiv K. bütün siyasi əməliyyatlar üçün məqbul olan və yaxud da onlar tərəfindən bəyənilən demokratik prinsiplərin əsas məqamlarına istinad edir. "K." termini ilə sazişlərin, müqavilələrin, konvensiyaların, paktların maddələrinin yaradılmasını, həyata keçirilməsini və təfsirini, qərarlar qəbul etmək üçün fikirlərin razılaşdırılması istiqamətini təsvir etmək olar.

K. siyasi fəlsəfə olmaq etibarilə cəmiyyətin "aşkarlığı", siyasi qərarların keyfiyyətcə "yaxşılaşdırılması", böhranlı vəziyyətlərdən çıxmaq mənaları verən ifadələrin eynidir. K. beynəlxalq hüquq qanunlarının ən mühüm ideya platformasıdır. Konkret vəziyyətlərdə razılıra gəlməni, bütün genişliyi ilə nəzərə çatdırmaq olar. Lakin "saxta konsensus" (elita ilə aşağı təbəqə arasında, " qalib gələnlə" " məğlub olan" arasında) fonemeni yaratmaqla ictimai təbəqələr və siyasi hərəkatlar arasında mövcud real qarşıdurmanı gizlətmək olmaz.

KONVENSİYA (Lat.conventio saziş, şərt, müqavilə) - geniş mənada hər hansı beynəlxalq saziş; onu təşkil edən dövlətlər arasında qarşılıqlı hüquq və vəzifələri müəyyən edir. Lakin, adətən xüsusi bir sahədə (məs., pozt,teleqraf, dəmir yolu və s.) dövlətlərin münasibətlərini nizamlayan beynəlxalq sazişə K. deyilir. (bax; **BEYNƏLXALQ MÜQAVİLƏ**)

KONVERGENSİYA (lat.convergo - yaxınlaşıram, meyl eddirəm)- sosioloji konsepsiyalardan biri. Qərbdə 50-60-cı illərdə P.Sorokin, C.Helbreyt, U.Rostou (ABŞ), Y.Tinbergen (Niderland), X.Şelsk və O.Fleytxeym (AFR) tərəfindən irəli sürülmüşdür. Bu ideyaya görə, ETı əsrində bir-birinə zidd olan iki ictimai sistemin - kapitalizm və sosializmin əsas xüsusiyyətlərilə bir-birinə yaxınlaşmaları "zəruridir". Lakin hər ikisi, müəyyən zaman keçdikdən sonra, özlərində olan müsbət xüsusiyyətləri və əlamətləri biri digərinə transformasiya edəcək, daha sonra isə onların hər hansı bir "qarışıq cəmiyyətdə" birləşmələri zəruri tələbat kimi ortaya çıxacaqdır.

Canlı orqanizmlər aləmində özünü göstərən K. hadis-

əsi, onlar məskunlaşmış olduqları eyni mühitdə (genetik dəyişikliklər vasitəsilə), hətta məişətləri etibarilə bir-birindən uzaq olan orqanizmlərdə belə şərti oxşar anatomik (morfoloji) formalar əmələ gətirir.

K.-nın nəzəri əsaslarını ilk dəfə Amerika sosioloqu U.Rostou vermişdir. Onun nəzəriyyəsi cəmiyyətin "iqtisadi artım mərhələləri" konsepsiyasına əsaslanır və marksizmin ictimai-iqtisadi formasiya nəzəriyyəsinin əleyhinədir. U.Rostou "vahid sənaye cəmiyyəti"nin yaranacağının (bir neçə iqtisadi inkişaf mərhələsindən sonra) labüdlüyü fikrini irəli sürmüşdür. Onun mülahizəsinə görə, həmin cəmiyyətin struktur mülkiyyət formalarının və ictimai münasibətlərin xarakterindən asılı deyil, bu orada əsas məsələ ölkələrin sənayeləşdirilməsinin inkişaf səviyyəsi və müəyyən mərhələdə yetkinliyi problemidir; kapitalizm və sosializm cəmiyyətləri - hər iki sistem yalnız "vahid sənaye cəmiyyətinin" müxtəlif variantlarıdır.

K. konsepsiyasının irəli sürülməsinin əsas səbəblərindən biri, 50-60-cı illərdə Qərbdə ETı-nin təsirilə istehsalın əslində ictimailəşməsi (əməyin ictimai bölgüsünün dərinləşməsi, iqtisadi, siyasi və mədəni sahələrdə inteqrasiya proseslərinin baş verməsi) ənənəsi olmuşdur. Bu da həmin ölkələrin ictimai həyatında sosializm üçün xas olan bir sıra xüsusiyyətlərin mənimsənilməsinin labüdlüyünə gətirib çıxardı: mülkiyyətin dövlət formaları yarandı, dövlət planlaşdırılması elementlərinin tətbiqi, ictimai təminat sisteminin formalaşması və s. səbəb olmuşdur. K. konsepsiyasının irəli sürülməsinin bir səbəbi də Qərb müəllifləri tərəfindən sosializm sisteminin tənqidi təhlili olmuşdur. Onların fikrincə ümumi dövlət iqtisadiyyatı və ictimai həyat sosialist ölkələrində inkişafa ciddi maneə olur. Bununla əlaqədar bu illərdə həmin ölkələrin bəzilərində (Yuqoslaviya, Cexoslovakiya, Macarıstan, ADR, Polşa və s.) planlı təsərrüfatı bazar iqtisadiyyatına uyğunlaşdırmaq, eyni zamanda mülkiyyətin şəxsi formalarından istifadə üçün yollar axtarılmışdır. Nəhayət, konvergen yaxınlaşma nəzəriyyəsinin mühüm motivlərindən biri də dünyanın parçalanmasının və bir-birinə *düşmən iki ictimai sistemin* arasında qlobal nüvə münaqişəsi ilə bağlı təhlükənin aradan qaldırılmasına cəhd göstərilməsidir.

70-ci illərdə bir sıra müəlliflər, o cümlədən Z.Bjezinski və S.Xantinqon K.konsepsiyasını müəyyən mənada tənqid etməyə başladılar. Onlar iki əks qütbdə olan sistemlərin " nəhayət birləşəcəyi" ideyasını şübhə altına alırdılar. Priston universitetinin professoru S.Blek özünün "Modernləşdirmənin dinamikası. Tarixi-müqayisəli tədqiqat" əsərində U.Rostounun nəzəriyyəsinə bəzi düzəlişlər etmişdir."Modernləşdirmə" terminindən istifadə edərək göstərmişdir ki, bu anlam "iqtisadi inkişaf səviyyəsi" təlimindən daha geniş və dərindir. O hesab edir ki, qeyri-qərb ölkələrinin "ənənəvi natamamlığı" onları öz inkişaflarında Qərbi təkrar etməyə məcbur edəcəkdir. Elə 70-ci illərdə Qərbdən yeni mənfi K.(R.Xeylbroner, Q.Markuze, Y.Xabermas və b.) adlanan ideya yayılmağa başladı. Burada belə bir fikir irəli sürülürdü ki, əks qütblərdə duran sistemlər biri digərindən müsbət elementlərdən daha çox, mənfi elementləri mənimsəyirlər ki, bu da bütünlüklə "müasir sənaye sivilizasiyasının böhranına" gətirib çıxarır.

Müasir tarixi inkişafın gedişi göstərir ki, ETı-in təsiri ilə istehsalın ictimailəşməsi müxtəlif sistemli ölkələrdə həqiqətən ümumi cəhətləri meydana çıxarır: XX əsrin klassik kapitalizmi indi artıq o illərdə olduğu xüsusiyyətlərə malik deyil və o, xeyli dərəcədə yeni keyfiyyət vəziyyətinə keçmişdir. Lakin özünün bütün bu yeni keyfiyyətləri ilə bərabər əvvəlki sistemdəki özünün əsas cəhətlərini saxlamaqdadır. əvvəlki sosialist sisteminə daxil olan ölkələrin ictimai həyatlarında isə elə əlamət və formalar meydana gəlir ki, bunlar şəxsi mülkiyyətin müxtəlif formalarıdır, o cümlədən Qərb dövlətlərinin müasir sivilizasiyaya məxsus olan şəxsi mülkiyyət, bazar iqtisadiyyatı, hüquqi dövlət, çoxpartiyalılıq, aşkarlıq, söz azadlığı və bir çox başqa xüsusiyyətlər kapitalizm sisteminə xasdır. Bütün bunlar ümumav-

ropa evi və Qərblə Şərq, Şimal və Cənub ölkələri arasında daha geniş əməkdaşlıq konsepsiyası üçün zəmin yaradır.

KONVERSİYA (lat. conversio çevrilmə, dəyişmə)-1) ölkənin valyutasının xarici valyutalara dəyişdirilməsi; sərbəst dövr edən (dönərli) valyutalar bütün beynəlxalq sövdələşmələr üzrə məhdudiyyətsiz qaydada istənilən valyutalara dəyişdirilə bilər; 2) sənayenin və yaxud iqtisadiyyatın digər sahələrini mülki məhsul istehsalından hərbi məhsul buraxılışına (yaxud əksinə) keçirilməsi (hərbi istehsal K.-sı);3) əvvəllər buraxılmış dövlət istiqraz vərəqələrinin şərtlərini dəyişmək (hər şeydən əvvəl, istiqraz faizinin aşağı salınması, yaxud istiqrazın müddətinin uzadılması) məqsədilə onların yeni istiqraz vərəqələri ilə əvəz edilməsi.

KOOPERATİV HƏRƏKATI (lat.kooreratio - əməkdaşlıq) - Bir qrup adamın ümumi təsərrüfatda (kooperasiyada) birləşməsi yolu ilə kapitalizmin alternativi olan iqtisadi və sosial həyat şəraitinin təşkili uğrunda hərəkat.

Birinci artel tipli kooperativ assosiasiya XVIII əsrin axırında ingiltərədə un üyüdən və çörək bişirən fəhlələr arasında sənaye inqilabının nəticələrindən müdafiə olunmaq məqsədilə öz-özünə əmələ gəlmişdir. Kooperativlər ilk illərdə müvəffəqiyyətlə fəaliyyətə başlamalarına baxmayaraq, xalq kütlələrinin ictimai şüurunun oyanmasına təsir göstərə bilməmişdir. Müasir tipli **K.h.** XIX əsrin 20-ci illərində ingiltərədə meydana gəlmişdir. Onun ideya ilhamçısı və nəzəri əsaslarını hazırlayan Robert Ouen (1771-1858) olmuşdur. Dilənçiliyin səbəblərini və onun aradan qaldırılması yollarını ətraflı öyrənən Onun belə bir nəticəyə gəlmişdir ki, mövcud quruluşu dinc yolla könüllü dəyişdirmək, əhalinin bütün təbəqələrini və zümrələrini azad etmək mümkündür. Ouen xüsusi mülkiyyətə öz münasibətini bildirərək, onu pisləmiş, eyni zamanda əmtəə mübadiləsi ilə məşğul olan və ümumi əmin-amanlıra xidmət edən istehsal birliklərinin mərkəzsizləşdirilməsi ideyasını da irəli sürmüşdür. Ouen ideyaları "Roqdeyl pionerləri" adlı toxuculuq qruplarının fəaliyyəti

sayəsində inkişaf etdirilmişdir. Bu qrup 1844-cü ildə çoxişlənən mallar kooperativi nəzdində yaradılaraq, rəhbəri Carlz Hovarts (1814-1868) tərəfindən hazırlanmış prinsiplər əsasında işləməyə başlamışdır. Həmin prinsiplər aşağıdakılardır; Mallar topdansatış yolu ilə deyil, bazar qiymətləri ilə satılsın; gəlirin bir hissəsi kooperativin üzvləri arasında bölüşdürülsün, qalan hissəsi isə cəmiyyətin sosial fondunun yaradılmasına sərf olunsun. Avropada **K.h.** iki istiqamətdə istehsal kooperasiyası və istehlak kooperasiyası yolu ilə fəaliyyət göstərmişdir. İstehsal kooperasiyalarının uğurları ilk illərdə göz qabağında idi, lakin onlar öz ideoloqlarının ümidlərini doğrultmadı. İstehsal kooperasiyalarının ən geniş yayılmış və daha dolğun olan kənd təsərrüfatı kommunaları ya qısa ömürlü, ya da iqtisadi cəhətdən səmərəsiz olurlar. Belə kooperasiyalar əsas etibarilə, məcburi yolla təşkil edilmiş kommunalar üçün çox səciyyəvidir. Hər bir təsərrüfatda əldə olunmuş məhsulların müəyyən səviyyəyə çatdığı bir anda kooperasiya ideologiyasının təməl daşını təşkil edən bərabərçilik istehsalın sonrakı inkişafın ləngidən əsas amilə çevrilir.

Kooperativ sosializminin nəzəriyyəçisi E. Bernşteyn istehsal kooperasiyalarını kapitalizmə qədərki təsərrüfatın ən primitiv, bəsit formasına qayıdış hesab edirdi. İngiltərə tarixçiləri S. və B. Vebblər istehsalat kooperasiyalarının əleyhinə olsalar da ona gələcək cəmiyyətdə yer ayırmışdılar. Onların fikrincə istehsalatdakı birgə əmək müəyyən qrup adamlar üçün cəlbedicidir. XX əsrin əvvəlində müxtəlif modifikasiyası kooperativ sosializmi konsepsiyaları Fransada Ş.Jid, E.-de Buav, A.Dode Basel, Y.Puassen, B.Lavern, İrlandiyada Q.Rassel, ABŞ-da C.Uorbas, Almaniyada Rayfatzen, Qaaz, Rusiyada A.Cayanov, M.Tuqan-Baranovski, M.Lozovski və b. işləyib hazırlamışlar. Onların sosialist təfəkküründün müstəqil istiqaməti olan K.h. nəzəriyyəsinə görə, kooperasiya iqtisadi səmərəliliyi kapitalist istehsal forması ilə qeyri-təkmil bölgü arasındakı ziddiyyətləri aradan qaldırmaq üçün bir vasitədir.

K.h. indi Avropada, xüsusilə, uzun müddət hakimiyyətdə sosial-demokratların aparıcı mövqe tutduqları İsveç, Avstriya, Finlandiya, Danimarka, Norveç və s. ölkələrdə geniş yayılmışdır. Sosial-demokrat partiyaları kooperasiyanın inkişafına kapitalizm cəmiyyətinin islah olunmasında və sinfi ziddiyyətlərin həllində əsas strateji və daha az təhlükəli vasitələrdən biri kimi baxırdılar. İtaliya, Hollandiya, Kanada və digər kapitalist ölkələrində kooperativ partiyalar fəaliyyət göstərir. 1895-ci ildə təşkil olunmuş Beynəlxaq kooperasiya alyansı və indi dünyanın 72 ölkəsində 500 milyon adamı birləşdirir (1986). Bütün bunlara baxmayaraq, **K.h.** Qərbdə böhranlı dövrünü yaşamaqdadır. Zəif sosial qrupların müdafiəsi ilə əlaqədar təşkil edilmiş kooperativlər Qərbdə ümumi həyat səviyyəsi yüksəldiyinə görə öz əhəmiyyətini tədricən itirir.

MDB respublikalarında tamamilə başqa vəziyyət mövcuddur. Müasir kooperativlərin ən mühüm problemlərindən biri kooperativ qanunları ilə kommersiya arasında mütənasibliyi qoruyub saxlamaqdır. Kooperativ prinsipləri kommersiya müəssisələrinin əsas məqsədlərinə (cərf edilən kapitalla əldə olunan gəlir) uyğun gəlmir. əksər kooperativlər xırda və orta müəssisələrdən ibarətdir, onların da çoxunun təcrübəsi azdır və qarşılarına çıxan iqtisadi problemləri həll etmək üçün vəsaitləri çatışmır. Belə çətinliklərlə təkcə istehsalat kooperasiyaları deyil,eyni zamanda istehlakla məşğul olan kooperasiyalar da hər gün rastlaşırlar.

KORRUPSİYA - siyasət aləmində cinayətkar fəaliyyət. Vəzifəli şəxslər onlara etibar edilən hüquq və hakimiyyət imkanlarından istifadə edərək varlanmaq məqsədilə həyata keçirirlər. **K.** daha tipik formada aşağıdakı hallarda baş verir: idarə məmurlarının, ictimai xadimlərin satın alınması yolu ilə; rüşvət almaqla, qanuni və qeyriqanuni hərəkətlərə üstünlük verməklə; himayəçilik yolu ilə qohumluq, yerlibazlıq, şəxsi sədaqət və şəxsi tanışlıq münasibətləri ilə K.sürüşdürməçiliyin, bürokratizmin qol-qanad azdığı və onun hakimiyyət imtiyazlarına malik olan ictimai təbəqələr arasında yayıldığı mühitdə daha geniş vüsət alır.

K. SSRİ-də durğunluq dövründə, partiya və dövlətin çürüməyə və parçalanmağa başladığı illərdə, bürokratizmin ictimai nəzarətdən və tənqiddən kənarda qaldığı vaxtlarda daha geniş miqyasda yayılmışdır. **K.** xəlvəti iqtisadiyyatın fəaliyyəti, cəmiyyətdə ictimai-sosial təbəqələşmənin başlanması, iqtisadi və siyasi həyatın tənəzzülə uğraması, ictimai mənəviyyatın və əxlaqın pozulması üçün əsas səbəblərdən və mühüm ünsürlərdən birinə çevrilmişdir. Ötən əsrin 80-ci illərinin ikinci yarısında iqtisadi həyatın liberallaşması, bazar iqtisadiyyatının hərəkətə gəlməsi, kooperativlərin, müştərək müəssisələrin və s. təşkilatların meydana çıxması, özüsü sahibkarlıq fəaliyyətinin işə başlaması K. üçün yeni yollar və kanallar azmağa imkan yaratdı. İşbaz adamların gizli və qeyri-legal yollarla külli miqdarda biznes əldə etmək imkanları gündən-günə artdıqca, iqtisadi sahədə cinayətlər və maliyyə fırıldaqları üçün cəzasızlıq rejimi yaranır, bürokratları satın almaq imkanlarının miqyası da genişlənir. Bütün bunlar isə cəmiyyətin demokratikləşdirilməsi prosesini zərbə altına alır. Dövlətin, inzibati hüquq orqanlarının rüşvətxorluğu qeyri-adi vəziyyət yaradır; bir tərəfdən iqtisadi və digər sahələrdə cinayətkarlığın sayı kəskin sürətdə artır, o biri tərəfdən isə, cinayətkarların, hüquq qaydalarını pozanların cinayət məsuliyyətinə cəlb olunması zəifləyir. Rüşvətxor və mafioz ünsürlər öz aralarında sövdələşərək birləşir, hakimiyyət vasitələrini bütünlüklə ələ keçirməyə çalışırlar. Ölkədə ictimai-siyasi vəziyyət sahəsində qeyri-sabitlik yaranır, ictimai hərəkatlar maliyyələşdirilir. Bu yolla da həyat şəraiti pisləşən kütlələrdə cəmiyyətə zidd, dövlət əleyhinə ümumi narazılıq hərəkatı başlayır, millətlərarası və başqa münaqişələr baş qaldırır, ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxaran vəziyyətlər yaranır.

KRALLIQ - kralın başçılıq etdiyi feodal, yaxud burjua dövləti. Hazırda **K.**-ların əksəriyyəti (məs., Böyük Britaniya)- kral hakimiyyəti parlament tərəfindən məhdudlaşdırılan konstitu-

siyalı monarxiyalardır.

KÜTLƏVİ CƏMİYYƏT NƏZƏRİYYƏLƏRİ - sosial-fəlsəfi, politoloji və kulturoloji konsepsiyalar; tarixdə xalq kütlələrinin rolunun artması baxımından müasir cəmiyyətdə sosial-siyasi münasibətləri və şəxsiyyət münasibətlərini təsvir və izah etməyi iddia edirlər. Özü də xalq kütlələrinin rolunun artmasını əsasən mənfi proses, ictimai inkişafın patologiyası, tərəqqinin inversiyası kimi qəbul edirlər. İnsanın sosial maşının ehtiyaclarına uyğunlaşdırılmış simasız ünsürə çevrildiyi, özünü simasızlaşmış sosial tərəqqinin qurbanı hesab etdiyi sosial-siyasi strukturu "kütləvi" adlandırırlar.

K.c.n.-nin kükləri silki imtiyazlarını itirmiş və patriarxal həyat tərzinə yas saxlayan siniflərin ideoloqlarının (Berk, de Mestr, 19 əsrdə Almaniya və Fransada mühafizəkar romantiklər) kapitalizmin mühafizəkar-romantik tənqidinə gedib çıxır. Onun bilavasitə sələfləri Nitsşe (artıq belə başlıca rolu kütlə oynayır, kütlə isə adi nə varsa, onun qarşısında baş əyir), habelə kütlə psixologiyası konsepsiyasını işləyib hazırlamış Lebon və Tard olmuşlar. **K.c.n.**-nin ilk variantı -"əsilzadə" və ya mühafizəkar variantı X.Orteqa-i-Qasetin "Kütlələrin üsyanı" kitabında daha dolğun ifadəsini tapmışdır. Elitanın (Orteqa bunu sosial-siyasi təşkilatın normativi sayır) arxasınca getmək əvəzinə, cəmiyyəti idarə etmək qabiliyyəti olmasa da, kütlə siyasi hakimiyyətə can atır, elitanı ondan ötrü ənənəvi sahələrdən - siyasət və mədəniyyətdən sıxışdırmağa çalışır ki, bu da XX əsrin dağıdıcı çevrilişlərinin səbəbidir. 40-60-cı illərdə **K.c.n.**-nin liberal-tənqidi (Manheym,From,Rismen) və sol radikal - Mills variantları meydana çıxmış və bunlar Qərb ziyalılarının geniş dairələrində xeyli şöhrət tapmışdı.Onların əsas tənqid hədəfi totalitar siyasi sistemə, xüsusi inhisarçı dövlət təşkilatına dayaq olan bürokratiya, hakimiyyətin mərkəzləşdirilməsi, şəxsiyyət üzərində nəzarətin güclənməsi idi. 60-70-ci illərdə Amerika politoloqları Bell, Şilz **K.c.n.**-ni mövcud siyasi sistemə münasibətdə "əsassız tənqidi", səmərəsiz istiqamət elan edərək, onları yeni

şəkilə salmağa, tənqidiliyini kənar edərək Qərb ölkələrinin rəsmi ideologiyasının məcrasına yönəltməyə çalışırdılar. Şilz "kütləvi cəmiyyətin"sosial-siyasi institutları sistemində, xalq kütlələrinin inteqrasiyasını vurğulayır kütləvi kommunikasiyalar vasitəsilə onlar elitanın yaratdığı normaları və dəyərləri mənimsəyir, beləliklə də cəmiyyət sosial antaqonizmlərin aradan qaldırılması yolu ilə irəliləyir (əslində isə bu ziddiyyətlər yeni formada törəyirlər).

"Kütləvi cəmiyyət" terminin özü mənasız deyilmiş Axı, kütləsiz cəmiyyət yoxdur. Alman politoloqu Q.Şişkov bu suala belə cavab verərək deyir: "kütlə həmişə belə olub, lakin cəmiyyət yalnız indi "kütləşib", əgər əvvəllər kütlə cəmiyyətin fraqmenti kimi çıxış edirdisə, XX əcrdə cəmiyyət kütlə kimi çıxış edir. Qərb politologiyasında işlədilən "kütlə" termini sosial psixologiyadan götürülmüş və bilavasitə görünən çoxsaylı fərdlər (məs., kütlənin küçədə davranışı) üzərində empirik müşahidələrin gedişində meydana çıxmışdır. Fərdləri təcrid şəraitinə nisbətən kütlə halında özlərini başqa cür aparmağa məcbur edən, çox vaxt onların davranışını bəsitləşdirən və hətta kütləvi çılğınlıq kimi psixoloji anomaliyalar doğuran müəyyən psixoloji əlaqələrin meydana çıxması diqqəti cəlb edirdi. Sonralar bu empirik təsdiqlər sosial münasibətlərin ən mühüm sahələrini, artıq bilavasitə müşahidə edilə bilməyən "insan çoxluqlarının" davranışını və ilk növbədə siyasi davranışı izah etməyin əsasına çevrildi. **K.c.n.**-ni müəyyən mənada "kütlə" anlayışının ümumən cəmiyyətə keçirilməsi, cəmiyyətin "kütlənin" ("insan yığımı" ilə eyniləşdirilən) davranış üslubu üzrə fəaliyyət göstərməsinin təsviri kimi qiymətləndirmək olar.

K.c.n. üçün kütlələrin müasir cəmiyyətin istehlak, siyasi və mədəni həyatının strukturuna daxil olunması kimi dərk etmək səciyyəvidir. Kütləvi cəmiyyət sənayeləşmənin və urbanizasiyanın elə labüd nəticəsi sayılır ki, bunlar cəmiyyəti "sənayedən, əvvəlki strukturlardan" ayırmış, "aralıq münasibətləri" (icmanı, sexi) dağıtmışdır. Standartlaşdırılmış əşyaların isteh-

salını, insanların zövq və baxışları ilə oynamağı kütləvi cəmiyyətin əsası adlandırırlar.

Müasir kütləvi kommunikasiya vasitələri elitaya kütlələri ideoloji baxımdan ələ almağın indiyədək görünməmiş imkanlarını vermişdir. insanın sosial maşının ehtiyaclarına uyğunlaşdırılmış simasız ünsürə çevrildiyi sosial strukturu "kütləvi" adlandırırlar. Bu struktur şəxsiyyəti oyuncaq səviyyəsinə endirir, onun davranışı bütünlüklə "qabaqcadan proqramlaşdırılmışdır". O, özünü simasızlaşmış sosial prosesin qurbanı kimi, yaxud bundan da pis hiss edir, hətta həyatının yaradıcı, insani məzmununu dərk etmir. Haksli və Bredberinin antiutopiyalarındakı "şən robota" çevrilir. K.c.n. müasir cəmiyyətdə şəxsiyyət ilə sosial-siyasi sistem arasındakı ziddiyyətləri müəyyən qədər izah etməyə çalışır.

İnsanın mədəni səviyyəsi, informasiyanın həcmi, əməyin və məişətin texnika baxımından təchizatı xeyli yüksəlmiş, onun ictimai əlaqələri çoxsahəli olmuşdur. Bununla belə, insan özünə yad olan, rəhmsiz sosial qüvvə və sosial-siyasi təşkilatın amansız qanunları qarşısında getdikcə acizliyini daha çox hiss edir. **K.c.n.** bu ziddiyyəti şəxsiyyətin əlacsız faciəsi kimi başa düşür. Bu nəzəriyyələrin tərəfdarları göstərir ki, şəxsiyyət üzərində ucdantutma nəzarətə can atan sosial-siyasi təşkilatların hədsiz inkişafı qarşısında Qərb ideoloqlarının ənənəvi olaraq müdafiə etdikləri fərdiyyətçi dəyərlər xam xəyaldır.

Kütləvi cəmiyyətin nəzəriyyəçiləri, o cümlədən Kornhauzer onun sosial-siyasi strukturunu ilk növbədə elita ilə kütlə arasındakı nisbət baxımından nəzərdən keçirirlər. "Siyasi sistemi kütləviləşdirməkdə əksini tapan xəstəliyi" elita və qeyri-elita təcridin və müstəqilliyin olmamasının nəticəsidir: bu cəmiyyətdə elita kütlələrin birbaşa müdaxiləsinə, kütlələr (qeyri-elita) isə elita tərəfindən səfərbərliyə məruz qalmışdır. Kornhauzer siyasi sistemlərin tipologiyasını elita və qeyri-elitanın nisbəti baxımından qurur. "ənənəvi cəmiyyət"- qapalı elitanın və inadkar qeyri-elitanın cəmiyyətidir; totalitar cəmiyyət-qapalı cəmiyyət-əlyetən elitanın

və üzüyola qeyri-elitanın cəmiyyətidir, burada əhalinin qoşulacağı aralıq qruplar yoxdur. Elitanın və kütlələrin daimi birbaşa cəbhələşməsi bu cəmiyyətdə siyasəti qeyri-sabit edir, sosial partlayışlara, çevrilişlərə səbəb ola bilir. Kütləvi cəmiyyətə müsbət alternativ kimi qərb politoloqları adətən plüralist cəmiyyətin adını çəkirlər. Belə cəmiyyətdə əhalinin qoşulduğu çoxsaylı "aralıq qruplar" (təşkilatlar, könüllü cəmiyyətlər və s.) elita ilə kütlələr arasındakı daimi cəbhələşməni ortadan qaldıran bufer rolunu oynayır. Kütləvi cəmiyyətdə əhalinin siyasətə bilavasitə qarışmaq meyli var (bu, çox vaxt konstitusiya normalarına və demokratik qaydalara zidd olur), plüralist cəmiyyətdə isə kütlələrin belə iştirakı o qədər də birbaşa deyil, daha az fəaldır.

Tarixi prosesdə xalq kütlələrinin rolunun artması prosesi **K.c.n.**-ndə ifadəsini tapmışdır; lakin bu ifadə eyni dərəcədə deyil. əsasən mühafizəkar əhval-ruhiyyələri və sə'yləri əks etdirir, çox bədbindir, adətən siyasi baxımdan "daha sakit", kütlələrin "öz yerini bildikləri" və siyasətə qarışmayaraq onu cəmiyyəti idarə etmək üçün "daha hazırlıqlı olan" elitar dövrlərin həsrətini çəkməklə müşayiət olunur..

KÜTLƏVİ ƏHVAL-RUHİYYƏ (siyasətdə) - insanları xeyli sayda əhatə edən psixi vəziyyət; çox sayda insanlar üçün yekcins subyektiv siqnal reaksiyası, xüsusi rahatlıq və ya narahatlıq hissləri olub qovuşmuş şəkildə üç cəhəti əks etdirir: ümumi sosial-siyasi həyat şəraitinin qənaətbəxşlik səviyyəsi; həmin şəraitdə insanların sosial-siyasi tələblərini reallaşdırmaq imkanının subyektiv qiymətləndirilməsi; tələblərin reallaşdırılması şəraitinin dəyişdirilməsinə cəhd göstərilməsi. Xüsusi psixi vəziyyət kimi **K.ə.-r.** bilavasitə hisslərdən az və ya çox dərəcədə dərk edilən fikirlərə keçid deməkdir, gündəlik hisslərdən doğur, lakin sosial-siyasi həyatın səmərəliləşdirilmiş şəraiti, onun normaları və əsasları olmaqla sosial-siyasi baxımdan nisbətən ümumiləşmiş xarakter daşıyır.

K.ə.-r.- nin təbiətini müəyyənləşdirən odur ki, belə əhval-ruhiyyələr aşağıdakı iki amil

bir-birinə uyğun gəlmədikdə nəzərə çarpır: çoxları üçün ümumi olan kütləvi ehtiyacların və maraqların birləşdirdiyi insanların tələbləri (daha passiv formada - ümumiləri); real həyat şəraiti. Hiss-həyacan şəklində reaksiyalar nifrətdən tutmuş heyranlıra qədər müxtəlif şəkil ala bilər. Laqeydlik və süstlük kimi "passiv əhval-ruhiyyələr" **K.ə.r.-nin** xüsusi formalarıdır, bu halda insanlar tələblərlə bunlara nail olmaq imkanları arasındakı fərqə son qoyulmasının mümkünlüyünə inanmırlar. Bu, əslində dayağı olmayan tələb və cəhdlərin bir növ iflic vəziyyətinə düşməsi, özünə inamın itirilməsi, əsaslandırmaların və fəal hərəkətlərin iflic olması deməkdir. Ümumən isə siyasətdə K.ə.-r. sosial-siyasi gerçəkliyə çoxsaylı insanların, kütlənin mənafeyi, ehtiyacları, tələb və ümidləri prizmasından verilən subyektiv qiymətdir.

K.ə.-r. sürətlə yayılır və son dərəcə sirayətedicidir. Şüurun ona birbaşa nəzarəti çətindir. K.ə.-r. oxşar sosial-siyasi vəziyyətdə olan insanları asanlıqla və sürətlə birləşdirir,"biz" ümumiliyini formalaşdırır ki, bu da bir qayda olaraq, insanları təmin etməyən sosial-siyasi vəziyyətin asılı olduğu hansısa "onlara" qarşı çevrilir.

K.ə.-r.-nin meydana çıxması iki amilin qarşılıqlı əlaqəsinə əsaslanır. Birincisi, obyektiv amildir (real gerçəklik haqqında insanların müxtəlif təsəvvürləri, bu gerçəkliyin öz mənafeləri və tələbatları baxımından müxtəlif cür qiymətləndirilməsi). K.ə.-r.-nin cəmiyyətdə təzahürü ilk növbədə bu cəmiyyətin sosial-siyasi strukturunun yekcinslik dərəcəsindən asılıdır. Bu struktur nə qədər fərqli, plüralist olarsa, bir o qədər də öz tələbatları və mənafeləri olan müxtəlif qruplar meydana çox çıxar və onlardan hər birinin də öz əhval-ruhiyyəsi ola bilər. ictimai münasibətlər nə qədər güclü, aydın və yekcins təsəvvür edilirsə, cəmiyyətin siyasi-psixoloji strukturu bir o qədər yırcam və **K.ə.-r.**-nin yekcins-normativ, "ictimai" tərkib hissəsi o qədər güclü olur.

Konkret qruplarda və təbəqələrdə yaranan bu və ya digər **K.ə.-r.** son dərəcə sürətlə yayılaraq öz subyekti kimi kütləni formalaşdırır. Məs. 1917-ci il

əraitində "fəhlə kütləsi" kifayət qədər sürətlə "bütün istismar olunanların əksəriyyətinə" çevrilə bilmişdi. Bu proses siyasi böhranlar zamanı, sosial-siyasi sistemdə radikal dəyişikliklərin gedişində özünü xüsusilə aydın göstərir. Daha sakit vəziyyətlərdə, sistem çərçivəsində cürbəcür, o qədər də bariz olmayan və bu səbəbdən də nəzərə çarpmayan əhval-ruhiyyələr mövcud olduqda, bunların subyekti nisbətən məhdud olur. ən konkret ifadəsini "kütlə" və ya "toplaşmış camaat" şəklində, mürəkkəb halda kütləvi sosial-siyasi hərəkat formasında, daha geniş miqyasda isə "orta təbəqələr" şəklində tapır. (bunlar üçün ənənəvi "sosial-sinfi şüurun" yayğınlığı və **K.ə.-r.**-yə çox nəzər qalmaq səciyyəvidir). ən nəhayət, müəyyən hallarda cəmiyyət üzvlərinin əksəriyyəti və ya hətta bütövlükdə cəmiyyətin özü **K.ə.-r.**-nin subyekti ola bilər.

K.ə.-r.-nin başlıca funksiyası kifayət qədər böyük insan birliklərini *siyasi-psixoloji* baxımdan hazırlamaq, formalaşdırmaq və onların sosial-siyasi hərəkətlərinin motivləşməsini təmin etməkdir. **K.ə.-r.** kütləni sıx birləşdirməklə kütləvi hərəkətlərdə və çıxışlarda predmetləşir, əvvəlcə sosial-siyasi davranışın təşəbbüscüsü olur, sonra isə onu tənzimləyir (şübhəsiz ki, burada öz-özünə yaranan, siyasi-psixoloji "özünü tənzimləmədən" söhbət gedir). Bunun hesabına da sosial-siyasi proseslərin dinamikasının subyektiv təminatı vəzifəsi həyata keçirilir.

Funksional yanaşmaqla **K.ə.-r.** tipologiyalarının adət edilmiş ideoloji qiymətləndirmələrindən uzaqlaşmaq mümkündür. Potensial siyasi hərəkətlərin subyektini formalaşdırmaq funksiyaları *potensial* fəaliyyət birlikləri (məs. kütləvi hərəkatlar) formalaşdıran əhval-ruhiyyəyə uyğun gəlir. *Siyasi davranışa* təşəbbüs və onu tənzimləmə funksiyaları mövafiq kütləvi əhval-ruhiyyələrə (məs. siyasi sistemin modifikasiyasına doğru aparan) uyğundur. Strateji siyasi-psixoloji qiymətləndirmə funksiyaları siyasi reallıra uzunmüddətli münasibət formalaşdıran K.ə.-r., onu dərketmə üsuludur (məs., bu və ya başqa siyasi tə-

fəkkür).

K.ə.-r. müəyyən dərəcədə ikili xarakter daşıması ilə fərqlənir. Bir tərəfdən, o, real həyatın psixi əksi, nəticəsidir. Digər tərəfdən isə kütləvi psixologiyanın qanunları ilə inkişaf edir, reallıra təsir göstərir və həyatı dəyişir. Bir tərəfdən ideologiyanın əsasını təşkil edir, digər tərəfdənsə ideoloji təsirə çox az məruz qalır.

K.ə.-r.-yə təsir göstərmək imkanları praktikada ən mühüm problemdir. Belə imkanlar iki baxımdan mümkündür. Bir tərəfdən, siyasət tarixində kütlələrin tələblərinə və gözləmələrinə təsir göstərmək vasitələri işlənib hazırlanmışdır. Digər tərəfdən isə, tələblərin səmərəliliyidir. **K.ə.-r.**-yə kompleks sosial-siyasi təsir iki əsas hissədən ibarətdir: ideoloji təblirat və sosial-iqtisadi amillər də daxil olmaqla sosial-siyasi təsir. Əhval-ruhiyyənin sabitliyinə iddialar və bunların həyata keçirilməsinin mümkünlüyü arasında tarazlıq yaratmaqla nail olunur.

Siyasətdə **K.ə.-r.**-nin inkişafını "əgər...olarsa, onda..." prinsipi üzrə ssenari hazırlamaq əsasında proqnozlaşdırmaq mümkündür. Ekspertlərin rəyinə əsaslanan ssenarinin hazırlanması **K.ə.-r.**-yə təsir göstərən dəyişən amillər şəbəkəsinin əmələ gətirdiyi xüsusi növ "problem şəbəkəsinin" yaradılmasından ibarətdir və prinsip etibarilə siyasi proseslərin kompüterdə modelləşdirilməsinə çıxa bilər.

KÜTLƏVİ KOMMUNİKASİYA - informasiya istehsalının, onun mətbuat, radio, televiziya vasitələri ilə ötürülməsinin müasir kütləvi proseslərindən biri və "kütlənin" (sabit ictimai əmək bölgüsündən kənarda öz-özünə meydana gələn kollektiv qruplaşmanın) üzvləri kimi insanların, texniki vasitələrin köməyi ilə həyata keçirilən ünsiyyəti. Şəhərlərin artması (o cümlədən adət etdikləri mühitdən ayrı düşmüş çox böyük insan kütlələrinin şəhərlərdə cəmləşməsi) ilə müşayiət olunan sürətli sənaye inkişafı əvvəlki sosial qarşılıqlı əlaqələri qeyri-qənaətbəxş edir, yeni ünsiyyət forması tələb edirdi. K.k. belə forma oldu. Qeyri-sabit və etibarsız şəraitə düşərək yeni səmərəli ideyalar və təsəvvürlərə kəskin ehtiyac hiss edən çoxsaylı insanlar kimi "kütlə"nin meydana gəlməsi siyasi mübarizəni son dərəcə kəskinləşdirdi, hər cür siyasi qüvvələrin diqqətini maqnit tək özünə cəlb etməyə başladı. Bu da səbəbsiz deyildi, çünki getdikcə aydın olurdu ki, kim özünün bütün fəaliyyətini müvafiq şəkildə yenidən quraraq "kütlə"nin nəzərində daha cəlbedici görünərsə, o da uğur qazanacaqdır. **K.k.** lap başlanğıcdan siyasi hakimiyyətin cəmləşdirilməsinin elə forması kimi çıxış edirdi ki, qavrayışın orta, ümuməhəmiyyət kəsb edən səviyyəsinə istənilən ideyanı uyğunlaşdırmaqla "əksəriyyətin istədiyini verə" bilmək bacarığını göstərmiş olsun. **K.k.** vasitələrinin verdiyi məlumatların auditoriyanın şüuruna uyğunluq dərəcəsini öyrənmək üçün sosioloji tədqiqatlardan getdikcə daha çox istifadə edilir. Bunlar isə öz növbəsində siyasi mübarizədə və ticarət rəqabətində getdikcə daha mühüm alətə çevrilirlər.

K.k.-nın təsirinin əsas nəticələri arasında adətən mövcud olan istiqamətlərin, təsəvvürlərin və s. möhkəmlənməsini, ictimai inkişafın təkamüllüyünə uyğun gələn xırda dəyişiklikləri və auditoriyanın şüurundakı irəliləyişlərin nəticəsi kimi konversiyanı qeyd edirlər. **K.k.**-nın konkret tarixi məzmunu baxımından təhlil zamanı belə bölgü qənaətbəxş olmur. Bu cür təhlilə ən məlum nümunə olaraq **K.k.**-nın "mədəniyyət sənayesi" kimi təhlilini göstərmək mümkündür. Frankfurt məktəbinin nümayəndələri T.Adorno və Xorkhaymerin apardıqları bu təhlil politoloji və sosioloji fikrə ciddi təsir göstərmişdir. **K.k.**-nın Qərb sosial-siyasi konsepsiyası kütləvi kommunikasiyanın yaradıcılarının mədəniyyətə, siyasətə və öz cəmiyyətinin şüurunun vəziyyətinə mənfi, tənqidi münasibətini dəf etmişdir. Ona görə də bu konsepsiyada ön planda kütləvi kommunikasiyanın tərəqqisinin demokratik prosesdə müstəsna rol oynamış nəticələri, **K.k.**-nın "dürdüncü hakimiyyət", dövlət, onun intstitutları üzərində səmərəli sosial nəzarət ideyalarını reallaşdırması deyil, informasiyadan şüura kələk gəlmək üçün istifadə edilməsi dayanır **(bax; KÜTLƏVİ SİYASİ İN-**

FORMASİYADA MİF). K.k.-nın bu cür qiymətləndirilməsində neomarksist Frankfurt fəlsəfə məktəbi həlledici rol oynamışdır. Onlar antitotalitar tənqidə öz dövrlərinin kütləvi mədəniyyətinə verdikləri ifşaedici qiyməti də əlavə etmişlər. **K.k.**-nı əksəriyyətin mənəvi həyatını hər gün aşağı dərəcəli "ümumi səviyyəyə" endirən pozucu forma hesab edən müəlliflər, eyni zamanda onda təşkilatçılıq və idarəetmənin "ümumi" prinsipinin-totalitar hakimiyyəti həyata keçirməyin zəruri şərtini görürdülər. T.Adorno və M. Xorkhaymer kommersiya qaydasında təşkil olunmuş kütləvi mənəvi istehsalın (ilk növbədə ABŞ-da) yekrəngliyini kütlənin Almaniyada faşizmin hakimiyyətə gəlməsindən sonra formalaşmış xarakterinə bənzədirlər. Çünki hər iki halda olduqca cazibədar görünən maarifçilik ideallarına qarşı barışmaz düşmənçilik özünü büruzə vermişdir. **K.k.**-ya dair sonrakı araşdırmalar kütləvi kommunikasiyanın auditoriyanı totalitar ideologiyaların passiv, olduqca iradəsiz və həddən artıq loyal məhsulu kimi başa düşülməsi barədə Frankfurt məktəbi nümayəndələrinin fikirlərini xeyli mənimsəmişdir. Totalitar ideologiyaların məhsulu olan "kütlə" özündən razı, süvereenliklərinə şəksiz əmin olan, əslində isə asanlıqla hiylə toruna düşən fərdlər kimi çıxış edir. Bununla əlaqədar **K.k.** səviyyəsində "əyləncə" "həqiqətdən qazmağın sosial terapiyası", canlı insanları zehni inkişafa malik manekenlərə çevirmək üsulu, bütün problemləri əyləncəyə çevirmək kimi qiymətləndirir. Lakin hər halda bütün tənqid ictimai həyatın demokratikləşməsi prosesində frunksional xarakter daşıyır, çünki kütləvi şüurun həqiqi məhdudluğunu aşkarlamağın və aradan qaldırmağın praktik problemlərinin qarşıya qoyulmasına xidmət edir. **K.k.**-nı dərk etmək üçün belə bir cəhəti nəzərə almaq vacibdir ki, o, bütün dünyanı daim yeniləşən və bir qayda olaraq bir-birilə bir başa birmənalı məntiqi, yaxud məna əlaqəsi ilə bağlı olan xəbərlər yığını kimi təsəvvür edir. Ona görə də **K.k.**-nı qavramaq üçün təbii ki, daxil olan xəbərin bütün "mozaikasını" səbəb-

nəticə münasibətləri vasitəsilə deyil, fasilələri birləşdirmək, "mozaika" mənalı ünsürləri buradan "çıxartmaq" həmin xəbərləri öz aralarında toqquşduraraq, "əks-səda" vermələrinə çalışıb onları bir zaman və məkan nüqtəsinə çəkərək "burada və indi" prinsipinə uyğunlaşdırmaq lazımdır. **K.k.**-nın mozaikliyi onun ən inkişaf etmiş növü olan televiziyada proqramlar mürəkkəbləşdikcə daha aşkar görünür. Televiziya proqramları mürəkkəbləşdikcə və sıxlaşdıqca onların ünsürlərinin hər birinin müddəti zaman etibarilə qısalır. Mozaik strukturun labüd nəticəsi kimi proqramların qısaldılması işıqlandırılan hadisənin həqiqi məzmunu ilə onun nümayiş etdirilməsi üçün ayrılmış məhdud vaxt çərçivələri arasında ziddiyyət yaradır. Bunun nəticəsində də informasiya yalana çevrilə bilər. "əks-səda" sağlam düşüncəni batırıb kütləşdirəcək, beyinlərdə qarmaqarışıqlıq yaradacaqdır. Bununla əlaqədar son illər miflərin güclü generatoru kimi K.k.-nın rolu məsələsi getdikcə daha çox tədqiqatçıların diqqətini cəlb edir. Məs., televiziyanın kütləvi şüura ifrat təsiri "televiziya elektoratının" yaranmasında öz ifadəsini tapmışdır. Bu halda insanlar əslində öz səslərini hansısa partiyanın proqramına deyil, namizədlərin televiziya imicinə verirlər.

K.k. vasitələri öz (xüsusən radio və televiziya) öz imkanlarına görə insana və cəmiyyətə dünya miqyasında hər yerdə və fasiləsiz təsir alətinə çevrilmişdir. Ona görə də **K.k.** vasitələrinin inkişafı, təbii ki, həmin imkanlardan daha çox istifadə olunması istiqamətində gedir. Belə bir fikir təşviq edilir ki, kim bu yolda çox irəliləyirsə, siyasi mübarizədə onun vəziyyəti əlverişli olacaqdır (bax; **İNFORMASİYA CƏMİYYƏTİ**).

KÜTLƏVİ SİYASİ İNFORMASİYADA MİF.-Son dövrədək belə bir təsəvvür var idi ki, müasir şüurda mif mövcud olsa belə, o, cəhalət məhsuludur (bunula əlaqədar adətən, A.Rozenberqin "XX əsrdə mif" əsərində xülasə edilmiş mürtəce cərəyanların siyasi mifologiyasını göstərirlər). Sonralar mif əlamətləri kütləvi sənət məhsulunda tədqiqatçıların getdikcə daha çox

diqqətini cəlb etməyə başlamışdır. Lakin bu halda da onun arxaikliyi, cəhalət xarekteri sosial və siyasi rolu qeyd olunur; həddən artıq siyasi təblirat adətən siyasi miflərin yaranmasına və yayılmasına xidmət edir. Getdikcə əsasən Qərb tədqiqatlarında dünya kommunikasiyası ilə mif arasında əlaqələr yeni tərzdə dərk olunmağa başladı, yəni özlüyündə kütləvi kommunikasiya vasitələrinin fəaliyyətinə mif törədən kimi baxılırdı. Bu halda televiziyaya xüsusi əhəmiyyət verilirdi: məs., deyilirdi ki, televiziyada verilən cürbəcür xəbərləri tamaşaçının məntiqi ciddi ardıcıllıra dözməsi mənasızdır. Onun şüuru bu xəbərləri qarşılıqlı inikasların əks-sədası vasitəsilə əlaqələndirməli, bir anlıra yaranan (və itən) qarşılıqlı əlaqələrin "papaqvarı" kosmosunu formalaşdırmalıdır. Sabit dayaq axtaran şüur həyatın bu hadisələr səthiliyindən kənara çıxıb onun dərin, "əbədi" zəminini aşkar etməyə çalışır. Bununla əlaqədar belə bir nəticə yada düşür ki, kütləvi informasiya vasitələri öz mahiyyətinə görə insanı mifə qaytarır, beləliklə də, mif, nə vaxtsa uzaq keçmişdə olduğu kimi, gerçəkliyə münasibətin təbii üsulu olur. Yeni mühafizəkarlıqla səsləşən, müəllifləri mif yaratmağın məddahlarına çevirən bu cür mühakimələr ilk növbədə kapitalizmin müasir, qlobal inkişaf mərhələsinin təcəssümüdür. Onu da nəzərə almaq lazımdır ki, əmtəə fetişizminin təsiri altında mif yaradıcılığı münasibətləri həqiqətən həm nəzəri, həm də şüura sirayət edir, beləliklə kütləvi mənəvi istehsalı bürüyür, elə vəziyyət yaradır ki, insanlar kütləvi informasiya vasitələrinin qüdrətinə inanmağa başlayır, hesab edirlər ki, dünyada baş verən az qala hər şeyi onların vasitəsilə öyrənəcəklər.

Bütün bunlar doğrudur, lakin eyni zamanda kütləvi kommunikasiya öz fəaliyyətinin istənilən konkret sosial formasında mif yaratmağın son dərəcə güclü stimulyatoru olmağa qadirdir. Mifin və kütləvi kommunikasiyanın xarakteristikalarını tutuşdurduqda onların oxşarlığı, izomorfizmi, bir-birini qarşılıqlı gücləndirə bilməsi aşkar olur. Məs., mifdə ümumi və təkin ayrılmaz bütövə çevrilməsi baş verir, həqiqətdə birbirindən uzaq olanlar bir-birinə ən yaxın kimi başa düşülür, mifoloji vaxt isə keçmişi, indinin və gələcəyi birləşdirərək "Hər yerdə hər şeyin" olduğunu ehtimal edir. Mif məkan-zaman baxımından qapalıdır, özünü təkrarən doğuraraq yenə özünə bərabər olur. Buna görə də, hər bir cəhalətpərəstliyin aradan qaldırılması naminə çıxış edən ictimai qüvvələr üçün kütləvi şüuru mifsizləşdirmək üçün metodlar işləyib hazırlamaq və həyata keçirmək əhəmiyyət kəsb edir. İctimai həyatın həqiqi maddi və mənəvi proseslərini nümayiş etdirməklə mif yaradıcılığının keçici, nisbi xarekterini göstərmək mümkündür.

KÜTLƏVİ ŞÜUR- ictimai şüurun növlərindən biri, onun əməli surətdə həyata keçirilməsi və təcəssümünün ən real forması; cəmiyyətin şüurunun özünəməxsus, xeyli çox sayda insanlara ("kütlələrə") xas olan,cəmiyyətin böyük miqdarda müxtəlif "klassik" qrupların (böyük və kiçik) şüurunun əsas və daha mühüm tərkib hissələrinin hansısa bir anda uyğun gələn növü.

K.ş. ifadəsi formal olaraq elmi ədəbiyyatda XIX əsrin ortalarından etibarən işlədilmiş, xüsusilə əsrin sonunda yayılmışdır. Xüsusi termin kimi isə az və ya çox dərəcədə yalnız XX əsrin 30-cu illərində dünya ədəbiyyatında işlədilmiş, lakin ötəri xatırlanma və bir-biri ilə müqayisəyə gəlməyən müxtəlif təfsirlər səviyyəsində qalmışdır. **K.ş.**terminina kifayət qədər diqqət verilməməsini ən azı iki səbəblə izah etmək olar. **K.ş-u** öyrənməyin obyektiv çətinlikləri onun özünün təbiəti və çətin qeydə alına və təsvir edilə bilən xüsusiyyətləri ilə bağlıdır. İkincisi, subyektiv xarakterli çətinliklər cəmiyyətin kütləvi psixologiyasının təhlili zamanı ehkamlaşdırılmış sosial-sinfi təsəvvürlərin üstün olması, habelə müvafiq terminologiya aparatının təkmilləşdirilməsi ilə bağlıdır.

Daşıyıcı subyektinin xüsusiyyətləri baxımından **K.ş.**-un özünəməxsus əlamətləri kimi kütləyə uyğun gələn aşağıdakı keyfiyyətləri fərqləndirilir; I) ctatiklik. başqa sözlə,formasızlıq,tərkib hissələrindən fərqli müstəqil, sistemli, strukturlaşdı-

rılmış bütöv institutlara çevrilə bilməməsi; 2) ehtimallılıq, yəni hüdudlarının açıqlığı,yayğınlığı, kəmiyyət və keyfiyyət baxımından tərkibinin qeyri-müəyyənliyi; 3) mövcudluğunun şəraitdən asılılığı ; 4) tərkibinin aşkar müxtəlifliyi. Sadalanan keyfiyyətlərin toplusu nəzərə alınmaqla, **K.ş.** xüsusi növlü "qrupdankənar" şüurdur. Şəraitə görə ictimai şüurdan törəyib cəmiyyətin sosial-sinfi strukturunu təşkil edən əsas qrupların şüuru kimi şərh olunan, özü də sanki belə ictimai şüurun daxilində sosial-sinfi arakəsmələrlə "qırılmış" şüurdur.

Qlobal-kütləvi, bütün cəmiyyət miqyasında K.ş.haqqında yalnız cəmiyyətin əslində bütün üzvlərini hərtərəfli əhatə edən və onları şüurun bu və ya başqa ölçüsündə hansısa "ortaq məxrəcə" gətirən nə isə bir konkret hadisəni təsəvvür etməklə danışmaq olar. Vaxtilə K.Marksın kütləvi sənaye inqilabının inkişafı gedişində məhsuldar qüvvələrin kütləviləşməsini, bununla yanaşı isə həm də istehsal münasibətlərinin və insanların bütün psixikasının kütləviləşməsini təhlil etməsi buna nümunə ola bilər.Kütləvi kommunikasiya və təblirat vasitələrinin fəaliyyəti də **K.ş.**-un formalaşmasına səciyyəvi misaldır.

Hazırda **K.ş.**-un tədqiqatçılarının əslində hamı belə bir yekdil fikirdədir ki, onun subyekti hansısa ümumi və tam təsisat deyildir. "Kütlə" anlayışı olduqca dəyişkəndir, şəraitdən asılıdır və ümumən qeyri-müəyyəndir. Kütlənin inkişafı insanların bu və ya başqa ümumi psixi vəziyyətlə əhatə olunmasının dərəcəsindən asılıdır. **K.ş.**-un əvvəlcə ənənəvi olaraq fərqləndirilən qruplar çərçivəsində yetişən ayrı-ayrı *tərkib hissələri* yayılaraq cəmiyyətin digər qrup və təbəqələrinin nümayəndələrini əhatə edə, kütləni genişləndirə, həm də əksinə, azalda, **K.ş.** subyektinin miqyasını kiçildə bilər.

Subyektin hüdudlarının bu cür yayğınlığı **K.ş.**-un tipologiyasını çətinləşdirir. **K.ş.**-u müstəqil mövcud olan müəyyən tiplərə ayırmaq üçün əsas kimi bir vaxtlar **K.ş.**-un aşağıdakı xüsusiyyətləri təklif olunurdu: ümumi və aktual təfəkkür potensialı (bu və ya digər kütlənin prinsip etibarilə malik

olduğu və özünün fəaliyyətində əməli şəkildə istifadə etdiyi hər cür müsbət biliklərin həcmi); zaman baxımından sabitliyi; bağlılıq dərəcəsi (ziddiyyətliliyi-qeyri ziddiyyətliliyi); **K.ş.**-a daxil olan kortəbii və təsis edilmiş formaların "xüsusi çəkisi" və nisbəti; **K.ş.**-un səviyyəsi; onun təzahürünün xarakteri; istifadə edilən dil vasitələrinin xüsusiyyətləri və s. Mümkün olan amillər kimi təkcə məzmun-təhlil meyarları deyil, həm də siyasi qiymətləndirmə meyarları təklif edilirdi: məs. "elmi" və "cahil", "mütərəqqi" və "*mürtəce*", "qənaətbəxş" və "qeyri-qənaətbəxş", rəsmi mövqelərə, hakimiyyət strukturlarına və təblirat rəmzlərinə qarşı müxtəlif münasibətlərdə olan **K.ş.** (məs. "tənqidi", yaxud "konformist" **K.ş.**) və s. göstərilirdi. Lakin bu cür tipologiya cəhdləri **K.ş.**-un təzahürlərinin yalnız ayrı-ayrı cəhətlərinə toxunurdu, halbuki əslində **K.ş.** çoxölçülü anlayışdır. Ona görə də **K.ş.** yalnız müxtəlif koordinatların məkan sistemində, yəni eyni zamanda bir-birini tamamlayan bir neçə tipologiya qurmaq və modelləşdirilən **K.ş.**-a müxtəlif yönlərdən nəzər salmağa və bunun sayəsində daha adekvat yuvarlaq model yaratmağa imkan verən bir neçə korrelyativ parametrdən istifadə yolu ilə təsvir oluna bilər. ABŞ-da müasir **K.ş.**-u tədqiq etmək sahəsindəki təcrübəni belə tipologiya yaratmağa nümunə göstərmək olar. Bu tədqiqatlarda K.ş.-un məzmununun, quruluşunun və fəaliyyət göstərməsinin müxtəlif əlamətlərini eyni zamanda nəzərə alan 12 parametr götürülmüşdür.

Həmin parametrlərə uyğun **K.ş.**-un liberal-texnokratik, liberal-reformist, libertarist, ənənəçi, yeni mühafizəkar, radikal-libertarist, radikal-ədalıq, sağ populist, radikal-demokratik, radikal üsyançı, radikal-romantik və radikal-sosialist tipləri göstərilmişdir. Ümumiləşdirilmiş variantda **K.ş.**-a qiymət vermək və onun məzmununu fərqləndirmək üçün zəmin kimi üç əsas xarakteristikasının toplusu özünü göstərir: 1) cəmiyyətdə kütlənin şüurunun inkişafının orta səviyyəsi, buraya təkcə bu və ya digər sosial-siyasi hadisələr və

proses haqqındakı kütlənin mühakimə yürütmək qabiliyyəti, bilik və mülahizələrinin həcmi deyil, həm də hiss və təxəyyülünün yönümü, ətraf gerçəkliyə münasibətini qızğın şəkildə bildirmək qabiliyyəti daxildir; 2) cəmiyyətdə kütlənin fəaliyyətini fərqləndirən tələbatların, maraqların, ehtiyacların miqyası və yönümü; 3) cəmiyyətdə kütləvi miqyasda dövr edən, o cümlədən tərbiyə və təhsil institutlarının, kütləvi informasiya vasitələrinin çoxsaylı kanallarının köməyi ilə xüsusi olaraq **K.ş.**-a yönəldilən informasiya miqyası.

Son vaxtlaradək **K.ş.**-un formalaşması və fəaliyyəti özünün yaranma və inkişaf qanunlarına tabe olan hadisə kimi şərh olunur, yaxud kənardan, ilk növbədə siyasi ideoloji vasitələrlə idarə olunan hadisə kimi təsəvvür edilirdi. Lakin məsələyə dialektik yanaşıb deyilməlidir ki, **K.ş.** çoxsaylı "kütləvi fərdlərin" yaşayıb fəaliyyət göstərdiyi şəraitin oxşarlığından, həmin şəxslərin fərdi təcrübəsinin eyniliyindən irəli gəlmir. Ondan meydana gəlir ki, fərdlər həmişə bu və ya başqa şəkildə, bilavasitə, yaxud dolayısı ilə məkan və zaman çərçivəsində bir-biri ilə qarşılıqlı əlaqədə olur, özləri üçün ümumi olan **K.ş.**-un tərkib hissələrini - ümumi təsəvvürləri, hissləri, rəyləri və s. birlikdə işləyib hazırlayırlar. Bu yozumda **K.ş.** kütlələrin fəallığının qarşılaşmasının nəticəsi olub insanın öz həyatını və bu həyatın keçdiyi sosial-siyasi şəraiti dərk etməsinə yönəldilmişdir.

Q

QABAĞINI ALMAQ SİYASƏTİ - 1) bir dövlətin, yaxud dövlətlər qrupunun digər dövlətə (yaxud dövlətlər qrupuna) münasibətdə birbaşa təcavüzünün, yaxud ilhaqın başqa formalarının qarşısını almağa yönəldilmiş tədbirlər kompleksi. **Q.a.s.**-nin əsas komponenti təcavüzkarın özü üçün təcavüzün, ilhaqçı üçün ilhaqın əlverişsiz nəticələr verə biləcəyini açıq nümayiş etdirməkdir; potensial təcavüzkara, yaxud ilhaqçıya münasibətdə qoruyucu tədbirlər silsiləsini nəzərdə tutur (məs.: NATO-nun sülhməramlı qüvvələrinin Bosniyada serblərin təcavüzünün qarşısını almaq üçün həyata keçirdiyi qoruyucu tədbirlər); 2) artıq başlanmış təcavüzün və ilhaqın nəticələrini minimuma endirmək üçün onun miqyasını daraltmağa yönəldilmiş tədbirlər kompleksi.

QAÇQINLAR - beynəlxalq hüquqda hərbi əməliyyatlar, milli, dini əlamətlərə, siyasi əqidələrə və i.a. görə təqiblər nəticəsində daimi yaşadıqları ölkəni tərk etmiş şəxslər. **"Q."** anlayışı Birinci dünya müharibəsindən sonra meydana gəlmişdir. İkinci dünya müharibəsindən sonra **Q.**-ın və yerlərindən zorla köçürülmüş şəxslərin sayı xüsusilə çox artdığına görə BMT-də **Q.**-ın işləri üzrə ali komissiya idarəsi yaradıldı. Qazqın statusu 1951-ci il Beynəlxalq müahidəsi və 1967-ci il Protokolu ilə müəyyən edilir. Hər hansı dövlət tərəfindən vətəndaşa **Q.** statusu verilməsi həmin dövlət tərəfindən vətəndaşın hüquqlarının qorunması, ona maddi yardım göstərilməsi və s. deməkdir. 80-ci illərin sonu 90-cı illərin əvvəlində SSRİ-nin dağılması şəraitində konfliktlərin kəskinləşməsi nəticəsində **Q.**-ın ilk dalğaları əmələ gəlmiş, SSRİ dağıldıqdan sonra bu proses daha da güclənmişdir.

Azərbaycanda **Q.** problemi 80-ci illərin ikinci yarısında Ermənistanın Azərbaycana ərazi iddiaları və təcavüzü ilə əlaqədar yaranmışdır. 1988-ci ildə 250 mindən çox azərbaycanlı Ermənistandan zorla qovularaq **Q.** vəziyyətində Azərbaycanda yerləşməyə

məcbur olmuşdur. Ermənistan təcavüzkarlarının Dağlıq Qarabağın Azərbaycandan zorla alınıb Ermənistana qatılması kimi sərsəm ideyanı həyata keçirmək niyyəti azərbaycanlıların yeni dəstələrini öz vətənində Q.-a çevirdi. 1992-93 illərdə Ermənistanın Azərbaycana iri miqyaslı təcavüzü nəticəsində respublika ərazisinin 20 faizi iöral edildi; Q.-ın sayı isə bir mln. nəfəri ötdü, onların çadırlarda, müvəqqəti yaşayış məskənlərində yerləşdirilməsi üçün tədbirlər görüldü. Bu işdə qonşu ıran və Türkiyə dövlətləri, beynəlxalq təşkilatlar Azərbaycana xeyli yardım göstərdilər. Ermənistan-Azərbaycan konflikti ilə bağlı ATəT-in Minsk qrupunun vasitəçiliyi ilə keçirilən danışıqlarda iöral olunmuş Azərbaycan torpaqlarından Ermənistan qoşunlarının çıxarılması və Q.-ın daimi yaşayış yerlərinə qaytarılması başlıca şərtlər kimi irəli sürülür.

QADIN HƏRƏKATI - Maarifçilik hərəkatı dövründə azadlıq ideyaları məcrasında yaranmış demokratik hərəkat. Onun ilk ideya əsasları fransız qadın yazıçısı Olimpiya de Quj tərəfindən 1791-ci ildə yazılmış "Qadınların və qızların hüquq bəyannaməsi" əsərində verilmişdir. Yazıçı bu bəyannaməni, qanun qarşısında bütün kişi cinsindən olan vətəndaşların bərabər hüquqa malik olmalarını elan etmiş "insan və vətəndaşın hüquq bəyannaməsi"nin tam əleyhinə yazmışdır. O de Quj -qadınların da tam hüquqlu vətəndaşlar kateqoriyasına daxil olunmasını tələb etmişdir. Elə o vaxtdan da de Quj və onun qadın ardıcılları "feministlər" adlandırılır. ictimai həyatın bütün sahələrində qadınların kişilərlə bərabər hüquqa malik olmaları uğrunda mübarizəni, onur şüar və konsepsiyalarını isə "feminizm" adlandırırlar. **Q.h.** və feminizmin tarixi keçmişinə nəzər salınsa, onların sinonim olduğu açıq-aşkar gözə çarpar. Lakin iki əsr müddətində bu anlayışlar xeyli dəyişikliklərə məruz qalmışdır: **Q.h.** anlayışı daha çox geniş, ümumi fenomen mənasında işlədilir, "feminizm" isə bu hərəkatın yalnız bir hissəsi olub radikal şüarları və konsepsiyanı əhatə edir. **Q.h.**-nın mərkəzində feminizm anlayışı ilə bərabər,

qadın şəxsiyyətinin tam hüquqlu olması və azadlığı ideyası da qalır. Bu ideya demokratik cəmiyyətin bütün həyatına nüfuz etmiş, demokratik şüurun əsas hissəsinə çevrilmişdir. **Q.h.** anlayışının daha geniş mənada şərhini Böyük Fransa inqilabından aldığı təəssüratlarına əsasən Ş.Furye vermişdi. "Qadın hüquqlarının genişləndirilməsi hər cür ictimai tərəqqinin ümumi prinsipidir". Hüquq bərabərliyinin tərəfdarları olan ilk qadınlar belə zənn edirdilər ki, onlar hüquq sahəsində öz məqsədlərinə mütərəqqi islahatların həyata keçirilməsi ilə nail olacaqlar. sosialistlər XIX əsrin 40-cı illərində onların əksinə olaraq, qadınların hüquq bərabərliyi haqqında öz ideyalarını irəli sürdülər; onlar qadın hərəkatının uğurlarını ictimai əsarət və istismara qarşı ümumi mübarizə ilə bağlayır və bunu "qadın məsələsi" kimi qiymətləndirirdilər. Beləliklə, vahid **Q.h.** anlayışının burjua-liberal feminizmi və "sosialist" feminizmi kimi iki prosesi belə baş verdi. Burjua-liberal axınının daxilində qadınların kişilərlə siyasi hüquq bərabərliyinin fəal tərəfdarları olan sufrajistlər (fr. "suffrage" - seçki hüququ) cərəyanı meydana gəlir. Fikir ayrılıqlarına, hətta bu müxtəlifliyin ciddi xarakter almasına baxmayaraq, **Q.h.**-na daxil olan müxtəlif cərəyan və axınlar eyni bir işə xidmət edirdi - patriarxal əxlaq norma və ənənələrinin əleyhinə çıxır, əsrlərdən bəri qadınlar haqqında formalaşmış iyerarxiyaları sarsıdırdılar. XIX-XX əsrlərdə **Q.h.**-nın inkişafı nəticəsində qadınlar təhsildə, əməkdə, seçib-seçilməkdə, hər hansı bir dövlət vəzifəsi tutmaqda kişilərlə bərabər hüquqlar əldə edə bilmişlər. Qadınların yeni hüquqlar kompleksi əldə etmələrində XX əsrin 60-70-ci illərində başlanmış neofeminist gənclərin etiraz çıxışları mühüm rol oynamışdır. Bu hərəkatın radikal-inqilabi qolu qadınların kişilər tərəfindən istismar olunmasını (seksizm), yaxud "cinslər arasında müharibənin" əsas istismar forması olduğunu elan etdi. Daha çox islahatçı və humanist dəstələr hakimiyyət orqanlarında qadın nümayəndələrinin sayınınartması, şüurlarda patriarxal stereotiplərin aradan qaldırılması, "layiq

olmadıqları imtiyazlardan" imtina edilməsi uğrunda mübarizədə fəal çıxış edirdilər. əgər feminizmin klassik forması qadınlar üçün vətəndaş hüquqları və azadlıq tələb edərkən azad hüquqlu qadınların özlərini kişi kimi aparacaqlarını düşünürdülərsə, neofeministlər bunun əksini sübut etməyə çalışırlar: bərabər hüquqlar, qadınlara imkan verəcəkdir ki, onlar kişiləri tam şəkildə təkrar etməsin, tarixdə öz maneraları ilə, bərabər hüquqlu, lakin azad subyekt kimi yaşasınlar. Bu modelə görə cəmiyyət yeni "qarışıq" konsepsiyaya əsaslanır, burada "seksual bölgü" cinslər arasında şüur fərqi, qadın üzərində zor işlətmə halları olmur. **Q.h.** tərəfdarları Qərbdə yeni nəzəri əsaslara arxalanaraq cəmiyyətdə kişilərin hakimiyyət inhisarına qarşı çıxır və bütün ictimai təsisatlarda bərabərliyə nail olmağa çalışırlar. Müasir **Q.h.**-nın əsasında bütün ictimai vəziyyətlərdə qadınlarla kişilər arasında yeni bərabər hüquqlara əsaslanan zor işlətməmək və humanist dəyərlər, "eqalitarizm" (mülkiyyətin fərdlər arasında bərabərləşdirilməsi) və "tərəfdaşlıq", cinslər arasında fərqləri qəbul etməklə bərabər, onlardan birinin digərini tamamlaya bilmək qabiliyyətlərini qəbul edən yeni münasibətlər durur. Qadınlarda vətəndaşlıq fəallığının artması, onların siyasətə özünəməxsus formada təsir etməyə çalışmaları, qlobal problemlərə, əsasən də bəşəriyyətin yaşamasına, sürətlə silahlanmaya, militarizmə qarşı etiraz, ətraf mühitin qorunması və s. kimi problemlərə marağı - bütün bunlar **Q.h.**-nı müasir demokratik hərəkatda mühüm qüvvəyə çevirir.

QANUN - təbiət, cəmiyyət və təfəkkür hadisələrindəki obyektiv, ümumi, mühüm, zəruri və təkrarlanan, həmin hadisələrin inkişaf istiqamətini müəyyənləşdirən əlaqələri ifadə edən kateqoriya. Mövcud əlaqələrin **Q.** olması üçün onlar göstərilən növ əlamətlərin hamısına malik olmalıdır. Bu əlamətlər yalnız vəhdət halında **Q.**-un zəruri və kafi əsasını təşkil edir. "**Q.**" terminini ilk dəfə Dekart işlətmişdir. Aləmin yaranması və inkişafı əsasında müəyyən bir ümumi qanunauyğunluğun durması ideyasına qədim dövr fəlsəfəsində də təsadüf edilir. Qədim Cin fəlsəfəsindəki dao, qədim hind fəlsəfəsindəki dxarma və rita, qədim yunan fəlsəfəsindəki loqos, ananks, nus anlayışları aləmin ümumi inkişaf yolunu, istiqamətini, meylini, səbəbiyyətini, zəruriliyini göstərən, hətta allahların və insanların fəaliyyət və davranışını da tənzimləyən **Q.**-lar mənasında başa düşülürdü.

Aristotelin irəli sürdüyü son səbəb, yaxud məqsədli səbəb (entelexiya) anlayışı da mahiyyətcə **Q.** mənasında səslənir. Stoiklərin fəal başlanğıc kimi materiyaya, substansiyaya daxil etdikləri allah da, materiya da **Q.** rolu kəsb edən tale zərurətinə tabedir. Yeni dövr təbiətşünaslığı və fəlsəfəsi **Q.** anlayışını mexanisizm baxımından işləyib hazırlamışdır. Bu dövrün alimləri müxtəlif adlarla olsa da (Hipoteza - Kopernik və Kepler; aksioma - təbiətin əsas qanunları, teorem-törəmə qanunları - Qaliley; forma - F.Bekon), məhz təbiət **Q.**-larından bəhs etmişlər.

Fransız materialistləri (Holbax, Helvetsi və b.) təbiət **Q.**-larının obyektivliyini, ümumi, zəruri, mühüm və daxili xarakterini göstərmişlər. Lakin onlar aləmin bütün rəngarəngiliyini, o cümlədən insan cəmiyyətini mexanika **Q.**-ları ilə izah etmişlər.

Hegələ görə, **Q.**-lar mütləq ideyanın əsasında duran sabit, mühüm əlaqələrdir, mahiyyətlər arasındakı əlaqədir. **Q.** hadisələrin bilavasitə özündədir. **Q.**-lar səltənəti hadisənin sabit inikasıdır.

Q. və qanunauyğunluq kateqoriyaları arasında birmənalı nisbət yoxdur. Qanunauyğunluğun ölçüsü kimi çıxış edən **Q.** yalnız xüsusi halda onunla eyni məna kəsb edir. **Q.**-lar müxtəlif əlamətlərinə görə təbiət, cəmiyyət və təfəkkür **Q.**-larına; spesifik, ümumi və ən ümumi q.-lara emprik və nəzəri **Q.**-lara bölünür.

Ziddiyyətlərin xarakterinə və təzahür xüsusiyyətlərinə görə **Q.**-ları mütləq və meyl **Q.**-larına da ayırmaq olar. Lakin **Q.**, ifadə etdiyi hadisələri təzahür şəraitindən ayıraraq "xalis" şəkildə götürür, bu mə`nada biz bütün **Q.**-lara idealizə edilmiş **Q.**-lar kimi baxmalıyıq. idrakın mühüm pillələri olan **Q.** abs-

traksiyası təbiət də daha dərin, daha düzgün, daha tam inikas edir.

Xarici aləm Q.-ları ilə elm Q.-ları mahiyyətcə bir, təzahür və ifadə formalarına görə fərqlidir. Bunları eyniləşdirmək olmaz. Aləm Q.-larında hadisə ilə Q. birgə olduqları halda, elm Q.-larında hadisədəki yalnız mühüm cəhətlər mərkəzləşmişdir. Məhz ona görə birliyin inkişafı prosesində elm Q.-ları dəyişilərək getdikcə təkmilləşir və deməli, aləm Q.-larına yaxınlaşır.

QANUN QÜVVƏLİ AKT - qanunvericilik təlimatlarını konkretləşdirmək, yaxud qanun əsasında nəşr olunan müxtəlif növlü hüquq aktlarından biri.

Əgər hüquqi aktlara həm fəaliyyət üçün rəhbərlik aktı, həm də sənəd kimi baxılırsa, **Q.q.a.**-ı yalnız sonuncu mənada normativ hüquqi sənəd kimi başa düşmək qəbul olmuşdur. Həm də bütün **Q.q.a.**-ları dövlət idarəetmə orqanları aktları ilə eyniləşdirmək düzgün deyildir. Birincisi, dövlətin nəşr etməyə müvafiq icazə verdiyi qeyri-dövlət təşkilatlarından (məs., həmkarlar ittifaqları) da **Q.q.a.**-ların daxil olması təcrübəsi məlumdur. İkincisi, **Q.q.a.**-lar, həmçinin dövlət hakimiyyətinin ali nümayəndəli orqanları tərəfindən də nəşr edilə bilər. üçüncüsü, qanunların normativ şərhi aktları səlahiyyətləri çərçivəsində nəşr olunmuş bütün aktlar **Q.q.a.**-lara aiddir.

Aktın **Q.q.a.**-lara mənsubiyyətini onun subyektləri və hətta xarakteri (idarə, şərh və i.a.) müəyyən etmir. Burada başlıca xüsusiyyət normativ aktlar iyerarxiyasının, onların hüquqi qüvvə baxımından tabeçiliyinin əks olunmasındadır. Qanunun üstünlüyü və bütün digər aktların qanuni qüvvəli olması müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmişdir. Qanuni və qanun qüvvəli aktlar bölgüsü təkcə formal tərəfi deyil həm də məzmunun xüsusiyyətlərini əks etdirir. **Q.q.a.**-lar ictimai həyatın başlıca, ən mühüm məsələlərini tənzimləyə bilər.

Normativ aktlar sistemində qanunun üstünlüyü dövlət hakimiyyətinin ali nümayəndəli orqanlarının üstünlüyünü əks etdirir. Qanunun digər bütün normativ aktlara münasibətdə ali hüquqi qüvvəyə malik olması da buradan irəli gəlir.

Müxtəlif dövlətlərdə, o cümlədən Azərbaycanda, Rusiyada ayrı-ayrı dövrlərdə nazirləşdirmə və nümayəndəli qanunvericilik adlanan proseslər müşahidə edilmişdir ki, bu zaman hökumət (icraçı-sərəncamverici) orqanları qanunvericilər səviyyəsinə qaldırılmış və hətta onları əvəz etmişlər. Bu şəraitdə **Q.q.a.**-lar adi hallarda onlara xas olan rolu oynamırdılar - onlar, öz əhəmiyyətinə görə yalnız nizama salına bilən ictimai münasibətlərin ilkin tənzimləyicisi olurdular. Keçmiş SSRİ-də qanuni qüvvəli aktların sayı yüz minə çatırdı. Halbuki SSRİ-nin 1936-cı il Konstitusiyası fəaliyyətə başladıqdan sonra, əgər plan və büdcənin təsdiqi, həmçinin də Ali Sovetin Rəyasət heyəti fərmanlarının təsdiq olunması haqqında qanunlar hesaba alınmazsa, yüzə qədər qanun qəbul edilmişdir.

Hazırda Azərbaycanda yeni qanunların qəbul edilməsi ilə əlaqədar bir çox **Q.q.a.** öz qüvvəsini itirir, digərləri isə əsaslı surətdə yeniləşdirilir. **Q.q.a.**-a tənqidi münasibətə baxmayaraq, şəxsiyyətə pərəstiş və durğunluq dövrlərində, ictimai münasibətlərin normativ-hüquqi tənzimlənməsinin ümumi sistemində **Q.q.a.**-ların müsbət rolunu görməmək olmaz.

Q.q.a.-lar qanunların icrasının təmin edilməsinin əvəzsiz vasitəsidir. Qanunvericilik normalarının gerçəkləşdirilməsi mexanizmində bütün hüquqrealla şdırma fəaliyyətinin hüquqi əsası kimi prosessual qanunlarla yanaşı, **Q.q.a.**-lar da başlıca əhəmiyyət kəsb edir.

Q.q.a.-lar onları nəşr edən orqanların vəziyyətindən, səlahiyyətindən, həmçinin aktların xarakter və təyinatından asılı olaraq bir neçə növə ayrılır. **Q.q.a.**-lar arasında aparıcı yer hökumət qərarlarına məxsusdur. Nazirlər əmrlər və təlimatlar nəşr edirlər. Yerli hakimiyyət və idarə orqanları qərarlar və sərəncamlar qəbul edirlər (sonuncular daha çox normativdən kənara çıxır).

Ayrı-ayrı idarələrin **Q.q.a.**-ları, bir qayda olaraq, idarədaxili münasibətləri tənzimləyir. Bəzi baş idarələrə xarici fəaliyyət üçün də aktlar nəşr etmək hüququ verilmişdir.

Yerli **Q.q.a.**-lar həmin ərazidə yaşayan bütün şəxslərə şamil edilir. Lokal **Q.q.a.**-lar yalnız müvafiq müəssisənin, təşkilatın üzvlərinə aiddir. ictimai təşkilatların, əmək kollektivlərinin, vətəndaşların yığıncaqlarının **Q.q.a.**-ları həm yerli, həm də lokal əhəmiyyətli ola bilir.

Funksional roluna görə icraçı - sərəncamverici **Q.q.a.**-lar fərqləndirilir. Onlar həcmcə də genişdir. Hüququ konkretləşdirən **Q.q.a.**-ları və qanunları şərh edən normativ aktları da diqqətlə nəzərdən keçirməyə ehtiyac vardır. Sonuncular ali məhkəmə instansiyalarından da daxil ola bilər.

Q.q.a.-lar arasında prezident fərmanları xüsusi yer tutur. Adi vaxtlarda bu fərmanlar icra xarakteri daşıyır və qanun səviyyəsinə qaldırıla bilməz, yəni başlıca ilkin normaları əhatə edə bilməz, qanunu dəyişə bilməz, ondan kənara çıxa bilməz və i.a. Fövqəl'adə hallarda, ümumiyyətlə, bütün **Q.q.a.**-lar kimi prezident fərmanlarının da rolu artır. Lakin bu halda da **Q.q.a.**-lar fövqəladə qanunların müxtəlif növləri üçün ayrılmış hüdudlarda və fövqəladə vəziyyət haqqında ümumi qanunla ictimai münasibətləri tənzimləyir.

QANUNİLƏŞDİRMƏ - hər hansı bir hərəkətin, fəaliyyət göstərən şəxsin, hadisə və ya fəlakətin ictimaiyyət tərəfindən qəbul edilməsi; siyasətdə - bunun qəbulu, izahı və ona haqq qazandırılması. Siyasi hadisənin qanuniliyi onun hüquqi baxımdan rəsmiləşdirilmiş qanuniliyi demək deyildir, buna görə də o, leqqallaşdırma ilə, qanunilik isə leqallıqla qarışdırılmamalıdır. **Q.**-nin hüquqi funksiyaları yoxdur və hüquqi proses deyildir.

Q. siyasət və hakimiyyəti təsdiqləyir, siyasi qərarları, siyasi strukturların yaradılmasını, onların dəyişdirilməsini, təzələnməsini və s. izah edir və bunlara haqq qazandırır. **Q.** məcburiyyətsiz tabeliyi, razılığı və siyasi iştirakı təmin etməlidir, bu mümkün olmadıqda isə məcburiyyətə, hakimiyyətin əlində olan qüvvədən və digər vasitələrdən istifadə edilməsinə haqq qazandırmamalıdır. **Q.** inam yaratmalıdır ki, qanuniləşdirilmiş hakimiyyət və siyasət nüfuzlu və səmərəlidir.

Siyasətin **Q.**-sı labüddür və

onun bütün cəhətlərinə, amillərinə (hakimiyyət, məqsəd, vasitələr, üsullar, formalar, hərəkətlər, qərarlar, sənədlər və s.) şamil olunur. Şübhəsiz ki, bütün konkret siyasi aktlar, xüsusən qanunlar, əmrlər, təlimatlar, sərəncamlar və s. üçün qanuniləşdirici dəlillər irəli sürülmür. Müvafiq hakimiyyət buna siyasətin izahının ümumi kontekstində, onun düzgünlüyünü və cəlbediciliyini təblir etmək yolu ilə nail olur. Yalnız özünə son dərəcə arxayın olan hakimiyyət, adətən avtoritar, yaxud totalitar tipli müstəbid hakimiyyət və ya süquta düçar olan, müvəqqəti və zəif hakimiyyət çox məhdud həddə **Q.**-yə etinasız qala bilər. Demokratik rejimdə fəaliyyət göstərən hakimiyyət isə, əksinə, öz hərəkətlərinin qanuniləşdirilməsinə son dərəcə diqqətlə yanaşır. Bu isə onun xoş məramından deyil, xalqın razılığı ilə hökmranlıq etməyin siyasi və sosial zəruriliyindən irəli gəlir.

Q.-nin müasir qaydası hər hansı bir ideal, yaxud konkret sahəyə - mütləq və ali dəyərlərə (ədalətə, məqsəduyğunluğa, həqiqiliyə və s.), tarixin umumi qanunlarına, hiss və duyğulara, cəmiyyətin, yaxud onun hər hansı bir hissəsinin əhval-ruhiyyəsinə və təsəvvürlərinə, xalqın həqiqi və ya uydurma iradəsinə, siyasətin əməli faydalılığına (ictimai, iqtisadi, ekoloji və s.) müraciət etməkdən ibarətdir.

Siyasət tarixində ideal və praktik, əməli dəlillərlə yanaşı, rasional və irrasional dəlillərə də müraciət edilib və indi də edilir. Bütün bunlara əsasən M.Veber **Q.**-nin təsnifatının üç növünü təklif edir: 1) ənənəvi, yəni adət və ənənələrin, mədəniyyətin yazılmamış qanunlarına, dövlətin yaranmasında əvvəlki münasibətlərə əsaslanan **Q.**; 2) xarizmatik, hissi-iradi **Q.** (bax: **XARİZMA**); 3) dövlətdə qəbul olunmuş qayda-qanunlara, ağıllı mülahizələrə əsaslanan rasional **Q.** Hakimiyyətin tipologiyasını da Veber bu təsnifatla bağlayır: rasionallıra əsaslanan dövlət hakimyyəti və ənənəvi, xarakterik qanuniləşdirici başlanğıca əsaslanan şəxsi hakimiyyət. Veberin irəli sürdüyü tipologiya geniş yayılmışdır, lakin burada qanuniləşdirici müraciətlərin məzmunu gös-

tərilir. Bunları isə öz növbəsində rasional və irrasional tiplərə ayırmaq olar.

Birinci tipə siyasi əsaslandırma - bu və ya digər siyasətin təhlükəliliyi, yaxud təhlükəsizliyi, onun məqsədəuyğunluğu, zəruriliyi, labüdlüyü, nicatvericiliyi və s. aiddir. Məs., siyasi münasibətlərin iştirakçılarını dostlara və düşmənlərə ayırmaq (K.Şmitt) bu qəbildən güclü dəlildir. Totalitar rejimlər məcburiyyətin, zorakılığın, repressiyaların zəruriliyini və səmərəlikbyini sübut etmək üçün belə dəlilə tez-tez əl atırdılar. Tarixə (ölkənin tarixi vəzifələrinə, məs., sülh və demokratiyanın dayağı olmaq), xalqın iradəsinə, zamanın hökmünə, dövrün qəti tələbinə və s., milli ənənələrə və ideallara müraciət etmək siyasi dəlillərə yaxındır. iqtisadi, texniki, elmi, yaradıcı praktikaya istehsalın tələblərinə, iqtisadi problemlərin (məsələn, ərzaq problemi-nin) həllinə, elmi texniki tərəqqinin, mədəniyyətin və s. ehtiyaclarına müraciət etmək, habelə biliyə, elmə, yəni həqiqətə nail olmağa müraciət etmək (baxmayaraq ki, biliyə,xüsusən də həqiqətə iddia etmək qanuniləşdirmə prosesinə irrasional əsaslandırma gətirir) də bu qrupdan olan dəlillərə aiddir. Bu halda rasionallıq və irrasionallığın, biliklərin və nadanlığın, zəka və xürafatın sərhədində "qanun tələb edir", "dövlət sizdən gözləyir" və s. tipli məntiqi baxımdan zahirən ziddiyyətsiz sübut kimi görünən hər şey təbii və sübut edilmiş olur.

Biliklə əsaslandırma (elmi həqiqətə, elmi metodlara, siyasi fəaliyyət bacarığına yiyələnmək, peşəkarlıq və s.) da bu qəbildəndir. Biliyə əsaslanan hakimiyyət və siyasət etimad doğurur, nüfuzludur ("Rəhbər bilir, o, haqlıdır").

Hüquqi dəlillər qanuniləşdirmənin xüsusi tipini yaradır. Onun səmərəliliyi heç də göz qabağında olmur. Qanuna, yəni hakimiyyət, yaxud siyasətin qanuniliyinə müraciət etmək, onların qanuni olması (hakimiyyətin konstitusiyaya əsasən təşkil edildiyinin göstərilməsi və s. hüquqi dəlillər) özlüyündə cəmiyyətin və ya onun bir hissəsinin gözündə qanuni ola bilməz. Q.-nin başqa

tiplərində olduğu kimi, formal rasionallığına baxmayaraq, hüquqi Q.-də də müəyən irrasional cəhət var. Qanun cəmiyyətin qəbul etmədiyi, lakin itaət etməyə məcbur olduğu şəxsin hakimiyyətini leqallaşdıra bilər (məs., taxt-tacın irsiliyi haqqında qanun cəmiyyətin istəmədiyi monarxı hakimyyətə gətirə bilər); hakimiyyətin verdiyi akt (fərman, dekret, əmr və s.) ölkənin bəyənmədiyi, lakin dözməyə məcbur olduğu siyasi sanksiyaları, hüquqi, yaxud iqtisadi tədbirləri (məs., rərbətlə qarşılanmayan maliyyə islahatlarını) qanuniləşdirə bilər. Beləliklə, leqallaşdırma kimi, Q. də müəyyən şəraitdə formal və ya qeyri-həqiqi ola bilər. Hər halda rasional əsaslandırılma dərəcəsindən asılı olmayaraq, cəmiyyət hansısa siyasi nüfuzun qanuniliyinə münasibətdə müxtəlif mövqelərə parçalana bilər (bax: **SİYASİ UTOPİYA**). Q.-nin irrasional başlanğıcı hələ onun yalan və uydurma olması, siyasi münasibətlərin məntiqinin pozulması, siyasi təsisatlar, dövlət və cəmiyyət arasında qarşılıqlı əlaqələrin qırılması demək deyildir. irrasional dəlil şəxsi rəylərin tərəddüdü, siyasi hadisələrə subyektiv, hisslərə qapılmaqla qiymət verilməsi, bu hadisələrin fərdiləşdirilməsi (siyasi meyllərin və konsepsiyaların bunların müəllifi ilə, siyasi liderlə eyniləşdirilməsi), ictimai rəyin gözlənilmədən dəyişməsi imkanını daha çox nəzərdə tutur. Hisslərə qapılan, emosional, qeyri-şüuri Q. xüsusilə inandırıcı və təsirli ola bilər. Bu, necə deyərlər, xarizmatik Q.- parlaq, cəlbedici ideyaya, ədalətin, xalqın istək və arzularının təcəssümü olan liderin şəxsiyyətinə uymaqdır.

Siyasətin etik baxımdan əsaslandırılmasını da irrasional cəhətləri mümkün sayan Q.-nin bu tipinə aid etmək olar. Etik dəlil siyasətin ictimai yönümünü, onun mülki, mədəni dəyərini, iqtisadi baxımdan məqsədəuyğunluğunu və s. əsaslandırır. Belə dəlil göstərməlidir ki, siyasətdə ədalət, bərabərlik, insanlıq prinsipləri təcəssüm etmişdir, hakimiyyət qanunzuluq, qayda-qanun, ümumi rifah və s. etikasından ilham alır. əxlaqi Q.də bilavasitə etik Q.-yə qovuşur. Siyasətin əxlaqiliyi onun son dərəcə güclü, eyni

zamanda çox mübahisəli dəlilidir. Çünki siyasətdə nəyin əxlaqi olduğunu həll etmək həmişə asan olmur. Ona görə də siyasətin ideyalarını, məqsədlərini, həyata keçirilməsinin vasitə və metodlarını əsaslandırmaq üçün əlavə, özü də mübahisəli dəlillər tələb olunur. Yəni, hər bir konkret halda siyasi etikanın özünün əxlaqiliyi məsələsi açıq qalır (bax; **ƏXLAQ VƏ SİYASƏT).**

İdeoloji **Q.** də mürəkkəb və ziddiyyətlidir. Burada siyasətin qanuniliyini ("tarixi haqlılıq") sübut edən etik, siyasi, hüquqi dəlillər, xalqın, bu və ya başqa sinfin iradəsinə və mənafeyinə istinadlar cəmləşmişdir. Belə **Q.**-də rasional və irrasional dəlillər zulraşır: rasional dəlillərdən ("sosial baxımdan yekcins cəmiyyət quruculuğu prosesi sinifsiz cəmiyyətə doğru aparır") ən əsassız nəticələr (ümumxalq dövləti haqqında) çıxarıla bilər; irrasionallıq (məs., totalitar dövlətlərdə qarşılıqlı şübhə mühiti, qorxunun mütləqləşdirilməsi) repressiyaların və s. qanuniləşdirilməsində tamamilə rassional şəkilə salına bilər.

Hakimiyyət vasitəsi olan **Q.**, həm də onun ictimai nəzarət aləti və cəmiyyətin siyasi təşkilinin ən təsirli vasitələrindən biridir. Dövlətin, siyasətin, onun bütün istiqamətlərinin tam, bütöv **Q.**-si ictimai həmrəyliyin əsası, ölkənin siyasi sisteminin uğurla fəaliyyət göstərməsinin rəhnidir.

Q. özünə əks olan proseslə - etimadın itirilməsi, siyasət və hakimiyyətin ictimai inamdan məhrum olması prosesi ilə birləşir. Siyasətin ideallarından, konsepsiyalarından, onun məqsəd və metodlarından, siyasəti təmsil edən adamlardan məyusluq cəmiyyətin siyasi həyatının cəhətlərindən biri, **Q.**-nin özü kimi, siyasətin inkişafının hərəkətverici qüvvəsidir. Siyasətin **Q.**-sinin qarşısını almaq cəhdləri əbəsdir. Siyasətçi özünün siyasi və sosial əhatəsinin tələbatı ilə hesablaşmağı bacarırsa, **Q.** bərpa olunur. **Q.**-nin və bunun əksinin ikili demokratik mexanizmi həqiqətən səmərəli, dinamik siyasi prosesi təmin edir.

QARAGÜRUHÇULAR - Rusiyada antisemitizm ideologiyasını təblir edən millətçi

təşkilatların ümumiləşdirilmiş adı.

QARŞIDURMA, konfrontasiya (fr. confrontation-qarşıdurma)-ayrı-ayrı ölkələr, ayrı-ayrı sosial quruluşlu dövlətlər, həmçinin müxtəlif ideya-siyasi prinsipləri arasında qarşıdurmanı bildirmək üçün beynəlxalq leksikonda işlədilən termin."**Q".** termini "soyuq \müharibə" tərəfdarları və imperialist qüvvələr "güc mövqeyindən siyasət" yeritdikləri illərdə meydana gəlmişdir. Dövlətlər arasındakı münasibətlərdə dinc yanaşı yaşamaq prinsiplərinin hakim mövqe tutduğu, dünya sosializmi sisteminin tənəzzülə uğradığı, sülhsevər qüvvələrin sıralarının artdığı müasir şəraitdə **"Q"** termini əvvəlki aktuallığını itirərək yalnız regional və ölkədaxili miqyaslı münaqişələri bildirmək mənasında işlədilir.

QEYRİ-FORMAL BİRLİKLƏR - rəsmi statusu olmayan (yaxud onu əldə etməkdən şüurlu boyun qaçıran), geniş dairəli məqsədlər və mənafelər əsasında fəaliyyət göstərən ictimai birliklər.

"QƏHRƏMAN" VƏ "KÜTLƏ" NƏZƏRİYYƏSİ - sosioloji nüqteyi-nəzərdən liderin (siyasi) və qrupun (birliyin ən yüksək dərəcələri), tarixdə şəxsiyyətin və xalq kütlələrinin (sosial) və nəhayət, politologiya və siyasi psixologiya baxımından "qəhrəman"ın və "kütlə"nin münasibətlərini əks etdirən baxışlar sistemi. Tarixi prosesdə xalq kütlələrinin rolunun artması haqqında klassik marksizm ruhunda qabaqcadan söylənənlərin ziddi olaraq milyonların taleyində əksini tapmış müharibələrdən, inqilablardan, böhranlardan doğmuş fəlakətli sosial sarsıntılar nəticəsində XX əsrdə onun öyrənilməsinin aktuallığı kəskin şəkildə artmışdır. Təbiidir ki, bunlar tarixi xadimlərin ("qəhrəmanların") adı ilə bağlandığından bir sıra sualların ortaya çıxmasına səbəb olmuşdur: liderlər ("qəhrəmanlar") nə dərəcədə tarixin hərəkəti istiqamətinə təsir göstərməyə qadirdirlərə Siyasi xəttin dönüşü rəhbərdən ("qəhərmandan"), onun ən yaxın ardıcıllarından (strukturca mütəşəkkil olub, əxlaqca səfərbər edilmişlərdən), kütləvi əhval-ruhiyyə və fəaliyyətlərin vəziyyətindən hansı öl-

çüdə asılıdırə Buna görə də, baş vermiş hadisələr üçün məsuliyyəti necə bölüşdürməli: təqsiri hər şeyi bilən, hər işə qadir "qəhrəmanlarınmı", yoxsa "biz heç nə bilmirik" deyən "kütlə"nin, yaxud hər hansı vasitəçi (bir çox halda müəyyənedici) partiya tipli sosial-siyasi strukturların, cəza aparatlarının və i.a. üstünə yıxmalgə! Tarixin hərəkətverici qüvvəsi kimi "qəhrəmanlar" nəzəriyyəsi XIX əsrin 40-cı və XX əsrin 40-cı illəri arasındakı dövrdə daha aydın üzə çıxdı. Bu, Almaniyada M.Ştirnerin, ıngiltərədə T.Karleylin, bir qədər sonra isə Rusiyada P.L.Lavrovun və N.K. Mixaylovskinin adları ili bağlıdır."Qəhrəman"-Rusiyada XX yüzilliyin əvvəlində gümüş əsrinin mərkəzi simasıdır. Qəhrəmanlıq cəhətləri həm lütün (M.Qorki), həm antik xadimlərin (Merejkovski), həm də xüsusilə gələcək "fövqəlinsanın" (simvolistlərin əksəriyyəti və A.V.Lunaçarski) adlarına yazılırdı. Lakin elə bu dövrdə də "qəhrəmanın" və "kütlənin" yaxınlaşması, qarşılıqlı bənzərləşdirilməsi baş verirdi. Dünya müharibəsi qəhrəmanlara pərəstiş etiqadını sarsıtdı, 30-cu illərin "itirilmiş nəsli" bu pərəstişi və bütövlükdə ona xidmət edən nəzəriyyələri rədd etdi.40-cı illərə doğru totalitarizim praktikasının möhkəmlənməsi idarə olunanlar arasında məsafəni sanki heçə endirdi, ən müxtəlif variantlarda "kütlələrin üsyanı" (Orteqa i Qasset) baş verdi, totalitar səbəblər həı vasitə ilə "qəhrəman və "kütlələri" bərabərləşdirməyə, onları "rəhbər" və "kütlələr" kimi qələmə verməyə səy göstərir. hətta birincini ikincinin ardıcılı sayırdılar. Totalitarizmin hücuma keçməsi ilə "rəhbər və kütlə" nəzəriyyəsi "Q.və k." nəzəriyyəsini əvəz etdi. Bu nəzəriyyə şərti olaraq etnokratik totalitarizm adlandırıla bilən müxtəlif növlü milli hərakatlar fenomenini izah etmək üçün xeyli faydalı idi. Politologiyada "kütlələr" nəzəriyyəsi onun davranışının irrasional əsasları haqqında zəmindən yaranırdı. Onun təşəkkülü gedişində nəzəriyyəçilərin bir hissəsi belə hesab edirdi ki, o, həmişə mövcud olmuş və prinsipcə sosial həyatdan kənar edilə bilməyən, irrasionallığın və dəyişkənliyin nüfuz

etdiyi hadisədir, digərləri isə onu strukturlaşdırmağı, aksiyalarını şüurlu xarakter istiqamətində səylər kimi əlaqələndirməyi mümkün sayırdı. Buna müvafiq olaraq onlar"qəhrəmanlara"da müxtəlif baxımdan yanaşırdılar: birincilər üçün qəhrəman "kütlələrin mentalığının" və onun ən pis emosional keyfiyyətlərinin ifadəçisi, ikincilər üçün isə - əməli-siyasi fəaliyyətin təşkilatçısı və ilhamçısı idi. Politoloq Briderin göstərdiyi kimi,"kütlələr" fenomeninin şərhində birinci xəttin ardıcıl tərəfdarı və həyata keçirəni Q.Lebon, ikincininki isə - V.İ.Lenin olmuşdur. Lebonun klasik "Kütlə psixologiyası" (1895) əsərində qeyd edilir ki, insanın davranışı anadangəlmə (əcdadlardan miras qalmış) və əldə olunmuş (şəxsi təcrübə nəticəsində) təsəvvürlərlə müəyyən olunur. Kütlənin içərisinə düşərək, daha dürrusu onu yaradaraq insan "irqi ruh" formasında instinktə tabe olur ki, bu da siyasi xadimlər və təşkilatlara nisbətən ictimai mənafeləri daha dürüst ifadə edir və instiktə uyğun fəaliyyət göstərir. Lebona görə, izdihama, şəxsi iştirak hissi oyadan anonimlik, eyni zamanda məsuliyyətsizlik, psixi mexanizm kimi onun iştirakçılarını birləşdirən yoluxma(sirayətlənmə), davranışı istiqamətləndirən mexanizm kimi tə'sirlənmə qabiliyyəti xasdır. Belə hesab etməklə, Lebon izdihamın imkanlarını bədbincəsinə qiymətləndirsə də, onun siyasi partiyalara, dövlət strukturlarına və i.a. nisbətən kütlələrin mənafeyini daha dolğun ifadə etdiyini göstərirdi. O, izdihama üz verməməyi tövsiyə edir, inqilabları lənətləyir, bunları izdihamın yaradıcılığı sayır və kütləvi isteriya ilə müqayisə edirdi. Eyni zamanda Lebon, sənaye inqilabı, şəhərlərin artması, kütləvi informasiya vasitələrinin təsirinin genişlənməsi nəticəsində yaranan"sürünən", izdihamın da təhlükəli olduğunu göstərirdi. O, sonralar "kütləvi cəmiyyət" adını almış durumu əvvəlcədən görmüşdü. Məhz belə izdihama "qəhrəman" (lider) lazımdır ki, həm anonimliyi gözləsin, həm tanınsın, həm hövsələsiz olsun və özünün "daşdan keçən" məntiqi ilə hörmət qazansın. Lebona

görə, prinsipcə kütlə (izdiham) "maariflənə bilməz", sosializmin sosial həyatı səmərəli tənzimləmək ümidlərini isə Lebon oğurluq və cinayətkar davranışla müqayisə edirdi. Bir çox məsələdə Lebonun ideyalarına söykənən müasir nəzəriyyələr kütlənin (izdihamın) dörd tipini fərqləndirirlər: okkazional, yəni təsadüfi səbəbdən toplaşanlar; konvensional, yəni aydın olan səbəbdən, "ümumi razılıqla" yığışanlar; ekspressiv - ilk növbədə hisslərlə (qəzəb, fərəh və i.a.)hər hansı hadisəyə və onun səbəblərinə öz münasibətini bildirmək üçün toplaşanlar; fəaliyyətlə (təcavüz, yaxud vahimə nəticəsində) bağlı izdiham. Lenin sinfi, əslində isə kütləvi şüuru inqilabiləşdirmək məsələsini ilk növbədə "Nə etməli?" əsərində vermişdi. Bu tədqiqatın prinsipial tezisi kütləvi şüuru kor-təbiilik səviyyəsindən şüurluluq səviyyəsinə keçirməyin mümkünlüyüdür. Bu ideya müasir politologiya üçün də çox önəmlidir. Burada nikbin əhval-ruhiyyə özünü onda göstərir ki, kütlələrin şüurunun sosial problemlərini görmə üfüqləri genişləndikcə və stereotiplər qəbul etmədikcə aydınlaşır. V.Pareto öz nəzəriyyəsində kütlənin şüuru ilə manipulyasiya etmək hallarına yol verilməsini qeyd edir, lakin bu prosesi qəhrəmanlarla yox, daha çox mütəşəkkil elita ilə əlaqələndirmişdir.

Q.Tardın "ictimai fikir və kütlə" adlı klassik əsərində fərdlərlə kütlə arasında əlaqələrin xarakteri göstərilir (bu zəmində o kütlə ilə izdihamı qarışdırmamağa çağırmışdır.) Tard təkcə izdihamın davranışında deyil, həm də bütövlükdə sosial fəaliyyətdə təqlidetmə mexanizminin mövcudluğunu göstərmişdir. Bu mexanizmi konstruktiv tənqid edən K.V. Plexanov ona zidd çıxan bir sıra sosial-psixoloji və siyasi faktlara əsaslanmışdır. Bunu, imtiyazları mövcud quruluş tərəfindən təmin edilən hakim sinfin bir hissəsinin həmin quruluşa müxalifətdə olmasında, yaxud ingiltərədə 1688-ci il "şanlı" inqilabından sonra dindar puritanların hakim mövqe tutduğu cəmiyyətdə dvoryanların ateizmində və s. misallarda görmək olar. Plexanov buna görə də təqlidlər mexanizmindən deyil.

ziddiyyətlər mexanizmindən bəhs etmişdir. Freyd və Yunq kütlənin formalaşmasında **KOLLEKTİV ŞÜURSUZLUQ** mexanizmlərinin əhəmiyyətini qeyd edərək, həmin fenomenin tədqiqində bütöv bir istiqamət yaratmış və göstərmişlər ki, kütlə və qəhrəman münasibətləri, əsasən hipnoz xarakteri daşıyır. Orteqa-i-Qasetin "Kütlələrin üsyanı" əsəri "kütlə və qəhrəmanlar" mövzusunu tamamlayan klassik əsərlərdən biridir. Onun başlıca müddəaları bunlardır: "1) kütlələr indi əvvəllər müstəsna seçilmiş azlıqlara verilən ictimai funksiyaları eynilə yerinə yetirirlər, 2) eyni zamanda kütlələr həmin azlıqlara itaət etməkdən boyun qaçırmışlar: onlara tabe olmur, arxalarınca getmir, ehtiram göstərmir, əksinə, onları kənar edir və sıxışdırırlar". Nəticədə onlar tələblərdən və qiyamlardan israrlara və "kütlələrin permanent inqilabı" məqamına gəlib çıxmışlar. "Irqin ruhu" kütlələrin iradəsini ifadə etməyə imkan verir, "qəhrəman" isə bu ruhu vaxtında tuta bilən adam olur. Müəllif bildirir ki, belə məqamın realaşması nəticəsində "Avropa əxlaqsız və qəhrəmanlarsız qala bilər ": narazılıq deyil, özündən razılıq üstün gəlməyə başlayar. Kütlənin sonrakı politoloji, siyasi-psixoloji, sosial-psixoloji və psixoanalitik tədqiqatçıları, ya onun ayrı-ayrı nüqsanlı keyfiyyətlərini daha çox cari siyasi praktikadan çıxış edərək yenidən şərh etməyə çalışmış, ya kütlənin öz fenomenlərinin (40-cı illər) təhlilinə diqqət yetirməmiş, ya da "kütlələrin psixologiyasını" mənşəyinə və fəaliyyətinə görə getorogen (tərkibcə yekcins olmayan) hal kimi başa düşməyə çalışmışlar. Kütlənin ən son, həm də müəyyən qədər özünə zidd tərifi D.Kismenin "Tənha kütlə" əsərində verilmişdir. Burada mexaniki hərəkət edən və bunun nəticəsində izdihamdan çox kütləyə bənzəyən kənardan yönümlənən fərd" təhlil edilir; onun üzərində, hətta tək olduqda belə tənhalıqda qalmağa imkan verməyən kütləvi informasiya vasitələri hakimlik edir. Bu əsərdən sonra "kütlə" ("izdiham") anlayışı qəti olaraq "kütlələr" anlayışına qovuşur (bu heç də o demək deyildir ki, müxtəlif sosial, ilk növbədə etnokratik xarakterli

hərəkatların təhlilində birinciyə əsaslanmaq olmaz; çünki bu anlayış həmin hərəkatların yetişmədiyini, "qeyri-sivil" xarakter daşıdığını, sosial və siyasi vasitələrin geniş palitrasının inkar edildiyini dəqiq göstərir). "Kütlə" və "qəhrəman" anlayışlarının evristik potensialı, hər halda Qərb politologiyası və siyasi psixologiyasında tükənmişdir. Təhlildə "qəhrəmanın" yerini "lider", "elita", "partiya", "kütlənin", "izdihamın" yerini - "kütlələr" "atomlaşmış cəmiyyət" və s. tutmuşdur. ızdiham, kütləvi isteriya, vahimə, yoluxma fenomenləri heç də itməmiş, sadəcə onlar "qəhrəmanlar" və "kütlələr" nəzəriyyələri ilə müqayisədə digər sistemdə qiymətləndirilirlər.

QƏRBCİLİK-rus ictimai fikrinin və siyasi ideologiyasının Qərbi Avropanın inkişaf yolu ilə getməyi üstün tutan, Avropa dəyərlərinə meyl edən ictimai-siyasi cərəyanı; onun tərəfdarları, "özünəməxsus nadir tarixi taleyə malik olan" Rusiyanın təəssübkeşləri hesab edilən, o cümlədən XIX əsrin ortalarında özlərini slavyaonofillər adlandıran və "mütləqiyyət, pravoslaviya, xalqçılıq" kimi mürtəce ideyalar irəli sürən , daha sonralar isə "zəminçilik" ideyasını müdafiə edənlərlə müxalifətdə idilər. Q.-in geniş konsepsiyası haqqında A.N.Pıpin, M.O.Gerşenzon, eyni zamanda G.V.Plexanov, N.A.Berdyayev öz mülahizələrini bildirmişlər.Q. məhdud mənada, XIX əsrin 40-50-ci illərində fəaliyyət göstərən ictimai bir cərəyan kimi,Qərbi Avropa liberalizimini Rusiyanın inkişafı üçün əsas hesab edirdi. Onun tərəfdarlarından V.Q.Belinskini, A.ı.Gertseni, T.N.Qranovskini, K.D.Kavelini, B.N.Cizerini (con iki müəllifin əsərlərində politologiyaya aid bir sıra mühüm məsələlərə də toxulunur) və b. göstərmək olar. Plexanovun fikrincə, Q., Rusiyanın ictimam ideyalar tarixində bir cərəyan kimi hələ XII-XIII əsrlərdə Kiyev Rus dövlətinin müqavimət göstərən hissəsi ilə müstəmləkələşdirilmiş hissələri arasında qarşıdurmanın yarandığı dövrdə meydana gəlmişdir. Bütünlükdə Q. hərakatının ümumi müddəası, Rusiyanın tarixi Qərbi Avropanın tarixinə oxşayırmgə-sualının cavabı belədir: Qərbi Avropa ölkələri ilə müqayisədə ictimai inkişafın gedişinin özünəməxsusluğu nə qədər çox olarsa,Şərq ölkələrinin inkişafının gedişi ilə müqayisədə onun özünəməxsusluğu bir o qədər az olur. Bu mühakimə "Rusiyanın taleyinin" keçmişi, bugünü və hətta gələcəyi haqqında çoxlu mübahisə olduğuna əsas verir.

Rusiyada Maarifçilik, Dekabristlər hərakatı, P.Y.Caadayevin "fəlsəfi məktubları" və s. Q. ideyaları ilə qidalanmışdır.

1940-cı illərin əvvələrində, artıq qərbçilərlə slavyanofillər arasındakı qarşıdurma müəyyən həddə çatır. Qərbçilərin ictimai ideyaları-Qərbdə olduğu kimi, konstitusiyalı monarxiya, yaxud parlament fikri 1839-cu ildə cərəyan kimi meydana gəlir. Slavyanofillər qərbçilərlə müxalifətdə olan bir axın kimi iki il sonra formalaşımışlar. Qərbçilərlə slavyanofillər arasındakı mübahisənin mərkəzində I Pyotr dururdu. Q.çərçivəsində dolğun, tam ideologiya hələ XIX əsrin birinci yarısında yox idi. Belə ki, onları birləşdirən əsas cəhət yalnız slavyanofillərin fikirlərini inkar etməkdən ibarət idi, onların özlərinə məxsus yaradıcı ictimai idealları hələ formalaşmamışdı.

Hər iki tərəfdə mühafizəkar liberal xarakterli, müxtəlif əhval-ruhiyyəli düşünənlər var idi. Qərbçilərin çoxu zadəgan-mülkədar nəslindən çıxmışdı; raznoçinlər və varlı tacir ailələrindən olanlar da var idi. Publisist və ədiblər, alimlər və yazıçılar (P.V.Annenkov, S.M. Solovyov, ı.S.Turgenyev, D.V.Qriqoroviz, N.A. Nekrasov, N.P.Oqaryov və b.) Q. ideyalarına tərəfdar çıxmış və onu təblir etmişlər. Disskussiyalarda ədəbi tənqid daha fəal iştirak edirdi. ıstər qərbçilər, istərsə də slavyanofillər Rusiyanın real həyatını, ictimai həqiqətlərini zəif nəzərə alırdılar. Hər iki tərəfin nümayəndələri, 1960-cı illərin əvvəllərindən, kəndlilərin azad edilməsi haqqında islahatın qəbul olunması ilə əlaqədar mübarizə meydanında çıxaraq öz yerlərini inqilabçı demokratlara və zəmiçilərə verirlər. Buna baxmayaraq, rus qərbçiləri sağ təmayüllü dövlət ideyasının (hətta konstitusiyalı monarxiya formasında olsa da) və vətəndaşların əsas azadlıqları haqqında sənədlərin hazırlan-

masında yaxından iştirak edirdilər. Lakin Q.Fedotov belə hesab edirdi ki, Q.-in yaranmasında yalnız ziyalılar daha fəal rol oynamalı və cavabdehlik daşımalıdırlar. Qərbçilərdən sonra Q.-in formaları bir-birindən əsaslı fərqlənir: burada həm inqilabçı-demokratlar və liberallar, həm marksizm tərəfdarları və pozitivistlər, həm anarxistlər və "xalq sosializminin" tərəfdarları, eyni zamanda xalqçıların əleyhdarları və başqa əqidəli adamlar vardı. Q. Rusiyanın ictimai ideyaları tarixində bir nəzəriyyə kimi çoxlu təhlilə, islahatlara mə`ruz qalmış, ciddi mübahisələrə və siyasi söz-söhbətə səbəb olmuşdur. Bununla belə, Rusiyanın XX əsr ictimai ideyaları tarixi bütünlükdə hələlik tədqiqata cəlb edilməmişdir. Bu ideyalar təkcə ümumi şəkildə deyil, heç olmasa əsas mübahisələrin smenovexçilərlə avroaziyalılar, urbanistlər və kəndçilik tərəfdarları arasında olan münasibətlərin əsas səbəblərinin şərhi özünü gözləyir. Q.-in əsas motivləri A.D. Saxarovun ideyalarında, xüsusən A.ı.Soljenitskinin fikirləri ilə müqayisəli şəkildə kifayət qədər aydınlaşdırılmışdır. "Rusiyanın taleyi" haqqında Qərb nümayəndələrinin və mühacirətdə olanların fikirlərinə gəldikdə isə, bunu demək olar ki, bunlar, getdikcə kütləvi xarakter almasına baxmayaraq, öz fikirlərində orijinallıqları ilə fərqlənmir, köhnə ideyaları yeni formada təkrar və şərh etməklə kifayətlənirlər. Ümumiyyətlə, Q. həm tarixi ideyalar, həm də siyasi axın baxımından özünün elmi təhlilini gözləyir. İndi yeni təfəkkür anlayışı çərçivəsində, ümumbəşəri dəyərlər baxımından, Rusiyanın "özünəməxsusluğu" haqqında müxtəlif mülahizələr və şərhlər, onun "xüsusi rolu" haqqında söhbətlər mövcud olduğu və getdikcə artdığı müasir günlərdə Q. haqqında, Şərqlə Qərb arasında əsaslı, konstruktiv, ən geniş istiqamətlərdə - siyasi, mədəni və əxlaqi dəyərlərin qarşılıqlı zənginləşməsi haqqında geniş bir dialoq aparmağın mə`nası vardır.

Fukuyamanın "Tarixin sonu" məqaləsinin geniş müzakirəsi Q.-in təhlilinə yeni təkan vermişdir. Məqalədə Qərbin siyasi standartlarının bütün Yer

kürəsində, ilk növbədə Avropa qitəsində qəbul olunmasının labüdlüyü fikri irəli sürülür. Müəllif yenidənqurmanı bu istiqamətdə atılmış ən əhəmiyyətli addım kimi izah edir. Politoloq Sakva "yenidənqurmanın başlıca mövzusu SSRİ-nin avropalaşdırılması məsələsi hesab oluna bilər" - fikrini irəli sürürdü. Bunun əlamətlərini o, "sivilizasiya", "beynəlxalq birlik", "ümumi vətəndaşlıq hüquqları" və s. kimi anlayışlarda görürdü. Lakin bununla yanaşı, ölkə daxilində Qərbə həddən artıq üstünlük verilməsi (Baltikyanı region), Qərbi Avropa və ABŞ demokratiyasına geniş meyl, hər halda Q.-yə rəğbəti artırırdı. Buradan da yalançı qərbçilərlə (rusofoblar) və yalançı slavyanofillər (rusofillər) arasında mübahisə üçün yeni imkanlar yaranırdı. "XXI əsrdə Rusiyanın bütünlüklə vesternizasiyaya (qərbləşməyə) məruz qalmasının" labüdlüyü fikri vulqarlaşdırılırdı. Sakvanın həmin mülahizələri Qərb politoloqlarının Rusiyanın perspektiv inkişafı haqqında tipik fikirləri ilə üst-üstə düşür. Burada Rusiya dövlətinin Avrasiya xarakteri nəzərə alınmır və müasir dünya siyasətində "şərq amili" lazımınca qiymətləndirilmir.

QİSASCILIQ - hərbi və ya siyasi məğlubiyyətə uğramış qüvvələrin itirilmiş mövqeləri siyasi, yaxud hərbi vəziyyəti son dərəcə kəskinləşdirmək bahasına geri qaytarmağa yönəldilmiş siyasəti.

QİYAM - kiçik bir qrup sui-qəsdçinin təşkil etdiyi dövlət çevrilişi cəhdi; baş tutmuş çevriliş onun əleyhdarlarının, məğlubiyyətə uğrayanların səciyyəsində Q.olaraq qalır.

QIZIL EHTİYATI - külçə və sikkə şəklində olan qızılın mərkəzləşdirilmiş ehtiyatı; ölkənin mərkəzi emissiya bankında və ya xəzinəsində cəmləşdirilir. Kapitalizmin ümumi böhranınadək qızılın sərbəst tədavülü zamanı Q.e.-nın üç cür təyinatı olmuşdur: 1) beynəlxalq ödəmələrin ehtiyat fondu (dünya pulunun ehtiyat fondu), 2) daxili metal və banknotların dəyişdirilməsinin ehtiyat fondu. 1913-cü ildə dünyanın bütün qızıl sikkə ehtiyatlarının 59 faizi mərkəzləşdirilmiş ehtiyatlarda cəmləşdirilmiş, qızılın 41 faizi

isə tədavüldə olmuşdur. Kağız pul tədavülünə keçilməsi və banknotların qızıla dəyişdirilməsinin dayandırılması ilə qızılın fəaliyyət dairəsi məhdudlaşmışdır. Qızıl yalnız xarici iqtisadi əməliyyatlara xidmət etməyə başlamış, yəni beynəlxalq ödəmələrin ehtiyat fondu kimi əhəmiyyətini saxlamışdır. ıkinci dünya müharibəsindən sonra valyuta böhranının kəskinləşməsi şəraitində Q.e.-nın bu rolu, həmçinin Q.e.-nın hərbi maliyyə ehtiyatı kimi rolu xeyli artmışdır. 1976-cı ildə ABŞ-ın Q.e. 11,6 mlrd. dollar, İsveçrənin Q.e. 11,6 mlrd. frank, Fransanın Q.e. 63,7 mln. frank təşkil etmşdir.

QLOBALİSTİKA (lat. globus - kürə) - sürətlə yeni müstəqil elmin əlamətlərini kəsb edən elmi istiqamət. Q.-nın tədqiqat predmeti qlobal problemlərin mənşəyi, təzahürləri, həlli yolları, həmçinin ən ümumi şəkildə makrososiotəbii sistemlər və onların dinamikasıdır.

Q.müasir elmi tədqiqatlarda qlobalizmə prinsip kimi uyğun formalaşan nəzəri yanaşmaların (politoloji, sosioloji, kulturoloji, sosial-fəlsəfi) məcmusu kimi çıxış edərək bunları tələb edir: 1) insanın, cəmiyyətin və təbiətin qarşılıqlı əlaqələrinin məcmusu sistemində strukturca bütöv baxış; 2) bu sistemin durumunu, vəziyyətini permanent (arasıkəsilməz) böhranlı durum kimi başa düşmək; çünki tədqiqat sahəsinin hüdudları istər-istəməz bəşəriyyətin bugünkü varlığını (böhranların və müxtəlif cəhətli və çox ölçülü konfliktlərin normal və labüd olması barədə təsəvvürlər burada bunları bir növ patologiya hesab edən pozitivist yönümlü baxışdan, həmçinin ziddiyyətlər dialektikasının monizminin nüfuz etdiyi baxışdan mühüm fərqi göstərir) xarakterizə edən gərginlik və konfliktləri bütün partlayış və fəlakətləri əhatə edir; 3) böhranlı inkişafın idarə olunması problematikasının araşdırılması (əks halda, yəni böhran idarə olunmazsa, bəşəriyyəti tam hərcimərcliyə və fəlakətə sürükləyər). Bununla əlaqədar planetdə baş verən hadisələrin dərk olunmasının qlobal-menecerli sxemi formalaşır (qərb ölkələrində Z.Bjezinski, K.Boulding, D.Draker, B de Juvenel və b.). Bu sxem siyasi hərəkatın

subyekti və obyektinin məqsədləri, vasitələri və nəticələrinin nisbətinə müvafiq tələblər irəli sürür. Belə ki, siyasət bütün bəşəriyyətin həyatına təsir edən mümkün konfliktlərin təsirini tənzimləyən sahə kimi çıxış edir. Həmin konfliktlərdən ağılla istifadə etmək (əgər lazım gələrsə, yaratmaq da olar), bunlarda "rəqabət və əməkdaşlıq" münasibətlərini ayırmaq, yəni həm əsl neqativ, həm qurucu tərəfləri fərqləndirmək, onları həqiqi mümkün tənzimləmə hüdudlarında saxlamaq lazımdır. Siyasi təbliratda (siyasi fəaliyyətin digər sahələrində olduğu kimi) dar peşəkarlıq yönümlərindən informasiyanı bütün planetə bir anda yayan kommunikasiya vasitələrinin təsiri altında ən yaxın gələcəkdə arzu edilən nəticələrə nail olmağı nəzərdə tutan ssenarilərin reallaşmasına keçid baş verir. Kütləvi kommunikasiya bununla əlaqədar nəinki planetimizdəki istənilən problemləri və konfliktləri gündəlik əks etdirən və özü də nisbi müstəqilliyə malik olan sahə kimi, həmçinin bəşəriyyətin həyatında, xüsusilə, onun dönüşlü məqamlarında həlledici rol oynamağa qabil qüvvədir və buna görə də özünə idarəetmə münasibətini tələb edir.

XX əsrin son onilliklərində bəşər həyatı üçün səciyyəvi olan prinsipcə yeni problemlərin həqiqi qoyuluşu ilə yanaşı (məs., yeni təfəkkür çərçivəsində) Q. özündə qarşıdurma ideologiyasının izlərini daşımaya, siyasi mifologiyaya məruz qalmaya bilməz. Q.-nın qeyri-nəzəri inkişaf proseslərindən, gündəlik və adi (o cümlədən kütləvi) şüurdan ümumi asılılığını da nəzərdən qaçırmaq olmaz.

Qlobal problemləri ETİ şəraitində məhsuldar qüvvələrin güclü inkişafı və ictimai istehsalın arzu edilməz miqyas alması ilə cəmiyyətlə təbiət arasında tarazlığın pozulması təhlükəsinin yaranması nəticəsində meydana çıxan problemlər kimi müəyyənləşdirmək olar. Bəşər sivilizasiyasının mövcudluğu və tərəqqisi bu problemlərin həllindən asılıdır. Lakin həmin məsələlərin həlli milli səylərlə beynəlxalq əməkdaşlığın effektli sistemi fəaliyyətinin rasional uzlaşdırılması sayəsində mümkündür. Qlobal problemlər qlo-

balçı alimlərin fikrincə, ümumbəşəri xarakter kəsb edir, planet miqyasında təzahür edərək konfliktliklə, dinamizmlə, kəskin xarakteri ilə seçilirlər.

Q.-nın elmi cərəyan kimi təşəkkülündə üç mərhələni ayırmaq olar, bunlardan hər biri dünya iqtisadiyyatının və bütövlükdə cəmiyyətin müəyyən inkişaf dövrlərində təkamülünün spesifikasını əks etdirir. Birinci mərhələ 60-cı illərə təsadüf edir. Bu dövrdə bəşər tarixində ilk dəfə olaraq istehsalın miqyası təbiətin antropogen təsirinin əvəzini vermək imkanlarına təhlükə yaratmağa başlamışdır. Məhz bu dövrdə elə strateji hücum vasitələri genişlənməyə başlamışdır ki, əgər onlardan konfliktdə istifadə olunsa Yer özündə həyat üçün təhlükə yarana bilər. XX əsrin bir sıra alimlərinin əsərlərində ictimai inkişafa qlobal yanaşmanın zəruriliyi barədə fikirlər söylənilsə də **Q.**-nın əsasını qoyan konkret əsər 1972-ci ildə nəşr olunmuş, kəskin ərzaq, xammal, enerji qıtlığı, həmçinin inkişaf etmiş sənaye ölkələrinin təbiətə istehlakçı münasibətlərini dəyişməyəcəkləri təqdirdə əsrin sonunda gözlənilən ekoloji fəlakət barədə kədərli proqnozların verildiyi Roma klubunun məşhur "Yüksəlişin hüdudları" kitabı hesab olunur.

Ötən əsrin 70-ci illərinin ortalarında aparıcı Qərb ölkələrini bürüyən struktur böhranlar silsiləsi **Q.**-nın inkişafında ikinci mərhələnin tədqiqat predmeti olmuşdur. Həmin mərhələdə 90-cı illərin mövqeyindən yanaşma nəinki ABŞ-ın, Qərbi Avropa ölkələrinin, Yaponiyanın öz iqtisadiyyatlarını yenidən qurmaq üzrə mühüm səylərini görmək olur, həmçinin Şərqi Avropa ölkələrinin, SSRİ-nin həm siyasi, həm də iqtisadi həyatının durğun xarakteri aşkar olunur ki, bu da sonralar həmin regionların bazar iqtisadiyyatına böhranlı formada keçməsinə gətirib çıxarmışdır.

Lakin **Q.**-nın metodoloji, fundamental, həm də tətbiqi planda yüksəlişi məhz ikinci mərhələyə təsadüf edir. Qərbdə **Q.**-da texnokratik cəmiyyət fəlsəfəsinin əsaslarını qoymuş A.Toffler bəşəriyyətin inkişafının başlıca məqsədlərini müəyyənləşdirmiş E.Laslo, yeni dünya nizamının prinsiplərini təklif

etmiş S.Mendlovits və ictimai inkişafın dərk olunması işinə böyük töhfə vermiş bir sıra digər görkəmli alimlər fəaliyyət göstərirlər.

Q.-nın 80-ci illərin ortalarından başlayan üçüncü mərhələsinin spesifik xüsusiyyəti tədqiqat predmetinin yüksək dinamikasından ibarətdir - dünyanın siyasi xəritəsində baş vermiş tarixi dəyişikliklər sayəsində qlobal problemlərdə iki **Q.** - Qərb və Şərq **Q.**-ları çərçivəsində iki metodoloji yanaşma - qeyri-sinfi və sinfi yanaşmalar mövcud olmuşdur. Üçüncü mərhələdə açıq-aşkar obyektiv, elmi yanaşma. qlobal problemlər və ictimai inkişaf sahəsində hadisələri və prosesləri əks etdirmək cəhdləri üstünlük təşkil etmişdir. **Q.**-nın metodologiyasının fənnlərarası xarakteri inkişafın daha aktual məsələlərinin tədqiqinin tətbiqi metodlarının dərinləşməsi ilə zənginləşir. Belə ki, 1980-90-cı illərin ayrıcında hərbi-siyasi tədqiqatlar qismən öz yerini risk, fəlakətlərin qarşısının alınması və onların nəticələrinin yumşaldılması kimi yeni məsələlərin öyrənilməsinə verir.

İnkişafa təsiri miqyasına görə təbii olaraq qlobal ölçü kəsb edən milli və regional xarakterli ən mühüm problemlər içərisində birinci yerdə keçmiş SSRİ ərazisindəki dövlətlərdə və Cində bazar iqtisadiyyatını yaratmaq, həmçinin bölgə konfliktlərinin rasional həlli durur.

Q. dünya birliyini sosial-iqtisadi inkişafın qanunauyğunluqlarını dərk etmək kimi güclü elmi istiqamət ilə zənginləşdirərək Amerika menecerlərinin rəhbər tutduqları "qlobal düşünüb lokal hərəkət etməli" prinsipini özündə təcəssüm etdirmişdir.

QRUP (alm. Crurre - hissə) - insanların, ümumi münasibətlər, fəaliyyət, onun əsaslandırılması və normaları ilə bağlı olan nisbətən sabit məcmusu. insanlar öz tələbatına və mənafelərinə uyğun olaraq, ya fərdi qaydada, ya da bu və ya digər sosial qrupun tərkibində siyasətdə iştirak edir, siyasi münasibətlərə təsir göstərir və eyni zamanda müvafiq təsirə məruz qalırlar. Düzgün siyasət işləyib hazırlamaq və onu həyata keçirmək həmin qrupların mənafeyini nəzərə almağı, onların fəaliy-

yətini düzgün əlaqələndirməyi tələb edir. Bir və ya bir neçə sosial əlamət əsasında birləşmiş insanların məcmusu sosial qrup adlanır. Sosial qruplar demoqrafik, etnik, peşə, dini və s. birliklərdir (bax; həmçinin **QRUPLAR NƏZƏRİYYƏSİ, TƏZYİQ QRUPU**).

QRUPBAZLIQ - ayrıca şəxslər məcmusunun ümumi əhəmiyyətli məqsədlərin və dəyərlərin, yaxud başqa geniş mənafelərin ziddinə gedən, müstəsna olaraq öz tamahkarlıq məqsədlərini güdən fəaliyyəti; həmçinin, bunlara bənzər qruplar arasında mübarizə.

"Q." *termini mənfi* mənada, qəbahətli qrup əxlaqını səciyyələndirmək üçün istifadə olunur. Stalinizm dövrünün ideoloji kampaniyalarının gedişində totalitar nüqteyi-nəzərə görə, müstəqil xüsusi mənafelərin yolverilməz olduğunu bildirən siyasi ideoloji konsepsiyanın təsdiqi kimi siyasi lürətə daxil olmuşdur. Sonralar yalançı ümumi mənafe naminə yuxarıda duran qruplaşmaların xeyrinə ictimai iyerarxiyanın aşağıda duran qruplarının hər hansı xüsusi mənafeyinin boğulmasına bəraət qazandıran dəhşət vasitəsinə çevrilmişdi. Bu ideologiyanın əsasını metodoloji cəhətdən planlı, lap əvvəlcədən ümumi, mənafelərin guya bütün sınaqlardan çıxmış, nəzəriyyə ilə həmişəlik təsdiq olunmuş üstünlüyü ideyaları təşkil edirdi; bura həmçinin sinfi mövqelərin hər şeydən üstün olması haqqında təsəvvür daxil idi. Buradan da xüsusi qrup mənafeyinin qorunması, əsaslı olaraq tarixən məhvə məhkum edilmiş partikulyarizmlə və "dönük" əxlaqla eyniləşdirilirdi. Həmin dövrün siyasi reallıqlarına görə Q. təfriqəçiliklə bir sıraya qoyulur və Q.-da təqsirləndirilmə tez-tez uzaq məqsədli "təşkilati nəticələr" çıxarmaq üçün kifayət edirdi.

Həqiqətdə isə mənafelərin qütbləşməsi və plüralizm, onların subyektlərinin fərqləndirilməsi ictimai inkişafa nəinki mane olmur, hətta, əksinə, bəşər sivilizasiyasının nailiyyəti olub onun sonrakı inkişafının stimuluna çevrilirdi. Yalnız mənafelərin açıq təzahüründə, yarışı və toqquşmasında onların həqiqi əhəmiyyəti və real iyerarxiyası ilə müəyyən edilir. Məhz belə olduqda guya dar

qrup, şəxsi məqsədlər özlərinin ümuməhəmiyyətli məqsədlərlə əlaqələrini aşkara çıxarar, yaxud gözlənilənlərin əksinə olaraq, onlarla uyğun gələ bilərdi. Yaxud, əksinə ümumi mənafe kimi təqdim olunan məqsəd əslində yalnız ideoloji maskadan başqa bir şey olmazdı ki, onun da arxasında şəxsi və ya ola bilər ki, alçaq niyyətlər gizlənərdi.

"Q." anlayışının ideoloji səbəblərinin əsaslandırılması onu doğuran sistemlə birgə keçmişdə qalmışdır. Hazırda bu anlayış, getdikcə daha çox qrupdaxili eqoizm haqqında təsəvvürlə birləşir ki, bu da özünü istər bütöv təşkilatların və kollektivlərin, istərsə də onların daxilində, yaxud onlardan kənarda yaranan qeyri-formal qrupların fəaliyyətində göstərir. Bundan başqa, siyasi lürətdə təmənnalı istiqaməti, yaxud vasitələrdən ağına-bozuna baxmadan istifadə etməyi bildirmək üçün "güruh" sözündən geniş istifadə olunur.

QRUPDAXİLİ EQOİZM - hər hansı kollektivin, birliyin, şəxslər məcmusunun ictimai mənafelərə zərər vuran fəaliyyətinin faydalanmaq səbəbi ilə əsaslandırıldığını bildirən söz birləşməsi; ictimai-siyasi ədəbiyyat üçün nisbətən təzə anlayış olub mənaca qrupbazlıq termininə xeyli yaxındır və yalnız hadisənin əxlaqi tərəfinə daha çox meyl etməklə ondan fərqlənir. Pislənilmək kontekstində işlədilir.

Q.e. sosial hadisə kimi tarixən insan sivilizasiyası qədər qədimdir. Onun mənşəyi bir tərəfdən əmək bölgüsü və sosial-qrup qütbləşməsi, digər tərəfdən isə, normativ tənzimləmə sistemlərinin mövcudluğu ilə bağlıdır. Qrup fəaliyyətinin muxtariyyəti və eyni zamanda ictimai həyatda müxtəlif əxlaqi standartların iştirakı sayəsində hakim sosial normalarla qrupda qəbul olunmuş davranış standartları arasında labüd ixtilaflar meydana çıxır. Ümumi qəbul olunmuş normalardan buna bənzər kənara çıxmalar dəyərcə birbaşa qarşı-qarşıya duran vektora səbəb ola, deyək ki, antruizmi və eqoizmi ilə fərqlənə bilər.

Nəzərdən keçirilən hadisənin qiymət meyarları tarixən şərtləndirilmiş və mütəhər-

rikdir. Həmçinin məlumdur ki, insan yaradıcılığının bütün növlərində avanqard qruplar müəyyən olunmuş normalara hörmət etməməkdə, hədsiz ambisiyalarda, qrupbazlıqda və i.a. təqsirləndirilmişlər. Eyni sözləri siyasi ideyaların və biliklərin mütəşəkkil daşıyıcıları haqqında da demək olar; onların da fikirləri əvvəlcə bid'ətçilik, təfriqəçilik və i.a. kimi rədd edilmiş, sonra isə konstitusiya norması, yaxud sosial norma kimi təsdiq olunmuşdur.

Yuxarıda deyilənlər **Q.e.** anlayışını heç də qiymətdən salmır, lakin ondan həddən artıq geniş və qanunsuz istifadədən çəkindirir. Bununla yanaşı, Q.e.-in kifayət qədər qrupların fəallığının təzahürü olan müəyyən əlamətləri vardır ki, bunlar cəmiyyətə, onun mədəni fonduna, insanların sağlamlığına birbaşa maddi ziyan vurur, həmçinin ümumbəşəri mənəvi normalara qəsd edirlər. Müharibələr, sosial böhranlar, kütləvi epidemiyalar və i.a. sarsıntılar zamanı belə hallar daha da çoxalır, normativ nəzarət mexanizmləri tamamilə pozulmuş vəziyyətə düşür.

QRUPLAR NƏZƏRİYYƏSİ - Qərb elmi ədəbiyyatında qəbul olunmuş müxtəlif məna daşıyan ifadə. 1. Daha geniş sosioloji mənada adətən C.Kuli, E.Meyo və başqalarının "qrup davranışı" nəzəriyyələrinin məcmusu nəzərdə tutulur. 2. Sosial (və siyasi) psixologiyada K.Levinin, C.Homansın, D.Kreçin və başqalarının "qrup dinamikası" konsepsiyasını bildirir. 3. Politologiyada və siyasi sosiologiyada nisbətən məhdud mənada işlənir və yalnız siyasi prosesin əsasən hüququndankənar məkanda, siyasi səhnənin arxasında fəaliyyət göstərən formal (qeyri-rəsmi) iştirakçıları haqqında təsəvvürlərə toxunulur.

Metodoloji mövqeləri baxımından bir-birinə yaxın və bir-birini tamamlayan, struktur-funksional təhlilə əsaslanan bütün bu variantlar bir-birinə mühüm qarşılıqlı təsir göstərir. Özü də təbii politoloji **Q.n.** sosioloji və psixoloji nəzəriyyənin daha sanballı kateqoriya aparatının tədricən mənimsənilməsi hesabına inkişaf edir. Sonrakı şərhdə **Q.n.** yalnız məhdud politoloji mənada izah ediləcək.

Cox vaxt "siyasətin qrup nəzəriyyəsi" adlandırılan bu təlimin əsasını A.Bentli, D.Trumen, V.O.Ki və bir çox başqalarının adları ilə bağlı qruplar nəzəriyyəsi, həmçinin onun mühüm konsepsiyası sayılan təzyiq qrupu təşkil edir. Bəzən ədəbiyyatda məhz bu sonuncunun **Q.n.** kimi qələmə verirlər. R.Dalın, E.Ventfildin, N.Polsbinin məhəlli icmalarda hakimiyyət barədə "realist" konsepsiyasını da **Q.n.**-nə aid edirlər. Nəhayət, bir sıra elmi əsərlərdə partiya aparatı və dövlət bürokratiyası daxilində formalaşdırılmamış strukturların fəaliyyətindən bəhs olunarkən partiyalar və təşkilatlar nəzəriyyələrini də **Q.n.**-nə daxil edirlər.

Bu sadalananlardan axırıncı ikisinin **Q.n.**-nə daxil olunmasının yerinə düşmədiyini qeyd etmək olar. Icma "mikrosiyasəti" mənafeyi olan qruplar və onların hökumətə təsiri haqqında makrosiyasi təsəvvürlə heç cür qovuşmur. Bundan əlavə, konstitusiyada nəzərdə tutulan hakimiyyət orqanlarının təhlilinin - bunların mənafelərinin nisbətini, sosial əhatə ilə əlaqələrini və s. nəzərə alan təhlilin, şübhəsiz ki, perspektivi var. Lakin bu təhlil lazımi konseptual ciddilik kəsb etməmiş nə normativ-hüquqi yanaşma ilə, nə də formal-təşkilati sistem nəzəriyyəsi ilə əlaqələndirilməmiş, bu təsisatların əsas tədqiqat meyllərindən kənarda qalmışdır. Ona görə də deyə bilərik ki, məhz mənafeyi olan qruplar haqqında təsəvvür **Q.n.**-nin özəyini təşkil edir.

Mənafeyi olan qruplar haqqında təsəvvürün ümumi qəbul edilmiş strukturu, sabitləşmiş kateqoriya və məntiqi aparatı yoxdur. Lakin bu, onun xüsusilə ikinci dünya müharibəsindən sonra ABŞ-dan (XX əsrin əvvəlində əsasını A.Bentli və D.Dyui qoymuşlar), demək olar, bütün dünyaya yayılmasına mane olmamışdır. Ehtimal ki, bunun səbəbi öyrənilən obyektin uğurla seçilməsində idi. Sonradan məlum olduğu kimi, bu obyektiv siyasətin real və mühüm amilidir. **Q.n.**-nin məzmunu barədə onun əsas yaradıcıları arasındakı fikir ayrılığının əksinə olaraq, onların məsələyə prinsipcə eyni mövqedən yanaşmaları və bu mövqenin müəyyən səmərəliliyi şübhə doğurur.

"Siyasətdə qrup halında iştiraka" dair ölkələrin əksəriyyətində aparılmış və indi də aparılan geniş emprik tədqiqatlar da bunu göstərir.

Q.n.-nin əsasında mənafelərin plüralizmi ideyası ilə birləşdirilən mənafe anlayışı durur. Mənafelərin tədqiqatçılarını elmi ədəbiyyatda çox vaxt universalçılara və partikulyaristlərə ayırırlar. Universalçılar ümumi mənafeyə müstəqil mövcudluq kefiyyəti kəsb etdirərək (hipoztasiya) onu guya xüsusi məqsədlərə nisbətdə üstünlük verilən ümumi rifah və ya iradə kimi səciyyələndirirlər. Partikulyaristlər isə əksinə, xüsusi mənafeyi yeganə məqsəd hesab edirlər. Birincilər (Hegel, yaxud fon Treyzke) etatizmə və totalitarizmə, ikincilər isə (ı.Bentam və C.St.Mill) liberalizmə və demokratizmə meyl edirdilər. Q.n. partikulyar və liberal-demokratik ənənəni davam etdirərək, mənafeyi qrup səviyyəsində əzəli, tərkib hissələrinə ayrılmayan varlıq sayırlar (A.Bentli, D.Trumen və b.). ümumi mənafe isə şərtidir, qrupların qarşılıqlı əlaqəsinin nəticəsi, onların təsirinin əvəzləyicisidir.

İnsanın və buna uyğun qrupların şəxsi mənafelərinin müxtəlifliyi haqqında təsəvvürə əsaslanaraq, **Q.n.** bunların müəyyən mənada ümumi mənafeyi əks etdirən bir tam halında inteqrasiyasını mümkün sayır. Qrup mənafeləri və məqsədlərinin daha geniş və hamı üçün əhəmiyyətli olan mənafelərə inteqrasiyası rəqabət tipli yarış prosesi vasitəsilə baş verir. Bu proses isə qruplararası konfliktlərdən və əməkdaşlıqdan ibarət olur. Mənafelərin toqquşması kəskin konflikt forması aldıqda, yaxud mənafelər milli-dövlət çərçivəsindən kənara çıxdıqda siyasi sahəyə toxunur. Bu halda müvafiq təşkilat mənafeləri və qruplar vətəndaş cəmiyyəti çərçivəsindən kənara çıxaraq siyasiləşir, siyasi baxımdan qeyri-təsisat subyekti kimi hakimiyyət strukturlarına təsir göstərirlər.

XXəsrin əvvəllərinədək nümayəndəli demokratiyanın leqallaşdırılması, onun formal hüquqi təfsiri hakim idi; yalnız hüquq normaları ilə nəzərdə tutulan institutlar və hakimiyyət orqanları siyasi aktorlar

(yun. ektos - kənar, qeyri, xarici sözündəndir) hesab olunurdu. **Q.n.** göstərdi ki, bir tərəfdən dövlət və partiyalar, digər tərəfdən isə cəmiyyət arasında nə isə bir "aralıq qat" - vətəndaş cəmiyyətini siyasi institutlarla bağlayan mütəşəkkil mənafelər sahəsi var. Bu mənafelərin subyektlərinin təsiri bəzən elə güclü olur ki, mütəxəssislərdən biri bunu qanuni hakimiyyət orqanlarından və partiyadan əlavə, siyasi prosesdə gözə görünmədən iştirak edən anonim imperiyalara bənzədir.

Burada qeyri-hökumət birliklərindən, qeyri-rəsmi və hətta çox vaxt qeyri-formal birliklərdən söhbət gedir. Lakin bunlar hamısı birlikdə böyük imkanlara malik çoxşaxəli əlaqə və münasibətlər strukturu yaradır. Bunların qüdrəti çox vaxt qeyri-siyasi səciyyə daşıyır. Bu qüdrətli mənbəyi mülkiyyət, ehtiyatların hər hansı növü üzərində nəzarət, mədəni təsir, yaxud *nüfuz, etnik, dini* əlaqələr və ya hamıyerli münasibətləridir. Belə halda, nəzərdən keçirilən mənada qrupların vəzifəsi hakimiyyətin və ya təsirin bir növünü başqa, siyasi növə çevirməkdir.

Siyasi təhlildə mənafe kateqoriyasının *tətbiqi* özlüyündə yeni bir şey deyil. **Q.n.**-nin təşəbbüsçülərindən olan D.Trumenin etiraf etdiyi kimi, Avropa sosiologiyası, o cümlədən Marks bunu etmişdir. Yenilik bundan ibarətdir ki, əvvəla, mənafe və siyasi prosesin başqa, daha məhdud emprik subyekti tapılmışdır. Subyekt sinifdən heç də az real deyildir. Bu anlayışların ideoloji baxımdan qarşı-qarşıya qoyulması özünü doğrultmamışdır (bunu ilk dəfə polyak politoloqu S.Erlix göstərmişdir), çünki bunlar sosial təşkilatın müxtəlif səviyyələrinə aiddir. ıkincisi, bu subyekt haqqında təsəvvür plüarist demokratiya nəzəriyyəsi ilə əlaqələndirilmiş və real siyasi aktorların dairəsi haqqında bilikləri genişləndirməyə imkan vermişdir.

Bu nəzəriyyənin əsasını qoyan A.Bentli "idarəetmə prosesi" (1908) əsərində hakimiyyət institutlarına sosial təsirləri tədqiq etmiş qrup mənafeyi və onu qorumağın üsulu kimi təzyiq haqqında təsəvvürü işləyib hazırlamışdır. Sonralar E.Gerinq bu mövqedən ABŞ da lob-

bizmin empirik təhlilini vermişdir. D.Trumen bu konsepsiyaya sosioloji ölçü vermiş, mənafeyi olan qrupları müəyyən sosial substrat, təzyiq qruplarını isə bunların siyasi ifadəsi kimi müəyyənləşdirmişdir. Bundan əlavə, o, rəsmi hakimiyyət strukturlarının daxilində də belə qrupların olduğunu aşkar etmişdir. V.O.Ki və bir sıra başqa tədqiqatçılar isə mənafeyi olan qruplarla partiyalar arasındakı qarşılıqlı münasibətləri araşdırmışlar. Bir tərəfdən, partiyalar qruplardan dəstək almağa, özlərinin elektoratını genişləndirməyə çalışırlar. Digər tərəfdən isə, partiya bürokratiyasının bütün səviyyəsində qrupların nümayəndələri yer tutmağa başlayırlar. **Q.n.**-nin nümayəndələrinin, demək olar ki, hamısı iqtisadi və digər korporativ qrupların daha çox təsiri olduğunu da qeyd edirlər.

Q.n. ilk vaxtlar Amerika gerçəkliyinə nəzərən işlənib hazırlanmışdı. Çünki qrup siyasətinin fenomenləri orada özünü tez göstərmiş və ölkənin hüquqi-siyasi sisteminin xüsusiyyətləri bunlarıntəzahürünü açıq nümayiş etdirmişdi. 1950-ci illərdən başlayaraq qrupların, demək olar ki, hər yerdə, o cümlədən Şərqi Avropa ölkələrində yayılması aşkar oldu. Totalitar rejimlər bu qrupları yalnız daha qapalı etmişdi və onlar bütünlüklə hakimiyyət strukturuna qovuşmuşdular.

QURTULUŞ İLAHİYYATI - müasir katolik ilahiyyat nəzəriyyəsində sol radikal sosial konsepsiya. 1960-cı illərin axırlarında Latın Amerikasında yaranmış, Afrikada (xüsusən Cənubi-Afrika Respublikasında, Anqolada) və ABŞ-da əsasən zənci əhalisi arasında yayılmışdır.

Bu konsepsiyanın banisi Peru keşişi Q.Qutyerres "qurtuluş"u üç mənada (sosial-siyasi, tarixi və dini-mifoloji) nəzərdən keçirərək, insanların iqtisadi və siyasi zülmdən qurtulmaq uğrundakı sosial-tarixi fəaliyyətini insanın günahdan "xilas olması" barədə Bibliyadakı fikirlə birləşdirir.

Konsepsiyanın digər başlıca nümayəndələri arxiyepiskop Dezmond Tutu (CAR), San Salvador arxiyepiskopu O.A. Romero (sui-qəsd nəticəsində öldürülüb), D.Koun (ABŞ),

E.Dussel (Argentina), J.V. Şipende (Anqola), Braziliyanın katolik universitetlərindən birinin ilahiyyat professoru L.Boffdur.

"QÜVVƏLƏR BALANSI" KONSEPSİYASI - dövlətlərarası münasibətlər sistemində tarazlığın spesifik formasını müəyyən edən konsepsiya.

Diplomatiya tarixində bu anlayışa intibah dövründən rast gəlinir. XVI-XVII əsrlərdə bu anlam Avropanın ən iri dövlətləri arasında tarixən yaranmış və formalaşmış qüvvələr arasındakı münasibətləri saxlamağa cəhd göstərən diplomatiya təcrübəsinə "tarazlıq prinsipi" mənasında daxil olmuşdur. XIX əsrdə isə **"Q.b.k."** anlamı dövlətlərarası münasibətlər sisteminin daha çox "Avropa konserni" ərazisində ən aparıcı konsepsiyaya çevrilmişdir.

İkinci dünya müharibəsindən sonrakı illərdə, dövlətlərarası münasibətlər sahəsində nəzəri tədqiqat işlərinin artması ilə əlaqədar **"Q.b."k.** anlamı xüsusi nəzəri tədqiqatlarla məşğul olan alimlərin, hər şeydən əvvəl, Amerika və Qərbi Avropa tədqiqatçılarının diqqətini daha çox cəlb etmişdir.

Terminin çoxmənalılığı və anlaşılmazlığı onun konseptuallaşmasına xeyli mane olur. Məs., Amerika nəzəriyyəçisi E.Xaas **"Q.b".k.** anlamının ədəbiyyatda rast gəldiyi, bir-birini inkar edən, ən azı 8 məna çalarlarını göstərir. Onun ən çox yayılmış mənalarından biri belə ideya ola bilər: dünyada mövcud olan bütün qüvvələr, hər şeydən əvvəl, hərbi qüvvələr elə bölünməlidir ki, heç bir dövlət digər dövlət üçün təhlükə türədə bilməsin. əgər hər hansı bir dövlət belə bir addım atmaqda birinciliyə cəhd göstərərsə, onda başqa dövlətlər, özlərinin şəxsi maraqlarından çıxış edərək onunla müqavilə bağlamalı və bu yolla da itirilmiş münasibətlər balansını tarazlaşdırmalı və əvvəlki statusu bərpa etməlidir.

Konsepsiyadan çıxarılmış nəzəri nəticələr özlərinin məna müxtəlifliyi ilə bir-birindən əsaslı fərqlənir. Bu, hər şeydən əvvəl, bu nəticə ondan ibarətdir ki, əməkdaşlıq etdiyin dövlətdən təminat almaqdan, tam arxayın olmadan, ona bel bağlamaq olmaz, çünki hamı öz

şəxsi mənafeyini, mənfəətini güdür və onu zorla həyata keçirməyə çalışır. Belə ki, dünyada Hobbsun mülahizəsinə görə "Hamının hamıya qarşı" mübaribəsi hakimdir. Dövlətlər arasında belə münasibətlərdə bir dövlətin marağı hüdudlarında, başqa bir dövlətin ehtiyacı və marağı nəzərə alınmır. Bu yolla da hər bir dövlət, qarşı tərəfin qüvvəsindən və hücumundan müdafiə oluna biləcəyi qədər qüvvə toplamağa səy göstərir. **"Q.b".k**-da belə bir qəti inam mövcuddur ki, hərbi potensialın artırılması dünyanın vəziyyətini yaxşılaşdırır. Belə bir fikir də hakimdir ki, təcavüzkarı müharibəyə yalnız zəiflik, gücsüzlük təhrik edir.

Konsepsiyanın tərəfdarları beynəlxalq sabitlik yaratmağa qadir olan mexanizm kimi ittifaq təklif edirlər. Hər hansı dövlətə qarşı təhlükə hiss olunduqda, həmin dövlətin müdafiəsini təmin etmək məqsədilə mexaniki qaydada koalisiya və alyanslar təşkil edilir. Klassik **"Q.b."k**. ittifaqda iştirak edən tərəflər arasında dostluq əlaqələrinin, hətta loyal münasibəti belə nəzərdə tutmur. Müttəfiqlər siyasətinin dinamikasını və bununla yanaşı **"Q.b."k**. məsələsini "Heç bir daimi əlaqələr deyil, yalnız daimi maraqlar" prinsipi təşkil edir. Öz növbəsində müttəfiqlər arasında da qüvvə toplamaq uğrunda rəqabət və mübarizə gedir.

Yeni siyasi reallıq şəraitində, nüvə-raket təhlükəsi ilə üzləşdiyimiz bir zamanda **"Q.b."k.**-nın tərəfdarları müxtəlif yollarla onu modernləşdirməyə cəhd göstərir. Bununla əlaqədar müasir dünyada **"Q.b."k.**-nın rolu haqqında birbirinə əks iki nüqteyi-nəzər mövcuddur. Onlardan birinə görə (X.Ball və b.), indi **"Q.b."k**. sistemi tarixi fenomen kimi deyil, beynəlxalq münasibətlərdə mövcud qaydaları yerinə yetirən, fəaliyyətdə olan keyfiyyətlər kimi qiymətləndirilir. Lakin burada söhbət ən çox tanınmış, yüksək istedada malik aktyorlar arasındakı **"Q.b."k.**-ndən gedir. Başa düşülməlidir ki, bütün tanınmış aktyorların bərabər qüvvələrlə, eyni səviyyədə çıxışlarından söhbət gedə bilməz. Onların qüvvələri yalnız o vəziyyətdə müqayisə oluna bilər ki, onlar şahmat stolu arxasında, bərabər qüvvələr daxilində mübarizə aparır və "oynayırlar". Lakin bu metodun tərəfdarlarına görə, klassik **"Q.b."k.**-da olduğu kimi, müasir **"Q.b.k.**-nda da üç əsas vəzifə yerinə yetirilir: birinci, mövcud dövlət sistemlərinin dəyişdirilərək yeni, vahid bir sistemdə, qlobal imperiya çərçivəsində birləşməsinin qarşısı alınır; ikinci, yerli **"Q.b."k.**-ları bu ərazidə fəaliyyət göstərən və daha qüdrətli hesab olunan müstəqil dövlətlərin, müəyyən mənada müdafiəsinə xidmət göstərir; üçüncü, beynəlxalq qaydaların gözlənilməsinə cavabdeh olan, eyni zamanda hüquq normalarının, diplomatiya və iri dövlətlərin qarşılıqlı fəaliyyətinin idarə edilməsini tənzimləyən institutların olmasını şərtləndirir.

Amerika nəzəriyyəçilərinin mülahizələrinə görə, **"Q.b."k.**-nın dinamikasını, müəyyənləşdirən budur ki, nüvə silahına malik iri ölkələrin hərbi-strateji pariteti onları eyni bir strateji mühitdə yaxınlaşdırır. Bu isə öz növbəsində, bir tərəfdən, çoxsaylı lokal konfliktlərlə, o biri tərəfdən isə sazişlər sisteminin və qarşılıqlı əlaqələrin yenidən qurulmasına gətirib çıxarır. Bundan əlavə, müasir dövlətlərarası münasibətlər sistemində bəzi "siyasi reallıqlar" mövcuddur. Bunların arasında bir-birinə qarşılıqlı surətdə nümayəndələr göndərmək xarakterik və tipik hal hesab edilir. Çünki burada bir neçə dövlətin maraqları, eyni zamanda BMT-nin maraqları üst-üstə düşür.

S.Hoffman və digər nəzəriyyəçilərin fikirləri isə belə bir mülahizəyə əsaslanır ki, **"Q.b."k**. bir sistem kimi artıq köhnəlmişdir. Çünki müasir beynəlxalq nizam onun tələblərinə tam cavab verən şərait və qaydaları yaratmamışdır.

Son illərdə beynəlxalq vəziyyətin normallaşması, gərginliyin zəifləməsi ilə əlaqədar hərbi qarşıdurma və siyasi qütbləşmə səviyyəsinin aşağı düşməsi **"Q.b."k.**-na Qərb nəzəriyyəçilərinin marağını xeyli azaltmışdır. Lakin bununla belə regional vəziyyətlərin təhlilində **"Q.b."k**. hələ də öz əvvəlki əhəmiyyətini qoruyub saxlamaqdadır.

LEGİTİMASİYA (lat, legitimus - qanuni, qanuniləşdiril-

miş) 1) pasport sistemi olmayan dövlətlərdə vətəndaşın şəxsiyyətini təsdiq etmə forması. Səlahiyyətli hakimiyyətin tələbi ilə vətəndaşın şəxsiyyətini təsdiq edən sənədlərin təqdim olunmasından ibarətdir. 2) mülki hüquqda vətəndaşın müəyyən hüquqi hərəkətləri həyata keçirmək hüququnun sübutu.

LEGİTİMLƏŞDİRMƏ (lat. legitimus - qanuni) - bax; **QANUNİLƏŞDİRMƏ**.

LİBERALİZM (lat. liberalis - azad sözündən) - geniş mənada- ictimai həyatın intellektual və mənəvi baxımdan elə təşkilini nəzərdə tutur ki, burada fərdlərin siyasi və iqtisadi hüquqlağı qanunun qüvvəsi ilə məhdudlaşdırılan, normal sivilizasiyalı insanların təbii tələbatlarının ümumiləşdirilməsi kimi başa düşülən hədd çərçivəsində qəbul edilsin. Bu mənada L. Qərbdə siyasi mədəniyyətin hakim tipidir. O, ən mühüm siyasi institutların struktur xarakteristikalarında və fəaliyyət prinsiplərində təcəssüm etmiş və mühafizəkarlıqdan tutmuş sosial-demokratiyaya qədər müasir Qərbin əsas ideya-siyasi cərəyanlarında özünəməxsus təzahürünü tapmışdır.

Daha məhdud mənada L.dövlətin minimum səviyyədə tənzimləyici rolu şəraitində ümumən bazar təsərrüfatının, azad rəqabətinin saxlanılmasına, mötədil sosial reformizmə, beynəlxalq təhlükəsizliyin təmin edilməsinə və inteqrasiya proseslərinin inkişafına (ilk növbədə, Avropa Birliyi çərçivəsində) meylli liberal partiyaların ideologiyası və siyasətidir. Bu partiyaların əksəriiyyəti 1974-ci ildə yaradılmış Liberal İnternasionalda birləşmişdir. "Liberalların manifesti"ni qəbul etmiş 19 təsisçi partiyaya sonradan daha 13 partiya, habelə Şərqi Avropa ölkələrindən olan "sürgün edilmiş liberallar" qoşulmuşdur. Hazırda həmin ölkələrin bir çoxunda liberal partiyalar açıq fəaliyyət göstərir. Dünyanın başqa regionlarının bir sıra ölkəsində liberallar hakim partiya, yaxud hökumət koalisiyasına daxildir. Liberallar Avropa parlamentində sayca mühüm yerlərdən birini tutan fraksiyadır.

L. müəyyən bir anlayış kimi Avropanın siyasi lüğətinə XIX əsrin 30-40-cı illərində daxil olmuşdur. Lakin onun ideya-nəzəri kökləri və əməli təcəssümünün ilk təcrübələri (İngiltərə və ABŞ) XVII əsrin sonu - XVIII əsrə gedib çıxır. "Klassik" L.-in, onun tarixi inkişafının birinci mərhələsinin yaradıcıları Lokk və Volter, Yum və Kant, Monteskye və Franklin, Ceffer-son və A.Smit, Hete və Didrodur.

"Klassik" L.-in ideya-mənəvi əsasını aşağıdakı müddəalar təşkil edirdi: 1) insanın şəxsiyyətinin mütləq dəyərliyi və bütün insanların əzəli ("anadangəlmə") bərabərliyi; 2) fərdi iradənin muxtarlığı; 3) səmərəliyin mahiyyəti və insanın ləyaqəti; 4) insanın yaşamaq, azadlıq, mülkiyyət hüquqları kimi əlindən alına bilinməyən müəyyən hüquqlarının mövcud olması; 5) ümumi razılıq əsasında və yeganə məqsədlə insan hüquqlarının saxlanılması və qorunması məqsədilə dövlət yaradılması; 6) dövlət və fərd arasında münasibətlərin müqavilə xarakteri daşıması; 7) sosial nəzarət vasitəsi kimi qanunun aliliyi və "bu cəmiyyətdə hər kəs üçün ümumi olan daimi qanuna uyğun yaşamaq... və başqasının dəyişkən, qeyri-müəyyən, naməlum, özbaşına iradəsindən asılı olmamaq hüquqi və imkanı kimi "azadlığın qanunda" olması; 8) dövlətin fəaliyyətinin səviyyəsi və dairəsinin məhdudlaşdırılması; 9) insanın şəxsi həyatının ümumən və ilk növbədə dövlətin müdaxiləsindən qorunması və ictimai həyatın bütün sahələrində onun hərəkət azadlığı (qanun çərçivəsində); 10) fərdin təfəkkürü səviyyəsində ali həqiqətlərin mövcud olması; bunlar xeyir və ya şəri, qayda-qanun və ya anarxiyanı seçməkdə yol göstərməlidir.

L. ilk növbədə şəxsiyyətin səviyyəsinin qənaətbəxşliyi və onun özlüyündə dəyər olan azadlığa sədaqəti deməkdir. Lakin L.-in xüsusiyyətini heç də özlüyündə "azadlıq ruhu" deyil, bunu təmin edən hüquqi təsisat şərtlərinin işlənib hazırlanması təşkil edir. Bu şərtlərin kompleksi prinsip etibarilə aşağıdakıları dilemmanı həll etməyə imkan verən kontitusionalizm sistemini yaradır: qanunları insanlar özləri yaradırlar (xalq idarə edir) - qanundan ali heç nə yoxdur (qanun idarə edir).

Konstitusionalizm sistemi

seçkili nümayəndəliyin qayda və üsullarına arxalanır və aşağıdakıları əhatə edir: a) əvvələn, qanunvericiliyin ciddi nizamlanan qaydası ilə, ikincisi , vətəndaşların əsas hüquq və azadlıqları poza bilməməsi üçün qanunvericiliyin fəaliyyətinin məhdudlaşdırılması; b) yeni qanunvericiliyin qanunun aliliyini və hökmranlığının bütün sisteminə uyğunluğunu təmin etmək mexanizmləri. Bu mexanizmlər qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı münasibətlərindəki "təmkin və əksikliklərdən" ibarətdir. Özü də məhkəmə hakimiyyətinin mahiyyət onun siyasətdən asılı olmamasında deyil, xüsusi struktur və siyasəti "yaranmaq" vasitəsi olmasındadır .

Tarixən "klassik " L.feodalizm cəmiyyəti üçün yeni olan mülkiyyətçilər qrupunun meydana gəlməsi ilə bağlıdır .L.-in inkişafını kapitalizmin inkişafı ilə eyniləşdirmək, onu kapitalizmin yalnız ideya- siyasi ifadəsi hesab etmək son dərəcə bəsitlik olardı . L.-in öz sosial -siyasi və mədəni, kapitalizmin dinamikası ilə əlaqə li, həm də onunla konfliktdə olan dinamikası var .

"Klassik" L.- də azadlıq hə lə bərabərliklə qarşılıqlı fərz etmə -qarşılıqlı inkar etmə kim dramatik münasibətlərə girmir Azadlıq- hamı üçün bərabərdir Lakin əslində isə bə"zilər üçündür. Amerikanın "1777 - c il konfederasiyasının maddələri"ndə deyilir ki, azadlıq" "dilənçilər, avaralar və məhkəmənin hökmünün icrasından qaçmaqla canlarını qurtarmış adamlar istisna olmaqla , bu ştatlardan hər birinin azad sakinləri" üçündür . Zənci qullar və hindlilər haqqında, bir kəlmə də deyilmir . Bərabərlik isə azadlıqda bərabərlik deməkdir (vətəndaşların elə həmin dairəsi üçündür). Fərdilik - hər şeydən əvvəl şəxsiyyətin başqa bir şəxsiyyətə qarşı və ümumi mülki işlərlə əlaqədar inkişafı və özünüifadəsidir . Yalnız sonralar Bentamın fikirlərində və "Mançester" kapitalizmi praktikasında fərdilik atomlaşdırılmış cəmiyyətdə fərdinin kifayətləndirən amilə çevrilmişdir. Xüsusi mülkiyyətin əhəmiyyəti onun insanı özünə tabe edən , öz - özünə artan və özlüyündə qiymətli kapital kimi mövcudluğundan deyil, fərdin müstəqillik

və ləyaqətinin tə"minatı olmasındadır . Bazar, hakimiyyəti səpələmək , ilk növbədə onun iqtisadi və siyasi formalarının qovuşmasının qarşısını almaq vasitəsi kimi mühümdür . Bazar hələ mədəniyyəti, əxlaqı özünə tabe edən hər şeyə qadir qüvvəyə çevrilməmişdir .

XIX əsrdə sənaye inqilabından sonra meydana çıxan laissez faire ideologiyası, sərbəst rəqabət və yığıcılıq ideologiyası liberalizmə xeyli tə"sir göstərsə də, onun yeni forması deyil, özünəməxsus forması idi. Bu təsir (təkcə nəzəriyyədə deyil , həm də "Mançester" kapitalizminin praktikasında) XIX əsrin son qərinəsində L.- in yeni tipinin _ neoliberalizmin və ya "sosial " liberalizmin yaranmağa başlamasında özünü göstərmişdir. L.-in bu tipi üçün soial reformizmə meyl laissez faire ideologiyasının kəskin surətdə bir-birinə qarşı qoyduğu bərabərlik və azadlığı barışdırmaq cəhdi, cəmiyyətin etikasına və Bentamın "xoşbəxtlərin miqdarı" fikrinə müncər edilmiyən özünəməxsus sosial rifaha diqqət verilməsi, insan azadlığı barədə liberal idealın aciz qaldığı vəziyyətlərdə fərdin müdafiəsini nəinki inkar etmədiyini, həm də bunun üçün tədbirlər nəzərdə tutduğunun başa düşülməsi səciyyəvidir. Bu meyllər "sosial" L.-in nəinki laissez faire ideologiyası ilə qəti polemikaya, həm də "klassik" L.-in təftişinə gətirib çıxarır .

"Sosial" L. İngiltərədə leyborizm ilə və qitədə sosial -demokratizmlə, habelə ABŞ-da müxtəlif reformist cərəyanlarla qarşılıqlı əlaqə saxlayır və onların inkişafına təkan verir. "Sosial" L. laissez faire dövründə "gecə keşikçisi" ,olan dövlətin XX əsrdə "rifah dövlətinə" çevrilməsində mühüm amildir .

II dünya müharibəsindən sonra, texnorasionalizm və iqtisadi yüksəliş ideologiyası şüarı altında keçən dövrdə elə bir liberal-mühafizəkar razılaşma təşəkkül tapır ki, L. artıq bunun çərçivəsində özünün məzmun fərqlərinin bir çoxunu itirir. O, empirik və praqmatik meyl alır, özünü elmlə və uyğunlaşma, tərəqqi xətti ilə eyniləşdirməyə çalışır. B.Rasselin dediyi kimi, indi "liberal dünyabaxışının mahiyyəti hansı fikirlərin ifadə edilməsində deyil, bu fikirlərin necə

ifadə edilməsindədir. Elmi dünyabaxışı praktiki sahədə liberalizmin harayladığının intellektual ekvivalentidir".

70-80-ci illərdə liberal-mühafizəkar razılaşmasının pozulması, texnoloji inqilabın yeni mərhələsi nəticəsində Qərb cəmiyyətinin sosial-iqtisadi landşaftında baş verən əsaslı dəyişikliklər, qlobal problemlərin kəskinləşməsi, meydana yeni ictimai -siyasi birliklərin (ilk növbədə yeni sosial hərəkatların) çıxması, son illərdə Avropanın şərqində totalitar rejimlərin süqut etməsi L.-i dərindən təzələnmə və transformasiya zərurəti qarşısında qoymuşdur . Amerika publisisti R.Rotenberq yazır ki, dünyanın köhnə industrial modelindən, eyni zamanda "yeni xətt" liberalizmindən və ənənəvi mühafizəkarlıqdan əl çəkməyin yaxtı çatmışdır".

L.-in yeni obrazı hələ heç də tam formalaşmamışdır .Onun təşəkkülü müxtəlif, xeyli dərəcədə bir-birini inkar edən xətlərlə gedir. Bir tərəfdən, hazırda siyasətdə neoliberalizmin qanadı kimi hakim olan yeni mühafizəkarlığın nəzəri bünövrəsini təşkil edən sağ libertar, antikeynsçi ənənələrin dirçəlməsi göz qabağındadır. Digər tərəfdən, liberalizmin etik ölçüsündə bərabərlik və ədalət problemlərinə meyl etmək nəzərə çarpır. Həm də bu problemlər Mill və Bentamda olduğu kimi deyil, Kant ruhunda şərh edilir. L.-in bu yozumlarının müəyyən sosial-demokratik çaları var.

LİDER (ing. leader - aparıcı) - müəyyən birliyin mənafelərinin təmin olunmasına yönəldilmiş birgə fəaliyyətin inteqrasiyası məqsədilə başqalarına təsir etməyi bacaran şəxs. Bax; **SİYASİ LİDERLİK**.

LOBBİ (lobbizm)(ing.lobby - örtülü gəzinti meydançası, dəhliz) - L. sözün taleyi mürəkkəbdir. 1553-cü ildə monastırdan gəzinti meydançasını bildirmək üçün işlədilirdi. Bundan yüz il sonra İngiltərənin nümayəndələr palatasında gəzinti otağını belə adlandırmağa başladılar. Daha iki yüz il sonra isə Amerikada bu söz siyasi çalar almışdır: 1864-cü ildən etibarən ABŞ konqresinin dəhlizlərində rüşvətlə səs almağı "lobbiləşdirmə" adlandırmağa başladılar. Lakin belə siyasət İngiltərədə qəbahət sayıldığından bu söz

orada yalnız XX əsrdə yayıldı, sonra isə digər ölkələrdə də istifadə edilməyə başlandı. L. siyasəti aşağıdakıların mənafeyi üçün həyata keçirilə bilər: 1) ayrı-ayrı sosial və siyasi qüvvələrin xeyrinə (həm də təkcə mürtəce qüvvələrin xeyrinə hökm deyildir: konqresdə həmkarlar ittifaqlarının, müharibə əleyhinə hərəkatların və s. lobbisi ola bilər); 2) ayrı-ayrı ölkələrin və regionların xeyrinə (burada, məsələn, ABŞ konqresindəki Çin və Tayvan lobbilərinin qarşıdurması kimi qarşıdurma mümkündür); 3) ümumsosial və ya qlobal problemlərin (ekologizmə qarşı texnokratizm və s.) həlli strategiyalarının xeyrinə.

Daha tam şəkildə ABŞ-da özünü göstərən L. (o, 1946-cı ildən etibarən qeydiyyata alınır və qanuna uyğun olaraq maliyyə nəzarəti altındadır) əslində bütün sosial-siyasi strukturlar üçün səciyyəvidir. Adi təsəvvürlərin əksinə olaraq, çox vaxt L.təkcə gizli ələalma deyil, həm də dəlillər sistemi. əməli sosial aktların hazırlanması və qəbul edilməsi mexanizmidir. L. çoxpilləli hadisədir. Onun zirvəsində qərarları təklif edən və ya

həyata keçirən siyasətçi (yaxud siyasətçilər qrupu) dayanır: orta pilləni çoxminlik ekspertlər, məsləhətçilər, icraçılar dəstəsi təşkil edir; çox vaxt bunlar keçmiş məmurlar, dövlət xadimləri, peşəkar hüquqşünaslar, ictimai rəyə dair mütəxəssislər və s. Bünövrəni isə bu və ya başqa sosial, siyasi, etnik və s. qrup, hərəkat təşkil edir. L.-in bir sıra mexanizləri nəzarət altındadır, lakin bu fenomenin özünün təbiəti belə nəzarətin tam mümkünlüyünü istisna edir. ABŞ-da ən güclü L. hərbi-sənaye kompleksi sayılır.

LOYALLIQ (ing. və fr. loyal - vəzifə borcuna və öhdəliklərə sadiq, hakimiyyətə tərəfdar olmaq) - hakimiyyət orqanlarına hörmət və qüvvədə olan qanunlara sadiqlik. Latınca legalis (qanuna sədaqətli) sözünün hərfi tərcüməsi olan bu söz sivilizasiyaya xas olan qanuna hörmət fenomeninin varisliyini göstərir. L. fərdin, cəmiyyətin və dövlətin, ən müxtəlif dərəcədə ümumiliyi olan sosial qrupların, siyasi ittifaqların və qruplaşmaların qarşılıqlı təsirinin ən mühüm siyasi-psixoloji mexanizmlərindən biridir.

"Dövlət" sözü kimi qəbul edilmiş **L.** termini inqilabi dəyişikliklər zamanı "qanuni" monarxiya rejimlərinə sadiqliyi bildirmək üçün işlədilirdi. XVII əsrin ortalarında İngiltərədə monarxiyanın, 1688-ci il "şanlı inqilabından" sonra Stüartlar sülaləsinin tərəfdarlarını, XVIII əsrdə Fransada Burbonlar kral sülaləsinin, loyalistlər (çox vaxt - royalistlər) adlandırırdılar. Amerikanın istiqlaliyyəti uğrunda müharibə zamanı Böyük Britaniyaya sadiq kolonistlərə də (əksəriyyəti Kanadaya mühacirət etmişdir) loyalistlər deyirdilər. Buna görə də onlar siyasi təzyiqlərə məruz qalırdılar. Lakin siyasi həyatın sabitləşməsi ilə **"L."** termini nəinki məqbul, həm də mötəbər ifadəyə çevrilmişdir. Ümumən götürdükdə, loyal vətəndaş - vicdanlı, özünə və ətrafdakılara inanan, qanuna hörmət bəsləyən fərd, ölkəyə və onun əsas təsisatlarına sədaqətli şəxsdir. Loyal məmur yalnız vəzifə borcuna tabedir, qanunu həyata keçirir və sosial, siyasi, etnik və s. mənşəli ötəri dəlilləri inkar edir, loyal dövlət başçısı yalnız hüquq normalarına arxalanmaqla bütün vətəndaşların və onların qruplarının müdafiəsinə meyllidir. **L.** həm də (ənənəvi) institutlarda - ailədə, partiyada, həmkarlar ittifaqında, digər könüllü təşkilatlarda bərqərar olmuş prinsipə və ya prinsiplər qrupuna sadiqlik deməkdir.

L. fenomenində daxili, şəxsi və xarici, sosial mənada ifadə olunan cəhətləri fərqləndirmək olar.

"L." termini sosial-siyasi qruplar və institutlar, ilk növbədə dövlət, siyasi ittifaqlar, qanun barədə işlədiləndə daha çox aydınlıq kəsb edir. Bir sıra ölkələrdə müəyyən siyasi rəübətləri ilə seçilən və siyasi məsələlərdə iştirak edən vətəndaş qruplarına, eləcə də məmurlara münasibətdə "loyallıq andı" mövcud idi. Bəzi hüquqşünasların və politoloqların fikrincə, bu, vətəndaşların öz sosial-siyasi baxışlarını müstəqil müəyyən etmək, ABŞ Konstitutisiyasının və 1974-cü il, "Prayvesi aktının" müəyyən etdiyi "özü ilə təkbətək qalmaq" imkanını və hüququnu pozurdu.

L.-ın ziddinə olaraq, qeyri-loyallıq - cəmiyyət, yaxud fərdlər qruplaşmalarının qoyulmuş öhdəliklərinə birbaşa biganəlik

deməkdir. Hüquqi baxımdan casusluq, sabotaj, düşmən ideologiyaya nümayişkarənə sadiqlik qeyri-loyal hərəkətlər sayılırdı və sayılmaqdadır. Ümumən isə demokratik cəmiyyətlərdə belə bir müddəa üstün yer tutur: vətəndaşın həqiqi azadlığı - həqiqi loyallığın rəhnidir.

Politologiya sahəsindəki son araşdırmalara görə, muzdlu işçilərin işverənə münasibətində olduğu kimi, dövlətə münasibətdə də vətəndaşların **L.**-ının səviyyəsi aşağı düşür.

Hazırda ölkəyə, pula, siyasi ideyalara sadiqlik az hiss olunur və az təzahür edir. Boş vaxtdan səmərəli istifadə etmək, müxtəlif siyasi dəyərləri seçmək və əlaqələndirmək imkanı və bacarığı daha çox qiymətləndirilir. Həm də bu zaman belə davranış şüurun qloballaşdırılması ilə əlaqələndirilir və ona görə də, müəyyən mənada, ümumən Yer kürəsinə münasibətdə **L.** hissinin meydana gəlməsindən və formalaşmasından da danışmaq olar. Futuroloqlardan Nesbit və Aberden belə yazırlar: "XX əsrin son illərinin böyük birləşdirici mövzusu fərdiliyin təntənəsidir. Əslində bütün əsr ərzində totalitarizm tərəfindən qorxudulmuş fərdlər üçüncü minilliyi indiyədək olduğundan daha güclü fərdiliklə qarşılayırlar. İstər kişi, istər qadın olsun - məhz fərdilik özünü dəyişərək, son nəticədə cəmiyyəti də dəyişir. Hazırda fərdilik dəyişikliyə institutların əksəriyyətindən daha səmərəli təsir göstərə bilir". Futuroloqlar daha sonra yazırlar ki, fərdlər yeni qlobal siyasi reallıq da yaradır, **L.**-ın əvvəllər məlum olmayan bir növünü - bütün Yer kürəsinə münasibətdə **L.** formalaşdırırlar.

LÜMPENLƏR (Lumren - cır-cındır) - sinfi simasını itirmiş təbəqələrə verilən ümumi ad.

LÜMPEN PROLETARİAT (alm. lumren - cır-cındır sözündən) - cəmiyyətin ən aşağı təbəqələri, adətən proletariatın sinfi və mənəvi simasını itirmiş, müstəqil mütəşəkkil hərəkata qadir olmayan hissəsi. Qərb tədqiqatçılarının əksəriyyəti haqlı olaraq belə hesab edir ki, bu termin ilk dəfə marksizmdə işlədilmişdir. Marksizm istiqamətində **L.p.**-ın təhlilini davam etdirən Avstriya marksisti O.Bauer bu təbəqənin siyasi fəallığının artmasını faşizmin meydana çıxması ilə əlaqələndi-

rirdi. A.Kestler böhranlar dövründə ziyalılar təbəqəsini bildirmək üçün 1944-cü ildə "lümpen burjuaziya" termini işlətmişdir. 40-cı illərin axırlarından başlayaraq sadəcə olaraq "lümpen" sözü işlədilir, 60-cı illərdə isə "lümpen avanqard" və "lümpen kütlələr" terminləri meydana gəlmişdir. Ümumən götürdükdə **L.p.** fenomeni iqtisadi və politoloji məna ilə çətin məhdudlaşır. Bu, analitik terminдən daha çox mürtəce ideologiya və hərəkatların güclənməsinə və hətta meydana çıxmasına kömək edən sosial böhran və dezinteqrasiya şəraitini aşkar etmək üçün söz-göstəricidir.

Qədim Romada **L.p.** "şəhər qaraığruhunu"təşkil edir və əsasən sinfi simasını itirmiş, iqtisadi baxımdan tüfeyli ünsürlərdən ibarət idi.

"Çörək və əyləncə" - həmin təbəqənin şüarı idi. Sosial təbəqə kimi **L.p.** başqa sinfi cəmiyyətlərdə də olmuşdur.

Kapitalizmin ilkin mərhələsində pauperləşmənin (kütləvi yoxsullaşma) nəticəsi olan **L.p.** "əmək ordusu" ehtiyatlarına daxil idi və həmişəlik ehtiyatda qalmağa üstünlük verirdi. Sosializmdə **L.p.**-ın tamamilə aradan qalxacağı barədəki fikir empirik cəhətdən təsdiq olunmadı. Üstəlik, həyat göstərdi ki, bərabər bölüşdürücülüyün üstün olması, sosial-psixoloji baxımdan qeyri-əməli olan "yoxsulların mədhi", siyasi proseslərin həddindən artıq, əslində isə çox vaxt dekorativ kütləviləşdirilməsi hesabına sosializm çərçivəsində tüfeyli həyat sürmək üçün yeni imkanlar açıla bilər. SSRİ-də 30-40-cı illərdə bu təbəqənin "aradan qaldırılması" elan edilsə də, həyata keçirilə bilmədi. Ötən əsrin 50-80-ci illərində lümpenləşmənin gizli formaları nə rəhbər dairələr, nə də cəmiyyətin "təbəqələri olan" ikisinifli modelinə istiqamətlənən tədqiqatçılar tərəfindən nəzərə alınmırdı. Son vaxtlar kütləvi informasiya vasitələri **L.p.**-ın bəzi nümayəndələrinə getdikcə çox diqqət versə də onun taleyi barədə hələlik real proqnoz yoxdur.

Müasir **L.p.** həddindən artıq sosial tələblər və iddialar irəli sürməsi, bunların həyata keçirilməsinə isə səy göstərmək istəməməsi ilə fərqlənir. Onun

mövcudluğunun bəzi formaları ötəri, keçicidir (məs., hippilər əslində sıradan çıxmışdır), digərləri isə (işsizlər, dilənçilər və s.) daha sabitdir. Müəyyən hallarda onlar hakimiyyətə can atan mürtəce qüvvələr (bonapartçılığın, faşizmin, anarxizmin ifrat formaları) üçün ehtiyat, yaxud hətta baza ola bilər. İşsizliyin artması, hüquqi nihilizm, sosial müdafiənin olmaması, mədəni səviyyənin aşağı düşməsi, eləcə də sosial məsuliyyətsizlik, siyasi süstlük, mənəvi pozğunluq mühiti lümpenləşməni sürətləndirir.

M

MAFİYA (ital. mafia, maffia), siyasətdə - qarşıya qoyulmuş iqtisadi, siyasi məqsədlərə və ya kadr nəticələrinə nail olmaq üçün şəxslərə, dövlət idarələrinə və ictimai təşkilatlara qanunsuz, cinayətkar təsir göstərilməsi.

MAJORİTAR SİSTEM (fr. moyorite - əksəriyyət) - seçki hüququnda səsvermənin nəticələrini müəyyən etmək qaydası: dairə seçkilərində səslərin əksəriyyətini almış namizəd (yaxud, namizədlərin siyahısı) seçilmiş sayılır.

MAKİAVELLİZM (italiya siyasi xadimi Nikkolo Makiavellinin (1469-1527) adı ilə bağlıdır) - qarşıya qoyulmuş məqsədə çatmağını heç bir vasitədən çəkinməyən siyasi fəaliyyət obrazı.

MANDAT (lat. mandatum) - 1) səlahiyyət; 2) buyuruq; 3) tapşırıq; 4) hər hansı bir rəsmi şəxsin səlahiyyətini təsdiq edən sənəd.

MANİPULYASİYA - (fr. manirulation, lat. manirulus - ovuc), siyasətdə - 1) fırıldaq; 2) qeyri-real təsəvvürlərin tətbiqinə istiqamətlənmiş psixoloji təsir sistemi.

MARGİNALLIQ (lat. margo - kənar) termini sosial subqrupların nümayəndələrinin şüur və davranışının xüsusi cəhətlərini bildirmək üçün işlədilir. Həmin qrupların nümayəndələri müəyyən səbəblərə görə böyük referant birliyə qoşulmağa qadir olmayıb ona qarşı marginal kimi çıxış edirlər. Marginal şəxsiyyət dəyişdirilmiş dəyərlər sistemi olan cəmiyyətə zidd birliklər yaradılmasına meyl edir. Son vaxtlar marginal təbəqələrin öz iradəsini böyük referant qrupa qəbul etdirmək, onu özünə tabe etmək və özünün cəmiyyətə zidd təşkilatını hakim təşkilata çevirmək cəhdləri diqqəti cəlb edir. Özünün cəmiyyətə zidd dəyərsizliklərini ölkənin bütün əhalisinə qəbul etdirən marginal qrupların sərt diktaturası kimi stalinçiliyi misal göstərmək olar. Eyni zamanda nəzərə almaq lazımdır ki, **M.** pozitiv rol oynaya bilər. Belə ki, cəmiyyətin daha enerjili, təhsilli nümayəndələri marginallaşmaya

məruz qalırkən, birgə yaşayışın yeni formalarını məhz onlar hazırlamağa qadir olurlar.

MASONÇULUQ (ing. free masoury və fr. franc magon - azad bənna) - XVIII əsrin əvvəllərində ingiltərədə yaranmış dini-etik hərəkat. "Britaniya Ensiklopediyası" bu terminə "dünyada ən böyük gizli təşkilat olan gizli qardaşlıq ordeninin təlimi və praktikası" kimi tərif verir. Bu tərifi hakimiyyət strukturlarına "maarifləndirici" təsir göstərmək və həmin strukturlara nüfuz etmək məqsədi daşıyan əxlaqi-etik hərəkat kimi də şərh etmək olar. 80-ci illərin əvvəlində "Britaniya Ensiklopediyası"nın yazdığına görə, dünyada 6 milyon masondan 4 milyonu ABŞ-da və 1 milyonu Böyük Britaniyada yaşayırdı. "ümumdünya Ensiklopediyası"nın məlumatına görə isə, 1986-cı ildə ABŞ-da 3,25 milyon, digər ölkələrdə 1,5 milyon mason var idi. əgər XX əsrin əvvəlində Qranat lüreti təkcə ABŞ-da 5 milyon mason yaşadığını yazırdısa, hesab etmək olar ki, onların sayı azalmaqdadır (hərçənd, M. haqqında statistika həmişə təxmini rəqəmlər əsasında qurulmuşdur).

Tanrını kainatın Böyük memarı sayan masonlar özlərini Tanrının şərəfinə və müdrikliyinə bina ucaldan bənnalar hesab edirlər. Buna müvafiq olaraq **M.**-un başlanğıcı da təfsir edilir, **M.** piramidalar, sonralar isə xristian (qotik) məbədləri ucaldan insanlarla əlaqələndirilir. Belə mənşəyin izləri müasir **M.**-un büt (kult) rəmzində (pərgar, çəkic, önlük, və s.) əksini tapmışdır. Bununla belə, ilk **M.** təşkilatı çox gec, 1717-ci ildə İngiltərədə yaranmış, sonra Avropanın digər yerlərinə, Şimali və Cənubi Amerikaya (burada müstəmləkəçilik qaydalarını müdafiə edən katolik kilsəsi ilə qarşıdurmada idi) yayılmışdır. Masonlar hələ Fransa inqilabından əvvəl bərabərlik (dünyanın qurucusu olan Tanrı qarşısında), azadlıq (ciddi etik normalara tabe olmaqla mənəvi azadlıq), qardaşlıq (əvvəlcə yalnız **M.**-un idellarını qəbul edənlərin, sonralar isə bütün adamların qardaşlığı) ideallarını əsaslandırmışlar. Masonlar öz təşkilatlarının üzvlərinin dini mənsubiyyətinə fərqli yanaşsalar da, müxtəlif etiqadlardan olan kil-

sələr tərəfindən həmişə düşmənçiliklə qarşılaşmışlar. Masonlar insanların mənəvi tərbiyəsinin mühümlüyünü qəbul edən hər bir siyasi strukturu məqbul sayırlar. M.-un siyasi meylləri birmənalı deyildir. Bununla belə, onların hakimiyyət strukturlarına, bunların vasitəsilə də idarə olunanlara "təzyiqli maarifçiliyi" istər hökumətlər, kilsələr, müəyyən siyasi partiyalar, istərsə də kütlələr tərəfindən mənfi qarşılanırdı. Amerika, İngiltərə və İsveçdə, bir qədər az miqyasda isə Almaniya və Fransada M. dövlətin "mühafizə" vəzifələrinə razılıq verirdi. M.-un inqilabi potensialı əsasən "ucqar" ölkələrdə - Polşada (illüminatorlar), Italiyada (karbonarilər), Rusiyada (burada dekabristlər ilə bağlı idilər), Latın Amerikasında (istiqlaliyyət uğrunda mübarizə liderlərinin əksəriyyəti masonlar idi) özünü göstərirdi. XX əsrdə masonzuluq SSRı-də, sonra isə Şərqi Avropa ölkələrində aradan qalxmışdı, nasizm dövründə təqib olunurdu. M.-un siyasi vəzifələri və məqsədlərinin statusu kifayət qədər müəyyənləşdirilməmişdir. (hətta konkret sosial-siyasi şərait və strukturlar *nəzərə* alınmaqla, M.-un prinspial fövqəlmilliliyinə görə müəyyənləşdirilə bilməz; eyni zamanda məhz masonların təlimi "gizli" sayılır, baxmayaraq ki, onların məqsədləri aşkar və Yüksək zəka ilə həmahəng kimi göstərilir). M.-un real təsiri çox vaxt şişirdilir, bu da siyasi miflər və mühtəkirlik üçün zəmin olur. Məs., ekspansionizmin "günahları", *eyni* zamanda ayrıca bir dinə və millətə *mənsub* olmaq onların adına çıxılır (inqilabın "yəhudi-mason" sui-qəsdinin məhsulu olması kimi bayağılaşdırılmış təsəvvürlərə indi də rast gəlinir). əgər sakit vaxtlarda "varlı" ölkələrdə M.-un rolunun siyasi təfsirlərinin yönümü onun məqbulluğuna və hətta təşviq edilməsinə istiqamətlənmişdisə, "yoxsul" ölkələrdə və hərc-mərclik dövrlərində M.-da ancaq qeyri-sabitliyin mənbəyini, bəzən isə səbəbini görürlər.

M. və onun mənşəyi barədə müxtəlif fikirlər mövcüddur. Tədqiqatçıların bəziləri onun ilk dəfə Şərqdə yaranaraq Qərbə keçdiyini, oradan isə ideoloji cərəyan kimi yenidən Şərqə

qayıtdığını göstərirlər.

MEMORANDUM (lat. memoraundum - yadda saxlanılmalı şey) - 1) Beynəlxalq münasibətlərdə diplomatik yazışma forması; xatırlatma notasına oxşayır. Burada M.-un göndərilmə səbəbi ilə əlaqədar məsələnin faktik hüquqi, yaxud sənəd hissəsi şərh edilir. Cox zaman möhürsüz, imzalanmadan müstəqil sənəd kimi təqdim olunur. 2) Ticarətdə məsələlərə dair xatırlatma məktubları. 3) Sırorta zamanı (xüsusən dəniz daşınmalarında) sırortanın zərəri ödəməkdən imtina etməsi hallarının siyahısı.

MENTALİTET (ing. mentality) - ümumiləşdirilmiş, obrazlı, siyasi-publisistik anlayış olub sözün geniş mənasında müxtəlif psixi xüsusiyyətlərin və keyfiyyətlərin, əlamətlərin və təzahürlərin məcmusunu, təşkilinin özünəməxsus formasını, xüsusi tərzini bildirir. əsasən təfəkkürün, zəka və ya hətta əhval-ruhiyyə tərzinin orijinal üsulunu bildirmək üçün işlədilir (məs., milli, türk, alman M.-i , yaxud regional-Qafqaz, Skandinaviya M.-i; sosial qrupun, təbəqənin, sinfin-xırda burjua, ziyalı M.-i və s.). "M." anlayışı bəzən onun daşayıcılarının təfəkkür qabiliyyətini və intellekt səviyyəsini (xüsusən "yüksək", "aşağı", "zəngin", "yoxsul" və s. kimi sifətlərlə yanaşı işlədilməklə) əks etdirir. Bundan əlavə, siyasi-ideoloji xarakterli məzmun yükü də daşıya bilər (məsələn, liberal, demokratik, totalitar, inqilabi, mürtəce M. və sairə).

Vaxtilə "M." anlayışını ictimaiyyatşünaslıra tarixi-psixoloji və mədəni -antropoloji istiqamətlərin nümayəndələri L. Levi-Brül, L.Fevr, M.Blok tətbiq etmişlər. ılk vaxtlar M. hər şeydən əvvəl insanların milli-etnik və sosial-mədəni birliyi sayılan bu və ya digər cəmiyyətin nümayəndələrində onlara özlərinin təbii və sosial əhatəsini, həmçinin öz-özlərini qavramağa və dərk etməyə imkan verən hansısa müəyyən bir ümumi "əqli komplektin", bir növ "psixoloji dəstgahın" olduğunu bildirirdi. Sonralar "M." anlayışından həm də insanların sosial və kifayət qədər qapalı olan hər hansı birliyin üzvlərinin siyasi şüurunun və özünüdərkinin xüsusiyyətlərini və əlamətlərini təsvir

etmək üçün istifadə olunmağa başladı.

Daha məhdud siyasi mənada **M.** sosial-siyasi qrupun, yaxud təşkilatın bütün üzvləri üçün ətrafdakı sosial-siyasi reallığı eyni cür qəbul etməyə, onu qiymətləndirməyə və müəyyən dərəcədə bərqərar olmuş davranış normaları və nümunələrinə müvafiq hərəkət etməyə, həm də bu zaman bir-birini eyni şəkildə başa düşməyə imkan verən xüsusi siyasi-psixoloji tezisdir. Bu halda ümumi M. özlüyündə onun bütün üzvləri üçün belə vahid əsasda insanların xüsusi siyasi-psixoloji birliyini yaradan təşkiledici amildir.

Funksional sosial-siyasi baxımdan bu və ya başqa qrup üçün ümumi olan M. ilk növbədə nisbətən sabit, lakin xususən böhranlı vəziyyətlərdə həmin qrupun mövcudluğunun, davranışının dayanıqlığının varisliyini qoruyub saxlamağa kömək edir. həmin böhranlı vəziyyətlərin əsas xüsusiyyəti **M.**-ə dağıdıcı təsir göstərməsindədir ki, bu, **M.**-in bütövlüyünü və insanların davranışını eyniləşdirmək xarakterini təhlükə qarşısında qoyur, ekstermal, həddən artıq güclü təsir isə qrupun üzvləri üçün **M.**-in birliyinin qeyri-sabitliyinə, təbəqələşməsinə və pozulmasına gətirib çıxara bilər. Belə şəraitdə həmin birliyin nümayəndələrində davranışdan çoxsaylı kənaraçıxmalar, kəskin psixoloji böhranlar əmələ gəlir, bu isə həm də sosial -siyasi nəticələrə səbəb olur: birlik sosial-siyasi baxımdan ilk növbədə (bəzən isə yalnız) pozuculuğa, çox vaxt nəinki sosial zəmini dağıtmağa, həm də belə birliyin özünüaşındırmaq təhlükəsi doğurmağa qadir olur.

Belə hallarda insanların davranışını müəyyənləşdirən əvvəlki sabit sosial-siyasi qurumların dağılmasının müəyyən mərhələsinin ifadəsi kimi şüurun strukturunda və ümumən psixikada xüsusi, "böhran **M.**-i" (yaxud "pozulmuş şüur") yaranır. Müxtəliflik sistemsizlik, bütövlük və sabitliyin olmaması, şəraitdən asılılığı və fasiləsiz dəyişməsi onun başlıca xüsusiyyətlərindəndir. Böhrandan əvvəlki, kifayət qədər sabit və strukturlaşmış **M.**-dən fərqli olaraq, böhranlı **M.** qeyri-sabit xarakter daşıyır. Məs., bu cür **M.** ictimai həyatın tam bir sıra

formalarının (sosial-siyasi plüralizm, çoxukladlı iqtisadiyyat, çoxpartiyalılıq və s.) yaranması ilə səciyyələnən dövrdə - totalitarizmdən demokratiyaya kəskin şəkildə keçid dövründə meydana çıxır. Bu dövrün çətinlikləri ona gətirib çıxarır ki, ictimai dəyişikliklər cəmiyyətin kütləvi **M.**-i tərəfindən dəstəkdən məhrum olur və cəmiyyət üzvlərinin psixologiyasının əlavə müqavimətini dəf etmək məcburiyyəti qarşısında qalır.

MER (fr.marie, lat. mayor - keçmiş, böyük) - bələdiyyənin, yaxud bəzi ölkələrdə bələdiyyə idarəetmə orqanının başçısı.

MERİTOKRATİYA (lat. meritus - layiqli və yun. kratos - hakimiyyət) - fərdi xidmətlər prinsipinə əsaslanan idarəçilik forması. Belə hakimiyyət formasında cəmiyyətin idarə olunmasına daha layiqli, səriştəli və istedadlı adamlar gəlirlər.

"M" terminini ilk dəfə ingilis sosioloqu M.Yanq işlətmiş, lakin postindustrial cəmiyyət konsep siyasında daha dolğun və praktik işlənib hazırlanmışdır. Bu konsepsiyanın nümayəndələrinə görə, **M.** ideyası liberalizmin klassik prinsipindən, yəni imkanların bərabərliyindən doğur. Konsepsiyanın müəlliflərindən biri D. Bellin fikrincə, əvvəlki cəmiyyətlərdə sosial stratifikasiya "adına layiqlik prinsipi" əsasında baş verirdi (yəni hakimiyyətə əsilzadə nəslindən olduğuna, kapitalın varisliyinə və s. görə gəlirdilər). Postindustrial cəmiyyətdə "nailiyyət prinsipi" qüvvədədir, başqa sözlə, hakimiyyətə şəxsi ləyaqət, yüksək təhsil səviyyəsi, səriştə və s. sayəsində nail olurlar. Belə cəmiyyətdə hakimiyyət statusunun sosial bazası dəyişir: alınmış bilik və yüksək peşəkarlıq şəxsi və mənəvi üstünlüklərlə birlikdə hakimiyyət nərdivanında yüksək pilləyə qalxmaq üçün kifayət qədər əsas ola bilər. Postindustrial cəmiyyət biliklər cəmiyyətidir, biliklərin cəmləşməsi və alınması mərkəzi kimi isə universitetlər onun mərkəzi institutlarına çevrilir, çünki hakimiyyət strukturunda yüksək yerə daha real iddiaçılar, alimlər və yüksək ixtisaslı mütəxəssislər sayılırlar. Meritokratik elitanı məhz onlar təşkil edirlər. Lakin konsepsiya müəlliflərinin dediyi kimi, idarəçili-

yin bu forması cəmiyyətdə yeni sosial bərabərsizliyin mənbəyi ola bilər ("kapitalizmin mədəni ziddiyyətləri").

MESSİANİZM (qədim yəhudi dilində "maşnax" - padşah sözündən) - 1) dünyanın xilaskarı haqqında dini təlim: 2) hər hansı xalqın, dövlətin, ictimai qrupun, təşkilatın, şəxsiyyətin dünya inkişafının, ictimai qayda-qanunun, tarixən konkret böhran vəziyyətinin gedişinin yaxşılıra doğru dəyişməsində xüsusi rolu haqqında görüş.

1. M.iudalizmdə Yer üzərinə Allahın elçisinin - məsihanın gələcəyi və onun Allaha xoş gedən ədalətli qayda-qanun yaradacağı barədə rəvayət, ictimai işlərdə fövqəltəbii qüvvələrin köməyinə ümidin ifadəsi kimi meydana çıxmışdır. İlk vaxtlar taxta çıxma mərasimində xeyir-dua almış padşaha məsiha deyirdilər. Qədim yəhudi dövləti dağıldıqdan sonra onun gələcəkdə Allahın elçisinin - məsihanın köməyi ilə bərpa ediləcəyi haqqında təsəvvürlər formalaşmışdı. Guya o, Yəhva allahın onun himayə etdiyi yəhudi xalqı ilə müqaviləsini bərpa edərək, Yer üzərində yəhudilərin qələbəsini və yadellilərin zülmündən xilasını təmin edəcəkdir. Bibliya peyğəmbərlərinin kitablarında belə qələbə yəhudi xalqının taleyinə fövqəltəbii qüvvələrin müdaxiləsi ilə şərtləndirilmişdir. Tarixən yəhudi dövlətinin bərpası üçün göstərilən çoxsaylı cəhdlərin məğlubiyyətə uğraması məsiha obrazında və onun xalqla qarşılıqlı münasibətlərində mistik cəhətlərin güclənməsinə kömək etmişdir.

Yəhudi M.-nin ideyalarını özümsəmiş və yenidən işləmiş xristianlıqda isanın - Iisus Xristosun yer üzünə iki zühuru haqqında təlim yaranır. O, birinci zühurunda insanlara yeni yevangelist təlimini elan edir, çarmıxa çəkilməklə Adəm və Həvvanan ilkin günahını yuyaraq nicat ümidi verir. Gözlənilən ikinci zühuru zamanı isə o, Qiyamət günündən sonra Yer üzündə ədalətli Allah səltənəti quraraq bəşəriyyəti fəlakətlərdən xilas edir. Yəhudi M.-indən fərqli olaraq, xristian M.-i milli müstəsnalıq ideyasını, təkcə bir xalqın, yəni Allahın seçdiyi xalqın xilası haqqında ideyanı inkar etmişdir.

2. Messia baxışları mürəkkəb tarixi təkamüldən keçmişdir. Bu baxışlar sionist ideologiyasında özünəməxsus dəyişikliyə uğramışdır. Həmin ideologiya "İsrail xalqının" Fələstin ərazisində öz dövlətinə malik olmaq üçün müstəsna hüququnu, onun təhlükəsizliyini təmin etməkdən ötrü bütün vasitələrdən (o cümlədən hərbi terrorzuluq vasitələrindən) istifadə etmək hüququnu iddia edir. Səlib yürüşləri və dini müharibələr, bir qayda olaraq, bunların təşəbbüskarlarının xüsusi dini missiyasının olması ilə ilhamlandırılırdı. Guya bu missiyanın yerinə yetirilməsi "Allaha xoş gələn işdir" və Yer üzündə "həqiqi" din yeni qayda-qanunu bərqərar edəcəkdi. Moskva dövlətinin "üçüncü Roma" kimi xüsusi tarixi rolu haqqındakı fikirlərin əsasında da messia təsəvvürləri dayanırdı.

Dünyəvilləşdirmə (sekulyarizasiya) proseslərinin inkişafı ilə tarixi prosesin izahının messia "modelləri" tədricən dini məzmununu itirir. "Xüsusi" tarixi missiya təkrarsız sosial-iqtisadi amillərin, milli-psixoloji keyfiyyətlərin və mədəni hadisələrin əlaqələndirilməsi, bu və ya digər ictimai-siyasi hərəkatın rəhbərlərinin xarizmının tanınması, onların başçılıq etdikləri və guya tarixdə bənzəri olmayan partiya və hərəkatların nadir xüsusiyyətləri ilə izah edilir (**bax; XARİZMA**). İctimai inkişafın böhranlı dövrlərində bir qayda olaraq, sosial-iqtisadi və siyasi həyata fövqəltəbii müdaxiləyə kütləvi inam canlanır; iri ictimai qüvvələrin (hərbi qüvvələr də daxil olmaqla) rəhbərlərinə "millətin xilaskarı" titulları verilir: onların vaxtında fəhmlə əsaslandırılmış qərarlar qəbul etmək xüsusiyyətinə malik olması, dövlət vəzifələrində, ictimai vəzifələrdə fərasət, müdriklik, fədakarlıq göstərməyə qadirliyi təblir edilir. Messiançı intizam şəxsiyyətə pərəstişin təbliri, partokratiyaya və hərbi-polis diktaturasına haqq qazandırmaq məqsədi ilə ictimai şüuru azdırmaq üçün əlverişli sosial-psixoloji zəmindir.

METROPOLİYA (yun. metrorolis; meter - ana və rolis - şəhər) - 1) müstəmləkələri olan qədim yunan şəhərləri (polisləri). 2) müstəmləkə iörallarının dövründə "M." termini adətən

xaricdə müstəmləkələri olan dövlətləri bildirmək üçün işlədilirdi. 3) Bəzi dövlətlərdə (məs., Kanadada) əyalətin, yaxud vilayətin mərkəzi şəhəri. Bəzən dövlətlərin paytaxtlarına da M. deyilir.

MƏCBURİYYƏT - yüksək dərəcədə göstərilən təzyiqlə, yaxud sui-qəsdlə xarakterizə olunan təsir forması. **M.** bir sıra davranışda ifadə oluna bilər: iqtisadi, sosial, yaxud siyasi hədədən güc tətbiq etmək təhlükəsi yaratmağadək, yaxud gücün tətbiqinədək; bəzi müəlliflər təsir, hakimiyyət və M. terminlərini fərqləndirərkən təsiri bu anlayışlar içərisində hər şeyi daha çox əhatə edən, bütün təhrik, yaxud vadaretmə vasitələrini özündə birləşdirən anlayış kimi nəzərdən keçirirlər. Bu cür sxemdə hakimiyyət vadar etmədən, yəni ciddi ziyan vurmaq qorxusundan və yaxud tabe olmamaq üstündə sərt şəkildə məhrum etməkdən törəyən təsir forması kimi təsvir olunur. **M.** öz növbəsində məcbur edilən qarşısında onun necə hərəkət etməsindən asılı olmayaraq ciddi ziyan, yaxud onu gözləyən sərt məhrumetmə perspektivi kimi çıxış edir. əslində isə məcbur ediləndən ötrü tabe olmamaq onun üçün cəza yaradır, lakin tabe olmaqla da ciddi ziyana məruz qala bilər. **M.**-i bəzi avtoritar hakimiyyət səlahiyyətinə qarşı qoyurlar. Hesab edirlər ki, sonuncu legitim təsirdir. **M.** isə legitim olmayan vadar etmədir.

M. analitik kateqoriya olub hakimiyyət, təsir və avtoritar hakimiyyət səlahiyyəti anlayışları ilə sıx bağlıdır. Fiziki M.-i qanuni tətbiq etmək iddiası dövlətin fərqləndirici əlamətidir. əsasında M.-in durduğu qarşılıqlı münasibətlər, təsirlər mahiyyətcə dərin konfliktə malik olur, tipik hallarda isə güc tətbiq olunması ilə nəticələnir. Beynəlxalq siyasətdə rəqib dövlətlər tərəfindən həyata keçirilə biləcək **M.** qarşısında qorxu son nəticədə sürətlə silahlanmanı, ittifaqların bağlanmasını və təhlükəsizlik naminə digər tədbir formalarını stimullaşdırır, hər bir səviyyədə düşünülmədən tətbiq olunan **M.** güclü açıq toqquşmalara gətirib çıxara bilər.

MƏDƏNİ İNQİLAB - inqilabdan sonra ziyalıların sosial tərkibinin dəyişdirilməsinə və

inqilabaqədərki mədəni irsin ənənələri ilə əlaqələrin kəsilməsinə yönəldilmiş tədbirlər; Ötən əsrin 20-ci illərində SSRİ-də, 60-cı illərdə isə CXR-da M.i.-dan partiyadaxili siyasi mübarizə və diktator rejimlərinin möhkəmləndirilməsi vasitələrindən biri kimi istifadə olunmuşdur.

MƏMUR - dövlət qulluqçusu.

MƏRKƏZ - 1) Ölkənin siyasi məkanında və onun regiondakı, rayondakı siyasi sistemində, sivilizasiya və ya dünya birliyi miqyasında üstünlük təşkil edən hakimiyyətin cəmləşməsinin və onun atributlarının (gücünün, hökmranlığının, təsirinin, nüfuzunun, vəzifələrinin), siyasətin formalaşdırılmasının, idarəetmənin, nəzarətin həyata keçirilməsinin və s. adı. Siyasi məkanın ərazi miqyasına və **M.**-in əhəmiyyətinə uyğun olaraq dövlət, vilayət, rayon hakimiyyəti **M.**-i, beynəlxalq təşkilatları idarəetmə **M.**-i, ayrı-ayrı ölkələrlə təmsil olunan dövlətlər bloklarında və dünyanın regionlarında təsir **M.**-i və s. fərqləndirilir. Adı siyasi dildə paytaxt, inzibati idarəetmə mərkəzi (rayon M.-i) və s. mərkəz adlanır. Beynəlxalq münasibətlərdə "güc **M.**-i", yaxud "təsir **M.**-i" haqqında da təsəvvürlər var. Bu mənada həmin ifadə ayrılıqda götürülmüş regionun və ya müttəfiq dövlətlər blokunun daxilində "Cazibə **M.**-i" rolu oynayan aparıcı dünya dövlətlərinin, yaxud bir dövlətin rolu ilə bağlıdır.

Siyasi **M.**-in meydana gəlməsi tarixən hakimiyyətin mərkəzləşməsi və təmərküzləşməsi prosesi ilə, onun rəhbər idarələrinin və siyasətdə mərkəz-əyalət münasibətləri sisteminin formalaşması ilə bağlıdır. Belə sistemdə siyasi əyalət **M.**-ə tabe olan siyasi məkanın sadəcə doldurulması demək deyildir. O, siyasi münasibətlərin, əsas kütləsini siyasi **M.**-in siyasi, sosial iqtisadi və mədəni əsasını yaradır. Belə əyalətin inkişafı **M.**-in demokratik siyasi proses vasitəsilə həyata keçirilən ən mühüm vəzifəsidir. Ölkənin və onun **M.**-inin həyat qabiliyyətini məhz əyalətin inkişafı təmin edir. əyalət ölkənin və ya ölkələr qrupunun siyasi həyatında bu rolunu yalnız mərkəz-əyalət münasibətlərinin demokratik qaydada təşkili, hə'imiyyətin

mərkəzləşdirilməsi və mərkəzsizləşdirilməsinin səmərəli uyğunlaşdırılması şəraitində oynaya bilər. M.-in əyalətləri sıxışdırması, istibdad, avtoritar, mütləq monarxiya rejimlərinə xas xüsusiyyətdir. əyalətə təzyiq göstərmək imperiya rejimlərinin və totalitar rejimlərin kobud səhvi, onların labüd süqutunun səbəblərindən biridir. 2) Parlamentdə mütədil (mərkəzçi) qruplaşmanın, habelə, mütədillərin, güzəştə getməyə meylli mərkəzçi siyasi partiyaların və qüvvələrin adı. Siyasi mərkəzçilik radikal qərarlara və hərəkətlərə mənfi münasibəti ilə fərqlənir: onun sosial bazasını orta təbəqələr, yəni fəhlələr, müxtəlif əmək sahələrində çalışan peşəkarlar, orta təminatlı ziyalılar təşkil edir. Güclü siyasi sabitliyin rəhnidir. Mərkəzçi çoxluq əsasında yaradılan icra hakimiyyəti adətən sabit olur. Belə M. parlamentdə sol və sağ qruplaşmaları müxalifət roluna keçirir. Bununla belə, parlamentdəki sol və sağ çoxluq da M.-i parlamentin müxalifət cinahlarından birinə tərəf sıxışdıra bilər. Parlament M.-i qeyri-sabit və süst, fəaliyyətsiz olduqda, tərəddüd etdikdə, parlamentin sol və ya sağ fraksiyalarının təcrid etdiyi hissələrə parçalana, həmin fraksiyalarla hakim koalisiya yarada bilər. Mütədil mərkəzçi partiyalardan ibarət olan güclü hakim M.-in meydana gəlməsi də mümkündür.

MƏRKƏZÇİLİK - vahid mərkəzdən idarəetmə sistemi; aşağı orqanların yuxarı orqanlara ciddi surətdə tabeçiliyinə əsaslanır.

MƏSCİD (ər. - ibadətxana; ibadət etmək, səcdə qılmaq sözündəndir) - müsəlmanların ibadət yeri. Rəvayətə görə ilk M.Məhəmmədin dövründə Mədinədə tikilmişdir. Sonralar Yaxın və Orta Şərqdə, Orta Asiyada, Azərbaycanda, Hindistanda, İspaniyada və s. ölkələrdə geniş yayılmışdır. Məkkədə tikilmiş "Məscid-ül-həram" ("Beyt-ül-Lah" - "Allahın evi") müsəlman aləmində ən müqəddəs M.hesab edilir.

VII-VIII əsrlərdə düzbucaqlı M.tipləri yaradılmışdır. Qalereya ilə əhatələnmiş dördbucaqlı həyəti olan belə M.-in çoxsütunlu ibadət zalının Məkkə istiqamətindəki (qiblə) divarında bir və ya bir neçə mehrab

yerləşdirilirdi. (Dəməşqdə əməvilər məscidi, 705-715). X əsrdən eyvanlı M.tipi yayılmışdır. Cümə günləri ibadət etmək üçün nəzərdə tutulan iri sahəli, böyük günbəzli M.-lər cümə M.-i, yaxud came adlanır (Qüdsdə Qübbə əs-Səhra (687-691), əlaqsa (VIII əsrin əvvəlləri) məscidi, Təbrizdə Göy məscid, İstambulda Süleymaniyyə məscidi (1550-57), Sultan əhməd məscidi (1609-16). Müxtəlif ölkələrdə yerli memarlıq ənənələrinin təsiri ilə müstəqil M. tipləri yaranmışdır. Şimali Afrika M.-ləri üçün çoxnefli ibadət zalları və stalaktitli günbəzlər səciyyəvidir (Mərakeşdə 17 nefli Qütbiyyə məscidi, 1153). İranda, Mərkəzi və Orta Asiya ölkələrində M.-lərin düzbucaqlı həyəti boyu eyvanlar tikilir, əsas fasadda monumental baştağlar yaradılır (Buxarada Kəlan məscidi, 12 əsr). Türkiyə M.-lərinin əksəriyyətində mərkəzi binanın üstünü örtən böyük günbəzin ətrafında kiçik günbəzlər və yarım günbəzlər tikilir (İstanbulda Süleymaniyyə məscidi, 1557). M.-in minarəsi əsas zalın günbəzi və baştağı ilə birlikdə ümumi həcm kompozisiyanın müəyyənləşməsində mühüm əhəmiyyət kəsb edir. M.-lər adətən yaş suvaq, daş, yaxud ağac üzərində bədii oyma, kərpic, yaxud daş hörüklərdən əmələ gələn naxışlar, şirli keramika, inkrustasiya və divar rəsmləri ilə bəzədilirdi. Müasir dövrdə yeni dəmir-beton konstruksiyaların tətbiqi ilə əlaqədar bir sıra Şərq ölkələrində (Türkiyə, Misir və s.) məscidlərin ümumi kompozisiyasında və daxili quruluşunda müəyyən dəyişikliklər özünü göstərir (məs., Türkiyədə bəzi məscidlərin minarələrinin daxilində pillələr əvəzinə lift qoyulur).

Azərbaycan. M.-ləri, əsasən mərkəzi günbəzlə örtülmüş kubşəkilli binaların (Naxçıvandakı Cümə məscidi, XII əsr, Gəncə cümə məscidi, bir sıra Abşeron məscidləri və s.) və həyət daxilində yerləşərək, ətrafı sıratağlı eyvanlarla əhatələnmiş tikililərdən (Təbrizdəki əlişah məscidi və s.) ibarət olmuşdur. Bəzi hallarda hər iki M.tipi qarışıq şəkildə tətbiq edilmişdir (Təbrizdəki Göy məscid). Azərbaycan M.-lərinin minarələri əsasən binanın baş fasadı tərəfdə simmetrik şəkildə

yerləşir (cütminarəli M.-lər); Şirvan-Abşeron M.-lərində isə minarələr asimmetrik olur (təkminarəli M.-lər).

MİLİTARİZM (fr. militarisime; lat. militaris - hərbi) - xarici və daxili problemlərin hərbi vasitələrlə həllinə yönəldilmiş siyasət.

MİLLƏT (lat. natio- qəbilə, xalq) - müəyyən idraka və psixologiyaya malik insanların tarixən yaranmış sosial-iqtisadi və mənəvi birliyi, etnik tipi. Millətin mahiyyəti və onun ictimai təzahürünün özünəməxsusluğu haqda kəskin mübahisələr hələ keçən əsrdən başlayıb bu günədək davam edir. M. öz məzmununa görə o qədər mürəkkəb, konkret təzahür formalarına görə o qədər çoxcəhətlidir ki, onun mahiyyətini təhrif etmədən və əsas xarakterik xüsusiyyətlərini kənara atmadan, onun ümumi və formal cizgilərini təyin etmək qeyri mümkündür.

Qanunauyğundur ki, əsas məktəblər, nəzəri çərəyanlar və onların görkəmli nümayəndələri M.-in əsas, daha mühüm xüsusiyyətlərini üzə çıxarmağa çalışmışlar. Qərb politologiyası və sosiologiyasında yaranmış psixoloji nəzəriyyənin nümayəndələri M.-i eyni tale ilə birləşən insanların mədəni-psixoloji birliyinə bənzədirdilər. Otto Bauer belə hesab edir ki, M.-tale birliyi zəminində ümumi xarakterləri bir-birilə bağlı olan insanların məcmusudur. R.Springerə görə M. eyni cür fikirləşən, düşünən və danışan şəxslərin mədəni birliyidir. N.A. Berdyayev də onlara yaxın mövqedə duraraq M.-i tarixi tale birliyi ilə müəyyənləşdirir və qeyd edir ki, bu ta leyi dərk etmək elə əslində milli şüurun özüdür. M.-in materialist nəzəriyyəsinin görkəmli nümayəndələri də bu məfhum haqda ümumi bir fikir söyləməyə can atmırdılar və iqtisadi əlaqələr birliyini M.-in mühüm əsası kimi fərqləndirirdilər. Nəhayət, sosiologiyada belə bir nüqteyi-nəzər də mövcuddur ki, millət öz substansiyası olmayan süni bir konstruksiyadır. P.Sorokin əmindir ki, millət-kimyada mövcud olan müxtəlif və mürəkkəb sosial cisim olaraq, bir sıra ictimai elementlərə parçalanan və onların birgə hərəkətindən törənən "buterbroda" bənzəyir.

Hazırda bir çox tədqiqatçılar bu fikirlə həmrəydirlər ki, M.ərazi, dil, iqtisadi əlaqələr, psixi xüsusiyyət, mədəniyyət və özünüdərkin ümumiliyi ilə xarakterizə olunur. M.-in formalaşma prosesləri və onlardan irəli gələn hərəkatlar obyektiv olaraq dövlətlərin əmələ gəlməsinə, onların müxtəlif formada təşkilinə və müstəqillik dərəcəsinə gətirib çıxarır. F.Engels M. ilə dövlət arasında daxili bir əlaqə görür. K.Kautski hesab edir ki, dövlətin klassik forması milli dövlətdir. Lakin "klassik formalar" çox vaxt ənənələrdə mövcud olur, onun tam həyata keçirilməsi nadir hallarda mümkünləşir, bu səbəbdən də praktikada bütün M.-lərin heç də hamısı öz dövlətçiliyindən istifadə edə bilmir.

Bu mövqeyi V.İ.Lenin də dəstəkləyirdi.

Maks Veber öz dövləti mövcudiyyətlərinə can atan, eyni dil, din, adət və tale ilə birbirinə bağlı olan adamların dövlət birliyini də ideal uyğunluq hesab edirdi.

Müasir M.-lər XV-XVIII əsrlərdən başlayaraq birlikdə və burjua əlaqələrinin formalaşması əsasında yaranırdılar. Lakin M.-lər kapitalizmdən əvvəl də formalaşmış və inkişaf etmişlər. K.Kautskinin konsepsiyasına əsasən, insanların M. formasında birləşməsinin, onların yaxınlaşması və ünsiyyətinin mühüm amilləri əmtəə istehsalı və ticarət olmuşdur. Harada ki, iri şəhərlər ətrafında bazarlar yaranırdı, ticarət gedirdi və insanlar böyük ərazilərdə bir dildə danışırdılar, orada tədricən M.-lər formalaşırdı. Artıq antik dövrdə insanların bu cür birlikləri yaranırdı, buna baxmayaraq, onlar öz möhkəmliyi və xüsusi mütəşəkkilliyi ilə fərqlənmirdilər və lokal (yerli) xarakter daşıyırdılar. Ancaq burjua münasibətlərinin universallaşması, dünya bazarının formalaşması, əmtəə-pul münasibətlərinin ümumi xarakter alması, qəbilə və ya feodal partikulyarizmin dağılmasının və ümumdünyəvi varlıq kimi milli birliklərin formalaşmasının əsasını qoyur. Avropada, bu prosesin mərkəzi nüqtəsində milli hərəkatlar və milli dövlətlər sisteminin əmələ gəlməsi o biri regionlardan daha tez başlandı.

Müstəmləkələrdə və əsarət

altında olan ölkələrdə bu mütərəqqi proses yüz illiklərlə dayanmışdı, artıq XX əsrin əvvəllərində bütün dünya yüksək inkişaf etmiş, istismarçı millətlərə və zəif inkişaf etmiş, əsarət altında olan, istismar edilən xalqlara bölünmüşdü. Müstəmləkə sisteminin dağılması və onun xarabalıqları üzərində yeni dövlətlərin yaranması Asiya, Afrika və Latın Amerikası ölkələrində M.-in formalaşması prosesini sürətləndirdi.

Müasir dünya praktikası ümumdünya normalarına və qaydalarına əsaslanan, xüsusilə də milli həyatın tərəqqisi nöqteyi-nəzərindən məqsədəuyğun olan milli dövlətçiliyin rolunun artdığını göstərir.

Milli dövlətçilik bu mənada, həqiqətən demokratik və könüllülük əsasında M.-lərin yaxınlaşmasının, əməkdaşlığının başlanğıc nöqtəsi rolunu dəşıyaraq, mütərəqqi inteqrasiya proseslərinə böyük təkan verir. Axırıncı imperiyaların yalançı federativ və ittifaq dövlətlərin dağılması artıq göz qabağındadır. Bunun əvəzinə yeni milli dövlətlər yaranır, xalqlar praktikada öz müqəddəratını azad həll etmək hüququnu sözsüz ki, realizə edirlər. Keçmiş Yuqoslaviya, Cexoslovakiya, SSRİ kimi imperiya strukturlu çoxmillətli dövlətlərdə bu proses artıq başa çatmaq üzrədir.

Ən yeni tarix M.-ın etnik xüsusiyyətlərinin artmasının əhəmiyyətini göstərir. Dil, mədəniyyət və mənəvi həyat problemləri, ümumiyyətlə, milli hərəkatlarda görkəmli yer tutur. Dil problemi Belçika və Kanadada; mədəniyyət və tarixi ənənələr problemi Şotlandiya, Uels və İngiltərədə əsas problem olaraq qalır.

Etnik-mədəni və dil problemləri keçmiş SSRİ-nin tərkibinə daxil olan ölkələrdə, xüsusən kiçik xalqlar və milli qrupların həyatında ön plana keçmişdir. Bu problemlər rus, ukrayna, belorus və s. M.-lərin də həyatında son dərəcə aktualdır. Bu zəmində, milli özünüdərk və millətçilik xüsusən daha tez inkişaf edir. MDB ölkələrində rusdilli əhalinin Rusiya Federasiyasında isə bu ölkələrin əhalisinin problemləri çox kəskin xarakter alır.

Milli siyasəti son zamanlar obyektiv proseslərin hərtərəfli

təhlili, qiymətləndirilməsi və M.-in həyatının inkişafı ənənələrinə əsaslanmaq yolu ilə deyil, daha qabarıq şəkildə üzə çıxan, xüsusi məqsədlər üzərində qurulan meyillər əsasında tənzimləmək cəhdləri son dərəcə təhlükəlidir.

MİLLƏT VƏ DÖVLƏT – tarixi kateqoriya olub biri digərilə daimi əlaqədə olan iki fenomendir. Dövlətin mövcudluğu millətin siyasi birliyini yüksəldir, onun millət kimi inkişafına şərait yaradır. Dövləti təşkil edən əsas millətə digər xırda etnoslar da qoşulur, millətin etniklərarası konsolidasiyası bah verir. Millət özü də etnik cəhətcə təkmilləşir, onun dil və mədəniyyətinin inkişafı üçün dövlət tərəfindən laçımi şərait yaradılır. Bu yolla da millət – dövlət yaranır. Bu proses müxtəlif ölkələrdə və müxtəlif xalqların həyatında müxtəlif şəkildə baş verir. Universal olan cəhət isə ondan ibarətdir ki, dövlət milləti formalaşdırır, millət də öz növbəsində dövlətin "valideyni" rolunda çıxış edir. Dövlətin formalaşmasında adət, ənənə və mövcud qaydaların rolu böyükdür. Millət-vətəndaş anlayışı millətin etnik millətdən siyasi millətə doğru inkişafını göstərən bir amildir.

Azərbaycan dövlətçiliyinin qədim tarixi vardır. Bu dövlətçilik müxtəlif tarixi inkişaf formalarını yaşamış və müəyyən mərhələlərdən keçmişdir. XX əsrin əvvəllərində dünyada gedən yeniləşmə hərəkatı Azərbaycana da gəlmiş və burada milli azadlıq hərəkatı ideyalarına təkan vermişdir. Nəticədə Azərbaycanda milli cümhuriyyət yaranmış və nisbətən qısa bir tarixi dövr ərzində burada demokratik qayda-qanunlar fəaliyyət göstərmişdir. Bu cümhuriyyət islam Şərqində və türk dünyasında yaranmış ilk milli dövlət idi. Azərbaycan dövləti özünün sonrakı tarixi inkişafında bu milli cümhuriyyətin təcrübəsindən əsaslı şəkildə faydalanmışdır. AXC müasir demokratik rempublikanın sələfidir. Ona görə də AXC dövründə mövcud olmuş sosial-siyasi şəraitin, AXC parlamentinin və onun tərkibinin, bu parlamentdə qoyulub həllini tapan və tapmayan məsələlərin öyrənilməsi vacibdir. Hələ o zamanlar Azərbaycan parlamentində iki frak-

siya ilə təmsil olunan ermənilər Ermənistan Ararat Respublikasının yaradılması və sərhədlərinin genişləndirilməsi üçün bütün vasitələrlə Azərbaycana qarşı təxribatlarla məşğul olmuşlar. Sosialistlər: hümmətçilər və esserlər isə bolşevik təbliğatı aparmış, müstəqil respublikanın süqutuna və onun Sovet Rusiyasına birləşdirilməsinə çalışmışlar. AXC dövründə Konstitusiya yaratmaq yaratmaq mümkün olmamışdı, amma əvəzində müstəqillik haqqında AKT qəbul olunmuşdu. AXC parlamenti təxminən 3 milyonluq əhaliyə malik respublika üçün 120 nəfər deputatdan ibarət idi. Burada respublikanın çoxmillətli əhalisi təmsil olunurdu. Bundan başqa parlamentdə sinfindən, irqindən, dinindən asılı olmadan bütün ölkə əhalisi təmsil olunurdu. AXC parlamenti bir sıra problemlərin (məsələn, Universitet açılmasını, xarici ölkələrə tələbə göndərilməsi, müqavilələr bağlanması və s.) həlli üçün əsl mübarizə meydanına çevrilirdi. Parlament bir sıra məsələləri (məsələn, torpaq məsələsini) vaxtın azlığına görə həll edə bilməmişdi.

O dövrdə mövcud olan daxili və xarici siyasət məsələləri, milli və sinfi qarşıdurma problemləri, habelə o dövrün parlamentarizmlə bugünkü parlament ənənələrinin varisliyi məsələsi də bu gün ciddi təhlil olunmalıdır. Etnopolitoloji fikir tarixində belə ifadələr var: - Dövlət millət üçün, millət dövlət üçündür.

Bəzi alimlər və siyasətçilər müxtəlif tarixi şəraitdən asılı olaraq gah onların birini, gah da digərini əvvələ çəkmişlər. Məsələn, Polşa siyasi xadimi Pilsudski o vaxtkı Polşanın siyasi vəziyyətini nəzərə alaraq bu şüarlardan birincisini ön sıraya keçirmişdir. Eyni şüarların bir müddət bundan əvvəl Azərbaycan Respublikasındakı bəzi siyasi partiyaların tərəfindən də irəli sürüldüyü məlumdur. Şübhə yoxdur ki, hər iki şüarın məna və məntiqi o qədər yaxındır ki, onların hər hansı birini ön sıraya keçirmək, digərini isə kölgə altına almaq hətta absurd da görünə bilər. Çünki onların biri digərsiz yaşaya bilməz. Hərçənd ki, dünya miqyasında onların ayrı yaşaya bilməsi imkanları da mövcuddur. Məsələn, elə millətlər var ki, dövlət yarada bilməmişlər, yaxud elə dövlətlər var ki, onların tərkibində vahid (homogen) millət anlayışı yoxdur. Burada bir qayda olaraq vətəndaş milləti əvəz edir. Millətin rolu əvəzsizdir. Dövlət-millətin formalaşmasında, onun dil və ədəniyyətinin inkişafında. Millətin milli təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Millət də öz növbəsində yaratdığı dövlət üçün tarixi məsuliyyət hissini formalaşdırır, üzvlərini onun tərəqqisinə hazırlayır. Ermənilər tarixən, elə indinin özündə də, belə bir şüarlarla çıxış edirlər ki, guya Azərbaycan dövlətinin sərhədləri "şərtidir". Yəni bu, dövlət deyil və onu istənilən şəklə salmaq mümkündür, azərbaycanlıların özləri isə dövlət təşkil etmək qabiliyyətinə malik deyillər. Bununla da onlar Azərbaycandakı öz işğalçılıq siyasətlərinə haqq qazandırmağa, həm də Azərbaycan dövlətçilik tarixini saxtalaşdırmağa çalışırlar. Ermənilər özlərinə xas olan səciyyəvi cəhətləri bizim adımıza yazmaqla öz həqiqi niyyətlərini dünya ictimaiyyətindən gizlətməyə çalışırlar. "Milli hüquqi dövlət" deyərkən, müəyyən bir ölkə daxilində yaşayan vətəndaşların maraq və məqsədlərini güdən dövlət başa düşülür.

Azərbaycan Respublikasının Konstitusiyasında göstərilir ki, "Azərbaycan xalqı" deyərkən Respublika sərhədləri daxilində yaşayan bütün vətəndaşların məcmuəsi başa düşülür. Azərbaycan dövləti onların hamısının maraq və mənafelərini eyni dərəcədə qoruduğundan onlar üçün milli dövlətdir. Daha aydın desək. bu respublikada yaşayan xalqların hamısı dövlət millətı sayılır. Onların təhkil etdiyi dövlət də öz növbəsində onların hamısına eyni mənada xidmət etdiyinə görə onların milli dövlətləri sayılır.

Milli azlıqların müqəddəratının təyinini əsası ilk dəfə 1878-ci ildə Berlin Konqresində qoyulub və 1896-cı ildə II İnternosionalın London Konqresi tərəfindən tanınıb. 1918-ci ildə Vudro Vilson II Dünya müharibəsindən sonra "Vilsonun 14 bəndini" elan etdi. Burada o xalqların müqəddaratını təyin etmələrini irəli sürdü. BMT 1943-cü ildə müqəddaratın təyinini bir

daha təsbit etdi. 1975-ci il Helsinki müşavirəsi müqəddaratın təyini ilə birlikdə sərhədlərin pozulmaması prinsipini də qəbul etdi. Yəni xalqlar öz milli müqəddaratlarını mövcud rejimlər daxilində həyata keçirə bilərlər.

Hazırki şəraitdə millətçi-terrorist dövlətlər sırasında Azərbaycanın Dağlıq Qarabağ ərazisini və digər rayonlarını işğal edərək həmin əraziləri terror yuvasına və narkomaniya koridoruna döndərmişlər. Ermənilərin terror maşını dünyada ən əvvəl türklərə və azərbaycanlılara qarşı yönəldilmişdir. Bu yolla onlar erməni genosidinin tapılmasına və qonşu dövlətlərin əraziləri hesabına "Böyük Ermənistan" dövləti yaratmaq planlarının reallaqdırılmasına çalışırlar. Əgər türklər genosidi tanılmış olsalar onlar bunun əvəzini ödəmək üçün Türkiyənin şərqini onlara bağışlamalı olacaqdır ki. bu torpaqları, eləcə də Qarabağı, sonra isə Naxçıvanı özlərinə birləşdirməklə, Gürcüstandan isə Cavaxetiyanı qoparmaqla böyük və güclü erməni dövlətini vücuda gətirmək istəyirlər. Erməni terror təşkilatı "Asala" bu yolda ona mane olan öz vətəndaşlarına belə güzəştə getmir, arzuolunmaz adamlara qarşı teroru dövlət səviyyəsində həyata keçirirlər.

Azərbaycan milli hüquqi dövlət quruculuğu yolunu seçmiş bir dövlətdir və bu yolda inamla irəliləyir. Onun sosial-iqtisadi, siyasi-mədəni tərəqqisi hər bir Azərbaycan vətəndaşında belə bir inam yaradır ki, bu inkişafın çox böyük bir perspektivi və gələcəyi vardır.

Milli dövlətlə millətçi dövləti fərqlidir. Milli dövlət hər şeydən əvvəl bu dövlətdə yaşayan bütün xalqlar heç bir ayrı-seçkiliyə məruz qalmadan öz milli-mənəvi dəyərlərini yaşatmaq və inkişaf etdirmək imkanı əldə edirlər. İkincisi, kadrların seçilib yerləşdirilməsində milli amil nəzər alınmır, yəni müəyən millətə aidlik heç bir üstünlük yaratmır, nəhayət, azlıqda qalan millətlərə və onların milli mədəniyyətlərinə qarşı heç bir məcburiyyət üsulu tətbiq olunmur, əksinə ölkədə onlarra qarşı tolerantlıq hökm sürür.

Millətçi dövlətdə isə azlıqda qalan bütün xalqların insani hüquqları tapdanır, istismara

dözməli olurlar. Çoxmillətli ölkələrdə ayrı-ayrı millətlərin ayrılıb müstəqil dövlət olmaq hüququ ilə onların mütləq ayrılmalı olması hüququ ayrı-ayrı şeylərdir. Birincidən istifadə edən bəzi millətçi dairələr onunla manipulyasiya edir, bu zaman millət və xalqların min illərlə birgə yaratdıqları milli mənəvi dəyrləri və xalqın əksər hissəsinin arzu və istəklərini nəzərə almırlar. Azərbaycan respublikasındakı mövcud separatizm meyilləri heç də onun daxilində yaşayan millət və xalqların iradələrini əks etdirmir, əksinə bir qrup mafioz qüvvələrin maraqlarına xidmət edir. Çünki bu xalqlar eyni dövlət sərhədləri daxilində daha yaxşı yaşaya bilərlər, nəinki xırda dövlətçiliklərə ayrılmış olsalar.

Yuxarıda deyilənlərə yekun vuraraq demək olar ki, mğasio qlobal siyasi proseslər heç də milli dövlət ideyasını inkar etmir, əksinə milli dövlətlərin bu prosesdə dah yaxından iştirak etməsi üçün əlverişli şərait yaradır.

MİLLƏT, MİLLİ DÖVLƏT –anlayışları yeni dövrün başlanğıcında yeni Avropa tarixinin bir amil kimi meydana gəlməsidir. Avropanın şimal-qərbində yaranan bu prosese mərkəzdən əyalətlərə doğru yayılaraq XX əsrin 90-cı illərində böyük sürətlə Cənub-Şərqi və Şərqi Avropanı bürüdü. Yuqoslaviya, Çexoslovakiya və Sovet İttiyfaqının dağılması və onların ərazisində bir sıra müstəqil dövlətlərin yaranması ilə sanki imperiya dövrü Avropa tarixində sona çatdı.

Məhz belə bir dövrdə millət və onunla bağlı anlayışların təhlili daha böyük əhəmiyyət kəsb etməyə başladı. Xüsusən də, Azərbaycanın bu proseslərin içərisində olması bizim üçün mövzunun aktuallığını daha da artırırdı. Macar mənşəli Amerika tarixçisi C.Lukas yazırdı: "XX əsr üçün siniflərin hakimiyyəti və ideyaların rəqabəti deyil, **millətlərin mübarizəsi müəyyənedici rol oynayır**".

Millət və onunla bağlı olan məsələlər dərin tarixi köklərə malik olsa da. Onlarla bağlı konkret formalaşmış bir fikir yoxdur. Ümumiyyətlə, politologiyada elə anlayışlar var ki, bu günə qədər onların dəqiq tərifini vermək mümkün olmamışdır.

Bu anlayışlar mübahisə doğurmuş və mübahisə doğurmaqda davam edir. Problem doğuran anlayışlar siyasi bilik və praktika üçün təməl rolu oynayır. Onlar haqqında bütün siyasi ideologiyaların nümayəndələri diskussiya aparırlar. "Millət" anlayışı və onun formalaşması ilə bağlı olan məsələlər də bu qəbildəndir.

Sovetlər İttifaqı dövründə bizim millət haqqında anlayışları marksizm-leninizm klassiklərinin, xüsusilə Stalinin müddəaları səviyyəsində idi. Bu müddəalara görə millət ümumi ərazisi, dili, iqtisadi həyat birliyi, milli psixologiya və ideologiyanın ümumiliyində öz əksini tapan mənəvi həyat birliyi olan insanların nisbətən sabit tarixi birliyi hesab edilir. Marksizmə görə millət kapitalizmin məhsuludur və gələcəkdə-kommunizmdə öz yerini **ictimailəşmiş bəhşəriyyətə** verəcək və beləliklə də tarix səhnəsindən silinəcəkdir. Millətin marksizm tərifi daha çox etnosun (yunan dilində "tayfa", "xalq" deməkdir) formalaşması xüsusiyyətləri ilə eynilik təşkil edir Etnos tarixən müəyyən ərazi daxilində yaşayan, mədəniyyət (dil də daxil olmaq şəoti ilə) və psixoloji xarakterin dəyişilməz xüsusiyyətlərinə və ümumi cəhətlərinə malik olan. Habelə özlərinin birliyini və başqalarından fərqlərinin dərk edən insanların sabit məcmusudur. Belə birlik adətən ərazivaə iqtisadi həyatın ümumiliyi əsasında yaranır.

Yakovenkoya görə, millət - etnosun inkişaf mərhələsidir. Bu inkişaf azad şəxsiyyətlərin yaranması, şüur və mədəniyyətin sekularizasiyası, mülki cəmiyyət və milli dövlətin yaranması ilə xarakterizə olunur.

Dünya siyasi elmi belə hesab edir ki, milləti etnosun ali forması hesab etmək düzgün sayıla bilməz. Bunun ən azı 2 səbəbi vardır:

1.Dünyada kapitalizmi keçməyən millətlər də vardır. Deməli, milləti kapitalizmin məhsulu hesab etmək olmaz.

2. Milləti etnosun ali forması hesab etmək dünyada mövcud olan böyük və kiçik xalqları (etnosları) bir-birilə münasibətdə qeyri-bərabər vəziyyətə salmış oluruq.

Qərb elmi ənənəsində "millət" və "dövlət" anlayışları əlaqələndirilir. Bu ənənyə görə öz dövlətini yaradaraq ictimai zor institutları üzərində nəharət əldə etmiş xalq millət ola bilər. Klassik aoman filosofu Hegel 1802-ci ildə yazdığı "Almaniyanın Konsitusiyası" adlı məqaləsində qeyd edirdi ki, dövləti olmayan millət xalqdan ibarətdir. Bir çox tədqiqatçılar bu əlaqəni bir aksiom kimi qəbul etmişlər. Məsələn, C.Şevalye yazırdı: "Dövlət yalnız millət olan yerdə mövcud ola bilər". Sürrato adlı müəllif "Avropanın millət məkanı" adlı nəşrində qeyd edirdi: "Dövlət, əslində hüquqi təşkil olunmuş millətdir".

Azərbaycanda ictimai-siyasi fikrin formalaşmasında böyük xidmətləri olan görkəmli yazıçı və diplomat Y.V.Çəmənzəminli "Biz kimik və istədiyimiz nədirə" adlı məqaləsində milləti təşkil edən 3 amili qeyd edir: **torpaq (ərazi), xalq (əhali) və hakimiyyət**. Bu fikir dolayısı ilə millətin dövlətlə əlaqələndirilməsi deməkdir. Çünki siyasi elmdə XIX əsrin axırlarında meydana gəlmiş dövlətin ümumi nəzəriyyəsi belə hesab edirdi ki, dövləti 3 əsas əlamətət görə müəyyən etmək olar: xalq (əhali), ərazi (torpaq) və dövlət hakimiyyəti.

Buradan belə fikrə gəlmək olarki, milli dövlət xalqın bir millət kimi formalaşmasının məntiqi nəticəsidir.

Avstriya hüquqşünası hans Kelsenə görə, milli dövlət – yetkin hüquqi normal sistemdir. Sanistebana görə, müasir milli dövlət yer kürəsind ə ən geniş yayılmış siyasi sistemdir.

Ümumiyyətlə, dövlət və millət münasibətlərini müxtəlif cür qiymətləndirən 2 elmi yanaşma mövcuddur:

Qərbi Avropa alimləri öz dövlətlərinin yaranma tarixini unutmağı təklif edərək, dövlətlə milləti faktiki olaraq eyniləşdirirlər. Vətəndaşlığı isə etnik mənsubiyyətdən asılı olmayaraq müəyyən ərazidə yaşayışla əlaqələndirirlər. Şərqi Avropa alimləri isə əksinə,düşünürlər ki, milət və dövlətlərin bir-birindən ayrılması mümkündür, hətta onlar bir-birinə qarşı qoyula da bilərlər. Vətəndaşlıq isə çox zaman müəyyən mədəni ənənə və təbii yolla yaranmış birlik çərçivəsində uyğunlaşma qabiliyyətilə müəyyən edilir.

Fransız milləti ilə bağlı

mükalimələrdə iştirak edən alim E.Renan "Millət nədirə" (1889) əsərində yazır ki, millət candır,ruhu prinsipdir, keçmişdə verilmiş qurbanlar, hələ bundan sonra veriləcək qurbanlar əsasında böyük həmrəylikdir. E.Renan millətin formalaşması zamanı unutqanlığın rolunu xüsusi qeyd etmişdir. Köhnə inciklikləri yada salmamaq üçün kollektiv şüur müəyyən tarixi anları istisna etməlidirlər. Məsələn, fransız millətinin mövcudluğu üçün onun bretonlardan, basklardan, parislilərdən, elzaslılardan formalaşmasını unutması vacibdir. Digər tərəfdən, Şərqi Avropada milləti formalaşması qərbin əksinə olaraq keçmiş birlik və tarixi hadisələr haqqında xatirələrin mifləşdirilməsi və qəhrəmanlıq səviyyəsinə qaldırılmasını tələb edir.

Deməli, millətin formalaşmasının Şərqi Avropa modelində tarixi varislik prinsipi mühüm və müəyyənedici əhəmiyyət kəsb edir. Tarixi varislik prinsipi haqqında sovet alimi Cunusov yazırdı: "Tarixi varislik prinsipi millətin ənənələrinin və digər elementlərinin bir nəsildən digərinə ötürülməsini təmin edir".

Qərb alimləri üçün millət tarixilik kəsb edir və əhəmiyyətli dərəcədə hakimiyyətlə əlaqələndirilir. Şərq alimlərinə görə isə millətə uyüün gəlməmək baxımından antimilli olan dövlətə sünilik xasdır.

Fridrix Maynike millətin: 1) Dövlət tipi; 2) mədəni tipini bir-birindən fərqləndirir. Millətin dövlət tipi tarixin və konsitusiyanın birləşdirici gücünə, mədəni tipi isə mədəni varisliyə əsaslanırdı.

Hans Kon isə millətin qərb və şərq (Avropanın şərqi nəzərdə tutulur) anlamı fərqləndirərək yazırdı: "Qərbdə millətçilik əmək prosesində, millət isə siyasi reallıqda və müasirliyin mübarizəsində yetişmişdir. Ona görə də tarixi keçmişlə elə də güclü emosional əlaqə yaranmamışdır. Mərkəzi Avropada isə əksinə, keçmişin miflərindən və gələcəyin perspektivlərindən ideal vətən yaradılırdı. Bu vətənin tarixi keçmişlə heç bir əlaqəsi yox idi. Onlar bunun nə vaxtsa siyasiləşməsini gözləyirdilər".

"Millət" anlayışına müxtəlif cür yanaşmalar mövcuddur:

- dövlət vətəndaşlarının sifasi seçimə əsaslanaraq azad cəmiyyət ideyalarından irəli gələn "fransız" yanaşma tərzi;

- mədəniyyətə və ümumi mənsubiyyətə əsaslanan "alman" yanaşma tərzi.

Almaniyada milli şüur daha çox mədəniyyətə yönəlmişdir. Lakin Almaniyada mərkəzləşdirilmiş dövlətin mövcud olmaması millətə dövlətə eynilik məsələsində ziddiyyət yaradırdı.

Bir tərfdən kiçik knyazlıq və ya şəhərlə, digər tərəfdən imperiya ilə uyğunluq zərurəti bu ziddiyyətin səbəbi idi.

Fransada kral hakimiyyəti dövlət və milli eyniliyi uyğunlaşdırmağa imkan verən güclü mərkəzləşdirilmiş dövlət yaratmağa nail oldu. Ona görə də, Fransada millət anlayışı siyasiləşdi, Almaniyada isə onun siyasətdən uzaqlaşaraq mədəniyyətlə uyğunlaşması prosesi baş verdi. Millət anlayışının fransız anlamı siyasi birliyin təmin edilməsi üçün assimilyasiya, alman anlamı ilə differensasiya tələb edirdi. Birinci halda, söhbət yaradılmış dövlətin, ikinci halda, yaradılacaq dövlətin təməlindən gedir. Birinci halda, siyasiləşmə millətin hələ mövcud olmadığını əv onun dövlət tərfəindən təşkil edildiyini göstərir. Almaniyada isə millət dövlətdən əvvəl formalaşmışdır, dövlətin bütövlüyü isə mədəni ümumiliklə təmin edilir. Bu cür fərqlər hüquqi ənənələrdə də özünü göstərirdi: XX əsrdən başlayaraq almanlar "qan hüququ"ndan, fransızlar isə "torpaq hüququ"ndan istifadə edirdilər.

Siyasi ədəbiyyatlarda "dövlət yaradan xalq" ifadəsinə rast gəlmək mümkündür. Bu ifadə Amerika, xüsusən də fransa burjua inqilabının doğurduğu liberal-respublika ideyasına görə, bütün dövlət yaradan xalq vətəndaşların birliyi kimi millətlə eynilik təşkil edir.

Ümumiyyətlə, tarixdə öz iradəsini izhar edən siyasi birlik kimi millətin yaradılmasının 2 yolu məlumdur:

1. fransa nümunəsi. Burada bütün vətəndaşlar özlərini millət elan edərək, ənənəvi sərhədlər daxilində mövcud olan mütləqsülalə dövlətini milli dövlətlə əvəz edirlər.

2. Amerika nümunəsi. Burada təbəqələrin azadlıq əldə edərək vətəndaşa çevrilməsilə milli dövlət meydana gəlir.

Fransa, Böyük Britaniya və

ABŞ-da millət ümumi milli şüur ilə birləşən insanların toplumu deyil, bu ölkələrin bütün vətəndaşlarını əhatə edir. "Alman xalqı" ifadəsi Almaniyanın vətəndaşları olan almanları, danimarkalıları. Polşalıları əhatə edir,digər ölkələrdə yaşayan almanlara isə aid edilmir.

Qradovskiyə görə, etnik millət xalqla üst-üstə düşməlidir, dövləti olmayan millət dövləti lan millət olmağa, öz-özü üçün dövlət formasını yaratmağa çalışır, bu istəkdə sağlam hiss özünü göstərir, eyni zamanda , hər bir dövlət milli olmağa çalışmalıdır, hər hansı qeyri-milli dövlət isə ümumi qaydaya. Öz təbii təyinatına uyğun gəlməyən, zorakılıq üzərində dayanan və buna görə də zəif, gücsüz olan süni dövlətdir.

Milli dövləti etnik millətdən siyasi millətə doğru keçid kimi də qiymətləndirmək mümkündür. "Əgər millət öz mövcudluğu. Varlığı və müstəqilliyi üçün siyasi təsisatlar yaradarsa, bu onun "siyasi millət" səviyyəsinə çatdığına dəlalət edir... Siyasi millət – millətin siyasi şüura və siyasi ideologiyaya yiyələnməsi mərhələsi olub, öz inkişafında milli dövlət aparatı və digər siyasi təsisatlar yaratmışdır... Milli dövlətlər milli dilin və mədəqiyyətin inkişafına şərait yaradır, millətin sosial-iqtisadi inkişafını təmin edir, onun vahidliyini, ərazi bütövlüyünü təmin edir". Belə bir fikrə gəlmək olar ki, siyasi cəhətdən öz müqəddəratını təyin edən millət (siyasi millət) dövlət quruluşunun mahiyyət elementidir" (Ə.Tağıyev).

"Siyasi millət" terminin tarixən hələ bir neçə əsr əvvəl I Pyotr tərəfindən söylənilməsi barədə məlumat verirlər. O, 1721-ci ildə Şimal müharibəsində qalib çıxandan sonra əsgərlərə müraciətində demişdir: "Nəhayət, indi biz özümüzü millətlər sırasında görə bilərik". Burada I Pyotr "siyasi millət" anlayışına imperiya anlayışı ilə eyniləşdirmişdir. Çünki , məhz Şimal müharibəsindəki qalibiyyətdən sonra Rusiya imperiya dövrünə qədəm qoymuşdur.

Ümumiyyətlə, imperiya ənənəsinə sadiqlik rus fəlsəfi fikrinə xas olan xüsusiyyətlərdən biridir. Onlar qərb nümunəli dövlət modelinə qarşı sərt mövqe nümayiş etdirərək, onu " parçalanma və assimlyasiya"

modeli kimi qiymətləndirirlər.

Bu modelə görə adda-budda yaşayan xalqlar qərb tipli milli dövlət yaratmaqdan ötrü əvvəlcə parçalanmalıdırlar. Bu prsesin qarşısını, onların fikrincə, imperiya çərçivəsində digər xalqları öz ətrafında toplayan və milli iyerarxiya yaradan milli nüvə ala bilər. Rusiya imperiyası buna nümunə ola bilər. Ona görə də, bir sıra rus mütəxəssisləri imperiyanı milli dövlətin şərqi avropa tipi adlandırırlar.

Millət məsələsi Çar Rusiyası xalqlarının inkişafı üçün əsas məsələlərdən biri idi. Digər partiyalardan fərqli olaraq bolşeviklər bundan məharətlə istifadə etdilər. Onlar hakimiyyətə müharibəyə son qoymaq, torpaq kəndlilərə, millətlərə öz öz müqəddəratını təyin etmək hüququnun verilməsi kimi şüarlarla gəlmişdilər. Hələ 1914-cü ildə Lenin hər hansı milli dövlət imtiyazlarına qarşı mübarizə, hər bir millətin milli dövlət yaratmaqda bərabər hüquqlara malik olması məsələlərini çoxmillətli proletariatın əsas vəzifələri kimi elan etmişdi. O yazırdı ki, bunlar milli məsələdə bizim əsas vəzifələrimizdir və yaxud biz yalnız bu yolla bütün millətlərin proletariatlarının bərabərhüquqlu ittifaqını inkişaf etdirə bilərik. 1919-cu ildə partiyanın II proqramında bu məsələlər başqa cür redaktə olundu: "Əzilən xalqların zəhmətkeşləri arasında dövlətlərin proletariatlarına qarşı inamsızlığı aradan qaldırmaqdan ötrü hər hansı bir qrupun imtiyazlarının ləvi millətlərin tam bərabər hüquqlara malik olması, koloniya və qeyri-bərabər hüquqlu millətlərin dövlət kimi ayrılması hüquqlarının qəbul edilməsi vacibdir". Burada dövlət kimi ayrılma öz müqəddaratını təyinetmənin ən ali forması kimi qəbul edilir ki, bu da Leninin əvvəlki milli siyasət konsepsiyasına zidd idi. Artıq Stalin partiyanın onuncu qurultayında Çiçerinlə mübahisə zəminində qeyd edirdi ki, "Millətin öz müqəddaratını təyinetməsi" şüarı artıq partiyanın proqramında yoxdur və hal-hazırki dövrdə partiya daha mühüm – "xalqların dövlət kimi ayrılmaq hüququ- şüarı ilə silahlanmışdır".

Stalin qeyd edirdi: "Xatırlamaq lazımdır ki, xalqların öz müqəddaratını təyin etməsi

hüquqlarından başqa, fəhlə sinfinin öz hakimiyyətini möhkəmləndirmək hüququ vardır". Partiyanın proqramında göstərilən xalqların dövlət kimi ayrılması hüquqlarını inkar edən Stalin öz fikrini növbəti tezislə möhkəmləndirirdi: "Elə hallar olur ki,öz müqəddaratını təyin etmə hüququ digər ali hüquqa - fəhlələrin öz hakimiyyətini möhkəmləndirmək hüququna zidd olur. Belə hallarda birbaşa qeyd etmək lazımdır ki, birinci hüquq ikinci hüquqa mane olmamalıdır. Hətta birinci öz yerini kinciyə verməlidir". Siniflər arasında sərhədləşmə Stalin tərəfindən mütləq kimi qəbul edilir, millətlərarası birlik isə inqilabi-sinfi ağalıqla əvəz edilirdi. Millət üzərində ağalığın bir növü – böyük millətin adından ağalıq digər bir ağalıq növü ilə – böyük rus proletariatı adından ağalıqla əvəz olunurdu. Burada söhbət faktiki olaraq millətin öz milli fəhlə sinfinə tabe olmasından deyil, məhz rus proletariatına tabe oldmasından gedirdi ki, bu da fövqəldövlət rus şovinizminin inkişafına çox güclü təsir göstərirdi. Bundan sonrakı hadisələrin inkişafında milli faktorlar tamamilə aradan çıxarıldı. . Stalin muxtariyyatı öz milli müqəddaratını təyinetməni əvəz edərək, müttəfiq sovet respublikalarına məhdud suverenlik bəxş etdi.

Xalqların milli özünüdərk, milli mənlik şüuru süni şəkildə deformasiyaya uğradıldı. Qeyd etmək lazımdır ki, millətlərarası münasibətlərdə baş verən ziddiyyətlərin nəzərə alınmaması son nəticədə güclü milli münaqişələrə səbəb oldu ki, bu da Sovet imperiyasının dağılmasına təkan verən səbəblərdən biri idi.

Müsəlman şərqində, o cümlədən Azərbaycanda millətin formalaşması prosesi bir sıra sosial-iqtisadi, tarixi və siyasi səbəblərə görə geri qalırdı. XIX əsrin əvvəllərində Şərq ölkələri faktiki olaraq, Qərbin milli dövlətlərinin təsir dairəsində idi. Ona görə də, şərqdə millətçilik əsasən Avropa dövlətlərinin işğalçılıq siyasətinə qarşı müdafiə reaksiyası kimi formalaşmağa başlamışdı. XIX əsrin əvvəllərində müsəlman Şərqinin Avropa dövlətlərindən asılılığının bir sıra tarixi kökləri var idi.

Ənənəvi (orta əsr) hdövlətlər bir-birindən kəskin şəkildə

fərqlənən etnik icmaları çox asanlıqla özündə birləşdirə bilirdi. Bu zaman dövlət qeyri-etnik birləşdiricilərə əsaslanaraq, özü üçün yerli elitarı seçirdi. Ayrı-ayrı regionların qapalılığı və güclü fenomen olan milli şüurun mövcud olmadığı şəraitdə etnik qruplar bir dövlətin ağalığı altında əsrlərlə yaşaya bilərlər. (Keçmiş Sovetlər İttifaqını buna misal göstərmək olar).

Avropanın ənənəvi (orta əsr) dövlətlərindən fərqli olaraq, orta əsr şərq dövlətlərinin sərhədləri etnos tərəindən müəyyənləşdirilirdi. Bu zaman dövlət Avropada olduğundan fərqli olaraq etnosları çox asanlıqla özündə inteqrasiya edə bilmirdi. Məsələn, Azərbaycan Səfəvi dövlətinin yaranmasında və Şərqin qüdrətli dövlətinə çevrilməsində aparıcı rol qızılbaş tayfalarına və əyanlarına məxsus idi. Qılbaş tayfalarına isə ustaclı, şamlı, rumlu, əfşar, qacar və başqaları daxil idi. Dövlətin etnoslardan asılılığı onun mərkəzləşməsinə də mane olurdu. Dövlətin mövcudluğu etnosun mövcudluğundan asılı olurdu. Səfəvilər dövlətinin süqutundan sonra feodal pərakəndəliyi, iqtisadi əlaqələrin zəifliyi, natural təsərrüfatın üstünlüyü Azərbaycanda mərkəzləşmiş dövlət yaratmağa imkan verməmişdir. Azərbaycan müstəqil və yarımüstəqil xanlıqlara, sultanlıqlara və məlikliklərə parçalandı XVIII əsrin sonu və XIX əsrin əvvəllərində xanlıqlar arasında münasibətlərin kəskinləşməsi, bir çox hallarda isə müharibə vəziyyətinə çatdırılması ölkənin sosial – iqtisadi vəziyyətini daha da ağırlaşdırdı. Siyasi cəhətdən hökm sürən qeyri-sabitlik ölkəni işğal etmək istəyən kənar qüvvələr üçün şərait yaratdı. Bu da Rusiya və İranın Azərbaycan ərazilərinin işğalı ilə nəticələndi.

Bu məsələlər Azərbaycan ictimai-siyasi fikrinin böyük mütəfəkkir nümayəndəsi olan Əhmədbəy Ağaoğlu tərəfindən çox böyük incəliklə araşdırılmışdır. Onun fikrincə, "Şərqdə dövlət hökumət ilə qarışdırılmışdır". Hər iki məfhum – dövlət və hökumət eyni mənanı ifadə edir kimi qəbul olunmuş, türklərdə isə bu zehniyyət daha irəli götürülmüşdür. Onlar dövləti yalnız hökumətlə qarşılaşdırmaqla qalmamışlar. Benlə ki, təsis etdikləri hökumətləri, döv-

lətləri müəyyən bir şəxsin, bir ailənin adına əlavə edilərək adlandırılmışdır. "...Min ildən bəri müxtəlif türk qəbilələrinin təşkil etdikləri bir çox dövlətlərin hamisi sülalə adlarını daşımışlar Qəznəvilər, Səlcuqlar, Xarəzmşaşlar, Osmanlılar bu xüsusda eyni zehniyyətlə hərəkət etmişlər. Halbukm bu üç məfhum, yəni hökumət, sülalə və dövlət arasında həm zahiri, həm batini, həm maddi və həm də mənəvi çox bariz fərqlər mbvcuddur. Şərq bunları qarışdırmış, hər sülaləni ayrı bir dövlət hesab etmiş və yeni gələn özündən əvvəl gələnləri adətən əcnəbi saymış və o surətlə hərəkət etmişdir".

Dövləti sülalə adı ilə adlandırmaq dövləti sülalədən ibarət hesab etməkdən irəli ilir ki. bu təqdirdə sülalə yıxılanda, yaxud süqut edəndə dövlətin də yıxılması, məhv olması lazım gəlir. "Bu qəribə hadisənin əməli nəticəsi olmaq üzrə milli tarixin sona yetib qırılmasını, milli vəhdətin pozulmasını, guya yeni təşəkkül etmiş olan dövlətin əski dövlətə nisbətən bir növ yabançı və hətta düşmən olduğunu zikr edə bilərik. Bu qəribə düşüncə tərzinin ən canlı misalını bir tərəfdən İran, digər tərəfdən Osmanlı tarixlərində görürük".

Millətin formalaşması obyektiv tarixi prosesdir. Bu prosesi ləngitmək olar, lakin onun qarşısını almaq olmaz. Bütün maneələrə baxmayaraq, bu prosesin qarşısını almaq mümkün olmadı. Türk milli azadlıq hərəkatının Rusiyadakı görkəmli nümayəndəsi Yusif Akçura "Türk fikri, türk hərəkatı, türk yurdu" əsərində haqlı olaraq yazırdı: "Millət" anlayışı Avropada yaransa da, onu avropalılardan ilk dəə və yüksək səviyyədə türk tayfaları əldə etmişlər. Ona görə ki, Avropa ilə xüsusən onlar sıx əlaqədə və qarşılıqlı münasibətlərdə olmuşlar. Bu bir çox türk tayfalarına – osmanlı adlandırılan qərb türklərinə, Krım türklərinə, Volqanın sahilində yerləşən Şimal türklərinə, həmçinin, Qafqazdakı Azəri türklərinə də aiddir. Beləiklə biz, XIXəsrin axırlarında bu türk qruplarında milli təfəkkürün meydana gəlməsi və yayılmasının şahidi oluruq".

Gördüyümüz kimi, XIX əsrin sonlarında Azərbaycan türk

dünyasının ənənəvi mərkəzlərindən olan İstanbul, Baxçasaray, Kazanla bir sıraya qalxsa da, bir qədər sonra bu şəhərləri geridə qoydu. Bakı bu məsələlərin siyasi mərkəzinə çevrilməyə başladı. Ziya göyalp yazırdı: "Bu vaxt Hüseynzadə Əli bəy İstanbuldan və Ağaoğlu Əhməd bəy Parisdən Bakıya gəlmiş, və orada fikir savaşı üçün əl-ələ vermişdilər. Ə.M. Topçübaşov da bunlara qoşuldu. Bu üç şəxs orada o zamana qədər hakim olan sünnilik və şiyəlik anlaşmazlıqlarını ortadan qaldıraraq türklük və islamlıq fikirləri ətrafında bütün azərbaycanları toplamağa çalışırdılar".

Azərbaycanda millətin formalaşması qismən Şərni Avropa modelinə və yaxud alman yanaşma tərzinə uyğundur. Burada Şərqi Avropa modelində olduğu kimi. Millətin özünəməxsusluğu əsas götürülür. Bu özünəməxsusluq millətin vərdişlərində, tarixi ənənələrində, məişətində əks olunurdu. Xalqdan əməksevərlik, azadlıqsevərlik, mərdlik, qonaqpərvərlik, xeyirxahlıq, sədaqətlilik kimi keyfiyyətlərin miras qalması isə azəri türklərinin yüksək mədəniyyətə malik olmasını göstərən xüsusiyyət idi.

B.Talıblının fikrincə milli tərəqqini ayrı-ayrı şəxslər müəyyən edir. Həmin şəxs və ya şəxslər mənsub olduğu millətin ehtiyacını öyrənmək və dərdinə əlac etmək mümkündür. "... Millətini sevmək üçün şəxs gərək öz ədəbiyyatını və tarixini bilsin. Zira ancaq bu vasitə ilə millətin keçmiş halını, məişətini, yerini, dəyərini görər, dərdini, dərmanını anlar" ("Açıq söz" - qəz. 1915.№36).

M.Ə.Rəsulzadənin fikirləri buna sübutdur. O yazırdı: "İlk türk dramaturqu azərbaycanlı, ilk türk bəstəkarı azərbaycanlı, Rusiya türkləri arasında ilk qəzet yaradıcısı azərbaycanlı, məzhəb ulaşmazlığını ilk olaraq aradan qaldıran yenə də azərbaycanlı, əlifba islahatını ilk düşünən azərbaycanlı, nəhayət İslam aləmində ilk dəfə olaraq cümhuriyyət elan edən də azərbaycanlıdır".

Tişkov fikrincə, millilik haqqında təsəvvürlər savadlılıq və və üksək mədəniyyət səviyyəsində formalaşır. "Millilik müasir vəziyyətə görə və ilk növbədə kültür və mədəniyyət əsasında

təyin edilməlidir" (Ziya Göyalp).

Azərbaycan mədəniyyətinin qabaqcıl nümayəndələri maarifin yayılmasını xalqın geridə qalmasının aradan qaldırılması üçün əsas vasitə hesab edirdilər. Dünyəvi müsəlman məktəbləri haqqında ilk əsaslı yikir Abbasqulu Ağa Bakıxanova məxsusdur. O, 1832-ci il fevralın 20-də müsəlman məktəbi təsis edilməsi haqqında layihə hazırlamış və onu Qafqazın baş hakimi baron Rozenə təqdim etmişdir. Lakin Çar generalı bu layihəyə əhəmiyyət verməmiş, uzun müddət onun arxivində qalmışdı. Layihə yalnız 1957-ci ildə aşkar olunmuş və çap edilmişdir. Layihənin giriş hissəsmində A.Bakıxanov yazırdı: "Asiyanın qarşısında Avropanın üstünlüyü bəzi ziyalıların düşündüyü kimi tale və təsadüfdə deyil, maarifdədir... Maarifə doğru ilk adım məktəb təsis edilməsindədir".

Rusiya isə nəinki xristian dini ilə islam dini arasında, hətta islam dini daxilində təfriqəni dərinləhdirmək məqsədilə Azərbaycanda məktəbləri şiə və sünni təriqətləri üzrə təşkil edirdi. Maarif sahəsində görülən işlər müstəmləkəçilik siyasətinin həyata keçirilməsinə xidmət etməli idi.

Millətin formalaşmasında iqtisadi inkişafın rolu danılmazdır. Azərbaycanın sosial iqtisadi həyatında baş verən canlanma kapitalist münasibətlərinin sürətli inkişafı ilə əlaqədar idi. XIX əsrin II yarısında Rusiyada kapitalist münasibətlərinin inkişafı müstəmləkələrin də bu prosesdə iştirak etməsini zəruri edirdi.

O dövrdə Rusiya ilə Azərbaycan arasında iqtisadi əlaqə ikitərəfli xarakter daşıyırdı. Rusiya üçün bu əlaq ə yeni satış bazarı və xammal əldə etməklə, Azərbaycan üçün əmtəə-pul münasibətlərinin inkişafı, sənaye mərkəzlərinin yaranması, şəhər əhalisinin sayının artması, muzdlu əməyin tətbiqi ilə nəticələndi.

XIX əsrin 70-80-ci illərin hərraclarında neftli torpaqlara sahib olmuş neft sənayeçiləri arasında Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarov və başqalarının da adları vardır. Həmin dövrlərdə neft sənayesinin inkişafında yerli-milli kamital həlledici rola malik olmuşdur.

Rusiya Azərbaycanda müstəmləkə iqtisadiyyatına xas olan siyasət yeridirdi. Rus fabrikləri ucqarlardan yarımfabrikat məhsullar almaqla istehsalat dövriyyəsi tam başa çatdırırdı. Milli ucqarlarda isə istehsal dövriyyəsi natamam qalır, hazır məhsul alınması istehsalın müəyyən fazasında yarımçıq saxlanılırdı. Aşqa sözlə, Rusiya Azərbaycanda istehsal sahələrinin yaranmasına mane olurdu. Bu müstəmləkə iqtisadiyyatına xas olan xüsusiyyətlərdən biri idi. Z.Tağıyev Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterinə zərbə vuran, onu sındıran ilk sənayeçi olmuşdur. O, böük zəhmətdən və apardığı uzun müddətli mübarizədən sonra tokuculuq fabrikini işə salmaqla ölkəmizdə bir sənaye sahəsinin inkişafını başqa istiqamətə yönəldə bilmişdi. Beləliklə, neft sənayesi hesabına əldə edilmiş kapitalın müəyyən hissəsinin Azərbaycan qəzalarında yeni sahələrə sərf edilməsi ölkənin sosial-iqtisadi həyatının inkişafına ciddi təsir göstərirdi. Bu inkişaf Azərbaycanda milli burjuaziyanın yaranmasına təkan verdi.

Qeyd etmək lazımdır ki, Azərbaycanda milli burjuaziyanın meydana gəlməsi milli şüurun inkişafına öz təsirini göstərdi. İstedadlı burjua gənclərinin Rusiyanın və Avropanın təhsil ocaqlarına göndərilməsi öz səmərəsini verirdi. Xarici ölkələrdə öz təhsilini başa vurub qayıdan gənclər milli demokratik hərəkatın yaranmasında və milli şüurun oyanışında mühüm rol oynayırdı. Onlar qabaqcıl ideologiyalarla tanış olaraq anlayırdılar ki, böyük ideyalara qovuşmaq üçün ilk növbədə qan yaddaşına qayıtmaq, özünü dərk etmək, millətini, onun tarixini, mənəvi dəyərlərini araşdırmaq lazımdır. M.Ə.Rəsulzadə yazırdı: "Millət inanmağa başladı ki, istiqlal xaricində onun üçün əlavə Azərbaycan yoxdur".

Milli şüurun və milli özünüdərkin inkişafı Azərbaycanı XX əsrin siyasi, sosial və iqtisadi təlatümlərinə milli varlığını gerçəkləşdirmək ümidi ilə daxil etmişdi. Bu dövrdə mövcud olan milli-liberal cərəyanın nümayəndələri daha çox millətin siyasi cəhətdən təşkilatlanmasına çalışırdılar. Milli ictimai təfəkkürün əsas daşıyıcısı olan

milli-demokratik mətbuat, milli partiyalar, siyasi təşkilatlar yaranır və öz fəaliyyətlərini genişləndirirdilər.

Bu proseslər millətin formalaşmasının təbii nəticəsi və zəruri anı olan milli dövlətin - ADR-in yaradılması ilə nəticələndi. Azərbaycan Demokratik Respublikasının yaranması Azərbaycan xalqının bir millət kimi təşkil olunduğunu sübut edən faktdır. Bu milli dövlət millətin məhsulu idi. Çünki bu dövləti yaradan millətdir. Artıq bununla dövlət özünü qurmuş olan millətin adını daşıyaraq millətin davamı, mövcudiyyəti ilə özünün də davam və mövcud olmasını dərk edir. Bu cür dövlətin təməli möhkəm olur. Ə.Ağaoğlunun fikrincə, dövlətlərini millətin heyəti-məciuəsi hesab edənlər, istiqlallarını itirdikdən sonra belə, dövlətlərini ehya etmək ümidi ilə yaşayırlar və bu ümid gec-tez hasil olur. O, Hindistanın onda bir nisbətində olan Yunanıstan və Serbiyanı buna misal göstərir. Azərbaycan Demokratik Respublikasının tez süqut etməsinə baxmayaraq, Azərbaycanı məhv etmək mümkün olmadı. Çox güclü təzyiqlərə baxmayaraq Azərbaycanı sovet dövlətinin total strukturlarında əritmək cəhdi öz müsbət nəticəsini vermədi. Çünki bu millət çox möhkəm təməllər üzərində formalaşdırılmışdı. Məhz bunun nəticəsidir ki, millət özündə mənəvi qüvvə taparaq milli dövlətçiliyini bərpa edə bilmişdi.

MİLLƏTÇİLİK - bir milləti başqa bir millətə tabe edən ideo logiya, psixologiya, sosial təcrübə, dünyagörüşü və siyasət; Milli müstəsnalığı və üstünlüyü təblir edir, milli düşmənçiliyi, inamsızlığı və münaqişələri qızışdırır. Millətin qeyri adiliyini və o biri xalqdan üstünlüyünü təblir edən, milli ədavəti qızışdıran, millətlər arasında inamsızlığı və ziddiyyətləri yayan məfkurə. M. özünün mənşəyi etibarilə burjuaziyanın milli məsələdə siyasəti, ideologiyası və sosial təcrübəsi hesab edilir və ilk növbədə millətin birləşməsinə və möhkəmlənməsinə, feodalizmlə mübarizədə milli hərəkatın qələbəsinə yönəldilmişdir. M.bütün dünyada geniş yayılmışdır, təcrübi olaraq özünü bütün ölkələrin ictimai həyatında büruzə verir, amma

çoxmillətli, əhalisinin etnik tərkibi müxtəlif olan ölkələrdə daha ciddi bir xarakter kəsb edir. M. dünyada müstəmləkə sisteminin parçalandığı, müstəmləkəçiliyə və yarımmüstəmləkəçiliyə qarşı xalq hərəkatının gücləndiyi bir dövrdə müxtəlif xalqların dünya siyasətində və təsərrüfat münasibətlərində tam və bərabər hüququnu tələb etməyə başladığı illərdə çox qüvvətli təkan əldə edir. Son imperiyalarda milli hərəkat və SSRİ-nin, Yuqoslaviya Sosialist Federativ Respublikasının parçalanması ilə əlaqədar M. öz mövqeyini bu ölkələrin ictimai həyatında daha da möhkəmlətdi.

M.çoxşəkilli və çoxsahəli olub hər hansı konkret bir şəraitdə belə özünəməxsus məna kəsb edir və qarşıya qoyduğu vəzifə və təzahür formaları müxtəlif olur. O, həm faşizm qiyafəsində, həm də irqçilik şəklində görünə bilər, eyni zamanda incəlib marksizm maskası geyməyə, liberal və demokratik xarakteri almaq xüsusiyyətinə malikdir. O, həm böyük dövlətçilik şovinizmi, həm kiçik xalqların millətçiliyi kimi, zorakı assimilyasiyanın daşıyıcısı kimi, milli məhdudiyyətçilik, qapalılıq, təklik, avtargiya qiyafəsində meydana çıxa bilər.

Nəhayət, M. həm yüksək inkişaf etmiş və geridə qalmış ölkələrdə, həm də inkişafı cəhətdən orta səviyyəli ölkələrdə ciddi ideya-siyasi qüvvə olaraq qalmaqdadır.

N.A.Berdyayev M.-i mürtəce, dağıdıcı, zooloji və həm də nəzəri, yaradıcı, milləti ictimai tərəqqi yolu ilə irəli aparmağa qadir olan bir məfkurə kimi təsnifləndirmişdir. Məsələnin belə qoyuluşu ümumiyyətlə, M.-in müxtəlif təzahür formalarının eyniləşdirərək və onun haqqında dəqiq münasibət yaratmaqda çətinlik törədən nəzəri fikir üçün səciyyəvi idi.

Son vaxtlara qədər biz nəzəri və siyasi fəaliyyətimizdə Lenin tərəfindən formalaşmış mülahizəyə əsaslanırdıq: "Məzlum millətin hər bir burjua millətçiliyində zülmə qarşı ümumdemokratik bir məzmun vardır, biz də məhz bu məzmuna qəti tərəfdar çıxırıq". (Lenin V.i.Tam əsərləri külliyyatı, c.25, səh.295).

Lenin belə hesab edirdi ki, M. əzilən, məzlum xalqlarda

baş qaldırırsa, onda ona bəraət qazandırmaq olar.

Keçmiş SSRİ-də məsələnin nəzəri cəhətdən belə qoyuluşu beynəlmiləlçiliklə **M.** arasında çox sərt qarşıdurma forması - ya beynəlmiləlçilik, ya da **M.** kimi qəti forma yaratmışdı. Milli məsələ haqqında hər hansı məsələ irəli sürmək istəyəndə də, yəni milli maraq, dəyərlər, mədəniyyət, dil və s. məsələlərə toxunmaq cəhdi həmişə **M.** kimi əks-səda doğururdu. Milli şüura və **M.**-ə sinonim anlayışlar kimi baxılmış, sanki beynəlmiləlçiliyə əks çıxmaq kimi izah olunmuşdur. Bizim ölkəmizdə son illərdə milli hərəkatın artması, SSRİ-nin parçalanması, millətlərarası ziddiyyətlərin genişlənməsi və s. məsələlər milli özünüdərketmə problemini böyük və müstəqil problem kimi ayrı-ayrı millətlərin həyatında ön plana çəkmişdir. Keçmişdəki müstəmləkə və yarımmüstəmləkə ölkələrində **M.**-lə yanaşı, bütün yeni mütərəqqi mənəvi və ideoloji xarakter daşıyan faktorlar açıq-aşkar fəaliyyət göstərir, milli oyanışın yolları və metodlarına daha çox təsir edir. Milli şüurun yüksək dərəcədə inkişafı səviyyəsinə çatmış Avropanın əksər ölkələrində **M.** son dərəcə mürtəce bir hərəkət kimi qiymətləndirilir.

Məhz buna görə də bu gün **M.** prinsipsiz bir məna kəsb edərək başqa şəraitə uyğunlaşır, öz cildini dəyişir, başqa şəklə düşür, özünün eqoist hərəkətləri ilə, milli mənafeyin əleyhinə olan yalançı vətənpərvərlik şüarları ilə, milli maraq və dəyərlərlə öz simasını gizlətməyə cəhd göstərir. Milli rəmzlərlə, şüarlarla milli xarakterli müxtəlif əməliyyatlar həyata keçirərək və bu yolla da insanların milli hisslərini istismar edərək **M.**, xalqın həyatında mühüm rol oynayan milli şüur ilə özünü eyniləşdirmək üçün daha çox canfəşanlıq edir. Eyni zamanda, **M.** xalqlar arasında milli qırğın və yadlaşma münasibətləri törədir. Milli dirçəlişin və milli tərəqqinin əsaslı və uzunmüddətli maraqların həyata keçirilməsinin şərtlərini və formalarını axtarıb tapmaq və ümumiləşdirmək milli özünüdərkin vəzifəsidir. Məhz o, dərk edir ki, milli tərəqqinin mənbəyi yalnız milli dəyərlər, millidərkin daxili potensiyası deyil, daha

çox beynəlmiləlləşdirmə və onunla şərtləşən inteqrasiya prosesləri, millətlərin əməkdaşlığı böyük əhəmiyyət kəsb edir.

Milli şüur və **M.** bir-birinə tamamilə əksdir. **M.** ümummilli maraqlar haqqında yalnız boşboğ azlıq edir, acgöz, tamahkar, dar sinfi məqsəd güdür, milləti tarixin ümumi inkişafından xaricdə və sinfin fövqündə duran yüksək ictimai birlik forması kimi, onun tərkib hissəsi olan siniflərin və sosial qrupların maraqlarının oxşar harmonik birliyi kimi təsəvvür edir. Həqiqətdə isə o, ayrı-ayrı sosial qrupların dar, eqoist və acgöz maraqlarının müdafiəçisi kimi çıxış edir. Korporativ maraqları və məqsədləri ümumilli ideologiyadan üstün tutur. O, milləti geri çəkir, tənəzzülə və durğunluğa sürükləyir. əgər ona hakim bir mövqe ələ keçirmək nəsib olsa o, xalqı siyasi və mənəvi həyatdan təcrid edər, xalqlar üçün qüdrətli və əvəzsiz mənbə olan başqa millətlərlə əməkdaşlıq etmək kimi xeyirli və mütərəqqi bir prosesdən uzaqlaşdırar, ondan məhrum edərdi. Bütün bunlara nail olmadıqda isə o, düşmənçilik yaymaq, qonşularla münaqişə və ixtilaf yaratmaq, milləti böyük sınaqlarla qarşı-qarşıya qoymaq kimi işlərlə məşğul olur. Millətləri ixtilafa və toqquşmaya qızışdıran, zorakılığa və acgözlüyə söykənən döyüşkən **M.** cəmiyyət üçün böyük təhlükə törədir.

Lakin, millətin qeyri-adiliyini və o biri millətdən üstünlüyünü dolayı yolla təblir edən adamlarda belə bir səhv təsəvvür yaradan gizli **M.** daha çox qorxuludur. Öz xalqı haqqında elmdən uzaq mülahizələr irəli sürmək, onun anadangəlmə xüsusi keyfiyyətlərə, fitri istedada malik olması haqqındakı cəfəngiyyatlar, hansı xalqın tarixi daha qədimdir və ya kimin mədəniyyəti daha zəngindir və s. bu kimi mövzular ətrafındakı mübahisələr, bir qayda olaraq, öz millətini şişirtmək, qonşu xalqları isə alçaltmaq məqsədi güdür. **M.** yükü daşıyan şəxs lovralanaraq başqa xalqların bəsit tarixə və mədəniyyətə malik olmasından, milli xarakter cizgilərinin zəif olmasından, onların həyatlarının bu və ya başqa sahələrində nüqsanlar olmasından ağız dolusu boş

mülahizələr yürüdəcəkdir. ən nəhayət, tarixdə bu "fitri" xalqın uğur qazanmamasında başqa xalqların günahkar olmasını "tarixi faktlar" və ictimai, iqtisadi "təhlil" yolu ilə əsaslandıracaqdır.

Millətçilər tarixin o səhifələrindən və faktlarından daha geniş istifadə edirlər ki, keçmişin bu illərində millət daha çox təhqir olunub, milli ədalətsizliyə daha çox məruz qalıb. **M.** yükünün daşıyıcısı müasir dövrdə tarixin inkarolunmaz faktlarını kənara atıb keçmişdə baş vermiş hadisələri və faktları, qonşularla mövcud olan çoxəsrlik qarşılıqlı əlaqələri nəzərə almadan və yada salmadan onları özü istədiyi kimi, təhrif olunmuş bir formada izah edir. Beləliklə də, millətçilik ideyalarının toxumu səpiləcək tarlalar əvvəlcədən bu qaydada "göbrələnir".

Nəhayət, **M.** özünün psixoloji təzahür və xüsusiyyətləri ilə də çox qorxuludur. O, stereotipləri, irrasional, ağlazidd hissləri, neqativ halları əvvəlcədən başqa xalqlara qarşı istiqamətləndirir.

M.-in əlamətlərindən biri də ondan ibarətdir ki, o, insanları "bizimkilər" və "onlar" kimi qruplara bölür. Coxdan belə bir fikir formalaş b ki, **M.** xarici mühitdə, özünə tanış olmayan hər bir şeydə rəqib, istismarçı, düşmən obrazı axtarır. Təbliğatın bütün formalarından və vasitələrindən geniş istifadə edərək, xalq kütləsinin şüuruna təsir göstərir, insanların müəyyən bir hissəsi özlərinin praqmatik və eqoist məqsədləri üçün onları qeyri- şərtsiz qəbul edir.

M. özünün psixoloji təsir vasitələrinin köməyi ilə xalqın məişətinə sirayət edir, bu işə geniş xalq kütləsini, qocaları, hətta azyaşlı uşaqları belə cəlb edir, xalq arasında zərərli, düşmənçilik və nifaq toxumu səpilir. Bu da, müxtəlif vəziyyətlərdə yüksək emosionallığa, həyəcanlı vəziyyətə gətirib çıxarır. Yadda saxlamaq lazımdır ki, **M.** belə hallarda öz cəbbəxanasında olan geniş tarixi təcrübə və dərin köklərə malik olan ənənələrdən bacarıqla istifadə edir, bütün vasitələrlə xalqın şüuruna təsir etməyə çalışır.

M.-in hiyləsi o adamların və qrupların milli hisslərinə daha çox toxunur ki, onlar həqiqi milli hisslərdən və milli dəyərlərdən uzaqdırlar, onlarda milli özünüdərk etmək qabiliyyəti çox zəifdir. Bir qayda olaraq, insanlar özlərinin adi şüurlarını, milli hisslərini həyata maraqları ilə, məişət məsələləri ilə əlaqələndirirlər. **M.** isə xalqın həyatı ilə bağlı olan ən xırda məsələlərdən, "qanunsuzluqlardan" xalq arasında çaxnaşma salmaq üçün bacarıqla istifadə edir. Həll olunmamış problemlər, sosial-iqtisadi vəziyyətin pisləşməsi, cəmiyyətdəki gərginliyin artması **M.** və seperatizm üçün determinator rolunu oynayır.

Keçmiş SSRİ-də, RSFSR-də, eyni zamanda Avropanın keçmiş sosialist ölkələrində **M.** ictimai-siyasi həyatı kəskin mürəkkəbləşdirən daha bir xüsusiyyət kəsb edir. Iqtisadi tənəzzül və sosial gərginliyin artması, milli və millətlərarası münaqişələrin çoxalması, demokratik institutların və ənənələrin, demək olar ki, tam yoxluğu cəmiyyətin bütün qatlarında ideologiyasızlaşma prosesinin bərqərar olması mənəviyyat sahəsində bir boşluq, vakuum əmələ gətirmişdir. **M.** isə bundan istifadə edib özünün bütün komponentləri ilə bu boşluğa soxulur. Belə bir hərcimərclik şəraitində döyüşkən **M.** üçün münbit zəmin yaranır. Yeni meydana gəlmiş siyasi qüvvələr və liderlər öz pro qramları və şüarları ilə kommunist rejimindən sonra yaranmış vəziyyəti saxlamağa və möhkəmləndirməyə can atır, eyni zamanda **M.**-dən öz hakimiyyətinin ictimai dayağı kimi istifadə edir. Millətçilik ruhunda tərtib olunmuş proqramlarla müxalifətdə olan qüvvələr də çıxış etməyə başlayır. Bunu qeyd edək ki, **M.** eyni zamanda, ciddi sosial münaqişələri söndürməyə (bu proses təcrübədə bir neçə dəfə müşahidə olunmuşdur), eyni zamanda gərgin ictimai-sosial ziddiyyətləri millətlərarası gərginlik istiqamətinə yönəltməyə qadirdir.

Keçmiş ittifaqa daxil olan ölkələrdə kommunist ideologiyasının öz yerini belə sürətlə **M.** ideologiyasına verməsi, bu iki ideologiya arasında bir yaxınlıq, qohumluq olduğuna dəlalət edir.

M. məişət səviyyəsində öz mövqeyini sovet hakimiyyətinin mövcud olduğu bütün illərdə saxlamışdır. O, siyasət sahəsində də tam şəkildə aradan qaldı-

rılmamışdır. Bundan əlavə, imperiya təfəkküründə və ideyalarına qulluq edən bir siyasət və ideoloji cərəyan olmaq etibarilə bolşevizm təpədən dırnağa qədər **M.** hissləri ilə qidalanmışdır. "Bir ölkədə sosializmin qələbəsi" nəzəriyyəsinin qoyuluşu "sovet dünyasının" Qərb dünyasına (onun demokratizminə, mədəniyyətinə) olan etinasızlığından, onun xarici siyasət sahəsindəki eqoizmindən irəli gəlirdi. Bütün bunlar isə **M.**-in əsas atributları idi. **M.**-in separatçı variantının meydana gəlməsinə qarşı mübarizə aparan bolşevizm, onun "sovet" variantını peyvənd etdi, bununla yanaşı velikorus, hakim dövlətçilik oyunu oynamağa başladı.

Artıq bu gün milli özünüdərketmə prosesinin artmasına təsir göstərən iqtisadi zəruriyyət, təxirəsalınmaz sosial tələblər **M.**-ə qarşı yönəlmişdir, lakin bu mərhələdə, **M.**-i qidalandıran zəmin çox qüvvətlidir. Totalitar və imperiya təfəkküründə çox güclüdür, milli ziddiyyətlər hələlik çox kəskin bir vəziyyətdədir, yeni-yeni milli münaqişə ocaqları meydana gəlir. Ona görə də demokratik institutlar və ənənələr olduqca zəifdir. Haradakı milli düşmənçilik yaranır, insan qanı axıdılır və zorakılıq, güc tətbiq olunur, haradakı separatizm güclənir, kompromissizlik meydana gəlir və "tam qələbə çalana qədər irəli" şüarı üstün mövqe kəsb edir, orada **M.** çox fəal bir sürətlə fəaliyyət göstərir.

M. platformasında durmuş qüvvələr yalnız kütlələrin şüuruna qüvvətli psixoloji təsir etmir, eyni zamanda öz doktrina və proqramlarını milli ərazidə yerləşən hakimiyyət institutlarına sırımağa çalışır. Az olmayıb ki, milli zəmində başlamış konflikt elə bir həddə gəlib çatıb ki, üz-üzə duran ayrı-ayrı qruplar, tayfalar, dəstələr deyil, özünün siyasi hakimiyyət strukturları ilə birlikdə bütün xalq üz-üzə dayanır və axıra qədər durmağa da hazır olduğunu nümayiş etdirir. Münaqişələrin belə çıxılmaz vəziyyətinin "həllinə" **M.** xəstəliyinə tutulmuş Ermənistanla Azərbaycan arasındakı qarşıdurmanı misal göstərmək olar.

M., qarşılıqlı düşmənçilik, nifrət təkcə demokratiyanın qıgücümlarını söndürməyə, xalqın böhrandan çıxmaq imkanlarını yox etməyə qadirdir, o, eyni zamanda hər hansı xalqın yenidən dirçəlməsinə, mənəviyyatca təmizlənməsinə də maneədir.

MİLLİ AZADLIQ - ictimai-siyasi proses, yaxud bu və ya digər ölkənin milli suverenlik (müstəqillik) əldə etməsi aktı.

Müstəmləkə ölkələrinin və məzlum xalqların **M.a.** hərəkatı kapitalizmin inkişafı, millətlərin formalaşması dövründə genişlənmişdir. Kapitalist münasibətlərinin inkişafı dünyanın müxtəlif regionlarında **M.a.** hərəkatlarının ayrı-ayrı vaxtlarda başlanması üçün şərt olmuşdur. XVI-XVIII əsrlər - XIX əsrin birinci yarısı Qərbi Avropanın, Şimali Amerikanın, Rusiyanın millətlərinin və milli dövlətlərinin formalaşması dövrüdür (Niderland burjua inqilabı, Şimali Amerikada istiqlaliyyət uğrunda müharibə və i.a.). XIX əsrin ikinci yarısında İtaliyanın, Almaniyanın birləşdirilməsi başa çatmış, bolqar, rumın, serb dövlətləri yaranmış, çex, polyak, fin və s. xalqların milli istiqlaliyyət uğrunda mübarizəsi geniş vüsət almışdır. XX əsrdə **M.a.** hər dəfə beynəlxalq hadisələrin təsiri ilə genişlənərək yüksələn dalralar formasında baş verirdi. XX yüzilliyin birinci yarısında müstəmləkə ölkələri və xalqlarının **M.a.** hərəkatının yaranması, Rusiyada 1917 -ci il Oktyabr inqilabı, ikinci dünya müharibəsində antihitler koalisiyasının qələbəsi bu prosesin taleyində həlledici rol oynadı.

M.a.-ın birinci dalrası XX əsrin birinci iki onilliyində baş verdi ki, bunun da nəticəsində bir çox Asiya və Afrika ölkələri faktiki olaraq dövlət müstəqilliyi qazandılar. Müharibədən sonrakı dövrdə bütün dünyada genişlənən ikinci dalra imperializmin müstəmləkə sisteminin dağılması ilə əlamətdar olmuşdu. O vaxt İndoneziya, Hindistan, Pakistan kimi iri ölkələr və bir çox digər, əsasən Asiya ölkələri yadelli əsarətindən azad oldular. Üçüncü dalra 50-ci illərin sonu - 60-cı illərin əvvəllərində qaralar Afrikasının müstəmləkə buxovlarını atması, dördüncü dalra Portuqaliya müstəmləkə imperiyasının (70-ci illər) dağılması, beşinci dalra isə dünyanın sonuncu imperi-

yaları SSRİ və Yuqoslaviyanın süqutu ilə (80-ci illərin sonu-90-cı illərin əvvəli) bağlı baş vermişdir.

İctimai-siyasi proses kimi **M.a.** iki əsas formada cərəyan edir: çox vaxt ya müstəmləkəçilərə qarşı uzun illər boyu silahlı mübarizə xarakteri alan azadlıq inqilabından sonra yadelli hakimiyyəti ləğv edilmiş, ya da istiqlaliyyət istiqamətində təkamül hərəkatı nəticəsində son nəticədə hakimiyyət dinc yolla milli hökumətə verilmişdi. Aralıq variantları da vardır: istiqlaliyyətin elan olunması aktı nisbətən dinc şəraitdə həyata keçirilir, lakin sonra **M.a.**-ı müstəmləkəçilərin qəsdlərindən qorumaq üçün bir neçə silahlı mübarizə vasitəsinə əl atmaq lazım gəlir. Yaxud, istiqlaliyyət bəyannaməsi yalnız real **M.a.** əldə edilməsi istiqamətində ilk addım olur. Sonra isə onu tamamilə həyata keçirmək üçün əlavə addımlar atılır.

M.a. prosesinin kütləvi bazasını təşkil edən sosial, etno-milli və s. ictimai qüvvələrin mürəkkəb konqlomeratının mübarizəsinin yekunudur. "Aşağılar" bu hərəkatda nə qədər fəal iştirak etsələr, müstəmləkəçilik əleyhinə mübarizə aparan liderlərin xətti də bir o qədər ardıcıl olar. Bu mübarizəyə rəhbərliyi yerli əhalinin daha çox nüfuzlu təşkilatları (iri partiya, partiyalar komissiyası, silahlı azadlıq təşkilatı) rəhbərlik edir. **M.a.** siyasi prosesinə rəhbərlik tipi ayrı-ayrılıqda, yaxud məcmu halda fəaliyyət göstərən sinfi, milli-etnik və dini amillərlə müəyyən olunur.

Bir qayda olaraq, **M.a.** burjua-millətçi (radikal, yaxud mütədil) dairələrin, yaxud inqilabçı demokratların rəhbərliyi altında təkmilləşir. Bəzən **M.a.** uğrunda mübarizəyə feodal-monarxiya qüvvələri, yaxud kommunistlərin başçılıq etdiyi milli-vətənpərvər qüvvələr başçılıq edirlər.

XX əsrdə müstəmləkə imperiyalarının süqutu ilə **M.a.** özünün əvvəlki kəskinliyini itirmiş və tez-tez iqtisadi azadlıq problemi qarşıya çıxmağa başlamışdır. Bununla belə "üçüncü dünyada", Şərqi Avropada və Sovet İttifaqında baş verən hadisələr göstərdi ki, genişlənməkdə olan demokratikləşmə prosesləri dərinləşdikcə **M.a.**-ın

bu və ya digər baxışları və tipləri indiyə qədər məlum olmayan formalarda yeni qüvvə ilə qarşıya çıxa bilər (Banqladeşdə ikinci dəfə müstəmləkəsizləşdirmə; Afrikada etno-milli amilin rolunun artması; keçmiş SSRİ-də və Şərqi Avropa dövlətlərində suverenləşmə prosesi).

M.a. prosesində sosial, milli, iqtisadi, dil, mədəniyyət və s. problemlərin həlli üçün cəhdlər göstərilir. əgər bu problemlər əvvəlki mərhələdə həll olunmamışsa, sonrakı mərhələlərdə mütləq irəli sürülür. Bu və ya başqa siyasi qüvvələrin təsiri ilə beynəlxalq münasibətlərin deformasiyası da **M.a.** şüarı altında dövlətlərin suveren hüquqlarının bərpa olunması cəhdlərinin fəallaşmasına kömək edir.

MİLLİ BARIŞIQ - özündə geniş və çoxtərəfli, hər şeydən əvvəl, millətdaxili və məhəlli konfliktlərin qarşısını almaq, bu və ya digər ərazidə sülh yaratmaq, münaqişəyə girmiş tərəflər arasında sazişə nail olmaq, qarşıduran qüvvələrin hərbi əməliyyatlarını və silahlı aksiyalarını dayandırmaq, milli sülh və həmrəylik yaratmaq məqsədi güdən tədbirlər kompleksini birləşdirən sosial-siyasi proses. 1988-ci ildə BMT Baş Məclisinin 41-ci sessiyasında öz ölkəsinin gələcəyinə münasibətdə əfqanıstan rəhbərliyinin tədbir və niyyətlərinin pisləmməsi kontekstində "millətdaxili və məhəlli konfliktlərin nizama salınmasının əsas modeli" kimi rəsmən təsdiq edilmişdir.

Politologiyada **M.b.**-ın daha mühüm üç nüqteyi-nəzəri var. Birincisi, strateji mənada M.b. yeni, siyasi təfəkkürün qarşıdurmanı rədd edən ideyalarının maddiləşməsinin daha aşkar yollarından biridir. ikincisi, real planda - bu, tam bir sıra xroniki millətlərdaxili, həmçinin millətlərarası və hətta məhəlli konfliktlərin təcridinin və dünyada qlobal qarşıdurmanın azaldılmasının səmərəli üsuludur. üçüncüsü, **M.b.**- mütərəqqi qüvvələrin öz ölkələrində başladıqları köklü dəyişikliklər (bunların sırasına hər hansı inqilabı, islahatlar kompleksini, nəhayət yenidənqurmanı aid etmək olar) dərhal çoxlu, aradan qaldırıla bilinməyən çətinliklərlə (bu nüqteyi-nəzər güzəştlər haqqında Lenin tə`limin-

dən irəli gəlir. **M.b.** siyasətindən daha çox strateji deyil, taktiki **M.b.** faydalanmanı nəzərdə tutur) üzləşdikdə sosial proseslərin qlobal inkişafı üçün daha məhsuldar imkanlar açır.

Müasir sosial-siyasi kontekstdə adətən **M.b.** 1987-ci ildən bu siyasəti həyata keçirməyə başlayan əfqanıstanla, həmçinin bir qədər sonra həmin yola qədəm qoymuş Nikaraqua və Kamboca ilə əlaqələndirilir. Tarixi kontekstdə isə təkcə XX əsrdə **M.b.**-ın həyata keçirilməsi cəhdlərinin ən azı dörd dalrasını izləmək mümkündür. Onlardan birincisi Rusiyada baş vermişdir: vətəndaş müharibəsinin başa çatması mərhələsində Sovet hökuməti, yeni hakimiyyət onun dayandırılması, yaxud da, heç olmazsa miqyasının məhdudlaşdırılması üçün düşmənlərə münasibətdə amnistiyalar elan etmiş, müxalifət rəhbərlərini "namusla söz verdiklərinə" görə həbsxanalardan buraxmışlar və i.a. ıkinci dalra - ıkinci Dünya müharibəsindən sonra Şərqi Av ropa ölkələrinin təcrübəsidir, müharibədən sonrakı parçalanmanın aradan qaldırılmasında ümummilli (vətənpərvər, Vətən) cəbhələri, həmçinin hakim qüvvələrin öz hakimiyyətlərini həyata keçirməkdə güzəştlərə getməyə müəyyən qədər hazır olmaları kimi **M.b.** mexanizmləri də mühüm rol oynamışdır. Üçüncü dalra - 60-cı illər 70-ci illərin birinci yarısında Hind-Cində baş verən proseslərdir. 1973-cü il yanvarın 27-də Vyetnamda müharibənin dayandırılması və sülhün bərpa edilməsi haqqında Parisdə imzalanan Saziş Cənubi Vyetnamda "Milli barışıq və Həmrəylik Milli Şurası"nın yaradılmasını nəzərdə tuturdu.

Laosda sülhün bərpa edilməsi və milli həmrəylik haqqında 1973-cü-ci il fevralın 21-də Vyetnamda imzalanmış Saziş **M.b.** əsasında milli birlik hökumətinin yaradılmasını zəruri saymışdı. Nəhayət, dördüncü dalra - əfqanıstanda, Kambocada, Mərkəzi Amerikada və Afrikanın cənubunda, bir qədər yüngül formalarda isə - Polşada, Tunisdə və s. ölkələrdə M.b.-ın inkişafı olmuşdur.

Müasir dünyada **M.b.** çağırışı ilə çıxış edən qüvvələrin nəzərdə tutduğu başlıca məqsədlərin fərqliliyi baxımından, şərti olaraq **M.b.**-ı ən azı dörd əsas modelə ayırmaq olar. Birincisi, qalib gəlmiş quruluşun qəti bərqərar olması naminə **M.b.** 1988 ildə **M.b.** proseslərinə başlarkən Kamboca rəhbərliyi bunun üçün kifayət qədər geniş sosial bazanın, mövcudluğundan öz hakimiyyətini daha tez bərqərar etmək və vəziyyəti qəti olaraq sabitləşdirmək zərurətindən çıxış edirdi. ıkincisi, hakim rejimin özünü qorumaq ehtiyacından doğan **M.b.** Daimi xarici müdaxilə və çoxsaylı daxili mürəkkəbləşmələr təhlükəsi altında Nikaraquanın sandinozu rəhbərliyi "mütədil" müxalifətə güzəştlərə gedərək **M.b.**-ın köməyilə özünün sosial bazasını genişləndirmək üçün cəhdlər göstərəndə məhz bu mövqedən çıxış etmişdi. Lakin bu halda **M.b.**-ın nəticələri qarşıya qoyulmuş ilkin məqsədlərin hüdudlarından kənara çıxmışdı. üçüncüsü, qonşu ölkədəki rejimə kömək etmək və bütün regionda sabitlik yaratmaq naminə **M.b.** Salvadorda F.Marti adına cəbhə **M.b.**-a hazır olduğunu bildirərkən bu məqsədi güdmüşdü. Nəhayət, dördüncü, **M.b.** yalnız xarici qoşunların öz ərazisindən çıxarılması naminə də həyata keçirilə bilər. əfqanıstanın hakim dairələri **M.b.**-a başlarkən digər məqsədlərlə yanaşı bunu da rəhbər tutmuşdular. əlbəttə, başlıca məqsədlərin belə bölgüsü sxematik görünə bilər; bu situasiyalardan hər birinin konkret təhlili daha çox məqsədlərin qarşıya qoyulduğunu aşkarlamağa imkan verir.

Əməli münasibətdə **M.b.** bir neçə mərhələdən ibarət kifayət qədər uzun sürən sosial prosesdir və konflikt iştirakçılarının birtərəfli deyil, qarşılıqlı səylərini tələb edir. Bir qayda olaraq, **M.b.** bu prosesin ilkin şərtlərinin hazırlanmasına, birinci növbədə silahlı konfliktin dayandırılmasına yönəldilmiş tədbirlərdən başlayır. **M.b.**-a hazır olmaq haqqında - birinci, ilkin, bir çox halda hələ bəyanat səciyyəli mərhələdə eyni zamanda barışıq, atəşin dayandırılması barədə təkliflər irəli sürülür (ilk mərhələdə birtərəfli qaydada); qarşıduran tərəflərin dialoqunu təşkil etmək, konflikti nizama salmaq, qan tökülməsinə son qoymaq məq-

sədilə onların mövqeləri və qarşılıqlı tələbləri müəyyənləşdirilir. Belə dialoqun gedişində (birbaşa, ya da vasitəçilərin iştirakı ilə iki, yaxud çoxtərəfli "dəyirmi stol" tipli danışıqlar) tərəfləri razı salan siyasi güzəştin şərtləri, həmçinin ölkədə sülh və həmrəyliyə nail olmaq üçün birgə konkret proqram və mexanizmlər işlənib hazırlanır və müvafiq siyasi və hüquqi sənədlərlə təsdiq edilir. Dialoqa hazırlıq hakim qüvvələr tərəfindən sosial-siyasi aksiyalarla (adətən, bu çoxpartiyalılığın elan edilməsi, siyasi senzuranın ləğvi, hamı tərəfindən tanınmış insan hüquqlarına real söz, mitinq və yığıncaq azadlığına riayət olunmasına təminat, müxalifət partiyaları və hərəkatlarının leqallaşdırılması, siyasi dustaqlara amnistiya verilməsi və i. a. ibarət olur), həmçinin sosial-iqtisadi xarakterli (məs., iqtisadiyyatın çoxukladlılığına təminatın rəsmən elan edilməsi və həyata keçirilməsi) tədbirlərlə möhkəmləndirilir. Bütövlükdə, bütün bu tədbirlər kompleksi rəqabət aparan qüvvələrin hakimiyyəti inhisara almaqdan imtina etməsini, ictimai həyatın bütün sahələrində plüralizmə sədaqətini, adətən, azad seçkilər, referendum və i. a. vasitəsilə xalqın öz iradəsini bildirməsinə müvafiq hakimiyyəti bölməyə hazır olduğunu nümayiş etdirmək məqsədi güdür. ideoloji planda **M.b.**-ın əsasını dünyanın və insanların həyatının ümumbəşəri dəyərlərinə, vətənin birliyinin və əmin-amanlığının saxlanmasından doğan vətənpərvərlik dəyərlərinə, geniş kütlələrə söykənən dini dəyərlərə, həmçinin, azadlıq, tərəqqi, xoşbəxtlik və i.a. ümumdemokratik sərvətlərə müraciət təşkil edir. Yalnız adları çəkilən aksiyalar həyata keçirildikdən sonra işlənib hazırlanmış razılaşmalara riayət olunacağına və onların gerçəkləşəcəyi gedişatı yoxlamağa etibarlı nəzarət mexanizmi yarandığı halda üçüncü mərhələ başlanır - **M.b.**-ın özü, milli sülh və həmrəylik həyata keçirilir.

M.b.-ın müvəffəqiyyət proqnozuna qoşulan qüvvələrin səmimiliyi dərəcəsindən asılıdır. əgər **M.b.**-a birtərəfli üstünlüklər əldə edilməsi üçün taktiki vasitə kimi baxılarsa (məs.: əfqanıstanda olduğu kimi) və təblirat

bəyannamələrindən uzağa gedilmirsə, onun davamlı olacağına, parlaq nəticələrə gətirib çıxaracağına ümid azdır. əgər tərəflər sosial-xudbin niyyətlərdən imtina edərək öz xalqının strateji mənafeyini rəhbər tutarlarsa, nəticələrin də müsbət olacağı mümkündür (məs., Polşa və s.).

MİLLİ DÖVLƏT – Millətin müstəqil yaşamaq ehtiyaclağından yaranır. Ona görə də millət deyərkən, ölkənin heç də ayrı-ayrı adamları, fərdləri, ayrı-ayrı şəxsiyyətləri, klan və tayfaları, etnik birlikləri deyil, bütövlükdə əhalisi, ümumi xalqı nəzərdə tutulur. Bu mənada Azərbaycan millətini respublikada yaşayan aborigen xalqların vəhdəti kimi başa düşmək tələb olunur. Azərbaycanda ayrı-ayrı xalqlar (türk, talış, avar, ləzgi tat kürd, udi, xınalıq, lak, tabasaran və b. onlarca etnosların rəngarənliyi) məskundur. Lakin əsrlər boyu müxtəlif sosial-siyasi, iqtisadi- mədəni proseslər nəticəsində onlar bir-birilə qaynayıb qarışmış, qohum olmuş (qarışıq nigahlar və s.) və nəticədə eyni iqtisadi zonada , eyni dövlət sərhədləri daxilində, eyni mədəniyyət ünsürləri zəminində vahid xalq halına düşmüşlər. Azərbaycan dili bu prosesdə inteqrativ rol oynamış, onların hamısını birləşdirən ünsiyyət vasitəsi rolunu yetirmişdir. Özünün milli mənəvi sərvətləri ilə başqalarından fərqlənən yeni bir tarixi birliyə nail olmuşuq. İlk dəfə Azərbaycan istiqlaliyyəti məsələsini ortaya atan M.Ə.Rəsulzadə və XX əsrin digər maarifçi mütəfəkkirləri də məsələni bu şəkildə anlamış və qiymətləndirmişlər.

Z.B.Göyalp "Türkçülüyün əsasları" kitabında türkçülüyü üç qismə bölür: 1.Türkiyəçilik; 2. Oğuzçuluq və türkmənçilik;3. Turançılıq. göründüyü kimi, Z.B.Göyalp türklərin dövlət mənafelərini daha üstün tutaraq birinci yerə türkçülüyü deyil, Türkiyəçiliyi qoyur. Bu ideyalar sonradan Kamalizmin təməl daşını təşkil etdi. kamalizm ölkənin rəsmi ideologiyası kimi qəbul olunanda (1936-cı il) etatizm (dövlətçilik) birinci, türkçülük isə ikinci prinsip kimi qəbul olundu. M.K.Atatürk pantürkizmə laqeyd idi. O bilirdi ki, bu ideyalar gənc və yeni müstəqil Türkiyə üçün qəbulolunmazdır. Ona görə də

M.K.Atatürkü ilk növbədə Türkiyənin istiqlaliyyəti məsələsi maraqlandırırdı. Azərbaycanda da bu məsələ Türkiyə ilə eyniyyət təşkil edə bilər. Çünki burada da birinci yerdə milli mənafe, dövlətçilik ənənələri, dövlət sərhədləri daxilində milli inkişafı və xalqın birliyinin təmin olunması dayanır.

MİLLİ XARAKTER - ətraf aləmin qavrayışı və ona reaksiya formalarının müəyyən milli birliyə xas olan sabit və başlıca xüsusiyyətlərinin məcmusu. **M.x.** ilk növbədə emosional hissi təzahürlərin müəyyən məcmusudur və dünyanın mənimsənilməsinin emosional - hissi qavrayış üsulları olan emosiyalarda, hisslərdə və ovqatlarda ifadə olunur, habelə baş verən hadisələrə cavabın sürətində və intensivliyində özünü göstərir. **M.x.** daha qabarıq şəkildə milli temperamentdə təzahür edir, məs., bunun nəticəsində Skandinaviya xalqları Latın Amerikası xalqlarından fərqlənir.

M.x. anlayışı öz mənşəyinə görə nəzəri-analitik deyil, təsviri anlayışdır. ilk dəfə onu səyyahlar, daha sonra coğrafiyaşünaslar və etnoqraflar işlətmişlər ki, müxtəlif millət və xalqların həyat davranışı və obrazının xüsusiyyətlərini ifadə etsinlər. Bu zaman müxtəlif müəlliflər **M.x.**-i müxtəlif cür başa düşmüşlər. Buna görə də **M.x.**-in sintetik, ümumiləşdirilmiş yozumu əzəldən kombinator səciyyəlidir, bu səbəbdən də kifayət qədər bütöv xarakter daşımır.

Belə qəbul olunmuşdur ki, **M.x.** millətin psixi xüsusiyyətlərinin tərkib hissəsi, eyni zamanda milli psixologiyanın əsasıdır. Emosional (**M.x.**) və rasional (bax; **MİLLİ ŞÜUR**) ünsürlərin mürəkkəb, qarşılıqlı asılılıqla şərtlənən məcmusu "millətin psixi sifası"nı yaradır, elə bir mənəvi davranış özünəməxsusluğunu yaradır ki, bir millətin nümayəndələrini digər milli qrupların nümayəndələrindən fərqləndirir.

Cəmiyyət inkişafının erkən, qeyri-sinfi mərhələlərində ünsürlərinə təsadüf etdiyimiz **M.x.** ətraf gerçəkliyin milli etnik birlik üzvlərinin psixikasında kortəbii, empirik və gündəlik inikas üsulu kimi özünü göstərmiş, eyni zamanda bu, birliyin ilkin təbii-psixoloji

vəhdətini formalaşdırmışdır. Sonralar da mühafizə olunan **M.x.** ünsürləri sosial-siyasi həyatın təsirinə tabe olur, lakin gündəlik həyatda adi səviyyədə təzahür edir, sosial məzmunlu böhranlarla bağlı, milli problem və ziddiyyətlərin kəskinləşdiyi, "öyrənəli qaydanın itirilməsi" duyğusunun meydana çıxdığı konkret hallarda isə sosial təsirdən qurtularaq və bilavasitə insanların davranışını ifadə edərək ön plana çıxır. Bu qəbilli çoxsaylı nümunələr siyasi sistemlərin təkmilləşdirilməsi proseslərində, xüsusən imperiya tipli totalitar-unitar dövlətlərin dağılması zamanı daha artıq rast gəlinir. Kütləvi milli azadlıq hərəkatlarının sürətli yüksəlişi əksər hallarda məhz **M.x.**-in partlayış təzahürləri ilə bağlıdır.

M.x. problemləri çoxdandır ki, hərtərəfli elmi tədqiqatların predmetidir. ilk ciddi tədqiqatlar XIX əsrin ortalarında Almaniyada yaranmış xalqlar psixologiyası məktəbinin (V.Vundt, M.Latsarus, X. Şteyntal və b.) çərçivəsində həyata keçirilmişdir. Bu məktəbin əsas ideyası bundan ibarət idi ki, tarixin əsas qüvvəsi xalqdır və ya "bütövün ruhu"dur. Bu da incəsənətdə, dində, dildə, mifdə, adət-ənənələrdə, bir sözlə xalqın **M.x.**-ndə ifadə olunur.

XX əsrin ortalarında Amerika etnopsixoloji məktəbi (A. Kardiner, R.F.Benedikt, M. Mid, R.Merton, R.Linton və b.) **M.x.**-in bir sıra konsepsiyalarını irəli sürərkən müxtəlif etnoslarda **M.x.**-in spesifikliyi qənaətindən çıxış etmişlər ki, bu da konkret fərdin sabit psixoloji cizgilərində və "mədəni davranış"da əks olunur. Bu ideya həmin məktəbin tərəfdarlarına bu və ya digər milli-etnik qrupun "orta şəxsiyyət" modelini qurmağa, hər millətdə elə "bazis şəxsiyyət" fərqləndirməyə imkan vermişdir ki, burada millətin nümayəndələri üçün ümumi olan şəxsiyyətin milli cizgilər ilə milli mədəniyyətin cizgilərini birləşdirmiş olsun.

Hazırda **M.x.**-in öyrənilməsi sahəsində hansısa bütöv bir istiqaməti fərqləndirmək imkanı yoxdur. M.x.-in tədqiqi müxtəlif kontekstlərdə müxtəlif konseptual-nəzəri mövqelərdən aparılır. Bunların fərqi bəzən alimlərin ideya-siyasi yönümü ilə bağlı olur ki, bu da **M.x.**-in

tədqiqini sosial-siyasi mübahisələrin arqumentinə çevirir. əslində **M.x.** probleminin elmi təhlilinin mürəkkəbliyi bundadır ki, əyani olaraq hər hansı empirik göstəricilər və nəzəri mülahizələr siyasətdə bu və ya digər millətçi, hətta irqçi cərəyanlar tərəfindən istifadə oluna bilər, belə ki, **M.x.** anlayışı xeyli vaxtdır ki, politologiya üçün özünəməxsus tələyə çevrilmişdir. ındiyədək müəlliflərin bir qismi yorulub usanmadan **M.x.**-in bəşəriyyəti qəti şəkildə bir- birinə qarşı qoyan milli-etnik qruplara bölən fərdi irsi cizgilərini axtarırlar. Başqa bir qisim alimlər də az qala eyni həvəslə sübut etməyə çalışırlar ki, "**M.x.**" anlayışı uydurmadır, real izahedici qüvvədən məhrum, zəminsiz fərziyyədir, mütəbər olmayan, buna görə də yalnız spekulyativ əqli nəticələr üçün istifadə edilən son dərəcə ideoloji və buna görə qeyri-elmi kateqoriyadır. ıfrat mühakimələrdən çəkinən tədqiqatçılar belə hesab edirlər ki, "**M.x.**" anlayışının elmi əhəmiyyəti var, lakin bu, bir tərəfdən məlum səbəblər özündən, digər tərəfdən **M.x.**-in empirik öyrənilməsində böyük metodik çətinliklər özündən məhduddur. Bununla belə, **M.x.**-in partlayış təzahürləri (xüsusən millətlərarası münasibətlər zamanı) təkzibedilməz reallıq olaraq qalır və siyasətçilər belə təzahürlərlə tez-tez üzləşirlər.

MİLLİ İDEOLOGİYA - Elə ölkələr vardır ki, orada **m. i.**-nn Konstitusiya əvəz edir. Daha doğrusu, Konstitusiya milli mənafelərin ideoloji-siyasi əsası olur. Hazırda bizdə də dövlətin ümumi mənafeyi, dövlətçiliyin saxlanılıb möhkəmləndirilməsi vəzifələri ümummilli vəzifələr kimi ön sıraya çəkilir. Vahid milli dövlət ideologiyasının yaradılması cəmiyyətdə mövcud ideoloji boşluqların doldurulması, milli həmrəyliyin əldə olunmasına, kadrların seçilib yerləşdirilməsində yerliçilik, tayfabazlıq, tərəfkeşlik, qohumbazlıq, etnotəəsübkeşlik və s. kimi neqativ halların aradan qaldırılmasına xidmət məqsədini güdür. **M. i.**-nın qəbul edilməsi işi, habelə azərbaycanlıların milli idealı olan azadlıq və müstəqilliyin, milli inkişafın təmin olunmasına, respublikanın ərazi bütövlüyünün qorunub saxlanılmasına, xarici təcavüzlərdən etibarlı müdafiə olunmasına və bu işdə etnik mənsubiyyətindən asılı olmayaraq, onun bütün vətəndaşlarının iştirakının təmin olunmasına xidmət edir. **M.i.** habelə azərbaycanlıların bir millət kimi formalaşmasına, azərbaycanlı şüurunun bütün vasitələrlə inkişaf etdirilməsinə, Azərbaycan Respublikasına mənsubluq, onun maddi və mənəvi sərvətlərinin tam və bərabərhüquqlu sahibi şüurunun möhkəmləndirilməsi işinə xidmət edir. Bu mənada **m. i.**-nın əsasında Konstitusiyanın əsasında Konstitusiyanın özü durmalıdır. Vahid **m. i.** ümumbəşəri mənəvi sərvətlərin vəhdətinə. Azərbaycanda məskunlaşmış bütün millət və xalqların bir amal uğrunda mübarizəsinə, onların tam hüquq bərabərliyinə, Azərbaycan vətəni üçün onların hamısının öz maddi və mənəvi mfsuliyyətlərinin dərk olunmasına əsaslanır. Bu mənada Azərbaycan vətənçiliyi, dövlətçiliyi və xəlqiliyi ideyaları onun qayəsini təşkil edir.

Bəzi alimlər Azərbaycan ideologiyasının üç təməl üzərində inkişaf etdiyi fikrini irəli sürürlər. Türkçülük, islamçılıq və azərbaycançılıq – bu üç təməl tarixən vəhdətdə olub, xalq bu həyat tərzində, düşüncəsində, arzusunda, nəüməsində, bayatısında - bir sözlə, ictimai və bədii təfəkküründə qoruyub saxlayıb, qırılmağa, ayrılmağa qoymayıb. (N. Şəmsizadə).

SSRİ dağılandan sonra yerində m.d., yəni etnokratik dövlətlər yaranmağa başladı. MDB məkanındakı digər milli dövlətlər kimi Azərbaycan da problemlərin həllinə başladı. Amma 1918- 20 ci illərdə mövcud olmuş Azərbaycan Demokratik Respublikasında olduğu kimi, bu respublikada da digər MDB ölkələrindən fərqli olaraq, etnokratiyanı tam həyata keçirmək mümkün olmadı. 1918-20-ci illərdə tam mövcud olmuş Azərbaycan Parlamenti əslində çoxmillətli tərkibə malik idi. Onun tərkibində digər xalqların nümayəndələri də təmsil olunurdular. İndiki parlamentimiz və hökumətimiz də mono milli tərkibə malik deyil və onun tərkibində də respublikamızda yaşayan müxtəlif xalqların nümayəndələri olmuşdur.

Demokratik Respublika

dövründə parlamentdə və hökumətdə yerliçilik, klançılıq, tayfabazlıq (traybolizm) əlamətləri olmamışdır.

MİLLİ MARAQLAR - çoxdan bəri elmi kateqoriyalar bazasına daxil olduğu Qərbi Avropa və ABŞ-dan fərqli olaraq bu termin əsasən publisistikada istifadə olunub və yalnız son dövrlərdə intensiv nəzəri məna kəsb etməyə başlayıb. Ümumiyyətlə, bu anlayışın elmi məna kəsb etməsi XX əsrin 30-cu illərinə təsadüf edir. İlk dəfə 1935-ci ildə "**M. m.**" anlayışı Oksford Sosial Elmlər Ensiklopediyasına daxil edilib və bunula da vətəndaşdıq hüququ alıb. Onun işlənib hazırlanması məşhur Amerika Teoloqu U.P.Nisbur və tarixçi Ç.Birdin adı ilə bağlıdır. **M.m.**-ı bütün beynəlxalq siyasətin nüvəsi və açarı hesab edən P. Nisbur qeyd edirdi: "Milli özünə maraq bir tərəfdən siyasi situasiyanın mahiyyətindən, digər tərəfdən insanın öz mahiyyətindən yaranır". Bu məsələyə diqqət II Dünya müharibəsindən sonra xüsuilə artdı. Onun ətrafında başlamış mübahisələri K.Morqentau "yeni nəhəng debatlar" adlandırmışdı. Məhz Morqentaunun 1948-ci ildə nəşr olunmuş "Milli maraqların müdafiəsi" kitabında bu konsepsiya daha geniş şəktldə təsvir edilmişdir. **M.m.** konsepsiyasının Amerika elmində sonrakı inkişafı C.Kennak, Y.Lippman, K.Yolts, E.Ferniks, C. Rozenay və başqalarının adları ilə bağlıdır.

Anlayışın mahiyyətinə gəldikdə qeyd etmək lazımdır ki, **m.m.** mücərrəd və subyektiv kateqoriyadır. M.m. anlayışındakı "milli" sözü öz klassik mənasında işlənmişdir. Belə ki, bu konkret olaraq hər hansı etnosu və ya milləti deyil, dövlətin vətəndaşlarının ümumi maraqlarını ifadə edir. Ümumiyyətlə, beynəlmiləlçilik doktrinasına əsaslanan "sovet dövründə" "milli" sözü uzun müddət zərərli söz kimi qəbul olunmuşdur. Çünki bu terminin geniş yayılması çoxmillətli dövlətin daxilində separatçılıq tendensiyalarının yaranmasına şərait yarada bilərdi. Qeyd etmək lazımdır ki, müasir dünyanın milli dövlətlərində "millətçilik" terminini tədricən öz yerini "vətəndaşlığa" təhvil verməkdədir.

Bu mənada **M.m.** anlayışı

tez-tez dövlət maraqları və milli-dövlət maraqları sözləri ilə paralel olaraq (sinonim kimi) işlənir.

M.m.-ın cəmiyyətin üstün maraqlarına zidd olmamaq şərti ilə dövlətin milli ehtiyatlarının artırılmasını stimullaşdırmaq ehtiyacı, həmçinin milli təhlükəsizliyə qarşı hər hansı təhlükəyə əks təsiri kimi müəyyən etmək olar.

M.m. dövlətin xarici siyasəti ilə bilavasitə bağlıdır. Bu və ya digər xarici siyasəti onun sosial-iqtisadi və ictimai-siyasi inkişafı, ölkənin geosiyasi vəziyyəti, onun milli tarixi ənənələri, suverenlik və təhlükəsizliyin təmini və s. determinatorlarla müəyyən olunur. Bütün bunlar isə ölkənin **m. m.**-lar konsepsiyasında öz əksini tapır.

Müasir politologiyada **m.m.**- ın əsasında iqtisadi, sosiomədəni və geosiyasi amillər durur. Milli maraqların tipologiyasına gəldikdə müxtəlif politoqlar onun bir neçə növünü göstərirlər. Bunlar içərisində əsas, ikinci dərəcəli və köklü

M. m. xüsusi qeyd olunur. (S.A.Proskurin).

Əsas maraqlar millətin həyat fəaliyyətinin daha vacib aspektlərinin təmin olunması, onun hərbi gücü, sabit və dinamik iqtisadi inkişafı, vətəndaşların sosial müdafiəsi, təhsili və tərbiyəsi ilə əlaqədardır.

İkinci dərəcəli maraqlar millətin həyat fəaliyyətinin daha uzaq perspekitvli inkişafının reallaşdırılması, ya da onun mövcudluğuna və inkişafına bilavasitə təsir etməyən, lakin gələcəkdə tarixin və siyasətin subyekti kimi ona zərər gətirə biləcək tərəfləri ilə bağlıdır. Buna misal olaraq, kosmik tədqiqatlarda, arxeoloji axtarışlarda və s. iştirakı göstərmək olar.

Köklü maraqlar isə millətin sosial orqanizmi, vahid sistem kimi mövcudluğu ilə bağlıdır. Buraya əsasən bütövlük, mədəni birlik, təhlükəsizlik məsələləri daxildir.

MİLLİ MENTALİTET – millətin uzun sürən tarixi inkişafının nəticəsidir. Aleksis de Tokvil amerikalıların **m.m.**-ni tətqiq edərkən bu qənaətə gəlir ki, onların hamısı eyni qaydalar tərəfindən idarə olunur və təfəkkür tərzləri bir-birinə uyğundur. E.Fromm "Azadlıqdan qaçma" (1941) kitabında yeni "so-

sial xarakter" istilahını meydana gətirmişdir. Ona görə bu istilah ictimai proseslərin açarını verən yeganə meyardır. Daha doğrusu, o, insan tələbatlarının müəyyən cəmiyyətdəki konkret həyat tərzinə dinamik adaptasiyasından ibarətdir.

Bütün bunlar sübut edir ki, dünya xalqlarında mentalitet nə qədər yaxın olsalar da, onları fərqləndirən cəhətlər də vardır. İbtidai xalqların mentalitetini tədqiq edən fransız alimi Levi Bryül (1857-1939) onu "primitiv mentalitet" adlandırır və sübut edir ki, ilk insanların düşüncə tərzilə müasir insanların dışıncə tərzləri prinsip etibarilə fərqlidir. O yazırdı: "Onlar başqa cür düşünmüşlər. Məsələ təfəkkürün zəif inkişaf etməsində deyildi, prinsipdə idi". Bu problemin tədqiqatçıları antik dövr, orta əsrlər və müasir dövr xalqlarının mentalitetindəki fərqləri ortaya çıxarmış, onların oxşar və fərqli cəhətlərini araşdırmışlar. Məsələn, K.Q.Yunq Amerika hindularını tədqiq edərək özü-özündən soruşurdu: "Qara adamda biz ağlar nə kimi hisslər doğurur" Özü də cavab verərək yazırdı: "Amerika hindu qəbilələrindən olan pueblo qəbiləsinin başçısı mənim dostumdur. ağ adamlar haqqında söhbət gedərkən o mənə dedi: "Biz onları başa düşə bilmirik. Onların qeyri-adi sivri burunları, nazik dodaqları, üzlərinin qəribə cizgiləri var. Biz belə düşünürük ki, onların hamısı dəlidirlər".

Antropoloq Frank Bole sübut etmişdir ki, primitiv təfəkkür tərzi ayrı-ayrı şeylərdir. Rol Raden isə əksinə, belə hesab edir ki, onlar arsında elə bir əsaslı fərq yoxdur. Məhz, ona görə Amerika hindularının dillərini tədqiq edərkən məlum olur ki, onlar abstrakt şəkildə düşünməyə qadirdilər.

V.A.Beylisə görə Afrika xalqlarının mentalitetinə xas olan əsas cəhət kooperasiyadır. Afrika xalqlarının dillərində olan simvollar bunu sübut edir. Şübhə yoxdur ki, xalqların malik olduqları müəyyən mentalitet onların yaşayış tərzlərinin, sosial-iqtisadi həyat şəraitinin, keçmiş olduqları tarixi inkişaf yolunun, daxili və xarici amillərin, təbii şəraiti və s. kimi bir qrup obyektiv və subyektiv amillərin təsiri altında formalaşmışdır.

Rusların m.m.-dən danışan N.Q.Losskin qeyd edirdi ki, rus milli xarakterinin əsasını dinə və çara bağlılıq təşkil edir. Rus xarakterinə habelə ehtiras. İradə. Azadlıqsevərlik, anarxizmə meyil, xeyirxahlıq, əliaçıqlıq, messianizm, nihilizm. Maksimalizm və s. kimi keyfiyyətlər də xasdır.

Rus xarakterinin messianizm cəhətindən bəhs edən M.Rivkin qeyd edir ki, ruslar həmişə yeni-yeni ideyalar irəli sürürlər. Ancaq onun ziyanını həmişə qonşu xalqlar çəkməli olmuşlar.

Akademik D.S.Lixaçev rus m.m.-də çatışmayan cəhətlər kimi onun irəli sürdüyü ideyaların ən qısa müddətdə yerinə yetirməyə tələsməsində görür. Onun fikrincə, məhz bu da tez-tez Rusiyanı təhlükəli vəziyyətə salır. Belə dəyişmələr, "yenidənqurmalar" Rusçiyanı onun bütün tarixi boyu izləmişdir. Axırıncı min ildə belə yenidənqurmaların sayı artıq beşə çatmışdır: 1) özünü asiyalılıqdan çıxarıb Avropaya sığınmaq və xristianlığı qəbul etmək; 2) Feodal pərakəndəlikdən əl çəkib Moskva çarlığı ətrafında birləşməklə yenidən Asiya despotizminə üz çevirmək; 3) Pyotr islahatları ilə silahlanıb yenə də Asiyadan Avropaya üz çevirmək; 4) Oktyabr inqilabını həyata keçirməklə təzədən Avropadan Asiyaya dönmək; 5) Yeni islahatlarla yenidən Qərb inkişaf modelini əsas götürmək.

Bu kimi dəyişikliklər hər dəfə köhnə quruluşun, mənəvi sərvətlərin, illərlə yığılıb toplanmış və qərarlaşmış qayda-qanunların, tarixi abidələrin sökülüb dağılması və yerində yenilərinin yaradılması ilə nəticələnmişdir. Bu da insanların alışdıqları köhnə həyat tərzinin yenisilə əvəz olunmasına səbəb olmuşdur. Lakin onlar nə qədər dəyişikliyə uğrasalar da, yeni adlar altında inkişaf etsələr də rus mentaliteti əslində yaşamış, yeni qaydalara uyğunlaşmışdır. Məhz bu xüsusiyyətlərinə görə N.Y. Danilevski (1822-55) "Rusiya və Avropa" kitabında Rusiyanın həm Avropadan, həm də Asiyadan fərqli bir sivilizasiya yaratdığını, avropa ilə Asiya arasında onların hər ikisinin xarakter xüsusiyyətlərini özündə cəmləşdirən yeni bir mədəniyyət nümunəsi meydana gə-

tirdiyini iddia etmişdir.

MİLLİ MƏNAFELƏR - özünəməxsus genetik və mədəni homogen əlaqələr və qarşılıqlı münasibətlərlə birləşmiş milli birliyin, yaxud qrupun mənafeləri.

M.m. dildə, ailə, dini, əxlaqi adət və ənənələrdə, əyləncə tərzlərində, siyasi sistem və davranışlarında, həmçinin geyim və bəzəklərində təzahür edən mədəniyyət ümumiliyi əsasında bir millətin nümayəndələrinin kooperasiyaya və birliyə meylində öz təcəssümünü tapır.

M.m. şəxsiyyətin, milliyyətin, millətin və fəaliyyəti, yaxud dövlətin davranışının və fəaliyyətinin hərəkətverici qüvvələrindən biridir. Bax; həmçinin **MİLLİ MƏNLİK ŞÜURU.**

MİLLİ MƏNLİK ŞÜURU - milli-etnik birlik (icma) üzvlərinin milli tarix, müasir inkişaf və inkişaf perspektivləri haqqında, həmçinin analoji birliklər (icmalar) və onlarla qarşılıqlı münasibətdə özlərinin yeri haqqında təsəvvürlərinin məzmununu, səviyyəsini və xüsusiyyətlərini əks etdirən baxış, qiymət, rəy və münasibətlərin məcmusu. Rasional (özünün millətə mənsubluğunun dərki) və emosional (milli-etnik qrupun digər nümayəndələri ilə birgə vəhdətin hərdən dərkolunmaz təəssüratları) komponentlərə malikdir. **M.m.ş.** birinci növbədə milli şüurun emosional-hissi, həmçinin rasional səviyyədə əsasını təşkil edir, mənəvi və sosial-siyasi həyatda insanın müvafiq şəkildə özünü dərk etməsi üçün zəruri olan milli-etnik xarakterin emosional-qiymətverici və rasional-qiymətverici münasibətləri sisteminin özəyi kimi çıxış edir. Milli-etnik qrupun ümumiləşmiş təsəvvürlərini əks etdirən milli şüurdan fərqli olaraq, **M.m.ş.** fərdiləşdirilmiş anlayış kimi və ilk növbədə milli icmanın üzvləri - fərdlər tərəfindən ümumilli şüurun bu və ya digər ünsürünün mənimsənilmə dərəcəsini əks etdirir.

M.m.ş.-nun mənşəyi öz inkişafına görə çoxsəviyyəli və son dərəcə qeyri-bərabər uzun tarixi prosesdir. Tarixi baxımdan **M.m.ş.**-nun rüşeymləri adi etnopsixoloji səviyyədə yaranmış və bütövlükdə insan şüuru inkişafının sosial psixoloji təməl mexanizmlərindən biri ilə bağlı

olmuşdur, bu isə öz növbəsində bu və ya digər insan ümumiliyi nümayəndələrinin psixikasında yaranmış və möhkəmlənmiş "biz" və "onlar" antitezinin, daha doğrusu özünü "onlar" adlanan qrupa qarşı qoyaraq müəyyən qrup ("biz") kimi dərk edilməsidir. Antitezin əsası olan "biz"dən fərqli olaraq "onlar" üçün bir neçə ən parlaq xarici əlamətlərdə ifadə olunur. Məs., fiziki sima (başqa görkəm, üz cizgiləri və s.), dini əlamətlər (başqa bütlər, totemlər, allahlar, din), sosial-iqtisadi xüsusiyyətlər (ictimai istehsalın başqa üsulu, digər həyat tərzi - küçəri və ya oturaq, əkinçilik əv ya maldarlıq və s.), siyasi əlamətlər (başqa hakimiyyət və idarəetmə üsulları), ideoloji əlamətlər (başqa qiymətlər sistemi və s.). Belə bir və ya bir neçə qeyri-adi və nəzərə çarpan təəccüblü əlamətlərin onlara neqativ qiymətlə müşayiət olunurdu (bir halda ki, "onlar" "biz"dən fərqlənirlər - həmişə "pisdirlər", "onlar"a məxsus olan cəhətlər - zahiri görkəm, qaydalar, ənənələr, həyat tərzi "pisdir"; dil baxımından özgədirlər; allahlara və dinə münasibətdə kafirdirlər). "Onlar"a hər cür mənfi, "biz"ə isə hər cür müsbət keyfiyyətləri aid edirik. Bu baxımdan psixoloji mənada bəşəriyyət tarixində kannibalizm (adamyeyənlik) da olmuşdur; yeyilən adamlar isə ilkin təsəvvürə görə "adam deyildilər", onlarla sadəcə olaraq əməlli adam kimi rəftar mümkün deyildi. **M.m.ş.**-nun yaranmasının ilkin etnopsixoloji qaynaqlarının əks-sədası indiyədək bir çox millətçi və irqçi ideya-siyasi konsepsiyalarda rast gəlinir.

"Biz" və "onlar" antitezinin qarşılaşmasında təbii-psixoloji mexanizmin təsiri aşkara çıxır, bu mexanizm vasitəsilə insan öz milli-etnik (ilk növbədə tayfa, dəstə və qəbilə) mənsubiyyətini dərk edir, digər qruplardan yaxşılığı ilə fərqlənən öz qrupu ilə özünü identifikasiya edir, onun qiymətləri ilə bölüşür, özünü öz qrupuna məxsus bütün müsbət, ülvi qiymətlərlə ölçür. Öz icmasını başqa icmalara qarşı qoymaq həmişə öz etnik fərqlərini möhkəmləndirməyə, onları dərk etməyə və bu zəmində ən müxtəlif sistemlərdə (iqtisadi, mənəvi, ideoloji, siyasi) icmanın möhkəmlənməsinə

kömək göstərmişdir. Bu vəzifənin həllinə məişət daxilində psixoloji səviyyədə milli-etnik stereotiplərin işlənmiş mexanizmi də kömək edir. Başqa milli-etnik qrupların "tipik təsəvvürlərinin" zahirən emosional-parlaq, daxilən mücərrəd-ümumi, məzmundan məhrum edilmiş qiymətverici obrazları kütləvi milli şüurda birtərəfli, subyektiv, bəzən də bir anlıq təəssürat zəminində formalaşır. Başqa milli-etnik qrupun bəzi keyfiyyət və əlamətlərinin qabardılması və qalan keyfiyyət və əlamətlərin nəzərə alınmaması reallığın təhrifinə aparır, obyektiv idrak proseslərinə mane olur, lakin **M.m.ş.**üçün bu məcburi deyil - belə stereotiplər başqa funksiyalar, ilk növbədə mənfi stereotipləşdirilmiş millətlərə qarşı öz icmasını möhkəmləndirmək vəzifəsini həll edir. Analoji fəaliyyət mexanizmlərinə etnomərkəzçilik aiddir ki, bu da özgəni bəsit qiymətləndirməklə özünkünə, tanış və doğmaya üstünlük vermək meylidir. Təsadüfi deyil ki, qədim dövrdə öz milli-etnik ümumilik haqqında belə düşünürdülər ki, guya "kainat mərkəzi" kimi hər cəhətdən düşmən olan çoxsaylı "barbarlar" tərəfindən əhatə olunublar.

M.m.ş.-nun inkişafının, tarixi planda əsas strateji determinantı etnopsixoloji amillərin təsiri fonundan və başqa milli-etnik ümumiliyin inkişafının maddi, tarixi tələbatları olmuşlar; bu, bir milli qrupa mənsub olan adamların iqtisadi birliyinin formalaşması ilə bağlı idi və vahid ümumi bazar iqtisadi məkanının yayıldığı bütün yaşayış ərazi birliyi ilə müəyyən olunurdu. Məhz psixoloji "biz"ümumiliyini qüvvətləndirən iqtisadi birlik feodal və tayfa sərhədləri ilə və artıq vahid bütöv kimi rasional özünüdərkə aparırdı. **M.m.ş.**-nun inkişafını tənzimləyən və sürətləndirən amillərə bir qayda olaraq xarici təcavüz, quldarlıq, müstəmləkələşdirmə, milli birliyin mədəni və ya cismən fiziki məhvi aid idi. Belə hallarda **M.m.ş.**-nun formalaşması kəskin şəkildə sürətlənir və irəli gedir, iqtisadi ümumiliyi və millətin təşəkkülünü müvəqqəti olaraq arxada qoyurdu. Məs., müstəmləkəçiliyə qarşı milli azadlıq mübarizəsi XX əsrdə

Asiya və Afrikanın bir çox ölkəsində feodal-tayfa üsulundan və ona müvafiq patriarxal tayfa psixologiyasının ləğvindən xeyli əvvəl M.m.ş.-nun inkişaf etmiş formalarının təşəkkülünə gətirib çıxartdı.

Öz milli-etnik qrupun başqa ümumiliklərə qarşı qoyulması daha geniş mənada başa düşülən **M.m.ş.** psixoloji kompleksi emosional hissi əsaslarının dərkinin və rasional plana keçməsinin (**M.m.ş.**-nun dar mənada başa düşülməsində) sürətlənməsinə kömək edir. Buraya təkcə milli müqəddəratını təyinetmə yox, ümumiliyə mənsubluğun dərki, mənafe və məqsədlərin vəhdəti və onlar uğrunda birgə mübarizə zərurəti, həmçinin bir çox milli hisslərin oyanması, **M.m.ş.**-nun hərfən başa düşülən inkişafı deyil, milli hissiyyatın xüsusi növü (öz milli birliyinin taleyinə cavabdehlik, insanın harada doğulmasından və yaşamasından asılı olmayaraq, tarixi-milli vətənə, öz xalqına, onun milli xüsusiyyətlərinə, milli mədəniyyətə məhəbbət, "əcdadların məzarlarını ziyarət etmək" istəyi, milli qürur və ya öz xalqının taleyi üçün həyəcan hissi ilə özünəməxsus xiffətin vəhdəti, millət yolunda fədakarlıq və s.) daxildir.

Hiss və təəssüratların bu qəbilli kompleksinin əsasında insanın müəyyən ovqatına müvafiq davranış baxımından psixikanın emosional ruhlu və məqsədyönlü vəziyyəti yaranır, öz xalqının xoşbəxtliyi və müstəqilliyi, azadlığı və suverenliyi, çiçəklənməsi uğrunda mübarizə şəraitində ifadə olunur. Bu cür davranışın həmin ovqatla şərtlənən bir çox nümunələri milli azadlıq hərəkatları və inqilablar tarixində məlumdur.

M.m.ş.-nun məlum ünsürlərinin kortəbiiliyi, dinamikliyi və keçiciliyi, tarixi inkişafın müvafiq dövrlərində belə nümunələri kütləviləşdirə bilər. Bu hal 80-ci illərin sonu - 90-cı illərin əvvəlində Sovet dövlətinin bir sıra respublikaları əhalisinin cəmiyyətin sosial-siyasi sistemi-nin və onun milli dövlət quruluşunun radikal islahatları gedişində real suverenlik uğrunda kütləvi ovqatı ilə təsdiq olunur. Həmin hadisələrin yayılmasının genişliyi, dinamikliyi və intensivliyi onların müəyyənləşdir-

diyi siyasi nəticələr kimi milli xarakterin xüsusiyyətləri, milli mədəniyyətin səviyyəsi, həmçinin bu ərəfədə cəmiyyətin milli şüurunun sosial-siyasi ayrıseçkiliyə məruz qalması dərəcəsi, M.m.ş.-nun tarixin müəyyən anında əldə etdiyi inkişaf səviyyəsi (məs., Baltikyanı və Cənubi Qafqaz dövlətlərinin keçmişdəki dövlət müstəqilliklərini bərpa etmək cəhdləri və s.) ilə bağlıdır.

M.m.ş.-nun inkişafı düzxətli olmaqdan daha çox dalğavari xarakterlidir. Onun yüksəliş və tənəzzülləri həm yuxarıda qeyd etdiyimiz amillərlə, həm də milli-etnik qrupun miqyası ilə müəyyənləşir: ümumilik kiçik olduqca **M.m.ş.**-nun problemləri də kəskin yaşanır, **M.m.ş.**-nun qaynar təzahürlərinin meydana çıxması ehtimalı artır. əksinə, ümumilik böyük, qüdrətli olduqca onun nümayəndələri də özlərini inamlı hiss edir, bu məqsədlə az qayğılanırlar, təzahürlərin qəfil kəskinləşməsi ehtimalı da azalır. Böyük millətin nümayəndələri bir qayda olaraq öz **M.m.ş.**-larının daimi təsdiqi və özünütəsdiqi zərurətinə ehtiyac duymurlar, belə ki, bu qəbilli məsələlər çoxdan müvafiq sosial siyasi zəmində həll edilmişdir. Buna görə də onların şüuru üçün fövqəlmilli və beynəlmiləl problemlərin daha geniş dairəsi üçün qeyri təbiidir.

Siyasi planda **M.m.ş.** ikili rol oynayır. Bir tərəfdən bu, milli-etnik ikiüzlülüyün bütün yönlərdən keyfiyyətcə yeni inkişaf səviyyəsinə aparan şəksiz mütərəqqi pro ses ola bilər.

Lakin belə pozitiv inkişaf yalnız o şəraitdə mümkündür ki, **M.m.ş.** özünü mütləqləşdirmə yolu ilə getməsin, bir növ "fövqəldəyər" olmasın, bu birliyin nümayəndələri üçün şüurun inkişafının başqa imkanlarını və perspektivlərini bağlamasın, onu özünün milli-etnik identifikasiyasının dərki ilə məhdudlaşdırmasın. əks halda **M.m.ş.**-nun inkişafı tamam əksinə çevrilər, şüurun mənadəyər strukturunun aşağı səviyyələrinə keçə bilər, belə halda yüksək səviyyəli birliklərə məxsus dəyərlərin inkarına aparıb çıxarar, şüuru ümumbəşəri təsəvvürləri tayfa, feodal-tayfa, millətçi və irqçi ideya-siyasi görüşlərinə müncər edər.

MİLLİ MƏSƏLƏ VƏ DİN – həm bir-birinə yaxın, həm də biri digərindən fərqlənən anlayışlardır. Din tarixən daha qədim olub millətlərin formalaşmasında müəyyən rola malik olmasına görə də bir sıra Qərb və Şərq alimləri dini millətin mövcudluq şərtlərindən biri saymışlar. Bu həm də onunla əlaqədardır ki, din həmişə millətin mənəvi həyatının çox mühüm tərkib hissələrindən biri kimi çıxış etmişdir. Məsələ, son yüzillikdə İranda baş verən milli proseslər əsasən dini rəngdə inkişaf etmişdir. Buna əsas səbəb İslam dininin və onun xadimlərinin xalq içərisindəki sosial dayaqlarının möhkəm olması və İslamın İran xalqlarının həyat tərzinə çevrilməsi idi. Bir sıra xarici ölkələrdə isə əksinə, milli hərəkatların mübarizə obyektlərindən biri də məhz din olmuşdur. Məsələn, Türkiyədəki Kamalçılıq hərəkatı K.Atatürk dinə və din xadimlərinə qarşı açıq-aşkar mənfi münasibət bəsləmiş və sivilizasiyalı cəmiyyət quruculuğunda dindən istifadə etməyin əleyhinə çıxış etmişdir. Sovet dövründə dinə qarşı aparılan mübarizə ateizm təbliğatı adı altında ayrı-ayrı hallarda dindarlara qarşı da yönəldilirdi. Bu səhv hərəkat idi və xalq tərəfindən haqlı narazılığa səbəb olurdu. Dindarların və din xadimlərinin xalq içərisində böyük nüfuzu vardı və onlara qarşı aparılan repressiya şəklində başa düşülürdü. Din xadimləri müstəqil Azərbaycan respublikasının daxili və xarici siyasətində yaxından iştirak etmək imkanı əldə etmişlər. Din milli mədəniyyətin mühüm bir forması olmaq etibarilə millətin mənəvi cəhətdən zəminləşməsində, xarici düşmənlərə qarşı mübarizədə çox mühüm rol oynamaq imkanına malikdir.

Azərbaycan xalqının həyatında islam dinin oynaya biləcəyi mühüm rol onun əleyhdarlarını qorxuya salır və ona görə də bugünkü erməni – Azərbaycan münaqişəsini dini don geyindirmək, məsələyə xristian-islam qarşıdurması şəklində təsvir etmək siyasətini yeridirlər.

Bugünkü imperialist qüvvələr Azərbaycanda baş verən milli proseslərə İslam fundamentalizmi rəngi də verməyə çalışırlar. Buradan da çıxış edərək onlar İslam dinini dünyanı həd-

ləyən mürtəce bir din kimi qələmə verməyə səy göstərirlər. Erməni təbliğatına uymuş bəzi burjua alimləri və dövlət xadimləri də tez-tez islamın yayılması təhlükəsindən, dünyanı "guya təhdid etməsindən" danışır, İslam xalqlarına qarşı yeni " səlib müharibəsi"nə çağırırlar. Dünya sosializm sistemi dağılandan sonra dünya xalqlarının gözündə İslam dinindən ibarət yeni "Düşmən obrazı"nın formalaşdırılması bugünkü erməni və Qərb mətbuatının xüsusi vəzifələrindən birinə çevrilmişdir.

Qarşıya çıxan və öz həllini gözləyən ümdə məsələlərdən biri də dini və milli ideyaların nisbəti məsələsidir. Müasir milli azadlıq prosseslərində milli amil ilk vaxtlardan etibarən dini amili üstələmişdir. Azərbaycanda yaşayan yerli xalqların əksəriyyəti İslam dininə etiqad edənlərdir. Lakin bu heç də onların milli-mədəni muxtariyyət uğrunda mübarizə aparmağa mane ola bilmədi. Deməli, müasir həyatda milli amil hələlik aparıcı rola alikdir. Ona görə də vahid milli ideyanın daşıyıcısı rolunu Azərbaycanın müstəqilliyi ideyaları daha yaxşı yerinə yetirə bilər. Din isə bu prosesdə yalnız instrumental rola, barışdırıcı funksiyaya malik ola bilər. Bu qiymət dindarları və din xadimlərini ruhdan salmamalıdır. Çünki tarixən Azərbaycan xalqının həyatında din xadimləri həmişə çox mühüm rola malik olmuşlar və indi də xalqın böyük bir hissəsi onlara inanır və onların ardınca gedir. Məlumdur ki, din, xüsusən İslam dini böyük mənəvi və siyasi qüvvə olmaqla kütlələri müəyyən bir istiqamətə yönəltməkdə həmşə nüfuzlu bir qüvvə kimi çıxış etmişdir. Dinin xalqın həyatında oynadığı bu rolu çox gözəl bilən və qiymətləndirən bəzi alimlər və siyasətçilər bəzən ondan sui-istifadə etməyə çalışırlar. Bələləri yerli şəraiti düzgün qiymətləndirə bilmir və İslam dininin Azərbaycanın cənubunda oynaya biləcəyi rolla Şimali Azərbaycandakı rolunu səhvən eyniləşdirirlər. Yeni tarixi dövrdə İranda, o cümlədən Cənubi Azərbaycanda baş verən sosial proseslər əsasən İslam bayrağı altında baş vermişdir. Şimali Azərbaycanda isə belə misalların sayı çox azdır Çünki sovet dövründəki sekulyarizasiya pro-

sesi buraya öz təsirini göstərməmiş deyildir. Bu da təbii ki, Şimali Azərbaycanda dinin sosial köklərinin zəifləməsinə səbəb olmuşdur. Deməli, bugünkü Azərbaycan Respublikası əhalisinin bu əsasda vahid dini ideologiya ətrafında birləşə bilməsi imkanları təxminən aradan qaldırılmış kimidir. Bütün bunlar göstərir ki, müasir Azərbaycan cəmiyyəti üçün nə türkçülük, nə də islam ideyaları inteqrativ və universal rola malik deyillər. Ortada olan yeganə ideoloji görüş isə mütərəqqi Azərbaycan millətsevərliyi, dövlətçilik ideyalarından ibarətdir. Bu ideoloji görüşü azərbaycançılıq kimi formalaşır və inkişaf edir.

Öz köklərini və irsini qorumaq instinktləri bütün xalqlara xasdır. Bu mənada din mədəniyət forması olmaqla hər bir xalqın həyatında əhəmiyyətli rol oynayır. İslam dini də xalqımızın mənəvi mədəniyyətinin mühüm bir ünsürü olmaq etibarilə xalqın tarrixi düşüncəsində və həyat tərzində özünə möhkəm yer tutmuşdur.

MİLLİ MƏSƏLƏ - Bu, bir tərəfdən, millətlər arasında, digər tərəfdən isə çoxmillətli cəmiyyətdə millətlərlə mövcud hakimiyyət sistemi arasında inamsızlığın, düşmənçiliyin və konfliktlərin meydana gəlməsi, hüquq bərabərliyi, suverenlik və demokratizm əsasında dinc birgə yaşayış və mehriban qonşuluq, millətlərin tərəqqisi mənafeyi baxımından onun həllinin formaları, metodları və şərtləri haqqında məsələdir. M.m. dar mənada çoxmillətli dövlətlərdə formalaşır və təzahür edir. Geniş mənada isə **M.m.** ümumdünya məsələsidir və bu keyfiyyətində o, çoxmillətli ölkələrdə **M.m.**-nin sadəcə mexaniki məcmusu ola bilməz.

Birincisi, **M.m.** bütün keçmiş müstəmləkə və yarımmüstəmləkə dünyasının kəskin sosial məsələsi olaraq qalır, bu ölkələrin dünya təsərrüfatında hüquq bərabərliyi və bərabərliyi, dünya münasibətlərində geriliyin, asılılığın və istismarın üzvi problemi kimi çıxış edir. Bu, eyni zamanda, Asiya, Afrika və Latın Amerikası ölkələrində milli dövlətçiliyin möhkəmlənməsi və milli tərəqqi problemidir. Məhz bu geniş sosial-iqtisadi zəmində həmin çoxmillətli ölkələrin çoxunun daxilində

konkret **M.m.** təşəkkül tapır.

İkincisi, müasir dünyada milli qarşılıqlı münasibətlər bütövlükdə bəşəri tərəqqini müəyyənləşdirən iki qarşılıqlı əlaqəli obyektiv meylin fəaliyyətinə tabe edilmişdir. Onlar hələ kapitalizmin inkişafının ilk çağında millətlərin və milli hərəkatların formalaşması prosesində doğulmuşdur. Onların məzmunu aşağıdakılardan ibarətdir: bir tərəfdən, millətlərin təşəkkülü və inkişafına, hüquq bərabərliyinə və müstəqilliyinə, suveren dövlət mövcudluğuna yünəlmiş hərəkət baş verir; digər tərəfdən, obyektiv beynəlmiləlləşmə prosesi əsasında milli sərhədlərin götürülməsi, əlaqələrin və qarşılıqlı əməkdaşlığın güclənməsi baş verir, inteqrasiya proseslərinin coşğun inkişafı başlayır. Bu meyllər bugün **M.m.**-nin mahiyyətini təşkil edərək ümumdünya ictimai ziddiyyətlərini əks etdirir və onları milli siyasət metodları ilə "yox" etmək cəhdləri istər dünya miqyasında, istərsə də çoxmillətli cəmiyyətlər daxilində yalnız **M.m.**-ni son dərəcə kəskinləşdirə bilər. Onlarla hesablaşmaq, ictimai proseslərdə fəaliyyətini nəzərə almaq zəruridir. Federativ, ittifaq dövlətləri kimi SSRİ-nin, Yuqoslaviyanın dağılması bu həqiqəti bir daha təsdiq edir. Həmin meyllərdən törənmiş ziddiyyətlərin mövcudluğunu nəzəri cəhətdən tanımaq kifayət deyildir, onların fəaliyyəti yolunda maneələri yox etmək zəruridir.

SSRİ-də onilliklər ərzində beynəlmiləlləşmə və inteqrasiya prosesləri totalitar və inzibati metodlarla süni qaydada tezləşdirilmişdir. Milli inkişaf prosesləri, dirçəlişə və müstəqilliyə cəhdlər lazımi qədər qiymətləndirilmir və süni surətdə ləngidilirdi. Xalqların milli mənlik şüurunun yüksəlişi şəraitində unitar, mərkəzləşdirilmiş bürokratik dövlət sistemində milli dövlət formaları formal xarakter daşıyırdı. Bir çox muxtariyyətlər ləğv edilmiş, onların xalqları isə sürgün olunmuşdu. On illər boyu yığılıb qalmış kəskin problemlər artıq yenidənqurmanın ilk illərində ictimai həyatın ön planına keçdi. **M.m.** ölkənin ciddi sosial problemi oldu, mərkəzi hakimiyyət orqanları isə ümumi bəyannamə

və çağırışlarla məhdudlaşırdılar. Milli siyasət ziddiyətlərin inkişaf sürətindən geri qalır, kəskin milli konfliktlər qarşısında gücsüzlük göstərirdi.

M.m. hər bir dövrdə konkret-tarixi məzmuna, hər hansı çoxmillətli ölkədə konkret rəngarəngliyə malik olur. üstəlik də yeni şərait problemin yeni hüdudlarını ön plana çəkir. əgər nəzərə alınsa ki, hər bir sosial-siyasi qüvvə, hərəkat **M.m.**-nin həlli üçün öz metod və formalarını təklif etməklə onun məznununa xüsusi məna əlavə edirlər, o zaman qanuni olaraq **M.m.**-nin qoyuluşuna və həllinə ictimai tərəqqi nüqteyi-nəzərindən düzgün meyarlar problemi meydana çıxır. Milli hərəkatların və **M.m.**-nin həllinin, xüsusən Avropada demokratik proseslərin dərinləşməsi gedişində əldə edilmiş dünya təcrübəsi və millətlərarası münasibətlərdə müasir dünya meylləri belə meyarlar ola bilər. ilk mərhələlərdə millətlərin formalaşması prosesində **M.m.**-nin başlıca məzmunu feodalizmin devrilməsi və milli zülmün ləğv edilməsindən ibarət idi. Buna görə də **M.m.**-nin məzmunu ənənəvi olaraq, zülm və istismar münasibətlərinə müncər edilir və belə hesab olunurdu ki, millətlərin daxilində sinfi antaqonizmin aradan qaldırılması ilə onların arasındakı düşmənçilik münasibətləri də yox olacaqdır.

Həmçinin belə hesab edilirdi ki, çoxmillətli cəmiyyətdə siyasi demokratiyanın qurulması ilə M.m. də sanki buxarlanıb yoxa çıxacaq. Belə düşünülürdü ki, özünün siyasi müqəddaratını belə təyinetmə elə milli münasibətlərdə demokratizmdir, deyə düşünülürdü. Lakin ən yeni təcrübə göstərdi ki, bütün millətlərin ictimai-iqtisadi inkişafafının təxminən bir səviyyədə olduğu, nəinki təkcə milli zülmün olmadığı, həmçinin hamının siyasi demokratiya şəraitində yaşadığı ölkələrdə də **M.m.** meydana çıxır və hətta kəskin formalar alır. Məs., İngiltərədə Şotlandiyanın və Uelsin özünəməxsus mədəni-tarixi xüsusiyyətləri problemi **M.m.**-nin kəskinləşməsi səbəbləri kimi çıxış edir. Belçikada - bu vallonlar və flamandlar arasında dil üzrə qarşılıqlı münasibətlər məsələsidir. Kanadada ingilisdilli və fransızdilli icmalar

arasında mədəni-dil problemindən ibarətdir. Keçmiş SSRİ-də də bu məsələ milli zülm, yəni zülm edən (Rusiya) və zülmə məruz qalan millətlər formasında özünü göstərmişdir.

Bütövlükdə bu gün milli hərəkatlarda mühüm qanunauyğunluq özünü təzahür etdirir: **M.m.** həm sosial-iqtisadi inkişaf məsələsi, həm mədəni və dil məsələsi, hətta ekoloji müdafiə məsələsi kimi də çıxış edə bilər, lakin hər bir halda onun qoyuluşu mühüm siyasi məzmun kəsb edəcəkdir. Siyasi demokratiya məsələsi kimi çıxış edərkən **M.m.** hər dəfə mövcud siyasi sistemin bu, yaxud digər tərəfdən ziyankarlığını aşkara çıxarır və yenidən hüquq bərabərliyi problemini irəli sürür. ıspaniyada bu, siyasi bərabərlik problemində və onun beş əyalətinin muxtariyyət almasında təzahürünü tapdı. Belçikada federalizm prinsipi həyata keçirilir, Kanadada Kvebekdə siyasi müstəqilliyə cəhd göstərilir. Millətlərin hətta mədəni-dil sahəsində tələbatları xüsusi siyasi himayədarlıra möhtacdırlar. Millətin inkişafı və tərəqqisi müəyyən siyasətin nəticəsi ola bilər. Onun işlənib hazırlanması və həyata keçirilməsi müəyyən milli dövlət qurumunun, hakimiyyətin funksiyasıdır.

SSRİ-nin dağılması **M.m.**-ni onun bütün mürəkkəbliyi və genişliyi ilə öz-özünə həll etmədi. Yaranmış müstəqil dövlətlərin daxilində millətlərarası, etnik qruplararası qarşılıqlı münasibətlərin mürəkkəb problemlərini MDB tərkibində isə dövlətlərarası kəskin ərazi, hərbi-siyasi, iqtisadi və digər problemləri saxladı. Rusiya Federasiyasının daxilində də muxtariyyət problemi ciddidir. Milli psixologiyada şübhəçilik və inamsızlıq stereotiplərinin xüsusi davamlılığı, milli siyasətin, həm də konyunktur müşahidələrdən irəli gələn qeyri-ardıcıllığı və ziddiyyətliliyi, iqtisadiyyatın böhranı və güclənməkdə olan tənəzzülü M.m.-nin kəskinliyini keçmiş SSRİ-nin bütün respublikalarında yaxın gələcəkdə də saxlayacaqdır.

MİLLİ MÜQƏDDARATINI TƏYİNETMƏ - milli siyasətin başlıca prinsipi, milli münasibətlərdə demokratizmin daha tam ifadəsi. Prinsip kimi XVIII-XIX əsrlərdə də milli

hərəkatların və milli dövlətlərin təşəkkülündən, milli məsələnin həllinin dünya təcrübələrindən meydana gəlmişdir. **M.m.t.** Avropada milli dövlətlərin yaranmasında, federativ dövlətdə (ısveçrə) millətlərin sülh və mehribanlıq şəraitində birgə yaşamalarında, millətin vahid dövlətin tərkibindən çıxmasının və müstəqil milli dövlət yaratmasının demokratik həllində öz təcəssümünü tapmışdır.

M.m.t. problemi nəzəri və siyasi münasibətlər baxımından olduqca mürəkkəb və kəskin problemdir. Millətçi meylli qüvvələr həmişə separatizm və milli düşmənçilik metodları ilə çoxmillətli dövləti süquta uğradaraq şəksiz və dərhal ayrılmaq tələbini irəli sürmüşlər. imperiya təfəkküllü böyük dövlətçilik siyasi qüvvələri isə bütün vasitələrlə, o cümlədən zorakılığın köməyi ilə imperiya strukturlarını və zor gücünə qurulmuş çoxmillətli dövlətin millət və xalqlarının bərabərsizliyi və tabeçiliyi prinsipi üzərində qurulmuş iyerarxiyasını saxlamağa çalışırdılar.

Xalqların vahid çoxmillətli dövlətdə, yaxud daha geniş federativ və konfederativ birlikdə könüllü birləşməsi milli məsələnin yeganə həqiqi demokratik yolu, xalqların öz azadlığını təyinetmə hüququnun gerçəkləşdirilməsidir.

M.m.t. nə deməkdir, onun demokratik məzmunu nədən ibarətdirə Vaxtilə ittifaq adlanan, əslində isə bürokratikcəsinə təşkil olunmuş unitar çoxmillətli dövlətin dağıdılmasından sonra və Rusiya Federasiyasında da mərkəzdənqazma meyllərinin gücləndiyi bir şəraitdə özünütəyinetməyə ehtiyatla yanaşılması müşahidə edilir. Bu prinsipi istisnasız olaraq ayrılmağa, separatizmə aparıb çıxaran konsepsiyalar meydana gətirir. əslində **M.m.t.** üç mühüm istiqamətdə çıxış edir. Birincisi, özünütəyinetmə işi dövlət formasında ayrılmağa, müstəqil milli dövlətin yaranmasına gətirib çıxara bilər. Coxmillətli cəmiyyətlər və dövlətlər üçün bu, dağılma, xırda hissələrə parçalanma deməkdir. Lakin bu, ən ifrat halda baş verir, zorakılıq və zülmün mümkün olmadığı imperiyalarda qarşılıqlı münasibətlərin demokra tik və razılaşdırılmış

həllinin digər yolları və imkanları tamamilə bağlanmış olur.

İkincisi, **M.m.t.** praktikada xalqların iradəsinin demokratik ifadə olunması əsasında, millətlərin könüllü surətdə ittifaq dövlətinə, çoxmillətli dövlətlərin federativ birliyinə daxil olması formasında da baş verə bilər. Nəhayət, üçüncüsü, hazırda çoxdan özünün müstəqil həyatını yaşayan milli dövlətlərin iri qurumlarda (məs., AıB) inteqrasiyası baş verir ki, belə dövlətlərdə milli suverenlik beynəlmiləşdirmənin və inteqrasiyanın mütərəqqi prosesləri ilə uyğunlaşdırılır və razılaşdırılır. Belə qurumlar millətlərin suverenliyini məhdudlaşdırmadan milli tərəqqinin mənafeyinə daha real cavab verir.

Əslinə qalarsa **M.m.t.** hər bir millətin, öz taleyini təyin etməsinə necə yanaşmasına, dövlət mövcudiyyətinin hansı formalarını seçməsinə, ictimai tərəqqinin mənafeyi naminə digər xalqlarla hansı əlaqələri yaratmasına imkan verən demokratik hüquqdur. **M.m.t.** tərəfdarı olmaq hər hansı milləti zorakılıq hesabına çoxmillətli dövlətin hüdudları daxilində saxlamağın əleyhinə çıxmaq, xalqın iradəsini demokratik yolla bildirməsi ilə hesablaşmadan millətin taleyini yuxarıdan müəyyən etməyə son qoymaq deməkdir. Gənc milli dövlət əgər öz ərazisində yaşayan digər xalq və milli qrupların hüquqlarını inkar edirsə, onun ictimai tərəqqiyə nail olacağına ümid etmək çətindir.

Milli dövlətlərin yaranması - bu, obyektiv tarixi və ümumdünya meyllidir, onu yubatmaq olar, lakin ləğv etmək, dayandırmaq mümkün deyil. **M.m.t.** hüququ da məhz belə mürəkkəb suala cavab verir: necə, hansı vasitələrlə və yollarla bu meyli xalqların birləşməsi inteqrasiyasının üstünlüklərindən bütün millətlərin mənafeyi naminə istifadə edilməsinə yönəltmək olarə Çünki **M.m.t.** - milli azadlıqdır, millətin öz iradəsini sərbəst bildirməsi və reallaşdırmasıdır.

M.m.t. hüququnu özünü həqiqətən demokrat sayanların hamısı qəbul edir. Lakin onun məzmununu heç də hamı məqbul saymır və gerçəkləşməsinə hər vəchlə mane olur. Məs., Lenin özünütəyinetmənin məzmununu yaxşı bilirdi və "Özünütəyinetmə haqqında müzakirənin nəticələri" (1916 il) əsərində dərin demokratizm mövqeyindən onu yaxşı şərh etmişdi. inqilabdan sonra isə praktikada özü müstəqil respublikaların "sovetləşməsinin", işğalının və zorla birləşdirilməsinin təşkilatçısı olmuş, amma özünütəyinetmə ətrafında əvvəlki ruhda nəzəri mübahisələri davam etdirməkdən qalmamışdı. Stalin daha kobud, açıq tərzdə fikrini bildirmiş və RK(b) P-nin X qurultayında (1921 il) birbaşa demişdi ki, **M.m.t.** "Həqiqətən boş şüara çevrilmişdir".

Elə ki, cəmiyyətdə imperiya əhval-ruhiyyəsi vətənin "böyük keçmiş"i haqqında həsrət, "ölkənin daha da parçalanmasına yol verməmək qətiyyəti və i.a. üstünlük təşkil edir. M.m.t.-yə münasibətdə şübhələr meydana gəlir, onu bir tərəfdən, "boş şüara" çevirmək, digər tərəfdən isə ümumiyyətlə, kənara atmaq arzusu yaranır. Tarix (o cümlədən, keçmiş SSRı-nin tarixi) göstərir ki, çoxmillətli dövlət daha demokratik olsa, onun milli-dövlət komponentlərinin də bir o qədər çox hüquq və səlahiyyəti olar və bütün millət və xalqların birləşməyə və inteqrasiyaya da meyli artar.

MİLLİ SAZİŞ - səmərəli və əməli ümummilli daxili siyasətin /**M.s.** siyasətinin/ yekunlarını və nəticələrini, müxtəlif milli-etnik, sosial, siyasi və s. qüvvələrin ahəngdar qarşılıqlı münasibətləri və uğurlu qarşılıqlı təsir vəziyyətini (adətən, bir dövlət birləşməsinin hüdudları daxilində), çoxmillətli dövlətin əhalisini təşkil edən bütün millətin, yaxud ayrı-ayrı qrupların hər hansı həyati əhəmiyyətli məsələdə birliyini, milli barışıq siyasəti ilə nəzərdə tutulan proseslərin uğurla həyata keçməsinin nəticəsini göstərən geniş, hamı tərəfindən qəbul edilmiş anlayış.

Birliyin uzunmüddətli vəziyyəti və konfliktsiz inkişaf əsası kimi **M.s.** məhz həmin birlik üçün bu cür tam uyğun başa düşülən və onun üzvlərinin hamısını razı salan, adətən, bütün mövcud qrupların strateji və müəyyən hüdudlarda taktiki mənafelərini təmin edə bilən dövlət-ərazi birliyinin məqsədyönlü və ölçülüb-biçilmiş inkişafı məsələlərində qarşılıqlı

məqbul güzəştlərin daim axtarılmasını və əldə edilməsini nəzərdə tutan siyasətə əsaslanır, həmçinin baş verən konflikt və ziddiyyətlərin demokratik əsaslar üzərində dinc vasitələrlə nizamlanmasını təmin edən danışıqlar xarakterinin xüsusi mexanizmlərinin (adətən, hakimiyyətin həyata keçirilməsi mexanizmində qurulmuş) mövcudluğunu əvvəlcədən nəzərə alırdı.

Ərazi-dövlət birləşməsi fəaliyyətinin hər hansı bir məsələsi üzrə eyni vaxtda baş verən birliyin vəziyyəti kimi **M.s.** adətən kütləvi şüurun və ölkənin sosial-siyasi qüvvələrinin böyük əksəriyyətinin bu cür problemlərin həllinin mümkünlüyü haqqında təşəkkül tapmış mənafe və təsəvvürlərinin çoxunu təmin edən belə siyasi qərarlara və hərəkətlərə münasibətini ifadə edir.

1989-cu ildə Tunisin bütün siyasi qüvvələrinin imzaladığı "Barışıq və saziş naminə milli paktı" belə növlü **M.s.**-in əldə edilməsi nə nümunə göstərmək olar; onun məzmunu keçmiş prezident Burciba hakimiyyətdən kənar edildikdən sonra dövlətin və cəmiyyətin inkişafının perspektivli istiqamətlərinə münasibətdə razılaşmaya gətirib çıxardı. Belə hallarda, adətən, **M.s.**-i aşkara çıxarmağın və əldə etməyin üsulları kimi cəmiyyət üzvlərinin böyük əksəriyyətini təmsil edən siyasi partiyaların və hərəkatların maksimum geniş dairəsinin iştirakı ilə "dəyirmi stollar"dan hakim Polşa Birləşmiş Fəhlə Partiyası və ona müxalif qüvvələrin 1989-cu ildə Polşada keçirilmiş və cəmiyyət həyatının sosial-iqtisadi və siyasi quruluşunun yeni formalarına keçidə münasibətdə **M.s.** əldə edilməsinə gətirib çıxarmış "dəyirmi stol" tipli, bu və ya digər mühüm həyati əhəmiyyətli məsələlərə dair ümummilli referendumlar formasında xüsusi tədbirlərdən (məs., 1986-cı ildə İspaniyada keçirilmiş ölkənin NATO-da üzvlüyünü saxlamaq və bitərəflik siyasətini həyata keçirmək məsələsi üzrə referendum), yaxud ümummilli əhali plebissitləri, sorğularından (məs., 1991-ci ildə SSRİ-nin bir sıra respublikalarında keçirilmiş sorğularda həmin ərazi-dövlət birləşmələrində əhalinin müstəqilliyə və istiqlaliyyətə

münasibəti öyrənilmişdi) istifadə olunur; bir sıra ölkələrdə bu və ya digər həyati əhəmiyyətli problemin, yaxud proqram xarakterli sənədlərin "ümumxalq müzakirəsi" ənənələri mövcuddur.

Milli barışıq prosesləri inkişafının nəticəsi kimi **M.s.** ilk əvvəl, kütləvi şüurun davakarlığının yox edilməsi, mövcud mübahisəli məsələlərin sülh yolu ilə nizama salınmasının zəruriliyinə və silahlı münaqişələri sürətlə aradan qaldırmağa hazır olmağa cəmiyyətin bütün əsas qrup və təbəqələrinin razılıq verməsidir. Belə **M.s.** ümummilli sülh yaradılması üçün platforma olub və yalnız qabaqcadan "barışmazlığı" məlum olan istiqamətlər istisna edilməklə, baxışların, mövqelərin və nüqteyi-nəzərlərin geniş ilkin razılığının ifadəsidir. Bu cür **M.s.**, məs., baxışlarındakı bütün çoxsaylı fərqlərə və ziddiyyətlərə baxmayaraq, milli barışıq yoluna çıxmış, lakin öz aralarından tərəfdaşlar kimi hakimiyyətdə olduqları dövrdə ölkədə soyqırıma yol verməkdə məsuliyyət daşıyan daha ekstremist Pol-Pot-Yenq Sari qruplaşmasının nümayəndələrini kənar etmiş Kambocanın daxili siyasi qüvvələrinin - "əsas khmer tərəflərinin" nümayəndələrinin "qeyri-formal görüşləri" gedişində əldə edilmişdi.

Milli barışıq siyasəti mənasında **M.s.** həm bu siyasətin başlanğıc mərhələləri - barışığın əldə edilməsinin zəruriliyinə razılıq ilə, həm də onun həyata keçirilməsi mərhələləri ilə bağlıdır. **M.s.** barışıq proseslərinin inkişafı və dərinləşməsinin, xüsusilə də onun son nəticələrinin - milli ərazi birləşməsinin dinc, münaqişəsiz fəaliyyətinin forma və perspektivlərinə münasibətdə razılığın əldə edilməsinin zəruri zəminidir. Strateji ifadədə bütün milli barışıq prosesi siyasətin işlənib hazırlanması və mərhələlərlə həyata keçirilməsi üsulu kimi çıxış edir. Bu münasibətlə nəzərə almaq lazımdır ki, **M.s.**-in əldə edilməsi prosesi ümummilli miqyaslarda mənafelərin tam razılaşdırılması anından və milli barışığın ibtidai mərhələlərindən başlayaraq inkişaf edən "sıfır variantlarından" başqa, digər, daha səmərəli, qoruyucu variant vardır. Məs., qoruyucu strateji **M.s.**

1989-cu ildə Uruqvayda uzun sürən hərbi diktaturalar səddini dəf edərək demokratik yolla seçilmiş yeni ölkə prezidenti Sanginettinin "milli barışıra" və "keçmişi unutmağa" çağırışlarından sonra yaranmış ən ciddi problemlə əlaqədar meydana gəlmişdi. /ümumxalq referendumu zamanı ölkə müəyyən etməli idi ki, diktatura dövründə cəza tədbirlərində iştirak etmiş şəxslərə amnistiya aid edilə bilərmiə Bu səbəbdən cəmiyyət gözlənilməz nəticələrə gətirib çıxara bilən parçalanma həddində dayanmışdı. Ölkənin gələcəyi, bütün qüvvələrin səmərəli quruculuq və inkişaf naminə birliyinə və möhkəmlənməsinə yönəlmiş M.s. çağırışları təsirsiz qalmadı - referendumun gedişində təmkinlilik, barışıq xətti qalib gəldi.

MİLLİ ŞÜUR (bütövlükdə) - millətlərin və kiçik xalqların mənəvi inkişafının məzmununu, səviyyəsini və xüsusiyyətlərini səciyyələndirən sosial, iqtisadi, mənəvi, estetik, fəlsəfi, dini və s. görüşlərin məcmusu. **M.ş.** millətin müxtəlif dəyərlərə münasibətini, cəmiyyətin tarixi inkişaf prosesini, keçmiş nailiyyətləri və gələcək vəzifələri əks etdirir. **M.ş.**-un əsası milli mənlik şüurudur.

M.ş.-un struktur ünsürlərinə bir qayda olaraq maddi və mənəvi dəyərlərə millətin şüurlu münasibətini, yaradıcılıq qabiliyyətlərinin, milli mənafelərin həyata keçirilməsi üçün birlik və digər milli-etnik qruplarla uğurlu qarşılıqlı münasibətlər zərurətini aid edirlər. İctimai şüurun formalarından biri kimi, **M.ş.** iki şüurun mürəkkəb, dialektik qarşılıqlı əlaqədə və qarşılıqlı şərtlərlə vəhdətindən ibarətdir: bunlardan biri geniş milli kütlələrin gündəlik şüurunda gerçəkliyin kortəbii, emprik inikasının nəticəsi kimi adi şüur (milli-etnik psixologiya və ya **M.ş.**-un milli-psixoloji səviyyəsi), digəri isə kütlələrin adi təsəvvürlərinin, ovqatlarının, tələbatlarının və iradi səylərinin sistemləşdirilməsinin nəticəsi olan daha yüksək səviyyəli nəzəri şüurdur (millətçilik ideologiyası və ya **M. ş.**-un rasional-ideoloji səviyyəsi).

Adi **M.ş.** öz strukturu və mexanizmlərinə görə birmənalı olmayıb çoxqatlı və ziddiyətli, ətalətli-mühafizəkar və eyni

zamanda "üzərgi" xarakterlidir, daim dəyişən hadisədir, bir çox nəsillərin təbii-bioloji və sosial təcrübəsinin bir növ tarixi sintezidir. Bu şüur həm də millətin əksər nümayəndələrinin zəruri, aktual sosial-konkret varlığını əks etdirir və uzunmüddətli tarixi inkişafın məhsuludur. Adi **M.ş.**-un daxili strukturunun tərkib hissələri olan gündəlik tələbatlar, mənafelər, dəyərlər sistemi və meyarlar sistemi kimi çıxış edir ki, bunlar da konkret milli-etnik birliyin inkişafının müəyyən mərhələsini əks etdirir və mənşə məsələsində tarixi qaynaqlardan daha çox konkret sosial və ani qaynaqlara malikdir. Adi **M.ş.**-un mühüm ünsürü həmçinin müəyyən dəyərlər sistemi əsasında qurulan, həm tarixi, həm də sosial kökləri olan streotip təsəvvürlər, normalar və davranış nümunələri, adət və ənənələridir. Nəhayət, **M.-ş.**un mühüm komponentləri emosional ünsürlər, mürəkkəb və rəngarəng hisslər, ovqatlar, temperament xüsusiyyətləri, emosional-iradi səylər və onların ehtiva etdiyi obrazlar, səslər, rənglərin ifadə formalarıdır ki, bunlar da gündəlik həyatda milli özünəməxsus cizgini təşkil edir və bir qayda olaraq milli xarakterlə bağlı olur.

Adi **M.ş.**-un ən çevik, dinamik ünsürləri tələbatlardır. Tələbatlar sistemində praktik olaraq hər hansı dəyişiklik dəyişən şəraitə uyğun yeni tələbatlar yaradır, köhnələrini təkmilləşdirir, həmçinin köhnə tələbatların həyata keçirmə yollarını dəyişdirir. Yeni və ya dəyişmiş tələbatlar adi **M.ş.**-un başqa, az çevik ünsürlər, məs., köhnə stereotip təsəvvürlər, adət və ənənələrlə ziddiyyət təşkil edə bilər. Bunun nəticəsində daxili ziddiyyətlər və psixoloji münaqişələr yarana bilər və bu, emosional-hissi sferanın dəyişmələrində təzahürünü göstərir. Bu cür dəyişikliklər kütləvi ovqatların dinamikasında daha qabarıq ifadə olunur.

Adi **M.ş.**-un sabitliyini və ətalətliliyini təmin edən az çevik komponentlər ilkin, ən dərin, emosional haşiyəli dəyərlər və milli-etnik streotiplərdir. Məs., nəsillərdə formalaşmış və insanın hələ uşaqlıqdan özünündən fərqlənən daha milli qrup haqqında qavradığı düş-

mən münasibət təsəvvürü və buna müvafiq həmin qrupun üzvləri haqqında stereotip təsəvvür hərdən mövcud həyat faktlarına və insanın şüurlu qəbul etdiyi ideoloji özüllərə (məs., beynəlmiləlçiliyə) baxmayaraq, fövqəladə gizli saxlana bilər.

Adi M.-ş.-un sabitliyinə təminat verən ən sabit və mühafizəkar komponentlər adət-ənənələrdir, yəni əsrlərdən əsrlərə ötürülən ən dərin dəyərlərdə və keçmiş nəsillərin qiymətlər sistemində, habelə milli-etnik qrupun sosial yaddaşında kök salmış davranışa göstərilən normativ tələblərdir. Xüsusi sabitliyi və yaşarlığı ilə fərqlənən milli adət və ənənələr yeni nəsillərin davranışının nizamlayıcısı və sabitləşdiricisi rolunda çıxış edirlər.

Adət və ənənələr milli azadlıqların və nisbətən kiçik milli-etnik qrupların həyatında çox mühüm rol oynayır. Milli adət və ənənələrin qorunması və inkişafı onlar üçün zəruri özünümühafizə reaksiyası, xarici ehtiyatların çatmadığı şəraitdə daxili, psixoloji ehtiyatların səfərbər edilməsi hesabına milli birlik üçün milli-mədəni eyniyyətin və mövcudiyyətin rəhnidir. Milli adət və ənənələrə, onlara riayət edilməsinə yüksək tərəzlığı nəzərdə tutan diqqət əksər halda iri qonşu millətlər tərəfindən kiçik millətin assimilyasiya edilməsinə qarşı etiraz hərəkatı kimi, eyni zamanda xalqın milli özünütəsdiqinin forması da ola bilər. Bu halda M.ş.-un komponentləri kimi milli adət və ənənələr də birliyin, milli birliyin həmrəyliyinin, milli mənlik şüurunun oyanması vasitəsi ola bilər.

Adi M.ş. böyük sirayətedici xüsusiyyəti ilə fərqlənir. O, milli və etnik konfliktlərin başlıca psixoloji əsasıdır. Bu şüurda milli düşmənçilik və nifrət, milli-etnik xürafat və neqativ səciyyəli stereotiplər, milli və irqi dözülməzlik və s. öz təbiqini tapır. Məişət, adi səciyyədən başlayaraq bu təzahürlər nəinki lokal, ilk növbədə psixoloji problemlər yarada bilər, hətta ciddi sosial-siyasi səviyyəyə, bir sözlə nəzəri M.ş.-un əhatə dairəsinə də keçə bilər.

Nəzəri M.ş. kütləvi adi M.ş.-un seçmə ünsürlərinin müəyyən sosial-siyasi mövqelərdən həyata keçirilən aydın, elmi şəkildə və sosial-siyasi yöndən ümumiləşdirilməsidir. Bu milli-etnik qrupun ideologiyası olub milli tarixin ümumiləşdirilməsi və təhlili sistemini, millətin inkişafının bugünkü vəziyyətini və məqsədlərini, bu məqsədlərə bütün birlik və onun dəstələri səviyyəsində nail olma proqramlarını, milli-etnik birliyin sadiq nümayəndəsi kimi hər bir fərd üçün məcburi davranış normalarını, meyarlarını və nümunələrini özündə birləşdirir. Belə ideoloji özülün mərkəzində öz milli-etnik qrupun müstəsnalığı ideyası dayana bilər, bu halda bütün özül millətçi və etnomərkəzçi xarakter daşıyacaq, hətta **MİLLƏTÇİLİYİN VƏ İRQÇİLİYİN** ən bariz nümunələrinə çevriləcəkdir. Lakin millətin öz tarixinin, bugünkü problemlərinin və gələcək inkişaf prespektivlərinin nəzəri dərki sahəsində rəngarəngliyini yalnız bu variantlarla müəyyənləşdirmək düzgün deyildir. Nəzəri M.ş.-un mahiyyətcə millətçiliyə və sosial şovinizmə aparan sadələşdirilmiş yozumu imperiya tipli unitar- totalitar dövlətin təşəkkülü və çiçəklənməsi dövrünün ehkamçı ictimaiyyətşünaslığı üçün xasdır.

Öz millətinin ideyasına olan maksimum diqqətə söykənən nəzəri M.ş. bugünkü vahid, ziddiyyətli, lakin qarşılıqlı əlaqəli dünyada millətlərin və xalqların qarşılıqlı asılılığının realist anlamından da çıxış edə bilər. Belə bir ideoloji özül artıq prinsipcə başqa, beynəlmiləl əhəmiyyət qazanır. Nəzəri M.ş.-un variantlarını təsnif etməyə və tipləşdirməyə imkan verən başlıca məsələlər güzəşt edilməsinə və ya edilməməsinə, müxtəlif milli-etnik qrupların tələbat və maraqlarının həyata keçirilməsində razılıq əldə olunmasına, həmçinin demək olar ki, qaçılmaz real siyasi ziddiyyətlərin həlli yolları və metodlarının seçilməsində kompromisin, yaxud konsensusun yol verilib verilməməzliyinə müncər edilir. Bu, praktik olaraq nəzəri M.ş.-da etnomərkəzçilik ideyasının mövcudluğu və ifadə dərəcəsini, həmçinin onun milli müstəsnalığa yönümünü və nəyin bahasına, hər necə olursa-olsun məqsədə çatmağı və ya maraqlar balansının axtarılıb tapılmasını, yadlarla dinc

yanaşı yaşamaq zonasını isə beynəlmiləl zəmində qurmağı nəzərdə tutur.

MİLLİ TƏHLÜKƏSİZLİK - siyasət elminin bir kateqoriyası; sosial institutların elə vəziyyətini səciyyələndirir ki, şəxsiyyət və cəmiyyətin mövcudluğu və inkişafı üçün optimal şəraitin tənzimlənməsində bu institutların səmərəli fəaliyyətini təmin etsin.

Siyasi leksikonda "M.t." anlayışı ilk dəfə 1904-cü ildə ABŞ prezidenti T.Ruzveltin konqresə məktubunda işlədilmişdir (bu məktubda prezident Panama kanalı zonasını birləşdirməyi **"m.t."** mənafeləri ilə əsaslandırmışdı). Sonrakı illərdə "M.t." problemi Amerika politoloqlarının tədqiqatlarında çox mühüm yer tutmuşdur. Amerika müəllifləri "M.t." anlayışının mənbəyini "milli mənafelər" nəzəriyyəsində görürlər. Bu fikir sosioloq U.Lippman tərəfindən irəli sürülmüşdür. Tədqiqatların əksəriyyətində "M.t." digər dövlətlər üzərində güc üstünlüyü ilə və ya dövlətlərin qarşılıqlı təsiri mövqeyindən, daha doğrusu beynəlxalq münasibətlərin bütöv sisteminin inkişafı üçün optimal şərtlərin yaradılması ilə müəyyənləşdirilir. "M.t." problemino tədqiqat həsr etmiş ən məşhur müəlliflər bunlardır: B.Broudi, M.Qalperin, Q.Kan, H.Kissincer, Q.Lassvel Q.Morgentau, C.Şlessincer və b. hazırkı dövrdə M.t. problemi "strateji təhlil" məktəbinin axtarış fəaliyyətində mərkəzi yer tutur.

Keçmiş SSRİ-də M.t. problemi ilə 1990-cı ilin əvvəlindən başlayaraq SSRİ Ali Soveti müdafiə və təhlükəsizlik komitəsinin çərçivəsində məşğul olmuş, milli və beynəlxalq təhlükəsizlik fondları və bir sıra təşəbbüs qrupları yaradılmışdır.

M.t. siyasi elmin kateqoriyası kimi təhlükəsizliyin millətlə əlaqəsini, yəni sabit sosial-siyasi, iqtisadi, mədəni və s. əlaqələrə əsaslanan müəyyən ərazi-dövlət birliyi ilə əlaqəsini əks etdirir. Millət də öz növbəsində öz ənənələri, əxlaqı və mədəniyyəti olan insanların etnik birliyindən ibarət xırda millətləri özündə birləşdirə bilər. Bu baxımdan M.t. həmin millətin bütöv sistem kimi, konkret tarixi şəraitdə milli mənafelərin reallaşmasına kömək edən və ya

mane olan ictimai münasibətlər və ictimai şüur, cəmiyyət institutları və onların fəaliyyəti daxil olmaqla vəziyyətini səciyyələndirir. Milli mənafelərin mahiyyəti birinci növbədə cəmiyyət daxilində və ondan xaricdə formalaşdırılan, şəxsiyyət və cəmiyyətin həyat fəaliyyətinə və inkişafına mane olan hər hansı pozuculuq əməlinin qarşısının alınması və tədbir görülməsindədir.

M.t. məsələsində üç səviyyədə (şəxsiyyət, cəmiyyət, dövlət) təhlükəsizliyi fərqləndirirlər. Onların yeri və rolu dinamikdir.

İctimai münasibətlərin xarakteri siyasi quruculuq, daxili və xarici təhlükənin dərəcəsi ilə müəyyənləşdirilir. Millət üçün həlledici dövrlərdə cəmiyyət və ya dövlətin təhlükəsizliyi üstünlük təşkil edə bilər. Bir qayda olaraq belə böhran şəraitini daim yaradan avtoritar və totalitar rejimlər şəxsiyyətin təhlükəsizliyi hesabına dövlətin təhlükəsizliyini ön plana çəkirlər. Demokratik cəmiyyətlər üçün şəxsiyyətin azadlığı və təhlükəsizliyi daha mühümdür. Demokratik cəmiyyət üçün dövlətin və cəmiyyətin təhlükəsizliyi özünəməqsəd deyil, şəxsiyyətin azadlığına və təhlükəsizliyinə təminat funksiyasıdır.

Dövlətin təhlükəsizliyinə siyasi qüvvələrin və ictimai qrupların fəaliyyətinin idarə olunması və əlaqələndirilməsinin, həmçinin onların müdafiəsi üçün praktik institutların səmərəli mexanizmlərin mövcudluğu ilə nail olmaq mümkündür.

Cəmiyyətin təhlükəsizliyi elə ictimai institutların, normaların, inkişaf etmiş ictimai şüur formalarının mövcudluğunu tələb edir ki, əhalinin bütün qruplarının hüquq və azadlıqlarını yerinə yetirməyə imkan versin, cəmiyyəti dağıtmağa (həm də dövlətin əli ilə) aparan hərəkətlərin qarşısını alsın.

Şəxsiyyətin təhlükəsizliyi elə hüquqi və mənəvi normaların, ictimai institut və təşkilatların kompleks şəkildə formalaşdırılmasıdır ki, bunlar dövlət və cəmiyyətin maneçiliyi olmadan ona, sosial əhəmiyyətli qabiliyyət və tələbatlarını reallaşdırmağa və inkişaf etdirməyə imkan versin.

Məzmun baxımından M.t.-də müxtəlif sahələr və struktur

ünsürləri ayrılır ki, bunlara aşağıdakılar aiddir: siyasi, iqtisadi, hərbi, ekoloji, məlumat təhlükəsizliyi və millətin mədəni inkişafının təhlükəsizliyi.

Siyasi təhlükəsizliyin mahiyyəti millətin qabiliyyət və imkanlarında, onun yaratdığı dövlət institutlarının dövlət və cəmiyyətin mənafelərinə uyğun müstəqil daxili və xarici siyasət aparmasındadır. Beləliklə, siyasi təhlükəsizlik beynəlxalq münasibətlər çərçivəsində sabit siyasi suverenliyi və müxtəlif siyasi qrupların şəxsiyyətin birinciliyinə əsaslanmaqla mənafe dairəsini təmin edən siyasi sistemin formalaşdırdığı siyasi sabitliyin mövcudluğunu rəhbər tutur. Həm birinci, həm də ikinci amilin yoxluğu ölkənin siyasi təhlükəsizliyini mütləq uzuruma aparır.

Iqtisadi təhlükəsizlik məhsuldar qüvvələrin inkişafı və iqtisadi münasibətlərin şəxsiyyətin və cəmiyyətin tələbatlarının reallaşmasına yönələn inkişaf səviyyəsindən, inkişaf etmiş infrastrukturun və faydalı qazıntıların mövcudluğundan, ixtisaslaşdırılmış fəhlə qüvvəsi və onun hazırlığı sistemindən, həmçinin dünya təsərrüfat əlaqələri sisteminə inteqrasiyanın xarakterindən asılıdır. Iqtisadi avtarqiya (dünya bazarından asılılığın aradan qaldırılması) və iqtisadi asılılıq eyni effektlə iqtisadi təhlükəsizlik sistemini dağıdır.

Hərbi təhlükəsizliyin xüsusiyyəti ondan ibarətdir ki, **M.t.** mənafelərinin təminatı imkanını hərbi təhdid vasitələrində görür. Hərbi təhlükəsizliyin xarici aspekti millətin, xaricdən hərbi qüvvə təsirinə qarşı durmağında və ya onu azaltmağı bacarmağındadır. Bunun üçün müasir silahlı qüvvələr, kollektiv və ümumi təhlükəsizlik sisteminin formalaşması, bu və ya başqa hərbi-siyasi ittifaqların tərkibinə girmək vacibdir. "Soyuq müharibə" təcrübəsi aydın sübut etmişdir ki, hərbi təhlükəsizliyi mühkəmləndirməyin ən praktik yolu - beynəlxalq təhlükəsizliyin səmərəli sisteminin yaradılmasıdır.

Hərbi təhlükəsizliyin daxili aspekti sürətlə silahlanmanın pozuculuq təzahürləri, ictimai şüura militarist ideyaların təsirinin güclənməsi, ölkənin daxilində ordunun siyasi rolunun artması ilə bağlıdır. Iqtisadiyyatın və ictimai həyatın bütün sahələrinin militarist meyllərdən imtina etməsi, ordunun siyasətdən kənarlaşdırılması, milli təhlükəsizlik mənafelərinin hərbçilərin mənafelərindən üstünlüyü ölkənin hərbi təhlükəsizliyini mühkəmləndirir.

Millətin mədəni inkişaf təhlükəsizliyi, ekoloji, informasiya təhlükəsizliyi problemləri **M.t.** konsepsiyasında mühüm yer tutur, çünki birbaşa cəmiyyətin və şəxsiyyətin tələbatları ilə bağlıdır. Bu konsepsiya əsasında **M.t.** sistemi formalaşdırılır ki, bu da qanunvericilik və icraedicilik orqanlarının, şəxsiyyətin və cəmiyyətin həyat fəaliyyəti və inkişafını optimal və sabit şərtlərlə təmin edən hüquq normalarının məcmusundan ibarətdir.

MİSSİONERLİK (fr.missionnaire, lat. - göndərmə, tapşırıq) - dini təşkilatlar və kilsələrin fəaliyyət formalarından biri; missionerlərin məqsədi başqa dinlərə etiqad edənləri öz dinlərinə gətirmək və kilsədən öz döndərənləri oraya qaytarmaqdır. əslində isə **M.** qulluq göstərdiyi sosial qrupların, hökumətlərin siyasi məqsədlərinin həyata keçirilməsinə kömək edir. Buddizmdə bu vəzifəni çox zaman zəvvar rahiblər (e.ə. III əsrdən) həyata keçirmişlər. Xristianlıqda **M.** eramızın IV əsrində meydana gəlmişdir. Xristian **M.**-yi XIII-XVI əsrlərdə Hindistana, Cinə, Yaponiyaya nüfuz etmişdir. Şərqi Avropada xristianlığın katolik formasında yayılması alman feodalizminin müstəmləkə ekspansiyasını ("Dranq nax Osten") ideoloji cəhətdən örtbasdır etməyə yönəldilmişdi. Katolik kilsəsinin **M.**-yi İspaniya və Portuqaliya müstəmləkə imperiyaları yarandıqdan sonra (XV-XVI əsrlər) daha da fəallaşdı. **M.** yeni torpaqları zəbt edib "mənimsəməkdə" müstəmləkəçilərə kömək etdi.

XVII-XVIII əsrlərdə Niderland və B.Britaniya müstəmləkəçilik siyasətinə başlarkən **M.** fəaliyyətini həmin dövlətlərin protestant kilsələri həyata keçirirdi. XIX əsrin əvvəllərində missioner cəmiyyətləri ABŞ-da da meydana gəldi. imperialist dövlətlərinin dünyanı bölüşdürmək, yeni müstəmləkələr əldə

etmək uğrunda apardıqları mübarizə dövründə M.-in fəallığı xüsusilə artdı. Xristian missionerlər Afrikada fəaliyyəti genişləndirdilər. Burada məktəblərin böyük əksəriyyəti dini missiyaların əlində idi (bu ölkələrin bəzilərində indi də).

Müsəlman missionerlərinin vəzifəsini çox zaman müsəlman tacirləri, sufilik inkişaf etdikdən sonra isə zəvvar sufi-rahiblər yerinə yetirirdilər.

Rusiyada M. qeyri-rus xalqların zorla xristianlaşdırılması, təriqətçiliklə mübarizə ilə sıx bağlı idi. XVI əsrdə xristian monastırlarının missioner fəaliyyəti Volqa boyu əhalisi arasında, XVIII əsr - XIX əsrin I yarısında isə Sibir və Qafqaz xalqları arasında güclənmişdi. Missioner təbliratçılar bu dövrdə özlərinin geniş məktəb şəbəkəsini yaratmışdılar.

İkinci dünya müharibəsindən sonra missionerlər yeni müstəmləkəçilik siyasətinin təbliratçılarına çevrilmişlər. Milli azadlıq hərəkatının gücləndiyi bir dövrdə missionerlərin bir qismi öz mövqelərini saxlamaq üçün (xüsusilə Afrikada) irqçiliyə qarşı çıxırlar. Milli azadlıq hərəkatının güclənməsi ilə M.-ə qarşı hərəkat da güclənmişdir.

MİSTİFİKASİYA (yunanca mustes - həsr olunmuş, sirləri bilən və latınca facere - etmək) - siyasətdə: təbliratın köməyi və fəaliyyətin təqlidi ilə qəsdən aldatma.

MONARXİYA - (yun. monarshia - təkhakimiyyətlilik) - ali dövlət hakimiyyətinin dövlətin bir başçısının - *monarxın* əlində cəmləşdiyi və irsən keçdiyi idarəçilik forması.

MONDİALİZM (fr. monde - sülh) - dünyanın və onun ayrı-ayrı regionlarının (Avropa, ABŞ və s.) ümumi dünya hökuməti olmaqla federasiya əsasında birləşdirilməsi uğrunda hərəkat.

M.-in müjdəsi Birinci dünya müharibəsindən sonra - XX əsrin 20-ci illərində Avropa Birləşmiş Ştatları yaratmaq uğrunda hərəkat olmuşdur. Millətlər Cəmiyyətinin dağılması, faşizm, yeni dünya müharibəsi, dünyanın idarə oluna bilməməsi çıxış yolunu dünyanı yenidən qurmağa, xalqlar və dövlətlər arasında münasibətləri yeni, mərkəzləşdirilmiş dünya

strukturlarında axtarmağa təhrik edirdi. Bu mövzuda yazılan ilk əsər S.Streytin "İttifaq, yoxsa hərəmərclikə" kitabı (1939 il) oldu. Sonra - 1940, 1941, 1942-ci illərdə M.-in ilk nəzəriyyəçilərinin bir sıra yeni əsərləri meydana gəldi. İkinci dünya müharibəsindən sonra (1946-1948 illərdə) M. hərəkatı ABŞ-da və Avropada ittifaqlara çevrilməyə başladı. Haaqada, Brüsseldə və digər yerlərdə keçirilən ümumdünya qurultaylarında federalistlər birləşməyə başladılar.

M. ideologiyasının ümumi istiqaməti pasifizm, müharibəyə, növə silahına qarşı çıxmaqdır. M. ilk dəfə olaraq dünyada baş verən qlobal problemlərə və proseslərə diqqət yetirmişdir.

M. hərəkatı iştirakçılarının tərkibi olduqca müxtəlif idi: fabiançılar, sosialistlər, pasifistlər, xristian demokratlar, biznesin görkəmli nümayəndələri, siyasətçilər, alimlər (Eynşteyn-Stsillard qrupu M.-ə yaxın idi). Zor işlətmək siyasətinin tərəfdarları da M.-ə qoşulmağa cəhd göstərirdilər ki, bu da ümumdünya hökuməti və federasiyası ideyasını çox nüfuzdan

saldı.

Sonralar hərəkat zəiflədi, qismən müharibə əleyhinə müxtəlif hərəkatlara və praktik fəaliyyətə (məs., Qərbi Avropada inteqrasiya proseslərinə) çevrildi. M. hərəkatı tamamilə səhnədən çıxmasa da, BMT-nin himayəsi altında beynəlxalq təşkilatların güclənməsi və inkişafı nəticəsində M. daha az cəlbedici ideya oldu.

MONİTORİNQ (lat. monitor - xatırladan, nəzarət edən; ing. monitor - nəsihət, məsləhət vermək; nəzarət etmək, yoxlamaq) - 1) kütləvi kommunikasiya vasitələri ilə informasiya toplanması; 2) ekoloji şəraitə nəzarət, onun proqnozlaşdırılması.

MORATORİUM, mühlət (lat. motarorius - ləngidici, təxirəsalıcı) - hökumətin öhdəliklərin icrasını müəyyən müddətə *və ya hər hansı fövqəladə* hadisə /məs., müharibə, təbii *fəlakət/* qurtaranadək təxirə salması.

MUXTARİYYƏT (yun. autonomia - özünüidarə, müstəqillik) - vahid dövlət çərçivəsində geniş daxili özünüidarəetmə siyasi-milli qurumu. Bir qayda

olaraq, özünəməxsus dil, məişət və iqtisadi həyat xüsusiyyətlərinə malik xalqların yırcarı yaşadıqları ərazilərdə yaradılır.

MÜHAFİZƏKARLIQ, KONSERVATİZM (lat. conservare - saxlamaq) - siyasətdə M.-ı aşağıdakı şəkildə izah etmək olar. 1) ictimai həyatın ənənəvi dayaqlarının müdafiəsinə, bəşəriyyət tərəfindən yaradılmış dəyərlərin dəyişməzliyinə, inqilabın dəyişə bilmə qabiliyyətinin inkarına, xalq hərəkatına olan inamsızlığa əsaslanan siyasi fəlsəfə; M. bu mənada XVIII əsrdə formalaşıb və E.Berk, J. de Mester və digər monarxizm məddahlarının adları ilə bağlıdır. M.-ın ənənəyə qarşı çıxmaq məsələsi Berk tərəfindən ortaya atılmış, XIX əsrdə inkişaf etmiş və XX əsrdə də saxlanılır; 2) Siyasi qüvvələr tərəfindən qanuniləşdirilmiş, ictimai qrupların daha geniş təbəqələri və ayrı-ayrı fərdlər üçün səciyyəvi olan əhval-ruhiyyə; bu əhval-ruhiyyə sabitliyə, təşəkkül tapmış və formalaşmamış ənənələrə uyğundur, o, inqilabi əhval-ruhiyyəyə qarşı çıxır və islahatlara şübhə ilə yanaşır, əksər hallarda dinə daha çox meyl edir. Belə əhval-ruhiyyə, əvvəlcədən planlaşdırılmış ağıllı sosial qaydaların qorunub saxlanmasını qeyri-mümkün (yaxud günah) hesab edir: "başla" idarə olunan, "əl" və "ayaqla" icra edilən cəmiyyətin "üzvi surətdə" qurulmasının və onun "təbii olaraq" inkişaf etdirilməsinin vacibliyini sübut etməyə meyl göstərir; 3) Siyasi praktika səviyyəsində Böyük Britaniyada Mühafizəkarlar partiyasının proqram xətti, Fransa və Avropa qitəsinin başqa dövlətlərində xristian-demokratik partiyalar, keçmiş sosialist sistemi ölkələrinin partiyalarına bənzəyən yeni yaranan partiyaların təcrübəsi, ABŞ-a gəldikdə isə, onun demək olar ki, istər Respublikaçılar, istərsə də Demokratlar partiyalarında mühafizəkar cinah mövcuddur. Ümumi siyasi dildə M. mövcud sosial həyatın dayaqlarının möhkəmləndirilməsi sahəsində tədbirlər deməkdir. Burada sabitləşmiş dövlət qaydalarının mühafizəsi, qəbul olunmuş ümumi adət və ənənələrin qorunub saxlanılması, nüfuz və ənənənin müdafiə olunması mühüm şərtdir.

Buna görə də islahatçı və hətta inqilabçı partiyaların və hərəkatların mühafizəkar cinahı tam səlahiyyətlə ayrılaraq fəaliyyət göstərir, halbuki, əslinə qalarsa, mühafizəkar partiyalarda da sosial həyatın formalaşmış nümunələrini parçalayan radikal proqramlar mövcuddur.

Müasir M.-ın sosial fəlsəfəsini bütünlüklə politoloq Rossitetin irəli sürdüyü aşağıdakı mülahizələrlə ifadə etmək olar: din tərəfindən təsdiq edilmiş və müdafiə olunan universal əxlaq normalarının mövcudluğu: insanın sivilizasiyalı əxlaqı pərdəsi altında gizlənən ağılsız və günahlı, eyni zamanda natamam, qeyri-kamil, ümidsiz təbiəti; insanların təbii olaraq fiziki və əqli cəhətdən qeyri-bərabər inkişafı; ictimai siniflərin və qrupların labüdlüyü və bununla əlaqədar, düşünülmədən qanunun köməyi ilə sosial bərabərliyə nail olmağa cəhd göstərmək; şəxsi azadlığa nail olduqda sosial qaydaların müdafiəsində xüsusi mülkiyyətin əvəzsiz rolu; tərəqqinin etibarsızlığı; cəmiyyətin nail olacağı tərəqqinin inkişafına təsir edən başlıca hərəkətverici qüvvələrin, səbəblərin ənənəvi normalar olmasını etiraf etmək; dövlətin idarə olunmasında aristokratiyanın fəal iştirakının vacibliyi; insan ağlının mövcudluğu, o səbəbdən bu ənənənin, instinktlərin, rəmzlərin, mərasimlərin və hətta mövhumatın vacibliyi; nüqsanlara meylli olmaq və çoxluğun idarə edilməsində potensial qəddarlıq, həmin səbəbə görə də, siyasi hakimiyyətin parçalanması, məhdudlaşması və tarazlaşmasının arzu olunması... Mühafizəkarlar bərabərliyə deyil, azadlığa üstünlük verirlər; onların fikrincə, təhsil, insanı təhkimçilikdən azad etməzdən əvvəl, onu intizamlı etməlidir. Elə bu səbəbdən də onlar "tarixin faciəsi" və "siyasətin bənzərsizliyi" anlayışlarını tez-tez təkrar etməyi sevir, "insanın kamalı" və "cəmiyyətin tənzimlənməsi" ifadələrini ucadan tələffüz edirlər.

Tədqiqatçılar mühafizəkar ideologiyanı üç müxtəlif hissələrə bölürlər: ənənəçilik, libertarizm və yeni mühafizəkarlıq. Birincilər sosial dayaqların saxlanılmasını və klassik bazar kapitalizmi şəraitində müəyyən

mənada feodalizmə məxsus əxlaqi ənənələrə riayət olunmasını tələb edirlər. Bir sözlə, "xoş əyyamların" qanun-qaydalarını qoruyub saxlamağa çalışırlar.

Bu ideologiyanın kütləvi bazası ABŞ-da sağ yevangelistlərin hərəkatı olmuşdur. Onlar siyasi mübarizədə R.Reyqana çox kömək etmişlər. ənənəçilərin ən tanınmış nümayəndələrindən XVIII əsrin sonunda yaşamış Berk olmuşdur. O, J.J.Russonun "ictimai müqavilə" ideyasını qəbul etməmiş və mütləqiyyətin institutlarını təqdir etmişdir. Bu nəzəriyyənin tanınmış nümayəndələrindən biri də De Mestr idi. O da dünyanı dini tənzimləmək, "zəka səltənəti" ilə orta əsrləri bərpa etmək ideyasını ortaya atmışdır. L. de Bonald isə ən gözəl dövlət quruluşu formasının dinə əsaslanan monarxiya olması ideyasını müdafiə edirdi.

Ənənəçiliyi, vulqarlaşdırılmış ifadədə, 70-80-ci illərdə ABŞ-da yaranmış, dini qaydaqanunlara əsaslanan yeni hərəkat hesab edirdilər. Burada əsas diqqət (xüsusən teleauditoriya üçün) aşağıdakı dini-əxlaqi problemlərə yönəldilmişdir: abortun qadağan olunması; məktəblərdə duaların tədrisini tələb etmək və darvinizmə qarşı mübarizə aparmaq, ənənəvi əxlaqi dəyərlərə sadiq qalmaq və onları möhkəmlətmək və s. Bütün bu tədbirlərlə onlar dövlətlə dini ayıran səddi xarabalaşdırmaqla, bəzən də bu tənasüblüyü pozurdular. ənənəçilik elə faktiki olaraq sağ respublikaçıların ("reyqanizm") siyasi xəttini təmin edən M.-dır ki, burada hər şey hiss və duyğulara söykənir, siyasi təşəbbüslər, bütün oyunlar kütlələrin əhvalruhiyyəsi ilə əlaqələndirilir. Nə ABŞ-da, nə də Avropada bu ideologiyanın tanınmış nümayəndələri yoxdur.

M.-ın ikinci qolu olan libertarizm siyasi nəzəriyyə (fəlsəfə) olmaq etibarilə fərdlərin (burjua fərdlərinin) qeyri-məhdud azadlığını təblir edirdi. Onun ilhamvericilərindən olan F.Xayekinin fikrincə kollektivizm quldarlığa gedən yoldur; C.Rols isə siyasi öhdəliyin utilitar nəzəriyyəsini və sosial qaydaqanunlarını inkar edir və fərdlərin "təbii" hüquqlarını qoruyub

saxlamaq məqsədilə ictimai müqaviləyə yenidən baxılması məsələsinə tərafdar çıxırdı; R.Pozikin şərhinə görə, fərdin hüquqları kollektivin hüquqlarından əvvəl olmalıdır; ümumi xarakterli firavan dövlət yalnız sosializmin bir variantı ola bilər. Bütün bu mülahizələr M.-in libertarizm qolunun əsas nəzəri dayaqlarını təşkil edir. Libertarizm 70-ci illərdə "tetzerizmin" və "reyqanizmin" meydana gəlməsi ilə öz mövqeyini xeyli gücləndirmişdi. Lakin XIX əsrdə "klassik" mançerstliyinin ("hər kəs özü üçün " şüarı ilə) dəyərlərini XX əsrin sonundakı vəziyyətlərə uyğunlaşdırmaq ağıla sıran məsələ deyildi. C.Nesbit və P.Abirdenin fikrincə, yeni fərdiyyətçilik, bu gün qlobal miqyasda vəziyyətin olduğu kimi öz üzərinə götürmək məsuliyyətilə qarşılaşır, sərt formada təşkil olunmuş bəzi strukturları (dövlət)inkar edən fərd könüllü şəkildə birləşmələr çərçivəsində ona yönəldilmiş öhdəliklər götürür. Buna görədə libertaristlər təkcə kütləvi deyil, eyni zamanda az-çox əhəmiyyətli siyasi bazaya malik idilər.

M.-in 3-cü qolu olan yeni mühafizəkarlıq nəzəriyyəsi (təkcə M. çərçivəsində deyil) sosial-fəlsəfi və siyasi nəzəriyyələr içərisində daha çox diqqəti cəlb edir. Yeni mühafizəkarlıq bir sıra ən vacib siyasi və ictimai məsələlərdə neoliberalizmlə xeyli yaxınlaşmışdır. Bu yolla o, həm də libera lizmin özünün dəyişdirilməsinə az təsir göstərməmişdir. Yeni mühafizəkarlıq liberalizmdən ictimai inkişaf ideyasını, insanın tarixi, ictimai və siyasi sahələrdəki fəallığını, siyasətin və ictimai münasibətin demokratikləşdirilməsini qəbul etmiş, hakimiyyətin elitar və aristokrat mühitindən, onların qayda və ənənələrindən xeyli uzaqlaşmış, müasir ictimai təşkilatlara yaxınlaşmışdır. Dövlətin rolu və onun ictimaiyyətə münasibəti kimi bir sıra çox mühüm məsələlərdə yeni mühafizəkarlıq liberalizmin ideyaları ilə razılaşmış və eyni zamanda, klassik liberalizm ideyalarından uzaqlaşmışdır. Yeni mühafizəkarlıq dövlət kapitalizminin, sosial-demokratiyanın ictimailəşdirilmə və milliləşdirilmə siyasətinin, sənayenin bir hissəsinin kooperasiyalara verilmə-

sinin və s. məsələlərin qəti əleyhinə çıxmışdır. Onun iqtisadiyyat sahəsindəki siyasətinin mərkəzində sənayedə "sosialist" metodlarının qeyri-rentabelliyi əsas dəlil hesab edilir. Eyni zamanda , yeni mühafizəkar siyasət dalrası iqtisadiyyatın səmərəliliyinin yüksəlməsi , dövlət xərclərinin azalması ictimai qəyyumluqdan imtina, liberal və sosial-demokrat hökumətin sosial siyasətinə güzəştlə yanaşılması kimi bir sıra tədbirlərin həyata keçirilməsinə gətirib çıxarmışdır. Klassik liberalizm və fərdiyyətçiliyə tərəfdar olan, hər hansı bir şəxsinsə himayəçiliyinə arxalanmadan öz-özünə cavab verməyə qadir olub, müstəqil surətdə uğur qazanmağı bacaran şəxsiyyətin müstəqilliyini inkişaf etdirmək ideologiyası müasir M.-da özünəməxsus şəkil alaraq demokratik sosial təminatların daralması mənasında əvvəlki formasını tamamilə dəyişmişdir.

MÜASİR İDEOLOGİYALAR – bu yeni dünyada mövcud olan ideologiyaları ümumiləşdirən anlayış kimi qəbul edilir.

Cəmiyyətin sosial, siyasi, mənəvi mühitində ideologiyanın rolu misilsizdir. Sadəlövhlərin düşündükləri kimi ideologiya yalnız burjuaziyanı, yaxud kommunistlərin ideologiyası deyil. O, ümumi anlayışdan və ictimai münasibətlər sistemində - cəmiyyətin siyasi, iqtisadi və digər strukturları ilə sıx bağlıdır. Müstəqil, suveren dövlətdə ideologiyanı xarakterizə edən cəhətlər aşağıdakılardır:

- ideologiya ictimai idrakın bir tərəfidir. Özündə ictimai, siyasi və iqtisadi münasibətləri , eyni zamanda dövlətin aparıcı qüvvələrinin maraqlarını birləşdirir;

- ideologiyanın əsas funksiyası xalqın maraqlarını ifadə etmək, xalqın fikrini elmi-nəzəri baxımdan öyrənmək, sistemləşdirmək və bunu dövlət idarəçiliyinə cəlb etməkdən ibarətdir;

- ideologiya ictimai proseslərə birbaşa əlaqədar olduğundan, ictimai münasibətlərə fəal təsir göstərir;

- ideologiya xalqla əlaqədir, xalqla dövlətin birliyini təmin edən vasitədir, körpüdür;

- ideologiya dövlətin siyasi strukturu, növü, ictimai mülkiyyət formaları, iqtisadi münasibətləri, siyasi sistemi ilə əlaqədardır;

- ideologiyalar nə qədər sabit və uzunömürlü olsa da, dövrün təsiri ilə dəyişir, yeniləşir, bəzən zəifləyir, bəzən güclənir.

MÜHARİBƏ - ictimai-siyasi hadisə. Keçmişdə primitiv istehsal üsulu şəraitində tayfalar arasındakı silahlı toqquşmalar qida, əkin və ov yerləri ələ keçirmək məqsədilə baş verirdi. Öz mahiyyətinə görə bütün M.-lər tarixi şərait və baş vermə səbəbləri, məqsədləri, üsulları, aparılma vasitələri və nəticələrindən asılı olmayaraq dövlətlərin siyasətinin zorakılıq vasitələri ilə davamı olmuş və olaraq qalır.

M.-nin gedişi və müqəddaratı, aparılması üsulları vuruşan dövlətlərin məhsuldar qüvvələrinin inkişaf səviyyəsindən və iqtisadi quruluşundan (elmi potensial), sosial-siyasi quruluşundan, ideologiyasından və xalqın mənəvi səviyyəsindən (mənəvi-siyasi potensial), döyüş qüdrətindən (hərbi potensial) asılıdır. Müasir M.-lər böyük insan qırğınına və maddi tələfatlara, saysız-hesabsız dağıntılara və itkilərə səbəb olur. Avropa ölkələrinin M.-lərdə verdiyi insan itkisi (ölənlər, yara və xəstəlikdən həlak olanlar) XVII əsrdə 3,3 mln. nəfər, XVIII əsrdə - 5,4 mln., XIX əsr və XX əsrin əvvəlində (Birinci dünya müharibəsinədək) - 5,7 mln., Birinci dünya müharibəsində 9 mln.-dan artıq, II Dünya müharibəsində isə (faşist həbs düşərgələrində öldürülənlər də daxil edilməklə) 50 mln. nəfərdən çox olmuşdur. Siyasi məzmunundan asılı olaraq M.-lər ədalətli və ədalətsiz, mütərəqqi və mürtəce olur. M. dünya M.-lərinə və lokal M.-lərə, tətbiq olunan qırğın vasitələrinə görə isə ümumi və məhdud M.-lərə bölünür. Cəbhə və arxa arasında fərqi siləcək raket-nüvə M.-si, bütün bəşəriyyət üçün dəhşətli fəlakət ilə nəticələnə bilər. Onun baş verməməsi bütün sülhsevər qüvvələrin qətiyyətli mübarizəsindən daha çox asılıdır. M. təhlükəsini aradan qaldırmaq yolunda Avropada Təhlükəsizlik və əməkdaşlıq uğrunda Helsinki Müşavirəsinin Yekun aktı (1975 il) mühüm əhəmiyyət kəsb edir.

Müasir M.-lər xalqın mənəvi qüvvəsinin hərtərəfli sınağıdır, onların gedişi və nəticəsi isə

əhali və orduların bütün müharibə müddətində böyük gərginliyə, zətinliklərə və məhrumiyyətlərə davamlılığı, mərdlik və qələbəyə inamının saxlanması ilə müəyyən olunur. M. dövründə iqtisadi, elmi-texniki, mənəvi və hərbi imkanların həyata keçirilməsi siyasi rəhbərlik və hərbi komandanlığın rolu ilə bağlıdır.

MÜHARİBƏ AMİLLƏRİ - Vuruşan tərəflərin işə saldıqları, müharibənin gedişinə və nəticəsinə təsir göstərən maddi və mənəvi imkanlar. Aşağıdakılar **M.a.** ola bilər: coğrafi mühit, əhalinin sayca və keyfiyyətcə tərkibi; cəmiyyətin maddi və mənəvi qüvvələri; iqtisadi və siyasi quruluş, sosial, sinfi, milli münasibətlər; elm, xalqın və ordunun mənəvi ruhu, ordunun sayı, təlim görməsi və döyüş təcrübəsi, qoşunların təşkili, idarə olunması və s.

Tarixi təcrübə göstərir ki, müharibənin gedişinə və nəticəsinə həlledici təsir göstərən ən ümumi amillər iqtisadi, sosial, siyasi, elmi, mənəvi, coğrafi, demoqrafik və hərbi amillərdir. Müharibələrin çoxunda, ilk növbədə dünya müharibələrində müttəfiqlik, koalisiya münasibətləri mühüm amil olmuşdur. Ölkənin və xalqın digər potensial imkanları da **M.a.** ola bilər (və olur). Cəmiyyətin, dövlətin imkanlarının (potensialının) amillərə çevrilməsinin dərəcəsi və mexanizmi həmin cəmiyyətin, dövlətin sosial, sinfi təbiətindən, istehsal üsulundan, siyasi quruluşundan, ideologiyasından asılıdır. Potensialın **M.a.**-nə çevrilməsi fəal prosesdir, xalq kütlələrinin, siniflərin, partiyaların, siyasi və hərbi rəhbərliyin şüurlu fəaliyyəti bu prosesdə müəyyənedici rol oynayır.

Müxtəlif tarixi dövrlərdə potensialı **M.a.**-nə çevirməyin "öz" mexanizmləri olmuşdur. Bu mexanizmləri dövlətin siyasi quruluşu, hakim ideologiyası və hərbi doktrina məqsədləri müəyyən edir.

M.a. problemi nüvə əsrində xüsusi əhəmiyyət kəsb edir. İndi nüvə müharibəsi siyasət vasitəsi ola bilməz və onun köməyi ilə hər hansı ziddiyyəti, yaxud mübahisəli məsələləri həll etmək mümkün deyildir. Bu səbəbdən də ölkələrin və xalqların maddi və mənəvi imkanlarından müharibəyə hazırlaşmaq üçün yox, əksinə, buna yol verilməməsi üçün istifadə olunmalıdır. Dünya xalqları və dövlətlərinin ən ümdə vəzifəsi hərbi potensialı, ilk növbədə nüvə potensialını azaltmaq, sonra isə hamılıqla tərksilah yolu ilə sülh potensialının möhkəmləndirilməsini təmin etməkdir. Bu potensial nə qədər güclü olarsa, **M.a.** üçün məhdudiyyət bir o qədər çoxalacaqdır.

MÜHARİBƏ ƏLEYHİNƏ HƏRƏKAT - şüurlu olaraq öz fəaliyyətlərinin müharibə təhlükəsi, militarizm, konkret müharibə, yaxud onun bəzi nöqteyi-nəzərlərinə qarşı, zorakılıqdan istifadə olunması əleyhinə çıxışlarla bağlayan könüllü kollektiv fəaliyyət qruplarının və fərdlərin məcmusu. **M.ə.h.** üçün iştirakçılarının tərkibinin daimiliyi və müxtəlifliyi, təzahür formalarının (fərdi aksiyalar, qrupların, hərəkatların və təşkilatların fəaliyyəti, siyasi partiyaların, həmkarlar ittifaqlarının və i.a. çıxışları) və axınlarının (mütəşəkkil və kortəbii, partiya və həmkarlar ittifaqları xətti ilə baş verənlər, dini və dünyəvi pasifizm daxil olmaqla xalis müharibə əleyhinə olanları) rəngarəngliyi səciyyəvidir. Mütəşəkkil M.ə.h.-ın başlanması ilk pasifist cəmiyyətlərin meydana gəldiyi XIX əsrin 20-30-cu illərinə aiddir. XIX əsrin sonunda **M.ə.h.** pasifist və sosialist cərəyanlarına bölünür. Antimilitarist hərəkatın inkişafına II İnternasionalın Brüssel (1881 il) Sürix (1893 il) konqresləri əhəmiyyətli töhfə verdi. Sosial-demokratiya **M.ə.h.**-ın bir sıra istedadlı nəzəriyyəçilərini və təşkilatçılarını yetişdirdi. Belə çox böyük simalardan biri fransız sosialisti Jan Jores oldu. Birinci dünya müharibəsi ərəfəsində II İnternasionalın Şturtart (1907 il) konqresi V.İ.Lenin və R. Lüksemburqun təklifi ilə bildirdi ki, müharibə baş verəcəyi təqdirdə beynəlxalq proletariat müharibəni doğuran kapitalizmin aradan qaldırılması uğrunda çıxış edəcəkdir. Fövqəladə Bazel konqresi (1912 il) dərc etdirdiyi müharibə əleyhinə manifestdə yaxınlaşmaqda olan müharibəni cinayət kimi müəyyənləşdirdi. Müharibə başlandıqdan sonra **M.ə.h.**-ın pasifist cərəyanı fəallaşır, müharibənin

dayanyırılmasını tələb edən təşkilati cəhətdən zəif olsa da başında Romen Rollan, Eduard Errio kimi nüfuzlu mədəniyyət xadimləri duran demokratik hərəkat meydana gəlir. **M.ə.h.** üçün 1917-ci ildə ilk sovet hökumətinin qəbul etdiyi sülh haqqında dekret kimi siyasi aktın da mühüm əhəmiyyəti oldu; burada qeyd edildi ki, müharibə və sülh məsələləri təkcə hökumətlərin deyil, xalqların işidir.

Müharibəarası dövr üçün kütləvi aksiyaların (mitinqlər, nümayişlər) keçirilməsi, **M.ə.h.**-ın genişlənməsi və onun bu və ya digər siyasi partiyalara,dini cərəyanlara meyl edən təşkilatlara parçalanması səciyyəvidir. **M.ə.h.**-ın kommunist və sosial-demokratiya cinahları arasında birbaşa münaqişəyə gedib çıxan təfriqə müşahidə edildi. **M.ə.h.**-a yaxın olsa da tamamilə müstəqil cərəyan olaraq hələ əsrin əvvəlində "dünya federalistləri hərəkatı" kimi meydana gəlmiş federalizm fərqləndirildi. 30-cu illərin ikinci yarısında antifaşist və müharibə əleyhinə çıxan qüvvələrin beynəlxalq görüş və konqresləri keçirildi, lakin **M.ə.h.**-ın məqsəd və fəaliyyətini qəti olaraq razılaşdırmaq mümkün olmadı.

II Dünya müharibəsi gedişində demokratik antifaşist əsas üzərində birləşən **M.ə.h.** müharibədən sonrakı dövrdə kütləvi sülh tərəfdarları hərəkatının bazasına çevrildi. Mədəniyyət xadimlərinin sülhü müdafiə konqresi (Vrotslav, avqust, 1948 il) və sülhü müdafiə manifestini qəbul etmiş sülh tərəfdarlarının 1-ci ümumdünya konqresi (Paris-Praqa, aprel 1949 il) sülh tərəfdarları hərəkatının formalaşmasında mühüm mərhələ oldu. Varşavada sülh tərəfdarlarının ümumdünya konqresində (1950 il) təsis edilən ümumdünya Sülh Şurası (ÜSŞ) atom müharibəsini bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirən Stokholm müraciətnaməsinin imzalanması kampaniyasını təşkil etdi. **M.ə.h.**-dan məhdud partiya, bəzən isə sadəcə konyunktur mənafeləri baxımından istifadə etmək cəhdləri, sosial demokratlarla qarşıdurma siyasəti, kommunist hərəkatındakı münaqişələr, "soyuq müharibə" siyasəti **M.ə.h.**-ın ilkin kütləviliyini sarsıtdı. Qərbi Avropa ölkələrində neopasifist təşkilatlar fəallaşdı. Müxtəlif siyasi partiyaların (sosial-demokrat, liberal, demxris tian və i.a.) **M.ə.h.**-da öz strukurlarını yaratmaq cəhdlərinə əks-səda kimi çoxlu müharibə əleyhinə müstəqil qrup və birləşmələr yarandı. 50-ci illərdə nüvə silahı əleyhinə pasifizmin meydana gəlməsi xüsusilə mühüm hadisə oldu. Onun ideya mənbəyi Stokholm müraciətnaməsi olsa da, yaranmasında Rassel-Eynşteyn-Jolio-Küri manifesti (1955 il) həlledeci rol oynadı. Elə o vaxtlarda da Paquoş hərəkatı (1-ci konfransı 1957 ildə keçirildi) meydana gəldi. 50-ci illərin ikinci yarısında nüvə silahı əleyhinə kütləvi təşkilatlar və onların koalisiyaları yaradılır: Böyük Britaniyanın nüvə tərksilahı kampaniyası (Si-En-Di; 1958 il) və "Yüzlər Komitəsi" koalisiyası (1957-1962 illər), Qərbi Almaniyanın "Atom ölümü əleyhinə mübarizə" komitəsi və pasxa marşları hərəkatı (1960 il), İtaliyanın Sülh uğrunda mübarizə şurası (1962 il), İsveçin atom bombası əleyhinə fəaliyyət qrupu (1958-1960 illər) və onu əvəz etmiş nüvə silahı əleyhinə yürüş (1961-1964 illər) təşkilatları və s. Fransanın, Böyük Britaniyanın, Niderlandın müstəmləkə müharibələrinə və təcavüzkar hərəkətlərinə, ilk növbədə əlcəzairdə müharibə əleyhinə çıxışlar 50-60-cı illərdə **M.ə.h.**-ın inkişafına töhfə oldu. 70-ci illərin əvvəlində ABŞ-ın Vyetnamda təcavüzü, sonunda isə SSRİ-nin əfqanıstana müdaxiləsi əleyhinə hərəkat xüsusilə geniş vüsət aldı.

Müharibə əleyhinə çıxan qüvvələrin arasındakı münaqişə və ziddiyyətlərin (xüsusilə əfqanıstandakı hadisələrin təsiri altında 70-ci illərin ikinci yarısından etibarən) kəskinləşməsi bu sahədə əməkdaşlığı möhkəmləndirməyə olan meyli inkişaf etdirməyə imkan vermədi. Buna baxmayaraq, neytron bombasına qarşı kütləvi kampaniya müvəffəqiyyətlə başa çatdı, orta məsafəli sovet və amerika raketlərinin Avropada yerləşdirilməsi əleyhinə çıxışlar siyasi qərarların qəbul olunmasına əhəmiyyətli təsir göstərdi. 80-ci illərin ortalarında **M.ə.h.**-da mübarizə forma və metodlarının yenidən qiymətləndirilməsi yeni istiqamət və

məqsədlərin axtarışları mərhələsi başlandı. Təkcə bir mərkəzi problemə, məhdud fəaliyyət dəstinə istinad etməkdən uzaqlaşma, tələb və şüarların, forma və siyasi fəaliyyət vasitələrinin, mədəni və maarif işinin rəngarəngliyinə meyl artır. Dövlət səviyyəsində nüvə silahı olmayan dünya konsepsiyasının yaranması, 1987-ci ildə orta və kiçik məsafəli raketlərin ləğv edilməsi haqqında sovet-amerika müqaviləsinin imzalanması, SSRi, Yuqoslaviya tipli imperiyalar dağıldıqdan sonra dünyanın yeni siyasi mənzərəsi **M.ə.h.**-a *sülhün* xeyrinə *fəal* işi gücləndirməyə imkan vermiş, öz növbəsində **M.ə.h.**-ı bəşəriyyətin və biosferanın yaşaması, nüvə silahı olmayan, qeyri-zorakı və təhlükəsiz dünya, **M.ə.h.**-ın özünün yaratdığı əməkdaşlıq modelləri formasında inteqral planet birliyi kimi qlobal problemlər uğrunda mübarizə aparan hərəkata çevrilməsinə yardım göstərmişdir.

MÜXALİFƏT - siyasətdə: 1) öz siyasətini başqa siyasətə qarşı qoymaq; 2) qanunvericilik, partiya və digər strukturlarda özlərinin demokratik üsullara tərəfdar olduqlarını bəyan edən əksəriyyətin, yaxud, hakim fikrin əleyhinə çıxmaq. M.-in mütədil, radikal, loyal (hakimiyyətlə sazişə və onu dəstəkləməyə hazır olan), konstruktiv (məzmunlu, işgüzar təkliflərlə çıxış edən), destruktiv (dağıdıcı) formaları vardır.

MÜQAVİLƏ - mülki hüquqda iki və ya bir neçə şəxsin /vətəndaşların, yaxud hüquqi şəxslərin/ mülki hüquq və vəzifələrinin müəyyən edilməsinə, dəyişməsinə və ya xitam edilməsinə yönəldilmiş saziş. İştirakçılarının sayından asılı olaraq *ikitərəfli* və çoxtərəfli olur. M.-yə görə bir tərəf üçün yalnız hüquq, digər tərəf üçün isə yalnız öhdəlik yarandıqda M. birtərəfli /məs., borc M.-si/ hər iki tərəf üçün həm hüquq, həm də öhdəlik yarandığı halda M. ikitərəfli /məs., alqı-satqı M.-si, daşınma M.-si/ adlanır. M.-də adətən, M.-ni icra etməyə görə zərərin ödənilməsi, dəbbə pulu və s. kimi əmlak məsuliyyəti /sanksiya/ nəzərdə tutulur. Formasına görə M. sadə və notarial təsdiqli olur. Bəzi M.-lər müvafiq dövlət orqanlarında qeyd olunmalıdır.

MÜNAQİŞƏ, k o n f l i k t (lat. conflictus - toqquşma) birbirinə qarşı duran iki və daha çox müxtəlif istiqamətli qüvvələrin öz mənafelərini həyata keçirərkən toqquşması. Baş verən zaman subyekt sifətilə fərdlər, kiçik və böyük qruplar, qeyri-formal əsasda yaranaraq formal təşkil edilmiş sosial (siyasi, iqtisadi və s. strukturlar) birləşmələr, siyasətləşdirilmiş və siyasi don geydirilmiş ictimai hərəkatlar, iqtisadi və siyasi təsir qrupları, müəyyən məqsəd güdən, eyni zamanda incidilən, təqib edilən kriminal qruplar çıxış edə bilər. M. ayrı-ayrı şəxslərin, qrupların, ictimai strukturların fəaliyyəti nəticəsində meydana çıxan subyektiv və obyektiv ənənələrin müxtəlifliyindən, yaranmasından, müxtəlif qütblərdə duran ideyaların, nəzəriyyələrin, məktəblərin toqquşmasından, müəyyən ictimai, siyasi, iqtisadi və s. sahələr daxilində inhisar əldə etmək və s. məqsədləri həyata keçirmək nəticəsində meydana gələ bilər.

Cəmiyyətdə aqonist (barışılan) və antaqonist (barışılmaz) M.-lər mövcuddur. Aqonist M.-lərin vaxtında həllinə laqeyd münasibət, onun xroniki formaya keçməsinə və hətta antaqonist səciyyə daşımasına gətirib çıxara bilər. əksinə, antaqonist M.-lərin ilk mərhələsində qarşılıqlı güzəştə getmək imkanlarının axtarılıb tapılması onun gərginliyini azaltmaq, sonra isə güzəşt taktikasının gedişləri ilə onu aqonistik formaya çatdırmaq mümkündür. Müxtəlif səciyyəli M.-lər tərəflərin güzəştə getmək siyasətini həyata keçirmək vasitəsilə, yaxud da xarici şəraitin dəyişməsi nəticəsində qarşıduran tərəflərin razılıra gəlməsi yolu ilə həll edilə bilər.

Qəsdən *ideoloji*, siyasi və mənəvi təsir göstərmək məqsədilə təşkil edilmiş saxta M., təqlidetmə, yamsılama yolu ilə yaradılan M.-lər də məlumdur. Belə M.-lər xəyali, uydurma toqquşmalar adlanır. Lakin unutmaq olmaz ki, onlar həqiqi ziddiyyətlərə çevrilə bilər, belə ki, qarşıduran tərəflərin maraqları təhlükə altında olduqda, onların mənafeləri real təhlükəyə çevrilə bilərlər.

Real M.-lərdə iştirak edən münaqişə tərəfləri bir-birinə zidd emosional hisslərin daşıyıcıları hesab olunurlar

Obyektiv tarixi prosesdə **M.** ictimai hadisə kimi müsbət və səmərəli səciyyə daşıya da bilər və ya əksinə, müəyyən şəraitdə, münaqişəli tərəflərəsubyektlərə münasibətdə mənfi keyfiyyətlər kəsb edərək ümumi inkişafı ləngitmiş olar. **M.**-nin meydana gəlməsinin konkret şərtləri onun inkişaf formalarının gizli və aşkar olmaları ilə təyin edilir.

Əgər **M.**-lər fərdlər və xırda qruplar arasında baş verirsə, bu zaman maraqlar, motivlər və davranışlar toqquşmuş olur. Böyük qrupların qarşıdurmasında **M.** ictimai ovqatın və münasibətlərin toqquşması ilə müşayiət olunur. **M.**-lər üfüqi istiqamətdə - ictimai və siyasi strukturlar daxilində baş verir; şaquli vəziyyətdə - strukturun rəhbərləri və tabeçilər arasında, nəzarət edən orqanlarla onlara hesabat verən fərdlər arasında, qruplar və təşkilatlar, liderlər və idarə olunanlar arasında baş verir. **M.**-lərin müxtəlif növlərini müxtəlif ictimai-sosial səbəblər yaradır: ictimai dissosiasiyalar (parçalanmalar) nəticəsində müxtəlif mənafeləri olan yeni qrupların əmələ gəlməsi, qarşılıqlı özgələşmə, uzaqlaşma prosesinin artması, qarşıdurmada iştirak edən qrupların mübarizə aparmağının labüdlüyünün dərki və s. bu kimi əlamətlər **M.**-lər yarada bilir.

Cəmiyyətin ictimai və siyasi strukturlarında yaranan **M.**-lər öz səviyyəsi, əhatə dairəsi, kəskinliyi və bir sıra başqa parametri ilə səciyyələnir. Politoloji aspektdə **M.**-lər ona görə əhəmiyyətli sayılır ki, onlar eyni vaxtda ictimai və sosial strukturların bütün səviyyələrini əhatə edir, konkret şəraitdə iştirakçıların maksimum əhatə olunmasına nail olur və onları öz ətrafına toplaya bilir (ümumi **M.**). Belə **M.**-lər hakimiyyətin saxlanılması və devrilməsi, onun möhkəmləndirilməsi və ya dağıdılması problemləri ilə əlaqədar ictimai münasibətlər sahəsində baş verir ki, bu da siyasi səciyyə daşıyır. İctimai strukturun yalnız bir hissəsini əhatə edən **M.**-lər daha az əhəmiyyət kəsb edir. Lakin unutmaq olmaz ki, belə **M.**-lər də müəyyən şəraitdə (qeyri-sabit dövrdə, gərgin anlarda) böyüyüb ümumxalq səciyyəsi daşıya bilər.

Müxtəlif sahələrdə baş verən beynəlxalq, sinfi, etnik, millətlərarası, icmalararası, dini, demoqrafik, lokal və s. səciyyə daşıyan **M.**-lər tezliklə siyasi səciyyə kəsb edir. Hər hansı sahədə baş verən **M.** sonra başqa sahədə də yayılır, yeni qarşıdurma yaradır.

Siyasi kontekstdə dərk edilən "**M.**"-lər anlayışı müxtəlif qüvvələrin iri miqyaslı toqquşlamaları ilə birlikdə, inqilablar və əksinqilablar, ayrı-ayrı dövlət və onların müttəfiqləri arasında qarşıdurmalar, toqquşan tərəflərin bütün sahələrini əhatə edən müharibələr, partizan hərəkatı kimi iri toqquşmalarla bir sırada qeyd olunur.

İctimai inkişafda, sosial idarəetmə, ictimai münasibətlərin tarazlaşmasında **M.**-lərin vəzifələrinin və rolunun öyrənilməsi nəticəsində sosiologiya, politologiya və siyasi psixologiya elmlərinin qovuşuğunda "konfliktologiya" - yeni müstəqil elm sahəsinin meydana gəlməsinə imkan yarandı. "Konfliktologiya" elminin mühüm bölmələrindən birinin fəaliyyəti **M.**-lərin əmələ gəlməsi və onun qarşısının alınmasının qanunauyğunluqlarının dərki, siyasi **M.**-lərin inkişafı və yaranma səbəbləri, qütbləşmə və qarşıdurmanın yaranmasına yol verilməməsi və s. bu kimi problemlərin öyrənilməsinə yönəldilmişdir. Müasir konfliktologiya elminin qarşısında duran ən mühüm problemlərdən biri **M.**-lərin labüdlüyünün proqnozlaşdırılması və toqquşan tərəflər arasında mənfi nəticələrin azaldılması yollarının araşdırılmasından ibarətdir.

Müasir sosiologiya və siyasi konfliktologiya elmləri **M.**-lərin qarşısının alınması nəzəriyyəsi və siyasi texnologiyası haqqında demokratik cəmiyyət konsepsiyasını əsaslı şəkildə zənginləşdirir, eyni zamanda siyasi və ictimai münasibətlərin inkişafı və təkmilləşdirilməsində ondan istifadə edir. Beləliklə, **M.**-lər yalnız dağıdıcı qüvvə kimi deyil (antaqonist **M.**); eyni zamanda yaradıcı, yenidən qurmağa qadir olan (aqonist, barışdırıcı **M.**) bir ictimai hərəkat kimi bərqərar olur. Belə nəzəriyyə **M.**-lər haqqında mövcud klassik nəzəriyyənin modifikasiya olunmuş, yenidən işlənilmiş for-

ması olub cəmiyyətin ictimai-siyasi, iqtisadi- ideoloji sahələrinin siyasi mexanizminin hazırlanmasına xidmət edir.

Ötən əsrin 80-90-cı illəri ərzində nəzəriyyə və demokratik təcrübə konfliktli vəziyyətdə dialoqa üstünlük vermiş, xüsusilə də M.-lərin getdikcə böyüyüb təhlükəli nəticələr yaradacağı bir vəziyyətdə bu cəhət ön plana çəkilmişdir. Bəşəriyyət şüurlu şəkildə başa düşmüşdür ki, raket-nüvə fəlakəti kimi qlobal siyasi M.-lərin yayılması mümkün deyildir və buna görə də ən ciddi, çıxılmaz görünən vəziyyətlərdə belə qarşıduran tərəflər mütləq kompromisə getməlidirlər.

M.-lər dinamik səciyyəyə malikdir. Bunlar qarşıduran tərəflər arasında mövcud olan münaqişəli münasibətlərdən doğur. Əgər toqquşma qarşıdurmada olan tərəflərin razılığı ilə aradan qaldırılarsa, onda münaqişəli vəziyyətin böyüyüb toqquşmaya çevrilməsi imkanı da azalar. Siyasi səciyyə daşıyan münaqişəli vəziyyətləri qarşı tərəflər arasındakı ziddiyyətləri çoxaltmadan, ictimai gərginliyi artırmadan, qrup və fərdlər arasında qarşıdurma yaranmasına yol vermədən siyasi vasitələrin köməyi ilə tənzimləmək mümkündür. Əgər ziddiyyət M. səviyyəsinə çatırsa, belə halda onun inkişafı böyüyüb ən yüksək pilləyə qalxa bilir, sonra isə toqquşmalarla nəticələnir. Birinci, M.-nin başa çatması ilə başqa bir sahədə, kortəbii ikinci bir münaqişə yarana bilər. Bu yolla da iri miqyaslı, çox ölçülü M. fenomeni meydana gəlir. M. başa çatandan sonra, əksər hallarda, onun ardınca postkonfliktli son dərəcə münaqişəli sindrom meydana çıxır ki, bu da əvvəllər ziddiyyətdə olan tərəflərin gərgin vəziyyətini səciyyələndirir. Bu sindrom gərginləşərək başqa səviyyələrdə və mənafeləri eyni olan tərəflərin iştirakı ilə, hətta tamamilə başqa səbəblər özündən, təkrarən M.-lərə şərait yaradır.

Münaqişəli vəziyyətlər üzərində həyata keçirilən demokratik nəzarət prosesi bir sıra spesifik üsulları nəzərdə tutur. Bunlar aşağıdakılardan ibarətdir:

1.M.-də tərəflərinin mənafeləri, onların niyyətləri və atacaqları növbəti addımlar haqqında yoxlanılmış, dəqiqləşdirilmiş informasiyaların qarşılıqlı və operativ mübadiləsi;

2.M.-li vəziyyətin idarə edilməsinin mümkün olmayacağı hallarda müxtəlif qütblərdə duran qüvvələrin tətbiq edilməsindən qarşılıqlı və şüurlu surətdə imtina etmək;

3.M.-lərin şiddətlənməsinə təsir edəcək hərəkətlərə qarşılıqlı moratoriyanın elan edilməsi;

4.Arbitrlərin işə müdaxiləsi, M.-lərə qərəzsiz yanaşılmasına təminat verir; tövsiyələr isə hər iki tərəfin razılığı ilə qəbul edilir;

5.İstifadə edilən və ya qəbul olunmuş yeni hüquqi normalar, inqilabi və digər üsullar M.-yə cəlb olunmuş tərəflərin yaxınlaşmasına imkan yaradır;

6.İşgüzar tərəfdaşlıq şəraitinin yaradılması, sonra isə inamlı münasibət cari M.-nin başlanmasının və gələcəkdə yenisinin yaranmasının qarşısını alır.

Bu cür üsullar yalnız daxili M.-lərə deyil, həmçinin beynəlxalq M.-lərə də tətbiq edilir və ona münaqişə tərəflərinin - dövlətlərin nümayəndələrinin konstruktiv əməkdaşlığı, beynəlxalq təşkilatların və bitərəf təşkilatların köməyi, beynəlxalq hüquq normalarının və prinsiplərinin gözlənilməsi yolu ilə nəzarət olunur.

Bəşəriyyətin ən yeni siyasi tarixi sübut edir ki, beynəlxalq dövlətlərarası və bloklararası geniş miqyaslı M.-li vəziyyətlərin həllinə belə qarşılıqlı siyasi güzşətlərə getməklə, qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsinə təsirli nəzarət sistemi yaratmaqla nail olmaq mümkündür. M.-li vəziyyətlərdə qorxu və şübhə balansı opponentlərin etimadlı münasibətləri nəticəsində, bu etimada bir sıra müsbət siyasi qərarların və hərəkətlərin əlavə olunması yolu ilə aradan qaldırılır.

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ (MDB) - Belorusiya, Rusiya və Ukrayna resp.-rının yaratdıqları dövlətlərarası birlik; **MDB**-nin yaradılması haqqında 1991-ci il dekabrın 8-də Minskdə imzalanmış sazişdə həmin dövlətlər bəyan etmişdilər ki, dərin böhran və tənəzzül şəraitində SSRİ beynəlxalq hüquq subyekti kimi öz fəaliyyətini dayandırır. Müstəqil dövlətlərin könüllü birliyi kimi yaranan **MDB** siyasi, iqtisadi, humanitar, mədəni

və digər sahələrdə dünyanın bütün dövlətləri ilə, xüsusən, sabiq SSRı-nin tərkibində olmuş və müstəqilliklərini elan etmiş rep.-larla əməkdaşlığı inkişaf etdirməyə səy göstərmək əzmindədir. 1991-ci il dekabrın 21-də Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Moldaviya, Özbəkistan, Tacikistan, Türkmənistan resp.-rının başçıları **MDB**-yə qoşulduqlarını bildirdilər və Belorusiya, Rusiya və Ukrayna rəhbərləri ilə birgə MDB-nin məqsədləri və prinsipləri haqqın da Bəyannamə imzaladılar. **MBD**-nin üzvü olan respublikaların nümayəndələri 1993-cü ildə birliyin Nizamnaməsini qəbul etdilər. Bu nizamnaməyə görə, birliyə daxil olmuş dövlətlərin birgə fəaliyyəti sahələri müəyyən edildi: insan hüquqları və azadlıqlarının təmin olunması, xarici siyasət fəaliyyətinin əlaqələndirilməsi, ümumi iqtisadi məkanın formalaşdırılması, nəqliyyat və rabitənin inkişaf etdirilməsi, əhalinin sağlamlığı və ətraf mühitin qorunması sahələrində əməkdaşlıq, sosial və mühacirət siyasəti məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə, müdafiə siyasətində və xarici sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin həqiqi üzvləri ilə yanaşı, onun fəaliyyətinin ayrı-ayrı sahələrində iştirak edən assosiasiyalaşdırılmış üzvləri də vardır. Bəzi dövlətlər **MDB**-nin işində müşahidəçilər kimi iştirak edirlər.

MDB-nin aşağıdakı orqanları yaradılmışdır: Dövlət başçıları şurası: hökumət başçıları şurası, xarici işlər nazirləri şurası; Parlamentlərarası Assambleya (mərkəzi Sankt-Peterburq ş.ndədir) və s. **MDB**-nin daimi fəaliyət göstərən orqanı əlaqələndirmə və Məsləhət Komitəsidir (Minsk ş.-ndə yerləşir).

MÜSTƏSNA HÜQUQ - bu və ya başqa məsələdə yalnız müəyyən bir dövlət orqanına, yaxud vəzifəli şəxsə məxsus olan hüquq.

MÜTLƏQİYYƏT - Dövlətdə siyasi hakimiyyətin bir şəxsin - monarxın əlində cəmləşdiyi idarə üsulu forması. Dövlət hakimiyyətinin ifrat dərəcədə mərkəzləşdirilməsi ilə fərqlənir.

MİLLİ MƏNAFELƏR - özünəməxsus genetik və mədəni homogen əlaqələr və qarşılıqlı

münasibətlərlə birləşmiş milli birliyin, yaxud qrupun mənafeləri.

M.m. dildə, ailə, dini, əxlaqi adət və ənənələrdə, əyləncə tərzlərində, siyasi sistem və davranışlağında, həmçinin geyim və bəzəklərində təzahür edən mədəniyyət ümumiliyi əsasında bir millətin nümayəndələrinin kooperasiyaya və birliyə meylində öz təcəssümünü tapır.

M.m. şəxsiyyətin, milliyyətin, millətin və fəaliyyəti, yaxud dövlətin davranışının və fəaliyyətinin hərəkətverici qüvvələrindən biridir. Bax: həmçinin **MİLLİ MƏNLİK ŞÜURU.**

N

NASİONAL KOMMUNİSTLƏR - keçmiş SSRİ respublikalarında sosializm və kommunizm ideyaları ilə geniş kütlələrin millətçilik meyllərini əlaqələndirən siyasi cərəyan.

NEOFAŞİZM - II Dünya müharibəsindən (1939-45) sonra kapitalizmin ümumi böhranının kəskinləşməsi şəraitində yaranmış, ifrat mürtəce, sağ ekstremist hərakatları bildirən anlayış. Siyasi və ideya cəhətdən faşizmin davamçısıdır.ən mühüm fərqləndirici cəhətləri qatı millətçilik və irqçilik, siyasi mübarizədə zorakılıq, terrorzu metodların tətbiqindən ibarətdir. əhali arasında məhdud nüfuzlarına baxmayaraq, neofaşist təşkilat və qruplaşmalar ciddi təhlükə törədir. Neofaşistlərin bir neçə beynəlxalq birliyi mövcuddur.

NEOMARKSİZM - bu və ya digər dərəcədə K.Marksın nəzəri irsinə əsaslanan və başqa ənənəvi ideyalar - yeni hegelçilik, həyat fəlsəfəsi, eksiztensializm, yeni freydizm, strukturalizm, fəlsəfi təfsirlər və b.-nın məcrasında şərh olunan bir sıra Qərb ictimai fikir cərəyanlarının ümumiləşmiş adı.

Bu cərəyanlar metodoloji mühakimə eyniliyi, yaxud məzmunun nəticəsinə görə deyil, daha çox zahiri əlamətlərinə görə "N." adı ilə birləşirlər. Belə əlamətlərdən birincisi Qərbdə tədqiqçiların ictimai proseslərin spesifikasının azadlıq subyektinin tənqidi təhlili məcrasında aparılması, Qərbi Avropa reallıqlarına uyğun azadlıq metodları və formalarının axtarışı, onun zəifliyinin səbəbləri və bunların aradan qaldırılması yolları üzərində cəmləşməsidir. Tarixən bu rakurs Rusiyadakı 1917-ci il oktyabr təcrübəsinin təkrarının qeyri-mümkünlüyünə dəlalət etmişdir. ikincisi, bu "qərb" və "şərq" marksizminin, yəni N. və ehkamlaşdırılmış, bayağılaşdırılmış "marksizm-leninizm"in ayrılması, sonra isə bilərəkdən qarşı-qarşıya qoyulmasıdır,

N.-in tarixi inkişafının daxili məntiqi-marksizm (yaxud başqa marksizmin eyni zamanda həm inqilabi subyektin (tarix siniflər mübarizəsi kimi) fəaliyyət konsepsiyası, həm də həqiqi cəmiyyət quruluşunun təkamül və fəaliyyət konsepsiyası (məhsuldar qüvvələrlə istehsal münasibətləri arasındakı ziddiyyətli hərəkətin tarixi kimi) ola biləcəyi sualına cavabın axtarışlarları ilə müəyyənləşdirilir. N.-in tanınmış banilərindən biri K.Korşun ifadəsinə görə, bu kökləri Marksın təliminda, "Siyasi iqtisadın tənqidinə dair" əsərinin ön sözü ilə "Kommunist partiyasının manifesti" arasında ziddiyyətdə yerləşən tarixi prosesin şərhindəki "obyektivlik" və "subyektivlik" düsturlarının birləşdirilməsi problemidir. N.-in bütün tarixi, həqiqət, bu düsturlar arasındakı tərəddüdün nəticəsi, eyni zamanda həm real tarixi dönüşlərdən, həm də N.-i keçmişindən növbəti mərhələyə aparan ideya varisliyindən asılı amplituda kimi izah oluna bilər. D. Lukaçın və K.Korşun adı ilə bağlı olan N. XX əsrin 20-ci illərində hegelçiləşdirilmiş marksizmin üstünlüyü şüarı altında yaranıb yayılmışdır. Burada "obyektiv" və "subyektiv" düsturların birləşməməsinin qarşısı onunla alınır ki, cəmiyyət, varlıq və şüur totallıq kimi təsvir olunur. Fetişləşdirilmiş şüur təkcə varlığın sadəcə deyil, həm də real tarixi prosesin mühüm anı və iştirakçısıdır, ona görə tarixin gedişi şüurun nəcəliyindən daha çox asılı olur. Fetişləşmiş şüuru aradan qaldıran və totallıqla əlaqəli olan proletariat (Lukaz) tarixin və ictimai azadlığın subyektinə çevrilir. Proletariatın öz vəzifəsini və tarixin "obyektiv həqiqətini" siyasi və mənəvi zəmində reallaşdırmağın fəlsəfi təhlili N.-in bu versiyasının diqqət mərkəzində dayanır.

30-40-cı illərdə marksizmin Frankfurt məktəbi ilə bağlı hegel ləşdirilmiş yeni bir variantı irəli sürülür. Onun nəzəriyyəçiləri (M.Xorkxaymer, P. Adrno) proletariatın həm tənqidi, fetişizmdən uzaq potensial şüur əldə etmək imkanını, həm də bu sinfin obyektiv vəziyyətinin qanunauyğun mübarizə apardığı özgələşmədə qalib gələcəyini şübhə altına alırlar (total cəmiyyət çərçivəsində). Fəhlə sinfi tərəfindən də mənimsənilən burjua mədəniyyət formasının tənqidi təhlili onların məxrəcində özgələşmə və hökmranlıq dayandığını göstə-

rir. Təbiəti etibarilə alət rolunu oynayan zəka yönümləndiyi, istiqamətləndiyi hər şeyi mənimsəmə vasitəsinə və predmetinə çevrilir. Buna görə də mahiyyətinə görə o, insana, onun fərdiliyinə və azadlığı ilə münasibətdə təzyiq göstərmə mövqeyində durur. Hakimiyyət eşqi insanın zahiri məcburiyyət faktoru şəklində deyil, şüurunun daxili quruluşu kimi təzahür edir. Köklü məsələ artıq - özgələşmə deyil, çünki insanı özgələşdirəcək bir şeyi yoxdur, daha doğrusu onun azadlığa ləyaqəti yoxdur.

50-60-cı illərdə "fərdiyyətçi marksizm - freyd marksizm (E. Fromm, Q.Markuze), eksistensialist marksizm (M.Merlo - Ponti, J.P.Sartr), fenomenoloji marksizm (E.Poçi, P.Pizçone) kimi cərəyanlar meydana çıxır. Onların ən ali məqsədini Frankfurt məktəbi nəzəriyyəçilərinin məhdudlaşdırdıqları hökmranlıq çevrəsini sındırmağa cəhdi müəyyənləşdirirdi. Cəmiyyətçiliyin (ictimailiyin) simasızlaşdırıcı təsirini, yaxud, ona qarşı immunitet qabiliyyətinə malik olmasını sınamadan, dərin qatlarda fərdin subyektliyini tapacağını güman edən insan azadlığının potensialını aşkarlamaq idi. Əgər bu subyekt əlaqələrinin qeyri-müəyyən şəkli subyektin immuniteti olar, azadlaqdırsa, bəs o, hansı obyektiv strukturlarda həyata keçirilə bilərə Şəxsiyyət azadlığına münasibətdə obyektivlik, ümumiyyətlə repressiyadan uzaq ola bilərmiə "Fərdiyyətçi marksizm" kimi əsas cərəyanların birində doğan bu ictimai-siyasi mövqe obyektivliyin daimi "yox"u, sürəkli inkarı və qiyamı azadlığın varlığının, qorunmasının yeganə uyğun üsuludur. "Fərdiyyətçi marksizmin bəzi cərəyanları 60-cı illərdə yaranmış "yeni solzuluq" hərəkatı ilə bu hüdudda nəinki qovuşur, həm də onu gücləndirir.

60-cı illərin ortalarında struktural marksizm (siyasi nəzəriyyə sahəsində L. Altyüsser, M.Qodelye, N.Pülansasın) yayılır. Onun əsas qayğısı N.-in subyektiv cərəyanlarında itən "tarixin obyektiv həqiqəti"ni hüquqi cəhətdən bərpa etməkdir. Lakin, bu "həqiqət" artıq nə partlayış, nə də təmizlənmə deyildir, məsələ ondan ibarətdir ki, tarix - "subyektdən kənar

prosesdir". N.-in həmin cərəyanı bir-birilə birləşdirilməyən təcrübənin müxtəlif növlərinin özünəməxsusluğu, həmçinin cəmiyyətin rəngarəng tarixi tiplərinin quruluşu ilə vurğulanır. Tarixin hərəkətvericisi cəmiyyət quruluşunun qarşılıqlı və ziddiyyətli məntiqidir, məhz elə o zaman ki, fərd və ictimai qruplar qabaqcadan təyin edilmiş bu məntiqi vəzifələrinin yalnız daşıyıcısı olsun. Bunun mahiyyəti isə struktural marksizmin "antihumanist nəzəriyyəsidir".

N. ingilisdilli ölkələrdə sosiologiya və siyasi iqtisad sahəsində əsasən antipozitiv istiqamətdə inkişaf edir (C.R.Mills, A.Qouldner, P.Baran, P.Suizi və b.).

N. uzunmüddətli tarixi ərzində sol və sol liberal, hər şeydən qabaq daha çox universitet ziyalıları içərisində yayılmışdır. Onun real siyasət sahəsinə çıxışı bəzi istisnalar nəzərə alınmazsa, neomarksizmin nəzəriyyəçilərinin özlərinin də etiraf etdikləri kimi - onun zəif cəhəti olmuş və qalır.

NEONASİZM - bax; **NEOFAŞİZM**

NEYTRALLIQ - (alm. neutralitat, lat. neuter nə o, nə də başqası)- I) iki tərəf arasında toqquşma, yaxud münaqişəyə qarışmaqdan imtina etmək; 2) prinsipcə müharibələrdə və hərbi-siyasi ittifaqlarda iştirak etməmək barədə təəhhüd götürmüş dövlətin siyasəti və xüsusi hüquqi statusu (bax; həmçinin **BİTƏRƏFLİK).**

NƏZƏRİYYƏNİN "YENİDƏN İDEOLOGİYALAŞDIRILMASI" - 70-80-ci illərdə Qərb ölkələrində konsepsiyalar; daxili və xarici siyasəti həyata keçirərkən ideoloji prinsiplərə və dəyərlərə əməl olunmasının zəruriliyini əsaslandırırdı (bax; həmçinin **İDEOLOGİYASIZLAŞDIRMA** və **YENİ MÜHAFİZƏKARLIQ).**

NİHİLİZM - /lat.-nihil-heç nə, heç şey/- hamı tərəfindən qəbul olunmuş ictimai norma və dəyərlərdən imtina edilməsi.

NONKONFORİZM (lat. non - yox, conformis - oxşar, bənzər) ilkin mənada hamı tərəfindən tanınan dini təlim qəbul etməyən, dövlət kilsəsində islahatlar aparılmasını tələb edən sektant təriqəti.

"Konforizm" və "N" terminlərinin siyasi səslənməsi

XIX əsrin 60-80-ci illərinə təsaddüf edir. Bu dövrdə Qərbdə mövcud sosial həyat formalarının qəbul edilməməsi (əsasən, gənclər və etnik azlıqlar arasında) ilə əlaqədar əhval-ruhiyyələr yayılırdı. Bu isə gənclərin etiraz, pinti, seksual inqilab hərəkatına çevrilirdi (bax: həmçinin **"KONFORMİZM"**).

NOTA - /lat.nota-işarə, məzəmmət, məktub/ -diplomatik akt növü; N.vasitəsilə hər hansı bir hüquq və ya tələb, digər dövlətin düzgün olmayan aktlarına qarşı etiraz bildirilir. N. yalnız informasiya /məlumat/ xarakteri də daşıya bilər; lakin belə olduqda o, hüquqi əhəmiyyətə malikdir, çünki hökumətin rəsmi nüqteyi nəzərini bildirir. N. üç formada olur:imzalı,/yaxud şəxsi N./,verbal N./rəsmi bəyanat verilir/ və ümumi N. Bir qayda olaraq, N. fərdi diplomatik aktdır; lakin müasir təcrübədə kollektiv N.-lara da təsadüf edilir. Təcrübədə bir neçə nümayəndəliyin müəyyən bir dövlətin hökumətinə tamamilə eyni məzmunda N./identik və ya paralel N./göndərməsi hallarına da tez-tez təsadüf olunur.

NUNSİ - /lat nuntus-müjdəçi/-Roma papasının rəsmi diplomatik münasibətlər saxladığı dövlətlərdə daimi nümayəndəsi. Fövqəladə və salahiyyətli səfir diplomatik rütbəsinə uyğun gəlir.

NUVORİŞ (fr. nouveau riche - yeni varlı) - kinayə ilə, əmək qabiliyyəti olmadan sürətlə varlanan və özün üçün yenqi olan mühitdə sabit sosial əlaqələri və indiki vərdişləri olmayan insan.

NÜFUZ - "hakimiyyət" anlayışı, ehtiram, hörmət, təsir anlayışlarının şəxsin (idarənin) vəzifə statusuna aid edilməsi mənasında meydana çıxmışdır.

N. hakimiyyətin həyata keçirilməsinin əsas formalarından biridir. Onun köməyi ilə adamların hərəkətləri üzərində nəzarət və həm ümumi, həm də fərdi mənafe baxımından bu hərəkətlərin razılaşdırılması təmin edilir. N. insan fəaliyyətinə direktiv, əmr və sərəncam formasında birbaşa təsirin xarakterinə görə siyasi təsirdən fərqlənir. N.-u zahiri məcburiyyətdən fərqləndirən odur ki, icraçı ona verilən sərəncamların yerinə yetirilməsi və ya yetirilməməsi ardınca mükafatlandırılacağı, yaxud təqib ediləcəyini düşünmür, sərəncamların qanuniliyinə əmin olur. N. özünü həmişə bu və ya başqa dərəcədə qanuniləşmiş şəkildə göstərir, bu isə öz növbəsində sosial qaydanın müəyyən dərəcəsinin olmasını nəzərdə tutur.

N.-un səmərələliyini bir çox cəhətdən hakimiyyətin mövcudluğunun digər formaları ilə onun qarşılıqlı təsiri müəyyənləşdirir. Bu qarşılıqlı təsir onların arasında ziddiyyətlərin olmasını istisna etmir. Tabelik mükafatlarla, yayınma isə mənfi tədbirlərlə müşayiət edildikdə N. güclənə bilər. Lakin həmin mexanizm N.-a zidd də ola bilər; onun məcburi nəzarət vasitələri ilə qanuniləşdirilməsi N.-u sarsıdan icbari hakimiyyətin yaranmasına gətirib çıxara bilər.

Bilavasitə güc (zorakılıq) tətbiq edilməsi imkanına arxalanan zahiri məcburiyyətdən fərqli olaraq, N.-un hakimiyyəti ənənə ilə, o cümlədən mənəvi əsaslarla (bilik, yaş, cəmiyyətdə mövqe, iradi keyfiyyətləri və i.a), səmərəli əsaslandırılmış qanunilikla (bax; **LEQALLIQ**), nəhayət, qeyri-adi nüfuz sahibi olan siyasi liderin **XARİZMASI** ilə təmin edilir. M.Veberin təsnifatına uyğun olaraq, birinci halda biz N.-u qanuniləşdirməyin ənənəvi üsulunu, ikinci halda səmərəli leqal üsulunu, üçüncü halda xarizmatik üsulunu görürük. N.-un yaranması mexanizminin bütün əsas ünsürləri; onu həyata keçirən qurumlar, N."subyektlərinin" üzərlərinə öhdəliklər götürməsi üsullarının sistemi kimi qarşıda durur. Nəhayət, nüfuzlu normalar və ya sərəncamlar və ya sərəncamlar inam əsasında elan edilir. Burada "hakimiyyəti qanuniləşdirən" ali səviyyə ilə müəyyən dərəcədə birbaşa və ya dolayı əlaqədən söhbət gedir; bu səviyyə Allahın iradəsi, sülalənin, dövlət və ya cəmiyyətin banilərinin "vəsiyyəti", "xalq iradəsi", "təbii hüquq" və s. sayıla bilər. Başqa sözlə, E. Şilzə görə, N.-u qanuniləşdirməyin yalnız xarizmatik üsulları deyil, ənənəvi və səmərəli leqal üsulları da müqəddəs, yəni xarizmatik mənbə ilə "hansısa bir əlaqəyə inama" əsaslanır. Şilz N.-un qanuniləşdirilməsinin xarizmatik üsulundan bu iki

üsulun fərqini yalnız onda görür ki, birinci iki halda əlaqə dini mahiyyətli mənbə ilə bilavasitə deyil, dolayısı təsəvvür olunur.

M.Veber kimi, onun müasir ardıcılları da belə hesab edirlər ki, yalnız hakimiyyətdə olanlar, yə`ni N."subyektləri" deyil, həm də təbəələr, yəni N."obyektləri", onlara göndərilmiş sərəncamların icraçıları da qanuniləşdirilməyə möhtacdırlar. "Subyektlər" burada öz hakimiyyətlərini qaydaya salmağın mənbələrindən birini görür və özlərinə haqq qazandarmağa - fəaliyyətlərinin (həm də hərəkətlərinin) qanunauyğun olmasına inama ehtiyac hiss edirlər. Bu cür psixoloji tələbat öz hərəkətlərində nüfuzlu əmrlər və sərəncamlarla da səciyyəvidir; buna görə də onlar universumda daha yaxşı qayda görməyi arzulayır, bu qaydanı könüllü tabe olduqları N.-un mənası ilə əlaqələndirirlər.

Dövlət müqəddəs tutmalı olduğu rolların, mükafatların və nüfuzun bölüşdürülməsi qaydaları ilə ziddiyyət təşkil edən ədalətsizlik aktlarına yol verdiyi hallarda N.-un qəbul edilməsinin deməli, həm də N.-un özünün itirilməsi faktı aydın qeydə alınır. N.-un itirilməsi burada bir çox cəhətdən əsas sosial-mədəni nemətlərin bölüşdürülməsində hamı tərəfindən qəbul olunan ədalət meyarı ilə müəyyənləşdirilən sosial qaydanın qorunması işində onun qeyri-səmərəli fəaliyyətinin labüd nəticəsi kimi meydana çıxır. N.-un hakimiyyəti çox vaxt zorakılığa istinad edib məcburi nəzarətə əsaslanan "hakimiyyətin N.-u" ilə əvəz olunur. Məcburi hakimiyyət sosial qaydanı qoruyub saxlamaq üçün öz qabiliyyətini nümayiş etdirmək əsasında çox vaxt "özünü qanuniləşdirməyə" cəhd göstərir: "hakimiyyətin N.-u" özünü N.-un hakimiyyəti ilə təsdiqləməyə meylli olduğunu hiss etməyə çalışır. Beləliklə, avtoritarizm totalitarizmə çevrilməyə başlayır. əks hallar da az deyildir.

Nəzərdən keçirilmiş metamorfoza sübut edir ki, N.-un hakimiyyəti ilə "hakimiyyətin N.-nu" bir-birindən ayırmaq son dərəcə çətin olsa da (məs., E.Şilz belə hesab edir ki, empriyada onlar birlikdə, müxtəlif kombinasiyalar yaratmaqla çıxış edirlər), bu qurumlar formaca və məzmunca bir-birinə uyğun gəlmir. Özünün laxladığını görən (və ya bu cür təhlükəni dərk edən) N. bəzən zahiri məcburiyyətdə əlavə istinadgah axtardığı kimi, "hakimiyyətin N.-u" da öz növbəsində N.-a ehtiyac duya bilər. Lakin "hakimiyyətin N-u" tarixdə çox vaxt eyni zamanda həm "hakimiyyətin N.-u, həm də N.-un hakimiyyətinin" təcəssümü kimi meydana çıxan, N.-un "ali subyektinin" "fövqəltəbii" xüsusiyyətlərinə müraciət edən xarizmatik N. ilə uyğun gəlir. ənənəvi, xüsusilə səmərəli leqal N.-a gəldikdə isə "yalnız özünə" arxalanan "hakimiyyətin N.-u" və özü üçün əvvəlcədən müəyyənləşdirilmiş prinsipdən kənara çıxılması ilə məhdudlaşdırılan N.-un hakimiyyəti arasında ziddiyyətlər aşkara çıxır. Bu halda qanuni N.-a müraciət etmək nəinki yalnız antitotilatar, həm də antiavtoritar rol oynaya bilərdi (xarizmatik və ya ənənəvi N.-a nisbətən səmərəli leqal N-a haqq qazandırmaq tələbi).

N.-un sosial funksiyasının təhlilinə (sonra isə qiymətləndirilməsinə) münasibətdə əsas müasir yönümlər N.-un M.Veber tərəfindən vurğulanmış "ideal tiplər"indən hansının N. "prinsipinin" özünə daha çox uyğun sayılmasından asılı olaraq fərqlənir. Bu mənada xarizmatik N.-u irəli sürən (eyni zamanda "xarizmaları" ehkamçı "ateist" anlamında götürən sosioloqlar N.-a totalitar hakimiyyətin özbaşınalığla yanaşı duran sırf özbaşınalığın nəticəsi kimi baxmağa meyllidirlər. Bundan sonra isə "əsl demokratik" cəmiyyət hesab etdikləri "N.-suz cəmiyyət" yaratmaq məqsədilə hər cür N.-un siyasi zorakılıqla əlaqəsinin məhdudluğu haqqında, ("ideoloji maska" kimi) "hamını və hər kəsi" ifşa etməyin zəruriliyi barədə nəticələr çıxarılır. N.un qorunmasının həyasız-antiliberal (nitsşeçilik) variantı "iradə və hakimiyyətin zəruri aləti kimi" bunlara qarşı durur.

Səmərəli leqal N.-u "model" kimi götürən siyasətçilər onu liberal konstitusiyalı hakimiyyətin zəruri ünsürü kimi müdafiə edir, həm mühafizəkarların, həm sol radikalların, həm də antiavtoritaristlərin tənqid-

inə məruz qalırlar. ənənəvi N.-u əsas götürən politoloqlar isə onun sosial funksiyasının qiymətləndirilməsində mühafizəkar və ya radikal siyasi istiqamətə meyllərindən asılı olaraq, fikir ayrılığına malikdirlər: mühafizəkarlar N.un "ənənəviliyini" cəmiyyətdə onun "sabitləşdirici" funksiyasının şərti, radikallar isə əksinə, N.-un bu ənənəviliyini "ictimai tərəqqi" yolunda ən mühüm əngəllərdən biri hesab edirlər.

NÜFUZ AKTI - 1) xarici dövlətin siyasi məqsədlərinin həyata keçirilməsi sahəsində müntəzəm fəaliyyətlə məşğul olan (formal cəhətdən həmin dövlətin məxfi xidmətlərinin əməkdaşı olmayan) vəzifəli şəxs; 2) həmin strukturlara məxsus olmayan mühitdə hər hansı partiyanın və ya təşkilatın siyasətini yürüdən ictimai xadim.

NÜMUNƏ, p r e s e d e n t -müəyyən şəraitdə, vəziyyətdə davranış, oxşar şəraitdə, vəziyyətdə hərəkət və ya qərarlar üçün nümunə sayılan qərarın qəbul edilməsi.

Sosial idarəetmədə olduğu kimi siyasi, ideoloji,dini və s. sahələrdə də aşağıdakı hallarda N.-yə istinad edilir: cosial proseslərin inkişafındakı müəyyən meyllər zamanı optimal hərəkət tərzini praqnozlaşdıranda; qərarlar hazırlayanda; mübahisə aparanda və baxışları əsaslandıranda. Siyasi diskussiyalarda, hakimiyyət və idarəetmə orqanlarında məsələlərin müzakirəsində, ictimai rəyin mövqeyini formalaşdırmaq məqsədi daşıyan açıq çıxışlarda N.-yə tez-tez istinad edilir. Bu halda N.-dən istifadə edən şəxslərin və onların biliklərinin başlıca vəzifəsi haqqında söhbət gedən yeni şəraitin əvvəllər olmuş faktiki vəziyyətlərlə səciyyə etibarilə eynən oxşarlığını sübut etməkdir. əgər istinad olunan şərait təhlil edilənə yalnız zahirən bənzəyirsə, yaxud faktik vəziyyətlərin oxşarlığı ancaq ikinci dərəcəli parametrlərdə görünürsə, bu zaman səhv N. tapmaq ehtimalı böyük olur. Məs., siyasətçilərin strateji qərarlarının əsası kimi əslində prinsipcə tamamilə başqa sosial tarixi şəraitdə inkişaf etmiş tarixi hadisələrdən N. -lərə istinad olunmasının mənfi nəticələrinə dair faktlar məlumdur.

Siyasətdə və sosial həyat

fəaliyyətinin yuxarıda sadalanan digər sahələrində N.-nin məcburi qüvvəsi yoxdur.N.-yə istinad adətən hər hansı hərəkətin, qərarın əsaslandırılmasında yalnız bir halqa, oxşarlığa dair dəlillərin tipik olmayan halıdır. Bu dəlillərin nə dərəcədə inandırıcı olması bir çox cəhətdən müxtəlif amillərdən (keçmişdəki oxşar vəziyyətlərin hamısı barədə kifayət qədər məlumat toplanmasından, həmin vəziyyətlərin tarixi şəraitlə vəhdətdə nəzərdən keçirilməsindən, faktik vəziyyətlərin müqayisəsinə sistemli yanaşılmasından) asılıdır. Lakin tez-tez belə olur ki, şəxsi məqsədlər, qrup məqsədləri güdən siyasətçilər bu tələblərə məhəl qoymayaraq, zahirən oxşar görünən nümunədən istifadə etməklə kütləvi təlqinə, psixoloji sirayətə əl atıb müəyyən hərəkət tərzini öz tərəfdarlarına qəbul etdirirlər. Bu isə güclü siyasi, etnik, dini fanatizmə gətirib çıxara bilər. Dini müharibələr dövründəki hadisələri buna misal göstərmək olar. O zaman düşmən tərəflərin təbliqatçıları müvafiq dini təlimlərin banilərinin əfsanəvi deyimləri və davranışları, müqəddəs kitablardan sitatlar şəklində N.-lərə istinad edərək düşmənləri amansızcasına qırmağa çağırırdılar. 1917-ci ilin oktyabrından sonra daxili siyasəti, dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik orqanlarının işini, ictimai rəyin istiqamətini müəyyən edən qərarlar Sovet dövlətinin, cəmiyyətin inkişafına çox böyük zərər vurmuşdur. Çünki bu qərarlar Fransa inqilabı xadimlərinin, yaxud marksizm-leninizmin banilərinin hərəkətlərinə, qərarlarına, fikirlərinə mexaniki şəkildə istinad etməklə, tarixi şərait nəzərə alınmadan qəbul olunurdu.

Hüquqda məhkəmə N.-si konkret iş üzrə qətnamədir. Həmin məhkəmə, yaxud aşağı instansiya məhkəmələri oxşar işlərə baxdıqda bu qətnamə məcburidir. Konkret mülki, inzibati iş, cinayət işi üzrə akt olan, N. kimi istifadə edilən məhkəmə qətnaməsi məhz bu şəkildə istifadə edildiyinə görə, həm də ictimai xarakterli normaların daşıyıcısı, mənbəyi kimi nəzərdən keçirilir. Başqa sözlə, məhkəmə N.-ləri həm də qanunvericilik, qanun qüvvəli aktların nəşri və s. ilə yanaş· qanun-

yaratma forması olur. Bu mənada N. elə bir örnək və ya işdir ki, o, sonrakı işlər üçün istinad kimi qəbul olunur, yaxud eyni cür akt və ya vəziyyət onun köməyi ilə təsdiq edilir.

Məhkəmə N.-si praktikasının sonrakı dövrdə formalaşması orta əsr ingiltərə kral məhkəməsinin fəaliyyəti ilə bağlıdır. Lakin oxşar işlər üzrə əvvəllər qəbul edilmiş qətnamələr yalnız XIX əsrin birinci yarısında hakimlər üçün məcburi oldu. O vaxta qədər N.-dən istifadə etmək məcburi deyildi, məhkəmə praktikasının qanunvericilik bazasının kifayət qədər olmadığı şəraitdə hakimlərin hüququ idi. Belə vəziyyət ABŞ-ın, bir sıra digər ingilisdilli ölkələrin hüquq və məhkəmə icraatını da səciyyələndirdiyinə görə, ingiltərə sistemi - məhkəmə N.-nə əsaslanan "ümumi hüquq" sistemi həmin ölkələrdə də bərqərar oldu. XVIII əsr hüquqşünası Blekston N.-ni "ümumi hüququn məzmununun praktik dəlilləri" adlandırmışdır.

Hakim N.-ni tətbiq edərkən: a) oxşar hadisələrin başlıca əlamətlərini əsas götürərək, həmin hadisələr üzrə qəbul olunmuş qətnamələrin məcmusunu təhlil edir; b) özünün seçdiyi qərarların (eləcə də tərəflərin gəldiyi qərarların) qəbul edildiyi faktiki şəraiti və baxılan işi ətraflı tutuşdurur; c) N. kimi istifadə olunması nəzərdə tutulan qərarda "zəruri əsası" (ratio decident) və "yeri gəlmişkən deyilən" (obiter dictrum) dürüst müəyyən edir. Yeni baxılan iş üzrə qərar üçün bunlardan yalnız birincisi əsas götürülür.

Məhkəmə N.-ləri dəyişən sosial şəraitə uyğun olaraq məhkəmə praktikasına zəruri dəyişikliklər etməklə onda lazımi sabitliyi və varisliyi uzlaşdırmağa imkan verir. Məs., bu hallarda yuxarı instansiya məhkəməsi yeni praktika yaradır. ABŞ kimi federal dövlət şəraitində öz səlahiyyətləri daxilində ABŞ Ali Məhkəməsinin və ştatların ali məhkəmələrinin müvafiq qərarlarından söhbət gedə bilər. Məhkəmə N.-si sisteminin daha bir müsbət cəhəti odur ki, hakimlərdən və tərəflərdən yüksək hüquq ixtisası tələb olunur. Nəhayət, məhkəmə N.-ləri ümumiləşdirildikdən sonra qanunvericilik işləyib hazırlamaq üçün

yaxşı baza yaradır. Məs., bu yolla təkcə daxili hüququn deyil, həm də beynəlxalq xüsusi hüququn bir sıra normaları işlənib hazırlanmışdır. Bununla belə, ədalət məhkəməsinin etalon məqsədləri baxımından məhkəmə N.-sinin mühüm çatışmazlıqları da var. N. haqqında olan materialların mürəkkəbliyi və çoxluğu özündən məhkəmədə tərəflərin uğur qazanması xeyli dərəcədə onların nümayəndələrinin bilik və təcrübəsindən asılı olur. Eyni zamanda hakimin sosial vəziyyəti, siyasi, dini, etnik, mənəvi baxışları, rəğbət və nifrəti çox vaxt onun N. seçməyə necə yanaşmasına bilavasitə təsir göstərir. N.-dən istifadə haqqında qərar ətraflı, sərbəst üslubda, yeri gəlmişkən ümumi müddəalar ifadə edilməklə və konkret qərarın səbəbləri ciddi şərh olunmadan bildirilir. Bu isə hakimin qərəzli mövqeyini aşkar etmək və onunla razılaşmamaq imkanını daha da çətinləşdirir. Ən nəhayət, onu da qeyd etmək lazımdır ki, strateji siyasi məqsədlər üçün məhkəmə N.-si praktikasında müəyyən kələyə əl atmağın mümkünlüyü məhkəmə qərarlarının bütünlüklə deyil, seçmə qaydasında dərc olunmasından irəli gəlir. Məs., ingiltərədə yuxarı məhkəmə instansiyalarının N. əhəmiyyəti ola biləcək qərarlarının 10 faizdən 70 faizə qədəri dərc edilir.

NÜVƏ ARİTETİ - tərəflərin qarşılıqlı təhlükəsizliyi məqsədilə onların nüvə qüvvələri və silahlarının təxmini bərabərliyi.**N.a.** prinsipi ölkələrin nüvə cəbbəxanasının zahiri,yəni nüvə silahlarının strukturuna və miqdarına görə bərabərliyini deyil, bu ölkələrdən hər birinin nüvə silahının köməyi ilə digər ölkəyə qeyri-məqbul zərər vurmaq imkanını nəzərdə tutur.

NÜVƏ CƏKİNDİRMƏSİ VAHİMƏSİ - nüvə silahının olması ehtimal edilən təcavüzkarı çəkindirməyin, vahimədə saxlamağın, dünya müharibəsinin başlamasına yol verməməyin ən mühüm və həlledici ünsürü sayılan doktrina. Nüvə silahının meydana gəlməsi ilə əlaqədar ABŞ -da işlənib hazırlanan bu doktrinanı sonralar Böyük Britaniya, Fransa və NATO modifikasiya olunmuş şəkildə qəbul etmişlər.

OBSKURANTİZM (lat. obscurans (obscurantis) - tündləşdirən) - yeni və qabacıl hər nə varsa, hamısına ifrat mürtəce, düşmən münasibəti bəsləmək, cəhalətpərəstliyin sinonimi.

OBSTRUKSİYA (lat. obstrucito - maneə, əngəl - 1) etiraz bildirmək üsulu; siyasəti yeridən müxalifət qrupu üçün məqbul sayılmayan qanun layihəsinin parlamentdə müzakirəsinə və qəbul edilməsinə qarşı yönəldilmiş parlament mübarizəsi metodlarından biri, 2) ümumən hər hansı təklifin, tədbirin pozulmasına yönəldilmiş nümayişkaranə hərəkət.

OBYEKTİVİZM - idrakda və praktikada ictimai həyatın öyrənilən hadisələrinin qiymətləndirilməsində və xarakteristikasında həmçinin təbiətşünaslıq, humanitar və texniki elmlərin dünyagörüşü (fəlsəfi) nəticələrinin formulə edilməsində neytrallığa yönümlənən dünyagörüşü mövqeyi. O. tərəfdarlarının fikrincə, elmilik obyektivlik, partiyalılıq və sinfiliklə bir araya sıxmır. O. elmi idrakı sosial-siyasi cəhətdən "bitərəf" bir şey hesab edir. Marksizm elmi obyektivliyi O-dan ayırmaqla göstərir ki, O. nəticədə subyektivizmə və subyektiv idealizmə aparan yoldur.

OXLOKRATİYA (yun. ochlos - kütlə, kratos - hakimiyyət - kütlənin hakimiyyəti) - 1) vəziyyətin sahibi kimi çıxış edən kütlənin əli ilə törədilən qiyamlar, talanlar, iri küçə irtişaşları situasiyası; ən rəzil niyyətlərin və hərəkətlərin - əzişdirmələrin, qrup halında zorlamaların, məhkəməsiz qətllərin, kütlənin yolu üstündəki maddi sərvətlərin ağılsızcasına dağıdılmasının və i.a. meydana gəlməsi ilə səciyyələnir. 2) ən ibtidai formada və daha çox gözə dəyən variantlarda populist əhval-ruhiyyələrə müraciət edən ictimai-siyasi qrupların hakimiyyəti.

O. cəmiyyətdə öz statusundan kəskin narazı qalan və dərhal fəaliyyətə başlamağa can atan lümpenləşmiş və səfalətdə yaşayan təbəqələrin təmsil etdiyi "xalq adamı" kimi dinamik olaraq əhval-ruhiyyəni tutmağa və əks etdirməyə cəhd göstərdiyindən siyasi xəttinin

dəyişkənliyi ilə fərqlənir. Kütlənin anlaması üçün O. mürəkkəb ictimai problemləri son dərəcə sadələşdirir, kütləvi ehtirasları coşdurmaq xətrinə fitnələrə əl atır. Fasiləsiz kütləvi qalmaqallar bir-birinin ardınca O.-nı müşayiət edir. Oxlokratlığa namizədin dəqiq psixoloji portretini M.A.Bulqakov "it ürəyi" əsərində Şarikov surəti ilə yaratmışdır. O.-nın hakimiyyət sükanı arxasında uzun müddət qalması çoxlu çıxılmaz vəziyyətlərin yaranmasına və bunun nəticəsi olaraq, oxlokratların məcburən hakimiyyətdən məhrum edilməsinə səbəb olur. İdarəetmə təsəvvürünün azlığı, siyasi səriştəsizliyi, hakimiyyətdə olmaq statusundan bəhrələnməklə hədsiz fayda götürmək bərisliyi O.-nı müxtəlif daxili və xarici siyasi fırıldaqlara sövq edir. Bu, O.-nı cəmiyyəti ümummilli fəlakətə gətirib çıxara bilən ən təhlükəli təzahürlərdən birinə çevirir.

OLİQARXİYA (yunan. oligarchia, oligos - bir para, az sayılı və arche - hakimiyyət) - bir para adamların dövlətdə və maliyyə dünyasında (maliyyə O.-sı) hakimiyyəti.

ORDU - çoxmənalı anlayışdır. Politoloji baxımdan O. dövlətin siyasətini silahlı zorakılıq vasitələri ilə həyata keçirmək üçün nəzərdə tutulmuş orqandır. Siyasi institut kimi O. haqqında tam təsəvvür yaratmağa imkan verən üç prinsipial əlamət barəsində danışmaq olar. Əvvəla, O. dövlət idarəsidir. Sinifli cəmiyyətdə, ümumən dövlət kimi, O. da müəyyən siniflərin, sosial qrupların mənafelərini ifadə edir. Bununla birlikdə, O. həm ümumdövlət, həm də ümummilli mənafeləri ifadə etməli və qorumalıdır. Cəmiyyətin idarə olunmasını həyata keçirən, onun iqtisadi və sosial strukturunu qoruyan dövlətin dünya meydanında və ölkə daxilində xüsusi mənafe və vəzifələri vardır. Bunların mahiyyəti və həcmi həm dövlətin özünün təbiəti, həm də onun inkişafının tarixi şəraiti ilə müəyyənləşdirilir. Dövlət bunlara nail olmaq üçün öz siyasi qüdrətinin təmin edilməsinə qayğı göstərməlidir. Bunsuz onun mövcudluğu təsadüfdən asılı olardı bu və ya digər xarici və daxili pozucu qüvvələr tərəfindən zorakılıq

qəsdləri törətmək təhlükəsinə məruz qalardı. Dövlətin qarşısında qoyulmuş vəzifələrə dinc üsullarla nail olmaq mümkün olmadıqda, dövlət onların həyata keçirilməsi üçün sonuncu vasitəni - fiziki qüvvəsini, yəni silahlı mübarizəni tətbiq edir. Xüsusi təşkilat kimi **O.** da məhz elə bu məqsədlə yaradılır. Real qüvvə kimi **O.** ali hakimiyyətin zəruri dayağı və alətidir, bütünlüklə dövlətə məxsusdur. Elə buna görə də **O.** öz quruluşunu, daxili həyatını, ondan istifadə etmək qaydalarını müəyyənləşdirən bütün hüquq normalarının olmasını tələb edir. Yəni **O.** öz təbiəti etibarilə (dövlət orqanı kimi) hüquqi təşkilatdır. Ikincisi, özünəməxsus təşkilat kimi **O.**-nun mühüm əlaməti onun silahlı təşkilat olmasıdır. **O.** dövlətin müxtəlif qurumlardan - hakimiyyətin nümayəndəli və icra orqanlarından, idarəetmə, məhkəmə, prokurorluq orqanlarından və s. silahlı qüvvə, silahlı adamların birliyi olması ilə fərqlənir. Bunun sayəsində **O.** heç bir qeyri-hərbi təşkilatda olmayan keyfiyyətə, döyüş qüdrətinə malikdir. Dövlət ondan istifadə edərək, ən sərt məcburi funksiyalar həyata keçirə bilər. Müəyyən şəraitdə dövlət **O.**-ya arxalanaraq, həmin orqanlarsız da keçinə bilir, çünki silahlı təşkilatın olması faktının özü dövlət hakimiyyəti aktlarına avtoritar qüvvə və dövlətdə qanuni qaydaların toxunulmazlığına təminat verən qüdrətli psixoloji amildir. üçüncüsü, **O.** dövlətin xüsusi təyinatlı hərbi təşkilatıdır: bütün səviyyələrdə taktiki, operativ və strateji səviyyələrdə müharibə, silahlı mübarizə aparmağa qadirdir. Bu qabiliyyətə **O.**-nun silah və döyüş texnikasının kəmiyyət və keyfiyyəti, peşəkarlıq baxımından hazırlıqlı şəxsi heyəti, müvafiq təşkilat strukturu, hərbi texnikanın inkişafı kimi amillərə əsaslanan yüksək döyüş qüdrətini təmin etməklə nail olunur. Dövlət **O.**-nun müharibə, silahlı mübarizə aparmaq iqtidarına arxalanaraq, ondan həm də xarici və daxili siyasət aləti kimi istifadə edir.

O. siyasi qurum kimi ictimai həyat səhnəsində dövlətin yaranması ilə meydana çıxmış, dövlətin ayrılmaz ünsürü kimi ən qədim dövrlərdə yaranmış, əsrlər boyunca inkişaf edib təkmilləşmişdir.

O. dövlət orqanı kimi cəmiyyətdən bilavasitə və üzvi asılıdır. Bütün ictimai münasibətlər - siyasi, iqtisadi, sosial, mənəvi münasibətlər **O.**-da bu və ya digər şəkildə əksini tapır. Son nəticədə **O.**-nun vəziyyəti hərbi-texniki səviyyəsi, şəxsi heyətin keyfiyyəti və hazırlığı, təşkilat strukturu, hərbi nəzəriyyənin və elmin inkişafı ictimai münasibətlərin xüsusiyyətləri ilə müəyyənləşdirilir.

Dövlətin aləti, onun sosial-siyasi siması olan **O.** siyasi üstqurumun ünsürü kimi nisbi müstəqilliyə malikdir. Bu, hər şeydən əvvəl, **O.**-nun təyinatında (yəni yaradılmasının ümumi məqsədində), funksiyalarında (fəaliyyətinin əsas və daimi istiqamətlərində) və vəzifələrində (fəaliyyətinin, o cümlədən qeyri-funksional fəaliyyətinin daha tipik və konkret növlərində) təzahür edir.

O.-nun yaranması və inkişafı qanunauyğun prosesdir. **O.**-nun inkişafının tabe olduğu qanunauyğunluqların iki qrupu haqqında danışmaq olar. Bunlardan biri siyasi qurum kimi ümumən **O.**-nun, onun ayrı-ayrı tiplərinin və növlərinin, ayrı-ayrı sahələrinin inkişafının, həmçinin bu inkişafın müəyyən sosial-siyasi meyllərinin asılılığını ifadə edən qanunauyğunluqdur. Qanunauyğunluqların bu qrupunun öyrənilməsi ilə müxtəlif ictimai elmlər, o cümlədən politologiya məşğul olur. Ikinci qrupa birinci qrupla yanaşı, **O.**-nun təşkilinin inkişafını onun texniki təchizatını, komplektləşdirilməsini, hərbi idarəsini və i.a. müəyyənləşdirən səciyyəvi, hərbi-texniki qanunauyğunluqlar daxildir. **O.**-nun inkişafının obyektiv qanunauyğunluqlarını dərindən dərk etmək zəminində və hərbi təcrübənin tələblərini nəzərə almaqla ümumən bu və ya digər ölkələrdə **O.** quruculuğunun və hərbi quruculuğun prinsipləri işlənib hazırlanır.

O.-lar siyasi əməllər üçün son dərəcə təhlükəli alətdir. Onların bir çox müharibələrdə, o cümlədən iki dünya müharibəsində iştirak etməsi bəşəriyyətin çox böyük qurbanlar verməsinə və ağır sarsıntılar keçirməsinə səbəb olmuşdur. Nüvə dövrünün başlanması, bir çox müasir **O.**-ların nüvə silahı və kütləvi

qırğın silahlarının digər növləri ilə təchiz olunmaları aydın göstərir ki, indi hər hansı müharibə nəinki təkcə müharibə aparan tərəflərin, həm də bütün sivilizasiyanın məhvi ilə nəticələnə bilər. Məhəlli müharibələr də son dərəcə təhlükəlidir. Belə müharibələr müasir şəraitdə bir çox dövlət və xalqları öz orbitinə cəlb etməklə dünya miqyaslı müharibəyə çevrilə bilər.

O.-nun gələcəyi müharibənin siyasi problemlərin həllinin real vasitəsi kimi nə qədər qalacağından əsaslı surətdə asılıdır. Bəşəriyyət artıq başa düşmüşdür ki, müasir real şərait müharibə təhlükəsi mütləq aradan qaldırılmalıdır və bunun üçün indi imkanlar da vardır. Məsələ həmin imkanları mümkün qədər daha tez həyata keçirməkdən ibarətdir. Müharibə təhlükəsinin aradan qaldırılması ilə müharibə aparmağın başlıca və həlledici vasitə kimi **O.**-nun zəruriliyi də yox olacaqdır. Müharibələrsiz, ordularsız dünya bəşəriyyətin gələcəyidir.

"ORUELLİZM" (ing. owellism - dünyada məşhur "1984" antiutopiyasının müəllifi ingilis yazıçısı C.Oruellin adından) - sözlər və ifadələrlə manipulyasiya etməklə həqiqətin təbliğat məqsədilə təhrif edilməsi. Məs, "Müharibə - sülh deməkdir" və i.a.

Ö

ÖLKƏ - dünyada və ya ayrıca regionda (məs, Qafqaz, Orta Asiya, Yaxın və Orta Şərq, Qərbi Avropa ölkələri və s.) siyasi, milli, sosial və mədəni baxımdan dövlət halında təşkil edilmiş birliyi bildirir. **"Ö".** anlayışı dövlət anlayışının sinonimidir, lakin siyasi məzmundan daha çox mədəni-tarixi, yaxud sosial-iqtisadi (inkişaf etmiş **Ö.**-lər, mədəni **Ö.**-lər və s.) məna kəsb edir. Bəzi söz birləşmələrində ,**Ö.** termini müəyyən mənada dövlət anlayışını əvəz edir: "kiçik **Ö.**-lər", "dost **Ö.**-lər" və s.

ÖZƏL - kütləvi, ictimai ümumi və kollektiv olanın əksi - ayrıca, fərdi, şəxsi, xüsusi. "Ü." anlayışı təkcə mülkiyyət münasibətlərini deyil, həm də ailə, dostluq, mənəvi, mədəni, işgüzar münasibətləri və əlaqələri, əməkdən tutmuş istirahətə qədər siyasi, ideoloji, inzibati tənzimləmə ilə məhdudlaşdırılmayan sərbəst fəaliyyət növlərinin bütün məkanını əhatə edir. Özəllik ideyası siyasi münasibətlər tarixində vətəndaş cəmiyyətinin və burjua iqtisadi strukturlarının təşəkkülünün yetkin dövründə (XVIII-XIX əsrlər) yayılmışdır.

Bu ideya yeni tipli şəxsiyyət - vətəndaş konsepsiyasında mərkəzi yerlərdən birini tuturdu. **Ö.** insanı cəmiyyətdən ayırmır və təkləmir, şəxsi mənafe və ictimai mənafe üçün ondan ötrü intensiv və sərbəst inkişaf zonası yaradır. Bu inkişafın maddi əsası mülkiyyətə sahib olmaqdır və K. Marks vətəndaş münasibətlərinin və iqtisadi münasibətlərin formalaşmasında bunun əhəmiyyətini dəfələrlə qeyd etmişdir: şəxsi sərvət üçün məsuliyyət daşımaq, əməksevərlik, işgüzar fəallıq və ictimai sərvətə də beləcə müsbət münasibət tərbiyə etmək. **Ö.**-dən yaranan "özəlləşdirmə" termini özəlliyin məhz bu işgüzar, fəal və məsul yönümünü ifadə edir. Beləliklə, "özəllik" həm sosial, həm iqtisadi, həm etik, həm də mənəvi anlayış olub "xüsusi" anlayışından daha tutumlu və məzmunludur.

ÖZƏLLƏŞDİRMƏ - dövlət mülkiyyətinin bir hissəsinin xüsusi mülkiyyətə verilməsi, yaxud satılması.

ÖZÜNÜİDARƏ - 1) Konstitusiya, yaxud digər dövlət aktları ilə yerli hakimiyyət orqanlarına, onların səlahiyyətinə aid edilən bir sıra məsələlərin müstəqil həlli üçün verilmiş hüquq; 2) yerli hakimiyyət orqanlarının Ü. ilə onlara verilmiş səlahiyyəti reallaşdırmaq sahəsindəki fəaliyyəti; 3) dövlət və ictimai təşkilatların cari inzibati, təsərrüfat, kadr məsələlərinin həllində demokratik seçki prinsiplərinə və seçkilər üzrə rəhbərliyin dəyişilməsinə, kollektiv qarşısında hesabat verməyə, kollektiv daxilində və onun təşəbbüsü ilə rəhbərliyin gücləndirilməsi imkanlarının təmin edilməsinə əsaslanan praktikası. Ö.strukturları digər növbəli və iyerarxiya strukturları ilə qarşılıqlı əlaqələri saxlamaqla qarşıda duran vəzifələri yerinə yetirərkən məqsəd və yollar seçməkdə müstəqildirlər; müxtəlif ictimai struktur və onların tərkib hissələrinin məqsədləri razılaşdırması və bərabər tabeçiliyi ilə əldə olunan belə qarşılıqlı əlaqəsi olmazsa Ü. xaos meyllərinin güclənməsinə və ictimai sistemin dağılmasına gətirib çıxara bilər.

P

PABLİK RİLEYŞNZ (ing. rublik relations - camaatla əlaqə) - dövlətin və digər təşkilatların xalqla əlaqəni möhkəmləndirmə sahəsində ixtisaslaşdırılmış fəaliyyəti. **P.r.**-i həyata keçirən təşkilatlar, o cümlədən, adamlar, sosial qruplar, onların təşkilatları arasında qarşılıqlı anlaşma və xeyirxahlıq münasibətləri yaradılmasını təmin edir. **P.r.** izahat materialının yayılması, informasiyanın təqdim olunması, münasibətlərin etibarlı xarakterini təqlid edən əlaqələr yaradılması ilə həyata keçirilir.

P.r. dövlət idarəçilik fəaliyyətinin mühüm tərkib hissəsidir və idarə edənlə və idarə olunan yarımsistemləri təşkil edənlər arasında qarşılıqlı əlaqəni, həmçinin, onların iş prosesini təmin edir.

P.r.-nin elmi əsasları bu fəaliyyətin subyektini, onların vasitəsilə həyata keçirilən siyasi səylərin mühümlüyünü dərk edən, adamlar üçün məna kəsb edən məlumat mənbələrini aşkara çıxaran, bu və ya digər siyasi fəaliyyətlər, yaxud cəmiyyətin vəziyyəti barədə əhalinin rəyini öyrənən, əməkdaşlıq üçün xeyirxahlıq və hazırlıq dərəcəsini anlayan dairəsini müəyyənləşdirməyə imkan verən metodikalarla təchiz edir. Bu metodikalardan istifadə olunması dövlət orqanlarına və digər orqanlara onların fəaliyyəti, bununla bağlı planlar və bunların həyata keçirilməsi barədə müntəzəm olaraq məzmunlu informasiya verməsini təmin edir. Siyasi rəhbərlik, xüsusən maarif işinin həyata keçirilməsində maraqlıdır, çünki onun vasitəsilə əhali qüvvə də olan **P.r.** qanunvericiliklə tanış olur: bu, hüquqi dövlətdə daxili siyasəti həyata keçirməyə şərait yaratmaq üçün vacibdir.

PANİSLAMİZM - dini-siyasi ideologiya, əsasını sosial, milli, yaxud dövlət mənsubiyyətindən asılı olmayaraq bütün dünya müsəlmanlarının mənəvi birliyi və onların ali ruhani başçı-xəlifənin hakimiyyəti altında siyasi birləşməsinin zəruriliyi haqqında təsəvvürlər təşkil edir.

XIX əsrin 2-ci yarısında

meydana gəlmişdir. İlk ideoloqu Cəmaləddin əl əfqanidir (1838-1897). İlk əvvəl məqsədi müsəlman xalqlarını Britaniya müstəmləkəçiliyindən xilas etmək, onların uğrunda antiimperialist mübarizəsini əsaslandırmaq olmuşdur. P. İslamın bəzi xüsusiyyətlərinə istinad edir. Məs., İslamda əvvəldən dindarın etnik, yaxud, irqi mənsubiyyətinə fərq qoyulmamışdır; dövlətçilik dini birlik kimi qələmə verilirdi; Allahla dindar arasında din xadiminin simasında vasitəçiliyin zəruriliyi nəzəri cəhətdən inkar edilirdi.

Əfqani müsəlman xalqlarının adından çıxış etsə də, fəaliyyəti onların mənafeyini yadelli hökmranlığından azad olmağa nə dərəcədə səy göstərmələri səviyyəsində ifadə olunurdu. Lakin İslama etiqad edilən ölkələrdə tarixi, sosial-iqtisadi və siyasi şəraitin real rəngarəngliyi ona gətirib çıxardı ki, P. müxtəlif sosial qüvvələr, o cümlədən feodal-klerikal dairələri tərəfindən öz mövqelərini möhkəmləndirmək və feodal müstəqilliyini saxlamaq üçün istifadə edildi. P.-in nəticələrinin birmənalı olmaması da buradan irəli gəlir.

Əfqaninin və onun silahdaşlarının XIX əsrin sonunda Misirdəki fəaliyyəti aşkarcasına azadlıq xarakteri daşıyırdı. Onlar millətçiliyi inkar edərək bütün müsəlmanların ya Misir hədivinin, ya İran şahının, ya da Türkiyə sultanının başçılığı altında müsəlmanların birliyi uğrunda çıxış edirdilər. Müsəlman hakimlərinin köməyini onlar olsa-olsa yalnız müsəlman xalqlarının qurtuluş vasitəsi hesab edirdilər. Hindistanda müsəlman xalqlarının xilafət hərəkatı da buna oxşar mövqelərdə dururdu. 1908-ci ildə Gənc türklər inqilabının qələbəsindən sonra P. türkizm və pantürkizmlə yanaşı ittihad və Tərəqqi partiyasının rəsmi ideologiyasının tərkib hissəsinə daxil oldu. Gənc türklərin fəaliyyəti genişləndikcə P. getdikcə daha çox digər müsəlman xalqları üzərində Türkiyənin başçıl rolunun qanuniliyini əsaslandırmaq üçün istifadə edilirdi.

Rusiyada P. türkizmlə yanaşı, cədidizmin - bəzi müsəlman xalqlarının Rusiya mütləqiyyətinin hökmranlığından azad olmaq, siyasi islahatlar,

mədəni-dini ənənələrin saxlanması və inkişafı uğrunda mübarizə aparan burjua-liberal hərəkatının əsasını təşkil etdi. Car Rusiyası müsəlmanlarının mənafe birliyini ifadə edən P. müsəlmanlar arasında sosial ziddiyyətlərin və müsəlman xalqları, dövlətlərinin arasında iqtisadi ziddiyyətlərin olmaması barədə xülyalar yayırdı. Eyni zamanda P. ideyası müsəlman xalqlarının müsəlman olmayanlarla hər hansı mənafe birliyini istisna edirdi ki, bu da onların azadlıq mübarizəsində səylərini birləşdirməyə mane olurdu. 1917-ci il oktyabr çevrilişindən sonra P. Zaqafqaziya və Orta Asiya millətçilərinin şüarlarından biri oldu. Hindistanda XIX əsrin sonunda meydana gələn müsəlman separatçılığı ideologiyası müsəlmanların dini birliyinin dövlət, yaxud milli birlikdən üstünlüyü haqqında fikirlər panislamist ideya ilə yaxınlaşdı. P.-in bəzi tərəfdarları İslamın və xristianlığın mənəvi qohumluğuna istinad edərək ingilis müstəmləkəçilərinə qarşı mübarizəni qanundankənar elan etdilər: digərləri isə əfqaninin xəttini davam etdirərək, azadlıq mübarizəsinin zəruri olduğunu təkidlə bildirir, bu məqsədlə digər dini icmaların nümayəndələri ilə ittifaqa daxil olmağı belə düzgün sayırdılar. Lakin dini əsasın xüsusi qeyd edilməsi ona gətirib çıxardı ki, P.-in ilk əvvəl millilik əleyhinə istiqaməti müsəlman millətçilik ideyası şəklini aldı və Hindistanda iki millətin - hinduların və müsəlmanların mövcudluğu tanındı.

II Dünya müharibəsindən sonra P. azadlıq xarakterini əsasən itirdi; kapitalizmə qədərki quruluşların idealizə edilməsi və mürtəce feodal qalıqlarının mühafizə olunması üçün tez-tez istifadə edilir. Obyektiv olaraq "üçüncü dünya" ölkələrinin həmrəyliyinə mane olur, çünki hər dəfə bu və ya digər ölkənin müsəlman dünyasında imtiyazlı vəziyyəti haqqında iddialarla, bəzən isə İslamı digər ölkələrə yaymağın zəruriliyini əsaslandırmaqla müşayiət olunur.

Son vaxtlarda P. bir qədər dəyişmişdir. Bir qayda olaraq, o, islam həmrəyliyinə, dünyanın müsəlman olmayan hissəsinin hər hansı müqavimətinə qarşı dayana bilən beynəlxalq müsəl-

man təşkilatlarının yaradılmasına çağırışlarla fəaliyyətini davam etdirir. Lakin belə təşkilatlarda da ayrı-ayrı ölkələr müxtəlif bəhanə, yaxud tövsiyyələrlə xüsusi rol oynamaq iddisındadırlar, məs, bir ölkədə islamın xüsusi saflığını qoruyub saxlamaq (Səudiyyə ərəbistanı).

PANSLAVİZM - slavyan ölkələrində, o cümlədən Rusiyada ictimai-siyasi fikir cərəyanı; Rusiyada slavyan dövlətlərinin birində, və ya qrupunda, yaxud slavyan ölkələrinin bütün kompleksin də meydana gələn kəskin ictimai-siyasi problemlərin etnik əsasda həlli üçün slavyan xalqlarını birləşdirmək cəhdləri özünü dəfələrlə göstərmişdir. Müxtəlif tarixi dövrlərdə P.cürbəcür siyasi çalar və bir-birinə oxşamayan sosial istiqamətdə özünü büruzə vermiş, rəsmi və demokratik dairələrin baxışları ilə mürəkkəb qarşılıqlı münasibətlərdə olmuş, slavyan dövlətlərinin ictimai-siyasi həyatında qeyri-ardıcıl, qeyri-sabit, ziddiyyətli hadisə kimi təzahür etmişdir. Gah zəifləyən, gah da güclənən P.müxtəlif vaxtlarda ayrı-ayrı ölkələrdə mühüm qüvvəyə çevrilərək, təkcə millətçi əhval-ruhiyyəli ziyalıları deyil, həm də xalq kütlələrini əhatə etmiş və bu günədək yaşamışdır.

P. XVIII əsrin sonu - XIX əsrin əvvəlində əvvəlcə Cexiyada, Xorvatiyada, Serbiya və Cernoqoriyada meydana gəlmişdir. Slavyan birliyi ideyası çex milli hərəkatının xadimləri Y.Dobrovski, P.Şafarik, xorvat siyasi xadimi L.Qay və onlarla bağlı olan illirizm hərəkatı tərəfindən irəli sürülmüşdür. Serb maarifçisi V.Karaciq və çernoqor maarifçisi P.Neqoş bu ideyanı formaca dəyişərək ona açıq ifadə olunan ruspərəst xarakteri vermişlər. Yadellilərin zülmü şəraitində bu birləşdiricilik ideyaları cənub və qərb slavyanlarının siyasi istiqlaliyyət qazanmaq səylərini və mübarizənin iki meylini əks etdirirdi: məzlum slavyan xalqlarının birləşmiş qüvvələrinə arxalanmaq, yaxud kömək üçün yeganə müstəqil slavyan dövləti olan böyük Rusiyaya müraciət etmək. Bu dövrdə P.mütərəqqi, demokratik xarakter daşıyırdı ki, bu da öz idafəsini, xüsusilə, cənub və qərb slavyan nümayəndələrinin dekabristlərlə sıx əlaqəsində, bilavasitə isə Birləşmiş slavyanlar cəmiyyətinin və Kiril-Mefodi cəmiyyətinin fəaliyyətində tapmışdı.

Rusiyada P. XIX əsrin 30-cu illərinin sonunda yaranmışdır. I Nikolayın çarlığı dövründə geniş yayılmış rəsmi xalq nəzəriyyəsi çərçivəsində slavyanların digər xalqlardan üstünlüyü və Rusiyanın qismətinə slavyan dünyasının hegemonu olmaq vəzifəsinin düşdüyü şovinist tezisi irəli sürüldü. Sonralar P.ideyaları slavyanofillərin ictimai-siyasi baxışlarında inkişaf etdirildi. Bununla belə, qeyd etmək lazımdır ki, slavyanofillik rus ictimai fikrinin daha geniş cərəyanı idi və burada P.heç də başlıca yer tutmurdu; bu, bir növ daha çox millətçi əhval-ruhiyyəli rus ziyalılarının müstəqil, tamamlanmış ideyaya deyil, cənub və qərb slavyanlarının siyasi və milli istiqlaliyyət uğrunda mübarizəsinə şəxsi rəqabətinin ifadəsi idi.

Adlarının əksinə olaraq slavyanofillər özlərinin əqidələrinə və fəlsəfi-sosial baxışlarına görə, əsasən, rusofil olub onların nəzəri araşdırmalarının mərkəzində heç də slavyan dünyası deyil, demək olar ki, müstəsna qaydada Rusiya durur, onda əlahiddə, slavyan, şərq ruhunun təcəssümünü görür, onu Qərb rasionalizminə qarşı qoymaqla, bu məsələdə qərbçilərlə (Gertsen, Belinski, Qranovski) daban-dabana zidd mövqedə dururdular. Slavyan məsələsinin özündə slavyanofillər bir halda (K.S.Aksakov) liberal-demokratik dəyişikliklər zəminində, digər halda (İ.S.Aksakov) isə mütləqiyyəti möhkəmləndirmək məqsədilə slavyan xalqlarının Rusiyanın himayəsi altında birləşməsi uğrunda çıxış edirdilər. Rusiyanın hakim dairələri slavyanofillərin panslavist baxışlarına səbrlə yanaşırdı, lakin o dövrdə P.doktrinasının böyük hissəsi çarizmin həll etdiyi mürəkkəb xarici siyasət məsələlərinə uyğun gəlmirdi.

XIX əsrin 50-ci illərində Rusiya-Polşa münasibətlərinin kəskinləşməsi və Rusiyanın Krım müharibəsində məğlub olmasının təsiri altında P.ideyaları slavyan meylləri ilə toqquşdu. 80-ci illərin əvvəllərindən P.Avstriya vilayətlərinin Almaniyaya birləşdirilməsi zəruriliyini və alman irqinin

üstünlüyü nəzəriyyəsini əsaslandıran şovinist pangermanizm doktrinası ilə qarşı-qarşıya gəldi. Birinci dünya müharibəsinin əvvəllərində Rusiyanın hakim dairələri slavyan birliyi ideyalarından öz məqsədləri üçün istifadə etməyə çalışaraq, P.-i dirçəltməyə, müharibədə özlərini mütləqiyyətçi təkəbbürlərini slavyan qardaşların müdafiə etmək çağırışları ilə pərdələməyə cəhd göstərdilər. Müharibə dövründə P. əslində konstitusiyaçı demokratlar partiyasını yaratmış rus liberal-demokratik ziyalılarının rəsmi ideologiyası oldu.

K.Marks, F.Engels, V.İ.Leninsanları və xalqları milli zəmin üzərində birləşdirən digər ideyalar kimi P.-ə də müəyyən diqqət yetirmiş, ona tənqidi yanaşmışlar. Xüsusilə V.İ.Lenin P.-i sinfi mövqelərdən təhlil edərək, ona Rusiyanın ictimai-siyasi həyatında mənfi hal kimi baxmışdır. O, P.-də siyasi hiylə görür və göstərirdi ki, onun köməyilə çar diplomatiyası mütləqiyyətin mövqelərini möhkəmləndirmək və özünün şovinist təkəbbürünün ehtiyaclarını ödəmək məsələlərini həll edirdi. V.İ.Leninə görə, sosial-demokratiyanın nüqteyi-nəzərincə, böyük rus, P. şovinizmi ilə mübarizə *çar monarxiyasına qarşı* ümumi mübarizənin vahid kompleksində, həm bu, həm də digəri məhv edilənə qədər aparılmalıdır. P. keçmiş Sovet ittifaqının slavyan ölkələri ilə münasibətlərində də üstünlük təşkil etmişdir, digər sosialist ölkələri ilə birlikdə bu dövlətlərdə də radikal dəyişikliklərin təşviq edilməsində reallaşdırılmışdır.

P.-in müəyyən əlamətləri SSRİ-nin konkret ölkələrlə (məs. Bolqarıstanla) ikitərəfli münasibətlərində istisna halında da olsa özünü göstərmiş, bəzən isə xüsusi qardaşlıq münasibətləri kimi nəzərə çarpdırılmışdır. Elə bu gün də ayrı-ayrı panslavist ideyaları bəzi hallarda *mətbuatda*, küləvi informasiya vasitələrində, slavyan dövlətlərinin elm və yaradıcı ziyalıları nümayəndələrinin, (bu *mənada* A.İ.Soljenitsın daha çox fərqlənir) çıxışlarında özünə yer tapa bilir.

PANTÜRKİZM - türk xalqları arasında ictimai-siyasi fikir cərəyanı; P.-ə görə, vahid türk milləti mövcuddur və türk

dillərində danışan bütün xalqlar onun tərkibinə daxildir. Həm də bu xalqların hamısı, vahid dövlətin *tərkibinə daxil olmalıdır*. XIX əsrin sonu - XX əsrin əvvəlində bəzi türkdilli xalqlar arasında, o cümlədən Rusiyada, bir tərəfdən, yaranmaqda olan milli burjuaziyanın, digər xalqların burjuaziyasından, Rusiyada isə çar hökumətinin siyasətindən öz təhlükəsizliyini təmin etmək, digər tərəfdən isə, öz millətinin zəhmətkeşlərinin digər xalqların zəhmətkeşləri ilə yaxınlaşmasına yol verməmək səylərinin ifadəsi kimi yaranmışdır.

XX əsrin əvvəlində Türkiyədə milli burjuaziyanın təşəkkülü türkizm ideologiyası ilə müşayiət olunan P. ideyalarının geniş yayılmasına səbəb oldu. Tarixən təşəkkül tapmış Türkiyə torpaqlarında müstəqil milli dövlət yaratmaq tələblərindən, milli mədəniyyətin inkişafı uğrunda *hərəkatdan ibarət* türkizmdən, yəni Türkiyə burjuaziyasının müsbət millətçiliyindən fərqli olaraq P. qeyri-türk xalqlara etinasız, bəzən isə, hətta qeyri-bərabər münasibəti nəzərdə tutur, türklərin milli və mədəni müstəsnalığını təblir edir.

Lakin P. konkret olaraq heç bir türkdilli xalqın mənafeyini ifadə etmir, çünki, birincisi, guya mifik türk millətinin, əslində isə milli birliyi deyil, yalnız dil birliyi olan xalqların ümumi mənafelərinin mümkünlüyünə əsaslanır, buna görə də həmin əsas üzərində türkdilli xalqların birləşdirilməsi, onlardan hər biri, o cümlədən türk xalqı üçün milli-mədəni xüsusiyyətlərin itirilməsi ilə nəticələnə bilər; ikincisi, Türkiyənin başçı olmaq iddiası digər türkdilli xalqların ona tabe olmasını bildirirdi ki, bu da Rusiyadan olan bəzi pantürkistləri narahat edir və bütövlükdə türk xalqı haqqında xoşagəlməz imic yaradırdı.

P.-in məqsədlərinin ziddiyyətli olması onun öz sosial təbiətindən irəli gəlirdi: Türkiyə milli burjuaziyası özü ikili vəziyyətdə olub, bir tərəfdən, ölkəsində milli qurtuluşa və feodalizmin qalıqlarını aradan qaldırmağa, digər tərəfdən isə, təkcə türkdilli xalqları deyil, Osmanlı imperiyasının bütün xalqlarını (burada P.osmançılığa yaxınlaşırdı) və ümumiyyətlə, müsəl-

man xalqını (burada P. panislamizmə yaxınlaşırdı) birləşdirməyə səy göstərirdi.

P.-in möhkəmlənməsinə bəzi xarici amillərin də köməyi olmuşdu: XIX əsrin ikinci yarısında Avropada yayılan pangermanizm ideyaları almantürk yaxınlaşması baş verdikcə Türkiyəyə nüfuz edir, P.-in mövqelərini gücləndirirdi; öz əsərlərində türk xalqlarının mənşəyinin fin-uqorlarla, monqollarla, mancurlarla və b. ilə ümumiliyini əsaslandıran Qərbi Avropa şərqşünasları da bu işə kömək göstərirdilər. Nəticədə P.ideyası özünün yeni növünü - panturanizmi yaratdı; bu ideya isə ərazisində təkcə türkdilli xalqların deyil, həmçinin macarların, finlərin, monqolların və bir sıra başqalarının da yaşadığı Turanın bütün əhalisini birləşdirməyi irəli sürürdü.

P. ideologiyası türkizm və panislamizmlə birgə 1908-ci il Gənc türklər inqilabından sonra ittihad və və Tərəqqi partiyasının rəsmi ideologiyası oldu. Gənc türklər əvvəlcə Osmanlı imperiyasının digər xalqlarının türk sultanı istibdadına qarşı mübarizəsinin qanuniliyini inkar etmir və hətta onların təşkilatları ilə əlaqələr saxlayırdılar, lakin P.Əbdülhəmid devrildikdən sonra onların fəaliyyətində türkizmin ziyanına P. meylləri üstünlük təşkil etdi ki, bu da başqa xalqların mədəni inkişafına mənfi münasibətdə və onların muxtariyyət hüququnun inkar edilməsində öz ifadəsini tapdı.

1918-1923-cü illərdə Kamalçılar inqilabının gedişində və xüsusən onun qələbəsindən sonra P. rədd edildi, halbuki türkizmin müddəalarından Atatürkün yaratdığı Xalq Cümhuriyyət Partiyasının proqramı tərtib edilərkən istifadə olundu.

Türkiyənin millətçi dairələri P.-ə münasibətdə Atatürkün qeyri-ardıcıl mövqeyindən, onun ölümündən sonra adından istifadə etməklə P.ideologiyasını həyata keçirmək üçün istifadə etdilər.

PARİTET (alm. raritet, lat. rarites - bərabərlik) - siyasətdə: eyni vəziyyət, bərabərlik.

PARLAMENT (ing. rarliament, fr.rarlement, rarler - danışmaq sözündəndir) - əhalinin əsas sosial və siyasi cəhətdən fəal qruplarının təmsilçiliyini həyata

keçirən ali qanunverici orqan; bəzən P.-də təmsilçilik qismən təyinatla həyata keçirilir.

PARLAMENT PARTİYALARI - parlamentarizm şəraitində (yəni parlamentin özündə, həmçinin yerli, kommunal, bələdiyyə, əyalət, məhəlli və i.a. nümayəndəli orqanlarda) öz fəaliyyətini parlamentdə işləmək istiqamətində qurmuş partiyalar.

P.p.-nın müxtəlif tipləri mövcuddur. Klassik **P.p.** təmsilçilik sistemi rolunun yüksək olduğu yerlərdə fəaliyyət göstərirlər. Bununla belə, partiya və təmsilçilik sistemlərinin bir-birinə qarşılıqlı nüfuz etməsinin müxtəlif forma və dərəcələrində əməli olaraq rast gəlinir: bəzi hallarda dövlət strukturları partiya strukturunu, tamamilə özlərinə tabe edirlər (hətta birpartiyalı sistemdə belə). Digər hallarda isə partiya (bir qayda olaraq, yeganə leqal) təkcə siyasi cəhətdən deyil, iqtisadi və ideoloji cəhətdən də dövləti özünə tabe edir.

Klassik P.p. (ABŞ-ın Respublikaçılar və Demokratlar partiyaları, Böyük Britaniyada Mühafizəkarlar partiyası və bəzi başqaları) müstəsna qaydada seçkilərə xidmət etməkdən ötrü, hökuməti yaratmaq və parlamentdə, hökumətdə öz siyasətlərini həyata keçirmək məqsədilə fəaliyyət göstərirlər. Seçki kampaniyası başa çatdıqdan sonra belə partiyaların fəaliyyəti əməli olaraq kəsilir. Bu partiyaların dəqiq üzvlük sistemi yoxdur (yəni daha çox hərəkatlara bənzəyirlər), könüllü fəalları seçilmiş şəxslərin, bələdiyyə idarələri başçılarının və i.a. ətrafında qruplaşırlar. Partiyanın strukturu seçki dairələrinin və məntəqələrinin strukturuna uyğunlaşdırılır. Nizamnaməyə və ənənəyə müvafiq olaraq müxtəlif səviyyəli deputatlar bütün, o cümlədən partiyadaxili problemlərin həllində çox geniş səlahiyyətlərdən istifadə edirlər. Bir qayda olaraq, parlament qrupu tərəfindən seçilən partiya lideri onun qarşısında məsuldur. Bu tipli partiyalar əksər hallarda ciddi mərkəzçilik prinsipləri əsasında qurulur. Son illərdə belə partiyalarda obyektiv proseslərin proqnozlaşdırılmasına və siyasətin planlaşdırılmasına daha çox diqqət yetirmək ənənəsi

özünü göstərməkdədir. Lakin bu iş, bir qayda olaraq, partiyanın nizamnamə ilə seçilən orqanları tərəfindən deyil, çox vaxt rəqabət aparan partiyalara eyni zamanda xidmət göstərən müxtəlif xüsusi klublar, qruplar, assosiasiyalar, ixtisaslaşdırılmış politoloji firmalar tərəfindən həyata keçirilir.

P.p.-nın ikinci əsas tipinə parlament işinə siyasi fəaliyyətin istiqamətlərindən biri kimi baxan partiyalar aiddir. Onların partiya təşkilatlarının daimi, nisbətən sabit üzvlük sistemi vardır. Həmkarlar ittifaqları və digər kütləvi təşkilatlar onlara yaxınlaşır, yaxud əlaqə saxlayırlar. Bu tipli partiyaların partiya işlərində parlament fraksiyaları kifayət qədər mühüm rol oynasalar da, deputat korpusu ilə az əlaqədardırlar; sırf partiya orqanları, yığıncaqlar, komitələr, konfranslar, qurultaylar daha geniş hüquqlara malikdir. Seçki kampaniyalarının yekunları siyasətin düzgünlüyünün və kadrların seçilməsinin başlıca meyarı kimi qiymətləndirilir; seçkilərdə mərlubiyyət həm siyasətin, həm də siyasi heyətin əhəmiyyətli dərəcədə dəyişiklikliyi ilə müşayiət olunur.

Bu ikinci tip partiyaların bəziləri sanki üç müxtəlif əsas üzərində qurulmuşdur, partiya strukturu, deputat korpusu, həmkarlar ittifaqları və digər kütləvi təşkilatlar.

70-80-ci illər ərzində bu tipli partiyalarda, bir tərəfdən, parlament qruplarının zərərinə partiya strukturlarının rolu nisbətən küclənmiş, digər tərəfdən isə aşkar surətdə amerikalılaşma, yəni işin əslində onların formal kütləvi üzvlük sistemi, ideoloji proqramı olmayan hərəkata çevrilməsi, praqmatizmin rolunun güclənməsi prosesi baş vermişdir. Beynəlxalq inteqrasiya bu tipli partiyaları qərarlar işlənib hazırlanması prosesini xeyli səmərəliləşdirməyə və köhnə, ənənəvi praqmatizmin dar çərçivələrini aradan qaldırmağa məcbur etmişdir.

Lakin onların əsas rəqiblərində meydana gəlmiş yeni mühafizəkarlıq ənənəsi mərkəzçilik, yaxud sol mərkəzçilik siyasəti çərçivəsində mövcud sistemin nisbətən dinamik sabitliyinin təmin edilməsi şərtlərinin axtarışları sahəsində partiyaların fəaliyyətini çətinləşdirmişdir. Bu mənada İspaniya və Fransanın sosialist partiyaları istisnadırlar.

P.p.-nın üçüncü tipinə parlament fəaliyyətinə işin ikinci dərəcəli istiqaməti kimi baxan partiyalar aiddir. Bunlar kommunist partiyalarıdır.

Hazırda Qərbi Avropada kadrlara və təcrübəyə malik olmalarına baxmayaraq, kommunist partiyalarının əksəriyyəti II Dünya müharibəsindən sonra qazandıqları parlament və bələdiyyə təmsilçilərini itirmişlər.

Nəhayət, parlamentlərdə işləməkdən imtina edən, hətta seçkilərdə iştirakı, bəzi ideallara xəyanət, onlar tərəfindən rədd edilən "sistemin" inteqrasiyası kimi baxan antiparlament partiyaları da vardır. Bu tipə spontanest adlanan təşkilatlar (o cümlədən, 1968 ilin mayında Fransada yaranmışdır), həmçinin bəzi mərhələlərdə Almaniyadakı "yaşıllar" və digərləri daxildir.

ABŞ **P.p.**üçün 400-500 nəfərlik tərkibdə seçicilərin özünəməxsus komitələri (məhəllə və məntəqələr) təşkilatı əsas sayılır. Başda duran yoxlanmış fəal - "kapitan" iki əsas üsulla - xırda maddi və sırf kommersiya xidmətləri ilə, həmçinin özünün siyasi sadiqliyi əsasında partiyanın seçicilərlə daimi əlaqəsini təmin edir.

Amerika partiyaları nüfuzlular, kadr partiyaları olaraq qalırlar. Burada əsas qərarları yuxarıdan təyinat yolu ilə komitələri yaradılan "tanınmış şəxslər" qəbul edirlər. Onlarda intizam kifayət qədər möhkəmdir: "kapitanlar" yerli komitənin göstərişlərini ciddi yerinə yetirirlər. Doğrudur, ştat səviyyəsində intizam zəifləyir, milli səviyyədə isə əsdində mövcud olmur.

ABŞ seçki sisteminin başlıca xüsusiyyəti seçkilərin iki pilləli olmasıdır: bunlar, hər partiyanın sanki "namizədliyə namizədlər" irəli sürdükləri ilkin seçkilərdir /praymeriz/. Bütün seçicilər, təbii ki, bunu arzu edənlər, səs verirlər. Seçkilərin özü üçün hər iki partiyadan daha çox səs toplamış namizədlər irəli sürülürlər. Amerika sisteminin digər səciyyəvi cəhəti onun şəxsləşdirilməsidir. Hər bir seçici təkcə hansı deputatlığa namizədlə deyil, həm də hansı prezidentə səs verəcəyini bilir, halbu-

ki seçkilər bir gündə baş verir.

İngilis seçki sistemi amerika modelindən bir qədər fərqlənir. Məs. Böyük Britaniyanın Mühafizəkarlar partiyasının strukturu seçki prinsipini ciddi gözləyir. Seçki dairəsinin Assosiasiyası əsas həlqə sayılır; assosiasiyaların sayı seçki dairələrinin sayına, yəni həm də nümayəndələr palatası deputatlarının sayına uyğun gəlir. Assosiasiya hər il deputatın (yaxud deputatlığa namizədin) hesabatını dinləyir. Seçkiqabağı işi həyata keçirmək üçün müxtəlif yarımkomitələr yaradılır: maliyyə, qadın, siyasi maarif, yerli özünüidarə, təblirat və i.a. Assosiasiya, mərkəzlə razılaşdırmaqla namizədlər irəli sürür. əməli iş hər bir seçki məntəqəsində fəaliyyət göstərən özəklər tərəfindən həyata keçirilir. Özək "bloklara", yəni evlərin qrupuna müvafiq gələn qruplara bölünür: onlarda yaşayan partiya üzvləri yuxarıdan təyin olunan fəal tərəfindən birləşdirilir. Fəal ədəbiyyatı yayır, müsahibələr keçirir, partiya mitinqlərinə dəvət edir. Bir qayda olaraq, Mühafizəkarlar partiyasında belə fəallar rolunda çıxış edənlər yerli dükançılardan, xırda sənayeçilərdən, dövlət məmurlarından ibarət olurlar.

İngilis parlament və partiya strukturlarının sıx əlaqəsi mərkəzi səviyyədə də nəzərdə tutulur. Məs., Mühafizəkarlar partiyasının hər il keçirilən konfransı onun bir illik fəaliyyətinə qiymət verir, siyasət və təşkilat məsələlərinə dair qətnamə qəbul edir. Konfransın tərkibi səciyyəvidir. Bu, lordlar və nümayəndələr palatalarında bütün mühafizəkar deputatların yığıncağında seçilən partiya lideri, qarşıdan gələn seçkilərdə icraiyyə Komitəsi üzvlüyünə nəzərdə tutulan namizədlər, partiyanın digər məsul işçiləri, hər bir Assosiasiyadan yeddi nümayəndə, hər iki palatanın parlament fraksiyasının üzvləri, partiyadan nümayəndələr palatasına rəsmi bəyənilmiş namizədlərdir. Formal olaraq konfransın qərarları lider üçün icbari deyildir, lakin bu qərarların mənəvi sambalı az deyil. Belə bir cəhət də diqqəti cəlb edir ki, deputatlar və deputatlığa namizədlər əvvəllər lider seçkilərində iştirak etsələr belə, bu partiyada rəsmi status alırlar və haqlı olaraq ali orqanda nümayəndəliyə malik olurlar.

Böyük Britaniyanın Mühafizəkarlar partiyasında konfransla yanaşı, liderin yanında məşvərətçi orqan sayılan Mərkəzi Şura fəaliyyət göstərir. Bu şurada digərləri ilə birlikdə lordlar palatasının bütün üzvləri, həmçinin potensial namizədlər iclas keçirirlər. Şura iclasları arasındakı müddətdə fəaliyyət göstərən icra Komitəsində bütün parlament fraksiyaları təmsil olunmuşlar. icra Komitəsinin mühüm bölmələrindən biri parlament, namizədlər üzrə daimi məşvərət komitəsidir. Bu və ya digər namizədin qəbul olunmasının diqqətlə yoxlanması, tərcümeyi-hal arayışları ilə namizədlərin siyahısının tərtib olunması, bu siyahıların Assosiasiyaya göndərilməsi onun səlahiyyətlərinə daxildir. Komitədə partiyanın parlament təşkilatçıları geniş təmsil olunmuşdur.

Mühafizəkarlar partiyasının rəhbər orqanı liderin nəzarəti altında olan Mərkəzi bürodur. Büronun ən mühüm orqanlarından biri Mühafizəkarlar partiyasının parlament fraksiyası katibliyinin funksiyasını yerinə yetirən Tədqiqat şöbəsidir.

Beləliklə, Mühafizəkarlar partiyasının strukturunda parlament fraksiyaları, deputatlar, hətta deputatlığa namizədlər daimi və nüfuzlu ünsürlərdir. Onlar bütün səviyyələrdə partiyanın siyasətinə təsir göstərir və onun həyata keçirilməsinə nəzarət edirlər. əslində partiya deputatların parlament fəaliyyəti üçün yardımçı qüvvə kimi çıxış edir.

İkinci tip partiyaya klassik nümunə - parlamentdə tred-yunionların mənafeyini təsmil etmək üçün yaradılmış Böyük Britaniya Leyboristlər partiyasıdır. Bu partiyada parlament fraksiyası həmişə mühüm rol oynasa da, mühafizəkarlarda özünü göstərdiyi kimi böyük olmamışdır; bu rol 70-ci illərdə partiyadaxili mübarizə nəticəsində daha da azaldıldı. (Lakin 90-cı illərin ikinci yarısında olduqca gücləndi.) əsas məsələlər, elə bil ki, "üçlük" səviyyəsində həll edilir: partiya təşkilatlarının, həmkarlar ittifaqlarının, bundan sonra isə - parlament fraksiyalarının nümayəndəlik-

ləri. Leyboristlərin parlament fraksiyası "öz" hökumətinə qarşı çıxış edə bilmir, çünki onun nəzarəti altındadır. Fraksiya lideri seçir və nazirlər kabinetini təyin edir. Müxalifətdə partiya lideri eyni zamanda həm də fraksiyanın sədri olur. Qələbə qazandığı halda lider avtomatik surətdə baş nazir olur.

Böyük Britaniya Leyboristlər partiyası təşkilatca seçki prinsipi üzrə qurulmuşdur. Kollektiv üzvlər istisna olmaqla fərdi leyboristlər bir neçə seçki məntəqəsini birləşdirən küçə komitələrində təşkil olunmuşlar. Komitələrin fəalı ədəbiyyat yayır, rərbət bəsləyənləri aşkar edir. Leyboristlər partiyasının müraciətləri altında imzalar toplayır. Komitənin başlıca vəzifəsi məntəqədəki sakinlərin siyasi meyllərinin mərkəzində durmaqdır. Bu məqsədlə seçicilərin xüsusi kartotekası aparılır. Komitə ayda bir dəfə yerli məsələləri müzakirə etmək üçün yığıncaqlar keçirir. Bu yığıncaqlar məşvərətçi xarakter daşıyır, onların qətnamələri vilayət təşkilatlarına göndərilir. Sonrakı həlqə Mühafizəkarlar partiyasının strukturuna bənzər seçki dairələrinin təşkilidir: fərqli xüsusiyyəti öz tərkibinə həmkarlar ittifaqlarının yerli bölmələrinin və müxtəlif sosialist cəmiyyətlərinin nümayəndələrini də daxil etməlidir. Seçki dairələrinin fəaliyyəti Böyük Britaniya Leyboristlər partiyasının Vilayət Şuraları tərəfindən əlaqələndirilir. Səciyyəvidir ki, vilayət şurasının konfranslarında məşvərətçi səs hüququ ilə parlament deputatları və deputatlığa namizədlər iştirak edirlər.

Böyük Britaniya leyboristlər partiyasının ali orqanı sayılan illik konfransın işində partiya, həmkarlar ittifaqları və onlara qoşulmuş digər təşkilatlardan seçilmiş nümayəndələrdən əlavə vəzifəcə parlament deputatları olanlar da iştirak edirlər. Hərçənd sonuncuların həlledici səsi olmur, lakin onların təsiri böyükdür. Parlamentə və yerli orqanlara seçkilərlə əlaqədar məsələlər konfransın seçdiyi icra Komitəsinin diqqət mərkəzində durur.

Bu tipli parlament meyilləri kontinental Avropanın bir çox partiyalarına - istər sağlara, istərsə də sosial-demokratlara xasdır. Onların ümumi təmayü-

lü kifayət qədər dəqiqdir: onların hamısı seçki dairələri və seçki məntəqələri prinsipi üzrə qurulmuşdur. Mərkəzdə və yerlərdə müxtəlif səviyyəli deputatlar, bələdiyyə rəisləri və digər seçilmiş şəxslər böyük rol oynayırlar, parlament və bələdiyyə fraksiyalarının da rolu böyükdür. Bir qayda olaraq, belə partiyalarda üzvlük kütləvi olmayıb əsasən deputatlarla və seçki kampaniyalarının fəalları ilə məhdudlaşır.

Bu partiyaların istiqaməti və strukturu, öz partiyasının təkliflərini seçici kütlələrinə asan dildə izah edə bilən və onların məhdud-seçki yardımına nail olmağı bacaran təbii liderləri aşkara çıxarmağa və irəli sürməyə yönəldilmişdir; bu, çox vaxt ölkənin, bir, yaxud bir neçə leqislatura müddətində idarə olunması üçün tamamilə kifayət edir.

PARLAMENTLİ RESPUBLİKA - respublika idarəetmə forması; P.r.-da konstitusiyaya (yaxud, keçid dövründə, məs., Böyük Fransa inqilabı zamanı monarxın hakimiyyətdən kənarlaşdırılması, müəssisələr məclisi yaradılması haqqında qərar və s. kimi digər aktlara) əsasən ali hakimiyyət parlamentə məxsus olur. Sonuncu müstəqil qaydada nazirlər kabinetini təşkil edir, baş naziri seçir, konstitusiya nəzarət orqanlarını və digər dövlət institutlarını yaradır. Bir qayda olaraq, müasir parlamentli respublikalarda, əsasən, nümayəndəlik və məsləhətçi funksiyalarını yerinə yetirən, həmçinin parlamentin fəaliyyətinin konstitusiya normalarına müvafiq gəlməsinə nəzarət edən prezidenti də seçir. Müharibədən sonrakı Avropanın tarixi **P.r.**-nın siyasətinin parlamentdəki qüvvələr nisbətinin dinamikasından və onun deputatlarına xaricdən göstərilən təzyiqdən hiss ediləcək dərəcədə asılı olduğunu nümayiş etdirmişdir.

PARTİKULYARİZM /lat. partikula - zərrə, pars - hissə/ - xüsusi və dar qrup mənafelərinin müdafiəsinə istiqamətləndirilmiş sosial və siyasi fəallıq prinsipi. Bu, xüsusi, şəxsi, yaxud qrup məqsədlərinin gözlənilməsində və i.a. özünü göstərir. **P.** iqtisadi, siyasi, mədəni, sosial həyatın zorakı unifikasiyası şəraitində sağlam əsas kimi

də çıxış edə bilər. Termin kimi **P.** öz mənşəyini Roma hüququ ənənələrindən götürür. **P.**-bu, həm də dövlətin ayrı-ayrı hissələrinin və sosial həyatın müxtəlif sahələrinin müstəqilliyinə cəhd, həmçinin şəxsiyyətin muxtariyyətləşməsində, xüsusi mənafeyə dayaq olmağa meyldir ki, fərdiyyəti indoktrinyorluğun pis formasından qoruyur. Dövlətdaxili münasibətlər səviyyəsində **P.** idarəetmədə mərkəzləşmənin zəifləməsi, daxili təsərrüfat və sosial əlaqələrin dağılması son nəticədə separatizm - dövlətin bir hissəsinin tamamilə ayrılması şəkli alan siyasi parçalanma, sosial həyatın müxtəlif sahələrinin - iqtisadiyyatın, mədəniyyətin və i.a. təcrid olunması kimi nəticələrə gətirib çıxara bilər. Eyni zamanda **P.** şəxsiyyətin hüquqi haqqlarının (prayvesi) təmin edilməsini, onun etnik muxtariyyətini nəzərdə tutur; bu planda o demokratik dövlətlərin həyatının səciyyəsinin mühüm hissəsidir.

PARTİYA SİSTEMİ - müasir cəmiyyətin siyasi sisteminin tərkib hissəsi. Siyasi partiyaların dövlətdəki və daha geniş - cə tiyalı sistemlər, bunlar dövlət səviyyəsində iki, yaxud daha çox partiyanın sabit koalisiyaları kimi, təkcə hökumətdə iştirak zamanı deyil, müxalifətdə də müttəfiqlik münasibətlərini saxlayırlar: 5) plüralist istiqamətli çoxpartiyalı sistemlər, bunlarda partiyaların təmayülləri blok siyasətinin üstün variantlarına görə zəifləmişdir (hərçənd, axıra qədər itirilməmişdir). Bu sistemin partiyaları üçün seçki kampaniyalarının təşkilində və keçirilməsində müstəqillik səciyyəvidir və hökumət koalisiyası hər partiyanın rəqabətdə əldə etdiyi nəticələri, seçki kampaniyasında öz müttəfiqlərinin sırasından potensial qalibin xeyrinə qarşılıqlı surətdə öz namizədlərini geri çağırmağa, birgə proqram tələbləri irəli sürməyə və i.a.görə yaranır.

P.s. sosial maraqları və siyasi baxışları strukturlaşdırır, onlara yerli və ümumilli səviyyələrdə ifadə olunmaq imkanı verir, ictimai-siyasi qüvvələri, xüsusilə seçiciləri təşkil edir, onlara nümayəndəli idarələrə deputatlar irəli sürməkdə və göndərməkdə kömək edir. Politoloji nüqteyi-nəzərdən onu demək

olar ki, **P.s.** hakimiyyəti həyata keçirməkdə ikincinin mühüm kanalıdır.

Siyasi dövlət strukturlarının və partiyaların nisbi rolu dəyişə bilər. Dövlət institutlarının kifayət qədər inkişaf səviyyəsinə çatmadığı ölkələrdə **P.s.**, hətta siyasəti həyata keçirməyin başlıca kanalı ola bilər. Bu halda, bir qayda olaraq, birpartiyalı sistem fəaliyyət göstərdiyi zaman, partiya əslində dövlət strukturları ilə qaynayıb qarışır və onları özünə tabe edir, siyasi və bütün ictimai həyat ideoloji̇ləşdirilir, idarəetmənin amirlik metodları üstünlük qazanır, əhali ilə hakimiyyət arasında əks əlaqə pozulur, sistem tez, yaxud gec müvazinətini itirir və böhran vəziyyətinə düşür. XX əsrin təcrübəsi belə sistemlərin nisbi sabitsizliyini göstərmişdir.

Vətəndaşların ictimai fəallığı - mövcud siyasi, iqtisadi və sosial sistemləri tam müdafiə etməkdən onların inkarına və məhv edilmə, (o cümlədən zorakılıq yolu ilə) cəhdlərinə qədər - müxtəlif istiqamət və məzmuna malikdir. Buna müvafiq bu və ya digər kütləvi yardıma arxalanan və hər bir partiyanın kütləvi bazasını təşkil edən ictimai hərəkatlar meydana gəlir. Cəmiyyətin xarakterindən, onun sinfi strukturundan və mənafelərinin subyektiv anlaşılmasından asılı olaraq bu hərəkatların sinfi tərkibi müxtəlif olur. Tarixdə, nadir istisnalarla, təksinifli partiyalar olmamışdır. Bu, hər partiyanın, sinfi qohum hərəkatlarla əməkdaşlığının obyektiv əsasıdır, yenə həmin kütləvi bazaya təsirinə görə rəqibinin nüfuzdan salınması və susdurulması üçün əsas ola bilər.

Bir sıra hallarda qohum ictimai hərəkatlar və onlara müvafiq ideya cərəyanları tək partiyanın çərçivəsində yola gedə bilirlər, digər hallarda onlar müxtəlif təşkilatların yaranmasının əsasını təşkil edirlər. Siyasi təşkilatların birləşməsi, böyüməsi istiqamətində fəaliyyət göstərən, güclü amillər vardır, çünki məhz qüdrətli partiyalar öz vəzifəsini həyata keçirməyə nail olub hakimiyyətə gələ bilər. Təbiidir ki, bu, elə "böyük məxrəc"in, elə məhdudlaşdırılmış sərvətlər sistemlərinin axtarışını tələb edir ki, bunlar imkan daxilində daha

çox fəalları və tərəfdarları birləşdirsinlər. Buradan da partiyaların ideologiyasızlaşdırılmasının, aydın praqmatik yanaşmaların güclənməsinin, onların seçki proseslərinin alətinə çevrilməsinin getdikcə daha aşkar meylləri meydana gəlir.

Hər bir partiyada və partiya sistemində bütövlükdə mürəkkəb mərkəzdənqaçan və mərkəzəqaçan proseslər baş verir, öz ətraflarında daha çox tərəfdarları birləşdirə bilən nüfuz mərkəzləri yaranır. Bundan ötrü bütöv dünyagörüşünü və bitkin sərvətlər sistemini qurban vermək lazım gəlir.

P.s.-nin formal və real xarakterini fərqləndirmək lazımdır. Formal birpartiyalılıq gizli çoxpartiyalılıq ola bilər və yalnız ideoloji, yaxud siyasi zorakılıq sayəsində saxlana bilər. Formal, yaxud yalançı çoxpartiyalılıq, əslində isə müxtəlif üsullarla məharətlə pərdələnən birpartiyalılıq ola bilər. Elə ki, zorakılığa son qoyuldu, siyasi qüvvələrin və rərbət bəsləyənlərin real düzülüşü aşkar olur, əvvəlki P.s. və strukturlar isə böhran vəziyyətinə düşürlər. Bu isə ziddiyyətli situasiyanı, habelə bütövlükdə **P.s.**-ni saxlamaqla inad göstərən partiyalara ağır təsir göstərir.

Hər ölkənin konkret iqtisadi və sosial-siyasi şəraiti P.s.-nin bu və ya digər formasını müəyyən edir.

Yetkin **P.s.**-nin yarandığı XX əsrin təcrübəsi aşağıdakı nəticələrə gəlməyə imkan verir.

Sosial-iqtisadi və siyasi rejimindən və demokratiklik dərəcəsindən asılı olmayaraq bütün ölkələrdə birpatiyalı sistemlər son nəticədə səbatsız çıxdılar. Onlar yerlərini müxtəlif çoxpartiyalı sistemlərə verdilər. Bu zaman keçmiş yeganə partiya öz nüfuzunun çox hissəsini itirdi, parçalanmalar və ciddi daxili sarsıntılar dövrünə daxil oldu.

Bir çox hallarda, həmçinin ikipartiyalı sistem də səbatsız çıxır. Ola bilsin ki, ABŞ ümumi qaydadan yeganə istisnadır. Bundan ötrü, ölkənin xüsusiyyətləri və tarixi inkişafı, o cümlədən kapitalist dəyərləri çərçivəsində inkişaf edən amerika siyasi şüurunun oxşarlığı, daha dəqiq, birtipliliyi ilə bağlı olan spesifik səbəblər vardır. Bu da məlumdur ki, həm XIX, həm də XX əsrlərdə dəfələrlə "üçüncü"

partiyanı yaratmaq üçün cəhdlər göstərilmişdir və bunlar heç də həmişə tamamilə uğursuz olmamışdır. Amerika siyasi partiyalarının xarakteri də öz rolunu oynayır. Onların spesifikası digər ölkələrdə böyük maraq doğurur və kifayət qədər güclü, o cümlədən Qərbi Avropada və Latın Amerikasında siyasi partiyaların amerikalaşdırılması meylini müəyyən edir. Lakin modelin başqa sosial-siyasi mühitə keçirilməsi cəhdləri hələlik əhəmiyyətli nəticə verməmişdir.

Böyük Britaniya çox zaman ikipartiyalı sistemin nümunəvi Avropa modeli kimi göstərilir. Sözsüz, bu ölkədə parlament həyatı və hökumətin yaradılması uzun müddət iki daha böyük nüfuzlu partiyanın - mühafizəkarların və liberalların əlində idi. Eyni zamanda əsrin əvvəlində leyborist partiyası meydana gəldi və olduqca nüfuzlu partiyaya çevrildi; üstəlik, 70-80-ci illərdə "üçüncü qüvvə"ni yaratmağa cəhdlər göstərilir. Lakin hətta ingilis politoloqlarının etirafına görə, Britaniya tipli ikipartiyalı sistemin mövcud olması daha çox majoritar seçki sisteminin fəaliyyəti ilə əlaqədardır. Bu ölkədə formal iki partiyalılıq real çox partiyalılığı gizlədir. Elə seçki dairələri vardır ki, orada liberalların nüfuzu sabitdir. iki başlıca partiyanın arxasınca getməkdən imtina edən seçicilərin sayı artır.

Böyük Britaniyada hakimiyyət tez-tez seçkilərdə iştirak etmiş seçicilərin səslərinin 40 faizindən çoxunu almayan partiyanın əlində olur, belə faiz isə əsasən çoxpartiyalı sistemlər üçün səciyyəvidir. Beləliklə, süni qorunan ikipartiyalılıq, hökumətə parlament dayağını təmin etsə də, eyni zamanda hakimiyyətlə cəmiyyət arasında ziddiyyətlərin törənməsinə səbəb olur.

Üç və dördpartiyalı sistemlər (Almaniya, Fransa) siyasi rərbətlərin və ictimai hərəkatların müxtəlifliyini daha çox nəzərə almağa imkan verir, bununla belə, hökumətə rahat parlament yardımını çətinləşdirir. Bir qayda olaraq, belə sistemlərdə hakim mövqe tutan partiyalar olmur, hakimiyyətə müxtəlif, o cümlədən seçicilərin, hətta nisbi əksəriyyətinin himayə etmədiyi partiyalar gələ

bilərlər (Fransa, İtaliya). Bu ölkələrdə siyasi və parlament ittifaqları problemi kəskin durur. Bəzən elə situasiya yarana bilər ki, nisbətən az nüfuzlu partiya hakim rolu oynaya bilər. Məs., Almaniyada azad demokratlar partiyasının köməyi Xristian-Demokratik ittifaqına ölkəni idarə etməyə imkan verirdi, Fransa və İsveçdə kommunist partiyaları öz ölkələrinin sosialist hökumətlərini himayə edirlər.

P.s.- nin çevikliyi və dinamikliyi müəyyən ölçüdə cəmiyyətin sabitliyini təmin edə bilər.

PASİFİZM (lat. racificus - barışıq yaradan) XIX əsrin ikinci yarısında meydana gəlmiş və prinsipcə hər cür müharibəyə qarşı çıxan müharibə əleyhinə beynəlxalq hərəkat.

PATERNALİZM (lat. rater-ata) - sosial və iqtisadi münasibətlər baxımından az müdafiə olunan təbəqə və qruplara yanaşmada "atalıq qayğısı" mövqelərindən çıxış edən doktrina və fəaliyyət.

PAUPERİZM (lat. raurer - yoxsul) - əhalinin böyük əksəriyyətinin olmasa da, xeyli hissəsinin dilənçi vəziyyəti.

PENTAQON (ing. rentagon, yun. rentagon - beşbucaqlı sözündən) - 1) Vaşinqton yaxınlığında ABŞ Müdafiə Nazirliyinin yerləşdiyi beşbucaqlı bina; 2) məcazi mənada - ABŞ baş hərbi idarəsi.

PLEBİSSİT (lat.rlebiscitru, rlebs - cadə xalq, scitum - qərar) - ümumxalq səsverməsi növlərindən biri (bax;həmçinin **REFERENDUM**). **P.**beynəlxalq münasibətlərdə mübahisəli ərazinin hamısının, yaxud bir hissəsinin dövlətə mənsubiyyətinin əhalinin ümumxalq səsverməsi əsasında müəyyənləşdirməyi nəzərdə tutur.

PLUTOKRATİYA (yun. rlutokratia, rlutos - sərvət, kratos güc, hakimiyyət) - 1) varlıların hakimiyyəti, pulun hökmranlığı; 2) ölkədə dövlət hakimiyyətinin cəmiyyətin daha varlı təbəqələri nümayəndələrinin əlində olduğu siyasi quruluş.

PLÜRALİZM (lat. rluralism - çoxluq, müxtəliflik) - müasir cəmiyyətdə dini, iqtisadi, etnik və mədəni mənafeləri olan müxtəlif tipli institutların və təşkilatların mövcudluğu. Siyasi P.-lə xarakterizə olunan cəmiyyətdə hakimiyyət (hakimiyyət gücü) bir-birləri ilə mütəhərrik konflikt vəziyyətində, rəqabət və əməkdaşlıq münasibətlərində olan çoxlu sayda qruplar arasında geniş bölünür. Siyasi **P.** bir xarakteristika kimi həmçinin geniş hakimiyyət bölgüsü imkanı ilə təmin edən hökumət və başqa ictimai institutlara aiddir. Siyasət fəlsəfəsi kimi P. müxtəlifliyin, demokratiyanın ilkin şərt kimi gərəkli olmasını bildirir. Sənaye cəmiyyətində volyuntar qrupların rolunu qeyd etməklə bəzən sosial **P.**-in əsasında irqi, dil, kasta, yaxud dini amillərin durduğu natural qrup qurumlarının daha çox əhəmiyyət kəsb etdiyi müasirliyə qədərki, yaxud ənənəvi cəmiyyətlərin mədəni **P.**-nə qarşı qoyurlar. Sosial **P.** ümumi dəyər olan konsensus çərçivəsində qrup mənafelərinin toqquşmasını nəzərdə tutur, halbuki mədəni **P.** təməl dəyərləri zəminində parçalanmanın məhsuludur.

Hakimiyyətin çoxlu sayda müxtəlif tipli və xarakterli qruplarda "səpələnməsi", bölünməsi hazırda öz tədqiqatlarında "qrup yanaşmasını" tətbiq edib-etməməsindən asılı olmaraq politoloqlar arasında qəbul olunmuşdur. Demokratik cəmiyyətdə bir-birinə tarazlaşdırıcı təzyiq göstərən çoxlu sayda rəqabət aparan qrupların mövcudluğunda məqsəd cəmiyyətdə yalnız bir qrupun üstünlük təşkil etməsinin qarşısını almaqdır.

POLEMOLOGİYA (yun. olemos - müharibə) - müharibə haqqında elm; Qərb politologiyasında istiqamətlərdən biri olan **P.** çərçivəsində müharibə və silahlı münaqişələr öyrənilir. Sülh tədqiqatları irenologiya ilə sıx əlaqədardır. Müharibədən sonrakı illərdə, 1951-ci ildən Parisdə Fransa P.institutunu yaratmış fransız sosioloqu və demoqrafı Qaston Butulun əsərlərində inkişaf etdirilmişdir. Sonralar, oxşar institutlar Hollandiyada (direktor B.Rellinq/, İtaliyada (direktor F.Fornari/, Belçikada /direktor V.Verner/ yaradıldı. "Sülh istəyirsən, müharibəni başa düş" şüarını rəhbər tutan polemoloqlar diqqətlərini müharibələrin, münaqişələrin və kollektiv təcavüzün digər formalarını sosiologiya, demoqrafiya, biologiya, riyaziyyat və digər elmlərin metod

və ünsürlərini cəlb etməklə kompleks fənnlərarası öyrənilməsi üzərində cəmləşdirmək istəyirlər. Müharibələrin və münaqişələrin mahiyyəti haqqında suala cavab tapmağa, onları doğuran amilləri aşkar etməyə çalışan polemoloqlar tədqiq olunan hadisələrin iqtisadi, siyasi və mədəni izahının ünsürlərini birləşdirməklə müsbət metodologiyadan istifadə edirlər.

İstər dövlətdaxili, istərsə də dövlətlərarası münaqişələrin səbəblərini struktur (iqtisadi, demoqrafik), konyuktur (siyasi) və təsadüfi bölmələrinə ayıraraq onlar çox vaxt bayağı biososial və psixososial konsepsiyalara üstünlük verir, insanın heyvani mahiyyətindən irəli gələn anadangəlmə təcavüzkarlığın mövcudluğu, insan cəmiyyətinə, onun tarixi inkişafının bütün mərhələlərinə xas olan, kollektiv və fərdi zorakılığın yoluxma xəstəliyi kimi keçmiş hansısa davakarlıq kompleksi haqqında tezislər irəli sürürlər. Beləliklə, polemoloqlar müharibə və münaqişələri, müxtəlif sosial münasibətləri, ilk növbədə, müharibələri hazırlayan və başlayan dövlətlərin siyasətindən, müvafiq tarixi dövrün sosial-siyasi qanunauyğunluqlarından ayırırlar. Bəzi polemoloji tədqiqatlarda müharibələr ehtimalını ölçməyə, onların vaxtaşırı baş verməsini hesablamağa cəhdlər göstərilir, bunların əsasında guya müharibənin müsbət funksiyası, müharibə və sülhün birbirini əvəz etməsinin labüdlüyü kimi fikirlər irəli sürülür.

Polemoloqların metodologiyası açıq-aşkar zəif olsa da, onların baxışlarının bir sıra müsbət cəhətləri vardır. Müharibəni dərk etməyə çalışarkən onlar obyektiv olaraq, həm də beynəlxalq aləmdə sülh və təhlükəsizliyi təmin etmək üçün üsullar və formalar axtarmış olurlar.

Üstəlik də, son illərdə polemoloqların tədqiqatlarından göründüyü kimi, onlar keçmişdə özlərinə xas olan, sülh haqqında qayda və dinclik vəziyyəti kimi bəhs edilən, eyni zamanda kütləvi surətdə, xüsusən siyasi səbəblərdən öldürülən adamların sayını heçə endirən müxtəlif mücərrəd, idealist və utopik mühakimələrdən tədricən uzaqlaşırlar. Sülhü təmin etmək yollarını axtararkən polemoloqlar getdikcə daha çox müasir dövrün reallıqlarını - dünyanın sosial-siyasi rəngarəngliyini və eyni zamanda qarşılıqlı əlaqəliliyini nəzərə alır, tərksilah və siyasi gərginliyin azaldılması mexanizmləri proseslərini beynəlxalq təhlükəsizliyin təmin olunmasında mühüm amillər kimi qəbul edirlər. Bununla belə, P.öz adına sadiq qalaraq, sülh deyil, müharibə haqqında elm olaraq qalmaqdadır, çünki müharibələrin və münaqişələrin öyrənilməsi, beynəlxalq münasibətlərin təhlükəsiz dinc inkişafının vasitə və şərtlərini öyrənən tədqiqatlara nisbətən hiss olunacaq dərəcədə üstünlük təşkil edir.

POLİS DÖVLƏTİ - dövlət və ictimai asayişi mühafizə qüvvələrinin, yəni açıq və gizli polisin əli ilə müxalifəti boğmaq üçün siyasi zorakılıq metodlarının, təqib və axtarışın müntəzəm tətbiq edildiyi ölkələrdə siyasi rejimin məcazi səciyyəsi P.d. vətəndaşların şəxsi və ictimai həyatının (vətəndaşların yaşayış yerinə, bir yerdən başqa yerə hərəkətinə, davranışına nəzarət) ciddi reqlamentləşdirilməsi, gizli yazışmanın kütləvi qaydada pozulması, telefon danışıqlarının, görüş və söhbətlərin gizlicə izlənilməsi, müxalifət hərəkatının aşkar və potensial iştirakçıları, rejimə itaət göstərməkdən imtina edən xadimlər barəsində müntəzəm məlumatlar toplanması ilə fərqlənir. **P.d.**-hakim qruplar tərəfindən "asayiş qüvvələrinin" bilərəkdən nümayiş etdirildiyi totalitar rejimlərin müxtəlif növlərindən biridir.

POLİTOLOGİYA – fəlsəfə elmləri sisteminə daxil olan ictimai elmlərdən biridir. O, ümumi fəlsəfə yaranan gündən onun tərkib hissəsi olmuş, onun bətnində ətə-qana dolmuş və sonradan müstəqilləşmişdir. Aristotel siyasət elmini "politika" haqqında elm, "loqos", yəni siyasət elmi, yaxud siyasət haqqında elm adlandırmışdır. Bu heç də o demək deyildir ki, Aristotelədək siyasət elmi olmamışdır. Siyasət elminin təxminən üç min illik bir tarixi bəllidir və o, mifologiya, din və fəlsəfə ilə birlikdə yaranıb inkişaf etmişdir. Cəmiyyət və sivilizasiyanın təşəkkülü siyasəti və siyasət elmini yaratmışdır. Hələ b.e.ə. V əsrdə Afina strateqi Perikl deyirdi ki,

hamı siyasətçi ola bilməsə də, hamı siyasətçilərin fəaliyyətlərini qiymətləndirə bilər. Platon siyasət elmini ağıllı, ədalətli şəkildə "birlikdə yaşamaq məharəti", Aristotel isə onu "zoonpolitikonum idarəetmə sənəti kimi müəyyən edirdi. Belə müəyyən etmənin konkret tarixi-siyasi səbəbləri mövcud idi. Platon dövründə Yunanıstan ayrı-ayrı polislərdən (şəhər-dövlətdən) ibarət idi və bu polislər bir-birlərilə daim mübarizə aparırdılar. Belə bir şəraitdə bu polislərin birlikdə, dinc, sülh şəraitində yaşamaları zəruri idi. Platon quldarlıq aristokratiyasının bir nümayəndəsi kimi vətəni olan Yunanıstanın birləşdirilməsi tərəfdarı idi. Onun dövründə yunan polislərinin siyasi quruluşlarında olan müxtəliflik də məhz onların arasında uzun illər davam edən müharibələrin törənməsinə səbəb olurdu. Məsələn, Peloponeş müharibələrində Spartanın başçılıq etdiyi yunan polislərinin Afinaya qarşı ittifaqa girmələri nəticəsində Afina məğlub olmuş və bu da Afinada siyasi həyatın, elmin, mədəniyyət və incəsənətin tənəzzülünə gətirib çıxarmışdır.O zamanlar Afinanın dövlət quruluşu demokratiya, Spartanınkı isə aristokratiya olmuşdur. İkincilər isə birincilərdə politiyanın (orta təbəqənin) hökmranlığına dözə bilməmişdilər. Aristotelin yaşadığı dövrdə isə vəziyyət bir qədər başqa şəkil almışdı. Əvvəlcə Filip, sonra da oğlu Aleksandr (İskəndər) bütün polisləri birləşdirdi və hətta İranı və Asiyanın böyük bir hissəsini işğal edib böyük bir imperiya yaratdı. Ucsuz-bucaqsız imperiyanı idarə etmək zərurəti ortaya çıxdığı üçün Aristotel siyasəti – idarəetmə sənəti kimi qarşıya qoydu. Ümumən qədim yunan və roma mütəfəkkirləri siyasətə dövlətin və xalqın rifahını, xoşbəxtliyini, dinclıyini, səadətini təmin edəcək bir vasitə kimi baxırdılar. Siseron siyasəti Roma vətəndaş cəmiyyətinin əsas qarantı sayırdı. Mütəxəssislər siyasətdə Platonu – normativ-funksional, Aristoteli isə analitik-empirik cərəyanın banisi sayırlar. Platona görə ya hökmdar filosofluq etməlidir, ya da filosof hökmdarlıq etməlidir. Platon belə hesab edirdi ki, belə olarsa hökmdar ədalətli, əxlaqlı və bilikli olar. Aristotel isə Platonun əksinə olaraq hökmdar olmaq istəmirdi. Hətta İskəndərin Asiya yürüşündə iştirakçı olmaq təklifindən də boyun qaçırmış, yaxın qohumu Kallisfeni öz yerinə məsləhət görmüşdü. Aristotel əxlaqla siyasətin bir yerdə qərar tuta biləcəyinə, yəni hökmdarlığın və filosofluğun bir adamın (çox güman ki, İskəndərin) simasında cəmlənə biləcəyinə inanırdı. Platon öz ideyalarında intiusiyaya, Aristotel isə praktikaya əsaslanırdı. Aristotel insanı "siyasi heyvan" adlandıraraq onun instiktiv olaraq birlikdə yaşamağa olan meylini, bütün canlılardan ancaq insanın nitqə malik olduğunu və buna görə də ancaq onun ailə və dövlət yaratda bildiyini, xeyirin və şərin nə demək olduğunu, ədalət və ədalətsizliyin ölçüsünü bildiyini qeyd edirdi. Aristotel bu mənada aristokratiyanı təkmil dövlət forması sayırdı. Demokratiyanı ona görə pisləyirdi ki, onun da sonda tiraniyaya çevriləcəyinə inanırdı. O, "Politika" əsərində 158 şəhər-polisin təhlili əsasında bu fikrə gəlmişdi. Ona görə də o tiraniyanı, oliqarxiyanı və demokratiyanı pis dövlət quruluşu hesab edirdi. Qarışıq dövlət quruluşunu, politiyanı (konstitusiya ilə eyniləşdirirdi) məqbul sayırdı. Mark Tuli Siseron "hüquqi dövlət" anlayışını elmə gətirmiş və hamının qanunlar qarşısında eyni dərəcədə cavabdeh olmasını tələb etmişdi. Siseronun "Dövlət haqqında", "Qanun haqqında" kitablarında Roma cəmiyyəti qarşısında duran siyasi problemlər öz əksini tapmışdır. II Triumvrat (Avqust, Antoni və Lepid) tərəfindən edam olunmuşdu. Amma Avqust Oktavian Sezar sonradan peşiman olmuş və onu "Romanın atası və həqiqi vətəndaşı" kimi yüksək qiymətləndirmişdir.

Orta əsrlərdə İslam Şərqində siyasət Əl Fərabinin və İbn Haldunun göstərdikləri kimi həm birlikdə yaşaya bilmək, həm də dövləti, cəmiyyəti, xalqı, şəhər və kəndləri ağılla, ədalətlə idarə edə bilmək sənəti kimi başa düşülürdü. Orta əsr mütəfəkkirləri Nizamülmülk, Nizami, N.Tusi və b. dövlətin siyasətinə təsir edib onları ədalətli olmağa çağırır, xalqa qarşı rəhmdil və adil olmağı tövsiyə edirdilər. Onu da qeyd edək ki, Səlcuq

imperatoru Alp Arslanın vəziri olan Nizamülmülkün konkret siyasi fəaliyyəti və yazdığı "Stiyasətnamə" əsəri ilə orta əsr islam politologiyasının əsası qoyulmuşdur. Nizamülmülk özünün yaratdığı "Nizamiyyə" məktəblərində bütün elmlərlə yanaşı siyasətin əsaslarının da tədrisinə xüsusi fikir verirdi. Nizamülmülk də Aristotel kimi siyasətin və əxlaqın münasibətlərində onların biri birini tamamlası tərəfdarı idi, halbuki vaxtilə Platon onların birlikdə yaşamasını qeyri-mümkün sayırdı. Bu isə sonradan, intibah dövründə Makiavellinin bu münasibətdə birinci yerin siyasətə verilməsinə səbəb olmuşdu. İntibah dövrünün böyük mütəfəkkiri Nikolo Makiavelli parçalanmış İtaliyanın, eləcə də Avropanın mərkəzləşdirilmiş bir hakimiyyətdə birləşdirilməsi tərəfdarı kimi çıxış edirdi. Ona görə də o, dövlətin mənafeyini birinci yerə qoyur və siyasətdə aparıcı yeri ona verirdi. Ona görə də bir sıra Qərb alimləri onu bəzən siyasət elminin yaradıcısı və bu elmin fəlsəfədən ayrıldığı tarixin səbəbkarı zənn edirlər. Bu da siyasi elmin mənşəyinin qərbləşdirilməsi cəhdlərindən irəli gəlir.

Halbuki siyasət elminin tarixi dövlətin və cəmiyyətin yaranması tarixilə başlayır. İkinci bir tərəfdən, istər Qədim Şərqdə, istərsə də orta əsrlər İslam Şərqində siyasət elmini bilir və dövlətin idarəçiliyində, cəmiyyətin və insanların fəaliyyətində ondan istifadə edirdilər. Ümumiyyətlə bir sıra alimlər (məsələn, Panarin, Pozdnyakov, Lasuel və b.) siyasət elminin siyasi fəlsəfədən ayrı, əlahiddə, xüsusi bir elm olduğunu əsaslandırmağa çalışırlar. ABŞ alimi Lasuel yazır ki, siyasət – nəyi, necə və nə zaman əldə etmək məharətidir. Belə ki, siyasət sadəcə bir elm deyil, həm də fəaliyyətdir, özü də cəmiyyət və dövlətlə bağlı bir fəaliyyətdir.

Bu gün Qərb ölkələrində "politologiya" terminlərdən elə də çox istifadə etmirlər. Onun əvəzinə "Political science) və yaxud "The science of Politics" (Siyasi elm və yaxud siyasət elmi), rus dilində də ona uyğun olaraq "Politiçeskaə nauka" və yaxud "Nauka politiki", Türk dilində isə "Politika bilimi" işlədilir. Azərbaycan dilində bəzi

müəlliflər "siyasi elm" terminini, digərləri isə "siyasət elmi" və "siyasət haqqında elm" terminlərini elmi dövriyyəyə buraxırlar. Bütün bunlarla yanaşı bu terminlərin kökündə "politika" və "loqos" dayanır.

Siyasətin sirrlərini açmaq, onun məntiqini anlamaq, onun gücündən insanların xeyrinə istifadə etmək zərurəti siyasi elmin bir tədris fənni kimi keçilməsi zərurətini yaratdı. O, XIX əsrin II yarısında əvvəlcə ABŞ-da, sonra isə Avropada, daha sonra isə XX əsrin 90-cı illərində dünyada və Azərbaycanda akademik bir fənn kimi tədris olunmağa başladı. Siyasi elmin ilk yaranışı illərindən indiyədək onun predmetinin düzgün müəyyən olunması istiqamətində alimlər arasında fikir müxtəlifliyi mövcud olmuşdur. İlk illərdə məsələn belə başa düşülürdü ki, politologiya – düzgün qərarların qəbul edilməsi elmidir (ABŞ alimi İston) hazırda isə belə hesab olunur ki, bu elm "nəyi, necə və nə zaman əldə etməyi" öyrədir (Lasuel). Bütün bunlara baxmayaraq, siyasət elmi bütün hallarda siyasi hakimiyyətlə, dövlət siyasətilə əlaqədar olmuşdur. Hələ vaxtilə B.H.Çiçerin siyasət elmini "dövlətin məqsəd və vəzifələrinin əldə olunması" vasitəsi saymışdı.

Siyasi elmin metodoloji əsasını fəlsəfə, başqa sözlə desək siyasət fəlsəfəsi müəyyən edir. Çünki siyasət fəlsəfəsi siyasətin ümumi qanunauyğunluqlarını, onun inkişafının daxili məntiqini, ictimai-siyasi həyatın başqa sferalar ilə əlaqələrini öyrənir. Politologia isə cəmiyyətin siyasi həyatı, siyasi partiyalar, dövlət, siyasi biliklər, siyasi ideyalar, siyasi təsisatlar və institutlar və s. ilə məşğul olur. Siyasi problemlərin fəlsəfi ümumiləşdirilməsi isə siyasət fəlsəfəsinin işidir. Daha aydın desək əgər politologiya təkcə və xüsusini öyrənirsə, siyasət fəlsəfəsi ümumi və ən ümumi olanı öyrənir. Deməli, onların arasında qırılmaz əlaqə var və onları biri-birindən demarkasiya xəttilə ayırmaq olmaz. Bu faktın nəzərə alınmaması bir sıra səviyyələrdə politologiya ilə fəlsəfə fənlərinin biri-birindən süni surətdə ayrı tutulmasına, onlarla müxtəlif sistemli predmetlər kimi rəftar olunmasına səbəb olur.

Siyasi elmin başqa ictimai

elmlərə münasibətindən danışarkən onun siyasi tarixə yaxınlığını qeyd etmək olar. Bununla belə, bu elmin tarixən fəlsəfə elmlərinə bağlılığı və fəlsəfi bir elm olması heç bir şübhə doğurmur. Fəlsəfi bir elm olmaq etibarilə siyasət elmi getdikcə müstəqilləşmiş və hazırda onun özünəməsus predmeti və tədqiqat obyekti vardır. Fəlsəfə elminə yaxınlığı onun siyasi zaman, siyasi məkan, siyasi insan kimi kateqoriyaları ilə reallaşır. Keçmişdə elmi koommunizm və qismən də tarixi materializm fənlərini əvəz edən politologiya fəlsəfədən fərqli olaraq cəmiyyəti siyasi proseslərin gedişində və fonunda öyrənir. Deməli, bu gün politologiya özünün müstəqil tədqiqat üsuluna, metodunu və kateqoriyalarına malikdir. Buna baxmayaraq, o, öz mənşəyini və metodologiyasını fəlsəfədən aldığına görə ona fəlsəfi bir elm kimi də baxmaq olar.

POPULİZM (lat.rorulus - xalq, xalqçılıq, xalqın hüquqları və mənafeyi uğrunda mübarizə) (Termin **P.**-in rəqiblərindən təhrif edilmiş mənasını almışdır) - əsaslandırılmayan vədlər, demaqoq şüarlar hesabına kütlələr arasında məşhurlaşmağı təmin etməyi nəzərdə tutan fəaliyyət. Müasir siyasətdə "populist" kütlələrin qılığına girmək istəyən xadimdir.

POSTİNDUSTRİALİZM - tarixi inkişafın sənaye sivilizasiyasını əvəz edən mərhələsi. industrializm konsepsiyası sənaye cəmiyyətinin dayaqlarına yönəldilmiş getdikcə artan tənqid və XX əsrin 50-ci illərinin axırında nəzərə çarpan, dünyanın inkişaf proseslərinin qloballaşmasına yeni təkanın mənbəyi olan dərin texnoloji irəliləyişlər kontekstində formalaşır. "Gələcək tərəqqinin sənaye inkişafının davamı olacağına çoxlarının inanmadığı" (Kumar K. Progress and industrialism) şəraitdə **P.** ictimai inkişafın müasir nəzəriyyəsinin proqnostika istiqamətinin ideoloji və nəzəri əsası kimi çıxış edir. Həmin istiqamət istehsalın, elm və texnikanın tərəqqisini, məhsuldar qüvvələr sahəsində inqilabı bəşəriyyətin gələcək meyli ilə əlaqələndirir. Lakin bu əlaqələndirmə üçün yeni mədəni və humanist əsaslandırmalar və ekoloji inqilab paradiqması irəli sürülür. **P.** "yeni" cəmiyyət və

sivilizasiyalar nəzəriyyələrinin geniş dairəsini əhatə edir: informasiya (bax. **İNFORMASİYA CƏMİYYƏTİ**), texnetron (Z. Bzejinski), telematik, yəni informasiyanın ötürülməsi texnikasına əsaslanan (C.Martin, T. Ouver), rasional (Y.Habermas) və s. **P.**-in siyasi mənası müasir cəmiyyətin (ilk növbədə "postkapitalist" cəmiyyətinin) siyasi rejimlərinin yeni böyük dəyişikliklərini, siyasi qaydanın davamlı sabitləşmə mexanizmlərinin inkişafını əsaslandırmaqdan, cəmiyyətdəki siyasi və sosial dəyişikliklər proseslərini, cəmiyyətin modernləşdirilməsini əsaslandırmaqdan və izah etməkdən, inkişaf etmiş cəmiyyətlərdə vətəndaş və hüquqi münasibətlərin, demokratik prosesin siyasi əsaslarını möhkəmləndirməkdən və həmin demokratik prosesi genişləndirməkdən ibarətdir.

İctimai-siyasi şüurda və postindustrial paradiqmada irəliləyişlər D.Bellin ideyalarının, Qərb sivilizasiyasının sənaye və sənayedən sonrakı inkişafının tarixi mərhələləri arasında onun maddi cəhətdən müəyyən edilən sərhəd qoymaq cəhdlərinin ciddi təsiri altında baş verir. D.Bell öz fikrini inkişaf etdirərək deyir ki, industrializm enerjinin və kütləvi şəkildə mallar istehsal edən maşınların tətbiq olunması sistemidir. **P.**mərhələsi fərdin fəaliyyət formalarındakı irəliləyişlə (bu, fərdlərin sənaye sahəsindən xidmət sahəsinə yerdəyişməsində ifadə olunur), habelə iqtisadi kəşflər sahəsində və dövlət quruluşunda nəzəri tədqiqatlara meylin güclənməsi ilə səciyyələnir.

XX əsrin 80-ci illərinin ictimai-siyasi fikrinin nüfuzlu intellektual ənənəsi kimi **P.** ilk növbədə Qərb dünyasının sənaye inkişafı yolunda qarşılaşdığı fundamental problemlərin həllini tapmaq üçün göstərilən çoxsaylı cəhdlərin bir növ nəzəri baxımdan ümumiləşdirilməsidir.

Bu halda "postindustrial", "postkapitalist", "postmüasir" terminlərində hazırkı sivilizasiyanın alternativi kimi təsvir olunan sivilizasiya tipindən söhbət gedir. Məsələn, R.Darendorf özünün "Sənaye cəmiyyətində sinif və sinfi münaqişə" kitabında postkapitalist sənaye cəmiyyəti konsepsiyasını inkişaf etdirir və onun səciyyəvi xüsu-

siyyətini hakimiyyət sisteminin və fərdin ictimai münasibətlər sisteminin formalaşmasında, mülkiyyət münasibətlərinin üstünlüyü itirməsində görür. "Yeni Avropa" kitabının müəllifi C.Lithaym "postmüasir" dünyanı istehsalın ictimai və özəl bölmələri arasında yaranmaqda olan yeni tarazlıq mövqeyindən təsvir edir. A.Etsioni postmüasirliyi güclənməkdə olan texnoloji ekspansiya ilə mədəniyyətin humanist ölçüləri arasında genişlənən münaqişə ilə əlaqədar təsvir edir. O, "Fəal cəmiyyət" kitabında yazır: "Cəmiyyətin müasir tipinin əsas xüsusiyyəti istehsal texnologiyasının səmərəliliyinin artmasıdır və belə hesab edirlər ki, bu, texnologiyanın xidmət etməli olduğu dəyərlərə meydan oxunmasının güclənməsi ilə müşayiət olunur. Başlanğıcı 1945-ci ilə aid oluna bilən postmüasirlik dövrü ya sürətlə inkişaf edən texnologiya tərəfindən həmin dəyərlərə olan təhlükənin artdığını nümayiş etdirir, ya da onların normativ üstünlüyünün təsdiqinə gətirib çıxaracaqdır. Bu alternativlərdən hansının üstün gələcəyindən asılı olaraq, cəmiyyət ya özünün yaratmış olduqlarının xidmətçisi vəziyyətinə düşəcək, ya da yaratdıqlarının ağasına çevriləcəkdir".

Müasir sənaye gerçəkliyinə alternativ olan gələcək ideoloji irəliləyişlərin modellərini ortaya atmaqla yanaşı, P.özü ilə tarixin makrososioloji sxeminə, universuma - zaman və məkandakı bütün obyektiv reallığa mühüm dəyişikliklər gətirir.

Tarixə iki ölçüdə yanaşmağa (tarix yalnız ənənəvi sənayedən əvvəlki keçmişdən müasir gerçəkliyə keçid kimi təsəvvür olunur) meyl edən industrializmdən fərqli olaraq, P.-də tarixi prosesin üçüncü ölçüsü-indiki dövrün hüdudlarından kənara çıxan və özünün siyasi, sosial və mədəni istiqamətləri, iqtisadi-texnoloji əsasları olan gələcək də var. Beləliklə, "keçmiş" (aqrar, sənayedən əvvəlki dünya) təbiətə qapılması ilə fərqlənir və bu, şüurda hakim olan başlıca məkan-zaman ölçülərini, cəmiyyət və insan haqqında təsəvvürlərin stereotipini müəyyən edir; "indiki" (sənaye gerçəkliyi) texniki, süni surətdə düzəldilən təbiətin hakim olması ilə müəyyən edilir: yəni,

dünya texnika dünyasıdır, maşınlar hakim mövqe tutur, mexaniki sürət həyatın ahənginə təsir göstərir; bununla əlaqədar olaraq, "gələcək" "təbiətdə oyundan" (onun təbii və süni simalarında) "fərdlər arasında oyuna" (bu zaman vaxt sərbəstlik, yaradıcılıq və asudə vaxt dəyərinə çevrilir) keçid terminlərində təsəvvür edilir.

Tarixin sənaye konsepsiyası dünyanın Qərb - Şərq, yaxud kapitalizm - sosializm, ya da liberal demokratiya - totalitarizm kimi qarşı qoyulmasına söykənən sərt cəbhələşmə stereotiplərdən uzaqlaşır, müasir dünyada baş verən dəyişikliklərə sintetik baxışı nəzərdə tutur, indiki dövrdə işlənib hazırlanmaqda olan ümumdünya sivilizasiyası ideyasına müəyyən töhfə verir.

Qlobalistika səviyyəsində P.ideyalarının bəşəriyyətin xilas olması barədə müasir fəlsəfənin inkişaf etdirdiyi, yaratmağı dağıtmaqdan, qarşılıqlı razılıra gəlməyi qarşıdurmadan, ümumbəşəri əsasları sinfi və ya milli əsaslardan üstün tutan təsəvvür və baxışları ilə müəyyən dərəcədə kəsişməsi nəzərə çarpır.

Bununla əlaqədar, məsələlərin postindustrial baxımdan qoyuluşuna yaxınlaşdıqca millətlərin inkişafında qarşılıqlı asılılıq ideyasını nəzəri cəhətdən işləyib hazırlamaq, müxtəlif mədəni dövrlərin bir çərçivədə mövcud olduqları tarixin diaxronik dövrünün başa çatması, bu və ya digər xalqın hansı sosial start səviyyəsində dayanmasından asılı olmayaraq, bəşəriyyətin XXI əsrə bu və ya başqa dərəcədə birlikdə qədəm qoyacağı barədə fikirlər mühüm məqam kimi ortaya çıxır.

Bu isə dünyaya yeni siyasi gözlə baxmağı, yəni hazırda baş verən modernləşdirmə və konvergensiya tarixi proseslərinin ənənəvi dərk edilməsinə, millət, sinif, dövlət kimi qürumların sosial-siyasi statusunun və özünəməxsus rolunun dəqiqləşdirilməsinə, azadlıq, demokratiya və suverenlik dəyərlərinə daha universal mənada yanaşılmasına əsaslanan yeni siyasi gözlə baxmağı nəzərdə tutur.

Gələcəyin postindustrial cizgilərinə dair çoxsaylı yozum və variantlar sırasında iki mövqe daha çox özünü göstərir. Bunlardan birini neotexnokratik, digərini humanitar-ekolo-

ji mövqe kimi səciyyələndirmək olar. Birincisi, gələcək cəmiyyətin cizgilərinin formalaşmasında yüksək texnologiyaların və elmi fəaliyyətin xüsusi rolunun qəbuluna əsaslanır. Humanitar-ekoloji mövqe isə diqqəti elmi-texniki amilləri insan və təbiətlə əlaqədar əsaslara tabe etməyə yönəldir. Bu mövqeləri təmsil edən müəlliflərin fikirlərinin çox vaxt qütbləşməsinə baxmayaraq, qarşılıqlı güzəşt ideyası, inkişafın humanitar ekoloji və texnoloji ünsürləri arasında münasibətləri tarazlaşdırmağın zəruriliyi barədə fikirlər 80-ci illərdən nəzərə çarpacaq yer tutmağa başlayır. Alternativ hərəkatın Almaniyadan olan görkəmli nəzəriyyəçisi Y.Huber yazır: "Müasir texnologiyadan faytondan düşən kimi çıxmaq mümkün deyildir". O, belə hesab edir ki, gələcəyin postindustrial sivilizasiyasına doğru sənaye texnologiyalarını aradan qaldırmaqla yox, onları yenidən qurmaqla, ekoloji və sosial konformizmi, yüksək məhsuldarlığı, insan ehtiyatlarının və xammalın sərfində qənaətcilliyi ilə fərqlənən mikroelektronika, biotexnologiya, işıq texnikası və s. kimi sahələri üstün inkişaf etdirməklə getmək lazımdır. Bu zaman sırf iqtisadi və ekoloji mülahizələrdən əlavə, belə bir prinsip tətbiq edilən texniki yeniliklərin mütərəqqiliyinin mühüm amili olmalıdır: həmin texnologiyaların tətbiqi fərdin azadlıq dairəsinin və özünün gerçəkləşdirməsinin genişlənməsinə kömək edəcək, yoxsa yeni təhlükələrin və əsarətin mənbəyi olacaqdır.

Özünəməxsus əlamətləri ilə P.hazırda bəşər mədəniyyətinin perspektivi, siyasət, iqtisadiyyat, sosial inkişaf məsələlərinə dair strateji qərarlar qəbul edilərkən başlanğıc məqamlarının axtarışı ilə bağlı problemlər haqqında genişlənən diskussiyaların mərkəzində durur.

POSTKOMMUNİZM - Şərqi Avropa ölkələrinin, keçmiş SSRİ respublikalarının və Çinin, ola bilsin, yaxın gələcəkdə KXDR və Kubanın yeni inkişaf mərhələsinə - ədəbiyyatda inzibati amirlik iqtisadiyyatı adlandırılan totalitar inkişaf modelindən bazar iqtisadiyyatı prinsiplərinə söykənən müasir sivilizasiyalı cəmiyyətə keçməsinin xüsusiyyətini səciyyələndirir. Bu mənada P.ideyası Z.Bjezinskinin "Böyük iflas XX yüzillikdə kommunizmin doğulması və ölümü" kitabında inkişaf etdirilir.

İqtisadiyyatın yeni inkişaf yoluna keçirilməsi və ictimai-siyasi strukturların islahatı ilə bağlı məsələlərin həllindəki uğurlar kommunizm quruculuğuna dair irəliyədək formalaşmış nəzəriyyə və praktikadan imtina edilməsi ilə şərtlənir. Həm də bu zaman uzunmüddətli perspektivdə kommunist rejiminə qarşı iki sanballı alternativ mövcud olması göstərilir. Bunlardan birincisi plüralist cəmiyyətə aparan təkamül yoludur. Belə yol dövlət bölməsi və şəxsi bölmədən qarışıq iqtisadiyyat yaradılmasını nəzərdə tutur. Həmin proses sosial-demokrat ideyalarının təsirinin güclənməsi ilə müşayiət olunur ki, bu da öz növbəsində azad sahibkarlıq sisteminə keçməyə kömək edən əlverişli ideoloji mühit formalaşdırır. İkinci variant - mövcud institutlar çərçivəsində dəyişikliklərdir. Hakimiyyət özünün diktator səlahiyyətlərini qoruyub saxlamaq üçün vəziyyətə nəzarət etməyə çalışır və bu zaman hərbi-polis koalisiyasına arxalanır, ideologiya sahəsində mərasimləşdirilmiş ehkama nisbətən millətçiliyə üstünlük verir.

Bununla belə, hər iki halda qarşıya sual çıxır: bazara doğru gedən yollarla irəliləyiş təkamül xarakteri daşıyacaq, yoxsa kəskin çevrilişə səbəb olacaqdır. Bu və ya digər variantın seçilməsi ilə bazar iqtisadiyyatına əsaslı keçid tədricən plüralist demokratiyanın, yoxsa avtoritarizmin müxtəlif növlərindən birinin meydana gəlməsinə gətirib çıxaracaqdır.

PREFERENSİYA (lat.rraeferentia - üstünlük, güzəşt) - hər hansı şəxsə, təşkilata və ya dövlətə iqtisadi, yaxud digər üstünlüklər verən tədbir.

PRESEDENT (lat. rraecedens, yiyəlik halında rraecedentis - qabaqca olan) - bax; **NÜMUNƏ.**

PREVENTİV (lat. rraeventus - xəbərdarlıq etmək) - hadisələrin təhlükəli inkişafının qarşısını alan fəaliyyət.

PREZİDENT (lat.rraesident - sədrlik edən, başçı) 1) Bir sıra ictimai və elmi idarə, təşkilat və s.-də seçkili rəhbər, sədr (məs,. Azər. EA-nın P.-i, bey-

nəlxalq astronavtika akademiyası P.-i); 2) Resp. formalı ölkələrdə dövlət başçısı. Parlamentli resp.-larda (ıtaliya, Hindistan, Türkiyə, Livan) P.-i konstitusiya ilə müəyyən olunmuş müddətdə parlament, yaxud xüsusi kollegiya seçir. Prezidentli resp.-da **P.** birbaşa (məs., Fransa, Panama, Kolumbiya), yaxud dolayı (ABŞ seçkiçilər yolu ilə) seçilir.

PREZİDENT İDARƏ ÜSULU –

1) dövlətin konstitusiyasiyada nəzərdə tutulan müəyyən regional inzibati özünüidarə institutlarının fəaliyyətinin dayandırılması və həmin ərazidə idarəetmənin dövlət başçısının - prezidentin təyin etdiyi müvəkkillər və onun qarşısında hesabat verən şəxslər vasitəsilə həyata keçirilməsi;

2) konstitusiyaya əsasən dövlət başçısına -prezidentə bütün dövlət miqyasında fövqəladə səlahiyyət verilməsinin (o cümlədən ənənəvi demokratik institutların fəaliyyətini müəyyən müddətə dayandırmaq hüququnun) nəzərdə tutulması. Prezident idarə üsulu, bir qayda olaraq, dövlətin müəyyən rayonu çərçivəsində və ya bütün ərazisində siyasi vəziyyəti sabitləşdirmək üçün tətbiq edilir. Bəzən bu, siyasi qruplaşmaların birinin mövqeyini möhkəmlətmək və digərlərinin mövqeyini isə zəiflətmək üçün tətbiq olunur. **P.i.ü.** siyasi qüvvələrin açıq qarşıdurmasını dayandırmaq, vətəndaş müharibəsinin qarşısını almaq və ya dayanadırmaq, təbii hərbi və texnogen fəlakətlərin, epidemiyaların və s. ağır nəticələrini tezliklə ləğv etmək üçün də tətbiq oluna bilər.

PREZİDENTLİ RESPUBLİKA - konstitusiyada əsasən ali hakimiyyətin prezidentə məxsus olduğu respublika idarə forması. Prezident ümumxalq səsverməsi yolu ilə, parlament və ya hər hansı xüsusi institut (məs. müəssislər məclisi və s.) tərəfindən seçilə bilər. **P.r.**-da seçildikdən sonra prezident xeyli siyasi müstəqillik alır: konstitusiyada nəzərdə tutulan fövqəladə vəziyyətlər olmadıqda geri çağırıla və ya vaxtından əvvəl yenidən seçilə bilməz: müəyyən olunmuş qaydalar gözlənilməklə parlamenti çağıra və buraxa bilər: qanunvericilik təşəbbüsü hüququna malikdir: hökumətin təşkilində və onun rəhbərinin baş nazirin seçilməsində üstün rol oynayır. ABŞ konstitusiyasına görə, prezident hökumətin başçısıdır və kabineti təşkil edir. Fransa konstitusiyasına əsasən, ümumi seçkilər və ya siyasi şərait nəticəsində parlamentdə qüvvələr nisbəti prezidentə qarşı müxalifətin xeyrinə dəyişdikdən sonra da prezident öz vəzifəsinin həyata keçirilməsini davam etdirmək hüququna malikdir. Bundan əlavə, elan etdiyi siyasəti belə şəraitdə davam etdirmək mümkün olmadıqda, prezident ümumxalq rəy sorğusunun nəticələri və konstitusiyada nəzərdə tutulan digər qaydaların həyata keçirilməsi əsasında parlamentin buraxılması və vaxtından əvvəl seçkilərin keçirilməsin barədə konstitusiya hüququndan istifadə edə bilər.

Hazırda Azərb.-da siyasətin həyata keçirilməsində **P.r.**təmini, demək olar ki, işlədilmir, lakin respublika prezidenti aparatının, Azərbaycuan hökumətinin, bir sıra nazirliklərin, respublika Milli Məclisinin və bəzi idarələrin strukturunda müxtəlif adlar altında əslində **P.r.**vəzifəsini yerinə yetirən mətbuat xidmətləri vardır. Bu xidmətlərin rəhbərləri, bir qayda olaraq, müəyyən informasiya və analitik imkanlara malikdirlər. Mətbuat xidmətlərinin xeyrinə analitik iş adətən idarə ETı-də, ya da ictimai rəyi öyrənən qeyri-dövlət mərkəzlərində, yaxud laboratoriyalarında aparılır.

İşgüzar ünsiyyət psixologiyası **P.r.**-nin əsasıdır. Dinləyicilərin xeyirxah münasibətini qazanmaq istəyən siyasətçi üçün ünsiyyət məharətinin də (tele və radio auditoriyası daxil olmaqla) misilsiz əhəmiyyəti vardır.

İnkişaf etmiş ölkələrdə və modernləşdirilən dövlətlərdə **P.r.** hər hansı əhəmiyyətli təşkilatın onu əhatə edən sosial mühitdə ünsiyyət mexanizminin ayrılmaz hissəsidir.

PROLONQASİYA (lat. rrologatio, rrolongare - uzatmaq sözündən) - hər hansı siyasi aktın fəaliyyət müddətinin uzadılması.

PROTEKSİONİZM (fr.rrotektionnisme, lat. rrotectio - müdafiə sözündən) - milli iqtisadiyyatın xarici ticarət-iqtisadi ekspansiyadan qorunmasını həyata keçirən dövlət siyasəti.

PROTOKOL (fr.rrotocole, yunanca rrotokolon - manuskriptə üstdən yapışdırılan birinci vərəq) - 1) Yığıncaqda, iclasda, istintaq gedişində və i.a.

hadisələrin, çıxışların, ifadələrin qeydə alınması; 2) hər hansı hadisəni, yaxud faktı təsdiq edən sənəd; 3) hər hansı xüsusi məsələ üzrə dövlətlər arasında yazılı razılaşma, saziş; 4) Diplomatik **P.**-diplomatik aktların icrası zamanı riayət olunan qaydaların məcmusu. **P.** diplomatik yazışma formalarını, rəsmi görüşlərini, diplomatik qəbulların xarici ölkə dövlət və hökumət başçısının qəbulu qaydasını müəyyənləşdirir.

PSİXOLOJİ MÜHARİBƏ - geniş mənada rəqibini özünə sərfəli yöndə fəaliyyət göstərməyə məcbur etmək məqsədilə onun rəyinə, əhval-ruhiyyəsinə, hisslərinə və son nəticədə davranışına birbaşa və da dolayısı təsir etmək üçün siyasi opponentlərin təbliratdan və digər vasitələrdən (diplomatik, hərbi, iqtisadi, siyasi və s.) məqsədyönlü və planlı istifadə etməsi. Praktikada **"P.m."** termini çox vaxt məhdud mənada işlədilir: bu yaxınlaradək o, köhnə siyasi təfəkkürün əsas ünsürlərindən biri və sosialist ölkələrinə qarşı imperializmin ideoloji təxribatlarının məcmusu, pozucu antikommunist və antisovet təbliratı, sosializm əleyhinə sosialist ölkələrin, xüsusən SSRİ-nin ideoloji mübarizə metodu idi. Və əksinə kapitalizm və imperializmə qarşı. Eyni zamanda "P.m." anlayışı Qərb ölkələrinin qarşıdurma təfəkküründə çərçivəsində Qərb demokratiyası tərəfdarlarının tətbiq etdiyi üsulların məcmusu kimi şərh olunurdu. "P.m." siyasi opponentlərin kütləvi sosial bazasını pozmağa, düşmənin ideyalarının düzgünlüyünə və bunların həyata keçiriləcəyinə inamı yox etməyə, opponentlərin təsiri altında olan kütlələrin psixoloji sabitliyini, mənəvi əhval-ruhiyyəsini, onların fəallığının siyasi, sosial və bütün başqa növlərin zəiflətməyə yönəldilmişdir. **"P.m."**-nin son məqsədi kütləvi şüurun və kütləvi əhval-ruhiyyəni opponentləri dəstəkləməyə hazır olmaqdan onlara qarşı narazılığa və pozucu hərəkətlərə doğru döndərməkdir. Bu məqsədlə siyasi rejimi devirmək üçün kütləvi çıxışlar hazırlanması və buna təhrik edilməsindən alternativ xarakterli sosial-siyasi və ideoloji aksiyalaradək cürbəcür formalarda ifadəsini tapa bilər. əməli baxımdan **"P.m."** ideoloji

və siyasi mübarizənin nəzəri şüur sahəsindən adi şüur sahəsinə, elə bir sahəyə keçirməkdir ki, burada elmi müddəalara və məntiqi dəlillərə, zəkaya və hətta faktlara deyil, hisslərə və instinktlərə (sosial və milli iftixara, qərəzli marağa, dövlətçilik hikkələrinə, sosial və milli özünümüdafiə instiktinə və s.), irqi və milli xürafata, adətən ənənəvi tarixi xarakterli inandırmalara, sosial-ideoloji səpgili basmaqəlib uydurmalara ("dünya imperializmi", "islam təhlükəsi", "mason sui-qəsdi") müraciət edilir. Mübarizənin bir sahədən digərinə keçirilməsində məqsəd həmin mübarizəni adi psixologiyanın səviyyəsinə elə məharətlə keçirməkdən ibarətdir ki, bu mübarizə adamların bütün problemlərinə nüfuz etsin və bunları ideya-siyasi qarşıdurma vasitəsilə "izah etsin". Buna çoxsaylı uydurma qavrayış və təfəkkür stereotiplərinin, insanlar arasında hakim olan baxışlar haqqında, dünyada baş verən hadisələr və bunların inkişaf meylləri barədə təhrif olunmuş təsəvvürlərin adamların şüuruna kütləvi şəkildə yeridilməsi yolu ilə nail olunur.

Hər hansı müharibə və silahlı münaqişənin labüd tərkib hissəsi olan "P.m." real düşmənin qoşunu və dinc əhalisi üçün nəzərdə tutulan xüsusi təblirat formasında təzahür edir. Dinc dövrdə, potensial düşmənlə hərbi qarşıdurma şəraitində **"P.m."** "soyuq müharibə"nin əsas ünsürlərindən biri olur. İkinci dünya müharibəsindən sonra on illər boyu Qərb ilə Şərq arasında davam edən "soyuq müharibə" buna misal ola bilər.

"P.m." ruhunda ən çox yayılmış üsullar şərti olaraq 3 qrupa bölünür.

1. "Psixoloji təzyiq" üsullarına eyni bir yalan tezisin dəfələrlə təkrarlanması, müxtəlif mücərrəd fikirlərlə uzlaşdırılmaqla nüfuzlu mənbələrə istinad edilməsi (sitatların təhrif olunması, mövcud olmayan mənbələrə istinad edilməsi və s.), obyektivlik və dəqiqlik yaratmaq adı altında rəqəmlər və faktlarla oynamaq, "gərginləşdirici təsir effekti"ni əsas götürməklə illüstrativ materialların qərəzli seçilməsi, emosional narahatlıq yaradılmasına və insanın məntiqi düşünmək və ona təqdim edilən informasiyanı səmərəli qiymət-

ləndirmək qabiliyyətinin birtərəfləşdirilməsinə yönəldilmiş təbliğat xarakterli baxışların, mövqelərin və buna bənzər üsulların vahimə törədən əyani nümayişi. Faşist Almaniyasında Gebbels təbliğatı buna misal ola bilər. Həmin təbliğat olması üçün yalan kütləvi şəkildə, geniş və fasiləsiz təblir edilməlidir. Hazırda süni surətdə ortaya atılmış və şişirdilmiş Dağlıq Qarabağ problemi göstərir ki, Azərbaycanın informasiya blokadası şəraitində erməni təbliğatı məhz bu yolla getmiş və Ermənistan-Azərbaycan münaqişəsinin ilk illərində dünya ictimaiyyətində yanlış təsəvvür yaratmağa nail olmuşdu.

"Psixoloji təzyiq"in daha incə variantlarında kütləvi şəkildə yalan informasiya yayılması sistemini ört-basdır etmək üçün bəzi həqiqətləri də gizlətmirlər.

2. Psixoloji təsir obyektinin şüuruna hiss olunmadan nüfuz etmək üsulları: "gözəl və qayğısız" həyat tərzinin reklam edilməsi, musiqi, əyləncəli televiziya proqramları və kinofilmlər vasitəsilə kütləvi mədəniyyətin arzu edilən dəyərlərinin və standartlarının yayılması, siyasi opponentin rəsmi təbliğatının alternativi kimi şayiələrin və dedi-qoduların geniş yayılması, müəyyən boşluğu ideoloji "doldurma" olan "siyasi lətifələr" (bax; **SİYASİ LƏTİFƏ**) qoşaraq kütləvi şüura yeridilməsi, "xalq yaradıcılığı" kimi qələmə verilən zərb-məsəllərin uydurulması da buraya aiddir. Psixoloji təsir obyektlərinin şüuruna hiss olunmadan nüfuz etmək üsullarının çox hissəsi "sosioloji təbliğat" anlayışında birləşdirilir. Sosioloji təbliğat üstünlük verilən həyat tərzinin ən cəlbedici ünsürlərini istər düşmənlərə, istərsə də potensial müttəfiqlərə sirayət etdirməyə istiqamətlənmişdir. Formal baxımdan zahiri ideoloji əlamətləri və aşkar siyasi məqsədləri olmayan belə təbliğat strateji mənada çox səmərəlidir. Psixikanın daha dərin strukturlarına adamların tələbatını və marağını oyadaraq, bu təbliğat davranışı dəyişən uzunmüddətli amillərə təsir göstərir. Bu konsepsiya Amerika təbliğatında aparıcı yer tutur. Cəmiyyətin müxtəlif sosial-siyasi qüvvələrinə, qrup və təbəqələrinə fərqlənqdirici təsir göstərməyin müfəssəl planlaşdırılmasına əsaslanan belə təbliğat təsirin getdikcə güclənən ardıcıl mərhələləri vasitəsilə həyata keçirilir. Amerikanın xarici siyasi təbliğatının başlıca əlaqələndirmə mərkəzi olan YUSIA-nın dünyanın 125 ölkəsində 200-dən çox şöbəsi var.

3. Məntiq qanunlarının gizli şəkildə pozulmasına və təhrif edilməsinə əsaslanan üsullar: tezisin dəyişdirilməsi, səbəbin nəticə ilə əvəz olunması, lüzumsuz təkrar və s. Bu qəbil **"P.m."** cəmiyyətin azsavadlı təbəqələrinə daha çox təsir edir. İnkişaf etməkdə olan ölkələrin bəzilərində antimüstəmləkəçi, milli azadlıq və inqilabi demokratik qüvvələrin bəsit təfsir olunan, əslində yalançı sosialist təbliğatının ilk vaxtlardakı uğurlu təsiri buna misal ola bilər.

Belə təbliğatın təsiri altında əhalinin bir hissəsini öz ardınca apara bilən həmin qüvvələr sonradan çoxlu problemlə qarşılaşdılar. Bu problemləri isə digər səbəblərlə yanaşı, həm də adamlara təsir üçün istifadə edilən üsulların mühüm qüsurları doğurmuşdu. Lakin bir müddət səmərə verən belə üsullar yalnız taktiki xarakter daşıyır, adamların şüuru yüksəldikcə, məlumatı artdıqca öz təsirini itirir.

"P.m." siyasi mübarizədə müstəqil cəhət deyil, siyasi münasibətlər sisteminin hissələrindən biridir. Ona görə də həmin sistemin güclü psixoloji təsir göstərən ünsürlərinin hamısından **"P.m."**-nin üsulları və metodları kimi istifadə edilə bilər.

"P.m." daxili siyasətdə də olur və adətən siyasi opponentlərin təbliğat xarakterli qarşıdurması ilə məhdudlaşır. Lakin ayrı-ayrı hallarda daha mürəkkəb, kompleks səciyyə də ala bilər. İstənilən seçkiqabağı kampaniyanın və ya hakimiyyət uğrunda mübarizənin gedişindəki təbliğat toqquşmalarının daxili siyasətdə "P.m."-yə misal göstərmək olar. Bu haqda siyasi opponentlərin mənəvi əhval-ruhiyyəsini zəiflətmək, onların rəhbərlərini, bu rəhbərlərin fəaliyyətini nüfuzdan salmaq, son nəticədə konkret məqsədlərə nail olmaqdan ötrü ayrı-ayrı adamların baxışlarına və ictimai rəyə təzyiq göstərmək üçün cürbəcür dəlillərə, saxtakarlığa və bəyanatlara, siyasi hərəkətlərə əl atılır.

R

RADİKALİZM - radikallıq (lat. radix - kök sözündən) - siyasətdə qəti metodlara və hərəkətlərə meyl etmək. **R.**-dən əsasən partiyalar və ya partiya fraksiyaları, siyasi hərəkatlar, parlament qruplaşmaları, ayrı-ayrı liderlərdən bəhs edərkən danışırlar. R.müxalifətçi istiqamətdir (bax; **MÜXALİFƏT**). Siyasətdə sağ və sol, habelə inqilabçı **R.**olur. Lakin **R.** siyasətdə ifrat cərəyan deyildir. Mütədil cərəyanlardan fərqli olaraq, əməli mövqedə dayanan qətiyyətli islahatçıların **R.**-i cəmiyyət üçün faydalıdır.

R.tarixi termin kimi ingiltərədə (XIX əsrin sonunda,) sənaye inqilabı dövründə yaranmış və geniş siyasi, fəlsəfi, ədəbi, dini, mədəni və maarifçilik cərəyanları kimi Avropada sürətlə yayılmışdır. XIX-XX əsrlərdə **R.** sosialist, sosial-demokrat meylli sol partiyaların (radikalların, radikal sosialistlərin, hazırda Fransa sosialist partiyasının və s.) ideologiyasına çevrilmişdir.

REDİSTRİBUSİYA (lat. re - ön şəkilçisi, distributum - bölüşdürmə) - qeyri-ekvivalent mübadilə gedişində mərkəzi hökumətin izafi məhsulu öz iradəsi ilə müsadirə edərək sonradan natura şəklində təkrar bölüşdürməsi. indiki dövrdə bu və ya digər məhsul növünün qiymətlərinin mərkəzləşdirilmiş qaydada qaldırılması və əldə olunan vəsaitin təsərrüfatın ayrı-ayrı sahələrinin əlavə maddi-texniki təminatı şəklində dövlət tərəfindən təkrar bölüşdürülməsi **R.**-ya misal ola bilər.

REFERENDUM (lat.referendum - xəbər verilməli olan şey), ümumxalq səsverməsi - ən mühüm dövlət məsələsinə və ya ictimai məsələyə dair xalqın öz iradəsini ifadə etməsi (səsvermə, yaxud rəy sorğu yolu ilə). bax həmçinin Plebbissit.

REFERENT (lat.referens - xəbər verən) - müəyyən məsələ üzrə müşavir və ya məsləhətçi.

REJİM (fr.regime lat.regimen - idarəetmə), politologiyada - hakim sinfin iqtisadi və siyasi hakimiyyəti həyata keçirməsinin üsul və metodlarının toplusu (avtoritar rejim, faşist rejimi və s.).

REKET (ing.racket - hayküy, vurnuxma) - zorla pul qopartma; adətən hədə-qorxu, zorakılıq tətbiq etməklə, girov götürməklə mütəşəkkil cinayət formaları alır.

REKONVERSİYA (lat. reün şəkilçisi, conversia - çevirmə) - müharibə qurtardıqdan sonra iqtisadiyyatın mülki istehsal sahəsinə keçirilməsi.

RENEQAT - bax; **XAİN.**

REPRESSİYA (lat. rerressio - yatırtmaq) - dövlət strukturlarının cəza tədbirləri.

REPRESSİYALAR (lat. rerressalia; rerrehendre - tutub saxlamaq, dayandırmaq, qınamaq), siyasətdə dövlətin, yaxud hər hansı siyasi qüvvənin hüquqlarının pozulmasına cavab olaraq onların bu pozuntunu ləğv etməyə və ya dəymiş ziyanı ödəməyə məcbur etmək məqsədilə əl atdığı tədbirlər və ya göstərdiyi fəaliyyət.

RESPUBLİKA (lat. respublica - dövlət işi, siyasət) - hakimiyyətin suveren hüquqlarının fəaliyyət göstərmək qabiliyyəti olan bütün vətəndaşlar, yaxud onların əksəriyyətinə məxsus idarə forması. Vətəndaşların (xalqın) adından idarəetmə birbaşa seçilən və ya xüsusi qaydalar əsasında xalqın öz iradəsini dolayı şəkildə ifadə etməsi ilə seçilən (seçicilər, vəkil edilmiş şəxslər və s.) nümayəndəli orqanlar tərəfindən həyata keçirilir. Vətəndaşların hakimiyyət hüquqlarından həqiqətən, yaxud formal istifadə etmələrindən asılı olmayaraq, xalqın nümayəndəliyi əsasında həyata keçirilən idarəetmə respublika idarəetməsi sayılır. Vətəndaşların hakimiyyət strukturlarında iştirakının dərəcəsi ayrı-ayrı **R.**-larda və hətta eyni bir **R.**-nın özündə mövcud olduğu müddətdə müxtəlif olur. **R.** idarəetmə forması vətəndaşlara minimum və maksimum azadlıqlar verə bilər: seçkilərdə faktik olaraq əhalinin həm cüzi hissəsinin, həm də böyük əksəriyyətinin iştirakı təmin edilir. R.üçün səciyyəvi olan strukturlar və institutlar (şura, parlament, məclis və s.) geniş demokratik zəmində formalaşdırıla, yaxud sosial qrupların, siyasi partiyaların və hətta nüfuzlu ailələrin hiylə obyekti ola bilər. Buna baxmayaraq, dövlətdə vətəndaşların (xalqın) hakimiyyətə olan suveren hüququnun formal şəkildə

qəbul edilməsi və hakimiyyət orqanlarının seçkili olması R-nı demokratik dövlət quruma saymağa imkan verir.

REVALİZM – tərəfdarları daha çoxdur. Onlar öz ideyalarını dövlətlər və dövlətlərarası münasibətlər əsasında qururlar. Onun baniləri XVI əsrin italyan mütəfəkkiri N.Makiavelli və XIX əsrin Avstriya tarixçisi və hüquqşünası K.Klauzivist olmuşlar. Onlara görə dövlətlər öz siyasi vəziyyətlərini "güc mövqelərindən", daha doğrusu silahlı yolla, zorakılıq vasitəilə həll etməlidirlər. Ona görə də *onları əxlaqi siyasətə* qurban verməkdə təqsirləndirirlər. F. Ratsel pozitiv geopolitikanın mövqelərini müdafiə edirdi. Bu cərəyanın tərəfdarları sonralar "çevik əməliyyat qrupları", "dəmir pərdə", "soyuq müharibə" və s. kimi anlayışlardın geniş istifadə etmişlər.

REVANŞİZM- (fr.revanchisme, revanche - intiqam, qisas) bax; **QİSASCILIQ.**

REYTİNQ (ing. rating - 1). qiymət; 2) mövqe, dərəcə) - idarənin, təşkilatın və ya ayrıca şəxsiyyətin fəaliyyətinin qiymətləndirilmə səviyyəsinin rəqəm göstəricisi; səsvermənin, sosioloji sorğunun, anket sorğusunun yekunları və ya hər hansı nailiyyətin nəticələri ilə əsaslandırılır.

RƏHBƏRÇİLİK - 1) ali səlahiyyətə sahib şəxsin sədaqətinə əsaslanan hakimiyyət tipi. Siyasətdə **R.** ideologiyalaşmış, sərt mərkəzləşdirilmiş cəmiyyətdə mövcud olur və korporativ xarakterli hakimiyyət idarələrində özünü iyerarxiya formasında büruzə verir; 2) Şərqin və Afrikanın patriarxal-zadəgan və qədim- feodal cəmiyyətlərinə mənsub olan, hərbi və ya dini rəhbərin şəxsi hökmranlığı ilə təşkil edilmiş hakimiyyət institutu; özünün geniş inkişafı ilə qeyri-hüquqi tənzimləyicilərin geniş əhatəli sistemi və ictimai vəzifələrin möhkəm nizamlanması ilə xarakterizə olunur.

Hakimiyyətin tarixiliyi nöqteyi-nəzərindən "rəhbər-ardıcıllar" (rəhbərçilik) hakimiyyət mexanizminin sinifli cəmiyyətə qədərki mərhələsində rast gəlinir və arxaik ictimai hadisələrə aid edilir. **R.** bir hakimiyyət institutu kimi özünün ən yüksək zirvəsinə "Şərq müstəbidliyi" adı ilə yüksəlmiş, Afrikada və Şərqdə geniş inkişaf etmişdir.

Kapitalist ictimai münasibətlərinin meydana gəlməsi ilə əlaqədar **R.** Şərqdə də tədricən aradan çıxmış, ictimai hakimiyyət institutu kimi əhəmiyyətini itirmişdir. Lakin siyasi hakimiyyət kimi əhalinin fəaliyyətinin bütün sahələrinə, cəmiyyətin qarşısında duran vəzifələrə mütləq müdaxilə edir. Cəmiyyətin özü dövlətlə eyniləşir və ideoloji doktrina çərçivəsində fəaliyyət göstərən, rəhbərin ideyalarını həyata keçirən vasitə kimi qiymətləndirilir (Məsələn, panislamizm, yaxud dünya kommunist inqilabı, minillik reyx ideyaları və s.). Qanun yalnız icazə verilən tip üzrə qurulur (belə ki, konkret normativ sənədlər üzrə icazə verilməmiş hər bir şey qadağandır) və ictimai davranışın yeganə tənzimləyicisi hesab edilmir. Siyasi davranışların normativləri sayılmır. Siyasi davranışların normativləri ideoloji sahədə çalışan nüfuzlu şəxslərin (onların arasında ən ali və toxunulmaz şəxs rəhbərdir) iyerarxiyalarına əsasən yaradılır. Belə şəraitdə rəhbərin səlahiyyət və hüquqları hüdudsuz və nəzarətsizdir.

R.-in əsas xarakterik cəhəti irrasional məqamlarda adi şüurun (etno-mədəni stereotiplərin istifadə edilməsi) dərk olunmasından ibarətdir. Buraya rəhbərin xarizmatikləşdirilməsi və atributlaşdırılması da aiddir. Birinci halda, konkret tarixi şəxsə qeyri adi qabiliyyət verilir, məs., tarixi inkişafın məqsədini əvvəlcədən görür (yalnız teleoloji cəhətdən başa düşülür). Həmin şəxsin adından, ideologiyada qanunlaşdırılan həm xəyali, həm də həqiqi varisləri çıxış edirlər. İkinci halda söhbət, onun yerinə göz dikən varisi qane edəcək meyarların miqdarından gedir. Bir qayda olaraq, rəhbərin simasına uyğun gələn, ideoloji doktrina tərəfindən qanunlaşdırılan bu xarici illüziyalı oxşarlıq formal əlamətlərə görə (bir silkə mənsub olması, tərcümeyi-hal faktlarının və dünyagörüşlərinin uyğunluğunu etiraf etmək və s.) həyata keçirilir. Obrazın özü lazım olan atributla konkret ənənəvi mədəniyyətə (məs. paternal, messian mədəniyyət, burada doktrinanın yaradıcısı olan rəhbər peyrəmbər-

lə eyniləşdirilir) əsaslanır.

Müasir dünyada **R.**-in xarici əlamətlərinə görə meydana gəlməsi, onun teokratik formaları (İran Xomeyni dövrü) nəzərə alınmazsa, hakimiyyət sistemi kimi kliyentelizm, nepotizm, tribalizm adlanır. O, ilk növbədə Afrikanın avtoritar dövlətlərində daha geniş yayılmışdır. Hərbiləşdirilmiş müsəlman dövlətləri üçün nepotizm və tribalizm formalarının birləşməsi xarakterikdir. Birinci halda qohumluğa və ikincidə isə yerliçilik əlamətlərinə görə qruplaşır.

R.-in bütün növləri üçün ümumi cəhət odur ki, onların arasında aşağıdakıların yuxarıdakılara və hamının birlikdə, qəbilə başçısına şəxsi sədaqət və sitayişi tələb olunur. Qəbilələr arasında əlaqələr də "kiçik" birləşmənin (qrupun) daha güclü qruplara tabeçiliyi sisteminə əsaslanır. **R.** hakimiyyət tipi olmaq etibarilə qeyri-dinamik, avtoritar və totalitar cəmiyyətlərə məxsusdur.

"Rəhbər-ardıcıllar" qrupuna daxil olanların özləri, təmsil etdikləri hakimiyyətdən asılı olduqlarını dərk etmirlər.

Ümumi hakimiyyət şəraitində, şüurun ən arxaik formalı dünyagörüşə əsaslanan cəmiyyətdə **R.** nəzarətsizlik şəraitində inkişaf edir. Arxetipik quruluş **R.** ideologiyasına təsir edən üç elementdən ibarətdir:

1) Mövcud cəmiyyətin bütün fərdlərinin "biz-onlar" prinsipinə əsasən bölünməsi (bu prinsip fərdlərin özünüdərketmənin bütün mərhələlərində müxalifətin ən son həddi olan "asimanın altında yaşayanlar - vəhşi xalqlardır", "müsəlmanlar - kafir, mürtəddirlər"dən tutmuş kiçik qrupların səviyyəsində "özümüzünkü- başqası"na qədər);

2) Tipin təsis edilməsi: "Cəmiyyətdə hakimiyyətə münasibətdə bitərəf vəziyyət yoxdur", müxalifətin "ya bizimlə, ya da bizim əleyhimizə"dən tutmuş obyektiv formada öhdəsinə qoyma vəziyyətinə qədər (rəsmi şəxs açıq-aşkar imtina etdikdə o cinayətkar hesab edilir);

3) hakimiyyətə olan iddialarda anadangəlmə hüququ olan ("alicənab" yaxud "proletar" mənşəyindən asılı olmayaraq).

R. daxili terror və xarici siyasətdə ekspansiv xarakter daşımasına baxmayaraq o, hakimiyyətin nisbətən davamlı tipi hesab edilir (ayrı-ayrı konkret şəxslər, rəhbərin davamçıları tez-tez dəyişə də bilər). Bu, bir tərəfdən də, dövlətin tərkibində böhran vəziyyəti yarandıqda, hüquqi normativlər işləmədikdə, adi şüurun arxetipi ictimai əxlaqın yeganə sarsılmaz tənzimləyicisi rolunu oynayır. Onun strukturu konkret tənzimləyici vəziyyətini yerinə yetirən və dünyagörüşünü istiqamətləndirən stereotiplərin məzmunu ilə doldurulur. **R.** siyasi hakimiyyət kimi, məhz bu qəbildən olan tənzimçilərə bel bağlayır ki, hüquqi xaos vəziyyəti yarandığı zaman onun sarsılmaz vəziyyətini təmin etsin.

Eyni zamanda, hakimiyyət piramidasının bünövrəsində qərar tutmuş tayfaya, onun başçısı və ən nəhayət, ali xarizmatik rəhbərə şəxsi sədaqət imkan verir ki, ən qısa müddətdə mərkəzləşmiş qüdrətli hakimiyyət aparatına təslim olsun. Belə aparat, "qayda-qanun yaratmaq" prosesi zamanı onun üzvləri arasında tez bir vaxtda qeyri formal əlaqələri effektli şəkildə gücləndirir, adi şüura malik olanların böyük əksəriyyəti arasında rəqabət qazanır. Bu zaman idarə orqanlarında **R.**-yə xas sakralizasiya baş verir. Cəmiyyətin total ideologiyası, rəhbərliyin inzibati orqanları tərəfindən nəzarətin artırılması, əhalinin müxtəlif qruplarının siyasi maraqlarının differensial formada başa düşölməsinə maneçilik törədir. Vətəndaşların şəxsi həyatlarının müəyyən qaydalara qəti surətdə tabe edilməsi, konkret fərdlərin şüurlarının formalaşmasına və onların yenidən bərpa olunmasına xidmət edir. Hakimiyyətə hörmət əsasında, vətəndaş konformizmi, siyasi loyallıq nəticəsində gətirilməsinin özü **R.**-in mövcudluğu üçün münbit zəmin yaradır.

R. eyni zamanda, cəmiyyətdə qanun çərçivəsində strukturlar yaratmağı tələb edir ki, elitaya nümayəndələr heç bir seçki olmadan, yalnız şəxsi əlaqələr əsasında daxil edilir. **R.** həmi də, hakimiyyətin institutlarının nümayəndəliyi formasında da mövcud ola bilər, lakin burada real siyasi təsir və funksiyaların yerinə yetirilməsi

nominal vəziyyətdə (kağız üzərində, formal), onların fəaliyyətləri isə "rəhbər-ardıcıllar" münasibəti çərçivəsində olur və hakimiyyət faktik olaraq qeyri-dövlət idarələrinin himayəsinə keçir. (Məs. klerikal təşkilatlara və ya bir kütləvi partiyanın əlinə keçir).

Müasir dünyada pərdələnmiş formalarda mövcud olan **R.** "üçüncü dünya" dövlətlərinin bir çoxunun ictimai həyatında mühüm rol oynamaqda, onlara siyasi təsir göstərməkdə davam edir. Bununla belə, iqtisadiyyatın inkişafı və modernilləşdirməsi, hətta həmin spesifik siyasi münasibətlər daxilində də həyata keçirilə bilər. Totalitarizmin inkişaf etdiyi dövlətlər üçün səciyyəvi olan **R.** demokratik proseslərin inkişafı ilə əlaqədar sıxışdırılıb aradan çıxarılır.

ROYALİZM (fr.royalisme; royal - kral adamı) - Qərbi Avropada monarxiyaya tərəfdar olmağa əsaslanan siyasi cərəyan. "R." termini ilk dəfə XVIII əsrdə - Böyük Fransa inqilabı zamanı Burbonlar monarxiyasının tərəfdarlarını bildirmək üçün işlədilmişdir.

S

SAĞLAR-SOLLAR-siyasi qüvvələr meydanında iki ifrat zonanın - mühafizəkar - qoruyucu və müvafiq olaraq, dəyişdirici - radikal meylli zonaların fərqləndirilməsi. "Sağlar" və "Sollar" terminləri Böyük Fransa inqilabı (XVIII əsr) dövründə yaranmışdır. Müəssisələr məclisi üzvlərinin iclas salonunda oturduqları yerlərlə bağlı idi; mühafizəkar fikirli üzvlər sədrdən sağ tərəfdə, radikal ruhlu üzvlər isə sol tərəfdə otururdular. Hazırda S.-S. terminləri siyasi partiyaları, ictimai hərəkatları, bu və ya başqa təşkilatları kütləvi informasiya vasitələrinin proqramlarının yönünü, habelə bu və ya digər şəxsiyyətin siyasi əqidələrini və mövqelərini səciyyələndirərkən işlədilir.

Bir qayda olaraq, bu və ya digər ölkədə sol müxalifətin qələbəsi hakimiyyət başında duran qüvvələri mərkəzçi mövqe tutmağa vadar edir. Bu isə həmin qüvvələrin parçalanmasına və onların içərisində yeni sol cinahın yaranmasına kömək edir. Eyni zamanda qalib gələn mühafizəkar, sağ qüvvələr sol müxalifətin təzyiqini nəzərə alaraq sağ-mərkəzi mövqeyə meyl etməyə məcbur olurlar. Nəticədə onların içərisində yeni sağ-mərkəzçi cərəyanların meydana çıxmasına şərait yaranır. Beləliklə, **S.** -c. terminləri konkret siyasi şəraitdə konkret məna kəsb edir.

SANKSBYA (lat. sanctio - pozulmaz qərar) - "ən ciddi qərar, "bəyənmə", "hakimiyyət mənbəyi", "məcburi tədbir" və s. kimi çox müxtəlif mənalarda işlədilən termin. **S.** hüquq normasının bir hissəsi kimi başa düşülür. Lakin bütün mənalarda **S.** hökmedici, nüfuzdan irəli gələn, amiranə, yaxud hətta danışıqsız əməl edilməli tədbir kimi qəbul olunur. "S". anlayışı nəyisə sıxışdırıb çıxarmaq və qadağan etmək (ədalətli) cəhdi ilə bağlıdır. Latınlar deyirdilər ki, ədalətsiz **S.** layiqli, hörmətli olana əməl etməyi əmr edir, ədalətli **S.** isə bunu qadağan edir.

Müasir dövrdə **"S".** anlayışı üç mənada işlədilir. 1) Xüsusi hakimiyyətə malik şəxs tərəfin-

dən hər hansı hərəkətə S., icazə verilməsi (məs; prokurorun axtarış, həbs üçün icazə verməsi). Belə icazə xüsusi sənədlə və ya sənəd üzərində dərkənar yazılmaqla verilir. Lakin yüksək vəzifəli rəhbərin icraçıya şifahi icazə verdiyi hal da ola bilər. Buna o halda təsadüf edilir ki, belə göstəriş olmadan müvafiq hərəkətlərin hüquqi baxımdan edilməsi mümkün dey ildir. S. verilməsi qanunyaratma işi sahəsində də müşahidə olunur. Bəzi hallarda dövlət hüquq normasını özü dərc etmir, bunu hansısa başqa bir quruma həvalə edir. S. təkcə ilkin deyil, həm də sonradan ola bilər (məs., konkret firmanın, kiçik müəssisənin nizamnaməsi müəyyən olunmuş qaydada qeydiyyatdan keçdikdən sonra hüquqi akt qüvvəsi kəsb edir). 2) Davranış qaydasının yerinə yetirilməsinin və ya yetirilməməsinin nəticələri (normanın dispozisiyası) S.-nın hüquq normalarının bir hissəsi kimi anlaşılır. əgər hüquq normasında onun mümkün nəticələri göstərilməsə, həmin norma öz əhəmiyyətini itirmiş olar. Lakin bunlar qanunun heç də hər mətnində birbaşa göstərilmir.3) Hüquq normasının xarakterindən asılı olaraq,onun S.-ları da fərqləndirilir. Bu, S.-nın üçüncü mənasıdır : hüquqi tələblərin yerinə yetirilməsi,yaxud yetirilməməsinə görə görülən tədbirlərdir.

Həvəsləndirici S.-lar (S.-nın bu növünü heç də hamı qəbul etmir, çünki həvəsləndirici hüquq normaları barədə yalnız son vaxtlar yazmağa başlamışlar) normaların dəqiq yerinə yetirilməsinin bəyənildiyini əks etdirir və qanunauyğun davranışı stimullaşdırma məqsədi daşıyır.

Hüquqbərpaedici S. -lar pozulmuş vəziyyətin bərpa olunmasına yönəldilmişdir (məs., sövdələşmənin qanunsuz sayılması, qanunsuz aktın ləğvi və s.)

Cəzalandırıcı S. -lar dedikdə, şəxsin müəyyən maddi və ya ideal rifahından məhrum edilməsi (cərimə, azadlıqdan məhrumetmə, töhmət, hər hansı addan məhrumetmə və s.) nəzərdə tutulur.

S. hüquq sahələrinə görə təsnif edilir: cinayət hüququ normaları, inzibati hüquq normaları, mülki hüquq normaları və s.

Təsərrüfat, mülki hüquq, maliyyə əlaqələrinin iştirakçıları arasındakı münasibətlərin özünəməxsus cəhətləri əsas götürülməklə müqavilə, kredit S. -sı da olur.

S.-nın konkret növləri çox müxtəlifdir. Təsərrüfatçılığın bir sistemindən başqasına, bir həyat tərzindən digərinə keçidlə əlaqədar S.-nın konkret növlərinin nisbətində dəyişikliyin olması da zəruridir.

SEÇKİ SİSTEMİ - müəyyən tipli hakimiyyətin təşkilini təmin edən qayda və üsulların məcmusu, dövlətin nümayəndəli qanunverici, məhkəmə və icra orqanlarının formalaşdırılmasında cəmiyyətin iştirakı, seçkilərin nəticələrinin legitimliyinin qəbul edilməsi üçün qanunvericiliyə görə kifayətedici sayılan əhali hissəsinin öz iradəsini bildirməsi.

Seçkilərin uğurla keçirilməsi və onun nəticələrinin ictimaiyyət tərəfindən qəbul edilməsi həmin cəmiyyətin qarşısına qoyduğu problemləri siyasi vasitələrlə, sülh yolu ilə həll etməyə qadir olduğunu sübut edir.

Ümummilli prezident və parlament seçkiləri, yerli özünüidarə orqanlarına, ştatlara, yaxud buna müvafiq inzibati ərazi vahidlərinə, həmçinin yerlərdə bəzi yüksək vəzifəli şəxslər (hakimlər, ədliyyə nümayəndələri və b.) üçün seçkilər mövcuddur.

Müasir seçki sistemlərinin təşəkkülünə qədər müəyyən dövr keçmiş, bir sıra ölkələrin vətəndaşları onlara demokratik əsaslarla seçki hüququ verilməsi, cürbəcür silki, mülki, təhsil, irqi və milli məhdudiyyətlərin - senzlərin ləğv edilməsi uğrunda uzun illər mübarizə aparmışlar. Senzin mövcudluğu - seçki sisteminin qeyri demokratikliyinə dəlalət edir. Əksinə, inkişaf etmiş cəmiyyətdə vətəndaşların seçki hüquqlarından istifadə etmələri üçün konstitusiyada bütün hüquqlar verilir., hər iki cinsdən olan, həddibuluğa çatmış vətəndaşlara (məhkəmənin qərarı ilə iş qabiliyyəti olmayanlar səsvermə hüququndan məhrum olunanlar istisna edilməklə) səhhətindən, ictimai dini mənsubiyyət və vəziyyətindən, peşə-əmək məşğuliyyətindən, dərisinin rənginden, milliyyətindən, dinindən bu və ya digər dil qrupuna mənsub olmasından, bu ölkəyə

gəlmə müddətindən və s. asılı olmayaraq hamı seçki hüququndan istifadə edir. Həmin ölkədə səsvermə hüquqlarından istifadə edən şəxslər, onun elektoratını (ing. slect - seçmək) təşkil edir. Seçki hüquqları, məhdudlaşdırılanda elektoratın sayı azalır və əksinə, ümumi seçki qaydaları tam tətbiq olunduqda isə onun sayı ən yüksək həddə çatır. Lokal (məhdudiyyətli), əyalət (ştatlarda) və dövlət strukturlarının başqa seçkilərində muxtariyyət hüququ olan (muxtar vilayət, diyar, respublika və s.), qanunvericiliklə seçki hüququ verilmiş bütün şəxslərin (elektorat) bu cür seçkilərdə iştirakı müəyyən edilir. Xaricdə daimi və ya müvəqqəti yaşayan, lakin seçki hüquqlarından məhrum olunmamış həmin ölkənin vətəndaşları üçün də seçkilərdə iştirak etmək qaydaları qanunverici orqanlar tərəfindən təyin olunur. Elektoratın seçkilərdə maksimum iştirak etməsi seçicilərin siyasi fəallığını göstərir.

Öz namizədlərinin seçilməsində həlledici rol oynayacaq seçicilərin mübarizəsinin strategiya və taktikasını siyasi partiyalar və ictimai təşkilatlar müəyyən edirlər; özlərinin bitərəf və partiyadan kənar olduqlarını bəyan edən namizədlər də ənənəvi kütləvi xalq hərəkatı və təşkilatlarına münasibətlərində analoji məqsədi rəhbər tuturlar.

Seçki sistemidə mövcud olan müxtəliflik üç qrupa ayrılır: majoritar, proporsional və azlığın nümayəndəliyi. Majoritar sistemdə səsvermədə sadəcə səs çoxluğu əldə etmiş, namizəd seçilmiş hesab edilir, belə ki, 50% + bir səs. Bir qayda olaraq belə seçki sistemi ikipartiyalı dövlətlərdə mövcud olur. Majoritar seçki sistemində belə bir variant da mövcuddur ki, deputat daha çox səs topladıqda da seçilmiş hesab olunur. Belə təcrübə üç və daha çox partiyalı sistemdə mövcud ola bilər. Bəzi ölkələrdə (məs., Fransa, Rusiya və s.) majoritar seçki sistemi iki mərhələdə keçirilir. Belə sistemdə səsvermənin ikinci mərhələsinə birinci mərhələdə ən çox səs yığmış iki namizəd buraxılır.

Majoritar sistemdə partiyaların sayından asılı olmayaraq əgər qalib gəlmiş partiya

daha böyük üstünlük əldə etmişsə, seçicilərin səslərinin əslində 49-i itirilir. Ona görə də daim müxtəlif siyasi qüvvələrin ədalətli şəkildə təmsil olunmasına zəmanət verən sistemi axtarılır. Bu, hər şeydən əvvəl bir də ona görə vacibdir ki, parlamentdə nümayəndəsi olmayan hər hansı bir siyasi hərəkat və ideya tərəfdarları birliyi də bəzən parlament mübarizəsində iştirak edə bilsin.

Bu məqsədlə məhdud majoritar sistemlərdən istifadə edilir. Belə sistemlərdən birinin variantı belədir: məs., az səs toplayanlar üçün müəyyən norma qoyulur. (məs., deputat mandatının üçdə biri). Başqa bir halda isə, xırda partiyalar tərəfindən toplanmış bütün səslər ya iri ərazidə, ya da ölkə miqyasında hesablanır. Belə sistemdə mandatlar proporsional sürətdə bölünür.

Proporsional nümayəndəlik o deməkdir ki, orada mandatlar yığılan səslərin sayına görə ciddi şəkildə bölünür. Belə seçki sistemində praktik olaraq bir sıra çətinliklər qarşıya çıxır. Belə ki, əgər hər bir seçki dairəsindən bir deputat seçilirsə, onda belə sistem əslində majoritar hesab olunmalıdır. Bəzi ölkələrdə bu problemi dairələrin birləşdirilərək böyüdülməsi və orada bir neçə deputatın seçilməsinə icazə verilməsi yolu ilə həll etməyə cəhd göstərilir. İlk baxışda bu, problemin həlli kimi başa düşülür. Lakin təcrübədə isə hər bir seçki dairəsi üçün həqiqi proporsionallığı təmin edəcək qədər mandat vermək mümkün olmur. Bundan əlavə, bir sıra ölkələrdə namizədlər üçün səslərin minimum variantı müəyyən edilir. Həmin minimum həddindən az səs alanlar, sadəcə öz səslərini itirmiş olurlar. Seçkiqabağı ittifaqların, blokların yaradılması, hətta xırda partiyaların qovuşması meyli buradan irəli gəlir.

Hər bir ölkədə seçki sistemi öz partiya və cəmiyyətlərinə marağın nə səviyyədə olmasına və mövcud siyasi konsepsiyalara və ənənələrə uyğun təşkil edilir. Amerika seçki sistemi orada mövcud olan siyasi ənənələrə, "Amerika modelinin" xarakterinə uyğun gəlir, eyni zamanda onun mühafizəsi və genişləndirilməsinə imkan yaradılır. İtaliya sistemi (proporsional) bu

ölkədə olan siyasi mühitin müxtəlifliyini, mövcud olan əsas baxışları, eyni zamanda siyasi şüurların müxtəlif çalarları, əhalinin müxtəlif sosial strukturlarını və s. nəzərə alır. Ölkənin parlamentində ona qədər müxtəlif partiya təmsil olunur. Fransada seçki qanunu siyasi mübarizəni şiddətləndirən obyektə çevrilmiş və bir neçə dəfə siyasi qüvvələrin nisbətindən asılı olaraq xeyli dəyişikliyə məruz qalmışdır.

AFR-in seçki sistemində xırda partiyalara qarşı ədalətsizlik hökm sürür. Bu partiyalarda əhalinin xeyli hissəsi təmsil olunmuşdur. Onu xatırlatmaq kifayətdir ki, Almaniya birləşməndən sonra 5 faizli maneə qaydasının tətbiqi ilə əlaqədar keçirilmiş müzakirələr böyük diskussiyaya səbəb olmuşdur. Bu seçki sistemi, müəyyən mənada, parlamentin sabitliyinə təminat verir. Bununla belə, seçki korpusunda məlum mühafizəkar xüsusiyyətləri də saxlayır, nəticədə daxili gərginliyin saxlanmasına şərait yaranır, eyni zamanda parlamentdə və partiyalar içərisində ona qarşı ictimai narazılıq davam edir. Qəzəb, hiddət psixoloji və idarəolunmaz şəkil alır. Ona görə də seçki sistemi siyasi azlıqlara da ədalətli nümayəndəliklə təmsil olunmağa imkan verməlidir. Çünki Avropa təcrübəsinin göstərdiyi kimi, onlar tez bir zamanda çoxluq təşkil edə bilərlər.

Lakin əsas məsələ xırda partiyaların taleyini nəzərə almaqda deyil. Bir mandatlı dairə seçki sisteminin əsas nöqsanı ondan ibarətdir ki, o, təkcə ölkə daxilində deyil, eyni zamanda hər bir dairədə siyasi əlamətlər üzrə parçalanma yaradır və onu əbədiləşdirir. Əslində isə əgər həmin dairə parlamentdə uzun müddət eyni bir partiya ilə təmsil olunursa, deməli, orada müəyyən siyasi fatalizm, konformizm və passivlik yayılmasına təsir edə bilər. Seçicilərin bir hissəsi "öz" nümayəndələrinə, onun dünyabaxışına, partiyasına olan siyasətinə öyrənib alışır. Seçicilərin başqa siyasi partiyaya meyl edən o biri həssəsi isə tədricən marginalizmə məruz qalır. Digər tərəfdən, mövcud vəziyyət kliyentelizm və korrupsiya doğurur: seçilmiş deputat, nəinki, öz seçicilərinin və təşkilatlarının qayğısına qalır, abadlıq işləri, mənzil tikintisi, ictimai qurğuların yaradılması ilə məşğul olur, həmçinin ayrı-ayrı lazımi adamları və müxtəlif təşkilatları müdafiə edir. Başqa partiyaya mənsub olan deputatlara isə yerli özünüidarə orqanlarında lazımi şərait yaradılmır, bəzi hallarda isə onların fəaliyyətinə qarşı sabotaj təşkil edilir. Belə faktlar xüsusən Cənubi İtaliyada çoxdur.

Müxtəlif seçki sistemlərinin əməli olaraq həyata keçirilməsində deputat korpusunun siyasi mədəniyyətinin və deputatın formalaşmış konsepsiyasının böyük rolu vardır.

Daha çox perspektivi olan konsepsiyalar aşağıdakılardır:

- deputat parlamentdə öz partiyasını təmsil edir; o, partiyasının siyasi proqramını müdafiə və izah edir.

- deputat seçicilərdən aldığı mandatı müdafiə edir, o, hər şeydən əvvəl, özünə və proqramına səs vermiş seçicilərini təmsil edir, onların tapşırıqlarını həyata keçirir;

- deputat parlamentdə öz seçki dairəsində onun əleyhinə çıxan, yaxud bitərəf qalan seçiciləri təmsil edir; o, öz seçki dairəsinin ümumi ictimai, iqtisadi və siyasi maraqlarını müdafiə edir;

- deputat yerli, şəhər və əyalət özünümüdafiə orqanlarında müxtəlif sosial təbəqələri müvafiq ərazinin bərabər hüquqlu vətəndaşları kimi təmsil edir;

- deputat, həmçinin milli və xalq suverenliyini ifadə edəndir, belə ki, o, bütün səviyyələrdə millətin, bütünlükdə ölkənin, ayrılıqda hər bir sosial təbəqənin, hər bir etnik və dini qrupun maraqlarını müdafiə edir; bu yolla millətin nisbi və sosial tərəqqiyə doğru irəliləyişi təmin edilir.

Təmsilçilərin məzmunlu aspektlərinin həyata keçirilməsi seçki sistemindən olan neqativ halları müəyyən dərəcədə aradan qaldıra bilər.

SEKULYARİZASİYA (fr. secularisation, son lat. secularis-dünyəvi) - bax; **DÜNYƏVİLƏŞDİRMƏ.**

SENAT - Ölkələrin əksəriyyətində parlamentin yuxarı palatasının adı. Bəzi ölkələrdə S. birbaşa (ABŞ, İtaliya) yaxud çoxdərəcəli (Fransa) seçki yolu

ilə yaradılır, digərlərində dövlət başçısı bütünlüklə (Kanada, Iordaniya), yaxud qismən (İrlandiya) təyin edir. Bir çox ölkədə S. hər 2-3 ildən bir qismən təzələnir.

SENZURA (lat. sensura - siyahıya alıram) - mətbuat azadlığını məhdudlaşdıran tədbirlər; bunların həyata keçirilməsi ilə məşğul olan idarə. Ilkin və sonrakı (cəzalandırıcı) S. mövcuddur. Ilkin S.-nın banisi papa IV Sikst sayılır. Onun 1471-ci ildə verdiyi göstərişə əsasən bütün kitablar çap olunmazdan əvvəl ruhanilər tərəfindən təqdir olunmalı idi. Xüsusi S. idarəsini isə ilk dəfə 1486-cı ildə Maynts arxiyepskopu öz tabeliyindəki vilayətdə yaratmışdı. XVI əsrdə Qərbi Avropanın bütün dövlətlərində S. tətbiq olunmuşdur.

Müasir Qərb ölkələrində sonrakı S. yəni "ləkələyən və yalan" məlumatların mətbuatda yayılmasına görə cinayət məsuliyyəti (cərimə, nəşrin müsadirəsi və qadağan edilməsi, tirajın həbsi və s) nəzərdə tutulurdu.

Keçmiş SSRi-də "Mətbuat və digər kütləvi informasiya vasitələri haqqında" qanuna əsasən 1990-cı il avqustun 1-dən S. ləğv olunsa da, mətbuatda dövlət sirlərini qoruyan idarə fəaliyyətini başqa şəpkidə davam etdirirdi.

Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsinə əsasən kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır. Azərbaycanda rəsmi olaraq prezident fərmanı ilə S. 1998-ci ildə ləğv edilmişdir.

SEPARATÇILIQ - (fr. seraretisme; lat. seraratus - ayrıca) - bir qayda olaraq, çoxmillətli dövlətlərdə milli azlıqlar arasında təzahür edən və müstəqil dövlət, yaxud milli-ərazi muxtariyyəti yaradılmasına yönəldilən cəhd.

SƏFİRLİK - səfirin, yaxud 1-ci dərəcəli digər diplomatik nümayəndənin başçılıq etdiyi diplomatik orqan. Beynəlxalq münasibətlər praktikasında bir ölkədən digərinə hər hansı mərasimdə (məs., milli bayram təntənəsində, dövlət başçısının dəfnində və s.) iştirak etmək üçün göndərilən fövqəladə S. də olur. Müasir beynəlxalq praktikada çox zaman xüsusi hökumət nümayəndə heyəti fövqəladə S. adlandırılır.

SƏLAHİYYƏTLƏR- 1) vəzifəli şəxsə həvalə olunan hüquq və vəzifələrin, həmçinin onları həyata keçirmək üsullarının dəqiq təsvir edilmiş siyahısı; 2) səlahiyyət sahibi olan orqanın vəzifəli şəxsə, vəzifəli şəxslər qrupuna, yaxud ictimai təşkilatın üzvünə (üzvlərinə) konkret tapşırıqları. Bir sıra dövlət təsisatları və ictimai təsisatlar vermiş olduqları səlahiyyətləri xüsusi sənədlərlə (məs., diplomatik münasibətlər təcrübəsində etimadnamələrlə) təsdiq edirlər.

SƏNAYE CƏMİYYƏTİ - istehsalatda əsas aparıcı rolu elmi-texniki fəaliyyət təşkil edən, istehsalı maşınlar vasitəsilə həyata keçirilən, fabrik təşkilatlarına və yüksək əmək intizamına malik olan, mal ixracı və satışı üçün özünün ümumilli bazarları və təsərrüfat sistemi olan, cəmiyyətin yüksək inkişaf səviyyəsinə çatmış mürəkkəb tipi. Bir qayda olaraq tərəqqi etmiş qabaqcıl S. c. təsnifatda onunla tamamilə əks qütbdə duran "ənənəvi" aqrar, "kəndli", "Asiyasayağı" və s. cəmiyyətlərin az hərəkətli tipləri ilə müqayisə edilir, onlara qarşı qoyulur.

"S. c". terminini A. Sen-Simonun adı ilə bağlayırlar. Sonralar **S.c.** konsepsiyası klassik sosioloqlar O. Kont, A. Tokvil, K. Marks, E. Dyurkheym və başqalarının ideyaları ilə zənginləşmiş və ona yeni məna çalarları əlavə olunmuşdur. S.c.-in ən yüksək çiçəklənmə dövrü XX əsrin ortaları hesab olunur və onun haqqında rəsmi akademik nəzəri mülahizələr və mühüm konsepsiyalar da məhz bu illərdə hazırlanmışdır. Qərb sosioloqlarından J. Furastye, R. Aron, R. Darendorf, U. Rostou, C. Kelbreyt və **başqaları S.** c. haqqında müxtəlif nəzəri fikirlər irəli sürmüşlər. Həmin dövrdə **"S.c."** anlayışı marksistlər tərəfindən işlədilən "kapitalist cəmiyyəti" anlayışı ilə rəqabətdə olub əks qütblərdə dururdu. Bu, o məqsədlə həyata keçirilirdi ki, kapitalizm cəmiyyəti ilə sosializmi lap ilk gündən, başlanğıc dövrdən bir-birinə qarşı qoymaq, onları **S.c.** nin eyni tipinə mənsub olan, istehsal qüvvələrinin inkişafına kömək edən və ümumi sərvət yığmaq vəzifələrini yerinə yeti-

rən eyni cəmiyətin müxtəlif tipləri olduğu sübuta yetirilsin. S.c. haqqında nəzəriyyələrə görə kapitalizm -XIX əsrdə XX əsrin əvvəllərində yalnız Avropada yaranmış cəmiyətlər ilə məhdudlaşan S. c. -nin ilk keçid formasıdır. Keçmiş SRı-də mövcud olmuş və sonralar başqa ölkələrdə meydana gəlmiş sosializm cəmiyyəti isə feodal münasibətlərinin və həyatın zorla hərbiləşdirilməsi nəticəsində sıxışdırılıb başqa formaya salınmış ilk sənayeləşdirilmiş sistemin qalığı idı.

Müasir dövrdə inkişaf etmiş S.c. üçün işləyən əhalinin ilkin (kənd təsərrüfatı), ikinci (sənaye) mərhələlərin üçüncü (xidmət) mərləhəsinə axını xarakterik haldır. Bu kütləvi işsizliyi aradan qaldırır, birinci və ikinci bölmələrdə əldə edilən məhsulun gəliri ilə tələbat arasındakı münasibətlərin tədricən bərabərləşməsini təmin edir və baş verə biləcək sosial fəlakətin, sarsıntıların təhlükəsini azaldır. (Furastyenin nəzəriyyəsi).

Keçmiş sosialist ölkələrində isə təsərrüfat sektorları arasındakı nisbət hələlik saxlanılır. Lakin "ümumi sənayeləşmənin məntiqi" bütün cəmiyyətləri özünün əsas institutları və təsərrüfatı təşkil üsullarını bir-biri ilə yaxınlaşdırmaq (konvergensiya) istiqamətində yünəldir. Cəmiyyətin sənayeləşmiş səviyyəsi nə qədər yüksək olsa, bu uyğunlaşma ənənəsi də bir o qədər də qüvvətli olur. S. c. -nin konsepsiyası-konvergensiya modernləşmə nəzəriyyəsinin və menecrlərin texnokratik inqilabının ayrılmaz bir hissəsidir. Kapitalizm cəmiyyəti S.c. -nin aradan çıxmaqda olan bir mərhələsidir. Bu cəmiyyətdə sənaye istehsalı, demək olar ki, bütünlüklə şəxsi adamların əlində cəmləşir və sahibkar eyni zamanda onun həm yiyəsinə, həm də əsas idarəedici qüvvəsinə çevrilir.

Sənaye təşkilatlarının kapitalı üzərində şəxsi mülkiyyətin təsirinin artması ilə əlaqədar olaraq müəssisələrdə hakimiyyət və idarəetməyə nəzarət xeyli azalır, çünki burada nəzarət daha çox ümummilli sistem olan "sosialist bazar təsərrüfatına" keçir."Yeni hakim sinifin" hakimiyyəti hüquqdan daha çox informasiya üzərində ekspert nəzarətinə əsaslanır. Bu fikir, qismən də olsa Sen-Simonun S.c.-nin olunması haqqında utopiyasının davamıdır.

S.c. haqqında irəli sürülən nəzəriyyələr arasında daha çox siyasi əhəmiyyət kəsb edən, Tokvilin fikirlərindən irəli gələn ənənəvi demokratikləşmə barədəki mülahizələr mühüm yer tutur. Burada nəsildən-nəslə keçən varislik hüququ, ictimai, irqi fərqlər ləğv edilir, ənənəvi silk üstünlüyü və iyerarxiya aradan qaldırılır, vətəndaşların qanun qarşısında ümumi bərabərliyi haqqındakı hüquqları tam şəkildə bərqərar edilir. XX əsrdə yaşamış bir sıra Qərb sosioloqları, (T. Marşall, T. Parsone. R. Bendiks və başqaları) məhz siniflərə bölünmə sisteminə qarşı duran vətəndaşların hüquqları (hüquqi, siyasi, sosial və s.) sisteminin inkişafında siniflər arasında barışmaz qütbləşmənin (proletarlar və kapitalistlər), həmçinin K. Marks tərəfindən irəli sürülən zorakı inqilabın yoxluğunu axtarmağa çalışırdılar. Yalnız S.c. -nin ilk mərhələsində sinfi münasibətlər barışmaz, kəskin konfliktlərin mənbəyi olmuşdur. Sinfi ziddiyyətlər XIX əsr üçün daha xarakterikdir. Onlar, sonrakı illərdə, tədricən hüquqi qiymət aldıqca, ümumi əmək sazişləri və kollektiv müqavilələrin formaları inkişaf edib çoxaldıqca, fəhlə təşkilatları qanuniləşdikcə ziddiyyətlər də tədricən yumşalmışdır. Tokvilin əvvəlcədən dediyi kimi, demokratik hərəkat, əhalinin bütün təbəqələri üçün siyasi vətəndaşlıq hüquqları (ümumi səsvermə və siyasi partiyalar yaratmaq hüququ) genişləndikcə, sənayenin inkişafı sürətləndikcə cəmiyyət təbəqələşməyə doğru deyil, orta təbəqələrin sayının çoxalmasına doğru aparır. Sinfi qütbləşmə yox olur. Bununla bərabər sinfi antaqonizm də aradan qalxır. Siniflər arasında sədlərin, hər cür maneələrin yox edilməsi bir sıra hüquqi bərabərlikləri bərqərar edir, təhsilə olan imkanları artırır.

S. c. -nin müasir inkişaf ənənəsi mütərəqqi formada "xarici" qeyri-bərabərlikləri aradan qaldırarkən "daxili" qeyri-bərabərliklərə söykənir. S.c. -nin inkişafı üçün Tokvilin müstəqil və mühüm faktor kimi irəli sürdüyü və Sen-Simondan fərqli olaraq (eləcə də marksistlərdən) əsaslandırıcı de-

mokratik ənənələri milli liberal-demokratik dövlət müdafiə edir.

Qərbdə və "ikinci modernizasiyalı" ölkələrdə sənayenin inkişafı və onun nəticələri arasındakı mühüm fərqlər ona görə belə böyükdür ki, ingiltərədə və ABŞ-da vətəndaş hüquqları ideyası (yəni siyasi azadlığın prinsipləri), insan hüquqları və millət ideyası hələ birinci sənaye inqilabı dövründə təsdiq olunmuşdur. Məs., Rusiyada həmin siyasi vəzifələr sənayeləşmə illərində həll olunmamışdır. Təbii ki, **S.c.** ideyası bir nəzəri problem kimi keçmiş SSRi-də yalnız XX əsrin 70-ci illərində irəli sürülmüşdür.

SİNFİ ŞÜUR - hər hansı sinfin üzvlərinin mövcud ictimai münasibətlər sisteminə də özlərinin tarixən şərtləndirilmiş səviyyəsini, həmçinin sinfi tələbat və mənafelərini dərk etməsi. **"S.ş."** anlayışı siyasi-psixoloji və ideoloji ünsürlərin sıx uzlaşması ilə səciyyələnir. Bax; həmçinin **İDEOLOGİYA.**

SİONİZM (termin Qüds şəhərinin yerləşdiyi təpələrdən birinin - Sionun adı ilə əlaqədardır) - millətçilik ideologiyasının bir növü; "bütün yəhudilərin" uzaq əcdadlarının yaşadıqları torpağa - Sion təpəsinə, bütün yəhudilərin guya "həsrət çəkdikləri yerə", indiki İsrailə köçürülməsi ideyası ilə bağlıdır. S. başqa xalqlara xor baxmağı və nifrət bəsləməyi təblir edir.

S.doktrina kimi 1896-cı ildə Avstriya jurnalisti, milliyyətcə yəhudi olan T.Hertel tərəfindən irəli sürülmüşdür. Lakin S. heç də "təbii hüquq" və ya "yəhudilərin damarlarında axan qanın çağırışı" deyil, ifrat millətçiliyin və irqçiliyin tarixən keçici formasıdır.

S.-in mahiyyəti yəhudi "diasporunun" olduğu ("səpələndiyi") ölkələrdə sıxışdırılan yəhudi burjuaziyasının mənafelərinin ideoloji baxımdan sapması ilə bağlı olub, həmin dövr üçün səciyyəvi millətçilikdir, çünki "vahid yəhudi milləti" yaratmaq ideyasının özü süni ideyadır (Avropa və Amerika ölkələrində yəhudilər güclü assimilyasiyaya uğramışlar və S.-in, onun beynəlxalq təşkilatlarının ideoloji və təşkilati təzyiqinə baxmayaraq, 15 milyon yəhudidən yalnız 3 milyonu İsrailə köçmüşdür).

İdeoloji konsepsiya kimi S

çox çevikdir. Mahiyyətcə millətçi ideologiya olan S. ənənəvi şovinist mövqeləri daim əxz etmişdir. Bundan əlavə, S. "milli saflıq", "həyat məkanı", "ikili vətəndaşlıq" (başqa dövlətlərin vətəndaşlarının İsrail "vətəninə" sədaqəti və xidmət etməsi) kimi ideyalara da qovuşmuşdur. S.-in başlıca rəhbər və əlaqələndirici mərkəzi ümumdünya sionist təşkilatıdır. 1897-ci ildə İsveçrənin Bazel şəhərində yaradılmış bu təşkilatın 100-dən çox ölkədə filialı var.

BMT Baş Məclisinin 30-cu sessiyası (1975) S.-i irqçiliyin və irqi ayrı-seçkiliyin bir növü kimi pisləmişdir.

SİVİLİZASİYA – latın dilindəki "sivils" sözündən olub, "vətəndaş", "mülki", "dövləti" mənalarını ifadə edir. Sivilizasiyanı bir sıra alimlər mədəniyyətin maddi tərəfləri kimi qələmə verirlər. Onlara görə s. mədəniyyətin inkişafında xüsusi bir mərhələni təşkil edir. M.F. Axundov s. azadlıq probemilə, şəxsiyyətin və bütövlükdə cəmiyyətin azad inkişafı ilə bağlayırdı. Doğrudan da, azadlıq olmayan yerdə sivil cəmiyyətlər də yarana bilməz. S.– mədəniyyətin yaşaması və mövcudluğu üsuludur, forması və metodudur. S. yaradılmış mədəniyyət nümunələrinin istifadə olunma üsuludur.

S.-ın tarixən müxtəlif formaları mövcud olmuşdur: 1) quldarlıq sivilizaiyası; 2) feodalizm sivilizasiyası; 3) kapitalizm sivilizasiyası; 4) sosializm sivilizasiyası.

Bu da belə bir fikrə gəlməyə əsas verir ki, s.-nı heç bir kapitalizm ilə, ETT ilə əlaqələndirmək düzgün olmazdı. Çünki hər bir tarixi dövrdə predmetlərin ona uyğun istifadə forması mövcud olmuşdur ki, biz də onu **s.** adlandırırıq.

Kant yazırdı ki, sivilizasiya insan öz həyatını və davranışını nizama salandan sonra başlayır. Sivilizasiya cəmiyyətin və mədəniyyətin inkişaf səviyyəsi olmaqla yanaşı həm də mədəniyyətlərin mənimsənilmə üsuludur, onlardan hansı formada və şəkildə istifadə edilməsi qaydasıdır.

Müasir dünya iri **s.** mərkəzlərinin yaranması ilə səciyyələnir. Məsələn, A.Toynbi XX əsr üçün 5 əsas **s.** növünün mövcudluğunu qeyd edir: Çin, Hind, İs-

lam, Rus, Qərb. Samuel Hantinqton 8 s.-ın mövcudluğunu qeyd edir: Çin, Yapon, Hind, İslam, Ortodoks, Qərb (Avropa və Şm. Amerika, Avstraliya və Yeni Zellandiya) və Latın Amerikası. Bundan başqa o, Afrika s.-nın mümükünlüyünü də qəbul edir. Onun müasir s. haqqında çox maraqlı fikirləri var. O, Qərb s.-nın dünyada dominant sivilizasiya olmasına baxmayaraq onun öz üstün mövqeyini tədricən digər s.-lara, xüsusilə də İslama və Çinə verdiyini qeyd edir: S.Hantiqtona görə Qərbin digər s.-larla müqayisədə iki şəkli var:

İ.Qərbin digər s.-lar üçərində total üstünlüyü. Sovet İtifaqı dağılandan sonra Qərb üçün ciddi təhlükə artıq yox oldu. Qərb xalqlarının məqsədlərinə, maraqlarına, prioritetlərinə uyğun dövlətlər birliyi yarandı. Onun qarşısında yalnız yeganə super qüvvə kimi ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Yaponiya ilə birlikdə dünyada siyasi, iqtisadi və təhlükəsizlik məsələlərinə dair ən vacib, həlledici və təhlükəli qərarlar qəbul edir. Digər s.-ların siyasətinə, iqtisadiyyatına və təhlükəsizliyinə təsir etmək imkanına malik yeganə s.-dır. Qərb xalqları aşağıdakılara malikdirlər:

- beynəlxalq bank sistemi və onun idarəçiliyi;
- bütün valyutalara nəzarət;
- dünya məhsullarının əksəriyyətinin təminatı;
- kütləvi hərbi təcavüz imkanı;
- dəniz və okean xətlərinə və yollarına nəzarət;
- müasir texniki təhsil;
- fəzaya çıxışda üstün mövqe;
- aerokosmik sənayedə üstünlük;
- yüksək səviyyəli hərbi sənayedə üstünlük;
- aparıcı texniki tədqiqatlarda üstünlük;

2. Qərbin ikinci təsviri fərqlidir. Bu, çəifləməyə, digər s.-larla müqayisədə dünya siyasətinə, iqtisadiyyatına və hərbisinə nəzarətin azaltmağa doğru gedən bir s.-dır. Qərbin "Soyuq müharibə"də qələbəsi onun çəfəri ilə deyil, çəiflməsi ilə nəticələndi. Yuxarıda sadalanan üstünlüklərə baxmayaraq Qərbin öz daxilində çox ciddi, təhlükəli problemləri var.

Zəif iqtisadi artım, əhali artımının olmaması, işsizlik, geniş hakimiyyət boşluğu (defisiti), sosial dezinteqrasiya, narkomaniya və cinayət Qərbin inkişafında çox ciddi əngəldir.

Qərbin dünyada yerini müəyyən edən bu kimi ziddiyyətli təsvirdən hansı reallığa uyğundur. Təbii ki, hər ikisi. Qərb hazırda öz üstünlüyünü saxlamaqdadır. "S.-lar arasında qüvvə, güc balansı köklü dəyişikliklərə uğrayır və Qərbin digər s.-larla müqayisədə qüvvəsi zəifləməkdə davam edir" (N.Kissinger). Lakin qalan s.-lar isə sürətlə inkişaf edir. Nəzərə çarpacaq inkişaf Asiya xalqlarında baş verir. "Çin gələcəkdə 9 qlobal təsir sahəsində Qərbə qarşı dura biləcək potensial ölkəyə çevirilməkdədir". Qərbin zəifləməsinin bir neçə xüsusiyyəti var: bu proses zəif və fasilələrlə, əyri xətlə gedir.

SİYASƏT - cəmiyyətin təşkilati və tənzimləyici-nəzarət sahəsi; digər iqtisadi, ideoloji, hüquqi, mədəni, dini sahələr sistemində əsas yer tutur. S. termini Aristotelin dövlət idarəetmə və hökumət haqqında fikirlərini əks etdirən "Siyasət" traktatının təsiri altında yayılmağa başlamışdır. XIX əsrin sonunadək S.-ə ənənəvi olaraq dövlət, yəni təsisat, dövlət səviyyəli hakimiyyət haqqında təlim kimi baxılmışdır. Lakin artıq yeni dövrdə dövlət haqqında siyasi fikir və təsəvvürlərin inkişafı dövlət haqqında elmlərin seçilməsinə və onların siyasi fəlsəfə, siyasi elmdən ayrılmasına gətirib çıxardı. S. haqqında, təsəvvür xeyli genişləndi və S. anlayışı çox mürəkkəb problem olub ən müxtəlif xarakterli yozumların predmətinə çevrildi.

Hazırda S. -in ən azı dörd əsas təfsirini vurğulamaq olar: 1) siniflər (V. ı. Lenin), qruplar və adamlar (daxili siyasət), və dövlətlər (xarici siyasət) arasında saziş, tabeçiliyi, hökmranlığı, münaqişəni və mübarizəni tərkibinə daxil edən münasibətlər. Belə nüqteyi-nəzərin əsasında insanların ünsiyyəti, qarşılıqlı əlaqəsi, onların dövlət işləri kimi başa düşdükləri ümumi işləri birgə həll etməsi (Aristotel) haqqında, həmçinin orta əsr ənənələri, intibah və yeni dövrlərin problematikası əsasında hakimiyyətin (yəni dövlətin) cəmiyyətə münasibətləri və Hakimiyyətlərarası (dövlətlərin bir-birilə) münasibətlər haqqın-

da təsəvvürlər dururdu. S. konsepsiyası özünün yeni və daha fəlsəfi əsaslandırılmasını XX əsrdə K. Şmittin və J. Fredin münaqişənin mahiyyəti nəzəriyyəsində tapmışdır.

2) Məntiqi olaraq birinci nöqteyi-nəzərdən irəli gələn S.-in hökmranlıq, hakimiyyət və deməli, həm də dövlət (yuxarıda bu barədə söhbət getdi) kimi digər siyasi hadisələrlə eyniləşdirilməsi; S.-in vasitələri - yəni həmin hakimiyyət, zorakılıq, dil və dil struktürları, nitq və simvolika və i. a., fəaliyyəti- idarəetmə, təşkilat, nəzarət və s.; bilik, bacarıq (Platon və müasir texnokratik konsepsiyalar), həyat fəaliyyəti (Aristoteldə - insanın başqaları ilə birgə ümumi işlərlə məşğul olmağa təbii meyli haqqında təsəvvür).

3) idarəetmə, qaydanın gözlənilməsi, daxili və xarici aləmin qorunub saxlanması, yaxud əksinə, müharibə aparılması, cəmiyyətin və insanın nəzarəti və s. funksiyalarından (funksional) izah S.-in daha tam şəkildə tərifinin müəyyən edilməsi naminə onun funksiyalarını (həm də onun vəzifələrini, hərçənd S. özü-özlüyündə onlara malik ola bilməz, çünki siyasi vəzifələrin həlli bunlardan ötrü fəaliyyət göstərən qövvələrin, məs., onları həll edən hakimiyyətin olmasını tələb edir) sadalamağın sonu və mənası yoxdur. 4) S. -in məqsədlərindən (teleoloji, yun. tele os - məqsəd) çıxış edərək onun izahını funksional təfsirə nisbətən daha sonsuz və az məzmunlu, həm də ona yaxın, öz mahiyyətinə görə son dərəcə konkret sadalamalar yolu ilə vermək olardı.

Bütün bu təfsirlər çox ümumidir və qüsurları vardır: bu təfsirlər heç də son fikir deyildir və özləri, xüsusilə eyniləşdirilmələr tərifdən çox S.-i əvəz edirlər. Gələcəkdə müəyyən təfsirlərə möhtacdırlar, onlar, çox vaxt S. üçün spesifik deyildir, məs., fəaliyyət, vasitə, münasibət, münaqişə, mübarizə, məsələlərin həlli; funksiyaların və məqsədlərin mövcudluğunu hər hansı digər yaxın ictimai hadisə-hüquq, ideologiya, əxlaq, iqtisadiyyat və i. a. müəyyən edə bilər; bir çox tərifiər sadəcə və yalnız qarşılıqlı əlaqədə olmayıb həm də dəfələrlə çulğalaşırlar. Məs., hakimiyyət sanki

siyasətlə eyniyyət təşkil edir, o, həmçinin həm fəaliyyət, həm vasitə, həm də məqsəddir və nəhayət, S. -in funksiyasıdır.

Problemin həllini K. Şmitt göstərmiş, müasir tədqiqatçılar onu təkmilləşdirmişlər. Bu, S.-in özünü universal, mücərrəd mahiyyətindən, onun prinsipial əsaslarından ayırmaqdan ibarətdir ki, bunun sayəsində xüsusilə tam olmayan, həddən artıq konkret tərifiərdən və sadalamalardan yaxa qurtarmaq, S.-in mahiyyətini müəyyən edən ümumiləşdirilmiş tutumlu formul işləyib hazırlamaq və onun konkret növlərini, formalarını, təzahürlərini (çoxlu müxtəlif siyasi, daxili, xarici, dinc vasitələrə, gücə əsaslanan və s. və i.a.) ayrıca toplamaq, həmin əsasda müvafiq surətdə S.-in daha ümumi təfsirlərinə nisbətən ədalətli tərifiər yaratmaq olar. S.-in tərifi, yuxarıda deyildiyi kimi, belə universal (öz funksional əsasında) təsəvvür edilir.

S. haqqında biliklərin inkişafı və differensiasiyası onu tədqiq edən fənnlərin inkişafı ilə bağlıdır. Hazırda S. siyasi fəlsəfənin, siyasi elmin (yaxud elmlərin) və politologiyanın üç qarşılıqlı əlaqəli səviyyədə öyrənilmə obyektidir:

sosial fenomen kimi S.-in mahiyyətinin, siyasi hadisələrin (dövlətlərin və s.) nəzəriyyəsinin və mexanizmlərinin, metodların, siyasi fəaliyyətin təşkilinin təfrübəyə əsaslanan biliklərin öyrənilməsi.

S. haqqında düşüncələr; onun öyrənilməsi, nəzəriyyəsinin qurulması-fəlsəfənin, elmin, ədəbiyyatın, təsviri incəsənətin və onun müasir audivizual formalarının mərkəzi problemlərindən biridir. S. gündəlik müasir kütləvi və elmi anlamın (cəmiyyətin siyasi həyatın hadisələrini, xüsusən onun böhranlı dövrlərində kollektiv və fərdi, instinktiv, intuitiv və emosional yaşamayadək) ən kəskin mövzularından biridir.

S. haqqında müasir bilik onu özünün iki əsas funksiyasında təbii-tarixi prosesin ən mühüm amili kimi şərh etməyə imkan verir: cəmiyyətin, ümumi mütəşəkkil başlanğıcı və onun münasibətlərini; həyatı, fəaliyyəti, insanların, ictimai qrupların, siniflərin, millətlərin, xalqların və ölkələrin münasibətlərini istiqamətləndirən kon-

kret tənzimləyici - nəzarət sahəsi, yaxud sistemi kimi. Bu iki funksiyada S. ictimai əhəmiyyətinə və funksiyalarına görə artıq adı çəkilmiş oxşar sahələrlə qarşılıqlı əlaqəyə girir, onların qarşılıqlı əlaqəsini müəyyən edir və istiqamətləndirir. Bu sistemdə S.-in rolu onun üç xüsusiyyəti ilə şərtlənmişdir: universallığı, hər şeyi əhatə etmək xarakteri, həyatın, cəmiyyət ünsürlərini, hadisələrini, dövlət miqyaslarından insan xarakterinin fərdi cəhətlərinədək münasibətlərin istənilən tərəfinə əməli təsir göstərmək qabiliyyəti. S. maneəsiz olaraq ən müxtəlif qarşılıqlı əlaqələrə girib idarəetmə münasibətlərini, biliklərini və cəmiyyətə təsirin bütöv sahələrini yaradır: siyasi iqtisad və iqtisadi siyasət, siyasi ideologiya, mədəniyyət, əxlaq, həqiqət və s. S.-in funksionallığı, cəmiyyətə xidmət etmək xüsusiyyəti ona nəinki digər funksional sahələrə dərindən təsir göstərməyə imkan verir, həm də S.-i onlarla bağlayır. S. cəmiyyətin iqtisadi sahələri, iqtisadi (bazis) münasibətlər və mənafelərinin məcmusu, ifadəsidir. Həyati fəaliyyətin idarəetmə sahələri kimi, S.-in iqtisadi əsasları S.-i və iqtisadiyyatı hakimiyyət, daha doğrusu, onun iki növü vasitəsilə əlaqələndirir: iqtisadi və siyasi istehsal vasitələrinə, əşyalarına sahiblik, bölgü sahəsində hökmranlıq və i. a. S.-i iqtisadiyyatla bağlayan konkret münasibətlər iqtisadi fəaliyyətə siyasi məna verir, siyasi fəaliyyəti isə dəyişərək, iqtisadi ifadə şəklində ortaya çıxır. S. və iqtisadiyyat münasibətlərinin dialektikası bazis və üstqurumun münasibətlərindən məlumdur, mücərrədlik cəmiyyətin formalaşan ümumi mütəşəkillik səviyyəsidir. Konkret cəmiyyətdə və həqiqi ictimai prosesdə o, bir çox formalarda aktuallaşır; dövlətin iqtisadi, maliyyə, sosial siyasəti, onun iqtisadiyyata müdaxiləsi, istehsalda, bölgüdə, onun tənzimlənməsində iştirakı, dövlət siyasətinin, istifadə etmənin və i. a. ona arxa durması. S .mədəni simanı müəyyən edən mədəniyyət sahəsi, onun tarix, insan biliklə əlaqəsi ilə bağlıdır (bax; **SİYASƏT VƏ MƏDƏNİYYƏT, SİYASİ MƏDƏNİYYƏT**) S.-in əxlaqi, etik qiymətləri və istiqamətləri

zəruridir. S.-i və əxlaqı ayırmağın mümkünlüyü haqqında təsəvvürlər (makiavellizm) doğru deyildir. S.-in çox və ya az dərəcədə əxlaqi, yaxud tamamilə əxlaqsız olmasının özü elə onun əxlaqa münasibətini müəyyən edir və onun əxlaqlılığını qiymətləndirməkdə cəmiyyətə mane olmur. S. və ideologiya xüsusi münasibətlərlə birbirinə bağlıdır. əgər mənəviyyat, mədəniyyət, bilik, hətta din (bir sıra cəmiyyətlərdə onun təsirinə baxmayaraq) az, yaxud nadir halda S. -i müəyyən edə, ruhlandıra bilərsə, ideologiya bilavasitə onunla qovuşmuşdur. ictimai mahiyyət kimi S. cəmiyyətin və insanın şüurundan, onların mənafelərindən, tələbatından, məqsədlərindən, dünya görüşlərindən ayrılmazdır. Real siyasət ideologiyanın daşıyıcıları və generatorları olan partiyalar tərəfindən ideyalar çarpışması şəraitində həyata keçirilir. S.-in elmlə əlaqələri həmişə problematik olsa da, biliklə əlaqəsi bilavasitə və qırılmazdır, çünki xüsusi siyasi bilik olmadan S.-in işlənib hazırlanması və həyata keçirilməsi mümkün deyildir.

Cəmiyyəti yaradan ümumi təşkilati əsasların dərin mahiyyətli xüsusiyyətləri, universallığı və qovuşa bilmək qabiliyyəti, aralarında sərhədlər, o cümlədən, siyasət sərhədləri, yaxud hüdudları daxilində onların məqsədəuyğun qarşılıqlı əlaqədə ola biləcəyi mümkün məkan problemini meydana gətirir. Bu sərhədlərin pozulması arzuolunmaz, ifrat hallarda isə fəlakətlərə gətirib çıxarır (fəaliyyətin, həyatın qeyri-siyasi və qeyri-ideoloji sahələrinin həddən artıq ideoloji sahələrinin həddən artıq ideolojiləşdirilməsi, ölçüsüz dərəcədə siyasiləşdirilməsi şəraitində), bu və ya digər zəruri başlanğıcın mövcudluğu nəzərdə tutulan məkanın uyğunsuz şəkildə məhdudlaşdırılması da pozulmaya gətirib çıxarır. Məhdudlaşdırmalar ictimai tənzimləmələr boşluq yaradır ki, bu da daha çox ekspansiv iki sahədən biri - siyasət, yaxud ideologiya tərə findən hökmən doldurulur. Nəticə isə ideolojiləşdirilmiş hüquq və i. a. olacaqdır. Yalnız ən ümumi və siyasi cəhətdən bitərəf sahələr - mədəniyyət, əxlaq və müəyyən ölçüdə elm - əgər onlar iqti-

sadiyyat, hüquq sahələrinə, elə həmin siyasət, yaxud ideologiyaya nüfuz etsələr, təşkil etməzlər. Tənzimləyici sahələrin nisbəti ölkənin siyasi sistem və rejimini (avtoritar, totalitar, yaxud demokratik, cəmiyyətin simasını (əsassız olaraq çox, yaxud az ideolojiləşdirilmiş, siyasiləşdirilmiş) səciyyələndirir.

Cəmiyyətdə S.-in fəaliyyəti, ictimai varlığı, həm cəmiyyət, dövlət, hakimiyyət, həm də siyasətin özü, onun tarixən təşəkkül tapmış universal və dəyişməz xassələri, yaxud mövcudluğu prinsipləri ilə müəyyən edilir. Onların məcmusu və qarşılıqlı münasibətləri S.-in ictimai varlığının əsasını təşkil edir. O, ikili halda müəyyən edilir. S.-in tarixən təşəkkül tapmış, ümumi xassələri və dövrün konkret şərtləri, real cəmiyyətlər, onların inkişaf xüsusiyyətləri ilə S.-in ümumi xassələri yuxarıda adları çəkilən üç xassədən başqa müəyyən edilmiş ciddi strukturlu (prosesin qapalı subyekti ilə və onun obyekti olan məqsədlə) ictimai proseslərdən biri -spesifik siyasi proses çərçivəsində S.-in fəaliyyətinə aid edilə bilər; bütövlükdə belə prosesin və S.-in ehtimal xarakteri; S.-in layihələşdirilməsi və reallaşması üçün informasiyanın suboptimal (natamam və şərti) xarakterli olması zəruridir; ehtimal və informasiya amilləri S.-in daimi peyklərin;- siyasi xülyaların və utopiyaların mümkünlüyü şərtləndirir (bax; **UTOPİYA, MİF**), eyni zamanda S.-in məcburi aktuallaşması, onun birinci növbəli və zəruri məqsədlərə səmtlənməsi və səmərəliliyi, məsələlərin daha səmərəli həllinə səbəb olur. əlbəttə, söhbət real arzu edilən nəticələrə nail olmağa yönəldilmiş S.-dən gedir. Bununla əlaqədar S. bir neçə plandan, inkişaf edən məqsəd qoymaq, məqsədlər səltənəti (J.Frend), məqsədə uyğun fəaliyyət kimi qarşıya çıxır (bax; **SİYASƏTDƏ MƏQSƏDQOYMAQLIQ**). Ümumtarixi bar haldır ki, müxtəlif dövrlərin S.-i məzmununa, məqsədinə, siyasi prosesin iştirakçılarına, cəmiyyətdə siyasi münasibətlərə (hakimiyyətlə xalq arasında, müxtəlif tədbirlərdə və i.a.) görə fərqlənirlər; bir epoxanın, yaxud bir dövrün hüdudlarında, onun əvvəlində, yaxud sonunda, böhranlar, yüksəlişlər və i.a. dəyişikliklər dövrlərində bir qrupun partiyanın, qüvvənin idarəçiliyi çərçivələrində. Bu halda vəzifələr strukturu (qayda, sabitlik, münaqişələrin təşkili, yaxud ləğvi, hakimiyyətin fəaliyyəti, müdafiə və i.a.) və siyasi fəaliyyətin texnikası dəyişməz qalır: tərəfdarlar tapmaq, mütəffiqlərin kənəyi, rəqiblərin təcrid olunması və onlarla mübarizə. S.-in sosial bazasının müəyyən edilməsi, onun strategiyası və taktikası, üsulları və metodları, vasitələri (bax; **SİYASƏT VƏ HAKİMİYYƏT VASİTƏLƏRİ**), S.-in siyasi nitq və dil üslubunun seçilməsi (bax; **SİYASİ DİL**), rəmzlər (bax; **SİYASİ RƏMZLƏR**), mərasimlər (bax; **SİYASİ MƏRASİM, SİYASİ TEATR, SİYASİ SƏHNƏ**) və i.a. S. üçün onun təbiiliyinin, həmin şəraitdə müəyyən məsələnin həlli üçün yeganə mümkün S. olmasının sübuta yetirilməsi və s.-in qanuniləşdirmə üsulları, izahatlar, bəraətlər və əsaslandırmalar (bax; **QANUNİLƏŞDİRMƏ**) mühümdür. Səbəbsiz hadisələr mümkün olmadığı kimi, bu və ya başqa şəkildə qanuniləşdirilməmiş S. də yoxdur, o, yalnız hakim şəxs, yaxud partiyanın, hökumətin proqramında şüarlarda, şəhərlərdə və i.a. daha qabarıq ifadəsini tapa bilər. Hər hansı - həqiqətən düzgün, gerçəkliyə tam uyğun gələn; anlaşılmaz istiqamətlənmiş, yaxud qabaqcadan yanlış, lakin yaradıcılarının vacibliyinə inandıqları S. qanuniləşdirilir. Xüsusiyyətlərin, universal başlanğıcların və əsasların məcmusu S.-i hər bir cəmiyyət üçün mümkün edir. Onlar irsən alınır, S.-in konkret məzmunu bütün dəyişikliklər zamanı təkrar istehsal olunurlar. Eyni zamanda hər bir yeni cəmiyyət, nəsil, hər bir adam onunla nə isə yeni, tanış olmayan, başa düşülməsini, iştirakını, öyrənilməsini, daxil edilməsini, ictimailəşdirilməsini, həmçinin müdafiəsini və müqavimət səbəbini tələb edən bir şey kimi tanış olur. Mövcudluğunun xüsusi formasında S. fəaliyyət kimi çıxış edir (lakin bu da onu cəmiyyət həyatının digər sahələrindən fərqləndirmir). Nəzəri, idraki siyasi fəaliyyət S.-in daşıyıcılarını, onların məqsədlərini səciyyələndirən siyasi

şüur, təfəkkür, mentalitet formalaşdırır. O bir sıra yaradıcılıq baxışlarını, yaxud əsaslarını özünə daxil edir: incəsənəti, yaradıcılığı, təsəvvür işini, duyumu, emosional vəziyyətləri, nəzəri layihələşdirməni, planlaşdırmanı və i. a. Bu fəaliyyətin idraki başlanğıcı xarakterik, çox maraqlı, emosional və məzmunca cəlbedici, məftunedici əsaslarla əlaqələndirilir, uyğunlaşdırıla bilər və uyğunlaşmalıdır (bax; **XARİZMA**). Təfəkkür fəaliyyəti çərçivəsində arzu edilən və real mümkün olan, həqiqət və yalan, doğruluq və yanlışlıq problemləri S. üçün həlledici qiymətləndirilir.

Təfəkkür, nəzəri fəaliyyət S.-in varlığının ideal formasını təşkil edir. Onun maddi formasını siyasi praktika, təşkilati və nəzarət fəa liyyəti, konkret idarəçilik, insanlarla iş adlanan sahəyə rəhbərlik: kadrların seçilməsi və yerləşdirilməsi və qəbulu, informasiya mübadiləsi, hakimiyyət orqanlarının təşkili və fəaliyyəti, dövlət müəssisələri ilə qarşılıqlı əlaqə və bir çox başqaları təşkil edir. Hər iki halda S. intellektual və mədəni-praktiki əmək kimi, əməyin bu növünə xas olan bütün **xüsusiyyətlərlə**, onun bölgüsü, ictimai səmərəliliyi (səmərəsizliyi), **yüksək sosial məsuliyyəti, gözlənilməz nəticələrin və ikili ehtiyatlar** axtarışının müzakirədən keçməsi və i.a. ilə də özünü göstərir. S.-in səmərəliliyi təkcə özü ilə deyil, həm də onun baş verdiyi və cəmiyyətdə reallaşdırdığı obyektiv şəraitlə, onun vəziyyəti, əhval-ruhiyyəsi, mənafeləri və hakimiyyətlə, dövlət və onun aparatı (bax; **APARAT**) ilə münasibətləri ilə müəyyən edilir, həmçinin də qeyri-ictimai amillərdən - təbii, xarici siyasi, ekoloji amillərdən: təbii sərvətlərin olmasından, təbii və xarici mühitin vəziyyətindən asılıdır.

S.-in mövcudluğunun hər iki forması - ideal və maddi obyektivləşir, hiss olunan və konkret xarakter alır və yalnız bu halda cəmiyyət tərəfindən reallaşdırılıb mənimsənilir. Öz növbəsində, bu təzahür, siyasətin obyektivləşdirilməsi ikili baş verir - ideyalar, nəzəriyyələr, əqidələr, niyyətlər, ümidlər şəklində şüurun müxtəlif hallarında və maddi, hiss olunan əyani şəkildə S.-in maddiləşməsi, onun əyani formada həyata keçirilməsi müvafiq alət və vasitələrin yaradılması ilə əldə edilir: siyasi təsisatlar (seçkili olma, təyinatlar, nümayəndəliklər, məs., orduda siyasi rəhbərlər institutu və i.a.) hakimiyyət təsisatlarının (orqanlar, idarələr) - hökumət, onun aparatları və s., sənədlərdə, proqramların, təlimatların, əmrlərin, dekretlərin siyasi mətnlərində; əyləncəli, audiovizual formada - təblirat, şüarlar, kütləvi informasiya vasitələri, kinematoqrafda, teatrda, ədəbiyyatda, elmi tədqiqatlarda. S.-in bütün bu təzahürlərinin məcmusu onların uyğun gəldiyi, dəqiq desək, qarşılıqlı əlaqəli məkanlar sistemini (məs., müxtəlif partiyaların məkanları) doldurur.

S.-in məkan, eləcə də zaman ölçüsü cəmiyyətdə onun rolunu, kəsərliliyini, reallığını, möhkəmliyini, uzunömürlülüyünü, məqsədəuyğunluğunu və s.-in cəmiyyətlə münasibətlərini, cəmiyyətdə yerini, S.-in müəyyən ictimai mühitdə mövcudluğunu xarakterizə edir. Bu mühitdə S. meydana gəlir, mənafelərin ifadəsi, baxışların, əqidələrin, hakim əhval-ruhiyyələrin, ideologiyanın bitkin şəkilə salınması, cəmiyyətin, cəmiyyətdə daha aşkar üstünlüyə malik olan sinif, yaxud qrupların (partiya rəhbərliklərinin, ictimai qrupların nümayəndələrinin və i.a.) vəzifə və məqsədlərinin dərk edilməsi kimi formalaşır. S.-in müzakirə, mübarizə, dəfetmə prosesində ifadəsini tapmış ideya və konsepsiyaları onun həyata keçirilməsi üçün yaradılmış hakimiyyətə (hökumət, bu və ya digər siyasi partiya rəhbərliyi və i.a.) etibar edilir, o da öz növbəsində müəyyən layihə kimi yeni S.-i işləyib hazırlamaqda davam edir, belə S.-in həyata keçirildiyi siyasi prosesi formalaşdırır, yaxud özününkünü, yeni S.-i hazırlayaraq onu cəmiyyətə, yaxud onu irəli sürənlərə təklif edir. Bununla əlaqədar S.-lə hakimiyyətin münasibətləri məsələsi ortaya çıxır: S.-in mənbəyi və səbəbi olan hakimiyyət haqqında, yaxud S.-in həyata keçirilməsi həyata keçirilməsi üçün vasitə olan hakimiyyət, başqa sözlə, S.-in, yaxud hakimiyyətin birinciliyi haqqında (bax; **SİYASİ FƏLSƏFƏ**). Bu təkcə nəzəri deyil, həm də böyük praktik əhəmiyyət kəsb edir.

Hakimiyyət uğrunda mübarizə, ona yiyələnmə, onun ələ keçirilməsi. S.-in əvvəlcədən düşünülmüş konsepsiyası olmadan yaxud, aydın olmayan siyasi inkişaf ideyası ilə sadəcə konstitusiya qaydasında hakimiyyətə gəlmək, hakimiyyət naminə hakimiyyət uğrunda mübarizə ola bilər və cəmiyyət üçün, elə S.-in özü üçün də, olduqca mənfi nəticələrə gətirib çıxara bilər. Bu mənada da S.-in üstünlüyü və hakimiyyətin alət kimi çıxış etməsi məsələsi həll olunur. Hakimiyyətin əli ilə hərəkətə gətirilən və cəmiyyət tərəfindən dərk edilən S. onun iştirakı ilə ölkənin siyasi həyatını formalaşdırır, bir növ müvafiq siyasi mədəniyyəti, adətləri, ənənələri, vərdişləri, əlaqələri olan siyasi məişəti yaradır ki, bunu iki formada: mənəvi və maddi formalarda təzahür edən S.-in varlığının mədəniyyəti adlandırmaq olar. Onlar S. anlayışını siyasi əxlaq, təxəyyül, siyasi hadisələrlə əlaqədar olan ümid və diləkləri, yüksəliş əhvalruhiyyəsi, süstlük, laqeydliklər, hiddət və s. kimi qəbul edirlər. S. maddiləşmiş mədəni ifadələrlə tamaşa, mərasim, teatr kimi qarşıya çıxır, hakimiyyətin atributları, dövlətlərin və siyasi birliklərin ad və rəmzləri ilə bəzənmişdir. S.-in zahiri cazibəsi isə cəmiyyətin, şüurun onun xeyrinə olan dəlilidir, bununla o, cəmiyyətin siyasi həyatını müəyyən mənada bəzəyir, onu rəngarəng edir (bax; **SİYASİ MƏRASİM**).

Cəmiyyətdə S. həyatının xüsusi informasiya forması sürətlə inkişaf edir. O, müasir S.-in informasiya məkanını kökündən dəyişmiş texniki vasitələrlə təchiz olunmuş siyasi hadisə və fəaliyyətlərin geniş sintezini yaradır: informasiya onun mərkəzlərini, mənbələrini qəbul edənlərlə yaxınlaşdırmış, informasiyanı ani və istənilən məsafələr üçün əlçatan etmiş, onun geniş dövrə etməsinə, mübadiləsinə təminat vermiş, spesifik siyasi nitqi radio və televiziya vasitələri ilə hamı üçün mümkün etmiş, siyasi yaradıcılıq və siyasi fəaliyyət üzərində bilavasitə müşahidə aparmağa imkan vermiş, vətəndaşların S.-də birbaşa iştirakının genişlənməsinə şərait hazırlamışdır (səsvermə ilə, rəyi bildirməklə və i.a.).

Cəmiyyətin siyasi həyatı insanlar, qruplar, siniflər, ölkənin hissələri arasında siyasi münasibətləri üzündə birləşdirir və ilk növbədə bu münasibətlərdən formalaşır. İctimai münasibətlərin digər növləri kimi, siyasi münasibətlər insanları oxşar əqidələrin ümumi məqsədlərini, mənafelərini birləşdirdiyi funksional (hakim, idarə edən) qruplarda, qrup və təbəqələrdən birləşdirir, belə qrupları yaxınlaşdırır, yaxud bir-birindən ayrı salır. Cəmiyyətin siyasi quruluşu, ölkədə siyasi rejim, mədəni-tarixi inkişafın xüsusiyyətləri siyasi münasibətlərin ya münaqişəli, ya dinc, konsensuslu, ya da kəskin antaqonist hakim üslubunu müəyyən edir. Bununla birlikdə, ictimai həyatın - dözümlülük və dözümsüzlük, birlik və ayrılıq, fəallıq və passivlik, sağ və sol qüvvələrin ayrılması, ifrat və ekstremist cinahların, partiya və qruplaşmaların əmələ gəlməsi və i.a. kimi qiymətləri meydana gəlir. S.-in həyata keçirildiyi bütün sahələrdə onun çoxlu - çox vaxt qısa ömürlü, lakin tez-tez tarixdə əlamətdar iz qoyan daxili və xarici siyasət qruplarına bölünür (bax; **DAXİLİ SİYASƏT, XARİCİ SİYASƏT**). Dövlətlərin, partiyaların, liderlərin, qruplaşmaların konkret, siyasi praktikası cəmiyyətin ictimai həyatının ən dolğun, gərgin və əyani formalarından biridir. O, siyasi hakimiyyətin, qrupların, cərəyanların və partiyaların taktikası və strateji niyyətləri haqqında mühakimə yürütməyə imkan verir. Cəmiyyətin tarixi tələblərini əks etdirən yaxşı işlənmiş strategiya olmadan inkişaf etmiş S. mümkün deyildir.

Cəmiyyəti təbəqəlikdə saxlayan və bu səbəbdən bir tərəfdən, hakimiyyətin, dövlətin, hakim qüvvələrin, digər tərəfdən cəmiyyətin, xalqın, insani münasibətlərin qarşılıqlı əlaqəsini mümkün edən strategiya da ola bilər. Bu halda S. cəmiyyətə deyil, cəmiyyət S.-ə xidmət edir. Təsisatlı hakimiyyətin siyasi taktikası da buna müvafiq qurulacaqdır. Bu birlik, razılıq, qarşılıqlı əlaqə taktikası deyil, təzyiq, ağalıq, cəza taktikasıdır.

S.-in ayrı-ayrı formaları kimi, onun sosial, humanist, mədəni, ideoloji məzmunu da müxtəlifdir. Konkret halda,

onlar təkraredilməzdir, tarixin hər hansı dönüşü ilə dəyişirlər, lakin onların prinsipial strukturu daimidir. Onlar müxalifətlər sırası kimi qurulmuşlar: təcavüzkar (xarici) - sülhsevər, istismarçı-azadlıq, totalitar, avtoritar-demokratik, irticaçı-mütərəqqi və i.a. S.-in tarixi təkamülü onun təməli əsaslarının dəyişilməzliyindən xəbər verir. Onlar yalnız o vaxt dəyişilə bilər ki, cəmiyyətin təşkilati və tənzimləyici-nəzarət sahələrinin bütün sistemi dəyişmiş olsun. S.-in yox olması perspektivi heç bir fərz olunan gələcək üçün real deyildir. Dövlət qalacaq, yaxud öləcəkdir, fərqi yoxdur. S. yenə də həmin ictimai funksiyalarla, lakin başqa subyektlər üçün mövcud olacaqdır. Bu subyektlər, vətəndaş çərçivəsində, assosiasiyalar, azad özünüidarə qruplaşmaları ola bilər, - bütün hallarda S. cəmiyyətin təşkilati və tənzimləyici vasitəsi kimi öz əhəmiyyətini saxlayacaqdır. Bizim dövrümüzdə isə onun demokratikləşdirilməsi, humanistləşdirilməsi, cəmiyyətin vacib tələblərinə yaxınlaşdırılması və onların tərəqqi və yeniləşmə istiqamətində hər bir cəmiyyətin ümumtarixi vəzifələri vasitələri ilə həlli daha aktualdır. Belə vəzifələrin sayı və mürəkkəbliyi daha artır. Buna görə də S.-in başlıca perspektivi onun mürəkkəbləşməsi, səmərəliliyinin və məsuliyyətinin artmasıdır.

SİYASƏT FƏLSƏFƏSİ – fəlsəfi elmin bir növü (fəlsəfənin bir sıra növləri: tarix fəlsəfəsi, dinfəlsəfəsi, mədəniyyət fəlsəfəsi və s. vardır) olub, insan və cəmiyyət haqqında biliklər sistemidir. **S.f.** termini habelə siyasi şəxsin görüşləri, cərəyanlar, siyasi partiyalar, siniflər, millət və xalqlar, böyük etnoslar və siyasi qruplaşmaların dövrə - munasibəti, dövrün onlara münasibəti və s. ifadə edir. "Tori Kabinetinin **S.f.**, yeni nəslin **S.f.**" və s. terminlər də hazırda geniş şəkildə işlədilir. Burada iki məsələ müasir siyasi inkişaf nöqteyi nəzərindən əhəmiyyət kəsb edir: 1) Millət və siyasət; 2) müasir dövr və siyasət; dövrün mərkəzində duran qüvvələr. Digər bir cəhət isə siyasi fəlsəfi və fəlsəfi fikir, onların xüsusiyyətləri, mənbələri və vasitələridir. Fəlsəfə ilk anlar siyasətə bağlı olmamışdır və onun ən əsas mənbəyini mifologiya təşkil etmiş-

dir. Siyasi cərəyan, partiya, sinif və qruplara xidmət etməyə başlayandan sonra isə artıq siyasətləşmişdir.

Engels: Ən qədim dünyadan üçü bəri fəlsəfəni partiyalı olduğunu elan etmiş, fəlsəfədə materializmlə idealizmin mübarizəsini "Demokrit – Platon xətti" kimi qiymətləndirmişdir.

S.f. – fəlsəfi elmlərin xüsusi bir sahəsi olub, əxlaq, sosial fəlsəfə, hüquq fəlsəfəsi, texnika fəlsəfəsi ilə qırılmaz əlaqədə inkişaf edib, xüsusi və müntəzəm bir elmi-tədqiqat sahəsi kimi ayrılmışdır. **S.f.**-nın əsası qədim yunan filosofları və Roma qanunçuları tərəfindən qoyulmuşdur. Onlar azadlıq və məsuliyyət, idarəetmə, qullar və quldarların hüquqları, vətəndaşların mükəlləfiyyəti və s. haqda hələ indinin özündə də əhəmiyyətini itirməmiş qiymətli fikirlər irəli sürmüşlər. **S.f.** öz çiçəklənmə dövrünü humanizm və yeni tarixi dövrdə tapmışdır. XVII – XVIII əsrlərdə və XIX əsrdə utopik sosializm, marksizm, habelə burjua inqilabları bərabərlik, azadlıq, qardaşlıq ideyasının dövlətin Konstitusiya əsası olması ideyalarını irəli sürürlər. göstərilən dövr də, bunula bərabər mürtəce nəzəriyyələr də özünə müəyyən yol açırdı: antiproqressiv, konservativ, mürtəce ideyalar XVIII əsrdə E.Berkin Kon servatizm (İngiltərə), XIX əsrin I yarısında J.Demestr, A.Rosmininin mürtəce-monorxist nəzəriyyələri, C.Centilə və K.Şmidtin faşizm nəzəriyyəsi, Ş. Morrosun fəlsəfi-mistik və mürtəce və s. ideyalarını göstərmək olar. Bunlardan konservatizm günümüzədək yaşayır və indi o, artıq ideologiyaya çevrilmişdir. Köhnə ənənələrə əsaslanan yeni **S.f.** siyasət və fəlsəfə sahəsinə yeni problemlər gətirmişdir. Məs., M.Fukonun hakimiyyət konsepsiyası – siyasi dil (hakimiyyət dili), siyasət – nitq prosesi kimi. **S.f.** köklərində yalnız fəlsəfə deyil, tarix, iqtisadiyyat, mədəniyyət, hüquq və s. problemlər dayandığından XVIII – XIX və XX əsrdə onun inkişaf etdirilməsində Dante, Volter, Monten, Balzak, Dostoyevski, Tolstoy, Klyuçevski, Solovyov və b. kimi ədəbiyyatçılar və tarixçilər də iştirak etmişlər. Heç də təsadüfi deyildir ki, B.Asel və yazıçı E.Kanetti hakimiyyət haqqında ("Haki-

miyyət", 1983) xeyli əsərlər yazmışlar. Belə ki, **S.f.** yaradıcılıq sahələrilə yaxındır. **S.f.** – nəzəri sosiologiya, tarix fəlsəfəsi, hüquq fəlsəfəsi, siyasi sosiologiya və psixologiya ilə yaxındır. **S.f.** –nin əsasını ümumiləşməyə doğru gedən empirik biliklər təşkil edir. Empirik bilik – ümumiləşmə-siyasi praktika: **S.f.**-nin düz yolu belədir.

Son onilliklərdə fəlsəfə ilə siyasət daha sıx birləşir, fransız filosofu P.Likerin dediyi kimi "ağlın loqokratiyası" yaranır.

Siyasətdə "həqiqətin rasionalizmi", yəni siyasətin əxlaq və etika normalarına getdikcə daha çox uyğunlaşdırılması prosesi gedir.

Funksiyaları:

dərketmə;

analitik – deontoloji (deont – yunanca borc deməkdir);

metodoloji;

normativ – siyasi normativ;

Prinsipləri:

a) universal;

b) abstrakt;

c) ideal.

İctimai funksiyaları:

1) tənqidi(şəraiti qiymətləndirmə);

2) maarifçi;

3) proqnostik.

S.f. siyasət elmi ilə - politologiya ilə əlaqəlidir. **S.f.** özü metodoloji əsas kimi siyasətin nəzəri problemlərinə dair müəyyən məsələlər irəli sürür.

Kateqoriyaları: Siyasi zaman, siyasi məkan, siyasi hakimiyyət, hakimiyyətin tipologiyası, insan və siyasət, siyasi – fəlsəfi təhlil və s.

S.f.-nin ən mühüm və aktual vəzifələrindən birini onun siyasət aləmi ilə qarşılıqlı əlaqəsi, onların metodlarının, məqsəd və tədqiqat sahələrinin, sərhədlərinin müəyyən edilməsi, empirik təcrübə ilə nəzəri ümumiləşdirmənin əlaqələndirilməsi və s. məsələləri təşkil edr. **S.f.**-si özündə xüsusi fəlsəfi problematikanı (metodoloji, bilavasitə müşahidə olunmayan hadisələrin təhlili, dəyişilmiş formalar), siyasi-nəzəri təhlil (cəmiyyətin siyasi həyatdın universal prinsiplər ümumiləşdirilməsi), konkret faktların və hadisələrin fəlsəfi anlamdı tədqiqini ehtiva edir.

Bu səviyyələri, habelə, **S.f.** –ni siyasət elmindən və empirik politologiyadan ayıran başlıca kriteriya fəlsəfi biliklər və fəlsəfi təhlildir.

S.f.-nin metodologiyası -

xüsusi tədqiqat prinsiplərinin məcmusu kimi çıxış edir. Ona aşağıdakılar daxildir: 1) empirik olandan abstrakt – ümumi universal olanı , tarixiliyə və məntiqiliyə doğru olan yol (Kantın yolunu davam etdirən müasir **S.f.** filosofları L.Ştraus və E.Feqelin tərəfindən adlandırılan yol); 2) konkret təcrübə nəzəriyyəsinin dünya fəlsəfi təcrübəsinə əsaslanan nəzəri təcrübə səviyyəsinə qalxması; 3) bilavasitə müşahidə olunmayanların, gizli olanın, onların çevrilmiş formaları və silsilə tədqiqi (məsələn, hakimiyyət və dil, nitq prosesi, semantika). Belə ki, demokratik proseslərin təhlili özündə demokratikləşdirmənin təhlilini və hakimiyyətin təkmilləşdirilməsini, onun quruluşunun yenidən qurulmasını birləşdirir ki,o da öz növbəsində hakimiyyətin bölünməsini, onların uyğunlaşdırılmasını, nəzarət sahələrinin razılaşdırılmasını, habelə cəmiyyət tərəfindən nümayəndələrin göndərilməsini və s. məsələləri əhatə edir. **S.f.** üçün məsələn, hakimiyyətin müxtəlif subyektlər arasında bölgüsü, onun müəyyən hissəsinin bir subyektdən digərinə verilməsi, onun cəmiyyətdə fəaliyyətinin universal prinsipləri kimi nəzərdən keçirilir.

S.f.-nin konseptual quruluşu ümumtarixi əsaslara söykənir. Bu hər şeydən əvvəl siyasət və hakimiyyətin sosial mənası ilə izah olunur ki, onsuz nə siyasət, nə hakimiyyət, nə cəmiyyətin siyasi həyatı, nə siyasi proses, nə də siyasi legitimizasiya, siyasi məkan və zaman mövcuddur.

S.f.-nin tam struktur problemini heç bir alim, heç bir nəzəriyyəçi təklikdə işləyib hazırlaya bilməz.Onların irəli sürdükləri siyasi ideyalar, dəyərlər bu quruluşu təkmilləşdirə və yaxşılaşdıra, yaxud pisləşdirə bilər. İdeyalar və nəzəriyyələr subyektiv amil olmaqla siyasi hakimiyyət fenomenini aradan qaldıra və yarada bilməz, amma onu təsvir və təfsir edə bilər. **S.f.** problematikası içərisində mərkəzi yeri fəlsəfi aspekt tutur. O, siyasəti və hakimiyyəti insan və cəmiyyət həyatının başlanğıcı kimi nəzərdən keçirir,siyasətin ictimai varlığı, onun maddi və ideal formaları, hakimiyyət və siyasətin forma və metodları, siyasi məqsədlər və ilealar, siyasi hadisələrin fəlsəfi baxımdan nəzərdən keçirilməsi, tarixi pro-

sesin qanunauyğun inkişafı, onun zamanca və məkanca dəyişilməsi, siyasi münasibətlərin əsas quruluşu, siyasi və qeyri siyasi orqanların qarşılıqlı əlaqələri, siyasətin rasional və irrasional başlanğıcı, siyasi şüur formalarının mövcudluğu və dəyişilməsinin əhəmiyyəti, siyasi mifologiyanın əhəmiyyəti, siyasi utopiya ehtimalı, təbii və ictimai olanın münasibəti, borc, məsuliyyət, intizam, azadlıq və s. kimi problemləri təhlil edir.

Bunlardan başqa **S.f.**-ni politoloji elmlə yaxınlaşdıran aşığıdakı problemlər də vardır: Dövlət, siyasət və vətəndaş münasibətləri, hakimiyyətin tipologiyası, hakimiyyət və cəmiyyət münasibətində siyasi və qeyri siyasi hakimiyyət, onun institutlu və qeyri institutlu formaları. Hakimiyyətin fəaliyyət prinsipləri. Onların müxtəlif subyektləri arasında olan münasibət, hakimiyyətin məqsəd və vəzifələri, məcburiyyət (icbar) funksiyası, güc və zor işlətmə, hakimiyyətin mərkəzləşdirilməsi, bölünməsi, siyasi sistemləşdirilməsi.

S.f. ilə praktik politologiyanı bir-birinə yaxınlaşdıran digər problemlər qrupu aşağıdakılardır: insanların siyasətə qoşulması - siyasi iştirak, hakimiyyətin demokratik və s. prinsipləri, siyasi dilin funksiyası və spesifik xüsusiyyətləri, siyasi sənədlər, siyasi nitq, simvollar və rituallar, siyasi dəyərlərin realizə olunması, siyasi mədəniyyət, siyasi sixologiya, siyasi informasiya və s. Sosial fəlsəfə, fəlsəfə tarixi, siyasi tarixlə birlikdə **S.f.** bir sıra problemləri nəzərdən keçirir: ümumi rifah, ədalət, bərabərlik, azadlığın ümumfəlsəfi problemlərinin siyasi tərəflərini siyasi antropologiya ilə birlikdə) - siyasi antropologiyanı (XX əsrdə yaranıb. Fəlsəfi antropologiya sayəsində ibtidai xalqların dövlətdən əvvəlki siyasi münasibətlərini öyrənir. Burada: hakimiyyətin qeyri mərkəzləşdirilmiş institutunun formalaşmasına təsir edir ki, bu da **S.f.** ilə münasibətlərsiz qeyri mümkündür).

S.f. siyasi antropolrgiya ilə əlaqədardır.

SİYASƏT PSİXOLOGİYASI - ictimaiyyatşünaslıra dair tədqiqatlarda istiqamət politologiya və sosial psixologiya elmlərinin qovuşuğunda

yaranmışdır. Qərb ənənəsinin təsiri ilə və ölkədə siyasət elmi inkişaf etmədiyinə görə keçmiş SSRİ-də ilk vaxtlar sosial psixologiyanın nisbətən müstəqil qolu kimi inkişaf edirdi.

S.p.-nın ontoloji kökləri Qərbdə inkişaf etmiş siyasi psixologiya ilə bağlıdır və ilk növbədə ümumi öyrənmə obyektinə - siyasətin psixoloji cəhətlərinə aiddir. Bəzən məhz buna görə "siyasi psixologiya" və **"S.p."** anlayışları qarışdırılır, bir-birindən fərqləndirilmir və demək olar, sinonim kimi işlədilir. Lakin məsələ sadəcə olaraq sözlərin yerinin dəyişməsində deyil, eyni bir reallığı öyrənməyin bu iki yolunun qnoseoloji əsaslarının fərqindədir. Siyasi psixologiyadan fərqli olaraq, **S.p.** özünün öyrəndiyi növzunun metodoloji baxımdan daha aydın və daha ciddi qurulmasını zəruri sayır. Həmin növzunu müəyyən amillərin xüsusi növ-real siyasi təsisatlara və siyasi proseslərə bu təsisatların "insan amili" tərəfindən və həmin siyasi proseslərin subyekti tərəfindən təsir göstərən amillərin sistemli təşkil edilmiş məcmusu kimi başa düşür.

S.p. ilk növbədə əlavə fənn və eyni zamanda sistemli təşkil edilmiş politologiya çərçivəsində özünəməxsus təhlil metodudur. Bununla yanaşı, **S.p.** həm də sosial psixologiya elminin bir qoludur.

Müasir **S.p.**-nın üç başlıca nəzəri əsası var. Birincisi siyasi fəlsəfə ilə bağlıdır və kökləri siyasi həyatda "insan amilinin" roluna dair əsas müddəalara gedib çıxır. İnsan fəaliyyətinin növü kimi siyasətin subyekti insanlar - həm ayrı-ayrı fərdlər, həm də sosial cəhətdən təşkil edilmiş, özünəməxsus sosial-psixoloji xüsusiyyətlərə malik müxtəlif insan birlikləridir.

İkinci nəzəri əsas sosiologiya və sosial psixologiyadır. Bunlar **S.p.**-na tədqiqatın əsas metodik üsullarını, habelə siyasi-psixoloji və sosial-siyasi proseslərə analitik yanaşmanın konkret elmi metodologiyasını vermişlər.

S.p.-nın üçüncü nəzəri əsası siyasət elmidir. **S.p.**-nın tədqiqatının yönəldilməli olduğu əsas istiqamətləri müəyyənləşdirməklə yanaşı, politologiya ona siyasətin kompleks şəkildə çoxcəhətli öyrənilməsi çərçivə-

sində özünü bir istiqamət kimi təyin etmək və özünün spesifik tədqiqat mövzusunu tapmaq imkanı vermişdir.

S.p. üçün başlıcası tədqiqata istər siyasətin, istərsə də onda iştirak edən adamların psixologiyasının vahid zəmində nəzərdən keçirilməsini birləşdirməyə imkan verən fəal münasibətdir. Bu, siyasi-psixoloji təhlil üçün siyasətdə iştirak etmək dəlilləri kimi dayaq kateqoriyalarını; siyasi fəaliyyətlə onun subyektinin məna strukturunu; belə fəaliyyətin təmin etdiyi tələbatı; elə məqsədləri, dəyərləri, normaları və idealları ayırmağa imkan verir ki, insan, yaxud bir qrup insan bunların sayəsində hansısa siyasi bütövün bir hissəsinə çevrilir, özünü onunla eyniləşdirir.

Ümumən götürdükdə geniş mənada **S.p.**-nın obyekti həm xarici, həm də daxili siyasətin bütün psixoloji cəhətləri, ünsürləri, təzahürləridir ki, bunlar siyasi fəaliyyətlə bağlıdır, yəni bu və ya digər siyasi vəziyyət şəraitində adamların davranışını səciyyələndirir, yaxud cəmiyyəti siyasi idarələr və təşkilatlar sisteminə yönəldir. Politologiya metodu kimi siyasi-psixoloji təhlilin məhz **S.p.** baxımından daha konkret və özünəməxsus mövzusu ilk növbədə siyasi davranış subyektlərinin, deməli, siyasət subyektlərinin siyasi davranışının daxili, psixoloji mexanizmləridir. İnsan psixikasının siyasi fəaliyyətlə bağlı müəyyən təzahürləri bu mənada dəqiq yönümlü politoloji araşdırmaya cəlb edilir.

Metodik baxımdan **S.p.**-nın daha çox yayılmış üsulları ya sosial psixologiyadan (müşahidə, konkret vəziyyətin təhlili, psixoloji modelləşdirmə metodları və s.), ya sosiologiyadan (o cümlədən sorğu metodunun ən müxtəlif variantları), yaxud da politologiyadan (məs., müxtəlif modifikasiyalarda müqayisəli tarixi-politoloji təhlil metodu) götürmüşdür. **S.p.**-nın metodik qaydasının başlıca xüsusiyyəti üsulların seçilməsinə və müxtəlif tədqiqat sahələrindən götürülmüş qaydaların üstünlüklərini mümkün qədər birləşdirməyə və çatışmazlıqlarını minimuma endirməyə imkan verən konkret tədqiqatlar üçün kompleks metodik bloklar yaradılmasına sintetik yanaşılmasıdır. **S.p.** bunu əsas tutur ki, siyasi-psixoloji təhlil üçün səciyyəvi cəhət hansısa konkret metodik üsulun olması deyil. **S.p.**-nın kateqoriya-anlayış sistemində yerləşən və həmin istiqamətin məsələlərini həll edən məlumatları əldə etməyi yenidən qiymətləndirməyə imkan verən özünəməxsus siyasi-psixoloji şərh sxemindən istifadə olunmasıdır.

S.p.-ndan əməli istifadə siyasi proseslərin yaxın müddət üçün və daha uzunmüddətli proqnozlaşdırılması zamanı, habelə siyasi qərarlar qəbul edilib həyata keçirilərkən siyasi strategiya və taktikanın (bax; **SİYASƏTDƏ STRATEGİYA, SİYASƏTDƏ TAKTİKA**) işlənib hazırlanması zamanı siyasi-psixoloji biliklərin nəzərə alınmasının mümkünlüyü ilə bağlıdır. Sırf siyasi əhəmiyyətindən əlavə, **S.p.**-nın təblirat və kütləvi informasiya prosesləri sahəsində, o cümlədən "psixoloji müharibə" problemi ilə bağlı sahədə də praktik əhəmiyyəti var.

SİYASƏT SƏNƏT KİMİ - siyasət həyatının səmərəliliyini, metodlarının səciyyəsini, taktika seçməyi əhəmiyyətli dərəcədə müəyyən edən zəruri işgüzar və emosional-iradi komponenti (bax; **SİYASİ STRATEGİYA VƏ TAKTİKA**) və siyasi xadimin peşəkarlıq qabiliyyəti. Siyasətdə incəsənətin rolu siyasi prosesin ehtimallıq səciyyəsi ilə (onun başlanıc şərtləri haqqında informasiyanın natamamlığı, gözlənilməz amillərin təzahür etməsinin mümkünlüyü, son nəticələrin qeyri-müəyyənliyi və i.a. nəzarət oluna bilməyən dəyişikliklərlə) əvvəlcədən müəyyən edilir (bax; **SİYASİ PROSES; UTOPİYA; SİYASƏTDƏ İRRASİONALİZM**). Siyasi proses heç vaxt tam səmərəli ola bilməz, irrasional, nəzarətsiz proseslər isə siyasətdə arzu edilməzdir, siyasi prosesin və ümumiyyətlə, hər hansı siyasi fəaliyyətin təşkili və həyata keçirilməsində ikili vəzifə qarşıya çıxır: nisbi və tam dəqiq olmayan biliyin şəksiz (ən ideal variantda, elmi) şübhəsiz olanın çatışmazlığının yerini doldurmaq və eyni zamanda irrasionallıqdan kənarda duraraq düşünülməmiş qərar və hərəkətlərə yol verməmək.

Birinci vəzifənin həlli siyasi biliyin elmi həqiqətə görə ayrılması ilə (bunlar siyasətə məlum

olmaya da bilər - bax; **SİYASƏT VƏ ELM)** və siyasi münasibətlərin texnikasını, qüvvələrin yerləşməsini, insanların bilik və mənafelərini, zəif və güclü tərəflərini, kütlələrin, qrupların və ayrı-ayrı şəxslərin və i.a. davranışının məntiq və psixologiyasını bilməklə əlaqədardır. Belə bilik konkret siyasi qərarların müdrikliyindən, çevik manevr etməkdən, düzgün psixoloji təxmindən, niyyətləri hərəkətlərə çevirmək bacarığından, taktika texnikası və manevr etmək bacarığı daha əhəmiyyətli strateji hərəkətlərə keçərkən zaman siyasi oyunun, intriqanın çevikliyinədək siyasi taktikanı müəyyən edir. Nə vaxt ki, siyasi bacarıq fəndgirliyə, insanlar və baxışlarla manipulyasiya etməyə yönəlir, (bu isə tez-tez baş verir) o zaman siyasət öz simasını itirərək, siyasətbazlığa çevrilir.

İkinci vəzifə - irrasional sahəyə keçmir - qeyri-şüuri, düşünülməmiş, təsadüfi, izah olunmayan hər nə varsa, hamısından, məlumat və tərəfgirlikdən, şəxsi qərəzçilikdən və i.a. çəkinmək bacarığı ilə həll edilir.

Bu iki vəzifənin həlli siyasətçinin intellektini onun emosional, ehtiraslı siyasi həyatı ilə yaxınlaşdırır. Onların arasındakı sərhəddə, intuitiv sahədə törəmiş, lakin hələ lazımınca dərk edilməmiş fikir dairəsində parlaq improvizasiyalar, anlamalar, uğurlu zənnetmələr əmələ gəlir, mənəri və xarakter tərzinə görə yaxın həmfikirlər seçilməsi haqqında qərarlar meydana çıxır. Bilik və instiktiv seçki hüdudunda siyasət artistizm səviyyəsinə çata bilir, hərəkətsizlikdən emosional coşğunluğa keçir və bacarığın ən güclü təzahürlərindən biri - parlaq natiqlik məharəti yaranır.

Siyasi sənət, beləliklə, faydalı, zehni və intuitiv, törəmiş, lakin dərk edilməmiş fikir və ehtiras əsaslarını özündə birləşdirir. Bu sintezdə siyasi xarizmə, hesab və rilməyən, hədsiz inamdan (bax; **İNAM VƏ ETİMAD)** etimad təlqin etmək və inandırmaq bacarığı meydana gəlir. Siyasi mübarizə sənətinin (məs., Engelsdə silahlı üsyan sənəti), siyasi sazisin, adamlarla siyasi işin, qərarların qəbul edilməsinin və siyasi fəaliyyətin bütün digər formalarının hamısının böyük əhəmiyyəti qeyd edilməklə yanaşı, onlar

siyasətin daha faydalı əsasları üzərində üstünlük təşkil etməməlidirlər.

Ölçüsüz sənət, bacarıq da siyasətin siyasətbazlığa keçməsi, amirlik hökmranlığı, hakimiyyətpərəstlik və intriqa kimidir.

SİYASƏT VƏ HAKİMİYYƏT VASİTƏLƏRİ - siyasəti və hakimiyyəti həyata keçirmək imkanlarının məcmusu, tətbiq edilən vasitələrdən (sərt, yumşaq, humanist və ya zorakı, repressiya) asılı olaraq siyasət və hakimiyyətin, cəmiyyətin tipləri, tarixi dövrlər də bir-birindən fərqlənir. Siyasi rejimləri, idarəetmə üsullarını, hakimiyyətin və cəmiyyətin münasibətlərini səciyyələndirən siyasət metodları da **S. və h.v.**-nə aiddir. Ona görə də bu vasitələrin təsnifatı və qiymətləndirilməsi məsələsinin əhəmiyyəti böyükdür. **S. və h.v.**-dən danışarkən ilk növbədə siyasət və hakimiyyətin funksiyalarını qeyd edirlər. Həmin funksiyalar qurum tənzimləmək, nəzarət və idarəetmə anlayışlarında ümumiləşdirilmiş siyasi praktikanı təşkil edir. **S. və h.v.** haqqındakı ən ümumi təsəvvür həmin vasitələri iki qrupa bölməklə detallaşdırılıb konkretləşdirilir.

1) Cəmiyyətin özünün doğurduğu, lakin siyasi münasibətdə zahiri görünsə də, siyasətdə istifadə olunan, siyasət və hakimiyyətin mənafeyi üçün istifadə olunan vasitələr; mədəni, etik, ictimai əhval-ruhiyyə, onun özünəməxsus vəziyyəti - ruh yüksəkliyi və s.

2) siyasət sahəsinin özündə meydana gələn, hakimiyyətin yaratdığı və tətbiq etdiyi vasitələr, bunların özləri də sosial mənşəli, lakin hakimiyyət və siyasətin bi lavasitə ehtiyatları sırasına daxil olan biliklər aiddir; şəraiti bilmək, peşə hazırlığı, adamları tanımaq, siyasi nəzəriyyəni bilmək və s.; siyasət dili, bütün səciyyəvi əlamətləri (özünəməxsus frazeologiyası, terminləri, streotip və ya, əksinə, qeyri-adi formulları, bəlağətli üslubu və s.) olan siyasi nitq; müxtəlif növ siyasi rəmz (hakimiyyətin zahiri atributları - binalar, təntənəli mərasim, yığıncaq, görüş, qəbul, rəsmi keçid mərasimləri və s.); kütləvi informasiya vasitələri (teatr, kino, təsviri sənət); ən açıq formalardan tutmuş (məs., seçki qabağı təşviqat və təblirat)

daha incə formalaradək (müxtəlif üsullarla hər hansı bir siyasi şəxsin yaxşı və pis obrazının, hakimiyyət, siyasət haqqında rəyin yaradılması) aparılan təbliğat; ictimai hərəkatlar, cərəyanlar, əhval-ruhiyyə və bunun təzahürləri olan kütləvi tədbirlər (mitinqlər, nümayişlər, yığıncaqlar və s.). Prinsip etibarilə ictimai hadisələrin, hamısı olmasa da, bir çoxu siyasi məna kəsb edə və müvəqqəti, təsadüfi də olsa siyasət vasitələrinə çevrilə bilər. Siyasətin məharəti bunlardan istifadə etməyi, yaxud əksinə, əgər gərək deyildirsə, istifadə etməyə yol verməməyi bacarmaqdır. Hakimiyyətin təzahürünün əsas üsulu olan amirliyin bütün növləri (əmr, sərəncam, nizamnamə, dekret və s.), hakimiyyətin zahiri və ən yaxşı təzahürü olan nüfuzdan başlayaraq, gücün təzahürünə və zorun tətbiqinədək hakimiyyət və siyasətin mahiyyətini təşkil edən bütün məcburiyyət növləri hakimiyyətin, yaxud siyasətin özünün doğurduğu vasitələrə aiddir. Iradənin təzahürü, təsir göstərmək, inandırmaq, tələqin etmək bacarığı, habelə cəlb etmək, öz arxasınca aparmaq qabiliyyəti prinsip etibarı ilə hakimiyyətə xas olan vasitələrə xidmət edir. Siyasətin və müxtəlif konkret hakimiyyətin malik olduqları cürbəcür ehtiyatlardan istifadə də **S. və h.v.** sırasına daxildir. Bunların özünü də dövlətin və ya konkret hakimiyyətin istifadə etdiyi ictimai ehtiyatlara bölmək olar: ölkənin iqtisadi, hərbi, mədəni potensialı, dövlətin ərazisi, ölkənin beynəlxalq nüfuzu, ictimai münasibətlərin tipi, sabitlik və qayda-qanun, cəmiyyətin birliyi, təbii sərvətlər, əhalinin sayı və keyfiyyəti (mədəniyyət, əmək vərdişləri, intizam və s.) məhsuldar qüvvələrin inkişafı və s.

Cəmiyyətdə yaradılmış siyasi məkan (yaxud funksional məkanlar sistemi dövlət, ideoloji, partiya məkanları kimi s.), öz məsələlərini həll etmək üçün hakimiyyətin əlində olan siyasi vaxt, cəmiyyətin etimadı, siyasətdə onun iştirakı, hakimiyyətin nüfuzu və bir çox başqa amillər də siyasi ehtiyatlardır.

Siyasət və hakimiyyətin səmərəliliyi **S. və h.v.**-nin olması və bunlardan rasional istifadə

ilə müəyyənləşdirilir.

SİYASƏT VƏ HAKİMİYYƏTİN MƏQSƏDLƏRİ - siyasi prosesin başlanıc anı olub siyasətin istiqamətlərini, hakimiyyətini, vəzifələrini və siyasi fəaliyyətin formalarını, habelə bu fəaliyyətin son nəticəsini - nail olunan məqsədləri müəyyən edir. Siyasətin minimum məqsədləri fərqləndirilir, bunlara nail olmadan digər məqsədləri və ya ümumiyyətlə, hər hansı məqsədi reallaşdırmaq, məsələn, ölkənin idarəsinin etibar edildiyi hökumətin formlaşdırılmasını və cəmiyyətin vəzifələrinin həllini reallaşdırmaq, yəni müxtəlif məqsədlər kompleksini seçmək və bunların həyata keçirilməsinə nail olmaq mümkün deyildir. Başqa sözlə, minimum məqsədlər heç də az əhəmiyyət kəsb etmir. **S. və h.m.** müxtəlif cəhətlərinə görə fərqləndirilir: 1) əhəmiyyətinə görə - bunlar xüsusi məqsədlər (ayrı-ayrı hakimiyyət orqanlarının, idarələrin, partiyaların) və az əhəmiyyətli məqsədləridir (cəmiyyətin özünün, ayrı-ayrı qrupların, siniflərin və şəxslərin); ümumi məqsədlər (dövlətin və xalqın), xarici məqsədlər (cəmiyyətin yeniləşdirilməsi, böhrandan çıxmaq, ümumi rifaha nail olmaq və s.) və maksimum məqsədlər (ümumi bərabərlik, ədalət, azadlıq və s. kimi tarixi miqyaslı məqsədlər); 2) siyasətin məzmununa görə - sosial, iqtisadi, ideoloji, siyasi-hüquqi, ekoloji və bir çox başqa məqsədlər; 3) vaxt, növbəliliyə və siyasi prosesin mərhələlərinə görə məqsədlər; (həmin proses üçün) yaxın, aralıq, daha uzaq və son məqsədlər **S. və h.m.**-nin təsnifatını daha da xırdalamaq mümkündür (sosial, partiya, silk əlamətlərinə, şəxsi əlamətlərə görə və s.) lakin bunun praktiki mənası yoxdur, çünki təsnifatın hər cür xırdalanması əslində sonsuzdur. Siyasəti başa düşmək üçün onu məqsədyönlü fəaliyyət kimi təsəvvür etmək mühümdür. Bu fəaliyyətdən kənarda siyasət yoxdur. Fransız alimi J.Freydin dediyi kimi, siyasət "məqsədlər səltənətidir". Məqsədsiz siyasət cəmiyyətin və hakimiyyətin böhranı və ya iflic olması deməkdir.

Siyasətin məqsədlərinin reallaşdırılması ilə bağlı cəmiyyətdə xüsusilə kəskin ziddiyyətlər yaradan ən mühüm münasi-

bət məqsədin və siyasi prosesin qarşıya qoyulmuş məqsədə nail olunması ilə başa çatmasına imkan verən vasitələrin, metodların, ehtiyatların nisbətidir. Qarşıya qoyulmuş məqsədin reallaşdırılmasının vaxtı, yeri və dərəcəsi, deməli, siyasətin və hakimiyyətin səmərəliliyi də xeyli dərəcədə siyasi layihənin keyfiyyətindən, hakimiyyətin imkanlarından, sərişdəsindən, meylindən, ideologiyasından (tətbiq edilən metodlardan), siyasətin və cəmiyyətin ehtiyatlarından (siyasətin icraçılarından) və məqsədlərin əhəmiyyətindən, miqyasından və reallığından asılıdır. Siyasi prosesin bütün bu tərkib hissələrinin rasional nisbəti layihəni yerinə yetirməyə imkan verir, bu nisbət səhv olduqda isə layihə xülyaya çevrilir, yaxud siyasət və onun məqsədlərinin təhrifinə gətirib çıxarır.

SİYASƏT VƏ HAKİMİYYƏTİN METODLARI - Mövcud sosial-siyasi münasibətdən asılı olaraq, siyasət və hakimiyyətin metodları inqilabi, islahatçı və mühafizəkar metodlara bölünə bilər: üstəlik, qarşıya qoyulan vəzifələrin mürəkkəblik dərəcəsi əlavə olaraq radikal və mötədil inqilabi, radikal və mötədil islahatçı, mötədil və ifrat mühafizəkar metodları fərqləndirməyə imkan verir. Siyasətin inqilabi və mühafizəkar metodları zorakı və qeyri-zorakı üsullarla həyata keçirilir. Tarixdə islahatlar aparılarkən zorakılığın tətbiq olunduğu hallar da məlumdur (I Pyotrun dövründə və s.).

Hakimiyyəti həyata keçirməyin metodları təkcə mənafeyini həmin hakimiyyətin təmin etdiyi quruluşun sosial-sinfi təbiətindən deyil, həm də daxili və xarici siyasi şəraitin xüsusiyyətlərindən, hakim qrupların daxilində münasibətlərin sabitlik dərəcəsindən və s. asılıdır. Beləliklə, hakimiyyətin həyata keçirilməsinin diktatura, avtoritar və demokratik metodları fərqləndirilir. Diktaturanın özü də ucdantutma terrorzuluğa çevrilə, yaxud müstəsna hallarda terrora əl ata bilər. Avtoritar metodlar hakimiyyət funksiyalarının xarizmatik statusa malik, yaxud bunu iddia edən siyasi liderin adından və ya onun tapşırığına əsasən həyata keçirilməsi ilə fərqlənir. Demokratik metodlar sıravi vətəndaşların bir hissəsinin siyasi fəaliyyətə, heç olmasa, formal surətdə cəlb edilməsi (dolayı seçkilər, referendumlar, sorğular və s.) ilə fərqlənir. Nəhayət, hər bir konkret siyasi vəziyyətin sürətlə həlli yolu ilə həyata keçirilir. Ona görə də konkret siyasi fəaliyyət metodlarını ayrıca təhlil etmək tələb olunur.

SİYASƏTDƏ İNAM VƏ ETİBAR - siyasət və hakimiyyətin, siyasi münasibətlərin və hərəkətlərin fəaliyyətini, onların səmərəliliyi, cəmiyyət və ayrıca insan tərəfindən qavranılmasını müəyyənləşdirən zəruri emosional intensiv amil. **S.i. və e.** həmçinin siyasi (ictimai) rəyin əsas mənbələrindən biri, cəmiyyətdə siyasi şəraiti, ölkənin siyasi vəziyyətini müəyyənləşdirən mühüm amildir. **S.i. və e.** siyasət və hakimiyyətə verilən etik-mənəvi qiymətlərlə zəngin ideal, mənəvi məkan, siyasət və hakimiyyətə münasibət sahəsində sosial-psixoloji ovqat, vətəndaşlıq mövqeləri məkanı yaradır.

S.i. və e. çətin fərqləndirilir, bir-birini stimullaşdırır. Düşünmək olar ki, etibar daha rasional başlanıcdır, inam emosional və daha çox qeyri-iradidir. Lakin bu fərqlər olduqca şərtidir. **S.i. və e.** bir-biri ilə qırılmaz bağlıdır, siyasət və hakimiyyətin fəaliyyət göstərdiyi ümumi subyektiv, emosional imkanı təşkil edirlər. Bu iki başlanıc özlərinin obyektivləşdirilmiş maddi (təsisat, idarələr, aparatlar və i.a.) və ideal (ideyalar, nəzəriyyələr, məqsədlər, layihələr), formaları həmçinin siyasət və hakimiyyətin şəxsi, fərdi subyektləri, onların daşıyıcıları və qeyri-daşıyıcıları da daxil olmaqla izah edilib müəyyənləşdirilə bilən bütün səmərəli elmi, nəzəri və təcrübi, mücərrəd və konkret siyasi prosesləri, hadisələri, funksiyaları və əməlləri labüd surətdə tamamlayır. **S.i. və e.** hadisələri, faktları, şaiyələri, mifləri və ya şəxsləri bilməyin təbii natamamlığını və anlaşılmazlığını sadəcə, aradan qaldırmır, həm də siyasi reallığın və ya siyasi funksiyaların emosional və ehtiraslı dərkinə təminat yaradır, onları qəbul və ya rədd etməyə məcbur edir. Hər hansı siyasətin, hətta ən mükəmməl siyasətin belə **S.i. və e.**-a ehtiyacı vardır. **S.i. və e.**-ın siyasətdə

rolu artdıqca, bu rol subyektivləşir. Siyasi səfərbərlik hallarında, siyasi böhranlar dövründə cəmiyyəti çətinliklərlə, xoşagəlməz siyasi xətt və ya yaramaz, şübhəli idarəetmə növü ilə barışdırmaq istədikdə, bu cür subyektivləşmə hakimiyyətin və siyasətin məqsədinə çevrilə bilər. **S.i. və e.** siyasətin ideolojiləşdirilməsi, təblirat əlverişli rəhbər hakimiyyət obrazı yaratmaq ("imic"- ing.) hakimiyyət və i.a. kimi müxtəlif vasitələrlə təlqin və zorla qəbul etdirilir.

S.i. və e. legitimləşmənin mütləq ünsürüdür. Legitimləşmənin əsas vəzifəsi siyasət və hakimiyyətə (hökmranlıq edən subyektə) etibarı və onlarda inamı təmin etməkdən ibarətdir.

S.i.və e. onların digər ictimai funksiya xüsusiyyətləri və formalarından da irəli gəlir: inam hakimiyyət subyektləri arasında münasibətləri möhkəmləndirir; itaətkarlıı, vəzifə borcunun icrasını və i.a. həyata keçirmək üçün zahiri məcburiyyəti (zorakılıq) əvəz edən könüllü özünü məcburetməni təmin edir, müəyyən cəza rolu oynayır. İnamın adamları birləşdirən, qruplaşdıran və bölüşdürən ("hə-yox" prinsipi üzrə) (məs., seçkilər şəraitində) fərdi və kollektiv formaları vardır. inam çox vaxt assimetrikdir (ayrı-ayrı adamlar və ya insan kütlələri eyni obyektə müxtəlif şəkildə inanmaqla bir-birinə inanmaya bilərlər), lakin inkişaf etmiş, müasir və demokratik siyasətin idealı və vəzifəsi **S.i. və e.**-ın bütün iştirakçıları arasında qarşılıqlıdır. Avtoritar və ya mütləqiyyətçi, totalitar siyasətin səciyyəvi cəhəti inamı hakimiyyətdə (dövlətdə, onun qurumlarında) və onun daşıyıcılarında həyata keçirməkdən, hakimiyyətin adamlara və cəmiyyətə inamsızlığından ibarətdir.

SİYASƏTDƏ KOLLEKTİV ŞÜURSUZLUQ - sözün geniş mənasında, siyasi əxlaqın fərdi subyektin şüurunda təmsil olunmayan (yaxud lazımi dərəcədə dərk edilməmiş) lakin, fəal, bəzi şəraitdə isə mühüm insan birliyinin (misal üçün kütlələrə) rəftarına əhəmiyyətli təsir göstərən psi xi proses və halların məcmusundan ibarətdir.

"K.ş." termini, fərdi (şəxsi) şüursuzluqdan fərqli şəkildə, bəşəriyyətin irsən keçən bioloji inkişaf təcrübəsinin daşıyıcısıdır ki, Z.Freydin davamçısı K.Y unq tərəfindən əsrin əvvəlində psixi təzahürün xüsusi dərəcəsi kimi qeydə alınmışdır. Yunqa görə, arxetiplər - real insan həyatını konkret məzmunla dolğunlaşdıran davranışın ümumi aripor sxemi, bəzi filogenetik "kollektivlər" ilə (məs. bir etnosla) bağlı adamda rəftar eyniliyini müəyyənləşdirən, insan ətrafında baş verən və şəxsiyyətdən yuxarıda dayanan (dəstə halında) dərketmə və reaksiyavermə üsulları **K.ş.**-un əsas məzmununu təşkil edir.

K.ş.-unun politologiyadakı izahı E.Dürkheym tərəfindən sonuna əlavə olunmuş "kollektiv təsəvvürlər"in anlayışı ilə tamamlanmışdır; bu sosial qrup və birlik üzvlərinin cəmiyyətçilik təcrübəsindən yaranan vərdişlik özündən dərk olunmayan avtomatlaşdırılma, bilik, rəy, davranış normalarının məcmusunu bildirir.Bu cür təsəvvürlər insanların fərdi şüurunu boğaraq stereotip reaksiyalar yarada bilərlər.V.M.Bexterev bunları sosial psixologiyanın və siyasi psixologiyanın mitinqlərdə kütlənin davranış tipi. kütləvi isteriya və s. ilə bağlı sahəsi olan "kollektiv refleksologiya"nın predmeti hesab edirdi. Burada emosionallıq hakim rol oynayır. **K.ş.**-dakı səmərəli ünsürlər səmərəsiz nəqamlarla münasibətdə yalnız onlara tabe olan, çox vaxt da qulluq göstərən sabit stereotiplər, ənənəvi dünyagörüşü və inanclar şəklində özünü göstərir.

K.ş. kütləvi davranışda, adətən, iki müxtəlif halda təzahür edir. Birincisi, **K.ş.**-un bütün üzvlərinin ümumiliyi əsasında fərdlərin kifayət qədər bütöv, tam kütlə halında birləşməsinin həmcins qiymət və fəaliyyətinə müncər olur. Bu, çox vaxt xeyli miqdarda adamın eyni cür həyəcan və kütlənin öz başçısı önündə həyəcana gələrək vəcdlə, coşqun halda onu salamlaması, ünvanına şüarlar və s. söyləməsi nəticəsində baş verir.

K.ş.-da mühüm rol oynayan kütləvi davranışın, ikinci növündə isə coşqun həyacan adamları birləşdirmir, əksinə, parçalanma baş verir. Bu zaman ümumi əvəzinə, müxtəlif, lakin adamların xeyli hissəsinin rəftar mexanizminə uyğun olur və obyektiv şəkildə, qəflətən,

böhranlı vəziyyətdə yoxluğun daxilən yaranan yekdil reaksiyanın əsas məzmuna çevrildiyi davranış tərzi meydana çıxır. Xalq kütlələrinin böyük əksəriyyətini coşdurараq siyasi birliyə həvəsləndirdiyi zaman, məs., başçıya ifrat inam, yaxud, bu və ya başqa mənfi şəraitin müqəssiri göman olunan şəxsə qarşı yaranmış izahedilməz düşmənçilikdən doğan birlik dövründə **K.ş.** dayağa çevrilə bilir. Bu halda **K.ş.** mütəşəkkil siyasi davranışın özəyi ola bilər. Bundan təcrübədə böyük insan kütlələrinin iştirakı zamanı, məs., mitinqlərdə hiylə ilə istifadə edilir. Davranışın ictimai-siyasi formalarını dağıtdığı və siyasətə qarşı qoyulduğu zaman **K.ş.** son dərəcə qorxulu olur. Zəif hökumətlə qiyam əhval-ruhiyyəli xalq arasındakı münasibətdə elə məqam gəlib çatır ki, "hakimiyyət tərəfindən verilən hər bir fərman kütlələri ümidsizlik həddinə çatdırır, fəaliyyət göstərməkdən imtina isə onun ünvanına nifrət oyadır". (C.Rid Dünyanı sarsıdan on gün. M., 1923 s. 56). Belə şəraitdə ictimai-siyasi pozğunluğa aparan və sonradan dağıdıcılıq nəticəsinin ləğvinə xeyli vaxt, qüvvə tələb edən qarışıq yalançı siyasi davranış qaydası hakimlik edir.

K.ş. bütövlükdə bəşəriyyətin inkişafının əvvəlki dövrlərində mühüm rol oynamışdır. Müasir mədəni cəmiyyətdə onun əhəmiyyəti azalır, yalnız siyasi davranışın şüurlu nizamlayıcı ünsürləri zəiflədiyi böhranlı hallarda üzə çıxır. Sabit ictimai-siyasi sistem şəraitində K.ş. adi şüurda pozulmuş şəkildə təzahür edir. inkişaf etmiş ölkələrdən fərqli olaraq, "üçüncü dünya" ölkələrində **K.ş.**-un rolu hələ də yüksəkdir. Məs., **K.ş.**-un güclü təsirinin 1978-ci il iran inqilabının bir çox epizodları nümayiş etdirmişdir

SİYASƏTDƏ QRUPLAŞMA - 1) nümayişkaranə ümumi xarakterli sazişlər əsasında siyasi fəaliyyətin iki, yaxud daha çox müxtəlif mərkəzlərinin qarşılıqlı əlaqəsi; 2) ictimaiyyətdən məharətlə gizlədilən və formal saziş, yaxud ittifaq xarakteri daşımayan gizli sövdələşmə əsasında iki, yaxud daha çox siyasi fəaliyyət mərkəzlərinin qarşılıqlı əlaqəsi; 3) mənafelərinin müvəqqəti (yaxud belə görünən) olaraq uyğun gəlməsi əsasında siyasi fəaliyyətin iki, yaxud daha çox heterogen mərkəzinin razılaşdırılmış, yaxud birgə çıxışları, **S.q.** bir qayda olaraq tənəzzülə doğru meyl edir; lakin müəyyən şərait yarandıqda (onun iştirakçılarının bir-birinə qarşılıqlı ehtiyacı, qorxu, təhlükə qarşısında birləşmək zərurəti) **S.q.** çox və ya az dərəcədə sabit ittifaqa çevrilə bilər (bax; **KOALƏSİYA**).

SİYASƏTDƏ MƏQSƏDQOYMA - məqsədlərin müəyyən edilməsi prosesi. Onun başlanğıc mərhələsi vəziyyətin araşdırılması, siyasətin və hakimiyyətin vəzifələrinin təhlili, bunlardan ən mühümlərinin seçilməsi, bu vəzifənin (yaxud bir sıra vəzifənin) həllinə dair müvafiq qərarların qəbul olunması və zəruri məqsədə yetməklə başa çatmalı olan müvafiq siyasi prosesin layihələşdirilməsindən ibarətdir. **S.m.**nın çıxış nüqtəsi, məqsədin ideallaşdırılmasıdır, başqa sözlə, məqsədi cəmiyyətin, siyasətin və ya sadəcə konkret şəraitin vəzifələrinə son dərəcə uyğun gəlməsi haqqında təsəvvür, ideal mənada bu məqsədin cəmiyyətin və siyasətin universal ideallarına yaxınlaşdırılması və ya heç olmasa bu ideallarla (ədalət, azadlıq, rifah, bərabərlik və s.) tutuşdurula bilinməsi, yaxud hər hansı vəziyyətdən çıxmağın maksimum arzu olunan (bu mənada ideal sayılan) yoluna yaxınlaşdırılmasıdır. **S.m.**-da məqsəd hakimiyyətin, dövlətin, cəmiyyətin, ayrı-ayrı idarələrin və şəxslərin qarşısında duran vəzifələrin həllini real imkanlara yaxınlaşdırmaqdır.

S.m.-nın sonrakı addımları başlanğıc, aralıq və son məqsədlər zəncirini, onların növbəliyini, əhəmiyyətini və s. konkretləşdir məkdən ibarətdir (bax; **SİYASƏT VƏ HAKİMİYYƏTİN MƏQSƏDLƏRİ**).

Beləliklə, **S.m.** siyasətdə qərarların qəbulu qaydasının əsas cəhətlərindən biridir.

SİYASƏTDƏ RASİONALİZM VƏ İRRASİONALİZM - siyasi şüurun və siyasi fəaliyyətin qarşılıqlı əlaqədə olan, bir-birinə qarşılıqlı təsir göstərən iki əsası. Prinsip etibarilə siyasət o mənada rasionaldır ki, cəmiyyətdə ən mühüm mərkəzi təşkilati və tənzimləyici-nəzarət vəzifələrini həyata

keçirir, obyektiv zəruridir və siyasi, daha geniş mənada isə ictimai (iqtisadi, sosial, mədəni və s.) məqsədlər daşıyır. Siyasət bu məqsədlərə çatmaq üçün meydana çıxır və bunlardan kənarda öz mənasını itirir. Siyasətin realizmi onun rasionallığının əsas sübutu və xeyrinə olan dəlildir. Siyasəti siyasi şəxslərin kollektivlərin, təşkilatların, hakimiyyət aparatlarının şəxsi və ictimai təcrübəsi, bilik, elm, cəmiyyətin sosial nəzarəti və digər amillər, habelə siyasi prosesin bir sıra şərtləri: arzuedilməz səhv və qüsurlar buraxmaq qorxusu, hakimiyyətin, partiyaların, siyasi qüvvələrin və s. rəqabəti rasionallaşdırır.

Bununla yanaşı, siyasi bilik təbiət elmləri kimi dəqiq ola bilməz, siyasi prosesin gedişini irəlicədən tam, müfəssəl şəkildə təhmin etmə mümkün deyildir. O, xeyli təsadüfi hadisələrdən, nəzərə alınmayan və qeydə alınması mümkün olmayan şəraitlərdən ibarət ehtimali proseslərə aiddir. Siyasi layihə hesablamalar, planlaşdırmalar sahəsindən improvizasiya dairəsinə, qərarların "yolüstü" qəbul olunması, manevr etmək zonasına keçir. Siyasət həmişə bilik və ustalığın, ölçüb-bizməyin və hisslərin, incə və heç də həmişə etibarlı olmayan insani münasibətlərin, qəfil həvəsin, emosional əhval-ruhiyyənin və s. uyğunlaşmasından ibarət olaraq qalır. Bu irrasional sahəyə cəlb edilən siyasətçi istər-istəməz onun qanunları ilə hərəkət etməyə başlayır və əgər hadisələrin gedişini düşündüyü plana tabe edə bilməsə, prosesin digər iştirakçılarının - həmfikirlərinin, yaxud rəqiblərinin yaratdıqları vəziyyətə eyni irrasional hərəkətlərlə yiyələnməyə cəhd göstərəcəkdir.

Siyasətin təkcə icrası deyil, siyasi niyyətin özü də irrasional ola bilər. Bu, o zaman baş verir ki, siyasi niyyət pis, düzgün düşünülməmiş, hansısa qrupun, yaxud şəxsin istəyi ilə yaranır, qərardan, mühakimələrdən, ideoloji ehkamlardan, hansısa qərəzli ideyalardan irəli gəlir, siyasi prosesin məqsədləri və həyata keçirilmə vasitələri ölçülüb biçilmir. Belə irrasional zəmində yaranan layihənin həyata keçirilməsi bütün qaydalara əməl olunmaqla, tamamilə rasional siyasi üsul kimi planlaşdırılır

əslində isə bu, irrasional siyasəti rasionallaşdırmaq cəhdindən başqa bir şey deyildir. Belə hallar siyasətdə çox geniş yayılmışdır. Məs., nasional-sosialist totalitar diktaturanın bütün niyyəti, dağıdıcı ildırım sürətli müharibə planı, nasistsayağı "yeni qayda", az qala ümumdünya imperiyası - "üçüncü reyx" yaratmaq planı da son dərəcə rasionallaşdırılmış, real, həyata keçirilməsi mümkün sayılan layihə kimi, demək olar ki, bütün təfərrüatı ilə işlənib hazırlanmışdı. Məhz bu rasionallaşdırma ilk vaxtlar onu uğurla həyata keçirməyə imkan verdi. Lakin sonradan onun əsassızlığı, yerinə yetirilməsinin mümkünsüzlüyü, bu miqyasda və məzmunda irrasionlizmin cinayətkarlığı, avantürizmi aşkar oldu.

Mahiyyətcə irrasional olan siyasəti bilərəkdən və ya bilməyərəkdən rasionallaşdırmağın, rasional siyasəti isə irrasional siyasətə çevirmək siyasət, onun müəllifləri və icraçıları üçün daimi təhlükədir. Bir-birinə zidd bu iki başlanğıcın - rasionalizmin və irrasionalizmin nisbəti bəzən birləşməsi, qarşılıqlı asılılığı mənfi siyasi nəticələrlə heç də birmənalı şəkildə həll olunmur. Ayrı-ayrı siyasi epizodlarda xarizmatik tipli, emosional inandırıcı irrasionallıq ən ümidsiz və təhlükəli vəziyyətlərdə siyasəti, yaxud siyasətçini xilas edə bilər. Parlaq siyasi nitq, siyasətçinin nüfuzlu, rəmzi siması, onun liderlik keyfiyyətləri adamların vaxtın çatışmaması özündən anlaya bilməyəcəkləri bir anda siyasətin rasional qanuniləşdirilməsi prosesindən yan keçərək, insanları hər hansı problemin həllinə ən qısa yolla aparmağa qadirdir. Zahirən rasionallıqla pərdələnmiş, lakin mahiyyətcə irrasional olan əsassız amirlik, adamları müntəzəm aldatmaq siyasəti xeyli müddət davam edə bilir və hətta çox vaxt xroniki hal alır. Yalnız siyasi prosesin və cəmiyyətin özünün ardıcıl surətdə demokratikləşməsi cəmiyyəti bu xroniki haldan xilas edə, siyasətdə irrasionallığı labüd, lakin minimum həddə endirə bilər.

SİYASƏTDƏ STRATEGİYA - iri miqyaslı qərarların və fəaliyyətin nəzərdə tutulmuş istiqamətlər sistemi: bunun ardıcıl həyata keçirilməsi dövlət

institutlarının, partiyaların, ictimai-siyasi təşkilatların və siyasətin digər mütəşəkkil subyektlərinin müəyyən tarixi müddət üçün əsas məqsədlərə az və ya çox dərəcədə qənaətbəxş şəkildə çatmağa imkan verməlidir.

S.s. dövlətin və ya siyasətin digər mütəşəkkil subyektlərinin malik olduğu qüvvə və vasitələrin məkan və zaman etibarilə nisbətinin düşünülmüş və hənin vasitələrdən kifayət qədər sərbəst isti fadə etməyə imkan verən konsepsiyanın olması, əsas məqsədlərə çatmaqda başlıca mərhələlərin müəyyənləşdirilməsi ilə fərqlənir. Strategiyanı həyata keçirənlər qarşısında aşağıdakı tələblər irəli sürülür: əsas məqsədlərə, qərarlara və istiqamətlərə bunların qoyuluşunun, onlara nail olmağın obyektiv mümkünlüyünü nəzərə almaqla realistcəsinə yanaşmaq; aralıq mərhələlərdən hansınasa nail olmaq cəhdinin baş tutmamasının (mərlubiyyətin) mümkünlüyü ilə hesablaşmaq; ehtiyat mübarizə variantlarına malik olmaq və lazım gəldikdə onları işə salmaq; gözlənilməz çətinliklər yarandıqda (kortəbii hadisələr, texnogen fəlakətlər, strategiyanı işləyib və əvvəlki mərhələlərdə onun həyata keçirilməsini istiqamətləndirən liderlərin siyasi fəaliyyət sahəsindən getməsi və s.) fəaliyyətin əlavə ehtiyatlarını və istiqamətlərini müəyyən etmək.

Şübhəsiz ki, bu və ya digər strategiyanın qarşılaşacağı bütün şəraiti və maneələri əvvəlcədən ətraflı təsvir etmək mümkün deyildir. Bununla belə, onların əsas tipləri və formalarının təsnifatı **S.s.**-nın həyata keçiriləcəyi şəraitin ümumi xarakteristikasına daxildir. **S.s.**-nın dolğunluğu, ardıcıllığı, daxili ziddiyyətlərinin olmaması onu hazırlayanların siyasi təxəyyülündən və əsas məqsədlərin həyata keçirilməsində qarşıya çıxacaq (yaxud qarşılaşa biləcək) vəziyyətlərin hərtərəfli qiymətləndirilməsindən xeyli asılıdır.

İdeal variantda **S.s.** əsas məqsədlərdən birinə çatmağın elmi nəzəriyyəsidir.

SİYASƏTDƏ TAKTİKA - siyasi fəaliyyətin siyasətdə strategiyanın bu və ya digər mərhələsinə nail olmağa yönəldilmiş, strategiyanın həyata keçirilməsi zamanı yaranıb konkret şəraitə uyğun istifadə edilən üsul və

formalarının məcmusu. Taktika strategiyaya mane olmamalı, onu nüfuzdan salmamalı, əksinə, ona kömək etməlidir. Buna görə də taktiki üsullar nə qədər müxtəlif olsa da, sanballı siyasətçilər onun son nəticədə strategiyaya zərər vura biləcək formalarından imtina edirlər. Onlar strategiyanın ardıcıllığı haqqındakı təsəvvürlərə taktikanın uyğun gəlməməsini keçici, müvəqqəti, zahiri hal kimi izah edirlər.

Strateji planın birinci mərhələsinə nail olmaq taktikası istisna edilməklə, (bu, istənilən siyasi kampaniyanın başlanrıcı kimi, maksimum dəqiqləşdirilməklə planlaşdırılır) strategiya işlənib hazırlanarkən bu və ya digər taktikanın mümkünlüyü adətən ümumi şəkildə nəzərdə tutulur.

SİYASƏTDƏ TƏFƏKKÜRÜN ƏTALƏTİ - siyasi düşüncə tərzi, birincisi; hansısa xarici səbəb (hadisə, proses, şərait) onu öz vəziyyətindən çıxarmayınca, sükunət halını, yaxud düzxətli, ahəngdar hərəkətini saxlayır; ikincisi, hər hansı son bir xarici səbəbin təsiri altında müəyyən son sürətlənmə qazanılması və bu səbəbin hətta real təsiri yox olduqda belə ona qarşı münasibətinin davam etməsi.

S.t.ə. daxili və xarici siyasət kursunun sərtliyində, basmaqəlbiliyində, baxışlar sistemini və baş verən hadisələri dəyişdirməyin arzuolunmazlığı və qeyrimümkünlüyü, siyasi fəaliyyətin istiqamət və xarakterinin və artıq qəbul olunmuş birmənalı qərarından əl çəkilməsində üzə çıxır. **S.t.ə.**-nin siyasi formaları totalitarizmin ictimai-siyasi ifadəsində (qəbul edilmiş siyasi qərarın inhisarçılığında) olduğu kimi, həm də ictimai psixoloji (totalitar və avtoritar cəmiyyətin doğurduğu xüsusi tipli şəxsiyyətin - avtoritar şəxsiyyətin yəni düşüncə tərzi və şüur xüsusiyyəti) immanent xassəsində təzahür edir. **S.t.ə.** sovet siyasət elmində köhnə ("yenidənqurmayadək") siyasi düşüncənin əsas determinantlarından biri kimi öyrənilir. Ondan fərqli olaraq yeni siyasi təfəkkür artıq öz mahiyyətinə görə **S.t.ə.**-nə qalib gəlməyə yönəldilmişdir və çevik, təşəbbüskar yaradıcı şəkildə, siyasi hökmlərin qəbul edilməsi və həyata keçirilməsində prin-

sipcə başqa yollarla üzə çıxır.

S.t.ə. təcrübədə əsasən "hadisələr genişlənməsi", yaxud "səbatlığın artması" fenomenində daha artıq nümayişkaranə şəkildə təzahür edir. Həmin fenomenin mahiyyəti əvvəldən (bəlkə də bilməyərəkdən) səhv qəbul olunan, özü ilə itkilər gətirən (maddi, siyasi, mənəvi və i.a.), lakin qərarın səhvliyi tezliklə aydınlaşsa da, qəbul olunmuş yolun (gələcək itkilərlə bərabər) həyata keçirilməsi davam edir, halbuki bu kursa kökündən yenidən baxmaq; onu dəyişdirmək lazımdır. Səhv hökmün inadla davamı bu qaydada yalnız itkilərin artmasına aparıb çıxarır. Belə vəziyyətə misal olaraq qurtarması üçün 9 il vaxt lazım gələn SSRİ-nin Əfqanıstanda apardığı müharibəni göstərmək mümkündür.

S.t.ə. fenomeni həm obyektiv, həm də daha çox subyektiv tərkib hissələrə malikdir. Səhvən qəbul edilmiş qərarın itkilərini (o, cümlədən qaytarılması mümkün olmayan) bir təhər düzəltmək, uduzulanları "geri udmaq" meyli **S.t.ə.**-nin üstün subyektiv determinantı və qanunauyğunluqlarına aiddir: uduzulanları geri qaytarmaq cəhdi. Subyektiv göstərişlər, həm siyasətçiləri nəyin bahasına olursa-olsun səhv qərar verməyə məcbur etmiş "şəxsiyyəti qorumaq", "simasını saxlamaq" hesabına səhvlərini etiraf etmək məcburiyyətindən qazmaqda, həm də qəti, yeni qüvvə və vəsait qoymaqla radikal dəyişikliklər etmək əvəzinə əvvəlki yolu davam etdirməkdə özünü göstərir. Coxsaylı qurbanlara və küncə dirənməsinə baxmayaraq, iki diktatorun uzun illər boyu "geri çəkilə bilmədiyi", hərbi qarşıdurmanın davam edib dərinləşdiyi sürəkli 80-ci illər Iran-Iraq müharibəsi buna misaldır. **S.t.ə.**-i qəbul olunmuş qərarın düzgünlüyündən asılı olmayaraq çox təbliri edildikcə onun, həyata keçirilməsi ("Sibir çaylarının döndərilməsi" layihəsini reallaşdırmaq cəhdi və Leninqrad torpaq bəndinin, Moskvadakı Poklonnı dağında xatirə kompleksinin tikilməsi və s.) meyli daha artıq gücləndirir. Bundan asılı olmayaraq **S.t.ə.** həqiqətəbənzər konkret buraxılmış səhvlə bağlı imkandan daha artıq, müəyyən şəxslərin tam

cavabdehlikləri problemi ilə bir daha kəskinləşir, **S.t.ə.** informasiyanın pozğun şəkildə mənimsənilməsi ilə: səhv istiqamətə nəyin bahasına olursa-olsun bəraət qazandırılması öz təbiəti etibarilə saxta informasiyanı mənimsəməkdən ötrü təmizləyici süzgəc rolunu oynayan, az, ya çox, götürülmüş istiqamət üçün pozitiv olanları - səhvləri, yaxud ona şübhə oyadanları (məs. Hitler rejiminə münasibətlə bağlı 1940-41-ci illər Almaniyasının tədbirlərinin Stalin və ətrafındakıların seçdikləri istiqamətə uyğun açıq-açığına təhrifə çıxarılması) seçməklə əlaqədardır. **S.t.ə.** zaman keçdikcə çorunub saxlanılır və şiddətlənir: səhv xətt nə qədər çox uzanırsa, onun qəti şəkildə dəyişdirilməsinə yardım da çətinləşir, çünki onun həyata keçirilməsindən ötrü artıq həm obyektiv təşkilati, həm də subyektiv psixoloji mühit yaradılmış olur - ictimai-siyasi təşkilatların iş qaydası dəyişdirilir, insanlarda yeni şüur tərbiyə edilir. Keçmiş SSRı-də bazar iqtisadiyyatının qurulmasına, demokratik dövlətə keçilməsinə və vətəndaş cəmiyyəti yaradılmasına yönəldilmiş islahatların son dərəcə çətinliyi də elə bununla izah olunur.

S.t.ə. siyasətdə özünü müxtəlif səviyyələrdə göstərə bilər. O, fərdi şəkildə ayrıca siyasi xadimin baxışlarının və qiymətləndirilməsinin xüsusiyyəti kimi çıxış edir və yalnız o zaman köklü siyasi təsir göstərə bilər ki, həmin xadimə tam, xeyli tam hakimiyyət verilsin və qəbul etdiyi siyasi qərara nəzarət son dərəcə az olsun. Bu növ fenomen SSRİ-də yalnız Stalin ehkamçı, hədsiz ciddi düşüncə və böyük ətalətə malik şəxsi təfəkkürə yiyələndikdən, hakim partiya və dövlətinin yeganə başçısına çevrildikdən sonra müşahidə edildi.

S.t.ə. qrup səviyyəsinə "qrup təfəkkürü" kimi ("grourzhink ") təqribən kiçik dəstələr, siyasi qərarın qəbulu ilə bağlı üzə çıxır. Onun öçəyində, xüsusən, dəstədə qüvvətli liderin olması ilə daha parlaq meydana çıxan qrup konformizmi; dəstədə hətta ayrı-ayrı adamların razılaşmasa belə, çoxluğun qərarını müdafiəsinə cəhd, qrupun şərik olmadığı informasiya və fikirləri nəzərə alaraq meyli; ümumi ideya

ilə razılaşmayan qrup üzvlərini rədd etmək, yaxud onları qrupdan xaric etmək aiddir. "Qrup təfəkkürü "nə tarixən labüd, lakin son nəticədə səhv olan, Kubaya, Vyetnama və s.m. müdaxilə qərarına qədər olan qərarlar misal göstərilə bilər. **S.t.ə.** haqda ictimai siniflər, etnik qruplar, yaxud bütövlükdə cəmiyyət səviyyəsində geniş danışmaq olar. **S.t.ə.** burada totalitarizmin və avtoritarizmin mühafizəkarlıq xüsusiyyətinin durğunluq qayda-qanunlarına istiqamətlənmənin, hakimiyyət quruluşunun, hökmranlıq formalarının və s.-nin təzahürü kimi çıxış edir.

SİYASƏTƏ ƏXLAQİ YANAŞMA - Qərb politologiyasında əvvəllər siyasi psixologiya kontekstində inkişaf etmiş, lakin zaman keçdikcə onun hüdudlarını aşaraq daha geniş məzmun almış əsas istiqamətlərdən biri. 1930-cu illərin ortalarından daha çox psixoloji və elmi biliklərin birləşdirilməsi əsasında siyasətin konstruktiv-praqmatik anlaşılması istiqamətində təşəkkül tapmağa başlamışdı. Bu işi ilk dəfə görənlərdən biri C.Merrian olmuşdur. Siyasi əxlaq haqqında müddəanı siyasi elmin mərkəzi konsepsiyası hesab edən C.Merrian fərdin, bu və ya digər sosial qrupların siyasi davranışının özünəməxsus xüsusiyyətlərini aşkara çıxarmağı təklif etmişdir. Sonra Q.Lassuel **S.ə.y.**-nın inkişafına özünün layiqli töhfəsini vermişdir. Bundan sonra ilk tədqiqatların təsiri altında **S.ə.y.** tərəfdarlarının sayı sürətlə artmağa başlamışdır. Qərbin siyasi elmində tədqiqatların əksəriyyətində iz buraxmışdır. Hazırda **S.ə.y.** bir-birindən fərqlənən müxtəlif tədqiqat meyllərini daha çox siyasətdə insan amilinə ümumən diqqət yetirmək baxımından birləşdirir.

Humanist prinsiplərə əsaslanan siyasətin son məqsədi ümumbəşəri dünya nizamı yaratmaqdır. Dövlətlərin suverenliyinin və müstəqilliyinin tanınması, onların hüquq bərabərliyi, bir-birinin daxili işlərinə qarışmaması, kənardan sosial-siyasi quruluş, həyat tərzi, siyasət və i.a. yaratmağa məcbur etməkdən imtina, yəni hər bir xalqa öz inkişaf yolunu sərbəst seçmək hüququ verilməsi yeni dünya qaydasının şərtidir. Beynəlxalq münasibətlərin humanistləşdirilməsi və demokratikləşdirilməsi siyasətlə əxlaq arasında uyğunsuzluğun aradan qaldırılmasına gətirib çıxarır. Bu uyğunsuzluq tarixən meydana gəlsə də, qeyd olunmalıdır ki, hazırda siyasi qərarların işlənib hazırlanmasına mənəvi əsasların daxil edilməsi üçün daha əlverişli şərait yaranmışdır (bax; **SİYASƏT VƏ ƏXLAQ**). Güc amili ilə yanaşı ictimai fikir siyasətdə getdikcə daha böyük rol oynayır, xalq kütlələrinin dövlətin xarici siyasətində iştirakının genişlənməsi üçün şərtlər meydana gəlir. Beynəlxalq məsələlərin prinsipial həllinə xalq tərəfindən nəzarətin dövlət-hüquqi mexanizmlərinin yaradılması zəruriliyi yetişməkdədir. Hər bir konkret insanın bütövlükdə dünya işlərindən asılılığı gücləndiyi kimi, dünya birliyinin də hər bir şəxsin hüquqlarının təmin olunmasında rolu artmaqdadır, çünki daxili və xarici siyasətin humanistləşdirilməsi - insanın vətəndaş, siyasi, sosial-iqtisadi, yaxud sülh, tərksilah, inkişaf, ətraf mühitin qorunması, yəni yaşamaq hüquqlarının gerçəkləşməsinin zəruri şərti olub bəşəriyyətin qlobal problemlərinin həlli nəticəsində mümkündür.

SİYASƏTƏ SOSİAL NƏZARƏT - Geniş ictimai təbəqələrin mənafeyi baxımından böyük siyasi məsələlərin cari vəziyyəti və həlli perspektivləri barədə informasiyanın toplanmasında və geniş yayılmasında həmin təbəqələrin iqtisadi, sosial və hüquqi müdafiəsini təmin edən qanunvericilik təşəbbüslərinin irəli sürülməsi, qəbulu və reallaşdırılmasından; hökumət siyasətinin hakim qrupların tamahkarlığının üdənilməsinə yönəldilmiş meyllərini bütün səviyyələrdə müntəzəm tənqid etməkdən; partiyaların və ictimai hərəkatların proqram, strateji və taktik fəaliyyətinin humanist məzmununun reallaşdırılmasını təmin etmək məqsədilə bunları inkişaf etdirməkdən və tənqid etməkdən ibarət olan kompleks tədbirlər. Yerli, məhəlli və ümummilli səviyyələrdə **S.s.n.**-in konkret formaları son dərəcə müxtəlifdir.

Son onilliklərdə qlobal miqyasda dövlətlərin hərbi - texniki, xarici siyasət və təbiəti mühafizə fəaliyyəti, demoqrafik siyasətdə, aclıq və xəstəliklərlə,

irqi, milli və dini ayrı-seçkiliklə mübarizədə dövlətlərin əməkdaşlığı məsələləri S.s.n.-in diqqət mərkəzinə çevrilir. Beləliklə, S.s.n. getdikcə milli çərçivələrdən çıxaraq daxili siyasət fəaliyyətinin və ictimaiyyətin beynəlxalq tədbirlərinin bir-biri ilə qarşılıqlı sisteminə çevrilməkdədir. Milli ekoloji hərəkatların və "Qrinpis" beynəlxalq hərəkatının praktikası buna misal ola bilər.

SİYASƏTİN HUMANİST ƏSASLARI - iki qarşılıqlı əlaqədə olan nöqteyi-nəzəri bildirən anlayış: 1) siyasi aksiyaların iştirakçıları, yaxud obyektləri olan canlı insanların siyasi fəaliyyətinin və konkret mənafelərinin, sorğularının, tələbatının, səylərinin, ideologiyasının inikası; 2) dövlətlərarası, millətlərarası, partiyalararası mənafelərin, xüsusilə sonuncuların konkret insanların vəziyyətinə və taleyinə bilavasitə təsirini nəzərə alan "insani ölçü".

1. **S.h.ə.** insan anlayışının birinci mənası öz kökləri e`tibarilə siyasi təlimlər tarixinə gedib çıxır ki, burada siyasətin kütləviliyi problemləri və onun təmin olunması şərtlərinə məqsədə çatmağın mühüm şərtlərindən biri kimi baxılırdı. Demaqoq üsullarla (məs., Qədim Roma hakimlərinin "çörək və əyləncə!" tələblərini təmin etməsi) bir sıra siyasətçilər bütün dövrlərdə veteranların, əlillərin, acların, təbii fəlakətlə, epidemik xəstəliklərlə və i.a. üzləşənlərin ehtiyaclarına öz diqqətini nümayiş etdirmişlər; dövlət, kilsə-dövlət və şəxsi xeyriyyəçilik, yetimlərin ictimai-dövlət tərbiyəsi və təhsili sistemi, konkret məqsədlər (ev, iş heyvanı, avadanlıq və i.a.) üçün borc pul buraxılması həyata keçirilirdi. Təqsirkarların bağışlanılması, mühakimə olunanların əfv edilməsi, cəzanın yüngüllşədirilməsi hüququndan istifadə olunurdu. Müəyyən şəraitdə dövlət maksimum güzəştlər müəyyən edir, büdcə hesabına sonradan əhali arasında güzəştli şərtlərlə bölüşdürmək üçün çoxişlənən tələbat malları alır, qocalar, əlillər və i.a. üçün yeməkxanalar, xəstəxanalar, evlər açılmasını maliyyələşdirirdi. Göstərilən tədbirlər sisteminin dərin sosial-iqtisadi səbəblər özündən bir sıra problemləri aradan qaldıra bilmədiyinə baxmayaraq, hə-

halda müəyyən dərəcədə kompensasiya funksiyalarını yerinə yetirir və məlum hüdudlarda sosial gərginliyi azaldırdı. Birinci mənada **S.h.ə.** dini moizələrin, varlılara müraciətlərin daimi mövzusu olub cəmiyyətdə hörmətlə qarşılanırdı. Hakim ictimai qüvvələrə müxalif siyasi qüvvələr hakim dairələri tənqid edərkən onların **S.h.ə.**-nin daim maraqla izləyirlər. Beləliklə, **S.h.ə.** əhali kütləsinin qidaya, paltara, mənzilə, təhlükəsizliyin və sağlamlığın qorunmasına, gənc nəslin tərbiyəsinə və təhsilinə və i.a. ehtiyacına olan konkret tələbatlarına toxunduğundan siyasi həyatın kəskin problemi olaraq qalır.

2. "**S.h.ə.**" anlayışının ikinci mənası daxili və xarici siyasət yeritməyin sivil üsuluna aiddir və siyasət məcrasında sivilizasiya dəyərlərinin gerçəkləşməsinin tarixən əldə olunmuş yüksək səviyyəsini ifadə edir. İnsanın yaşamaq və digər əsas siyasi opponenti kimi çıxış edir. Siyasətin "insani ölçüsü" inqilabların, vətəndaş müharibələrinin, milli azadlıq hərəkatlarının, beynəlxalq münasibətlərin və qarşıdurmaların faciəli təcrübəsi gedişində yaranmışdır. Bu, insanın həyat, şərəf, ləyaqət, əmlak və sair hüquqlarının qorunması mənafeyi naminə qarşıduran tərəflər arasında mübahisəli məsələlərin ən münasib həllinə aid olan çoxsaylı ikitərəfli və çoxtərəfli sazişlərdə təsbit olunmuşdur. **S.h.ə.**-nin işlənib hazırlanmasının daxili siyasət sahəsindəki və beynəlxalq təcrübəsi BMT-nin insan hüquqları məsələlərinə dair qəbul etdiyi sənədlər toplusunda təsbit olunmuşdur - bunlar təşkilatın üzvü olan dövlətlər tərəfindən təsdiq olunmaq üçün açıqdır: təsdiqetmə öz daxili və beynəlxalq fəaliyyətində bu əsasları rəhbər tutması üçün öhdəlik sayılır. Bu sənədlər üzrə təəhhüdlərin Avropa qitəsində konkretləşdirilməsi Avropada Təhlükəsizliyə və əməkdaşlığa dair Müşavirənin (ATƏM; 1994 ildən ATƏT) iştirakçısı olan dövlətlərin humanitar sahədə sazişləri və bir çox bilavasitə insanların taleyinə və mənafeyinə toxunan ikitərəfli və çoxtərəfli müqavilə və sazişlərin imzalanmasında öz ifadəsini tapmışdır.

Hazırda **S.h.ə.** standartlarına riayət olunması siyasi xadi-

min, partiyanın, ictimai hərəkatın, dövlət və dövlətlər ittifaqının sivilizasiya meyarıdır. Bununla bağlı, həmin standartlardan geri çəkilmələrin fakt və meyllərinin ortaya çıxarılması və aşkarlanması, dünya birliyi tərəfindən pislənməsi və BMT çərçivəsində bu normaları pozanlara münasibətdə beynəlxalq sanksiyaların tətbiqi ən mühüm vəzifəyə çevrilir.

SİYASƏTİN HUMANİSTLƏŞDİRİLMƏSİ - siyasətə humanist istiqamət verilməsi, yəni siyasətdə bəşəri mənafe və dəyərlərin gerçəkləşməsi meylinin artması. Dövlətin daxili siyasətində bu, ayrılıqda hər bir şəxsin mənafelərinin, onun vətəndaş hüquqlarının təmin olunmasında, insanlar arasında münasibətlərdə, həmçinin ayrı-ayrı fərdlərlə dövlət arasındakı münasibətlərdə humanizmdən uzaqlaşma hallarına qarşı mübarizəyə ciddi səy göstərildiyini bildirir. Söhbət elə münasibətlərin bərqərar olmasından gedir ki, bu halda bütün fəaliyyətin mərkəzində dövlət, yaxud digər (hərbi, siyasi) strukturlar, mexanizmlər, təsisatlar deyil, insan dayanmış olsun.

İctimai münasibətlərdə humanizmdən uzaqlaşma halları maddi rifah halının və mədəniyyətin aşağı səviyyəsi ilə şərtlənir və öz ifadəsini ictimai passivlikdə, mənəviyyatın tənəzzülündə, mənəvi dəyərlərin aşınmaya uğraması da, cinayətkarlığın, zorakılığın, alkoqolizmin və narkomaniyanın artmasında göstərir. Belə halların meydana gəlməsinin səbəblərindən biri də adamların öz gələcəyinə inamsızlığı, istilik-növə silahının yayılması ilə bəşəriyyətin mövcudluğu üçün təhlükə yaranmasıdır.

İnsanın mənafeyinin gerçəkləşdirilməsinə meyllənmə siyasətin demokratikləşdirilməsi, onun əhalinin geniş kütlələrinin mənafeyinə tabe edilməsi ilə qırılmaz surətdə bağlıdır. Bu həm də aşkarlıq siyasətində, iqtisadiyyatı xalq istehlakı malları istehsalına keçirməkdə hərbi istehsalı azaltmaqda, hakimiyyət institutlarını demokratikləşdirmək istiqamətində ciddi sosial-siyasi və iqtisadi dəyişikliklər elan edilməsində öz ifadəsini tapır.

Xarici siyasət sahəsində humanistləşmə, insanın mənafeyinə, ilk növbədə Yer üzündə sülhün qorunmasına xidmət edən beynəlxalq münasibətlərin yeni tipinə keçilməsi deməkdir.

SİYASƏTİN İDEOLOGİYALAŞDIRILMASI - siyasi nəzəriyyənin və əməli siyasi prosesin, siyasi şüurun ideoloji konsepsiyalara, ideyalara, hər hansı bir, yaxud bir neçə müxtəlif istiqamətli məramlara tabe edilməsi prosesi. İdeologiya və siyasətin zəruri qarşılıqlı fəaliyyəti bəzən həddən artıq yüksək səviyyədə baş verir ki, bu zaman ideologiyanın siyasətə nüfuz etməsi qat-qat güclənir. Belə bir hal adətən həyatın digər sahələrinin - hüquq, iqtisad və s.-nin *ideologiyalaşması* ilə də əlaqədar olur. Bu prosesin məzmunu liberal-demokratiklikdən, mütərəqqiçilikdən tutmuş ifrat radikal sol və sağ meyllərə, hətta açıq irticaya qədər ən müxtəlif şəkildə ola bilər. S.i.-nin izafiliyi siyasəti muxtariyyətin zəruri payından məhrum edir və ideoloji ekstremizmin hər hansı formasına tabe etməyə də qabildir.

Siyasi institutlarının və siyasi fəaliyyətlərin müstəsna olaraq ideoloji nöqteyi-nəzərdən şərhi belə bir faktı diqqətdən kənarda qoyur ki, dövlətçilik, qanun-qayda formaları və i.a. da həmçinin ümumbəşəri tələbləri və konkret sosial-siyasi şəraitə müvafiq sosial və siyasi həyat fəaliyyəti təşkilinin normalarını ifadə etmişdir. Bu formaların ümumbəşəri məzmununun boğulması (ideoloji və labüd surətdə onun arxasınca gələn siyasi və sosial-iqtisadi cəhətlərin) dövlətçiliyin tənəzzülünə, durğunluğa, mürtəce inkişafa keçidə və i.a. səbəb ola bilər.

Beynəlxalq münasibətlərin irticaçı, totalitar ideologiyalaşdırılması dövlətlərarası mübarizənin *vəzifələrinin ideoloji* motivlər üzrə total tabeçiliyini bildirir. S.i., əgər saxta antisosial ideoloji üstünlüklərə tabe edilərsə, cəmiyyət və ayrıca götürülmüş insanın həyatı üçün ağır nəticələrə səbəb ola bilər.

SİYASİ AXTARIŞ - 1) göz qoyulması, sənədləri oğurlamaq, surətini çıxarmaq, cürbəcür texniki vasitələrdən (gizlicə qulaq asmaq, məktubları açıb oxumaq, iştirakçıları müəyyən etmək üçün kütləvi tədbirləri xəlvəti videoyazıya almaq və s.) istifadə etmək yolu ilə infor-

masiyanın qanuni və qanunsuz toplanması. Totalitar dövlət, avtoritar rejim (şəxsi hakimiyyət rejimi), hərbi-siyasi diktatura, dövlətin repressiya aparatının qeyri-demokratik şəkildə istifadə sinin digər formalarında müxalifət hərəkatlarının siyasi xadimlərinin və sıravi iştirakçılarının nüfuzdan salınması, şantaj edilib fitnəkarlar göndərilməsi və hökumətpərəst, hökumətə loyal dairələrdə, habelə müxalifət arasından agentlərin cəlb edilməsi, siyasi repressiyalar məqsədi ilə psixatriyadan istifadə olunması. bilərəkdən quraşdırılmış fitnələr və uydurma bəhanələrlə azadlıqdan məhrumetmə (sürgün, həbs, ev dustağı və s. formalarla), həqiqi, güman olunan və ya xəyali müxalifəti təqib etməyin digər formaları. 2) Siyasi polis (bax; həmçinin **POLİS DÖVLƏTİ**).

SİYASİ AKTOR - mövcud siyasi sistemdə qərarların qəbul edilməsi və həyata keçirilməsi prosesinə təsir göstərən şəxs, yaxud ictimai qrup. Siyasətdə hərəkət subyekti (siyasi aktor) teatrda olduğu kimi "rol ifa edir". Hərəkəti icra edənlər yalnız insanlar olsalar da, siyasi təhlildə hərəkəti icra etmək qabiliyyəti isə dövlət kimi korporativ subyektlərə nəsib olur. İştirakçıların siyasi davranışının təhlili, təsviri və proqnozlaşdırılması siyasi sistemlərə tətbiqən bütün səviyyələrdə - yerli, dövlət, milli və beynəlxalq səviyyələrdə mümkündür. Bu prinsip həmçinin siyasi hərəkət icraçılarının özlərinə də, məsələn, dövlətə, yaxud mühüm qərarlar qəbul etmək səlahiyyəti olan yüksək vəzifəli şəxslərə, milli parlamentə, yaxud da inzibati orqana da şamil edilir.

Cox zaman "aktor" anlayışı beynəlxalq siyasi sistemdə dövlətin və ayrı-ayrı şəxsiyyətlərin oynadığı rolu bildirir. Beynəlxalq siyasətdə qərarların qəbul edilməsi prosesi tədqiq olunarkən əsas siyasi fiqurların, yaxud etnik qrupların davranışının təhlilinə xüsusi diqqət verilir, çünki dövlətin hərəkətini onların işləyib hazırladıqları davranış xətti müəyyənləşdirir.

"Fərdi aktor" anlayışının işlədilməsinin dözgün olmadığını hesab edənlər göstərirlər ki, dövlətin hərəkətləri sadəcə fərdi siyasətçilərin konkret hərəkətləri sayəsində deyil, dövlət qərarlarının qəbul olunduğu fiziki, siyasi, iqtisadi, sosial və psixoloji mühitin təsiri nəticəsində təşəkkül tapır. Başqa mülahizələrə görə, bir aktyor kimi diqqət mərkəzində beynəlxalq sistem çərçivəsində digər dövlətlərlə qarşılıqlı münasibətlərdə olan dövlətin özü durmalıdır.

SİYASİ ANTROPOLOGİYA - etnik birliklərdə, xüsusilə tayfa quruluşlu primitiv cəmiyyətlərdə idarəetmə institutlarının və müvafiq praktikanın öyrənilməsi. **S.a.** siyasi davranışın daha geniş qrup mədəniyyəti ilə əlaqəsini aydınlaşdırır və siyasi institutların və praktikanın inkişafının hansı yollarla baş verdiyini tədqiq edir.

1945-ci ildən başlayaraq politoloqların qeyri-qərb cəmiyyətlərinin öyrənilməsinə artan marağı antropoloqlarla ümumi axtarışlar sahəsinin yaranmasına gətirib çıxarmışdır: qarşılıqlı fəaliyyət hər iki tərəf üçün məhsuldar olmuşdur. Antropologiyanın məlumatlarından istifadə olunması politoloqlara öz nəzəriyyələrini çoxlu müxtəlif siyasi sistemlər üzərində yoxlamağa imkan vermişdir. Onlar antropologiyanın siyasi davranışdakı etnik amillərə aid dərin müşahidələrindən, həmçinin antropologiyanın işləyib hazırladığı və zöl tədqiqatlarında tətbiq etdiyi "qoşulmuş müşahidə" metodundan faydalanmışlar.

SİYASİ AVANTÜRİZM (fr. avanture - macəra, risk) - real şəraiti, qüvvələr nisbətini və vasitləri, ictimai həyatın qanunauyğun luqlarını bilməyə məhəl qoymadan siyasi həyatda fəal iştirak etmək.

SİYASİ AZADLIQLAR - insanın dövlətdəki mövqeyini müəyyən edən hüquq normaları.

S.a. dedikdə səs hüququ, söz azadlığı, informasiya azadlığı, dövlət vəzifəsi tutmaq və buna cəhd göstərmək hüququ, azad, bərabər və kifayət qədər müntəzəm seçkilər hüququ, siyasi partiyalar da daxil olmaqla siyasi qurumlar yaratmaq hüququ və s. nəzərdə tutulur. S.a. Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1948-ci il dekabrın 10-da qəbul etdiyi universal xarakterli insan hüquqları haqqında ümumi Bəyannamədə daha dolğun ifadə olunmuşdur (həmin sənəd səsə qoyulanda

SSRı bitərəf qalmışdı).

S.a. konsepsiyası "ictimai müqavilə haqqında", yəni cəmiyyətin hüquqları haqqında dövlətlə müqavilə, "insanın təbii hüquqları" ideyasının yenidən dirçəldilməsi əsasında, fərdə münasibətdə dövlət və ictimai məcburiyyətin müxtəlif formalarını ləğv etməyi və ya yüngülləşdirməyi qarşısına məqsəd qoyan digər liberal konsepsiyalar əsasında yaranmışdır. T.Hobbs yazırdı: "Sözün dəqiq mənasında azadlıq dedikdə elə kənar maneələrin olmaması nəzərdə tutulur ki, bunlar insan hakimiyyətini çox vaxt istədiyini etməkdən məhrum edə bilər..."

Mütləq azadlıq ola bilməz, heç bir şeylə məhdudlaşdırılmayan azadlıq insanların hər hansı birliyinin büsbütün olmaması deməkdir. Sosial qarşılıqlı təsir insan fəaliyyətinin və davranışının dəyərlər, norma və sanksiyalar vasitəsilə müəyyən dərəcədə əlaqələndirilməsini nəzərdə tutur, yəni məcburiyyət labüddür ki, bu da azadlığın zəruri məhdudlaşdırılmasıdır. Hobbs yazırdı ki, təbəələrə daha çox azadlıq verilməsi qanunun susmasından irəli gəlir, yəni heç bir qayda qoyulmayan yerdə:, insan istəyindən asılı olaraq, fəaliyyət göstərib-göstərməməməkdə azaddır ("qadağan olunmayan hər şeyə icazə verilir" prinsipi də buradan irəli gəlir). Azadlıqla bağlı siyasi və vətəndaş hüquqlarını fərqləndirirlər. Ş.L.Monteskye yazırdı ki, "insanlar cəmiyyətdə yaşayan və mövcudluğu qorunmağa ehtiyacı olan varlıqlardır, onların, idarə edənlər və idarəolunanlar arasındakı münasibətləri müəyyən edən qanunları var: bu, siyasi hüquqdur. Onların elə qanunları da var ki, bunlar vətəndaşların öz aralarındakı münasibətlərini müəyyən edir: bu, vətəndaş hüququdur".

Hələ antik mütəffəkkirlər deyirdilər ki, hakimiyyətin, ona tabe olmağın ölçüsünü yalnız hüquq verə bilər. Bu fikir yeni dövrdə dövlət hakimiyyətinin mənbəyi kimi insanının təbii və ayrılmaz hüquqları haqqında şəxsiyyətin və xalqın suverenliyi haqqında ideyalarla dolğunlaşdırılmışdır (yaşamaq hüququ, azadlıq hüququ, mülkiyyət hüququ və bu hüquqların təmin olunmasının şərti kimi hakimiyyətin bölüşdürülməsi).

Siyasi hüquq və azadlıqların konseptual əsası bu formuldur: "Bütün insanlar azad, öz ləyaqətləri və hüquqlarına görə bərabər doğulurlar". Lakin bu formulun yalnız o zaman mənası olur ki, cəmiyyətin əksəriyyəti onu dəyər kimi qəbul etsin. Müxtəlif cəmiyyətlərdə azadlığın səviyyəsi ilk növbədə idarə üsulunun formasından (respublika, monarxiya, istibdad idarə üsulu) asılıdır. Bir halda bu, elan edilmiş siyasi hüquq və azadlıqların təminatlı həyata keçirilməsi, ikinci halda həmin hüquqların bəyan edilməsi, üçüncü halda isə heç bir qanunla məhdudlaşmayan və bir şəxsin özbaşınalığı ilə hərəkətə gətirilən hakimiyyət ola bilər. S.a.-ın mövcudluğunun ən mühüm ilkin şərti konstitusionalizmdir - xalqın dəstəyini axtararkən başqa ideallarla yarışa girən müəyyən ideallar yığını... hökumətin hakimiyyətinin elə məhdudlaşdırılmasını nəzərdə tutan doktrinadır ki, insan hüquqları - söz, mətbuat azadlığı, şəxsiyyətin toxunulmazlığı, qanun qarşısında hamının bərabər olması - həm vəzifəli şəxslər, həm də ayrı-ayrı şəxslər tərəfindən olan qəsdlərdən formal surətdə və faktiki surətdə qorunsun. Lakin konstitusiyanın olması özlüyündə hələ idarə üsulunun konstitusiyalı formasına təminat vermir. XX əsrdə müstəbidlərin lazımınca tərtib edilmiş konstitusiya pərdəsi altında fəaliyyət göstərdikləri hallar az olmamışdır.

Siyasi azadlıqların reallaşdırılması imkanını təmin edən liberal-demokratik idarə üsulu modelinin əsas prinsipləri bunlardır: ayrı-ayrı şəxslərin deyil, qanunun hökmranlığı, qanunverici, icraedici və məhkəmə hakimiyyətinin bölüşdürülməsi, fərdlərin deyil, konstitutsiyaya əsasən yaradılmış orqanların idarə etməsi. Konstitusionalizmə - azadlığın rəmzinə ona görə hörmət edilir ki, o, bütün vətəndaşların qanun qarşısında bərabərliyini təmin edir. İnsan hüquqları şəxsiyyətin fərdi azadlığını, sosial-iqtisadi, siyasi hüquqlarını, nəhayət, yaşamaq hüququnu və normal yaşayış hüququnu əhatə edir. Belə bir ənənəvi fikir doğrudur ki, şəxsiyyətin bütün hüquq və

azadlıqlarının bünövrəsi iqtisadi azadlıqdır. Lakin indiki dövrdə o da aşkar olunur ki, bütün hüquq, azadlıqların bir-biri ilə sıx qarşılıqlı əlaqəsi var və özlüyündə onlardan heç biri insanın ləyaqətlə yaşamasını təmin edə bilməz. Bununla belə, S.a.-a bütün vətəndaş hüquqlarının, fərdi, sosial-iqtisadi hüquqların həyata keçirilməsinə təminatı, insanın şəxsi həyatına dövlətin müdaxilə etməsinə yol verməməsinə azadlığın təminatı kimi baxmaq lazımdır.

S.a. və totalitarizm bir-birinə tamamilə ziddir.

"S.a." anlayışı vətəndaşların ictimai hadisələrə təsir göstərən siyasi fəallığını fərz edir, onların təkcə hüquqlarının olmasını deyil, həm də siyasi prosesin inkişafı üçün məsuliyyət daşımalarını nəzərdə tutur. Lakin hətta siyasi həyatda vətəndaşların iştirakının mümkünlüyünü son həddədək məhdudlaşdıran diktatura və totalitar sistemlərdə belə, dövlət elə illüziya yaratmağa çalışır ki, guya ümumi iradəni ifadə edir və bundan ötrü hər bir vətəndaşı sırf dekorativ məqsədlərlə siyasi tədbirlərdə zorla iştirak etməyə cəlb edir. Vətəndaşların siyasi tədbirlərə zorla cəlb olunması S.a.-ın pozulması deməkdir. Çünki S.a. siyasi prosesdə fəal iştirak etmək imkanının seçilməsinin və ya ümumiyyətlə siyasətlə məşğul olmamağı fərz edir. Həqiqi demokratik sistemdə insan siyasətlə maraqlana və yaxşı məlumata malik ola bilər. Lakin hər hansı müasir dövlətin bütün vətəndaşları milli məqsədlərin reallaşdırılmasına səfərbər etməyə, hər bir kəsi dövlət işlərinə fəal maraq göstərməyə cəlb etməyə, hər bir kəsi dövlət işlərinə fəal maraq göstərməyə cəlb etməyə çalışmasına baxmayaraq, o, bütün bunlarla könüllü məşğul olmalıdır.

S.a., siyasi hüquqlar vətəndaşların siyasi həyatda real iştirakının zəruri, lakin kifayət etməyən şərtidir. Siyasi həyatda iştirakın səmərəliliyi insanın və cəmiyyətin siyasi və vətəndaş mədəniyyətinin səviyyəsindən tipindən asılıdır. Söz azadlığının siyasi problemi fərdin öz siyasi baxışlarını və fəaliyyətini ifadə etməsinin nəticələrinə nə dərəcədə hazır olması məsələsi ilə bilavasitə bağlıdır.

Azərbaycan Respublikası Konstitusiyasının III fəsli (maddə 24-71) əsas insan və vətəndaş hüquqları və azadlıqlarına, onların təminatına həsr olunmuşdur.

SİYASİ BƏLAĞƏTLİLİK - şifahi dil zənginliyinə, siyasi nitqin səmərəli üsullarına yiyələnmiş siyasətçinin özünəməxsus nitq mədəniyyətinin səciyyəsi. S.b. siyasətdə istər rəqibin siyasi auditoriyasını çaşdırmaq, istərsə də hər hansı problemin real həllini onun barəsində mübahisələr (çox vaxt təmtəraqlı) azmaq yolu ilə (bu da ya siyasətçinin səriştəsizliyi, ya da məsələnin həllinə bilərəkdən mane olmaq cəhdi ilə bağlıdır) ləngitmək məqsədi güdə bilər.

SİYASİ BƏRAƏT - əsassız pozulmuş siyasi və vətəndaşlıq hüquqlarının bərpa edilməsi. Amnistiyadan - qanuniliyi şübhə doğurmayan cinayət cəzasından azad edilməkdən fərqli olaraq S.b. cinayət cəzasının, siyasi-hüquqi sanksiya və cəza tədbirlərinin digər növlərinin qanunsuzluğunun tanınması deməkdir. S.b. problemlərinin aktuallaşması qanunzuluğun kütləvi qaydada pozulmasında, 20-50-ci illərdə SSRİ-nin və Şərqi Avropa ölkələrinin milyonlarla vətəndaşına öz vermiş siyasi terrorda ifadəsini tapmış stalinizmin siyasi cinayətlərinin ifşa edilməsi ilə əlaqədar meydana gəlmişdi. Sovet İttifaqında S.b. Stalinin vəfatı ilə başlamış və Sov. İKP-nin XX qurultayından (1956) sonra geniş vüsət almışdı. Lakin S.b. ardıcıllıqla həyata keçirilməmiş və əslində 60-cı - 80-ci illərin təqibləri ilə bağlı materialların öyrənilməsi üzrə yaranmış komissiya həmin illərdə, xüsusilə saxtalaşdırılmış açıq məhkəmə proseslərində məhkum olunmuş minlərlə günahsız adama S.b. vermişdi. Doğma yerlərindən məcburi köçürülmüş xalqlara qarşı yönəldilmiş qanunsuz aktlar qəti olaraq ləğv edildi. 30-50-ci illərdə siyasi işlər üzrə qeyri-məhkəmə orqanlarının (əDST - XDİK - DTK-nin xüsusi müşavirlərinin) bütün qərarları qanunsuz sayıldı. Həmin dövrdə özgə cür vətəndaşlığından məhrum olunmaq haqqında bir sıra aktlar da ləğv edildi.

"20-50-ci illərdə siyasi cəza tədbirlərinin bütün qurban-

ların hüquqlarına bərpa olunması haqqında" SSRı prezidentinin 1990-cı il 13 avqust tarixli fərmanı ilə kollektivləşdirmə dövründə kəndlilərə münasibətdə həyata keçirilmiş insan hüquqlarına zidd təqiblər (həbsə alınma, ailəsi ilə yaşamaq üçün vəsaiti olmadan, səs hüququndan məhrum olunmaqla və hətta azadlıqdan məhrum edilmə müddəti bildirilmədən uzaq rayonlara sürgün edilmə), həmçinin 20-50-ci illərdə bütün digər vətəndaşların hüquqları tamamilə bərpa olundu. Həmin fərmanın qüvvəsi ikinci dünya müharibəsi dövründə, müharibədən əvvəlki və sonrakı illərdə, dövləti cinayətlər üstündə məhkum olunmuş şəxslərə şamil edilmirdi. SSRı Nazirlər Sovetinə tapşırıldı ki, fərmanda nəzərdə tutulmuş əsaslarla S.b.-ə aid edilməyən cinayətlərin və məhkum olunmuş şəxslərin siyahısının təsdiq edilməsi qaydasını müəyyən edən qanunvericilik aktının layihəsini işləyib hazırlasın.

SİYASİ BİRLİK - icmanın qəbul etdiyi mənafelərlə, dağıdıcı zorakılığın qarşısını alan müəyyən vasitələrin, həmçinin birgə qərarların qəbul olunması və həyata keçirilməsi üçün müəssisələrin və institutların mövcudluğu ilə xarakterizə olunan ictimai qrup. **S.b.** öz hüdudları ilə millət-dövlətlə, yaxud onun siyasi tərkib hissələrindən biri ilə uyğun gələ bilər. Mövcud cəmiyyətin hüdudlarında çox birliklər ola bilər. Onlardan bəzən biri o birinin tərkibində olur. Məs., şəhərin əyalətə, əyalətin də dövlətə daxil olması. Beynəlxalq səviyyədə S.b. termini bəzən ümumi mənafeləri olan, öz münasibətlərindəki ixtilafların qeyri-zorakı həllinə inanan və birgə qayrılardan yaranan problemlərlə məşğul olmaq üçün diplomatik və digər mexanizmlərə yiyələnmiş iki, yaxud çox dövlətdən ibarət hər bir *qrupa tətbiqən də işlədilir.*

Siyasi birliksiz nizama salınmış siyasi həyat mümkün deyildir, çünki müəyyən mənada bu termində psixoloji məqam, kollektiv hərəkəti, buna yönələn səyləri möhkəmləndirən "biz", "birlikdə" hisslərində ehtiva olunmuşdur. Bu termin siyasi inteqrasiya probleminin milli və beynəlxalq səviyyələrdə tədqiqi sayəsində meydana gəlmişdir. Bəzi şərhlərdə **S.b.** insanlar qrupunun inteqrasiya olunduğunu xarakterizə edən vəziyyət, yaxud inteqrasiya prosesinin nəticəsi kimi nəzərdən keçirilir. S.b.terminin analitik kateqoriya kimi faydalı tətbiqini onun tərifini vermək məsələsində konsensusun olmaması məhdudlaşdırır. Bəzi tədqiqatçılar bu termini mənafelərinin ümumiliyini və bir-birindən qarşılıqlı asılılıqlarını dərk edən hər cür ictimai qrupa şamil edirlər. Digərləri isə israr edirlər ki, S.b.-də siyasi loyallığın cəmləşməsini, avtoritar hakimiyyət qərarlarının qəbul olunması potensialını və məcburedici hakimiyyət gücünün əsas daşıyıcısını görmək lazımdır.

SİYASİ BÜROKRATİYA - adətən, hakim siniflərdən və hakimiyyət elitasından formalaşan bürokratiyanın ən yüksək etalonu.

Mahiyyətcə, **S.b.**-nın fəaliyyətində bürokratik münasibətlərin, dövlət rəsmiyyətçiliyinin və siyasi uzaqlaşmanın bütün ünsürləri təmsil olunmuşdur. **S.b.** üçün sosial gerçəkliyə həmin məkan və zaman şəraitində əks meyllər kompleksindən deyil, həmin meyllərin mövcud siyasi quruluş və dövlət idarəsi formasında "mümkünlüyü" nüqteyi-nəzərindən baxılması tipikdir. Nəticədə emprizm və opportunizm - **S.b.** səviyyəsində sosial-siyasi reallığın inikasının mühüm xassələri olur.

S.b. demokratik hərəkatlara ikili yanaşır. ən adi demokratik tələblərin (məs., "aşkarlıq") ödənilməsi ictimai fikrə zamanın tələbi ilə razılaşan hökumətin "siyasi müdrikliyinin" ifadəsi, tərəqqi və i.a. kimi çatdırılır. Eyni zamanda demokratik hərəkatlara və onların liderlərinə həmişə hakimiyyət elitası və dövlət aparatı tərəfindən şübhə ilə baxılır. Siyasi islahatlar müstəsna olaraq bürokratiyanın mütləq hakimiyyətini qorumaq üçün həyata keçirilir.

S.b. təfəkküründə yönümü və vərdişləri ölkənin rəsmi tarixində çox güclü bir iz buraxır. Rəsmi tarixşünaslıq adətən onu siyasi iyerarxiyanın zirvəsindən baş verən hadisələr zənciri kimi şərh edir.

Vətəndaş azadlıqları, hakim elitaya aid olmasa da,

ayrı-ayrı məmurların, aşağı hakimiyyət orqanlarının fəaliyyətini bu, dövlətin daxili və xarici siyasətinin bütün sistemini açıq müzakirə etməyə imkan verir. Bir halda ki, belə müzakirə hakimiyyət aparatının sosial və siyasi məlumat üzərində inhisarını sarsıdır, **S.b.** öz sahəsinə hər hansı şəkildə açıq müdaxiləyə səriştəsizlik kimi baxır.

Bu, eynilə qanunların təfsirinə də aiddir. **S.b.**-nın fikrinçə, qanunların hər hansı şəkildə şərhi dövlət idarəsinin ümumi səciyyəsinə müvafiq olmalıdır. əgər hakimiyyətin və mövcud qanunların toxunulmazlığı prinsipi mövcuddursa, dövlət idarəçiliyinin bütün sisteminin dəyişdirilməsi uğrunda açıq mübarizə qanunla qadağandırsa, o zaman bürokratiya dövlətdə yeganə və inhisarçı siyasətçi olur. Demokratiyanın konkret-tarixi çərçivələri daralır: "dövlət ərləri", demokratiyanın siyasi həyata və ölkə təfəkkürünə təsirini heçə endirməyə çalışırlar. Praqmatizm - **S.b.**-nın fəaliyyət tərzinin və təfəkkürünün sonrakı səciyyəsidir. **S.b.**-da siyasi təşəbbüs olmur. Sıravi məmur ondan ötrü mövcuddur ki, müdiriyyətin göstərişlərini yerinə yetirsin. Müstəqillik və təşəbbüs dövlət qulluqzusunun təbiətinə zidd hal sayılır. Həmin adam siyasi qərarların işlənib hazırlanması ilə bağlı dairəyə düşdüyü zaman da bu qayda dəyişmir. Belə halda o, çox vaxt yuxarılardan təşəbbüs gözləməyə borcludur.

Adətən, sosial-iqtisadi dəyişikliklərin və islahatların hökumət tərəfindən təklif olunan siyasi konsepsiyaları və proqramları, xeyli əvvəl həmin siyasi quruluş forması ilə mübarizə aparan, yaxud onu kənardan qiymətləndirən adamlar söyləyir və təklif edirlər. Müxalifətçi və inqilabi partiyalar **S.b.**-nın siyasi fikrini qabaqlayırlar. Onlara qarşı cəza tədbirlərinin tərs özü bir qayda olaraq epiqonzuluqdur. **S.b.** hökumətin, dövlətin cəmiyyət üzərində hökmranlığı ilə şərtlənən fikrinin forması olan siyasi təfəkkürünün cari və son nəticələrinin əhəmiyyətinin bürokratik idarəçilik qaydaları və bunlara müvafiq siyasi göstərişlərlə şişirdir. Bir tərəfdən, bu təfəkkür forması məkanın və zamanın həmin məqamında

mövcud olan hökumətin təcrübəsindən, şüurundan və iradəsindən asılı deyildir. O, universaldır, hakimiyyət və idarə aparatından istifadə edən bütün dövlətlərə xasdır. Digər tərəfdən, təfəkkürün bu forması hökuməti təşkil edən şəxslərin inzibati karyerasından asılıdır. Belə karyeranın səciyyəsi və tarixi, sosial və siyasi reallığın hökumət tərəfindən əks etdirilməsi xüsusiyyətlərini başa düşmək üçün zəruridir. əgər hökuməti təşkil edən şəxslər öz karyeralarının əvvəlki mərhələlərində dövlət maşınının müxtəlif halqələrində məmur olmuşlarsa, o zaman dövlət siyasətinin bütün istiqamətlərindən bürokratiyanın ümumi səciyyəsi öz əksini tapır. "Dövlət ərlərinin" təşəbbüsü bürokratik əxlaqın və təfəkkürün standartlarını əyaniləşdirməkdən ibarət olur. Hökumətdə bürokratik icraçılıq və təşəbbüs siyasi səciyyə olur. Bu səbəbdən **S.b.**-nın hadisələrə münasibəti ya gecikir, ya da onlardan müəyyən ictimai meyllərin susdurulması şəklində reaksiya verilir.

Hökumətin siyasi müddəti və siyasi yaddaşı, adətən, dövlətin siyasi tarixinin əvvəlki mərhələlərində onun taktikasından asılıdır. Bu taktika da dövlət idarəçiliyinin ümumi səciyyəsinə, dövlət qulluqzularının siyasi keyfiyyətlərinə və idraki-siyasi göstərişlərinə müvafiqdir. Onlar "burada və indi" hakimiyyətdə olan qrupların yaddaşında əks olunur. Siyasət deyiləndə rəhbər kadrlar yalnız rəsmi dövlət idarələrindəki fəaliyyəti başa düşürlər. Onların digər siyasətdən xəbəri yoxdur və onu apara da bilmirlər. Daim bu əqidədədirlər ki, idarələr (fikir, əxlaq, yaxud mədəniyyət yox) - istənilən siyasi fəaliyyətin səbəbi və son məqsədidir.

S.b. cəmiyyətdə yalnız dövlətin cəmiyyət üzərində hökmranlığı prinsiplərinə müvafiq gələn nə varsa, onu müdafiə edir. Bununla siyasi mədəniyyət sadiq təbəəçiliyə çevrilir və vətəndaşların siyasi şüurluğunun başlıca təminatçısı kimi şərh edilir. Buna görə **S.b.** üçün ideal vətəndaş ya siyasətdən uzaq adamdır, ya da elәsidir ki, sosial islahatlar haqqında hökumət proqramları ilə "prinsipcə" razıdır, lakin onları sonsuz olaraq "təkmilləşdirməyi" təklif edir.

"Təkmilləşdirməyə" belə cəhd edilməsi təkcə şüursuz vətəndaşları deyil, həm də ziyalıların geniş təbəqələrini aldatmaq üçün hakimiyyətə lazımdır, çünki kamilləşmək ideyası dinifəlsəfi təfəkkürdə daha dərindən işlənmişdir. **S.b.** tərəfindən ictimai həyatın manipulyasiyası vətəndaşın bu ideallarını əks etdirir. Hər hansı vətəndaş və siyasi ünsiyyət fəaliyyəti və formaları nəzarətə, yaxud təsisatlaşmaya məruz qalır. Siyasi həyatın normaları buna əsaslanır. Bir qayda olaraq, onlar cəmiyyəti inzibati qaydada açılan, bağlanan müəssisələr sistemi kimi təsəvvür edirlər. **S.b.** vətəndaşların siyasi müstəqilliyini və fəallığını heçə endirməyə, insanlar arasında birbaşa əlaqələri qırmağa, onları dövlət maşınının həlqələrinə çevirməyə həmişə səy göstərir.

SİYASİ CƏMİYYƏT - cəmiyyət, yaxud onu təşkil edən "cəmiyyətlər": vətəndaş cəmiyyəti, mədəni, təhsilli, şəhərli və s. haqqında təsəvvürlərlə əlaqəli anlayış. Uzun müddət siyasət tədqiqatçıları tərəfindən işlənib hazırlanmış iki müxtəlif mənada işlədilir.

XVII əsrin ortalarında meydana gəlmiş (T.Hobbsda) müasir dövlətin fəaliyyət göstərdiyi siyasi sistemli cəmiyyət haqqında təsəvvür birinci sayıla bilər. **S.c.** vətəndaş cəmiyyətini və ümumiyyətlə, dövlətlə birləşmiş nə isə bir tamlıq kimi cəmiyyəti əhatə edir. Bu təsəvvür uzun mübahisələrə səbəb olmuşdur. O, artıq XX əsrin ikinci yarısında üzünün yeni izahını tapdı: demokratik cəmiyyətdə vətəndaşların ümumi olmasa da, kütləvi surətdə ölkənin siyasi həyatında iştirakı cəmiyyəti həqiqətən siyasi cəmiyyət edir. Belə **S.c.** cəmiyyətdə siyasi iştirakın formal olduğu, zorla qəbul etdirilən, ifrat ideologiyalaşdırılmış və süzsüz itaətkarlığa gətirib çıxaran qeyri-demokratik, avtoritar və totalitar tipli siyasətləşdirilmiş cəmiyyətdən fərqlənir.

Müasir elmdə mövcud olan və gerçəkliyə daha çox yaxınlaşan digər **S.c.** anlayışı siyasi icma, yaxud birlik (ümumilik) anlayışı ilə dəqiq ifadə olunur. Bu, peşəkar qaydada siyasətlə məşğul olan cəmiyyətin bir hissəsidir (hakimiyyət institutlarının, idarə aparatlarının

kadrları, dövlət müəssisələrinin qulluqçuları). Onun tərkibinə texniki əməkdaşlar və texniki heyət də daxil edilməklə bütün səviyyəli idarə işçiləri daxildir. Belə **S.c.**-in sayı kifayət qədər böyükdür. Keçmiş SSRİ-də onun sayı 18 milyon nəfərə çatırdı (siyasi həyatda, xüsusən də ən'ənəvi qan qohumluğu münasibətlərinin saxlanıldığı respublikalarda rolu olduqca böyük olan ailə üzvləri, ən yaxud qohumlar, yoldaşlıq və həmyerli təşkilatları mühiti ilə birlikdə). Belə **S.c.**(bədnam "aparat") xeyli dərəcədə muxtariyyətə malik ola bilər. **S.c.** və vətəndaş cəmiyyəti, daha dəqiqi, idarə edən azlıq və idarə olunan çoxluq arasında antaqonizm mümkündür və ölkələrin əksəriyyətinin tarixində üzünü adi hal kimi göstərmişdir. Bu vəziyyət hüquqi dövlət və vətəndaş cəmiyyəti yaratmaqla, siyasi prosesi demokratikləşdirməklə aradan qaldırılır.

SİYASİ DƏYƏRLƏR - Cəmiyyətin, ayrı-ayrı sosial qrupların, insani mənafelərinə uyğun gəlib-gəlməməsi baxımından siyasi əhəmiyyətli fəaliyyətlərin, proseslərin, hadisələrin mahiyyətini bildirmək üçün istifadə olunan anlayış.

S.d. ciddi mənada siyasi hadisələrin xüsusiyyətlərini əks etdirən və fərdi yaxud, qrup qiymətləri meyarları ilə təshih edilən tipoloji terminlər kimi çıxış edən abstraksiyaların (bərabərlik, azadlıq, ədalət, təhlükəsizlik, demokratiya və i.a.) konkret tarixi hadisələrin və xüsusiyyətlərin təsnifatına müncər vasitəsidir.

S.d. siyasi normalarda ifadə olunur. Siyasi norma əbədi və ölüb gedən, mütləq və nisbi, zəruri və təsadüfi S.d.-in əldə olunması qaydasıdır. Siyasi normalar sosial qruplar və fərdlər tərəfindən hakimiyyət uğrunda mübarizədə onun həyata keçirilməsi zamanı istifadə edilir, siyasi və cinayət sanksiyalarının tətbiq ediləcəyi qorxusu ilə gücləndirilir. Siyasi normalar sosial gerçəkliyin üç sahəsində mövcuddur; hakimiyyətdəkilərin və onların tabeçiliyində olanların normativ mülahizələrində: siyasi normaların fəaliyyətinin qaydalarını şərtləndirən sosial münasibətlərdə; siyasi normaların hiss, yaxud, təəssüratı kimi

şüurda. Siyasi normaları siyasi prinsiplərdən fərqləndirmək lazımdır.

Siyasi normalar tənzimləmə predmeti, cəmiyyətin inkişaf dərəcəsində və insanların mövcudluğu səviyyəsində təsnif edilə bilər. Hər bir dövlətdə çoxlu sosial-siyasi amillərdən asılı olan əsas və əməliyyat yönümlü siyasi normalar vardır. Məs., totalitar sistemlərdə bir partiyanın rəhbər rolu prinsipini əsas siyasi norma saymaq olar, bundan da məqsədyönlü norma ortaya çıxır - rəhbər kadrların həmin partiyaya məcburi mənsubiyyəti. Bu norma, rəhbər kadrların bir nəsli siyasi rəhbərlik tərəfindən elan edilmiş yeni xətt tərəfdarlarını əli ilə əvəz edilərkən (cismən məhv etmək, işdən çıxarmaq, yaxud, istefaya göndərmək) yaranan siyasi islahatlar və böhranlar şəraitində əsas norma ola bilir. Üz tərəfindən dövlət bürokratiyası həmin siyasi normanın şəklini elə dəyişdirməyə can atır ki, hakimiyyətin bütün səviyyələrində qohum-həmyerli, etnik, yaxud, milli elita və qüruhların üzvləri yerləşmiş olsunlar. Nəticədə rəsmi siyasi norma çox vaxt birliyin ənənəvi əlaqə və formalarının ideoloji örtüyünə çevrilir. Ehtimal edilir ki, hər bir siyasətçi hər şeydən əvvəl əxlaq subyektidir. Siyasətçinin təfəkküründə əxlaqi məsuliyyəti və azadlığa malik olan subyektin səmərəli fəaliyyəti nüqteyi-nəzərindən baxılır. Həm də ağıl və səmərəlilik anlayışı siyasətçinin sosial gerçəkliyin bütün ziddiyyətlərini əks etdirmək və əbədi S.d. əldə olunmasına yönəldilən qərarlar qəbul etmək qabiliyyətini bildirir. Siyasətin normativ modeli ona aid edilən səmərəli düşünmənin universal meyarlarına - birliyə, eynilik və ardıcıllıq prinsipinə və i.a. əsaslanır. Siyasi fəaliyyətin sosial dəyəri qəbul edilən qərarların bir-birinə zidd olmadığını, qərarlar və fəaliyyətlər, siyasətçinin bunlardan irəli gələn müvafiq bəyənnamələri və davranışı üçün tam məsuliyyət daşımaq qabiliyyətini bildirir.

Bu model bütün siyasəti belə bir sual baxımından təhlil etməyə imkan verir: nə üçün siyasətçilərin əksəriyyəti bir qayda olaraq təsadüfi siyasi niyyətləri (mənfəətpərəstliyi,

hakimiyyətpərəstliyi, mənəvi hökmranlığa can atmağı, dövləti möhkəmləndirməyi, partiyalar yaratmağı və s. siyasi təsisatları) əbədi S.d. kimi üstün tuturlar;

Bu suala hər biri eyni zamanda əxlaqla siyasət arasında münasibətlər nüqteyi-nəzərindən hakimiyyətdə olanların və onlara itaət edənlərin əxlaqi üçün model ola biləcək üç cavab mümkündür.

1. Siyasətdə məqsədə nail olmaq üçün qeyri-əxlaqi vasitələrdən də istifadə etmək lazımdır və bu belə də olmalıdır. Çünki siyasətin başlıca prinsipi belədir - məqsəd vasitəyə bəraət qazandırır. 2. Siyasətdə məqsədə çatmaq üçün qeyri-əxlaqi vasitələrdən istifadə olunur, hərçənd ki, belə olmamalıdır, lakin bu, siyasi cəhətdən haqlı sayıla bilər. 3. Siyasətdə məqsədə çatmaq üçün qeyri-əxlaqi vasitələrdən istifadə olunur, lakin bu belə olmamalıdır və buna heç cür haqq qazandırmaq olmaz.

Göstərilən modellərdən siyasi fikir, siyasət fəlsəfəsinin və siyasi nəzəriyyə tarixinin təsnifat prinsipləri kimi istifadə olunur. Siyasi qərarlar qəbul edən insan adətən birinci iki davranış modelinə müraciət etməli olur və bundan ötrü tam məsuliyyət daşımalıdır. üçüncü model daimi S.d.-lə aralıq siyasi məqsədlər (bunlar həmişə fərziyyəyə daxildir və mübahisə doğurur) arasında dərin münaqişə olduğunu aşkara çıxarır və siyasətçilərin dünyagörüşü refleksiyasını siyasi təhlildə birləşdirir.

SİYASİ DƏYƏRLƏRİN İNFLYASİYASI - siyasi şüurun inkişaf meyli; qısamüddətli (hər hansı konkret siyasi strukturun dağıdılması nəticəsində) xarakterlərə malikdir. "ınflyasiya" (lat.inflo - şişirtmək) sözü qədim, köhnə variant siyasi aləmdə böyük və əzəmətli kimi qəbul olunmuş, lakin əslində ikinci dərəcəli, əhəmiyyətsiz şüar və ideyalara üstünlük vermək, onları bəzəmək mənasında işlədilmişdir. ıqtisadi sahədə bu sözdən Avropada yalnız XIX əsrin ortalarından istifadə etməyə başlamışlar. ınflyasiya prosesləri isə pulun meydana gəldiyi vaxtdan mövcud idi. Bu termin ilk dəfə siyasət aləmində ABŞ-da XIX əsrin 70-ci

illərindən etibarən səslənməyə başlamışdır. Prezident Qrant tərəfindən siyasət aləmindəki nailiyyətləri göstərmək üçün mənfi mənada işlədilmiş bu anlayış tamamilə ideoloji məna, siyasi məqsəd daşıyırdı. Buradakı mənfi məna "siyasət" sözünə aid idi. "Siyasət" termini indi çox geniş məna kəsb etmiş və mədəniyyət, idman, hətta seksual sahələrdə də istifadə olunur. Bu sübut edir ki, əvvəla, "siyasət" termini daha çox alət funksiyasını yerinə yetirmək mənasında səciyyələnir. əvvəllər o, məhdud, dar çalarlarda işlədilirdi. *ıkincisi isə, informasi*yanın daha çox siyasi mənaya meyilli olması ilə bağlıdır. "Siyasət" sözünün müxtəlif tarixi dövrlərdə mənaca dəyişməsi göstərir ki, **S.d.i.** prosesi uzun bir dövrün məhsulu olub, ictimai həyatın müxtəlif sahələrinə, siyasi mühitin ayrı-ayrı qatlarına nüfuz edə bilən fenomendir. Siyasi dəyərlər vətənpərvərlik hissiyyatı, hakimiyyətə hörmət, partiyalara sədaqət, seçkilər və referendumlar kimi siyasi proseslərdə iştirak etmək, hüquq və azadlıqlarla təmin olunmaq mənasında dərk olunur. Bütün bunlar daim nəzarətdə saxlanılır və cəmiyyətin inkişafı ilə əlaqədar yenidən yoxlanılır. Aqcerin təsdiq etdiyi kimi, "bu gün siyasət sahəsində əsas işşüarları ifşa etməkdən ibarətdir". Coxlu siyasətçi olan yerdə xoşbəxt, normal və məhsuldar həyatdan, ictimai əmin-amanlıqdan söhbət azmaq mənasızdır. **S.d.i.** dedikdə siyasi dəyərlərin sosial həyatda sıxışdırılmasını, onun ictimai işlərə qarışmaq həddinin minimuma endirilməsinin iqtisadi sahələrdəki səlahiyyətlərini məhdudlaşdırmaq, beynəlxalq məsələlərin *həllində qarşılıqlı* anlaşmada başa düşmək olar. Qəribə vəziyyət yaranır: **S.d.i.** ictimai həyatın həddən artıq siyasiləşməsi şəraitində baş vermir, əksinə, orada həqiqi dəyərlər bütünlüklə öz əhəmiyyətini və intensivliyini üzə çıxarır. ınflyasiya, daha çox davam edən ictimai-iqtisadi firavanlıq şəraitində, "sosial fərdin" tərkib hissələrinin bütünlüklə ağıllı tarazlaşdırılması mühitində inkişaf edir. Bu halda siyasi dəyərlər problem kəskinliyini itirir, onlar ümumi dəyərlər sırasında öz yerini tuturlar. **S.d.i.**-nın siyasi həyata inamsızlıq, etinasızlıq kimi şərh olunması da məhz buradan əmələ gəlir.

Lakin bu halda yalnız siyasi dəyərlər yox olur, *başqa münasibətlər* intensivləşir. (SSRİ-də vətəndaş müharibəsinin birinci mərhələsində "Rusiyanın bölünməzliyi və vahidliyi" haqqında inamın ölməsi, eyni zamanda bütün Rusiyaya olan inamın yox olması və bir-birinə qarşı duran hər iki tərəfdə "dünya inqilabına" inamın artmasında olduğu kimi).

Bir sıra hallarda "ən yaxşı siyasət - ən az (minimum) siyasətdir" kəlamı ədalətli hesab edilməlidir.

SİYASİ DİALOQ - sosial ünsiyyət, müsahiblər arasında canlı fikir mübadiləsi prosesində obyektiv həqiqəti axtarmaq formalarından biri, **S.d.** düzgün qərarların və hərəkət xəttinin qəbul edilməsi üçün insanların siyasət, siyasi praktika barədə biliklərini artırmağa olan təbii tələbatlarının reallaşdırılmasına, ümumi görüşlərin formalaşmasına, razılığa nail olmasına kömək edir. Cəmiyyət həyatının bütün sahələrinin əsaslı dəyişikliklərə məruz qaldığı, demokratiyanın yüksəlişi, insanların azad fikir söyləməyə səy göstərdikləri, varlığın köklü problemləri barədə çoxlu və müxtəlif fikirlərin səsləndirilməsinə ehtiyacın artdığı bir dövrdə dialoq formasında ünsiyyətin əhəmiyyəti xüsusilə artır.

Bu isə, öz növbəsində, ictimai mövzularda **S.d.**-ların, disputların, diskusiyaların aparılması mədəniyyətinin artmasının zəruriliyini şərtləndirir. Son dərəcə vacib məsələ budur ki, dialoq müsahiblərin hissiyyatına toxunmamaqla keçirilsin, "ağız deyəni qulaq eşitmir" yığıncağına çevrilməsin, əksinə qoyulan məsələlərin mahiyyətinin açılmasına, hamıda şəxsi fikrin, möhkəm əqidənin formalaşmasına kömək etsin. Dialoqda kifayət qədər arqumentlərdən istifadə olunmalı, düzgün fikir, baxış hər cür şəraitdə əsaslandırılmalıdır. Unudulmamalıdır ki, yalnız başqalarını dinləməyi bacaran, *tərəf müqabilin fikirlərinə* hörmətlə yanaşan müsahib nüfuza malik ola bilər.

SİYASİ DİL - Siyasətin əsas vasitələrindən biri; onun

köməyi ilə siyasətin, onun fəaliyyətinin və siyasi informasiyanın ötürülməsi, iki formada həyata keçirilir; şifahi, dilcavabı və rəmzi (xüsusi ləyaqət nişanlarının, şərti siqnalların, emblemlərin və s. dili) formada siyasi informasiya verilir. Bundan əlavə, S.d. siyasi idarələrin xüsusi, peşə dilinə (təlimatların, danışıqların dili və s.) və daha geniş və hamı tərəfindən başa düşülən açıq siyasi nitq dilinə (informasiyaların, məruzələrin, mitinqlərin, parlamentlərin işinin dili və s.) bölünür. **S.d.**-in xüsusiyyəti siyasi ideyaları və hakimiyyət praktikasını şifahi, yaxud dil formasında qeydə almasındadır. Bu zaman siyasi ideyaların və hakimiyyət praktikasının əsl mənası eyni vaxtda həm aşkar olur, həm də gizlədilir (kodlanır). İstənilən sosial və siyasi ideallar, dəyərlər və normalar hakimiyyətə can atan, yaxud hakimiyyətdə olan qrupların işlətdikləri dildə ifadə olunur. Dil ideologiyanı bəyan etmək və hakimiyyətdə olanların iradəsini vətəndaşlara qəbul etdirmək vasitəsidir; beləliklə, söz lürətinin və sintaksisin seçilməsi siyasi iş olub faktları və onları qavramaq üsulunu müəyyən edir. Hər bir söz lürətində dünyabaxışı konstruksiyaları, inandırma və dəyərlər sistemi olur. Ona görə də siyasi hərəkətlərdən dilin vəzifəsinin, bu və ya digər siyasi meyllərə xas olan dil kodlarının, habelə kütləvi kommunikasiya sistemlərinin və kütləvi sənətin siyasi-ideoloji məzmununun təhlili ümumbəşəri dəyərlərlə real siyasi arasındakı əbədi münaqişəni başa düşmək üçün zəruridir.

Dil siyasi mədəniyyət ünsürüdür. O, cəmiyyətin siyasi münasibətlər, siyasi təsisatlar və siyasi şüur sahəsindəki mədəni irsini; şəxsiyyətin siyasi davranışının az və ya çox dərəcədə şərti idealını; hakimiyyətlə vətəndaşlar arasındakı münasibətlərlə bağlı siyasi dəyərlərin və normaların topusunu əhatə edir.

Siyasi mədəniyyətin ünsürü kimi, **S.d.**- ə bir sıra normalar daxildir: dil qadağaları, təsir qaydaları, açıq çıxışlarda ədəbi dildən istifadə. Siyasi mətnlərin imperativ (amiranə) və inandırma vəzifəsinin əhəmiyyəti daha böyükdür, çünki bu vəzifəni

reallaşdırmağın üsulları mənəvi qiymətlərə daha çox məruz qalır. **S.d.** həm də sosial faktların qeydə alınması vəzifəsini və dəyişdirici vəzifəni yerinə yetirir. Siyasi mətn hakimiyyətlə vətəndaşlar arasında ünsiyyət saxlamağın üsuludur. O, jurnalistikanın, publisistikanın, təbliğatın və xeyli dərəcədə ictimai elmin dilini müəyyən edir. Siyasi mədəniyyətdə siyasi mətnlərin bol olması, adətən hakimiyyətlə vətəndaşlar arasındakı ünsiyyətlərdə qeyri-rəsmi şəraitin olmadığını göstərir və bu, siyasəti bürokratikləşdirmək tədbiri kimi qiymətləndirilə bilər.

Siyasi etiraz "adı çəkilməyən şey mövcud deyildir" prinsipi ilə fəaliyyət göstərən ovsunlayıcı dilin formalarından biridir. əgər siyasətçi belə dildən istifadə edirsə, o, lənətləmə ifadələrindən ona görə istifadə edir ki, olmalı olan tam həqiqət, arzu edilən vəziyyət isə fakt olsun. Bunun da nəticəsində mühakimə üçün həm əsas götürülən, həm də real gerçəklik qovuşur. **S.d.** sosial gerçəkliyin formasını dəyişir və ona nəzarət edir. Əgər **S.d.**-dən vətəndaş istifadə edirsə, o, özünün siyasi sadiqliyini və ya loyallığını bəyan edir. Geniş auditoriyaya müraciətlə söylənilən siyasi nitqlər bu auditoriyadan daha çox hakimiyyətdə olan qrupa ünvanlanır. **S.d.**-in imperativ-inandırma vəzifəsi jurnalistika və publisistikada xüsusilə aydın təzahür edir. Hər bir hakimiyyət jurnalist korpusunu və ideoloji aparatı özünə tabe etməyə çalışır. Bu peşəkar qruplar öz fəaliyyətində adətən bəsit inandırma texnikasından istifadə edirlər. Bu, azsavadlı və təbliğata uyan vətəndaşa ünvanlanır. Belə mətnlərdə qiymət verilmə faktları qabaqlayır. Təsvir edilən hadisələrə birmənalı (müsbət və ya mənfi) qiymət verilməsi informasiya ilə şərh arasındakı sərhədi sonuncunun xeyrinə yox edir.

Digər bir üsul siyasi mətnlərdə militarist metaforadan (məcazi ifadələrdən) istifadə olunmasıdır. Onun məqsədi dinləyicidə və oxucuda intizam və fədakarlıq tələb edən "hərbi vəziyyət" haqqında illüziya yaratmaqdır, həm də bu zaman dünya, mübarizə kateqoriyalarında təsvir edilərək, "özünün-

külərə" və "özgələrə" ayrılır. Öz növbəsində birincilər qəhrəman cəbhəçilərə, komandir atalara, ikincilər yaramaz qaragüruhzulara, arxada gizlənən yaramazlara, xain və təxribatçılara ayrılır. Siyasi dildən rəqibi alçaltmaq, onun haqqında istehzalı informasiya vermək, adi ifadələrə mənfi məzmun vermək kimi üsullardan da istifadə olunur; faktlar haqqında informasiyadan əvvəl hadisəyə qiymət verilməsi, zəkaya, şüura deyil, hisslərə təsir göstərmək; konkret faktların şərhi əvəzinə ümumi və mücərrəd ifadələrə üstünlük verməklə semantik (məna) ünsürlərin yeknəsəkliyi yaranır; qeyri-münasib ifadələrin şərti, heç bir məna verməyən ifadələrlə əvəzlənməsi; dilin təsiredici və nəzarətedici vəzifələrini birləşdirən dil basmaqaliblərindən və stereotiplərindən istifadə nəticəsində yazılı və ya şifahi mətnin müəllifinin hakimiyyət qarşısında loyal və səlahiyyətli vətəndaş kimi görünməyə çalışması; şərhlərin informasiyanı üstələməsi.

S.d.-in bu xüsusiyyətləri ya rəsmi şəkildə bəyan edilmiş siyasi mədəniyyət prinsiplərini pozur, ya da ideologiya ilə eyniləşdirir. Dil ideologiyanın alətidir, onda iki məqamı fərqləndirmək olar; heç də hamının başa düşmədiyi məqam və sətiraltı mənanı başa düşməyi bacaranlar üçün nəzərdə tutulan məqam. Siyasi mətnin ikinci məqamı adətən tam bir sıra dil stereotipləri (məs., "bütün xalq ürəkdən dəstəkləyir", "yolumuz budur, başqa yol yoxdur" və s).

Əgər siyasətçi belə lüğətdən istifadə edirsə, bununla yalnız özünün siyasi xəttini ideoloji stereotiplərin atalәti ilə ört-basdır edir. Bu mənada mücərrəd və tamamilə məzmunsuz ifadələrdən istifadə məqsədyönlü və şüurlu ola bilər. Bu onu göstərir ki, hakimiyyətdə olanlar əvvəlki kimi yenə də özlərinə əmindirlər, ictimai rə'ylə hesablaşmır, sadəcə olaraq özlərinin nadanlığını və tabeedici güclərini nümayiş etdirirlər.

Siyasətçilər və jurnalistlər real həyatın faktlarını şərh edərkən adətən hakimiyyətdə olanların vətəndaşlarla oynadıqları oyunun qaydalarını və ideoloji sistemdəki ünsiyyət üsullarını müəyyən edən üslubi kəliklərdən və hoqqalardan istifadə edirlər. Bu isə siyasi mühakimələrin tədricən vüsətdən düşməsinə səbəb olur, həmin mühakimələr yoxlanılmamaq sahəsinə keçir.

S.d.-də icraçı və istehlakçının, kütlənin və imtiyazlı azlığın obrazı, siyasi və ideoloji rolları da əksini tapır. **S.d.**-də aşkar və gizli məziyyət var. Adətən siyasi mətnlərdə öz əksini tapan sosial və siyasi hadisələrin qiyməti az və çox dərəcədə üstüörtülü də ola bilər. Bir qayda olaraq, siyasətçi öz çıxışlarında kəskin və incə məsələlərdən yan keçməyə çalışır və bu mənada ideoloji senzuradan azad deyildir. Siyasətçi qəbul olunmuş ideoloji dildə müzakirəsi mümkün olmayan, eyni zamanda məcburən müzakirə edilməli olan problemlərlə qarşılaşdıqda ideologiyanın sərhədləri və prisipləri aşkar görünür. Bu halda müvəqqəti rəsmi ideologiya - "müvəqqəti çətinliklər", "daha da təkmilləşdirmək", "sürətləndirmək", "həyatımızın ayrı-ayrı sahələrində mövcud olan mənfi hallar" və s. kimi evfemizmlər (yumşaq ifadələr), fikirin axıradək deyilməməsi və ya (yumşaq ifadələr), fikirin axıradək deyilməməsi və ya basmaqəlib ifadələr sistemi yaranır.

İncəsənətin sosiologiyası sahəsindəki araşdırmalar göstərir ki, kütləvi istehlakçı üçün nəzərdə tutulan mətnlərin (kitablar, kinofilmlər, televiziya və radio verilişləri) hər biri hakimiyyətin cəmiyyətlə oynadığı ideoloji oyunun qaydalarına uyğun gəlir. Bu oyunu təhlil edərkən aşağıdakılar nəzərə alınmalıdır; siyasi qüvvələrin aktual quruluşu; ictimai rəyi formalaşdıran ziyalılar dairəsinin fəaliyyəti; ideologiyanın mütəbərliyi və geniş yayılmasının dərəcəsi, onun sosial hadisələri siyasi enerjiyə çevirə bilmək qabiliyyəti; cəmiyyətə müəyyən mədəni ənənələrin miras qalması dərəcəsi və s.

SİYASİ EKOLOGİYA - siyasi sistemin ətraf mühitə münasibətlərinin tədqiqi. Siyasi sistem üçün ətraf mühitin hansı aspektlərinin ekoloji əhəmiyyət kəsb etməsi barədə ümumi razılıq yoxdur. Bəzi müəlliflər açıq-aşkar buraya bütövlüklə fiziki, mədəni və sosial ətraf mühiti aid edirlər. Digərləri ekologiyanı insan nəsli istisna olmaqla fiziki mühitə münasibət

edir. Mütəxəssislərin bir qismi hesab edir ki, siyasi sistemin ekologiyası sistemi əhatə edən mühitin həm fiziki, həm də sosial aspektlərini özündə birləşdirir. Belə halda digər siyasi sistemlər buraya daxil edilmir, yəni söhbət konkret siyasi sistemin ekologiyasından gedir. Bu mövqedən yanaşanlar digər siyasi sistemləri öyrənilən sistemin ekologiyasının hissəsi kimi deyil, "kontekstin" hissəsi kimi nəzərdən keçirirlər. Siyasi sistemlə onun kontekstinin qarşılıqlı təsirini bəzən ekoloji təhlildən fərqli olaraq konseptual təhlil adlandırırlar.

ilk əvvəllər bioloji sistemlər nəzəriyyəsi araşdırılan ekoloji konsepsiya yarandığı dövrdən başlayaraq sosial sistemin fəaliyyəti üçün ətraf mühit amilinin əhəmiyyətinə yönəldilir. Belə halda siyasi sistemin ətraf mühitə əks təsiri də nəzərə alınır. Məs., hər hansı bir inkişaf etmiş ölkədə geniş torpaq islahatı proqramı həyata keçirilərkən hökumət ətraf fiziki, mədəni və sosial şəraitə ciddi təsir göstərə bilər. Bunun nəticəsi isə aqrotexnikada və torpaqdan istifadədə inqilab, milli mənlik şüurunun və milli birlik hissəsinin inkişafı, həmçinin insanların kənddən iri şəhərlərə köçməsində siyasi sistemin sonrakı inkişafı və ümumiyyətlə mövcudluğu üçün mühüm nəticəsi ola bilər.

SİYASİ ELİTA - hakim sinfin yuxarı təbəqələrinin, hər şeydən əvvəl, onun cəmiyyətə siyasi rəhbərliyi bilavasitə həyata keçirən, dövlət idarəsinin sükanı arxasında duran hissəsinin xüsusi rolunu əks etdirən anlayış. Bu problemin qoyuluşu Platona, Makiavelliyə gedib çıxan qədim ənənəyə malikdir. Müasir görüşündə S.e. nəzəriyyəsini Q.Moskva, V.Pareto, R.Mixels dürüst ifadə etmiş, siyasi prosesdə hakim yuxarı təbəqənin roluna aid məsələləri ayrı-ayrı hissələrə bölməyə və sistemləşdirməyə, onları xüsusi tədqiqat mövzusu etməyə cəhd göstərmişlər. S.e.-ya yanaşmada müasir Qərb politologiyasında daha geniş yayılmış dəyər və struktur-funksional baxımından olan izahlardır; birinci, S.e.-nın mövcudluğunu nə isə intellektual, əxlaqi və i.a. "üstünlüklə" (Orteqa-i Qassetdən ötrü - böyük məsuliyyət

hissi) izah edir; ikinci isə S.e.-nın mövcudluğunu idarəetmə funksiyaları nın vacibliyinin səbəbi kimi onları yerinə yetirənlərin xüsusi rolu il də aydınlaşdırılır (Keller), Birinci-aksiologi-yanaşma zəif çıxır, getdikcə tərifə çevrilir; normativi - S.e.-nın yüksək keyfiyyətləri - gerçəkliyə ziddir; S.e.-nın tədqiqatları göstərir ki, bu adamlar çox vaxt riyakar, mənfəətbaz, heç bir iyrənc vasitədən çəkinməyən adamlardır. S.e.-ya ikinci-hakimiyyət mövqeləri olan adamlar (Etsioni, Day) baxımından yanaşma tavtalogiya (təkrarçılıq) ilə (cəmiyyətdə kim hakimiyyət sahibidir suahına, onlar - hakimiyyət təsisatlarına başçılıq edənlər - deyə cavab verirlər). hakimiyyətin formal mexanizmlərini mütləqləşdirməklə, onun sosial-siyasi təbiətinin təhlilindən qazmaqla qüsurlu sayılır.

S.e. bütövlükdə cəmiyyətin mənafeyini ifadə edən sinifdən kənar sosial qrup, yoxsa iqtisadi cəhətdən hakim sinfin yuxarı təbəqəsi olub, bu sinfə imtiyazlı vəziyyəti təmin edən sosial sistemi müdafiə etmək naminə cəmiyyətə, rəhbərliyi həyata keçirir - sualı da mübahisə obyektidir. Elitaristlərin belə bir müddəası ilə razılaşmaq olmaz ki, guya marksizm siyasi hakimiyyət münasibətlərinin bütün problemini həmin sosial-siyasi sistemdə hansı sinfin hakim olması ilə bağlamaqla elitarizm problematikasını inkar etmişdir; hakimiyyətin hakim sinif arasında bölgüsü məsələsi də marksizmin siyasi sistemlər təliminin obyektidir.

K.Marks özünü dövlətin son məqsədi hesab edən və hakim sinfin məcmu mənafeyinin ifadəçisi sayan bürokratiyanın rolunu dərindən təhlil etmədən onun bu eqoist mənafeyini ümumi mənafe kimi təqdim edir və beləliklə "xüsusi mövqeyi uydurma ümumi" (K.Marks və F.Enqels, əsərləri, 1 c, səh.270) adı altında müdafiə edir. Moskvanın hakim sinif kimi S.e. nəzəriyyəsi açıqca marksizmə qarşı çıxsa da, bir sıra funksionalistlər onu axıra qədər marksist təsirin öhdəsindən gələ bilməməkdə günahlandırırlar. K.Manheymə görə, elita sistemi sanki siniflər sistemi üzərində durur. Hər hansı cəmiyyətə lazım olan funksiyaları yerinə

yetirir. Amerika politoloqları Prüit və Stoun yazırlar: "Elitar nəzəriyyələr marksist sinfi mübarizə nəzəriyyəsi ilə ixtilafdadırlar. Əgər "Kommunist Partiyasının Manifesti" indiyə qədər mövcud olmuş cəmiyyətlərin tarixini siniflər mübarizəsi tarixi olduğunu elan edirsə, elitaçıların əqidəsi belədir: indiyə qədər mövcud olmuş cəmiyyətlərin tarixi elitaların mübarizəsi tarixidir".

Lakin daha yaxşı olar ki, sinfi təhlillə elita - kütlə dixotomiyası arasında fərqi mütləqləşdirilməsin və **"S.e."** anlayışından sinfi qütbləşməyə alternativ kimi deyil, əksinə, onun tərəflərini və cəhətlərini göstərmək üçün istifadə edilsin. Politoloq **"S.e."** anlayışından istifadə edərkən iki halla qarşılaşa bilər; 1) tədqiqatın səviyyəsi ilə; burada cəmiyyətin siyasi strukturu hələ açılmamışdır, lakin artıq "yuxarılar" və ""aşağılar, hakimlər və icraçılar bölgüsü aparılmışdır (adi şüur üçün xas olan bu təsəvvürlərlə məhdudlaşma sinfi qütbləşmənin səbəblərini anlamaqdan uzaqlaşdıra bilər; 2) bu terminдən sinfin bir hissəsinə - siyasi idarəçilikdə hakim mövqe tutan təbəqəsinə münasibətdə istifadə edilməsi ilə; son halda bu anlayışı dəqiqləşdirmək lazım gəlir, çünki elitarçılar terminin etimologiyasına istinad edərkən **S.e.**-nı "ən yaxşılara", "seçilmişlər"ə aid edirlər, sivilizasiyanın bütün nailiyyətlərini onun adına çıxırlar, tarixi prosesdə xalq kütlələrinin rolunu azaldırlar.

Hakim sinfin strukturunda müəyyən ünsürlər ayırmaq olar, hakim sinif-sinfin fəal siyasi hissəsi - sinfin təşkilatı-liderlər. **S.e.**-ya bu sinfin daha nüfuzlu və fəal siyasi üzvlərini də aid etmək olar; bura, həmin sinfin siyasi təşkilatlarının fəalları, sinfin siyasi ideologiyasını işləyib hazırlayan intellektuallar, bu təşkilatların liderləri, yəni, sinfin müştərək iradəsini ifadə edən siyasi qərarları bilavasitə qəbul edən adamlar daxildir. Beləliklə, **"S.e."** anlayışı öz miqyasına görə, "hakim sinif" anlayışına uyğun gəlmir; birinci funksional olub sanki ikincinin idarəsi - "icraiyyə komitəsi" kimi çıxış edir. Bu anlayışla məzmunca da tamamilə uyğun gəlmir. Hakim sinif idarəçilik

fəaliyyətinə, adətən, əhalinin digər sinfi və təbəqələrini, ilk əvvəl, hakim sinfə yaxın olan təbəqələrini daha qabiliyyətli nümayəndələrini də cəlb edirlər.

Beləliklə, **S.e.**-nın tərkibində hakim olmayan siniflərin arasından çıxanlar da ola bilər (bu isə, bir çox elitaçıların təkid etdikləri kimi, həm də **S.e.**nın "sinifdənkənarlığına" dəlalət etmir). Belə vəziyyət hakim sinif üçün ikiqat faydalıdır; birincisi, bu, "təzə zəkaların" axınını təmin edir, ikincisi, **S.e.**-nın sosial mütəbərliyi xülyalarını yaradır, həqiqətdə isə **S.e.**-nın tərkibinə daxil olan "sosial aşağıların" nümayəndələri hakim siniflə qovuşurlar. Məlumdur ki, hakim sinif istehsalın müəyyən üsullarının törəməsidir; **S.e.**sinfi qütbləşmə getmiş cəmiyyətlərin, hökmranlığı təmin edən sistemin törəməsi və ünsürüdür. Bu mexanizmin ən mühüm ünsürü də elə **S.e**-nın ayrılmasıdır ki, siyasi idarəçilik vərdişlərinə yiyələndiyi üçün hakim sinfi birləşdirir, onun sinfi mənafeyini aşkara çıxarır və həyata keçirir. Marks və Engels yazmışlar: "əmək bölgüsü...indi, artıq hakim sinfin arasında da təzahür edir... Bu sinfin daxilində belə parçalanma bəzən hətta ziddiyyətə və düşmənçiliyə qədər arta bilər... Lakin bu düşmənçilik hər hansı siyasi çarpışma zamanı sinfin özü üçün təhlükə yaratdıqda özözünə yox olur" (əsər., c III, səh.46).

S.e.-nın hakim sinfin mənafeyini əks etdirməsini qəbul etmək işin bir tərəfidirsə, bu kateqoriyaları eyniləşdirmək tamamilə başqa tərəfidir. Bu, sinfin siyasi hökmranlığının onun həyata keçirilməsi mexanizmi ilə eyniləşdirilməsi demək olardı. Sinif, hətta sırf texniki cəhətdən belə, cəmiyyətə, onun üzvləri arasında siyasi rəhbərlik funksiyalarını bərabər surətdə bölüşdürməklə öz hökmranlığın təmin edə bilməz; o, siyasi hökmranlığını öz siyasi avanqardının, onun hakim sinfin təşkilatını, ilk əvvəl, dövlət maşınını bilavasitə idarə edən, siyasi cəhətdən daha fəal üzvlərinin fəaliyyəti vasitəsilə həyata keçirə bilər. **S.e.**hakim sinif cəmiyyəti idarəetmə furksiyalarını həyata keçirdiyi zaman, onun nümayəndəsi kimi çıxış edir; o, hakim sinfin həm

dərin, həm də bilavasitə mənafelərini aşkara çıxarır və aktuallaşdırır, onları tabelik mövqeyindən əlaqələndirir; o, sinfin iradəsini "formalaşdırır" və onun həyata keçirilməsinə bilavasitə rəhbərlik edir. əgər sinif maddi istehsalın tarixən müəyyən sistemində, hər şeydən əvvəl, öz yerinə, istehsal vasitələrinə münasibətinə görə müəyyən edilirsə, **S.e.** hakim sinfin peşəkar siyasi fəaliyyət vərdişləri olan hissəsini birləşdirməklə cəmiyyətə siyasi rəhbərlikdə roluna görə müəyyənləşir və dövlət idarəçiliyini bilavasitə həyata keçirir. Bu funksiyaları həyata keçirərkən **S.e.** nəinki cəmiyyətin siyasi həyatında xüsusi rol oynayır, həm də öz sinfinə münasibətdə müəyyən müstəqillik əldə edir (bu, **S.e.**-nın sinfi təbiətini örtbasdır edir). Nə qədər ki, siyasi sistemlərin təhlili həmin cəmiyyətdə hansı sinfin hakim sinif olduğu sualına cavab vermir və hakimiyyət münasibətlərinin daha da konkretləşdirilməsini tələb edir, "**S.e.**"anlayışı belə təhlili dəqiqləşdirmək işinə xidmət edə bilər.

SİYASİ ELM - siyasət haqqında, siyasi hadisələri və prosesləri öyrənən ixtisaslaşdırılmış elmlərin və elmi fənnlərin inkişaf etmiş sistemi ilə yaradılmış biliklərin məcmusu. **S.e.** eyni zamanda onu meydana gətirən siyasi biliyin ümumi sisteminin bir hissəsini təşkil edir. Bu bilik siyasi fəlsəfə, siyasətin dərkinin elmi və empirik səviyyəsi ilə yaranmışdır. Siyasət haqqında qovuşuq, sinkretik siyasi təfəkkür, bilik nümunəsi kimi Avropanın, həmçinin Şərqin, Qədim Cinin və digər ölkələrin təqribən iki min beş yüz illik tarixə malik yazılı mənbələri ilə təsdiq olunur. Lakin onun daha inkişaf etmiş formaları dünyanın Avropa regionunda antik dünyanın siyasi təfəkküründün formalaşması dövrünə təsadüf edir. Digər elmlər kimi, onun da təşəkkül prosesinin qanunauyğunluqları ilə izlənilməsinə baxmayaraq, **S.e.**-in meydana gəlmə tarixini qeydə almaq olduqca çətindir. Onun prinsipial sxemi ilkin sintezə əsaslanan biliyin dağılması, elmin fəlsəfədən ayrılması, predmet, metodoloji və funksional strukturunun təsdiqi və fəlsəfə ilə yeni muxtariyyət əsasında

qarşılıqlı fəaliyyəti kimi nəzərə çarpır. Bu ikili vahid proses, eyni zamanda, yaranmaqda olan **S.e.**-lə ictimai təfəkkür baxımından ona yaxın olan digər sahələr, ilk əvvəl hüquq elmlərində də baş verirdi. **S.e.**-in onlardan ayrılması (bu günün özündə də tam başa çatmamışdır), onun müstəqil status əldə etməsi, vasitələrin yenidən cəmləşməsi, siyasətin vahid fənnlərarası tədqiqində **S.e.**-in cəmiyyət və insan haqqında digər elmlərlə metodoloji qarşılıqlı fəaliyyəti ilə müşayiət olunurdu.

Müasir **S.e.**-in meydana gəlməsini müəyyən etmiş bir neçə əsas, tədricən təzahür edən amilləri göstərmək olar.

1. Siyasi problemlərin duyumla başa düşülməsindən uzaqlaşmaq, siyasətin özünün, hakimiyyət funksiyalarının, siyasi prosesin miqyaslarının genişlənməsinin daim mürəkkəbləşməsi şəraitində onu dəyişmək, yaxud elmi surətdə tamamlamaq məqsədilə, siyasətin elmi baxımdan anlaşılmasına, onun səmərəli təşkilinə, dövlətin rasional idarə olunmasına ictimai tələbatın çoxalması.

Siyasətdən elmə real dönüş yeni dövrün demokratik prosesi ilə birlikdə baş verdi. Onun bilavasitə səbəbləri: cəmiyyətdə sosial-siyasi struktur və münasibətlərin mürəkkəbləşməsi; əhalinin cismani həcminin, maddi istehsalın artması; cəmiyyətin mənəvi həyatının mürəkkəbləşməsi; dövlətlərarası münasibətlərin yeni beynəlmiləl miqyasları; siyasətin özünün funksiyalarının inkişafı, xüsusilə, cəmiyyət həyatının bütün sahələrinin tənzimlənməsinə dövlətin daha çox müdaxilə etməsinə zərurətin və tədricən demokratikləşən cəmiyyətin özünün siyasətdə getdikcə artan geniş iştirakı (ümumi seçki huququna keçilməsi, siyasi partiyaların, qruplaşmaların, hərəkatların çoxalması); kütləvi informasiya vasitələrinin meydana gəlməsi; hakimiyyətin, xüsusən, arası kəsilməyən və qanlı müharibələr şəraitində, öz ölkəsinin taleyi üçün gündən-günə artan siyasi məsuliyyəti; qlobal problemlərədək (ümumdünya raketnüvə, ekoloji, demoqrafik fəlakətlər və bir çox planet problemləri-daimi aclıq, lokal müharibələr, kütləvi yoluxucu

xəstəliklər və s. təhlükəsi ilə əlaqədar) siyasətin miqyaslarının ümumən genişlənməsidir.

2. Siyasət haqqında fəlsəfi, elmi və empirik biliyin çıxış nüqtəsinin parçalanması, vahid siyasi təfəkkürün bir sıra ixtisaslaşdırılmış fənnlərə və tədqiqat cərəyanlarına (fəlsəfi, elmi və empirik) bölünməsi prosesində siyasi biliyin özünün inkişaf etməsi. Fəlsəfə və elmin ayrılması bir sıra əsaslar üzrə baş vermişdir və verməkdədir: predmet əsası (bir tərəfdən, siyasi hadisələrin, siyasətin və hakimiyyətin səbəb-nəticə münasibətlərinin mahiyyəti problemləri, hakimiyyətin, universal proseslərin, dəyərlərin-azadlığın, ədalətin, bərabərliyin və s. fəlsəfi problemlərin mərzi, digər tərəfdən, siyasi sistemlərin, rejimlərin, siyasi strategiya və taktikanın və i.a. problemləri). Siyasi biliyin predmet bölgüsü eyni obyektlərin fəlsəfi və elmi tədqiqinin özünün qarşılıqlı fəaliyyəti, onların həm fəlsəfi, həm də elmi problem kimi öyrənilməsinin mümkünlüyü ilə çətinləşmişdir.

Buna görə də siyasi biliyin fəlsəfi və elmi səviyyələrə bölünməsi həm də funksional əsas üzrə baş verir. Siyasətin praktik olaraq, elə sahəsi yoxdur ki, o, fəlsəfi tədqiqatların predmeti ola bilməsin. Bu mənada elm daha məhduddur, onun imkanları və vəzifələri genişliyinə görə fəlsəfədən nəinki kiçikdir, həm də başqadır. Elm, məlum dövrün, yaxud siyasətin konkret tipinin təkrar olunan və xarakterik ümumi, kütləvi qanunauyğun hadisələrini, ayrı-ayrı fövqəladə hadisələr də daxil olmaqla bu, yaxud digər ölkənin siyasi gerçəkliyini tədqiq edir. Fəlsəfə isə ümumi, ümumtarixi kateqoriyalar kimi bütün bu hadisələrin universal mahiyyətini açır. Buna görə də elm üçün dövlət, onun quruluşunun, strukturlarının (hakimiyyət aparatlarının) cəmiyyətlə münasibətləri mexanizmlərinin və i. a. başa düşülməsi məsələsidir. Fəlsəfi tədqiqatdan ütrü bu - dövlətin tarixi fenomen, birgə həyatın təşkili üsulu, cəmiyyətin maddiləşdirilmiş siyasi şüuru, təkamül edən siyasi forması və i. a. və s. kimi dərk olunmasıdır. Eynilə həmin qaydada azadlıq və onun elmi anlamı üçün bu, konkret azadlıqların müxtəlif

növlərinin məcmusunun, onların tipologiyasının, nəzəriyyəsinin və s. təhlili və sistemləşdirilməsidir. Azadlığın fəlsəfi dərki onun digər dəyərlərlə bütün mütləq və real münasibətlərində universal humanist, sosial, mədəni, siyasi dəyərlər kimi izah olunmasını və i.a. tələb edir.

Elmin və siyasi biliyin digər dərəcələrinin funksional hüdudunun müəyyənləşdirilməsi onların arasında idraki əmək bölgüsünü və deməli, onların qarşılıqlı fəaliyyətini təmin edir. idrakın bütün səviyyələrində cəmiyyətin siyasi gerçəkliyi tədqiq olunur və cəmiyyətin siyasi obrazı müəyyən edilir (onun daha yaxşı qurulması, ondakı münasibətlərin təşkili və i.a.), lakin bu zaman elm konkret və hətta lokal (milli) təcrübədən çıxış edərək siyasəti modelləşdirir, indiki zamandan və yaxın keçmişdən çıxış etməklə siyasi inkişafı proqnozlaşdırır. əlbəttə, ciddi elm keçmişin önəmli siyasi proseslərini diqqətdən kənarda qoymur. Yadda qalan bu formul və müqayisələr də buradan irəli gəlir: "Qarışıq zaman", "kəndli məsələsi", "Stolıpin islahatı" və i.a. Lakin təkcə fəlsəfə hər üç zamanı - indiki zamanın təcrübəsini, keçmişin tarixi təcrübəsi və gələcəyin fərziyyəsi ilə birlikdə əlaqələndirir. Həm də o, bunu, demək olar ki, hər hansı ölkə, qitə, dövr ilə məhdudlaşdırılmayan daha geniş məkanda yerinə yetirir.

Beləliklə, S.e.-in ayrılmasının metodoloji əsası təşəkkül tapır. Siyasi-fəlsəfi tədqiqat ideal və universal anlayışlardan, ümumiləşdirmələrdən istifadə edir, ən son əsasların axtarışlarına, eynilə, elmin də qidalandığı empirik mənbələrə əsaslanmasına baxmayaraq siyasi hadisələrin və proseslərin mahiyyətlərinə varmağa səy göstərir. S.e. konkret faktlar dairəsində qalır. Onun əməliyyatları empirik faktların sistemləşdirilməsindən, tipologiyaların qurulmasından, onların keyfiyyət və kəmiyyətcə qarşılıqlı-müqayisəli təhlilindən (məs., konkret situasiyaların təsviri və təhlilindən, onların tutuşdurulmasından, izahından və i.a.) ibarətdir. əgər fəlsəfə tarixi planın metodoloji üsullarını və ümumiləşdirmələrini mənimsəy-

ibsə (sivilizasiya, tarixi prosesin mərhələləri, dövrlər, ictimai inkişafın istiqamətləri və formaları və i.a. haqqında biliklər), S.e. bizim günlərdə təbii (riyazi aparat, modelləşdirmə texnikası) və ictimai (proqnozlaşdırma, psixoloji, sosioloji və s.) elmlərin metodologiyasından geniş istifadə edir.

S.e.-in daha bir nəzərə çarpan əsası - onun struktur xüsusiyyətləridir. Elmi tədqiqat nisbətən məhdud miqyasda da olsa, məs., demokratik cəmiyyətdə siyasi və sosial konfliktlər (ümumiyyətlə, demokratiya problemi yox), yaxud, hətta bir siyasi partiyada konfliktlər problemini, - siyasətin müəyyən sahəsini kifayət qədər tam əhatə edir. Lakin bu, imkan daxilində əldə edilmiş bütün bilikləri sistemləşdirən tam ixtisaslı tədqiqat olmalıdır. Həmin predmetin fəlsəfi tədqiqatı ola bilər ki, o sahənin (siyasi konfliktlərin) problemlərinin məcmusuna deyil, müvafiq prosesin bir çox aspektlərinə azadlıq, ədalət, hüquq və s.) tədqiq olunması daxil edilməklə müvafiq prosesin prinsiplərinə həsr olunsun. O, hadisənin dərin mahiyyətini, siyasət daxilində və ondan kənarda digər predmet sahələri ilə əlaqəsini açıb göstərir. Alim həmin yolla gedə bilər, lakin filosofun işini görməyə məcbur deyildir. S.e., məs., siyasi, sosial, iqtisadi birlik, cəmiyyətin siyasi təşkili kimi sahələri dövlətin struktur xüsusiyyətləri ilə birlikdə tədqiq edir. Filosof bu məsələyə, insan, onun hissi həyatı problemi, mədəniyyət, sivilizasiya (artıq XVII əsrdə T.Hobbsun və C.Lokkun etdikləri kimi) problemi kimi yanaşmalı və məhz bu baxışdan mühüm siyasi nəticələrə gəlməlidir.

S.e.-in təşəkkül tapmasına kömək etmiş amil, təbiət fəlsəfəsinin dağılmasında, həmçinin, təbiyyat elmlərinin meydana gəlməsində, insanın təbiəti və birgə həyat quruculuğu, siyasət və hakimiyyət haqqında qovuşuq fəlsəfi biliyin differen siyası gedişində baş vermiş dünyanın və cəmiyyətin elmi idrakının yaranmasının ümumi prosesi olmuşdur. Siyasət dairəsinə cəlb edilmiş S.e.-in və digər ictimai elmlərin ayrılması və sintezinin ikili prosesi artıq bizim günlərdə, xüsusən də XX

əsrin ikinci yarısında sosial elmlərin və insan haqqında elmlərin ümumən sürəkli inkişafı ilə əlaqədar daha mühüm əhəmiyyət kəsb etmişdir.

4. S.e.-in formalaşması, siyasi hadisələrin dərkinin daim axtarışlarının qeyri-siyasi və qeyri-elmi vasitələrlə - ədəbi, bədii yaradıcılıqda cəmiyyətin təkamül tapmaqda olan siyasi şüurunun və siyasi özünüdərkinin səyləri, insanın siyasət hadisələrinə dair izahat axtarışları ilə stimullaşmışdır və stimullaşmaqdadır. Buna görə də S.e.-in meydana gəlməsi təkcə elmi proses deyil, həm də mühüm mədəni hadisədir.

S.e.-in tarixi siyasi biliyin banilərinin, qədim dövrün siyasi mütəfəkkirlərinin yaradıcılığı ilə birlikdə başlanır, çünki onların siyasət haqqında mülahizələrinin heç də hamısı fəlsəfi təhlildən ibarət olmamamışdır. Aristotelin, 158 polis strukturunun konkret təhlilinə əsaslanan siyasi rejimlərinin təsnifatı tipik siyasi-elmi tədqiqatdır. Platon və Aristotelin əsərlərinə konkret yanaşılması onları S.e.-in banilərı hesab etməyə haqq verir, hər halda onun ünsürləri göz qabağındadır. Siyasətin belə qeyri-fəlsəfi tədqiqatı ənənəvi qaydada Platonun "Respublika" və Aristotelin "Siyasət" klassik əsərlərində müəyyən şəklə salınmış dövlət haqqında təlim kimi şərh edilmişdir (bax; **SİYASƏT**). Lakin bu əsərlərin institusional yönümü onların fəlsəfi istiqamətindən çox elmi səmtini göstərirdi (bu, əlbəttə, əsərlərin fəlsəfi məzmununu istisna etmirdi). Siseronun "Respublika haqqında" və "Qanunlar haqqında" əsərlərini tam elmi işlər kimi qəbul etmək olar. iki min ildən artıq bir dövr ərzində tam elmi məzmunlu çoxlu tədqiqatlar meydana gəlmişdir. Onların sırasında Foma Akvinskinin "Dövlət idarəsi haqqında" risalələrini, Marsim Paduenskinin "Dünyanın qoruyucusu", "Hakimyyətin verilməsi haqqında traktat" kitablarını (XIVəsr), Jan Bodenin "Respublika haqqında altı kitab" (1576), ıohan Altusiusun "Nizamlanmış metodoloji siyasət" (1603) kitablarını, Q. Qrotsinin və bir çox b-nın əsərlərini göstərmək olar. Bu siyahıya Yeni Dövrün S.e.-inin tam ləyaqətli banisi sayıla bilən

Makiavellinin "Hökmdar" (1513) kitabını da aid etmək olar. Lakin XX əsrin əvvəllərinədən yeni elm haqqında təsəvvür mahiyyətcə siyasət haqqında yazılmış, həm də əvvəlki kimi dövlət haqqında təlimlə əlaqələndirilən əsərlər hələ yox idi: L.Fon Şteynin "Dövlət haqqında ümumi təlim" (1852), Q.Ellinekin "Dövlət haqqında ümumi təlim" (1896). Yalnız Q.Moska özünün siyasət haqqında əsərini "Siyasi elmin ünsürləri" (1895) kimi xülasə etmişdi.

Yenə bu dövrdə siyasi hüquqi biliyin predmetcə və funksional ayrılması davam edirdi. Halbuki onların birləşməsi hələ də özünü göstərir və **S.e.**-in təşəkkülünü ləngidirdi, çünki siyasət hələ də hüquq tədqiqatı kimi dövlət haqqında təlim sayılırdı. Onların ümumi ənənəsinə görə dövlət hüquqi aktın, hakimiyyət müqaviləsinin və cəmiyyətin nəticəsi sayılardı. (T. Hobbsda vətəndaşların pakt, sazişləri, J.J.Russoda ictimai müqavilə). Dövlət və cəmiyyət arasında müqavilə münasibətləri ideyası bu münasibətlərin konstitusiyalı təşkilində, hüquqi dövlətin nəzəriyyə və praktikasında əməli ifadəsini tapdı. Buna görə də institusional siyasətin birgə siyasi-hüquqi tədqiqatların əsası saxlanılır. Lakin siyasi problematika dövlət-hüquqi institutların hüdudlarından çoxdan kənara çıxmış və XX əsrin birinci və ikinci qərinələrində **S.e.** əsasən, hüquqluqdan azad edilmişdir.

XX əsrin 20-ci illərində **S.e.**-in təşəkkülü demək olar ki, başa çatdı. Onun əsl çiçəklənməsi artıq yüzilliyin ikinci yarısına təsadüf edir. **S.e.** müstəqil elmə çevrildi və digər sürətlə inkişaf etməkdə olan elmlərə qarışıb əriməsdən onlarla əməkdaşlıq etməyə başladı. Bu dövrdə ictimai elmlərin müasir metodologiyası təsdiq olunurdu; onların predmet sahələri dəqiq müəyyənləşdirilirdi; **S.e.**-in qonşu bilik sahələri ilə qarşılıqlı fəaliyyəti yaradılırdı. **S.e.** sahəsində elmi məktəblər və istiqamətlər sistemi yaranır (siyasətin şüurlu və yarımşüurlu motivlərinin, siyasi əxlaqın realizm psixologiyasının və s. nin tədqiqi); digər sosial elmlərdə olduğu kimi, elmi biliyin (daxili, xarici siyasətin, siyasi

sistemlərin, siyasi liderliyin, hakimiyyət tipologiyasının və bir çox başqalarının) ixtisaslaşması baş verir; təcrid olunmuş qrupların və ayrı-ayrı alimlərin işində mütəxəssis kadrları hazırlayan elmi idarələrin, təhsil müəssisələri şəbəkələrinin təşkilində keçid başa çatır; nəşriyyat fəaliyyəti inkişaf edir, ixtisaslaşmış dövri nəşrlər meydana gəlir. **S.e.** çoxsaylı və mütəşəkkil tədqiqatçı kadrları, müəllimləri və tələbələri olan sosial institut kimi inkişaf etmiş ölkələrdə elmin tam hüquqlu hissəsi olur; **S.e.**-in beynəlxalq və milli təşkilatları yaranır. 60-70-ci illərdə bəzi ölkələrdə (Almaniyada, müəyyən qədər Fransada, sonra isə Rusiyada) **S.e.**-in yeni adı - politologiya (sosiologiya, ekologiya və i.a. uyğun) meydana gəldi. Bir çox Qərb ölkəsində, (xüsusən, ABŞ-da terminin yığcamlığı və aydınlığı nitq üçün münasib olmasa da, o, tətbiq edilir. Bu adı, əlbəttə, əhəmiyyətli elmdə deyil, xüsusən də iri siyasi müəlliflərə münasibətdə yox) daha çox emprik bilik sahəsində, yaxud, kütləvi-publisistik praktikada tətbiq etmək olar: N.Makiavellini, yaxud, Y.Xaberması politoloq adlandırmaq qəribə görünərdi.

Müasir **S.e.**-in funksiyaları bir sıra əlamətlər üzərində cəmləşir.

1. Siyasi praktikaya xidmətin iş (alət) funksiyaları. Onlar da öz növbəsində: 1) normativ funksiyalardan, yəni müəssisələrin və şəxslərin siyasi fəaliyyət normalarının, siyasi həyatın siyasi üsullarının (seçkilərin, təşkilatlar yaradılmasının) və i. a. müəyyən edilməsindən; 2) siyasi fəaliyyətlərin, proseslərin planlaşdırılması funksiyasından; 3) gözlənilən hadisələrin proqnozlaşdırılmasından və modelləşdirilməsindən, siyasi praktikanın istiqamətləndirilməsindən; 4) təşkilati funksiyadan - siyasi müəssisələrin, münasibətlərin, danışıqlar proseslərinin, partiyaların və i.a. təşkili üçün tövsiyələr işləyib hazırlamaqdan ibarətdir.

2. idraki və tənqidi funksiyalar: 1) siyasi ideyaların, nəzəriyyələrin, əməli fəaliyyətin nəzəri və emprik təhlili; 2) siyasi ideyaların və əməli fəaliyyətin iki yolla-ilkin nəzəri hesablamalar, müqayisələr, dəlillərin yoxlanması və i.a. yəni, hipote-

zlərin saxtalaşdırılması, səhvlərin və düzgün olmayan müddəaların aşkara çıxarılması metodu və eksperimental sınaqlar (nümunə seçikləri, nəticələrin, qərarın qəbulunun şərti işarələri və təhlili və i.a.) ilə tənqidi yoxlanması; 3) müvafiq siyasi obyektin (hadisənin, prosesin) nəzəriyyəsinin qurulması - S.e.-in əsas vəzifəsidir, bu, onun qanunauyğun dəyişikliklərinin öyrənilməsini, onun gələcək vəziyyətləri haqqında fikir yürütməyə və onları irəlicədən görməyə imkan verən izahını nəzərdə tutur ki, bunlarsız, ayrı-ayrı (lakin qarşılıqlı əlaqəli) obyektlərin xüsusi nəzəriyyələrindən orta və ali səviyyəli nəzəriyyələrə (məs., idarə və özünüidarə nəzəriyyələrinin, hakimiyyətin və cəmiyyətin, dövlətin və hakimiyyət aparatlarının münasibətlərinin, siyasi partiyaların, liderlərin, siyasi münasibətlərin, konfliktlərin və i.a. fəaliyyətinin məcmusundan demokratiyanın ümumi nəzəriyyəsinə) qədər yüksələn həqiqi elmi nəzəriyyə mümkün deyildir; 4) emprik kəmiyyət və keyfiyyətin konkret tədqiqatlarından, məlumatların toplanması və işlənməsi metodlarının seçilməsi və tədqiqindən, riyaziyyat aparatının, sistemli metodların, modelləşdirmənin tətbiqindən, ehtimal olunan gələcəyin ssenarisinin qurulmasından, mümkün proseslərin təhlili, oyunlar nəzəriyyələri, məkan anlayışlarının, obyektin və onun əhatəsinin (mühitinin) münasibətləri, məs., müxtəlif qaydalı sistemlərin (şəhər idarəsində, mikrorayonun, vilayətdə, şəhər özünüidarəçiliyi və i.a.) təhlili zamanı olduğu kimi xüsusi metodların istifadə edilməsindən başlayan məxsusi metodologiyanın yaranması.

Bu funksiyalar çərçivəsində elmi siyasi biliyin emprik materialdan nəzəriyyədə ümumiləşdirilməsinə və inkişafın ehtimalına gedən hərəkət baş verir. Bu zaman bir sıra ardıcıl tədqiqat əməliyyatları tətbiq edilir: məlumatların seçilməsi, onların sistemləşdirilməsi və təsnifatı, obyektin (məs., siyasi partiyanın) sistemli xüsusiyyətlərinin, bu sistemin asılı və müstəqil dəyişikliklərinin, onun strukturunun (ünsürlərinin və onların arasındakı münasibətlərin), ən yaxın ətrafının (partiya sistemləri məcmusu) və

daha ümuminin (ölkənin siyasi münasibətlərinin) və i.a.-dan konkret siyasi sistemin nəzəriyyəsini quranadək təhlilinin müəyyənləşdirilməsi S.e.-in funksional strukturu ilə birgə onun predmet strukturu da inkişaf edir. İndiki zamanda bunu nəzəri elmlərin, elmi fənlərin, xüsusi siyasi bilik və bu biliyi genişləndirən birgə, sintezli fənnlərin və elmi istiqamətlərin hüdudlarında emprik tədqiqatların məcmusu kimi təsvir etmək olar. Bütövlükdə o, aşağıdakı sxemlə göstərilə bilər:

1. Tədqiqat predmetinə görə. Nəzəri elmlər: siyasətin və hakimiyyətin institusional formalarının, siyasətin və hakimiyyətin, siyasi sistemlərin və strukturların, cəmiyyətin siyasi təşkilinin, siyasi proseslərin (idarəçiliyin və s.), hakimiyyətin tipologiyasının, onun vasitələrinin və siyasətin məqsədlərinin funksiyalarının; daxili və xarici siyasət nəzəriyyəsinin, siyasi strategiya və taktikanın və s.-nin tədqiqi.

2. Tədqiqat tipinə görə. 1) Siyasi sosiologiya: siyasi fəaliyyət, institutların işi, siyasi institutlar arasındakı münasibətlər və onların cəmiyyətlə münasibətləri (bürokratiya, hakimiyyət kadrları), siyasi sistemlər (hakimiyyətlər, partiyalar, idarə və s.), assosiasiyalar (qruplaşmalar, hərəkatlar); siyasi rejimlər; vətəndaşlıq cəmiyyəti və digər cəmiyyətlər; hakim qüvvələr, siyasi elitalar və i.a. 2) Siyasi psixologiya: siyasi şüur və davranış (bihevioristi tədqiqatlar), siyasətin və hakimiyyətin cəmiyyət tərəfindən dərki (onların qanuniləşdirilməsi); siyasətin emosional həyatı (siyasi təxəyyül, incəsənət, duyum, rəmzlər və i.a.), siyasi mədəniyyət və i.a. siyasi antropologiya: siyasət insan problemi kimi, həmçinin, dövlətəqədərki siyasi münasibətlər və sinfi cəmiyyətəqədərki hakimiyyət formaları; siyasətin bioloji, təbii əsasları.

3. Empirik elm: hakimiyyətin təşkilinin, qərarların qəbulunun, idarə aparatları işinin, konkret hadisələrin və münasibətlərin, ictimai fikrin, seçki prosesinin, təbliratın, informasiyanın, partiyaların, liderlərin, siyasi müəssisələrin və i.a. tədqiqat texnikası.

S.e.-in bu qrupuna siya-

sətin dərk olunmasının qarışıq sahələri qoşulurlar: 1) siyasətin (siyasi və sosial dəyişikliklərin, konfliktlərin, siyasi kollektivlərdə münasibətlərin, milli münasibətlərin, kütləvi kommunikasiyanın və i.a) sosiologiyası; 2) tarix elmləri (cəmiyyətin, siyasətin, inqilabların, müharibələrin beynəlxalq münasibətlərin və i.a. tarixi); 3) hüquq elmləri (siyasi-hüquqi əsasların, siyasi sistemin hüquqi tənzimlənməsinin, hakimiyyət orqanlarının işinin və i.a. tədqiqi və kodifikasiyası); 4) ideoloji təlimlər (siyasi ideologiyaların formalaşması və funksiyası, onların dəyişilməsi, mübarizəsi və i.a.).

S.e.-in vəziyyəti siyasətin özünün vəziyyətinin dəqiq göstəricisidir. S.e.-in, onun nəticələrinə və tövsiyələrinə siyasi hakimiyyət qüvvələrinin həssaslığı ilə əlaqələndirilən əməli istiqaməti elmi siyasətin formalaşmasının mühüm şərtidir.

SİYASİ EMBLEMATİKA - siyasi ideyaların, cərəyanların, təşkilatların, müəssisələrin, dövlətin hakimiyyətinin rəmzi nişanlarının, ayrı-ayrı şəxslərin mülk və ləyaqət nişanlarının və i.a.-ın rəssamlıq, qrafika, dizayn, zərgərlik sənəti vasitələri ilə predmetli ifadəsi. Emblem bir siyasi obyektin digərindən onun birinci, daha gözə çarpan və aşkar əlaməti ilə fərqləndirmə nişanıdır. Belə nişanlara dövlət gerbi, şəhərlərin gerbləri, siyasi partiyaların, hərəkatların, gənclər təşkilatlarının, mənafe birlikli qrupların emblemləri aiddir. **S.e.** keçmişdə daha zəngin və rəngarəng olmuş, soyad gerbləri, vəzifəli şəxslərin ləyaqət və hakimiyyət nişanları ilə təmsil olunmuşdur. Onlardan yalnız bir hissəsi saxlanmışdır (məs., Amerika şerifinin ulduzu). **S.e.** cəmiyyətin siyasi həyatını rəngarəng edir və zinətləndirir, ona rəmzi mədəni (birləşdirici, emosional) məna verir.

Emblem seçilməsi, onların forması, məzmunu, rəmzi mənası, dövlət bayrağının rəngləri (necə deyərlər, "milli rənglər"), siyasi rəmzlərin digər növləri kimi, bəzən ciddi siyasi məsələyə və kəskin ideoloji qarşıdurma mövzusuna çevrilir.

SİYASİ ETİKA - siyasətin mühüm və daimi əsaslarından biri olub onun niyyətini, məqsədlərini, metodlarını, hakimiyyətin fəaliyyətini və siyasi proses iştirakçılarının hərəkətlərini qiymətləndirir. Siyasətin etik əsası onun əxlaqi əsasları ilə bilavasitə bağlı olsa da, bunlarla eyniyyət təşkil etmir. Eyni bir siyasətin etik və əxlaqi məzmunu uyğun gəlməyə, bəzən isə hətta bir-birinə tamamilə zidd ola bilər. Siyasətə əxlaqi və etik qiymət verməyə çalışan insan və cəmiyyətin şüuru arasındakı ziddiyyətlər kimi, etika, əxlaq və siyasətin mürəkkəbliyi, ziddiyyətləri də siyasət elmi və fəlsəfənin bunlara daim maraq göstərməsinin əsas səbəblərindir. Etika həm siyasi, həm əxlaqi şüurda, həm davranışda, siyasi praktikanın özündə ən mühüm yerlərdən birini tutur. Özü də bu zaman mənəviyyat, əxlaq həm siyasətin məzmunu, məqsəd və vəzifələrini, həm də siyasi fəaliyyətin mənəvi mənasını, əxlaqi üsulunu, yaxud siyasi şəxsin (siyasət liderlərinin, rəhbərinin və ya icraçısının), siyasi qrupun (sinfin, partiyanın, assosiasiyanın), siyasi institutun (hakimiyyət idarəsinin, aparatının) və sairənin simasını müəyyən edən niyyət, yol, meyl kimi fərqləndirilir. Beləliklə, əxlaq və siyasətin münasibəti siyasət - etika - siyasət - əxlaq münasibəti ilə mürəkkəbləşir (etika və əxlaqın həddən artıq radikal görünə bilən bölgüsü ilə problemin təhlilinin bitməməsi də bununla bağlıdır).

Mənəvi tələbatların universal bağlılığını əsaslandıra bilməyən yeni dövr elmlərinin dünyanın rasionallaşdırılmasına gətirdiyi normativ nihilizmə, səmərəli təkana qarşı çarə kimi M.Veber məsuliyyət etikasını irəli sürür. (M.Veber bunu inandırma etikası və uğur etikası adlandırır). Bunların hər ikisi ideal tipik mövqelərdir. Hər ikisi əksliklərin geniş meydanını bildirir və Veber bu nun daxilində protestant etikasını formulə edir. inandırma və məsuliyyət - bunların hər ikisi fəaliyyəti başa düşməyin prinsipləridir (mistika və kor-koranə təqlid istisna edilir), burada mövcud imkanlardan istəniləni seçmək mümkündür. Məsuliyyət prinsipinə görə insan öz əməlləri ilə dünyaya gətirdiyi dəyişikliklərin müəllifi sayılır (Aristotel). inandırma prinsipi isə hərəkəti doğuran niyyəti nəzərdə tutur və fəaliyyəti fərqlən-

dirmək üçün əlavə imkanlar yaradır. Bunlara təcridi yanaşma sırf mücərrəd nəticələr doğurur.

Siyasi fəaliyyəti onun nəticələrindən ayırmaq olmaz, bu, nəticələr siyasi məqsədlərin və bunlara nail olmaq vasitələrinin seçilməsinin nəticəsi kimi təzahür edir: fəaliyyət məsuliyyət etikası əsasında həyata keçirilir. Veber dövlətçilik kontekstində siyasəti kifayət qədər aydın təfsir edir: "Təmiz şəkildə, insan birliklərində qanuni şəkildə hökmranlıq etməyin səciyyəvi vasitəsi siyasətin bütün etik problemlərinin xüsusiyyətlərinin şərtləndirilməsi deməkdir". Veberin fikrinin səciyyəsi gələcək dünyanın bütövlüyü naminə bütün məsuliyyəti öz üzərinə götürməyə hazır olan inandırma etikası ilə müşahidə olunur. Veberin fikrincə, inandırma prinsipinə əməl edən etik - kosmik-etik rasionalistdir. O, öz əməllərini etik hərəkətin müstəsna dəyərini əsas tutaraq, tətbiq olunan vasitələrin və baş verə biləcək nəticələrin xarakterini nəzərə almadan əsaslandırır. Ona görə də inandırma etikasındakı anlayışlarda müəyyən olunmuş hərəkət üçün hər hansı əhali kütləsini ləğv etmək dərəcəsinə gətirib çıxaracaq sonuncu zorakılığa çağırış vəziyyəti məntiqi baxımdan labüddür. Veberə görə, inandırma etikası əsasında edilən təmiz hərəkət qeyri-siyasi hərəkətin prototipidir.

Siyasətin və hakimiyyətin etik başlanğıcları, bunları gözləyən məqsədlər, siyasi hərəkətin mənası və formaları siyasi ideyaların, konsepsiya və nəzəriyyələrin məzmunu bu və ya digər hərəkəti etmək cəhdindən (intensional etika), yaxud bu və ya digər borcu başa düşmək və reallaşdırmaqdan (zərurilik etikası), yaxud hər hansı norman (normativ etika), sərhəddi və ya həddi müəyyən etmək və əsaslandırmaqdan ibarət ola bilər və s. Məs., ictimai inkişafı stimullaşdırmağa yönəldilən, iqtisadiyyatı dəyişdirmək, yenidən qurmaq niyyəti ilə (məs., sənayeləşdirmə etikası), tərəqqi, yaradıcılıq iradəsi ilə ilhamlanan siyasət siyasi etikanın saysız-hesabsız nümunələrində yalnız bəzilərdir; onun konkret formaları xüsusilə müxtəlifdir, buna görə də ilkin kapital

yığımı etikası da, əmək etikası, planlaşdırma etikası və s. də mümkündür. Zərurilik etikası məsuliyyət, xidmət, barışıq, qeyri-zorakılıq etikası və bir çox başqa formalarda təzahür edə bilər. Normativ etika lazımınca davranışın sərhədlərini müəyyənləşdirir, siyasi dəyərləri (azadlıq, hüquqlar, bərabərlik və s.) bərqərar edir. Etikanın bütün bu və buna bənzər növləri hansısa ictimai əhəmiyyətli siyasi vəzifələrin həllinə istiqamətlənən siyasi etikanın çərçivəsində siyasi etikanın fərdi və kollektiv (kütləvi, qrup, sinfi) təzahürləri mümkündür.

Bu və ya digər etik formulanın mənəvi qiyməti bilavasitə həmin formulaya daxil edilə (müasir vətəndaş cəmiyyətinin inkişaf etmiş şəxsiyyətinin altruist etikası), yaxud təsəvvürə gətirilə bilər: çox güman ki, sənaye inkişafı etikası mənəvi baxımdan müsbət meyllənə bilər. Lakin belə meyl heç də həmişə qəbul edilmir. Məhrumiyyətlər hesabına həyata keçirilən (sənaye inqilabı dövrünün sənayeləşdirilməsi), repressiyalar, yoxsulluq və iqtisadiyyatın aqrar bölməsinin dağılması ilə müşahidə olunan (30-50-ci illərdə SSRİ-də sənayeləşdirmə dövrü) sənayeləşdirmə siyasəti özlüyündə və onu şövqləndirən etika ilə birlikdə mənəvi süquta uğrayır. Bununla belə, bu cür siyasətin etik yönümü müasirlərin şüurunda uzun müddət qüsursuz kimi görünə bilər və yalnız sonralar, hansısa mənəvi ayılma nəticəsində və yenidən nəzərdən keçirilən siyasətin real uğurlarının nüfuzdan düşməsi ilə bərabər dəyərini itirə bilər.

Beləliklə, nəticələrin etikası bu nəticələrin qiymətinin mənəviliyi baxımından dəyərləndirilə bilməz. Siyasətin etik mənəvi ölçüləri bir-birini tamamlayır və həm onun özünü, həm də ikinci dərəcəli, bəlkə də qərəzsiz səmərələrini qiymətləndirməyə imkan verir.

S.e. intellektual və emosionaldır, çox vaxt siyasətin özünün emosional həyatını olduqca dramatik şəkildə formalaşdırır: həqiqət axtaranlar, siyasi layihələrin yaradıcıları siyasətçilərlə, liderlərlə, başçılarla bərabər bu həyata daxil olur və özləri bilicilərin, siyasi pərəstişgahların xarizmatik xüsusiyyətlərini mənimsəyirlər.

Fərdi xarizmatik etika siyasi zərurəti əsaslandıran qrup halında inandırma etikasına yaxındır. Bu zəruriliyin də bələ etikanın da məzmunu, əxlaqiliyi də birmənalı deyildir. Etik dəlil siyasətin, yaxud hakimiyyətin qanuniləşdirilməsi zamanı ən güclü amillərdən biri kimini adətən bu və ya digər zərurətə müraciət edir. Ona görə də siyasətin əxlaqi dəyərini həmişə yoxlamağa ehtiyac var. Lakin onun qüsursuz əxlaqi əsaslara istiqamətləndirilmiş etik əsaslandırma dərəcəsi mövcuddur. Siyasi məsuliyyət, fərdi və qrup məsuliyyəti - heç bir zahiri zərurətə tabe olmayan, lakin insan və kollektiv üçün özü zərurətə çevrilən məsuliyyət şüuru belədir. Zərurilik etikası məsuliyyət etikasında təcəssüm edir. Lakin əgər məsuliyyət əxlaqi baxımdan yanlış siyasətin qüsursuz icrası deməkdirsə və vəzifə borcunun dərki onun məzmunundan kənarda qalırsa, hətta əxlaqi cəhətdən qüsursuz görünən etika da şübhəli ola bilər. Siyasətin etik baxımdan adətən kifayət qədər ümumi şəkildə qiymətləndirilməsindən fərqli olaraq, siyasət haqqında əxlaqi mühakimə konkret və dəqiq olur, çünki o, özlüyündə məsuliyyətlidir. Siyasətin özü kimi, ona verilən normativ etik qiymətlər də daha ümumi və mübahisəli ola bilər. Siyasətin niyyətləri, mənası, onun məqsəd və vəzifələri haqqında diskussiyaların olması adi və xarakterik, eyni zamanda funksional haldır. Bununla bərabər, siyasi hərəkətin, yaxud niyyətin etikliyi barədə daha qəti və buna görə də əxlaqi qiymətə daha yaxın olan təsəvvür də mövcuddur. Yol verilən həddin dərk olunması və siyasətçinin əməllərinin qəbul edilmiş adətlərə, mədəni normalara uyğun gəlməsi ilə yanaşı, etiklik anlayışı açıq-aşkar əxlaqi səciyyəni də əhatə edir.

Siyasətin etik əsasları onun şəksiz atributudur, lakin bunların özünü göstərməsi daimi deyil, müvəqqətidir. Siyasətdə baş verən dəyişikliklərlə yanaşı, ona ilham verən ideyalar, əhval-ruhiyyələr və iradi təkanlar da dəyişir. Siyasətə qarşı əxlaqi tələblər isə bu və ya digər mədəniyyətin qəbul etdiyi mütləq mənəvi prinsiplər kimi daimidir. Çünki siyasətçi və cəmiyyətin

siyasi həyatının hər hansı bir iştirakçısı yüksək əxlaqın ən yüksək təcəssümü ola bilməz. Siyasət və əxlaqın meyilləri, məxsusi cəhətləri daim təsirini göstərir, ya bunları yaxınlaşdırır, yaxud da bir-birindən uzaqlaşdırır.

SİYASİ FƏALLIQ - sosial-iqtisadi və siyasi qaydanı, sosial-iqtisadi və siyasi institutları təkmil ləşdirmək, yaxud dəyişdirmək cəhdi ilə bağlı sosial qrupların, yaxud fərdlərin fəaliyyəti.

Sözün geniş mənasında **S.f.** cəmiyyətdə inqilabi dəyişikliklərə, həmçinin onun qanunvericilik fəaliyyəti, irqi ayrı seçkilik və sosial xurafat əleyhinə, siyasi və dini iradə azadlığı uğrunda mübarizə daxil olmaqla islahına yönəldilmiş fəaliyyətdə təzahür edir.

Fərdi səviyyədə **S.f.** ayrıca şəxsiyyətin həyat fəaliyyətinin elə formalarının təzahürü, məcmusudur ki, onun siyasi proseslərdə fəal iştirak etmək, özünün siyasi hüquq və mənafeyini qorumaq səyi bunlarda ifadə olunur.

SİYASİ FƏLSƏFƏ - siyasətin sanballı problemilərinin, onun daha dərin mahiyyətli əsaslarının tədqiqinə həsr olunmuş fəlsəfə fənni insan və cəmiyyət haqqındda fəlsəfi biliyin əsas sahələrindən biri. "**S.f.**" termini həmçinin siyasi şəxsin, cərəyanın, siyasi partiyanın, sinfin, hər hansı dövrə münasibətdə əlamatdar sayılan baxışları, istiqamətlərini bildirmək üçün də işlədilir.

S.f. ən qədim dövrdə Avropanın və Şərqin antik dünyasında filosofun insan və dünya, hakimiyyət, ədalət, insanlar arasında qeyri-bərabər münasibətlər haqqında düşüncələri kimi meydana gəlmiş, eyni zamanda həm təhlil, həm təlimat, həm də əxlaqi moizə olmuşdur. Siyasət haqqında daha əvvəlki və daha əhəmiyyətli yazılı fəlsəfi əsərlər ən azı e.ə. V əsrə gedib çıxır. Avropada **S.f.**-nın ən böyük nümayəndələri Platon və Aristotel olmuşlar. Bütün düvrlərdə, o cümlədən XX əsrdə ən qüdrətli mütəfəkkirlər bu və ya başqa dərəcədə siyasət fenomenlərinin tədqiqi ilə məşğul olmuş və çox vaxt onların siyasi əsərləri daha güclü əsərlər kimi tanınmışdır. Foma Akvinski, Dante Aligye-

ri, Marsili Poduanski, U.Okkam, N.Makiavelli, T.Hobbsun, Q.Leybnits, B.Spinoəa, C.Lokk, Ş.Monteskye, D.Yum, J.J.Russo, ı.Bentam, ı.Kant, Q.hegel, ı.Frixl, V.Humboldt, C.Mill, K.Marks, F.Eengels, A.ı.Gertsen və həmçinin bir çox müasir filosof və mütəfəkkirlərin adları S.f. tarixini bəzəməkdədir. XX əsrdə **S.f.** akademik fəlsəfə elminə çevrilmiş, Qərbi Avropa və Amerika universitet kurslarında mütəbər yer tutmuşdur. Müasir siyasi-fəlsəfi ədəbiyyat olduqca zəngindir və sürətlə artmaqda davam edir.

S.f. fəlsəfi biliyin xüsusi sahəsi kimi fəlsəfənin ixtisam fənlərinə vahid prosesində əxlaq, sosial fəlsəfə, hüquq fəlsəfəsi, tarix, elm, sonra isə həm də texnika, incəsənət və s. kimi ixtisas fənlərinə qütbləşmənin vahid prosesində, həmçinin **S.f.**-nin özündən siyasi elmin ayrılması və bu elmin müstəqil siyasi tədqiqatçılar sahəsinə çevrilməsi prosesində yaranmışdır. Hər iki proses eyni zamanda baş vermiş və siyasi biliyin bütün çoxəsrlik tarixinə uzanmışdır. **S.f**-nin qəti olaraq tanınması və siyasi elmin rəsmiləşdirilməsi artıq XX əsrin nailiyyətidir, bu əsrdə siyasi biliyin strukturu müəyyən olunmuş, onun sosial və humanitar tədqiqatın sıx əlaqədar sahələri ilə münasibətləri təşəkkül tapmışdır. Bu strukturun insan və cəmiyyətin fəlsəfi və elmi idrakının ümumi sistemində yeri aşağıdakı şəkildə təsəvvür edilə bilər: tarix, hüquq, mədəniyyət, əxlaq, din, iqtisadi və ideoloji münasibətlər fəlsəfəsi, fəlsəfi antropologiya, siyasət fəlsəfəsi - siyasi elmlər: tarix, hüquq, sosiologiya, psixologiya, iqtisad, ekologiya elmləri - ideologiya, sosial institut kimi elmə dair tədqiqatlar, təşkilati və idarəetmə nəzəriyyələri, elmi-idrak metodologiyası təşkilatları və s.

S.f.-nın problematikasında onun sırf fəlsəfi baxışları, insan və cəmiyyət həyatının əsas başlanğıcları və onların təhlili prinsipləri kimi siyasət və hakimiyyətin tədqiqi mərkəzi yer tutur. Bax; **SİYASƏT.** Bura həmçinin, etiqad, inam, siyasətin rasional və irrasional başlanğıcları problemləri: siyasi şüurun çevrilmiş formalarının mövcudluğu və əhəmiyyəti: siyasi mifologiyanın fuknsiyaları, siyasi utopiyanın

imkanı, təbinin, fitrinin və ictimainin, borcun, məsuliyyətin, intizam və azadlığın münasibətləri və s. daxildir.

Praktikaya yaxınlaşdırılan, **S.f.**-nin siyasi elmlə yaxınlaşdıran prolemlərin digər bir dairəsi dövlətin, siyasi və mülki münasibətlərin problemlərini, hakimiyyətin tipologiyasını, hakimiyyətin və cəmiyyətin, siyasi və qeyri-siyasi hakimiyyətin, onun təsisatlı və qeyri-təsisatlı formalarını münasbətlərini, hakimiyyətin fəaliyyət prinsiplərini, onun subyektləri və obyektləri arasındakı münasibətləri hakimiyyət və siyasətin vasitələri və məqsdləri tipologiyasının, məcburetmə funksiyalarını güc və zorakılıq təblir edilməsinin, hakimiyyətin təmərközləşməsi proseslərinin, onun bölüşdürülməsini, verilməsini: siyasi sistemin, normaların, qaydaqanunların formalaşdırılması və tədqiqi prinsiplərini və i.a. öz tərkibində birləşdirir.

Biliyin **S.f.**-nin predmet sahələri ilə əməli politologiyanın yaxınlaşdıran üçüncü səviyyəsi siyasi iştirak problemlərinin, yəni insanın siyasətə, hakimiyyətin təşkilini, demokratik və digər prinsiplərinə, siyasi dili, sənədi, siyasi nitqin, tamaşanın ("teatrın"), rəmzləri, mərasimləri, siyasi dəyərlərin funksiyası və gerçəkləşdirilməsinin, siyasi mədəniyyət problemlərinin, psixologiyanın, informasiyanın və s. funksiyalarının və özünəməxsusluğunu əhatə edir. Sosial fəlsəfə, tarix fəlsəfəsi, siyasi iqtisadi ilə birgə **S.f.** bir sıra ümumbəşəri problemlərin, ümumi rifah, ədalət, bərabərlik, ümumfəlsəfi azadlıq problemlərini, siyasi nüqteyi nəzərlərini: fəlsəfi antropologiya ilə birgə insan problemlərini (siyasi insan - siyasi münasibətlərin fəal iştirakçısı) tədqiq edir.

Siyasi fəlsəfi bilik siyasi elmlərin formalaşmasını təmin edir. Lakin **S.f.**-nin təkcə elmi deyil, həm də əhəmiyyətli dərəcədə mədəni vəzifəsi vardır. inkişaf etmiş siyasi-fəlsəfi ənənəvi cəmiyyətlərin siyasi münasibətləri formalaşdırmağa, hakimiyyətin işini təşkil etməyə, insanda vətəndaşlıq, özünüdərk qabiliyyəti, obyektiv tənqidi özünəhesabat hissləri tərbiyə etməyə daha çox imkanları olur: belə cəmiyyətlərdə intelektuallıq və siyasi yetkinlik daha

yüksək olur. Siyasət haqqında fəlsəfi biliyin, əlçatmaz mənbələrinə malik olan cəmiyyətlərdən **S.f.**-nin inkişafı ölkənin siyasi həyatına məhsuldar təsir göstərən ciddi publisistikanı meydana gətirir. Vətən siyasi fikrini yaratmaq, yaxud təzələmək və siyasətin fəlsəfi anlaşılmasının dünya təcrübəsinin mənimsəmək inkişaf etməkdə olan hər hansı cəmiyyətin, əgər o, bunu vaxtında edə bilməyibsə, aktual vəzifəsidir.

SİYASİ GÜRUH - dövlət hakimiyyətini ələ keçirməyi, yaxud qeyri-leqal /gizli hakimiyyət/ və ya kriminal vasitələrdən istifadə etmək yolu ilə onun üzərində nəzarətə nail olmağı qarşısına məqsəd qoyan dövlət və yaxud siyasi xadimlərin qeyri-formal birliyi.

S.g.-un meydana gəlməsi tarixən ilk monarxiyaların qədim şərq istibdadının yaranması ilə əlaqədardır. Taxt-taca varisliyin dəqiq qaydasının olmadığı, hökmdarlığa namizədlərin sayının çoxluğu şəraitində onlardan hər biri əyanları, ilk köməyi, saray əyanlarını öz tərəfinə çəkməkdə özünə köməyi təmin etməyi düşündüyündən saray **S.g.**-nun yaranması labüd idi. Onların arasında mübarizə, bir qayda olaraq, amansız xarakter daşıyırdı. Onun iştirakçıları hər hansı vasitədən istifadə etməkdən çəkinmirdilər. Bura intriqalar, sövdələşmələr, qəsdlər və siyasi qətllərə qədər rəqibin aradan götürülməsi və s. daxildir.

Qədim tarixdən başlayaraq indiyə kimi **S.g.**-un mövcudluğu və daimi mübarizə hər hansı avtoritar rejimin atributiv xüsusiyyətlərindən biridir. əlbəttə, indi bu mübarizə uzaq keçmişdə olduğu qədər kobud və ibtidai formalarda aparılmır, lakin böyük, yaxud kiçik dərəcədə kriminal cəhət onda həmişə iştirak edir.

Struktur xüsusiyyətlərinə görə **S.g.**-un iki əsas tipini fərqləndirmək qəbul edilmişdir. Birincisi, tərəfdaş tipli güruhdur. Onun tərkibinə daxil olan xadimlər öz siyasi imkanlarına görə, əsasən, bərabərdirlər. Belə güruhda ya tanınmış lider olmur, ya da beləsi tapılarsa da bu, yalnız nominal xarakter daşıyır. Bu tipli güruhlar, bir qayda olaraq, hakimiyyət uğrunda mübarizə gedənə qədər

mövcud olurlar. Elə ki, məqsəd əldə edildi, yəni güruh hakim oliqarxiyaya çevrildi (bax; **ARXİYA**), onun üzvləri arasında siyasi liderlik uğrunda mübarizə başlanır ki, bu da (S.g.-un) parçalanmasına gətirib çıxarır.

İkincisi - vassal tipli **S.g.**-dur. Belə güruhlarda həmişə aşkar liderlər vardır (bax; **RƏHBƏR**) və bütün qalan üzvlər onunla müəyyən qarşılıqlı öhdəliklərlə bağlıdırlar və onun mövqeyinə qarşı açıq iddiaları olmur. Bununla əlaqədar qeyd etmək zəruridir ki, bir qayda olaraq, tərəfdaşlıq güruhunun üzvləri daha aşağı səviyyəli vassal güruhlarının liderləri olurlar.

Vassal tipli güruh prinsipcə tərəfdaş tipli güruhla müqayisədə, xüsusilə də onun lideri avtokratik siyasi rejim /şəxsi hakimiyyət rejimi/ yaratmağa can atmırsa, daha sabitdir. Bu halda onun hakim oliqarxiyaya çevrilməsi nisbətən sakit baş verir.

Əgər vassal güruhunun lideri avtokratiyaya meyl edirsə, hakimiyyətə gəldikdən dərhal sonra onun kliyentel kimi yenidən təşkili üçün tədbirlər görür.

SİYASİ HƏYAT - insanın və cəmiyyətin siyasi varlığının mənəvi, hissi, emosional və praktik-predmetli formalarının məcmusu: onların siyasətə münasibətini və onda iştirakını xarakterizə edir. S.h. anlayışı ictimai, iqtisadi, mədəni, mənəvi, maddi, dini həyat və onun digər növlərinin eynidir. O, konkret dövrlərin, ölkələrin, cəmiyyətlərin, siniflərin, sosial təbəqələrin qrupların, ayrıca insanın fəaliyyətini və siyasi davranışının sosial şəriatinin ümumiləşdirilmiş qiymətini verməkdə üçün istifadə olunur.

S.h.-ın özünün səciyyəsi isə mövcud olduğu şəraiti və onu şərtləndirən sosial, siyasi, iqtisadi və mədəni-tarixi amilləri: dövlətin tipini, cəmiyyətin siyasi quruluşunu, siyasi təşkil və mədəniyyətini, hakimiyyətin strukturunu, əlaqə formaları və s. qiymətləndirməyə imkan verir. Beləliklə, bu və ya digər dövrün, dünyanın, ölkə bölgəsinin, millətin, sinfin və i.a. **S.h.**-ı haqqında ümumiləşdirilmiş təsəvvürü yaranır (məs, müasir ingiltərənin, Nyu-Yorkun, Qərbi Avropanın, yaxud Cə-

nub-Şərqi Asiyanın, Yaxın Şərqin ərəb ölkələrinin, Vaşinqtonun paytaxt hakim elitasının və i.a. **S.h.**-ı).

S.h.-ı daha çox hakimiyyəti, onun aparatları və orqanları əsas sosial və siyasi institut strukturları, siyasi sistem, partiya sistemləri, cəmiyyətin siyasi təşkili tipi, idarəetmə tərzi, dövlət quruluşu və siyasi rejimin tipi, ictimai üsulun vəziyyəti və digər siyasi münasibətlərin formalaşmış ölçüləri, həmçinin qeyri-formal-assosiativ birləşmələrin xarakteri, özünüidarələr, ictimai asayişin vəziyyəti, vətəndaş cəmiyyətinin varlığı, inkişaf səviyyəsi, cins və nəsillərin münasibətləri, ailə münasibətləri müəyyənləşdirir. **S.h.**-ın şəraiti və təzahürü, kütləvi emosional əhvallar - gözləmələr, etirazlar, həyacanlar, əqidələr və həvəslər, ictimai hərəkatlar, rəmzi və mərasim hərəkatlar, siyasi nümayişlər, sosial və siyasi fəaliyyətin açıqlığı (asanlıq və anlaşıqlılıq), siyasi hadisələr haqqında audivizual informasiya, mətbuat, liderlərin əxlaqı, siyasi mühit, ölkənin və dövrün siyasi iqlimini yaradan cismani və rasional amillərin bütöv məzmunu heç də az təsir göstərmir.

S.h. xeyli dərəcədə xalqın mədəni-tarixi ənənələri, milli xüsusiyyətləri ilə təşəkkül tapır (məs, qorunub saxlanmış tayfa, qan qohumluğu, icma, həmyerli və ailə münasibətləri) dövlət, ictimai strukturların siyasi məişətinə, yaxud özünüidarəyə və i.a. daxil olur. İnsanın və cəmiyyətin S.h.ının təşəkkül tapdığı ictimai mühiti insanların birgə həyatının və ictimai münasibətlərin iqtisadi, ideoloji, mədəni, hüquqi, dini formaları yaradır. **S.h.** vətəndaş və siyasi hüquq azadlıqların söz, yığıncaq, vicdan azadlıqları və s.) vəziyyəti ilə birbaşa şərtlənir və özü onların, formalaşması və müdafiəsinə mühüm təsir göstərir.

Siyasi həyat dəyişkən və dinamikdir, yüksəliş və tənəzzül, sünüklük, gur partlayışla dövrləri az deyildir.

İctimai həyatın baxışı keyfiyyətində cəmiyyətin **S.h.**-i siyasi və ictimai məsələlərin həllinə bilavasitə cəlb edilmişdir. onun təşkilatları həmin məsələlərin həllinin reallaşmasına xidmət edir. Buna görə də **S.h.** nü-

fuz və liderlik uğrunda rəqabət aparan ən müxtəlif siyasi qüvvələri yarış meydanına dəvət edir. **S.h.** ən müxtəlif əlamətlərə görə fərqləndirilir: siyasi əqidələrə, sosial, mədəni sistemlərə, mərkəzdə və əyalətdə həyat tərzinə görə və i.a., həmçinin iki - fərdi və ictimai səviyyədə, siyasətdə iştirak əlamətinə, yəni ona fəal, yaxud passiv münasibətinə görə. Siyasi fəaliyyətə peşəkarcasına cəlb edilən (dəvət olunanlar) təbəqələr, siyasi fəal vətəndaşların (siyasi sinif, yaxud siyasi icma adlananlar) əsas hissəsini təşkil edir, adətən cəmiyyətin onları müdafiə edən, yaxud onlara qarşı çıxan siyasi fəal hissəsi ilə əhatə olunurlar. Hakimiyyətdə olan, yaxud ona müxalifətdə duran siyasi fəallıq mərkəzləri (partiyalar, ictimai hərəkatlar, təşəbbüskar qruplar və i.a.) bir qayda olaraq, cəmiyyətin siyasətdən kənar qalan hissəsi, o cümlədən siyasi bitərəflər və passivlər arasında öz təsirlərini yaymağa səy göstərirlər.

Demokratik, siyasiləşdirilmiş cəmiyyət siyasi özfəaliyyətin əhalinin xeyli hissəsini fəal və könüllü siyasi işlərdə iştiraka (nümayəndəli idarələrin seçkisinə, assosiasiyalarda, özünüidarələrdə, kütləvi və qrup siyasi çıxışlarda) cəlb edir və onun passiv hissəsi müqayisədə azlıq təşkil edə bilər. Belə cəmiyyətin **S.h.**-ı sabit və dinamik olar, onun emosional tonusu azalıb arta bilər, lakin hər halda, onun siyasi mədəniyyəti kifayət qədər yüksək olar, vətəndaşların böyük hissəsi siyasi fəallığın artdığı dövrlərdə (seçkilər, böhranlar, münaqişələr dövründə) siyasi səfərbərliklərə sürətlə qoşular. Yerli və dövlət problemlərinin həllində (birbaşa demokratiya), məs., İsveçrədə olduğu kimi, vətəndaşların daha tam, bilavasitə iştirakı da mümkündür. Diktatura, avtoritar, yaxud totalitar tipli cəmiyyətlərdə həyatın siyasiləşməsi formal olaraq cəmiyyətin az hissəsini siyasi işlərdə iştirakdan kənarda qoya bilər, lakin əhalinin böyük kütləsinin iştirakının özü də adətən formal olur, dövlət və partiya komandalarının icrasına çevrilir.

Ayrı-ayrı adamların **S.h.**-ının fəallaşması ictimai fəallıqdan fərqli olaraq təkcə ümuməhəmiyyətli məsələlərin həlli ilə

deyil, xüsusi məsələlərlə də əlaqədar ola bilər: siyasətlə məşğul olan peşəkarların, dövlət və partiya funksionerlərinin, müxtəlif səviyyəli idarə işçilərinin siyasi sinfinə keçmək, yaxud kiçik qrupda sadəcə fəal rol oynamaq. Fərdin **S.h.**-ı sabit siyasi rollardan əmələ gəlir və bəzən hakimiyyətin yuxarı eşelonlarında yer tutmaqla, yaxud nəzəri siyasi fəaliyyətlə bitən siyasi karyera bu və ya başqa formalı xarakter kəsb edə bilər.

S.h. tarixdə olduqca ziddiyyətli və iştirak (bax; **İŞTİRAK**) etmək, yaxud etməmək uğrunda mübarizədə tez-tez və olduqca kəskin, Asiya tipli (istehsal üsulu), kütlələr üçün iştirak hüququ olmayan durğunluq cəmiyyətlərindən, qərarların kollektiv qəbul olunduğu ibtidai demokratiyanın ilkin formalarından antik formalara qədər, sonra isə italiyanın, qədim Novqorodun, yaxud Tixvinin veçe şəhər - respublikalarında orta əsrlər polis siyasi yığıncaqlarından, Qərbi Avropanın özünüidarə parlamentlərinə və müasir demokratik siyasi azadlıqlara doğru tədricən inkişaf edir. Vətəndaşların **S.h.**-da maneəsiz, ümumi və bərabər iştirakı silki, sinfi, əmlak, yaş, mill və cinsi məhdudlaşmalara /senzlərə/ qarşı mübarizənin, vətəndaşlıq və siyasi hüquqlar uğrunda hələ də başa çatmamış mübarizənin nəticəsidir: İsveçrədə qadınlar üçün bilavasitə demokratiya hüququ yoxdur, keçmiş sovet Pribaltikası ölkələrində yerli olmayan əhali üçün vətəndaşlıq hüquqları məhduddur və i. Təsadüfi deyildir ki, Avropanın ən inkişaf etmiş ölkələrində ümumi seçki hüququ - yalnız XIX və hətta XX əsrin nailiyyətidir, xalqın fəal siyasi özfəaliyyəti isə real olaraq artıq əsrimizin sonuna aid faktdır. Müasir cəmiyyətdə **S.h.**-ın tarixi təkamülünün ümumi istiqaməti - onun demokratikləşməsi, siyasi iştirakının genişlənməsi və siyasi, hüquqi, mədəni vətəndaşlıq şüurunun yüksək səviyyəsi: borc və siyasi məsuliyyət hissləri ilə vətəndaş cəmiyyəti münasibətlərinin ümumi sistemində keyfiyyətcə inkişafıdır (bax; **VƏTƏNDAŞ CƏMİYYƏTİ**).

Əgər cəmiyyətin və şəxsin **S.h.**-ı cəmiyyətin və dövlətin tipi ilə əlaqələndirilmişsə, elə bu da

ölkənin quruluşu və cəmiyyətin siyasi simasının qiymətləndirilməsi üçün göstəricidir. Mərkəzləşmiş hakimiyyətə, sabit siyasi institutların sabit strukturuna, dünya ilə mədəni əlaqələrə və xaricdən təsirə malik olan avtoritar, diktator, yaxud totalitar cəmiyyət **S.h.**-ı labüd olaraq itaətə və icraya, formal fəallığa, əslində, vətəndaş cəmiyyəti üçün məqbul olmayan siyasi cəhətdən bitərəfləşdirilmiş və qeyri-müəşəkkil əhaliyə çevirir. Belə cəmiyyətə xas olan dövlət və cəmiyyətin əlaqədar sistemi (birpartiyalı, yaxud partiyasız, həmçinin bir neçə ümumdövlət təşkilatının - həmkarlar ittifaqlarının və gənclər təşkilatlarının və i.a. mövcudluğu) həqiqətən fəal assosiasiyalı **S.h.**-ı istisna edir. Demokratik institutlar sisteminin, bir neçə, yaxud çoxpartiyalı sistemlərin, siyasi və digər qruplaşmalar azadlığının, siyasi baxışlar və hərəkatlar müsabiqəsinin, hakimiyyət orqanlarının fəaliyyətinə etibarlı sosial nəzarətin və fəal özünüidarənin inkişaf etdiyi **S.h.** siyasi prosesin üzvi və səmərəli tərkib hissəsidir.

Müxtəlif tipli cəmiyyət və dövlətlərdə, həmçinin **S.h.**-ın mümkün olduğu sosial məkan da xeyli fərqlənir. O, hakimiyyət kabinələrində cəmləşə bilər və bu zaman siyasətdən özgələşdirilmiş kütlələr onun işində yalnız icraçılar kimi iştirak edirlər. **S.h.** küçəyə çıxa bilər və zahirən ictimai, xalq fəaliyyəti kimi görünər, lakin bu halda da onun fəaliyyəti cəmiyyətin tipi və onun siyasi təşkili tərəfindən müəyyən edilir. Avtoritar, yaxud total idarəetmə variantlarında kütləvi çıxışlar - təntənəli yürüşlər, mitinqlər, yığıncaqlar - bunlar rəsmi mərasimin hissələridir (bax; **SİYASİ MƏRASİM**), siyasəti müdafiə edən və bəyənən nümayişlər, bəzən süni təmtəraq, ruh yüksəkliyindən ibarət olur. Demokratik cəmiyyət də küçədə siyasət **S.h.**-ın zəruri ünsürü, hakimiyyətin və xalqın münasibətlərində əks əlaqə amili, iradə bildirmək üsuludur. əgər səhvlər, yaxud passiv hakimiyyət cəmiyyətlə münaqişəyə gətirib çıxarırsa, bu halda küçənin **S.h.**-ı fəallaşır. O zaman küçə **S.h.**-ı xalq hakimiyyəti forması, mitinqlər və yürüşlər isə xalq hərəkatlarının, cəbhələrinin və

i.a. iradələrini bildirmək üsulu olur. Demokratik cəmiyyətdə **S.h.** dövlət və digər təsisatlı hakimiyyətə, sosial (xalq) nəzarətinin vasitəsinə çevrilir (bax; **TƏTİL HƏRƏKATI**). Gücsüz, yaxud nüfuzdan düşmüş rejimin iflic vəziyyətinə düşdüyü ifrat hallarda hakimiyyət küçələrə çıxmış kütlələrin **(kütlənin hakimiyyəti** - bax; **OXLOKRATİYA)** əlinə keçir; küçənin **S.h.**-ı hakimiyyətin həyatı olur.

SİYASİ İNKİŞAF - Coxahəngli proses; onun gedişində müxtəlif siyasi qüvvələrin qarşılıqlı fəaliyyəti nəticəsində siyasi əxlaqda, siyasi mədəniyyətdə, cəmiyyətin siyasi sisteminin özündə dəyişikliklər baş verir.

S.i.-ı siyasi tərəqqi, ümumiyyətlə, tərəqqi ilə eyniləşdirmək olmaz. **S. i.** proseslərin nəticəsi üçün deyil, təsviri üçün nəzərdə tutulmuş daha bitərəf anlayışdır; cəmiyyət tərəfindən əldə olunmuş mərhələlər və dönüş nöqtələri deyil, sosial formaların hərəkatıdır, halbuki, siyasi tərəqqi (yaxud tənəzzül) bu və ya digər sabit formalarda meydana çıxan müəyyən siyasi nailiyyətlər üzərində diqqəti cəmləşdirir. Bununla əlaqədar, demək olar ki, siyasi tərəqqi **S.i.**-sız mümkün deyildir. **S.i.** isə öz növbəsində siyasi tərəqqinin əldə olunmasının şərtlərindən biri kimi çıxış edir.

Müxtəlif tarixi dövrlərdə **S.i.** həm inqilabi, həm də təkamül formalarında həyata keçirilə bilər. İnqilab siyasi sistemin dəyişdirilməsinə apardığı halda, təkamül dövrlərində prinsipcə cəmiyyətin siyasi sistemini dəyişməyən kəmiyyət dəyişikliklərinin toplanması baş verir.

S.i.-ın xüsusiyyətlərini aydınlaşdırmaq üçün onun sosial inkişafla münasibəti mühüm problem kimi çıxış edir. Sosial inkişafın miqyas və formaları S.i.-a tam uyğun gəlməyə də bilər. Tarixdə **S.i.**-ın sosial inkişafı qabaqladığı hallar az olmamışdır. Məs., Veymar respublikası mütərəqqi siyasi sistemin qurulmasına nail olsa da, onun müvəffəqiyyətlə həyata keçirilməsi üçün sosial zəmin yetişmədiyindən devrilmişdir. Siyasi inkişafla müqayisədə sosial inkişafın qabağa düşməsinə 60-70-ci illərdə bürokratik-avtoritar siyasi sistem çərçivəsində iri sosial-iqtisadi dəyişikliklər həyata keçirmiş ırəndə Məhəmməd Rza Pəhləvi monarxiya rejimini misal göstərmək olar. Birinci halda Veymar respublikasının süqutu və Hitlerin hakimiyyətə gəlməsi, ikinci halda isə şah rejimini devirmiş islam inqilabı siyasi və sosial inkişafın qeyri-bərabər, tarazlaşdırılmamış axını təhlükəsinə inandırıcı sübut oldu. Bununla əlaqədar qanuni olaraq ehtimal etmək mümkündür ki, **S.i.**-la yanaşı cəmiyyətin minimum sosial inkişafının əldə edilməsi də siyasi tərəqqinin şərtidir.

Lakin **S.i.** qeyri-siyasi ictimai sistemlərin (iqtisadi, sosial və s.) dirçəldilməsi də demək deyildir. Siyasət özünün xüsusi yolları ilə də inkişaf edir. Müasir dünyada siyasət getdikcə daha çox mürəkkəb, təşkilati, nəzəri cəhətdən sistemli və strukturca qanuniləşdirilmiş, daha miqyaslı, beynəlmiləl və məsuliyyətli olur. Müasir demokratik dövlətdə işlənib hazırlanmış kütləvi siyasi iştirak, seçkilərin, müzakirələrin kütləvi üsulları, bölüşdürülmüş və birbirinə nəzarət edən qarşılıqlı hakimiyyətlər və i. a. sistemli siyasət heç də əvvəlki burjua, yaxud, burjuayaqədərki cəmiyyətin monokratik hakimyyətinin (monarxiya, yaxud oliqarxiya istiqamətli) siyasəti ilə eyni deyildir. Siyasətin bir-birinə zidd əsasları inkişaf edir, - bir tərəfdən o, qloballaşır, digər tərəfdən isə özünüidarə prosesləri ilə birlikdə onun mərkəzsizləşdirilməsi baş verir. Hazırda dövlətlərin və xalqların tarixi taleləri bir çox cəhətdən cəmiyyətin nə dərəcədə S.i. prosesində iştirak etməsi ilə müəyyənləşdirilir. Qərarların qəbulu və icrası üsulları kəskin şəkildə mürəkkəbləşir.

Eyni zamanda siyasətdə onun "texniki" mexanizmləri - universal qanunauyğunluqlar, iyerarxiya irəliləyişində bir-birinə bənzər eyni üsullar, liderlərin formalaşması, kadrlar seçilməsi, siyasi mübarizə vasitələri və metodları daim təzələnir, məqsəd ehtimalları, siyasi prosesin strukturu, iqtisadiyyatın və siyasətin, əxlaqi münasibətlər və digər real həyat qanunauyğunluqları dəyişilməz qalırlar.

S.i.-ın ünsürləri kimi bu və ya digər dərəcədə onda iştirak

edən ictimai yarımsistemləri fərqləndirmək qəbul olunmuşdur. Bir qayda olaraq, bunlar siyasi sistemlər, yaxud, təşkilatlar (institusional yanaşma), siyasi davranış və institusionallıqdan kənar siyasi və sosial birliklərdir (struktur-funksional təhlil). Fəallıq dərəcəsinə görə, həmçinin **S.i.**-da onun təsirini yüksək səviyyədə öz üzərində hiss edən obyektlər həmin ictimai yarımsistemlər və özləri təsir edən bu zaman onların tələbatlarına müvafiq olaraq siyasi fəallıq göstərən subyektlər fərqlənirlər.

S.i.-ın əsas subyektlərinin fərqləndirilməsindən asılı olaraq nəzəri politologiyada onun öyrənilməsinə ən azı üç münasibət vardır. Birinci münasibət (yanaşma) hər şeydən əvvəl, cəmiyyətdə mövcud siyasi institutların inkişafı təhlilinə əsaslanır. Bu münasibətin tərəfdarları olan (məs., S.Xantinqton və C.Nelson) S.i. məsələlərinin həllində siyasi institutlara üstünlük verilməsini zəruri sayırlar. Ikinci, biheviorist münasibət bundan ibarətdir ki, onun tərəfdarları (Q.Almond, S.Verba və b.) institutlaşmağın məhdudluğunu dərk edərək cəmiyyətdə siyasi mövqelərin və siyasi davranış tiplərinin aydınlaşdırılmasına daha çox diqqət yetirirlər. Üçüncü, strukturzu, siyasi təhlil istiqaməti (D.Iston, E.Şilz, S.Lipset və b.) siyasi davranışın institisionallıqdan kənar yanaşmaya deyil, sosial və qrup əsaslarını aşkara çıxarmağa daha çox əhəmiyyət verir.

Bu münasibətlərdən hər biri ayrılıqda **S.i.** proseslərini bütövlükdə aydınlaşdırmaq üçün kifayət etməsə də, özlüyündə prespektivlidir. Son onilliklərdə politoloqlar arasında **S.i.**-ı öyrənən istiqamətlərin prinsipial müxtəlifliyi fikri getdikcə daha çox qəbul edilir, bu istiqamətlər çərçivəsində əldə olunmuş nəticələrdən səmərəli istifadə sahəsində uğurlu cəhdlər (məs., D.Apter) göstərilir.

SİYASİ İNTEQRASİYA - ictimai və dövlət strukturlarının bir və ya daha geniş dövlətlərarası birlik çərçivəsində birləşməsi, birliyi. Dövlətlərarası **S.i.** yeni hakimiyyət institutlarının yaradılması, milli siyasi orqanların suveren hüquqlarının bir hissəsinin onlara verilməsi yolu ilə əmələ gəlir.

S.i. bütün ictimai həyatın beynəlmiləlləşdirilməsi, onun elmi-texniki tərəqqi vasitəsilə sürətləndirilməsi, xalqlar və dövlətlər arasında qarşılıqlı bağlılığın artması əsasında inkişaf edir. Dünyanın ayrı-ayrı bölgələrində, xüsusilə, Qərbi Avropada iqtisadi, siyasi, ictimai və sosial fəaliyyətin digər sahələrinin beynəlmiləlləşdirilməsi və onun millətlərarası qurumlar vasitəsilə tənzimlənməsi buna zərurət yarandıqda lazımi səviyyəyə çatdırılır. inteqrasiya prosesinə cəlb olunmuş dövlətlər hakimiyyət səlahiyyətlərinin müəyyən hissəsindən imtina etməli, ümumi birliyə verməli olurlar. Beynəlxalq münasibətlər sistemində inteqrasiya kompleksi yaranmasının keyfiyyətcə yeniliyi bundan ibarətdir ki, o, bütöv beynəlxalq münasibətlər məcmusundan xüsusi məhəlli mənafeləri ayıra bilmir. Kompleks çərçivəsində onun iştirakçılarının daxili və xarici əlaqələrini idarə edir, inteqrasiyaya daxil olan siyasi sistemlər səviyyəsində bütöv, kompleks yaradır.

Müasir ədəbiyyatda inteqrasiya kompleksinin siyasi sisteminin mürəkkəbliyi dəfələrlə qeyd olunmuşdur. bu mürəkkəbliyə üstqurumun siyasi-hüquqi və institutlaşdırılmış hissələri daxildir. **S.i.** iştirakçılarının hamısı, az-çox siyasi funksiyalara malik olan bütün təşkilatlar, qruplar bu və ya digər mənada cəmiyyəti idarə etmək və hakimyyəti həyata keçirməklə məşğuldurlar. Buraya həm xüsusi yaradılmış millətlərarası qurumlar, həm də milli-dövlət institutları (müvafiq ölkələrin dövlət mexanizminin hissələri, partiya, həmkarlar ittifaqları, sahibkarlar ittifaqları və s.) daxildir. Siyasi fəaliyyət subyektlərinin inteqrasiyasından başqa, burada təsərrüfat-siyasi, sosial-siyasi, inzibati-siyasi, hərbi-siyasi və xarici-siyasi fəaliyyət sahələrində çalışan siyasi qüvvələrin birləşməsi baş verir.

S.i. prosesi daha çox Qərbi Avropada 50-ci illərdə yaradılmış Avropa Kömür və Polad Birliyi (AKPB), Avropa ıqtisadi Birliyi və Avroatom cəmiyyətlərinin bazası əsasında irəli gedərək təkmilləşdi. Birliyin üzvü olan dövlətlərin iqtisadiyyatının transmilliləşdirilməsi on-

ların idarəetmə mexanizmini dəyişdirir, ictimai münasibətlərin səciyyəsinə və strukturuna, ictimai ideologiyaya, əhalinin həyat tərzinə təsir edir. Birlik üzvləri bir neçə dəfə S i. yaratmağa cəhd göstərmiş, və bu uğursuzluqla nəticələnmişdir. Birliyə daxil olan dövlətlər arasında yalnız 80-ci illərin əvvəllərində yaranmış münasibətlərini səviyyəsi onlara praktik olaraq keyfiyyətcə yeni siyasi birlik - Avropa ittifaqı yaratmağa cəhd göstərmək imkanı vermişdir. 1985-ci ilin dekabr ayında birliyin ali mərhələsi - Avropa dövlətləri və hökumətləri başçılarının Şurası Vahid Avropa aktını bəyəndi. Həmin qərar imzalandıqdan sonra, 1987-ci il iyulun 1-dən qüvvəyə mindi. Bu sənəd Avropada üç ittifaq yaratmaq haqqında Paris (1951) və Roma (1957) müqavilələrini təkmilləşdirib inkişaf etdirdi, eyni zamanda Avropa siyasi əməkdaşlığı və Avropa Şurasının fəaliyyəti əsasında yaranmış və formalaşmış siyasi institutları hüquqi cəhətdən təsbit etdi. Bütün bu sistemin gələcəkdə daha sıx əlaqə və əlaqələndirilən fəaliyyət dairəsinə düşməsi haqqında, Avropa ittifaqına üzv olan dövlətlərin iqtisadiyyat, ictimai-siyasi elmi-tədqiqat və texniki inkişaf ətraf mühitin mühafizəsi sahələrində və nəhayət, xarici siyasət (eyni zamanda iqtisadi və siyas təhlükəsizlik aspektində) sahəsində daha sıx əlaqəli işləmələr haqqında söhbətlər getdi. Birliyin məşvərətçi orqanı parlamentin və onun icra orqanı olan birliyin Komissiyasının səlahiyyətinin müəyyən mənada genişləndirilməsi məsələsinə baxıldı, eyni zamanda Birliyin Nazirlər Şurasında qərarlar qəbul edilərkən, ayrı-ayrı dövlətlərin bu və ya digər qərarın əleyhinə olmasına baxmayaraq, həmin məsələnin mütəxəssislərin səs çoxluğu ilə qəbul edilməsi məsələsinin mümkünlüyünə də baxıldı. Bununla belə, vahid Avropa aktının qəbul edilməsi Birliyin orqanlarına - Komissiyaya və Avropa parlamentinə yüksək səlahiyyət verilməsi haqqında məsələni qəti həll etməsə də, bu gələcəkdə federal tipli təşkilatın mərhələ-mərhələ yaradılmasına yol azmış oldu. 1991-ci lin yanvar ayında Birliyə üzv olan dövlətlərin siyasi inteqrasiya

problemləri üzrə xüsusi konfransı işə başladı.

S.i. sahəsində mövcud fəaliyyət təcrübəsi göstərdi ki, müxtəlif sahələrdə birliyə daxil olan dövlətlərin suverenliklərinin məhdudlaşdırılması ilə əlaqədar bir sıra ciddi müqavimət halları müşahidə edilir. Dövlətlər arasında, onlara aid səlahiyyətlərin müxtəlifliyi, müəyyən hallarda milli üstünlüyə rəvac verməsi və inteqrasiya birliyinin coğrafi sərhədlər məsələsində fikir ayrılığı göze çarpır. Qərbi Avropa dövlətləri, hətta ictimai-iqtisadi cəhətdən bir-birinə çox yaxın olan bu ölkələr arasında belə həmin ziddiyyətləri aradan qaldırmaq çox çətin və uzun vaxt tələb edən məsələdir. Bunun aradan qaldırılması bir sıra iqtisadi, ictimai, daxili və xarici siyasət amillərindən asılıdır. Bu mənada S.i.-ya hərəkətdə olan ənənəvi ictimai inkişaf meyli kimi baxmaq lazımdır.

S.i. ilə hərbi inteqrasiya, daha doğrusu, hərbi-siyasi inteqrasiya bir-biri ilə bağlıdır. Bu, inteqrasiya fəaliyyətinə cəlb edilmiş dövlətlərin hərbi strukturlarının birləşməsi prosesi kimi başa düşülür. Bu, dövlətlərin hərbi sahədə yeritdikləri siyasətin əlaqələndirilməsində, onlar üçün hərbi doktrina, hərbi strategiya və hərbi quruculuq məsələlərinin hazırlanmasında, təhlükəsizlik sahələrində xarici siyasət fəaliyyətinin əlaqələndirilməsində, birləşmiş hərbi qüvvələr üçün idarəetmə mexanizmi yaradılmasında özünü göstərir. Birgə hərbi-siyasi fəaliyyət problemləri dövlətlərin hərbi ittifaqı çərçivəsində həyata keçirilir. Hətta bunların ən başlıcası olan NATO-ya üzv olmuş dövlətlərin hərbi təhlükəsizliyi belə eyni dərəcədə təmin edilmir. Bu, müxtəlif intensivlikdə həyata keçirilir, iştirakçı dövlətlərin hərbi potensialı isə müəyyən mülahizələr əsasında ayrılmış, xüsusiləşdirilmiş formada saxlanılır. Tam hərbi inteqrasiya yalnız S.i. əsasında mümkündür. Fövqəlmilli əsasda "Avropa ordusu" yaratmaq cəhdləri 50-ci illərdə olmuşdur. Vahid Avropa aktı qəbul edildikdən sonra - yenidən Qərbi Avropa inteqrasiya sisteminə daxil olan dövlətlərin inteqrasiyalı müdafiə mexanizmini hazırlamaq cəhdləri genişlənmişdir.

SİYASİ İNTRİQA - (fr.

intrigue və daha qədim - lat. intrico) - 1. Hər hansı bir məqsədə çatmaq üçün, bir qayda olaraq, çirkin, hiylə, fitnə və fəsad yolu ilə həyata keçirilən hərəkətlər, əməllər. 2. Personajların *mənafelərinin* toqquşması, dolaşıq əhvalatların gözlənilməz nəticələri, xüsusi vəziyyətlərin qarşılıqlı əlaqələrinin köməyi ilə hadisələrin dinamik inkişafı üçün zəmin yaradan münasibətlər üzrə fabula, süjet, sxem qurmaq vasitələri. 3. Məhdud mənada - məhəbbət münasibətləri, məhəbbət əlaqəsi. Hər üç məna müasir *siyasi həyatın* kontekstində və təhlilində özünü göstərir.

Bir qayda olaraq, **S.-i**-dan istifadə edilərkən çox mürəkkəb, dolaşıq, bəzən də müəmmalı vəziyyət yaranır, gözlənilməz nəticələr alınır. **S.i.** zahirən, *siyasi vəziyyətlərin* keyfiyyətcə yeni istiqamətini yaradan, müxtəlif qayda-qanuna tabe olan siyasi hadisə və proseslər zaman və məkanda özünü göstərir. Daxilən isə **S.i.** mexanizm nüqteyi-nəzərindən, bir qayda olaraq, məqsədyönlü siyasi cəhdlərin nəticəsi olub, siyasi qüvvələr arasındakı oyunların, yaxud müxtəlif hadisələri öz xeyrinə istiqamətləndirməyə çalışan, guya bu hadisələrin öz-özünə, gözlənilmədən, hadisələrin təbii axarında yarandığını qələmə verməyə cəhd göstərən ayrı-ayrı siyasi xadimlərin fəaliyyətinin nəticəsidir. Bu mexanizmin əsas başlıca və əsas növü kimi **S.i.** daha çox siyasi qəsddə özünü göstərir.

S.i. hakimiyyət uğrunda mübarizənin və hakimiyyətə təsir göstərmənin ən qədim və ənənəvi vasitəsi olub "siyasəti bilmək" üçün elitanın əlində güclü *silahdır*. Bəşər tarixində intriqaların ilk təsvirinə hələ antik dövrdə yaşamış müəlliflərin əsərlərində rast gəlinir. Praktik olaraq **S.i.** qədim Şərq dövlətlərində geniş inkişaf etmişdir. **"S.i."** bir anlayış kimi Qədim Romada yaranmışdır. Orada siyasi həyat əsasən **S.i.**-yə söykənərək qurulurdu. Belə ki, o dövrdə meydana gəlmiş ən geniş yayılmış **S.i.**-ların nümunələri Misir hökmdarı Kleopatranın *Roma imperatorları* ilə çox mürəkkəb *qarşılıqlı münasibətləri* ilə əlaqədardır. İtaliyada ilk dəfə siyasətdə intiqam və qisas almaq mənasında **S.i.**-nun nəzəriyyəsini N.Makiavelli hazırlamışdır. İndiyə qədər də "Makiavellizm" anlayışı **S.i.**-nın sinonimi kimi işlənməkdədir.

Daşıdığı məqsədinə görə **S.i.**-nı aşağıdakı qruplara ayırmaq olar; 1. Ayrı-ayrı siyasi xadimləri cismən aradan götürməyi, onları hakimiyyətdən kənar etməyi, siyasi cəhətdən hörmətdən salmağı və mənəvi-əxlaqi cəhətdən ləkələməyi qarşısına məqsəd qoymuş və bu istiqamətə yönəldilmiş **S.i.**-lar. 2.Ayrı-ayrı siyasi xadimləri deyil, bu və ya digər qrupları cismən yaxud rəmzi olaraq aradan götürməyi, siyasi cəhətdən hörmətdən salmağı və ləkələməyi qarşısına məqsəd qoymuş **S.i.**-lar. Burada intriqaya məruz qalacaq adamların miqdarından asılı olmayaraq ("hökmü verilmiş qrupdakı" adamların, yaxud həmin qrupun sədrinin güllələnməsindən tutmuş bütöv bir ictimai qrupa *qədər) qəsd həyata keçirilir.*

Siyasət tarixində **S.i.**-ların *həyata keçirilməsində istifadə* edilən vasitələr ən qədim dövrdə necə idisə, indi də eləcədir. Yəni əslində heç nə dəyişməmişdir. Bu, həm adamların cismən aradan götürülməsində istifadə edilən vasitələrdə, həm də siyasi və əxlaqi cəhətdən hörmətdən salmaqda işlədilən üsullarda özünü göstərir. Son onilliklərdə baş verən hadisələr **S.i.**-nın təsirli terror aktı olmasını göstərdi. *(məs, 1991-ci ildə Hindistanda seçkiqabağı kampaniyada böyük hörmət qazanmış Raciv Qandinin S.i-nın nəticəsi kimi öldürülməsi).* Eyni zamanda mənəvi-əxlaqi normaların və qaydaların pozulmasına (məs., Amerika senatoru Q.Xartı prezidentliyə namizəd kimi hörmətdən salmağa və onun şəxsi həyatı ilə bağlı xırda məsələlərin "şişirdilməsinə" yönəldilmiş **S.i.**) yönəldilmiş aktlar bunu sübut edir.

Müasir həyatda demokratik cəmiyyətə qarşı məqsədyönlü edilən **S.i**-ların həyata keçirilməsi vasitələri və onun "vasitələr cəbbəxanası" xeyli zənginləşmişdir. Məs., "səsvermənin təşkili", yaxud onun nəticələrinin qəsdən saxtalaşdırılması və s. Bu da *səciyyəvidir* ki, indi kütləvi hal almış "intriqaçılıqda" başqalarını təqsirləndirmək **S.i**-nın ən güclü və fəal vasitələrindən birinə çevrilmişdir.

S.i. həm daxili, həm də xari-

ci siyasətdə fəal cəhətləri ilə özünü göstərə bilir. Birinci halda, ayrıca götürülmüş bir dövlət daxilində siyasi təsir balanslarında vəziyyətin dəyişməsindən söhbət gedir, ikinci halda isə - hər hansı bölgədə, qitədə, yaxud ümumdünya miqyasında hiyləgər qüvvələrin fəaliyyəti nəzərdə tutulur. Məs., 30-cu illərin axırlarında Almaniya ilə Sovet İttifaqı arasında gizli sənədin - "Molotov - Ribbentron müqaviləsi" adlanın sənədin imzalanması, ona şəxsən Hitler və Stalin tərəfindən imza edilmiş protokolun əlavə edilməsi ilə əlaqədar olaraq həyata keçirilən S.i. bölgə səciyyəsi daşıyırdı. (Polşa haqqında bölmə və Baltik məsələsinin "həlli"). əvvəlcə qitə səciyyəli olan bu akt, sonralar dünya miqyaslı müharibəyə çevrildi.

Siyasi təbliratda S.i.-dan mühüm alət kimi istifadə etməyə meyl göstərən adam "intriqaçılıqda" günahlandırılır, siyasi sahədə çalışan şəxs isə (xüsusilə də siyasi rəqabətdə olan adam) "intriqan" - fitnə-fəsadçı, fırıldaqçı adlandırılır. Lakin S.i.-ya meyllli adama həmişə "intriqanın bəhrəsi" (məhsulu) kimi baxılır. S.i.-nın ən məşhur ustalarından, ən tanınmış siyasətçilərindən Fransa kardinalı və baş naziri de Rişelyeni; Böyük Britaniyanın məxfi xidmət idarəsinin "banisi-atası" kimi ad qazanmış yazıçı D.Defonu, Fransa sarayında xüsusi incəliklə həyata keçirilməsi tələb olunan tapşırıqları tez-tez yerinə yetirən Bomarşeni; bir-birini əvəz etmiş hökumətlərin naziri Taleyranı və başqalarını, Rusiya tarixində S.i.-nın məhir ifaçıları B.Qodunovu; imperator Yelizavetanın istəklisi qraf Lestoku, üç qadın imperatorun naziri qraf A.Bestujevi; XX əsrdə isə İ.V.Stalini, Mao Tszedunu, alman admiralı Kanarisi və b. göstərmək olar.

Siyasi əxlaqın ən alçaq sahəsi hesab edilən intriqadan qazmağın yeganə yolu siyasi həyatın maksimum dərəcədə demokratikləşdirilməsi və geniş aşkarlıq, vətəndaş cəmiyyəti çərçivəsində icti mai nəzarət üçün xüsusi vasitələr yaratmaqdan ibarətdir.

SİYASİ İRTİCA - vaxtı keçmiş ictimai strukturların saxlanması, yaxud bərpası naminə işə salınan ictimai tərəqqiyə müqavimət üsulları və vasitələrinin məcmusu.

SİYASİ İŞTİRAK - insanların mənafelərinin ifadə olunması və əldə edilməsi vasitələrindən biri kimi özünü göstərən siyasi və hər hansı şəkildə idarə olunan/ yaxud öz-özünə idarəolunan/ fəaliyyətin ayrılması xüsusiyyəti. Şəxsiyyət, qrup, təbəqə, sinif siyasi hakimiyyət münasibətlərinə, siyasi xarakter daşıyan qərarlar qəbul edilməsi və idarəetmə prosesinə cəlb olunduğu vaxt siyasi keyfiyyət kəsb edir. Belə siyasi birliyin daha çox inkişaf etmiş tipi müəşəkkil dövlət cəmiyyətidir. Lakin tarixçilərin, etnoqrafların və arxeoloqların sübut etdikləri kimi, siniflərin yaranması dövlətəqədərki strukturların meydana gəlməsi prosesində qəbilə, fratriya, tayfa, etnik qrup kimi birliklər də siyasi xarakterli ola bilər. Bununla birlikdə, sosial-siyasi birliklərdə də texniki məsələlərin həllində, əgər bunlar zidd mənafelər və konfliktlərlə bağlı deyillərsə, texnikanın idarə olunmasında hakimiyyətin bölünməsinə təsir etmirsə, deməli, xüsusi olaraq siyasi olmur. Bəlkə, əksinə, mütəşəkkil dövlət cəmiyyətində vətəndaşların qərarlar qəbul edilməsinə və idarəçiliyə cəlb olunması onun sosial, iqtisadi və mədəni sahələrində /yarımsistemlərdə/ bu və ya başqa formada siyasətləşdirilir. Beləliklə, universal hadisə kimi S.i.-a sosial-siyasi birliyin üzvlərinin bu və ya başqa formada fərdi, sinfi-qrup, milli-etnik, dini, yaxud digər əsaslarda həmin birliyin /yaxud, tarixi inkişafın müəyyən mərhələlərində, beynəlxalq birliyin/ daxili siyasi-hakimiyyət münasibətləri prosesinə cəlb edilməsi kimi baxmaq olar.

Vətəndaşların S.i.-nın formalarının, üsullarının, səviyyələrinin, intensivliyinin səbəblərinin və xüsusən, miqyasının nəticələrinin təhlili siyasi hökmranlıq, hakimiyyət uğrunda mübarizə və onun yenidən bölüşdürülməsi kimi siyasi proseslərin məzmununu və xüsusiyyətlərini; siyasi-idarəetmə qərarlarının işlənib hazırlanmasını, qəbul edilməsini və həyata keçirilməsini; siyasi rəhbərlərin /siyasi elitanın/ seçilməsini və fəaliyyətini; siyasi konfliktlərin meydana gəlməsini, yayılmasını və həll olunmasını və i.a. tamamilə

azmağa imkan verir. Siyasi istiqamətlərin və siyasi mədəniyyətin tədqiqi ilə əlaqədə S.i.-ın mənzərəsi vətəndaşın, ayrı-ayrı təbəqələrin, siniflərin və qrupların istər yerli səviyyədə, istərsə də cəmiyyətin siyasi sistemində gerçək rolunu aşkar etməyə imkan verir. Bu səbəbdən də vətəndaşların siyasətdə iştirakı müasir və tarixən mövcud olmuş siyasi sistemlərin keyfiyyət xüsusiyyətlərinin, onların demokratizm səviyyəsinin mərkəzi indikatorlarından biridir. Demokratik cəmiyyətdə vətəndaşların mənafeyinə toxunan məsələlərin həllində S.i. ümumi, azad, təşəbbüskar və təsirlidir. Bu iştirak onlar üçün məqsədlərə nail olmaq, öz ifadələri və özünütəsdiqləri ilə tələbatlarını ödəmək vasitəsi, vətəndaşlıq hissidir. Belə iştirak hüquqi dövlətin, demokratik siyasi rejimin əsaslarının məcmusunu təşkil edən müəyyən dövlət-hüquq institutları, norma və üsulları ilə təmin edilir. Demokratik iştirakın digər zəruri şərti cəmiyyətin müxtəlif təbəqələri arasında iştirakın pul, təhsil, qərarların qəbulu və qərar qəbul edənlərin bilik mexanizmləri, asudə vaxt, kütləvi informasiya vasitələrinə yolun açıqlığı kimi mənbələrin nisbətən bərabər bölgüsüdür. Siyasi rejimdən, ənənələrdən, ərazisindən və əhalinin sayından, nəqliyyat vasitələri və kommunikasiyaların inkişafından asılı olaraq hər bir cəmiyyətdə S.i.-ın müxtəlif, birbaşa /bilavasitə/ və vasitəli /dolayəndəli/ əlaqələndirilməsi müşahidə edilir. Müasir cəmiyyətdə siyasi partiyalar, digər ictimai-siyasi təşkilatlar və hərəkatlar S.i.-ın ən mühüm amilləri və bununla birlikdə vasitəçiləri kimi çıxış edirlər, onun əsas forması isə seçkilərdir.

Əgər avtoritar cəmiyyətdə əhalinin bir hissəsi siyasətdə iştirakdan kənar edilirsə, totalitar cəmiyyət, əksinə rejimin müdafiəsi üçün əhalinin mümkün qədər çox hissəsinin mərasim əməllərinə səfərbər olunmasına cəhd göstərir. Bu halda S.i. hakim qruplaşmanın təlim və nəzarəti altında mühüm alət rolunu oynayır.

Demokratik cəmiyyətdə S.i. siyasi sosiallaşma və tərbiyə funksiyalarını yerinə yetirir. Əgər diktatorluq - totalitar cəmiyyətdə bütün siyasi etiraz

və hətta narazılıq formaları qadağan edilirsə, demokratik cəmiyyət etirazın mitinqlər, nümayişlər, yürüşlər, piketlər, tətillər, kollektiv ərizələr göndərilməsi və s. kimi formalarına icazə verir.

Siyasi elmdə hələ Platon və Aristotel dövlət quruluşunun bir formasından digərinə keçilməsinin səbəblərini aşkara çıxarmaq, ideal dövlət formasını işləyib hazırlamaq üçün polisin işlərində vətəndaşların iştirak edib-etməməsini təhlil etmişdilər. S.i.-a maraq yeni dövrdə də dirçəlir, lakin ilk əvvəl, hökmdar üçün siyasi strategiyanın ideal modelini təsvir etmək və yaratmağın /Makiavelli/, suverenlik və idarəetmənin müxtəlif surətlərinin /Boden/, idarəetmənin forma və prinsiplərinin /Monteskye/, ictimai müqavilənin təbiəti, hökumət və xalqın suverenliyinin maddi vasitəsi kimi çıxış edirdi.

Ən yeni dövrdə əvvəlcə marksizm-leninizm, cəmiyyəti dəyişdirməyin sosialist konsepsiyaları, sonra isə Qərb demokratiyasının radikal nəzəriyyələri S.i.-ı öz doktrinalarının mərkəzi ideyası kimi irəli sürürlər. Lakin sonralar Sovet ittifaqında nəzəriyyə və təcrübə 80-ci illərin ikinci yarısına qədər bu iştirakı əslində rədd edir, yaxud kəskin surətdə məhdudlaşdırırdı. Müasir siyasi elmdə S.i.-ın özünün nəzəriyyəsi ilə yanaşı, digər politoloji konsepsiyaların əksəriyyətinin işlənib hazırlanması zamanı bu iştirak nəzərə alınır, siyasi institutlar və proseslər tədqiq edilərkən təhlil obyekti kimi götürülür.

SİYASİ KLAN (TAYFA) - Hakim təbəqədə dövlət hakimiyyəti, yaxud onun mühafizəsi uğrunda mübarizə aparan, patriarxal-ailə (qan qohumları), yaxud, həmyerlilər kollektivinin sabit qeyri-formal birliyi. S.k.-sayı bir neçə onluqdan bir neçə yüzlüyə qədər, yaşa dolmuş, bir liderin (tayfa başçısının) ətrafında real, yaxud, yalançı qohumluq təsəvvürləri ilə möhkəm birləşmiş fərdlərdən ibarətdir. Bu, əslində siniflərə qədərki ictimai idarə təsisatı bu və ya digər dərəcədə bir çox müasir dövlətlərin siyasi münasibətləri sisteminə "əlavə edilmişdir". İctimai həyatın fəal subyektləri kimi S.k.-ın rolu ənənəvi siyasi mədəniyyət stereotiplərinin güc-

lü olduğu, milli bazarın deyil, dövlət hakimiyyətinin ictimai funksiyalarının birləşdiricisi kimi çıxış etdiyi ölkələrdə xüsusilə aşkar təzahür edir.

Hakim təbəqənin klan bölgüsü elita ilə məhdudlaşmır. Hər bir elita klanı sosial ehramın orta və hətta aşağı pillələrində şaxələnmiş təşkilatçılar şəbəkəsinə arxalanır ki, bu da klan qruplaşmalarının xarici təsirə müqavimətini gücləndirir.

Hakim təbəqələrdə klan qruplaşmaları heç də həmişə yalnız bir böyük ailənin üzvlərini birləşdirmirlər. Məhz ən yaxın qohumlar, yaxud, həmtayfalar, həmfikirlər, yaxud, həmməzhəblər qrupu siyasi mənada hər bir klanın iş qabiliyyəti olan özəyi kimi çıxış edir, patriarxal etika (mühafizə olunan, yaxud, dirçəldilən) isə onun daxili hərrəyliyini möhkəmləndirir.

Tayfa əlaməti üzrə ayrılan hakim elita (bax; **SİYASİ ELİTA**) adətən iki əsas klan qruplaşmasından ibarət olur. Bir tərəfdən, bunlar, nümayəndələri bir neçə nəslin ömrü boyu hakimiyyətin ali və orta pillələrində olmuş qruplardır. Digər tərəfdən, yeni birləşmələr meydana gəlir ki, onların irəli sürülməsi cəmiyyətin keçirdiyi, yaxud, bir qədər əvvəl keçirmiş olduğu sosial dəyişikliklər nəticəsində baş verir.

Müharibələr, sənayeləşdirmə, iri kənd təsərrüfatı sahələrinin mənimsənilməsi həmişə yeni klanların meydana gəlməsinə təkan verir. Buna bənzər hadisələr, birincisi, köhnə qruplaşmaların təsirinin bazis əsaslarını dağıdır, ikincisi, onlarla əlaqədar, ictimai məhsulun böyük kütləsi meydana çıxır ki, köhnə qruplar bunların üzərində öz nəzarətlərini təmin etməyə vaxt tapmırlar. Onların bölüşdürülməsi və mənimsənilməsi hakimiyyət sistemində bilavasitə iştirak etmək iddiasında olan yeni klanların möhkəmlənməsi üçün əlverişli şərait yaradır.

Hakim elitanın müxtəlif klanları arasında qarşılıqlı fəaliyyət nisbətən dinc şəraitdə inkişaf edə, yaxud, əksinə, kəskin konfliktlərlə müşayiət oluna bilər. Əksər hallarda başlıca mübarizə köhnə və yeni qruplaşmalar arasında aparılır lakin onun baş verdiyi zəmin, bir qayda olaraq, ənənəvi klanlar arasında mövcud münasi

bətlər sistemindən yaranır. Bu qruplaşmaların rəqabəti əhəmiyyətli dərəcədə kəskinləşməsə, yeni klanların hakimiyyət üstünlükləri əldə edəcəyinə güman azdır. Lakin bu halda belə, yeni klanın mövqeləri uzun müddət qeyri-sabit qalır. Köhnə qruplaşmaların gücü onların nümayəndələrinin hakimiyyət vəzifələrini itirmələri ilə bitmir. Hakim elita mühitində möhkəmlənmək üçün yeni klan idarə aparatının orta həlqələrindən hakim elitanın nümayəndələrini ya sıxışdırıb çıxarmalı, ya da onları özlərinə tabe etməlidirlər.

Köhnə klanların müştərilər kütləsi ilə qarşılıqlı fəaliyyət məsələsinin həlli müvəqqəti olduğundan və maddi ehtiyatlar tələb etdiyindən yeni klan üçün böyük çətinliklər yaradır. Buna görə də hakim elitanın klan subyektləri dairəsində hər hansı dəyişiklik həmişə əhəmiyyətli ictimai sarsıntılarla müşayiət olunur. Dövlət qərarlarının qəbulunda iştirak edən klan qruplaşmalarının sayını ya ixtisar etmək, ya da genişləndirmək sosial ehramın və inzibati sistemin bütün pillələrində qeyri-sabitliyə yol açır.

Ayrı-ayrı S.k.-ların hakimiyyəti saxlamaq, yaxud, onun imtiyazlarını ələ keçirmək uğrunda rəqabət mübarizəsi aparmaq bacarığı bir sıra amillərdən asılıdır. Hər şeydən əvvəl, siyasi klan kimi fəaliyyət göstərməyə can atan kollektivin böyüklüyü və birlik səviyyəsi, onun rəhbərliyinin tam uyğunluğu ilə müəyyən olunur. Bundan başqa, klanın qadın hissəsinin uyğunluğu və onun ana xətti ilə əlaqələrinin çoxşaxəli olması, həmin klan üçün spesifik mərasim praktikasının xarakteri, yerli etnik və coğrafi mühit hüdudlarından kənarda lokal şaxələrin mövcudluğu böyük rol oynayır. Bununla birlikdə, klan qruplaşmalarının mübarizəsinin nəticələri təkcə onların potensialının subyektiv xarakteristikaları ilə deyil, həm də daxili siyasi prosesin obyektiv dinamikası ilə müəyyən edilir. O, müxtəlif qruplaşmaların özü üçün münasib rejimdə rəqabət mübarizəsi aparmaq imkanlarına əhəmiyyətli təsir göstərir. Məs., köhnə klanlar bütün ictimai ziddiyyətlərin hakim təbəqələr səviyyəsində həllinə üstünlük verirlər. Bundan əlavə,

onlardan ötrü özlərinin siyasi rəqiblərinə qarşı fəal hücuma keçmək yeni qruplaşmalara nisbətən daha çətindir. Lakin mövqe müharibəsi adlanan şəraitdə üstünlük daha tez-tez köhnə klanların tərəfində olur. Yeni klanlar, əksinə, toqquşmaların başlanğıc mərhələlərində tabeliklərində olan sosial təbəqələrin geniş kütlələrini qarşıdurmaya cəlb etməyə meyl göstərirlər. əhalinin demokratik təbəqələrinə müraciət yeni klanlara hakimiyyətin yuxarı pillələrində öz mövqelərinin zəifliyi yerini qismən doldurmağa imkan verir.

Toqquşmalara ayrıca region, yaxud etnos miqyasında siyasi liderliyi ələ almış klanlar daxil olduqda klanlararası mübarizənin nəticələri xüsusilə təhlükəli xarakter alır. Bu keyfiyyətində möhkəmlənmiş klan subyekti praktik olaraq iri və daim təkrar istehsal olunan insan ehtiyatları üzərində qeyriməhdud nəzarəti ələ keçirir ki, bu da istər ölkənin ucqarlarında ziddiyyətlər baş qaldırdıqda, istərsə də bunlar mərkəz və əyalət arasında qarşıdurma xarakteri aldıqda onları nizama salmağa mane olur. Bu halda həm köhnə, həm də yeni klanlar işi gərginliyi yumşaltmağa doğru aparmağa deyil, qarşıdurmanı, xüsusilə də o, sosial-iqtisadi böhran şəraitində inkişaf edirsə, qızışdırmağa meylli olurlur.

SİYASİ KONYUNKTURA (lat. conyungere-əlaqələndirmək, birləşdirmək) - konyunktura termini ümumi mənada şərtlər və bu şərtləri yaradan hərəkətlərin, şeylərin və əməliyyatların tam qarşılıqlı əlaqələrini əhatə edən vəziyyətlərin məcmusu deməkdir. Hələ XIX əsrin ortalarında F.Lassal yazmışdır ki, "bu, ictimai sahədə qarşılıqlı əlaqələri birləşdirən lentdir, bu, elə bir zəncirdir ki, mövcud olan böyük şeyləri naməlum vəziyyətdə bir-biri ilə birləşdirir". S.k. fenomeninin bütün tədqiqatçıları onun gözlənilməzliyini, bütün əlaqə və təsir dairəsinin saysız-hesabsız xüsusiyyətə malik olduğunu qeyd etmiş, eyni zamanda nəzərdə tutulmuş məqsədlərin istiqamətinin müəyyənləşdirilməsinin labüdlüyünü göstərmişlər. Bununla da "K." anlayışına təkcə mövcud şərtlərin və faktların hesabının aparılması deyil, eyni zamanda

onların dəyişilməsinə fəal təsir edən, nəzərdə tutulmuş riski meydana gətirən elementlərin də daxil olunması zəruridir. "K." termini (öz məzmununa görə "konstellyasiya" terminina çox yaxındır) ilk dəfə astrologiyada meydana gəlmişdir. XVII əsrdən başlayaraq bu terminin kommersiya fəaliyyətinin təcrübəsində ("əlverişli" və "uğursuz" K.) tətbiq olunmuşdur. XVIII əsrdə isə iqtisad nəzəriyyəsində, istehsal prosesində konkret sosial-tarixi şəraiti və bu şəraitin cəmiyyətə təsirini göstərmək üçün istifadə edilmişdir. Sonralar siyasi iqtisad, politologiya və sosiologiya problemlərini tədqiq edən alimlər (T.Veblen, V.Zombart və b.) cəmiyyətdə bir-birinə qarşı *duran siyasi və sosial qüvvələrin* mövcudluğunu bildirən mövzulardan yazanda, yaxud danışanda K. terminindən siyasi nəzəriyyələrdə istifadə etmişlər.

Lakin S.k.-nın iqtisadi K.-ya daha çox təsir edən amillərdən biri olması anlamında izahı geniş yayılmışdır. Bu halda S.k.-nın daha çox metafora kimi işlədilməsinə üstünlük verirdilər. Mühüm qərarların siyasi strategiyasının hazırlanmasında **S.k.**-nın qeydiyyatı məcburi elementlərdən biri hesab edilir. Adi siyasi lüğətlərdə "K."- möhkəm dayananın rədd edilməsi, dəyişməsi (bu dəyişmə həmişə yaxşılığa doğru olmur) anı (məqamı) kimi, "konyunkturzu" isə vəziyyətdən, əlverişli məqamdan, hər hansı bir yenilikdən bacarıqla, lakin öz xeyrinə, xudbinliklə, ani məqsədlər üçün istifadə edən, varisliyi demaqoqcasına inkar etmək məqsədilə öz arzusuna çatmağa çalışan fəal adam və siyasətçi kimi mənalandırır.

SİYASİ QAYDA - 1) hər hansı orqanın, yaxud təsisatın işində formal və ənənəvi qəbul olunmuş qaydaların və mərasimlərin ciddi müəyyən edilmiş ardıcıllıqla yerinə yetirilməsi (informasiyanın ötürülməsi istiqamətlərinin və məzmununun üstün bölgüsünün və i.a. ardıcıllığı qaydaları). Beləliklə, **S.q.** siyasi idarə əməyinin bürokratik ixtisaslaşmasının, fəaliyyətin ixtisaslaşdırılmış sahələrinin əlaqələndirilməsinin tərəflərindən biridir; 2) siyasi sistemin (yaxud onun tərkib hissəsinin) siyasi səfərbərliyə və plan-

laşdırılmış aksiyaları həyata keçirməyə qadir olduğunu səciyyələndirən vəziyyəti.

SİYASİ QƏSD - müəyyən siyasi məqsədə çatmaq üçün ayrıca bir fərdin, yaxud siyasi qüvvələrin liderləri kimi fəaliyyət göstərən şəxslərin, bəzən də sadəcə nəyinsə əleyhinə çıxan, bir neçə adamın gizli və mənfi imkanları ilə fərqlənən, yaradıcı yox, dağıdıcı istiqamətli olan xüsusi növlü qəsd. Tarixdən bizə məlum olan, qarşısına qoyduğu məqsədinə çatmış "uğurlu" məşhur **S.q.**-lərin əksər hissəsi (ən məşhurlarının icra mexanizminin gizli qalmasına baxmayaraq) fərdi xarakter daşımış və hakimiyyətdə olan konkret şəxslərə qarşı yönəlmişdir. **S.q.**-in istiqaməti fərdə qarşı deyil, hər hansı ideyaya, bütün sistemə qarşı yönəlibsə, bir qayda olaraq, müvəffəqiyyətsizliyə uğrayıb. Buna misal olaraq 1825-ci ildəki dekabristlər **S.q.**-ini göstərmək olar. Bu qəsd, əsasən, I Nikolaya qarşı deyil, mütləqiyyət və təhkimçiliyə qarşı çevrilmişdi. **S.q.** qəsdin yönəldir, iştirakçıların sayı və məqsədəçatma mexanizmi gizli saxlanılır.

Real **S.q.** hakimiyyət uğrunda və siyasətə təsir etmək mənasında ən səmərəli, ənənəvi vasitələrdən biridir. Tarixdə isə **S.q.**-dən siyasi rəqibi cismən aradan götürmək məqsədilə istifadə olunub. Məs., Brutun Sezara qarşı, gələcək imperator II Yekaterinanın öz ərinə qarşı **S.q.**ni və s. göstərmək olar. Vaxt keçdikcə siyasətin demokratikləşməsi və humanistləşdirilməsi nəticəsində **S.q.** daha sakit xarakter alır, onun son məqsədi dəyişir; rəqib cismən aradan götürülmək yolu ilə siyasət meydanından kənar olunur. Bu üsuldan əvvəllər də istifadə edilirdi. Lakin onda, əsasən, ikinci dərəcəli şəxslər də bu cür qəsdlərə məruz qalır, özü də onların siyasət meydanında təsiri zəiflədikdən sonra özünəməxsus bir şəkildə həyata keçirilirdi. (Məs., I Pyotrun ölümündən sonra şöhrət qazanmış knyaz A.Menşikova qarşı törədilən **S.q.**) Bir vaxtlar yüksək vəzifəli dövlət adamlarına qarşı yönəldilmiş bu cür variantlar ön plana çəkilirdi.

S.q.-in məqsəd və metodları yumşaldıqca onun iştirakçılarının icra vəzifələri də dəyişirdi.

ənənəvi **S.q.**-lərin iştirakçıları əvvəllər qəti şəkildə üç qrup şəxsdən ibarət olurdu; ən yüksək marağı olan **S. q**-in ideya ilhamçıları qəsd uğurla nəticələndikdə böyük mənfəət əldə edirdilər; onların əməkdaşları və körnəkçilərindən ibarət təşkilatçı "işbazlar" və nəhayət, qəsdin bilavasitə iştirakçılarıdır ki, onlar da **S.q.**-in quruluşu və məqsədi haqqında çox az məlumata malik olur, özlərinin vəzifələrini bilmirlər. Buna misal olaraq, tarixdə məşhur Fransa kardinalı da Rişelyenin İngiltərənin baş naziri Hersoq Bekingemə qarşı törətdiyi və sonuncunun ölümü ilə nəticələnən **S.q.**-i göstərmək olar. Illər ötdükcə qəddar icra fərqləri aradan götürülür; sirri gizli saxlamaq üçün iştirakçıların getdikcə artan sayını azaltmaq lazım gəlirdi. Məhz buna görə də qəsdin ilhamvericiləri təşkilatçıların vəzifələrini də öz üzərlərinə götürdülər: hətta bəzi hallarda, onlar iştirakçıları da əvəz edirdilər. Məs., 1953-cü ildə Beriyaya qarşı **S.q.**-də bir sıra sovet rəhbərləri nəinki qəsdin təşəbbüskarları idi, hətta özləri də bunda fəal iştirak edirdilər. Hakimiyyət təsisat larına ənənəvi siyasi demokratikləşmə gedən ölkələrdə isə məcburi sürətdə adamların xeyli hissəsini, o cümlədən səsvermə ilə bağlı proseduraların iştirakçılarını da qəsdə daxil edirlər. Belə ki, qəsdin əsl məqsədi barədə onlara düzgün məlumat vermək mümkün olmur. Ona görə də qəsdin ilhamvericiləri ilə təşkilatçıları arasında təbəqələşmə gedir. Digər tərəfdən də xəbərsiz icraçılarla qurban gedənlər arasında ziddiyyət artır. Bütünlüklə burada da ənənəvi vəzifə bölgüsü arasında fərqlərin aradan çıxması haqqında danışmaq olar.

Totalitar və avtoritar ictimai-siyasi sistemlərdə siyasət aləti kimi **S.q.**-in rolu daha çoxdur. Burada hakimiyyət və idarəetmə məsələləri yalnız dar çərçivədə siyasi elitanın əlində cəmləşir və ictimai sistemdən daha çox gizli şəkildə şəxsiyyətlərə qarşı yönəldilir. Belə ictimai quruluşlarda elitanın üzvləri arasındakı münasibətlər, onların təkəbbürü və hakimiyyətə sahib olmaq hərisliyi xüsusi xarakter kəsb edir. Demokratik, büquqi ictimai-siyasi həyat-

da **S.q.**-in əhəmiyyəti xeyli azalır, hakimiyyət uğrunda mübarizə geniş və açıq xarakter alır, bu əməliyyata daha çox adam cəlb etmək lazım gəlir ki, bu da əslində mümkün olmur. Hakimiyyət bir əldə mərkəzləşdikcə, onun strukturları bölüşdürüldükcə, hakimiyyət müntəzəm olaraq dəyişdikcə **S.q.** getdikcə daha səmərəsiz və təhlükəsiz olur.

Geniş xalq kütlələrinin şüurlu şəkildə siyasət aləti kimi **S.q.**-də iştirak etməsi mümkün deyil. **S.q.**-in mühüm əhəmiyyət kəsb etdiyi cəmiyyət demokratik hesab edilə bilməz. **S.q.**-i aradan qaldırmaq yalnız o vaxt mümkün olar ki, cəmiyyətdə normal ictimai-siyasi inkişaf mövcud olsun, geniş aşkarlıq bərqərar edilmiş və siyasi qərarların qəbulunda cəmiyyətin üzvləri kütləvi şəkildə iştirak edə bilsinlər.

SİYASİ QURULUŞ - Cəmiyyətin siyasi strukturunun (dar və texniki təfsirdə) və siyasi rejimin müasir elmdə təsbit edilmiş ifadəsi.

Birinci təfsirdə **S.q.** cəmiyyətin siyasi sisteminin ünsür tərkibi kimi müəyyən edilir. Bu ünsürlər arasındakı münasibətlər məsələsinin özü elə cəmiyyətin və dövlətin məzmun səciyyəsinə gətirib çıxarır. **S.q.**-un formal struktur təfsiri dövlətin, onun təsisatlı (siyasi və ictimai-siyasi təşkilatlar) və siyasət subyektlərinin qeyri-sistemli ünsürləri kimi çıxış edən yalançı təsisatlı (siyasi klanlar, qruplaçılar və kliyentlər) birləşmələrin münasibətlərinin təsvirindən ibarətdir. Siyasi sistemin tərkibində qeyri-sistemli ünsürlərin bu iki tipinin olması iki müxtəlif - formal və qeyri-formal - yarımstrukturun yaranmasına gətirib çıxarır. Təcrübədə onlar, adətən, müəyyən dərəcədə bir-biri ilə sıx qarşılaşırlar.

Bütün qeyri-sistemli ünsürlərin fəaliyyəti və mövcudluğunun mümkünlüyü dövlətin onlara münasibətindən asılıdır.

Təsisatlı subyektlərə münasib siyasət dövlət tərəfindən onların qanuniləşdirməsi yolu ilə təsbit edilir ki, bu da iki formada ola bilər; de-yüre-müvafiq hüquqi akt yolu ilə və de-fakto-hüquqi sənədləşdirmə aparılmadan. Müvafiq surətdə - birinci halda subyekt leqallaşır, ikinci halda isə yarımleqal olur. Əgər dövlət təsisatı subyektin mövcudluğunu qadağan edirsə, bu zaman o, qeyri-leqala çevrilir.

Siyasi sistemin struktur vəziyyətinin yuxarıda göstərilən xüsusiyyətlərini nəzərə alaraq onun təkamülündə dörd əsas dərəcəni ayırmaq olar ki, bunların da hər biri özlüyündə siyasi quruluşun müəyyən tipidir.

1. Rudimentar (inkişaf etməmiş) **S.q.** Formal yarımstrukturu praktik olaraq yoxdur. Siyasətin təsisatlı subyektlərinin funksiyalarını universal sosial təşkilatlar kimi tayfalar yerinə yetirirlər.

Buna bənzər **S.q.** növü dövlət kimi təşkil olunmaq işinə tayfadan keçidin başa çatmadığı yerlər üçün səciyyəvidir. Hazırda Asiyanın bəzi ölkələri və Qaralar Afrikasının bir çox ölkələri bu kateqoriyaya aiddir. Avropa sivilizasiyasının təsirinin nəticəsi kimi bu ölkələrdə rudimentar **S.q.** "şəklini dəyişmiş" variantda mövcud olur, məs., tayfanın əvəzinə tribalist siyasi partiya çıxış edir.

2. Ən sadə (primitiv) **S.q.** Qeyri-formal yarımstrukturun üstünlük təşkil etməsi şəraitində siyasi klanlarla yanaşı, müxtəlif qruplar və kliyentellər əsas rol oynayırlar. Formal struktur, bir qayda olaraq, əsasən qeyri-leqal, nadir hallarda alleqal dini ictimai-siyasi təşkilatlarla təmsil olunmuşdur.

3. İnkişaf etmiş **S.q.** leqal, yaxud yarımleqal formal strukturunun üstünlük təşkil etməsi güclənir. Dünyəvi ictimai-siyasi təşkilatlar və siyasi partiyalar əsas rol oynayırlar. Qeyri-formal yarımstruktur kəskin şəkildə zəifləyir.

4. Yüksək inkişaf etmiş **S.q.** ən müxtəlif siyasi partiyaların **(bax; SİYASİ PARTİYA)** və ictimai-siyasi təşkilatların spektri bütünlüklə leqallaşmışdır. Qeyri-formal yarımstruktur qalıq xarakteri daşıyır.

S.q.-un bütün bu tipləri eyni zamanda cəmiyyətin siyasi sisteminin mütərəqqi inkişafının ardıcıl mərhələlərini təşkil edir. Onlar əslində, cəmiyyətlə dövlət arasında "əks əlaqələrin" mövcudluğu prosesini və deməli, universal idarəetmə mərkəzi kimi dövlət fəaliyyətinin səmərəliliyinin artması nı əks etdirir. Bu isə son nəticədə, fəlakətli sarsıntılardan xilas olmağa imkan verən mühüm amillərdən

biri olub, cəmiyyətlə dövlət arasındakı münasibətləri ahəngdar hala salmağa kömək edir.

S.q.-un göstərilən tiplərinin tarixi təbiəti heç də onu bildirmir ki, onlardan hansı birisə keçmişdə qalmışdır. Müasir siyasi cəhətdən qarışıq dünyada bütün dörd tipin hamısı mövcuddur, bunlardan birinci və ikincinin şəklini dəyişməsi onların əsl təbiəti barədə yanlış fikrə aparıb çıxarmamalıdır.

SİYASİ LİDER - Dövlətin və xalqın çətinliklərlə üzləşiyi vaxtda onun problemlərini öhdəsinə götürüb həll edən rəhbərlər **s.l.** kimi tanınır.

Dünya siyasətində böyüklüyündən və kiçikliyindən asılı olaraq hər bir dövlətin öz yeri, rolu, onun **s.l.**-lərinin yeritdikləri siyasətinsə öz xarakterik xüsusiyyətləri olur. Böyük dövlətlərin **s. l.**-ləri bütün dünyanın siyasi həyatı üçün daha çox məsuliyyət daşıdıqlağından onların işi kiçik dövlətlərin **s.l.**-lərinkindən daha ağır olur, çünki onların qayğıları bütün dünyanı əhatə edir və onlar bunu öz ölkələrinin tələbatları ilə uzlaşdırmalı olurlar. Kiçik dövlətlər isə böyük dövlətlərin kölgəsində və yedəyində getdiyinə görə onların **s.l.**-ləri öz fəaliyyətlərini məhz bu dövlətlərin yeritdikləri siyasətlə uzlaşdırmağa məcburdurlar. Hətta elə kiçik dövlətlər də vardır ki, onlar "toxunulmaz ərazilər" statusuna malikdir və dünya siyasətindən bir növ kənarda qalır. Belə ölkələr siyasət də bir növ "istirahət zonalarını" xatırladırlar: onlar bir sıra qayğılardan azaddırlar və qlobal dünya siyasətində aktiv iştirak etmirlər. Bu problemi Azərbaycana aid etmək olar. Çünki Azərbaycan nisbətən kiçik ölkə olsa da, onun geosiyasi vəziyyəti, təbii resursları, regiondakı yeri və rolu, daxili və xarici durumu, Şərqlə Qərb arasında bir körpü rolunu oynaması, milli və konfessional rəngarənliyi və s. kimi amillər onun siyasi liderlərindən həddindən artıq çeviklik və optimallıq tələb edir, onlar iri ölkələrin **s. l.**-lərinin üzləşmədiyi çətinliklərlə qarşılaşmalı olurlar. Bu vəziyyət tələb edir ki, onlar siyasi reallığın nəzərə alınmasında və qərar qəbul edilməsində daha operativ olsunlar. dəyişkən dünya siyasətinin bu və ya digər tələblərinə vaxtında reaksiya verə bilsinlər, öz işləri

ni zamanın axarına uyğun istiqamətdə qursunlar. Bu da siyasət adamlarımızdan gərgin əmək, böyük zəhmət, nəzəriyyə ilə praktikanı düzgün əlaqələdirmək bacarığını tələb edir.

XX əsrin sonlarında respublikada yaranmış taixi-siyasi şərait ölkənin güclü və nüfuzlu bir şəxs tərəfindən idarə olunması zərurətini doğurdu. Xalq Heydər Əliyevi hakimiyyəti gətirdi. O isə xalqın qarantı olacağına söz verdi və sözünə əməl də etdi. Qısa bir tarixi zaman kəsiyində həm daxili, həm də xarici siyasət sahəsində ciddi dönüş yarandı. Xalqın maddi və mənəvi səviyyəsi yüksəldi. Siyasi stabillik bərqərar oldu, iqtisadi tərəqqiyə nail olundu. Xalqın yaşayış səviyyəsi əsaslı şəkildə dəyişdi. H.Əliyevin hakimiyyəti illərində Konstitusiya qəbul olundu. Burada belə bir fakt əks etdirildi ki, prezident xalqın qarantıdır.

Heydər Əliyevin uzun illər ərzində yeritdiyi daxili və xarici siyasət kursu **s.l.**-ə nümunə kimi göstərilə bilər. Onun göstərdiyi bu nümunəni siyasət adamlarının fəaliyyətilə müqayisə etdikdə onun üstünlüyü aydın görünür. Çünki iri ölkələrin **s.l.**-ləri hazır siyasət kursuna malik olurlar, onların əllərində bu sahədə illərlə toplanmış təcrübə və hazır siyasət maşını mövcuddur, ona görə də onlar yeni siyasət xəttini işləyib hazırlamalı olmurlar, sadəcə olaraq mövcud siyasətin həyata keçirilməsinə rəhbərlik edirlər. N.S.Xruşşovun təbirilə desək, hər hansı bir adam, belə dövlətləri (məsələn SSRİ-ni) idarə edə bilər. Amma Azərbaycan kimi çətin daxili və xarici siyasi iqlimə malik olan dövləti idarə etmək hər hansı bir adamın işi deyildi. Yenicə müstəqillik əldə etmiş olan Azərbaycanı onu dağıtmağa hazır olan qüvvələrin arasından sürüşdürüb çıxara bilmək bacarığı xüsusi istedad və səbr tələb edirdi. H.Əliyev bütün bunların öhdəsindən ləyaqətlə gəldi, hələ üstəlik Azərbaycanın siyasi qüdrətini artırıb onu sayılan bir respublikaya çevirdi. H.Əliyevdən sonra xalqın ümumi yekdil qərarı ilə İ.Əliyev prezident seçildi. Ümummilli lider H.Əliyevin daxili və xarici siyasət kursunu davam etdirən İlham Əliyev indi istər daxildə, istərsə də xaricdə böyük nüfuz və hörmət

sahibidir.

Hüquqi dövlət qurmaq və insan hüquqlarının müdafiə olunması istiqamətində Azərbaycan dövləti hətta beynəlxalq aləmə çıxmış, bu istiqamətdə bütün bəşəriyyətə çatdırmışdır ki, insan hüquqları qorunmadıqca, təmin olunmadıqca və hər gün dünyanın müxtəlif yerlərində minlərlə insanın hüququ pozulduqca, yer üzərində nə hüquqi dövlətdən, nə də demokratik dövlətin qorunmasından danışmaq olmaz. Buna görə də bütün bəşəriyyət insan hüquqlarının təmin olunması üçün bu gün daha sıx birləşməlidir.

90-cı illərin əvvəllərindən Azərbaycan xalqının milli siyasəti olan müstəqillik əldə etmişdir, lakin bu proses mürəkkəb ictimai-siyasi maneələrlə üzləşmişdir. İlk vaxtlarda Azərbaycanın üzləşdiyi çətinliklər arasında ən böyüyü milli dövlətçiliyin qurulması və hüquqi dövlət prinsiplərinin müəyyənləşməsi idi. Lakin 1990-1993-cü illərdə bu proses mürəkkəb xarakter almış, hətta ölkə rəhbərliyinin səriştəsizliyi ucbatından müstəqilliyin itirilməsi təhlükəsi yaranmışdır. Qeyd etməliyik ki, bu sahədə ciddi addımlar 1993-cü ildən sonra H.Əliyevin Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçildiyi vaxtdan atılmış, milli dövlətçilik məsələlərinin milli və dünyəvi dəyərlər əsasında inkişaf etdirilməsi yeganə məqsəd kimi qarşıya qoyulmuşdur.

Doğrudur, belə bir prosesi həyata keçirmək üçün uzun tarixi dövr lazım idi. Digər tərəfdən isə dünya təcrübəsində mövcud olan hüquq normaları ilə tanış olmaq, onların müsbət təsirini ölkəmizin inkişafı naminə tətbiq etmək olduqca mürəkkəb bir proses idi. Əvvəla, qeyd edək ki, gənc ölkənin qarşısında ən böyük vəzifələrdən biri – dövlət strukturlarının möhkəmləndirilməsi xüsusi əhəmiyyət kəsb edirdi. 1993-cü ildən həm bu istiqamətdə, həm də dövlət quruculuğu sahəsindəki canlanma yüksələn xətt üzrə inkişaf etmişdir. Hər şeydən əvvəl, daxildə Azərbaycanın bütövlüyünə xələl gətirməyə çalışan və mərkəzə tabe olmaqdan boyun qaçıran bir qrup separatçı qüvvələr zərərsizləşdirildi. Qarabağ problemində atəşkəsə nail olunaraq həm yeni faciələrin qarşısı alın-

dı, həm də dövlətin inkişaf etdirilməsi üçün şərait yarandı. Hüquqi-siyasi islahatlar həyata keçirilməyə başladı. Bütün bunlar s.l.-in cəmiyyətdəki rolunu və nüfuzunu əsaslandıran göstəricidir.

SİYASİ LİDERLİK - hakimiyyət vəzifələrinin yerinə yetirilməsi ilə bağlı siyasi və ictimai həyatın nadir fenomenlərindən biri.

Nəzəri əsaslarından asılı olaraq, **S.l.** konsepsiyasını üç qrupa bölmək olar;

1. Liderliyin insan fəaliyyətinin universal fenomeni olmasını və onun fəaliyyət göstərməsinin qanunauyğunluğunun cəmiyyətin bütün sahələrində (siyasətdə, idmanda, iqtisadiyyatda və s.) eyni olduğunu əsas tutanlar;

2. Liderliyi rəhbərlik və idarəetmə ilə eyniləşdirənlər; bu halda hakimiyyətə formal şəkildə malik olmaq liderliyin zəruri və qənaətbəxş şərti sayılır; liderin fəaliyyəti inzibati fəaliyyət kimi görünür, bu halın özünəməxsusluğu vəzifəli şəxsin siyasi davranışının əsasən hüquqi (partiya - etik, dini və s.) tənzimləyicilərindən ibarətdir.

Sosial institut kimi **S.l.** dövlət hakimiyyəti orqanları ilə eyniləşdirilir.

3. **S.l.**-ə ictimai həyatın psixoloji, iqtisadi və ya hüquqi prinsiplərinə müncər edilməyən özünəməxsus hadisəsi kimi yanaşanlar. Bunların fikrincə, **S.l.** konkret mexanizmin - zəruri siyasi institutlardan birinin fəaliyyət göstərməsi vasitəsilə həyata keçirilir.

Tarixən yaranan **S.l.** təkcə mənafelərin formalaşması ilə deyil, həm də siyasi fəaliyyətin potensial subyektlərindən biri kimi şəxsiyyətin meydana çıxması ilə bağlıdır. Məs., "arxaik" cəmiyyətlərdə siyasi liderliyin olmaması yalnız fərqləndirilən siyasi mənafelərin yoxluğu ilə deyil, həm də qəbilə şüurundan, kollektiv şüurdan fərdi "mən"in ayrılması ilə bağlıdır.

Qədim dövrdə **S.l.** şəxsi xarakter daşıyıb konkret fərdin nüfuzuna, onun üstün keyfiyyətlərinə əsaslanan təsirdən ibarət idi. Liderin və onun tərəfdarlarının ("idarə edilənlərin") qarşılıqlı münasibətləri "müəllim-şagird" münasibətlərinə yaxın idi, çünki siyasi həyat bilavasitə dünyabaxışı məsələləri-

nin həlli, müəyyən mənəvi dəyərlərin elan edilməsi ilə əlaqələndirilirdi.

Orta əsrlərdə Avropada S.İ. özünün mənəvi-etik məzmununu müntəzəm surətdə itirirdi. Liderin nüfuzu onun şəxsi keyfiyyətlərindən daha çox konkret siyasi birliyə rəhbərlik etmək bacarırına əsaslanırdı. Liderdən mənəvi nümunə olmaq deyil, qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün qrupu öz ətrafında birləşdirmək bacarığı, qrupun mənafeyini formalaşdırmaq səriştəsi tələb edilirdi. Siyasi liderliyin praqmatikləşdirilməsinə belə meyl intibah və ilk burjua inqilabları dövründə özünü daha aydın göstərirdi.

Müasir cəmiyyətdə S.İ. ictimai inkişafın sosial problemlərinin və vəzifələrinin həllinə dair liderin irəli sürdüyü proqram (konsepsiya) ətrafında müxtəlif sosial təbəqələrin vasitəsilə inteqrasiyasına əsaslanmaqla hakimiyyətin qurulması üsuludur.

S.İ. üç sosial səviyyədə mövcuddur və hər birində müxtəlif vəzifələri yerinə yetirir.

1. Siyasi mənafelərlə birləşən kiçik qrup (məs., ölkədə hakimiyyətin yuxarı pilləsini təşkil edən şəxslərdən ibarət qrup) səviyyəsində liderlik. Bu, qrup fəaliyyətinin inteqrasiyasının elə mexanizmidir ki, lider (onlar bir neçə nəfər də ola bilər) ona qarşı müəyyən tələblər (qərarlar qəbul etmək, məsuliyyəti üzərinə götürmək, qrup mənafeyini təmin etməyin ehtimal üsulunu tapmaq bacarığı və s.) irəli sürən qrupun fəaliyyətini istiqamətləndirir və təşkil edir. Bu səviyyəli liderlik bütün cəmiyyətlərə xasdır. Hakimiyyətin reallaşdırılması və liderin irəli sürülməsi prosesinin qanuniliyi nə qədər az olarsa, siyasətçinin şəxsi keyfiyyətləri və onun liderlik üslubu (avtoritar və ya demokratik) cəmiyyətin siyasi həyatına bir o qədər çox şəxsi təsir göstərir.

2. Birinci halda olduğu kimi məhdud qrup mənafeləri ilə deyil, eyni sosial statusa əsaslanan siyasi mənafelərin ümumiliyi ilə bağlı konkret sosial təbəqələrin (qrupların) hakimiyyət iddiaları baxımından siyasi hərəkatlar səviyyəsində liderlik. Bu halda liderin şəxsi keyfiyyətlərindən daha çox onu dəstəkləyən adamların

mənafeyini münasib şəkildə ifadə etmək bacarığının, yəni onun belə mənafeləri konkret siyasi tələblərdə ifadə etmək və əgər bu mənafelər inkişaf etdirilməmişsə, bunları formalaşdırmaq, mübarizə taktikasını və mənafelərin təmin olunmasının səmərəli üsullarını müəyyənləşdirmək bacarığının əhəmiyyəti böyükdür. Bu zaman lider ilk yalnız birləşdirici deyil, həm də praqmatik vəzifəni yerinə yetirir. Siyasətçinin fiquru isə müəyyən siyasi əhval-ruhiyyələrin rəmzi olur. Adi şüur öz ümidlərini onunla bağlayır. Liderin real simasının öz "obrazına" nə dərəcədə uyğun gəlməsindən asılı olaraq, qavrayışın özünəməxsus mexanizmləri vasitəsilə konkret siyasi tapşırığı formalaşdırmaqda onun imkanları da bir o qədər genişdir.

Dövlət quruluşunun formasından asılı olmayaraq, birinci iki səviyyə istənilən cəmiyyətdə hakimiyyəti səciyyələndirir və ictimai həyatın sahələrindən biri kimi əslində siyasətdə liderlik fenomeni təzahür edir. İkinci səviyyəli lider həm potensial diktator, həm də demokratik meylli gələcək islahatçı ola bilər.

3. S.İ.-in üçüncü səviyyəsi vətəndaş cəmiyyətinin, mövcudluğu şəraitində hakimiyyətinin bölüşdürülməsinin (qanunverici, icra və məhkəmə hakimiyyəti), habelə iqtisadi vəziyyət və müvafiq mənlik şüuru əsasında sosial təbəqələrin differensiyası mövcud prosesində hakimiyyətinin təşkili üsuludur.

Bu səviyyə həm də siyasi davranışın müəyyən tipi ilə xarakterizə edilir. Yəni ünsiyyət baxımından, siyasi liderlik həm liderin, həm də "idarə edilənlərin" mənafelərinin (hətta uydurma mənafelər də olsa) qarşılıqlı təmin olunmasını nəzərdə tutur. Vətəndaş şüurunda belə bir inam yaranır ki, liderin xüsusi şəxsləri konkret siyasi fəaliyyətə təhrik etməsi hər iki tərəfə fayda gətirir. Beləliklə, sosial tərəfdaşlıra meyl həmin cəmiyyətin siyasi dəyərlər sisteminə daxildir. Hakimiyyət orqanlarına qarşı hədsiz loyallıq və ya hakimiyyətə şəxsi sədaqət bu halda siyasi həyatın zəruri şərti deyildir.

İstənilən halda siyasi liderlik əhalinin çox hissəsini ümumən cəmiyyət miqyasında sosial

problemlərin həllinə cəlb edən siyasi təsisat rolu oynayır. Cəmiyyətin inteqrasiya mexanizmi kimi **S.İ.** təkcə siyasətçinin fəaliyyətinin hüquqi baxımdan tənzimlənməsi yolu deyil, həm də mənəvi-psixoloji tənzimləmələr vasitəsilə yaradılır. Siyasətçinin taleyi hökmən hüquqi məsuliyyət daşımağın vacib olmadığı hərəkətindən asılıdır və o, bu həmin davranışına görə karyerasını da itirə bilər. Özönəməxsus vəzifələrin yerinə yetirilməsində sosial institut kimi **S.İ.** aşağıdakı funksiyaların reallaşdırılması səviyyəsində təzahür edir:

1.İnteqrativ vəzifəsi - yəni ideal variantda əhalinin hər qrupunun iddialarının ödənilməsini (lakin başqa qrupun hüquq və mənafelərinin tapdalanması hesabına yox) nəzərdə tutan konkret siyasi proqramda əhali təbəqələrinin mənafelərinin inteqrasiyası. Praktikada bu əslində mümkün olmasa da, siyasi liderin fəaliyyətində belə istiqamətin olması liderliyin zəruri şərtidir;

2.Əlaqələndirmə vəzifəsi - yəni hakimiyyətin 3 institutunun (qanunvericilik, icra, məhkəmə) fəaliyyətinin cəmiyyətdə qəbul olunmuş tənzimləmə sistemi ilə, ictimai rəylə qarşılıqlı mönasibəti;

3. Praqmatik vəzifə - cəmiyyətin qarşısında duran və ideologiyada formalaşan məqsəd və vəzifələrin konkret fəaliyyət proqramına çevrilməsi.

S.İ.-in mövcudluğunun üçöncü səviyyəsi elə bir mexanizmi nəzərdə tutur ki, göstərilən vəzifələri onun vasitəsilə yerinə yetirmək mümkün olsun. **S.İ.** mexanizmi siyasətin fəaliyyətini tənzimləyən elə bir sistemdir ki, təkcə onun hərəkətlərinin leqallığını deyil, həm də bunların cəmiyyətdə qəbul olunmuş mənəvi dəyərlər sisteminə uyğunluğunu təmin edir.

Vəzifələrin formallaşmasından, məzmunundan və xarakterindən asılı olaraq, **S.İ.**-in mexanizmində aşağıdakı üç bloku göstərmək olar. Birincisi, müvafiq tənzimləyiciləri olan və müxtəlif hakimiyyət orqanları arasında funksiyalar bölgüsü aparan dövlət idarəetmə aparatı və nümayəndəlik sistemindən ibarətdir. Bu pillə vasitəsilə müxtəlif səviyyəli siyasətçilər vəzifə səlahiyyətləri əldə edirlər,

başqa sözlə, faktik liderin imici üçön şərait yaradılır.

Burada orijinal normativ-əməliyyat kodeksi (davranış stereotiplərini, fəaliyyət üsullarını, siyasi funksionerlərin "sex ideologiyası"nı əhatə edir) yaranır, habelə siyasətçinin mövcud institutlar çərçivəsində cəmiyyəti idarəetmə fəaliyyəti rəsmiləşir. Liderin konsepsiyasının və ya siyasi proqramının məzmunu bu pillədə nəzərə çarpan rol oynayır.

Siyasi liderliyin mexanizmini təşkil edən ikinci blok siyasətçinin fəaliyyətinin qeyri-hüquqi tənzimləyicilər sistemindən (ictimai təşkilatın, partiya nizamnaməsi, dini təlimatlar və s.) ibarətdir; bu, siyasətçilərin ilk növbədə arxalandıqları sosial təbəqənin mənafelərinin təsirilə formalaşır. Bu cür sistem lider proqramının reallaşdırılması məqsədilə lider ilə onun "önvarı" arasındakı mönasibətlər kimi təşəkkül tapır (həmin proqramın məzmunu bu münasibətlərin xarakterinə bilavasitə təsir göstərir). Bundan əlavə, bu halda həmin sosial təbəqənin baxışları və üstünlük verdiyi cəhətlər, düşöncə və davranış stereotipləri də siyasətçinin davranışına təsir edir.

Üçüncü blok iki tərkib hissə - lider (və onun "idarə etdiyi" təbəqə) ilə siyasi fəaliyyətin çoxsaylı digər potensial subyektləri arasında əlaqələrin olması ilə fərqlənir. Lider - "idarə edilənlər" mönasibəti ikinci blokda müəyyən olunursa, sosial təbəqə (lider də daxil olmaqla) - ümumən cəmiyyət mönasibətləri üçüncü blokda müəyyən edilir. Bu əlaqələrin xarakteri isə bilavasitə lider konsepsiyasının məzmunu ilə müəyyənləşdirilir, çönki həmin konsepsiya konkret təbəqənin siyasi mənafelərini əks etdirməklə yanaşı, bu mənafeləri (hətta uydurma mənafelər də) yaratmaqla da əks təsir göstərir. "idarə edilən" sosial qruplar kompromis axtarışlarına, problemin dinc yolla həllinə, yaxud da əksinə, ictimai çevrilişə, rəqiblərinin siyasi cəhətdən məhvinə meylli olurlar. Bu isə son nəticədə siyasi qərarların və konkret addımların xarakterini müəyyən edir. Vətəndaşların lider konsepsiyasına, onun "idarə etdiyi" təbəqəyə müxtəlif üsullarla mönasibəti ilə birlikdə ictimai

rəy, ictimai əxlaq, sosial təbəqəyə leqal təsir vasitələri siyasətçinin taktik addımlarına bilavasitə təsir göstərir.

S.l.-in mexanizmində siyasətçinin fəaliyyətinin hüquqi baxımdan tənzimlənməsi qərarların qəbulu, bunlardan istifadə "siyasətçi - cəmiyyət" əks əlaqəsinin həyata keçirilməsi üzərində hüquqi nəzarət vasitələri ilə bağlıdır. Liderə, onun tərəfdarlarına qeyri-hüquqi təsirin (burada mafioz-korporativ üsullarından söhbət gedir) leqal sahəsi nə qədər çox inkişaf etmişsə, **S.l.** mexanizmi bir o qədər inkişaf etmiş olur, bu mexanizm bir o qədər çox özünəməxsus sosial instituta çevrilir.

SİYASİ MAKSİMALİZM (lat. maxime - ən çox, yüksək dərəcədə) - bu və ya başqa problemi (proqram sənədlərində, strategiya və taktikada) daha dolğun ifadə olunmasına, adından çıxış etdiyi hərəkatın məqsədlərindən daha çoxuna nail olmaqla həmin problemin həllinə iddia edən mövqenin ümumi xarakteristikası. Bəzən S.m. mümkün olan siyasi vasitələrdən bütönlüklə istifadə etməklə həmin məqsədlərə ən qısa müddətdə nail olmağa çalışmaqda özönü göstərir və bu mənada çox vaxt siyasi radikalizm ilə qovuşur.

SİYASİ MƏDƏNİYYƏT - siyasət sahəsində tarixi təcrübə, sosial birliklərin və ayrı-ayrı adamların xatirəsi, onların siyasi əxlaqa təsir göstərən meyilləri, vərdişləri. Bu təcrübə istər beynəlxalq münasibətlər, istərsə də daxili siyasət sahəsində ümumiləşdirilmiş, başqa şəklə salınmış təəssürat və üstönlüklərdən ibarətdir. **S.m.** terminindən Qərb ədəbiyyatında ilk dəfə 1956-cı ildə Amerika politoloqu Q.Almond istifadə etmişdir. Onun anlamında **S.m.**-bu, siyasi fəaliyyətə istiqamətin, hər bir siyasi sistemin spesifikasını özündə əks etdirən xüsusi tipidir. Bir tərəfdən, **S.m.** mövcud cəmiyyətin ümumi mədəniyyətinin xüsusi, həm də müəyyən muxtariyyət əldə etmiş hissəsidir. Digər tərəfdən, hətta onu möncər olmasa da, konkret siyasi sistemlə əlaqədardır.

S.m. problemlərinə dair Qərbdə çıxmış daha məşhur əsərlər sırasına amerikalı politoloqlar Q.Almondun və S.Verbanın "Vətəndaşın mədəniyyəti" kitabını aid etmək olar. Kitabda 5 ölkənin nümunəsində siyasi münasibətlər və demokratiya öyrənilir. Burada **S.m.** üç səviyyəli formada verilir: 1) siyasi sistem, onun rolları, bu rolların daşıyıcıları və onun fəaliyyəti haqqında biliyi əhatə edən idraki istiqamətdə; 2) siyasi sistemə, onun funksiyalarına, iştirakçılarına və onların fəaliyyətinə münasibətdə keçirilən hissləri əks etdirən emosional istiqamətdə; 3) siyasi sistemə, onun iştirakçılarına və onların hərəkətinə şəxsi münasibəti ifadə edən qiymətləndirmə istiqamətində.

Konkret cəmiyyətin **S.m.**-nin mühüm səciyyəsi onun eyni mənşəlilik, yaxud oxşarlıq dərəcəsidir. S.m.-in müxtəlif tərkibli olması səbəbləri arasında cəmiyyətin obyektiv sosial qütbləşməsini və siyasi strukturların yekcins olmadığını göstərmək olar. Onlar qrup və şəxsiyyətlərin tələbatlarını və mənafelərini geniş ölçüdə törədir ki, bunlar da öz növbəsində onların **S.m.**-nin ünsürlərini formalaşdırır.

Milli və dövlət birliyində müxtəlif sosial qrupların **S.m.**-nin bir sıra əsas parametrlərindəki fərqlər orada özünəməxsus vasitəli mədəniyyətlərin mövcudluğu problemini qaldırmağa haqq verir.

Bəzi hallarda həmin xüsusi mədəniyyətlərin konkret milli və dövlət birliyinin ümumi **S.m.**-dən fərqi prinsipial xarakter daşımır və onlar tabeçi mədəniyyətlər vəziyyətində onun tərkibində birləşirlər. Digər hallarda, ümumi **S.m.**-dən o qədər fərqlənirlər ki, onlara müstəqil əks-mədəniyyətlər kimi baxmaq olar. Bu, o deməkdir ki, hər bir cəmiyyətdə eyni zamanda bir neçə **S.m.** mövcud ola bilər; hakim; yaxud ümumi, tabeçi mədəniyyət və əks-mədəniyyət. **S.m.**-in ayrılması sosial birliklər və ayrı-ayrı adamlar arasında sosial-sinfi, milli, dini və digər fərqlərlə əsaslandırıla bilər.

S.m. donub qalmır, əksinə, özünün daşıyıcıları - müxtəlif sosial birliklərlə birgə inkişaf edir. Nəsildən-nəslə ötürülərkən siyasi təcrübə xarici təsirlərə məruz qalır ki, onlar da təşəkkül tapmış **S.m.**-in əsaslarını ya möhkəmləndirir, ya da dəyişikliyə uğradırlar. Belə təsirlərə, birincisi, ictimai strukturun və deməli, müvafiq sosial

qrupların tələbatı və mənafelərinin yenidən qurulmasına gətirib çıxaran istehsal sahəsində münasibətlərin inkişafı; ikincisi, yeni tarixi təcrübənin (o, əvvəlki ilə uyğun gələ bilər, onu yeni təsəvvürlərlə tamamlaya, yaxud ona zidd çıxa bilər) əldə edilməsi daxildir.

Təcrübə, sonrakı nəslə saf halda deyil, dəyişilmiş şəkildə verilir. İlkin təcrübənin bu dəyişilməsi onu möhkəmləndirən ideoloji təsəvvürlərdən, norma və dəyərlər sistemindən keçməklə, həmçinin onu ötürənlərin şəxsiyyətlərinin xüsusiyyətləri hesabına baş verir. Hakimiyyətdə olan sosial qruplar hakim ideoloji sistemi müdafiə edirlər, ideologiyanın təsiri - çox vaxt sabitləşdiricilik səmərəsinə malik olan, yəni rəsmi **S.m.**-in saxlanmasına işləyən mədəniyyət ünsürlərinin möhkəmlənməsinə kömək edir.

S.m.-in sabitləşmiş ünsürlərinin mühafizə edilməsində ənənələr mühüm vasitədir.

S.m.-in regenerasiyalararası (nəsildən-nəslə) ötürülməsini siyasi əxlaqın (onun hüdudlarında **S.m.**-in varisliyini təmin edən daha sabit özəklər və sabitliyi az dəyişkən istiqamətlər mövcuddur) müvafiq normalara və nümunələrinə istiqamətlənmiş müəyyən sistemin vətəndaşlarının şüurunda möhkəmlənməsi prosesi kimi təsəvvür etmək olar. **S.m.**-in əhəmiyyətli dəyişikliklərinin zəruri şərti cəmiyyətdə qüdrətli dəyişikliklərin yığılmasıdır ki, bunların insanların şüuruna təsiri siyasi əxlaqın yeni nümunə və normalarının tətbiqinə, onların müqavimətinin qarşısını almağa qadirdir.

Cəmiyyətin mənəvi həyatının təşkilində mühüm rol oynayan **S.m.** siyasi şüurda, o cümlədən onun ideoloji formalarında öz ifadəsini tapır. Lakin **S.m.**-i təşkil edən istiqamətlərin bir çoxu insanlarda da vardır və tez-tez qeyri-iradi, düşünülməmiş formada təzahür edir. Şüurun alt qatlarında saxlanılan bu hisslər insanların davranışını və siyasi fəaliyyətinin mənasını müəyyən edir, siyasət haqqında daha dərin təsəvvürlərin formalaşmasına səbəb olur. Başqa sözlə, siyasi şüur, təxmini qaydada dərk edilməmiş münasibət göstərmək və qeyri-iradi hərəkət

aktları ilə yanaşı, yalnız **S.m.**-i reallaşdırmağın formalarından biridir.

S.m. anlayışının əhəmiyyəti bundan ibarətdir ki, o, müxtəlif sosial birliklərin və şəxsiyyətlərin, onların fəaliyyəti üçün yaxın olan şəraitdə, siyasi əxlaqın dərin səbəblərini aşkara çıxarmağa imkan verir. Bu səbəblər mədəniyyətin ikili - kollektiv və fərdi - təbiətində, ümuminin /qrup, sosial, milli və i.a./ və hətta ən ümuminin, ümumbəşərinin, xüsusi və təktək təsadüf edilənlə əlaqələndirilməsindədir: o, kollektivin məhsulu kimi formalaşır, mənimsənilir və ayrılıqda götürülən hər bir fərd tərəfindən ifadə edilir. **S.m.** insanın davranışında başlanır, burada təbii, özözünə əmələ gələn, nəzarət edilməyən mədəniyyətə çevrilir və davranışın özü də sivilizasiyalı, mədəni olur.

Davranış - mədəniyyətin mövcudluq üsuludur, onsuz mədəniyyət mümkün deyildir. Lakin davranışda təcəssümünü tapmış mədəniyyət həm də digər fərdin, yaxud digər qrupun oxşar təcəssümlərinə münasibətdir. Siyasətdə bu münasibət, eyni zamanda hakimiyyətin, hökmranlığın, münaqişənin, sazişin, birgə fəaliyyətin və i.a. münasibətidir.

İnsana, yaxud cəmiyyətə xas olan mədəniyyəti yaradan bütün bu əsasların əlaqələndirilməsi, onların davranışı, siyasətin digər subyektlərinə siyasi münasibəti bir cəmiyyətdə, bir mühitdə və daha çox fərqlənən cürbəcür insan cəmiyyətlərində, yaxud qruplarında **S.m.**-in ən müxtəlif variantlarını ortaya çıxarır. Siyasi davranışı müəyyən edən digər amillər - ölkədəki ümumi situasiya, siyasi qüvvələrin yerləşməsi, siyasi xadimin şəxsi mənafeləri və i.a.-dır. Buradan bir neçə nəticə çıxarmaq olar.

Müxtəlif sosial subyektlərin siyasi davranışının şərhində onların **S.m.**-nin spesifikasını nəzərə almaq zəruridir. Siyasətin bu və ya digər iştirakçılarının siyasi davranışı haqqında informasiya müvafiq təhlili iş zamanı onların **S.m.**-ini, onun məzmununu, strukturunu və i.a. səciyyələndirmək üçün indikator kimi istifadə edilə bilər.

SİYASİ MƏKAN - siyasətin, hakimiyyətin, siyasi təşki-

latların, ideyaların, nəzəriyyələrin, şüarların, müraciətlərin, proseslərin fəaliyyət sahəsi. **"S.m."** anlayışı ölkəmizdə elmə, həmçinin kütləvi-publisistikaya və siyasi nitqə nisbətən təzə daxil edilmişdir. Bu anlayış son onilliklərdə Qərb siyasi fəlsəfə ədəbiyyatında məkan və mühit münasibətlərinə (ekoloji istiqamətə) daha böyük maraq göstərilməsi ilə birlikdə meydana gəlmiş və sürətlə yayılmağa başlamışdır. **S.m.** anlayışı məhsuldar olmuşdur. Digər məkan kateqoriyaları da meydana gəlmişdir, çünki **S.m.** daha ümumi, oxşar sosial-iqtisadi, ideoloji, mədəni, hüquqi və s. məkanlar sisteminin yalnız bir hissəsini təşkil edir. Siyasi proseslərin məkan ölçüsü fiziki, ərazi ölçülərini nəzərdə tutur. **S.m.**-ın həndəsi miqyası ölkənin (dövlətin **S.m.**-ı); bölgənin (vilayət idarəsinin, vilayətin siyasi müəssisələrinin və i.a. **S.m.**-ı), şəhərin (yerli özünüidarə **S.m.**-ı) və i.a. coğrafi sərhədləri ilə uyğun gələ bilər. Lakin **S.m.**-ın digər, daha məzmunlu funksional ölçüsü vardır, onun sərhədləri siyasətin fəaliyyət hüdudlarını - siyasi təsiri, hakimiyyətin yayılması zonasını, liderə etimadı, təsir dairələrini, siyasi müəssisənin nüfuzunu və i.a. təsvir edir. **S.m.**-ın canlılaşdığı, təfəkkür, fəaliyyət, hadisələrlə zəngin olmadığı yerdə o zona başlayır ki, orada bu və ya digər siyasət fəaliyyətdən qalır və buradan da **S.m.**-ın əsl sərhədi keçir. Bu sərhəd rəsmi inzibati-siyasi sərhədlərə uyğun gəlməyə, çox vaxt isə onlarla heç bir əlaqəsi olmaya bilər. **S.m.** hər hansı siyasi təsir mərkəzini, yaxud hakimiyyəti formalaşdırır. əyalətə doğru getdikcə həmin təsir bu, yaxud digər məntəqədə zəifləyə, yaxud güclənə bilər. Lakin **S.m.**-ın strukturu bu uzunluq ölçülərindən mürəkkəbdir. O özünün funksional təbiətinə görə yekcins deyildir. Hər hansı ideyanın, siyasi liderin, yaxud qrupun təsiri şəxslərin, yaxud təşkilatların bəziləri (bir bölgə, bir partiya çərçivəsində və i.a.) üçün nüfuzlu, digərləri üçün isə əhəmiyyətsiz ola bilər. Bu deyilənlər siyasətin maddiləşmiş ifadəsinə - sənədlərə, qanunlara, iradlara, siyasi çıxışlara da aiddir. **S.m.** buna görə də məntəqələrinin bəzilərində daha dolğun, möhkəm intensiv, digərlərində isə zəif və sönük ola bilər. **S.m.** sanki üçüncü ölçü vahidinə - dolğunluq dərəcəsinə də malikdir və cəmiyyətin siyasi həyatının nöqteyi-nəzərinin təsvirindən daha çox qoloqrama (predmetin həcmli, əhatəli təsviri) bənzəyir. Onun hər bir kiçik hissəsində tama xas olan ideya və fəaliyyətlərin bütün əsas spektri əks olunmuşdur.

S.m.-ın tərifi, onun sərhədlərinin və mövqelərinin müəyyənləşdirilməsi ölkənin normativ deyil, real siyasi sistemi haqqında daha tam və dinamik təsəvvür yaratmağa imkan verir (bax; **CƏMİYYƏTİN SİYASİ SİSTEMİ**). Orada hər bir **S.m.** təkcə digər təbiətli funksional məkanlarla deyil, həm də digər müxtəlif **S.m.**-larla qarşılıqlı fəaliyyətdə olacaqdır. Siyasətin həyatı çoxlu **S.m.**-ın birləşməsindən, yaxud toqquşmasından əmələ gəlir. Onların tiplərə bölünməsi siyasi münasibətlərin (hakimiyyətin, ünsiyyət, münaqişələr, razılıqlar, zorakılıqlar, risk, mübarizə məkanları və i.a.), ictimai və siyasi proseslərin (çox çətin, təhlanlı məkan və s.), kütləvi, yaxud qrup ovqatlarının (mənafenlərin, ümidin, azadlığın) və s. xarakterinə və tipinə görə aparıla bilər. **S.m.** siyasi vəziyyətin heç də bitərəf tərəfi deyildir. **S.m.**-ın ardınca adətən fəal mübarizə gəlir. Müvafiq siyasi proseslərin nəticəsi siyasətin və hakimiyyətin bu və ya başqa məkanının genişlənməsindən və dolğunluğundan asılıdır. Partiyaların, liderlərin və başqa siyasi qüvvələrin rəqabəti, seçkilərdə çəkişmələr, nüfuz, siyasəti müəyyən etmək uğrunda mübarizə - bütün bunlar cəmiyyətdə **S.m.** uğrunda mübarizədir. Məkan - siyasətin özünəməxsus maddi ehtiyatıdır. Siyasi inkişafın ümumi prosesi siyasətin ehtiyatlarla dolğunlaşması ilə bağlıdır. Siyasətin demokratikləşməsi bu meylə cavab verir, **S.m.**-ın spektrini xeyli genişləndirir, məzmununu zənginləşdirir.

SİYASİ MƏNLİK ŞÜURU - siyasi münasibətlər subyektinin özü haqqında nisbi, sabit dərk olunan və onun sosial siyasi təsəvvürlər sisteminin yaradılması prosesi və bu prosesin nəticəsi. Bu zəmində subyekt həm sosial siyasi sistem

daxilində, həm də ondan kənarda siyasətin digər subyektləri və obyektləri ilə özünün qarşılıqlı münasibətlərini məqsədyönlü şəkildə qurur və özünə də həmin səpgidən yanaşır. Bu, siyasətdə özünü müstəqil xadim kimi dərk etmək, rolunun, məqsədlərinin, mənafelərinin, ideallarının və davranışının səbəblərini tam qiymətləndirmək deməkdir.

S.m.ş.-nun subyekti, həm ayrıca şəxsiyyət, həm də böyük-kiçikliyindən, sosial təbəqəsindən və sinfindən asılı olmayaraq, sosial qrup ola bilər.

Subyektin özünəməxsus xüsusiyyətlərindən asılı olmayaraq, ümumən **S.m.ş.** üç əsas cəhəti (idraki, emosional cəhətlər və məqsədli qiymətləndirmə) əhatə edir. ıdraki cəhət (insanın siyasətdə yeri haqqında dərk edilmiş obyektiv biliklərin toplusu - ən məhdud, hərfi mənada **S.m.ş.**) dedikdə ətrafdakı sosial siyasi mühitin quruluşu haqqında mövcud informasiyanı subyektin bu mühitdəki rolu, imkanları və bacarığı ilə müqayisə etməyə imkan verən müəyyən informasiya nəzərdə tutulur. Məs., siyasi sosiallaşmanın gedişində ayrılıqda götürülmüş şəxsiyyətin S.m.ş.-u formalaşır: normativ səciyyəli sosial siyasi bilikləri mənimsəməklə fərd bunları siyasi həyata özünün təsir göstərmək imkanları ilə müqayisə edir və başa düşür ki, bu imkanlar səs hüququ əldə etməklə və "siyasi vətəndaşın" bir sıra digər atributu ilə bağlıdır. Buna uyğun olaraq. **S.m.ş.**-nun idraki cəhəti fərdin inkişafının ən azı iki mərhələsinin (müvafiq statusu alana qədərki və bundan sonrakı mərhələnin) biliklərindən ibarət olur.

S.m.ş.-nun emosional cəhəti fərdin öz obyektiv siyasi statusunu bilməsinə müəyyən emosional çaları olan subyektiv münasibətdə ifadəsini tapır. Siyasi status fərdi təmin edə və ya etməyə bilər, yüksək, yaxud aşağı dərəcədə əlverişli və ya əlverişsiz sayıla bilər. **S.m.ş.**-nun emosional cəhəti siyasi özünəhörmət (məs., siyasi sistemdəki hakim qüvvələrin nümayəndələrinə xas olan), yaxud əksinə, siyasi özünüalçaltma (adətən özlərinin əsarətdə olmaları ilə barışan qrup və təbəqələrin nümayəndələrinə xas olan), siyasi xudbinlik (şəxsi hakimiyyətə can atan ayrı-ayrı siyasi xadimlər səviyyəsində xüsusilə təzahür edən) kimi hallarla bağlıdır.

Məqsədli qiymətləndirmə cəhəti emosional cəhətlə sıx bağlıdır və ilk növbədə özünün siyasi qiymətini artırmaq, siyasi hörmət qazanmaq, siyasi nüfuz əldə etmək və ya bu nüfuzu, son nəticədə isə siyasi hakimiyyəti möhkəmləndirmək cəhdində təzahür edir. Bu, özünü müxtəlif formalarda da göstərə bilər: **S.m.ş.**-nun fərdi subyektiv səviyyədə (seçkili vəzifəyə bu və ya digər namizədin kütləvi şəkildə dəstəklənməsi uğrunda mübarizə kimi); qrup səviyyəsində (öz nümayəndələrini hakimiyyətə çəkməklə bağlı lobbist meylləri kimi); sosial makrosəviyyədə (əsarətdə olan sinfin sosial-siyasi sistemdə özünün vəziyyətini əsaslı dəyişən sosial inqilaba kütləvi surətdə can atması).

S.m.ş.-nun sadalanan bu üç cəhəti müxtəlif inkişaf səviyyələrində olsa da, əslində sosial-siyasi həyatın bütün real və ya təblirat vasitəsilə yaratdığı ideal subyektlərinin bitkin siyasi obrazını yaradır.

S.m.ş. özünü sosial-siyasi qarşılıqlı təsirin həm ilkin şərtləri, həm də nəticəsi kimi göstərir.

S.m.ş.-nun formalaşmasının genetik kökləri geniş sosial-siyasi fəaliyyət və digər subyektlərlə sosial-siyasi ünsiyyətlə bağlıdır. Bu proseslərin genişlənməsi gedişində qazanılan təcrübə əsasında müqayisə prosesi fəaliyyət göstərməyə başlayır. Bitkin **S.m.ş.**-nun təşəkkülü son nəticədə geniş sosial-mədəni kontekstlə, cəmiyyətin siyasi mədəniyyətinin səviyyəsi, ümumən siyasi şüurun inkişafı ilə şərtlənir.

Siyasət subyektlərinin fəaliyyətinin müqayisəsi və qarşı qoyulması, yaxud, əksinə, eyniləşdirilməsi **S.m.ş.**-nun fərdi subyektin ("mən" - "onlar") və ya qrup halında subyektin ("biz"- "onlar") qarşı qoyulması prinsipi üzrə inkişafını göstərir. ıkinci halda inkişaf əks sxem üzrə ("mən" - "biz") gedir. əks yönümlərinə baxmayaraq, həm ayırma, həm də eyniləşdirmə **S.m.ş.** prosesinin zəruri cəhətləridir.

S.m.ş. siyasi praktikada ilk növbədə dərk olunmuş siyasi özünütəyin, yaxud buna səy göstərmək, habelə özünü müəyyən

etmiş **S.m.ş.** subyektini reallaşdırmaq üçün real sosial-siyasi müstə qilliyə və muxtariyyətə can atmaq kimi həyata keçirilir. 80-90-cı illərin ayrıcında keçmiş SSRİ-nin dövlət-siyasi quruluşunun bir sıra subyektlərinin siyasi müstəqillik haqqında bəyannamələri buna misal ola bilər. Bu fenomenin siyasi-psixoloji əsası **S.m.ş.**-nun sürətlə inkişafı və əvvəllər hökm sürən siyasi özgələşmənin aradan qaldırılması idi. Siyasi özgələşmə **S.m.ş.**-nun inkişafı yolunda həmişə ən güclü maneədir və bundan adətən totalitar sosial-siyasi sistemlərin təcrübəsində istifadə olunur. Yəni siyasətlə məşğul olmaq hüququ yalnız hakimiyyətin yüksək dairələrinə, daha konkret desək, liderə (monarxa, diktatora və s.) verilir.

Sosial-siyasi fəaliyyət subyektlərinin bütün səviyyələrində adekvat **S.m.ş.**-nun inkişaf problemi totalitar sosial-siyasi sistemdən demokratik sistemə keçid prosesində, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin təşəkkülü mərhələsində əsas problemlərdən biridir. Totalitarizm şəraitində adekvat **S.m.ş.**-nun az inkişafı siyasətin bütün potensial subyektləri üçün əslində yalnız sosial-siyasi sistemdən özünü zəruri və həmin sistem tərəfindən sərt nəzarət edilən ideolojiləşdirilmiş və bu səbəbdən də gerçəkliyə heç də həmişə uyğun gəlməyən, belə sistemdən son dərəcə asılı olan ayrı-ayrı ünsürlərin məcburi formalaşdırılması ilə əvəzlənir. Demokratik cəmiyyət isə əksinə, **S.m.ş.**-nun başqa tipinə ehtiyac duyur və onun inkişafı üçün hökmən şərait yaradır. Siyasi həyatda plüralizmin olması onu dərk etməyin cürbəcür variantlarının mövcudluğu üçün şərait yaradır. Siyasətdə müstəqil, fəal iştirak etmək imkanı əldə edən siyasət subyektlərinin hamısı həqiqi mənafelərinə və tələbatlarına uyğun olaraq öz **S.m.ş.**-nun sürətlə təşəkkülünün zəruriliyi vəziyyətinə düşürlər. Bundan sonra siyasi münasibətlər fəal qarşılıqlı təsirə, yaxud da çox inkişaf etmiş **S.m.ş.**-larının mübarizəsinə çevrilir. Bu mübarizədə öz məqsədlərini tez və dəqiq dərk edənlər, buna nail olmaq üçün siyasi vərdişlərə yiyələnənlər qalib gəlirlər. Məhz bu proseslər cəmiyyətin sürətlə siyasiləş-

məsinin əsasını təşkil edir, əvvəllər öz **S.m.ş.**-dan məhrum olan adamların (ayrı-ayrı fərdlərin və bütöv qrupların) kəskin münasibətini əks etdirir. Kəskin siyasiləşmə labüd konfliktlərlə bağlıdır. Konfliktlərin minimuma endirilməsinin şərti isə **S.m.ş.**-nun inkişaf səviyyəsidir. **S.m.ş.** siyasət subyektlərinin əksəriyyətinə subyektlərin hər birinin mənafelərinin reallaşmasının qarşılıqlı asılılığını və eyni zamanda nailiyyətlərin cəmiyyətin sabitliyinin bazis vəziyyətindən asılılığını dərk etməyə kömək edir. Bir qayda olaraq, vaxt ötdükcə **S.m.ş.**-nu əldə etməkdən doğan məmnunluq demokratik mexanizmlər əsasında mənafelərin adət olunmuş qaydada reallaşdırılması ilə əvəz olunur.

SİYASİ MƏNZƏRƏ - cəmiyyətin, ictimai qrupların, siyasi qruplaşmaların, təşkilatların və liderlərin siyasi həyatının üzdə olan, hamı üçün anlaşılan əyani tərəfi. Siyasi fəaliyyətlərin, hadisələrin, rəmzlərin, mərasimlərin (bax; Siyasi rəmz, Siyasi mərasim, Siyasi emblematika) bilavasitə baxa-baxa qavranılması siyasəti daha anlaşıqlı edir, onun təblir olunması və eyni zamanda ona ictimai nəzarətin imkanlarını genişləndirir. Müasir texniki vasitələr məkan və zaman məhdudiyyəti qoyulmadan insanı siyasi hadisələrin, siyasi rəhbərlərin çıxışlarının məruzə və nitqlərinin, siyasi idarə və təşkilatların (parlamentin, partiyaların, siyasi assosiasiyaların və i.a.) işinin, kütləvi siyasi aksiyaların (mitinqlər, yürüşlər, müzakirələr və s.) və ayrı-ayrı hadisələrin (sənədlərin imzalanması, "dəyirmi stol arxasında" görüşlərin, siyasi rəqiblərin disputlarının, deputatların müsahibələrinin, hesabatlarının və s. şahidi) edir. **S.m.** cəmiyyəti ölkənin siyasi həyatına cəlb etməklə, yəni insanın, cəmiyyətin və ayrı-ayrı qrupların bilavasitə siyasi fəaliyyətinə yol azmaqla mühüm demokratik funksiyanı yerinə yetirmiş olur. **S.m.**-nin qavranılması zamanı tamaşaçının ona biganə münasibəti heç də onun passivliyinə dəlalət etmir. O, tamaşaçını daha fəal reaksiyalara hazırlayır. S.m. iri aksiyalarda (seçkilərdə, müdafiə, yaxud etiraz kampaniyalarında və i.a.) işti-

rak üçün siyasi səfərbərliyin təsirli vasitəsidir.

S.m.-nin rəmzi formaları: gizli effektli hərəkətlər, oyunlar, teatr, mərasim və s. (bax; Siyasi oyun) onun xüsusi növünü yaradır. Bu növlü mənzərələrin real məzmununu başa düşməklə bağlı fəal qavrayışa ehtiyac vardır.

Cəmiyyətin və siyasi münasibətlərin demokratikləşdirilməsi siyasi həyatı daha açıq, daha münasib edir, "xəlvəti siyasətə, gizli və nəzarətsiz siyasi hərəkətlərə az yer saxlayır. **S.m.** demokratik prosesin mühüm aspektlərindən biridir. Yeni texnika siyasi həyatın yetkin formalarının tərəqqisini təmin edir; məhz o, S.m.-ni daha bir yeni-siyasi hadisələrin sənədləşdirilməsi funksiyası, siyasət sahəsində mədəni və tarixi yaddaş funksiyası ilə tamamlayır."

SİYASİ MƏRASİM - siyasi həyatın dolğun və emosional aspekti, onun, siyasi fəaliyyətlərin (yığıncaqların, iclasların, görüşlərin və i.a. keçirilməsi), məcburi aktların (işgüzar və təntənəli qəbulların keçirilməsi, məsul vəzifələrin tutulması, mükafatlar təqdim edilməsi, fəxri adlar verilməsi və i.a.) qaydalarını müəyyən edən reqlamentləndirici və təşkiledici əsası. Kütləvi mərasim tədbirləri - təntənələr, yürüşlər, nümayişlər, təbrik şənlikləri, təntənəli dəfnetmələrin xüsusi mərasimi - bəzi ölkələrdə (məs., Fransada) siyasi qəhrəmanların və əzabkeşlərin basdırıldığı yerlərdə tamamlanan siyasi ibadət ayinlərini - siyasi mənzərənin xüsusi növünü yaradırlar.

Siyasət prinsipcə mərasimlə bağlı olub cəmiyyətdə təsdiqini tapmış məcburi rəmzi fəaliyyətlərdən, hadisələrdən və nümayişlərin ardıcıllığından ibarətdir (parlamentin sessiyaları, hakimiyyətin dövlət, partiya və s. ali orqanları rəhbərliyinin iclasları, məsələlərin müzakirələri, diskussiyalar və bir çox başqaları). Siyasətin mərasim həyatı tarixidir və cəmiyyətin siyasi quruluşu ilə bağlıdır: monarxiya dövlətində mərasim daha çox təntənəli və təmtəraqlıdır (tacqoyma, parlament təntənələri və i.a.), respublika və demokratik rejimdə isə sadədir. Mərasimi siyasətə estetik görkəm verir, onun rövnəqləşdirilməsinə, müəyyən üslubda aparılmasına xidmət edir. Siyasətin mərasimləşdirilməsi sanki onu mədəniyyətdə və tarixdə təsbit edir.

S.m. hər hansı rəmzi fəaliyyət kimi çoxmənalıdır. *Məzmunsuz siyasət bir sıra mərasim aktlarını heçə endirə bilər, qərarlar qəbul edilər, lakin heç kəs onları yerinə yetirməz, formal hesabatlar və iclaslar, məqsədsiz iclaslar və i.a. siyasi mükəlləfiyyətlər artar.*

S.m.-in özünün funksiyası ikilidir. Mərasim-siyasətin mənzərə aspektinin tərkib hissəsidir (bax; **SİYASİ SƏHNƏ**). O, siyasi həyatı təkcə qaydaya salmır, həm də bəzəyir və ucaldır, siyasi hadisələrin layiq olduqları, lakin əldə edə bilmədikləri nüfuzu qaldırır. Mərasim siyasəti daha əhəmiyyətli və cazibədar edir, ona xüsusi mədəni sima aşılayır, ölkənin "siyasi məişətinin" işgüzar və təntənəli tərəfini formalaşdırır. Mərasim və onun rekviziti-adətlər, ənənələr, qaydalar, dəblər-təkcə onun ifaçıları üçün nəzərdə tutulmamışdır, heç də onların şöhrətpərəstliyinin və zövqlərinin təmin olunmasına xidmət etmir. Mərasim mənzərəsi siyasətin və hakimiyyətin qanuniləşdirilməsinə xidmət göstərir. Siyasi həyata hadisələrin ardıcıllığını müəyyən edən əhəngdarlıq verən mərasim hadisələrin qaydasının, labüdlüyünü simvollaşdırır, *siyasi hərəkətlərə emosional impuls bəxş edir*, onlara forma verir, adini xüsusiyə, qeyri-adiyə çevirir.

Mərasim həm də əsl siyasi hadisələrin fəsadı kimi xidmət edə bilər və edir, bu və ya digər siyasi hərəkətlərin təkcə əlalət tərəfini deyil, həm də kobudluğunu, primitivliyini, yaxud çirkinliyini gizlədir, çox vaxt isə hakim qüvvələrin şəxsi yalançı şöhrət və qrup iddialarının təmin olunmasına xidmət edir.

Müasir dünyada demokratikləşmə **S.m.**-in müsbət cəhətlərini möhkəmləndirmək, köhnəlmiş mənfi funksiyalarını isə ləğv etmək məqsədi güdür.

SİYASİ MİFOLOGİYA - mifoloji şüur, siyasi gerçəklik haqqında emosional hissi təsəvvür; siyasi gerçəklik haqqında real təsəvvürü və həqiqi biliyi sıxışdırıb aradan çıxarır. Siyasətdə liderlərin şüuru xüsusilə güclü təsir göstərir. Mif siyasətdə obyektiv olanı onun subyektiv şəkildə qavranılması

ilə, siyasətdə məzmunu, mühüm olanı zahiri və uydurma olanla əvəz edir.

Müasir siyasi mif insanın əzəli istək və arzularına cavab verir, lakin arxaiklikdən fərqli olaraq, o, aktual və konkretdir, zamanın özü üçün səciyyəvidir. Bu, böyük rəhbər, müdrik siyasətçi, gözlənilən dəyişikliklər haqqında mifdir. O, adətən vəziyyətin dəyişməsi və zaman keçdikcə çox vaxt isə hörmət bəslənilən obyektin təəssüf doğurması, yaxud onun əsl simasının bəlli olması ilə aradan qalxır. Bununla belə, mif siyasətdə geniş təblir edilir, bəzən hakimiyyəti və siyasəti qanuniləşdirməyin güclü dəlili kimi təkidlə aşılanır və istifadə olunur. Bir halda ki, mif kollektiv şüurun malı olur, o, xürafat sabitliyinə malik müəyyən dünyagörüşü, psixoloji və ideoloji göstərişlər formalaşdırır.

Mif real obyektlər arasında uydurma səbəb əlaqələri yaradır, yalançı obyektlər (qeyriadi siyasi şəxsiyyətlərin qəhrəmanlıq obrazları), şanlı keçmiş haqqında əfsanələr doğurur, gerçəkliyi uydurulanla birləşdirir. Mif real biliyi əvəz edir, ona görə də **S.m.** heç də hər hansı siyasət tərəfindən təblir edilmir. **S.m.** daxilən zəif və ya zərərli siyasətə əl atır. O, siyasi informasiyaya sərbəstlik verən demokratik və açıq cəmiyyətdə aradan qalxır. Çünki belə cəmiyyət həqiqi siyasi hadisələr, münasibətlər, görkəmli siyasi fiqurlar haqqında mühakimə yürütmək, hansısa siyasi mücüzə gözləməmək və ona ümid bəsləməmək üçün kifayət qədər yetkin olur.

SİYASİ MİLLƏT - Millətin siyasi şüura və siyasi ideologiyaya yiyələnməsi mərhələsi olub öz inkişafında müəyyən milli dövlət aparatı və digər siyasi təsisatlar yaratmışdır.

S.m.yaranıb formalaşması etnik millət körpüsündən keçdiyindən onda bu elementlər hələ uzun müddət yaşayır. Ona görə də bir sıra hallarda **s. m.**-in həyatında geriyə - etnik millətə doğru inkişaf anları da olur. Bu, əsasən böhranlı keçid, müharibə və s. dövrlərdə baş verə bilər. Lakin onlar əbədi olmur və müəyyən tarixi inkişaf mərhələsi keçəndən sonra hər şey öz qaydasına düşür. Məsələn, Azərbaycan xalqının həyatında baş verən bugünkü mühüm sosial siyasi dəyişiklər bunu sübut edir.

Azərbaycanlılar siyasi bir millət olaraq XX əsrin əvvəllərində formalaşmış, bunun üçün lazım olan sosial-siyasi, iqtisadi-mənəvi amilləri yetişdirmişdir.

Respublikanın həyatında baş verən bugünkü siyasi proseslər istər daxili, istərsə də xarici amillərin təsiri altında yaranıb inkişaf edir, onlar gələcəkdə millətin daha da yetkinləşməsi və bütövləşməsi ilə müşayət olunacaqdır.

Millətin siyasi cəhətdən yetişməsi və formalaşması onun vətənpərvərliyi səviyyəsilə ölçülür. Millətin üzvləri öz millətinin, vətəninin həqiqi fədakarı kimi böyüməlidir. Bunun üçün *habelə* tələb olunur ki, mövcud iqtidar xalqı vətənpərvər kimi tərbiyə edə bilsin və özü də bu ruhda tərbiyə olunsun. Deməli, iqtidar - xalq ittifaqı bu işin əsas rəhnidir, çünki insanlarda idarə edə bilmək mədəniyyəti kimi, tabe olmaq mədəniyyəti də yaranıb inkişaf etməlidir.

Dünya azərbaycanlılarının həmrəylik hərəkatı, hər il dekabr ayının sonunda bu günün müxtəlif səviyyələrdə qeyd olunması azərbaycanlıların yaxın gələcəkdə dünya millətləri birliyində öz yerini bütövləşmiş halda tuta biləcəyinə inam yaradır. Bu mürəkkəb və çətin prosesdə cənublu soydaşlarımızın və digər ölkələrdəki diasporanın getdikcə genişlənməkdə olan hərəkatı XXI əsri "azərbaycanlıların birliyi əsri" kimi anlamağa ümid verir.

S.m.-in yaranması və formalaşması milli dövlətin iştirakı ilə sürətlənir. Milli dövlətlər milli dilin və mədəniyyətin inkişafına şərait yaradır, millətin sosial-iqtisadi inkişafını təmin edir, onun vahidliyini, ərazi bütövlüyünü qoruyur. Milli dövlətlər milləti siyasi cəhətcə formalaşdırır, onun milli şüuruna və siyasi mədəniyyətinə təsir edir

SİYASİ MÜHACİR - siyasi səbəblər özündən öz ölkəsini tərk edib başqa dövlətdə sığınacaq hüququndan (digər əcnəbilərə verilən hüquq və azadlıqlar da daxil olmaqla) istifadə edən şəxs. İlk vaxtlar "mühacirət" sözü sırf dini mənada şərh olunurdu. Yeni dövrdə mühacirətin ilk dalğaları da dini səbəblərlə bağlı idi. O

vaxtadək əsasən xalqların və ayrı ayrı vətəndaşların zorla köçürülməsindən və ya qovulmasından danışmaq olar. **S.m.**-in müdafiəsi haqqında müddəa yalnız şəxsiyyətin hüquqi statusu ideyası rəsmiləşdikdən sonra meydana çıxmışdır. Terminin özünü isə XVI əsrin sonunda ıspaniya hüquqşünası F.de Vitoriya işlətmişdir. Sonralar, Reformasiya dövründə görkəmli humanistlər **S.m.** anlayışını işləyib hazırlamışlar. Mühacirətin ilk böyük dalğası XVI əsrin axırlarından etibarən Hollandiyaya, XVII əsrin 20-ci illərindən isə Amerikaya köçən ıngiltərə puritanları olmuşdur. Sonrakı dalğa XVII əsrin 60-cı illərindən başlayaraq Fransadan hugenotların Almaniya və ıngiltərəyə mühacirəti idi. XVIII əsrin sonunda Fransadan olan royalist (sonralar əksinqilabi) mühacirət ilk klassik siyasi mühacirət sayılır. Avropada 1848-49-cu illər inqilabları nəticəsində mühacirət (əsasən qərbə) xüsusilə güclənmişdi. Siyasi mühacir nə qədər radikal olsa, vətəndaş bir o qədər uzağa gedib çıxırdı (mühacirlərin bir çoxu Almaniyadan Fransaya, oradan da İngiltərəyə gedirdi; son nüqtə isə Amerika Birləşmiş Ştatları idi). XIX əsrin 70-ci illərində Fransadan kommunarlar, Almaniyadan sosialistlər (1878 ildə sosialistlər haqqında müstəsna qanundan sonra), Rusiyadan inqilabçılar mühacirət edirdilər. Siyasi mühacirət mədəniyyətinin çiçəklənmə dövrü olan bu illər üçün beynəlmiləlçilik səyləri, ictimai və əmi fəaliyyətin birləşdirilməsi, özünəməxsus məişət səciyyəvi idi.

XX əsrin 30-cu illərində Amerikaya və SSRı-yə antifaşist mühacirət güclü idi. "Dəmir pərdə"nin çəkilməsi və möhkəmlənməsinədək Şərqi Avropa ölkələrindən, sonra isə Cindən kütləvi siyasi mühacirət müşahidə olunurdu. əks istiqamətdə axın isə yox dərəcəsində idi. 1956-cı ildə Polşadan, Macarıstandan, 1968-ci ildə Cexoslovakiyadan mühacirət güclənmişdi.

SİYASİ MÜHAFİZƏKARLIQ (lat. conservatio - saxlamaq, mühafizə, xilas etmə) - cəmiyyətin siyasi və hüquqi dayaqlarının qorunub saxlanması və möhkəmlənməsinə xidmət edən siyasi fəaliyyət ənənəsi; **S.m.** bir qayda olaraq, cəmiyyətdəki yeniliyə qarşı özünün tənqidi-mənfi münasibətilə fərqlənir. Onun tərəfdarları yalnız *mövcud iqtisadi*, sosial və siyasi quruluşun qorunub saxlanmasına qədər olan, onun sabitliyinə və möhkəmlənməsinə xidmət edən yenilikləri qəbul edirlər.

SİYASİ MÜNASİBƏT GÖSTƏRMƏK - aradan qalxmaqda olan ictimai strukturları qoruyub saxlamaq və ya bərpa etmək naminə ictimai təraqqiyə müqavimətin üsul və vasitələrinin toplusu.

SİYASİ MÜNASİBƏTLƏR - siyasətin və hakimiyyətin qarşılıqlı fəaliyyəti; bu zaman onların birləşməsi, yaxud ayrılması, ideyaların, baxışların bildirilməsi, vasitələr mübadiləsi (nüfuzlu informasiya ilə, biliklərlə və i.a.), iradi niyyətlərin bir subyektdən (birincidən, yaxud fəaldan) digərinə (ikinciyə, yaxud passivə) ötürülməsi baş verir (bax; **ÜNSİYYƏT**).

S.m. də cəmiyyətdə sosial, iqtisadi münasibətlərin oynadığı *qədər əhəmiyyətli rol* oynayır: onlar ictimai təşkilatın, istismar münasibətlərinin, hökmranlıq və tabeçiliyin, yaxud əməkdaşlığın, qarşılıqlı fəaliyyətin və siyasi birliyin tipini xarakterizə edirlər. **S.m.** dövlətin cəmiyyətin, hakimiyyətin və xalqın (yəni funksional siyasi differensiasiya münasibətləri), siniflərin, qrupların və təbəqələrin (cəmiyyətin strukturlu sosial-siyasi differensiasiyası) münasibətləri və qrupdaxili, qruplararası və fərdlərarası ünsiyyət səviyyəsində müəyyənləşməklə bərabər, ictimai prosesin inkişafı dərəcəsi, onun demokratikləşməsi, siyasi azadlıqların, informasiya və əlaqələrin mümkünlüyü, yəni, insanın maddi imkanları və xüsusən cəmiyyətin siyasi mədəniyyətinin və onun xarakterinin səviyyəsi ilə də müəyyən edilir. **S.m.**-in intensivliyi siyasi həyatın ümumi tonusunun dəyişilməsindən asılı olaraq dəyişir və onun fəallaşması, yaxud tənəzzülü ilə əlaqədar artıb-azala bilər.

Böhranlar dövründə hakim dairələrin və cəmiyyətin münasibətindən asılı olaraq dondurula (fövqəladə vəziyyət elan edilməsi, silahlı toqquşmalar, təqiblər və i.a.), yaxud coşqun şəkildə inkişaf edə (inqilablar,

açıq demokratik islahatlar dövründə və i.a.) bilər.

S.m.-in strukturunda tərəflərin qarşılıqlı anlaşmasına və yekdilliyinə əsaslanan kompromisli (güzəştli) və konsensuslu (razılaşma) münasibətlər mövcuddur. Müqavilə bağlamaq cəmiyyətin siyasi təşkilinin prinsipi kimi **S.m.**-in universal, ümumi formalarından biridir. Müqavilə praktikası hakimiyyətin (dövlətin) və cəmiyyətin (xalqın) müqavilə münasibətləri konsepsiyasında nəzəri əsaslandırılmışdır. Vaxt baxımından T.Hobbsun qayda yaratmaq hüququnun dövlətə verilməsi haqqında xalq sazişi (pakt) ideyası ("Vətəndaş haqqında", 1642-ci il və "Leviafan", 1651-ci il əsərlərində), onun ardınca J.J.Russonun məşhur ictimai müqavilə konsepsiyası "ictimai müqavilə haqqında, yaxud siyasi hüququn prinsipləri", 1762-ci il (bu sahədə ilk mühüm nəzəri fikirlərdir. Cəmiyyətin və dövlət hakimiyyətinin **S.m.**-i bu münasibətlərin müqaviləli təbiəti haqqında müddəaalar artıq o dövrdə bir sıra ölkələrin konstitusiya sənədlərində rəsmiləşdirilmiş (onlardan daha məşhurları XVII əsrin sonunda ABŞ Konstitusiyası və Fransa inqilabının Konstitusiyasıdır) və vaxt ötdükcə dünya ölkələrinin əksəriyyətində **S.m.**-in müqavilə əsasını təşkil etmişdi. **S.m.**-in xüsusi forması - cəmiyyətin təşkilati və tənzimləyici-nəzarət sistemi kimi siyasətin digər qeyri-siyasi təşkilati-tənzimləyici sistemləri - iqtisadi, hüquqi, ideoloji, əxlaqi və s. sistemləri ilə münasibətləridir (bax; **SİYASƏT**). Onların arasında münasibətlər mövcuddur və imkan daxilində bu sistemləri əlaqələndirmək, onları təşkil etmək və istiqamətləndirmək məhz elə siyasətin vəzifəsidir. Belə sistemlərin münasibətlərinin norma forması qarşılıqlı əlaqədədir, hərçənd onlar həm müxalif, həm də münaqişəli ola bilərlər. Siyasətlə cəmiyyəti formalaşdıran digər sistemlər arasında münasibətlər iqtisadi, mədəni, elmi siyasət sahəsində meydana gələn yeni, bir-birinə yaxın, yaxud, mürəkkəb formalar və s. yaradırlar.

Siyasətlə cəmiyyətin digər sistemləri və sahələri arasında münasibətlər bir sıra ümumi qanunauyğunluqlarla müəyyən

edilir: 1.**S.m.** yol verilə bilən *hüdudlarla* məhdudlaşdırılır, bunların ardınca tərəflər arasındakı münasibətlərdə gərginlik yaranır və bir, yaxud hər iki tərəfə ziyan vuran münaqişələr baş verir (məs., iqtisadiyyatın həddən artıq siyasiləşdirilməsi siyasi diktat, idarəetmənin inzibati-amirlik metodlarının tətbiqi, dövlətin yersiz müdaxiləsi və i.a. nəticəsində iqtisadi yüksəlişin yubadılması); münasibətlər ikitərəflidir, onları müəyyən edən istiqamət bir deyildir (məs., yalnız iqtisadiyyatdan siyasətə, yaxud əksinə) və bu vəziyyət öz aralarında qarşılıqlı münasibətdə olan qoşa formaların yaranmasında öz əksini tapmışdır: siyasi iqtisad və iqtisadi siyasət, mədəni siyasət və siyasi mədəniyyət, elmi siyasət və siyasət elmi və i.a.; 2 (son nəticədə ikitərəfli münasibətlər təkcə sistemlərin özləri tərəfindən deyil, həm də münasibətlərin digər yaxın sahələri, yaxud onların məcmusu tərəfindən müəyyən edilir) məsələn, siyasətin və iqtisadiyyatın münasibətləri ideologiya, mədəniyyət, elm, hüquqi münasibətlərlə əlaqədardır) və bu əlaqələr çox vaxt müəyyənedici olur. Buna görə də konkret siyasətin təhlili və **S.m.** nəzəriyyəsinin hazırlanması zamanı onların mahiyyətini sadələşdirən az məhsuldar sxem və formullar ("bazis və üstqurum", "forma və məzmun") müəyyən mənada düzgün olsalar da, bununla belə, **S.m.**-in əsl məzmununu açа bilmir.

S.m. belə münasibətləri təkcə birləşdirmir, yaxınlaşdırmır, həm də onları fərqləndirir. Buna görə hakim qüvvələr və müxalifət, siyasi qüvvələrin, yaxud sağlara, sollara, mərkəzlərə bölünən siyasət subyektlərinin məcmusu onların tərəfləri olur, həm də belə differensiyanın əsasları ən müxtəlif şəkildə təzahür edir. Onlar parlament işində və partiyalararası və partiyadaxili münasibətlərin mübarizəsində (burada onlar xüsusilə çoxnövlüdür) meydana çıxırlar. Lakin **S.m.**-in radikal (sağlar, sollar) və mütədil mərkəz tərəfləri, həmçinin nəyin mütərəqqi, yaxud mürtəce sayılmasından asılı olaraq mütərəqqi (sollar) və mürtəce (sağlar) tərəfləri fərqləndirmək üçün sabit ənənəsi də mövcuddur.

S.m.-in hakimiyyətlə cəmiyyəti, dövləti və xalqı əlaqələndirən daha mürəkkəb növü yuxarıda şərh olunmuş prinsiplərə müvafiq olaraq təkcə siyasi deyil, həm də iqtisadi, hüquqi, ideoloji, mədəni proseslərdə uyğun təşkil edilir. **S.m.**-in əksəriyyəti kimi o, məqsədyönlü xarakterə malik olur; tərəflərin arasında baş verən ziddiyyətləri və münaqişələri aradan qaldırmaq, dövlətin və cəmiyyətin qazılığına və birliyinə nail olmaq.

Bunun həlledici şərti tərəflərin bərabərliyidir, yəni bütün göstəricilər özrə inkişaf edən, yüksələn birləşmiş cəmiyyət, ümumi məqsədlərlə ruhlanmış, onları dərk edən və həyata keçirən mütəşəkkil, işgüzar dövlət qəbul olunmuş qarşılıqlı öhdəliklərin hər iki tərəfdən yerinə yetirilməsini təmin edir, birbirinin hüquqlarını tanıyırlar. Bu şərtlərin, yaxud onlardan hətta birinin pozulması labüd olaraq birliyi dağıdar. Güclü hüquqi dövləti və ya heç olmazsa, əsasən, yaranmış vətəndaş cəmiyyəti olan demokratik rejimlər daha uzun müddətli sabit birliyə nail ola bilirlər.

SİYASİ NƏZƏRİYYƏ - siyasi fenomenlərin qiymətləndirilməsinə, izahına və proqnozlaşdırılmasına yönəldilmiş elmi fikir sahəsi. Eyni zamanda **S.n.** politologiyanın siyasi ideyalarla, dəyərlərlə və konsepsiyalarla, həmçinin siyasi davranışın izahı və proqnozlaşdırılması ilə maraqlanan bölməsidir. Özünün geniş mənasında **S.n.** iki irı qola ayrılır. Bunlardan biri öz dəyərləri, analitik, tarixi və spekulyativ problemləri olan siyasət fəlsəfəsi, yaxud normativ nəzəriyyədir. Digəri isə izaha səy göstərən, proqnozlar verən, tədqiqatı istiqamətləndirən və mütləq modellər qurmaqla və elmi yoxlanmaya məruz qalan təklifləri formulə etməklə biliyi mütəşəkkil formaya salan empirik nəzəriyyədir.

Hər bir həyati qabiliyyətə malik elmi fənn üçün onun predmetinə tənzimlik, forma və məna kəsb etdirmək tələb olunur. Bu gün bixeviorizm inqilabı məcrasında nəzərdən keçirilən elm sahəsinin aparıcı nəzəri strukturu olan siyasət fəlsəfəsinin rasional və normativ probemləri elmi metoda meyilli olan empirik nəzəriyyə faktiki olaraq sıxışdırılmışdır. Bexeviorizmin siyasi fenomenlərinin əsasında yerləşən ünsürlərin eyniliyi barədə ideyasından çıxış edilərsə, empirik nəzəriyyəçilər siyasi davranışı izah edən və proqnozlaşdıran, yoxlanıla biləcək təkliflərin axtarışına səy göstərirlər. Empirik metodlar yuxarıda qeyd edilən tədqiqatlar sahəsinə böyük sistemlik və dəqiqlik gətirsə də hazırda politoloqların əksəriyyəti etiraf edirlər ki, elmin intellektual gücünü və praktik əhəmiyyətini empirik və fəlsəfi təfəkkür sistemlərinin sintezi artıra bilər. (Bax; həmçinin **SİYASİ FƏLSƏFƏ**).

SİYASİ OYUN (yaxud siyasi oyunlar) - təmiz siyasi münasibətlər fasadı arxasında siyasi manevretmənin, intriqanın, səhnə arxası qəsdlərin, sövdələşmələrin, gizli niyyətlərin məcazi adı. **S.o.**-u siyasi prosesləri və hadisələri modelləşdirmək məqsədi daşıyan oyunlar nəzəriyyəsinin tətbiqi ilə qarışdırmaq olmaz. Bu, ilk əvvəl, qumar oyunlarında /kart oyunları/ uduzulan və uduşlu situasiyaları modelləşdirmək üçün işlənib hazırlanmış riyazi nəzəriyyə, sonralar, bura daxil edilmiş fərz olunan müxtəlif tipli, o cümlədən rəqabətə, mənafelərin toqquşmasına və qeyri-bərabər şanslara əsaslanan siyasi tipli prosesləri modelləşdirməkdən ötrü istifadə edilməyə başlandı. **S.o.** anlayışının bu nəzəriyyə və onun riyazi aparatı ilə, gizli və açıq mübarizə prosesinin özünü göstərməkdən (məcazi mənada) başqa heç bir əlaqəsi yoxdur.

Publisistikada, bədii yaradıcılıqda, bəzi fəlsəfi əsərlərdə və adi nitqdə siyasət tez-tez **S.o.** anlayışına nisbətən daha geniş mənalı oyunla eyniləşdirilir. Məlum hüdudlarda ciddi olmayan söz işlənməsində belə ifadəli səciyyə etiraz doğurmur, lakin bu hal məcazın sərhədlərini göstərən müəyyən şərhlər tələb edir. **S.o.** anlayışının metaforik məcazi mənası kifayət qədər incə, lakin siyasətlə (siyasi hərəkət və yaradıcılıqla) oyunun arasında dəqiq fərqdən ibarətdir. Bu fərqin mahiyyəti oyun anlayışının özündə dir. Ciddi deyilərsə, oyun fəaliyyətin özü deyil, onun təqlid olunmasıdır ki, onu müəyyən (oyun) formada (təqlid oyunları), həm də bəzən fəaliyyətdə, lakin oyun

formasında əks etdirir. Məs., uşaq oyunları böyüklərin məşğuliyyətini (ev işləri, uşaqlara baxmaq, nəyisə düzəltmək və i.a.), hərbi oyunlar - döyüş əməliyyatlarını, idman oyunları - real fiziki, yaxud zehni əməyi yamsılayır, ehtiraslı oyunlar insan həyatında mübarizəni, qanunauyğunluqları və təsadüfləri, uğur və taleyi və i.a. əks etdirir. Belə oyunların məqsədi - təlim, məşq, emosional gərginlik, zövq, fəaliyyətin faydalı səmərəsi ilə istirahətdir (oyunla yamsılanır), bu məqsədlər yalnız almaq istədiklərini hazırlarkən ümumi olurlar. Siyasətdə buna oxşar situasiyalar oyun təqlidləri, məşqlər, real fəaliyyətə hazırlıqlar və i.a. yoxdur. Bundan başqa, digərləri kimi oyun fəaliyyəti də oyun məkanını /oyun meydançası, idman meydanı, şahmat taxtası, manevrlər sahəsi və i.a./ və oyun vaxtını məhdudlaşdıran çox vaxt olduqca sərt qaydalara tabe edilmişdir. **S.o.** belə növlü qaydalar tanımır. Bu, qaydasız oyundur, həmin oyunda yeganə nizamlayıcı qaydalar - əxlaq normaları, formal, yaxud gizli razılıqlar, ölçü hissi və i.a.-dır.

Siyasətin və oyunun bütün prinsipial fərqlərinə baxmayaraq, onları birləşdirmək üçün hər halda əsas vardır ki, bu da bir çoxlarını məcazla aldanmağa məcbur edir. Bu, onlara xas olan münasibətlərin strukturudur: burada oyunun və siyasətin mənasının özü cəmləşmişdir; iki, yaxud bir neçə yarışan tərəfin olması; müvəffəqiyyət və uğursuzluqların, uduş və məğlubiyyətlərin birbirini əvəz etməsi; udmaq və fayda ardınca qazmaq; güclü və zəiflərin seçilməsi, çempionat (axıra qədər mübarizəyə qərar vermiş bərabər tərəflərin yarışı); mümkünlüyün və təsadüfiliyin müdaxiləsi ilə müvazinətin pozulması əmək sərfi ilə nəticələr arasında uyğunluğun pozulması; uduş naminə həvəs və ehtiras; yaxud yenə də həmin müvəffəqiyyətə, inama əsaslanan prosesin mənasızlığı (irrasionallıq); dinamiklik, improvizasiya, risk, yalan, hədə-qorxu, aldadıcı manevrlər məharəti, həqiqi niyyətləri gizlətmək və rəqibi aldatmaq imkanı; nəhayət, oyun və siyasi fəaliyyətin onu müəyyən mənada və tez-tez olduqca çətin zəhmətə çevirən çoxlu növlərinin oxşarlıq səciyyəsi.

S.o. siyasətin səciyyəsindən asılı olaraq dəyişir. Oyunun miqyasları iri planlı siyasi strategiyayadək olduqca əhəmiyyətli ola bilər. Məs., ikinci dünya müharibəsi ərəfəsində, gələcəkdə vuruşacaq tərəfləri təcrid etmək uğrunda mübarizə böyük dövlətlərin öz niyyətləri, yerinə yetirilməsi və tarixi nəticələrinə görə ən böyük manevrləri (həm də gizli), müharibəyə başlamazdan əvvəl ABŞ-ın Yaponiyaya münasibətdə siyasəti, xüsusən F.Ruzveltin, ona müttəfiq dövlətlər tərəfində müharibəyə başlamağa inanc olan təcridçilik tərəfdarlarına qarşı gizli mübarizəsi və s. **S.o.**-lar hesab edilə bilər. Lakin kiçik və tamamilə az əhəmiyyətli miqyaslarda taktiki oyunlar daha çox yayılmışdır. Siyasət nə qədər xırdalanırsa, ondakı kiçik oyunlar daha çox olur, onlar şəxsi rəqabət və nifrətlərlə, hər növ xürafatla, intriqalarla və şöhrətpərəstlik heysiyyətləri ilə daha çox əlaqədardır.

SİYASİ PARTİYA (lat. partis - hissə) - hər hansı bir sinif (siniflərə) və ya sosial təbəqənin (təbəqələrin) mənafeyini ifadə və müdafiə edən, onun ən şüurlu və mütəşəkkil hissəsi. Hər hansı **S.p.**-nın fəaliyyətinin əsas məzmununu hakimiyyət uğrunda mübarizə və öz proqram konsepsiyasını (iqtisadi, siyasi, sosial və mədəni) dövlət qanunverici, icra və məhkəmə hakimiyyəti vasitəsilə həyata keçirmək fəaliyyəti təşkil edir.

Bütövlükdə, **S.p.**-nın kütləyə təsir gücü və onların cəmiyyətdə hakim mövqeyə nail olması və ya məğlubiyyətə uğraması aşağıdakı amillərlə bağlıdır:

1. Hərəkətin məqsədlərini müəyyən edən nəzəri baxışların hazırlanması, onların həyatla uyğunlaşdırılması və ideologiyanın cəlbediciliyi və onun insanların mənafeyini necə əks etdirməsi;

2. Təşkilatın formalaşma və təşkilatı strukturların səfərbər olunması;

3. Partiya liderlərinin nüfuzu və səriştəliliyi;

4. Partiyanın tələb olunan səviyyədə kütləviliyi və onun üzvlərinin fəallığı;

5. Konkret tarixi şəraitdə

partiyanın öz fəaliyyətinin əməli təşkil etmək bacarığı.

Dünyada mövcud partiyaların təsnifatı aşağıdakı əsaslarla aparılır:

a) sinfi müəyyənlik. Sinfi cəhətlərə görə: burjua, fəhlə, kəndli və xırda burjua partiyaları mövcuddurlar;

b) sosial tərəqqiyə münasibətinə görə: radikallar (inqilabi), mühafizəkar (mürtəce) islahatçı, sentriet;

c) ölkənin idarəedilməsində istifadə etdikləri idarəetmə forma və vasitələrinə görə: liberal, demokratik, diktator;

z) hakimiyyətə münasibətinə görə: hakim, müxalifətçi.

d) liderliyini müdafiə etdiyi şəxslərin dinqi etiqadına görə: xristian, islam, buddist və s. təşkilatı quruluşuna və mövcud cəmiyyətdə tutduğu roluna görə.

Politologiyada və siyasi həyat da təkpartiyalı və çoxpartiyalı sistemlər fərqləndirilir.

SİYASİ PASSİVLİK - (indifferentlik, yaxud indifferentizm - lat. indifferens - laqeyd sözündən) - siyasətə laqeyd olmaq və siyasi həyatda iştirakdan boyun qaçırmaq. Kütləvi əhval-ruhiyyəni, yaxud cəmiyyətin ayrı-ayrı siniflərinin, təbəqələrinin və qruplarının ovqatını ifadə edə bilər. S.p. vətəndaşlıq borcunu yerinə yetirməkdən - seçkilərdə, etiraz, yaxud yardım kampaniyalarında iştirakdan boyun qaçırmaqda təzahür edir. S.p. cəmiyyətin bu və ya digər təbəqələrinin, yaxud bütövlükdə cəmiyyətin, hakimiyyətin, yaxud onun nümayəndələrinin fəaliyyətinə mənfi münasibətini bildirir və siyasi mədəniyyətin az inkişaf etməsi əlamətidir. Siyasi zülm və insanın şəxsi təhlükəsizliyi üçün real təhlükə doğuran ifrat vəziyyətlərdə də S.p. hakimiyyətin və onun liderlərinin siyasətinə qarşı etiraz forması kimi çıxış edə bilər

SİYASİ PRAQMATİZM - (yun. rragma - iş, fəaliyyət) - bilavasitə üstünlüklərə nail olmaq barədə göstəriş (istiqamət); fəaliyyətin mənəvi məzmununu və uzaq nəticələrini inkar edir.

SİYASİ PROQNOZLAŞDIRMA (lat. rrognosics - qabaqgörənlik, irəlicədən xəbər vermə) - siyasi şəraitin konkret perspektivlərinin elmi cəhətdən

araşdırılması.

SİYASİ PROSES - 1) məkan və zamanda təkamül edən ("müasir ictimai proses") cəmiyyətin siyasi sisteminin fəaliyyət forması; 2) hüquqi, iqtisadi, ideoloji və s. proseslərdən ("yenidənqurma siyasi proses kimi") fərqli olan ictimai proseslərdən biri və 3) müəyyən miqyaslı prosesin son nəticəsinin konkret bildirilməsi (hər hansı partiyanın formalaşması, seçkilərin keçirilməsi və i.a.)

S.p.-in məzmunu müxtəlif ola bilər: başlanğıc ideyasından inkişaf etmiş nəzəriyyəyədək hər hansı konsepsiyanın işlənib hazırlanması (məs., siyasi münasibətlərin demokratikləşdirilməsi); seçkilərə namizədlər haqqında ictimai rəyin formalaşdırılması, yeni idarə strukturlarının yaradılması və i.a.

S.p. özünün məzmununa müvafiq siyasi məkanda yerləşmişdir. S.p.-in strukturu prosesin subyektini (real hakimiyyəti, yaxud hakimiyyətin daşıyıcısını); prosesin məqsədi kimi yaradılmış, yaxud, əldə edilmiş obyekti; subyekti və obyekti, məqsədi əlaqələndirən vasitələri, metodları, ehtiyatları, proses icraçılarını (bax; **SİYASƏTİN VASİTƏLƏRİ, HAKİMİYYƏT**) öz tərkibinə daxil edir. S.p.-in ehtiyatları onun ideal və maddi əsasları ola bilər; elm, bilik, texniki və maliyyə vasitələri, kütlələrin, proses iştirakçılarının əhvalı, onların ideologiyası, ictimai mühitin vəziyyəti və b. amillər.

S.p.-in təşkili prosesin məqsədindən, ideyasından, onun nəzəriyyəsinin, yaxud, sonralar proses subyektinin (hakimiyyətin, liderin və i.a.) nəzəriyyə halına salacağı konsepsiyanın işlənib hazırlanmasından başlanır. Onun işlənib hazırlanması məqsəd qoyuluşunu, məqsədin seçilməsini, ideallaşdırılmasını, onun prosesin ideyasına, yaxud konsepsiyasına cavab verən daha tam, aydın formalaşdırılmasını öz tərkibinə daxil edir. Məqsədin seçilməsi təbii olaraq optimallaşdırılır: ideal məqsəd siyasətin meyarı olaraq qalır, konkret olaraq isə real əldə olunan məqsəd güdülür. Məqsəd və niyyətə müvafiq S.p.-in vəzifələri, prosesə başçılıq edəcək subyekt və icraçılar nəzərdə

tutulur; **S.p.**-in vasitələri, ehtiyatları, metodları seçilir və onun məkan və zaman xarakteristikaları (sürəti, icra müddətləri, prosesin miqyası - fəaliyyətin ərazisi, yaxud, sahəsi, iştirakçıların sayı, onların tərkibi və s.müəyyən olunur). Prosesin ünsürlərinin qarşılıqlı müvafiqliyi müəyyən edilir; subyektin (hakimiyyətin) - məqsədləri və vəzifələri; məqsədlərə müvafiq vasitələr və metodlar (bax; **BÜROKRATİYA**); icraçılar onların qarşısında qoyulan vəzifələrə cavab verməli və müvafiq vasitələri mənimsəməlidirlər və i.a. **S.p.** ünsürlərinin və onların arasındakı münasibətlərin razılaşdırılmaması prosesi alt-üst edir, yaxud, gözlənilməz nəticələrə gətirib çıxarır. Beləliklə, **S.p.**-in düşünülmüş ideyası prosesin yekununu da əlaqələndirən səbəb-nəticə münasibətləri aydın təsəvvür edilməklə onun konsepsiyasında yeni formada ifadə oluna bilər ki, bu da onun nəzəriyyəsini yaratmağa imkan verər. Sonrakı addım prosesin layihəsi və konkret planından ibarət olur. İlkin mərhələnin tamlığı və bitkinliyi bir çox halda prosesin özünün müvəffəqiyyətini əvvəlcədən müəyyən edir. Konsepsiyanın olmaması çoxlu **S.p.**-i uğursuzluğa gətirib çıxarmışdır. Məs., Şərqi Avropada dəyişikliklərlə, onların ləngidici nəticələri: meyllərin, partiyaların mübarizəsilə, iqtisadi problemlərlə bağlı olduqca böyük səhvlər məlumdur.

S.p.-in nəticəsi müstəqil (ona münasibətdə obyektiv), dəyişkən (ehtiyatların mövcud olmasından; əlverişli, yaxud, əlverişsiz şərtlərin mövcudluğundan, başqa sözlə, xarici mühitdən; gözlənilməz, təsadüfi amillərin müdaxiləsindən və i.a.) və **S.p.**-in özündə olan asılı - seçilmiş vasitələrdən, metodlardan, icraçılardan və i.a. amillərdən, onların arasındakı münasibətlərin məcmusundan asılıdır. Müstəqil dəyişkən, həmçinin də, asılı dəyişmələrin böyük hissəsi **S.p.** layihəsində nəzərə alınmalıdır, lakin məhz ikinci qrup amillər prosesi pozmağa daha çox qadirdir. Məhz bu qrupda gözlənilməz pozulmaların ("hiddətlənmələr"in) ehtimalı daha çoxdur; bunlar proses ünsürləri arasındakı münasibətləri dəyişdirir, siyasi məkanda onun trayektoriyasını

dolaşıra salır, məqsədin icraçılarının və tərəfdarlarının sayına və fəallığına ictimai mühitlə birbaşa və əks əlaqələrə təsir göstərir, prosesin başa çatması müddətini və onun nəticəsini dəyişir (bax; **SİYASİ UTOPİYA**).

Uzun, yaxud, qısa dövrün makromiqyaslı **S.p.**-i çoxlu qarşılıqlı əlaqəli və bir-birinə nüfuz edən konkret proseslərdən yaranır. Onların məcmusu cəmiyyətin siyasi həyatının dinamik və məsuliyyətli, hissəsini təşkil edir. Siyasətin tarixi və inkişafı **S.p.**-in rasionallaşdırılmasında, məcburilikdən təmizlənməsində, onun vasitə və metodlarının təkmilləşdirilməsində ifadəsini tapır ki, bu da onların demokratikləşməsindən, fəal siyasi iştirakdan, proses iştirakçılarının peşəkarlığından və rəhbərlərinin yüksək səriştəliliyindən ibarətdir. Müasir cəmiyyətin iqtisadi, sosial, mədəni həyatının yüksək dinamikası, **S.p.**-dən getdikcə daha çox mütəşəkkilliyi, düzlüyü, məsuliyyətliliyi bitkinliyi, onun bütün fazalarının - düşünülmüş konsepsiyasının, diqqətlə seçilib razılaşdırılmış ünsürlərin və dəqiq icranın olmasını tələb edir.

SİYASİ PSİXOLOGİYA - bir tərəfdən, siyasət haqqında elmin, digər tərəfdən isə psixologiyanın (əsasən sosial psixologiyanın) qovuşmasından yaranmış elmi fənn. **S.p.** başlıca olaraq Qərb ölkələrində meydana gəlmiş və inkişaf etmişdir. Formal da olsa onun rəsmiləşdirilməsi 1968-ci ilə aid edilir; həmin ildə Amerika Siyasi Elmlər Assosiasiyasında **S.p.** şö'bəsi yaradılmış və ABŞ-ın Yel universtitetində psixologiya sahəsində dərin bilikli politoloqların hazırlamaq proqramı tətbiq edilmişdir. əslində isə müstəqil tədqiqatlar istiqaməti kimi **S.p.** daha əvvəllər yaranmışdır: hələ XX əsrin əvvəlində siyasət və siyasi proseslərin tədqiqatları çərçivəsində, mahiyyətcə psixoloji yanaşmalar əhəmiyyətli yer tuturdu. Bu tədqiqatlar siyasi əxlaqın təhlili ilə bağlı idi (bax; **SİYASƏTƏ DAVRANIŞ YANAŞMASI**).

Qərb müəlliflərinin fikrincə **S.p.**-nın predmetini insanın siyasi davranışının psixoloji komponentləri təşkil edir; onları öyrənməklə siyasətin iza-

hına psixoloji biliklərin də tətbiqi mümkündür. Halbuki həmin istiqamətin tarixi göstərir ki, siyasətləşmiş insanın psixoloji xüsusiyyətləri ilə siyasətin izahı kifayət deyildir. Zaman keçdikcə, sosial, həmçinin etnik qrupların siyasi davranışının psixoloji komponentləri də S.p.-nın predmetinə daxil edildi. Bütün bunlara baxmayaraq, siyasətin psixoloji üsul və vasitələrlə izahı sahəsində hər hansı əhəmiyyətli nailiyyət barədə danışmaq hələ ki, tezdir.

SİYASİ REALİZM - müharibədən sonrakı dövrdə ABŞ-da meydana gəlmiş və soyuq müharibə şəraitində iki qütbə, yəni iki ictimai sistemə ayrılmış dünyada qüvvələr nisbətini əks etdirən beynəlxalq münasibətlər nəzəriyyəsinin istiqamətlərindən biri.

İdeyalarının başlanğıcını pozitivizmdən götürmüş "siyasi realistlər" beynəlxalq sahədə dövlətlərin mənafelərinin toqquşmasının labüdlüyünü qeyd edərək göstərirdilər ki, dövlətlərarası münasibətlərdə məcburiyyət əsas rol oynayır, bu isə dövlətlərdə öz təhlükəsizlikləri üçün qorxu və inamsızlıq yaradır.

S.r. beynəlxalq münasibətlərə ayrı-ayrı dövlətlərin siyasətləri məcmusu halında, bir növ Hobbs "aqreqatında" olduğu kimi aktor dövlətlərin hakimiyyət, güclülük və üstünlük uğrunda apardıqları mübarizəyə (hobbsda "hamının hamıya qarşı müharibəsi") universal zaman və məkanından baxmağı nəzərdə tuturlar. Bir halda ki, hakimiyyət uğrunda mübarizə cəmiyyətin və dövlətin dağılması üçün potensial təhlükə təşkil edir, o, dövlətdaxili səviyyədə müəyyən qaydalarla limitləşdirilir, onu nə isə bir çərçivəyə salmağa, o cümlədən, bir növ müxtəlif demokratik müddəalarla ifadə olunan oyun qaydalarına tabe etməyə cəhd göstərirlər. Mərkəzi hökumətə qanunlara və parlamentlərə, cəza orqanlarına, ordulara, partiyalara, ənənələrdən insan hüquqlarının təminatçılarından (bu,liberal-demokratik ənənələrə uyğun olardı) daha çox hakimiyyətlərini və tə'sirlərini gücləndirməyə can atan ayrı-ayrı fərdlərin, qrupların, partiyaların və i.a. təcavüzkar niyyətlərini dayandıran vasitələri kimi baxılır.

Beynəlxalq sahədə belə universal çəkindirici vasitələr yoxdur, yaxud da, hələ başlanğıc mərhələsindədir. Buna görə də dövlətlərin və milli qürumların toqquşması, onların yaşamaq, təsir, hakimiyyət uğrunda mübarizəsi çılpaq, demək olar ki, əzəli, təbii görkəmində baş verir. Beləliklə, beynəlxalq sahədə güclülük uğrunda mübarizə hakimiyyət və təsir uğrunda mübarizənin xüsusi halı kimi çıxış edir. "Siyasi realistlər"in şərhində gücün mahiyyəti, başqa sözlə, yaşamağa qadir olanadək digər dövlətlərin milli mənafeyini qəbul etməmək bacarığından ibarətdir. Zorakılıq, yaxud, zorakılıqla hədələmə bu halda milli siyasətin əsas alətinə, onlarla manipulyasiya etmək bacarığı isə "güc beyni" kimi diploma iyanın əsas funksiyasına çevrilir. Lakin bu zaman milli mənafe beynəlxalq gerçəkliyin hər hansı forma, qayda və prinsiplərindən yüksəkdə durur, güc isə xarici siyasət fəaliyyətinin əsas müvəffəqiyyət göstəricisi və əldə edilmə vasitəsinə çevrilir. Bu zaman milli mənafe əslində ölkənin özü tərəfindən müəyyən edilir və qarşı tərəfin əks qüvvəsindən başqa hər hansı digər məhdudiyyəti nəzərdə tutmur.

"Güc" kateqoriyasının əsas nəzəri müddəalarının işlənməsi 50-60-cı illərə təsadüf etməsinə baxmayaraq, ona olan maraq bu gün də qalmaqdadır. Birincisi, gücü hərbi qüvvəyə bərabər tutmaq, məhz hərbi qüvvəyə ilk növbədə diqqət yetirmək, həmçinin, xarici siyasətin təsir aləti kimi hərbi qüvvənin əhəmiyyətini həddən artıq şişirtmək meyli saxlanmaqdadır. İkincisi, gücü mühitdən, iqtisadiyyatdan kənar universal anlayış kimi təqdim etmək, dövlətlər arasındakı siyasi münasibətləri beynəlxalq aləmdə güclülük uğrunda mübarizəyə çevirmək cəhdləri davam edir. Üçüncüsü, tədqiqatçıların diqqəti təkcə ənənəvi olaraq gücün və onu təşkil edən ünsürlərin izahı üzərində deyil, həm də onun, istər konfliktlərdə, istərsə də diplomatik münasibətlərdə, əməkdaşlıq, qarşılıqlı asılılığın, pozitiv adlanan sanksiyaların (mükafatlandırma, yaxud, mükafat vəd olunması) təzahür formalarında cəmləşir. Gücə tərif verilməsində çətinliklərlə

üzləşən bəzi politoloqlar ümumiyyətlə, bu termindən imtina olunmasını təklif edirlər: digərləri, gücün ümumi əlamətlərini tapmağa cəhd göstərmədən ona yalnız konkret siyasi situasiyalar zamanı nəzər yetirilməsini təkid edirlər: üçüncülər, əvvəlki kimi, dövlətin milli gücünün universal qiymət düsturunu tapmaq üçün gücü ünsürlərə ayırmağa və onların iyerarxiyasını müəyyən etməyə cəhd göstərirlər. Ünsürlərə bölünmüş güc beynəlxalq münasibətlərdə iqtisadiyyatda pul kimi, sanki ümumi ekvivalent səviyyəsinə qaldırılır. Belə yanaşmanın çoxlu nəzərə çarpan metodoloji nöqsanları vardır: gücün süni surətdə əlaqə və münasibətlər sistemindən çıxarılması bir yana qalsın, tez-tez iqtisadi, siyasi, əxlaqi, ideoloji, hərbi və mədəni sahələrdə elə amillər fəaliyyət göstərir ki, onların müqayisəsi çətin, yaxud, ümumiyyətlə, mümkün deyildir. Buna görə də, gücün dəqiq böyüklüyünü ölçmək imkanı verən güc düsturu çıxartmaq yolunda bütün cəhdlər bu günə kimi nəticəsiz qalmışdır.

SİYASİ REJİM - dövlətin müəyyən tipi üçün xarakterik siyasi münasibətlərin, hakimiyyət orqanlarının tətbiq etdikləri vasitə və metodların, dövlət hakimiyyətinin və cəmiyyətin formalaşmış münasibətlərinin, ideologiyasının hakim formalarının, sosial və sinfi qarşılıqlı münasibətlərin, siyasi mədəniyyətin vəziyyətinin məcmusu. Beləliklə, demokratik (bax; **DEMOKRATİYA**), avtoritar (bax; **AVTORİTARİZM**), totalitar (bax; **TOTALİTARİZM**) və digər rejimlər fərqləndirilir. Daha xüsusi mə'nada dövlət idarəçiliyi rejimləri - liberal, diktatorluq (bax; **DİKTATURA**), sərt, qəddar, xüsusilə qəddar (faşist, ekstremist təmayüllü, məs., Kamboçada Pol-Pot rejimi) və s. göstərilir. idarəçilik formaları nüqteyi-nəzərindən parlament tipli, prezidentlik idarəçiliyi, monarxiya, respublika rejimləri, fövqəladə idarəçilik rejimi və i.a. bir-birindən fərqlənirlər. **S.r.** -in qiymətləndirilməsi adətən rəmzi məna daşıyır və buna görə konkret təhlil vermədən ölkənin, dövlətin, idarəçilik tipinin surətini yaratmağa imkan verir (mütləqiyyət, çar rejimi, "əvvəlki" rejim və i.a), bu, tez-tez, sadəcə, dövlət başçısının adı ilə şəxsləşdirilmiş formada - Səddam Hüseyn rejimi, Hitler rejimi və i.a. kimi də ifadə edilir. Buna görə də **S.r.** dövlətin və cəmiyyətin tipoloji, üslublu və obrazlı səciyyəsidir.

SİYASİ RƏHBƏRLİK - 1) strategiya və taktikanı işləyib hazırlamaq və cari siyasi fəaliyyəti bilavasitə, yaxud siyasi rəhbərliyin bir-birinə tabe olan pillələri və ya aparat vasitəsilə həyata keçirilməsinə dair fəaliyyət, cari siyasi proseslərin bir mərkəzdən idarə olunması.

SİYASİ RƏMZLƏR (simvolika) - siyasi həyata, siyasi fəaliyyətə, siyasətin (bax; **SİYASƏT**) maddiləşməsinin müxtəlif formalarına açıq, xüsusilə nəzərə çarpan və qeydə alınmış, yaxud əksinə, gizli məna verən təsirli vasitələrin məcmusu. **S.r.** siyasi aktın (məs., rəmzi hərəkət - natiqin irəli uzadılmış əli, iclasqabağı himn ifa olunması - birlik rəmzi və i.a.) əsas siyasi əhəmiyyətini tamamlayır, təsdiqləyir, daha təsirli edir. **S.r.** müxtəlif siyasi əhəmiyyəti olan və siyasi prosesə onlara xas vasitələrlə xidmət edən müxtəlif növlü nişanlar sistemindən yaranır. Belə rəmzi nişanların xüsusiyyəti - onların lakonikliyi, birmənalılığı, əlavə izahlar tələb edilmədən anlaşılması (həmin sistemə həsr olunmuş bütün rəmzlər üçün), kütləvi qavrama üçün nəzərdə tutulmasıdır.

Siyasi prosesə cəlb edilmiş bir neçə əsas rəmzi nişanlar sistemi mövcuddur. Dil rəmzləri siyasi nitqin müəyyən rəmzi məna daşıyan bir sıra sözlərindən yaranır: dövlət ölkəni, hakimiyyəti və xalqı təmsil edir (simvollaşdırır). Sistem (belə sistem, bizim sistem və i.a.) müəyyən etik, ideoloji və i. a. rəylə siyasi, yaxud ictimai münasibətlər tipini bildirir; dövlət, partiya, siyasi hərəkat başçısının (kral, prezident, rəhbər, fürer və s.) adı çox vaxt siyasi sistemi, hakimiyyət tipini, rejimin xarakterini və i.a. rəmzləşdirir (simvollaşdırır); hakimiyyət sənədlərinin adları - əmr, dekret, fərman siyasi iradənin rəmzləri, hökmranlığın və

itaətkarlığın nişanları kimi tanınır; şüarlar, siyasi nitqin spesifik formulları (bax; **SİYASİ NİTQ**) iradə və diqqəti səfərbər edən (məşhur söz ovsunu), silahdaşları birləşdirən (gələcək bizimdir, güc birlikdədir və i.a.) rəmzi məna daşıyır.

Təsviri rəmzlər təvsiri sənətin vasitələri ilə təmsil edilmişdir - bunlar siyasi məzmunlu plakat, şəkil, konflikti, mənfi siyasi mövqe və i.a. bildirən karikaturadır. incəsənətin rəmzi dilinin xüsusi növünü siyasi portret, rəhbərin (monarxın və i.a.) təsviri surəti təşkil edir. Dövrün zövqündən və siyasi mədəniyyət tipindən asılı olaraq siyasi portret obrazın ətindən və canından deyil, yəni cismindən deyil, ideyadan, siyasi mifdən, xalqın təxəyyülündən gəldiyi zamanda dünyəvi ikonaya çevrilənədək qəhrəman, yaxud əzabkeş cəhətlərini kəsb edə bilər. incəsənətin digər növlərinin: xüsusilə mərasimlə (bax; **MƏRASİM**) bağlı olan ədəbiyyatın, teatrın, kinematoqrafın, musiqinin, məs., tarixi, yaxud siyasi süjetli sənədli filın, kinofilm, bayram konserti, himn, matəm marşı və i.a. kimi əsərləri də rəmzi məzmun daşıya bilər.

Təsviri sənətin və hakimiyyətin, siyasi iyerarxiya dərəcələrinin, dövlətin şərəf və ləyaqətinin (bax; **SİYASİ EMBLEMATİKA**), dövlət mənsubiyyətini və i.a. (bayram, gerb, kiçik nişan və s.) fərqləndirən nişanlarının maddi sistemi, əlaqələndirilməsi rəmzi məna kəsb edir. Fərqlənmənin zahiri nişanları (kostyum, mundir, mərasim nümayişləri-rəsmi keçid, təntənəli görüşlər və c.) müasir siyasi həyatda əvvəlki əhəmiyyətini itirir, lakin yox olmur. Siyasi həyatın xüsusi yerinin (iqamətgah, saray, kabinet, siyasi nümayişin (müşayiət dəstəsi, təntənəli qəbullar, mükafatlar, ordenlər və i.a.) rəmzi mənası saxlanılır.

Əyanların dəbdəbəli mundirləri, dövlət qulluqzularının forma geyimlərini məcburi gəzdirməsi-feodal siyasi sisteminin, silki cəmiyyətin hakimiyyət atributlarıdır. Müasir dünyada ayrı-ayrı qalıqlar (hökmdar əsası, tac, monarxın mərasim libası) çıxılmaqla onlar sıradan çıxmışdır. S.r.-in tarixi təkamülü onları tədricən daha az arxaik edir.

Daha geniş təfsirdə siyasi

rəmzi mənalar özlərinin əsasında qeyri-siyasi, lakin incəsənətin siyasətləşdirilmiş teatr, kinematoqraf, ədəbi əsərlərinə malik ola bilər. Siyasi təsirin funksiyaları, hakimiyyət nüfuzunun, siyasi hakimiyyət rəmzlərinin təsdiq olunması siyasi liderlərin və hadisələrin heykəltaraşlıq abidələrində, xatirə tikililərində əbədiləşdirilməsi, həmçinin şəhərlərin, küçələrin, meydanların və s. coğrafi obyektlərin hakimiyyət, siyasi ideya daşıyıcılarının, siyasi hadisələrin qəhrəmanlarının adları ilə adlandırılması məqsədlərini yerinə yetirir.

S.r.-in mahiyyəti onun səmərəliliyində, siyasətin nüqtə və vurğusu ilə əhəngdarlığındadır. Onların qarşılıqlı uyğunluğunun şərti təkcə cəmiyyətin qanuniləşdirdiyi və buna görə də onun müvafiq rəmzi ifadəsini qəbul etməyə hazır olan siyasətin məzmunundan asılı deyildir. Digər şərt real siyasətlə onun rəmzi nişan formaları arasında nisbətdə ölçünün gözlənilməsidir - rəmzlərdən sui-istifadə onları asanlıqla məhv edər və siyasəti nüfuzdan salar. Nitq rəmzlərinə, fərqlənmə nişanlarına, coğrafi məntəqələrin adlandırılmalarına (adlarının dəyişdirilməsinə) həddən artıq aludəçilik, əzəmətli heykəltaraşlıq formaları rəmzlərinə vurğunluq gözlənilənlərə tamam zidd nəticələrə gətirib çıxarır.

SİYASİ RİSK - hər hansı səviyyədə olan siyasi qərarın labüd ünsürü; bu və ya digər hərəkət xəttinin, bu və ya başqa fəaliyyətin seçilməsi. Riskli qərar qeyri-müəyyən şəraitdə qəbul edilir, obyektiv vəziyyətlərin və bunların yaranmasına dair subyektiv fəaliyyətin qarşılıqlı əlaqəsinin xüsusi tipi kimi səciyyələnir. Belə qərarın həyata keçirilməsində uğur qazanmaq təkcə şəraiti duymaq deyil, həm də gərgin fəaliyyət nəticəsində hadisələrin gedişini seçilmiş qərarın xeyrinə yönəltmək bacarığından və əzmindən asılı olur. XIX əsrdə "risk" kateqoriyası təsərrüfat hüququnda dərindən təhlil olunmuşdu. XX əsrin 20-ci illərindən etibarən onu siyasi qərarların qəbulu ilə əlaqələndirməyə başladılar. əsrin son rübündən başlayaraq "riskologiya" adlandırıla biləcək yeni tədqiqat sahəsinin cizgiləri yaranır.

80-ci illərin axırlarından etibarən İsveç Elmlər Akademiyasının himayəsi altında "Risk və cəmiyyət" adlı monoqrafiyalar silsiləsi buraxılır. Bunlarda texnoloji, iqtisadi və siyasi qərarlar qəbul edərkən risk anları, başlıcası isə bu qərarlar arasındakı qarşılıqlı əlaqə tədqiq olunur.

Riskli qərar subyekt tərəfindən qəbul edildiyinə görə onun məzmunu və həyata keçirilməsi həmin subyektin sosial-psixoloji xarakteristikalarından xeyli asılı olur. Bu parametr qərarların qəbul olunması nəzəriyyəsinə daxil olan anlayışlarda (riskli vəziyyətlərin qavranılması və təhlili, riskin səviyyəsi, riskin profili, risk portfeli və s.) əksini tapır.

Siyasət bir-biri ilə qarşılıqlı surətdə kəsişən və bir-birinə zidd qərarlar silsiləsindən ibarət olduğuna görə, şübhəsiz ki, çox və ya az dərəcədə risklə bağlıdır. Qərarları isə həmişə siyasətin subyekti, əsasən, siyasi lider qəbul edir. Bir halda ki, subyekt dünyanı və özünün ondakı yerini bildiyi kimi qiymətləndirir, deməli, həm variantların götür-qoy edilməsi, həm də duyum vasitəsilə müəyyənləşdirilən qərarların qəbulu prosesində mənəvi dəyərlər, dünyagörüşü, sosial ideal görmə imkanı mühüm rol oynayır.

Siyasətdə riskli qərar qəbul etməyin yeni parametrləri belə bir faktla müəyyənləşdirilir ki, bu qərar müxtəlif səciyyəli qlobal proseslərə toxunmaya bilməz. Məs., İraqın Küveytə qarşı hücumu əvvəllər ziddiyyətli münasibətlərdə olan ölkələri birləşdirdi. Eyni zamanda həmin bölgədəki məhəlli müharibə ekoloji fəlakətlərlə bağlı qlobal səpkili təhlükə doğurdu.

Sosial-iqtisadi amillər siyasi qərarları mürəkkəbləşdirir. Məs., istər bir regionun başqası tərəfindən, istərsə də ayrı-ayrı ölkələrin daxilində bir sosial təbəqənin digəri tərəfindən ifrat istismarı əsassız riskdir və ona görə də məqbul sayıla bilməz. İqtisadi səciyyəli nizamsızlıq, millətçiliyə, separatçılıra və digər bu kimi iddialara həddən artıq uymaq da siyasi təhlükə doğurur. Bu halda risk açıq-aşkar nəzərə alınmır. Harrinqtonun fikrincə, hətta Qərbin sabit ölkələrində də qərarların qəbulunda əsas çətinliklərdən

biri budur ki, həmin qərarları cəmiyyətin yuxarı dairələri qəbul edir, riskin səhv nəticələrinin ağırlığı isə geniş kütlələrin çiyninə düşür və hətta ölkənin, yaxud bölgənin hüdudlarından kənara çıxır. Ona görə də qərarların qəbulu zamanı bu prosesə demokratik nəzarətin yeni imkanları yaradılmalı və bunların həyata keçirilməsinin verə biləcəyi nəticələr üçün məsuliyyət bölüşdürülməlidir. Bu isə qərarların qəbulu və həyata keçirilməsi zamanı yüksək təhsil, mədəniyyət dəyişiklikləri ləngidən yersiz ehtiyatlılıqdan, "qətiyyətsizlik sindromundan" imtina edilməsini tələb edir.

Riski tənzimləməyin yeni vasitələrinin axtarışı əhəmiyyət kəsb etsə də, belə bir həqiqət şəksizdir ki, riskli qərar qəbul etmək siyasi sistemin sabitliyinin rəhnidir.

SİYASİ ROMANTİZM - fərdlərin, sosial qrupların, cəmiyyətin, prinsip etibarilə isə bəşəriyyətin ən yaxşı, nəcib keyfiyyətlərinə arxalanmaqla sosial ideala və buna yaxınlaşdıran siyasi məqsədlərə nail olmağa istiqamətlənmiş meyl. Romantik motivlər XIX əsrin birinci yarısında Avropada sosial hərəkatlara və milli azadlıq hərəkatlarına nüfuz etmişdir. S.r. XX əsrdə inkişaf etməkdə olan ölkələrdə aydın nəzərə çarpır. S.r. ictimai inkişafın təkamül yollarına inanmır, parlamentarizmi siyasi mühafizəkarlıq kimi inkar edir, kütləvi inqilabi hərəkatların uğurla nəticələnəcəyinə ümid bəsləyir. S.r.-in daha aşağı səviyyəsi sosial və siyasi problemləri həll etməyin yeganə vasitəsi kimi ümumi tətili və digər belə hərəkətləri mədh edən, seçkilərin və parlament fəaliyyətinin səmərə verə biləcəyini inkar edən anarxizm-sindikalizmdir. Böhranlı vəziyyətlərdən çıxmaq problemlərinin radikal (sağdan və soldan) lakin səmərəsiz üsullarla həlli də romantikləşdirilə bilər. Nəhayət, romantik motivlər çox tez-tez terror siyasətinin başlanğıc mərhələlərini tərənnüm edir. Başqa sözlə, zorakılıra "qabaqcıl" ideologiya və "nəcib" motivlər donu geydirilir (eserlər, "qırmızı briqadalar"), halbuki terrorzuluq fəaliyyətinin özü tamamilə təşkilati köhnəlik və fitnəkarlıqla doludur. Lakin prinsip etibarilə S.r. dünyada və

insanda ən yaxşı cəhətləri görmək, bunların uğrunda mübarizə aparmaqdır. XX əsrdə S.r.-in təcəssümü olan Ce Gevara təkcə geridə qalmış ölkələrdə deyil, inkişaf etmiş ölkələrdə də inqilabi hərəkatın pərəstişkarı idi (o, bütün dünyada hamı, xüsusən gənclər tərəfindən tanınan sonuncu siyasi romantikdir). indiki dövrdə siyasi qərarların qəbulu və həyata keçirilməsi prosesinin mürəkkəbləşməsi, siyasi meyllərin bir çoxunun qloballaşması ilə əlaqədar **S.r.** hələ də səhnədən çıxmır. Yer özündə həyatın qorunması, bütün dünyada sosial-əsarətin aradan qaldırılması (əlbəttə, zorakılıq hərəkətlərinə yol verilmədən) uğrunda beynəlxalq təşəbbüslər, öz fəaliyyətlərini və bunların nəticələrini hərtərəfli götür-qoy edən A.Şveyster, Simona Beyl, A.Saxarov kimi qeyri-peşəkar siyasətçilərin, yaxud Palme və Harrinqton kimi peşəkar siyasətçilərin fəaliyyəti buna sübutdur.

SİYASİ SABİTLİK - müxtəlif siyasi subyektlər arasında əlaqələr sistemi; onun üçün müəyyən bütövlük və üzərinə qoyulmuş vəzifələri səmərəli həyata keçirmək qabiliyyəti (funksionallıq) xarakterikdir. Daxili siyasi, məhəlli və beynəlxalq-siyasi sabitliklər fərqləndirilir. Bu sistemlərin spesifikası, hər şeydən əvvəl, onlara daxil olan siyasi subyektlərlə əlaqədardır.

Daxili S.s.-in başlıca subyektləri kimi dövlət və cəmiyyətin siyasi özəkləri çıxış edirlər. Onların fəallığından asılı olaraq hər iki tərəf siyasi prosesin təkcə subyektləri rolunda deyil, həm də obyektləri kimi çıxış edə bilərlər. Daxili S.s. sistemini bir sıra prinsipial xüsusiyyətlər fərqləndirir. Birincisi, burada iki (məhəlli və beynəlxalq - siyasi sistemlərdə olduğu kimi çox deyil) bazis siyasi subyekti vardır: dövlət və cəmiyyət. Sistemin idarə olunması funksiyasının təmin edilməsi nüqteyi-nəzərindən və abstraksiyanın müəyyən səviyyəsində bu siyasi subyektləri cəmiyyətin idarə edən (siyasi), sinfi və idarəolunan hissəsi adlandırırlar. ikincisi, daxili S.s. subyektlərinin bu cür təsnif edilməsi onların əlaqələrinin xarakterinin məhəlli və beynəlxalq S.s. sistemləri subyektləri əlaqələrinin xarakteri ilə müqayisədə keyfiyyətcə fərqləndiyinə əmin olmağa imkan verir. Dövlət və cəmiyyət bir-birinə hiss ediləcək təsiri göstərməyə bilməzlər: onların keyfiyyət xüsusiyyəti, hər şeydən əvvəl, belə qarşılıqlı təsir nəticəsində formalaşır. Məhəlli və beynəlxalq S.s. sistemi isə özündə, bir qayda olaraq, ikidən artıq siyasi proses subyektini birləşdirir ki, bunlar da daha çox muxtariyyətə malik olur və bütöv idarəetmə birləşmələri kimi çıxış edirlər.

S.s.-i təmin etmək üçün daxili siyasi sistem onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirmək iqtidarında olmalıdır. Şəraitdən asılı olaraq belə yerinə yetirilmə, ya xalqın iradəsi ilə hesablaşmaqla hakimiyyətin legitimliyi vasitəsilə, ya da üzə çıxmış hakimiyyət illegitimiyinin (qeyri-legitimliyin) əksinə olaraq zorakılıq yolu ilə; Siyasi sistem funksionallıq təminatını itirdikcə, o, özünün S.s. əsaslarını da tədricən itirir. Daxili S.s.-in iki tipini fərqləndirmək qanunauyğundur: muxtariyyət və səfərbər. Muxtariyyət, yaxud daxili S.s.-in açıq sistemi öz üzərinə düşən funksiyaları, başlıca olaraq, hakimiyyətin legitimliyi hesabına, yəni bir sıra idarəetmə funksiyalarını könüllü surətdə ali hakimiyyət orqanlarına verməklə yerinə yetirir. Səfərbərlik sisteminə isə ya ümumi ictimai yüksəlişin (təcavüzün dəf edilməsi, iqtisadi sıçrayış, sosial islahatlar və i.a.) açıq ifadə olunan legitimliyi, ya da səmərəli fəaliyyət sistemini məcburi qaydada əvəz etmək, bütövlükdə cəmiyyətə, yaxud onun ayrı-ayrı ünsürlərinə münasibətdə açıq zorakılıq (terror, cəza tədbirləri və i.a.) xasdır. Muxtar S.s. mənafelərin razılaşdırılmasını bildirdiyi halda, səfərbərlik sistemində cəmiyyətin mənafeyini müdafiə etmək məsliyyətini öz üzərinə götürmüş dövlətin, hakim qrupun mənafeyi başlıca yer tutur. Görünür, S.s. sisteminin, həmçinin qarışıq, keçid tipini, xüsusən, söhbət məhəlli, yaxud beynəlxalq - siyasi sistemlərdən gedirsə, fərqləndirmək qanunauyğundur.

Beləliklə, S.s.-i nə isə hərəkətsiz, donuq bir durum kimi başa düşmək lazım deyildir. əksinə, yalnız o sistem siyasi sabit hesab edilə bilər ki, o,

kifayət qədər çevik və dəyişikliklərə həssas olsun. Bununla əlaqədar S.s.-in müxtəlif sistemlərinin (səfərbər və muxtar) həyat qabiliyyətli ehtiyatları məsələsi çox mühümdür. əgər belə sistem zorakılığa üstünlük verirsə, o zaman gec-tez dəyişikliklərdəki tələblərə reaksiya verməyi dayandırır ki, bu da durğunluğa, sonra isə sabitliyin pozulmasına gətirib çıxarır. Çünki sistemin özü əvvəlcədən məhz dəyişikliklər axınının təşkili, qaydaya salınması üçün yaradılır və bu mə'nada dəyişikliklər həmişə sistemdən güclüdür. Bu baxımdan müxtariyyət sistemi daha böyük potensiala malikdir, çünki onun başlıca xüsusiyyəti təkcə xaricdən deyil, həmçinin daxildən gələn təkanlara cavab vermək qabiliyyətidir. Bu, idarə edənlər və idarə olunanlar arasında birbaşa və əks əlaqələrin sazlanmış fəaliyyəti hesabına əldə edilir. Təbiidir ki, belə fəaliyyət bütövlükdə cəmiyyətə, onda olan sosial-mədəni və iqtisadi əlaqələrin xarakterinə dərindən təsir göstərir və bununla əlaqədar S.s.-in sosial əsasları probleminin dolğun tədqiqinə ehtiyac yaranır.

XX əsr sivilizasiyası S.s.-in yeni, dinamik tipini aşkara çıxarmışdır ki, o da sosial və siyasi qaydanın hərəkətsiz S.s.-dən prinsipcə xeyli yaxşıdır. Bu, sonuncu, sabit siyasi və sosial strukturların, daimi siyasi institutların və münasibətlərin yaradılmasına və saxlanmasına əsaslanır. Tarixən o, qədimdir və köhnəlmişdir, stereotiplərlə siyasi şüurda təsbit olunmuş ictimai dayaqların sarsılmazlığı, tarixi inkişafın ləng tempi, ideologiyanın ənənəvi və mühafizəkar formaları ilə bağlı təsəvvürlərə söykənir.

XX əsrin totalitarizmi bu tipli S.s.-i təkmilləşdirməyə cəhd göstərmişdir: repressiv S.s. yaradaraq onu dinamik xarici siyasətlə (ekspansiya, təcavüz, sürətlə silahlanma və i.a. ilə), ictimai inkişafın fəallaşması (istehsalın stimullaşdırılması, dövlət məkanının mənimsənilməsi və i.a.) ilə uzlaşdırmağa çalışmışdır. Bu cür araya sığmayan əsasların uzlaşdırılması sabitlik yaratmadı və qanunauyğun olaraq rejimin, siyasi quruluşun dağılmasına və qapalı cəmiyyətin daha mütəhərrik və həyat qabiliyyətli sosial birliyə çevrilməsinə gətirib çıxardı.

S.s.-in dinamik tipi tarixi inkişaf prosesində ictimai-siyasi sistemlərin mövcud hüdudlarında, yeniləşmə, sosial və siyasi dəyişikliklər və inkişaf mexanizmini mənimsəmə açıq cəmiyyətlər tərəfindən işlənmişdir və həmin dəyərləri dağıtmaq təhlükəsi kimi deyil, sabitlik amili kimi qəbul edilir. Belə sistemlər onları dəyişdirmək istəyən daxili və xarici təsirləri qəbul və assimilyasiya etmək, ixtilafların təkcə qarşısını almaq mexanizmləri deyil, həmçinin konfliktlərdən sistemin sabitləşməsinin təkmilləşdirilməsi üçün istifadə olunmasını üzvi surətdə demokratik prosesə cəlb etmək qabiliyyəti sayəsində sabitləşirlər.

SİYASİ SAXTALAŞDIRMA - siyasi fəaliyyətdə hər hansı meyli təmin etmək üçün həqiqi olanın yalanla əvəz edilməsi.

SİYASİ SƏFƏRBƏRLİK - partiyaların və partiya koalisiyalarının, ictimai hərəkatların və s. konkret hərəkətlərə hazırlığını təmin edən tədbirlər kompleksi. Adətən, aşağıdakıları əhatə edir: 1. Planlaşdırılan aksiyaların məzmununun izahı ilə bağlı təşviqat-təblirat fəaliyyəti, bunların keçirilməsinin konkret müddətlərinin əhəmiyyəti, habelə tərəfdarların bu aksiyalarda iştirakına sosial-psixoloji hazırlığı və rəqiblərin mənəvi-psixoloji və s. dezavuasiya (təqdir olunmayan hərəkətləri) baxımdan etibardan salınması; 2. Qarşıdakı aksiyanın iştirakçıları arasında informasiya sisteminin təşkili; 3 Tədbirin əleyhdarlarının planları və gözlənilən hərəkətləri barədə vaxtında məlumatın əldə edilməsi və bunlardan təşviqat -təblirat və informasiya fəaliyyətində istifadə olunması; 4. Qarşıdakı aksiyanın profilindən asılı olaraq, onun iştirakçılarının lazım olan hər şeylə (yemək, nəqliyyat və s.) təmin edilməsi; 5. Bu və ya digər məlumatların (hər hansı S.s. aksiyaları, yaxud fəalları arasında aksiyaların hazırlanması barədə) - lazım gələrsə gizli saxlanması;

SİYASİ SƏHNƏ - siyasi qüvvələrin toqquşmasını və onun "dramaturgiyasını" bildirən kateqoriya. S.s. anlayışını elmə K.Marks gətirmişdir.

Marks coğrafi və topo-

qrafik (mərkəz - əyalət və i.a.) təsəvvürlərə əsaslanan, intuitiv dərk edilən və aydın təsvir olunmayan siyasi məkandan - siniflərdən, partiyalardan, təsisatlardan və s. subyektlərdən ibarət, strukturu bir çox amillərdən, başlıca olaraq, sinfi qüvvələr nisbətindən asılı olan siyasi məkana mühüm elmi keçidi həyata keçirmişdir. Bu amillərin dəyişməsi siyasi məkanın dinamikliyi problemini qarşıya qoyur. K.Marks siyasi situasiyanın təhlilini zaman və məkanda birləşdirir. Bu təsvir öz əhəmiyyətinə görə xeyli sonra A.Eynşteyn tərəfindən yaradılmış (və fizikada inqilab etmiş) məkan-zaman modeli ilə müqayisə edilə bilər.

Siyasi məkan-zamanda nəzərdən keçirilməyə siyasi fiqurlar daxil edilir ki, onların tərcümeyi-halını siyasi məkan-zamanda müəyyən trayektoriyalar ("dünya xətləri") üzrə hərəkət kimi azmaq olar. Marksın "siyasi səhnə" adlandırdığı əslində siyasi fiqurlar trayektoriyaları dəstəsi ilə siyasi məkan-zamandır.

S.s.-nin ciddi təhlili siyasi məkanın strukturlaşdırılmış təsvirini, onun məkan dinamikasının aşkarlanmasının, siyasi tərcümeyi-halın və siyasi tarixin ünsürlərinin daxil edilməsini nəzərdə tutur. Bu zaman siyasi yaddaşın yanılmalarını (bədii ədəbiyyatın, görkəmli şəxsiyyətlər haqqında əfsanələrin tənqidi və i.a.-ın təsiri altında yaranan) aradan qaldırılması oldıqca vacibdir.

SİYASİ SİSTEM - mövcud cəmiyyət üçün nüfuzlu hakimiyyət qərarını qəbul edən və həyata keçirən sabit insani münasibətlər forması. **S.s.** cəmiyyətin digər sistemlərindən dörd xarakteristikası ilə fərqlənir: o, mövcud cəmiyyətə, onun bütün üzvlərinə göstərdiyi təsir dairəsinə görə universal sistemdir; fiziki məcburiyyətin tətbiqi üzərində son nəzarət iddiası ona məxsusdur; onun hamı üçün məcburi olan qərarlar çıxarmaq hüququ legitim hesab olunur; onun qərarları özündə legitimliyi daşıyan nüfuzlu hakimiyyət qərarlarıdır və ehtimal etmək olar ki, vətəndaşlar və sosial institutlar bu qərarlara tabe olacaqlar. Sadaladığımız xarakteristikalar dövlətlərə də xas olduğundan "siyasi sistem" terminini dövləti və onda baş verən siyasi prosesləri idarə olunmasını əhatə edən münasibətlər məcmusunu bildirmək üçün işlədilir.

Bəzi müəlliflər həmin terminə daha geniş tərif verərək ona təsirin göstərildiyi yaxud avtoritar - hakimiyyət qərarlarının qəbul edildiyi hər bir ictimai münasibəti müncər edirlər. Belə halda **S.s.** subsosiyetal qruplarda (yəni bütövlük olan cəmiyyətdən aşağı qruplarda) məs., ailədə, dini təsisatlarda, *həmkarlar* təşkilatında, yaxud kommersiya qurumunda qərarların qəbul olunmasını həyata keçirən qrupdaxili struktur kimi nəzərdən keçirilir.

Çox zaman hesab edirlər ki, dövlətlər arasındakı beynəlxalq səviyyədə avtoritar hakimiyyət səlahiyyəti və digər təsir münasibətləri müxtəlif coğrafi (məs., Qərbi Avropa), təşkilatı (məs. BMT), yaxud milli (məs., Çin) ali sistemlərdən ibarət beynəlxalq siyasi sistemdir.

S.s. politologiyanın mərkəzində yerləşən konseptual "dövlət" anlayışını sıxışdırmış, "idarəetmə" terminini tamamlamışdır. Terminin konseptual genişliyi qeyri-formal strukturların təhlilində ondan təhlil vasitəsi kimi istifadə etməyə imkan verir, halbuki "idarəetmə" çox zaman formal institutlarla sıx eyniləşdirilir. Genişliyi və çevikliyi sayəsində bu termini siyasi fəaliyyətin ixtisaslaşdırılmış institutlar vasitəsilə deyil, daha çox ailə, tayfa, yaxud digər qeyri spesifik qrupların köməkliyi ilə həyata keçirildiyi primitiv cəmiyyətlərə çətinlik çəkmədən tətbiq etmək olar.

SİYASİ SOSİALLAŞMA - analogiyasına görə fərdin, əvvəlki nəsillərin mədəniyyətdə təsbit olunmuş təcrübəsinə yiyələnməklə cəmiyyətə daxil olması mənasında başa düşülən sosiallaşma prosesidir, politologiyada fərdin siyasi sistemə qoşulması prosesi kimi nəzərdən keçirilir. Şəxsiyyətin siyasi sistemlə qarşılıqlı fəaliyyəti gedişində iki cərgəli proseslər baş verir. Bir tərəfdən, sistem yeni üzvlər cəlb etmək və öyrətməklə fasiləsiz inkişaf edir. Bu prosesdə **S.s.** sistemin siyasi dəyərləri və məqsədlərinin qorunub saxlanması mexanizmi rolunu oynayır, siyasətdə nəsillərin varisliyini qoruyub saxlamağa imkan

verir. Digər tərəfdən, siyasi sistemin tələbləri şəxsiyyətin strukturunda özünə yer tapır. S.s nəticəsində şəxsiyyətin siyasi şüuru, onun siyasi davranışı formalaşır, şəxsiyyətin, vətəndaşın təşəkkülü baş verir. Bu baxımdan S.s anlayışı siyasi tərbiyə, yaxud siyasi maarif anlayışlarına nisbətən daha genişdir, çünki o, hakim ideologiyanın və siyasi institutların şəxsiyyətə təkcə məqsədyönlü təsirini deyil, həm də kortəbii təsirləri və fərdin şəxsi fəallığını da nəzərdə tutur. Şəxsiyyət ona təklif olunan siyasi mövqelərdən özünün daxilən üstünlük verdiyi dəyərlərə və əqidələrə, həm də təkcə səmərəli olanını deyil, şüursuz qəbul etdiklərini də seçmək qabiliyyəti əldə edir.

S.s.-nın mexanizmləri insanın və siyasi sistemin qarşılıqlı təsirinin bir neçə səviyyəsində fəaliyyət göstərir. Məs., sosial səviyyədə (bütövlükdə cəmiyyətin və böyük qrupların səviyyəsində) işsizlik, seçicilərin satın alınması, zorakılıq, terror və digər makrososial amillər şəxsiyyətə təsir göstərir. Cəmiyyət, sinif, millət səviyyəsində baş verən, müharibə, ekoloji təhlükə və digər qlobal problemlər indiki dövrdə ənənəvi makroamilləri tamamlayır. Sosial-psixoloji səviyyədə siyasi məqsədlər və dəyərlər şəxsiyyətin böyük və kiçik qrupları tərəfindən ötürülür. Bu səviyyəli S.s. mexanizmləri arasında təsirli nüfuzetmə, təlqin etmə, şəxsiyyətin bu və ya digər siyasi bütövlüklə eyniləşdirilməsi, siyasi öyrətmə, yamsılama və s. daha böyük əhəmiyyət kəsb edir. Şəxsiyyətdaxili səviyyədə tələbatlar, səbəblər, dəyər istiqamətləri, məqsədlər S.s.-nın mexanizmləri kimi çıxış edərək siyasətdə insanın davranışını və şüurunu idarə edir. S.s. prosesinin keçdiyi şəxsiyyətin yaş dəyişiklikləri ilə şərtlənən mərhələləri nəzərə alınmadan S.s. mexanizmi haqqında təsəvvür tam ola bilməz. Müasir cəmiyyətdə bu proses çox erkən başlanır. Uşaq 3-4 yaşında ikən ailəsi, kütləvi informasiya vasitələri, ən yaxın əhatəsi vasitəsilə siyasət haqqında ilk məlumatlar əldə edir. Daha sonra, o, məktəbdə təhsil alarkən S.s.-nın yeni mərhələsi başlanır. Xüsusi təsisatların və kortəbii amillərin təsiri altında siyasət haqqında təkcə biliklərin toplanması baş

vermir, həm də onlarda keyfiyyət dəyişikliyi yaranır: siyasətə münasibətin formalaşması prosesi başlayır. Sonrakı yeniyetməlik mərhələsi siyasi dəyərlərin ötürülməsinin yeni mexanizmlərinin cəlb olunması ilə səciyyələnir. Qeyri-formal gənclər qrupları, bütövlükdə gənclərə məxsus mədəniyyət onun daha önəmli həlqəsi olur. S.s. pasport almaqla başa çatmır, bütün həyat boyu davam edir. Lakin bu prosesdə mərhələlər və zamanlar təkcə şəxsiyyətin strukturunda baş verən yaş dəyişiklikləri ilə müəyyən edilmir, yeni sosial və siyasi rolların, siyasi fəaliyyətdə şəxsi iştirak təcrübəsinin mənimsənilməsi də bu işdə az əhəmiyyət daşımır.

Fərdin S.s.-sı prosesi təkcə şəxsiyyətin yetkinləşməsi ilə deyil, həm də sosial mühitin təsiri altında formalaşır. Bu zaman şəxsiyyətin siyasi şüuru və davranışı, birinci dərəcəli əhəmiyyət kəsb etməsinə baxmayaraq, təkcə xüsusi amillərin deyil, həm də insanı siyasi cəhətdən kamilləşdirən qeyri-siyasi amillərin, şəraitin təsiri altında formalaşır. Məs., siyasi ideyaların, baxışların və dəyərlərin ötürülməsində böyük rol oynayan qeyri-siyasi amillərin sırasına ailə, yaşıdlar qrupları, məktəb, iş, məscid, kilsə, mədəniyyət, kütləvi informasiya vasitələri aiddir. ənənəvi amillərlə yanaşı 60-cı illərdən başlayaraq gənclərə məxsus mədəniyyət, pop və rok musiqisi getdikcə daha böyük əhəmiyyət kəsb etməyə başladı. Bir sıra makrososial amillər də əslində siyasi olmayan amillərə aid edilir: sosial-iqtisadi münasibətlər, həyat tərzi, milli ənənələr və s.

Dövlət quruluşunun xarakteri və tipi, rejim, siyasi institutlar, partiyalar, təşkilatlar, hərəkatlar S.s.-nın siyasi amillər sisteminə daxil edilir. Bu amillər xüsusi mexanimzmlərin köməyi ilə fərdin siyasi davranışını təshih edir və ona nəzarəti həyata keçirir. Real həyatda S.s.-nın siyasi və qeyri-siyasi amilləri bir-birinə qovuşurlar. Fərd üçün siyasətdən uzaq amillər də siyasi əhəmiyyət kəsb edə bilər: əmək, insanın təbiətə münasibətinin xarakteri və i.a. hər şey həmin amillərin daxili və xarici siyasət kontekstində necə düzülməsindən asılıdır. Məs., ətraf mühitin müdafiəçiləri hərəkatı

olduqca siyasətləşmiş hərəkata çevrilmişdir. Aborta münasibət məsələsi 80-ci illərin sonunda ABŞ-da ictimai rəyi parçaladı.

S.s.-nın amilləri bu cəmiyyət və sistem tərəfindən şəxsiyyətə təsiri bildirmək üçün ümumi termindir. Bu amillər arasında xüsusi olaraq həmin məqsəd üçün **S.s.** təsisatları vardır (məs., gənclərin siyasi təşkilatları). Eyni zamanda elə təsisatlar mövcuddur ki, bunlardan ötrü həmin funksiyanın ikinci dərəcəli (məs., məscid, kilsə, məktəb) olmasına baxmayaraq, onlar da rəsmi siyasi mövqeyin yayılması kanalı kimi çıxış edir. Prosesdə vasitəçilər kimi xidmət edən konkret adamlar **S.s.**-nın agentləri adını almışlar.

S.s. prosesinin xarakterində vaxtaşırı baş verən dəyişikliklər tarixi səciyyə daşıyır. Tarixi inkişafın hər yeni dalrasında şəxsiyyətin və siyasi sistemin qarşılıqlı uyğunlaşması baş verir: sosial və siyasi strukturun dəyişməsi hər yeni nəsildə şəxsiyyətin formalaşması üçün özünün şərtlərini yaradır.

S.s. mexanizmlərinin belə dəyişilməsi bütün dövrlərdə mürəkkəb səciyyə daşımışdır. Lakin cəmiyyətin inkişafının müasir mərhələsində sosial-sinfi və milli xarakterli ənənəvi ziddiyyətlər sivilizasiyanın qlobal ziddiyyətlərinin üstünə qalanır. Texnoloji inkişafın sürətlənməsi və bir çox sosial proseslərin qloballaşması ilə siyasi sistemlərin ənənəvi funksiyalarının parçalanmasının əlaqələndirilməsi son illərdə şəxsiyyətin inkişafının yeni vəziyyətini yaratmışdır. Həmin amillərin nadir kombinasiyası insanın dövlətlə, hakimiyyətlə, siyasətlə dərin qarşılıqlı münasibətlərini ciddi modifikasiyaya uğratmış və **S.s.**-nı böhran vəziyyətinə gətirib çıxarmışdır. Bunu ölkəmiz də daxil edilməklə ən müxtəlif siyasi yönümlü dövlətlərdə müşahidə etmək olar.

Siyasi sistemin sızrayışları şəxsiyyətə təsir göstərən **S.s.** amillərinin və agentlərinin bütün sistemində ailədə, işdə, küləvi informasiya vasitələrində əks olunmuşdur. Rəsmi siyasi dəyərlərin ötürülməsində məktəbin təsiri məktəblərin və universitetlərin ərazisində gənclər arasında cərəyan edən həmin qeyri-siyasi baxışlarla ziddiyyətə girmişdir. Yeni texnologiya şəraitində əmək, şəxsiyyətin əvvəlkinə nisbətən daha möhkəm və müstəqil formalaşmasına təsir göstərir.

İndiki dövrdə **S.s.** prosesinin baş verdiyi mübarizə şəraitində iki meyl müşahidə olunur. Bir tərəfdən, şəxsiyyətin siyasi inkişafına, onun siyasətə fəal cəlb olunmasına, özünüdərkin yüksəlməsinə ictimai tələbat getdikcə güclənir. Bu meyl ən müxtəlif siyasi sistem və rejim tiplərinin demokratikləşməsi prosesində xüsusilə aşkar təzahür edir. Digər tərəfdən isə insanın dövlətdən, onun institutlarından, siyasi qərarların qəbulundan özgələşməsinin müxtəlif formalarında təzahür edən ləngitmə meyli göz qabağındadır. Bu meyllərdən birincisini şəxsiyyətin fəallığının artması və siyasət haqqında məlumatının çoxalması, küləvi siyasi davranış və şüurun dəyişməsi, əvvəllər əhalinin siyasətdən uzaqlaşdırılmış bir sıra təbəqələrinin bu işə cəlb olunması faktları təsdiq edə bilər. İkinci meyl vətəndaşların siyasi özgələşməsində, onların tam laqeydliyində və abırsızlığında, rəsmi siyasətə inamsızlığında, onların siyasi institutlara, partiyalara, dövlətlərə köməyinin azalmasında öz əksini tapır.

Bu iki meylin mübarizəsində siyasi davranışın tənzimlənməsinin yeni mexanizmlərinin və siyasətin yeni subyektinin - fəal, məlumatlı, müstəqil və məsul qərarlar qəbul edən insanın təşəkkül tapması baş verir. Bu, **S.s.**-nın nəticəsi olan siyasi davranışın şəxsiyyətdaxili tənzimləyiciləri vasitəsilə həyata keçirilən sərt xarici nəzarət mexanizmlərinin ənənəvi sisteminin dəyişdirilməsini tələb edir. əlbəttə, bu barədə yalnız inkişafın ümumi istiqaməti kimi danışmaq olar. Həmin inkişaf həqiqətdə düzünə deyil, birxətli hərəkət edir. Lakin şəxsiyyətin və siyasətin dəyişən qarşılıqlı əlaqə şərtləri **S.s.** mexanizmlərini bu cür tənzimləmənin ən mühüm və ən etibarlı vasitəsinə çevirir.

SİYASİ SOSİOLOGİYA - siyasəti siyasi münasibətlərin, institutların və şüurun kompleksi kimi öyrənən sosioloji bilik sahəsi. **S.s.**-nın predmeti politologiyanın (siyasət elminin, yaxud siyasət nəzəriyyəsinin) predmeti ilə xeyli dərəcədə

kəsişir.

S.s.-nın meydana gəlməsi çoxlu əsərlərdə araşdırılmışdır. Bu əsərlərdə **S.s.**-nın cəmiyyətin digər bilik sahələrindən fəlsəfədən, siyasi fəlsəfədən, dövlət və hüquq nəzəriyyəsindən, tarixdən, sosiologiyadan, təşkiletmə və idarəçilik nəzəriyyəsindən, sosial kibernetikadan və i.a. türəməsi qeyd edilir. **S.s.**-nın problemlər dairəsi sayılır və funksiyaları təsvir olunur.

S.s.-nın meydana gəlməsinin tarixi, ölkəşünaslıq və siyasi spesifikasından asılı olaraq onu ya politologiya, dövlət və hüquq nəzəriyyəsi ilə eyniləşdirir, ya da onların arasında tədqiqat metodlarında, təşkilati formalarda, əldə edilmiş biliyin tədrisi və istifadə olunması üsulunda təzahür edən fərqləri vurğulayırlar.

S.s.-nın tərifinin verilməsinə iki əsas münasibət mövcuddur: təsviri və normativ. Bu münasibətlər XIX-XX əsrlərin ayrıcında sosial fəlfəsədə yaranmışdır. Sosial və humanitar biliyin başa düşülməsində, strukturlaşmasında əhəmiyyətli təsirə malikdir.

Təsviri münasibətdə siyasətə sosial həyatın faktı kimi baxılır. **S.s.** isə dəyərcə bitərəf elm hesab edilir ki, onun da nəticələrindən sosial və siyasi mənafelərindən, üstünlüklərindən, mövqe və dünyagörüşlərindən asılı olmayaraq, hamı istifadə edə bilər. **S.s.**-nın belə izahı idealda siyasəti səylə yarıb doğramaası kimi başa düşür "nə fərəhdən, nə qəzəbdən xəbərdar olmayan" alimlərin mövqeyindən irəli gəlir.

Normativ yanaşmada siyasət müəyyən sosial, siyasi və dünyagörüşü dəyərləri nüqteyi-nəzərindən təhlil edilir.

Bu halda insan mənafelərinin, siyasətin və dünyagörüşünün konkret tarixi formaları keçmişdə, hazırda və gələcəkdə yerdə qalan bütün mülahizələr üçün meyar kimi götürülür. Yaxud da, **S.s.** çərçivəsində həll edilən dəyərlər cədvəli ilə qəbul olunmuş universallığı problemi meydana çıxır.

Tədqiqatçının seçdiyi metodologiyadan və siyasi fəlsəfədən asılı olaraq tədqiqat sahələri müxtəlif şəkildə konkretləşdirilə,strukturlaşdırıla və qaydaya salına bilər. Bu mənada **S.s.**, siyasəti və sosial reallığı yenidən

qurmağa cəhd göstərən siyasi fəaliyyətləri öyrənən çoxlu elmlərlə qovuşması sayəsində meydana gəlmişdir. Lakin konseptual, institutsional, siyasi, ideoloji və mədəni fərqlərindən asılı olmayaraq, alimlərin əksəriyyəti bununla razıdır ki, siyasətin təhlili zamanı ümumelmi və konkret sosioloji tədqiqatların bütün alətlərindən: eksperimentdən, statistik metodlardan, anketlərdən, sorğu və müsahibələrdən, laboratoriya təcrübələrindən, kontent təhlildən, riyazi metodlardan, oyunlar və onların həlli nəzəriyyəsindən və i.a. istifadə etmək lazımdır.

Göstərilən metodların məhsuldarlığı onların praktik siyasətçilərin və nəzəriyyəçilərin - tarixçilərin, sosioloqların, hüquqşünasların, politoloqların fəaliyyətini nə qədər təhlil etməyə imkan verməsindən xeyli asılıdır. Son onilliklər ərzində sosioloqların və politoloqların diqqəti tədricən sosial və siyasi mikrokosmosun (gündəlik siyasi həyatın sosiologiyası, etnometodologiya, politometriya) və siyasi-sosioloji biliklərin normativ modellərinin tədqiqinə cəlb edilir. Tədricən belə bir qənaət formalaşır ki, **S.s.**-nın mövcud siyasi sistemə və siyasi rejimə münasibətdə hər hansı xidməti funksiyası elm üçün ölümdür. Əxlaqın və siyasətin əbədi ixtilafda olması bu gün alimləri peşəkar siyasi-sosioloji patoloqoanatomiya istiqamətində hərəkət etməyə məcbur edir.

Bu yolda **S.s.**-nın, predmetinin anlaşılmasında hər cür etatik və fərdin fövqündə duran metodoloji konsepsiyalardan və onlardan irəli gələn siyasi hərəkətlərdən azad normativ yanaşma aktuallıq kəsb edir. **S.s.**-nın tərkibinə yalnız o siyasi münasibətlər, instututlar və şüur daxil olur ki, bunlar emosional yetkinliyi, mənəvi sərbəstliyi şəxsiyyətin cəmiyyətə tabe olmasının zəruriliyini əsaslandıran mövcud siyasi rejimdən, siyasi şərait və siyasi fəlsəfədən asılı olmayaraq, fərdlərin öz məsləklərinə müvafiq hərəkət etməyə hazırlığı və qabiliyyəti daxil edilməklə onların peşəkar səriştəliliyini və dərin müdrikliyini ifadə edir.

Təsviri və normativ yanaşmalar bir-birini qarşılıqlı tamamlayır. Birincisi siyasətin

heç bir güzəştə getmədən və tərifsiz dərkinə imkan verir. Normativ yanaşma o vaxt faydalı olur ki, dövlətlərin, partiyaların, siyasi rəhbərlərin və dövlət məmurlarının siyasəti konkret sosial məqsədlər baxımından qiymətləndirilsin və onların dərin, dünyagörüşü əsasları aşkar edilsin.

Minilliklər boyu siyasi fikir konfliktin dərk olunmasının iki başlıca modeli - ənənəvi və müasir modelləri arasında tərəddüd etmişdir. ənənəvi model siyasətin, əxlaqın sosial aspekti kimi başa düşülməsi ilə bağlıdır. Müasir model (Makiavelli və Hobbsdan başlayaraq) siyasəti və əxlaqı bir-birinə qarşı qoyur.

Cəmiyyətin müxtəlif tərkibli olmasını, siyasi hadisələrin və hakim dairələrin fəaliyyətinin təsiri ilə kütləvi şüurun dəyişilməsini nəzərə almaqla kütləvi siyasi şüurda mövcud siyasi stereotiplərin, onların dəyişilmə dinamikasının aşkara çıxarılması və təhlili S.s. üçün həmişə vacibdir.

Hər hansı cəmiyyətdə onun inkişafının hər bir dövründə siyasi həyatın real faktlarına qismən uyğun gələn, qismən də zidd çıxan dəyərlər sistemi mövcuddur. Rəsmi siyasi dəyərlər və real siyasət arasında münasibətlərin təhlili daxil olmaqla, "ikili şüur" konsepsiyası S.s. üçün mühüm əhəmiyyətə malikdir. Bir qayda olaraq, hakimiyyətin özü buna çalışır ki, ideyalar və ideallar sahəsi söz və fəaliyyət sahəsi ilə konfliktə girsin. Belə konflikt (tarixi, sosial-struktur, demoqrafik, mədəni) təzahürünün müxtəlif formalarının təsviri S.s.-nın vacib vəzifəsidir.

Siyasi dəyərlər və normalar müəyyən dünyagörüşü çərçivəsində meydana gəlir və fəaliyyət göstərir. Bu dünyagörüşü doğru, məcburi, yaxud, könüllü (çox və ya az dərəcədə) sayılır. Dəyərlər sistemi qavrama üsulunu, siyasi hadisələrin qiymətini müəyyənləşdirir və siyasi mədəniyyətin rəmzi qatının daha mühüm amili kimi çıxış edir. Onun təhlili zamanı, hər şeydən əvvəl, fərdlərin siyasi fəaliyyətin subyekt və obyektləri kimi çıxış etdikləri sosial qaydanın stereotip görünüşü nəzərə alınır.

Avtokratik siyasi mədəniyyətdə hakimiyyət hökmranlıq və tabeçilik münasibətləri

kimi, hakimiyyətin varlığı isə hökmran şəxsə, yaxud qrupa aid edilən üstünlük və hegemonluq xüsusiyyəti kimi başa düşülür. Bu stereotipə əsasən adi, siyasi və nəzəri şüurda cəmiyyətin elə görünüşü üstünlük təşkil edir ki, orada insanlar hakimiyyətin ya obyekti, ya da subyekti ola bilərlər, hakimiyyətlə cəmiyyət arasında münasibətlər isə yalnız iyerarxiya prinsipi üzrə qurulur.

Demokratik siyasi mədəniyyətə hakimiyyəti olduğu vəziyyətdə deyil, rəhbərlərlə tabeçilikdə olanların qarşılıqlı fəaliyyəti, siyasi qərarların yalnız subyekt - obyekt aspektləri deyil, funksional aspektlərin prosesi kimi başa düşmək xasdır.

Demokratik şüurda cəmiyyətin elə sosial mənzərəsi üstünlük təşkil edir ki, orada insanlar sosial vəziyyətlərindən asılı olmayaraq, eyni zamanda hakimiyyətin subyektləri və obyektləridir.

Avtokratik və demokratik siyasi mədəniyyətlər müəyyən tipli siyasi münasibətlərin məhsulları və yaradıcılarıdır. əgər avtokratik mədəniyyətdə mütləq rifah kimi baxılan hakimiyyət ətrafında daim mübarizə gedirsə, demokratik mədəniyyətdə hakimiyyət nisbi və keçici rifah olub lazımi siyasi institutlarla bütün insanlar arasında onların peşəkarlığına və siyasi səriştəliliyinə müvafiq səmərəli şəkildə bölüşdürülməlidir.

Zorakılığa və siyasi fəallığa münasibət həmin siyasi mədəniyyətləri fərqləndirmək üçün başlıca meyardır.

SİYASİ ŞÜUR - politologiyanın mərkəzi kateqoriyalarından biri. **S.ş** - subyektin onu əhatə edən gerçəkliyin siyasətlə bağlı və onun özünün də daxil olduğu hissəsinin qavranılmasını, bununla əlaqəli hərəkətləri və vəziyyətləri bildirir. **S.ş.** politologiyanın anlayışlar koordinatları sisteminə daxil olan bir məfhumdur. Tədqiqatçıların əksəriyyəti siyasi şüura məzmun cəhətdən subyektin siyasətlə tanışlıq dərəcəsini ümumi formada əks etdirən və ona rasional münasibət bəsləyən (şüursuz münasibətin əksinə olaraq) (bax; **KOLLEKTİV ŞÜURSUZLUQ**), çoxülçülü, müxtəlif cinsli, "nəbzi vuran", daxilən ziddiyyətli, çoxpilləli bir qürum kimi baxırlar. ıdrak nəzəriyyəsi baxımından **S.ş.** politologiyanın

digər əsas məfhum və kateqoriyaları ilə sıx əlaqədədir: siyasi mədəniyyətlə **S.ş.** irsən yaxındır və onun törəməsi, yüksək səviyyəsi, eyni zamanda siyasi mədəniyyətin inkişaf formalarında onun mühüm komponentidir: siyasi davranışla S.ş. bu cür davranışın subyektiv mexanizmlərinin rasional əsası kimi çıxış edir (bax; **SİYASƏTƏ ƏXLAQİ YANAŞMA**); cəmiyyətin siyasi sistemi ilə **S.ş.**, bu sistemin subyektiv özülünü, insani əsasını özündə əks etdirir və s. ən`ənəvi marksist anlamda **S.ş.**, insanların həyatının ilk növbədə sosial-iqtisadi şəraiti kimi üzə çıxan, ictimai şüurun bir variantı kimi başa düşülür (məs., bax; **SİNFİ ŞÜUR**). Dünya üzrə qəbul olunmuş ümumi ənənədə **S.ş.** özünü müxtəlif səviyyələrdə, müxtəlif vəziyyətlərdə göstərən, siyasətin psixikasının məcmusu, onun subyektiv komponenti kimi daha geniş bir kontekstdə baxılır. **S.ş.** anlayışı tarixən ictimaiyyət elminin müxtəlif sahələrində kifayət qədər çoxdan işlənmişdir. Lakin politologiyada bu anlayış davranış bildirən istiqamətlərdə işlənir.

Bu anlayış XX əsrin ortalarında ortodoksal bixevioristi cərəyanının məhdudluğu üzə çıxandan sonra xüsusi əhəmiyyət kəsb etdi; aşkar olundu ki, siyasi davranış məfhumu, onun subyektinin psixi dairəsi və daha geniş mənada siyasi proseslərin dinamikası ümumiyyətlə, **S.ş.** kimi "müstəqil dəyişilmələrə" ciddi diqqət tələb edir.

Siyasi şüur kateqoriyası özünün geniş məzmununa əhəmiyyətli dərəcədə izahedici qüvvəyə görə, eləcə də haçalanmış baxışların və müxtəlif elmi fənnlərin göstəricilərini toplayan özünəməxsus əsas anlayış kimi istifadə üçün əlverişlidir.

Elə bu sintetik xüsusiyyət siyasi şüur anlayışına, özünün yaranmasına görə daha çox sintetik olan siyasət elmində başlığa məfhuma çevrilməyə imkan verdi.

S.ş. hətta politologiya çərçivəsində siyasi elmin daxilində müxtəlif istiqamətlərlə tədqiq olunan fənnarası, kompleks kateqoriyalar sırasına ziddir.

Siyasət sosialogiyası, **S.ş.**-da digər, ilk növbədə ideoloji və kütləvi səviyyələri aşkara çıxarır, diqqətini onun mühafizəkar, liberal, islahatçı, inqilabi, totalitar, avtoritar, demokratik və başqa tiplərinin məzmunlu xarakteristikasının açılmasında cəmləşdirir, bir tərəfdən siyasi şüur dairəsindən kənarda formalaşmış stereotip və istiqamətlərin məcmusunu, digər tərəfdən isə fərdin və ya ictimai-siyasi fəaliyyət qrupunun sərbəst təhlili nəticəsində alınan yekunları şərh edir, siyasi şüura mühüm təsir göstərən ideoloji komponentləri əsas amil kimi üzə çıxarır.

Siyasi şüurun siyasi psixologiya və siyasətin psixologiyası vasitələri ilə tədqiqi, onun sosial-siyasi məzmununun və işləməsinin fərdi mexanizmlərinin analizini birləşdirmək cəhdi ilə xarakterizə olunur. Bunun üçün ümumsosial və psixoloji anlayışlardan istifadə edərək (istehsal, maraqlar, meyl və istiqamətlər, göstərişlər və s.) siyasi şüuru siyasət barədə insanların məlumatlılıq dərəcəsinə, onların dünyagörüşünün xarakterinə görə, dəyərlər sisteminə aid olan məlumatlar əsasında qiymətləndirirlər.

Siyasi şüurun tam şəkildə, yəni politoloji baxımdan öyrənilməsi ilk növbədə onun subyektlərinin - "daşıyıcılarının", **S.ş.** inkişafının dinamikasının tədqiqini özündə birləşdirir. **S.ş.**-u subyektin nüqteyi-nəzərindən dünya politologiyasında kütləvi, qrup halında və fərdi siyasi şüur fərqləndirilir. Kütləvi **S.ş.** cəmiyyətin kütləvi şüuru kimi aktual siyasi məzmuna malik və müəyyən siyasi nəticələr törədə biləcək məsələlərlə müəyyənləşdirilir. Bu mənada **S.ş.**-kütləvi şüurun xüsusi siyasətləşmiş seqmentidir. Quruluş cəhətdən **S.ş.**, özünə statik (dəyərlər və ümumi yönümlər tipli) və dinamik (kütləvi ovqatlar tipli) komponentləri daxil edir. Konkret ifadədə bu, birincisi, insanların gözləmələrinin səviyyəsi və onların həmin gözləmələrin həyata keçirilməsi yolunda siyasi sistemə təsir göstərmək imkanlarını qiymətləndirməsi; ikincisi, ideoloji seçim əsasında duran sosial-siyasi dəyərlər (məs., ədalət, demokratiya, bərabərlik, sabitlik, qayda-qanun və s.); üçüncüsü, hökumət qiymətləndirilməsi ilə əlaqədar sürətlə dəyişən əhval-ruhiyyə və fikirlərdir. Kütləvi **S.ş.** cəmiyyətin siyasi

mədəniyyətinin tipini və səviyyəsini müəyyən edir və siyasi davranışın ən çox tipik, kütləvi variantlarını şərtləndirir. Kütləvi S.ş.-u üzə çıxarmağın ən yayılmış üsulu-siyasi məsələlər üzrə ictimai rəy sorğusudur.

ıkinci halda S.ş.-a, siyasətlə bağlı və kütlələrdən fərqli bu və ya digər daha çox müəyyənləşmiş və mütəşəkkil konkret böyük (sosial siniflər, milli-etnik birləşmələr, əhalinin müəyyən qrup və təbəqələri) və kiçik (məs., siyasi elita, "Hərbi hökumət xuntası", hökmran partiyanın siyasi bürosu, təsir qrupları tipində cürbəcür lobbist təşkilatlar) qrupların ümumiləşmiş şüuru kimi baxılır. Qrupun sosial-siyasi sistemdə tutduğu obyektiv yerindən və qrup halında özünüdərkin xüsusiyyətlərindən çıxış edilsə, bu cür S.ş., qrupun siyasi obyektivliyini intensivliyini və istiqamətini müəyyənləşdirən təsəvvürlərin məcmusu kimi şərh edilir. Quruluş cəhətdən qrup halında olan S.ş.-da başlıca rol oynayan siyasi mövqelərə və ideoloji üstünlüklərə xüsusi diqqət verilir. Bu cür S.ş.-un aşkarlamağın daha çox yayılmış üsulu-işdə maraqlı olan qruplardan daxil olan siyasi xarakterli sənədlərin təhlilidir.

Üçüncü halda S.ş., siyasəti bu və ya başqa dərəcədə dərk etməyi, onu az-çox qiymətləndirməyi və siyasi cəhətdən nisbətən məqsədəuyğun fəaliyyət göstərməyi bacaran şəxsiyyətin - "siyasi adamın" xüsusiyyəti və keyfiyyəti, kimi şərh edilir. Burada xüsusi fəaliyyət dairəsi kimi siyasətdə insanın şüurunun və davranışının subyektiv-psixoloji xüsusiyyətləri və nümunəvi xarakteristikaları, eləcə də şəxsiyyətin siyasi sosiallaşması prosesinin öyrənilməsi xüsusi maraq kəsb edir. Fərdin kütləvi və müxtəlif qrupların S.ş.-un mənimsənilməsi, həmçinin fərdi səviyyədə üz S.ş.-nun hazırlanıb işlədilməsi üçün istifadə edilən üsullara ən çox fikir verilir. S.ş.-un bu səviyyədə fəaliyyətini idarə edən mexanizmlərin analizi burada iki qəbildən olan komponenti üzə çıxarmağa imkan verir: motiv komponentlər (siyasi ehtiyatlar, dəyərlər, göstərişlər, duyğu və hisslər) və idraki komponentlər (fənnlər, məlumatlılıq dərəcəsi, siyasətə maraq, əqidələr). S.ş.-un bu cür üzə çıxarılmasının daha çox yayılmış üsulu-şəxsi-psixoloji tədqiqatların aparılması, eləcə də S.ş.-a münasibətdə sosial-siyasi tipin, şəxsiyyətlərin üzə çıxarılmasıdır.

İlk növbədə S.ş. subyektində mərkəzləşən bu cür rakursdan başqa, S.ş.-un dinamik aspektlərinin tədqiqi ilə əlaqədar istiqamətlər də fərqləndirilir. Onlar S.ş.-un ardıcıl mərhələləri və dəyişilmələrini, totalitardan avtoritara keçid proseslərini həm bir cəmiyyət çərçivəsində, həm də müxtəlif cəmiyyətlər daxilində mövcud olan S.ş.-un xüsusiyyət və növlərinin təhlilini "kəsmə metod"un köməyi ilə müqayisəli-politoloji planda öyrənirlər (məs., bu növ (tədqiqatın müqayisəsi). S.ş. inkişafının müxtəlif mərhələlərinin dinamikası və xüsusiyyəti, adətən bütün mümkün olan səviyyələrdə (kütləvi, qrup halında, fərdi) tədqiq olunur, bu da tədqiq olunan cəmiyyətlərdə kifayət qədər mötəbər proqnozlar qurmaq və siyasi sistemin modifikasiyasının konkret variantlarının mümkünlüyünü qiymətləndirməyə imkan verir. Bütövlükdə, S.ş.-un siyasi sistemin fəaliyyəti ilə əlaqəsi qeyd olunan kontekstdə əsas məsələlərdən biridir.

S.ş.-un öyrənilməsinin vacib funksional istiqaməti onun adi və nəzəri-ideoloji formalarının tədqiqidir. Adi S.ş. bir sıra spesifik xüsusiyyətləri - məzmun diffuziyası, dağınıqlıq, tutqunluq, dolaşıqlıq və ziddiyyət, qeyri-ardıcıllıq, sistemsizlik, yüksək emosionallıq, komponentlərinin çox vaxt təsadüfiliyi, adi gündəlik sağlam düşüncə adlanan çərçivə daxilində siyasət haqqında məişət xarakterli təsəvvür və mülahizələrin təsiri altında kortəbii təşəkkülü ilə fərqlənir. Eyni zamanda o, sabitliyi və siyasi davranışa xüsusi növ fəaliyyətsiz, süst, hərəkətsiz təsiri ilə xarakterizə olunur: hətta S.ş.-un nəzəri-ideoloji parametrləri ilə ziddiyyətə qoşularaq adi S.ş., bu cür davranışı müəyyənləşdirməyi davam etdirə bilər. Adi S.ş.-dan fərqli olaraq nəzəri-ideoloji S.ş., bu və ya digər ideoloji konsepsiyanın əsasında insanı əhatə edən siyasi varlığı izah edən, özlüyündə baxış və mülahizələrin tam rasional sistemini, müəyyən dünyagörüşünü ifadə edən ciddi

və mükəmməl təsəvvürlərdən irəli gəlir. Bu təsəvvürlər isə həyat sahəsinin dərk edilməsinə lazım olan ideologiyanın daha geniş şərhinə gətirib çıxarır. S.ş.-un bu və ya digər komponentlərinin bir formadan başqasına keçməsinin dialektikası sosial-siyasi inkişafın mühüm göstəricisini özü özlüyündə təmsil edir.

SİYASİ TƏBLİĞAT - siyasi fəaliyyət sahəsində müəyyən, əvvəlcədən nəzərdə tutulmuş nəticəyə nail olmaq üçün fərdlərin, qrupların, cəmiyyətin şüuruna təsir etməkdən ötrü müntəzəm göstərilən səylər. Hakim dairələr və onları əvəz etməyə can atan qüvvələr öz maraqlarını qərarlaşdırarkən cəmiyyətin real, yaxud potensial, lakin həqiqi liderləri kimi daim cəmiyyətin adından çıxış etməlidirlər. Ona görə də hər gün başqalarını inandırmağa məcburdurlar ki, onların mənafelərinin ən ardıcıl ifadəçiləri məhz bu liderlərdir. Beləliklə, **S.t.** siyasi həyatın ayrılmaz cəhəti, onun ən ümumi alətidir və cəmiyyətdə dönüş anlarında əhəmiyyəti xüsusilə artır.

Kütləvi şüura təsir vasitələrinin hamısı mühüm siyasi nəticələr əldə edilməsini nəzərdə tutur. Ona görə də bu təsir vasitələrinin təblirat məzmunu tədqiqatçıların diqqətindən kənarda qalmır. (Məs., H.Şiller ABŞ-ın əməkçi təbəqələrinin "Amerika həyat tərzi" dəyərlərini mənimsəməkdə reklamın rolunu qeyd edir.)

Avropada "təblirat" (lat. "propaqanda" - yaymaq) anlayışı xristianlığı missionerlik yolu ilə təbliğ etmək məqsədi güdən konqreqasiyanı yaratmış XV papa tərəfindən 1662-ci ildə leksikona daxil edilmişdir.

İlk vaxtlar təblirat yüksək məna kəsb etmişdir. Lakin sonralar onun "ideoloji qüvvə" kimi çıxış etməsi, xüsusi mənfi münasibət doğurmuş, belə təsəvvür yaratmışdır ki, o, həqiqəti qəsdən təhrif etmək yolu ilə insanların hiylə işlətmək üsulundan başqa bir şey deyildir. Elə buna görə də çox vaxt "təblirat" sözü təhqiramiz damraya, siyasi ləkə vurmağın çox səmərəli vasitəsinə çevrilirdi.

S.t. getdikcə daha çox siyasi hakimiyyətin total cəmləşdirilməsinə kütləvi şüurun hazırlığını təmin etmək vasitəsinə çevrilir. **S.t.**-a relyavist münasibətin ən tanınmış nümayəndələri ABŞ tədqiqatçıları K. Hovland və başqalarıdır. Onlar qədim yunan mütəfəkkirləri Platonun (insan qəlbinin formalaşmasına sözün təsiri) və Aristotelin ritorika qarşısında inandırma metodlarını işləyib hazırlamaq vəzifəsi qoymaq) fikirlərini əsas götürərək özlərinin tədqiqat proqramlarını yaratmışlar.

Müasir **S.t.** xidmətlərinin təbliratla təsir göstərmək sahəsində bəşəriyyətin (Qədim Hindistan və Qədim Cin də daxil olmaqla) topladığı təcrübəyə müraciət etməsi, bu və ya digər halda gərəkli ola biləcək məlumat və mətnlərin toplanıb işlənməsi üçün HEM-lərdən istifadə etməsi getdikcə tipik hal alır. **S.t.**-ın fəaliyyətinin maddi-texniki bazası istənilən məsafədə işləyə bilən kütləvi informasiya vasitələridir. Ona görə də qlobalizm (bax; **QLOBALİSTİKA**) təblirat tədbirlərinin gündəlik planlaşdırılması prinsipinə çevrilmişdir. Bu isə aşağıdakıları əhatə edir: 1) tələb olunan təblirat problemlərinin işlənib hazırlanması; 2) qarşıya çıxan problemlərin həlli variantlarının axtarılması; 3) variantlardan hər birinə uyğun ssenarilərin hazırlanması. Bütün bunlar ayrı-ayrı ölkələrin və bölgələrin əhalisinin və ümumən bəşəriyyətin şüuruna səmərəli təsir göstərmək vəzifəsini qarşıya qoyur. **S.t.** getdikcə müasir dövlətlərin xarici siyasətinin ayrılmaz ünsürünə çevrilir, dövlət başçıları təbliratın siyasət aləti olmaq imkanlarına getdikcə daha ciddi yanaşırlar.

SİYASİ TƏDQİQATLARIN METODLARI - buraya iki səviyyəli tədqiqat metodları daxildir: siyasi elmlərin tədqiqat metodları, o cümlədən siyasi nəzəriyyələrin müxtəlif səviyyəli ümumiləşdirilmiş metodları və empirik tədqiqatların konkret (politoloji) səviyyəli təhlil metodları.

Politologiyada tədqiqatlar iki səviyyədə aparılır: nəzəri və təcrübi. Hər iki halda **S.t.m.**-nın geniş spektrindən - əsas materialların toplanılması, onların sistemləşdirilməsi və təhlili metodlarından istifadə edilir.

S.t.m.-nın daha geniş yayılmış ümumi növü-insanların təcrübi və idraki fəaliy-

yətləri nəticəsində əldə edilmiş müəyyən nailiyyətlərin üsulları və vasitələrindən ibarətdir.

Tədqiq olunan mövzuların öyrənilməsində yeni metodlardan istifadə olunmadıqda **S.t.m.**-ndan heç bir təzə nəticə əldə etmək mümkün olmur, əksinə, yeni metodlar bacarıqla seçildikdə və tətbiq olunduqda, öyrənmək istədiyi mövzunun tədqiqində alimə düzgün yol seçməkdə kömək edir, onun idraki fəaliyyətinin kəsərini artırır, tədqiqat metodunun effektliyini təmin edir, özündən əvvəlki alimlərin nailiyyətlərini düzgün sistemləşdirməkdə və qiymətləndirməkdə tədqiqatçıya kömək edir.

Siyasi proseslərin tədqiqində tətbiq olunan **S.t.m.**-nın şərti olaraq müqayisəli-tarixi, empirik və sistemli olmaqla üç qrupa ayırmaq olar.

S.t.m.-nın müqayisəli-tarixi qrupuna tarixi hadisələrin təsviri, onların konkret təhlili, dövrləşmə, xronoloji, problem-xronoloji, retrospektiv və başqa üsullarını aid etmək olar. Müqayisəli-tarixi **S.t.m.** siyasi hadisələrin və faktların meydana gəlməsini və inkişafını, həm onların tarixi şəraitə uyğun yaranmasını, həm də onların inkişafının müxtəlif mərhələlərində keyfiyyət dəyişikliklərini öyrənməyə imkan yaradır. Onlar eyni şəraitdə dəfələrlə təkrar olunan, siyasi proseslərin müqayisəsində tətbiq edilən, genetik qohumluğu olan hadisələrin müqayisəsi üçün lazımdır.

Müqayisəli-tarixi metod tədqiqatçını tarixi vulqarlaşdırmaqdan və başqa təhriflərdən qoruyur və ona imkan verir ki, siyasətin tarixi təcrübəsini və onun müasir vəziyyətini düzgün ümumiləşdirsin.

Siyasi prosesin ayrı-ayrı mərhələlərini və dövrlərini müqayisə etmək, onun inkişafının obyektiv qanunauyğunluğunu üzə çıxarmağa imkan verir.

Problem-xronoloji **S.t.m.** hər hansı geniş bir mövzunu dövrlər üzrə bir neçə xətdə, ayrıca tədqiq edilə biləcək problemlərə ayırmağı nəzərdə tutur. S.t.m. siyasi hadisələrin retrospektiv təhlili politologiyanın proqnostik funksiyasının inkişafına ciddi kömək edir, ona görə ki, gələcəyə baxmaq imkanı, keçmişdə əldə edilən nəticələrdən, onun müasir inkişaf

səviyyəsindən, onun qanunlarının dərk olunmasından düzgün nəticə çıxara bilmək bacarığından çox asılıdır.

Siyasi tədqiqatlar metodunun empirik qrupu XIX əsrin sonu XX əsrin əvvəllərində xüsusilə gur inkişaf etməyə başlamışdır. Bunun əsas səbəbi isə siyasi fəaliyyətə olan obyektiv marağın artması, ən əsası isə, bütün vətəndaşların, xalq kütləsinin siyasi həyatda fəal iştirakı ilə bağlı olması idi. Empirik tədqiqat metodlarında siyasi davranış probleminə xüsusi əhəmiyyət verilir: ictimai rəyin və siyasi mədəniyyətin tədqiqi; siyasi prosesə təsir edən müxtəlif amillərin araşdırılması; böyük və kiçik siyasi strukturların sistemli təhlili; cəmiyyətin siyasi cəhətdən idarə olunması və rəhbərlik edilməsinin kompleks öyrənilməsi; siyasi institutların struktur-funksional fəaliyyətinin təhlili; Siyasi planlaşdırma və proqnozlaşdırma metodları və s.

Yuxarıda göstərilən problemlərin daha dərindən və hərtərəfli araşdırılması üçün **S.t.m.**-nın empirik sosiologiya metodlarından xüsusilə müşahidə, əhalinin anket və sorğu vasitəsilə tədqiqindən, statistik materialların və eksperimentlərin təhlilindən, sənədlərin öyrənilməsindən, müsahibələrdən və s. geniş istifadə edilir.

Müşahidələr qısa, orta və uzunmüddətli ola bilər. Uzunmüddətli müşahidə, bir qayda olaraq, böyük tədqiqatçı qruplarının köməyi ilə həyata keçirilir və materialların toplanılmasına, vahid indikatorlar sisteminin yaradılmasına xeyli qüvvə sərf edilməsi tələb olunur. Məs., ABŞ-da bu yolla, müxtəlif nəsillərə mənsub olan bütöv bir insan nəslinin müxtəlif yaşda olan adamlarının anadan olduğu gündən, körpəliyindən təqaüd yaşına çatana qədər həyat mərhələləri ətraflı şəkildə öyrənilmişdir. Toplanılmış materiallar demoqrafik xarakterdə olmuş, onlar məşğulluq dinamikasına əsasən qruplaşdırılmışdır və s. Müşahidə aparan tədqiqatçı, onu maraqlandıran vəziyyətləri öyrənmişdir. O, özü tədqiqatda və toplanmış materialların təhlilində bilavasitə iştirak etmişdir. **S.t.m.**-na daxil edilmiş müşahidə üsulu siyasi konfliktin yaranma və inkişaf prosesini, kütləvi hərəkatın təkamülünü,

siyasi partiyanın fəaliyyətini dərindən tədqiq etməyə imkan verir.

Əhalinin anket və sorğu vasitəsilə tədqiq olunması XX əsrin 30-cu illərindən geniş yayılmağa başlanmışdır. O vaxt Corc Gellap seçki zamanı siyasi vəziyyəti qabaqcadan öyrənmək üçün zondaj (siyasətdə ilkin aydınlaşdırma, kəşfiyyat, yoxlamaq) tədqiqat aparmışdır. Bu gün **S.t.m.**-nın hər iki qrupundan intervyu (nəzərdə tutulmuş sorğunu aparanla tədqiq olunan arasında birbaşa əlaqə) və anket sorğusu geniş istifadə olunur. Belə ki, seçkiqabağı anket tədqiqatının əsas məqsədi, statistik təhlil yolu ilə seçicilərin münasibətini təyin etməkdir. Bunun həm təcrübi əhəmiyyəti (seçkiqabağı kampaniya zamanı alınmış proqnozlara müvafiq səsvermənin nəticələrini təshih etmək), həm də elmi əhəmiyyəti (seçicilərin qərarına təsir edən faktları təhlil etmək, seçicilərin sosial tələblərini öyrənmək - yaş, təhsil, peşə, cins, gəlirin səviyyəsi və seçicilərin seçkilərə münasibətlərini əvvəlcədən bildirmək və s.) var. Anket və sorğu vasitəsilə aparılan tədqiqatlarda mühüm məhdudiyyətlər də var: Birincisi, onlar subyektiv xarakter daşıyır, çünki formal məlumatlardan çıxış edir. İkincisi, onlar süni vəziyyət yaradır, eksperimentə daha yaxındır, baxmayaraq ki, anketlər vasitəsilə tədqiqatların məqsədi həqiqəti təbii şəraitdə müəyyənləşdirməkdir.

Əgər siyasi hadisələr kənar müşahidəçilər üçün əlçatmazdırsa, onda onların bilavasitə iştirakçıları ilə aparılan müsahibələrin əhəmiyyəti getdikcə artır. Statistik materiallarının təhlili politologiya qarşısında yeni imkanlar açır. Müvafiq təhlil texnikasına malik tədqiqatçı toplanmış informasiyalardan özünə lazım olan məlumatları əldə edir, qanunauyğunluqları ardıcıl izləyir, meylləri aşkarlayır.

Politologiyada istifadə olunan eksperiment, oyunların modelləşdirilməsinin spesifik formalarında da tətbiq oluna bilər, əgər tədqiq olunan hadisə və ya proses politoloqu maraqlandıran oyun vəziyyətinin parametrlərinə uyğun gəlirsə, bu əməliyyat baş tutur. Bu və ya digər siyasi hadisənin (konflikt, danışıqlar, parlament iclasları və s.) inkişafını imitasiya etməklə (mümkün dəqiqliklə fikrində canlandırmaqla) tədqiqatçı ya real prosesin inkişafını əvvəlcədən görmək imkanı əldə edir, yaxud da onun daxili mexanizmini açır.

Sənədlərin öyrənilməsi prosesinə rəsmi materialların, parlament iclaslarının stenoqramlarının, partiya proqramlarının, rəsmi danışıqlar haqqında hesabatların və s. təhlili, eyni zamanda şəxsi sənədlər, gündəliklər, məktublar, memuarlar daxildir. Bu qəbildən olan mənbələrdən siyasətin öyrənilməsində ənənəvi olaraq istifadə edilir. Bu işdə kino, foto, fotosəhnələr, plakatlar, şəkillər və s. böyük əhəmiyyət kəsb edir.

Müsahibə **S.t.m.** kimi intervüdən onunla fərqlənir ki, o, ikitərəfli xarakter daşıyır. Sorğunun gedişində müsahibə alan əvvəlcədən bilir ki, müsahibindən nə soruşacaq, ondan hansı informasiyaları almaq mümkün olacaq. Söhbətdə iştirak edənlər tam bərabər vəziyyətdə olurlar. **S.t.m.**-nın müsahibə metodunda tədqiqat əvvəlcədən hazırlanmış ətraflı sxem olmadan keçirilir. Müsahiblə ünsiyyət ona uyğun bir leksikada, danışıq tərzində aparılır, ondan fərdiləşdirilmiş informasiya alınır, müsahibin şəxsiyyətinə diqqət artırılır, əməkdaşlıq etmək, ekspert olmaq üçün ona imkan verilir. Bütün bunlar isə ənənəvi intervü vaxtı mümkün olmur.

S.t.m.-nın başqa empirik tədqiqatlarına əlaqə-təhlil, genetik təhlil və s. daxildir.

S.t.m.-nın politologiya üçün ən əlverişli metodlarından biri də sistemli metoddur. Məhz yalnız bu metod tədqiqatçıya siyasəti kompleks proses kimi bütövlükdə öyrənməyə imkan yaradır, bu və ya digər siyasi hadisənin ümumi inkişaf fonunda daha vacib elementləri ortaya çıxarır, onların qarşılıqlı asılılığını və qarşılıqlı şərtləşməsini izləməyə imkan verir.

Konkret M. seçilməsi, ondan üstün amil kimi istifadə olunması həm tədqiqat obyektinin xarakterindən, həm də tədqiqatçının qarşıya qoyduğu məqsədindən və vəzifəsindən asılıdır.

SİYASİ TƏHLÜKƏSİZLİK - dövlətlərarası münasibətlərin beynəlxalq şəraitin

sağlamlaşdırılmasına, kütləvi qırğın silahlarının ləğvinə, yaxud azaldılmasına yönəlməsi. S.t-in başlıca qayəsi üçüncü ölkələrə ziyan yetirməməklə bərabərlik və eyni təhlükəsizlik prinsiplərinə riayət etmək, beynəlxalq münasibətlər praktikasında gücün tətbiqinə imkan verməmək, dövlətlərarası münasibətlərdə sabitliyin pozulmasına yol verməmək, dövlətlərin öz münasibətlərində dinc yanaşı yaşamaq, insan hüquqlarını qorumağa yönəlmiş beynəlxalq müqavilələri və təhəddüdləri yerinə yetirmək prinsiplərini rəhbər tutmasını, ətraf mühit n qorunmasını, qlobal problemlərin həllini təmin etməkdir. Beynəlxalq təhlükəsizliyə dünyanın bölünməzliyini, beynəlxalq münasibətlərdə qarşılıqlı asılılığı, növə müharibəsini aradan qaldırmağı, əməkdaşlığı və qarşılıqlı anlaşmanı müdafiə edən yeni siyasi təfəkkür xeyli təsir göstərir.

SİYASİ TƏXƏYYÜL - siyasətin mühüm, intuitiv və rasional yaradıcı elementi, qərar qəbulunun strategiyası, siyasi xətti həyata keçirməyin, böhranlı vəziyyəti müəyyənləşdirib qiymətləndirməyin əqli (intellektual) vasitəsi. **S.t.** həmişə, problemi və onun həlli yollarını görə bilən ekspert və məsləhətçilərin fikrinə əsaslanan, qeyri-adi siyasətçilərə xas olmuşdur. S.t. Didronun təsvir etdiyi kimi, "gələcəyi görən siyasi liderliyin" mühüm xüsusiyyətidir. **S.t.** "həsrəti çəkilən torpağı" görən Musa peyrəmbərə, qonşu dövlətlərin ərazilərini hesabına əzəmətli Rusiya arzusunda olan I Pyotra, XX əsrdə isə vətənlərini müstəqil, azad və qüdrətli görmək istəyən Atatürkə, Şarl de Qoll, Qandi və başqa görkəmli şəxsiyyətlərə xasdır. **S.t.**-ə arxalanmaq - nəinki naməlum bir istiqamətdə hərəkət etmək, həmçinin bu yolda yeniliklər həyata keçirmək, nəinki riskə yol vermək, eyni zamanda yeni imkanlar azmaq deməkdir. **S.t.** siyasətçilərə "gələcəyin obrazını qurub başa çatdırmağa" kömək edir o, elə bil ki, sosial maneələri qırıb dağıdır. Amerika aristokratı Hamilton öz əsərlərində demokratik dövlət olan ABŞ-ın gələcəyinin tam mənzərəsin təsvir etmişdir, artıq dövlətin təşəkkülünün ilk mərhələlərində

burjua və zadəganlar məzlumların bu ölkənin azadlığı uğrunda inqilabi hərəkatında iştirak edirlər.

S.t. marksizm və utopik sosializm də daxil olmaqla, müxtəlif utopik layihələrin mühüm sövqedici qüvvəsi, başlanğıc nüqtəsidir. Bununla belə, **S.t.** sonralar hamılıqla qəbul edilmiş - "Tapmaq" (gizli bir şeyi tapmaq) xarakteri və prinsipcə mümkün olmayan, yəni "Şişirtmə" xarakteri də kəsb edə bilər. Klassik utopik sosializm çərçivəsində birincidən daha çox (R.Ouenin sosial qanunvericilik prinsipi) ikinci variant (Ş.Furyeyə görə Falanster, "xoşbəxtlik formulası") vacib sayılırdı. **S.t.** praktikada yeni ekspressiv sistemlərin və siyasi davranışın yeniləşən nümunələrini əks etdirmək və ya götürmək axtarışında həlledici amillərdən biridir.

S.t.-ün məhsulu "xəyali", nə isə mümkün ola bilən, real tapılan və ya uydurulmuş və eyni zamanda həyata keçirilməzdir. Xəyali - əgər bu real gerçəkliyin obrazıdırsa onda siyasətin güclü amilidir. Yox, əgər bu bir fantaziyanın məhsuludursa və siyasətçi onu, arzu olunanı gerçəklik kimi qəbul edirsə (təxəyyülün özü kimi), bir əfsanə, mifə çevrilib çox təhlükəli şəkil alır. Məs., düşmənin hərbi əməliyyata başlayıb başlamamağına səhvən əmin olmaq, siyasi prosesin gedişində istənilən nəticələrin əldə ediləcəyinə səhvən inanmaq çox uğursuz nəticələrə gətirib çıxarır. Çünki real həyatda bunların heç biri istənilən nəticə ilə yekunlaşmır.

SİYASİ TƏRBİYƏ - zəhmətkeşlərin siyasi dünyagörüşünə və davranışına sistematik və məqsədyönlü təsir sistemi. Bu prosesə bütünlüklə ayrı-ayrı şəxslərin və qrupların siyasi və ictimai şüurunun formalaşması daxildir. **S.t.**-nin məqsədini, məzmununu və təşkilini mövcud cəmiyyətin siyasi sisteminin xarakteri müəyyənləşdirir və həmin cəmiyyətin maraqlarının mühafizəsi və onun inkişafına xidmət etmək məqsədi güdür. **S.t.**-nin əsas vəzifəsi mövcud siyasi sistemdə qüvvədə olan dəyərlərin, norma və ictimai şüurun normativ nümunələrini kütləvi surətdə öyrənilməsi, onlara riayət və əməl edilməsindən ibarətdir. Bu, mövcud sis-

temdə qəbul olunmuş siyasi mədəniyyət tipinin yaranması ilə əlaqədardır.

Siyasi tərbiyə prosesinə iki əsas komponent daxildir: lazımi siyasi informasiyanı yaymaq məqsədi güdən rasional və siyasi münasibətləri küll halında özündə birləşdirən emosional hisslər (bax; **SİYASİ MÜNASİBƏTLƏR**). Birinci komponent - siyasi təhsil sistemidir ki, bu prosesdə cəmiyyətin üzvləri lazımi qədər, minimum siyasi biliklərlə təmin olunurlar. Belə sistem həm geniş (totalitar variant), həm də nisbətən məhdud (demokratik) ölçüdə sərt ola bilər. əgər bu təhsil sistemi keçmiş SSRı-də siyasi təhsilin geniş miqyaslı şəbəkəsini nəzərdə tuturdusa və partiyanın sovet adamlarında marksizm-leninizm ideologiyasının və dünyagörüşünün formalaşmasında əsas təsir vasitələrindən biri hesab edilirdisə, ABŞ-da bu, Konstitusiyanın mühüm müddəalarının şərhinə xidmət edir, orta məktəblərdə isə insan hüquqları və Bibliya ilə tanış olmaq məqsədi güdür. Təbii ki, müvafiq olaraq, siyasi təhsilin həcmi və tədris metodu da birbirindən köklü şəkildə fərqlənir.

S.t.-nin ikinci komponenti də cəmiyyətin siyasi sistemi ilə təyin olunur və siyasi sahədə fəaliyyət göstərən emosional adamların formalaşması ilə bilavasitə əlaqədardır əgər bu tədris prosesi keçmiş SSRı-də əsas etibarilə şifahi formada aparılırdısa, ABŞ-da "soyuq müharibə" illərində, xüsusi ekspertlərin verdikləri məlumata görə, məktəb yaşına çatmış uşaqlar dünya dövlətlərinin bayraqları arasında "daha çox xoşa gələn", "cəlbedici" olduğu üçün ABŞ bayrağını seçir, ABŞ-la müttəfiq olan ölkələrin bayraqlarının üstünlüklərini qeyd edir, "Şərq blokuna" daxil olan ölkələrin bayraqlarının isə daha az cəlbedici olduğunu göstərirdilər.

S.t.-nin metodları əsas və ikinci dərəcəli olmaqla iki hissəyə ayrılır. Birincilərə aşağıdakılar daxildir: 1.Vacib informasiya və ona müvafiq arqumentlərlə möhkəmlənmiş əqidəinam; 2. Siyasi sistem kanonlarının adamlar tərəfindən qeyri-tənqidi qəbuluna əsaslanan təlqinetmə, inandırma; 3. Cəza sanksiyaları ilə möhkəmlənmiş məcburiyyət; 4. Davranış normalarının parlaq nümunələri ilə təsirli nüfuzedilməyə əsaslanan yamsılama. Köməkçi metodlara isə bunlar daxildir: 1. Siyasi simvollardan və mərasimlərdən istifadə; 2. Siyasi davranış normativləri müsbət stimullarla möhkəmləndirən mütəşəkkil stimullaşdırma (davranışa verilən qiymətdən xarakteristikalara və fəxri fərmana qədər); 3. "istiqamətləndirilmiş vəziyyət" tipli xüsusi sistemlə quraşdırılmış, vaxtaşırı keçirilən söhbətlər, "ictimai-siyasi attestasiyalar" və s.

S.t.-nin vasitə və üsulları müxtəlif xarakterlidir. Cəmiyyətin üzvləri arasında fərdi şəkildə aparılan S.t. xüsusi adamlara (təbliratçılara, komissarlara, siyasi işçilərə) mühüm təsir edir. Onlar xüsusi vəziyyətlər yaradır, gizli formada təsir edir və şəxsi nümunələr göstərirlər. S.t.-ni sosial qruplar səviyyəsində təşkil etmək üçün cəmiyyət üzvləri arasında yığıncaqlar və digər aksiyalar təşkil edilir. Daha böyük ictimai qruplar və birliklər üçün S.t.vasitəsi olmaq etibarilə, əsasən mitinqlər və nümayişlər təşkil olunur. Cəmiyyətin bütün səviyyələri və qrupları üçün S.t.-nin daha effektiv hesab olunan vasitəsindən - kütləvi informasiya vasitələrindən - mətbuat, radio və televiziyadan istifadə edilir.

Ən nəhayət, S.t.-nin bütün vasitə və metodlarının effektivliyinin meyarı sistemə adekvat olan ayrıca fərdin davranışıdır. Ona görə də S.t.-nin daha məhsuldar vasitəsi şəxsiyyətin arzu, istək və əqidəsinə əsaslanan özünü tərbiyə metodu hesab olunur. Özünütərbiyənin belə növündə siyasi özünütərbiyə, hərtərəfli biliklərə yiyələnmək üçün müstəqil mütaliə və kitab üzərində işləmək yolu ilə dünya və cəmiyyət, onların qarşılıqlı inkişaf qanunauyğunluqları haqqında ətraflı və dolğun məlumat əldə etmək mümkündür. Dünyanın bir sıra ölkələrində siyasi özünütəhsil bir sistem halına salınıb və xüsusi təşkilati formaları mövcuddur. (Məs. KXDR-da Koreya əmək Partiyası cəmiyyətin bütün üzvlərini hər gün, mütəmadi olaraq evdə özünütəhsillə məşğul olmağa məcbur edir, Kim ır Senin əsərlərini öyrənməyi və onları ailə dax-

ilində bir-birinə izah etməyi tələb edir).

S.t. siyasi sosiallaşmanın xüsusi bir halıdır. **S.t.** sosiallaşmanın məqsədyönlü vasitəsi kimi geniş miqyas ala bilər, ilk növbədə, şəxsiyyətin formalaşması prosesində uşaq bağçalarından başlamış, uşaq və gənclər təşkilatları xətti ilə çox iş görə bilər. **S.t.**-nin intensivlik dərəcəsi siyasətin və ideologiyanın cəmiyyətdə tutduğu xüsusi çəkisindən çox asılıdır: təhsil sistemi nə qədər yüksək səviyyədə olsa, **S.t.** də geniş masştabda və intensiv formada olacaq. Müasir dünyanın əksər ölkəsində təhsilin bütün növləri, o cümlədən **S.t.** də dövlət strukturuna daxildir və ya dövlətin nəzarəti altındadır, həm də hakim siyasi sistemə tabe deyil. Nəzarət sistemi isə cəmiyyətin demokratik strukturundan, onun plüralizm xarakterindən, **S.t.**-nin modelindən asılıdır.

SİYASİ TƏRİQƏTCİLİK - müttəfiqləri və sosial bazası ilə əlaqələri itirərək qapalı, özünü təcrid edən qrupa çevrilmiş partiyalarda və təşkilatlarda ifrat (sağ və ya sol) cərəyan.

SİYASİ TƏŞKİLAT - 1) öz mənşəyinə görə müxtəlif komponentlərin siyasi vasitələrlə ümumi sosial məqsədlər naminə sabit qarşılıqlı fəaliyyət sistemi (məs., cəmiyyətin **S.t.**-i), fəhlə sinfinin **S.t.**-ı, əhalinin **S.t.**-ı və s.); 2) insanların elə birliyidir ki, siyasi əməkdaşlıq əsasında ümumi siyasi məqsədə (yaxud, məqsədlərə) nail olmaq həmin birlik çərçivəsində qarşıya qoyulur.

SİYASİ TOLERANTLIQ (lat. tolerantia - dözüm) - bu və ya digər siyasi qüvvələrin öz cərgələrində başqa cür düşünənlərin mövcudluğuna hazır olmaqlarını əks etdirən mövqeyi: əgər bu qüvvələr hakimiyyətdədirlərsə, bu, onların konstitusiya çərçivəsinddə müxalifətin fəaliyyətinə yol verməsində təzahür edir. Ayrıca götürülən şəklin həyatında **S.t.** siyasi rəqiblərin fikrini dinləməyə hazır olmasında, onları inandırmaq səyində özünü göstərir. Siyasi mübarizədə öz mərlubiyyətini tanımağın ləyaqətli formaları praktikası partiyada və hərəkatda, həmçinin bütövlükdə bütün ölkədə **S.t.** iqliminin yaranması sübutlarından biridir.

SİYASİ UTOPİYA - siyasi prosesin və siyasi şüurun irrasional vəziyyəti: siyasi layihənin əvvəlcədən nəzərdə tutulmuş normal icrasına mane olur, onun son nəticələrini güclü şəkildə dəyişir və ya bu nəticələrin əldə olunmasını qeyri-mümkün edir. Lap əvvəldən, niyyətdən başlayaraq fərziyyəyə əsaslanan, arzu edilən, lakin yalnız güman olunan gələcəyin layihəsindən ibarət klassik sosial utopiyadan fərqli olaraq, **S.u.** qeyri-ixtiyarı, siyasi layihənin müəlliflərinin ümid və niyyətlərinin ziddinə olaraq meydana çıxır.

S.u.-nın meydana çıxması siyasi prosesin ehtimali xarakteri ilə, qanunauyğun olsa da, əvvəlcədən nəzərdə tutula bilməyən hadisələrin və gözlənilməz təsadüflərin mümkünlüyü ilə, prosesin ünsürlərinin - məqsəd və vasitələrin, metodların, ehtiyatların, idarəetmə və icranın və s. uzlaşdırılmasının mürəkkəbliyi ilə, informasiyanın çatışmaması, yaxud onun ötürülməsi, təfsir zamanı təhrif edilməsi ilə, siyasi fəaliyyətin iradi, emosional əsaslarının hadisələrin gedişinə labüd təsiri ilə, xarakterlərin, amirliyin toqquşması ilə müəyyənləşdirilir. Siyasi hərəkəti maksimum rasionallaşdırmaq cəhdi və bunun arzu olunan nəticələri vermədiyini, yaxud nəzərdə tutulmayan, ya da tamamilə gözlənilməz, arzuedilməz nəticələr verdiyini etiraf etməmək və ya başa düşə bilməmək **S.u.**-nın fərqləndirici cəhətidir. Siyasətdəki səhvlər nə qədər ciddi olsa da, bunlar hələ utopiya deyildir. Utopiya o *zaman yaranır ki*, bu səhvlər müəyyənləşdirilmir, xüsusilə səhvlər nəzərə çarpmadığı mərhələdə etiraf edilmir və düzəldilmir, layihənin icraçıları və onun müəllifləri xülyaların təsirində qalırlar.

Siyasətdə utopiya məcburi deyil, lakin mümkündür, siyasət üçün başlıca təhlükə onun imkanlarının vaxtında dərk olunmaması, layihənin yerinə yetirilməsinin gedişində utopik əsasların təzahürünü etiraf etməyi istəməməkdir. ıctimai və siyasi böhranlar, islahatlar, mühüm tarixi dəyişikliklər dövründə qeyri-ixtiyari, gözlənilməz və vaxtında müəyyən edilməyən utopiyaların yaranması təhlükəsi xüsusilə çox olur. Tarixdə uğurlu və uğursuz, sadəcə olaraq səhv siyasi layihələrə dair

çoxlu nümunələr var. Lakin cəmiyyəti, yaxud ayrı-ayrı qrupları çaşdıran, məqsəddən uzaqlaşdıran, elə buna görə də son nəticədə siyasətin yaradıcılarını və onun icraçılarının yanılmalarını və səhvlərini başa düşməyə mane olan utopik xülyaların ucbatından boşa çıxan layihələr də olmuşdur.

SİYASİ ÜSTÜNLÜKLƏR - üstünlük - nəsə ilk növbədə diqqət yetirməyə layiq olan, nədə birincilik əhəmiyyəti kəsb etdiyinə görə qüvvə sərf etməyinə dəyən - mənasındadır. Daha tez-tez elmi və texnoloji üstünlüklərdən bəhs olunur ki, bunların da qanunlar və qaydalar əsasında müvafiq üstünlükləri təsbit edilir. Qanun üstünlüyü (dəyərlər, ideyalar, məsləklər) başqa qanunlara (qərarlara, dəyərlərə, məsləklərə) tabeliyi nəzərdə tutur. Diplomatik təcrübədə bu, beynəlxalq təşkilatlara onların yerləşdiyi ölkələrdə fəaliyyətlərini həyata keçərkən imtiyazlar formasında ifadə olunur. Politoloji mənada "üstünlük" termini siyasi qərarların müəyyənləşdirilməsi və həyata keçirilməsi gedişində başlıca istiqaməti göstərmək üçün XX əsrin 20-ci illərində işlədilir. Ümumbəşəri dəyərlərin sinfi dəyərlərdən üstünlüyü ideyasının 80-ci illərin ortalarından səslənməyə başlaması isə terminin şöhrətini daha da artırdı. Onların sırasına həyatın özünün saxlanması, sivilizasiyanın və onun dayaqlarının inkişafı, təbii mühitin mühafizəsi, aclıq və xəstəliklərlə mübarizə daxildir; bu məqsədlərin üstünlüyü "siyasətin humanistləşdirilməsi" anlayışı ilə əhatə olunur və yeni siyasi təfəkkür çərçivəsində əsaslandırılırdı. əvvəllər ayrı-ayrı mütəfəkkirlərin (Volter, İ.Kant, L.Tolstoy, M.Qandi, B.Rassel, A.Eynşteyn, Martin Lüter Kinq, A.Saxarov) dərk etdiyi kimi, ümumbəşəri dəyərlərin qanuniliyi və zəruriliyi bu gün, hətta hər hansı xarakterli dövlət-siyasi qurumları üçün qeyd-şərtsiz, hamı üçün məcburi üstünlüklər sayılır. Bu, xüsusən ona görə aktual və əhəmiyyətlidir ki, XX əsrin ikinci yarısında tarixi təcrübənin göstərdiyi kimi, belə dəyərlərin hətta lokal miqyaslarda aşınmaya uğraması (marksizm naminə Kamboçiyada olduğu kimi, yaxud

Cilidə Pinoçet diktaturasının ilk mərhələlərində marksizmlə mübaribənin zəruriliyi pərdəsi altında, Səddam Hüseyn tipli liderin cəsurluğu naminə, yaxud Rumıniyada olduğu kimi, hər hansı siyasi liderin yox edilməsi naminə) bütövlükdə sivilizasiya üçün fəlakətdir. Bu gün dünyanın vahidliyi hamı üçün hiss edilən gerçəklikdir, hətta məhəlli münaqişələr belə qlobal nəticələr doğura bilirsə (Küveytdə neft yanğınları nəticəsində iqlim dəyişiklikləri), o zaman, təcavüzün hər yerdə aradan qaldırılması, yaxud dayandırılması, qarşılıqlı güzəştlər yolu ilə gərginliyin məhəlli ocaqlarının yox edilməsi, ölkələrin daxilində konfliktlərin siyasi vasitələrlə nizama salınması - üstün məqsəddir. Bu zəmində davakar millətçiliyin və dini təməlçiliyin yalançı üstünlük məqsədləri və dəyərləri xüsusilə təhlükəlidir; üstəlik də, milli, yaxud dini müstəsnalığa söykənmək ideyası əvvəlki "amansız sinfi mübarizə" çağırışları qədər qorxuludur. əslində isə, milli üstünlüklərin saxlanması, bu gün beynəlxalq üstünlüklərin tamamilə tanınmasını nəzərdə tutur. Bu, BMT-nin nüfuzunun artıq təkcə formal tanınmasında deyil, həm də onun siyasi xəttinin real və getdikcə daha çox müdafiə olunmasında təzahür edir. Eyni zamanda beynəlxalq siyasi konfliktlərin həlli modeli daxili konfliktlərin həlli üçün də və əksinə tətbiq edilə bilər. Məhv olmaq təhlükəsi qarşısında qalmış bəşəriyyətin yaşamasının ümumi üstünlükləri xarici və daxili siyasətin nisbətində yeni keyfiyyətlər nəzərdə tuturlar. Bu gün artıq heç kəsi inandırmaq olmaz ki, üstünlüklərin bir hissəsi "ixrac" üçündür, digər hissəsi isə ölkə daxilində tətbiq edilməlidir. Sosial-iqtisadi dəyişikliklərin gedişində **S.ü.**-in əvəz edilməsinin ən mühüm anları - demokratiya mexanizmlərini kütlələrə deyil, hərtərəfli təminatla fərdə, insan hüquqlarına səmtləndirmək; sosial tənzimləmə vasitəsi kimi qanuna söykənmək və bununla əlaqədar dövlət hakimiyyətinin və siyasi institutların gələcək strukturlarını müəyyən etməkdir (hakimiyyət bölgüsü, "özünü saxlamaq və müqabil tərəfi nəzərə almaq" prinsipi, bir par-

tiyalılığı çoxpartiyalılıqla əvəz etmək, ictimai və vətəndaş hərəkatlarını fəallaşdırmaq, sosial təşəbbüsləri həvəsləndirmək, həqiqi və konstruktiv aşkarlığı təmin etmək). Buna görə də demokratik sivilizasiyalı cəmiyyətin yolu bütövlükdə iqtisadiyyatın və siyasətin, siyasətin və mədəniyyətin, siyasətin və sosial həyatın müxtəlif sahələrinin təsir dairələrini hər cəhətdən məhdudlaşdırmaqdan ibarətdir. S.ü.-in dəyişdirilməsi bu gün fərdiyyətçiliyin - əvvəllər, ancaq "burjua" və "kollektivizmin", yalnız "kommunist əxlaqının ən mühüm tələbinin", "sosialist həyat tərzinin əhəmiyyətli cəhəti"nin yenidən qiymətləndirilməsinə gətirib çıxarır. Fərdiyyətçilik bu gün Azərbaycanda həm də fəal sosial və siyasi strukturların möhkəmlənməsi şərti, könüllü siyasi cəmiyyətlərin çıxış nüqtəsi və əsas ünsürü kimi şərh edilməyə başlanır. İnsanın hüquq və azadlıqlarının, siyasi, iqtisadi, sosial, mədəni sahələrdə imkanların və qanuni iddiaların yenidən mənalandırılması da bununla əlaqədardır. Bununla bağlı olaraq fərd hər bir cəmiyyətdə siyasi, iqtisadi və mənəvi strukturların yeniləşdirilməsinin başlıca mənbələrindən biri, sivilizasiyalı cəmiyyətin yaranmasının, dövlət və siyasi təsisatlara səlahiyyətlərin verilməsinin (çoxpilləli) başlanğıc nüqtəsi kimi çıxış edir. Eyni zamanda, ənənəvi olaraq fərdiyyətçilik prinsiplərinə istinad edən cəmiyyətlərdə kollektivçilik (kommyunitarizm) prinsipi dərk edilir və ondan istifadə olunur ki, bu da xüsusən Bellaxın digər müəlliflərlə birgə yazdığı tədqiqat kitabında amerikalıların hər yerdə və həmişə cəmiyyətlərə bağlılığı ideyasında təsdiq edilmişdir. Amerikaya birinci olaraq küçüb gələn sakinlər, - istiqlaliyyət bəyannaməsini imzalayan yeni dövlətin vətəndaşları - piliqrimlər məhz cəmiyyət olmuşlar. XIX əsrdə vətəndaş müharibəsində azadlıq uğrunda mübarizlərin /abolisionistlərin/ fəaliyyətində kollektivizm öz təzahürünü tapdı. XX əsrdə gənc amerikalıların 60-70-ci illərdə kommunalar yaratmaq hərəkatı onların kollektivizmə sədaqətinin yeni sübutu oldu. Futuroloq Nesbit qeyd edir: "Cə-

miyyətin onsuz da bəlli olan əhəmiyyəti gələcəkdə daha da artacaqdır". Fərdiyyətçiliyin və kollektivçiliyin yeni nisbəti problemi siyasi həyatın əxlaqi-etik meyarının səciyyəsində başlıca yer tutur; yeni S.ü. iqtisadi, sosial, mənəvi həyatın, prinsipcə yeni əsaslarda, təbiətin bir hissəsi kimi bəşəriyyətin onun mühafizə olunmasını dərk etməsi üstünlükləri ilə qırılmaz bağlıdır. Tarixi-siyasi planda S.ü.-in dəyişməsi labüddür, lakin olduqca tez-tez baş verdikdə çox ağrılı keçir. Məs, sovet dövlətində onun mövcud olduğu ilk mərhələlərdə tam olmayan on beş il ərzində üstünlüklər, demək olar ki, fasiləsiz dəyişirdi, əlbəttə, bütün bunlar əhalinin əksəriyyətinin şüurlu və könüllü qəbul etmədiyi "sosializm yolu" ilə, rəsmi bəyanatlarla edilirdi. 1917-18-ci illərdə kommunizm, 1921-ci ildə YıS, 1929-cu ildə - sənayeləşdirmə, 1930-cu ildə - kollektivləşmə. 1939-cu ildə xarici siyasət üstünlüklərinin dəyişdirilməsinin məqsədi və əhəmiyyəti hələ də müəyyən edilməmişdir. 30-cu illər beynəlxalq miqyasda da üstünlüklərin ağrılı dəyişiklikləri dövrüdür. Almaniyada nasistlər hakimiyyətə gəlmiş, ABŞ-da "yeni xətt" elan edilmiş, Yaponiyanın Asiyada təcavüzkarlıq cəhdləri güclənmiş, İspaniyada vətəndaş müharibəsi alovlanmışdı. Bütövlükdə 30-cu illərdə Keyns sosial-iqtisadi vəziyyəti təhlil edərək göstərirdi ki, bu dövrün ən əhəmiyyətli anlarından biri milli iqtisadiyyatların özünü təmin etməsi prinsipinin heç olmazsa, Avropada iqtisadi əməkdaşlığın zəruriliyi üzərində üstünlük təşkil etməsi olmuşdur. İkinci dünya müharibəsindən sonra iqtisadi əməkdaşlıq və hətta iqtisadi inteqrasiya Avropada aparıcı dövlətlərin S.ü. oldu. 70-80-ci illərdə xarici, sonra isə həm də daxili S.ü.-in dəyişdirilməsi başqa xarakter daşıdı. Bu yolda - Avropada təhlükəsizliyə və əməkdaşlığa dair 1975-ci il Helsinki müşavirəsində müvəffəqiyyətlə nəticələnmiş beynəlxalq gərginliyin zəiflədilməsi siyasəti, Cenevrədə, Reykyavikdə, Vaşinqtonda, Moskvada, nəhayət, 1989-cu ildə Maltada sovet-Amerika görüşləri, başlıcası isə müharibə təhlükəsini bəşəriyyətin həyatın-

dan kənar etmək üçün konkret addımlar atılması mühüm mərhələ və dönüş nüqtəsi oldu.

S.ü.-in dəyişilməsi həyatın başqa sahələrində də üstünlüklərin dəyişilməsinin nəticəsidir. Məs, müharibə əleyhinə, insan hüquqlarını müdafiə, gənclər, ekoloji feminist hərəkatları axını təşkil edir ki, bu gün onların ümumi məqsədinin qərarların qəbulunda vətəndaşların iştirakını genişləndirməkdən, bəşər sivilizasiyası dayaqlarını qorumaq və möhkəmləndirməkdə dövlət və siyasi strukturlarının məsuliyyətini artırmaqdan ibarət olduğu aydın görünür. Hazırda fərd, sosial qrup, dövlət birləşməsi prosesinin qloballaşması, tamın (bəşəriyyətin) hissə (dar milli mənafelər) üzərində üstünlüyünün tanınması baş verir. Hərçənd, dövlət hakimiyyətinə münasibət daxili siyasi proseslərin üstün məqsədi olaraq qalır və indi o, xüsusilə ağrılı keçən terror, millətçilik çılğınlığı, mitinqçilik nəticələri ilə fərqlənə bilər, - qeyri-dövlət ictimai-siyasi qruplaşmalarının və hərəkatlarının fəallığı artır. Fərdlərin və qrupların ictimai fəaliyyətinin güclələnməsi, özünüidarə əsaslarının möhkəmlənməsi, siyasi plüralizm ruhunda yeni "oyun qaydaları"nın öyrənilməsi "möhkəmlik sınağı"ndan keçən müasir siyasi prosesin səciyyəvi cəhətləridir.

SİYASİ ZAMAN - Siyasi problemlərin və hadisələrin, siyasi ideya və nəzəriyyələrin vaxt ölçüsünü, siyasi modelin müəyyən tarixi vaxt ərzində fəaliyyətini, siyasi məkana, məzmuna görə ölçüsünü və s. bildirir. **S.z.** – astronomik, xronoloji ardıcıllıq bildirir. **S.z.** siyasi hadisələrin və proseslərin gedişini və finalını özündə birləşdirir.

Astronomik və xronoloji zamandan fərqli olaraq siyasi zaman müxtəlif siyasi hadisələr, partiyalar, liderlər və s. üçün eyni vaxt ərzini nəzərdə tutmur. Onların biri üçün tez, digəri üçün isə gec ola bilər. Məs., uzun müddət davam edən siyasi zaman sosial və tarixi zamana keçə bilər. (Müharibədən əvvəlki, müharibədən sonrakı dövrlər).Siyasi zaman konkret bir tədbirin həyata keçirilməsi ilə başa çata bilər: parlament, prezident seçkiləri və s.

S.z. gedişində böhran yarana bilər, inqilablar, hakimiyyətin dəyişilməsi və b. anlarda imkanın əldən verilməsi, itirilməsi. Vaxtdan səmərəli istifadə siyasətin və hakimiyyətin səmərəli fəaliyyətinin ölçüsüdür. Zaman – siyasətin və hakimiyyətin qüdrətli mənbəyidir. Vaxtın udulması siyasətin əsas məqsədlərindəndir. Rəqibi qabaqlama, zamanla manevr etmək siyasi strategiya və taktikanın əsas qaydalağından sayılığ.

SOLÇULUQ - geniş sosial məqsədlərə çatmaq üçün zorakılıq vasitələrinin tətbiqinin istisna etməyib inqilabi dəyişiklikləri nəzərdə tutan siyasi xəttin radikallaşdırılmış ifadəsi; çox vaxt azadlıq, bərabərlik, qardaşlıq, hakimiyyətsizlik və s. kimi emosional, yaxud uydurma şüarlarla bağlı olur. Siyasətçilərin "sollara" və "sağlara" bölünməsi 1789-94-cü illər Böyük Fransa inqilabi dövrünə gedib çıxır. O zaman Fransada ali nümayəndəli orqanın - Baş ştatların deputatları iki qrupa bölünmüşdü: kralı dəstəkləyənlər iclas salonunun sağ tərəfində, onun əleyhdarları isə sol tərəfdə otururdular. Lakin hələ bundan əvvəl də sağçılıq düzgünlüyün, solzuluq isə şeytan qüvvələrə yaxınlığın rəmzi kimi başa düşülürdü. Belə hesab edirlər ki, sollar dəyişikliklərə, bərabərliyə, sağlar isə ənənəyə, guya həqiqi azadlığı təmin edən cəmiyyətin iyerarxiyalılığına meyl edirlər. Siyasətdə sol qüvvələrin ifrat təzahürü olub, destruktiv və anarxist səciyyə daşıyan **S.** gələcəyə ümid bəsləyən tələbələri, sinfi simasını itirmiş lümpen proletarları, əsasən işsiz gəncləri, ziyalıların sosial temperamentinə görə qeyri-sabitliyə meylli qismini əhatə edir. Sosial-sinfi zülmlə yanaşı, əlavə problemlərlə qarşılaşan irqi və etnik azlıqların nümayəndələri, feministlərin, "ifrat yaşılların" bir hissəsi və başqaları da **S.**-a meylli olurlar. Bir sözlə, cəmiyyətin istənilən sosial təbəqəsinə mənsub olan "kəskin hisslər" tərəfdarları **S.**-a meyl edirlər. Siyasi fəlsəfə kimi volyuntarizm, proqramlardakı ifrat inqilabçılıq, siyasi praktikada avantürizm, "inqilabi partlayışı" (guya bundan sonra hər şey öz-özünə yeni şəkildə qaydaya düşəcəkdir) məqsəd saymaq **S.**-un ayrılmaz xüsusiyyətləridir. **S.** əksyönümlü

qüvvələrin həyata keçirdikləri siyasi fırıldaqlar üçün yaxşı pərdədir. S. uzun çəkən böhranlı proseslər (60-cı illərin gənclər hərəkatı) zamanı da meydana çıxır. Siyasətdə zorakılığı dəstəkləmək, iqtisadiyyatda sərişdəsiz, lakin tələsik qərarların tətbiqi, mədəniyyət sahəsində yalançı "xilasedici" tədbirlər görülməsi S. üçün yad deyildir. Həm də bu azadlıq barədə moizələr ən vulqar bərabərçilik və avtoritarizm ilə birləşdirilə bilər. Lenin öz dövrü üçün S.-un nümunəsi olan "solluq uşaq xəstəliyi"nin politoloji təhlilini vermişdir. Lakin inqilabın və proletariat diktaturasının labüdlüyü barədə onun müdafiə etdiyi ideyanın özündə də tənqid etdiyi fenomenin əlamətləri var idi. Siyasi fəallıq tərzi kimi S. 60-cı illərin gənclər hərəkatlarında (qoşizm, "yeni solların" fəallığı, üsyankarlıq formasında) və hətta geniş şəkildə ictimai hərəkatlarda üstün yer tuturdu. 70-ci illərdə hər yerdə S.-un zəifləməsi, 80-ci illərdə isə hətta "sollar Reyqan uğrunda" hərəkatı ("korrupsiyaya qurşanmış üçüncü dünyanı" dəstəkləməkdən, sovet totalitarizminin bağışlanmasından tamamilə imtina etmək məqsədilə 1984-cü ildə təşkil olunmuşdu və anti-amerikanizm şəraitini riyakarlıqla, bilərəkdən gərginləşdirirdi) kimi "qeyri-təbii" fenomenlər də müşahidə olunurdu.

Lakin sollar və sağlar arasında sərhədi qəti müəyyənləşdirmək çətindir. S. ruhlu bir sıra siyasi təşəbbüslərin perspektivi yoxdur, "avanqard" partiyaların ("qara bəbirlər" və s.) ekstremist sosial bazası məhduddur. S.-dan imtina ümumən solların hərəkatında yeni istiqamətlər axtarıldığını göstərir. Lakin özlərinin sosial fəallığını yenidən nəzərdən keçirən "yeni solların" xeyli hissəsinin elan etdikləri "sol radikalizmə dair rekviyem" siyasətdə S.-un tamamilə aradan qalxması və inqilabi idealın müvafiq şəkildə təfsiri demək deyildir. əvvələn, ona görə ki, "yeni solların" və hətta S. tərəfdarlarının siyasi təşəbbüslərinin bir çoxu bələdiyyə idarəçiliyi strukturları səviyyəsində həyata keçirilir. ikincisi, yeni radikalizmə ümid bəsləyən, idarəetməyə dair qərarların qəbul olunmasında birbaşa iştiraka meyl edən "ağ"

və "göy" yaxalıqlıların yeni koalisiyası yaranır. Üçüncüsü, sol təşəbbüslərin bir çoxu mərkəzçi və sol siyasətçilər tərəfindən nəinki, rədd olunmamış, hətta müəyyən dərəcədə sabitləşmişdir. Ona görə də fəallığın yeni sahələri axtarılır (ekoloji və müharibə əleyhinə hərəkatlar, keyfiyyətcə yeni hakimiyyət strukturlarının axtarılması, mədəniyyət sahəsində sanballı iş). Belə halda əslində S.-dan danışmaq lazım gəlmir, onun ifratçılığı azalır. S.-un keçmiş tərəfdarları arasında yeni texnologiyalar əsrində son dərəcə güclənmiş elitar strukturlara qarşı dayanan geniş demokratik nəzarət ideyası üstün yer tutmağa başlayır. Demokratik sosializmdən (harrinqton) gələn bu ideya Qərbin gəncləri arasında getdikcə daha geniş yayılır.

SOL SOSİALİSTLƏR (sosial - demokratlar, leyboristlər) - Sosialist internasionalına daxil olan partiyaların üzvlərinin ideya-siyasi münasibət baxımından daha fəal hissəsi. Özünün sosial tərkibinə görə, daha çox tələbə və məktəbli gəncləri, ziyalıların bir hissəsini, həmkarlar ittifaqları fəallarını əhatə edir.

S.s. 70-80-ci illərdə bir sıra partiyalarda bütöv təşkilatlara (Almaniya sosial-demokrat partiyasında "Gənc sosialistlər", Fransa Sosialist Partiyasında "SERES", Böyük Britaniyanın Leyborist partiyasında "Tribun") nəzarət edirdilər. S.s. ideologiya məsələsində kapitalizmə münasibətdə tənqidi mövqe tutur, öz partiyalarının rəhbərliyindən antiinhisar, demokratik islahatların irəli sürülməsini və gerçəkləşdirilməsini tələb edirlər. Bir qayda olaraq, onlar kütləvi mübarizənin (tətillər, nümayişlər) iştirakçıları olur, sağ təhlükəyə qarşı qəti çıxış edirlər. Xarici siyasət sahəsində S.s. müharibə təhlükəsi, irqçi qüvvələrin fitnəkarlıqları əleyhinə daha ardıcıllıqla çıxış edir, beynəlmiləl mövqelərə tərəfdar çıxırlar. S.s. müharibə əleyhinə hərəkatın sıralarında fəal çıxış edirlər. Kütləvi hərəkatların iştirakçıları kimi onlar yerli kommunistlərlə tez-tez əməkdaşlıq edir, çox vaxt hakimiyyət orqanları, bu və ya digər partiyaların rəhbərliyi tərəfindən təqiblərə məruz qalırlar.

S.s. öz fəaliyyətlərində ardıcıl olmasalar da, bütövlükdə sosial-demokrat hərəkatı daxilində müsbət meyllərin inkişafına kömək edən mütərəqqi istiqamət sayılırlar.

SORĞU - deputatlar tərəfindən baş nazirə, yaxud nazirin ünvanına göndərilmiş, hər hansı bir nazirliyin, yaxud başqa bir idarə və müəssisənin ümumi siyasəti, yaxud fəaliyyəti haqqında izahat verilməsini istəyən iddia, tələb. S. əksər hallarda cəmiyyətdə narahatlıq doğuran hər hansı faktla əlaqədar meydana gəlir. Ona görə də S. ümumi müzakirəyə səbəb olur, sonra isə siyasi sanksiyaya - həmin nazirin izahatının qənaətbəxş, yaxud qeyri-qənaətbəxş olması haqqında səsvermə prosesinə gətirib çıxarır. Bəzi hallarda müzakirə həmin nazirə və ya bütün hökumətə etimadsızlıq göstərilməsi haqqında məsələ qaldırılması ilə nəticələnir. S. təkcə hər hansı məsələ haqqında informasiya almaq üçün deyil, həm də deputatlar tərəfindən müxtəlif məsələlərə birbaşa nəzarət etmək üçün çox təsirli vasitədir.

Bu, parlament həyatının və fəaliyyətinin demokratikləşməsi şəraitində S.-nun rolunun qat-qat artması ilə izah olunur. Güclü irtica şəraitində isə bu hüquqlar məhdudlaşdırılır, yaxud da bütünlüklə ləğv edilir.

Həmin proses Qərbi Avropa dövlətlərinin əksəriyyətində qəti şəkildə qanunilaşdirilmiş və nizama salınmışdır. Məs., Finlandiyada S. o zaman qüvvəyə minir ki, onu imzalayan deputatların sayı 20-dən az olmasın. AFR-də imzaların sayı 30-dan əskik olmamalıdır ("Böyük sorğu"). İsveçdə isə S. yalnız parlament tərəfindən icazə verildikdən sonra irəli sürülə bilər.

Nazirin mütləq cavab verməsi vacibdir və bunun üçün də vaxt (iki həftə) təyin edilmişdir. Dövlətin, yaxud nazirin cavabı ilə əlaqədar geniş müzakirə gedir. S. əməliyyatı dövlətlərin heç də hamısında mövcud deyildir. Suallar və tələblər heç də həmişə sanksiyanın qəbulu üçün şərait yaratmır. Buna baxmayaraq, parlament iclaslarında belə imkandan daha geniş istifadə olunur. Bir sıra dövlətlərdə həmin prosesin geniş tətbiqinə müəyyən məhdudiyyətlər qo-

yulmuşdur. Belə ki, Fransada S. şəxslərin üçdə birinə toxuna bilməz. S.-da hər hansı bir epitetin işlədilməsinə, fikrin sorğu şəklində ifadə edilməsinə, verilmiş sualların təkrar olunmasına, palata tərəfindən qəbul edilmiş qərarların tənqidinə, sarayın rütbəli adamlarının fəaliyyətlərinə toxunmağa, xüsusi firmaların işinə, gizli məsələlərin şərhinə, eyni zamanda nazirin parlament qarşısında cavabdehlik daşıdığı məsələlərə toxunmağa icazə verilmir. S.-da mətbuat xəbərlərinin yoxlanılmasını tələb etmək olmaz.

S.-ların və onlara verilən cavabların təşkilində palata spikerinin böyük rolu var: o, sual və sorğu ilə çıxış etmək istəyən deputatı seçir, müzakirəni istədiyi vaxt kəsə və növbəti məsələyə keçə bilər. O, eyni zamanda İngiltərənin təcrübəsində mövcud olan nazirin cavabından sonra deputatların sual verməsi əməliyyatını da idarə edir. Əgər S.-da dövlətin mənafeyinə toxuna biləcək məsələ varsa, nazir bu S.-ya cavab verməyə bilər.

Fransada S.-lar müvafiq palatanın sədrinə təqdim olunur. Sədr isə onları hökumətə verir. S.-lar daxil olduqca xüsusi kitabda qeyd olunur və parlamentin xəbərlərində dərc edilir. Fransada Milli Məclisin cümə axşamı günlərində keçirilən iclasları və Senatın çərşənbə axşamı günündə olan iclasları şifahi S.-lar üçün ayrılır. Eyni zamanda hər iclasın birinci yarısı müzakirəsiz S.-lara həsr olunur. Məsələlər fraksiya sədrlərinin konfransında gündəliyə daxil edilir; müzakirə zamanı bir-birinə oxşar, biri digərini təkrarlayan məsələlər birləşdirilir, şifahi S.-lar yazılı S.-lar siyahısına keçirilir, məsələlərin ardıcıllığı dəyişdirilə bilər və s.

Müzakirəli şifahi S.-lar palatanın sədri tərəfindən elan edilir, çıxışlar üçün 15 dəqiqədən 30 dəqiqəyə qədər reqlament ayrılır. Şifahi S.-ya cavab verəcək nazir hazırdırsa cavab verir, hazır deyilsə, yaxın iki iclasdan birində cavab verməli olur. Cavabdan sonra sədr müzakirəni təşkil edir, yazılanlara növbə ilə söz verir və reqlamentin pozulmamasına nəzarət edir.

Müzakirəsiz S.-ların müəllifləri 5 dəqiqədən çox olma-

yaraq danışa bilər. Replikalara icazə verilmir. əgər iclas zamanı məsələ qaldırmış deputat iclasda iştirak etmirsə və onu əvəz etmək üçün həmkarlarına tapşırıq verməyibsə, onda bu məsələ gündəlikdən çıxarılır. əgər cavab verəcək nazir iclasda iştirak etmirsə, məsələ növbəti günə keçirilir və iclasın əvvəlində ona söz verilir.

Yazılı **S.** müvafiq iclasın stenoqramından sonra parlamentin xəbərlərində tam şəkildə, heç bir ixtisara yol verilmədən dərc olunur. Yazılı S.-ya nazir bir ay müddətində cavab verməlidir. əgər S.-da qaldırılan məsələdə "ictimai mənafeyə" toxunacaq faktlar varsa, onda nazir cavab verməkdən imtina edə bilər. Eyni zamanda o, cavab üçün daha bir ay əlavə müddət tələb etmək hüququna malikdir.

Deputatın razılığı ilə yazılı **S.** şifahi S.-ya çevrilə bilər. **Deputatlar S.** prosedurasına tez-tez müraciət edirlər, çünki bu proses inzibati məsələlər üzrə məsləhət vermək üçün bir vasitədir. Ona görə də belə bir qayda qoyulmuşdur ki, deputat sorğularına nazirlərin verdiyi cavablar hüquqi sənəd hesab edilə bilməz. Belə bir qayda seçki kampaniyası dövründə bəzi deputatların nazirlərin cavablarından sənəd kimi istifadə etməyə çalışdıqlarına görə tətbiq edilmişdir.

Böyük Britaniyanın palatasında həftənin bazar ertəsi, çərşənbə axşamı, çərşənbə və cümə axşamı günlərində keçirilən iclasların əvvəlində şifahi S.-lar üçün bir saat vaxt ayrılır. iclaslarda S.-lara cavab verəcək nazirlərin siyahısı əvvəlcədən dərc edilir. Hər bir deputat bir gün ərzində yalnız 3 sualla müraciət edə bilər və bu haqda o, ən azı 48 saat əvvəl palatanın qulluqzularını xəbərdar etməyə borcludur. S.-lar yazılı şəkildə verilir. Cavablar isə həm yazılı, həm də şifahi ola bilər. lakin hər iki halda parlament iclaslarının protokollarına daxil edilir. S.-lara cavab verəcək nazirlərin növbə siyahısı həftədə bir dəfə dəyişdirilir və çıxış edəcək nazirlər fraksiyanın məsləhəti ilə təyin edilir.

S.-ların və cavabların mübadiləsi mərasimini spiker nəzarət edir. Cavab üçün ad elan edilən nazir siyahıdakı ömrəsini deməlidir. Nazir cavab verdikdən sonra deputat ona əlavə sual vermək və cavab almaq hüququna malikdir. Hər S. ətrafında sual-cavab mübadiləsinə bir neçə dəqiqə vaxt sərf olunur. Müzakirədə başqa deputatlar da iştirak edə bilərlər. Spiker bu müzakirəni dayandırıb növbəti məsələyə keçə bilər. Çıxışların yığcamlığına nəzarət olunur. Belə ki, bəzən bir saat ərzində 50 cavab dinlənilir.

Deputat S.-ları hakimiyyət orqanlarının icra fəaliyyətinə nəzarət etmək vasitəsidir. Nazirlər və digər məmurlar müxtəlif informasiyalar və faktlar ətrafında çıxış edərkən, prinsip etibarilə heç bir təsirə məruz qalmırlar. əksər hallarda cavablar elə hazırlanır ki, çıxış vaxtı heç bir əlavə suala və şübhəyə ehtiyac olmasın. Bir dəfə qaldırılan məsələ ikinci dəfə qaldırıla bilməz.

Bütün bunlara baxmayaraq, əksər hallarda S. və cavablar üçün ayrılmış vaxt siyasi problemlərin müzakirəsinə sərf edilir. Burada təkcə sıravi deputatlar deyil, eyni zamanda fraksiya rəhbərləri də fəal iştirak edirlər.

Deputatlardan alınan S.-ların sayı müxtəlif ölkələrdə müxtəlif miqdardadır. Məs, Fransada deputatlar il ərzində Milli Məclisə 300-350, Senata isə 100 sorğu ilə müraciət edirlər. ingiltərədə isə S.-ların sayı xeyli çoxdur və son illərdə daha da artmışdır. Belə ki, 50-ci illərdə orada 15 min, 80-ci illərin əvvəllərində isə 40 minə yaxın **S.** verilmişdi. Yazılı S.-ların sayı xüsusilə artmış, əsrin birinci yarısında onların sayı 20-dək 80-ci illərin əvvəllərində 100-200-ə qədər yüsəlmişdir.

SOSİAL-DEMOKRATİYA - bir çox ölkənin fəhlə və demokratik hərəkatında nüfuzlu qüvvə. Dünyada 17 milyondan artıq adamı birləşdirən sosial-demokrat iqtisadi meylli 80-dən çox partiya var. inkişaf etmiş kapitalist, ölkələrində, xüsusi beynəlxalq sosial-demokratiyanın ənənəvi mərkəzi sayılan Qərbi Avropada **S.d.**-nın mövqeləri daha nüfuzludur. XX əsrin 70-ci illərinin axırı, 80-ci illərin əvvəlində Latın Amerikasında **S.d.**-nın yeni mərkəzi yaranmışdır. 1989-90-cı illərdə isə Şərqi Avropa ölkələrində və keçmiş

SSRİ ərazisində yaranmış müstəqil dövlətlərdə, o cüml., Azərbaycan Respublikasında sosial-demokrat tipli partiyalar meydana gəlmişdir.

Müxtəlif ölkələrdə sosial-demokrat partiyalarının mövqeyi, rolu və fəaliyyəti bəzən bir-birindən xeyli fərqlənir. Lakin onların əsas ideoloji və siyasi istiqamətləri, sosial bazası, təşkilat prinsipləri, fəaliyyətinin forma və metodları bir çox cəhətdən oxşardır. Ona görə də bu partiyaların əksəriyyəti Sosialist İnternasionalına daxildir və onun qərarlarını dəstəkləyir.

Sosial-demokrat partiyaları XIX əsrin axırı XX əsrin əvvəlində fəhlə sinfinin partiyası kimi yaranmışlar. Hazırda onların sosial tərkibi və xarakteri xeyli dəyişmişdir. Bu, cəmiyyətin sosial strukturunun dinamikası, sosial-demokrat partiyalarının ideoloji və siyasi mövqelərinin təkamülü, onların liderlərinin bu partiyaların məhdud sinfi xarakterini aradan qaldırıb əməkçilərin və hətta bütün xalqın partiyasına çevirmək səyləri ilə əlaqədardır. Ona görə də hazırda bu partiyalara üzv olanlar və onları müdafiə edənlər, təkcə fəhlələr deyil, həm də qulluqçular, kəndlilər, mühəndis-texniki işçilər, yaradıcı ziyalıların nümayəndələri, dövlət aparatında çalışan məmurlar, xırda sahibkarlar, tələbələr, təqaüdçülər və başqalarıdır.

S.d.-nin bazasının geniş olması bu partiyaların gücünün və təsirinin mənbəyi olub əhalinin müxtəlif təbəqələri ilə əlaqə saxlamağa imkan verir. Bununla belə, bu, həm də həmin partiyalardakı çətinliklərin və ziddiyyətlərin mənbəyidir, çünki müxtəlif təbəqələrin mövqeləri və mənafeləri də çox vaxt fərqli olur. Elə buna görə də **S.d.**-nın proqram sənədləri, siyasi bəyanatları və seçkiqabağı platformaları bir qayda olaraq güzəştli xarakter daşıyır, bəzən yayğın, ziddiyyətli olur.

Sosial-demokrat partiyalarının təşkilat prinsipləri partiyadaxili demokratiyanın, diskussiya azadlığının, fraksiyaların olması, alternativ layihələrin irəli sürülməsi ilə, başqa cür fikirləşənlərə qarşı dözümlülüklə səciyyələnir. Belə prinsiplər bəzən partiyalar üçün ciddi çətinliklər və problemlər yaradır, ziddiyətlər, müxtəlif cərəyanlar arasında mübarizə doğurur, qərarların qəbulunu və icrasını çətinləşdirir, partiyaların fəaliyyətinin səmərəsini azaldır. Digər tərəfdən isə belə prinsiplər bu partiyaların gücünün mənbəyidir, yaradıcılıq diskussiyaları, müxtəlif baxışların açıq şəkildə müqayisəsi, daha yaxşı yollar axtarılması üçün şərait yaradır, düşünülmüş qərarlar qəbul olunmasına təminat verir, şəraitin dəyişməsinə daha yaxşı uyğunlaşmağa kömək edir, müxtəlif baxışlı adamların bir partiya daxilində uğurla fəaliyyət göstərmələrinə imkan yaradır.

S.d.-nın ideoloji zəmini demokratik sosializmdir. Bu isə azadlığı, bərabərliyi, sosial ədaləti və həmrəyliyi başlıca dəyərlər kimi bəyan etmək **deməkdir.**

S.d.- sosializmin qərarlaşmasının həlledici şərtini və onun mahiyyətini cəmiyyət həyatının bütün sahələrində (siyasi, iqtisadi və sosial) həqiqi demokratiyanın həyata keçirilməsində görür. Siyasi demokratiya vətəndaşların bütün hüquq və azadlıqlarını təmin etməli, parlament sisteminin fəaliyyətinə, ümumi seçki hüququna, çoxpartiyalılığa, müxalifətin mövcudluğu hüququna, qanunun aliliyinə, ictimai işlərin idarə olunmasında vətəndaşların real iştirakına təminat yaratmalıdır.

S.d. belə hesab edir ki, iqtisadi demokratiya elə bir iqtisadi sistemin yaradılmasını təmin etməlidir ki, bu sistem mövcud sərvətlərdən bütün cəmiyyətin xeyrinə istifadə olunmasına, iqtisadiyyat üzərində cəmiyyətin nəzarətinin qərarlaşmasına, mülkiyyətin müxtəlif formalarına, bazarın həlledici rol oynamasına və iqtisadiyyatın inkişafına dövlətin fəal iştirakçısına, həm müəssisələrdə, həm də bütün cəmiyyət miqyasında istehsalın idarə olunmasında əməkçilərin iştirakının müxtəlif formalarına təminat versin.

S.d.-sosial demokratiyaya nail olmağa, yəni əməkçilərin bütün sosial hüquqlarının (əmək, təhsil, istirahət, müalicə, mənzil, sosial təminat) təmin etməyi, zülmün, ayrı seçkiliyin, insanın insan tərəfindən istismarının bütün formalarının ləğvini, bütün cəmiyyətin azad inkişafının şərti kimi hər bir

şəxsin azad inkişafı üçün lazımi şəraitin yaradılmasına təminat verməyi özünün son məqsədi sayır. Sosial-demokrat partiyaları bildirirlər ki, demokratik sosializmin məqsədlərinə dinc yolla, demokratik vasitələrlə, cəmiyyətin tədricən təkamülü sayəsində, islahatların, sinfi əməkdaşlığın köməyi ilə, Qərb ölkələrində qərarlaşmış demokratik dövlət çərçivəsində və onun dəstəyi ilə nail olunmalıdır.

S.-d.- sosializm məqsədlərinə çatmaqda zorakı diktatura üsullarından və özbaşınalıqdan istifadəni rədd edir.

II Dünya müharibəsindən sonrakı dövrdə sosial-demokrat partiyalarının fəaliyyətinin yekunlarına qiymət verərkən iki əsas məqam qeyd olunmalıdır.

Birincisi, məlumdur ki, **S.-d.** bir çox ölkədə (Avstriya, İngiltərə, AFR, Fransa, İsveç, Norveç, Finlandiya və s.) illərlə hakimiyyətdə olmasına baxmayaraq, özünün demokratik sosializm ideallarını heç yerdə həyata keçirə bilməmişdir. üstəlik, sosial-demokrat partiyaları, onların liderləri burjuaziyaya və iri kapitala elə güzəştlərə getmişdir ki, bunlar əməkçilərin başlıca mənafelərinə, demokratik sosializm konsepsiyasının özünə ziddir.

İkincisi, **S.d.**-nı burjuaziyanın mənafeyini ifadə edən və qoruyan, kapitalizmə tərəfdar olan hərəkət kimi qələmə vermək düzgün olmazdı. S.d.-nın fəaliyyətinin düzgün qiymətləndirilməsi göstərir ki, onlar ilk növbədə əməkçilərin mənafeyinin ifadəçiləri və müdafiəçiləri olmuşlar. əməkçilərin demokratik hüquqlarının qorunmasında, dövlətin təşəkkülündə, əhalinin maddi vəziyyətinin yaxşılaşdırılmasında, təmsil etdikləri ölkələrin sosial tərəqqi yolu ilə irəliləməsində, ümumi sülhün və beynəlxalq təhlükəsizliyin qərarlaşmasında sosial-demokratların mühüm rolu var. 80-ci illərdə sosial-demokrat partiyalarının bir çoxu ciddi çətinliklərlə qarşılaşmışdı və bəziləri bunu "**S.d.**-nın böhranı" kimi qiymətləndirirdi. Bunu deyərkən bəzi partiyaların sayca azalmasını, seçkilərdə onları dəstəkləyən seçicilərin azalmasını, seçkilərdəki uğursuzluqları, müəyyən konsepsiyaların köhnəlməsini, yeni mühafizəkarlara qarşı demokratik alternativlərin

işlənib hazırlanmasındakı çətinlikləri nəzərdə tuturdular. Bütün bunlara baxmayaraq, **S.d.**-nın iflasından ciddi danışmaq düzgün olmazdı.

80-ci illərdəki çətinlikləri bir sıra amillər (elmi, texniki tərəqqinin və iqtisadi yüksəlişin ziddiyyətli nəticələri, ekoloji problemlərin kəskinləşməsi, sosial dəyişikliklər, işsizliyin artması,. yeni mühafizəkarların güclənməsi, kütləvi demokratik hərəkatların çoxalması, qlobal problemlərin kəskinləşməsi və s.) doğurmuşdu.

S.d.partiyalarında və Sosialist İnternasionalında bu məsələlər dair diskussiyalara başlanmışdır, qarşıya çıxan problemlərin həlli üçün yollar axtarılır. Hələlik demək olmaz ki, **S.d.**bütün bu problemlərin həllini tapmışdır. Lakin bundan ötrü az iş də görülməmişdir və bu, sosial-demokratik partiyalarının yeni proqram sənədlərində, 1988-ci ildə qəbul olunmuş Sosialist İnternasionalının prinsipləri bəyannaməsində öz əksini tapmışdır.

S.d.-sosial və iqtisadi problemləri yenə də elmi, texniki tərəqqi nin nailiyyətlərindən istifadə və iqtisadi yüksəliş vasitəsilə həll etmək istəyir. Lakin keçmişdəkindən fərqli olaraq, indi iqtisadi yüksəlişin elə yollarını müəyyənləşdirmək istəyir ki, bunlar ekoloji vəziyyəti mürəkkəbləşdirməsin, əksinə, ətraf mühitin qorunub saxlanmasına yol azsın.

S.d. istehsalın səmərəsini artırmaq və məşğulluq problemini həll etmək üçün istehsalın modernləşdirilməsi məsələlərinə və bazar mexanizmlərinin inkişafına mühüm yer verir.

İstehsalı və onun səmərəsini artırmağın tənzimləyicisi kimi bazarın və rəqabətin həlledici rol oynamasını qəbul etməklə yanaşı, **S.d.** hesab edir ki, özlüyündə bazar sosial-problemlərin bir çoxunu həll edə bilməz, bunları dövlət həll etməlidir. **S.d.** iqtisadiyyata və vətəndaşların şəxsi həyatına dövlətin müdaxiləsinin güclənməsinin qorxulu olduğunu bildirir, eyni zamanda rifah dövlətlərinin tərəfdarıdır. Sosial-demokratların fikrincə, sosial sahədə dövlətin səylərini əməkçilərin özlərinin müstəqil həmrəy fəaliyyəti ilə tamamlamaq lazımdır.

Cəmiyyətin sosial struktu-

rundan baş vermiş mühüm irəliləyişləri nəzərə alaraq, sosial-demokratlar fəhlələrin istehsalın qabaqcıl sahələri ilə bağlı olan yeni qruplarına və xidmət sahəsində çalışanlara böyük diqqət yetirirlər. Onlar kütləvi hərəkatların (sülh, ətraf mühitin qorunub saxlanması uğrunda hərəkatların, qadın, gənclər hərəkatlarının və s.) tələblərini ədalətli sayır və bu tədbirlərin bir çoxunu öz proqramlarına daxil edirlər. Beynəlxalq münasibətlər problemləri, ən mühüm qlobal problemlər də **S.d.**-nın diqqət mərkəzindədir. Sosial-demokratlar aydın başa düşürlər ki, ümumi sülh və hamılıqla tərksilah olmadan heç bir tərəqqi mümkün deyildir. Sosial-demokratik partiyaları və hökumətlərinin əməli fəaliyyəti onların bəyannamələrinə və Sosialist İnternasionalının qərarlarına heç də tam uyğun gəlmir. Lakin bir şey şübhəsizdir ki, ümumən **S.d.** hazırda Yer üzərində sülhün mühüm amili kimi çıxış edir.

"SOSİAL DÖVLƏT" - ikinci dünya müharibəsindən sonrakı siyasi və ictimai nəzəriyyədə yaranmış anlayış; nisbətən sabit və inkişaf etmiş iqtisadiyyata malik olan müasir demokratik tipli dövləti bildirmək üçün işlədilir. İstənilən dövlət sosial dövlətdir. Ona görə də **"S.d."** termini belə dövlətin müasir sosial siyasət yeritməyə, əhalinin əmək məşğulluğunun, insan hüquqlarının qayğısına qalmağa, səhiyyə, sosial təminat sistemləri yaratmağa, əhalinin aztəminatlı təbəqələrinə kömək etməyə, cinayətkarlıqla və münaqişələrlə mübarizə aparmağa və s. qadir olduğunu nəzərə çarpdırmaq üçündür.

"S.d." ideyası siyasi və ideoloji bəlağətdən tədricən uzaqlaşmış və son onilliklərdə siyasi nəzəriyyənin ciddi anlayışlarından birinə çevrilmişdir.

SOSİAL İSLAHAT - iqtisadi quruluşun və dövlət quruluşunun əsasları qorunub saxlanmaqla cəmiyyət həyatının hər hansı mühüm sahəsinin dəyişdirilməsi.

SOSİAL MİMİKRİYA - bax; **SOSİAL UYĞUNLAŞMA.**

SOSİAL MÜDAFİƏ - cəmiyyətin hər hansı bir üzvünün ən vacib sosial-iqtisadi hüquqlarının həyata keçirilməsini təmin

edən, o cümlədən şəxsiyyətin inkişafını və həyat səviyyəsini normal qurmaq üçün təkrar istehsalla məşğul olmaqdan ötrü lazım gələn ictimai və hüquqi zəmanətlərin məcmusu. İqtisadiyyatda bazar münasibətləri hakim olduğu, əhalinin daha çox təmin olunmuş və iqtisadi cəhətdən daha fəal hissəsinin faydalandığı bir vaxtda dövlətin sosial siyasəti, həmkarlar ittifaqı və b. ictimai təşkilatların fəaliyyəti ilə təmin olunan digər sosial qrupların **S.m.**-si problemi daha aktual şəkil alır. Zəhmətkeşlərin sinfi mübarizəsinin təsiri altında və rus inqilabının sosial çağırışı ilə XX əsrdə inkişaf etmiş ölkələrdə əhalinin **S.m.**-nin səviyyəsi olduqca yüksəlmişdir (iş günü saatlarının azalması, əmək haqqının minimum səviyyəsinin təyin olunması və artırılması, sosial müavinətlərin və başqa sosial üdənişlərin miqdarının çoxaldılması və üdənilməsi). Lakin inkişaf etmiş ən varlı ölkələrdə belə, zəhmətkeşlər **S.m.**-nin işlə təmin olunma, cəmiyyətin bütün üzvlərinə mənzil vermək və s. kimi formaları ilə hələ də təmin olunmamışlar.

S.m.-yə daha çox ehtiyacı olan qruplara qocalar, əlillər, çoxuşaqlı və gənc ailələr, tək analar, azgəlirli işçilər daxildirlər. Bu qruplar arasında yoxsulluq həddini aşmış, yəni gəliri minimum yaşayış həddindən aşağı olan şəxs və ailələrin sayı daha çoxdur. Bu ictimai qrupların **S.m.**-nin onların əmək haqqının, təqaüd və üdənişlərin minimum həcminin artırılmasına vaxtaşırı yenidən baxılması yolu ilə həyata keçirilir. İnflyasiya şəraitində **S.m.**-nin ən başlıca forması qiymətlərin sürətlə artması nəticəsində əhalinin şəxsi gəlirindən itirilmiş hissəsinin kompensasiya üsulu ilə üdənilməsidir.

S.m.-nin olmaması və ya zəif olması əhalini sosial inamsızlıq və narazılıq vəziyyətinə gətirib çıxarır ki, bu da cəmiyyətdə ictimai gərginliyin və sinfi mübarizənin artması ilə nəticələnir. Milliləşdirilmiş və mülkiyyəti planlı təsərrüfatı olan ölkələrin bazar münasibətlərinə keçməsi inflyasiya proseslərinin güclənməsi, əksər sosial qrupların həyat səviyyələrinin mütləq qaydada aşağı düşməsi,

dünmədən cəmiyyətdə baş verən ictimai və mülki təbəqələşmə nəticəsində əhalinin əsas kütləsinin **S.m.**-si kəskin surətdə pisləşir. Yaşayış üçün zəruri xərclərin artım sürəti gəlirin artım sürətini qabaqlayır. Bu da aztəminatlılığın genişlənməsinə, maddi rifah halının pisləşməsinə gətirib çıxarır. İşsizlik probleminin şiddətlənməsi, xüsusən də uşaqlı qadınların, əlillərin, təqaüd yaşına çatmış adamların işlə təmin olunma problemləri ciddiləşir.

Sosial sahələrin (təhsil, səhiyyə, mənzil tikintisi) inkişafına yönəldilmiş, mərkəzləşdirilmiş xərclərin, vəsaitin həcmi və payı xeyli azalır. Təbii ki, bununla əlaqədar **S.m.**-nin maddi və ehtiyat bazası da azalır. Əhalinin real gəlirində ictimai fondlardan (ictimai istehlak fondları) daxil olan payın hesabı getdikcə kiçilir. Bunun nəticəsində də cəmiyyətin bütün üzvləri üçün elmi əsaslandırılmış və zəmanət verilmiş milli gəlir və şəxsi tələbatların minimum normativlərinin üdənilməsi mümkün olmur. Müasir həyatın gedişindən meydana gələn yeni amillər: işsizlik, qiymətlərin artmasının tənzimlənməsi, məcburi miqrasiya və s. **S.m.**-yə olan ehtiyacı daha da artırır. **S.m.**-nin təminatına zəmanət vermiş, işsizliyin ləğv olunması sahəsində və sosial cəhətdən müdafiə edilən əhali qrupunun şəxsi gəlirinin dotasiya vasitəsilə təmin olunmasında dövlətin rolu artır.

S.m.-nin mühüm sahəsini fövqəladə vəziyyətlər (təbii fəlakətlər, istehsalatda baş verən böyük qəzalar) zamanı əhalinin sosial müdafiəsi təşkil edir. Millətlərarası münaqişələrin şiddətlənməsi S.m.-nin yeni problemlərini, təqib edilən və yaxud hüquqları məhdudlaşdırılan etnik qrupların qazqınlıq problemlərini meydana gətirir.

SOSİAL PASSİVLİK - sosial-iqtisadi və siyasi durumu təkmiləşdirməyə, yaxud dəyişməyə yönəldilmiş fəaliyyətdə fəal iştirak etmək arzusunda olmamaq, əksəriyyətin iradəsini passivcəsinə qəbul etmək istiqaməti götürmək, sosial etirazın kəskin formalarında - nümayişlərdə, mitinqlərdə, tətillərdə və i.a. iştirakdan imtina etmək. **S.p.** sosial strukturdan kənara atılmış və kütləvi kom-

munikasiya vasitələrinin təsiri ilə sosial təşkilatın ənənəvi formaları ilə əhatə olunmamış marginal təbəqələr üçün xüsusilə səciyyəvidir. İctimaiyyətin geniş təbəqələrində informasiya ictimai inkişaf vektorunun hələ müəyyənləşmədiyi və insanların şüurunda əksini tapmadığı durğunluq dövrlərində daha çox meydana çıxır.

SOSİAL SİYASƏT - dövlətin daxili siyasətinin başlıca istiqamətlərindən biri; onun vasitəsilə dövlət həm öz fəaliyyətini, həm də ictimai sistemin sabitliyini daha da canlandırmaq üçün dəstək aldığı, zəmin yaratdığı sosial ehtiyatları genişləndirməyə çalışır. **S.s.**-in ən mühüm vəzifəsi ictimai həyatda müəyyən tarazlıq yaratmaqdır. Buna aşağıdakı yollarla nail olunur: 1) aclığın, xəstəliklərin, təbii və texnogen fəlakətlərin, demoqrafik "partlayışların" (əhalinin sürətlə artmasının) və s. nəticələrinin qarşısının alınması üçün dövlət təminatının verilməsi; 2) ölkədə əldə edilmiş müəyyən yaşayış səviyyəsini təmin etmək və bu səviyyəni sosial gərginliyi azaldan istiqamətdə dəyişmək üçün maddi ehtiyatların və təşkilati qaydaların yenidən bölüşdürülməsi; 3) həyat tərzinin vergilərlə, xeyriyyəçiliyin, sahibkarlıq təşəbbüsünün həvəsləndirilməsi yolu ilə, habelə repressiya vasitələri ilə (məs., narkobizneslə mübarizə və s.) tənzimlənməsi.

Beləliklə, **S.s.** cəmiyyət üzvlərinin "sağlam" tələbatlarının üdənilməsinə kömək etmək və əmək qabiliyyəti olmayan, orduda və digər dövlət qulluğunda xidmət etməyə yaramayan şəxslərin sayının nəzarətsiz artmasını məhdudlaşdırmaq, epidemiyaların baş verməsinin, yoluxucu xəstəliklərin artmasının qarşısını almaq və s. üçün zəruridir. Dövlət demoqrafiya xidməti, səhiyyə, sosial təminatla, idmanın təbliri ilə məşğul olan dövlət xidmətləri S.s.-in fərqləndirilən istiqamətlərini həyata keçirən və ictimai həyat sahələrindəki (yaşayış tərzi, onun səviyyəsi, keyfiyyəti və s.) vəziyyət barədə, habelə bu sahələrdə başlanmış meyllər haqqında hökumətə informasiya verən ixtisaslaşdırılmış orqanlardır. Vəziyyət barədə tam təsəvvürü olmaq üçün müasir sivilizasiyalı dövlət-

lər sosial problemlərin elmi təhlili, sosial yönümlü tədbirlərin hazırlanmasında üstün istiqamətlərin müəyyənləşdirilməsi, həmin tədbirlərin maliyyələşdirilməsi üçün lazım olan vəsaitin həcmi, kollektivlərin mütəxəssislərlə (xüsusən sosioloqlar və demoqraflarla) təmin edilməsi barədə sifarişlər verir. Bütün bunlara əsasən deyə bilirik ki, **S.s.** cəmiyyətin sosial inkişafının idarə olunmasına, onun üzvlərinin maddi və mədəni tələbatının təmin edilməsinə və cəmiyyətin sosial təbəqələşməsi proseslərinin tənzimlənməsinə yönəldilmiş fəaliyyətdir. **S.s.**-in başlıca məqsədləri müvafiq maddi ehtiyatlar, müvafiq siyasi qüvvələr və siyasi sistem olmaq şərti ilə sabitliyə, tarazlığa, bütövlüyə və dinamizmə nail olmaqdır.

S.s. cəmiyyətin cari və perspektiv mənafeləri arasındakı, onun siniflərinin, sosial qrup və təbəqələrinin bir-birinə uyğun gəlməyən, yaxud əks olan mənafeləri arasındakı ziddiyyətləri həll etməli, sosial tərəqqinin heç də asan başa gəlmədiyinin labüdlüyünü nəzərə almalıdır. **S.s.** daim qarşısına çıxan bu suallara cavab verməli olur: indiki mərhələdə hansı sosial qrupların mənafelərinin nəzərə alınmasına üstünlük vermək, yenicə qəbul edilən və gələcəkdə qəbul ediləcək qərarların nəticələri arasında necə tarazlıq yaratmaq.

Beləliklə, **S.s.**-i işləyib hazırlayarkən cəmiyyətin inkişafının həmin mərhələsində ən təcili həll olunmalı sosial vəzifələri müəyyən etmək məsələsi qarşıya çıxır. Bu zaman hansı yolun seçilməsi həmişə vətəndaş hüquqları, sosial ehtiyacların və tələblərin ödənilməsi uğrunda mübarizə fonunda və onun təzyiqi altında gedir.

Güclü **S.s.** siyasi sistemin demokratikləşdirilməsi prosesi ilə sıx əlaqədar aparılmalıdır. Yəni **S.s.**-in işlənib hazırlanması və həyata keçirilməsinin demokratik forma və metodlarından (bütün mühüm sosial siyasət qərarlarının aşkarlıq şəraitində müzakirə olunması, sosial dəyişikliklərin başlıca məsələləri barədə ictimai rəyin hərtərəfli öyrənilməsi) istifadə edilməlidir. Cəmiyyətin bütün qrup və təbəqələrinin nümayəndələrinin **S.s.** məsələləri barədə öz mülahizələrini sərbəst surətdə bildirmələri idarəetmə orqanlarının kütlələrlə "əks əlaqəsinin" mühüm vasitəsi, sosial siyasətdə volyuntarizmin və subyektivizmin cürbəcür təzahürlərinə yol verilməməsinin etibarlı mexanizmi olmalıdır. ən kəskin və geniş miqyaslı sosial problemlər həll olunarkən ümumxalq rəy sorğusunun nəticələrindən də istifadə edilə bilər.

S.s. həm sabit sosial institutların (mülkiyyət, ailə, təhsil sistemi, kütləvi informasiya vasitələri sistemi və s.) fəaliyyətinin tənzimlənməsi vasitəsilə, həm də sosial siyasət məsələlərində ixtisaslaşan yeni hərəkatların və təşkilatların yaradılması yolu ilə mövcud olur.

S.s. dövlətin qəbul etdiyi qərarlar, yəni sosial tədbirlər və sosial proqramlar vasitəsilə həyata keçirilir. Sosial proqramlar bu və ya başqa sosial problemin həllinə yönəldilmiş sosial tədbirlərdir. Bu proqramlarda mövcud vəziyyətə qiymət verilir, qərarlar, məsələlərin həlli mərhələləri, hər bir mərhələnin reallaşdırılması üçün konkret tədbirlər və üsullar müəyyən edilir.

SOSİAL UYĞUNLAŞMA - sosial mimikriya, (ing. mimicry - təqlidçilik) - hər hansı bir fayda götürmək naminə sosial və siyasi mühitə, mövcud həyat şəraitinə prinsipsiz uyğunlaşmaq. Sosial inqilab baş verdikdən sonra özlərinin "sosial mənşəyini" hər vasitə ilə ört-basdır edərək qalib gəlmiş qüvvələrlə əməkdaşlığa gedən keçmiş hakim siniflərin və təbəqələrin nümayəndələrini **S.u.**-da və daha dəqiq deyilərsə, buqələmunluqda təqsirləndirirlər. Təblirat siyasi və ideoloji mənada **S.u.**-da təqsirləndirmək qızğın siyasi mübarizə, "kim kimi" məsələsini həll etmək və sinfi diktatura qurmaq cəhdləri mərhələsində olan cəmiyyət üçün tipik haldır.

Daha dərin, analitik mənada **S.u.** həyat və fəaliyyətləri üçün cəmiyyətdə dözülməz şərait yaranmış sosial qrupların, qüvvələrin və təbəqələrin sağ qalmaq və özlərini mühafizə etmək üçün seçməyə imkan tapdıqları müdafiə tədbirləri və vərdişlərinin mürəkkəb kompleksidir. Bu, böhranlı vəziyyətlərdə məcburi özünümüdafiə vasitəsidir. Məs., 1917-ci ilin

oktyabrından (Azərbaycanda 1920-ci il aprel çevrilişindən) sonra sovet cəmiyyətində ziyalılar belə vasitələrdən geniş istifadə etməyə məcbur olmuşdu. "Proletar ziyalısı", "zehni əmək proletarları" kimi anlayışların meydana gəlməsinin özü gələcəkdə sağ qalmaq naminə yaranmış vəziyyətə uyğunlaşmaq üçün göstərilən məcburi cəhd idi. Cəmiyyət mənəviyyatı inkişaf etdirən və zehni əməklə məşğul olan təbəqəsiz keçinə bilmədiyinə görə, bu cür S.u. üsulları qalib gəlmiş qüvvələr tərəfindən ümumən qəbul olunmuşdu. Lakin bunun özü də xeyli dərəcə məcburiyyət özündən idi.

İctimai və sosioloji baxımdan əlavə, **S.u.** konkret siyasi mövqedən də, yəni bu və ya başqa siyasi xadimlərin, qüvvələrin, partiyaların və hərəkatların hansısa təbəqənin mənafelərinin ifadəçisi olmaq pərdəsi altında özlərinin ideoloji simasını dəyişmək taktikası kimi nəzərdən keçirilir. 30-cu illərin əvvəlində Almaniyada sosializm işi, yəni fəhlə sinfinin və bütün əməkçilərin mənafeləri uğrunda mübarizlər qiyafəsinə uğurla girmiş nasional sosialistlərin sürətlə müvəffəqiyyət qazanmaları belə vəziyyətə klassik nümunədir.

Əməli siyasətdə **S.u.** ayrı-ayrı fərdlər, kiçik qruplar, sosial və siyasi təşkilatlar səviyyəsində üzə çıxır. Birinci halda konkret siyasi xadimin S.u.-sından söhbət gedir. Məs. Napoleon Bonapart özünü imperator elan etməzdən əvvəl monarxiya əleyhinə inqilabın qızğın tərəfdarı kimi çıxış edirdi. İkinci halda bir qayda olaraq qərəzli məqsədlərini həyata keçirmək üçün hakimiyyətə gələn, bununla belə özlərini bütün xalqın mənafeyinin müdafiəçiləri kimi qələmə verən kiçik bir qrup (məs. zorakılıqla konstitusiyaya zidd çevriliş edən hərbi xunta) nəzərdə tutulur. Üçüncü halda isə öz məqsədlərinə çatmaqdan ötrü kütləvi dəstək, "etimad mandatı" qazanmaq üçün **S.u.** üsullarından istifadə edən siyasi təşkilatdan, partiyadan, yaxud ictimai və siyasi hərəkatdan söhbət gedir.

Müasir siyasi praktikada **S.u.**-nın ən geniş yayılmış üsulu nümayişkaranə populizm, yəni seçkiqabağı kampaniyalar zamanı iddiaların artırılmasına, cürbəcür, adətən seçicilərə real olmayan vədlər verilməsinə yönəldilmiş həlağətli təblirat və siyasi addımlardır. Keçmiş Sovet İttifaqı ərazisində yaranmış müstəqil dövlətlərdə, o cümlədən Azərbaycanda son illərdə gedən demokratikləşmə prosesində bu qəbildən çoxlu nümunələr gətirmək olar.

S.u. üsullarına əl atmaq zərurəti və bu üsulların səmərəsi cəmiyyətin siyasi mədəniyyətinin və siyasi şüurunun səviyyələri ilə bağlıdır. Bunlar kifayət qədər inkişaf etdikdə hüquqi dövlət çərçivəsində bərqərar olmuş çoxpartiyalı plüralist siyasi sistemə malik, yaxşı informasiya sistemi olan demokratik cəmiyyətdə əhalinin bu və ya digər sosial təbəqə və qruplarının sağ qalmaq, özünü müdafiə etmək vasitəsi kimi **S.u.**-nın zəruriliyi kəskin şəkildə azalır. Eyni zamanda onun potensial təsir gücü, **S.u.** üsullarının zahiri cəlbediciliyi də azalır.

SOSİOLOGİYA (fr. sociologie, lat. societas - cəmiyyət + ...logiya, hərfi mənası-cəmiyyət haqqında təlim) - istər qlobal (bütünlükdə cəmiyyət), istərsə də xüsusi sosial sistemlərin inkişafı və fəaliyyəti haqqında elm. S. müxtəlif sosial hadisələrin qarşılıqlı əlaqəsini və insanların sosial davranışının ümumi qanunauyğunluğunu öyrənir. Müstəqil elm kimi S. XIX əsrdə meydana gəlmişdir (termini O. Kant daxil etmişdir), lakin onun kökləri daha qədimdir. Qədim fəlsəfi sistemlər ictimai həyatı və tarixi inkişaf meyllərini özünəməxsus şəkildə izah etmişlər. XVIII əsrdə cəmiyyətin inkişaf qanunlarını və hərəkətverici qüvvələrini öyrənən müstəqil elm-tarix fəlsəfəsi formalaşmışdı. XIXəsrin tarix fəlsəfəsi cəmiyyət haqqında bəzi qiymətli müddəalar irəli sürsə də, səthi xarakter daşıyırdı. İctimai həyatın mürəkkəbləşməsi və elmi biliklərin differensiasiyası ilə S. müstəqil elmə çevrildi.

XIX əsrin ikinci yarısında pozitivizmin təsiri altında olmuş, tarixi təkamül xarakteri daşımış, bir sıra cərəyanlara ayrılmışdı: coğrafi məktəb, irqi-antropoloji məktəb, bioüzvi məktəb, sosial darvinizm; XIX əsrin sonu XX əsrin əvvəlində: instiktivizm, biheviorizm, intro-

speksionizm. Kollektiv, ictimai şüuru, yaxud sosial qarşılıqlı təsirin mücərrəd formalarını ön plana çəkən nəzəriyyələr meydana gəlmiş, "iqtisadi materializm" yayılmışdı. XX əsrdə Qərb S.-sına idealist fəlsəfi cərəyanlar - yeni kantçılıq, həyat fəlsəfəsi təsir göstərmişdir. Bu S. dövlətə bir sıra praktik məsələlərin (ictimai rəyin öyrənilməsi, təbliratın təşkili, sənayedə "insani münasibətləri" tənzim etmək və s.) həllində kömək göstərir. Ümumi S. ilə yanaşı sənaye S.-sı, ailə, şəhər, cinayət S.-sı və s. fərqləndirilir. Sosioloqların əksəriyyəti ümumiləşdirici sosioloji nəzəriyyənin işlənib hazırlanması zərurətini başa düşürlər. Bu zəmində fəlsəfəyə, humanist sosiologiyaya, fenomenologiyaya, tarixi metoda və sahələrarası tədqiqatlara maraq artmışdır".

SPİCRAYTER (ing. sreech nitq və wiriter yazıçı) - başqa şəxsin çıxışlarının mətnini tərtib edən. (Həmin şəxslə mətnin rəsmi müəllifi kimi çıxış edir.) S., bir qayda olaraq, rəhbərin müşaviri və ya köməkçisidir.

SPONSOR (lat, sronsor - zəmanətçi) - hər hansı bir tədbiri həm dəstəkləmək, həm də özünün fəaliyyətini reklam etmək üçün maliyyələşdirən hüquqi şəxs.

STALİNİZM - Stalinin terrorzu diktaturası dövründə SSRİ-də hökm sürmüş ictimai münasibətlər və siyasi hakimiyyət sistemi. II Dünya müharibəsindən sonra bu sistem mülkiyyətin millliləşdirildiyi və planlı təsərrüfatın tətbiq edildiyi digər ölkələrin əksəriyyətində də bərqərar olmuşdu. Həmin ölkələr Sovet ittifaqının təzyiqi nəticəsində ictimai quruluşun Stalin modelini qəbul etmişlər.

S.-in xarakterik cəhətləri bunlardır:

İqtisadi sahədə - sürətlə sənayeləşdirmənin və kənd təsərrüfatında zorakı elliklə kollektivləşmənin həyata keçirilməsi; sosial sənayeləşdirmənin və əhalinin cari istehlakının zərərinə olaraq aparılan istehsal quruculuğuna xeyli sərmayə qoyuluşuna, istehsal olunan məhsulun keyfiyyətinə məhəl qoymadan iqtisadi artımın sırf kəmiyyət göstəricilərinə əsaslanan bürokratik planlaşdırma; istehsalın idarə olunmasındakı əməkçilərin uzaqlaşdırılması;

Sosial sahədə - əhalinin əsas kütləsinin yaşayış səviyyəsinin son dərəcə aşağı həddə saxlanması, eyni zamanda qanunlarla müəyyən edilməyən status və maddi baxımdan üstünlüklərə malik olan imtiyazlı qrupların mövcudluğu, dolayı yolla istismara, bürokratik partiya və dövlət aparatında çalışan hakim təbəqə tərəfindən ictimai əməyin izafi məhsulunun örtülü şəkildə mənimsənilməsinə əsaslanan sosial fərqlərin güclənməsi;

Siyasi sahədə - xalq hakimiyyətinin formal atributları saxlanmaqla və bəyan edilməklə dövlət hakimiyyəti sistemində və həmkarlar ittifaqlarında demokratiyanın əslində ləğv olunması; ucdantutma dövlət terroru sisteminin yaradılması, terrorzu diktaturanın real və potensial əleyhdarlarını məhv etmək məqsədilə saxtalaşdırılmış məhkəmə və məhkəmədən kənar saxtakarlıqların və saxtalaşdırılmış siyasi proseslərin sistematik olaraq uydurulması "rəhbərin" qeyri-məhdud hakimiyyəti ilə bürokratik hökmranlığın başa çatması; rəhbər dövlət orqanlarının demokratik qaydada seçilməsini və yenidən seçilməsini təmin edən siyasi mexanizmlərin olmaması;

Partiya sahəsində - partiya aparatının, partiya katibləri iyerarxiyasının hakim partiya üzərində nəzarətsiz hakimiyyəti; partiyadaxili demokratiyanın, partiya rəyini ifadə etmək azadlığının boğulması; partiyada fraksiyaların və demokratik diskussiyaların qadağan edilməsi; partiya təşkilatı katiblərinin əslində yuxarı orqanlar tərəfindən təyin olunması; partiya iyerarxiyasının bütün səviyyələrində yığıncaqların, plenumların, qurultay və konfransların formal keçirilməsi;

Milli münasibətlər sahəsində - hakim millətçilik şovinizminin və antisemitizmin dirçəldilməsi; milli azlıqların və milli respublikaların hüquqlarını məhdudlaşdıran unitar dövlət hakimiyyətinin bərqərar edilməsi; uydurma antisovet, dövlət əleyhinə fəaliyyətdə ittiham olunan tam bir sıra xalqların deportasiya olunması;

Beynəlxalq kommunist və fəhlə hərəkatında - bir partiyanın hegemonluğu, kommunist partiyalarının müstəqilliyinin və təşəbbüsünün boğulması, onların vahid mərkəzdən

idarə edilməsi, onlara siyasi strategiya və taktikanın qəbul etdirilməsi, kommunist partiyaları rəhbərlərinin faktiki olaraq həmin mərkəz tərəfindən təyin olunması; "sosial faşizm", "sosial xəyanət" nəzəriyyəsi əsasında təriqətçilik siyasətinin yeridilməsi; proletar həmrəyliyi ideyasının xarici kommunist partiyalarının SSRİ-dəki və stalinçi rejimli digər ölkələrdəki siyasəti sözsüz dəstəkləmək tələbi ilə əvəz edilməsi;

Mənəvi sahədə - mədəni plüralizmin, elmi və bədii yaradıcılıq azadlığının ləğvi; "dünyəvi dinin" bir növünün, yəni "rəhbərin" şəxsiyyətinə pərəstişin bərqərar olması;

İdeoloji sahədə - S. yaydığı ictimai münasibətlərin əsl təbiətini və yeritdiyi siyasətin həqiqi xarakterini yalançı marksist ibarələrlə pərdələyirdi. S.-in başlıca ideoloji vasitələri hər hansı fikir azadlığını və sosial tənqidi boğmaq naminə sosial boşboğazlıq və fitnəkar siyasi vahimələrin (trotskiçilik, kosmopolitizm və s.) irəli sürülməsi idi.

Əməli siyasət sahəsində S. üçün kobud empirizm, siyasi nəzəriyyənin və strategiyanın cari taktiki vəzifələrə tabe edilməsi səciyyəvi idi. Siyasi göstərişlərin tez-tez dəyişməsi də bundan irəli gəlirdi. Bu göstərişlər dəyişdikcə isə onlar üçün uydurma nəzəri əsaslar axtarılırdı.

Sosializmin bir ölkədə qələbəsi və sosializmə doğru irəlilədikcə sinfi mübarizənin gücləlnməsi haqqında "nəzəriyyələr" istisna olmaqla, S. siyasi nəzəriyyə sahəsində prinsip etibarilə yeni heç nə yaratmamışdır. S.-in ideoloji cəbbəxanası yalan şərh edilən marksist müddəaların qırıq-kəsiklərindən, tarixi miflərdən və saxtalaşdırmalardan, kobud siyasi yarlıqlardan (bunların köməyi ilə ictimai fikirdə, incəsənətdə, humanitar elmlərdə və hətta təbiət elmlərində yeni, mütərəqqi nə varsa, hamısı rədd edilirdi: məs., genetikanın, nisbilik nəzəriyyəsinin "burjua" nəzəriyyələri və elmi kimi damralanması, kibernetikanın "yalançı elm" adlandırılması və s.) ibarət konqlomerat "ideyalar" idi.

Stalinin vəfatından sonra SSRİ-də və Şərqi Avropa ölkələrində S.-in ən biabırçı və

cəhşətli təzahürləri-kütləvi terror, "rəhbərə" xilaskar kimi pərəstiş edilməsi aradan qaldırıldı. Lakin bu ölkələrdə S.-in rəsmi tənqidi yarımçıq və qeyri-ardıcıl idi, 60-cı illərin ortalarından etibarən isə bu tənqidə əslində qadağan qoyulmuşdu. "Stalinin varislərinin" S.-in yaydığı iqtisadi, sosial və siyasi sistemi kökündən dəyişmək istəmələri və bunu bacarmamaları həmin sistemin çürüməsini gücləndirdi. Bu isə "yuxarıların" korrupsiyaya qurşanmasında və mənəvi cəhətdən pozulmasında, "aşağıların" sosial-siyasi süstlüyündə öz ifadəsini tapdı. Nəticədə 70-80-ci illərdə iqtisadi artımın sürəti xeyli azaldı, sosial təbəqələşmənin yeni formaları yarandı, ictimai əxlaq kəskin şəkildə aşağı düşdü.

Stalindən sonra gələn və S.-in bir çox cəhətlərini saxlayan rejimlərin dağılması 80-90-cı illərin qovuşağında Şərqi Avropa ölkələrində bu rejimlərin süqutu ilə nəticələndi. Bir qədər sonra, S.-in vətəni SSRİ dünyanın siyasi xəritəsindən silindi.

STATUS (lat. status - vəziyyət) - şəxsin, dövlət orqanının, yaxud beynəlxalq təşkilatın hüquqi vəziyyətini müəyyən edən hüquq və vəzifələrin məcmuu.

STATUT (lat. statuere - qərara almaq) - siyasi həyatda: 1) müəssisə, yaxud təşkilatın nizamnaməsi; 2) ayrı-ayrı dövlətlərdə (Böyük Britaniya, ABŞ) qanunvericilik aktları; 3) dövlət fərqlənmə nişanı - orden haqqında əsasnamə. **STEREOTİP** (yun. stereos - möhkəm və tyros - iz), siyasətdə. Potitologiya baxımından təfsiri terminin iki məlum mənasının sintezindən yaranmışdır: 1. poliqrafiyada S.-çoxtirajlı və təkrar nəşrlərin çapı zamanı istifadə olunan monolit çap formasının (yığı və klişe) surəti; 2. fiziologiya və psixologiyada dinamik S. - beynin tam fəaliyyətinin şüurda və davranışda şərti reflekslər şəklində əks olunan forması. Siyasətdə stereotipin mənasını müəyyən edən sosial S. anlayışı bu iki mənanın qovuşuğunda meydana gəlmişdir.

Siyasi baxımdan yanaşıldıqda, S. xeyli dərəcədə sabit sosial-siyasi obyektin (hadisənin, prosesin) yalnız müəyyən,

bəzən isə mühüm olmayan xüsusiyyətlərini əks etdirən standartlaşdırılmış, sxematikləşdirilmiş, bəsitləşdirilmiş, adətən emosional boyalarla ifadə olunan obrazıdır. Bəzən dəqiq olmayan, irrasional, son dərəcə ümumi təsəvvür kimi müəyyən edilir. Geniş mənada götürüldükdə S. fikrin, qavrayışın və davranışın ənənəvi, adət edilmiş qaydası, basmaqəlib davranış üslubu, fəaliyyətin müəyyən ardıcıllıqla həyata keçirilməsi üsulu, təfəkkürün yeknəsəqliyi, eyniliyi, ətaləti, durğunluq və sairədir.

"Sosial stereotip" terminini sosial psixologiyada və sosiologiyada ilk dəfə 1922-ci ildə Amerika jurnalisti və kütləvi informasiya vasitələri tədqiqatçısı U. Lippman müxtəlif milli-etnik, sosial-siyasi və peşəkar qrupların üzvləri haqqında ictimai fikirdə yayılmış qərəzli təsəvvürləri bildirmək üçün işlətmişdir.

İnsanın sosial-siyasi hadisələri və prosesləri qiymətləndirməsində S.-lərin əhəmiyyəti böyükdür, lakin onlar ikili - həm müsbət, həm də mənfi rol oynayırlar. S.-lər bir tərəfdən şüur və davranış üçün "qənaətlidir", dünyada və insanın ətrafında baş verənlərin dərki və başa düşülməsi, habelə lazımi qərarların qəbul olunması prosesini "qısaltmağa" kömək edir. İdrakın dəqiqliyinə və analitikliyinə kömək etməyən S.-lər ilk növbədə informasiyanın emosionallıqla qəbul edilməsi və ya edilməməsi zaminində davranışa münasibət bildirilməsini, informasiyanın, S.-lərin sərt, lakin aşkar çərçivəsinə "düşməsini", yaxud "düşməməsini" sürətləndirirlər. Bir qayda olaraq, gündəlik həyatda insan "həyatın dayaqlarını" - sosial-siyasi davranışın ənənələrini, normalarını, dəyərlərini, qaydalarını tənqid edərək şübhə altına almaq imkanından məhrumdur. İnsan haqqında öz fikrini bildirdiyi və qiymətləndirdiyi hadisələr barədə də tam informasiyaya malik olmur. Ona görə də adamlar çox vaxt basmaqəlib, mövcud S.-lərə uyğun hərəkət edirlər. Bu S.-lər xüsusi analitik düşünməyə ehtiyac olmadan keçinmək mümkün olan və xüsusilə məsul fərdi qərar qəbul olunmasını tələb etməyən vəziyyətlərdən baş

çıxarmağa kömək edir. İnsanın psixikası qənaətcildir, bu mənada S. basmaqəlib şəraitdə fasiləsiz davam edə bilməyən analitik təfəkkür fəaliyyətinin sabitləşdiricisidir.

Digər tərəfdən, S. sosial-siyasi idrak prosesini sadələşdirməklə kifayət qədər bəsit və səthi siyasi şüur mühakimələrinə doğru aparır. Tam və obyektiv informasiya, ona analitik qiymət verilməsi, müstəqil qərarlar qəbul olunması, mürəkkəb sosial-siyasi addım atmağa ehtiyac duyulduğu vəziyyətlərdə davranışın hesabat verilməyən standartları mənfi rol oynayır. Bu səbəbdən də kütləvi şüurda yanlış fikirlərin, yeniliklərə, müstəqil təfəkkürə nifrətin yaranması və möhkəmlənməsinə kömək edən S.-lər meydana gələ bilər. Məs., bu, ilk növbədə millətlərarası münasibətlər üçün böyük problemdir. Bu sahədə, hər hansı etnik qrupun ayrı-ayrı nümayəndələri haqqında məhdud informasiyaya əsaslanan və bütünlükdə həmin qrup barədə qərəzli nəticələrə və rəylərə gətirib çıxaran etnik S.-lər geniş yayılmışdır.

S.-lərin formalaşmasının iki mənbəyi var. Bunlardan biri kifayət qədər fərdi və qrup şəklində olan keçmiş təcrübə, adamların gündəlik adi həyatdakı məhdud informasiyası, habelə şəxslərarası ünsiyyət və qarşılıqlı əlaqə sahəsində meydana gələn bəzi özünəməxsus hallardır (subyektiv seçmə, şayiələrin, "şan-şöhrətin", birinciliyin, yeniliyi təsiri və s.). S.-lərin bəzi cəhətlərinin ikinci dərəcəliliyi, təsadüfiliyi də bununla əlaqədardır. Bu baxımdan S. fərdi və qrup şəklində dağınıq təcrübənin qarışığı olub həmin təcrübənin ümumi, təkrar olunan əlamətlərini və sosial-siyasi hadisələrin xüsusiyyətlərini əks etdirir.

Digər tərəfdən, S.-lərin formalaşmasının mühüm mənbəyi kütləvi informasiya vasitələrinin və sosial-siyasi təbliğatın məqsədyönlü fəaliyyətidir. Kütləvi kommunikasiyanın qanunları ümumiləşdirilmiş, stereotipləşdirilmiş ünsiyyət tələb edir: məs., hər hansı siyasi ideyanın kütləvi şüura translyasiyası prosesinin üzü yalnız müəyyən S.-lər formasında mümkündür. İnsanların şüurunda və siyasi

davranışında az-çox oxşar kütləvi, yəni eyni cür, stereotip münasibət doğurmaq məqsədi daşıyan sosial-siyasi informasiyanın tirajlanması prosesi öz növbəsində dinləyicilərdə müvafiq psixoloji və davranış S.-ləri doğuran informasiya stereotiplərindən istifadə edilməklə mümkündür.

Daxili quruluşu baxımından S. iki əsas ünsürün - bilik (S.-in idrak-informasiya komponenti) və münasibətlərin (emosional-hissi və qiymətləndirici komponenti) vəhdətindən ibarətdir. Bir sıra S.-lərdə dərhal, bilavasitə davranışa motivləşdirici sövqetmə şəklində təsir komponenti də olur. Münasibətlər ünsürü S.-in strukturunda üstün yer tutur. Bu ünsür sosial-siyasi hadisələrə müəyyən münasibət bəslənilməsini diktə edir. Biliklər ünsürü adətən onunla fərqlənir ki, əsaslandığı informasiya əlçatmaz obyektlə deyil, insanda mövcudluğu güman edilən digər biliklərlə əlaqələndirilir, lakin sonuncular çox vaxt yalan çıxır. Məs., bu və ya digər milli-etnik qrupun "tipik nümayəndəsi" haqqında S.-i təşkil edən informasiya həmin qrupun real nümayəndəsi ilə görüşdükdə alınan biliyə əsasən deyil, "ümumiyyətlə, həmin qrup haqqında" əvvəlki S.-lərdəki mücərrəd biliyə əsasən yanaşmağı tələb edir. Beləliklə, insanın S.-lərdən götürdüyü informasiya onun həmin informasiyanın götürüldüyü sahədəki şəxsi biliyinin səviyyəsi və dəqiqliyi ilə düz mütənasibdir. Prinsip etibarilə S.-lərin mövcudluğunun və yayılmasının əsasını sosial-siyasi həyatın müvafiq sahələrindən alınan mötəbər, yoxlanılmış biliklərin qıtlığı təşkil edir.

S.-in strukturu adətən mərkəzdən və "əyalətdən" ibarət olur. Belə obrazın mərkəzində, bir qayda olaraq, daha çox nəzərə çarpan, parlaq, emosionallıqla qavranılan bir-iki əlamət dayanır (məs. etnik-siyasi S.-lər üçün bunlar dərinin, saçın rəngi, gözlərin forması, yaxud geyim; sosial-siyasi S.-lər üçün rəmz-bayraq, gerb, nişan, aforizm və s.) və "əyalət", yəni xarakterin, davranışın bu və ya digər cəhətləri (insan S.-i), hadisənin, yaxud prosesin mənbə və nəticələri bilavasitə bu əlamətlərlə əlaqələndirilir. S.-in fəaliyyət mexanizmi belədir ki, real həyatda obyekti, yaxud hadisəni zahiri əlamətlərinə görə "tanıyan" insanlar kök salmış S.-lərin "əyalət" barədə onlara aşıladığı əlamətləri də avtomatik olaraq xəyallarında canlandırırlar. Bundan sonra insanın sosial-siyasi davranışını müəyyənləşdirən nəticə alınır.

S.-lər siyasətdə ayrı-ayrı fərdlərin, qrupların və kütlələrin şüuru ilə manipulyasiya etməyin çox güclü vasitəsidir. Bu baxımdan məzmunca S.-i daim bəyan edilən və adamlara qəbul etdirilən standart düşünmə qabiliyyəti sosial qanunlar və "həqiqətlər" - cəmiyyətin əsas kütləsini eyni cür düşünmək vəziyyətində saxlamaq məqsədilə daim təkrarlanan və siyasi elita tərəfindən istifadə olunan, kütləvi informasiya, təblirat vasitələri ilə dəstəklənən və yayılan normalar, dəyərlər, siyasi davranışın etalon nümunələri hesab edilə bilər. Məzmun baxımından belə S.-lərin toplusu cəmiyyətin ideoloji və ya idcya-siyasi əsasını təşkil edir. Ideoloji mənada yanaşdıqda, S.-lər "həqiqi" (adətən "bizim") və "yalan" (yəni "bizə zidd olan") stereotiplərə bölünür. Bunu əsas tutaraq sistemin bütün təsisatlarına "yalan" S.-ləri dağıtmaq, stereotip deyil, "əsl biliklər" elan olunan "həqiqi" S.-lər formalaşdırmaq vəzifəsi tapşırılır.

Hər bir sosial-siyasi sistem müəyyən S.-lər yaradır və bunlar həmin sistemin uğurla fəaliyyət göstərməsi üçün zəruridir. Bu S.-lər adətən üç əsas səviyyədə mövcud olur və dəstəklənir. Birincisi, müvafiq müsbət və mənfi sanksiyalarla möhkəmləndirilən fərdi siyasi şüur və davranış S.-idir.

Ikincisi, qrup halında siyasi şüur və davranış S.-idir (məs., bu və ya digər etnosun ənənələri, "peşə şərəfinin" tərkib hissələri, siyasi partiyaların və hərəkatların nizamnamələri və s.). Üçüncüsü, bütövlükdə cəmiyyət (sosial-siyasi sistemin) üzvünün siyasi şüur və davranış S.-idir. SSRI-də yayılmış "kommunizm qurucusunun əxlaq kodeksini" buna misal göstərmək olar.

İnsanların şüur və davranışının stereotipləşdirilməsinin sərtliyinə görə sosial-siyasi sistemlər bir-birindən fərqlənir.

Totalitar cəmiyyətdə S.-lərin sayı çox məhdud, bunlara əməl edilməsi isə məcburidir. Həmin S.-lərdən kənara çıxmaq sərt və labüd olaraq cəzalandırılır.

Demokratik cəmiyyətdə isə bu sahədə xeyli azadlığa yol verilir. Bir növ plüralizm baş verir, bunun hesabına insan yeknəsəq itaətkarlıq zərurəti və məcburiyyətindən xeyli xilas olur. Beləliklə də S.-dən tam xilas olmadan (bu, əslində mümkün deyildir, çünki insanın təbiətinə və psixikanın fəaliyyət qanunauyğunluqlarına ziddir) insan qavrayışı, təfəkkürü yaradıcılıq imkanları və son nəticədə insanın bütün fəaliyyəti sərbəstləşir. Bu isə sosial-siyasi sistemin stereotiplərdən xilas olması prosesini gücləndirir və sistemin daha da inkişafına kömək edir. Siyasi-psixoloji mənada demokratikləşmə prosesi və totalitar cəmiyyətdən sosial-siyasi təşkilatın daha azad formalarına keçid vahid S.-inin (məs., milli-etnik, sinfi, partiyalı "ümumxalq", ya da ümumqrup tipli) məqsədyönlü şəkildə dağıdılması və ya öz-özünə dağılması vasitəsilə əldə edilir.

SUVERENLİK (alm. souveränität, fr. souveraineté - ali hakimiyyət) - hər hansı qüvvədən, şəraitdən və şəxsdən asılı olmayan hakimlik. "S." anlayışı XIX əsrin axırında "dövlət" anlayışı ilə birlikdə yayılmış və orta əsrlərdən ali feodal hakiminin, suverenin, yeni dövrdə həm də dövlətin şəxssiz hakimiyyətinə şamil edilən təkhakimiyyətliliyi mənasını əxz etmişdir. Ona görə də bu anlayışa ölkənin və orada yaşayan xalqın (millətin) müstəqilliyi haqqında təsəvvür də daxil olmuşdur. "Milli suverenlik" anlayışı da buradan yaranmışdır. Ali hakimiyyətin S.-inin qəbul edilməsi yeni dövrün əvvəlində dövlətlərin birləşdirilməsində, onların daxili birliyində, feodal çəkişmələrinin aradan qaldırılmasında mühüm rol oynamışdır. İki başlanğıcın, yəni aliliyin və müstəqilliyin "S." anlayışında birləşməsi qanunun üstünlüyünün və azadlığın onda birləşməsi deməkdir. Ona görə də siyasət tarixində "S." anlayışının bütün səviyyələrdə dövlət və hakimiyyətə münasibətdə mənası insan üçün azadlıq və hüquqlar anlayışlarının mənası ilə eynidir. Bu, suveren və suveren dövlət üçün təkcə müstəqillik, azadlıq əleyhinə daxili və xarici qəsdlərdən qorunmaq hüququ, həm də idarə, əmr, qərarlar qəbul etmək azadlığı, ali hakimiyyətinin bütün vəzifələrini həyata keçirmək hüququdur. Ona görə də suveren hakimiyyətin mütləqiyyət, hakimi-mütləqin iradəsi kimi təfsir edilməsi təsadüfi deyildir.

İnsanın şəxsi işlərinə qarışmaq məfhumu kimi, dövlətin "daxili işlərinə qarışmaq" anlayışı da var. Suveren hüquqların, öz işləri ilə müstəqil məşğul olmaq hüquqlarının qorunması xüsusən dövlətçiliyin bərqərar olduğu, milli birliklərin, yeni ictimai, siyasi quruluşun və ya dövlətin quruluşunun formalaşdığı dövrdə, istər daxili, istərsə də xarici siyasətdə çox mühümdür. Lakin S. istər daxili, istərsə də xarici zəruri və labüd məhdudiyyətlərin obyektidir. Ona görə də müxtəlif subyektlərin ölkə daxilində və ölkələr arasında suveren üstünlüklərini tənzimləyən müqavilə münasibətləri meydana gəlir. Bir-birindən qarşılıqlı asılı olan dövlətlərin müasir siyasətində onların arasındakı (real və ya mümkün ola biləcək) münaqişələr suveren hüquq və azadlıqları tənzimləyən, mahiyyətcə təkcə qoruyan yox, həm də məhdudlaşdıran beynəlxalq təşkilatlar və sazişlər sisteminin yaranmasına gətirib çıxarmışdır.

S.-in klassik tərifini fransız filosofu J.Boden "Siyasi birlik haqqında altı kitab" adlı məşhur əsərinin (1576 il) birinci kitabında belə vermişdir: "siyasi birlikdə vətəndaşlar və təbəələr üzərində ali, mütləq və daimi hakimiyyət".

Müasir dövrdə həm dünya siyasi birliyinin yaranması (bəşəriyyətin S.-inin mümkünlüyü) ilə, həm də xüsusi S.-lərin həddinin, onların bir-birilə uyğunlaşdırılması və onların iyerarxiyasının qurulması prinsiplərinin dəqiqləşdirilməsi ilə əlaqədar olaraq "S." anlayışının kompleks şəkildə yenidən dərk olunması və yenidən qiymətləndirilməsi getdikcə daha çox zəruri görünür.

Dövlətin S.-i ölkənin daxili həyatında hökumətin və onun yaratdığı inzibati strukturların aliliyini, xarici siyasət məsələlərində isə həmin hökumətin

hüquqi cəhətdən digər dövlətlərlə qarşılıqlı münasibətlərə girmək barədə beynəlxalq birlik, başqa dövlətlərarası subyektlər tərəfindən tanınmış hüququnu nəzərdə tutur.

Xalqın S.-i bu və ya digər ölkənin vətəndaşlıq səlahiyyəti olan bütün əhalisinin siyasi hakimiyyətin mənbəyi sayılmasına əsaslanır.

Şəxsiyyət, yaxud vətəndaş suverenliyi özü ilə sərbəst rəftar etmək, şəxsi mənafeyini və baxışlarını rəhbər tutaraq digər siyasi subyektlərlə müstəqil münasibətlərə girmək hüququ və imkanı kimi başa düşülür.

Dövlətin, ölkənin, xalqın və ya millətin, hətta şəxsiyyətin S.-inin də siyasi, iqtisadi, hüquqi cəhətləri var. Milli və dövlət S.-inin maddi əsası əraziyə, müəyyən mülkiyyətə, mədəni sərvətə (milli və ya dövlət dilinə və s.) malik olmaqdır. Eləcə də suverenliyə qadir olan şəxsiyyətin də sərvəti mülkiyyət, bilik, əmək və peşəyə sahib olmasıdır.

Sabit, təşəkkül tapmış dövlətin, hakimiyyətin kifayət qədər inkişaf etmiş siyasi təşkilinin və strukturunun olması suverenliyin siyasi əsasıdır.

S.-in hüquqi əsası konstitusiya, bəyannamələr, dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyü, onların daxili və xarici işlərinə qarışmamaq barədə beynəlxalq hüququn hamı tərəfindən qəbul olunmuş prinsipləridir.

Milli və dövlət S.-i haqqında anlayışlar BMT Nizamnaməsində və Helsinki sazişlərində təsbit olunmuşdur.

Beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsiplərinə (suveren bərabərlik, ərazi bütövlüyü, daxili və xarici işlərə qarışmamaq və s.) əməl olunduqda beynəlmiləl birlik bərabər hüquqlu və qarşılıqlı surətdə faydalı xarakter daşıyır. Belə qarşılıqlı əlaqə ölkələrin və xalqların ictimai həyatının beynəlmiləlləşməsi və inteqrasiyasına doğru mütərəqqi tarixi meylin məzmununa uyğun gəlir.

SÜLHYARATMA - 1. şəxsiyyətin cəmiyyətdə maksimum dərəcədə münaqişəsiz münasibətlər yaratmaq məqsədi daşıyan sosial-psixoloji mövqeyi. Şəxsiyyətin fəal sülhyaratma mövqeyi sülh uğrunda vətəndaş hərəkatlarında daha dolğun

ifadə olunur, bu hərəkatlar ümumdemokratik yönümündən əlavə, məhdud peşə xarakteri də daşıya bilər ("Alimlər sülh uğrunda Paquoş hərəkatı, "həkimlər sülh uğrunda", "Generallar sülh uğrunda" və s.). Sülhyaratma fəaliyyəti passiv forma olsa da, ayrı-ayrı şəxslər və sosial qruplar tərəfindən müxtəlif vətəndaş itaətsizliyi aktları və qeyri-zorakı tədbirlərində ifadəsini tapa bilər. Sülh haqqında elmin inkişaf tarixində şəxsiyyətin sülhyaratma məqsədi özünün daha bitkin ideoloji formasını pasifizm ideologiyasında tapmışdır. Qərbin müasir irenologiyasında - sülh haqqında elmində S. sülh problemlərinin elmi tədqiqi, əminsumanlıq ruhunda tərbiyə və sülhün reallaşdırılmasına dair fəaliyyətdən ibarət üçlüyün tərkib hissələrindən biri sayılır.

2. Xarici siyasət fəaliyyət baxımından götürüldükdə, S.-nın başlıca subyektləri ayrı-ayrı fərdlər deyil, dövlətlər və ölkələrinin tərksilahı, beynəlxalq münaqişələrin sülh yolu ilə aradan qaldırılmasına və sairəyə dair təşəbbüsləri kimi təzahür edir. Belə təşəbbüslər xarici siyasət fəaliyyətində sabit meyl xarakteri olaraq, həmin dövlətin beynəlxalq aləmdə davranışının səciyyəsini müəyyən edə bilər.

Ş

ŞANTAJ (fr. chantage) - ifşaedici və rüsvayedici məlumat (bu, həqiqət və ya uydurma məlumat ola bilər) yaymaq hədəsi ilə nə isə tələb etmək. Belə hallarda hədələyən tərəf hansısa bir fayda götürmək məqsədi güdür.

ŞƏXSİYYƏTƏ PƏRƏSTİŞ - SSRİ-də geniş yayılmış totalitar tipli təkbaşına hökmranlığın özünəməxsus səciyyəsi və İ.V.Stalinin şəxsiyyətinə pərəstişin (lat. cultus - ehtiram, sitayiş) ifşası ilə əlaqədar tarixi-ictimai, siyasi anlayış. **Ş.p.**-in qnoseoloji köklərini sitayiş sahəsində və dini dairələrdə axtarmaq lazımdır. Məlumdur ki, dinin ən qədim və geniş yayılmış formalarından biri vəfat etmiş şəxsin ilahiləşdirilməsi məsələsi idi. Məs., qədim Cində, Hindistanda, Yunanıstanda və Romada allaha sitayiş edildiyi kimi, cənazəyə də ehtiram göstərirdilər və xüsusi mərasimlər keçirməklə əcdadlara sitayiş yaradırdılar. Belə ki, Buddanın, Isanın və Məhəmmədin müasirləri onların şəxsi nüfuzları və nəzəriyyələrinə səcdə etmiş, belə münasibət onların ölümündən sonra da artaraq ilahiləşdirilmiş, onların şəxsiyyətinə pərəstiş yaradılmışdır; bu isə öz növbəsində, dinə sitayişin yaranmasına və inkişaf edib geniş yayılmasına səbəb olmuş, beləliklə də dünyada ən böyük üç din - buddizm, xristianlıq və islam dinləri yaranmışdır.

Lakin dinlə heç bir əlaqəsi olmamış, dini sahədə fəaliyyət göstərməmiş onlarca şəxsin nüfuzunun həddən artıq şişirdilməsi haqqında tarixdən çoxlu misallar gətirmək olar. O da məlumdur ki, bütün dövrlərdə həm çarların (padşahların), həm sərkərdələrin, həm də görkəmli ictimai-siyasi xadimlərin və dövlət xadimlərinin qarşısında səcdə edənlər, onlara yaltaqlananlar olmuşdur.

Qədim Romada "hökmdar" ("padşah") sözü qulun öz sahibkarına münasibəti mənasında işlədilmişdir. (e.ə.I əsr), ona səcdənin və inamın əlaməti kimi hər il andiçmə mərasimi keçirilmiş, bu yolla da o hökmdar taxtına sahib olmuşdur. Bütün Roma sezarları (Neron-dan sonra bu ad titul olmuşdur) geniş hakimiyyət hüquqlarına malik idilər.

Bu və ya digər mənada "sezarizm" ideyası hakimiyyətin yuxarı eşelonunda möhkəm kök salmış və son zamanlarda, hətta bəzən demokratik cəmiyyətin özünə də ziyan vuraraq inqilabi hərəkata da daxil ola bilmişdir.

Keçmiş SSRİ-nin bütün müttəfiq respublikalarında yaşayan xalqların nümayəndələrinə "Stalinin şəxsiyyətinə pərəstişi görmək" nəsib olmuşdur. Rəhbərlik etdiyi totalitar diktaturada mühüm atributa çevrilmiş **Ş.p.**, sonrakı illərdə bir sıra Stalin və Stalinəbənzər sitayiş obyektlərinin meydana çıxması nümunə olmuşdur.

İK (b)P-nin rəhbərlərindən biri, 1924-cü ildən 1953-cü ilə qədər faktik olaraq Sovet dövlətinin və KP-nin başçısı olmuş İ.V.Stalin (1879-1953) "dövlət sosializmi" ideologiyasına və praktikasına çox mühüm şəxsi təsir göstərmişdir. Stalinin hakimiyyətdə olduğu dövrdə sosializm quruculuğuna sosial vəzifədən daha çox, inzibati məsələ kimi baxılırdı. Partiya-dövlət aparatı bütünlüklə bir növ neosezarizm tərəfindən təsbit olunmuş təkhakimiyyətliliyi təmin etmək vasitəsinə çevrilmişdi. Sosializm cümləpərdazlığı isə yalnız orta əsrlərdə mövcud olmuş totalitar rejimi, Cingiz xan, Teymurləng, Hitler və digər fateh demokratların əqidəsinə uyğun yaradılmış dövlətin əsl mahiyyətini gizlətməyə xidmət edirdi. Bütün bunlarla bərabər, sağlığında Stalinin fəaliyyəti göylərə qaldırılmış, "xalqın atası" adına layiq görülmüş, Rusiyada inqilabın inkişafı prosesində onun şəxsi xidmətləri şişirdilmiş, tarixi həqiqətlər saxtalaşdırılmışdır. Eyni zamanda başqa cür düşünənlər, bu və ya digər dərəcədə partiyanın "baş xəttindən" kənara çıxanlar, onun fəaliyyəti barədə mənfi fikir söyləyənlər qəddarlıqla cəzalandırılmış, təhqir və təqiblərə məruz qalmış, cismən məhv edilmişlər.

Partiya "nəzəriyyəçilərinin" fikrincə, SSRİ-də sonrakı dövrlərdə "möhkəm" kök salmış "sosializmin təbiətilə" real **Ş.p.** üçün heç bir əsas olmadığı, bu iki anlayışın bir araya sığmazlığı haqqında mülahizələrin tam əksinə olaraq SSRİ-də N.S.

Xruşşov, L.İ.Brejnev və b., keçmiş Sovet İttifaqının müttəfiq respublikalarında və xaricdə "real sosializmin" digər ölkələrində bir sıra rəhbərlərin fəaliyyətində də Ş.p.-in izləri qalmaqda idi.

ŞİKAYƏT - Münaqişə, yaxud başqa bir problem, məsələyə müdaxilə olunması haqqında rəsmi inteqrasiyaya yazılı və ya şifahi müraciət, xahiş; bürokratik idarə sisteminin mühüm sahəsi. Ş., vətəndaşlarda idarəetmənin aşağı vəsiləsində çalışan məmurlara müraciət etməkdə nisbi azadlıq hisləri əmələ gətirir. Lakin bu azadlıq, bir qayda olaraq, dövlət tərəfindən təşviq olunan xülya ilə əlaqədardır; yuxarılar guya xalqa qarşı ədalətsizliyə, onun hüququnun hər hansı formada tapdanmasına və pozulmasına görə daim cavab verməyə hazır olmalıdır. Belə xülyalar sanki vətəndaşlarla mövcud dövlət quruluşu və hökumət arasında əlaqəni gücləndirirdi.

Vətəndaş Ş. verməklə, bir növ özünün yuxarılarla həmrəy olduğunu bildirir və idarəetmənin bütünlüklə səmərəliliyini qəbul edir; belə ki, o, yalnız müəyyən faktlar haqqında şikayət edə bilər. Bununla da o, mövcud idarəetmə sisteminin tamamilə yararlı olduğunu təsdiq edir. əlbəttə, bir qayda olaraq məmurlar da belə bir mövqedə olduqlarını bildirirdilər. Bürokrat idarəetmə sisteminin kütlənin siyasi psixologiyasının stereotipində nə qədər dərinləşməsini yuxarılara verilən Ş.-in miqdarına, onlara tezliklə baxıldığına və idarəetmə iyerarxiyasının səviyyəsinə görə qiymətləndirmək olardı.

Stereotipin əsas mahiyyəti aşağıdakı kimidir; hakimiyyətin yuxarı vəsiləsi intizamın, həqiqətin, xoşbəxtliyin və haqq-ədalətin əsas mərkəzi kimi dərk edilir. Bu, tipik bürokratik əqidədir. Çünki arxiyanın prinsiplərinə görə, hər hansı bir şəxs və ya orqan ictimai, siyasi iyerarxiyanın nə qədər yüksək nüqtəsində dursa, onlar bir o qədər də əxlaqi, mənəvi və siyasi dəyərlərin daşıyıcısı kimi yüksək səviyyədə ixtisaslaşırlar. Ş. vətəndaşın siyasi şüurunda iyerarxiya prinsiplərinin nə dərəcədə dərin nüfuz etdiyini göstərir.

Bir qayda olaraq, Ş.-in verilməsindən onun müzakirəsinə,

qərarın qəbul olunmasına qədər az və ya çox müddət keçir. Vətəndaş xahiş edənə çevrilir. Bu onu aşılı vəziyyətə salıb, onun üçün məşəqqətli bir iş olur, ərizəçinin ləyaqətinə pis təsir edir və onun ictimai və siyasi hüquqsuzluğunu bir daha təsdiqləyir. Ş. bürokratik maşının fəaliyyətini saxlaya bilmir.

ŞOVİNİZM (fr.chanvinisme) - hərbi gücə arxalanmaqla sərsəmlik həddinə çatan vətənpərvərlik; avtoritarizm əlamətləri ilə qidalanan ifrat millətçilik. "Ş."termini minimum həyat nemətləri ilə kifayətlənən, Napoleon Bonaparta dəlicəsinə bağlılığı, pərəstişi ilə seçilən fransız əsgəri Nikolay Sovenin adından törəmişdir. İlk vaxtlar Şoveni lağa qoyur, onun karikaturalarını çəkirdilər, haqqında pyes yazılandan sonra isə o, mənfi tipə çevrildi. Sonralar "Ş." terminini hər hansı bir millətin və ya dövlətin hərbi üstünlüyü ideyasına sadiqliyi bildirmək üçün işlədilməyə başladı. Ş. ovqatı təcavüzkarlıq və qələbə, eləcə də məğlubiyyətlə hesablaşmamaq və qisas almaq siyasətinin nəticəsidir ki, birinci dünya müharibəsi bunu xüsusilə aydın göstərdi. İşğalçılığa meyl göstərən sosial-siyasi qövvələr belə ovqatı daim qızışdırırlar. Ş. daha incə formalar alıb iqtisadi ekspansiyanı, siyasi təzyiqi, mədəni hegemonluğu üstün tuta, dövlətdaxili münasibətlər səviyyəsində də təzahür edə bilər. İngilisdilli ölkələrdə eyni mənada "Cinqonizm" termini işlənir.

"Kiçik" xalqların istismarını bildirmək üçün işlədilən və irqçiliklə, milli azlıqları əsarətdə saxlamaqla səsləşən "hakim millətçilik Ş.-i" termini müasir politologiyanın vəzifələrinə o qədər də uyğun gəlmir. Ş. bonapartçılığın, faşizmin, irqçiliyin, militarizmin qarışığıdır. Təkcə "böyük" milli nailiyyətlərə və vəzifələrə sadiqliyi şişirtməklə o, müasir siyasi şüurda pozucu rol oynayır. 70-ci illərdən etibarən Ş. termini obrazlı şəkildə bir sosial qrupun digəri (digərləri) üzərində hakim olmasını bildirmək üçün ("kişi Ş.-i") işlədilir. Bax; **MİLLƏTÇİLİK, İRQÇİLİK.**

ŞÜAR - qısa formada çağırış; təşviqatın əsas üsulu.

T

TEXNOKRATİYA (yun. tehno və kratos - hərfi mənada sənətkarlığın, ustalığın hökmranlığı) termini müxtəlif mənalarda işlədilir: 1) idarəetmənin yuxarı pilləsinə daxil olan texniki mütəxəssislər təbəqəsi; 2) texnokratik idarəetmənin müddəalarını əməli həyata keçirən real siyasi rejim; 3) cəmiyyətdə müasir sənaye istehsalının əsası kimi texnikaya və texniki mütəxəssislərə aparıcı rol ayıran nəzəri konsepsiya, yaxud ideologiya.

T. konsepsiyasının iki blok nəzəri müddəaları var. Birincisi, texnikanı və texniki anlayışı başa düşməyin daha ümumi məsələlərinə aiddir. ikincisi isə, istehsalın idarə olunmasının, yeniliklərin tətbiqinin, sosial idarəetmənin və siyasi strukturların nisbətini əhatə edir.

T.-nın ümumi nəzəri əsası elmi ədəbiyyatda bütövlükdə "texnoloji determinizm" termini ilə ifadə olunan bir sıra təsəvvürlərdə əksini tapmışdır. Texnokratik baxışlar sistemində texniki sivilizasiya, insanların şüuru və əlləri ilə yaradılmasına baxmayaraq, insanın və cəmiyyətin idarəsindən asılı deyildir, "ikinci", yaxud süni təbiətdir; bu mənada o, əməyin sadə məhsulundan daha çox əsl təbiətlə tutuşdurula bilər. Belə güman edilir ki, müasir insanın yaşadığı bü cür "muxtar" texniki mühit öz qanunu üzrə daxili inkişafa - texnikanın bütün göstəricilərinin sonsuz təkmilləşdirilməsi kimi başa düşülən texniki rasionallığa qabildir.

Texnikanın belə inkişafı düzxətli inkişaf - az mükəmməl texnikadan daha mükəmməl texnikaya doğru tərəqqi kimi təsəvvür edilir. "Texnoloji determinizmin" müddəalarından biri də budur ki, texniki mövqe nəinki muxtardır, insan və cəmiyyətin idarəsindən asılı olmayaraq inkişaf edir, həm də cəmiyyətə təsir göstərir - sosial tərəqqi ikincidir və texniki tərəqqidən asılıdır. Həqiqətən də istehsaldakı inqilabi dəyişikliklər, böyük elmi və texniki kəşflər əmək və həyat şəraitində mühüm dəyişikliklərə, sosial dəyişikliklərə, son nəticədə isə inqilablara səbəb olur. Lakin

cəmiyyətin inkişafı olduqca mürəkkəb çoxamilli prosesdir və bir amilin istənilən nəzəri determinizmi hökmən nəinki gerçəkliyin bəsitləşdirilməsinə, həm də onun təhrifinə, bu amilin, indiki halda texnikanın əsatirləşdirilməsinə doğru aparacaqdır. Buna baxmayaraq, texnikanın məhz bu cür mifləşdirilməsi istər Qərbdə, istərsə Şərqdə, həm inkişaf etmiş, həm də zəif inkişaf etmiş ölkələrdə adi, siyasi, elmi və texnokratik təfəkkürü eyni dərəcə sabit stereltipi olaraq qalmaqdadır. "Texnoloji determenizmlə" ruhlandıran T.-nın təhlükəli cəhəti sosial problemləri də texniki məsələlər kimi həll etmək meylidir.

Bununla da sosial-mədəni problemlər istehsal, maliyyə, struktur məsələləri ilə əvəz edilir.

Texnikanı qiymətləndirmək baxımından "texnoloji determenizm" ideologiyasının bir-birinə zidd olan iki variantı var: birinci, texnisist varianta görə texniki rifah, onun inkişafı rifahın artması deməkdir, texnika sivilizasiyasının son məqsədi hamıya xoşbəxtlik gətirməkdir. ikinci, antitexnokratik variantla texnikanı şərin təcəssümü sayır və belə hesab edir ki, texnika hakimiyyətə doğru qarşısalınmaz iradəyə malikdir, insanı əzir və bəşəriyyəti məhvə doğru aparır.

Məhdud mənada T. konsepsiyasını təşkil edən ikinci blok məsələlər texnisist ideologiyanı siyasət sahəsinə keçirməyi nəzərdə tutur. T. konsepsiyasının əsas ideyası ictimai məqsədlərə səmərəli şəkildə nail olmaq üçün lazımi biliyə malik adamların xüsusi yeri barədə ideyadır (bunu ilk dəfə Sen-Simon ifadə etmişdir). Bu ideya biliyə, sərištəyə söykənən hakimiyyətin imkanları haqqında daha ümumi ideyaya əsaslanır. Sənaye istehsalının xüsusi əhəmiyyət kəsb etdiyi sənaye cəmiyyətində mexanikləşdirilmiş iri istehsal mərhələsində (XX əsrin əvvəllərində) texniki səmərəliliyin daşıyıcıları, onun daxilən inkaşafına kömək edən texniki mütəxəssislər təbəqəsi yaranır. Eyni zamanda hakimiyyətin (sənayenin və ümumən cəmiyyətin idarə olunmasında) texnokratlara keçməsi ideyası da meydana çıxır. Bu

ideyaya görə texnokratlar hakimiyyəti texnikanın adından, texniki vasitələrlə ələ keçirirlər. Daha sonralar texnokratları idarəetmənin ənənəvi strukturalarına daxil olan və burada aparıcı mövqelər tutan bir növ yeni sinif kimi anlamağa və öyrənməyə başlamışlar. 60-cı illərdə C.Helbreyt **"T."** anlayışını "texnoloji determenizm" ideologiyasına uyğun olaraq idarəetmənin yüksək vəzifəli fəalları mənasından texnostruktur (sıravi mühəndis və texnoloqlardan tutmuş peşəkar firma müdirləri və direktorlarınadək xüsusi biliyə malik adamları birləşdirən geniş iyerarxik struktur) anlayışınadək genişləndirirdi. Texnostrukturun bütün mərtəbələri bu və ya başqa dərəcədə hakimiyyətə, yəni qərarların qəbul edilməsi prosesinə qoşulmuşdur. Helbreyt öz konsepsiyasında hakimiyyəti istehsal və idarəetmə mütəxəssisləri arasında bölüşdürmüşdür.

80-ci illərdə kompüterləşdirmə ilə əlaqədər "yeni texnokratiya dalrası" meydana gəlmişdir. Onun tərəfdarlarının fikrincə, kompüter texnologiyasının cəmiyyətə təsiri vaxtilə elektrikin və dəmir yolunun göstərdiyi təsirdən daha dərindir. İstehsal dəyərləri - istehlak əvəzinə, kompüter texnikası insanın özünütəkmilləşdirmə dəyərlərini, təbiətlə ahəngdarlığı ön plana çəkir. Yeni elitar texnokratın - iri kompüter sistemlərinin "memarının" fiquru da özünü getdikcə aydın göstərir.

Texnokratik idarə üsulunun tənqidçiləri (A.Qouldner, C.R.Mills, əks-mədəniyyətin, neomarksizmin nəzəriyyəçiləri) texnikaya xas olan "hakimiyyət iradəsini" şəxsləndirir, yəni insan şəkli verir və istehsal naminə istehsal siyasətinin, texnika naminə texnikanı inkişaf etdirmək siyəsətinin məhvedici nəticələri üçün məsuliyyəti texnobürokratiyanın real strukturlarının üzərinə qoyurlar. Lakin həmin tənqidçilər T. ideoloqlarının belə bir fikrinə də şərik çıxırlar ki, texnokratlar real hakimiyyətə malikdilər, texnikanın və biliyin özündə fövqalad güc var. Başqa sözlə, T.-nın tənqidçiləri və texnokratlar eyni ideyalar sistemində böhrələnmişlər. "Yaşıllar" tipli alternativ hərəkatlardan olan tənqidçilərin T. barədə baxışları bir qədər fərqlənir. Onlar texnosənayeni sonsuzluğa qədər yeniləşdirmək yolundan çəkinməyə çağırırlar.

70-ci illərin ortalarından etibarən texnisist-texnokratik paradiqmanın özünün yeniləşdirilməsi istiqamətində mühüm dönüş təzahür etmiş və hazırda tam şəkildə müəyyənləşmişdir. Köhnəlmiş, lakin davamlı stereotipləri aradan qaldırmaq cəhdləri belə bir cəhətin dərk olunması ilə bağlıdır ki, bəşəriyyət qlobal texnoloji risk vəziyyətindədir və bundan yayınmaq, ona əhəmiyyət verməmək mümkün deyildir. O, insanın yaşayış mühitinin dəyişməz əlamətinə çevrilmişdir.

Texnika haqqında yeni təfəkkürün əsas göstəriciləri bunlardır: texnikanın inkişafı haqqında mütərəqqi təsəvvürlərdən uzaqlaşma; texniki yeniliklərin ikili xarakterinin, bir çox hallarda isə bunların geniş etiraf edilməsi; yeni texnologiyaların qiymətləndirilməsinə, riskin yol verilən həddinin müəyyən edilməsinə dair müstəqil ekspert idarələri şəbəkəsinin inkişafı. Sonuncu göstərici ən mənəvi sahəyə, texniki səmərəlilik sahəsinə başqa mütəxəssislərin - ekoloqların, maliyyəçilərin, filosofların, psixoloqların, coğrafiyaşünasların və s., üstəlik, ictimai fikrin nüfuz etməsi deməkdir. Texnikanın müstəqilliyi, texnikanın və mütəxəssislərin hər şeyə qadir olması haqqında əfsanə məhz bu istiqamətdə tədricən yox olur.

Texnokratların hakimiyyəti haqqında məsələyə gəldikdə isə onu demək olar ki, doymaq bilməyən texnosənaye kompleks məqsədli sosial inzibatçılıq dövrü arxada qalmış və indi vəziyyət dəyişir. Bunula belə demokratik idarəetmə, siyasi qərarın qəbulunu qabaqlayan müstəqil ekspertizanın genişlənməsi və siyasi təfəkkürün humanistləşməsinin indiki ümumi prosesi şəraitində belə texniki informasiyaya və texniki vasitələrə malik olanlarla peşəkar siyasətçilər arasında birbaşa əlaqənin yarandığını söyləmək düzgün olmazdı.

Politologiyada **T.** : *1)* dövlət aparatının fəaliyyətində iştirak edən müasir istehsalın yüksək mütəxəssislərdən ibarət təbəqəsi. *2)* yüksək dərəcədə sənayeləşdirilmiş istehsalın idarə olun-

ması metodlarının dövlət-siyasət sahəsinə keçirilməsinin zəruriliyində təkid edən ideya istiqaməti.

TEOKRATİYA - (yun. tueos - Allah, kratos - hakimiyyət) - hakimiyyətin ruhanilərin əlində cəmləşdiyi dövlət idarəçiliyi forması. Teokratik dövlətlər qədimdən məlumdur. Məs., e.ə. V-I əsrlərdə Yəhudi padşahlığında bütün dövlət hakimiyyəti baş kahinə məxsus idi. Orta əsrlərdə əməvilər və Abbassilər xilafətləri teokratik dövlətlər idi. XVII əsrdə iyezuitlər Paraqvayda belə bir dövlət yaratmışdılar. XIX əsrdə Rusiya Qafqazı işğal edərkən şeyx Şamilin Çeçenistanda və ətraf yerlərdə yaratdığı və çar ordusuna qarşı uzun müddət mübarizə aparmış imamlıq da teokratik dövlət idi. Tibet 1951-ci ildə Çin Xalq Respublikasına birləşdirilənə qədər orada dünyavi hakimiyyətə də dalaylama (lamaizmin başçısı) rəhbərlik edirdi. Roma katolik kilsəsinin rəhbəri papa həm də Vatikan dövlətinin başçısıdır. Ümumən götürdükdə, hazırda T. artıq tarixə köçmüşdür. Lakin 1979-cu ildə İranda islam inqilabı nəticəsində orada dövlət hakimiyyəti əslində şiə ruhanilərinin əlinə keçmişdir.

TERROR (lat. terror - qorxu, vahimə) - siyasi zorakılığın amansızlığı, məqsədyönlülüyü ilə səciyyələnən, eyni zamanda zahiri effektivliyi ilə seçilən xüsusiyyətlərə görə, bəşəriyyət tarixində terrordan dövlətin, təşkilatların və ya ayrı-ayrı qrupların mənafeyi naminə siyasi mübarizə vasitəsi kimi geniş istifadə edilmişdir. Orta əsrlərdə cinayətkarların, o cümlədən siyasi cinayətkarların camaatın gözü qarşısında edam olunması əslində dövlətin mənafeyi naminə terrorun klassik forması idi.

Dərin sosial sarsıntıların baş verdiyi cəmiyyətdə dövlətə T. inqilabın və əksinqilabın geniş yayılmış mübarizə vasitəsi idi. Həm də məsələ kimin birinci "ağ" və ya "qırmızı" terrorun başlamasında deyil, onda idi ki, ziddiyyətlərin kəskinliyi və qarşıdurma tərəflərinin siyasi mədəniyyətinin səviyyəsi yalnız bir nəticəni - öz opponentini ləğv etməyi nəzərdə tuturdu.

Müasir dövrdə ekstremist təşkilatların terrorzuluq fəaliyyətinin güclənməsi müşahidə olunur. terrorzuluq əməllərinin kəskinliyi, antihumanistliyi artır. T.-ın səbəbini böhran hallarının artmasında, cəmiyyətin mürəkkəb sosial-siyasi prosesləri tənzimləyə bilməməsində, bəşəri və siyasi ideallar, dəyərlər sisteminin sürətlə dəyişməsində, siyasi təcrübəsi olmayan geniş kütlənin fəal siyasi həyata qoşulmasında axtarmaq lazımdır. Belə şəraitdə ictimai və dövlət sisteminin zəif cəhətlərindən istifadə etmək və qarşıya qoyulmuş məqsədə çatmağın ən "qısa" yolu kimi təsəvvür olunan zorakılıq, T. yoluna əl atmaq cəhdləri güclənir.

T.-ın əsas ünsürü terrorzuluq əməlidir (girov götürülməsi, siyasi xadimlərin oğurlanması və ya öldürülməsi, pul, nəqliyyat vasitələri, yaxud silah ələ keçirilməsi, siyasi dustaqların azad edilməsi, "güclü şəxsiyyətin" və ya onun tərəfdarlarının aradan götürülməsi və s.). Lakin terrorzuluq əməli terrorun elan edilmiş "ali" məqsədinə yalnız "ən qısa", birbaşa yol açır.

Terrorzuluq əməli törədilməsinin variantları müxtəlif olduğuna görə, T.-un universal tərifini vermək çətindir. Bununla belə, təsnifatın bəzi meyarlarını qeyd etmək mümkündür:

- dinc şəraitdə və müharibə dövründə siyasi mübarizə metodu:
- fərdi, mütəşəkkil terror və dövlət siyasəti kimi terror;
- daxili siyasi mübarizə metodu, beynəlxalq xarakterli terrorzuluq əməlləri.

TƏBLİĞAT - ictimai şüurda ideyaları yaymaq üçün şifahi və ya kütləvi informasiya vasitələri ilə aparılan müntəzəm fəaliyyət. Bax: həmçinin **TƏŞVİQAT**.

T. - siyasi, elmi, nəzəri, bədii, texniki və s. bilikləri, ideyaları kütlələr içində yaymaq məqsədi ilə aparılan müntəzəm fəaliyyət. Məhdud mənada T. onun növlərindən birini - kütlələrdə müəyyən dünyagörüşü formalaşdırmaq məqsədi daşıyan siyasi, yaxud ideloji T.-ı bildirir. Siyasi T.-ın özəyini müəyyən sinfin idelogiyası təşkil edir. T. şifahi müntəzəm məruzələ və mühazirələr /və yazılı şəkildə /qəzet, jurnal, kitab apanlır.

TƏCAVÜZ - bir dövlətin digər dövlətin siyasi müstəqilliy-

inə və ya ərazi bütövlüyünə qarşı bilavasitə, yaxud dolayısı yolla silahlı qüvvə tətbiq etməsi. Hər hansı dövlət tərəfdən birinci yol verilmiş bu hücuma təşəbbüs qəsd və ya təcavüzkar niyyət kimi səciyyələndirilir. T.-ün ən təhlükəli forması silahlı hücumdur. iqtisadi, psixoloji, ideoloji və sair T.-lər də ola bilər. T.-ə məruz qalmış və özünümüdafiə qaydasında hərbi, o cümlədən hücum əməliyyatları ilə cavab verən dövlətin hərəkətləri təcavüzkar hərəkətlər hesab edilmir. Bunlar qanuni hərəkətlərdir və beynəlxalq hüquq normalarına uyğundur. Dövlətin xarici siyasətinin həyata keçirilməsinin forması kimi T. sülhün və xalqların təhlükəsizliyinin mənafelərinə ziddir, cəmiyyətin, sivilizasiyanın mütərəqqi inkişafına əngəl törədir. Harada olursa-olsun T.-ün qarşısını vaxtında almaq bütün sülhsevər qüvvələrin, bütün dünya birliyinin vəzifəsidir.

II Dünya müharibəsindən sonra T.-ün tərifi haqqında məsələ BMT Baş Məclisinin bir sıra sessiyalarında, həmçinin Beynəlxalq hüquq komissiyasında, bu məqsədlə yaradılmış xüsusi komitədə dəfələrlə müzakirə edilmişdir. 1972-ci ildə T.-ün tərifinin vahid mətni qəti sürətdə razılaşdırılmışdır.

Lahiyə T.-ü bir dövlətin digər dövlətin suverenliyinə, ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı silahlı qüvvə tətbiq etməsi, yaxud BMT Nizamnaməsi ilə bir araya sığmayan hər hansı digər hərəkətlərə yol verməsi kimi müəyyənləşdirmişdir. T. tərifinin komitə tərəfindən hazırlanmış mətni 1974-cü ilin dekabrında BMT Baş Məclisinin 29-cu sessiyasında təsdiq edilmişdir.

BMT Nizamnaməsində bu təşkilatın üzvlərinə bir vəzifə olaraq tapşırılır ki, özlərinin bütün mübahisələrini yalnız dinc vasitələrlə həll etsinlər. Beynəlxalq münasibətlərdə zor işlətməkdən və ya hər hansı dövlətin ərazi bütövlüyünə, siyasi müstəqilliyinə qarşı zor tətbiq etməkdən, yaxud BMT-nin məqsədləri ilə bir araya sığmayan hər hansı hərəkətlərdən çəkinsinlər. Dövlətin zor tətbiq etməsinə yalnız zəruri müstəsna hallarda yol verilir. BMT üzvünə silahlı hücum baş verdikdə, özü də yalnız Təhlükəsizlik Şurasının qərarı ilə sülh üçün olan təhlükənin qarşısının alınmasına və aradan qaldırılmasına yönədilmiş məcburi tədbirlərin həyata keçirilməsi zamanı.

1988-ci ildən etibarən Ermənistan Respublikasının Azərbaycan torpaqlarını zorla ələ keçirmək üçün başladığı hərbi əməliyyatlar müasir dövrdə T.-ə bariz misaldır. Azərbaycana qarşı təcavüz beynəlxalq hüquq normaları baxımından danılmaz faktdır, belə ki, təkcə BMT-nin Təhlükəsizlik Şurası erməni qoşun birləşmələrinin Azərbaycan ərazisindən çıxarılmasına dair 4 qətnamə qəbul etmişdir. Buna baxmayaraq, BMT Ermənistanı hələ də rəsmən təcavüzkar dövlət kimi tanımamışdır.

Müasir beynəlxalq hüquqda T.-ə, sülhə qarşı cinayətlər törətməyə görə beynəlxalq hüquq məsuliyyəti mövcuddur. T.-ə görə məsuliyyət, hər şeydən əvvəl, T.-ün qarşısının alınmasına və sülhün bərpasına yönədilmiş məcburi tədbirləri, həmçinin T.-ün nəticələrinin aradan qaldırılması sahəsində müxtəlif tədbirləri əhatə edir. Beynəlxalq T.-ə görə siyasi və maddi məsuliyyət nəzərdə tutulur: təcavüzkar dövlətin suverenliyinə müvəqqəti məhdudiyyət qoyulur; o, təcavüzkar əməlləri ilə vurduğu zərərə görə cavab verir. T.-ün planlaşdırılmasında, hazırlanmasında, başlanmasında və ya həyata keçirilməsində müqəssir şəxslər cinayət məsuliyyəti daşıyırlar. Kütləvi qırğın silahını tətbiq etməklə T.-ə yol vermiş dövlətlərin üzərinə xüsusi məsuliyyət düşür.

TƏFƏKKÜRÜN İNERSİYASI - (lat.inertia - durğunluq, hərəkətsizlik) - siyasətdə siyasi təfəkkürün xüsusiyyəti; birinci, özünün sükunət halını, yaxud düzxətli, bərabərsürətli hərəkətini o vaxta qədər mühafizə edir ki, xaricdən olan hər hansı bir səbəb (hadisə, proses, vəziyyət) onu əvvəlki vəziyyətindən çıxaran; ikinci, hər hansı xarici səbəbin təsiri altında müəyyən tezləşmə əldə etmək və hətta bu səbəblər yox olduqdan sonra da ona reaksiya verməkdə davam edir.

T.i. ölkə daxilində sərtlik, kobudluq və tam stereotipləşmə şəraitində, yaxud xarici siyasət xəttinin arzu olunmazlığında,

dünyagörüşü sisteminin və ətrafda baş verən hadisələrə münasibətlərin siyasi hərəkətlərin istiqamətini və xarakterini dəyişmək imkanı aradan qalxdıqda, artıq qəbul olunmuş birmənalı qərarlardan və onların vərdiş halını almış qəbuletmə mexanizmindən imtina etmək mümkün olmadıqda meydana gəlir. T.i. - nın siyasi formaları totalitarizmin təbiətinə xas olan əsas əlamətlərdən biri kimi, onun həm ictimai-siyasi (siyasi qərarların inhisar qaydasında qəbulu), həm də ictimai-psixoloji (totalitar və avtoritar cəmiyyətin yaratmış olduğu şəxsiyyətin xüsusi tipi olan avtoritar şəxsiyyətin təfəkküründün əlaməti və şüurunun xüsusiyyəti) əlamətlərinin ifadəsidir. T.i. siyasi təfəkkürün əsas determinantlarından biri kimi qiymətləndirilir. Ondan fərqli olaraq, yeni siyasi təfəkkür hər cür T.i.-nın yox edilməsinə yönədilmiş və çeviklik, təşəbüskarlıq, yaradıcılıq kimi mərkəzi siyasi-psixoloji amillərə əsaslanır.

Təcrübədə T.i. "vəziyyətin tədricən genişlənməsi", yaxud "inadkarlığın tədricən artması" adlanan fenomendə özünü daha çox nümayişkaranə göstərir. Bu fenomenin əsas mahiyyəti elə vəziyyətlər yaratmaqdadır ki, orada əvvəlcədən (mümkün olan, dərk edilməmiş) elə səhv qərarlar qəbul olunur ki, onların həyata keçirilməsi müxtəlif tələfatlar (maddi, siyasi, əxlaqi və s.) törədir. Buna baxmayaraq, qərarların səhv olması tezliklə aydınlaşır, amma qəbul olunmuş qərarların istiqamətə və yenidən baxılmış variantı onun əsas dəyişiklikləri ilə bərabər, həyata keçirilməkdə (sonralar törədiləcək tələfatlarla yanaşı) davam edir. Ciddi səhvlərlə qəbul edilmiş qərarların inadkarlıqla həyata keçirilməsi bu sahədə tələfat və itkilərin çoxalmasına gətirib çıxarır. Buna misal keçmiş SSRı-nin əfqanıstanda başladığı müharibəni göstərmək olar. Onun qurtarması üçün düz 9 il lazım gəldi.

T.i. fenomeni həm obyektiv, həm də daha çox subyektiv hisslərdən yaranır. T.i.-nın əsas subyektiv determinantlarına aparıcı ənənələri, qərarların səhv qəbul edilməsi nəticəsində meydana çıxan itkilərin (o cümlədən bərpa edilməyən) kompensasiyasını aid etmək olar.

Subyektiv mülahizələr isə ona səbəb olur ki, nəyin hesabına olursa-olsun əvvəllər səhv qərarlar qəbul etmiş siyasətçilər öz səhvlərini etiraf etmək əvəzinə "öz simasını saxlamaq" bu səhvlərdən müxtəlif yollarla qaçmağa can atır, əsaslı dəyişikliklər etmək əvəzinə yeni qüvvə və vəsait sərf etməklə başladıqları "işi" davam etdirirdilər.

Məsələn, 80-ci illərdə başlanmış və uzun sürən iran-iraq münaqişəsi buna misaldır. O vaxt iki diktator uzun illər hərbi qarşıdurmanı daha da dərinləşdirərək "geri çəkilmədilər". Müharibə isə çoxsaylı qurbanlar aparmış və çıxılmaz vəziyyət yaratmışdı. T.i. onunla əlaqədar olur ki, qəbul edilmiş qərarların səhv olmasına baxmayaraq, onların həyata keçirilməsi ənənəsi əvvəlki kimi davam edir. Sibir çaylarının əksinə axıdılması haqqında lahiyə, Leninqradda sahil bəndlərinin tikintisi, Moskva Poklonnaya Qora deyilən yüksəklikdə xatirə kompleksinin qurulması belə qərarlardandır. Bundan əlavə, T.i. konkret məsuliyyət daşıyan müəyyən şəxslərin olmaması problemi ilə də əlaqədardır. əmr və göstərişlər verən şəxsin vəzifəsi nə qədər yüksək olsa, bu səhvləri etiraf edənlər də bir o qədər az olur. T.i. informasiyasının səhv qavranılması ilə də əlaqədardır. Nəyin bahasına olursa-olsun səhv hərəkətə bəraət qazandırmağa çalışmaq informasiyanın dərk olunmasında bir növ süzgəc rolunu oynayır, səhv informasiyaya alternativ olaraq başqa informasiya xalqa çatdırılmır. Məs., 1940-41-ci illərdə almanların niyyətləri haqqında informasiyanın Stalin və onun ətrafında olanların süzgəcindən keçirilməsi buna misal ola bilər. T.i. zamanla əlaqədar da meydana gəlir: səhvi düzəltmək də bir o qədər çətin olur. Çünki onun həyata keçirilməsi üçün lazımi obyektiv, təşkilati, həm də subyektiv-psixoloji şərait yaradılmışdır - artıq indi təşkilatların istifadə etdikləri ictimai-siyasi vasitələr dəyişmiş, insanlarda bu səhv qərara qarşı yeni şüur formalaşmışdır. Keçmiş SSRı-də bazar münasibətlərinin formalaşdırılması, demokratik dövlət quruluşuna keçmək, bərabər huquqlu vətəndaş cəmiyyəti yaratmaq

istiqamətində yönəldilmiş islahatların həyata keçirilməsindəki bir sıra çətinliklər məhz bununla izah olunur.

T.i. siyasətdə müxtəlif səviyyələrdə təzahür edə bilir. Fərdi şəkildə o, ayrı-ayrı siyasi xadimlərin baxışları və münasibətləri kimi təzahür edir və yalnız həmin qərarların qəbulunda onun üzərində çox cüzi, minimum nəzarət həyata keçirilməsindən sonra əsaslı siyasi təsir qüvvəsinə çevrilir. Bu qəbildən olan fenomen SSRİ-də Stalin hakimiyyətə keçib, ehkamçı fərdi, təkbaşına şüurla partiyanın və Sovet dövlətinin başında durduqdan sonra meydana gəlmişdir.

T.i. qrup səviyyəsində "qrup halında təfəkkür" şəklində: siyasi qərarların qəbulunda iştirak edən böyük olmayan kiçik qruplar şəklində təzahür edir. Onun əsasını, xüsusən də qrupun daxilində çox güclü lider olduqda qrup konformizmi təşkil edir; çoxluq tərəfindən qəbul olunmuş qərara hamı tərəfdar çıxır. Hətta qrupun daxilində olan ayrı-ayrı üzvlər onunla razılaşmadıqda belə qərar qüvvəyə minir. Qrup tərəfindən bəyənilmiş informasiyanı və fikirləri rədd etmək ənənəsi mövcuddur: ümuminin fikri ilə razılaşmayan qrup üzvü qrupdan çıxarılır və s. "Qrup halında təfəkkür"ə misal olaraq tarixi əhəmiyyətli, lakin çoxlu səhvlərlə nəticələnmiş bir sıra qərarları, məsələn, Münxen sazişindən tutmuş ABŞ-ın inzibati orqanlarının Kubaya və Vyetnama, SSRİ-nin əfqanıstana, Rusiyanın Çeçenistana hərbi basqınları haqqında qərarları və s. göstərmək olar.

T.i. haqqında daha geniş mənada ictimai siniflərdə, etnik qruplarda, ya da bütünlüklə cəmiyyət daxilində, müfəssəl miqyasda söhbət etmək olar. Belə şəraitdə **T.i.** totalitarizmə və avtoritarizmə meyl edir, onlara xas olan mühafizkarlıq qaydaların sükunəti istiqamətində, hakimiyyətin donuq və hərəkətsiz strukturları formasında özünü göstərir.

TƏXLİYƏ - boşaltma, uzaqlaşdırma - müharibə, təbii fəlakət zamanı təhlükəli rayonlardan; habelə hər hansı iri təsarrüfat dəyişiklikləri (su elektrik stansiyası tikintisi zamanı ərazinin su basması) üçün

nəzərdə tutulan yerlərdən qoşunların, hərbi əmlakın və ya əhalinin çıxarılması. Dinc dövrdə əhali yaşadığı ərazidən planlı şəkildə çıxarıldıqda insanlara dəyən ziyan ödənilməlidir.

TƏXRİBAT - xüsusi hazırlıq keçmiş casuslar və ya casus qrupları vasitəsilə həyata keçirilən pozğunluq işləri /partlayış, yanğın törətmək/. Dinc dövrdə və ya müharibə dövründə düşmən dövlətin ərazisində, yaxud onun tutduğu ərazidə həmin dövlətin iqtisadi və hərbi, həmçinin mənəvi qüdrətini sarsıtmaq məqsədi ilə təşkil olunur. Siyasi, hərbi, ideoloji və s. T. növləri də mövcuddur.

TƏRİQƏT - müxtəlif dinlərdə rəsmi cərəyandan ayrılmış dini qrup və icma. T.-ə islamda sufiliyi, xristianlıqda masonzuluğu misal göstərmək olar.

T.-in yaranması sırf dini proses deyil, cəmiyyətin həyatındakı iqtisadi, sosial-siyasi dəyişikliklərin inikasıdır. Tarixdə ilk sekulyar inqilab olan Böyük Fransa inqilabına qədər bütün ictimai hərəkatlar dini pərdə altında baş verirdi, çünki ona qədər əhalinin böyük qruplarını inteqrasiya edə biləcək yeganə qüvvə din idi.

Politologiya baxımından, T. özlərinin məhdud mənafelərinə qapılan, xalq kütləsindən, yaxud partiyadan ayrılan, öz mənafelərini cəmiyyətə və partiyaya qarşı qoyan şəxslərin məhdud qrupudur. Politologiyada "T." termini məcazi mənada işlədilir.

Təriqətçilikdə ittiham etmək siyasi mübarizənin son dərəcədə geniş yayılmış üsuludur. Onun məqsədi rəqibi məhdud proqrama malik olmaqda, təşkilatı qapalılıqda, bu və ya digər hərəkatı, yaxud partiyanı parçalamağa cəhd göstərməkdə təqsirləndirməkdir. Tarixdə çoxlu hallar olmuşdur ki, siyasi rəqibləri tərəfindən "təriqətçilikdə" damralanan siyasi liderlər və cərəyanlar özlərinə xeyli sosial baza təmin etmiş, bu və ya digər mərhələdə inqilabın obyektiv məqsədlərinin reallaşdırılmasına nail olmuşlar (yakobinçilər, bolşeviklər və başqaları). Bununla yanaşı, hər böyük siyasi hərəkat, bir qayda olaraq, hərəkatın ümumi məqsəd və vəzifələrini məhdud, bəzən isə qeyri-tipik şərh edən qruplardan və onların lider-

lərindən ibarət olur, Son nəticədə belə qruplar, daxilində yarandıqları hərəkatdan ya ayrılır ,ya da özlərinin proqram göstərişlərinə daha çox uyğun gələn sosial-siyasi mövqelərə keçirilir; tək-tək hallarda isə öz qrupunun həqiqi məqsədlərini və siyasi iş metodlarını gizlətməyə əl atırlar.

TƏRKSİLAH - sürətlə silahlanmanın dayandırılmasına, müharibə aparmaq vasitələrinin azaldılmasına və ləğvinə yönəldilmiş tədbirlər sistemi. Müasir mərhələdə T. aşağıdakıları nəzərdə tutur: silahqayırma texnologiyasının işlənib hazırlanması və silah istehsalının (nüvə silahı, kimyəvi, bioloji, zəhərli, ekoloji silahın və digər kütləvi qırğın silahlarının, adi və ya konvensional silahların) dayandırılması sahəsində tədbirlər görülməsi; nüvə sınaqlarının dayandırılması, kosmik fəzadan hərbi məqsədlər üçün istifadə olunmasına yol verilməməsi, hərbi xərclərin, silah alverinin azadılması, hərbi münaqişə zonalarının silahsızlaşdırılması.

T. zəmanəmizin ən mühüm qlobal problemlərindən biridir. Müasir tarixdə T. məsələləri əməli mənada 1899-cu il və 1907-ci il Haaqa konfranslarında, Birinci dünya müharibəsindən sonra 1921-22-ci illər Vaşinqton konfransında, 1922-ci il Genuya konfransında nəzərdən keçirilmişdir.

II Dünya müharibəsindən sonra nüvə silahının və onu hədəfə çatdırmaq vasitələrinin meydana gəlməsi ilə T. problemi xüsusilə aktual olmuşdur. Müasir beynəlxalq hüququn prinsipi kimi T. BMT-nin Nizamnaməsində, BMT Təhlükəsizlik Şurasının bir sıra qətnamələrində təsbit edilmişdir. 1960-70-ci illərdə T. sahəsində tədbirlərə dair mühüm çoxtərəfli müqavilələr imzalanmışdır: Atmosferdə, kosmik fəzada və suyun altında nüvə sınaqlarının qadağan edilməsi haqqında müqavilə (1963), Kosmos haqqında müqavilə (1967), Nüvə silahının yayılmaması haqqında müqavilə (1968 ildə imzalanmış, 1970 ildə qüvvəyə minmişdir), Bakterioloji (bioloji) və zəhərli silahların işlənib hazırlanması, istehsalı və ehtiyatlarının qadağan edilməsi və bu silahların məhv olunması haqqında konvensiya (1972) və s.

BMT Baş Məclisinin xüsusi sessiyasının və ümumdünya Sülh Şurasının qərarı ilə 1984-cü il oktyabrın 24-31-də dünyanın bütün ölkələrində T. uğrunda fəaliyyət həftəsi keçirilmişdir.

Beynəlxalq gərginliyin azalmması şəraitində T. problemlərinin həlli yeni mərhələyə qalxmışdır. T. ilə inkişaf arasındakı qarşılıqlı əlaqə ciddi problemlərdən biridir. Belə ki, silahlanmaya çəkilən xərclərin azalmasından əldə olunan vəsaiti dünya ölkələrinin, ilk növbədə inkişaf etməkdə olan dövlətlərin sosial-iqtisadi inkişafına yönəltmək mümkündür.

T.-ın beynəlxalq hüquqi konsepsiyasının əsas müddəaları BMT Baş Məclisinin tərksilaha dair 1-ci xüsusi sessiyasının (1979) Yekun sənədində verilmişdir .Bu konsepsiyaya görə T.a dair tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi zamanı tərəflərin bərabərliyi və eyni dərəcədə təhlükəsizliyi prinsipi əsas götürülməlidir.

1996-cı ildə nüvə silahlarının qadağan olunmasına dair BMT qərarına dünya dövlətlərinin böyük əksəriyyəti qoşulmuşdur.

Qismən T. tədbirləri bu prosesin son məqsədinə - hamılıqla və tamamilə T.-a, başqa sözlə, dünyanın bütün dövlətlərinin öz silahlı qüvvələrini buraxmasına, hərbi qurumların ləğvinə, bütün növlərdən olan silahların istehsalının dayandırılmasına və məhvinə, dövlətlərin sərəncamında yalnız daxili qayda-qanunu qorumaq üçün məhdud miqdarda qüvvə saxlanmasına nail olmağa xidmət edir. T. prosesinin mühüm cəhəti onun həyata keçirilməsinə nəzarətdir.

TƏSİR AGENTİ - 1) xarici dövlətin siyasətinin məqsədlərinin həyata keçirilməsi üçün sistemli fəaliyyət göstərən (formal sürətdə həmin dövlətin gizli xidmətinin əməkdaşı olmayan) vəzifəli (yaxud ictimaii etimad və nüfüz sahibi) şəxs; 2) hər hansı partiyanın, yaxud təşkilatın onların strukturuna mənsub olmayan adamlar arasında siyasətini yeridən ictimai xadim.

TƏSİSATLAR - siyasi dildə siyasi və sosial təzahürlərin qeydə alınması; bura daxildir: 1) təşkilati strukturu, mərkəzləşmiş idarəsi, icra aparatı olan siyasi müassisələr (hakimiyyət

T.-ı - hökumət, qanunverici məclis, dövlət, yaxud şəhər şurası, prefektura və i.a.); 2) siyasi vəzifələrin, münasibətlərin, idarəçilik tiplərinin forma və mahiyyətləri: prezident (prezident hakimiyyəti), nümayəndələr (yəni vəkil edilmiş şəxslərin, seçicilərin mənafe və iradələrini təmsil edən nümayəndəli hakimiyyət orqanları - parlament üzvlərinin seçilməsi üsulları, partiyaların, assosiasiyaların və i.a. (cəmiyyət üzvlərinin bir hissəsinin hər hansı səbəb və əlamətlərə görə qruplarda birləşməsi və i.a.) T.-ından ailə, insanın şəxsi həyatı və i.a. T.-*madək*.

Cəmiyyətin təsisatlanmasının dərəcəsi və xarakteri, yəni onlarda meydana gəlmiş T.-ın sayı, onların asanca yaranması *cəmiyyətin inkişafı* və tipi səviyyəsi, onun siyasi sistemi və assosiasitiv həyatı, siyasi və sair qruplaşmaların yaranması azadlığı haqqında şəhadət verir. Bu baxımdan müasir demokratik dövlət siyasi və ictimai strukturu formalaşan və rəsmi T.-ın sayını minimuma endirən arxaik və avtoritar, xüsusən totolitar dövlətlərdən əhəmiyyətli dərəcədə fərqlənir.

TƏŞKİLATCILIQ - hər hansı siyasi təzahürün, yaxud hərəkatın mütəşəkkil idarəyə çevrilməsi; müəyyənləşmiş münasibətlər strukturu və digər təşkilati əlamətləri - intizamı, davranış qaydaları və i.a. olan formalaşmış, nizama salınmış proses. T.-ın başlanğıc formaları ictimai özünüidarə və özözünə təşkil olunan (kor-təbii) proseslər səviyyəsində meydana çıxırlar: kütləvi, yaxud qrup hərəkatları, həyacanlar və i.a.-da nizamlanmış, istiqamətlənmiş hərəkətlər, onlara başçılıq edə bilən təşkilatçı liderlər, sonra isə daimi rəhbər qruplar meydana gəlir, hərəkat isə idarə olunur. T.-ın daha inkişaf etmiş formaları cəmiyyətin, formalaşmış siyasi təsisatları və hakimiyyət strukturu, idarələr, siyasi assosiasiyalar və i.a. ilə təşəkkül tapmış siyasi sistemlə təqdim olunur.

TƏŞKİLATIN SOSİAL NƏZƏRİYYƏLƏRİ - idarəetmə və menecment problemləri ilə bağlı və sosial sistemlərin daha səmərəli fəaliyyət göstərməsi şərtlərinin öyrənilməsinə yönəldilmiş nəzəriyyələr.

Qərb nəzəriyyələrində təşkilat ümumi mənafelərin həyata keçirilməsi üçün birləşmiş insanların könüllü sazişi, özünün hər bir üzvünə müəyyən vəzifələr tapşırmış qurum kimi təsəvvür olunur. İdeal təşkilat özünün məqsədlərini hər bir fərdin *məqsədləri ilə uzlaşdırdığı* nəzərdə tutur. Sosial təşkilat fərdlərin sosial münasibətlərinin müəyyən strukturunun olması və təşkilatın üzvlərini birləşdirən, onların davranışına rəhbərlik edən əsaslandırıcı meyllərin olması ilə sosial qruplaşmaların başqa tiplərindən fərqlənir.

Xüsusi olaraq hər hansı müəyyən məqsədə nail olmaq üçün yaradılmış təşkilatlar formal təşkilatlar adlanır. Hər bir formal təşkilatın öz vəzifələrini daha səmərəli yerinə yetirmək məqsədi ilə fərdlərin fəaliyyətinə rəhbərlik edən inzibati aparatı olur. Təşkilat nə qədər mürəkkəb olsa, müdiriyyət bir o qədər çətin vəzifələr yerinə yetirir. Təşkilatın hər bir üzvünün konkret vəzifələrindən əlavə, onların arasında qeyri-rəsmi münasibətlər də yaranır. Bu, təşkilatın fəaliyyəti üçün mühümdür və vəzifələrin pozitiv yerinə yetirilməsinə kömək edir, yuxarı və aşağı vəzifəli şəxslər arasında baş verə biləcək münaqişəni yatırtmağa, üzvlər arasında birliyin yaranmasına xidmət göstərir.

Hər bir formal təşkilat müəyyən bürokratik təşkilatdır. Bürokratikləşmənin səviyyəsi təşkilatın inzibati aparatının mürəkkəbliyindən və vəzifələrinin çoxluğundan asılıdır. Bəzən məqsədlərin yeri dəyişir və inzibati məqsədlər təşkilatın ilkin məqsədlərini tamamilə sıxışdırıb aradan çıxarır. Nəticədə qarşıya qoyulmuş məqsədlərə çatmaq yolları məqsədə çevrilir. R.Merton bunu təşkilatın ikili vəzifəsi adlandırmışdır. Təşkilatın rasional məqsədləri ilə yanaşı, irrasional məqsədlərinin də meydana gəlməsi, ikinci dərəcəli məqsədlərin əsas məqsədləri aradan çıxarması da buraya aiddir.

"Təşkilat" anlayışına üç baxımdan yanaşılır. Təşkilatın təbii modeli (ilk dəfə Kant irəli sürüb) onu özünün bütövlüyünü və tarazlığını qoruyub saxlamağa çalışan bir orqanizm, vahid tam hesab edir. Bu vahid tamı

təşkil edən strukturların tarazlığının pozulması təşkilatın dağılmasına səbəb ola bilər. Lakin pozulmuş tarazlığı bərpa etmək üçün təşkilatın özünün mexanizmləri var. Təşkilatın təbii modeli əsas diqqəti qeyri-rəsmi münasibətlərə yönəldir.

M.Veberin əsərlərinə əsaslanan rasional model təşkilata qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün hansısa bir "alət", vasitə kimi yanaşır. Təşkilatı əmələ gətirən strukturlar dəyişə və bir-birini əvəz edə bilən, lakin bu za man təşkilatın bütövlüyünü pozmayan müstəqil vahidlər hesab olunur. Bu model qarşıya qoyulmuş vəzifələrin daha rasional üsullarla yerinə yetirilməsinə üstünlük verir və təşkilatda qeyri-rəsmi münasibətlərin rolunu bir qədər inkar edir.

Təşkilatın neorasional modeli əvvəlki iki modelin ən müsbət cəhətlərini birləşdirməyə səy göstərmişdir. Rasional modeldən isə qeyri-rəsmi münasibətlərə əsas diqqət yetirilməsini götürmüşdür. Neorasional model başlıca diqqəti idarəetmə problemlərində, sosial təşkilatın səmərəli fəaliyyətini təmin edən mexanizmlərində cəmləşdirmişdir.

TƏŞVİQAT (lat. agitatio - hərəkətə gətirmək) - əhalinin ayrı-ayrı qruplarını və ya geniş kütlələri fəallığa cəlb etmək məqsədilə vasitələrin rəngarəng formalarından istifadə olunur siyasi mübarizənin geniş yayılmış alətidir (bax; həmçinin **TƏBLİĞAT**).

TƏTİL - zəhmətkeşlərin istismara qarşı və iqtisadi tələblərinin ödənilməsi uğrunda apardığı əsas mübarizə vasitələrindən biri. T.-lər bir çox hallarda siyasi məzmun kəsb edir.

Müasir dövrdə T.-in bir sıra formaları mövcuddur: 24 və ya 48 saat davam edən "Xəbərdarlıq" (qısamüddətli) xarakterli T.; "Dəyişən", "pilləli" T."(işin həftədə bir neçə günlüyə və yaxud gündə bir neçə saatlığa dayandırılması); "əks T." (müəssisənin bağlanmasına baxmayaraq işin davam etdirilməsi); "Dövri T." (ayda bir neçə dəfə təkrar olunan T.); "Yayılan T." (bir sexdən digər sexə keçməklə müəssisənin fəaliyyətini pozan T.) və s.

Öz məqsədi etibarilə T.-lər iki cür olur: iqtisadi və siyasi T.-lər. Tətil mübarizəsinin müasir mərhələsi siyasi T.-lərin daha geniş şəkil almasi ilə səciyyəvidir. II Dünya müharibəsindən sonra sənaye rayonları, təsərrüfat sahələri və ümumdövlət miqyaslı T.-lər geniş şəkil almışdır.

TƏZYİQ QRUPU - şəxsi maraqlarını həyata keçirmək üçün məqsədyönlü təsirin köməyi ilə, kütləvi hakimiyyət təsisatlarına fəal təsir göstərən, nisbətən qapalı, məhdud ictimai birləşmələr; ilk dəfə ABŞ - da, XX əsrin əvvələrində meydana gələn, mütəşəkkil xüsusi strukturların maraqlarını əks etdirən, başqa qruplara nisbətən bu ölkədə daha tez yaranmış dəstələr (lobbizm). **T.q.**, demək olar ki, sonralar bütün inkişaf etmiş dövlətlərdə baş qaldırmış, özünü büruzə vermiş, onların fəaliyyəti tədqiq olunmuş və öyrənilmişdir. Siyasətə əsaslanmadan formalaşan bu qrup həm hakimiyyətin mərkəzində, həm də ondan kənarda təşkil edilir, tam siyasi, lokal, sahəvi (regional) və transmilli qruplar kimi fəaliyyət göstərir. **T.q.** bir fenomen kimi, siyasi tarix boyu mövcud olmasına baxmayaraq, daha çox bazar iqtisadiyyatı şəraitində, liberal təsərrüfat və plüralist ictimai-siyasi mühitdə və yüksək inkişaf etmiş cəmiyyət meydana gəldikdən sonra geniş yayılmağa başlamışdır. Saysız-hesabsız **T.q.**-nun meydana gəlməsi həm klassik kapitalist cəmiyyətinin əsas siniflərinin formalaşması, həm də xüsusi maraqları olan, özlərinin iqtisadi, peşəkar və b. strukturlu qrupların yaranması və inkişafı ilə sıx bağlıdır. Gücə arxalanan belə **T.q.**-larının fəaliyyəti çox vaxt maraq qruplarının işi ilə eyniləşdirilir (bax; **QRUP**).

Siyasi plüralizmə əsalanan sistemdə qruplar tərəfindən təzyiq ya siyasi partiya kanalları ilə, ya da qanunverici nümayəndəliklər, hökumət özvləri, bürokratiya və ən nəhayət, geniş ictimai rəyin səfərbər edilməsi nəticəsində həyata keçirilir. Bununla da, siyasi həyatda **T.q.**-nun iştirakı, bir tərəfdən ikinci dərəcəli siyasi subyektlərin sayını çoxaldır, plüralizmi genişləndirir, o biri tərəfdən isə daha qüvvətli **T.q.**-larının müxtəlif partiyalarla və bürokratik qruplarla birləşməsi, oliqarxiyanın artması və korporativ ənənələrin çoxalması hal-

larına rast gəlinir. Bununla bərabər, müxtəliflik və qrupların maraqlarının şaxələnməsi bütövlükdə on ları qarşılıqlı şəkildə bir-birilə eyniləşdirir.

T.q.-nun konkret iş metodları ayrı-ayrı kompaniyaları təşkil edən təşkilatlara, mətbuata və digər informasiya vasitələrinə, yaxud idarə inzibatçılarına, qanunvericilərə nümayişlərin, marşların, piketlərin və başqa kütləvi aksiyaların keçirilməsi üçün məktublar və şəxsi müraciətlər hazırlamaqdan ibarətdir. Bununla bərabər, bu cür təsiretmə formalarından, seçki zamanı namizədin irəli sürülməsi, onun seçilməsi və təyin edilməsindən imtina və ya onun müdafiə olunması, ya da hakimiyyətdə olan və onunla münaqişəli qrupların maddi maraqlarının təmin edilməsi və s. kimi təsir formaları da əvvəlkilərdən az əhəmiyyət kəsb etmir.

Hələ qədim zamanlardan dövlət aparatında fəaliyyət göstərən, nüfuzlu nümayəndələri açıq-açığına satın almaq ciddi problem hesab edilir və bunun üçün müxtəlif kanallarından istifadə olunurdu. Sonrakı dövrlərdə, xüsusilə XX əsrdə ABŞ-da və Avropanın inkişaf etmiş əksər dövlətlərində **T.q.**-nın fəaliyyətinə ciddi normativ tənzimləyici və nəzarət qoyulmuşdur. Bu da ona gətirib çıxarmışdır ki, məşhur fransız alimi M.Dyuverjinin fikrincə, onların fəaliyyətləri korrupsiya ilə başlamış və informasiyaya gəlib çıxmışdır. Məsələn, ABŞ-da xüsusi səlahiyyətli nümayəndələr, peşəkar agent-lobbistlər, konqresdə və başqa hökumət orqanlarında hər hansı bir qrupun, məqsədli dəstələrin maraqlarını müdafiə edən xüsusi adamlar və dəstələr hazırlayan institut yaradılmışdır.

Totalitar cəmiyyətdə, vahid maraqları, məddahları ilə və məhdud qruplu monopoliyanı təmsil edən **T.q.**-ları siyasi dövlət maşını daxilində bir məqsəd ətrafında birləşirlər. Bunlar bürokratik aparatda xüsusiləşmiş fəaliyyətdə olan bir dəstəni təmsil edirlər ki, onlar da öz aralarına bir-birilə rəqabət aparan, yerlibazlıq, tayfabazlıq, etnik və dövlət hakimiyyəti strukturunda birləşən digər bürokratik qrupların funksiyalarını yerinə yetirirlər. Həmin dəstələr arasında varidata və

statuslu imtiyazlara nəzarət etmək uğrunda mübarizə gedir, lakin bir qayda olaraq, bu münaqişə pərdə arxasında və qeyri-aşkar bir formada, gizlin şəkildə davam edir, özü də hər bir qrup və ya ayrıca bir adam ilk növbədə hakim mövqe tutan, kadrların inzibati-vəzifə bölgüsündə həlledici rol oynayan şəxslə əlaqədə olmağa, onunla ünsiyyətə girməyə can atır. Bu münaqişədə uduzan hər hansı bir şəxs və ya qrup qalib gələnlə əlaqəyə girməyə cəsarət edə bilmir, çünki bu, həmin qrup və ya şəxsdən böyük risk və cəsarət tələb edir. Qarşı-qarşıya duran qruplar öz fəaliyyətlərini maksimum gizlin, qapalı, amorfluq şəraitində həyata keçirirlər. Çünki belə olmazsa, onları qrupbazlıqda ittiham edə bilərlər. Rəqabətdə qalib çıxan qrup özünə düşmən olan digər qrupu tamamilə aradan götürməyə, onu sona qədər ifşa etməyə çalışır ki, gələcəkdə əngələ çevrilməsin, qalib tərəfin sərbəst hərəkətinə mane ola bilməsin.

T.q.-nun bütün sahələrdəki fəaliyyəti demək olar ki, ətraflı şəkildə tədqiq olunmuş və öyrənilmişdir. Lakin onun ən fəal təsir sahələrindən biri olan dövlətlərin xarici siyasətinə və beynəlxalq-siyasi proseslərə müdaxilə etməsi kimi mühüm problem başqa sahələrlə müqayisədə az öyrənilmişdir. Daha çox mühüm olan bəzi iqtisadi, sənaye və maliyyə xarakterli qrupların birləşməsi, onların fəaliyyətlərinin beynəlmiləlləşməsi, Transmilli korporasiyaların (TMK) rolunun artması, eyni zamanda bir sıra ölkələrdə fəaliyyət göstərən etnik qrupların anadan olduqları ölkə ilə (vətənlə) əlaqə saxlamaları, həmin qrupların yerli **T.q.**-ları ilə qaynayıb-qarışmaları, yeni güclü etnik sahəvi **T.q.**-ları əmələ gətirir ki, bunlar da dövlətlərarası münasibətlərə olduqca böyük təsir göstərir (Məs., Cin lobbisi, ya da ABŞ-da neft sahibkarlarının təzyiq qrupları kimi).

TOTAL (lat.totalis - dolğun, bütöv, tam) - tam, ümumi, hər şeyi əhatə edən.

TOTALİTARİZM (lat. totalitas - bütövlük, tamamlıq, totalis - bütöv, tam sözündən) - ictimai həyatın bütün sahələri üzərində mütləq nəzarəti həyata keçirən dövlət quruluşu. C.

Oreullin qələmə aldığı "1984" antiutopiyası T.-in idealına nümunə ola bilər. Stalin və Hitler rejimləri bu idealın prototipləridir.

TRANSMİLLİ KORPORASİYALAR (TMK)- Birləşmiş Millətlər Təşkilatının verdiyi tərifə görə, yarandığı ölkədən və mülkiyyətin formasından asılı olmayaraq iki və ya daha çox ölkədə şübəsi olan, razılaşdırılmış siyasəti və ümumi strategiyanı yeritməyə imkan verən qərarlar qəbul etmək sistemi ilə fəaliyyət göstərən müəssisə.

Politologiyanın ümumi nəzəriyyəsinə əsasən, milli dövlətlər və beynəlxalq təşkilatlarla yanaşı, **TMK** da beynəlxalq münasibətlərin başlıca amilləri sırasına daxildir.

Sahibkarlıq kapitalının geniş miqyasda ixracının başlanması və beynəlxalq inhisarların (TMK terminindən əvvəlki termindir) yaranması ilə **TMK** qızğın diskussiyalar obyektinə çevrildi. Bu diskussiyaların gedişində **TMK**-ya dünyada tərəqqinin və geri qalmış ölkələrin sivilizasiyaya qoşulmasının başlıca vasitəsi olmaqdan tutmuş dünya miqyasında əsas istismar alətı, gerida qalmış xalqların həmişəlik bu vəziyyətdə qalmasının səbəbkarı kimi ən müxtəlif qiymətlər verilirdi.

80-ci illərdən etibarən **TMK**-ya münasibət yaxşılığa doğru dəyişməyə başladı. Belə bir ümumi fikir hökm sürürdü ki, həmin korporasiyaların qəbul olunduqları ölkədə qazancları itirdiklərindən (mənfəətin ölkədən aparılması, həddən artıq siyasi təsir, korrupsiya, ölkənin iqtisadi mənafeyinə biganəlik, onun iqtisadi zəifliyinin və asılılığının güclənməsi) çoxdur.

Belə halların və meyllərin qarşısını almaq, iqtisadi inkişafın sabitliyinə və onun verə biləcəyi nəticələrin əvvəlcədən müəyyən olunmasına kömək üçün 1975-ci ildə BMT-də Transmilli korporasiyalar üzrə Komissiya və Mərkəz yaradılmışdır. Bunların vəzifəsi **TMK**-nın əməliyyatlarının tənzimlənməsinə və bunlara nəzarət edilməsinə dair beynəlxalq sənədlər (ilk növbədə **TMK**-nın davranış kodeksini) işləyib hazırlamaq, onların fəaliyyəti barədə informasiya toplayaraq bunu işləyib yaymaq, müvafiq tədqiqatlar aparmaq və nəhayət, korporasiyalarla təsərrüfat münasibətləri saxlamaqla əlaqədar ölkələrin hökumətlərinə texniki kömək göstərməkdir. Qarşılıqlı iddiaların gərginliyini azaltmaq üçün **TMK**-nı qəbul edən ölkələrin və bunların yerləşdiyi ölkələrin hökumətləri, habelə **TMK**-nın özləri üçün tövsiyələr hazırlanıb yayılır

70-ci illərin ortalarından etibarən **TMK** onları qəbul edən ölkələrin qanunvericilik fəaliyyətinə, siyasətinə və ümumiyyətlə, daxili işlərinə kobud şəkildə qarışmaqdan uzaqlaşmışlar. **TMK**-nın müxtəlif filialları arasında texnoloji əmək bölgüsünün güclənməsi ilə həmin filiallardan birinin müflisləşdirilməsi onları qəbul edən ölkələrin hökumətlərinin əlində alət olmaqdan çıxdığına görə, məhz **TMK** ölkənin siyasi həyatına səmərəli və kifayət qədər təsirli vasitə kimi, bir qədər üstüörtülü şəkildə də olsa, ölkədən getməklə hədələməyə başladılar. Belə vəziyyət gərginliyin azalmasına kömək etdi və 70-ci illərin ortalarından başlayaraq qarşılıqlı ittihamlar tədricən **TMK**-nı qəbul edən ölkələrin iqtisadi və sosial-mədəni məqsədlərinə, siyasətinə, dəyərlərinə münasibətdə daha çevik mövqe tutması ilə əvəz olundu. Eyni zamanda **TMK**-nı qəbul edən ölkələr də əvvəlkinə nisbətən daha böyük çeviklik və praqmatiklik göstərir, iqtisadi inkişafın (xüsusən qabaqcıl texnologiya sahəsində) sürətləndirilməsində **TMK**-nın bir çox hallarda oynadığı və oynaya biləcəyi mühüm rolu qiymətləndirirlər. **TMK** ilə bağlı qanunvericilik də bu ruhda qəbul olunur və yenidən nəzərdən keçirilir. əslində belə bir proqnozla hamı razılaşır ki, korporasiyaları qəbul edən ölkələr texnologiya əldə etmək sahəsində beynəlxalq əlaqələrdən kənarda qalmamağın faydasızlığını dərk etdikcə, əsrin sonunda **TMK**-ya münasibət daha çevik və praqmatik xarakter alacaqdır.

İnkişaf etməkdə olan ölkələrdə **TMK**-nın tam mülkiyyətində olan törəmə şirkətlər hələ geniş yayılırsa da, korporasiyalar çox vaxt birgə müəssisələr yaratmağa və lisenziya sazişləri bağlamağa üstünlük

verirlər. Çünki bu halda xərclər və risk ehtimalı yüksək olmur.

Korporasiyaları qəbul edən zəif inkişaf etmiş ölkələrin **TMK**-ya münasibətdə əsas tənqidi iradları kapital axınının kifayət qədər və sabit olmaması ilə bağlıdır. Mənfəət, sabitlik, perspektivlik və təhlükəsizlik amillərini əsas götürən **TMK**-nın inkişaf etmiş ölkələrə kapital qoyuluşunun ümumi yaxınında ABŞ-ın payı 1981-83-cü illərdəki 34 faizdən 1984-88-ci illərdə 42 faizə çatmışdır. Zəif inkişaf etmiş ölkələrin payı isə 27 faizdən 20 faizə enmişdir. Cənub-Şərqi Asiyanın yeni sənaye ölkələrinə, Braziliya və Meksika istisna olmaqla, digər zəif inkişaf etmiş ölkələrə birbaşa investisiyalar axını əsasən əks istiqamətə doğru dəyişmişdir, yəni həmin ölkələrin özündən kənara kapital axını başlayır.

Şərqi Avropa ölkələrində və keçmiş Sovet respublikalarında **TMK**-nın investisiyalarına tələbatın sürətlə artması korporasiyaları qəbul edən zəif inkişaf etmiş ölkələrdə narahatlıq doğurmuşdur. Çünki perspektivdə birbaşa investisiya axınında onların rəqabətindən ehtiyat edirlər. Lakin bu imkanın reallaşmasına hələ çox var. Bundan əlavə, dünya miqyasında birbaşa xarici investisiyaların həcmi əvvəlcədən məlum olmur. əlverişli perspektiv yarandıqda bir regiona **TMK**-nın kapitalının axını digər regionlarda heç də onun hökmən azalmasına gətirib çıxarmır. ən nəhayət, Şərqi Avropa ölkələrində və yeni müstəqil dövlətlərdə baş verəcək dəyişikliklər dünya iqtisadiyyatına, o cümlədən inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına müsbət təsir göstərəcəkdir.

Geridə qalmış ölkələrdə **TMK**-nın fəaliyyətini müşayiət edən cəbhələşmə ümumən arxada qalsa da, ixtilafların tamamilə aradan qaldırılması və **TMK**-nın dünyada iqtisadi tərəqqinin təsirli amilinə çevrilməsi beynəlxalq iqtisadi təhlükəsizlik sisteminin yaradılması ilə həyata keçirilə bilər. Bax; **İQTİSADİ TƏHLÜKƏSİZLİK.**

TREND (ink. trend - meyl, təməyül) - siyasətdə, ictimai rəydə və s. hakim istiqamət.

TRİBALİZM, TRAYBALİZM (lat. tribus -tayfa, triba; ing. tribe - tayfa, nəsil) - nəsil-tayfa bölgüsü əsasında siyasi ayrılmaya cəhd. Nəsil və tayfa əsasında yaranmış klanların ictimai həyatda fəal iştirakı zamanı özünü göstərir.

TÜRKÇÜLÜK – hazırki elmi-nəşəri ədəbiyyatda bir neçə cür təfsir olunur: 1) **T.** maarifçilik hərəkatı kimi meydana gəlmiş və kultural məna kəsb etmişdi: yəni türk xalqlağının və qövmlərinin dil və mədəniyyətlərini inkişaf etdirmək, onlar arasında elmi və mədəniyyəti yaymaq; 2) **T.**-etnik milli hərəkatı kimi , yəni: türk milli kimliyinin dərk olunması, türklərin bir millət və irq olaraq özünütəsdiqi; 3) **T.** sosial-siyasi bir hərəkat kimi, yəni: türklərin milli azadlıq hərəkatı nəticəsində müstəqil siyasi bir varlıq olduğunu sübut etmək, "Turan" adlı məmləkətdə birləşərək Avropanın və Rusiyanın, ermənilərin və farslağın təcavüzünə qarşı güclü bir siyasi qüvvə kimi davam gətirmək. Bu sonuncunun tarixi nisbətən gəncdir və **T.** burada özünü artıq ideologiya kimi göstərir Çünki onun ilk prinsipləri artıq "üç tərzi siyasət" şüarında (dildə birlik, fikirdə birlik, əməldə birlik) kifayət qədər aydın şəkildə özünü göstərir. Buna əsaslanaraq "Türkləşmək, islamlaşmaq və yeniləşmək" konsepsiyası ortaya atılır. Bunlar türkizm ideologiyasının təməl prinsiplərinə çevrilir.

T. Harada yaranmışdır və Bu barədə də alimlər arasında yekdil bir fikir yoxdur. Meydanda olan mülahiçələrə qısaca da olsa nəçər salaq:

1.**T.**-ün ilk elmi-nəçəri qaynaqlağı Avropada yaranmışdır. Şərqşünas alimlərdən E.Vamberi (1839-1918), Artur Deyvid (1832-1911), Leon Kohn və b. türk tayfa və qövmlərinin oxşarlığı və hətta eyniliyi haqqında tədqiqatlar aparmış, bu məqsədlə habelə orta Volqaboyunu, Sibiri, Uralı, Orta Asiyan, Qafqazı və İranı gəzmiş, türklərin, tatar və monqollağın, macarlağın, finlərin ortaq mədəniyyət və dil abidələrini öyrənmişlər. Sual olunur: avropalılara nə düşmüşdür ki, onlağın etnoloqlağı və tarixçi antropoloqlağı türkləri onlağın özündən əvvəl öyrənmək işinə girişmişlərə Bu bəlkə də onunla bağlı idi ki, çürümüş və süqut ərəfəsində olan Osmanlı mülklərini bölüş-

dürmək lazım idi. Ona görə də Osmanlı birliyinə rəxnə salmaq tələb olunurdu. Osmanlılar çəflləsə də Avropanın Şərq yolu üçərində hələ ciddi manea olaraq qalırdı. Ona görə də Avropa əvvəlcə panislamizmdən, sonra da türkizmdən istifadə edərək imperiyanı dağıtmaq istəyirdi. Digər tərəfdən onlar sultandan çoxlu vəsait alır, özlərini guya ona xidmət edən kimi göstərməyə çalışırdılar. Halbuki onlar Avropanın sosial sifarişlərini yerinə yetirir və əslində sultanı aldadırdılar. Prloblemin digər bir əngəlli məsələsi də var idi. Adlağı çəkilən bu T. ideologiyası yaradıcılağın milliyyətcə yəhudi olmalağı da sör-söhbətə səbəb olurdu. Çünki o zaman yəhudilər Yerusəlimin muxtariyyətini (və yaxud müstəqilliyini) istəyərkən rədd cavabı almış və bu da onlağı hiddətləndirmişdi. Ona görə yəhudilir də bütün vəchlə əvvəl panislamizmi, sonra da pantürkizmi yaymağa və bu yolda da imperiyanın sonuna çıxmağa çalışırdılar. Artur Deyvid "Müqəddəmet araşdırmalağı", Leon Kohn isə "Şərq tarixinə giriş" əsərlərində türklərin və onlağın ziyalılağının yadına salırdı ki, yəhudilər Osmanlı imperiyasını məskunlaşdıran ərəblərdən və Balkan slavyanlağından fərqli, ali mərtəbəyə layiq ari bir millətdir, hətta əlahiddə bir irqdirlər. Bu yolda onlar Osmanlı imperiyasında ərəb millətçilərinin yaranıb inkişaf etməsinə, Rusiyanı isə Balkan slavyanlağına havadar çıxmasına təhrik edirdilər. Sadə türklərin özləri də bu imperiyada əzilən bir xalq olduqlağı üçün ondan narazı idilər. Yunanlar və ermənilər (onlar ən yaxşı imarətlərdə və İstanbulun mərkəzində yaşadıqlağı üçün evlərinin qarşısında daim fanar yandığırdılar və ona görə də fanaroitlər adlanırdılar). Qərbin siyasətini yeridərək əllərinə imkan düşən kimi türkləri arxadan vururdular: onlağı ticarətdə aldadır, dövlət idarələrində süründürməçiliyə yol verir, ərəblərə və iranlılara qarşı qaldığırdılar. Yuxağı dairələrin danışığından ibarət olan bu dili yeni yetişməkdə olan türk ziyalılağının özləri də bəyənmişlər. Türk ziyalı təbəqisinin nümayəndələrindən olan Namiq Kamal yazırdı: "Yahu, bu nasıl dildir ki, onu nə türk, nə əcəm, nə də osmanlı

anlıyorə" Onu da deyək ki, bu reforma sonralar Kamal Atatürk tərəfindən "Dil devirmi" adı altında həyata keçirildi. Bu islahat bütövlükdə mütərəqqi hadisə olsa da, türk dilini ümumi türk dilləri ailəsindən müəyyən qədər uzaqlaşdırmağa da xidmət göstərdi.

2. T. başqa fikrə görə Rusiyada yaranmışdır. Bu hökm ona görə özünü doğruldur ki, türklərin ən çox istismara və təzyiqlərə məruz qaldığı ölkə məhz Rusiya imperiyası idi. Ona görə də t. ideya-siyasi bir cərəyan kimi məhz Rusiyada əzilən kütlənin ideologiyası kimi meydana gəlməli idi. İkinci bir tərəfdən tatarlağın və açərbaycanlılağın milli burjuaziyalağı formalaşmışdı və onlar öz sərvətlərinin həqiqi sahibləri olmaq əzmində idilər. Türkçülər elə zənn edirdilər ki, Rusiya imperiyası çökərsə Türkiyənin Turana çevrilməsi yolunda başlıca manea aradan qalxacaq. Türklərin bir qismi hətta belə bir şüar da ortaya atmışdılar: "Rusiya viran olacaq, Türkiyə Turan olacaq!"

Türklərin bu niyyəti bolşevikləri də ciddi narahat etmiş və ona görə də onlar t.-ə mürtəcelik damğasını yapışdırmışdılar. Çar xəfiyyələri tərəfindən daim izlənilən türk ziyalılağı öz milli-müstəqillik hərəkatlağını da daim gizli saxlamağa çalışmış, onu Rusiya müsəlmanlağının milli mədəni muxtariyyat hərəkatı kimi qələmə verməyə məcbur olunmuşlar. İsmayıl bəy Qaspıralı "Tərcüman" (1881), Yusif Axcura oğlu "Türk" (1904), Əlibəy Hüseynzadə "Fyuzat" (1906) kimi mətbuat orqanlağı, Ə. Ağaoğlu özünün "Difan" təşkilatı ilə xalqın milli şüurunu oyatmağa, onlarda siyasi-ideoloji dünyagörüşünün yaranıb formalaşmasına çalışırdılar. Rusiyanın türkləri öz mübarizələrində daha ardıcıl, daha qətiyyətli idilər, onlar hətta çara qarşı müəyyən tələblər də irəli sürürdülər. M.F.Axundov, H.B. Zərdabi, Ü.Hacıbəyov, Y.V.Çəmənzəminli, C.Məmmədquluzadə kimi yeni fikirli ziyalılar t.-ü və maarifçiliyi yeni mərhələyə çatdırdılar. Onların dil və mədəniyyət sahəsində həyata keçirdikləri tədbirləri siyasi t. üçün də yaşıl işıq yandırdı və M.Ə.Rəsulzadə, Ə.B.Topçubaşov, Ö.F.Nemanzadə, F.X.

Xoyski kimi millət fədailərini yetirdi. Onlağın gəğgin əməyi sayəsində XX əsrin əvvəllərində İslam-Türk dünyasında parlament tipli ilk respublika yarandı. Milli mətbuatın əsası qoyuldu. Milli dildə ilk dəfə olaraq universitet yaradıldı. Azərbaycan xalqı türk xalqlağı arasında elm və mədəniyyətin, siyasi milli şüurun ilk daşıyıcılağından birinə çevrildi.

Onu da deyək ki, bu milli hərəkat sovet dövründə də cəsarətlə irəlilədi, amma 30-cu illərdə bolşeviklərin və xüsusən Stalin-Beriya guruhunun həyata keçirdiyi qanlı terror aktlağı nəticəsində zəifləməyə başladı. Onu da unutmaq olmaz ki, türklərin bütün milli hərəkatlağı və ideyalağı həmişə ermənilərin ardıcıl həmlələrinə məruz qalmışdır.

3. Nəhayət, t. Türkiyədə yaranmışdır. Bu ideyanın tərəfdarlağı ondan çıxış edirlər ki, yuxağıda dediyimiz kimi, Avropa Türkiyəni hədəf seçmiş və onu parçalamağa hazırlaşırdı. Türk hakim dairələrinin Osmanlı imperiyasında yaşayan qeyri-türklər üçün, ən əvvəl isə xristianlar üçün güzəştlər tətbiq etməsi, 1839, 1856-cı illərdə Tənzimat adı altında Rəşid paşanın rəhbərliyilə həyata keçirilən Xətti Humayunun tətbiqi də elə bir nəticə vermədi, əksinə, ölkəni xaos və qağışıqlıq bürüdü, qeyri – türk xalqlağının iddialağı get-gedə artmağa başladı. Nəticədə isə türk dövlətinin mövcudluğu təhlükə altında qaldı. Türklər üçün də yaşamağa yer tapılan (Rostom) bu böyük məmləkətdə türkdən başqa hər bir kəs tezliklə söz sahibinə çevrildi. Onlağın fəaliyyəti isə sadə türk xalqının maraq və mənafelərilə diametral əskiklik təşkil edirdi. Bunu başa düşən türk ziyalılağı və burjuaziyası sultanın və hakim dairələrin bu zəifliyini və təslimçilik siyasətini pisləyərək Türkiyəni istiqlala apara biləcək bir yolu arayırdılar. Bu proses Türkiyədə 1876-cı ildə türk dilinin "qanuniəsasında" (yəni Konstitusiya) dövlət dili elan edilməsinədək davam etdi. Sultan Əbdül Həmidin türk dilini dövlət dili elan etməsi müsəlmanlağı qismən sakitləşdirdi. Buna baxmayaraq Türkiyənin parçalanmasının qarşısını almaq, onun inkişaf və tərəqqisini təmin etmək üçün

əsə yeni bir yolun tapılması lazım idi. Bu yol da Türkiyənin başçılığı altında dünya türklərinin yeni bir dövlətinin yaradılması ideyası idi. "gənc türklər" inqilabı bu yolda atılmış bir addım olsa da, Türkiyənin sosial-iqtisadi və hərbi geriliyi onlağın planlağını reallaşdıra bilmədi. Əksinə, Türkiyə parçalandı və yalnız onun xalqının və qəhrəman oğullağının başda Atatürk olmaqla əzmkar mübarizələrinin sayəsində xilas oldu. Türkiyədə t. yeni mərhələyə qədəm qoydu. M.K.Atatürk turançılığı zərərli və qorxulu bir ideologiya kimi pisləndi, mütərəqqi t.-dən yapışdı. T. dövlətçilikdən sonra ikinci prinsip elan olundu. Z.B.Göyalp "Türkçülüyün əsaslağı" kitabında t.-ün milli ideologiya planında oğuzçuluqdan və turançılıqdan daha önəmli olduğunu elan etdi.

Onu da qeyd edək ki, ümumiyyətlə türklərin yaratdıqlağı dövlətlər sözün həqiqi mənasında heç vaxt tam "milli" olmayıb. Türklər özlərinin yaratdıqlağı böyük imperiyalarda heç vaxt qeyri xalqlağı sıxışdırmamışlar. onlağı idarə etmədən uzaq saxlamamışlar. Məsələn, Böyük Səlcuq imperatorluğu illərində (Alp Arslanın və Məlikşahın dövründə) fars Nizamülmülkünün, yenə də fars Ömər Xəyyamın mövqeləri bunu sübut edir. Osmanlı imperatorluğunda yunanlağın, ermənilərin, slavyanlağın, ərəblərin sosial-iqtisadi vəziyyəti türklərinkindən qat-qat yüksəkdə idi. Bu hal tənzimatdan sonra daha da genişləndi. K.Marks və F.Engels bunu nəzərdə tutaraq yazırdılar ki, türkləri bu ölkədə hakim sinif adlandırmaq mümkün deyildir. Milli dövlətlə millətçi dövlət ayğı-ayğı şeylərdir. Milli dövlətlərdə azsaylı xalqlar bütün imtiyazlardan tam və sərbəst şəkildə istifadə edirlər. Millətçi dövlətlərdə isə (məsələn, Ermənistan) dövləti təşkil edən millətdən olmayanlar ciddi təqiblərə məruz qalır, onlağın dil və mədəniyyətləri təhqir edilir, özləri isə deportasiya olunurlar. Millətçi və şovinist Ermənistanda cərəyan edən sosial-siyasi proseslər buna misal ola bilər. Yekun vuraraq demək olar ki, t. tarixən heç vaxt mürtəce, şovinist xarakter daşımamış, bolşeviklərin iddia etdikləri kimi heç də feodal-bəy-xan ideologiyası

olmamışdır. Əslində o, sadə türkün dünyagörüşü kimi yaranıb, bütövlükdə bütün xalqa xidmət göstərmişdir. Z.B.Göyalpın dediyi kimi **t.** - türk millətini yüksəltmək deməkdir. **T.**-ün istər mədəni- mənəvi, istərsə də sosial-siyasi mahiyyəti onun digər xalqlara və mədəniyyətlərə qarşı olmadığını sübut edir. Türk mədəniyyəti tarixən və indi də bir sıra böyük mədəniyyət sistemlərinə daxil olmuş (xristian, islam, buddist) və onlağı daha da zənginləşdirmişdir. Bu qarşılıqlı əlaqədə türk mədəniyyətinin özü də liberal dəyərlərlə zənginləşmiş və nəticədə türklərin bugünkü möhtəşəm mədəniyyəti yaranmışdır.

Bu gün **t.** türk xalqlağı arasında rəsmi ideolgiya rolunu oynamaqdan daha çox mədəni-mənəvi inteqrasiya vasitəsi rolunu oynayır. O, bu xalqlarda milli şüurun oyanmasında, milli-mədəni təşkilatlağın təşəkkülündə, onlağın siyasi mədəniyyətlərinin tərəqqisində mühüm rol oynamışdır. Bugünkü **t.** öz yerini Türkiyədə – **t.**-yə, Azərbaycanda – azərbaycançılığa, Qazaxıstanda – qazaxçılığa, Qırğızıstanda – qırğızçılığa və s. təhvil verməkdədir. Türkçülük bu gün türk xalqlağı arasında türk regional qlobalçılığını, hər bir türk xalqının öz milli ideyası isə bu xalqlağın öz milli dövlət ideyasını ifadə edir. Türkçülük bu xalqlar üçün artıq millət üstü bir ideyaya çevrilmişdir. Türk xalqlağının qlobal siyasi proseslərə cəlb olunması istər **t.**-yə, istərsə də yerli milli ideyalara ciddi təsir göstərə bilər. Azərbaycanın ancaq özünə aid ola bilən və bugünkü elminəzəri ədəbiyyatda özünə "azərbaycançılıq" kimi vətəndaşlıq hüququ qazanan saf Azərbaycan milli ideyasına çevrilənədək o, uzun bir tarixi inkişaf yolu keçmişdir.

Azərbaycanlılağın milli idealı müstəqil, çiçəklənən, azad və xoşbəxt yaşayan bir cəmiyyət qurmaq ideyasıdır.

U

ULTİMATUM (lat. ultimus - sonuncu, axırıncı; son lat. ultimatum - sona çatdırma) - 1) siyasətdə: sanksiyalar tətbiq ediləcəyi ilə hədələmək də daxil olmaqla qəti tələb. 2) beynəlxalq hüquqda: bir dövlətin başqa dövlətə müəyyən şərtləri yerinə yetirmək barədə qəti tələbi. Diplomatik sənəd vasitəsilə, yaxud şifahi şəkildə bildirilir. U.-un yerinə yetirilməməsi həmin dövlətə qarşı müxtəlif təsir tədbirlərinin tətbiqinə səbəb ola bilər.

UNİYA (son lat. unio - birlik)-1) bir neçə dövlətin sıx ittifaqı. Dövlət hüququnda U.-nın iki növü fərqləndirilir: şəxsi U. və real U.. Şəxsi U.-da iki və ya daha çox monarxiya dövləti bir monarxın hakimiyyəti altında birləşirdi. Lakin U.-da birləşmiş dövlətlər özlərinin suverenliyini saxlayır, ümumi monarxın hakimiyyəti çox vaxt nominal xarakter daşıyırdı. Real U., müqavilə əsasında, (məs., 1814-1905 illərdə İsveç və Norveçin U.-sı), yaxud daha güclü dövlətin birtərəfli aktı nəticəsində (1918-44 illərdə Danimarka və İslandiyanın U.-sı) yarandı. Beynəlxalq münasibətlərdə real U. vahid dövlət kimi çıxış edirdi.

Dövlət quruluşunun ittifaq xarakteri ABŞ-ın, Böyük Britaniyanın dövlət hüququnda təsbit olunmuş və bu, həmin ölkələrin rəsmi adlarında da əksini tapmışdır. 2) oxşar dini təlimi olan iki və ya daha çox kilsənin dini icmalarının ixtisaslaşdırılmış daimi beynəlxalq təşkilatları.

UOL-STRİT (ing. all strut) - Nyu-Yorkda iri bankların, fond birjasının və sənaye inhisarları idarələrinin yerləşdiyi küçə. "U.S." adı ABŞ-ın əsl sahiblərinin-ən iri maliyyə-sənaye inhisar birliklərini bildirmək üçün işlədilir.

URBANİZASİYA (lat. urbanus şəhərlə bağlı olan, - şəhər)-cəmiyyətin inkişafında şəhərlərin rolunun artmasını göstərən tarixi proses; əhalinin sosial-peşə, demoqrafik strukturunu, həyat tərzini, mədəniyyəti, məhsuldar qüvvələrin yerləşdirilməsini, məskunlaşmasını və s. əhatə edir. U. müxtəlif sosial-iqtisadi formasiyaların və dövlətlərin inkişafına böyük təsir göstərir; sivilizasiyanın əsas nailiyyətlərini məhz şəhərlərlə

bağlayır (bax; **ŞƏHƏR**). Dünya şəhərlərində yaşayan əhalinin sayı XIX əsrin əvvəlində 29,3 mln., 1900-cü ildə 224, 4 mln., 1950-ci ildə 706,4mln., 1980-ci ildə 1809,4 mln., 1990-cı ildə 2403,1 mln. nəfər olmuşdur. U., şəhərlərin inkişafı, maddi və mənəvi fəaliyyətin müxtəlif forma və növlərinin təmərkəzləşməsi və inteqrasiyasının, ünsiyyətin obyektiv zəruriliyindən, elm və mədəniyyətin müxtəlif sahələri arasındakı əlaqələrin güclənməsindən irəli gəlir. Bunlar da öz növbəsində sosial proseslərin intensivliyini və effektivliyini artırır. Bu proseslər iri şəhərlərdə və şəhər mərkəzlərində daha effektli keçir. U.-nın müasir mərhələsində əhalinin iri şəhərlərdə təmərkəzləşməsinin artması meyli müşahidə olunur. Bu prosesdə "milyonzu" şəhərlərin çoxalması xüsusi yer tutur. 1990-cı ildə onların sayı dünyada 300-ə çatmışdır. əhalisi 10 mln.-a çatmış, yaxud onu keçmiş, şəhərlərin sayı da artmışdır. Tokio-İokaqama (21,1 mln.), Nyu-York (ətraf qəsəbələri ilə, 18,1), Mexiko (17,0), Şanxay (16,5), San-Paulu (13,5), Los-Anceles-Lonq-Biz (10,6), Buenes-Ayres (10,5), London (9,9), Paris (9,9), İstanbul Moskva (ətraf qəsəbələri ilə, 8,(9 mln.).

U. prosesinin iki tərəfi, yaxud "fazası" var. Birinci "faza"- da cəmiyyətin iqtisadi və mədəni potensialı iri şəhər mərkəzlərində təmərkəzləşir və yığılır; bu da maddi və mənəvi fəaliyyətin yüksək nailiyyətlərinin və nümunələrinin formalaşması üçün şərait yaradır. ikinci "faza"da bu nailiyyətlər digər qeyri-mərkəzi şəhərlər və kəndlər tərəfindən mənimsənilir və öz növbəsində onlarla baş mərkəzlərin potensialının effektivliyi cəmiyyətin sosial-iqtisadi təbiətindən asılıdır. İnkişaf edən ölkələrdə U.prosesi mühüm rol oynayır. O, bir tərəfdən müasir iqtisadiyyatın təşəkkül tapmasına, geriliyin və çoxukladlığın aradan qaldırılmasına, cəmiyyətin sosial-siyasi strukturunun inkişafına səbəb olur, digər tərəfdən-həddsiz "demoqrafik təzyiq" göstərməklə bağlı olan sosial-iqtisadi problemləri kəskinləşdirir. U.-nın müasir mərhələsində əhalinin təmərkəzləşməsi xarakteri dəyişmiş, onun "nüqtəli" forması aqlomerasiyalarla əvəz olunmuşdur. iri şəhərlərin ətrafında məskunlaşma yerləri sürətlə artır.

Ü

"ÜÇÜNCÜ DÜNYA"- əvvəllər müstəmləkə və yarımüstəmləkə olub sonralar siyasi müstəqillik qazanmış, dünya siyasətində xüsusi yer tutan dövlətlər. Bir çox illər ərzində bu ölkələr qrupu dünya siyasətinin mühüm müstəqil amili sayılmırdı. **"ü.d."** terminini elmi ədəbiyyata 50-ci illərin əvvəlində tanınmış fransız sosioloqu və demoqrafı Alfred Sovi daxil etmiş və həmin dövrün qarşıdurma siyasəti yeridən iki sosial-iqtisadi sistemə münasibətdə bu dövlətlərin xüsusi mövqeyini göstərmişdi. İnkişaf etməkdə olan ölkələrin inqilabi potensialına diqqəti cəlb edən və Latın Amerikasının, Asiya və Afrikanın dünya meydanında təsirini gücləndirməyin inqilabi metodlarına tərəfdar çıxan sol radikal ziyalılar bu termindən dərhal yapışdılar. Tədricən termin kütləvi informasiya vasitələrində geniş işlənməyə başlamış və BMT-nin siyasi lüğətinə daxil olmuşdur.

Keçmiş SSRİ-də bu termin 70-ci illərin əvvəllərindən işlənirdi.

"Ü.d." tarixi kateqoriyadır. iki sosial-iqtisadi sistem arasında mövcud olan cəbhələşmə şəraitində keçmiş müstəmləkələrin və yarımüstəmləkələrin dünya meydanına çıxması obyektiv surətdə dünya siyasətində öz yerini tapmaq məsələsini qarşıya qoymuşdu. Bir tərəfdən, gənc ölkələr sosialist yolu deyilən yola obyektiv və subyektiv səbəbdən qədəm qoya bilmədilər, digər tərəfdən, bu ölkələrin özlərinin inkişafının üstün istiqamətləri onları inkişaf etmiş kapitalist ölkələri ilə bir çox cəhətdən ayırırdı. Beləliklə, dünya siyasətinin cəbhələşmə modeli **"ü.d."**-nın formalaşmasının həlledici amillərindən biri oldu. Cəbhələşmədən imtina və əməkdaşlıra keçid şəraitində **"ü.d."**-nın xüsusi yeri qalır.

Bu qrupa daxil olan ölkələr iztimai-iqtisadi inkişaf baxımından nə qədər müxtəlif olsa da, onların bir sıra ümumi cəhətləri var və bunlar hamısı birlikdə "zəif inkişaf etmə" anlayışı ilə ifadə edilir. Bu anlayışa inkişafın həm kəmiyyət göstəri-

ciləri (adambaşına ümumi ictimai məhsul, milli gəlirdə sənaye və kənd təsərrüfatı istehsalının payı, savadsızlığın səviyyəsi və s.), həm də keyfiyyət göstəriciləri (ölkənin inkişaf tipini, beynəlxalq kapitalist əmək bölgüsündə ölkənin yerini xeyli dərəcədə müəyyən etmiş müstəmləkə istismarının üsulu, cəmiyyətin sosial-iqtisadi strukturu, sosial münasibətlərin müasir formalarına və müasir texnologiyaya həssaslıq dərəcəsi) daxildir.

İnkişafın zəifliyinin aradan qaldırılması uzun çəkən prosesdir və bütün **"ü.d."** üçün sinxron ola bilməz, yəni bu qəbilli dövlətlər tərəfindən eyni bir vaxtda aradan qaldırıla bilməz. Ölkələrin hər bir qrupunda zəif inkişafın özünəməxsus xarakteri var. İnkişafın zəifliyi probleminin həllindən kənarda heç bir qlobal problem həll edilə bilməz.

Müasir **"ü.d."**-da dərin qütbləşmə prosesi gedir. İnkişaf etməkdə olan ölkələrin az bir qismi müəyyən səbəblər özündən inkişaf göstəricilərinə görə bəzi inkişaf etmiş ölkələrə çatmış və hətta onları ötmüşdür (yeni sənaye ölkələri). Bununla yanaşı, inkişafda geri qalmış ölkələrin də sayı durmadan artır (məsələn, hələ on il əvvəl təkcə Afrikada 17 belə ölkə var idi, indi isə onların sayı 28-ə çatmışdır. Sosial-iqtisadi qütbləşmə **"ü.d."**-da yeni siyasi proseslər doğurmuşdur. Bunun təzahürlərindən biri yeni qüvvə mərkəzlərinin sürətlə formalaşmasıdır. **"ü.d."**-nın problemlərinin hərbi-qüvvə metodları getdikcə genişləndirilir.

"Ü.d."-nın başlıca beynəlxalq siyasi təsisatı bloklara qoşulmamaq hərəkatıdır. "77-lər qrupu", BMT-dəki bloklara qoşulmayan ölkələr qrupu, kontinental və regional təşkilatlar (Afrika Birliyi Təşkilatı, ASEAN və s.) bir sıra daha konkret məsələləri həll edir. "Ü.d." çərçivəsində beynəlxalq münasibətlərdə təşkilatlar (ərəb Dövlətləri Cəmiyyəti, İslam Konfransı Təşkilatı və s.) xüsusi yer tutur. "ü.d."-nın beynəlxalq siyasi təsisatları dünya siyasətində və "ü.d."-nın özündə baş verən dərin dəyişikliklərdən doğan ciddi çətinliklərlə qarşılaşır.

"ÜÇÜNCÜ REYX" ("üçüncü imperiya") - Hitler hakimiyyətə gəldikdən (1933) sonra nasistlərin faşist Almaniyasına verdikləri ad. Onlar X əsrdə yaranmış "alman millətinin Müqəddəs Roma imperiyası"nı "birinci reyx" hesab edirdilər. 1871-ci ildə Fransa üzərində qələbədən və Almaniyanın Prussiya militarizmi əsasında birləşdirilməsi başa çatdıqdan sonra yaradılmış alman dövlətini faşistlər "ikinci reyx" adlandırdılar. 1918-ci ildə Almaniyada noyabr inqilabının zərbələri altında "ikinci reyx" dağıldı. İkinci dünya müharibəsində alman faşizminin darmadağın edilməsi ilə **"ü.r."** öz ömrünü başa vurdu.

ÜMUMAVROPA EVİ - 80-ci illərin ortalarında Sovet İttifaqının irəli sürdüyü **ü.e.** *quruculuğu* ideyası. Onun əsasını Avropa qitəsinin parçalanmasını aradan qaldırmaq, siyasi cəbhələşmədən, hərbi qarşıdurmadan, iqtisadi uyuşmazlıq və ideoloji düşmənçilikdən regionun bütün dövlətlərini geniş əməli qarşılıqlı əlaqələr praktikasına keçmək təşkil edirdi. Nəticədə elə bir bütöv kompleksin formalaşması nəzərdə tutulur ki, onun üzvləri özlərinin milli özünəməxsusluğunu saxlamaqla qarşılıqlı əlaqə telləri ilə bir-birinə sıx bağlanırlar. **ü. e.**-nin qurulması bu prosesdə iştirak edən dövlətlərin silahsızlaşdırılması, demokratikləşməsi, humanistləşməsindən, onların arasında əməkdaşlığın hərtərəfli inkişafından vahid demokratiya, hüquq, iqtisadiyyat, ekologiya, elm, mədəniyyət məkanlarının yaranmasından keçərək həyat vəsiqəsi almalı idi. Keçmiş SSRİ-də belə hesab edirdilər ki, bu prosesin tam hüquqlu iştirakçıları Avropanın bütün dövlətləri, həmçinin ABŞ və Kanada ola bilərdilər.

Ü. e-nin yaradılmasında 1990-cı il Avropada təhlükəsizlik və əməkdaşlığa dair Müşavirə /ATƏM/ iştirakçılarının - dövlət və hökumət başçılarının Paris görüşü və qəbul edilən qərarlar mühüm mərhələ oldu: yeni Avropa üçün Paris xartiyası; Avropada adi silahlı qüvvələr haqqında Müqavilə; BMT və NATO üzvləri olan 22 dövlətin birgə Bəyənnaməsi; Avropada etimadın və təhlükəsizliyin möhkəmləndirilməsinin yeni əhəmiyyətli tədbirləri

haqqında sazişlər.

Almaniyaya münasibətdə qəti nizamasalma haqqında 1990-cı il sentyabrın 12-də Moskvada imzalanmış Müqaviləyə və 1990-cı il oktyabrın 3-də iki dövlətin yenidən birləşməsinə də Paris kontekstində baxmaq lazımdır.

Yeni Avropa üçün Paris xartiyası vahid demokratiya, hüquq, iqtisadiyyat, ekologiya məkanlarının formalaşmasında başlıca sənəddir. Bu sənəddə dövlətlər insan hüquqlarına və əsas azadlıqlara, iqtisadi sərbəstlik və sosial ədalət yolu ilə tərəqqiyə, hamı üçün bərabər təhlükəsizliyə əsaslanan prinsipləri vahid və hamı tərəfindən başa düşülən demokratik prinsiplər kimi elan etmişlər. Onlar öz üzərlərinə öhdəlik götürmüşlər ki, qanunun aliliyinə, **İNSAN HÜQUQLARINA** əsaslanan yeganə idarəetmə sistemi kimi nümayəndəli və plüarist xarakterə malik olan demokratiyanı inkişaf etdirsinlər. Azad və ədalətli seçkilərdə onun hüquqi və sosial bazasının gücləndirilib və möhkəmləndirilməsində vahid hüquqi əməkdaşlığın nizama salınması nəzərdə tutulur.

Yeni Avropa üçün Paris xartiyası iqtisadiyyat və ekologiyanın vahid məkanlarının yaradılmasına kömək edən öhdəliklər, xüsusilə, sabit iqtisadi yüksəliş, tərəqqi, sosial ədalət, məşğulluq və iqtisadi ehtiyatlardan səmərəli istifadə problemlərinin həlli istiqamətində bazar iqtisadiyyatının inkişafına münasibətdə öhdəlik qəbul etmişdir.

Ekologiyaya gəldikdə isə göstərmək olar ki, ətraf mühitin qorunması və yaxşılaşdırılması sahəsində ciddi öhdəliklər qəbul edilmiş, ətraf mühitin vəziyyəti və potensial ekoloji təhlükələr haqqında xəbərdarlıq edilməsinə və informasiya mübadiləsinə münasibətdə yeni öhdəliklər götürülməsinin zəruriliyi qeyd olunmuşdur.

Ü.e. ideyası Avropa qitəsində bütün dövlətlər üçün təhlükəsizliyin hərtərəfli möhkəmləndirilməsini nəzərdə tutur. Avropada adi silahlı qüvvələr haqqında Müqavilə və etimad, təhlükəsizliyin möhkəmləndirilməsinə dair yeni əhəmiyyətli tədbirlər haqqında razılaşmalar hərbi qarşıdurmanın azalması qənaətbəxş müdafiə prinsipinin reallaşması üçün real perspektiv

azmışdır. Ümumavropa təhlükəsizliyinin formalaşmasının mühüm amili BMT və NATO üzvləri olan dövlətlərin birgə Bəyannaməsi oldu. Bəyannamədə hər hansı dövlətin ərazi bütövlüyünə və siyasi istiqlaliyyətinə qarşı güc tətbiq edilməsi, qüvvə tətbiq etmək yolu ilə mövcud sərhədlərin dəyişdirilməsi üçün cəhdlərdən imtina edilməsi öhdəlik kimi təsbit olunmuşdur. Bəyannamə hərbi ittifaqların mövcud vəziyyətdə saxlanmasını təsbit etmək məqsədini qarşıya qoymur /Varşava Müqaviləsi Təşkilatının buraxılması buna sübutdur/ və yalnız Avropada təhlükəsizliyin vahid strukturunu yaratmaq səylərini əks etdirir. Bəyannaməyə imza atmış dövlətlərdən hər biri özünün və ATƏM (ATƏT) üzvü olan digər bütün dövlətlərin təhlükəsizliyinin qarşılıqlı əlaqədar olduğunu qəbul edərək qitədə sabitliyin və təhlükəsizliyin qorunmasına dair öhdəliklər qəbul etmişdir.

Ü.e. konsepsiyasının humanitar nöqteyi-nəzərləri də vardır. Onlar insanlarla, ideyalarla geniş mübadilənin nizama salınmasında, mədəni əlaqələrin genişləndirilməsində, insan hüquqları sahəsində əməkdaşlığın inkişafında öz ifadəsini tapmışdır. ATƏM-in üzvü olan dövlətlərin başçılarının 1989-cu il Vyana görüşündə bu sahədə əhəmiyyətli sazişlər əldə edilmişdir. Etibarlı nəzarət mexanizmi yaratmaq nəzərdə tutulur ki, onun köməyi ilə üzv dövlətlər insan meyarı ilə bağlı informasiya və fikir mübadiləsi əldə edə bilər; vətəndaşların insan hüquqları uğrunda mübarizə aparmaq, insan hüquqlarının müdafiəsi üçün fərdi və qrup halında fəaliyyət azadlığı hüququ tanınmış, dini azadlıqlara və s. dair müddəalar işlənib hazırlanmışdır.

Dövlətlər Vyana sazişlərinin hüquqi və siyasi müddəalarını öz qanunvericiliyi ilə təsbit etmək barədə təəhhüd götürmüşlər ki, bu da vahid ümumavropa hüquq məkanının yaradılması yolunda mühüm addımdır.

ÜMUMAVROPA TƏSİSATLARI - Avropada təhlükəsizlik və əməkdaşlığa dair Müşavirə /ATƏM; 1994-cü ilin dekabrından ATƏT/ iştirakçısı

olan dövlət və hökumət başçılarının 1990-cı ilin noyabrında ümumavropa görüşündə qəbul edilmiş Paris xartiyasında yeni Avropa üçün yaradılması nəzərdə tutulmuş orqanlar və mexanizmlər. Siyasi məsləhətləşmələrin üçpilləli mexanizmini yaratmaq nəzərdə tutulur: 1) dövlət və hökumət başçılarının görüşləri; 2) xarici işlər nazirləri Şurası; 3) yüksək vəzifəli şəxslər komitəsi.

Baş vermiş hadisələrə yekun vurulması, öhdəliklərin yerinə yetirilməsi və ATƏM prosesi çərçivəsində atılacaq sonrakı addımların nəzərdən keçirilməsi üçün dövlət və hökumət başçılarının görüşləri müntəzəm-iki ildə bir dəfə keçirilməlidir. Xarici İşlər Nazirləri Şurası /XİNŞ/ siyasi məsləhətləşmələr mexanizmində mərkəzi rol oynamalı, ATƏM-ə aid məsələlərə baxılması və müvafiq qərarlar qəbul edilməsi üçün ildə bir dəfədən gec olmayaraq öz iclaslarını keçirməlidir. Yüksək vəzifəli şəxslər Komitəsi XİNŞ-nin icraiyyə orqanıdır. Onun vəzifələrinə Şuranın iclaslarını hazırlamaq, onun qərarlarını yerinə yetirmək, həmçinin cari məsələlərin nəzərdən keçirilməsi və müvafiq qərarların (o cümlədən Şuraya tövsiyələr şəklində) qəbul edilməsi daxildir. Siyasi məsləhətləşmələr mexanizminə inzibati xidməti təmin etmək üçün Praqada katiblik təsis edilir.

Yüksək səviyyəli Paris görüşündə digər ü. t. yaradılması da nəzərdə tutulmuşdur: Vyanada - münaqişə situasiyalarının yaranması təhlükəsini azaltmaq işində XİNŞ-ə kömək göstərmək üçün münaqişələrin qarşısını almaq Mərkəzi, Varşavada-ATƏM-in üzvü olan dövlətlərdə seçkilər haqqında əlaqələrə və informasiya mübadiləsinə yardım üçün azad seçkilər üzrə büro, həmçinin bütün üzv dövlətlərinin parlament üzvlərinin daxil olduğu ATƏM-in Parlament Assambleyasının yaradılması nəzərdə tutulmuşdur.

ATƏM-in təsisatlanması prosesinin əməli olaraq reallaşması işi yüksək səviyyəli Paris görüşündən dərhal sonra başlanmışdır. XİNŞ-in ilk sessiyası 1991-ci ilin iyununda Berlində olmuşdur. Sessiyada fövqəladə situasiyalara münasibətdə məs-

ləhətləşmələr və birgə fəaliyyət mexanizmi bəyənilmişdir. Razılaşdırılmışdır ki, belə situasiyalarla bağlı şərait ATƏM üzvü olan ölkələrdən birində, onun Yekun aktının əsas prinsiplərinin pozulması, sülh, təhlükəsizlik və sabitlik üçün təhlükəli hadisələr nəticəsində yarana bilər. üzv ölkələrdən hər biri, fövqəladə situasiyanın həqiqətən mövcud olmasını hadisələrin baş verdiyi dövlətdən, yaxud dövlətlərdən zəruri izahatlar tələb edə bilər. izahatlar 48 saat ərzində təqdim edilməlidir. əgər sorğu təşəbbüsçüləri qane olmamışlarsa, yaxud situasiya dərinləşməkdə davam edirsə, bu halda onlar yüksək vəzifəli şəxslər komitəsinin fövqəladə iclasının çağırılmasını tələb edə bilərlər.

XİNŞ-nin Berlin sessiyasında münaqişələrin qarşısını almaq üzrə Vyana mərkəzini də təşkilatca möhkəmləndirmək qərara alındı. ATƏM-in üzvü olan hər bir dövlət onun sərəncamına dörd nəfərədək əməkdaş göndərməlidir.

ÜMUMBƏŞƏRİ MƏNAFELƏR VƏ DƏYƏRLƏR - cəmiyyətşünaslıq sistemində insan haqqında fəlsəfi təlim - fəlsəfi antropologiya, tarix fəlsəfəsi, etika nəzəriyyəsi üçün ümumi olan əsas anlayışlar qrupu; onların nəzəri cəhətdən işlənib hazırlanması və sistemləşdirilməsi hazırda fəlsəfə elminin xüsusi bölməsi - aksiologiya (dəyərlər haqqında elm) tərəfindən həyata keçirilir. **ü.m. və d.**-in bu və ya digər izahı biliyin ixtisaslandırılmış çoxlu sahələrin əsaslandırılmasının istiqamətini və xarakterini irəlicədən müəyyən edir: daxili siyasət sahəsindən xarici siyasət fəaliyyəti nəzəriyyəsinədək, iqtisadi fəaliyyət modellərindən psixoterapiyayadək, hüquqşünaslıqdan uşaq psixologiyasınadək və i.a.

Ü.m. və d. haqqında təsəvvürlərin tarixən formalaşması dünya dinlərinin mifologiyasında və onlarla bağlı mədəniyyətlərdə meydana gəlmişdir. Məsələn, əhdi-ətiqdə onlarla ehkamlar arasında qətllər, oğurluqlar, yalançı şahidliklər, ər-arvad xəyanətləri dini qaydada əsaslandırılmış qadağalar, valideynlərə ehtiramlı münasibət tələbi müəyyən edilmişdir. Bu ehkamlar formasına görə ümumbəşəri

olmuş, allahın seçdiyi xalqa müraciətlər kimi səslənmiş, yəni dini seçkili istiqamət kəsb etmişdir.

Ü.m. və d. sistemi inkişafının ən mühüm ilk şərtini Protaqor (e.o. V əsr) tərəfindən irəli sürülmüş antropo-sentrizm prinsipi təşkil etmişdir: insan bütün şəylərin meyarıdır. Qədim yunan cəmiyyətində insan azad vətəndaş sayılırdı: **ü.m. və d.** anlayışının şifahi elan edilməsinin və faktik tətbiqinin divergensiyası və uyğunsuzluğu öz başlanğıcını buradan götürdü.

ÜMUMİ RİFAH - siyasətin antik siyasi nəzəriyyədə (Aristotelin "Siyasət" əsərində) elan edilmiş məqsədlərindən biri. **ü.r.** fikri olduqca məzmunlu olub ədalət, bərabərlik, birlik ideyalarını əhatə edir, cəmiyyətin və hakimiyyətin daha əhəmiyyətli ümumi məqsədlər seçməsinin və onların ardınca getməsinin zəruriliyinin dərk olunmasını nəzərdə tuturdu. **ü.r.** ideyasına müxtəlif yönlü dini və dünyəvi siyasi mütəfəkkirlər müraciət etmişlər. XVII-XVIII əsrlərdə **VƏTƏNDAŞ CƏMİYYƏTİ** və **HÜQUQİ DÖVLƏTİN** layihələri hazırlananda və **ü.r.** şüarları ilə ilk burjua inqilabları baş verdikdə bu ideyaya dəfələrlə müraciət olundu, XIX əsrdə isə liberazlizm və demokratiya ideoloqlarının tədqiqatlarının əsas mövzusuna çevrildi. Bizim dövrdə **"ü.r."** anlayışından "həyat tərzi", "həyat keyfiyyəti", "həyat səviyyəsi", "həyat standartları" və i.a. anlayışları törəmişdir.

ÜNSİYYƏT, kommunikasiya (dildə) - fikrin, məlumatın dil vasitəsi ilə qarşılıqlı şəkildə verilməsi və qəbul edilməsi. **ü.**-də təbii dildən başqa süni dillərdən, him-cim, əl-hərəkət dili, işıq, bayraq, fit və s.-dən də istifadə olunur.

V

VANDALİZM (vandallar - Romaya və onun əyalətlərinə hücumları zamanı törətdikləri böyük dağıntılarla tanınan german tayfaları) - hərfi mənada, mədəni, tarixi abidələrin, digər maddi və mədəni sərvətlərin, əmlak sahiyyəli şəxsi və ya ictimai obyektlərin qəsdən dağıdılması və ya zədələnməsi. Təcavüz anlayışı ilə sıx əlaqədar olan **V.**-in özünəməxsus xüsusiyyətləri vardır. zorakılıq hərəkəti olub zərər vurmağa yönəldilmiş **V.** həmçinin yalnız maddi və mədəni sərvətlərə qəsd edilməsini nəzərdə tutur.

V.-in genezisi, onun növlərinin təsnifatı və bir sıra digər ünsürlərinin siyasi, sosial, hüquqi, psixoloji səciyyəsi təcavüzün xarakteristikasının oxşar ünsürlərinə uyğundur. Məs. **V.** təcavüzkar müharibələrin, dövlət və qeyri-dövlət strukturlarının sosial mənşə və statusla, etnik mənşə və dini etiqadla əlaqədar soyqırım, deportasiya və təqiblərlə bağlı hərəkətlərin mütləq "peykidir". Hitlerçilər həm öz ərazilərində ("muzeylərin təmizlənməsi", "sinaqoqların xarabalığa çevrilməsi" və i.a.), həm də işğal etdikləri ərazilərdə mədəni-tarixi sərvətləri kütləvi surətdə dağıtmış və qarət etmişlər. İkinci dünya müharibəsinin son günlərində Qərb müttəfiqlərinin hərbi zərurət olmadan Almaniyanın, Macarıstanın, Bolqarıstanın və i.a. mədəniyyət mərkəzlərini bombardman etmələri də tarixi abidələrin kütləvi surətdə dağıdılmasına, mədəni sərvətlərin, əmlakın məhvinə səbəb olmuşdur. Koreya və Vyetnamda hərbi münaqişələr zamanı Amerika, əfqanıstanda isə sovet aviasiyası eyni cür hərəkət etmişdir. 1988-ci ildən başlanan erməni-azərbaycanlı münaqişəsində erməni faşistləri həm indiki Ermənistan ərazisində, həm də Qarabağda çoxlu Azərbaycan mədəni-tarixi abidəsini dağıtmış, məhv etmiş və təhqirlərə məruz qoymuşlar. Stalin diktaturası illərində keçmiş SSRİ-də dini təyinatlı binaların kütləvi surətdə dağıdılması, qədim abidələrin uzurulması, kilsələrin və məscidlərin anbarlara çevrilməsi və i.a. **V.** kimi

qiymətləndirilməlidir.

Psixologiya nəzəriyyəsində həmin növlü dağıdıcı davranışın, müharibə. Ənənəvi mənəvi dəyərlərin gözdən düşməsi. milli və dini münaqişələrin inkişafı, inqilabi baxışların ehkamçılıqla tətbiq edilməsi nəticəsində düşmən obrazı, atributlarından biri kimi müəyyən mədəniyyət tipi, onun abidələri və digər nümunələrinin mənsubiyyəti və s. yinatı əsaslandırılır. Formalaşdığı zaman, sosial düşüncədə mənəvi atmosferin ümumi vəziyyəti və onun kəskin dəyişiklikləri ilə əlaqəsi əsaslı surətdə təsdiq edilir. Xarici tədqiqatçılar V.-in tamahkarlıq, fırıldaqçılıq, qisas və i.a. ilə bağlı növlərini də nəzərə çatdırmağı unutmurlar.

Lakin V.-in: a) formal liderlərin əmri ilə; b) qrupun, kütlənin və ya onların liderlərinin təzyiqi ilə; v) müəyyən məqsədə, əmlaka sahib olmaq, yaxud dini fanatizmin diktə etdiyi məqsədlərə nail olmaqla; c) şəxsiyyətin sərvət yönümləri sisteminin pozulması ilə bağlı məmnunluğu özünə məqsəd kimi; ç) frustasiya, stress vəziyyətində gərginliyi zəiflətmək cəhdi ilə həyata keçirilən növləri, əsaslandırılması səbəbləri müxtəlif olsa da, başlıca əsas növlər kimi nəzərə çatdırmağa perspektiv baxımından daha çox üstünlük verilir.

Məhz məqsədyönlü, sosial mənası dərk olunan hərəkətə, yaxud müvafiq əməllərə yol vermiş şəxsin dərk etdiyi və ya dərk etməli olduğu zorakılıq fəaliyyətini V. kimi qiymətləndirmək düzgün olar. Bununla belə, ekstremist fanatik-liderlərin əmrlərini düşünmədən yerinə yetirən və onların şüarlarına qoşularaq insan şəxsiyyətinin normal inkişafı üçün onun mənfi təzyiqə müqavimət göstərmək qabiliyyətini heçə endirən hərəkətlər də onun icraçılarına heç vəchlə haqq qazandırmır.

Müxtəlif maddi obyektlərin, o cümlədən tarixi keçmişə aid obyektlərin dağıdılıb zədələnməsi faktlarına siyasi və hüquqi qiymət verərkən yuxarıda deyilənləri nəzərə almaq vacibdir. Bununla belə, məs., yaş xüsusiyyətlərinə görə öz hərəkətlərinin sosial mənasını hələ dərk edə bilməyən uşaqların və yeniyetmələrin qüsurlu oyunları nəticəsində maddi obyektlərdə yol verilmiş zədələnmələrə V. kimi baxmaq olmaz. Bunu intensiv məcburiyyət şəraitində, özü və ya yaxın adamları üçün ağır nəticələr təhlükəsi altında, yəni başqa cür hərəkət etməyə əslində qətiyyən imkan olmadığı şəraitdə V. əməllərinin icraçılarına da tətbiq etmək lazımdır. Lakin belə vəziyyətlərin mövcud olması V. təşəbbüskarları və təşkilatçılarının məs'uliyyətini yalnız gücləndirir.

60-90-cı illərdə keçmiş SSRİ-də, indiki MDB ölkələri və xaricdə geniş yayılmış musiqi və idman fanatiklərinin azğınlığını "V." anlayışı tam şəkildə səciyyələndirir. Konsertin, yarışın gedişində və ya tədbir başa çatdıqdan sonra fanatik qrupların emosional ehtiras vəziyyətində binaları, qurğuları, nəqliyyat vasitələrini dağıtmaları və ya zədələmələri və i.a. şüurlu, məqsədyönlü şəkildə aparılır və V.-in ağır xuliqanlıq formalarında təzahür edirdi.

Ölkə və xarici cinayət statistikası müharibə qəhrəmanları və qurbanlarının abidələrinə hücumlar, qiymətli incəsənət əşyalarının tamam məhvinə səbəb ola biləcək şəraitdə oğurlanması halları da daxil olmaqla, V. ilə bağlı cinayətkarlıqların artdığını göstərir. Bu vəziyyət cəmiyyətdə ictimai ab-havaya mənfi təsir göstərir və şübhəsiz, mədəniyyətin maliyyələşdirilməsi sahəsində tədqiqatlar da daxil olmaqla, sosial-psixoloji və politoloji tədqiqatlar üçün də ciddi maraq doğurur.

VƏTƏNDAŞ CƏMİYYƏTİ - dövlətdən asılı olmayan, lakin onunla qarşılıqlı əlaqədə fəaliyyət göstərən, üzvləri arasında inkişaf etmiş iqtisadi, mədəni, hüquqi və siyasi münasibətlər bərqərar edən, dövlətlə birgə yüksək səviyyəli hüquqi münasibətlər yaradaraq vətəndaşlarının tam sosial, iqtisadi, siyasi, mədəni və əxlaqi status qazanmasına nail olan cəmiyyət, V.c.-nin gerçəkliyi, idealın, ideal layihənin həyata keçirilməsi nəticəsində real əldə edilmiş vəziyyətin nisbəti ilə müəyyən olunur. Bu, prinsipcə cəmiyyətin, hakimiyyətin, siyasətin və insanın, istisnasız olaraq həyatın, həm də azadlıq, bərabərlik, ədalət və s. sosial, siyasi, əxlaqi və mədəni dəyərlər əldə etməsi kimi bütün sahələrini əhatə edən sonsuz prosesdir. Daimi təkmilləşmənin sonsu-

zluğu, bu yolda hiss ediləcək nailiyyətlər qazanmış xalqlar üçün V.c.-nin yaranması prosesinə mühüm təsir göstərmişdir.

İlk əvvəl fəlsəfi konsepsiya kimi meydana gəlmiş və Qərbin azadlıq hərəkatlarının mərkəzi problemlərindən birinə çevrilmişdi. V.c.-nin yaranması cəmiyyətin mütərəqqi qüvvələrinin uzun sürən mübarizədə əldə etdiyi, bir sıra sosial inqilablarla əlamətdar olmuş məqsədyönlü ictimai dəyişikliklərinin nümunələrindən biri sayıla bilər. XIX-XX əsrlərdə inkişaf etmiş ölkələr üçün V.c.-nin yaradılması son nəticədə təsdiq edilmiş ictimai məqsəd oldu. 20 əsrin ikinci yarısında V.c.-nə doğru hərəkət ictimai fikrin yeni yüksəlişi ilə möhkəmləndirilən coşğun iqtisadi və elmi-texniki inkişafın tərkib hissəsinə çevrildi; ictimai inkişaf haqqında yeni iqtisadi, sosial və kulturoloji təlimlər - əhalinin tam məşğulluğunu, kollektiv və fərdi nemətlərin yaradılması və bölgüsünü və bir çox b.-nı nəzərdə tutan böhranlar əlehinə nəzəriyyələr yarandı, ictimai-siyasi fikrin insan üzərində cəmləşdirilməsinə diqqət artdı. Bu axında modernləşdirmə ideyaları (ilk əvvəl, bunlar zəif inkişaf etmiş ölkələrin istiqaməti kimi nəzərdə tutulmuşdu, sonradan dünyanın və insanın müasirləşdirilməsinin ümumi konsepsiyası oldu), yüksəliş (iqtisadi, sosial, mədəni), inkişaf konsepsiyaları meydana gəldi ki, bunlar da ictimai tərəqqi ideyasına bəraət qazandırır və yeni, inkişaf etməkdə olan cəmiyyətin bir sıra proqnozları (postindustrial, informasiya, texnotron və i.a.) verilir, həmçinin insan və cəmiyyət problemlərinin mərkəzi yer tutduğu qlobal proseslərin, ilk növbədə müharibə əleyhinə və ekologiya nəzəriyyələrinə mühüm diqqət yetirilirdi.

Tarixən V.c. ideyası Qədim Yunanıstanda və antik Romada vətəndaşlıq və vətəndaş haqqında təsəvvürlərin yarandığı, vətəndaşların məcmusu kimi cəmiyyət anlayışının meydana gəldiyi dövrün siyasi-hüquqi fikrinə, o cümlədən də Siseron yaradıcılığına aiddir. Latınca civis - vətəndaş anlayışından civitas - cəmiyyət anlayışı yaranmışdı. Hər iki anlayış şəhər və dövlət haqqında təsəvvürlə bağlı olub kənddən fərqli olaraq

o biri tərəfdə (siter), yəni şəhərdə nələr bas verdiyini, onların arasındakı mədəniyyət fərqlərini, civis - vətəndaş, civilis - vətəndaşlığın və mədəniyyəti (sivil) olan anlayışlarının qohumluğunu, bunların əsasında da sivilizasiya anlamının yarandığını bildirmək üçün işlədilirdi.

Qədim Romada vətəndaşın xüsusi hüquqları və vəzifələri haqqında təsəvvür çox inkişaf etmişdi: bu, şəxsən azad adam (yəni qul olmayan), Roma imperiyasının təbəəsi (yəni yadelli deyildi), Italiya yarımadasının sakini (əyalətlərdən, dəqiqi isə, müstəmləkələrdən olmayanlar) və i.a. demək idi. Romalının vətəndaş vəzifələri - orduda xidmət etməsi, xalq yığıncaqlarında, siyasətdə iştirakı və hüquqları (hətta imtiyazları; onu təhqiramiz sayılan çarmıxa çəkilməklə cəzalandırmaq olmazdı) müəyyən olunmuşdu.

Yalnız XVII əsrin ortalarında T.Hobbs (özünün - "Vətəndaş haqqında" (1642 il) və "Leviafan" (1651 il) əsərlərində V.c.-in yeni prinsipial konsepsiyasını şərh etdi. Bu əsərlərdə ölkədə sülh və qayda-qanun yarada bilmiş dövlətin hakimiyyəti ilə intizamlı vətəndaşların mədəni cəmiyyətinə keçiddən bəhs olunurdu; insanın özü də həlledici dəyişikliyə məruz qalır, təbəəlik əlaməti ("Roma vətəndaşları") ilə deyil, inkişaf etmiş, tam və fəal şəxsiyyət olduğuna görə vətəndaş sayılırdı. Onunla birlikdə özünə xas olan bütün münasibətləri ilə cəmiyyət də yenidən qurulurdu. V.c. bu, elə "fərdiyyətlərin ittifaqı", kollektivdir ki, onun bütün üzvləri yüksək bəşəri keyfiyyətlər əldə etmişlər. Sonralar V.c. konsepsiyasını bütün problemləri (azadlıq, hüquqlar, borclar, əxlaq, mülkiyyət və s.) ilə çox görkəmli mütəfəkkirlər - C.Lokk, J.J.Russo, I.Kant və b. işləyib hazırlamışdılar.

V.c. haqqında mürəkkəb siyasi, sosial və etik təlim onun inkişafı ideyasından, insanın qeyri-təkmil, sivildən qabaqkı vəziyyətdən sivilə, az inkişaf etmişdən çox inkişaf etmiş vəziyyətə keçməsi prosesindən ibarətdir. Yeni dövrdə belə keçid istibdaddan demokratiyaya, feodal mütləqiyyətindən respublika, yaxud konstitusiyalı monarxiya liberal rejimlərinə (ingiltərə, Danimarka, isveç və

s.) feodalizmdən burjua cəmiyyətinə doğru hərəkətdə, yeni tipli şəxsiyyətin cəmiyyət həyatının kollektiv əsasları ilə yeni münasibətlərinin formalaşmasında konkretləşir.

V.c.-nin başlanğıc ideyası insanların cəmiyyətdə təbiət qanunları üzrə birgə yaşayışından yaranmış kollektivçiliyin özünün dəyişdirilməsi və ümumi düşmənçilik, qeyri-məhdud azadlıq dünyasından çıxmış insanın bu cəmiyyətin vətəndaşı kimi inkişaf etməsidir. Belə sivilləşmiş və humanistləşmiş cəmiyyət yeni tipli vətəndaş şəxsiyyətini formalaşdırmağa qabil olur, həmin şəxsiyyət isə öz növbəsində yeni V.c. yaradır. Bu iki başlanğıcı (kollektiv və şəxsiyyət) formalaşdırmalı və əlaqələndirməli olan qüvvə kimi qəbul edilən dövlət hakimiyyəti özü də, həmçinin yeni müasir tipli hakimiyyətə çevrilir. Beləliklə, V.c.-ni üç başlanğıc formalaşdırır: kollektiv, fərd və hakimiyyət.

V.c. ideyasında fasiləsiz hərəkət nəzərdə tutulur: təkmilləşmə və insanın, cəmiyyətin və hakimiyyətin az inkişaf etmiş vəziyyətindən daha inkişaf etmiş və sivil vəziyyətinə keçid. Russo "Bərabərsizliyin mənşəyi və əsasları haqqında mühakimələr" (1755 il) əsərində bu inkişafın meyarlarını dürüst ifadə etmişdir: vətəndaşlığa, təbiiliyə (ağlabatanlığa) və sivilləşməyə doğru hərəkət daha çox inkişaf etmiş şəxsiyyətin, təkmil vətəndaş münasibətlərinin və səmərəli sivil (mədəni) hakimiyyətin formalaşması deməkdir. Bu hərəkətin gerçəkləşdirilməsi cəmiyyətlə dövlət arasında hakimiyyət barədə, onların qarşılıqlı hüquqları, azadlıqları və vəzifələri haqqında müqavilə ilə təmin edilir. V.c.-nin əmələ gəlməsi sivil proses kimi qarşılıqlı hüquqlar, azadlıqlar və vəzifələr haqqında müqavilə ilə təmin edilir. V.c.-nin əmələ gəlməsi sivil proses kimi qarşıda durur ki, burada eyni zamanda həm vətəndaş, həm cəmiyyət arasındakı münasibətlər sivilləşir. Bu prosesdə, deməli, həm onun məna və məqsədlərinə cavab verən siyasət formalaşır, həm də cəmiyyətdə yeni, daha çox tənzimlənmiş, az münaqişəli münasibətlər yaranır. Tarixi təcrübənin və onun təhqiqinin göstərdiyi kimi, belə inkişafın

şərti, - müvazinət, bərabər inkişaf, V.c.-nin bütün üç tərkib hissəsinin - insanın, cəmiyyətin və dövlətin hüquq, azadlıq və vəzifələrinin qarşılıqlı bərabərliyi, cəmiyyət halında birləşmiş şəxsiyyətcə fərdi insanların birgə yaşayışından əmələ gələn kollektivçilikdir. Tərkibindəki üç başlanğıcdan hər hansı birinin üstünlüyü V.c.-ni yox edir. əgər cəmiyyəti özünə tabe edən dövlət (Hegelin fərz etdiyi kimi), yaxud ictimai prosesin kollektiv başlanğıcı (sosializmin nəzəriyyə və praktikasına müvafiq olaraq), yaxud da antikollektivçi fərdiyyətçilik birincilik qazanarsa, o zaman vətəndaş münasibətləri yaranmır. Yaxud, əksinə vətəndaş münasibətlərinin bütün tərəfləri - insan, cəmiyyət və dövlət özlərinin bərabərliyi şəraitində formalaşıb bir yerdə yaşamağa alışaraq, bununla da daxili və xarici böhran və münaqişələri aradan qaldırmağa qadir olan möhkəm birlik yaradırlar. V.c. dövlətə qarşı birləşmir, çünki dövlətin özü onun tərkib hissəsidir. Onların arasındakı mümkün və real münaqişələr, eləcə də fərdlə münasibətləri, qorxu və hökmranlıq intizamı ilə deyil, hüquqi və siyasi vasitələrlə, dövlətin özünün yaratdığı qanunlara tabe olan hakimiyyətlə tənzimlənir.

Beləliklə, V.c.-nə gətirib çıxaran bir yolun üç tarixi və siyasi inkişaf istiqaməti vardır: siyasətin, vətəndaşlığın kollektivçi və fərdiyyətçi başlanğıclarının inkişafı. Təmizlik, düzgünlük, insaniyyət kimi xüsusiyyətlər V.c.-nin və hüquqi dövlətin universal və təməl dayaqlarıdır. Bunlar cəmiyyəti həqiqətən həmcins edir, insanı isə, heç olmasa özünə bərabər olanlarla münasibətlərində pislik və zorakılıqdan uzaqlaşdırır.

Vətəndaş münasibətlərinin inkişafı perspektivində fərdin və hakimiyyətin qeyri-bərabərliyi insan aləmini qəsdlərdən qorumaq, onlardan vətəndaşlıq borcunu yerinə yetirmək və yalnız ümumi sülhün və rifahın mənafeyi naminə zorakılıq tətbiq etmək təşəhhüdünə, hüquq və qabiliyyətinə çevrilir.

V.c.-ndə assosiativ həyat (onun ümumi mühiti), əqidəsinə və digər əlamətlərinə görə fərqlənən kütləvi hərəkatlar, partiyalar, qruplaşmalar sərbəst inkişaf edir, dövlət hakimiyyə-

tinin bir hissəsinin özünüidarəyə verilməsi hesabına desentralizasiyasına nail olmaq üçün səy göstərilir, çoxluğun və azlığın qarşılıqlı fəaliyyəti münaqişəsiz əsasda, mövqelərin imkan daxilində razılaşdırılması yolu ilə həyata keçirilir.

V.c. birbaşa, onun özünün vətəndaşlıq keyfiyyətlərinin möhkəmliyindən asılı olmayaraq yeni birlik yaratmağa və onu maddiləşdirməyə qadir şəxsiyyətin etik fəaliyyəti və tipi vasitəsilə genetik və funksional əsasda cəmiyyətin maddi həyatı, texnikası, istehsalı və bilik səviyyəsi ilə bağlı olur.

İnsan və cəmiyyəti formalaşdıran kollektivçilik funksiyası **V.c.**-də boğulmur, əksinə, inkişaf imkanı qazanır. **V.c.**-nda əmələ gələn yeni kollektivçilik tipi daha ənənə, rəvayət, mif, qeyri-iradi "kollektivin şüursuz" niyyəti, xurafatla (milli, ideoloji, sinfi, siyasi) deyil, ümumi mədəniyyətə mənsub olmaqla, milli və vətəndaş birliyini dərk etməklə formalaşır.

V.c.-nin şəxsiyyəti quruculuğa, vətəndaş münasibətləri və yeni mənəviyyata yönümlənmiş yeni insan tipidir. Şəxsiyyəti kütlədən fərqləndirməyin yeni əsasları - qəyyumluqdan azad olmuş öz qüvvəsinə arxalanmaqla yarışmağa qadir və bunu arzu edən insanın müstəqilliyidir, deməli, özünə bərabər saydığı və saymadığı insanlar birliyində belə insanda yeni, asılı olmayan və əməli münasibət, vətəndaş kollektivçiliyi münasibəti formalaşmış olur. Bu inkişafın şərti və nəticəsi bu olur ki, cəmiyyət getdikcə daha artıq tam şəkildə vətəndaş bütövlüyünə, dövlət isə hüquqi və siyasi birliyə çevrilir.

Hobbsdan başlamış Hegel və Marksa qədər çoxyüçillik müzakirəyə səbəb olmuş problem **V.c.**-nin və dövlətin (Hegelin tə`birincə "siyasi dövlət"), daha doğrusu, cəmiyyətin peşəkar siyasətlə məşğul olan və hakimiyyət üçün kadrlar hazırlayan hissəsinin - münasibəti məsələsidir. Bu münasibətlərə aşağıdakı müddəalarla xülasə vermək olar: hakimiyyət strukturuna və sosial həyata səmərəli təsiri təmin edən bütöv siyasi, ideoloji, mədəni, etik mexanizm mahiyyətcə demokratizm anlayışının məzmununu təşkil edir.

Müasir şəraitdə **V.c.** anlayışına tətbiq edilə bilən proqram fəaliyyətinin formalaşması üçün xüsusilə zəruri olan aşağıdakı tərəfləri fərqləndirmək olar:

V.c. - bu, prinsipcə siyasi strukturlardan kənarda təşəkkül tapan, lakin **V.c.**-nin hissəsini təşkil etdiklərinə və vətəndaşlar tərəfindən yarandığına görə onları da əhatə edən sosial-mütəşəkkil strukturdur. Siyasi strukturların təşkilinin demokratik qanunzuluq, hakimiyyətin bölüşdürülməsi, leqal müxalifətin mövcudluğu, siyasi partiyaların çoxluğu və i.a. kimi ünsürləri öz-özlüyündə hələ **V.c.**-nin bilavasitə strukturuna daxil deyildir, lakin onun təsiri ilə törəmişlər və bu təsirin az və ya çox dərəcədə cəmiyyətin siyasi təşkilinin möhkəmlənməsinin əhəmiyyətli formalarıdır. Onların sosial rolu vətəndaş həyatı dəyərlərinin, adamların siyasi və sosial azadlığının və assosiasiyalarda, qruplarda, partiyalarda birləşməsinin gerçəkləşdirilməsindən ibarətdir.

V.c. hüquqi qaydada qanunlaşdirilmiş, strukturca təsbit olunmuş və psixoloji cəhətdən təmin edilmiş hər cür plüralizmdən, o cümlədən sosial-siyasi fəaliyyətdən, onun maddi və ideya əsaslarından ayrılıqda mövcud ola bilməz. Bu mənada şəxsi həyat sahəsi siyasi hakimiyyətin hər hansı müdaxiləsindən kənarda qalmalıdır, əlbəttə bu, şəxsiyyətin özünün azad iradəsinin ifadəsidirsə, o zaman belə hala yol verilə bilər, lakin belə olduqda da şəxsiyyətin problemlərindən açıq fakt kimi qərəzlə istifadə olunmasına yol verilə bilməz. Bu tələbin ictimai həyat gerçəkliyində təcəssüm dərəcəsi **V.c.**-nin varlığının və onun səmərəliliyinin birinci göstəricisidir. Bu mənada məsələn, vətəndaş azadlığı təssüratı, onun əməli fəaliyyəti, daha dəqiqi isə, insan hüquqları təssüratı sosial-siyasi fəaliyyətin bütöv və məqsədli həyata keçirilməsində sosial məsuliyyət ölçüsüdür.

Hakimiyyət demokratizminin təşkili və fəaliyyətinin bütün tərkib hissələrindən **V.c.** üçün aşağıdakıların daha çox mühüm əhəmiyyəti var: a) onun legitimliyi, yəni hakimiyyət üçün mandatın xalqdan, öz iradəsini istər vətəndaş-hüquqi, istər siyasi, istərsə də sosio-psixoloji müna-

sibətdə həqiqətən sərbəst bildirə bilmiş seçicilərdən alınmasıdır; b) demokartiyanın ümumiliyi, dolğunluğu, yəni onun (demokartizmin) bütün hakimiyyət formalarında, o cümlədən və xüsusilə hakimiyyətin qanundan səmərəli asılılığı və qanuna tabe olması formalarında reallığı. Baxmayaraq ki, ilkin mənbədə həmin qanunları yaradanlar və onları öz iradələrilə həyata keçirənlər məhz siyasi hakimiyyət (hüquqi dövlət) strukturlarıdır. v) səmərəlilik, yəni hakimiyyətə gələnlər daxili psixoloji motivlərinə əsaslanaraq xalqdan aldıqları mandatdan nə dərəcədə həqiqətən adamların xeyrinə istifadə edirlər, yəni seçilənlərin imtiyazları formalarında deyil, hər bir kəs üçün öz həyat aləmini qurub yaratmağın sosial təminatı formalarında onların həyat problemlərini həll edirlər.

V.c. quruculuğunda müasir şəraitdə vətəndaşların şəxsi təhlükəsizlik zonasının (insanın və vətəndaşın hüquqlarının gözlənilməsi, hakimiyyətin sosial məsuliyyətli və nəzarət altında olan fəailyyəti, onun hərəkət tərzinin səbəblərinin başlıca prinsipləri və i.a.) yaradılması ilə yanaşı şəxsiyyətin dövlətə və hüquqa zidd strukturlara münasibətdə sosial-iqtisadi təhlükəsizlik zonasının yaradılması da ön plana çəkilir. Səhiyyəyə, təhsilə, mədəniyyətə yol, həvəsi olduğu sahədə fəaliyyət göstərməyi seçə bilməyin minimal əsasları, məcburetmənin bütün formalarının qadağan edilməsi ilə bir vaxtda əmək məsrəflərinin sosial təminatlı konpensasiyası da təhlükəsizlik vasitələri sırasına daxil edilir.

V.c.-nin hakimiyyət strukturlarına və siyasətə təsirinin əsas meyli siyasi özgələşməni məhdudlaşdırmaq və qarşısını almaqdan ibarətdir. Bu meyl siyasi fəaliyyətin sosial problemlərin həlli texnologiyasına, hakimiyyət daşıyıcılarının isə **V.c.**-nin muzdlu işçilərinə çevrilməsi vasitəsilə gerçəkləşir. onların da siyasi və digər hakimiyyətinə icranın zəruriliyi və müvafiq sərişte, ustalıq, cəmiyyətin və insanın sərbəst inkişafına və nikbinliyinə aid problemlələri həll etmək məharəti hüdudları daxilində yol verilir.

VƏTƏNDAŞ HÜQUQ VƏ AZADLIQLARI - ölkə vətəndaşının konstitusiya-hüquqi statusunun əsası, cəmiyyətin siyasi, sosial və mədəni həyatında onun iştirakının mümkünlüyünü müəyyənləşdirir. Eyni zamanda, insanın əsas hüquq və azadlıqları dünya ictimaiyyəti və beynəlxalq təşkilatların, ilk növbədə BMT-nin nəzər diqqətindədir.

BMT BM 10 dekabr 1948-ci il tarixli insan hüquqları haqqında ümumi Bəyannaməni qəbul və elan etmişdir. Bütün xalqların və dövlətlərin bu Bəyannaməni "bir vəzifə kimi əməl etməyə can atmalı olduğunu nəzərdə tutan bu sənədin mahiyyəti ondan ibarətdir ki, hər bir insan, hər bir cəmiyyət üzvü bu sənədi əsas tutaraq, təhsil və maarifləndirmə yolu ilə insan hüquq və azadlıqlarına hörmət edilməsinə köməklik göstərsin, milli və beynəlxalq mütərəqqi tədbirlər vasitəsi ilə onların ümumilikdə və effektiv surətdə tanınmasını həm Təşkilat üzvləri ölkələrinin, həm də bu ölkələrin tabeçiliyində olan ərazilərin xalqları arasında həyata keçirilməsini təmin etsin".

Bəyannamənin elan etdiyi **v.h.** və **a.** azadlıq və bərabərlik, yaşamaq və şəxsi toxunulmazlıq, həmçinin küləlikdən, işgəncə və amansız davranışdan, şəxsi və ailə həyatına əsassız müdaxilə etməkdən azad olma, yerdəyişmə, fikir və din azadlığı və s; iqtisadi, sosial, mədəni, o cümlədən sosial təminat hüququ daxil olmaqla əmək, istirahət, normal həyat səviyyəsi, təhsil, cəmiyyətin mədəni həyatında iştirak; bütün hüquq və əsas azadlıqların tam həyata keçirilməsi şəraitində sosial və beynəlxalq qayda-qanuna olan hüququnu özündə cəmləşdirir.

BMT BM insan hüquqları haqqında ümumi Bəyannaməni inkişaf etdirmək zəminində 1966-cı il 16 dekabr tarixli, 1976-cı il yanvarın 3-dən qüvvəyə minən iqtisadi, sosial və mədəni hüquqlar haqda Beynəlxalq pakt, 1976-cı il martın 23-dən qüvvəyə minən vətəndaş və siyasi hüquqlar haqda Beynəlxalq pakt, eləcə də axırıncıya aid olan və həmin tarixdən qüvvəyə minən Fakultativ protokol qəbul etmişdir. Bunlar Bəyannamənin elan etdiyi hüquq və azadlıqları konkretləşdirir.

Ölkəmizin vətəndaşlarının əsas hüquq və azadlıqları 1991-

ci ildək SSRı Konstitusiyası, müttəfiq və muxtar respublikaların konstitusiyaları tərəfindən müəyyən olunmuşdu. Sovet ittifaqının bir dövlət kimi tam ləğv olunması ilə əlaqədar onun Konstitusiyası da öz qanuni gücünü itirmişdir. Halhazırda Respublikamızda 1995-ci il noyabrın 12-də ümumxalq Referendumunda qəbul edilmiş Konstitusiya qüvvədədir.

VƏTƏNDAŞ TƏŞƏBBÜSLƏRİ - Siyasi və iqtisadi sahələrdə hökumətin və inzibati aparatın vətəndaşları mənafelərini sıxışdıran qərarlarından müdafiə olunmaq və qarşılıqlı yardıma nail olmaq üçün onların özü-özünə yaranan təşkilatlarının məqsədləri və fəaliyyət müddətinə görə daha çox məhdudlaşdırılmış lokal forması. Mənzil təhsil və tərbiyə, nəqliyyat, şəhərin inkişafı, mədəniyyət, gənclər marginal qruplar, ekologiya problemləri ilə məşğul olan təşəbbüs qrupları, fəhlə dərnəkləri, mülki komitələr, vətəndaş aksiyaları və ilaxır ilə təmsil olunurlar. Şəxsi əlaqələrə tam könüllülüyə və iştirak sərbəstliyinə malikdirlər. Formal üzvlük, iyerarxiya təşkilatı, sosial, yaxud partiya əlamətinə görə qütbləşmə yoxdur. Tərkibcə müxtəlifdir, lakin əsasən orta təbəqələrin nümayəndələrindən ibarətdir. İstər qrupların, istərsə də onların dairəsinə cəlb edilən vətəndaşların sayı daim dəyişilir. Ayrı-ayrı ölkələrdə onların artımı müşahidə edilir. Məsələn, AFR-də 60-cı illərdən yaranmağa başlayan V.t. -nin sayı 90-cı illərdə bir neçə minə çatmışdır.

80-90-cı illərdə **V.t.** ayrı-ayrı təşəbbüslər və təcrid olunmuş qarşılıqlı yardım layihələrindən yaranan qapalılığı aradan qaldırmağa başlayır və öz mənafeləri dairəsində daha çox sayda problemləri daxil edir, qlobal uzaq məqsədləri nəzərdə tutan daha sabit təşkilatı və əlaqələndirmək fəaliyyətinə nail olmağa çalışırlar. **V.t.** hərəkatı ümumi, siyasi və ictimai alternativ tapmağa yönəlmişdir, qərb cəmiyyətinin siyasi mədəniyyətinin küklü surətdə dəyişdirərək onda yeni münaqişə xətti yaradır. (netnemarçılar - istismar olunanlar toqquşması-nı əvəz edir).

VƏTƏNDAŞLIQ - şəxsin siyasi və hüquqi cəhətdən müəyyən dövlətə mənsubiyyəti və bunun nəticəsində həmin dövlətin qanunvericiliyinin müəyyən etdiyi hüquq və vəzifələrin ona şamil edilməsi. Monarxiya idarə forması olan dövlətlərdə "təbəəlik" terminini işlədirlər. Bir qayda olaraq bütün dövlətlərin qanunvericiliyində **V.**-ın doğulma səbəbindən naturalizasiya, yaxud köksalma qaydasında baş verməsi nəzərdə tutulur. Doğulma səbəbindən **V.** müəyyən edildikdə iki prinsipdən istifadə olunur: - milli prinsip (qan hüququ adlanan prinsip) - uşağın **V.**-ı doğulduğu yerdən asılı olmayaraq valideynlərin **V.**-ından asılıdır və ərazi prinsipi (torpaq hüququ adlanan prinsip) - uşağın **V.**-ı doğulma yerindən asılı olur və valideynlərin **V.**-ı ilə bağlı deyil.

VƏTƏNDAŞLIQ BORCU - geniş mənada, hər hansı bir hüquqi və ya mənəvi təəhhüddən irəli gələn, müqavilə, qanun, ictimai fikir və ya insanın vicdanı ilə bağlı olan hər cür təəhhüd. Sən mənada, mənəvi borcdan da söhbət açıla bilər.

V.b. - daha dar mənada, fiziki şəxsin konkret bir dövlətin daxili qanunvericiliyi ilə konstitusiya, vətəndaşlıq haqqında qanun və s. hüquqi aktlarla müəyyən olunmuş hüquqi vəzifə borcu. Vətəndaşlıq hüququnun əldə edilməsi və itirilməsi qaydası dövlətin qanunvericiliyi və beynəlxalq müqavilələrlə tənzim olunur. Bununla belə, anadan olduqda vətəndaşlığın əldə edilməsi ilə onun sonradan əsaslandırılması (naturallaşmaq) qaydaları arasında fərq qoyulmuşdur. Praktikada bu iki prinsip müəyyən vacib şərtlərə riayət olunmaqla reallaşırlar.

"V.b." kateqoriyası həmişəlik, sakit, donmuş bir məvhum deyil. Dövlətin forması və dövlətçilik prinsiplərinin dəyişilməsi, labüdən bu mövhumun məzmununun və daxili qanunvericiliyinin dəyişməsinə gətirib çıxarır. Eyni zamanda, V.b. kateqoriyasının məzmunu ictimai baxışların formalaşması ilə sıx əlaqədə olub, çox vaxt dövlət qurumlarının inkişafını qabaqlayaraq bunlara inqilabiləşdirici təsir göstərirdi.

Tarixən **V.b.** anlayışının inkişafında bir neçə mərhələ və pillələri nəzərdən keçirmək olar. Məs., Qədim Cində **V.b.** haqqında konfutsiçi təsəvvür hökm

sürərək, "oğulluq" münasibəti kimi qiymətləndirilir, nəinki doğma ataya, həmçinin dövlət başçısına səmimiliklə, itaətlə münasibət göstərmək, ictimai həyatda və vəzifə iyerarxiyasında öz yerini dərk etmək üstünlük təşkil etmişdir. Qədim Yunanıstanda Sokrat V.b.-nu (qulları çıxmaq şərti ilə) ancaq azad vətəndaşlara şamil edilən - "bütün xalqa yararlı" bir məziyyət kimi müəyyənləşdirmiş, bu məvhuma xüsusilə "müdriklik" və "ədalətlilik" anlayışlarını da əlavə etmişdir. Orta əsrlərdə, maarifçilik dövrünün sonunda bütün ictimai və dövlət institutlarına şəxsiyyətin müstəqilliyi "azadlığı" və "fərdiçiliyi" haqda xüsusi, fərdi ideya formalaşmışdı. Bu ideyada **"V.b."** anlayışı mənəvi borc məvhumuna yaxınlaşır, lakin daha çox şüura deyil, dini etiqada əsaslanırdı. Nəhayət, 1789-94-cü illərin Böyük Fransa inqilabı gedişində "Yakobinçilərin şərhinə görə V.b. anlayışı ümumi tale və maraqlarla birləşən ümumi vəhdət kimi başa düşülən, xalq və millət qarşısında vətəndaşın məsuliyyət daşımaq ideyasına çevrilmişdi.

V.İ.Leninin - "ən ardıcıl burjua demokratları" adlandırdığı yakobinçilərin əqidə baxışları **V.b.**-nun müasir konsepsiyasına ciddi təsir göstərmiş, Qərbin demokratik dövlətlərinin qanunvericiliyində və dünya birliyinin mühüm sənədlərində öz əksini tapmışdır. Məs., insan hüquqlarının ümumi Bəyannaməsi təsdiq edir ki, hər bir insanın "öz şəxsiyyətinin azad və tam inkişafının yeganə mümkün olduğu" cəmiyyət qarşısında vəzifələri vardır. Həmin Bəyannamənin 29-cu maddəsində qeyd edilir ki, hər bir insan özünün azadlıq və hüquqlarını həyata keçirərkən ancaq demokratik cəmiyyətdə ictimai asayişin, ictimai rifahın, ədalətli əxlaqi tələblərin təmin olunması və başqa insanların azadlıq və hüquqlarının lazımınca tanınması məqsədi ilə qanunla nəzərdə tutulmuş məhdudiyyətlərə məruz qalmalıdır". BMT BM-nin qəbul etdiyi beynəlxalq paktlar (bax: **VƏTƏNDAŞ HÜQUQ VƏ AZADLIQLARI**) nəzərə alır ki, ayrılıqda hər bir insanın, başqa insanlar və aid olduğu kollektiv qarşısında vəzifələri vardır.

Ölkəmizin vətəndaşlarının konkret vəzifələrinin siyahıları keçmiş SSRı konstitusiyasında, müttəfiq və muxtar respublikaların konstitusiyalarında ifadə olunmuşdur.

Qeyd etmək lazımdır ki, keçmiş SSRı-də vətəndaşların sosial (sinfi) mənsubiyyəti və bundan irəli gələn müddəalar bütün siyasi kateqoriyalarda, o cümlədən V.b. kateqoriyasının şərhində də öz əksini tapırdı. Vətəndaş və siyasi hüquqların Beynəxalq paktında nəzərdə tutulur ki, bəzi hüquqların həyata keçirilməsi hətta dövlət tərəfindən rəsmən elan edilən fövqəladə vəziyyətlər zamanı belə dayandırıla və ya məhdud edilə bilməz, bir şərtlə ki, bu tədbirlər dövlətin başqa beynəlxalq hüquq təəhhüdləri ilə uzlaşır və heç bir vəchlə irqə, dərisinin rənginə, cinsə, dilə, dinə, sosial vəziyyətə əsaslanan ayrı seçkilik xarakteri daşımır.

Sosial mənşə, sosial vəziyyət, ictimai (sinfi) mənsubiyyət uzun müddət, ölkəmizin vətəndaşlarını müasir şəraitdə V.b. anlayışının məzmununun dərk olunması baxımından, dünya birliyinə daxil olmuş ölkələrin vətəndaşlarından ayırırdı. 1917-ci ilin oktyabrında Rusiyada proletariat diktaturası dövlətinin yaranması ilə **V.b.** proletariat beynəlmiləlçiliyi kimi bütün planet miqyasında və sovet vətəndaşlarının ölkə daxilində bu "hökmran" sinfin qarşısındakı məsuliyyəti kimi şərh edilirdi. SSRı-nin ümumxalq dövlətinə çevrilməsi ilə V.b. anlayışına baxışlarda sinfi meyl azalsa da, gərginlik bəzən çox yüksək pilləyə qalxaraq, xeyli müddət qalmaqda idi. Hal-hazırda demokratik hüquqi dövlət qurmağa meyl göstərən cəmiyyətimiz V.b. anlayışının dərk edilməsində, dünyada qəbul olunmuş standartlara yaxınlaşır. Bu mənada **"V.b."** anlayışı hansı ölkənin vətəndaşı olmasına baxmayaraq, ayrılıqda hər bir insanın bəşəriyyətin ümumi mütərəqqi, demokratik və sülh şəraitində inkişafı qarşısında bütün planetin qarşısındakı məsuliyyəti kimi başa düşülməlidir. Bu anlamda **V.b.** insanın və vətəndaşın öz mənəvi borcunu dərk etməsi məvhumu ilə yaxınlaşaraq onunla üzvi vəhdət təşkil edir.

VƏTƏNDAŞSIZLIQ

(apolitizm, apatridizm) - heç bir vətəndaşlığı olmayan şəxsin statusu. V. şəxsin bir dövlətin vətəndaşlığından çıxdıqda və ya vətəndaşlıqdan məhrum edildikdə, digər dövlətin isə vətəndaşlığına keçmədikdə meydana çıxır. Vətəndaşlığı olmayan şəxslər (bax; **APRATBDLƏR**) yaşadıqları dövlətin qanunlarına tabe olmağa borcludurlar və digər dövlətin, yaxud dövlətlərin onları müdafiə etməsini tələb etmək hüququna malik deyillər.

VƏTƏNPƏRVƏR, yurdsevər - öz həyatını Vətənin mənafeyinə tabe edən şəxsiyyət (bax; **VƏTƏNPƏRVƏRLİK**).

VƏTƏNPƏRVƏRLİK - Vətənə xidmət etməkdə hazırlığı və onu düşmənlərdən qorumağı ifadə edən emosional münasibət.

VOLYUNTARİZM (lat. voluntas - iradə, **"V."** terminini ilk dəfə alman filosofu F.Tünnis işlətmişdir) - Qərb fəlsəfi fikrində insan iradəsini varlığın ali prinsipi hesab edən cərəyan. Görkəmli nümayəndələri A.Sopenhaur, F.Nitsşe, A.Berqson, E.Hartman, M.Ştirner idi. İradi başlanğıcı təbiət və cəmiyyətin obyektiv qanunlarına qarşı qoyan V. insan iradəsinin xarici mühitdən asılılığını inkar edir. V. ifrat fərdiyyətçiliyi, nihilizmi ifadə edir və son nəticədə amoralizmə gətirib çıxarır.

"V." termini həmçinin tarixi prosesin obyektiv qanunları ilə hesablaşmayan və ayrı-ayrı siyasi xadimlərin subyektiv arzularını və özbaşına qərarlarını rəhbər tutan ictimai-siyasi praktikanı xarakterizə etmək üçün işlədilir.

Y

YAKOBİNCİLİK - geniş mənada - hakimiyyəti ələ almaq və əldə saxlamaq, inqilabi dəyişiklikləri davam etdirmək üçün bütün vasitələrdən (o cümlədən kütləvi terrordan) istifadə edən radikal inqilabi cərəyan. Terminin mənşəyi Parisdəki keçmiş müqəddəs Yakov monastırının binası ilə bağlıdır. Böyük Fransa inqilabının yakobinçi xadimlərinin (Marat, Danton, Robespyer) yetişdiyi siyasi klub öz iclaslarını həmin binada keçirirdi.

YENİ DÜNYA NİZAMI - ictimai inkişaf konsepsiyası; bəşər cəmiyyətinin sosial-iqtisadi inkişafının köklü dəyişdirilməsini, yəni beynəlxalq siyasi, iqtisadi və mədəni qarşılıqlı əlaqələrin elə qaydada yenidən təşkilini nəzərdə tutur ki, varlılar və yoxsullar iqtisadi cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər, müxtəlif sosial sistemli ölkələr arasında qarşılıqlı münasibətlərdə böhran, münaqişə, qarşıdurma vəziyyətlərini yox etməyə, yaxud yumşaltdırmağa yol azmış olsun, bəşəriyyəti fəlakətdən, ilk növbədə nüvə fəlakətindən xilas olmağa kömək etsin.

Ötən əsrin 70-ci illərində qərbin iqtisadi və ictimai-siyasi fikrinin müstəqil cərəyanı kimi formalaşmış yeni cəmiyyətin layihələşdirilməsi sosial fəlsəfənin, ictimai və siyasi fikrin liberal ənənəsini miras götürmüş yeni liberalizmin təkamülündə bütöv bir dövrü təşkil edir. Onun mərkəzi ideyası Aristotel dövründəki cəmiyyətin və siyasətin məqsədi kimi ümumi rifah ideyası olmuşdur. Bu ideyada tədricən cəmiyyətin və onun vətəndaşlarının rifahı, insan hüquqları və hüquqi dövlət, kollektiv və şəxsi təhlükəsizlik formaları haqqında (ərazinin suverenliyi, şəxsiyyətin toxunulmazlığı, iqtisadi və digər fəaliyyətə, mülkiyyətə təminat və i.a.) təsəvvürlər cəmlənmişdir. Ümumi rifah ideyasının başlıca qayəsi siyasətin ali ictimai məqsədi daim bütün mənalarda və hər şeydən əvvəl, maddi mənada, qismən (bizim günlərdə artıq tam ölçüdə) təbiətlə münasibətlərdə çiçəklənmə haqqında təsəvvürlər olmuşdur.

Yeni cəmiyyət və yeni dünya nəzəriyyələri bütövlükdə postindustrializmin aparıcı konsepsiyasını (inkişafın plüral səbəblənməsi və sosial-mədəni dəyişikliklərlə yeniləşmiş yüksək texniki cəmiyyətin yaranması)

inkişaf etdirirlər. Bu istiqamətin tərəfdarlarına liberal demokratik "Humanist" futurologiyanın nümayəndələri U.Vaqneri, F.Polanı, A.Uoskounu, sülhü qoruyan, insana firavanlıq, ədalət, ahəngdarlıq, "müxtəlif həyat tərzləri" və humanist əqidələr təmin edən müştərək humanizm cəmiyyətini - "yeni kosmopolit"i - "insanlar şəhərini" təntənə ilə elan etmiş Y.Bhaqvati, S.Mendelovits, R.Falk, C.Qaltunq, A.Mazrui və b. kimi **Y.d.n.**-nin görkəmli tədqiqatçılarını öz tərkibində birləşdirən dünya düzəni modellərini layihələşdirmə məktəbini aid etmək olar. Yeniləşməni ənənəvi olaraq "xristian qaydası", əxlaqi, ədalətli və "ümumi köməkdən faydalanan", cəmiyyət Bibliya universaliyaları nüqteyi-nəzərindən şərh edən xristian dünyasının kilsələrini yenidən yaratmaq cəhdi əslində elə buna bənzəyir.

Y.d.n.çərçivəsində onun ən mühüm tərkib hissələrindən biri iqtisadi münasibətlərin yenidən qurulması və yeni iqtisadi dünya nizamı yaratmaq problemidir. Qərbi Avropa və Amerika nəzəriyyələri nümayəndələrinin fikrincə, iqtisadi inkişafı sosial və siyasi amillər şərtləndirir. Bu nəzəriyyənin tərəfdarları inkişaf etməkdə olan ölkələri "asılı kapitalizm" adı altında kapitalist münasibətləri sisteminə qoşmağı nəzərdə tuturlar. İnkişaf etməkdə olan ölkələrin BMT tərəfindən təsdiq edilmiş tələblərindəki ümumi və başlıca müddəalar isə xalqlar arasındakı istismar və bərabərsizliyin kökünü kəsməkdən, tarixi səbəblərin təsiri ucbatından geri qalmış ölkələrə əlverişli şərait təmin etməkdən ibarətdir.

Y.d.n. nəzəriyyələrinin müəyyən mənada utopikliyini, yeni iqtisadi dünya qaydası yaradılması probleminə yanaşmaqda ideologiyaya meylli olduğunu qeyd etməklə yanaşı, eyni zamanda göstərilməlidir ki, cəmiyyətin humanist, demokratik əsasda dəyişdirilməsinin zəruriliyi ideyasının özünü də inkar etmək olmaz. Onun böyük məqsədləri, özünün inkişaf perspektivləri olmalıdır, öz növbəsində isə ictimai inkişaf insan, onun fəallığı üzərində diqqətini cəmləşdirməyə borcludur, onun rolunu inkişaf resursunu müncər etməməlidir. Müasir şəraitdə cəmiyyət inkişaf (iqtisadi, siyasi, sosial və s.) metodlarının təsirli sistemini işləyib hazırlamağa və onları idarə etməyə qadirdir. Son nəticədə dövlətin institutlu siyasi hakimiyyətinin səmərəliliyi inkişaf funksiyası və ümumi rifah məqsədlərinin əldə edilməsi ilə müəyyən olunur.

"YENİ SAĞLAR"- 60-70-ci

illərdə inkişaf etmiş Qərb ölkələrində ziyalıların, texnokratların və bəzi digər sosial imtiyazlı təbəqələrin yeni mühafizəkarlıq ideologiyasına əsaslanan hərəkatı.

YENİ SİYASİ TƏFƏKKÜR - Sov.İKP və SSRİ rəhbərliyinin 80-ci illərin ortalarından elan etdikləri daxili və xarici siyasətdə ümumbəşəri ideal və dəyərlərin üstünlükləri sistemi. 1991-ci ilin dekabrınadək bu sistemin daxili, qismən də xarici siyasətdə gerçəkləşdirilməsi qeyri ardıcıllığı və ziddiyyətliyi ilə fərqlənmişdir.

"YENİ SOLLAR"- 60-70-ci illərdə Qərb ölkələrinin əsasən tələbə gəcləri və ziyalıları arasında yayılmış hərəkat; müasiri olduğu sosial-siyasi quruluş formalarını kəskin tənqidə tutur və iqtisadi həyatı ifrat radikalizm (terrorzuluq da daxil olmaqla) və anarxizm mövqelərindən təşkil etməyə çağırırdılar.

"YENİDƏN İDEYALAŞDIRMA" NƏZƏRİYYƏSİ - XX əsrin 70-80-ci illərində Qərb ölkələrində yayılmış konsepsiya; daxili və xarici siyasətin həyata keçirilməsi zamanı ideoloji prinsiplərə və dəyərlərə əməl etməyin zəruri olduğunu əsaslandırırdı. Bax; həmçinin **YENİ MÜHAFİZƏKARLIQ.**

YENİDƏNQURMA - SOV.İKP və SSRİ rəhbərliyinin 1980-ci illərin ikinci yarısında elan edilmiş və 1991-ci ilin avqustunadək davam etmiş siyasəti, onun obyektiv məzmunu sovet iqtisadiyyatını, siyasətini, ideologiya və mədəniyyətini ümumbəşəri ideallar və dəyərlərə mövafiq şəklə gətirmək cəhdi idi; ardıcıllıqla həyata keçirilməmiş və ziddiyyətli cəhdlər nəticəsində SOV. İKP-nin iflası və SSRİ-nin dağılması üçün zəmin yaratmışdı.

YENİDƏN ÖZƏLLƏŞDİRMƏ - milliləşdirilmiş mülkiyyətin xüsusi adamlara qaytarılması.

YERLİÇİLİK - daha geniş (regional, ümumdövlət, ümumvətəndaş və s.) mənafelərin zərərinə olaraq bütünlüklə, yaxud əsasən məhəlli, yerli mənafelərin tə'min edilməsinə yönəldilmiş fəaliyyət.

ZOR İŞLƏTMƏMƏK FƏALİYYƏTİ - hakimiyyət orqanlarına itaətsizliyə istiqamətlənmiş siyasi fəallıq növü və münaqişəli situasiyaların həllində qarşılıqlı dözüm, əxlaq standartlarının bərqərar siması. **Z.i.f.**-nə geniş siyasi məqsədlərin müəyyən edilməsi, sosial və milli sülhü əsas tutmaq, mübahisələrin həllində arbitraj formaya üstünlük verilməsi, konkret siyasi problem-

lərin həllində əxlaqi ideallara əməl olunması, "münaqişəsiz" keçmişə istinad etmək, dini dəyərlərin tənzimləyici rolunun tanınması, özünü qurban verməyə (o cümlədən kollektiv surətdə) hazırlıq xasdır. Siyasi alət kimi **Z.i.f.**-nin Asiyada buddizm, daosizmdən başlayaraq uzun siyasi ənənəsi vardır. Avropada belə fəaliyyətlərin əhəmiyyəti xristianlığın ilk çarlarında meydana gəlmiş, qədim yunan və qədim Roma stoisizmində təzahür etmişdir. Məlumdur ki, xristianların Romadakı imperator kultuna stayiş etməkdən boyun qaçırmaları onlara qarşı zor işlətmək ünsürləri ilə müşayiət olunsa da, geniş siyasi əks-təsir doğururdu; onlar amansızcasına cəzalandıqlarına baxmayaraq, qalib gəlmişdilər. Orta əsrlərdə bir sıra monax ordenləri (xüsusilə də, indinin özündə belə sülhməramlı fəaliyyətlərin təşəbbüsçüləri kimi çıxış edən fransiskçilər), yeni dövrdə-pasifist təriqətləri (kvakerlər, mennonzular, Rusiyada-duxoborlar) zor işlətməmək praktikasını açıq etiraf edir və həyata keçirirdilər. XVIII əsrdə **Z.i.f.**(və dözümlülük) prinsipini bir sıra fəlsəfi əsərlərdə (Volter, Russo, Kant, Lokk), "əbədi sülh" haqqında müqavilələrdə ifadəsini tapdı. XIX əsrdə bu prinsipin əhəmiyyəti utopik sosialistlər, onların ardınca isə xristian sosialistlər tərəfindən əsaslandırıldı. Qüdrətli ideya cərəyanı kimi **Z.i.f.** prinsipi Rusiyada geniş əks-səda doğurmadı, L.Tolstoyun sosial fəlsəfəsində, "şərə müqavimət göstərməməli" müddəasında təzahürünü tapdı. Bu müddəanı tamamlayan özünütəkmilləşdirmə prinsipi Rusiyanın və Avropanın o dövrkü şəraitində əməli olaraq rədd edildi. Lakin onlar "satyaqraha" ilə əməkdaşlıq etməməyə və vətəndaş itaətsizliyinə çağırış formasında M.Qandinin siyasi fəaliyyətində öz təcəssümünü tapdı. **Z.i.f.**-nə istinad edən Qandi özü terror qurbanı olsa da, Hindistanın müstəmləkə asılılığından azad edilməsi uğrunda geniş sosial-siyasi hərəkatı təşkil edə bildi. O, **Z.i.f.** -ni ardıcıllıqla tətbiq etməklə yanaşı, həm də əvvəllər müstəmləkə idarə üsulunun arxalandığı səmərəli ünsürləri saxlamağa çağırırdı. Martin Lüter Kinq bu prinsipdən daxili (irqi) əsarətə qarşı mübarizədə istifadə etdi (o da siyasi terrorun qurbanı olmuşdur). Lakin istər

bu, istərsə də digər halda məlum oldu ki, **Z.i.f.** daxili və xarici siyasi qərarların qəbul edilməsində və həyata keçirilməsində sivilizasiya səviyyəsinin yüksəlməsinə yardım göstərir. Bunu təsdiq etmək üçün çoxlu əsas vardır. Martin Lüter Kinq Nobel mükafatına layiq görülməklə Yer kürəsinin müxtəlif nöqtələrində Rusiyada, Hindistanda və ABŞ-da təzahür edən və öz fəaliyyətinin xarakterinə görə bu statuslu şəxsiyyətlərin Nobel komitəsi tərəfindən müdafiə olunması həmin prinsipin əhəmiyyətini təsdiq etmişdir. **Z.i.f.** xəttinin yeridilməsi 60-cı illərdə Qərbdə gənclər hərəkatları, 70-ci illərdə müharibə əleyhinə, ekoloji, feminist hərəkatları, 80-ci illərdə gənc və yaşlı vətəndaşların geniş siyasi fəaliyyəti üçün xarakterikdir. Bu baxımdan da bəşəriyyətin böyük mütəfəkkirlərinin irəli sürdüyü ideyaların, gənclərin aşağıdan gələn siyasi fəallığı ilə qovuşması XX əsrdə bəşəriyyətin özləşdiyi və XXI əsrdə də qarşılaşacağı qlobal problemlərin həll edilməsi baxımından ümidverici amildir. Yeganə olmasa da **Z.i.f.** prinsipi müasir siyasətdə davakar millətçiliyin, siyasi terrorun, təcavüzün yayılması əleyhinə üstünlük təşkil edən amillərdəndir. XX əsrin sonlarında gerçək siyasi fəaliyyətlərdə onun konkretləşdirilməsi siyasi təfəkkür üçün xarakterik olan ümumbəşəri dəyərlərin üstünlüyünün mühüm təsdiqidir. Həm də bəşəriyyətin məhv olma təhlükəsi ərəfəsində belə təfəkkürün əsaslarının təsdiq olunması fərdin mənəvi özünü təkmilləşdirməsi səbəblərinə və cəmiyyətin həyatında əxlaqi qanunlara əməl olunmasının zəruriliyinin qəbul edilməsinə mühüm yer verən **Z.i.f.** siyasətinin imkanları üçün kifayət deyildir. Belə olduğu halda siyasətdə **Z.i.f.** prinsipi bəşəriyyətin yaşaması və inkişafı üçün təkcə aparıcı deyil, həm də yeganə prinsip olmalıdır.

ZOR İŞLƏTMƏMƏK SİYASƏTİ (siyasətdə zor işlətməmək) - ümumiyyətlə, hər hansı siyasi və sosial problemin həlli zamanı zorakılıqdan istifadə edilməməsinin zəruriliyini, məqsədəuyğunluğunu və haqlılığını qəbul edən, humanizm prinsiplərini və ümumbəşəri əxlaq və mənəviyyat tələblərini siyasi fəaliyyətin əsası sayan konsepsiya.

Zor işlətməmək ideyası Qədim Şərqin dini mərasimlərində meydana gəlmişdir. O,Hinduizmin, buddizmin və konfusiçiliyin ümümdünya baxışları sistemlərinin ayrılmaz hissəsini təşkil edirdi. Eyni zamanda qeyd etmək lazımdır ki, qədim Hind ənənələrində xristianlar və müsəlmanlarda olduğu kimi Allah və iblis qütbləşdirilməsi yox idi və ancaq təsdiq edilirdi ki, hər bir hadisəyə, şəraitdən asılı olaraq bu və ya başqa nisbətdə təzahür edən xeyir və şər xasdır. Zor işlətməmək prinsipi burada mahiyyətcə təbiətin hakimiyyətinə və insanın öz təbiətinə zidd getməmək, zərurətə şüurlu surətdə tabe olmaq, insanın azad olmaması ideyasını qəbul etmək mənasını kəsb edirdi.

Zor işlətməməyə belə baxış bütövlükdə buddizmin ümumi konsepsiyasına da xasdır. Lakin buddizm insan cəmiyyətinin inkişafına artıq xeyir və şərin sadəcə yanaşı yaşaması kimi deyil, onların bir-birini əvəz etməsi kimi baxırdı ki, bu zaman şər ünsürlərin tədricən toplanması və qat-qat güclənməsi labüd olaraq insanı xeyirxah işlər görməyin faydasını dərk etməyə, adam öldürməkdən çəkinməyə, valideynləri sevməyə, qocalara hürmətlə yanaşmağa, yaxşı işlər dalınca getməyə və i.a.yaxınlaşdırır. Beləliklə, buddizmdə xeyir anlayışı birmənalı deyildir, əzabkeşlik ünsürlərinin də müəyyən dinamikliyini nəzərdə tutur. O, bəşər cəmiyyətinin həyat təcrübəsinin nəticəsi və yekunudur. Siyasi sahədə buddizm konsepsiyası hakimiyyətin qanuniliyini şübhə altına alır, onun mənəviyyat qanunlarından cismən asılılığını təsdiq edir, mənəvi qanunları yozanların nəzarətinə verir.

Zor işlətməmək konsepsiyası iudaizmdə, qədim yunan ənənələrində, islamda və xristianlıqda da əksini tapmışdır. Həmin dinlərdə o, sosial ahəngdarlıq və dinc həyat idealı ilə bağlıdır. Lakin xristianlıq həmin ümumi prinsiplərlə məhdudlaşmır, üstəlik bütpərəstlik

ayinlərindən gələn iudaizmin fədakarlıq konsepsiyasını inkişaf etdirərək yaxın adamı üçün özünü qurbanvermə və sevgi konsepsiyasından ibarət zor işlətməməyə dair öz baxışını işləyib hazırlayır.

Xristianlığın dövlət dini dərəcəsinə yüksəlməsi mütləq pasifizm kimi zor işlətməmək prinsipindən geri çəkilməklə əlaqədar oldu. Avqustinin fikrincə, xristian öz yaxınına məhəbbət naminə pisliyə müqavimət göstərməmək andını poza və hətta silah işlətməklə onun köməyinə gələ bilər. Zor işlətməməyin bu cür şərhi əslində zorakılığa haqq qazandırırdı ki, bu da XI - XIX əsrlərin amansız və qanlı yürüşlərində təsdiq edildi. İslamda zor işlətmək prinsipləri seçkiyə əsaslanır. Yəni zor işlətməyə, qisas almağı yaxud kimsənin lazımi cəzasını verməyə icazə verilir. Lakin bununla bərabər, zor işlətməmək, başqa sözlə, bağışlamaq daha zəruri və fəzilətli əməl hesab olunur.

Zor işlətməmək ideyalarının təmizlənməsi və dirçəldilməsi qərb xristianlıq təlimini siyasətləşdirməyən mənfi təcrübəsini nəzərə alan protestantizm onları ilkin xristianlıq ehkamlarına sadəcə qayıtmağa deyil, həm də mənəviyyat, əməli davranış prinsipləri sahəsinə keçirməyə cəhd göstərirdi. Bu şəkildə orta əsr sektantçılıq hərəkatı kvakerlər hərəkatında daha yetkin formada təcəssümünü taparaq, yeni dövrün müxtəlif xristian cərəyanlarına mühüm təsir göstərirdi.

Ən yeni dövrdə Z.i.S. prinsipləri, şərə zorla müqavimət göstərməmək haqqında L.Tolstoyun və siyasi sahədə zor işlətməmək fəaliyyətinin prinsipləri haqqında M.Qandi təlimlərində özünün tam ifadəsini tapdı. L.Tolstoyun təsəvvüründə şər müəyyən mənada zəncirvari reaksiyadır: belə ki, meydana gəldiyi təqdirdə cavab hərəkətlərini əmələ gətirir, onlar hətta haqlı olsalar belə, bir qayda olaraq, ədalət çərçivəsinə sığışmır, yeni, həm də əvvəlkinə nisbətən daha böyük miqyasda şər törədirlər. Həm də bu beləcə sonsuzluğadək ümumi fəlakətə qədər davam edir. Ona görə də bu dağıdıcı prosesi dayandırmaq üçün yeganə vasitə törədilmiş pisliyə görə qisas almaqdan, o cümlədən özünümüdafiə hüququndan çəkinmək qətiyyətidir. Lakin başlıcası intiqamdan imtina etmək deyil, mənəviyyatca mükəmməl insanı hərəkətə gətirən fərəhli hiss - istisnasız olaraq bütün insanlara məhəbbət hissidir. Tolstoyun təlimində xristianlıq ideyaları özünəməxsus şəkildə şərq dinlərinin ənənəvi görüşləri ilə bir-birinə qarışmışdır.

Hər ikisini əlaqələndirmək M.Qandi üçün də səciyyəvidir; onun hind mədəniyyəti və dinində dərin kökləri olan zor işlətməmək ideyaları da, xristianlığın təsirinə məruz qalmışdır. Özünün, L.Tolstoy da daxil olmaqla bütün sələflərindən fərqli olaraq Qandi zor işlətməməyi siyasi proseslərə yalnız vasitəli təsiri olan sırf dini, yaxud mənəvi çərçivədən çıxarır və onu siyasətin sahəsinə keçirir. Qandiyə görə zor işlətməmək mübarizədən imtina deyil, mübarizə formalarından biridir və zorakılığa qarşı mübarizənin ən təsirli vasitədir. Qandi üçün şəxsi özünütəkmilləşdirmə kifayət deyil, onun məqsədi dünyanın təkmilləşdirilməsidir, onun məhəbbətlə və insana ən dərin hörmətlə dəyişdirilməsidir.

Qandi təliminin ən güclü tərəfi bu idi, lakin M.Qandi üçün mütəfəkkir, siyasətçi və insan kimi ziddiyyətlər düyünü də elə bundan başlanırdı. Siyasi sahədə onun zor işlətməmək universal etikası Hindistanın istiqlaliyyəti uğrunda, Britaniya hökmranlığına qarşı mübarizənin konkret siyasi məqsədlərini güdən zor işlətməmək fəaliyyətinin aşkar praqmatizmi ilə toqquşurdu. Siyasi xadim olduqdan sonra Qandi öz ideyalarından geri çəkilməyə, onun etik prinsiplərinə tərəfdar olmayan sosial və siyasi qüvvələrlə sazişə girməyə məcbur olmuşdur.

K.Marks, F.Engels, V.İ. Lenin zor işlətməmək haqqında L.Tolstoyun, M.Qandinin təlimlərini, digər pasifist konsepsiyaları nəinki kəskin tənqid atəşinə tutmuş, həm də məzlum kütlələri, onların fikrincə, yeganə düzgün yoldan-sosial ədalət uğrunda qətiyyətli inqilabi mübarizə yolundan döndərən sosial cəhətdən zərərli utopiyalar kimi pisləmişlər. Həmin sinfi mübarizə prinsiplərini Rusiyanın daxilində onların yenidənqurma və onu əhatə edən dünya ilə qarşılıqlı münasibətlər praktikasında bərqərar edən təliminin ardıcılları və ilk əvvəl İ.V.Stalin pasifizmi və zor işlətməmək prinsiplərini əslində qanundan kənar elan etdilər.

İndiki dövrdə Rusiya Federasiyasında zor işlətməmək konsepsiyasına münasibət dəyişir. RSFSR Ali Sovetinin 1991-ci il noyabrın 22-də qəbul etdiyi "İnsanın və vətəndaş hüquq və azadlıqları Bəyannaməsi haqqında" qərarında Rusiyada ilk dəfə olaraq əqidələri hərbi xidmət borcuna "zidd çıxan" vətəndaşlar xatırladılır və onlara bunun əvəzində alternativ mülki vəzifələr yerinə yetirmək hüququ verilir.

Bu barədə Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsinin 2-ci bəndində belə

deyilir: "Vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə zidd isə, qanunla müəyyən edilmiş hallarda həqiqi hərbi xidmətin alternativ hərbi xidmətlə əvəz olunmasına yol verilir".

Bununla belə, zor işlətməmək problemi öz-özlüyündə birmənalı olaraq qalmır. Bu konsepsiyada, heç şübhəsiz, sağlam toxum vardır ki, bu da az qala bəşəriyyətin bütün inkişafı boyu tərəqqipərvər ictimaiyyətin diqqətini özünə cəlb etmişdir. Lakin bu problemə həm də ziddiyyətlər - məhdudluq, müəyyən mənada müasir dünyanın mürəkkəb gerçəkliklərindən uzaq düşməkdə xasdır.

Bu gün zor işlətməməyin insanın təbiətindən irəli gəldiyini, yaxud dünyanın universal prinsipi olduğunu təsdiq etmək üçün əsaslar yoxdur. Lakin bunun əksini də təsdiq etmək bir o qədər əsassız görünür. Son illərin hadisələri göstərir ki, dövlətlərarası münasibətlərin daha da inkişafı, müxtəlif növ ideoloji yanlışlıqların onların üzərindən götürülməsi yeni dünya qaydası qurmağa və müasir qlobal problemlərin həlli üçün konkret proqramı işləyib hazırlamağa yollar azmışdır. Beynəlxalq münasibətlərin xarakter və strukturunun mürəkkəbləşməsi, dövlətlərin dünya nizamı əlaqələrinin genişlənməsi, bütöv bir sıra problemlərin qloballaşması, daimi növə təhlükəsinin müharibəni siyasət dairəsindən çıxarmaq stimuluna çevrilməsi kimi amillər həmin yolun xeyrinədir.

70-ci illərin birinci yarısında "77-lər qrupunun" təkliflərində ilk dəfə işlənmiş "dünya nizamı" termini bu gün siyasi və elmi lüğətə möhkəm daxil olmuşdur. O, dövlətlərin beynəlxalq sahədə zor işlətməməsinə və bərabər hüquqlu əməkdaşlığına söykənən qarşılıqlı münasibətlər sistemini bildirir. İnsanın dövlət, irq, sosial, dini və başqa mənsubiyyətindən asılı olmayaraq, onun hüquq və azadlıqlarının hər yerdə təsdiqi də bu sistemin ayrılmaz hissəsi ola bilər.

ZORAKILIQ - iqtisadi və siyasi hökmranlığa nail olmaq və ya onu əldə saxlamaq, müəyyən hüquq, yaxud imtiyazlar qazanmaq məqsədilə hər hansı sinfin (sosial qrupun) digər sinfə (sosial qrupa) qarşı müxtəlif məcburiyyət formaları tətbiq etməsi. əsas Z vasitələri dövlətin əlində cəmləşir.

ZORLA ÖZGƏLƏŞDİRMƏ - mülkiyyətin dövlət tərəfindən məcburi surətdə özgəninkiləşdirilməsi.

Yığılmağa verilmişdir: 20.1.2007
Çapa imzalanmışdır: 03.10. 2008
Şərti çap vərəqi: 104

Hesab-nəşr vərəqi:
Kağız formatı:60x84 1/16
Tiraj: 500

"Günəş" nəşriyyatında hazırlanmış diopozitivlər əsasında
çap olunmuşdur.

"Günəş" Müstəqil Uşaq və gənclər Ədəbiyyatı Nəşriyyatı
Lisenziya: seriya AB № 022032.A.032 30 mart 1999.
Əlaqə telefonları:
510 28 74
(050) 210 94 39